FAİQ ƏLƏKBƏRLİ

# AZƏRBAYCAN TÜRK FƏLSƏFİ VƏ İCTİMAİ FİKİR TARİXİ (XIX-XX ƏSRLƏR)

III HISSƏ

“Elm və təhsil”
BAKI-2021

**Bu kitab, II Qarabağ Vətən müharibəsində Azərbaycanın bütövlüyü və birliyi uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirələrinə ithaf olunur!**

**Elmi redaktor:** **Zeynəddin Şabanov**
*dosent, fəlsəfə üzrə fəlsəfə doktoru*

**Rəyçilər:** **Əlikram Tağıyev**
*professor, fəlsəfə üzrə elmlər doktoru*

**Müstəqil Ağayev**
*dosent, fəlsəfə üzrə fəlsəfə doktoru*
*Qabaqcıl Maarif Xadimi*

**Faiq Ələkbərli. Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi (XIX-XX əsrlər). III hissə.**
**Bakı, "Elm və təhsil", 2021, 684 səh.**

AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun aparıcı elmi işçisi, dosent, fəlsəfə üzrə fəlsəfə doktoru Faiq Ələkbərlinin (Qəzənfəroğlu) "Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi (XIX-XX əsrlər)" adlı monoqrafiyasının üçüncü hissəsində XX əsr Güney Azərbaycan Türk fəlsəfi fikrinin inkişaf yollarından və bu fəlsəfi fikrin tanınmış Azərbaycan Türk mütəfəkkirlərinin dünyagörüşlərindən bəhs olunur. Müəllif burada Güney Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixinin inkişaf yollarını üç istiqamətdə təhlil etmişdir: 1) Milli-demokratik və siyasi-fəlsəfi ideyaların sintezi (Ş.M.Xiyabani, S.C.Pişəvəri, Məhəmməd Biriya, Firudin İbrahimi, Tağı Ərani, Tağıxan Rüfət, Əlirza Nabdil və başqaları); 2) Milli maarifçilik və ictimai-fəlsəfi ideyalar (M.Ə.Şəbüstəri, M. Tərbiyət, M.Şəhriyar, Səhənd, H.Billuri, Həbib Sahir, Həmid Nitqi, Əli Təbrizli, M.Zehtabi, Cavad Heyət və başqaları); 3) İslam fəlsəfəsi və islamçılıq (Əbülqasim əl-Xoyi, M.Təbatəbai, M. Şəriətmədari, M.Cəfəri, Cəfər Sübhani və başqaları).

Kitab Azərbaycan Türk fəlsəfəsi, mədəniyyəti, ədəbiyyatı və tarixi ilə maraqlananlar, eləcə də Azərbaycan Türk fəlsəfəsinin ÜmumTürk fəlsəfəsində yerini araşdıranlar və geniş oxucu kütləsinin faydalanması üçün nəzərdə tutulmuşdur.

**ISBN: 978-9952-81-76-0-7**

**© Faiq Ələkbərli, 2021**

# İÇİNDƏKİLƏR

**Ön söz**……………………………………………………………………5

**I FƏSİL XX əsrdə Güney Azərbaycanda ictimai-siyasi və mədəni mühit (icmal)**
1.1. XX əsrin əvvəllərində (1901-1925) Qacarlar dövlətində və Güney Azərbaycanda ictimai-siyasi və mədəni mühit........20
1.2. 1925-1978-ci illərdə İran Pəhləvilər rejimində və Güney Azərbaycanda ictimai-siyasi və mədəni mühit..................102
1.3. 1979-2020-ci illərdə İran İslam rejimində və Güney Azərbaycanda ictimai-siyasi və mədəni mühit..........................135

**II FƏSİL Güney Azərbaycan Türk mütəfəkkirlərinin fəlsəfi və ictimai-siyasi fikrinin inkişaf yolları**
2.1. Milli-demokratik və siyasi-fəlsəfi ideyalar (ümumi baxış və əsas təmsilçiləri)................................................................197
**Şeyx Məhəmməd Xiyabani............................................250**
**Mirzə Tağıxan Rəfət......................................................281**
**Seyid Cəfər Pişəvəri.......................................................292**
**Tağı Ərani.......................................................................323**
**Məhəmməd Biriya..........................................................333**
**Əlirza Nabdil Oxtay.......................................................348**

2.2. Milli maarifçilik və ictimai-fəlsəfi ideyalar (ümumi baxış və əsas təmsilçiləri)................................................................368
**Mirzə Əli Möcüz Şəbüstəri............................................418**
**Məhəmmədəli Tərbiyət...................................................440**
**Səhənd..............................................................................450**
**Həbib Sahir.......................................................................479**
**Məhəmmədhüseyn Şəhriyar...........................................488**
**Həmid Nitqi (Aytan).......................................................504**

**Əli Təbrizli ......................................................................517**
**Məhəmmədtağı Zehtabi..................................................528**
**Cavad Heyət....................................................................540**
**Qulamrza Səbri Təbrizi...................................................570**

**2.3.** İslam fəlsəfəsi və islamçılıq (ümumi baxış və əsas təmsilçiləri)..........................................................................586
**Əbülqasim əl-Xoyi..........................................................600**
**Məhəmmədhüseyn Təbatəbai.........................................609**
**Məhəmmədkazım Şəriətmədari.......................................628**
**Məhəmmədtağı Cəfəri....................................................640**
**Cəfər Sübhani..................................................................661**

**Nəticə................................................................................677**

## ÖN SÖZ

Bu günə qədər XIX-XX əsrlər Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi nəinki bütövlükdə, heç ayrı ayrılıqda da konseptual şəkildə araşdırmalara cəlb olunmamışdır. Yalnız akademik Heydər Hüseynov XIX əsrdə Azərbaycanın quzeyində Türk fəlsəfi və ictimai fikir tarixinə aid əsər yazmışdır ki, o da, bu kitabında həmin dövrün ictimai-siyasi və fəlsəfi yönlərini, mütəfəkkirlərimizin irsini Sovet ideologiyasına uyğun olaraq qələmə almışdır.[1] Ancaq bütün hallarda əməkdar elm xadimi, f.e.d. Zümrüd Quluzadənin də qeyd etdiyi kimi, Azərbaycan fəlsəfə tarixinin bir elm kimi əsasını qoyan, həmin sahədə elmi tədqiqatların təşkili prosesində mühüm rol oynayan akademik H.Hüseynov olmuşdur.[2]

Azərbaycan Türk fəlsəfə tarixinin yazılması ilə bağlı onu da qeyd etməliyik ki, H.Hüseynova qədər Firudin bəy Köçərli qədim dövrlərdən XIX əsrdə daxil olmaqla Azərbaycan Türk fəlsəfi və ictimai fikir tariximizlə bağlı xeyli dərəcədə bağlı olan "Azərbaycan türklərinin ədəbiyyatı" (1903-1907) əsərini yazmışdır. Sadəcə, onun bu əsəri fəlsəfi və ictimai fikir tarixi ilə birbaşa bağlı olmamışdır.[3] A.A.Bakıxanovun "Gülüstani-İrəm" adlı tarixi əsərində də müəyyən qədər Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixindən bəhs olunmuşdur.[4] M.Ə.Tərbiyətin "Danişməndani-Azərbaycan" əsərində isə ən qədim dövrlərdən XX əsrin əvvəllərinədək yaşamış Azərbaycan Türk mütəfəkkirlərindən qısa şəkildə də olsa, bəhs edilmişdir.[5] Biz, "Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi. XIX-XX əsrlər" adlı kitabımızın 2-ci cildində bununla bağlı bu və ya digər məsələlərə ətraflı şəkildə aydınlıq gətirməyə çalışmışıq.[6]

Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi ilə bağlı əsasən qədim dövrlərdən XIX əsrə, qismən də XIX-XX əsrlərə aid Heydər

---

[1] Hüseynov H.Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən.Bakı,Şərq-Qərb, 2007
[2] Azərbaycan fəlsəfə tarixi. I cild. Bakı: "Elm" nəşriyyatı, 2014, s.7
[3] Köçərli F.b. Azərbaycan türklərinin ədəbiyyatı. 2 cilddə. Bakı, Avrasiya-Press, 2005
[4] Bakıxanov A.A. Gülüstani-İrəm. Bakı, Möminin, 2001
[5] Tərbiyət Məhəmmədəli. Danişməndani-Azərbaycan. Bakı, Elm, 1987
[6] Ələkbərli Faiq. Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi (XIX-XX əsrlər) . II hissə. Bakı, Elm və təhsil, 2020, s.346-348

Hüseynovdan sonra Ş.Y.İsmayılov, Zakir Məmmədov, Firudin Qasım oğlu Köçərli, Mehbalı Qasımov, Midhət Ağamirov, Ziyəddin Göyüşov, Ənvər Əhmədov, A.O.Makovelski, Ağayar Şükürov, Ə.Ə.Əminzadə, [7] A.K.Zəkuyev, S.Rzaquluzadə, Z.Ə.Quluzadə [8], Ş.F.Məmmədov, Ş.Mirzəyeva, Müstəqil Ağayev, Rafail Əhmədli, Arzu Hacıyeva və başqaları da bir çox əsərlər yazmışlar. Onların arasında Zakir Məmmədov ən qədim dövrlərdən XX əsrə qədərki dövrü əhatə edən "Azərbaycan fəlsəfəsi tarixi" əsərini yazmışdır.[9] Z.Göyüşov isə Azərbaycandakı fəlsəfi və ictimai fikir tarixinin müəyyən bir dövrünü (1920-1970) "Sovet Azərbaycanında fəlsəfi fikir" adı altında qələmə almışdır.[10] Burada 1966-cı ildə nəşr olunan Azərbaycan fəlsəfəsi tarixinin qədim zamanlardan XVIII əsrə qədərki dövrünə aid olub müəlliflər kollektivinin yazdığı "Azərbaycan fəlsəfəsi tarixinə dair oçerklər"in ilk cildi də diqqətimizi çəkir.[11]

"Azərbaycan fəlsəfə tarixi"nin 1-ci cildinin "Giriş"ndə filosof alim Z.Quluzadə yazır ki, Azərbaycan tarixinin zəngin sosiomədəni cərəyanlarının fəlsəfəsinə dair xüsusi tədqiqatlardan A.O.Makovelski, S.C.Rzaquluzadə, Z.C.Məmmədov, Z.Ə.Quluzadə, Ə.M.Əhmədov, M.M.Ağamirov, F.Q.Köçərli və başqalarının zərdüştilik, panteizm, peripatetizm, sufizm, işraqiyyə, hürufilik, maarifçilik, romantizm, inqilabi demokratizm və Azərbaycan mənəvi mədəniyyətinin digər cərəyanlarına həsr edilmiş əsərlərini göstərmək olar: "Azərbaycanın fəlsəfə tarixinin ayrı-ayrı inkişaf mərhələlərini əks etdirən əsərlərdən fəlsəfə elmləri doktorları A.M.Şükürov və G.A.Abdullazadənin "Azərbaycan fəlsəfəsi (qədim dövr)"; fəlsəfə elmləri doktoru Z.Ə.Quluzadənin "VII-XVI əsrlərdə Azərbaycan fəlsəfəsi tarixindən"; fəlsəfə elmləri doktoru Z.C.Məmmədovun "XI-XIII əsrlərdə Azərbaycanda fəlsəfi fikir"; yenə onun "Azərbaycan fəlsəfəsi tarixi (qədim dövrdən XX əsrə qədər)"; fəlsəfə elmləri doktoru Ə.Ə.Əminzadənin "Azərbaycanda fəlsəfi və ictimai-siyasi fikir tarixindən (XVII-XVIII əsrlər)"; Azərbaycan EA-nın akademiki

---

[7] Əminzadə Ə.Ə. Azərbaycanda fəlsəfi və ictimai-siyasi fikir tarixindən. Bakı, 1972

[8] Кулизаде З.А.Из истории азербайджанской философии в VII-XVI вв. Баку, Элм,1992.

[9] Məmmədov Zakir. Azərbaycan fəlsəfəsi tarixi. Bakı, Şərq-Qərb, 2006

[10] Геюшев З.Б. Философская мысль в Советском Азербайджане. Баку, 1979

[11] Очерк по истории Азербайджанской философии. I том. Баку, Элм, 1966

H.N.Hüseynovun "XIX əsrdə Azərbaycanda ictimai və fəlsəfi fikir tarixindən"; fəlsəfə elmləri doktoru M.M.Qasımovun "XIX əsrdə Azərbaycan xalqının fəlsəfi və ictimai fikir tarixinə dair oçerklər"; Ş.F.Məmmədovun "Azərbaycanda fəlsəfi fikrin inkişafı"; Ş.Ş. Mirzəyevanın "Azərbaycanda estetik fikir tarixindən (XIX əsr-XX əsrin əvvəli)" monoqrafiyalarını göstərmək olar. 1966-cı ildə nəşr olunan Azərbaycan fəlsəfəsi tarixinin qədim zamanlardan XVIII əsrə qədərki dövrünü peşəkar səviyyədə işıqlandıran müəlliflər kollektivinin yazdığı fundamental əsər – "Azərbaycan fəlsəfəsi tarixinə dair oçerklər"in birinci cildi şəksiz Azərbaycan fəlsəfə tarixinin tədqiqi prosesində nailiyyət idi".[12]

Azərbaycan Türk fəlsəfə tarixinin yazılması baxımından bu uğurlar sırasında 4 cildlik nəzərdə tutulmuş ancaq hələlik iki cildi nəşr olunmuş "Azərbaycan fəlsəfə tarixi" fundamental əsərini də göstərmək lazımdır. Hər halda müstəqilliyimizin bərpasından sonra (1991) yazılması nəzərdə tutulan "Azərbaycan fəlsəfə tarixi" dörd cildliyinin nəşr olunmuş ilk iki cildində ən qədim dövrlərdən XVIII əsrdə daxil olmaqla Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi bir bütün olaraq araşdırılmışdır. [13] [14]

Ancaq bizim apardığımız tədqiqatlar[15] [16] istisna olaraq, XIX-XX əsrlərlə bağlı nəinki 50 milyonluq Azərbaycan xalqının, ayrı-ayrılıqda nə Quzey Azərbaycan, nə də Güney Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixini özündə əhatə edən əsərlər meydana gəlməmişdir. Başqa sözlə, XIX-XX əsrlərə aid Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi hələ də, nə bir bütün olaraq (güneyli, quzeyli Azərbaycan bir yerdə), nə də ayrı-ayrılıqda tədqiq olunmamışdır. Üstəlik, onu da deməliyik ki, istər Sovet Azərbaycanı dövründə, istərsə də müstəqil Azərbaycan dönəmində Quzey Azərbaycan

[12] Azərbaycan fəlsəfə tarixi. I cild. Bakı: "Elm" nəşriyyatı, 2014, s.8-10
[13] Azərbaycan fəlsəfə tarixi. I cild. Bakı: "Elm" nəşriyyatı, 2014. (kitabın məsul redaktoru f.e.d. Z.Ə.Quluzadə)
[14] Azərbaycan fəlsəfə tarixi. II cild. Bakı: "Elm" nəşriyyatı, 2014. (kitabın məsul redaktoru f.e.d. Z.Ə.Quluzadə).
[15] Ələkbərli Faiq. Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi (XIX-XX əsrlər) . I hissə. Bakı, Elm və təhsil, 2018
[16] Ələkbərli Faiq. Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi (XIX-XX əsrlər) . II hissə. Bakı, Elm və təhsil, 2020

Türk fəlsəfi və ictimai fikir tarixi xeyli dərəcədə tədqiqatlara cəlb olunsa da, ancaq eyni sözləri Güney Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi haqqında isə deyə bilmirik.

Əlbəttə, XX əsrdə və XXI əsrin əvvəllərində Quzey Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi ilə yanaşı, Güney Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixinə də zaman zaman müəyyən qədər müraciət olunmuş, ayrı-ayrı mütəfəkkirlərlə (Seyid Əbülqasim Nəbati, Mirzə Əbdürrəhman Talıbzadə, Cəmaləddin Əfqani, [17] Zeynalabidin Marağayi, Mirzə Həsən Rüşdiyyə,[18] Mirzə Tağıxan Rəfət,[19][20] Şeyx Məhəmməd Xiyabani,[21][22] Seyid Cəfər Pişəvəri,[23][24] Mirzə Əli Möcüz Şəbüstəri, Tağı Ərani,[25][26] Firudin İbrahimi, Əlirza Nabdil Oxtay, Məhəmmədtağı Zehtabi,[27] Əli Təbrizli,[28][29] Həbib Sahir, Həmid Nitqi (Aytan), Məhəmməd Biriya, Məhəmmədhüseyn Şəhriyar,[30][31] Səhənd,[32] Məhəmmədəli Tərbiyət,[33] Cavad Heyət, Qulamrza Səbri Təbrizi, Məhəmmədhüseyn Təbatəbai, Məhəmməd-

---

[17]Mürşüdlü Q. Cəmaləddin Əfqaninin sosial-siyasi fəlsəfəsi. Bakı, "ULU", 2019

[18] Cekli Əlhəddin, Paşazadə Tərxan. Həsən Rüşdiyyə. "Dövlət və Din" İctimai fikir toplusu, (№ 6 (20), Bakı, noyabr-dekabr 2010

[19]Uzun Enver. Mirza Tagı Rıfet han, Trabzon, "Eser Ofset", 2017

[20]Şamil Əli. Azərbaycan Cümhuriyyətinin təsiri ilə yaranmış Azadistan dövləti və onun ideoloqu Mirzə Təqixan Rəfət. //Azərbaycan Cümhuriyyəti: Tarixi, siyasi və ədəbi-kulturoloji müstəvidə (elmi məqalələr toplusu). Bakı, Nurlar NPM, 2018

[21] Əhməd Vüqar. Şeyx Məhəmməd Xiyabani. Bakı, "Müəllim", 2010

[22] Azeri Ali. Azadistan devleti ve Şeyh Muhammed Hıyabani(1918-1920), (Yayına hazırlayan Seyfeddin Altaylı). Ankara, "Elila Elektronik İletişim Ajansı", 2004

[23] Rəhimli Əkrəm. Seyid Cəfər Pişəvəri. Bakı, Nurlar NPM, 2009

[24] Əhməd Vüqar. M.C. Pişəvəri: Həyatı, mühiti və yaradıcılığı. Bakı, Göytürk, 1998

[25] Təriqpeyma İ. Doktor Tağı Əraninin ictimai-siyasi və dövlət görüşləri. Bakı, 1965

[26]Yəqubi, Əsəd Rza.Təqi Ərani: zəka və təvazö. ADF-nin saytı. 2020

[27] Məmmədli Pərvanə. Fikir və əməl böyüklərimiz./Məhəmmədtağı Zehtabi/. Bakı, Nurlar NPM, 2014

[28] Məmmədli Pərvanə, Nəsib Nəsibli. Fikir və əməl böyüklərimiz./Təbrizli Əli/. Bakı, Nurlar NPM, 2014

[29] Ağcaköylü Abdullah. Bilinmeyen Büyük Bir Türkçü ve Türkçeci Tabrizli Ali. – "Türk kültürü", sayı 1, yıl 1, Kasım 1962

[30] Fuad Esmira. Muhammed Hüseyin Şehriyar. İstanbul, Peon kitap, 2014

[31] Bülluri Hökumə. Məhəmməd Hüseyn Şəhriyar. Bakı, "Elm", 1983

[32] Süleymanoğlu Fikrət. Səhənd (mühiti, həyatı və yaradıcılığı). Bakı, Nurlar, 2017

[33] Nəhmətova Könül. Məhəmmədəli Tərbiyətin "Danişməndani-Azərbaycan" əsəri. Bakı, Elm və təhsil, 2012

tağı Cəfəri[34] və başqaları ilə bağlı bəzi dissertasiyalar, plan işləri və kitablar ortaya qoyulmuşdur. Eyni zamanda, XIX-XX əsrlərdə Güney Azərbaycanın tarixi, mədəni-fəlsəfi, siyasi mühitini özündə əks etdirən, bununla yanaşı yeri gəldikcə, mütəfəkkirlərimiz haqqında müəyyən məlumatlar verən istər əvvəllər,[35] istərsə də çağdaş dövrdə, sanballı əsərlər, kitablar da nəşr olunmuşdur.[36]

---

[34] Vəliyyullah Xoştinət. Məhəmməd Təqi Cəfərinin həyatı və fəlsəfi görüşləri. Avtotrefarat. Bakı, 2007

[35] **Əli bəy Hüseynzadə**. Qırmızı qaranlıqlar içində yaşıl işıqlar. Bakı, Azərnəşr, 1996; **Ə.b.Hüseynzadə.** Siyasəti-Fürusət. Bakı, Elm, 1994; **M.Əmin Rəsulzadə.** İran Türkləri. Bakı, "Təknur", 2013; **M.Ə.Rəsulzadə.** Əsərləri (1903-1909). I cild, - Bakı, Azərnəşr, 1992; **M.Ə.Rəsulzadə.** Əsərləri (1909-1914). II cild, Bakı, Şirvannəşr, 2001; **Əhməd Ağaoğlu**. İran və inqilabı. Bakı: Azərnəşr, 2009; **M.B.Mehmetzade.** Ermenilər ve İran. İstanbul, 1927; **Fahreddin Şevket**. İran (İklim, halk, iktisadiyyat, ictimaiyyat, müessesat-ı medeniyye, adatt-ı miliyye). Ankara, Türk Tarih Kurumu, 2017; **Senan Azer.** İran Türkleri. İstanbul, Cümhuriyet maatbası, 1942; **Hüseyin Baykara.** İran inkılabı ve Azatlık Hareketleri. İstanbul, 1978.

[36] **Şövkət Tağıyeva, Əkrəm Rəhimli, Səməd Bayramzadə.** Güney Azərbaycan-məlumat kitabı. Bakı, Orxan, 2000; **Şövkət Tağıyeva**. 1920-ci il Təbriz üsyanı, Bakı. Azərnəşr, 1990; **Səməd Bayramzadə.** Azərbaycanda İslam mədəniyyəti abidələri. Bakı, 2008; **Səməd Bayramzadə.** Güney Azərbaycan: İranda "21 azər"dən "ağ inqilab"a qədər. Bakı, Tərəqqi, 2016 (rus dilində); **Əkrəm Rəhimli.** 21 Azərə gedən yol. Bakı, Araz, 2015. **Pərvanə Məmmədli.** Cənubi Azərbaycan: ədəbi şəxsiyyətlər, portretlər (I Hissə). Bakı, Sabah, 2015; **Pərvanə Məmmədli**. Cənubi Azərbaycan mətbuat tarixi. Bakı, Elm, 2009; **Nesib Nesibli**. Azerbaycan tarihi: Millet-Devlet-Siyaset. Ankara, Altınordu yayınları, 2019; **Nəsib Nəsibli**. Güneyli-Quzeyli məsələlərimiz. Bakı, "Aypara 3", 2013; **Aydın Qasımlı**. Güney Azərbaycan türkləri son 100 ildə. Bakı, Adiloğlu, 2012; **Rəcəb Albayraq**. Türklərin İranı. Yaxın gələcək. 2 cilddə. 1-2-ci cildlər. Bakı, Elm və təhsil , 2016; **Eynulla Mədətli**. Azərbaycan tarixi məsələləri İran tarixşünaslığında (XX əsrin əvvəlləri). Bakı, "Turxan NPB", 2017; **Eynulla Mədətli**. İranda Azərbaycan tarixi məsələləri. Bakı, "Turxan NPB", 2020; **Vidadi Mustafayev**. Cənubi Azərbaycanda milli şüur (XX əsrin birinci yarısı). Bakı, 1998; **Faiq Ələkbərli**. Turan sivilizasiyasına giriş: Turan məfkurəsi və Tanrıçılıq. Bakı, "Xan" nəşriyyatı, 2017; **Faiq Ələkbərli.** Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi (XIX-XX əsrlər) . I hissə. Bakı, Elm və təhsil, 2018; **Tohid Məlikzadə**. Güney Azərbaycan Birinci Dünya müharibəsi illərində - soyqırım. Bakı, "Bakı çap evi", 2010; **Eldar Qaradağlı**. Azərbaycan mərkəzli türkçü düşüncə. İstanbul, ÇAV yayınları, 2012; **İbrahim Quliyev**. Azərbaycan hədisşünaslığının inkişaf tarixi. Bakı, TUNA, 2019; **Qalibə Hacıyeva**. Cənubi Azərbaycan toponimləri. Bakı, Elm, 2008; **Turac Atabəyi**. Azərbaycan: etnik mənsubiyyəti və İranda qüdrət uğrunda mübarizə, Bakı, "Təhsil" nəşriyyatı, 2002; **Həsən Rəşidi**. Türklər və İranda onların tarix, dil və kimlikləri haqqında araşdırma. Tehran, "Əndişeyi nou", 1383; **Əbülfəz Elçibəy**. Bütöv Azərbaycan yolunda., Bakı, "Nurlar", 2004; **Məhəmmədtağı Zehtabi**. İran Türklərinin əski tarixi. 2-cilddə, 1-2-ci cildlər. Təbriz, "Əxtər", 1377/79 (1998-2000); **Arif Rəhimoğlu**. İdeologiya. Bakı, Elm və təhsil,

Bütün hallarda Güney Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixinin tədqiqi Quzey Azərbaycanda eyni mövzuların araşdırılması ilə müqayisədə kölgədə qalmışdır. Bu baxımdan biz, XIX-XX əsrlərlə bağlı Güney Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixinə aid araşdırmalara baxdıqda görürük ki, burada vəziyyət Quzey Azərbaycandakı vəziyyətdən də xeyli dərəcədə problemli olmuşdur. Burada, M.Tərbiyətin yazdığı "Danişməndani-Azərbaycan"ı diqqətimizi cəlb edir ki, bu kitab ən qədim dövrlərdən XX əsrin əvvəllərinə qədər Bütöv Azərbaycanda yaşamış mütəfəkkirlərin özkeçmişlərindən, onların yazdıqları əsərlərin adlarından, qısa məzmunundan ibarətdir.[37]

Beləliklə, bizcə, Azərbaycanın güneyində XIX-XX əsrlərdə Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixinə aid nəinki ümumi (Bütöv Azərbaycan), heç xüsusi (Güney Azərbaycan) əsərlərə də rast gəlmək mümkün deyil. Sadəcə, yuxarıda da qeyd etdiyimiz kimi, Azərbaycanın güneyində son iki əsr Azərbaycan Türk fəlsəfi və icti-

---

2017; **Böyük Rəsuloğlu**. Azərbaycan uğrunda. Bizim yol, Bakı, Nurlar, 2009; **Əfşan Şəfiyeva**. Seyid Həsən Tağızadə və İranın modernləşməsi. Bakı, Araz, 2016; **Aygün Attar.** İranın etnik yapısı. Ankara, 2006; **Gülara Yenisey**. İranda etnopolitik hareketler (1922-2004), İstanbul, Ötüken, 2008; **Mehmet Saray.** Kuzey ve Güney Azerbaycan türklerinin tarihi. Bakı, "Şərq-Qərb", 2010; **Cəmil Həsənli.** Güney Azərbaycan: Tehran – Bakı – Moskva arasında (1939-1945). Bakı, Diplomat, 1998; **Cəmil Həsənli.** Cənubi Azərbaycanda Sovet-Amerika-İngiltərə qarşıdurması (1941-1946). Bakı, "Azərbaycan", 2001; **Şirvani Ədilli.** Milli ideologiyamız: Türklük, Çağdaşlıq, İslamlıq. Bakı, Elm və təhsil, 2013; **Rza Kəskin.** Türk dili və İran kimliyi. Zəncan, Sepehr nəşr., 2000; **Almaz Əli qızı.** Güney Azərbaycan ədəbiyyatı (Mərhələlər, təmayüllər, etüdlər). Bakı, 1998; **Güntəkin Nəcəfli**. Urmiya bölgəsində azərbaycanlılara qarşı soyqırımı (1917-1918). Bakı, "Azərbaycan Tarixçiləri" İB, 2015; **Esmira Fuad** (tərtibçi müəllif). Günümüzün Güney ədəbiyyatı antologiyası – Poeziya. Bakı, Elm və təhsil, 2018; **Vüqar Əhməd, Dilbər Rzayeva** (tərtibçi müəlliflər). Cənubi Azərbaycan şeiri antologiyası. Bakı, Ecoprint, 2018; **Vaqif Sultanlı, İrəc İsmayıl** (Tərtibçi müəlliflər). Güney Azərbaycan nəsri: Bağlanğıcdan bu günə qədər (Antologiya). Bakı, Nurlar NPM, 2017; Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. 4 cilddə, 1-4-cü cildlər. Bakı, "Elm", 1983-1994; Cənubi Azərbaycan ədəbiyyatı tarixi (XX əsr). İki cilddə, 2-cild. Bakı, Qanun, 2013; Məşrutə inqilabı-100 (Məqalələr toplusu). Bakı, 2005; XX əsr Cənubi Azərbaycan ədəbiyyatında demokratik ideyalar. Bakı, Elm, 1990; Güney Azərbaycan: Tarixi, siyasi və kulturoloji müstəvidə (Məqalələr toplusu). Bakı, Azərnəşr, 2010; Azadlıq uğrunda mübarizə tariximizdən: Xiyabani hərəkatı-90. Bakı, "Bakı çap evi", 2011; "21 Azər-70" mövzusunda Elmi Konfransın materialları. Bakı, Araz, 2015; ADR-İran diplomatik münasibətləri Qafqaz Fövqəladə Komissiyasının sənədləri işığında (1919-1920-ci illər). Bakı, Şərq-Qərb, 2017.

[37] Tərbiyət Məhəmmədəli. Danişməndani-Azərbaycan. Bakı, Elm, 1987

mai fikir tarixinə aid yalnız ayrı-ayrı tədqiqatlar olmuşdur. Şübhəsiz, Azərbaycanın güneyində fəlsəfi və ictimai fikir tariximizin daha dərin və əhatəli şəkildə tədqiqatlara cəlb olunmaması təsadüfi olmamış, həm İran Pəhləvilər, həm də İran İslam rejimlərinin bu məsələdə Azərbaycan türklüyünə və onun mədəniyyətinə, fəlsəfəsinə şovinist, irqçi basqıları, təqibləri bir sözlə, assimilyasiya siyasəti mühüm rol oynamışdır.

Bütün bunlarla yanaşı, vahid millət, vahid xalq olan Azərbaycan xalqının, Azərbaycan türklərinin son iki əsrdə bir-birindən əsasən ayrı yaşamaq məcburiyyətində qalması, bizlər üçün bir o qədər də xoş olmayan yeni anlayışların (Quzey Azərbaycan, Güney Azərbaycan və b.), fərqli baxışların yaranmasına da səbəb olmuşdur. Əslində bizim istəməyərəkdən, ancaq məcburən Quzey Azərbaycan və Güney Azərbaycan adlandırdığımız anlayışlar, vahid və bütöv Azərbaycandan başqa bir şey deyildir. Bu anlamda siyasi-hüquqi müstəvidə var olan iki Azərbaycanın (birinin müstəqil, digərinin isə İran adlanan ölkənin bir hissəsi kimi) mütəfəkkirlərinin fəlsəfi və ictimai-siyasi görüşlərini bütün kimi araşdırmaq təbii olsa da, ancaq mövcud gerçəklikləri də nəzərə almaq məcburiyyətindəyik.

Beləliklə, son iki əsrdə, xüsusilə də son əsrdə fəlsəfi və ictimai-siyasi problemlərə, Azəbaycanın quzeyindəki və güneyindəki aydınların baxışları arasında ümumi oxşarlıqlar yanaşı, müəyyən fərqliliklər də ortaya çıxmışdır. Bu fərqliliklər isə yalnız özünü dünyadakı ənənəvi, yeni fəlsəfi məktəblərə münasibətdən deyil, eyni zamanda mövcud rejimlərin ictimai-siyasi, ideoloji mahiyyətlərindən də irəli gəlmişdir. Bütün bunlar Azərbaycan Türk mütəfəkkirlərinin fəlsəfi və ictimai-siyasi baxışlarına xeyli dərəcədə təsir göstərmiş, istər-istəməz dünyagörüşlərində bəzi fərqliliklərə yol açmışdır.

Bu baxımdan siyasi-fəlsəfi cərəyanlara, ictimai-siyasi problemlərə, dinlərə münasibətdə Azərbaycanın quzeyindəki və güneyindəki mütəfəkkirlərin baxışlarında oxşarlıqlarla yanaşı fərqlilikləri də görmək lazımdır. Məsələn, İslam dininə Sovetlər Birliyinin tərkibində yaşayan Quzey Azərbaycan Türk mütəfəkkiri ilə, Güney Azərbaycan Türk ziyalısının münasibətləri arasında ilk baxışda, ahəng görünsə də, əslində bu ahəngin özündə də bəlli fərqliliklər var. Yəni biri var ateist SSRİ-nin müstəmləkəsi olan Sovet Azərbaycanındakı

bir azərbaycanlı ziyalının materialist mövqeyi, biri də var yarımateist İran Pəhləvilərində, ya da İran İslam rejimində bir Türk ziyalısının materializmə yanaşması. Biz, eyni məsələni millətçiliyə, demokratizmə, sosial-demokratizmə və digər cərəyanlara münasibətdə də göstərə bilərik. Şübhəsiz, burada həmin ideyalara münasibətdə quzeyli-güneyli Azərbaycan Türk mütəfəkkirlərinin bir qədər fərqli yanaşması, eyni çatı altında yaşamamaq bir yana qalsın, tamamilə fərqli mədəniyyətlərə, fəlsəfi cərəyanlara (Sovet-Rus mədəniyyətinə, İran-Fars mədəniyyətinə və s.) məcburi sürüklənməsi də mühüm rol oynamışdır.

Bu baxımdan XX əsr Güney Azərbaycan Türk fəlsəfi və ictimai fikrinə Qərb mədəniyyəti, Qərb fəlsəfəsi (sosial-deomkratizm, liberalizm və s.), İran mədəniyyəti, irançılıq (zərdüştlük, farsçılıq) və İslam fəlsəfəsi (İslam dini, şiəçilik) xeyli dərəcədə təsir göstərmişdir. Deməli, XX əsrdə Azərbaycan Türk aydınlarının irsində əsas məsələ Türk dünyagörüşü, Türk mədəniyyəti ilə qərbçilik, irançılıq və islamlığa (o cümlədən şiəliyə) münasibətdə Milli fəlsəfəni nə dərəcədə ifadə etmələri olmuşdur. Beləliklə, Azərbaycan Türk mütəfəkkirləri son əsrlərə, xüsusilə də XX əsrə qədər daha çox Türk dünyagörüşü, Türk fəlsəfəsi ilə İslam fəlsəfəsi, islamçılıq, İran fəlsəfəsi, irançılıq arasında uzlaşmalara çalışıb, bu yolda müxtəlif dini-fəlsəfi, siyasi fəlsəfi cərəyanlar orta qoyduqları halda, son yüzillikdə Qərb fəlsəfəsi (sosial-demokratizm, liberalizm, pozitivizm və s.) də əsas fəlsəfi və ictimai-siyasi problemə çevrilmişdi.

İlk növbədə, kitabın bu bölümündə Güney Azərbaycan Türk fəlsəfi və ictimai fikrində Qərb mədəniyyəti, Qərb fəlsəfəsinin (sosializm, sosial-deomkratizm, demokratizm, liberalizm və s.) yerini və rolunu tədqiq etməyə çalışmışıq. Məlum olduğu kimi, Qərb mədəniyyəti Azərbaycanın quzeyindəki mütəfəkkirlərimiz kimi, Azərbaycanın güneyindəki aydınlarımzın şüurlarına, onların yaradıcılıqlarına xeyli dərəcə də təsir göstərmişdir. Xüsusilə də, Avropada meydana çıxaraq dünyaya yayılan sosializm, sosial-deomkratizm, demokratizm, liberalizm kimi cərəyanlar XX əsrin əvvəllərində Qacarlar dövlətində, o cümlədən Azərbaycanın güneyində geniş yayılmışdır.

Sözün açığı, Azərbaycanın güneyində Qərb cərəyanları arasında ən populyarı sosial-demokratizm olmuş, bu təlim uzun müddət

Azərbaycan Türk mütəfəkkirlərindən xeyli bir qisminin dünyagörüşündə əsas yer tutmuşdur. Qərb mədəniyyətinə, o cümlədən sosial-demokratizm cərəyanına meyil göstərən aydınlarımız (Xiyabani, T. Rəfət, T.Ərani, S.C.Pişəvəri, M.Biriya, Ə.Oxtay və b.) bəzən onları həddən artıq ideallaşdırsalar da, əsasən türklük, müəyyən qədər də islamlıq düşüncələrindən tamamilə uzaqlaşmayıblar. Ancaq bütövlükdə sosial-demokratizm cərəyanında milli-dini dəyərlər arxa plana keçirilib, sinfi məsələ ön plana çıxarıldığı üçün bütün bunlar Güney Azərbaycan Türk mütəfəkkirlərinə də ciddi təsir göstərmişdir. Şübhəsiz, sosial-demokratizmlə müqayisədə, Rusiyada bir qədər fərqli formada ortaya çıxan marksizm-leninizmin milli-dini məsələlərə daha radikal yanaşaması da burada mühüm rol oynamışdır. Çünki Azərbaycanın quzeyində olduğu qədər olmasa da, Azərbaycanın güneyində də uzun müddət Sovet Rusiyasına aid marksizm-leninizm təlimi aparıcı mövqe tutmuşdur.

Doğrudur, bir çox amillərə görə, Sovet Rusiyası Azərbaycanın güneyində marksizm-leninizm ideyalarını təbliğ edərkən çox dərinə gedə bilməmişdir. Hər halda Azərbaycanın quzeyini işğal etdikdən sonra burada sözdə fəhlə-kəndli sinfi yaradan Sovet Rusiyası bunu, Azərbaycanın güneyində tətbiq edə bilmədiyi üçün bir qədər fərqli addımlar atmağa məcbur olmuşdur. Bu isə o deməkdir ki, Azərbaycanın güneyində Qərb mədəniyyəti, o cümlədən sosial-demokratizm cərəyanı çərçivəsində türklüyə və islamlığa münasibət Azərbaycanın quzeyindəki proseslərdən bir qədər fərqlənmişdir. Bundan da irəli gələrək, Azərbaycanın güneyindəki Qərb mədəniyyətinə meyilli, sosial-demokratizm cərəyanına bağlı mütəfəkkirlərin türklüyə və islamlığa baxışında Sovet Rusiyasının ideologiyasından da heç də az olmayaraq, İran Pəhləvilər rejiminin və onların himayədarlarının aryançılığı, irançılığı da mühüm rol oynamışdır.

Demək istədiyimiz odur ki, sosial-demokratizm cərəyanına bağlı olan, ancaq sonralar daha çox demokratlar kimi tanınan Azərbaycan Türk mütəfəkkirləri bir tərəfdən Sovet Rusiyasının marksizm-leninizm təliminin, digər tərəfdən “İran” aryançılığının təzyiqləri altında öz baxışlarını ortaya qoymağa çalışmışlar. Şübhəsiz, onlar bu iki yad qüvvənin və onlara aid ideyaların arasında mübarizə aparmaq məcburiyyətində qaldıqları üçün, istər-istəməz dünyagörüş-

lərində ziddiyyətlər özünü büruzə vermişdir. Belə ki, onlar sosial-demokratizm, demokratizm ideyaları əsasında Azərbaycan xalqının, ümuumlikdə "İran" xalqlarının haqq və azadlıqları uğrunda mübarizə apardıqlarını iddia etdikləri üçün, islamlığa və türklüyə münasibətdə də bunu nəzərə alıb daha çox azərbaycançılıq üzərində dayanırdılar.

Milli demokratların azərbaycançılığında isə türklük demək olar ki, arxa plana keçirildiyi halda, islamçılıq isə sosial-demokratizmlə uzlaşdırılmağa çalışılmışdır. Hər halda milli demokratlar Sovet Rusiyasının marksizm-leninizm təliminin təsiri altında türklük məsələsini çox da qabarda bilmir, əsasən Azərbaycan milləti, azərbaycanlı kimliyini önə çəkirdilər. İslamlığa gəlincə, milli demokratlar bu məsələyə daha çox loyal yanaşır, əsas diqqəti Azərbaycan xalqının milli haqq və hüquqlarına yönəldirdilər. Sovet Rusiyasının da təzyiqləri altında belə bir mövqe tutan milli demokratlar üstəlik, 1935-ci ildən sonra "İran" adlanan dövlətin bütövlüyündən də əsasən kənara çıxmayaraq, daha çox şovinist aryançılığa qarşı olub ölkənin demokratikləşdirilməsi və federallaşdırılması tələblərini irəli sürürdülər.

Bu baxımdan biz, kitabın bu bölümündə apardığımız araşdırmada milli-demokratik və siyasi-fəlsəfi ideyaları daha dərindən və incəlliklərinı qədər aşkara çıxarmağa çalışmışıq.

Güney Azərbaycan Türk fəlsəfi və ictimai fikrində milli fəlsəfənin, eyni zamanda milli fəlsəfəmizə fars mədəniyyəti, irançılığın (zərdüştlük, farsçılıq) təsrini də tədqiq etməyə çalışmışıq.

Yuxarıda da qeyd etdiyimiz kimi milli fəlsəfi və ictimai fikir XX əsrə qədər olduğu kimi, XX əsrdə də daha çox irançılıq və islamçılıqla münasibətləri də əhatəsində özünü ifadə etmişdir. Əslində milli fəlsəfi və ictimai fikrin XIX əsrdən geniş yayılan Qərb mədəniyyətinə, Qərb fəlsəfəsinə münasibəti ilə, irançılığa və islamçılığa münasibətini eyniləşdirmək olmaz. Çünki əgər milli fəlsəfi və ictimai fikrimiz təxminən, ancaq son iki əsrdə Qərb mədəniyyətilə mücadilə içində olduğu halda, irançılıq və islamlığa münasibətdə bunun tarixi daha qədim dövrlərə gedib çıxır.

Üstəlik, milli fəlsəfi təfəkkürümüzün irançılıqla-aryançılıqla qarşılqılı münasibətlərinin təşəkkülü, islamçılıqdan həm qədimdir, həm də çox ziddiyyətlidir. Biz, bu barədə kitabın ikinci bölümündə

xeyli məlumat verərək Turan-Türk fəlsəfəsi ilə İran-Fars fəlsəfəsi arasındakı oxşarlıqları və ziddiyyətləri təhlil etməyə çalışmışdıq. Konkret XX əsr Güney Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixində irançılığın, aryançılığın yerinə gəlincə, burada da onun xeyli dərəcədə təsirinin olması inkar edilməzdir. Biz, bunu əslində milli demokratların dünyagörüşündə də müəyyən qədər müşahidə edirik. Sadəcə, milli demokratlar irançılıq, aryançılıq məsələsini daha çox sosial-demokratizm əqidəsi çərçivəsində dəyərləndirib, bu zaman türklük məsələsinə ehtiyatla yanaşdıqları halda, milli maarifçilər onlara nisbətdə bir qədər fərqli yol izləmişlər.

Ümumiyyətlə, milli maarifçilər, yəni sosial-demokratizmdən xeyli dərəcədə uzaq olan, ya da ona az bağlı olan mütəfəkkirlərin həm Türk dünyagörüşünə, Türk mədəniyyətinə, həm də buna paralel olaraq İran mədəniyyətinə, İran fəlsəfəsinə münasibəti bir qədər fərqli olmuşdur. Milli maarifçilər ilk növbədə, Türk fəlsəfi dünyagörüşünə, Türk mədəniyyətinə əsaslanmağa çalışmış, bu zaman ona xeyli dərəcədə yad gördükləri İran mədəniyyətini, İran fəlsəfəsini milli mədəniyyətdən, milli fəlsəfədən mümkün olduqca uzaq tutmağa çalışmışlar. Əlbəttə, bu məsələdə milli maarifçilərimizin heç də hamısı uğurlu bir yol izləyə bilməmişlər. Belə ki, milli maarifçilərimizdən bəziləri Qərbdən gələn ideoloji görüşlərin təsiri altında, ya da məcburiyyətdən zaman zaman İran mədəniyyətini, İran fəlsəfəsini də təqdir etmişlər.

İlk baxışda həm Türk fəlsəfəsini, Türk mədəniyyətini, buna paralel olaraq da İran mədəniyyətini tutmaq, yaxud da onun təbliğatçısı olmaq çox da anlamlı görünməsə də, ancaq dövrün şərtləri və tələbləri altında bu kimi hallarla qarşılaşmağımız qeyri-adi hesab oluna bilməz. Üstəlik, bəzi Azərbaycan Türk kökənli ziyalılar da olmuşdur ki, Türk mədəniyyətini, Türk fəlsəfəsini ümumilikdə, Türklüyü inkar etmək yolunu tutmuş, bunun əvəzində İran mədəniyyəti, İran fəlsəfəsini qəbul edərək aryançılığın, farsçılığın təbliğatçıları olmuşlar.

Bütün bunların haradan qaynaqlanması, üstəlik bu cür ziddiyyətli vəziyyətin davam etməsinin səbəblərini, kitabımızın bu bölümündə mümkün olduğu qədər təhlil etməyə çalışmışıq.

Güney Azərbaycan Türk fəlsəfi və ictimai fikrində milli fəl-

səfənin, eyni zamanda milli fəlsəfəmizə İslam mədəniyyəti, islamlığın, o cümlədən şiəliyin təsrini də tədqiq etməyə çalışmışıq.

Bizcə, milli fəlsəfəmizin ümumilikdə, əsas nüvədən kənara çıxmadan yeni bir mahiyyət daşımasında İslam dininin, İslam fəlsəfəsinin, İslamlığın mühüm rol oynaması inkar olunmaz bir gerçəklikdir. Bu barədə kitabımızın ilk iki bölümündə geniş təhlil etdiyimiz üçün, burada yalnız onu deyə bilərik ki, islamlığın XX əsrdə Güney Azərbaycan Türk fəlsəfi və ictimai fikrinə təsiri Quzey Azərbaycandan xeyli dərəcədə fərqli olmuşdur. Şübhəsiz, bunun səbəbləri arasında fərqli ictimai-siyasi quruluşlarda və ideolojilər altında yaşamağımız mühüm yer tutmaqdadır.

Ümumilikdə, bəhs etdiyimiz dövrdə Güney Azərbaycanda milli fəlsəfi və ictimai fikrimizin inikaşfında islamlığın yerini və rolunu bir neçə mərhələdə dəyərləndirə bilərik: 1) Qacarlar dövlətinin tənəzzülü dövründə islamlıq, 2) İran Pəhləvilər rejimi dövründə islamlıq, 3) İran İslam rejimi dövründə islamlıq.

Bizcə, Qacarlar dövlətinin tənəzzülü dövründə islamlıq, islam fəlsəfəsinə münasibətdə Azərbaycan Türk mütəfəkkirləri daha çox islahatçılığa meyilli olmuşlar. Xüsusilə də, milli demokratlar, milli maarifçilər islamlıq məsələsində əsasən loyal və islahatçı mövqe tutublar. Doğrudur, milli demokratlar arasında islamlığa münasibətdə radikal mövqedən çıxış edənlər də olmuşdur. Ancaq həmin dövrdə sırf islam fəlsəfəsindən çıxış edən azərbaycanlı-türk din alimlərimizin mövqeyində kəskin dəyişiklikər olmamışdır. Sadəcə, onların da xeyli qismi dövrün yeniləşməsi prosesləri çərçivəsində ehkamçı-sxolastik düşüncədən uzaqlaşmış, hətta milli ruhlu din alimlərimiz də meydana çıxmağa başalmışdır.

Ancaq İran Pəhləviləri dövründə başladılan anti-islam düşüncə tərzi istər milli demokratlarla milli maarifçilər, istərsə də din alimlərimiz arasında yeni bir mərhələnin əsasını qoymuşdur. Bu da ondan ibarət idi ki, islamlığa aşırı dərəcədə mənfi münasibətin olması yaınız ona əsaslanan din alimlərini deyil, eyni zamanda milli maarifçilik və sosial-demokratiyadan çıxış edən ziyalıları da rahatsız etmişdir. Milli demokratlardan da çox milli maarifçilər din alimləri qədər olmasa da, islamlığa münasibətdə daha çox həssas olmuşlar. Ancaq zamanla milli demokratlar arasında da islamlığa münasibətdə

düşüncələrini dəyişənlər olmuşdur. Bu səbəbdəndir ki, İran Pəhləvilər rejiminə qarşı mübarizədə bir çox milli maarifçilərlə yanaşı, milli demokratlar arasında da bəzi mütəfəkkirlər "İslam hərəkatı"na dəstək vermiş, "İslam inqilabı"na (1979) böyük ümidlər bəsləmişdir.

Şübhəsiz, İran Pəhləvilər rejimi dövründə baş qaldıran "İslam hərəkatı"nda və onun nəticəsi olan "İslam inqilabı" dövründə bu proseslərdə başlıca yer tutanlar arasında Güney Azərbaycan və Azərbaycan xaricindəki Türk kökənli üləmalar, din alimləri mühüm rol oynamışlar. Biz şübhə etmirik ki, İran Pəhləvilər rejimi dövründə "İslam hərəkatı"nın öncülləri arasında olan, "İslam inqilabı"ndan sonra da ön planda olan azərbaycanlı din alimlərinin mücadiləsində islamlıq fəlsəfəsinə səmimi inamları, inancları mühüm yer tutmuşdur. Bu da, artıq əsrlərdən bəri islamlıqla türklüyün çulğalaşması ilə yanaşı, Azərbaycan türklərinin, bütövlükdə türklərin obyektiv, ədalətli mahiyyətindən irəli gəlməkdədir.

Bizcə, digər Türk xalqları və onların aydınları kimi, Azərbaycan türkləri və onun ziyalıları üçün də hər bir zaman təmənna, mənfəət güdmədən islamlığın dərki və onun inkişafı ön planda olmuşdur. İnsanlıq fəlsəfəsini hər daim öz içində, ruhunda daşıyan Azərbaycan türkləri islamlıq fəlsəfəsində də bunu görmüş və ona tapınmaqda bir əngəl görməmişlər. Ancaq zaman zaman saf duyğularının, ədalətlilik prinsipinin aşiqi kimi tamamilə onun əsrinə çevrilən Azərbaycan türkləri digər yad qüvvələrin oyununa gətirilmişdir. Bizcə, XX əsrdə Azərbaycanın güneyində, bütövlükdə indi İran adlanan ölkədə islamlıq fəlsəfəsindən çıxış edən Türk mütəfəkkirlərinin, din alimlərinin əsas problemi digərlərinin də onlar kimi İslam dininə səmimi yanaşdıqlarına inanmaları olmuşdur və bu gün də çox şey dəyişməmişdir.

Hər halda Türk kökənli din alimlərinin bütövlükdə İslam dininə, yaxud da şiəçilik məzhəbinə olan duyğularının, düşüncələrinin, istər-istəməz digər xalqlardan, onların din alimlərinin düşüncələrindən bir çox məsələlərdə fərqləndiyini görürük. Bütün bu fərqliliyin haradan, nədən qaynaqlandığını görmək, bilmək üçün əslində sadə türklərin, yəni din alimləri qədər biliklərə sahib olmayanların duruşundan, sözündən, bir sözlə saf niyyətlərindən anlamaq mümkündür. Az öncə də qeyd etdiyimiz kimi, dünyada var olduğu andan bəri içində hər

zaman insanlıq fəlsəfəsini daşımış, əslində həmin insanlıq fəlsəfəsinin sinonimi olan Türk dünyagörüşünün daşıyıcısı olanların islalmlığa başqa cür yanaşması da mümkün deyildir.

Çox təəssüf ki, Türkün insanlıq və Tanrıçılıq fəlsəfəsindən dolayı islamlığa, İslam dininə bəslədiyi ali münasibətdən sui-istifadə edənlər, onun saflığını istismar alətinə çevirənlər hər zaman olduğu kimi indi də vardır. Bu baxımdan Pəhləvilər rejimi dövründə islamlığın əsil mahiyyətinə inamdan irəli gələrək, onun yenidən bərqərar olması ilə "İslam hərəkatı"na ümid bəsləyənlər, yenə də bizdən olmayıb, ancaq zahirən islamlıq qılığı, şiəlik pərdəsi altında olanların oyununa gəldilər. Ona görə də "İslam inqilabı" ilə ölkədə ədalətin, insanlığın bərqərar olmasına ümidlə, nəinki din alimlərimiz, yuxarıda da qeyd etdiyimiz kimi milli maarifçilərin, milli demokratların da xeyli bir qismi bu yolda mücadilə etmiş, şəhid ya da qazi olmuşlar. Ancaq vaxtilə sosial-demokratiya cərəyanının insanlıq, yəni ümimi bərabərlik, azadlıq fəlsəfəsinə ümid edərək bir çox milli-demokratik hərəkatlara öncüllük etmiş insanlarımız, onların öndə olanları rus, alman və başqa xalqların bu ideyadan sui-istifadə etmələrinin qurbanına çevrildiyi kimi, bu dəfə də aryançıların şiəçilik oyununun toruna düşməkdən qurtula bilmədilər.

Belə ki, İran Pəhləvilər rejimini devrib "İslam inqilabı"nın gerçəkləşməsində aparıcı rol oynayan türklər, o cümlədən Azərbaycan türkləri və onların mütəfəkkirləri, din xadimləri inqilab gerçəkləşdikdən az sonra müxtəlif oyunlarla zərərsizləşdirlərək, yenidən irançılıq-aryançılıq ideolojisinə tabe etdirilməyə çalışıldı. Buna boyun əyməyib əsil islami ideyaların gerçəkləşməsi üçün mübarizə aparanlar da ya məhv edildilər, ya da məcburi şəkildə bu vəziyyətlə razılaşmalı oldular. Bu isə o demək idi ki, İran Pəhləvilər dövründə demokratikləşmə adı altında aryançılığı, İran mədəniyyətini təbliğ edənlər, "İslam inqilabı"ndan sonra islamçlıq, ya da şiəçilik pərdəsi altında bunu etməyə davam etdilər. Əslində ədalətlilik, insanlıq ruhunu özündə daşımayan aryançılar üçün, İran Pəhləvilər dönəmindəki "demokratiya" təəssübkeşliyi kimi, İran İslam rejimindəki "şiəlik" sevgisi də saxtakarlıqdan başqa bir şey deyildi. Bütün bunlara baxmayaraq, "İslam inqilabı"ndan sonra İslam dininin əsil mahiyyətini və bərqərar olmasını müdafiə edənlər, onun ədalətlilik

ruhunun davam etdirmək istəyən Türklər məğlub, sözdə şiəçi, əməldə isə aryançı olan Farslar isə qalib oldular.

Beləliklə, biz, kitabın üçüncü bölmündə Güney Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixini yuxarıda qeyd etdiyimiz istiqamətlərdə araşdırmağa çalışmışıq. Burada diqqət yetirdiyimiz əsas məsələlərdən biri, həm dövrün ictimai-siyasi, mədəni-məlsəfi mənzərəsini hərtərəfli şəkildə işıqlandırmaq, eyni zamanda bütün bunların fonunda mütəfəkkirlərimizin irsini oxucularımıza çatdırmaqdır. Digər vacib məsələ odur ki, biz, burada XX əsrdə yaşamış, öz yaradıcılıqları ilə fəlsəfə və ictimai fikir tarixində iz buraxmış ziyalılarımızın dünyagörüşlərini tədqiq etməyə çalışmışıq. Onların hər biri daşıdıqları əqidələrdən, baxışlarından asılı olmayaraq yalnız Azərbaycanın güneyində deyil, bütövlükdə Böyük Azərbaycanmızda və Türk dünyasında layiqli yer tutmuş ziyalılarımız, alimlərimizdir.

Bu baxımdan Bütöv Azərbaycanımızın güneyində yaşamış Türk mütəfəkkirlərinin irsinin yeni nəslə çatdırılmasını, onların bu irsindən hər bir Azərbaycan türkünün, azərbaycanlının faydalanmasını zəruri hesab edirik. Hər şeydən öncə, iki Azərbaycanın yalnız maddi-fiziki anlamda deyil, eyni zamanda mənəvi-ruhi anlamda bir olması və bu birgəliyin əbədi davam etməsi üçün də bu kimi tədqiqatların aparılması olduqca vacibdir.

# I FƏSİL

## XX əsrdə Güney Azərbaycanda ictimai-siyasi və mədəni mühit (icmal)

### 1.1. XX əsrin əvvəllərində (1901-1925) Qacarlar dövlətində və Güney Azərbaycanda ictimai-siyasi və mədəni mühit

Hazırda Bütöv Azərbaycanın önəmli hissəsi olan Güney Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixini (XIX-XX əsrlər) öyrənmək öz aktuallığını qoruyub saxlamaqdadır. Çünki bu günə qədər tədqiq etdiyimiz dövrlə bağlı Güney Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi əsasən, elmi tədqiqatlara cəlb olunmamışdır. Ən yaxşı halda Azərbaycanın güneyindəki mütəfəkkirlərin ədəbi-bədii görüşləri tədqiq olunmuş, çox az hallarda onların fəlsəfi dünyagörüşlərinə müraciət edilmişdir.

Güney Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi (XIX-XX əsrlər) ilə bağlı araşdırdığımız dövrü şərti olaraq üç mərhələyə bölmüşük: 1) Qacarlar dövlətinin tənəzüllü irançılığın təşəkkülü dövrü (1901-1925); 2) İran Pəhləvilər rejiminə qarşı Milli muxtariyyət dövrü (1925-1979); 3) İran İslam rejiminə qarşı Milli İstiqlal hərəkatı dövrü (1979-2020). Tədqiq etdiyimiz dövrdə əsasən Güney Azərbaycanın da daxil olduğu Qacarlar dövlətindən sonra farspərəst, ariyanpərəst İran Pəhləvilər və İran İslam rejimləri mövcud olmuşdur. Qacarlar dövlətinin de-yure varlığına son verilməsindən sonra (1925) İngiltərənin havadarlığı ilə qeyri-qanuni şəkildə hakimiyyətə gətirilən İran Pəhləvilər dövründə Azərbaycan xalqının mütəfəkkirlərinin milli, dini və dünyəvi məsələlərə münasibətində xeyli dərəcədə dəyişikliklər oldu. Buna səbəb İran Pəhləvilərinin Azərbaycan türklərinə, onun dilinə, tarixinə, mədəniyyətinə, bütövlükdə onun varlığına qarşı radikalcasına düşmən kəsilməsi oldu. Bir sözlə, İran Pəhləvilər və İran İslam rejimlərinin Azərbaycan türklərinə qarşı sərt assimilyasiya siyasət yürütməsi Azərbaycan xalqının dünyagörüşündə özünümüdafiə instikti ilə yanaşı, milli, dini və bəşəri məsələlərdə yeni baxışların ortaya çıxmasına rəvac verdi.

Şübhəsiz, bu dövrdə yaşamış Azərbaycan Türk mütəfəkkirlərinin mədəni-fəlsəfi irsində də ictimai-siyasi və dini-fəlsəfi görüşləri ön planda olmuşdur. Belə ki, bu dövrün mütəfəkkirləri sosial-demokratizm, liberalizm, praqmatizm, imamilik, şiəlik, babilik və digər fəlsəfi və dini-fəlsəfi cərəyanlara münasibətlərini bildirmiş, dövrün reallıqlarına uyğun olaraq düşüncələrini axtarmışlar. Məsələn, Məhəmmədhüseyn Təbatəbai, Məhəmmədkazım Şəriətmədari, Məhəmməd Tağı Cəfəri və başqaları daha çox islamlıq, şiəlik üzrə dini-fəlsəfi əsərlər yazdıqları halda, S.C.Pişəvəri, Səhənd, Şəhriyar, H.Nitqi, H.Sahir, M.Zehtabi və başqaları isə ictimai-siyasi və sosial-tarixi məzmunlu məsələlərə daha çox üstünlük vermişlər.

Əlbəttə, dövrün özünün həddən artıq mürəkkəbliliyi, xüsusilə də Birinci və İkinci Dünya müharibələri ərəfəsində və müharibə dövrlərində baş verən hadisələr Azərbaycan Türk mütəfəkkirlərinin dünyagörüşlərinə də ciddi şəkildə təsir göstərmişdir. Eyni zamanda, aryançı İran Pəhləvilərlə İran İslam rejimlərinin türklərə, o cümlədən Azərbaycan türklərinə qarşı yürütdüyü assimilyasiya siyasəti də öz dərin izini buraxmışdır. Məhz belə bir dövrdə Azərbaycan türklərinin və onun mütəfəkkirlərinin dünyagörüşlərində baş verən dəyişikliklər və yenilikçi düşüncələr təsadüfi olmamışdır. Əslində Azərbaycan türkləri bir tərəfdən dünyada baş verən ictimai-siyasi və mədəni hadisələrin təsirinə məruz qaldıqları halda, digər tərəfdən İran Pəhləvilər və İran İslam rejimlərinin farslaşdırma ideologiyasına qarşı da mübarizə aparmağa məcbur olmuşlar. Bu baxımdan XX əsr – XXI əsrin əvvəllərində Qacarlar, İran Pəhləvilər, İran İslam rejimlərində və Güney Azərbaycanda baş verən ictimai-siyasi, mədəni hadisələrə nəzər salmağa ehtiyac vardır.

XX əsrin əvvəllərində Qacarlar dövlətinə son zərbəni vurmaq üçün aryançı farsdilli zümrə havadarları ingilislərin təlimatı əsasında hərəkətə keçməyə başladılar. Əslində bu təlimata görə, Qacarların devrilməsi üçün öncə inqilabi şərait yaranmalı idi, daha sonra isə bu inqilabi şəraitin gedişi əsasında siyasi taktiki gedişlərlə aryançı farsdilli zümrənin hakimiyyətə gətirilməsi həyata keçirilməli idi. Şübhəsiz, ingilis ideoloqlar da yaxşı anlayırdılar ki, dünyanın əksər imperiya dövlətlərində olduğu kimi, Qacarlar dövlətində də gec-tez inqilab baş verəcək və bu prosesi türlərin əleyhinə, farsların isə

lehinə çevirmək lazımdır. Bu anlamda o zaman olduğu kimi, indi də iddia etmək ki, Qacarlardakı inqilab hərəkat ingilislərin əsəridir, tamamilə yanlışdır. Hələ, həmin dövrdə bu mülahizəyə qarşı çıxan böyük Türk aydını Əli bəy Hüseynzadə yazırdı ki, bir fərdin həddi-büluğa yetişməsi ətrafında olan insanlardan kimsənin əsəri-təşviqi olmayacağı kimi, Qacarlar dövlətindəki vətəndaşların da hürriyyət davası edərək inqilab etmələri ingilis əsəri ola bilməz: "İngilislərin aləmi-siyasətdə ən böyük hünərləri hadisələr törətmək olmayıb bəlkə binəfsə hüsulə gələn hadisələrdən istifadə etmələridir".[38]

Əli bəy Hüseynzadənin bu fikirlərinə qatılmaqla yanaşı hesab edirik ki, ingilis ideoloqlarının, o cümlədən rusların da əsas məqsədi Qacarlarda inqilab baş verəcəyi təqdirdə ədalətlik, bərabərlik, insanlıq kimi ideyalara sarılaraq hərəkatın aparıcı qüvvəsini təşkil edəcək yenilikçi-mütərəqqi ruhlu türkləri öz soyundan olan Qacarlarla düşmən halına gətirmək, bunun fonunda isə aryançı farsları ön plana çıxarmaq olmuşdur. Başqa sözlə, Qacarlarda gözlənilən inqilabda hökumət və inqilabçılar qismində (Qacarlar və türk inqilabçılar) daha çox qurban verən Türklər, qazanan isə aryançı farsdilli zümrə olmalı idi. Belə olduğu təqdirdə də, Türk Qacarlar dövləti devrilərək onun yerinə aryançı farsdilli Pəhləvilərin hakimiyyətə gətirilməsi çox da çətin olmayacaqdı. Bu anlamda hələ, inqilaba qədər aryançı farsdilli zümrə içində mövcud olan "ingilis barmağının" Qacarlar dövlətindəki inqilabın gedişində daha da fəallaşması, eyni zamanda 100 il əvvəl olduğu kimi bu fəallaşmanın sözdə rus-ingilis rəqabəti (rusların Hindistana gedən yoluna sipər çəkmək) olaraq qələmə verilməsi başa düşüləndir.[39] Əslində inqilabı gerçəkləşdirən Qacarlardan çar Rusiyasına ticarət və fəhləlik üçün gedən Güney Azərbaycan türkləri idi ki, Çarlıqda yaşadıqları müddətdə hürriyyət düşüncəsinə qapılmış, eyni zamanda buradakı soydaşlarının, özəlliklə də Quzey Azərbaycan türklərinin də bunda böyük rolu olmuşdur. Hüseynzadə yazır: "Hal və keyfiyyət bu mərkəzdə ikən İrandakı hürriyyət hərəkatının səbəbini ingilis hökuməti barmağının ucunda degil, Rusiya camaatının qəlbindən fövran edən hürriyyət atəşinin İrana

[38] Hüseynzadə Ə. Qırmızı qaranlıqlar içində yaşıl işıqlar. Bakı, Azərnəşr, 1996, s.60.
[39] Şevket Fahreddin. İran (İklim, halk, iktisadiyyat, ictimaiyyat, müessesat-ı medeniyye, adatt-ı miliyye). Ankara, Türk Tarih Kurumu, 2017, s.93-105

düşmüş şərarələrində aramalıdır”.[40]

Əhməd bəy Ağaoğlu da “İran və inqilabı” əsərində Qacarlar dövlətində baş verən iniqlabın maddi və mənəvi səbəblərini dəyərləndirərkən bu məsələdə Qafqaz və Azərbaycan amilini də qeyd etmişdir: “İnqilabın maddi səbəbləri arasında ən çox diqqətə layiq olanlar bunlardır: 1) idarəçilikdə uyğunsuzluq, 2) sui-istifadə; 3) cəbr və zülm; 4) fəqirlik, ehtiyac; 5) əcnəbi hücumları. Mənəvi səbəblərə gəlincə, onları da belə müəyyənləşdirmək mümkündür; 1) iranlıların xariclə münasibətlərinin artması və bu sayədə müyyən qədər avropalılaşmaları; fikirlərə olan təsirlər; Rusiyada və xüsusən İranın yaxınlığındakı Qafqaz və Azərbaycandakı oyanma hərəkatları”.[41] Ağaoğlu mənəvi amilə aid axrıncı məsələylə bağlı onu da yazırdı ki, vaxtilə çar Rusiyasına mühacir edən “iranlılar” (əksəri də türk olmaqla) Qacarlar dövlətində baş verən inqilabda mühüm rol oynamışlar.[42]

Ümumilikdə, hesab edirik ki, Qacarlar dövlətində baş verən inqilabın gedişində ingilislərin ya da rusların rolunun şişirdilməsi doğru olmadığı kimi, onların aryançı farsdilli qüvvələri etdiyi yardımlar da tamamilə gözardı edilməməlidir. Başqa sözlə, hər iki xalq və onların dövlətləri Qacarlar dövlətinə və onun əsas sütunu olan türklərə münasibətdə mənfi rol oynamışlar. Özəlliklə, ingilislərlə rusların Nəsrəddin şahın qətlindən (1896) sonra taxta oturan Müzəffərəddin şah Qacarın (1896-1907) hakimiyyəti dönəmində Qacarlar üzərində oynadığı qorxunc siyasət unudulmamalıdır. Əslində 1896-cı ildə “yenilikçi” Mirzə Rza Kirmani tərəfindən Nəsrəddin şahın qətlə yetirilməsi yanlız ingilislərlə rusları deyil, eyni zamanda ölkədəki bütün daxili və xarici qüvvələrin hərəkətə keçməsinə səbəb oldu. Hər halda bütün yerli və xarici qüvvələr üçün 50 ilə yaxın hakimiyyət sürmüş Nəsrəddin şahla müqayisədə Müzəffərəddin şahla dil tapmaq daha asan olmalı idi.[43]

Müzəffərəddin şah dövründə Qacarlar dövlətində idarəetmə məsələsinə gəlincə, əvvəllər olduğu kimi demək olar ki, federalizm və muxtariyyət prinsiplərinə əməl olunurdu. Belə ki, ölkədə idarə-

---

[40] Hüseynzadə Ə. Qırmızı qaranlıqlar içində yaşıl işıqlar. Bakı, Azərnəşr, 1996, s.63
[41] Ağaoğlu Əhməd. İran və inqilabı. Bakı: Azərnəşr, 2009, s.88
[42] Yenə orada, s.108
[43] Rəsulzadə M.Ə. İran Türkləri. Bakı, “Təknur”, 2013, s.87-88

etmə 4 böyük əyalət (Azərbaycan, Xorasan, Kirman, Fars) və bir sıra müstəqil qurumlar, yerli hökumətlər (Astarabad, Gilan, Mazandaran, Tehran, Zəncan, Həmədan, Qəzvin, İsfahan, Lorustan, Xuzistan və b.) şəklində həyata keçirilirdi. Həmin əyalət və yerli hökumətlər Tehrandan göndərilən hakim təyin olunsa da, ölkədə vahid idarəetmə üsulu ilə bağlı qanun olmadığı üçün, hər biri öz qabiliyyətlərinə, milli adət-ənənələrə uyğun olaraq idarə olunurdu. Demək olar ki, əyalətlər və yerli hökumətlər müstəqil olub, yalnız ümummilli əhəmiyyətli məsələlərdə Tehran hökumətinə bağlı idilər.[44]

Tarixçi alim Eynulla Mədətli doğru yazır ki, həmin dövrdə Qacarlar dövlətinin idarə olunmasında isə ənənəvi olaraq əsas rolu Azərbaycan türkləri oynayırdılar: "İranın idarə edilməsində azərbaycanlıların ənənəvi üstün rol oynaması, hakimiyyətdə olan sülalələrin, əsasən, Azərbaycan türklərindən olması, İran ordusunda, xüsusən zabitlər arasında onların aparıcı mövqelərdə olması, azərbaycanlı və ilk növbədə, Azərbaycandan olan Qacar ziyalılarının ölkənin mədəni həyatında mühüm rol oynayaraq Azərbaycanda və bütün İranda əhəmiyyətli təbəqə təşkil etmələri XIX əsrin sonu – XX əsrin əvvəllərində ölkədə milli münasibətlərin vəziyyətinə müəyyən dərəcədə təsir göstərirdi". [45]

Bizcə, Qacarlar dövlətində xeyli dərəcədə federativ bir idarə üsulu olduğu halda, ölkənin anarxiyaya sürüklənməsi heç də təsadüfi olmamışdır. Xüsusilə də, Müzəffərəddin şah dövründə Qacarların anarxiyaya doğru sürüklənməsində başlıca rolu ingilislər, müəyyən qədər də ruslar oynadılar. İngilislərlə ruslar Qacarları özlərindən asılı vəziyyətə salmaq, daha sonra da süqutuna səbəb olmaq üçün hər cür vasitəyə əl atırdılar.[46] İlk növbədə, iqtisadi sahədə Qacarlar dövləti Rusiyayla İngiltərənin tamamilə "borc bataqlılığı" aslılığına düşürüldü. Bu borcalmaları ölkənin müstəqilliyini qorxu altına alan, mənliyini əksildən, namusunu pozan hal kimi dəyərləndirən Azərbaycan Cümhuriyyətinin qurucusu, ilk cümhurbaşqanı, tanınmış mütəfəkkirimiz Məhəmməd Əmin Rəsulzadə yazırdı: "Dövləti bu ağır,

---

[44] Şevket Fahreddin. İran (İklim, halk, iktisadiyyat, ictimaiyyat, müessesat-ı medeniyye, adatt-ı miliyye). Ankara, Türk Tarih Kurumu, 2017, s.93-105

[45] Mədətli Eynulla. Azərbaycan tarixi məsələləri İran tarixşünaslığında (XX əsrin əvvəlləri). Bakı, "Turxan NPB", 2017, s.27-28

[46] Rəsulzadə M.Ə. Əsərləri (1903-1909). I cild, - Bakı, Azərnəşr, 1992, s.322

mənlikqıran ortamlarda alınan borca tutdurub ağır maliyyə durumuna salan Müzəffərəddin şah para bulmaq siyasəti baxımından ortamı ağırlaşdıran bir çox üstünlüklər də vermiş, bu yöndə atası Nəsrəddin şahı da keçmişdir”.[47] Bütün bunlar yetməzmiş kimi, üstəlik Qacarlar hərbi gücünü də bir vaxtlar Quzey Azərbaycan uğrunda savaşda uduzduğu rusların ixtiyarına buraxmışdır. Sözün açığı, Qacarlar hökmdarlarının ingilislərdən sonra real düşmənləri olan ruslar qarşısında bu qədər aciz duruma düşmələri çox ağrılı bir hal idi. Rəsulzadə yazırdı: “Özülü Nəsrəddin şah çağında qoyulmuş rus subayları başçılığında yaradılmış İran kazak alayına da Müzəffərəddin şahın ağalığı dönəmində özəl üstünlüklər verilmişdi”.[48]

Beləliklə, Qacarlar dövlətində yeniləşmənin qaçılmaz olması gündəmə gəlmişdi. Sadəcə, bu yeniləşmənin hansı şəkildə baş verməsi, daha önəmlisi hansı qüvvənin gerçəkləşdirməsi məsələsi var idi. Bir çoxlarından fərqli olaraq hesab edirik ki, o zaman Qacarlar dövlətində islahatçılıq istəyilə meydana çıxanlar arasında Türk yenilikçilərin olması təbii idi. Türk yenilikçilərinin burada əsas məqsədi heç də Qacarların zəifədilməsi ya da devrilməsi deyil, tam əksinə şiəlik, irançılıq qılığına girmiş şovinist farsları hakimiyyətdən uzaqlaşdırmaq, bu dövlətin ilk başlarda olduğu kimi ədalətli şəkildə idarə olunmasına nail olmaq idi. Ancaq ingilislər Azərbaycan türklərin qarşı aryançılıq, irançılıq ideolojisi adı altında fars amilindən məharətlə istifadə etdilər.[49] Başqa sözlə, hakimiyyəti, ordunu türklərin əlindən almaq üçün, aryançılığı, irançılığı ortaya atıb türk-fars münasibətlərini kəskinləşdirdilər.[50]

**Qacarlarda Məşrutənin elanı, ilk Məclis dövrü və Güney Azərbaycan.** Qacarlar dövlətinin yeniləşməsi Türk hakimiyyətinin davamlılığı üçün vacib amil idi. Çünki Qacarlar özündə güc tapıb yeniləşməyəcəyi təqdirdə, onların devrilərək yerində aryançı farsların hakimiyyətin qurulması planı çoxdan hazırlanmışdı. Bu anlamda 1906-1909-cu illərdə Qacarlarda baş verən inqilabın iki xətdən

---

[47] Rəsulzadə M.Ə. İran Türkləri. Bakı, “Təknur”, 2013, s.90
[48] Yenə orada, s.90
[49] Yenisey Gülara. İranda etnopolitik hareketler (1922-2004), İstanbul, Ötüken, 2008, s.108-110.
[50] Mustafayev Vidadi. Cənubi Azərbaycanda milli şüur (XX əsrin birinci yarısı). Bakı, Əbilov, Zeynalov və oğulları, 1998, s.25-26

biri üzərində inkişafı qaçılmaz idi. Birinci xəttə görə, Qacarlar ölkədə baş verən yeniləşmə hərəkatını lehinə çevirərək yenidən Azərbaycan Türk mərkəzli siyasət yürütməli, eyni zamanda dini məzhəbçilikdən uzaq dünyəvi hakimiyyətə söykənməli bununla da ağalıqlarına davam etməli idi. İkinci xəttə görə, ölkədə baş verən yeniləşmə hərəkatı Qacarların əleyhinə çevrilməli, onun yerinə "liberal-demokrat" qılıqlı irançılar-aryançılar hakimiyyətə gətirilməli idi.

Bizcə, ilk dövrlərdə nisbətən birinci xəttin tərəfdarları uğur qazanmağa balamışdılar. Belə ki, Müzəffərəddin şah Qacar Türk düşmənlərinin gözləmədiyi halda, heç bir dirəniş göstərmədən Qacarlar Məclisinin açılması (1906, oktyabr), daha sonra Konstitusiyalı dövlətin elan olunması (1906, 30 dekabr) barədə fərmanlar vermişdir.[51] Bu isə, özəlliklə Qacarların da qanını daşıdığı hakim Türk ulusu tərəfindən böyük sevinclə qarşılanmışdır. Başqa sözlə, Müzəffərəddin şah bu addımıyla əsasən yenilikçilik tərəfdarı olan türklərin sevgisini qazanmışdır ki, Türk ulusuyla Qacarlar arasında qopmuş bağlar yenidən birləşməyə üz qoymuşdur. Bununla da, aryançı irançılarla onların havadarlarının sayəsində uzun müddət "dərin bir uyqu içində hərəkətsiz duran"[52] Qacarlar dövlətində yenilkçi ruhlu bir oyanış baş vermişdir.

Müzəffərəddin şah Qacarın ölkədə məşrutiyyət elan etməsini böyük sevinclə qarşılayan Türkçülyün, Turançılığın ideoloqu Əli bəy Hüseynzadə "Həyat" qəzetində nəşr olunan "Hüriyyət və Vətəni-Firdovsi" (1906, sentyabr) məqaləsində şahın bu addımını Əmir Teymurun bütün hərbi qələbələrinə bərabər tutmuşdu: "Türk nəslindən olan yeni bir hökmdarın, Teymurun bütün zəfərlərinə bədəl böyük bir müzəffəriyyətə nail oluyor! Yaşa Müzəffərəddin, yaşa!".[53] O, daha sonra "Füyuzat" jurnalında Müzəffərəddin şahın ölümü münasibətiylə qələmə aldığı "Müzəffərəddin" adlı məqaləsində onun hələ Təbrizdə vəlihəd olarkən islahatlara meyilli olmasından, daha sonra şah olduğu dövrdə bu islahatları davam etdirməsindən bəhs etmişdir: "Elm və maarifin qədrini bilən Müzəffərəddin şah Azərbaycandakı canişinliyi zamanı bir çox icraati-nafiədən xali qalmadı.

---

[51] İvanov M.S. Oçerk istorii İrana. Moskva, 1952, s.198-203

[52] Hüseynzadə Ə. Qırmızı qaranlıqlar içində yaşıl işıqlar. Bakı, Azərnəşr, 1996, s.107

[53] Hüseynzadə Ə. Türklər kimdir və kimlərdən ibarətdir? Bakı, Mütərcim, 1997, s.203

Qərbin əfkari-tərəqqi və mədəniyyətini İranda nəşr üçün Təbrizdə "Nasiri" namilə bir ceridə çıxmağa başladı. Avropa üsulunda mütəfənnin zabitlər yetişdirmək üçün yenə eyni şəhərdə "Müzəffəriyyə" namilə bir məktəbi-ali bina olunub, bunun üçün Avropadan Vaqner xan kimi xüsusi müəllimlər dəvət edildi. Bu sayədə ümuri-əskəriyyədə bir xeyli islahat və tənzimat vücuda gəldi. Mərhum hər yerdə Azərbaycan əhalisinin imdadına yetişməyə qeyrət ediyordu".[54]

Ə.Hüseynzadə yazırdı ki, ölkənin şahı seçildikdən sonra da Müzəffərəddin şah islahatlarına davam etmiş, dövlətin idarə üsulunun yenilənməsi üçün fərmanlar vermişdir. İlk dövrlərdə bu fərmanları ciddi uğur qazanmasa da, çox keçmədən ölkədə kök salmış istibdad bürokratiyasının yenilməsində mühüm rol oynamışdı. O, yazırdı: "Tərəqqi və islahatə ziddi və istibdad və fəsad tərəfdarı olan mənfur bürokratizmənin axır nəfəsi yaqlaşıb, yavaş-yavaş təcəddüd və inqilab əmarələri zühura başladı".[55]

Ə.Hüseynzadəyə görə, Müzəffərəddin şahın ölkədə məşrutəni elan etməsində də bir tərəfdən Avropanın, Rusiyanın, Yaponiyanın inkişafı fonunda İslam aləminin, İslam mədəniyyətinin geriliyi, digər tərəfdən Qacarlarda mütləqiyyətin Osmanlıda olduğu kimi, dərindən kök atmaması, xüsusilə də buranın üləma və alverçi sinfinin hökumətə qarşı etibarla istiqlallarını mühafizə edə bilmələri, əyalət və yerli hökumətlərin xeyli dərəcədə müstəqil olmaları mühüm rol oynamışdır. O, yazırdı: "Müzəffərəddin şah həzrətləri həm özünü, həm xanədanını, həm də millətini istibdadın, məiyyət və bürokratiya istibdadının əlindən xilas edib hökmdar ilə millət arasındakı haili qismən rəf edə bildi".[56] Onun fikrincə, İttihada-İslama böyük bir cığır hazırlayanlardan olan Müzəffərəddin şah[57] məşrutə elan etməklə də yalnız Qacarlar tarixinə deyil, ölkənin bütün tarixi üçün bir ilkə qol qoymuş oldu.

M.Ə.Rəsulzadə də 1912-ci ildə Türkiyədə qələmə aldığı "İran inqilabının tarixi" məqaləsində yazırdı ki, ölümünə az qalmış məşrutəçiliyi (anayasaçılığı) bildirmiş Müzəffərəddin şah ulusun içdən

[54] Hüseynzadə Ə. Qırmızı qaranlıqlar içində yaşıl işıqlar. Bakı, Azərnəşr, 1996, s.113
[55] Yenə orada, s.113
[56] Yenə orada, s.110
[57] Yenə orada, s.105

sevgisini qazanmışdı. Rəsulzadə yazırdı: "Şah anayasaçılığı bildirdikdən sonra demək olar Avropa ağaları kimi çox az deyiləcək düzəydə, bir kaç qulluqçuları ilə saya bir biçimdə Tehran küçələrini dolaşır, bazarlara çıxır, yaşayanların alqışlarını qazanır, xeyir-dua görür, bundan olduqca duyğulanırdı. Oxumamışlar Müzəffərəddin şahı tarixin yetişdirdiyi təklərdən sayaraq incə qəlbli olduğunu düşünürdü. Yaşayanlar içində ona ürəkdən güvənənlər, bağlananlar olmuş, ulusal coşqunun bundan yüksəyi düşünülmürdü. Parlamentin önündə toplanan yaşayanlardan "Yaşasın Asiya imperatoru" deyə bağıranlar olmuşdu".[58]

Hesab edirik ki, dünya tarixi, o cümlədən Türk (Azərbaycan) tarixi Müzəffərəddin şahla bağlı mənfi cəhətlərlə yanaşı, müsbət tarixi məqamları da unutmamalıdır. Hər halda onun Türk məşrutəçilərin də təsiriylə ruhanilərin basqısından uzaqlaşıb Türk ulusuyla yaxınlaşdıqca yenilkçi cəhətləri ortaya çıxmışdı. Təbrizdən Tehrana gələrkən Türk şahzadələrini özü ilə bərabər mərkəzə gətirən, üstəlik Türk şahzadələrindən Eynülddövləni özünün vəziri təyin etmiş Müzəffərəddin şahın bütün bunlarla yanaşı Türk məşrutəçiləri dəstəkləməsi, 1906-cı ildə Azərbaycan Əyaləti Əncüməninin, ya da Azərbaycan Milli Cəmiyyətinin yaranmasına da razılıq verməsi təsadüfi ola bilməzdi.[59] A.Qasımlı yazır: "Bu Əncümən sayəsində iyirmi nəfər Azərbaycan Türkü Əncümənə üzv seçilmiş, Güney Azərbaycanda milli təfəkkür surətlə inkişaf etməyə başlamış, məzhəb çatışmalarına son verilmiş, Türkcə tədris yapan məktəblər yaranmış, Türkcə mətbuat inkişaf etmiş, yeni siyasi təşkilatlar yaranmağa başlamış, ümumiyyətlə "Əncüməni Milli Təbriz" Güney Azərbaycanın idarə edilməsində önəmli yer qazanmışdı. "Əncüməni Milli Təbriz"in siyasi beynini "Mərkəzi-Qeybi" adlı təşkilat təşkil edirdi ki, bu gizli təşkilat tədqiqatçıların fikrincə, Nəriman Nərimanovun dəstəklədiyi Güney Azərbaycan türkləri tərəfindən Bakıda yaradılan Sosial Demokrat Partiyasının kod adı olan "İctimaiyyun Amiyun" Partiyası idi".[60] M.Ə.Rəsulzadə də vaxtilə "İran türkləri" əsərində yazırdı ki, 1-ci Rusiya inqilabı dövründə (1905-1906) onun təsiri

---

[58] Rəsulzadə M.Ə. İran Türkləri. Bakı, "Təknur", 2013, s.97
[59] Baykara Hüseyin. İran inkılabı ve Azatlık Hareketleri. İstanbul, 1978, s.71-72
[60] Qasımlı Aydın. Güney Azərbaycan türkləri son 100 ildə. Bakı, Adiloğlu, 2012, s.29-30

altında Qafqazdakı iranlılar (çoxu türklər olmaqla) Bakıda Sosial Demokrat Partiyası adlı cəmiyyət yaradıblar. Bu təşkilatın Qacarlar dövlətində və Qafqazda özəklərinin olduğunu yazan Rəsulzadəyə görə, Məşrutənin elan olunmasında onların mühüm rolu olmuşdur. [61] Bu təşkilatın liderləri arasında Əli Müsyö Təbrizi, Heydər Əmioğlu və başqaları var idi.

Müzəffərəddin Şah Qacardan sonra Qacarlar dövlətinin başına keçən oğlu Məhəmməd Əli Şah Qacarın (1907-1909) Türk ulusu ilə Qacarlar arasında yenidən yaranan birlik bağını gücləndirmək yolunu tutmaq əvəzinə, əks addımlar atması diqqətçəkicidir. Türk ulusu, o cümlədən Türk aydınları Məhəmməd Əli şah Qacarın da atasının yolunu davam etdirəcəyini gözləyirdilər. Məsələn, Əli bəy Hüseynzadə 1907-ci ildə "Füyüzat"da yazdığı bir məqaləsində inanırdı ki, Müzəffərəddin şahın "müqəddəs vəsiyyətləri ortada dururkan Məhəmməd Əli şah mənfur istibdadların nəsihətlərinə qulaq verən deyildi".[62] Hüseynzadəyə görə, Qacarların konstitusiyalı dövlət olması Avropa dövlətlərinə, o cümlədən Almaniya, İngiltərə və Rusiyaya sərf etmir. Ona görə də, Qacarlar dövlətinin şahı mütləqiyyət yolu tutmamalı, məşrutiyyət fikrindən əsla vaz keçməməlidir. [63]

1907-ci ilin yanvarında Azərbaycan Əyalət Əncüməni 7 maddədən ibarət tələblərini (Anayasaya uyğun bir idarəetmə sisteminin qurulması, ölkə ərazisində əyalət və vilayət əncümənlərinin təşkil olunması və s.) saraya göndərdi və həmin tələblər yerinə yetirilməyəcəyi təqdirdə Azərbaycanın Qacarlar dövlətindən ayrıla biləcəyini elan etdi. Məhəmməd Əli Şah da taxta oturduqdan sonra, yəni 12 fevral 1907-ci ildə əvvəlcə sədrəzəm vasitəsiylə Məclisə təzkərə göndərərək məşrutiyyət rejiminə bağlılığını bildirdi. Bundan sonra birinci Məclis 122 maddədən ibarət olan qanun qəbul etdi ki, prof. Nəsib Nəsibliyə görə, buradakı bəzi qanunlar, o cümlədən əyalət və vilayət əncümənlərinin yaradılması da əsasən Qacarlar dövlətinin idarəetmə quruluşuna görə müəyyənləşdirilmişdi. O, yazırdı: "Əyalət və vilayət əncümənləri dönəmin İran dövlətinin "Məmalik-i Mahruse-yi Qacar" prinisipindən qaynaqlanırdı (lakin bu prinsip

[61] Rəsulzadə M.Ə. İran Türkləri. Bakı, "Təknur", 2013, s.29
[62] Hüseynzadə Ə. Qırmızı qaranlıqlar içində yaşıl işıqlar. Bakı, Azərnəşr, 1996, s.203
[63] Yenə orada, s.203

anayasada yer almırdı). Əncümən, İrandakı xalqların önəmli və tək demokratik və milli uğurlarından biri sayılmalıdır. Çox millətli İranda millətlərarası problemlərin yumşaldılması, hətta sonralar həll edilməsində həssas rol oynama potensialına sahib idi”.[64]

Məşrutə dövründə Təbriz, Urmiya və Tehranda yayınlanan qəzetlər əsasən türk və fars dillərində olsa da, əsas ağırlıq fars dili idi.[65] Türk və fars dillərində yayınlanan qəzetlərdə bir qayda olaraq ümum ölkə problemlərinə müraciət edilmiş, türklük məsələsi demək olar ki, mətbuat səhifələrində yer almamışdır. Bu baxımdan N.Nəsibliyə görə, Məşrutə dövründən ən karlı çıxan farslar olmuşdur. Hər şeydən öncə farsların on illərcə alışamadıqları Qacar hakimiyyəti zəifləmiş, ölkə idarəetməsində böyük ağırlığı olan fars bürokratiyasının rolu daha da artmışdı.[66]

Qacarlar dövlətinin ilk Məclisində Türk millət vəkilləri farslara nisbətdə say baxımından az olsalar da (ilk Məclisdə millət vəklillərinin yarısı heç bir məntiqə uyğun olmadan Tehrandan, yarısı da digər bölgələrdən seçilmişdi), ancaq ən fəal və yenilikçi tərəf idilər. İlk Məclisdə partiyaların fraksiyaları olmasa da, ancaq iki axın: 1) yenilikçilər, və 2) mühafizəkarlar var idi ki, yenilkçilər axınının başında türk soylu S.H.Tağızadə ilə Hacı Mirzə İbrahim Ağa dayanırdı. İlk Qacarlar Məclisi qovulandan sonra Tağızadə Avropaya qaçmağa müvəffəq olsa da, Hacı Mirzə İbrahim Ağa edam olunmuşdu.[67]

Bütün hallarda, ilk parlament dönəmində Tehranda 70-a yaxın siyasi cəmiyyətlər var idi ki, onların arasında “Azərbaycan Cəmiyyəti” (Azərbaycan Əncüməni), ya da “Təbriz Cəmiyyəti” ön yeri tuturdu. Rəsulzadə yazırdı ki, “Azərbaycan cəmiyyəti” bütün cəmiyyətlərin baş yeri, yönəldicisi idi; Azərbaycan-Təbriz Cəmiyyətinin üzvlərinin çoxu isə türklər idi, yönətim qurulu da türklərin əlində idi.[68] E.Mədətli yazır ki, Azərbaycan-Təbriz Cəmiyyətinin əsil vəzifəsi Məclis üçün namizədlər irəli sürmək və onları seçməkdən ibarət olsa da, tezliklə öz səyləri nəticəsində əslində regional parlamentə çevrilmişdi. Eynulla Mədətli yazır: “Həmin ilin okt-

---

[64] Nesibli Nesib. Azerbaycan tarihi: Millet-Devlet-Siyaset. Ankara, Altınordu,2019, s.488
[65] Məmmədli Pərvanə. Cənubi Azərbaycan mətbuat tarixi. Bakı, Elm, 2009, s.33-62
[66] Nesibli Nesib. Azerbaycan tarihi: Millet-Devlet-Siyaset. Ankara, Altınordu,2019, s.489
[67] Rəsulzadə M.Ə. İran Türkləri. Bakı, “Təknur”, 2013, s.30
[68] Yenə orada, s.30-31

yabrında Təbriz Şurasının "Cəride-ye melli" (Milli qəzet) qəzeti fars dilində nəşrə başladı. Qəzetin bir sıra məqalələrində Əncümən-e Təbriz Milli Məclis adlandırılmışdı və bu Tehranda Məclis üzvlərinin etirazına səbəb olmuşdu. Buna görə, Məclsidəki azərbaycanlı deputatlar məsələyə aydınlıq gətirdilər və Əncümən-e Təbrizin Milli Məclis yox, əyalət şurası olduğunu vurğuladılar. Lakin Təbriz Şurası regional məsələlərlə məşğul olmaqla kifayətlənmir, konstitusiyanın ardıcıl müdafiəçisi kimi zəruri hallarda Tehrana – Məclisə də əhəmiyyətli təsir göstərirdi".[69]

Qacarlar dövlətində konstitusiyanın qəbulundan (1907-ci ilin may-iyun ayları) az sonra Tehran hökumətinin Rusiya və İngiltərədən yeni bir borc almaq istəyinə qarşı çıxan Məclisin bununla yanaşı, Qacarların xarici dövlətlərin siyasi-iqtisadi aslılığından qurtulması üçün qəbul etdiyi 5 maddəlik qərara (Milli Bankın qurulması, Rusiya və İngiltərədən hər cür borc tələbinin yasaqlanması, Şaha müəyyən miqdarda maaşın bağlanması və s.) qarşılıq Məhəmməd Əli Şah da, sədrəzəm Mirzə Nəsrullah xanı (Müşirüddövlə) vəzifəsindən uzaqlaşdıraraq anti-məşrutəçi Mirzə Əli Əsgər xanı (Atabəy-əzəmi) onun yerinə gətirdi. Üstəlik, Məhəmməd Əli Şahın məşrutiyyəti ləğv edib mütləqiyyətə qayıtmaq yolunda Rusiya və İngiltərənin dəstəyini almaq üçün (əslində bu planı Türk düşməni olan həmin dövlətlərin özləri hazırlamışdılar) 31 avqust 1907-ci ildə Qacarlar dövlətini Rusiya və İngiltərə arasında nufuz dairəsinə bölünməsinə razılıq verməsi [70] yalnız sədrəzəm Mirzə Əli Əsgər xanın ölümünə gətirb çıxarmadı, eyni zamanda ölkədə daxili anarxiya pik həddə çatdı.

Azərbaycan Türk mütəfəkkiri, dövlət xadimi Mirzə İbrahimova görə, bu dövrdə mütərəqqi qüvvələr mühafizəkar qüvvələrlə fəal şəkildə mübarizə aparırdılar, ancaq son nəticədə sonuncular üstün gəldilər: "Ümumiyyətlə, o illər İranda və Cənubi Azərbaycanda ictimai-siyasi həyatın son dərəcə qeyri-sabit, dəyişkən, gözlənilməz hadisələrlə zəngin olduğu dövr idi. Bu dövrdə yalnız mütərəqqi inqilabi qüvvələr deyil, əks cəbhəni təşkil edən mürtəce zülmkar, mühafizəkar, qaragüruh qüvvələr də fəal surətdə əlləşirdi, bərk əl-ayaqda idi. Onlar, mütərəqqi qüvvələrin Müzəffərəddin şahdan

[69] Mədətli Eynulla. İranda Azərbaycan tarixi məsələləri. Bakı, Turxan NPB, 2020, s.141
[70] Hüseynzadə Əli bəy. Siyasəti-Fürusət. Bakı, Elm, 1994, s.46

qopardıqları məşrutə hökümünün əməli olaraq həyata keçirilməsinə yol vermədilər və 1907-ci ildə, yəni Rusiyada Stolipin irticasının hökm sürdüyü, hər cür qansoranların meydan suladığı dövrdə kütbeyin, satqın Məmmədəli şahı hakimiyyət başına gətirdilər. O isə həm çarizmin, həm də ingilislərin köməyi və təhrikilə məslici topa tutdu, məşrutə tərəfdarlarına hücum etdi”. [71]

Həmin dövrdə Məhəmməd Əli şahdan anti-məşrutəçilik, anti-hürriyyətçilik düşmənçiliyi gözləməyən yenilikçi-mütərəqqi Azərbaycan türkləri Təbrizi Məşrutəni qoruma hərəkatının mərkəzinə çevirməklə yalnız özlərini deyil, Qacarları da bu qorxunc oyundan xilas etməyə çalışırdılar. Bu anlamda Qacarlar dövlətinin əsas milləti olan Türk ulusunun öz soyundan olan Qacarlar sülaləsinin şahının doğru olmayan siyasətinə qarşı çıxması xəyanət deyil, tam əksinə oyuna gətirilmiş Türk hökmdarı Məhəmməd Əli şahı doğru yola çəkmək və Türk hakimiyyətinin nüfuzunu bərpa etmək idi. Ancaq xarici qüvvələrin, xüsusilə də Rusiya diplomatiyasının təsiri altın düşmüş Məhəmməd Əli şah Türk xalqına arxalanmaq ya da mütərəqqi Türk məşrutəçilərinin haqq səsini dinləmək əvəzinə, Tehrandakı Məclisi dağıdaraq mütləqiyyətə qayıtmaq yolundan vaz keçmədi. “Şah və onun ətrafında toplanmış mürtəce qüvvələr tərəfindən hələ 1908-ci ilin aprel-may aylarından hazırlanmaqda olan hökumət çevrilişi həmin il iyun ayının 23-də həyata keçirildi. Əksinqilab bütün İranda (Qacarlarda-F.Ə.) hücuma keçdi. Lakin Təbrizdə inqilabi hərəkat daha ciddi şəkil aldı, burada Azərbaycan Əyalət Əncüməni, Təbriz sosial-demokrat təşkilatı və məhəlli əncümənlər yeni inqilabi mübarizəyə, qəti döyüşlərə hazırlaşmağa başladılar. İnqilabi mübarizənin mərkəzi Tehrandan Təbrizə keçdi”.[72]

Bizcə, “inqilabi mübarizənin mərkəzinin Tehrandan Təbrizə” keçməsində gerilikçi, yəni aryançı fars məşrutəçilərin yenilikçi-mütərəqqi türk məşrutəçilərin yanında yer almamaları da mühüm rol oynadı. Aryançı fars məşrutəçilər ingilislərin məsləhətiylə, siyasi manevr edərək Məhəmməd Əli Şahın yanında müvəqqəti də olsa, yer almağı daha münasib bildilər. Çünki məşrutənin yenilikçi axını olan

[71]Cənubi Azərbaycan ədəbiyyatı antologiyası.4 cilddə, 2-ci cild. Bakı, Elm, 1983, s.12-13

[72] Azərbaycan tarixi. Dərslik (redaktorlar: Z.M.Bünyadov və Y.B.Yusifov). Bakı: Azərnəşr, 1994, s.633.

türklərin sayca azlıqda olmasına baxmayaraq önə çıxmağa başlaması, özəlliklə Qacarların paytaxtı Tehranda mövcud olan parlamentdə təsirini artırması aryançı farslarla, onların əsas havadarı İngiltərəni qətiyyən qane etmirdi. Hər halda bu dövrdə elan olunmuş Məşrutənin yenilikçi qüvvəsi kimi türklər Tehranda toplanmış ilk Məclisin qərarlarına hökumətin əməl etməyəcəyi təqdirdə yeni hökumət seçəcəklərini bəyan etməsi təsadüfi deyildi. Həmin proseslərin canlı şahidi olan M.Ə.Rəsulzadə bununla bağlı çox doğru yazırdı ki: "“İran bahadırları türklərdir” - demək İran inqilabının (Qacarlar Məşrutə hərəkatının – F.Ə.) əsası ilə, əsasi-elmiyyəsi ilə isbat edilmiş bir həqiqətdir ki, bu barədə heç danışıq belə olmaz".[73]

İlk Məclisi müdafiə edərək dövlətin fedarasion yapısını gerçəkləşdirməyə çalşan yenilikçi-mütərəqqi Türk məşrutəçiləri Azərbaycanın Qacarlar dövlətindəki mühüm nüfuzunu da bərpa etmək istəyirdilər. Bu məsələ ilə bağlı Mirzə İbrahimov yazırdı: “Səttarxan hərəkatı inqilabi-demokratik qanunlar əsasında idarə olunan federasion İran yaratmaq, Azərbaycana muxtariyyət əldə etmək məsələsini əməlli olaraq ortalığa çəkmiş və hətta qısa bir müddətdə bu məsələni həll etmişdi də. Səttarxan dövründə təşkil olunmuş əyalət əncümənləri müəyyən hüquqlara malik olan muxtar dövlət üsulundan başqa bir şey deyildi. Əyalət Əncüməninin qərarı ilə o zaman Azərbaycanda doğma dildə mətbuat və kitablar nəşr edilmiş, məktəblərdə ana dilində təlim həyata keçirilmişdi. Lakin inqilab öz işini axıra qədər apara bilməmişdi. Bir yandan ingilis imperializmi, o biri yandan çarizm azadlıq hərəkatının genişlənməsinə yol verməmiş, onlardan hər birisi öz məqsədləri üçün istifadə etməyə çalışmış və mürtəce qüvvələri iş başına gətirmişdilər”.[74]

Türk yenilikçilərinin önə çıxmasından rahatsız olan, buna görə də Məşrutəyə dəstək olmaq əvəzinə, əvvəlcə Məhəmməd Əli Qacarın yanında yer almalarını Rus və İngilis hökumətləri şaha qarşı “fəna” vəziyyətdə bulunmaq istəməmələri kimi izah etmişlərdi.[75] Əslində Türk düşməni Rus və İngilis hökumətləri yaxşı bilirdilər ki,

---

[73] Rəsulzadə M.Ə. Əsərləri (1903-1909). I cild, - Bakı, Azərnəşr, 1992, s.120.

[74] İbrahimov Mirzə. Cənubi Azərbaycanda milli-demokratik hərəkat haqqında.// “İnqilab və mədəniyyət” jurnalı, Bakı, 1947, №4, s.80-81

[75] Rəsulzadə M.Ə. Əsərləri. III cild, - Bakı: “Elm”, 2012, s.333

Tehranda yenilikçi-mütərəqqi Türk məşrutəçilərinin güclənməsi əsil planlarını həyata keçirməyə əngəl olacaqdır. Xüsusilə də, ilk Məclisin qapadılmasına əngəl olmayan İngilis hökuməti növbəti həmlədə, irançı qılıqlı aryançı farsların, eyni zamanda irançılıq toruna düşmüş türklərin parlamentdə olmasını planlayırdı. Əslində Tehrandakı Məclisin və hökumətin irançılıq üzərindən farslaşdırılması planının nəticəsində Tehranın bir Qacarlar-Azərbaycan-Türk paytaxtından, hökumətlə Məclisin də Qacarlar-Azərbaycan-Türk ruhundan uzaqlaşdırılıb uyğun olaraq İran-Fars paytaxtına və İran-Fars hökumətinə-parlamentinə çevrilməsinin təməli qoyuldu. Ən acınacaqlısı odur ki, Məhəmməd Əli Şah Qacarın dövründə səltənətin vəlihədinin Təbrizdə oturması ənənəsi də pozuldu.[76]

Yeri gəlmişkən, yalnız 1-ci Dünya savaşı nədəniylə 1915-ci ilin yazında Təbrizə daxil olan Osmanlı Türk ordusunun rəhbərliyi Tehran hökumətinə bildirmişdir ki, Qacarlar səltənətinin vəlihədi Təbrizə gələrsə, Osmanlı Türk ordusu dərhal şəhəri tərk edəcəklər. Deməli, irançı mərkəzli Tehran hökuməti yalnız 9 illik bir aradan sonra Osmanlıların təkidindən sonra məcburən səltənətin vəlihədini Təbrizə göndərməyə razı olmuşdur.[77]

Məhz Tehranın Qacarların paytaxtı olduğu halda Türk ruhundan uzaqlaşdırılması prosesinin başlanmasıyla da, istər-istəməz Azərbaycan türklərinin gözü Türklərin ikinci paytaxtı Təbrizə və Azərbaycan Əyalət Əncüməninə çevrildi. Rəsulzadənin təbrincə desək, Tehrandan sonra Təbrizi məşrutə hərəkatının əsas dayaqlarından biri halına gətirən türklər, bu hərəkatın yalnız maddiyyatını deyil, mənəviyyatını da sonuna qədər idarə etməyə çalışmışlar. "Təbriz adətən İran əfkarı-əhraranəsinin bir nazimi-mütləqi olmuşdur, məşrutiyyətin bir dərəcə istiqrarından və Məclisi-Millinin güdaşından sonra da türklərin həyati-siyasiyyədə əhəmiyyətləri artmış və ədədlərinin nisbətindən daha çox fəaliyyətləri görülmüşdür. Gərək birinci Məclisdə və gərək ikinci də Azərbaycan vəkilləri nüfuzu-nəzər və həmiyyət-vətəniyyəcə sair arkadaşlarından daima yüksək bir mövqedə bulunmuşlardır".[78] Bizcə, ilk Məclislə müqayisədə ikinci Məclisdə Türk

---

[76] Yenə orada, s.85
[77] Yenə orada, s.34.
[78] Rəsulzadə M.Ə. Əsərləri (1909-1914). II cild, - Bakı, Şirvannəşr, 2001, s.118

millət vəkilləri sayca çoxalsalar da, ancaq keyfiyyət baxımından ("irançılıq" anlayışının ortaq dövlətçilikdən fars dövlətçilyinə keçidi baxımından) aryançı farsçıların kölgəsində qalmağa başladılar.

Bütün hallarda, 1908-1909-cu illərdə Qacarlar dövləti ilə yenilikçi-mütərəqqi Türk məşrutəçilərinin münasibətlərinin kəskinləşməsi, yəni dövlətin əsas iki Türk qüvvəsinin (hakim və müaxlif) qarşı-qarşıya qoyulması, hər ikisini də zəif saldı. Türk ağalıqla yenilikçi Türk məşrutəçilərin qarşı-qarşıya gəlməsində mühüm rol oynayan irticaçı-gerilikçi aryançı farslarla onların havadarları bu prosesdən çox karlı çıxmış oldular. Beləliklə, bizcə, Məhəmməd Əli Şahın rus diplomatiyasının təsiri altında mütləqiyyətçilik düşüncəsindən, anti-məşrutəçiliyindən istifadə edən aryançı farsların iki tərəfə (Qacarlar ağalığına və yenilkçi Türk məşrutəçilərə) son zərbəni vurmaq üçün hərəkətə keçdikləri bir vaxtda Məşrutəni qorumaq üçün yenilikçi türklərin ayağa qalxması təbii idi.[79]

Məhəmməd Əli şahın məşrutiyyət deyil, mütləqiyyət yolu tutması Qacarların taleyini həll edən əsas faktor oldu. Belə ki, müəyyən bir aralıqdan sonra yenidən məşrutiyyət, hürriyyət "meyvəsini dərmiş" Türk ulusunun hətta, qarşılarındakının öz soyundan olduqlarını bildikləri halda belə, bundan vaz keçməyəcəkləri, sonuna qədər mücadilə verəcəkləri bəlli idi. Şübhəsiz, bunu Məhəmməd Əli şahdan fərqli olaraq onu mütləqiyyət yoluna sürükləyən ruslarla ingilislər də yaxşı bilirdilər. Başqa sözlə, Qacarlar dövləti hökmdarının məşrutəni ləğv edib mütləqiyyətə dönməsinə ilk etiraz edənlərin yenilikçi türklərin olması qaçılmaz idi ki, bütün bunlar gerçəkliyə çevrildi.

Bütün hallarda bizcə, Məşrutənin faciəli sonluğunda Məhəmməd Əli şah, ya da bütövlükdə Qacarlar dövlətinin idarəediciləri, müəyyən qədər də Səttarxan başda olmaqla yenilikçi Türk məşrutəçilər də müəyyən qədər yanlışlığa yol veriblər. Ancaq ilk Məclisin faciəli sonluğunda əsas rolu Məhəmməd Əli şahla Səttarxan ya da Qacarlarla yenilikçi Türk məşrutəçilər deyil, irticaçı aryançı farslarla onların havadarları (İngiltərə, Rusiya) oynamışlar. Bu anlamda Qacarların süqutunda Məhəmməd Əli şahmı, yoxsa yenilikçi Türk məşrutəçilərimi günahkardır düşüncəsindən bir qədər uzaqlaşıb,

[79] Ələkbərli Faiq. Turan sivilizasiyasına giriş: Turan məfkurəsi və Tanrıçılıq. Bakı, "Xan" nəşriyyatı, 2017, s.311

yalnız öz-özümüzü düşmən kimi qələmə verməkdən əl çəkməliyik.

Bununla bağlı Əli bəy Hüseynzadə hələ, 1908-1909-cu illərdə yazdığı "Siyasəti-fürusət" əsərində çox incə, həssas şəkildə Ağa Məhəmməd Şah Qacarın dilindən yazırdı ki, əslində Qacarlar özləri hakimiyyət başında olduğu müddətcə, məşrutiyyət və hürriyyət əleyhdarları da deyildilər. Bu anlamda Məhəmməd Əli şah da əslində tamamilə məşrutiyyət əleyhdarı olmadığı halda oyuna gətirilmişdir. Hüseynzadə yazırdı: "Məhəmməd Əli Şah ən xətərnak bir təriqi-zəlalətə sapmışdır. Onu o təriqə sövq edənlər də Əmir Bahadurlar, Hacübüddövlələr, siz və əmsalısınız (Mir Haşım, Şeyx Fəzlullah, Seyid Əli Yəzdi-F.Ə.). Bu xainanə hərəkətinizdən utanıb qızarmıyorsunuz, qorxmuyorsunuz?!"[80]

Ona görə də, 1908-1909-cu illərdə Təbrizi məşrutəni qoruma hərəkatının mərkəzi halına gətirən yenilikçi Türk-Azərbaycan məşrutəçilərlə (Səttarxan, Bağırxanxan və b.) aryançı farslar arasında baş verən mübarizəni daha dərindən analiz etməliyik. Öncəlliklə, bilməliyik ki, yenilikçi Türk-Azərbaycan məşrutəçiləri Qacarlara qarşı deyil, Məhəmməd Əli Şahı əllərində oyuncağa çevirən aryançı fars irticaçılarla onların havadarlarına qarşı mübarizə aparmışdır.

Əgər mərkəzi Təbriz olmaqla yenilikçi Türk məşrutəçiləri birmənalı şəkildə Qacarlara, Qacarlar dövlətçiliyinə qarşı qiyam qaldırıb onlarla savaşmış olsaydılar, o zaman deyə bilərdik ki, onlar xəyanətkardırlar, çünki bununla da Qacarların tarix səhnəsindən silinməsinə ciddi zəmin hazırlamışlar. Ancaq heç bir zaman Azərbaycan Türk məşrutəçilərinin Qacarları devirib onların yerinə, başqa bir sülaləni hakimiyyətə gətirmək kimi niyyətləri olmamışdır. Türk məşrutəçilər başda Səttarxan olmaqla, yalnız Qacarların məşrutəli-konstitusiyalı bir dövlət halında qalması üçün Məhəmməd Əli Şah və onun ətrafında toplanmış irticaçı aryançı farslarla, eyni zamanda onların imperialist havadarları ruslara, ingilislərə qarşı mücadilə veriblər. Ə.Hüseynzadənin təbrincə desək, Azərbaycan Türk məşrutəçilərinin mücadiləsi gerilikçilərə, irticaçılara, onların havadarlarına qarşı olub yenilikçilik və mədəniyyət uğrunda idi.[81]

Bu baxımdan Təbrizdəki məşrutəçilərin lideri Səttarxan da,

---

[80] Hüseynzadə Əli bəy. Siyasəti-Fürusət. Bakı, Elm, 1994, s.96

[81] Yenə orada, s.114

onun yolgöstərəni Nəcəf üləmaları da yaxşı bilirdilər ki, yerli irticaçı farslarla onların dəstəkçiləri olan Rusiyayla İngiltərə hansı oyunu oynayırlar. Yenilikçi Türk məşrutəçilərinin güvəndikləri yeganə dövlət isə Osmanlı Türkiyəsi idi. Başqa sözlə, mühafizəkar aryançı farslar Rusiya və İngiltərədən dəstək alaraq hərəkət etdikləri halda, Azərbaycan Türk məşrutəçilərinin yeganə ümid bəslədiyi Osmanlı türkləri (Gənc Türklər ya da "İttihad və Tərəqqi"çilər) idi. Ona görə də, çar Rusiyasına məxsus hərbi birləşmələr 1909-cu ilin aprelin sonlarında Təbrizi işğal etdikdən sonra Azərbaycan Türk məşrutəçilərinin Osmanlı konsulluğuna sığınması təsadüfi olmamışdır. Bunu, Səttarxan Təbriz hərəkatı ruslar tərəfindən basıldıqdan az sonra (1909-cu il 27-28 may) Osmanlı konsulluğunda ondan bir jurnalist kimi müsahibə alan M.Ə.Rəsulzadəyə belə açıqlamışdır. " - Mən vətənimin istiqlalı yolunda bir il tamam çalışdım. Ölüm içində dirildim. İndi əziz vətəndə bir işıq ucu göründüyü zaman, o doğma anam başqa bir həlakətə uğrayır. Asayiş hazırlamaq və rahətlik bərdavam etmək üzrə gəlmiş olan ruslar, hala bir hərəkəti-istilacuyanəyə başlamışlar ki, artıq vətənimizin istiqlalından qəti-ümid edir, elan olunan əfvi-ümumiyyə inana bilmiyoruz. Zira xaricilər hər kəsi istərlərsə, tutarlar hər nə istərlərsə, edərlər. Məmləkətin hakimləri vəzifə almaq istiyorlar. İştə böylə bir haldə biz nə qayıra bilərik. Artıq canbazlıq meydanına atılıb, müqatilə başlamaq işə keçməz. Çünki burası vətəni daha tez əldən verməyə səbəb ola bilər. Odur ki, biz də burada mütəhssin olub, sülhə protestimizi bütün dövlətlərə bildirib, xaricilərin tezliklə vilayətimizdən çıxmalarını istəyirik. Mən artıq istərdim ki, bizim millət Osmanlı ilə yaxınlaşsın. İndi bu haldan bir dərəcə mütəşəkkirəm ki, bizi birləşdiriyor (Osmanlı da baş verən "Gənc türklər" iniqlabını nəzərdə tutur-F.Ə.). Təmin almaq və bəstə girmək üçün doğrusu burasını müvafiq gördük. Zira, İslam məmləkəti və ümdəsi məşrutəli bir məmləkətin nümayəndəsidir...

Sərdar qayətdə qanı isti bir adam, hərəkəti xeyli cəlddir, danışığı çox ciddidir. Məşrutəpərəstiliyi din dərəcəsində qəvidir. Bu adam məşrutə tərəfdarı olmaqda fanatizm ediyor.Bütün hərəkətini, vücudunu, zori-bazusunu millətə sərf etmiş olan bu adam özünü təkrarən bəyan etdiklərinə görə Nəcəf üləması hökmi-müqəddəslərinə tabe

olub, onlar nə əmr edirsə, bir an təxir etməsizin icraya hazırdır”.[82]

Deməli, Azərbaycan Türk məşrutəçiləri başda Səttarxan olmaqla, bir tərəfdən siyasi-ideoloji məsələlərdə Nəcəf üləmalarının fikirləri ilə hərəkət edib, digər tərəfdən Osmanlı türkləri ilə yaxınlaşmağı məqbul görüblər. Şübhəsiz, Nəcəf üləmalarıyla Osmanlını idarə edən “İttihad və tərəqqi”çilər, ya da “Gənc Türklər” isə heç bir zaman Türksoylu Qacarlar dövlətinin devrilməsindən yana ola bilməzdilər. 1908-ci ildən etibarən Osmanlıda hakimiyyəti ələ keçirən “İttihad və tərəqqi” təşkilatının əsas məqsədi Qacarlar dövlətində hakim türk nüfuzunu qoruyub saxlamaq idi. Rəhim Əliyev yazır ki, İstanbulda yaranmış və “Gənc türklər”lə yaxın olan “Səadət əncüməni”nin əsas məqsədi Azərbaycan mərkəzli məşrutə hərəkatına yardım etmək olmuşdu. Onun fikrincə, Nəcəfdə yaşayan azərbaycanlı din xadimi Əsədullah Mamağaninin İstanbula gətirilməsi və ona 1908-ci ilin noyabrında “Səadət əncüməni”nin rəhbərliyinin tapşırılması təsadifi deyildi.[83] Çünki Mamağani “İttihad və tərəqqi”nin liderləri yaxın idi, bu təşkilatda Qacarlarda, o cümlədən Azərbaycanda türklük şüurunu inkişaf etdirməyə çalışırdı.[84]

Belə olduğu təqdirdə deyə bilərik ki, Osmanlıdakı “Gənc türklər”i özünə dost hesab edən Azərbaycan Türk məşrutəçilərinin də əsas məqsədi Qacarları hakimiyyətdən devirmək olmamışdır. Sadəcə, Azərbaycan Türk məşrutəçilərinin daim dəstəkləməyə hazır olduqları Qacarların hakimiyyətindən tək istəkləri Osmanlı kimi konstitusiyalı və parlamentli ölkə olmaq idi. Təbrizdəki məşrutə hərəkatının başçıları (Türkiyədəki Gənc Türklər kimi) hesab edirdilər ki, Qacarlar dövləti yeniləşmə sürəcindən, məşrutə hərəkatından kənarda qalacağı təqdirdə süquta uğrayacaqdır. Məhz bunun gerçəkləşməməsi üçün də Azərbaycan mərkəzli Türk məşrutə tərəfdarları Qacarlar dövlətinin konstitusiyalı, parlamentli ölkə kimi idarə olunması yolunda mücadilə vermişlər. Bu anlamda Türk məşrutəçilərinin başladıqları hərəkat Qacarlara qarşı üsyan deyil, tam əksinə Qacarlar dövlətinin konstitusiyalı, parlamentli ölkə olmasını qorumaq idi. Deməli, Türk məşrutə-

---

[82] Rəsulzadə M.Ə. Əsərləri (1903-1909). I cild, - Bakı, Azərnəşr, 1992, s.334-335

[83]Əliyev R. Məşrutə inqilabı dövründə Cənubi Azərbaycanda ədəbiyyat (1905-1911)//Cənubi Azərbaycan ədəbiyyatı tarixi (XX əsr). İki cilddə, 2-cild. Bakı, Qanun, 2013, s.26-27

[84]Məlikzadə Tohid. İttihadi-tərəqqi cəmiyyəti və Məşrutə inqilabı//Məşrutə inqilabı-100 (Məqalələr toplusu). Bakı, 2005, s.105-106

çilərinin savaşı da Qacarlarla deyil, Məhəmməd Əli şahı əlində oyuncağa çevirən xarici qüvvələrlə irticaçı farslar arasında olmuşdur.

Sadəcə, burada diqqət edəcəyimiz əsas məsələ məşrutə dönəmində ruhanilərin, mollaların oynadığı roldur. Daha doğrusu, Qacarlar dövlətində baş verən inqilabın başında ruhani qisminin olması idi.[85] Çox maraqlıdır ki, ruhani məşrutə dönəmində iki qismə ayrılaraq bir hissəsi Məhəmməd Əli şah Qacara, digər qismi isə Azərbaycan Türk məşrutəçilərə dəstək vermişlər. Hesab edirik ki, bu anlamda məşrutə dönəmində ruhanilər iki qismə bölünmüşdür: 1) İran Fars ruhlu ruhanilər, 2) Azərbaycan Türk ruhlu ruhanilər. Yuxarıda da gördüyümüz kimi, Azərbaycan Türk ruhlu ruhanilərin başında Nəcəf üləmaları dayanmışdır. Bunu, Səttarxan Rəsulzadəyə verdiyi müsahibəsində açıq şəkildə ifadə etmişdir: "Rus və ingilis konsulları yanıma gəldiklərində: məşrutə sənin əlindədir - dedilər. Mən isə cavab verdim ki, siz böyük bir səhv edirsiniz, mən məşrutənin iti işli bir pasibaniyəm. Sahibləri isə Nəcəf üləmayi-əlamdır. Onlar nə əmr edirlərsə, mən o saatdaca icraya hazıram". [86]

Azərbaycan Türk məşrutəçilərinin konstitusiyalı və parlamentli ölkəni qorumaq yolundakı başladığı hərəkatın qarşısının alınmasında, eyni zamanda Məhəmməd Əli şah Qacarı devrilməsində əsas rolu çar Rusiyasıyla İngiltərə oynadılar. İlk növbədə, Azərbaycan Türk məşrutəçilərinin konstitusiyalı ya da parlamentli dövlət idarəçiliyini müdafiə etmələri Türk düşmənlərinin məkrli planlarını pozduğu üçün, "belə bir şəraitdə ingilislər və çar Rusiyası açıq müdaxiləyə əl atdılar. Çar Rusiyası xarici konsulluqları və təbəələri müdafiə etmək və guya Təbrizə ərzaq daşınmasını təmin etmək bəhanəsilə 1909-cu ilin aprelin 29-da öz qoşunlarını Təbrizə yeritdi. Bununla da Təbriz üsyanı yatırıldı".[87] Əslində isə bununla da "Təbriz üsyanı"na deyil, bu dövrdə məşrutənin yenilikçi qüvvəsi olan Azərbaycan Türklərinə, Azərbaycan Əyaləti Əncüməninə, o cümlədən də Qacarlar dövlətinə ciddi zərbə vuruldu. [88] Çünki Türk düşməni Rusiyayla İngiltərə bir yandan Azərbaycan Türk məşrutə-

[85] Yenə orada, s.49
[86] Yenə orada, s.335
[87] Azərbaycan tarixi. Dərslik (redaktorlar: Z.M.Bünyadov və Y.B.Yusifov). Bakı: Azərnəşr, 1994, s.634
[88] Baykara Hüseyin. İran inkılabı ve Azatlık Hareketleri. İstanbul, 1978, s.84-87

çilərini Təbrizdə qan içində boğduqları halda, digər tərəfdən Tehranda öz maraqların uyğun aryançı-irançı hökumət və parlament formalaşdırmağa çalışırdılar.

**Qacarlarda ikinci Məclis dövrü və Güney Azərbaycan.** Ümumiyyətlə, Rusiya və İngiltərənin Qacarlarla bağlı mövqeyləri bir çox məsələdə üst-üstə düşsə də, ancaq onlar dövlət yönətimi məsələsində tamamilə fərqli yol tuturdular. Belə ki, Rusiya Qacarlarda mütləqiyyət ya da monorxiya tərəfdarı olub Məhəmməd Əli şah Qacarın məşrutiyyəti ləğv etməsinə yardım etdikləri halda, İngiltərə özünü daha çox Məşrutə tərəfdarı kimi göstərərək parlamentli idarə-üsuluna dəstək verirdi. Bu anlamda Rusiya qoşunlarının Təbrizdə məşrutə tərəfdarlarını məğlub etməsi təsadüfi olmadığı kimi, eyni zamanda İngiltərənin də öz maraqlarını həyata keçirməsi yolunda mühüm bir hadisə idi. Əgər ruslar bununla da Qacarlar dövlətində Məhəmməd Əli şah Qacarın mütləqiyyətçi hakimiyyət istəyini reallaşdırmağa çalışırdılarsa da, ingilislər isə yenilikçi Azərbaycan Türk məşrutəçilərinin məğlubiyyətindən sonra məhz əsasən aryançı-irançı məşrutəçilərin əliylə Məhəmməd Əli Şah Qacarı taxtdan salıb Tehranda ingilispərəst hökumət qurmaq niyyəti güdürdülər. Çünki ingilislərə görə, Təbriz hadisələrindən sonra Azərbaycan türklərinin ruslara və şaha olan nifrəti daha da dərinləşmişdir ki, Məhəmməd Əli şah Qacarın hakimiyyətdən getməsi an məsələsi idi. Məhz bu səbəbdən idi ki, ingilislər rus qoşunlarının Təbrizi işğal edərək Azərbaycan Türk məşrutəçilərini məğlub etməsinə göz yumur və əsas diqqəti də Məhəmməd Əli şah Qacardan sonrakı hakimiyyəti istədikləri kimi formalaşdırmağa yönəldirdilər.[89]

Beləliklə, Qacarlar dövlətinin çökməsi üçün əlindən gələni edən ingilislər Türk məşrutəçilərlə Məhəmməd Əli Şah üz-üzə qoymaqla əsas məqsədlərinə xeyli dərəcədə yaxınlaşdılar; Gilan və İsfahandan olan məşrutəçilərin Tehran üzərinə hərəkət etməsinə şərait yaratmaqla hakimiyyət dəyişikliyinə nail oldular. Belə ki, 1909-cu ilin iyulunda Tehranda ingilislərin təsiri altında liberal-demokrat qılıqlı aryançı-irançı məşrutəçilərin öncüllüyündə təşəkkül tapan ikinci çağrı Məclis Məhəmməd Əli Şah Qacarın vəzifəsindən uzaqlaşdırılıb

[89] Rəsulzadə M.Ə. Əsərləri (1903-1909). I cild, - Bakı, Azərnəşr, 1992, s.336-337

onun yerinə oğlu Əhməd Şah Qacarın gətirilməsinə qərar verdi.[90]

İngilislərin təzyiqilə Məhəmməd Əli şah əvvəlcə bütün bunlara razı olub taxtdan oğlu Əhməd şah Qacarın xeyrinə imtina etdiyini bəyan etsə də, az sonra rusların "üst ağlı"yla yenidən məşrutiyyət elan edərək şahlıqda qalmaq istədiyində bulundu. Çünki ruslar görürdülər ki, Məhəmməd Əli şahdan sonra şahlıq taxtına oturdulan Əhməd şah Qacarın ətrafı əsasən ingilispərəst aryançı farslar, bir də liberalizm, demokratiya cərəyanlarının təsiri altındakı türksoylu irançı deputatlarla qapanmışdır. Belə bir durumda çar Rusiyası Məhəmməd Əli şahın şahlıq taxtına bərpasını daha uyğun görürdü. Rusiyanın "üst ağlı"yla hərəkət edən sabiq şahın yeni məşrutiyyət elanına əvvəlcə inanaraq şadlıq edən aryançılar-irançılar az sonra ingilislərin təzyiqi ilə fikirlərini dəyişdirib, bundan vaz keçdilər. Həmin hadisələrin birbaşa iştirakçısı olan Rəsulzadə yazırdı: "Politikanı olduğundan daha şiddətli bir surətdə görən məşrutəçilər əvvəl kərə də böylə bir iqdamə razı olmuş kimi görünüb, hər yerdə məşrutəni qəbul etmək üzrə sevinc və şadlıqlar etdilərsə də, biləxrə karet birdən-birə dəyişib inqilabçılar əldən getməkdə olan heysiyyati-milliyyələrini iadə etmək üzrə sözü bir yerə qoyub gilanlılar və isfahanlılarla birlikdə Tehrana hərəkət etməyə başladılar".[91]

Azərbaycan Türk məşrutəçiləri Təbrizdə mücadilə verdiyi dövrdə Məhəmməd Əli şahın yanında yer alan Sipəhdarların, Bəxtiyarilərin, Yefremlərin mövqe dəyişdirmələrinin, eyni zamanda gilanlı, isfahanlı məşrutəçilərin də birdən-birə inqilab xətti tutmalarının əsil mahiyyətini o zaman tamamilə dərk etməyən Rəsulzadə bütün bu baş verənləri daha çox Məhəmməd Əli Şah istibdadının yıxılıb yerinə məşrutiyyətin bərpa olunması yönündən qiymətləndirmişdir. Halbuki aryançı-irançı farsların ingilislərin gizli dəstəyilə Məhəmməd Əli Şahın taxtdan salıb yenidən konstitusiyalı dövlət, parlamentli ölkə statusunu bərpa etməyə çalışmaları Rəsulzadənin düşündüyü kimi türk, fars, ərəb, kürd, bəluc və digər xalqlar arasında fərq qoymadan "iranlılar", "iranlıq" üçün deyil, məhz Qacarlarda aryançı farsları hakimiyyətə gətirməyə, aryanşı fars dövlətini bərpa etməyə zəmin hazırlamağa görə lazım idi.

---

[90] Yenə orada, s.391-392
[91] Yenə orada, s.395

Hər halda Təbriz başda olmaqla Azərbaycanda Səttarxanın başçılıq etdiyi məşrutəni qoruma hərəkatı zamanı Məhəmməd Əli Şahın yanında yer almış Gilan əyalətindən Sipəhdarın, Bəxtiyarilərdən Sərdar Əsədin, Qafqaz erməni daşnaklarının liderlərindən Yefremin və başqalarının az sona şaha xəyanət edərək "İran", "iranlılıq" adlı maskaya bürünmüş aryançı məşrutəçilərə qoşulması İngiltərə ideoloqları tərəfindən öncədən planlaşdırılmışdı. Səttarxanla Məhəmməd Əli şahın ingilislər tərəfindən oyuna gətirilərək üz-üzə qoyulmasına şübhə etməyən S.C.Pişəvəri sonralar bu məsələ ilə bağlı yazırdı: "Bu heç də aydın deyil ki, Yefremin dəstələri İranın azadlığı və istiqlaliyyətinə sərdare-millinin (Səttarxanın-F.Ə.) mücahidlərindən daha çox əlaqə bəsləsinlər. Yaxud Bəxtiyari xanları mərkəzi hökuməti qüvvətləndiməkdə Təbriz və Tehran azadixahlarından daha irəlidə olsunlar. Burada bir çox incəliklər var. Həmin incəliklər Azərbaycan mücahidlərinə əlaqə bəsləyənləri tarixçilərin, qəzetçilərin yazıları, xüsusilə klassik tarix kitablarından şübhələndirir".[92]

Şübhəsiz, bu məsələdə əsas incəlik ingilislərin öncə yenilikçi Azərbaycan Türk məşrutəçiləriylə Məhəmməd Əli şah Qacarı qarşı-qarşıya qoyaraq zəiflətməsi, daha sonra gücdən düşmüş, üstəlik Rusiyadan tamamilə asılı vəziyyətdə olan şahın daha çox isfahanlı, gilanlı məşrutəçilərin əliylə devrilməsi idi. Çünki ingilislər yaxşı bilirdilər ki, Azərbaycan Türk məşrutəçilərinin məqsədi şahı devirmək deyil, sadəcə məşrutəni qorumaq, ədalətli idarəetmə sistemini yaratmaqdır. Eyni zamanda, inglislər hesab edirdilər ki, Azərbaycan Türk məşrutəçiləriylə dil tapmaq çox çətin olduğu halda, hamiləri olduğu aryançı-irançı məşrutəçilərlə anlaşıb Qacarları nüfuz dairələri altında saxlamaq daha asandır. Ona görə də, Azərbaycan Türk məşrutəçilərinin Təbrizdə ruslar tərəfindən məğlub edilməsi mühüm bir şans idi ki, bunu yaxşı dəyərləndirən ingilis ideoloqlar az sonra aryançı-irançı (onların arasında Azərbaycan türkləri də var idi) məşrutəçiləri ön plana çıxararaq birincisi, şahı onların əliylə taxtdan salmaqla məşrutənin ya da parlamentin taleyini öz maraqlarına uyğun liberal, demokrat qılıqlı "irançı"lara verdilər, ikincisi Qacarlar taxtına da formal bir Qacar şahının çıxarılmasını təmin etdilər. İngilislərin bu planını gec anlayan, ya da bunun qarşısını almaqda

[92] Pişəvəri S.C. Məqalələri. Bakı: Azərnəşr, 2016, s.22-23

çətinlik çəkən ruslar Məhəmməd Əli şah Qacarı şahlıq taxtında saxlamaq üçün yeni bir həmlə də bulunsalar da, ancaq sabiq şahı yalnız "şahsevenlər", qaşqaylar və türkmənlər müdafiə etdilər. [93] Görünür, buna səbəb də, bir tərəfdən sabiq şahın bütün xətalarına baxmayaraq türk olması, digər tərəfdən isə ingilislərin havadarlığı ilə aryançı farsların hakimiyyəti ələ keçirmələrinə qarşı olmaları idi.

Həmin dövrdə Qacarlar dövlətinin tarixində Türk düşmənlərinin ən çox oyuna gətirdiyi Məhəmməd Əli şah Qacarın "İran məşrutəçiləri"ndən qorunmaq üçün Tehrandakı Rusiya elçiliyinə sığınmasının da düşündürücü anlamları vardı. Əslində bu olay bir daha göstərirdi ki, Məhəmməd Əli şahın belə bir duruma düşməsində çar Rusiyasına həddən artıq güvənib, Türk xalqına və onun aparıcı qüvvəsi olan yenilikçi Türk məşrutəçilərinə etimad etməməsi mühüm rol oynamışdır. Həmin dövrdə bu prossesi diqqətlə izləyən tanınmış mütəfəkkirimiz Üzeyir Hacıbəyli də yazırdı ki, Məhəmməd Əli Şahın Osmanlı sultanı 2-ci Əbdülhəmiddən fərqli olaraq öz taleyini xalqın ixtiyarına buraxmaması çox təəssüf doğuran hal olmuşdur: "Halbuki Əbdülhəmid millət tərəfindən öldürülməyəcəyindən heç də əmin deyildi. Məhəmmədəlinin bu yolda Əbdülhəmidi təqlid etməməyinə yeni səbəb ola bilər: Ya ola canının qorxusu və millətin mərdliyinə inanması və yainki öz millətinə qarşı qəlbində bəslədiyi nifrət, bu barədə təfsilata girişməyə ehtiyac yoxdur. Hər halda Məhəmmədəlinin qəlbi böyük və alicənab adamlara məxsus hissiyyati-aliyədən bilmərrə boş olduğu təbəyyün etdi".[94]

Onu da unutmamalıyıq ki, Türk düşmənlərindən qorunmaq üçün Qacarlar dövlətinin başçısı Məhəmməd Əli şah Rusiya elçiliyinə sığındığı halda, ingilislərin arxasında durduğu "İran məşrutəçiləri"nin və ingilislərin oyununa gətirilərək xəyanətə uğrayan Azərbaycan Türk məşrutəçilərinin lideri Səttarxan isə Türkiyə elçiliyinə pənah aparmışdır. Yəni Səttarxan üzünü nə Rusiyaya, nə də İngiltərəyə tutmuş, doğma qardaşı hesab etdiyi Türkiyə konsulluğuna sığınmışdır. Bu bir daha onu göstərir ki, Qacarlar dövlətinin tənəzzülündə əsas yanlışığı Azərbaycan Türk məşrutəçiləri deyil, Rusiyanın təsiri altına düşmüş Məhəmməd Əli şah Qacar etmişdir.

---

[93] Rəsulzadə M.Ə. İran Türkləri. Bakı, "Təknur", 2013, s.32

[94] Hacıbəyli Ü. Seçilmiş əsərləri. İki cilddə. II cild. Bakı, «Şərq-Qərb», 2005, s.88

Ə.Hüseynzadənin təbrincə desək, artıq onun hakimiyyəti dövründə Qacarların az-çox ortada olan iqtidar və nüfuzu da əldən çıxmışdı: "Taleyin artıq özlərinə müxalif olduğunu seziyorlar, anlayorlar ki, iqtidar və nüfuzları əldən gediyor. Bir fərdin (Məhəmməd Əli şahın-F.Ə.) siyasəti-heyvaniyyəsi üzündən gediyor". [95] Bütün hallarda isə yenilikçi Azərbaycan Türk məşrutəçilərinin məğlubiyyətindən, eləcə də Məhəmməd Əli şah Qacarın taxtdan uzaqlaşdırılmasından daha çox qazanan əvvəlcə çar Rusiyasının yanında "İran irticaçıları" qılığında Məhəmməd Əli şaha xəyanət edən, az sonra İngiltərənin yanında liberal-demokrat qılıqlı "İran məşrutəçiləri"nə çevrilib ikinci Məclisdə əsas qüvvəyə çevrilən aryançılar-irançılar oldular.

İkinci Məclis dövründə (1909-1911) vaxtilə Məhəmməd Əli şahın arxasında dayanan ruslar da özlərini məşrutəpərəst göstərməklə vəziyyətdən çıxmağa çalışırdılar. Hətta, dünənə qədər Məhəmməd Əli Şahın xeyrinə mütləqiyyəti müdafiə edib məşrutənin əleyhinə fəaliyyət göstərən, Məclisi bombalayan Rusiyaya aid Lyaxovun başçılıq etdiyi kazak alayı belə Əhməd şah Qacar taxta oturduqdan sonra "məşrutiyyət polkovniki ünvanı ilə məşrutə briqadasına rəyasət edir", [96] "Təbriz əhrarını mühasirə edib aylarla qəhrəmanların başlarına od yağdıran"[97] Eynüddövlə yeni hökumətdə yer alırdı. Bir sözlə, Məhəmməd Əli şah Qacarın mütləqqiyyətçi tutumunun yanında yer alıb Səttarxan başda olmaqla Azərbaycan Türk mərkəzli məşrutə hərəkatına qarşı döyüşən Bəxtiyarilər, Lyaxovlar, Yefremlər, Eynüddövlələr, Sipəhdarlar, Əmir Bahadırlar Əhməd şah Qacar taxta oturduqdan sonra məşrutəpərəst olub dövlətdə ya da hökumətdə yüksək vəzifə tuturdular. "Tehranın axırıncı inqilabı böyük bir şiş peyda qılıb çirk tutub, irin bağlayan İran vərəminin operasyonudur. İranı sevən bir iranlı, vətənini əziz tutan bir şəxs, bir inqilabçı, haman bu operasyon olmazsa İranın daima azarlı, qızıdırmalı qaldığını əlaniyyə gördüyündən edə bilməzdi ki, böylə bir operasyonu cani-dil ilə istəməsin"- deyən, [98] Rəsulzadə belə vaxtilə məşrutiyyət əleyhdarlarının indi məşrutəpərəst olub yüksək vəzifələr tutmasına

---

[95] Hüseynzadə Əli bəy. Siyasəti-Fürusət. Bakı, Elm, 1994, s.115
[96] Rəsulzadə M.Ə. Əsərləri (1903-1909). I cild, - Bakı, Azərnəşr, 1992, s.405
[97] Yenə orada, s.405
[98] Yenə orada, s.403

isə bir anlam verə bilmirdi: "İndi əhval böylə bir surət almışdır; məşrutəpərəst haradan başlayıb, müstəbid nərədə qurtardığı məlum deyildir. Hamısı biri-birinə qarışıb məzhəb itmişdir. Məhəmmədəli şah vəzifəsindən istefa vermiş, amma Məhəmmədəli şahı saxlayan ictimai qüvvə təsfiyyə olunmamışdır. İstibdad sınmış, amma ona təravət verməkdə olan qabığı üzülməmişdir". [99]

Rəsulzadəyə görə, əgər bu doğrudan da bir inqilabdırsa, yəni mütləqiyyətin yıxılıb onun yerinə məşrutiyyətin qurulmasıdırsa, o zaman əski istibdadçıların məşrutəpərəst qılığına girib yeni hökumətə ya da dövlətdə yer almalarına izin verilməməlidir. Ancaq Tehranı əli keçirib Əhməd şah Qacarı taxta oturdan ingilisyanlı "İran inqilabçılar"ı lyaxovları, eynüddövləlləri, nürüddövləlləri və başqalarını təmizləmək əvəzinə "İran kompromisindən", "güzəştkar olmaqdan" [100] bəhs edirdilər. Çünki "İran kompromisindən", "güzəştkarlıqdan" bəhs edən "İran inqilabçıları"nı düşündürən lyaxovların, eynüddövlələrin, nürüddövlələrin, yefremlərin və başqalarının təmizlənib ya da təmizlənməməsi deyil, Qacarlar dövlətini tamamilə devirmək üçün ingilislərlə ruslardan, eləcə də digər antitürk qüvvələrdən yardım ala bilmək idi. Bunun üçün də, "İran inqilabçıları", "İran məşrutəçiləri" qılığına girmiş aryançı-irançı qüvvələr əsas diqqəti Əhməd şah Qacarın formal şahlığı dövründə Məclisdə və hökumətdə hakim qüvvəyə çevrilməyə yönəltmişdilər. Bunu həyata keçirməkdən ötəri də, yuxarıda da qeyd etdiyimiz kimi, aryançı-irançı qüvvələr ortaq vətən və ortaq ideya kimi "İran" və "iranlılıq" anlayışlarını ortaya ataraq türkləri, xüsusilə də Azərbaycan türklərini oyuna gətirməyə çalışırdılar. "İran kompromisi" adı altında da "İran" və "İranlılıq" naminə, vaxtilə Türk ruhlu ilk Məclisi-Millini, Təbriz məşrutəsini bombalayanlarla bir araya gəlməyin, hətta onlara dövlətdə vəzifələr verilməsinin mümkünlüyündən bəhs edirdilər.

Əslində "İran kompromisi" adı altında bağışlanaraq yüksək vəzifə tutanlar yalnız aryançı-irançı qüvvələrin havadarları və ətrafi idi. Belə ki, Gilandan, İsfahandan öncə məşrutəni qoruyan, məşrutə əleyhdarlarına qarşı mübarizə aparan Azərbaycan türkləri "İran

[99] Yenə orada, s.406
[100] Yenə orada, s.407

məşrutəçilər"i üçün etibarsız sayılırdılar. Başqa sözlə, vaxtilə Təbrizdə baş qaldıran məşrutəni qoruma hərəkatına düşmən kəsilərək məşrutə əleyhinə mübarizə aparanlar Əhməd çah Qacar taxta oturduqdan sonra məşrutəpərəstə çevrilib Azərbaycan Türk məşrutəçilərini isə qəbul etmək istəmirdilər. Ona görə də, Məhəmməd Əli Şahın devirlməsindən bir müddət sonra "İran məşrutəçiləri"nə çevrilən aryançı qüvvələrin havadarlarının dəstəyilə 1910-cu ilin martında Azərbaycan Türk məşrutəçilərinin tərk-silah edilməsi adı altında hərəkatın liderləri Səttarxanla, Bağırxanı Tehrana dəvət edərək heç bir əsas olmadan xəyanətə əl atdılar.[101] [102] Bununla bağlı 1994-cü ildə nəşr olunan "Azərbaycan" tarixi kitabında yazılır: "Tərk-silah haqqında əldə edilmiş razılığa baxmayaraq, Səttar xan və onun ətrafındakılara Tehranda xaincəsinə basqın edildi. Vuruşma nəticəsində 18 nəfər həlak oldu, 40 nəfər o cümlədən Səttar xan yaralandı. Bununla da inqilabın son səngəri dağıdıldı. Səttar xan və Bağır xana Təbrizə qayıtmağa icazə verilmədi. Bu xəyanət Azərbaycan xalqının dərin hiddətinə səbəb oldu, lakin Cənubi Azərbaycanda yerləşən çar Rusiyasının qoşunları əhalinin fəal çıxışına imkan vermədilər. Çar hökuməti Təbrizə yeni hərbi qüvvələr göndərməklə, dekabrın 28-dək Təbriz fədailərinin müqavimətini qırdılar. Ələ keçən fədailər və Təbriz əncüməni rəhbərlərinə divan tutuldu. İrticaçılar Təbrizə qayıtdılar".[103]

Artıq bütün bunları edən Məhəmməd Əli Qacar ya da Əhməd şah Qacar deyil, məhz liberal, demokrat qılığına girmiş aryançı-irançı məşrutəçilər və havadarları (ruslarla ingilislər) idilər. Dünənə qədər Məhəmməd Əli Şahın monarxiyasını müdafiə edən ruslarla ingilislər indi isə aryançı "İran məşrutəçiləri"nin ciddi dəstəkçisinə çevrilmişdilər. Deməli, türk düşmənlərinin əsas məqsədi bir tərəfdən ilk Məclisi darmadağan etməklə yenlikçi türk məşrutəçilərini zəif buraxmaq olduğu halda, digər tərəfdən Məhəmməd Əli şahı oyuna gətirərək onun devrilməsinə zəmin hazırlayaraq liberal, demokrat aryançıların-irançıların timsalında "məşrutəli İran" qurmaq

[101] Baykara Hüseyin. İran inkılabı ve Azatlık Hareketleri. İstanbul, 1978, s.94-101
[102] Saray Mehmet. Kuzey ve Güney Azerbaycan türklerinin tarihi. Bakı, "Şərq-Qərb", 2010, s.302-303
[103] Azərbaycan tarixi. Dərslik (redaktorlar: Z.M.Bünyadov və Y.B.Yusifov). Bakı: Azərnəşr, 1994, s.634

olmuşdur. İkinci dəfə qazanılmış Məşrutə və ikinci çağrış Məclis artıq yenilikçi Türk axınının ruhundan xeyli dərəcədə uzaq olan, liberal, demokrat qılıqlı aryançı-irançı bir məşrutə idi. İkinci Məşrutə və ikinci çağrı Məclis dönəmində də türklərin bir daha önə çıxa bilməmsi üçün, Azərbaycan Türk məşrutəçiləri Tehrana dəvət edilərək xəyanətə məruz qaldılar. Ən maraqlısı odur ki, Azərbaycan Türk məşrutəçilərinin liderləriylə silahdaşlarına Tehranda ingilis hərbi qüvvələri, Təbriz və ətrafdakı Türk fədailərinə isə Rus qoşunları divan tutmuşdur.

Özəlliklə, Təbriz başda olmaqla Azərbaycanda baş verən məşrutəni müdafiə hərəkatı zamanı deyil, məhz bu hərəkatın rusların əliylə yatızıdırılmasından sonra, Gilan və İsfahanda Məhəmməd Əli şah Qacara qarşı çıxışların baş qaldırması, əsasən aryançı-irançı qüvvələrin Tehrana yürüşün təşkil olunması sonucunda ikinci Məşrutənin və Məclisin ortaya çıxması çox düşündürücüdür. Şübhəsiz, Türk düşmənlərinin burada əsas məqsədi Qacarlardakı hakim Türk ulusunun öncüllüyündə deyil, aryançı-irançı farsların öndərliyində məşrutə ya da parlamentli dövlətə çevrilməsi idi. Bunun üçün də, Qacarlar hökmdarlarından Məhəmməd Əli şah Qacarı oyuna gətirən, bir növ onun əliylə ilk məşrutəni və Məclisi qoruma hərəkatını məhv edən, bunun əvəzində isə az sonra Gilan və İsfahanda baş qaldırmış irançıların öncüllüyündəki ikinci Məşrutə və Məclisə dəstək verən İngiltərəylə Rusiya Qacarlara və onun əsas dayağı olan Türk ulusuna çox böyük zərbə vurmuş oldular. Qacarlarda geniş miqyasda başlayan ilk məşrutə (Türk-Azərbaycan) hərəkatının və ilk Məclisin basılmasında, yəni şahla yenilikçi-dünyəvi ruhlu məşrutəçilər arasında birliyin baş tutmamasında da əsas rolu bu iki Türk düşməni dövlətiylə onun buradakı əlaltıları, o cümlədən aryançı-irançı farslar və "irançılıq" düşüncəsinə qapılmış bəzi türklər oynadılar.

Rəsulzadə yazır ki, İkinci Məclis toplandığı çağda (1909) güclü yurdsevərlik, ortaq dövlətçilik anlamında "əhrarçılıq" (özgürlük) axınını İran Demokrat Partiyası (İDP), orta-tutucu axını da Liberal-Demokrat adlı başqa bir partiya üstlənirdi ki, hər ikisində də gərəkli işlər görüb partiyaların ruhlarını oluşduranlar türklər idi. O, yazırdı: "Demokrat Partiyasının Azərbaycanda qurumu, böyük sayğınlığı

olduğu kimi, parlamentdəki üyələrinin çoxu da türk elçilər idi. Partiyanın başçısı yuxarıda da adı çəkilən Təbriz elçisi, Seyid Həsən Tağızadə əfəndi idi. Parlamentin özgürlük səsi sayılan Tağızadə əfəndiyə özgürçülərin böyük saygısı var idi. İkinci parlamentdə olan 90-a yaxın üyədən 25-i, Demokrat Partiyasından olan 21 elçinin də 14-ü türk idi. İkinci parlamentin işlədiyi çağda İranda ilk yol olaraq böyük formada gündəlik bir qəzet çap olunurdu. "İran-e nov" adlı avropasayağı çıxan bu qəzet İranın ən çox oxunan, ən sayılan qəzeti idi. Demokrat Partiyasının düşüncə daşıyıcısı olan "İran-e nov"un yazarları Azərbaycan türkləri idi".[104]

Bu dövrdə farslar üçün irançılıq aryançılığn sinonimi olub, yəni Əhəmənilər, Sasanilər dövlətçilyini bərpa etmək demək olduğu halda, türklər üçün irançılıq ölkədə bütün xalqların hürr və azad yaşaması anlamında idi. Ona görə də, Tağızadələr, Rəsulzadələr və başqaları "irançılığı" ortaq dövlətçilik kimi görüb ölkədəki bütün xalqların haqq və azadlıqlar uğrunda mübarizə apardıqları halda, ancaq eyni sözləri fars məşrutəçiləri haqqında ifadə etmək mümkün deyildi. Bu isə o anlama gəlir ki, Qacarlardakı demokrat, ya da liberal partiyalarda türklər, türk millət vəkilləri sayca və nüfuzca öndə olsalar da, ancaq ideoloji anlamda farslaar, fars məşrutəçilərinə uduzurdular. Bu baxımdan ikinci Məclisdəki türk demokratlar, türk liberallar, o cümlədən türk yazarlar bütün yaxşı niyyətlərinə baxmayaraq, Qacarlar hakimiyyətində və parlamentində fars aryançılığının qarşısına nəinki ala bildilər, üstəlik onlardan xeyli qismi (Tağızadə və b.) də zaman zaman onun təbliğatçısına çevrildilər.

Beləliklə, Məhəmməd Əli şah Qacarın ağalığı dövründə (1907-1909) Türk düşmənləri "bir oxla iki quş vurmağı" bacarmış, yəni hakim Türk ulusunu ciddi məğlubiyyətə uğratmağın fonunda, artıq bu ölkədə aryançı-farsçı hakimiyyət dövrünün başlanğıcının təməl daşlarını atmağa başlamışdılar. Məhəmməd Əli şah Qacarı taxtdan salınıb onun azyaşlı oğlu Əhməd Mirzə şah Qacar (1909-cu il iyil) seçildikdən sonra yenidən ölkədə məşrutəli, yəni konstitusiyalı dövlətin bərpa edilməsi və ikinci Məclisin fəaaliyyəti isə, əsasən Qacarların sonunu gətirəcək türksüz hakimiyyətin və dövlətin formalaşmasına hesablanmışdı. Beləliklə, Qacarlar dövlətində yenilkçi-

[104] Rəsulzadə M.Ə. İran Türkləri. Bakı, "Təknur", 2013, s.33

məşrutəçi türklərlə (birinci xətt) irticaçı-mühafizəkar aryançı-irançı farslar (ikinci xətt) arasında mübarizənin pik nöqətsi Məhəmməd Əli şah Qacarın qısa sürən hakimiyyəti dövrünə təsadüf edir ki, sonunda məğlub olan Türk məşrutəçilərlə hakim Türk hakimiyyəti (Qacarlar), qazanan tərəf isə "İran", "iranlılıq", liberalizm maskasına bürünmüş aryançılarla havadarları Rusiya və İngiltərə oldular.

Ancaq 1911-ci ilin sonlarına doğru Rusiya "İran"da get-gedə güclənən İngiltərə qarşısında əks-hücuma keçdi. Əvvəlcə Sankt-Peterburqda mühacirət dövrünü yaşayan sabiq şah Məhəmməd Əli Qacarı yenidən hakimiyyətə gətirməyə çalışan çar Rusiyası bu həmləsi baş tutmayınca, 1911-ci ilin noyabrında ikinci Məclisin bağlanması və hökumətin istefaya getməsi üçün hərəkətə keçdi. Burada da əsas məqsəd 1907-ci il avqust sazişinin qüvvədə qalması və Qacarların Rusiyayla İngiltərəninin boyunduruğuna boyun əyməsi idi. Beləliklə, 1911-ci ilin sonunda 14 yaşlı Əhməd şah Qacar Rusiyanın həmləsi qarşısında 1907-ci ildə bağlanmış ingilis-rus sazişini qüvvədə qalması və ikinci Məclisin də bağlanması haqqında göstəriş verdi. 1912-ci ilin fevralında Qacarlar dövlətinin suverenliyini zərbə altında qoyan saziş əsasında bir daha ölkənin güney tərəfi olan, əsasən Farsistan əyaləti İngiltərənin, Quzey hissəsi olan Azərbaycan, Xorasan və başqa yerlər isə Rusiyanın nüfuz dairəsi elan edildi. [105] Bununla da, faktiki olaraq aryançı-irançı qüvvələr hakim Türk varlığını zərərsizləşdirmək, eyni zamanda özlərinin yerlərini mökəmlətmək naminə Qacarlar dövlətinin Rusiya və İngiltərə arasında bölüşdürülməsinə razılıq verdilər. Üstəlik, irançı qüvvələr az sonara aryanizm düşüncəsiylə Almaniyanı da oyuna cəlb etməklə Qacarlar dövlətinin çöküşünü daha da sürətləndirdilər.

Beləliklə belə bir şəraitdə, yəni aryançı "irançılığ"ın yüksəlməsi dövründə Qacarların sonuncu hökmdarı Əhməd şah Qacarın hakimiyyət illəri (1909-1925) demək olar ki, formal xarakter daşımışdır. Bu, onun yalnız erkən yaşlarda (12 yaşından) Qacarların şahlıq taxtına oturmasıyla bağlı deyildir. Əsas məsələ 1909-cu ildə yayında Məhəmməd Əli şah Qacarı ingilislərin fitnəkarlığı və rusların şarlatanlığıyla hakimiyyətdən uzaqlaşdıran "İran məşrutəçiləri"nin Türk dövlətinin bütün strukturlarında, özəlliklə də

[105]İvanov M.S. Oçerk istorii İrana. Moskva, 1952, s.281

parlamentdə hakim mövqe tutması idi. Artıq aryançı irançılar əsas istəklərinə böyük ölçüdə çataraq Qacarlar dövlətində əsas söz sahibi olmağı bacarmışdırlar. Belə ki, Qacarlar dövlətinin başçısı Əhməd şah Qacar "məşrutiyyət" adı altında əsasən aryançı irançıların iradəsinə tabe etdirilmişdir. Qeyd etdiyimiz kimi, əsil mahiyyətinə varmadan bəzi Türk aydınlarının da ikinci Məşrutə və ikinci Məclisə dəstək vermələri Qacarlardakı Türk əhalini, o cümlədən Azərbaycan türklərini çaşqın durumda buraxmışdır.

**1-ci Dünya müharibəsi dövründə Qacarlarda vəziyyət və aysori-erməni qüvvələrinin Güney Azərbaycan türklərinə qarşı soyqırım əməlləri.** 1-ci Dünya müharibəsinin ilk illərində (1914-1915) Qacarlarda hakimiyyət hələ də, rus-ingilis dəstəkli aryançıların əlində qalmaqda idi. 1914-cü ilin sonlarına doğru yenidən seçkilərin keçirilməsi (müxtəlif bəhanələrlə Azərbaycanda seçkilər keçirilmədi) və üçüncü Məclisin fəaliyyətə başlaması ilə vəziyyət çox da dəyişmədi. Belə ki, Məşrutiyyətə isti münasibət bildirən Əhməd Şah Qacar Məclisin açılması üçün fərman imzalamış, lakin rusların hərbi gücünə arxalanan Təbriz valisi "Şücaüddövlə" ünvanı daşıyan Səməd xan seçkilərdə Demokrat Partiyasının qalib gələcəyini bildiyi üçün Güney Azərbaycanda seçkilərin keçirilməsinə icazə verməmiş, ona görə də Məclisdə Azərbaycan milləti vəkilsiz qalmışdır.[106]

Müharibə başlandığı dövrlərdə fəaliyyətə başlayan 3-cü Məclis deputatlarının əksəriyyəti və Məşrutə dönəmində yaradılmış İran Demokrat Partiyası (İDP) ingilis və rus müstəmləkəçiliyindən çox Alman-Türk blokuna tərfdar çıxmış, partiyanın Güney Azərbaycan təşkilatı isə konstruktiv bir mövqe tutaraq bütün xarici qoşunların ölkədən çıxarılmasını, istiqlaliyyət və suverenliyin tam bərpa olunmasını tələb etmiş və bunun əleyhinə çıxan bütün daxili və xarici qüvvələrə qarşı qətiyyətli və barışmaz mübarizəyə aparacağını elan etmişdi. İDP-nin gizli fəaliyyət göstərən Güney Azərbaycan təşkilatı və onun Təbriz Komitəsinə Mirzə Əli Çayçı, Mirzə Əli Xan Postxana, Hacı Məhəmmədəli Badamçı başçılıq edirdilər.[107]

Ancaq 1-ci Dünya müharibəsində tərəfsiz qalacağını dünyaya

---

[106] Qasımlı Aydın. Güney Azərbaycan türkləri son 100 ildə. Bakı, Adiloğlu, 2012,s.32

[107] Şövkət Tağıyeva, Əkrəm Rəhimli, Səməd Bayramzadə, Güney Azərbaycan (məlumat kitabı, Bakı, Orxan, 2000, səh. 179 -183

elan edən Qacarların istər-istəməz Antanta (xüsusilə də İngiltərə-Rusiya-Fransa) ilə Osmanlı-Almaniya arasında qalması ciddi problemlər yaratmağa başladı. Osmanlı qoşunları 1914-cü ilan dekabrında Güney Azərbaycana daxil olaraq əslində Qafqaz cəbhəsinin davamı olan yeni cəbhənin açılmasına nail olmuşdular. Bununla da 1915-ci ilin əvvəllərində Qacarlarda iki hakimiyyətlilik özünü ciddi şəkildə büruzə verməyə başladı. Belə ki, rus-ingilis nəzarəti altında olan Tehran hökumətinə qarşı Qumda alman-türk meyilli "Müdafiəyi-İslamiyyə" komitəsi yarandı. Bu komitənin aparıcı qüvvəsi də Kərbala və Nəcəfin şiə müctəhidləri ilə Məclisi-Millinin demokrat millət vəkilləri idilər. Onlar Qacarlar dövlətindəki millətlərin (farslar, türklər) Almaniya və Osmanlıya münasibətlərini din, milliyyət əsasları üzərinə qururdular.[108] [109]

Bununla da, Əhməd şah Qacar 1-ci Dünya müharibəsi dövründə türklərin də Qacarlar üzərində təsiriylə öz hakim iradəsini bir az da olsa, artırmağı bacarmışdır. Özəlliklə, şahın Osmanlı türklərinin də dəstəyilə Qacarların ortaya qoyduğu birtərəflik bahasına Türkmənçay əhdnaməsini ləğvinə, eləcə də Xəzər dənizi üzərində hüquqlarını bərpa etməyə çalışması təsadüfi olmamışdır.[110] Ancaq cavan şahın bu cəhdləri bütövlükdə uğursuzluqla nəticələnmiş, üstəlik, xalq ölkədə baş verən bütün uğursuzluqlara görə onu parlamentdən, ya da hökumətdən az günahkar hesab etməmişdir.

Ən acınacaqlısı odur ki, həmin dövrdə dünənə qədər Qacarların paytaxtı olan Tehran yalnız siyasi durumuna görə deyil, eyni zamanda ideoloji anlamda da Türk ruhundan uzaqlaşdırılaraq "aryançılıq-irançılıq" mərəkəzinə çevrilmişdir. Başqa sözlə, artıq Əhməd şah Qacarın dövründən etibarən Türklər Tehranı aryançı irançılara uduzaraq ümid, istinadgah yeri kimi yalnız Təbrizi seçmişdilər. Bununla da, əslində türklər aryançı Pəhləvilər hakimiyyətə gətirilməmişdən öncə, yəni Qacarlar dövlətinin son dönəmində de-fakto ağalıqlarını aryançı irançılara verməyə başlamışdılar.

I Dünya müharibəsi başlar-başlamaz ermənilərin, aysorilərin bir yerdə Güney Azərbaycanın bir çox şəhələrində, o cümlədən

[108] Rəsulzadə M.Ə. Əsərləri. III cild, - Bakı: "Elm", 2012, s.236-237
[109] Yenə orada, s.480
[110] Yenə orada, s.254

Urmiya və Salmasda həyata keçirdikləri qətliamları da təsadüfi say-maq qətiyyən mümkün deyildir. Əgər biz prosesləri diqqətlə izləsək görərik ki, antitürk qüvvələr Şərqi Anadoluda, Cənubi Qafqazda, Volqaboyunda və Orta Asiyada olduğu kimi Cənubi Azərbaycanda da Türk-Müsəlman əhaliyə qarşı soyqırım planını əvvəlcədən, düşünülmüş şəkildə hazırlamış və addım-addım həyata keçirməyə çalışmışdır. Xüsusilə, çar Rusiyasıyla Böyük Britaniyanın 1-ci Dünya müharibəsində Almaniya və Osmanlıya qarşı müttəfiq kimi çıxış etməsi birtərəf qalmasına baxmayaraq Qacarlar dövlətində, o cümlədən Cənubi Azərbaycanda onların Türk-Müsəlman əhaliyə qarşı soyqırım siyasəti həyata keçirimək niyyətini gücləndirmişdir.

Hər halda 1-ci Dünya müharibəsi Qafqaz cəbhəsində olduğu kimi, Güney Azərbaycanda da Osmanlı-Rusiya müharibələrini qaçılmaz etmişdir ki, ruslar və ingilislər bu müharibələrdə qələbə çalmaq üçün, ilk növbədə, xristian dini kimlikli ermənilərlə aysorlara bütün sahələrdə dəstək verməklə, Türk-Müsəlman əhalinin soy-qırımında dolaysıyla da olsa iştirak etmişlər. Belə ki, 1907-ci ilin avqustunda İngiltərəylə bağladığı "nüfuz bölgüsü" sazişi nəticəsində faktiki olaraq Cənubi Azərbaycanda ağalıq etməyə başlayan, 1912-ci ildən etibarən burada hərbi qüvvələrini daha da genişləndirən çar Rusiyasının 1-ci Dünya müharibəsinə münasibətdə Qacar dövlətinin bitərəfliyinə baxmayaraq, bu coğrafiyada Osmanlıya qarşı hərbi müdaxilələr etməsi Azərbaycan türklərinin ciddi etirazlarına səbəb olurdu. Rus ordusuna qoşulmuş Osmanlı, Salmas, Urmiya aysor-larının və ermənilərinin sayı 100 min nəfərdən ibarət idi.[111].

1914-cü ilin sonu, 1915-ci ilin əvvəlində Osmanlı qoşunları Təbrizi, Salması və Urmiyanı ələ keçirsələr də, ancaq Ərzurumda Sarıqamış məğlubiyyətindən sonra rus ordusu yenidən həmin şəhər-ləri tutaraq Azərbaycanda mövqelərini gücləndirdilər. Rus işğalıyla barışmayan Təbriz əhalisi 1915-ci ilin aprelin 4-də etiraz mitinqi keçirmiş və rusların Azərbaycanı tərk etməsini istəmişlər. Belə bir mürəkkəb vəziyyətdə, aysorlarla ermənilər rus və ingilislərin birbaşa yardımıyla hərbi cəhətdən təşkilatlandırlaraq Osmanlı və Azərbaycan türklərinə əhaliyə qarşı müharibəyə təhrik edilirdi. 1915-ci il may

[111] Məlikzadə Tohid (Dilməqani). Güney Azərbaycan Birinci Dünya müharibəsi illərində - soyqırım. Bakı, "Bakı çap evi", 2010, s.12

ayında aysorların böyük bir qrupu rusların təşviqi ilə Osmanlı dövlətinə, bu anlamda Azərbaycan türklərinə qarşı da müharibə elan etmiş oldular. Çünki aysorlar Türk-müsəlman əhaliyə qarşı böyük ölçülü qırğınları ya da soyqırımı Qacarlar dövlətinin ərazisində, o cümlədən Güney Azərbaycanın Urmiya, Salmas kimi böyük şəhərlərində həyata keçirmişlər. Məsələn, 1915-ci ildə təxminən altı (6) ay Urmiyanın valisi olmuş Moiz əd-dövlə Azərbaycanın maliyyə işləri üzrə rəisinə aysorlarla ermənilərin Azərbaycanda, o cümlədən Urmiyada törətdikləri cinayətlərlə bağlı yazılı məlumatlar göndərmişdi.[112] Moiz əd-dövlə Təbrizdə oturan Qacar vəliəhdinə yazdığı məktubda da göstərirdi ki, bütün barışdırıcı cəhdlərinə, hətta əhalinin adlı-sanı şəxsiyyətləri və Amerikayla Fransa missionerlərinin iştirakıyla sülh təşəbbüsünə nail olmaq arzularına baxmayaraq Azərbaycan türklərinə xristianların təcavüz halları artmaqdadır.[113]

Ruisyayla İngiltərəyə arxalanaraq Osmanlıya müharibə elan edən aysorlar və ermənilər, xüsusilə də aysorların başçısı Marşimon Türk-müsəlman əhaliyə qarşı qırğınlar törədərkən əsas hərbi dəstəyi çar Rusiyasından almışdır. Çox keçmədən Avropanın və ABŞ-ın xristian missonerləri tərəfindən də ciddi şəkildə maliyyələşdirlən[114] və Rusiya, İngiltərə, ABŞ tərəfindən silahlandırlan aysorlar və ermənilər 1916-1917-ci illərdə Osmanlıyla aparılan müharibəyə daha yaxından cəlb olunaraq[115] Şərqi Anadoluda və Güney Azərbaycanda on minlərlə Türk-müsəlman əhalinin soyqırımında birbaşa iştirak etmişlər. “Aysorlar və erməni qaçaq dəstələri şəhərlərə və kəndlərə tökülüşüb ruslara arxalanaraq çox qarşılıqlar törətdilər. Əgər o vaxta qədər onlar yalnız camaatın malını soymaqla kifayətlənirdilərsə də, o vaxtdan sonra qayıdıb camaatı qırmağa da başladılar”.[116]

1917-ci il oktyabrında Rusiyada bolşevik inqilabı baş verdikdən sonra, aysorlarla ermənilərin Urmiya və Salmasdakı cinayətkar əməlləri daha da şiddətlənmişdir. Çünki rus ordusunun bu

---

[112] Yenə orada, s.53
[113] Yenə orada, s.55
[114] Yenə orada, s.78-79
[115] Akgündüz Ahmed, Öztürk Said. Sorularla erməni məsələsi. İstanbul, Pasifik ofset, 2008, s.283-285
[116] Məlikzadə Tohid (Dilməqani). Güney Azərbaycan Birinci Dünya müharibəsi illərində - soyqırım. Bakı, “Bakı çap evi”, 2010, s.87

bölgəni tərk etməsi ilə İngiltərə, Fransa və ABŞ Osmanlıya qarşı xristian ordusu yaratmaq qərarını vermişdir ki, onun əsasını yenə də aysorlarla ermənilər təşkil etmişdir.[117][118][119] Urmiyadakı rus konsolu Nikitin də xatirələrində yazır ki, aysorlarla ermənilərdən ibarət xristian qoşununun yaradılmış və onların başına əvvəlcə rus generalı Potavzev, daha sonra generalı Qaşfild gətirilmişdi. Nikitinin məlumatına görə, Cənubi Azərbaycanda yaradılan xristian qoşununa İrəvan və Naxçıvandan gələn 6 min nəfər erməni də qoşulmuşdur. Məlikzadə yazır: "Beləliklə, aysor ordusu və ya Azərbaycan aysorları, ermənilər, Osmanlı cilolarından (aysorlarından) təşkil olunmuş xristian ordusu Azərbaycanın və bölgənin siyasi-hərbi səhnəsinə daxil oldu. Azərbaycanın qərbi, Osmanlı sərhədi, Urmiyadan Araz çayına qədər bütünlüklə rus, ingilis, fransız birləşmiş xristian qoşununun rəsmi şəkildə işğalına məruz qaldı. Ciloların Urmiya və Salmasda camaatı qırmaq üçün əl-qolları açıldı. Əlbəttə ki, bu əzab-əziyyətlərin bir neçə əsas məqsədi var idi: Birincisi, bölgəni Azərbaycan türklərindən boşaltmaq və Haydat (Böyük Ermənistan) nəzəriyyəsinə əsaslanan bir xristian dövləti yaratmaq. İkincisi, ümumi rəyi Avropadan gedən müharibədən yayındırıb Osmanlı dövlətinı qarşı yönəltmək".[120]

1917-1918-ci illərdə Cənubi Azərbaycanda xüsusilə, Urmiya və Salmasda baş verən Türk-müsəlman qırığını Böyük Britaniya, Fransa və ABŞ tərəfindən aysorlarla ermənilərdən ibarət yaradılmış qondarma "xristian qoşunu" ya da qondarma "Aysor-erməni dövləti"nin əliylə əvvəlcədən planlaşdırlmış və həyata keçirilmişdir.[121] Hər halda, "Antanta" və onlara məxsus xristian missioner təşkilatları tərəfindən qondarma bir xristian "dövləti" yaradılmağa cəhd göstərilirdi ki, bu qondarma "dövlətin" liderləri

---

[117] Səfəri Həsən. Cənubi Azərbaycan: 1918-ci il soyqıdırmı. Bakı, "Araz" nəşriyyatı, 2016, s.48-49

[118] Əlibəyli H. Cənubi Azərbaycan çar Rusiyasının geopolitik planında. II məqalə (Cənubi Azərbaycan ərazisində xristian dövləti yaratmaq planı). "İpək yolu" jurnalı, №2, Bakı , 1998, s.54

[119] Məlikzadə Tohid (Dilməqani). Güney Azərbaycan Birinci Dünya müharibəsi illərində - soyqırım. Bakı, "Bakı çap evi", 2010, s.96

[120] Yenə orada, s.9

[121] Səfəri Həsən. Cənubi Azərbaycan: 1918-ci il soyqıdırmı. Bakı, "Araz" nəşriyyatı, 2016, s.48-49

Marşimon, Petros İllu və başqaları da qarşılarına əsas məqsəd kimi bir tərəfdən Osmanlıyla müharibəni davam etdirmək, digər tərəfdən Türk-müsəlman əhalisinin, xüsusilə də Azərbaycan türklərinin soyqırımını reallaşdırmağı qoymuşdur.[122] "Antanta"nın himayəsi ilə yaradılmış "xristian ordusu" 1918-ci il fevralın sonuna yaxın Urmiyada geniş miqyaslı soyqırım həyata keçirməyə başladılar. Məlikzadə yazır: "22 fevral 1918-ci il cümə günü axşamı Urmiya əhalisinin 3 günlük qırğını başlandı. Petrosun əmri ilə Əsgərxan məhəlləsinin aysorları müsəlmanlar yaşayan qonşu mənzillərə hücum etdilər. Belə bir sürətlə və vəhşicəsinə hücumu gözləməyən müsəlmanlar gözlənilmədən yaxalandılar.[123] Yalnız fevralın 25-də Urmiyanın türk-müsəlman əhalisinin təslim olub "xristian ordusu"nun şərtlərini qəbul etməsindən sonra qırğınlar nisbətən azaldı. Ancaq buna qədər Urmiyada ən azı 10 min türk-müsəlman əhali aysorlarla ermənilərdən ibarət "xristian ordusu" tərəfindən soyqırıma məruz qalmışdır.[124] Ancaq 1918-ci ilin martın 18-dən etibarən "xristian ordusu" yenidən Urmiyada kütləvi qırğınlar törətdilər və 10 mindən çox türk-müsəlman əhalisi öldürlüdü.[125] Bu qırğınların əsas başçısı isə Marşimonun öldürlüməsindən onun yerinə keçirən Petros İllu idi.

"Xristian ordusu" Urmiyadan sonra ən böyük qırığınlardan birini Azərbaycanın Salmas şəhərində həyata keçirdilər. Belə ki, 1918-ci il aprelin başlarında Salmasda "Xristian ordusu" fəallaşaraq, Salmasın türk-müsəlman əhalisinə qarşı qırğına başladılar.[126] Bu faciədən canlarını qurtarmaq üçün Salmas əhalisinin bir qismi şəhəri tərk edib başqa yerlərə gedərkən onların çoxu yolda soyuq hava nəticəsində həlak oldular.[127] Aysorlarla ermənilər 1918-ci il aprelin 24-də Salmasın mərkəzi Dilməqanı ələ keçirərək türk-müsəlman

---

[122] Məlikzadə Tohid (Dilməqani). Güney Azərbaycan Birinci Dünya müharibəsi illərində - soyqırım. Bakı, "Bakı çap evi", 2010, s.101-106

[123] Yenə orada, s.117-118

[124] Yenə orada, s.129

[125] Yenə orada, s.162

[126] Səfəri Həsən. Cənubi Azərbaycan: 1918-ci il soyqıdırmı. Bakı, "Araz" nəşriyyatı, 2016, s.133-134

[127] Məlikzadə Tohid (Dilməqani). Güney Azərbaycan Birinci Dünya müharibəsi illərində - soyqırım. Bakı, "Bakı çap evi", 2010, s.177

əhalisini uşaq, qoca, qadın demədən hər kəsi öldürməyə başladılar.[128] Bütün bunlardan sonra, "xristian ordusu" 1918-ci il mayın 4-nə qədər Salmas və ətrafından topladıqları 40 min müsəlmanı Həftvan kəndinə və Sər qalasına, oradan da başqa yerlərə apardılar ki, nəticədə onların böyük qismi də yollarda həlak oldular.[129] "Azərbaycan ümumi tarixi" ktabının müəllifi Sarvan Kaviyanpura görə, ermənilər və aysorlar tərəfindən Urmiyayla Salmasda və digər bölgələrdə ən azı 130 min türk müsəlman qətlə yetirilmişdir.[130]

Ermənilər və aysorlar tərəfindən Urmiyayla Salmasın Türk-müsəlman əhalisi soyqırıma məruz qaldıqdan və əhalisi xeyli dərəcədə boşaldıqdan sonra Quzey Azərbaycanda yaşayan Güney Azərbaycan türklərinin bir qisminin bu bölgədə məskunlaşdırılmasıyla bağlı Qacarlar dövləti qərar qəbul etmişdir. Burada əsas məqsəd "xristian ordusu"nun soyqırımından sonra Urmiya və Salmasda sayları xeyli dərəcədə azalmış müsəlman əhalisinin bölgədəki balansını qorumaq idi. [131]

Daha sonra "xristian ordusu" Güney Azərbaycanın Xoy şəhərində və ətrafında türk-müsəlman əhalinin qırğınına başlamışdı. 1918-ci il iyunun 24-də Andronikin ordusu Xoy şəhərini mühasirəyə almış, ermənilər Urmiyada törətdikləri vəhşilikləri burrada da davam etdirmişlər. G.Nəcəfli yazır: "Ancaq şəhər sakinləri silahlı müdafiə ordusu yaradaraq, düşmənə ciddi müqavimət göstərdi. Şəhərin müdafiəsində qadınlar da iştirak edirdilər. Ermənilər şəhəri top atəşinə tutdular. Lakin bu vaxt Salmas tərəfdən Osmanlı ordusunun yaxınlaşdığını görən ermənilər məğlub olacaqlarını hiss edib, gəldikləri yolla da geri döndülər". [132]

Qeyd edək ki, Cənubi Azərbaycanın, o cümlədən Urmiya, Salmasın, Xoyun "xristian ordusu"nda qurtulmasında Osmanlı qoşunları mühüm rol oynadılar (1918-ci ilin aprel-noyabr ayları). Məhz

---

[128] Nəcəfli Güntəkin. Urmiya bölgəsində azərbaycanlılara qarşı soyqırımı (1917-1918). Bakı, "Azərbaycan Tarixçiləri" İB, 2015, s.51-52

[129] Məlikzadə Tohid (Dilməqani). Güney Azərbaycan Birinci Dünya müharibəsi illərində - soyqırım. Bakı, "Bakı çap evi", 2010, s.193

[130] Kaviyanpur Əhməd Sarvan. Tarih-e omimi-ye Azərbaycan .Tehran, Asya, 1346, s.266

[131]Reza A.Heyət-e fövqaladi-ye Qəfqaziyye. Rezaiyyə. Çap-e əvvəl.1379.Tehran, s.193

[132] Nəcəfli Güntəkin. Urmiya bölgəsində azərbaycanlılara qarşı soyqırımı (1917-1918). Bakı, "Azərbaycan Tarixçiləri" İB, 2015, s.58

Osmanlı ordusunun 4-cü və 6-cı alaylarının qəhrəmanlıqları nəticəsində Urmiya və Salmas, eləcə də digər Azərbaycan kəndlər və şəhərləri birləşmiş erməni-aysori ordusundan azad edildilər. Hər halda Quzey Azərbaycan kimi Güney Azərbaycanın da türk-müsəlman əhalisinin erməni-aysori hərbi birləşmələri ya da xristian ordusu tərəfindən tamamilə məhv edilməsindən qurtarılmasında Osmanlı dövləti, Osmanlı-Türk əsgəri fövqəladə rol oynamışdır.[133]

Ümumilikdə, biz görürürk ki, I Dünya müharibəsi illərində Qacarlar dövlətinin tənəzzül dövrünü yaşamasından sui-istifadə edən Qərb dövlətləri (Böyük Britaniya, ABŞ, Fransa) və Rusiya açıq-aşkar şəkildə aysorlarla ermənilərdən ibarət yaratdığı "xristian ordusu"nun əliylə Cənubi Azərbaycanın Urmiya, Salmas, Xoy bölgələrində Türk-müsəlman əhaliyə qarşı soyqırımı həyata keçirmişlər. Onların burada əsas məqsədi türk-müsəlman əhalisini tamamilə aradan qaldırmaq və həmin bölgədə yeni bir xristian dövləti yaratmaq idi. Qərb dövlətləri ermənilər üçün Güney Qafqazda "Ermənistan" yaratmağa nail olsalar da, anaq Güney Azərbaycan və Doğu Anadolu torpaqları hesabına Aysori-Erməni dövləti yaratmağa nail ola bilmədilər. Ancaq həmin Qərb dövlətlərinin ağılasığmaz əməlləri nəticəsində on minlərlə türk-müsəlman əhali əsasən aysorlarla ermənilərdən ibarət "xristian ordusu" tərəfindən soyqırıma məruz qaldılar.

**Qacarlar və Azərbaycan Cümhuriyyəti münasibətləri.** Qacarlar dövləti ilə 1918-ci ilin 28 mayında yaranmış Azərbaycan Cümhiyyəti arasındakı münasibətlər bir çox hallarda ziddiyyətlərlə özünü büruzə vermişdi. Quzey Azərbaycan türkləri hələ, istiqlaldan öncə "Azərbaycan" milli ideyasıyla öz mövqeyini gücləndirdiyi dövrdə "Azərbaycan" isminə qarşı etirazlar sosial-demokrat adıyla pərdələnən rusiyaçılar və İslam birliyi ideyasından çıxış edən ittihadçılarla yanaşı Qacarlar dövlətindən, daha doğrusu bu dövlətdə "İran", "İranlı" adlarıyla pərdələnən aryançı irançılardan da gəlməyə başladı. Belə ki, Tehranda nəşr olunan "Novbahar" qəzeti 1918-ci ilin əvvəllərində yayımladığı saylarının birində Quzey Azərbaycan türklərinin "Azərbaycan" ideyası zəminində Azərbaycan muxtariyyəti uğrunda mübarizə aparmasını tənqid edirdi. "Novbahar"ın aryançı ideoloqlarına görə, Azərbaycan muxtariyyəti ideyası "İran"

---

[133] Nesibli Nesib.Azerbaycan tarihi: Millet-Devlet-Siyaset. Ankara, Altınordu,2019, s.497

dövlətinin istiqlalına qarşı olub "İran Azərbaycanı"nı da özünə birləşdirmək niyyəti güdür. "Novbahar"ın müdiri Məlikşüəra yazırdı: "Qafqaz Azərbaycanı türklərinin islamiyyət evində özlərinə məxsus otaq tutmağa haqqları yoxdur: məgər indi özlərinə məxsus olan otağı ya bizə, yəni İrana, ya da Osmanlı türklərinə ilhaq edələr". [134]

M.Ə.Rəsulzadə "Novbahar" qəzetinin bu iddiasına cavab olaraq yazırdı ki, onların əsas hədəfi "İran dövləti" ya da "İran Azərbaycanı" deyil, Bakı, Gəncə, İrəvan və qeyri əyalətlərdən ibarət olan Qafqaz Azərbaycanı türklərinin muxtariyyəti və istiqlalıdır. Milli ideoloqumuza görə, bu mənada ""Novbahar" müdiri möhtərəm Azərbaycan adından nahaq xof və dəhşətə düşmüşdür... Azərbaycan yüz on il bundan qabaq havayi-ruzigardan təqsim olundu və Araz çayının Şimal tərəfində olan qitələri rus aldıqdan sonra Azərbaycan adını götürüb Zaqafqaziya adlandırdılar ki, Məvarayi-Qafqaz olsun".[135]

Gördüyümüz kimi, Cümhuriyyət qurulana qədər "Tarixi-coğrafi Azərbaycan"ın Türkçülük və Turançılıqla bağlı olması haqqında müəyyən müddəalar irəli sürülmüşdür ki, bunun da əsas müəllifi Rəsulzadə olmuşdur. Rəsulzadə də Azərbaycan türkçülüyünü ya da Azərbaycan turançılığını birmənalı şəkildə "Rusiya Azərbaycanı"na və "İran Azərbaycanı"na qarşı qoymuşdur. Yəni Rəsulzadənin ortaya atdığı Azərbaycanizmin mahiyyətində artıq Rusiya və "İran" mərkəzlilik deyil, məhz Türklük və Turanlılıq dayanırdı. Başqa sözlə, Quzey Azərbaycan türkləri bir tərəfdən 100 ilə yaxın Rusiyanın işğalı altında olduğu üçün ruslaşdırma siyasətinin qurbanı olmuşlara, digər tərəfdən Qacarlar dövlətinə son vermək niyyətində olan aryançı farslarla onların təsiri altına düşmüşlərə qarşı mübarizə apararaq Azərbaycan turançılığını müdafiə etmişlər. Üstəlik, Azərbaycan Ttürk aydınları, özəlliklə də Rəsulzadə "Turan Azərbaycanı", "Türk Azərbaycanı" ideyalarını müdafiə edərkən də bir tərəfdən türkçülük, turançılıq prinsiplərindən kənara çıxmamağa çalışmış, digər tərəfdən isə Türkçülük və Turançılıq içində onun müstəqil varlığını müdafiə etmişdir.

"ADR-İran diplomatik münasibətləri Qafqaz Fövqəladə Komissiyasının sənədləri işığında (1919-1920-ci illər)" kitabının

---

[134] Rəsulzadə M.Ə. Əsərləri. IV cild, - Bakı, "Qanun nəşriyyatı;", 2013, s.448
[135] Rəsulzadə M.Ə. Əsərləri. IV cild, - Bakı, "Qanun nəşriyyatı;", 2013, s.448

ideya müəllifi akademik Ramiz Mehdiyev də həmin əsərin giriş hissəsində bu ziddiyyətlərdən biri kimi, Qacarlar dövlətinin ilk dövrlərdə Azərbaycan Cümhuriyyətini tanımaması səbəblərinə aydınlıq gətirməyə çalışmışdır. Akademik yazırdı: "...İran Qacarlar dövləti müsəlman ölkəsi olmasına baxmayaraq, uzun müddət Azərbaycanın istiqlaının tanınması məsələsində gözləmə mövqeyi seçməyə üstünlük verdi. Bəli, danılmaz tarixi həqiqətdir ki, Azərbaycanın öz müstəqilliyini elan etdiyi tarixi şəraitdə demək olar ki, heç kəs onun gələcəyinə inamla yanaşmırdı. Xüsusilə də, ölkə ərazisinin əhəmiyyətli qisminin daşnak-bolşevik qüvvələrinin nəzarətində olması, Azərbaycan istiqlalının yaşayıb-yaşamayacağına dair ciddi suallar doğururdu. Bu mənada digərləri kimi, İranın da, gözləmə mövqeyi seçməsi, hadisələrin inkişafını izləməyə üstünlük verməsi siyasi maraqlar baxımından müəyyən mənada başa düşüləndir. Ancaq 1918-ci ilin 15 sentyabrında Azərbaycan əsgərlərinin Qafqaz İslam Ordusu ilə birgə apardığı uğurlu əməliyyatlar nəticəsində Bakıya daxil olmasından və ölkə ərazisində nəzarəti təmin etməsindən sonra müsəlman İranının Qərb ölkələri kimi dövlətimizin istiqlalına biganə qalması o dövrdə olduğu kimi indi də anlaşılan deyil".[136]. R.Mehdiyev daha sonra yazır: "İlk vaxtlar Qacar məmurları Xalq Cümhuriyyətini tanımamaqlarının səbəbini dövlətin adı ilə, daha doğrusu "Azərbaycan" sözünün onlar üçün doğurduğu siyasi narahatçılıqla izah edirdilər. Onlar mövqelərini bununla əsaslandırırdılar ki, Azərbaycan İranın şimalında yerləşən və mərkəzi Təbriz olan tarixi bir bölgənin adı adı olduğu üçün, bu toponimin Qafqazda yerləşən, qaynaqlarda isə Arran kimi qeyd edilən əraziyə şamil edilməsi yolverilməzdir. Lakin hadisələrin sonrakı təhlili göstərir ki, iranlıların səsləndirdikləri arqumentlər səbəbdən çox bəhanə səciyyəsi daşıyırdı. Əslində isə İran, Xalq Cümhuriyyətinin yaranmasına ehtiyatla yanaşır, ona 1828-ci ildə ikiyə bölünmüş Azərbaycan torpaqlarının tarixi perspektivdə birləşməsinə təkan verə biləcək siyasi və ideoloji təhlükə kimi baxırdı. Lakin İranın tutduğu mövqeyə baxmayaraq, Azərbaycan diplomatiyası kifayət qədər təmkinlə və

[136] ADR-İran diplomatik münasibətləri Qafqaz Fövqəladə Komissiyasının sənədləri işığında (1919-1920-ci illər). Bakı, Şərq-Qərb, 2017, s.5-6

uzaqgörənliklə hərəkət edir, bütün mümkün vasitələrdən bəhrələnməyə çalışırdı”.[137]

Həmin dövrdə Qacarlar dövlətini yıxmaqda qərarlı olan aryançı-irançı ideoloqlar başda “İran” qəzeti olmaqla mətbuatda belə bir təbliğat aparırdılar ki, Qafqazın bir qismindən ibarət olan Türk dövlətinə “Azərbaycan” isminin verilməsi doğru deyildir. Çünki “Azərbaycan” adı yalnız “İran”ın qədim vilayəti kimi tanınan Azərbaycan əyalətinin haqqıdır. Bir sözlə, irançı ideoloqlar bütün vasitələrə əl ataraq “Azərbaycan”ı tarixi-coğrafi anlamda sözdə “İran”ın qədim əyaləti kimi qələmə verir, mümkün qədər türklük və turanlılıqdan uzaq tutmağa çalışırdılar.

Aryançı ideoloqların “İran Azərbaycanı” iddiasına qarşı çıxan M.Ə.Rəsulzadə “Azərbaycan və İran” adlı növbəti məqaləsində bir daha yazırdı ki, Qafqazdakı Azərbaycan türk milləti, azərbaycanlılar “Azərbaycan” kəliməsini çoğrafi mənadan çox milli mənsubiyyət olaraq qəbul edirlər. Deməli, dünyada “Azərbaycan” adlı bir coğrafiyayla yanaşı “Azərbaycan camaatı” da vardır. Milli ideoloqumuza görə, “Azərbaycan camaatı” da özünə məxsus bir ləhcə ilə danışan Türk xalqlarından bir millətdir ki, o, başqa adla Qafqaz türkləri də olaraq tanınır. Bu anlamda Qafqaz türklərinin ədəbiyyatı, teatrı, operası, dili də “Azərbaycan”la bağlıdır. Beləliklə, coğrafi anlayışlar üzərindən müzakirələr aparılmasını doğru saymayan Rəsulzadə “Azərbaycan” ideyasında əsas vurğunun milli kimlik üzərində qurulmasını vacib hesab etmişdir: ““Qafqaz müsəlman türkləri” ilə azərbaycanlı təbirinin eyni mənanı ifadə etdiklərini coğrafiya nöqteyi-nəzərindən cərh (yaralama, sancma) eləmək mümkün olsa da, qövmiyyət nöqteyi-nəzərindən bunu inkar etmək mümkün deyildir. Zira İrəvan, Gəncə və Bakı quberniyalarındakı türklər ilə Ərdəbil, Marağa, Xalxal, Təbriz və Qaracadağ mahallarındakı türklərin biri-birindən nə ilə ayrıldıqlarını mən yaxşı fərq edəmiyoram. Eyni dil, eyni adət, eyni məzhəb, eyni ənənələr burada da, orada da hökmfərma, ortada yalnız yüz illik digər bir siyasi həyat ilə yaşamanın təsiri mövcuddur. “Qafqaz müsəlman türkləri”nin “İran müsəlman türkləri” kimi tanınan bir ismi vardır: Azərbaycan türkü”.[138]

---

[137] Yenə orada, s.6

[138] Rəsulzadə M.Ə. Əsərləri. V cild, - Bakı, “Təhsil”, 2014, s.239

Beləliklə, “Azərbaycan” kəliməsini milli kimlik anlamında irəli sürənlər Azərbaycan Cümhuriyyətini milli həyat yaşamaq istəyən Azərbaycan türk millətinin təsis etdiyi bir dövlət olaraq görürdülər. Azərbaycan türk millətinin də “Azərbaycan Cümhuriyyəti” adından Qacarlardakı Azərbaycan türklərinə görə imtina etməsi məntiqli hesab olunmurdu. Qaldı ki, irançıların Azərbaycan Cümhuriyyəti adı altında öncə Qafqaz Azərbaycanı türklərinin, daha sonra da Qacarlardakı Azərbaycan türklərinin istiqlalını istədikləri müddəasına, Azərbaycan türk aydınları bunu da əsassız hesab etmişlər. Y.V.Çəmənzəminli “Azərbaycan” qəzetində “Xarici siyasətimiz” məqaləsində yazırdı: “Dövlətimizin “Azərbaycan” adlanması sui-təfəhhümlərə səbəb oldu. Halbuki Təbriz əyalətinin, yəni İran Azərbaycanının İranın olub-olmaması barədə ortalıqda heç bir məsələ yoxdur. İranın haqqına təcavüz etmək fikrində deyilik, olmamışıq və olmayacağıq, bizi tərəqqi və istirahətimizi təmin edən yalnız qonuşularımız ilə dostluğumuzdur”. [139]

Qeyd edək ki, 1919-cu ilin martında Azərbaycan Cümhuriyyətinin Xarici İşlər nazirinin müavini Adil xan Ziyadxanovun rəhbərlik etdiyi Azərbaycan Heyəti Tehrana gedib və uzun müzakirələrdən sonra tərəflər 14 bənddən ibarət razılaşma imzalayıblar. Ancaq aryançı farsdilli dairələr Qacarlar-Azərbaycan münasibətlərinin yaxşılaşmaması üçün problemlər yaradaraq sazişin ratifkasiya edilməsini gecikdirirlər. R.Mehdiyev yazır: “Ümmumiyyətlə götürdükdə isə, həmin dövrdə Qacar hökumətinin Azərbaycanla müsəlman qardaşlığı və qonşuluq amilindən yox, bilavasitə əhmiyyətini itirmiş tarixi iddialardan qaynaqlanan mənfəətlərindən çıxış etdiyi halda Xalq Cümhuriyyətinin öz suverenliyini və haqqını qorumaq üçün çalışmasında qəbahət axtarmağın bir mənası varmı? Təbii ki, yox. Zaman özü də, Azərbaycanın seçdiyi yolun nə qədər düzgün olduğunu göstərdi və Qacarlar məcburiyyət qarşısında qalıb, Xalq Cümhuriyyəti ilə münasibətləri rəsmiləşdirməyin yollarını axtarmağa başladılar. Tədqiqatçılar da qeyd edirlər ki, İranı belə bir addım atmağa əsasən iki mühüm səbəb sövq etmişdi:

1. Azərbaycanda yaşayan və fəaliyyət göstərən iranlılar davamlı şıkildə üzləşdikləri bürokratik əngələr səbəbindıən çoxsaylı

[139]Çəmənzəminli Y.V. Xarici siyasətimiz. “Azərbaycan”, qəzeti, 1919-ci il, 11 iyul

şikayət məktubları iləöz hökumətlrinə müraciət edir və yardımn istəyirdilər. Tehran məcburiyyət qarşısında qalıb öz təbəələrinin problemlərini aradan qaldırmaq üçmün mütləq şəkildə Azərbaycan rəsmiləri ilə ünsiyyət yaratmalı, hüquqi proseduralar ətrafında razlığa gəlməli idi.

2. Qafqaz, xüsusilə də, Azərbaycan İranın xarici tiarətində mühüm əhəmiyyət kəsb dən , gəlirli istiqamətlərdən biri idi. Bu istiqaməti itirmək iranlı tacirlərin ciddi narazlığına səbəb olar, onları şah hakimiyyətindən narazı sala bilərdi. Yəni, iqtisadi maraqlar da, Azərbaycanla siyasi mübnasibətləri sahmana salmağı zəruri edirdi.

Beləliklə də, İran tərəfi Azərbaycanla diplomatik münasibətlərin yaradılması, tərəflər arasında mühüm hüquqi problemlərin həll edilməsi məqsədilə Bakıya nümayəndə heyətinin göndərilməsinə dair qərar qəbul etdi. Nümayəndə heyətinə rəhbərlik İranın nüfuzlu siyasi qəzeti sayılan "Rəd" nəşrinin rəhbəri Seyid Ziyaəddin Təbatəbaiyə (1888-1969) həvalə olundu".[140]

Qeyd edək ki, 1919-cu ilin noyabrında Bakıya gələn Qacarların nümayəndə heyəti 1920-ci ilin martında rəsmi Bakıyla 7 sahədə bağladıqları sazişlə Azərbaycanın müstəqilliyini de-yure də tanımışdı. Qacarlar dövlətinin "Qafqaz Fövqəladə Komissiyasının sənədləri"ndən də görürük ki, Qacarların xarici işlər nazirliyi 1919-cu ilin oktyabrın 12-də Qafqaz dövlətləri ilə münasibətləri yaxşılaşdırmaq üçün Qafqaza bir komissiya göndərmək, eyni zamanda Qafqazdakı Bakı, Tiflis, Gəncə və İrəvan şəhərlərində məktəblər və qəzetlər təsis etmək və ruhani rəhbərlər təyin etmk qərarına gəlib. "Dövlət xərcləri hesabına Badkubədə fars və türk dilində bir qəzetin təsis edilməsi". [141] Maraqlıdır ki, Qacarların nümayəndə heyətinə aid həmin sənədlərdə "Qafqaz Azərbaycanı" ifadələri yer almışdır. [142]

Qacarların xarici işlər nazirliyi Tehrandakı "Rus idarəsi"nə 1919-cu ilin oktyabrına aid göndərdiyi məktubunda Qafqaz Fövqəladə Komissiyasının sədrinə və heyətə dair göstərişlərini ifadə

[140] ADR-İran diplomatik münasibətləri Qafqaz Fövqəladə Komissiyasının sənədləri işığında (1919-1920-ci illər). Bakı, Şərq-Qərb, 2017, s.10-11
[141] Yenə orada, s.51-52
[142] Yenə orada, s.53, 54, 56

etmişdir. Bu sənədə də deyilirdi ki, çar Rusiyası dağıldıqdan sonra Qafqazda 4 müstəqil dövlət meydana gəlib. Həmin sənədə görə, bu dövlətlərdən biri olan Azərbaycan Cümhuriyyəti guya, "İran"a aid olub və indi də onlara meyillidir: "Bundan əlavə bu gün Qafqaz Azərbaycanı adlanan respublikanın əksər şəhərləri İrana aid (məxsus) olub və indiyə qədər də İrana meyilldirlər. bununla belə müxtəsər formada desək Rusiyada inqilabların baş verməsi və yeni hökumətlərin yaranması ilə xarici hiylələr (müdaxilələr) vasitəsilə vəziyyət o həddə gəlib çıxdı ki, Qafqaz Azərbaycanında yaranan respublika İranla özünün məzhəb, millət və tarixi bağlılığını unutması bir yana hətta İran dövlətinin eyni millət və etnik tərkibin tələb etdiyi möhkəm bir ittifaqda birləşmək kimi səmimi istəyini də, qəbul edə bilmədi və ya etmək istəmədi. Təfsilatı ilə belədir ki, rus qoşunun geri dönməsi, dövlətin zəifləməsi və inqilablıarın baş verməsindən sonra Osmanlı qoşun dəstələri yaranan fürsətdn istifadə edərək Qafqaz və Azərbaycan torpaqlarına daxil oldular. Türk təbliğatçıları zahirdə eyni dil və millət amilindən istifadə etməklə Qafqazda yaşayanları aldatdılar. O qədər hiylə işlətdilər ki, Qafqaz Azərbaycanı Respublikası və orada yaşayan müsəlmanların İranla olan münasibətlərini korladılar. Yenicə təşkil edilən Qafqaz Azərbaycanın qurucuları öz qədim vətəni və gələcək qonşusu olan İran dövlətinin maddi və mənəvi imkanlarından yararlanmasına mane oldular. Həmin təbliğatçıların hiyləsinə inanıb İranın şimal əyalətlərini birləşdirmək tamahı ilə öz qonşusu olan qədim dövlətin mənafeyinə zidd olaraq İranın böyük əyalətlərindən birinin adını yeni qurulan dövlətin adı kimi "Azərbaycan Respublikası" adlandırdılar. Badukubənin yerli qəzetləri və digərləri vasitəsilə həqiqətə zidd məqalələr dərc etməklə İran dövləti ilə olan münasibətləri ümumiyyətlə korladılar. Buna baxmayaraq, ilk vaxtlar İran dövlətinin Qafqaz Azərbaycan Respublikasısına mənəvi, iqtisadi və siyasi maraqlarından qaynaqlanan meyl və istək, yeni yaranmış qonşu dövlətin nümayəndə və təmsilçisi olan İsmayıl xan Ziyadxanovu qəbul etmklə nəticələndi. Dünyanın durumunun kifayət qədər qeyr-müəyyən olduğu birt vaxtda mümkün olan həddə birlik və vəhdət nümayiş etdirərək tərəflr öz aralarında müvəqqəti olaraq müqavilə bağladılar. Qeyd edilən nümayəndələr öz vəzifəsini başa

vurduqdan sonra razı və məmnun halda qayıtdllar. Ancaq çox təəsüüf ki, verilən vədlərin yerinə yetirlməsi gözləntisinin əksinə olaraq İsmayil bəy Ziyadxanovun Badkubəyə qayıdından sonra Qafqaz Azərbaycan Respublikası öz nümayəndəsinin veriyi vədklərin heç birisinə əməl etmədi. Münasibətləri elə korladılar ki, bu gün arada hər hansı bir ticari və digərt əlaqlərdən söhbət gedə bilməz”.[143]

İ.Ziyadxanovla bağlanan müqavilədə Qacarlar dövləti Azərbaycanın müstəqiliynmi tanımırdı. Ona görə də rəsmi Bakı bu müqaviləni imzalamaqdan imtina etmişdir. Ancaq Qacarlar dövlətində yönətimi əlinə keçirmiş aryançı məmurlara görə müqavilənin bağlanmamasınn səbəbkarlarından birincisi Osmanlıdır. Həmin sənədə yazılırdı: “Osmanlı təbliğatçıları öz gizlin niyyətlərini həyata keçirməkdən və İran Azərbaycanını növbəti dəfə ciddi bəlalar ilə qarşı-qarşıya qoya bilmədiyindən məyus olub, Qafqaz Azərbaycanı əhalisini həmin müqaviləyə qarşı çıxmağa vadar etmk istəyir, şahsevər əyalətlər olan Maku, Xoy və Səlmas hüdudlarında düşüncələrə şübhələr salmağa çalışır, libaslarını dəyişərək təbliğatla məşğul olur və nə ilə bitəcəyi məlum olmayan işlər görürlər”.[144]

Qacarlar dövlətinin xarici işlər nazirliyindən Sovet Rusiyası səfirliyinə də bildiriblər ki, bütün bunlara baxmayaraq “İran” Azərbaycan Respublikasının yaranmasından, asudə və xoşhaldır, hətta onun yaşaması üçün də əlindən gələni edəcəkdi və bu məqsədlə də Qafqaz Azərbaycanına bir heyət göndərir.[145] Həmin sənəddə daha sonra Azərbaycana ezam olunan heyətin vəzifə və prinsiləri də açıqlanmış, yəni dostluq, ticarət, poçt və digərt əlaqələrin qurulmasından bəhs olunmuşdur.

Həmin dövrdə Qacarlar dövlətinin baş naziri Vüsuqüd-Dövlə Azərbaycan Respublikasının baş naziri Nəsib bəy Yusfibəyliyə (18 noyabr 1919) göndərdiyi məktubunda da yazırdı: “Şahənşah dövlətinin Qafqaza göndərmək istədiyi komissiya ilə qonşumuz olan gənc Azərbaycan Respublikasına, ləyaqətli nümayəndəsi olduğunuz və İranla tarixi keçmiş, əxlaq, adət-ənənə və müştərək etiqadın möhkəm bağlar yaratdığı məğrur dövlətinizə öz hörmət və

[143] Yenə orada, s.59-60
[144] Yenə orada, s.64
[145] Yenə orada, s.64

ehtiramımı bildirməyə fürsət əldə etdiyim üçün şadam. İran, hal-hazırda qardaş Azərbaycan xaqının yaratdığı qonşu ölkəni görməkdən xoşhalıdır. Bu vaxta qədər Azərbaycanın İran (dövləti tərəfindən rəsmi bildiriş əsasında) rəsmən tanınmamasının yeganə dəlili, hal-hazırda böyük konfransa (Versal sülh konfransı nəzərdə tutulur – F.Ə.) görə, hər gün baş verən gözlənilməz dəyişikliklərin reaallaşdırdığı siyasi mübarizə və diplomatik məsələlərdir. De-fakto dövlət kimi tanınan Azərbaycan dövlətinin de-yure dövlət kimi də tanınacağı günün intizarındayıq. Şahənşah dövləti elə indidən qonşu və qardaş Azərbaycan Respublikası ilə səmimi əlaqələr quracağına ümidvardır. Çünki bu əlaqələrin yaranmaması hər iki dövlətin mənafeyinə ziddir. Buna görə də İranın Şahənşah dövləti Qafqaza komissiya göndərmək qərarına gəlibdir. Tərkibi, həyata keçirməli olan araşdırmalara, ikili razılaşma əsasında atılacaq addımlar və standartlara dərindən bələd olmalıdır. Komissiyanin sədri vəzifəsi Şahənşah dövlətinin tam etimadına malik və həm də İranın ictimai fikrinin təmsilçisi olan əlahiddə nümayəndəmiz cənab Seyid Ziyaəddin Təbatəbaiyə həvalə edilibdir”. [146]

Bakıda səfərdə olarkən Məhəmməd peyğəmbərin (s.) mövlud günü ilə bağlı təşkil olunmuş mərasimə qatılan S.Z.Təbatabai Qacarların nazirlər şurasına göndərdiyi məktubunda (4 dekabr 1919) yazırdı ki, o da bu tədbirdə çıxş edib: “Nitqin girişi fars dilində idi. Dedim: Həzrət peyğəmbərin (s.ə.s.) mövlud bayarmı gün İran millətinin salamını Azərbaycan millətinə çatdıra bilmək üçün ən yaxşı fürsətdir. Dərhal da bu ifadəni Türk dilində ifadə etdim. Təqribən 8 dəqiqə Türk dilində Qafqaz Azəbaycanı və İran millətinin məzhəb, tarix və etnik münasibət və əlaqələrinə dair çıxış etdim”. [147].

Təbatabi yazir ki, ondan sonra Azərbaycan dövləti adından başqaları, o cümlədən M.Ə.Rəsulzadə də çıxış etmişdir. O, yazırdı: “Rəsulzadənin nitqi bizim məzhəbi adət-ənənəmizə uyğun olsa da, amma fikrimcə, burada İranın tarixi keçmişi və milliyyəti haqqında kinayəli formada nə isə çatdırmaq istədi. Xüsusilə də, Kəsra tağının tarixi hissəsinin arxasınca Türk milləti və Türkün birliyindən söz açdı. Onun bu niqti məni qəmgin etdi. Lakin xoşbəxtlikdən orada

[146] Yenə orada, s.73-74
[147] Yenə orada, s.84

iştirak edənlərin bəlkə də heç 10 nəfəri onun bu sancmasını başa düşmədilər. Bu nitqə cavab verməyim üçün şərait münasib deyildi”.[148]

S.Z.Təbatabai Qacarları hökumətinə göndərdiyi başqa bir məktubunda (8 dekabr 1919) açıq şəkildə yazırdı ki, Azərbaycan-Ermənistan arasındakı problemin öz həllini tapa bilməməsindən yararlanaraq Naxçıvanı “İran”a birləşdirmək mümkündür.[149] Təbatəbai Tehrana göndərdiyi başqa bir məktubunda (20 dekabr 1919) isə yazırdı ki, mövlud günü ilə bağlı iranlıların Bakıdakı İttihad mədrəsəsində də olub: “Mədrəsanin durumu çox pisdir, müəllimi yoxdur, fars dili natamam şəkildə tədris edilir. Mədrəsə direktoru təzəlikcə böyüklər üçün olan sinifdə İranın fars dilini tədris edir. Fars dili o qədər az işlənir ki, hətta mən məcbur olub, İttihad mədrəsəsində öz nitqimi türk dilində ifadə etdim. Çünki fars dilində söyləsəydim iştirak edənlərdən bəlkə də, onda bir hissəsi başa düşərdi”.[150]

S.Z.Təbatabai Qacarlar hökimətinə göndərdiyi digər bir məktubunda (23 dekabr 1919) isə yazırdı ki, Müsavat Partiyası Azərbaycan dövlətinin təsisçisidir və Türk birliyi əqidəsinin tərəfdarıdır: “Bu firqənin üzvləri İrana xoş münasibətdə deyil, xüsusilə də Rəsulzadənin təbliğatı vasitəsilə İranı zəif və gücsüz hesab edir və öz müstəqilliklərini Osmanlılarla ittifaqda görürlər. Lakin bir illik təcrübədən sonra bu gün artıq həmin əqidənin təəssübkeşi deyillər. Öz müstəqillikləri üçün faydalı olan hər bir yolu seçəcəklər. Rəsulzadə və onun səmimi silahdaşları İranın yardım və dəstəyini özləri üçün faydalı hesab etslər belə, yenə də, İrana qarşı ehtiram və səmimiyyətləri yoxdur. Bitərəf partiya isə ümumiyyətlə İran üçün əlverişlidir. Onların bəzi nüfuzlu şəxsləri İrana ümid və dostluq yeri kimi baxırlar”.[151]

Z.Təbatəbai “İttihad” Partiyası və onun lideri Qarabəy Qarabəyovla bağlı yazırdı ki, o, ötən iyirimi iildə Qafqazı Osmanlıya birləşdirmyə çalışmışdır. Ancaq bir ara ruslarla əlaqələrinin olması barədə məlumatlar onun nüfuzuna zərbə olmuşdur. Azərbaycan Respublikası yarandıqdan sonra “İttihad”ın başındadır və onların

[148] Yenə orada, s.85
[149] Yenə orada, s.92
[150] Yenə orada, s.106-107
[151] Yenə orada, s.115

varlığı Müsavatı zəiflətmişdir: "İttihadçılarn fəaliyyət və təbliğatı əhali arasında öz işini gördü və indi xüsususlə də, kəndlilərin yer aldığı Azərbaycan əhalisinin bir hissəsi ya "İttihad"la birlikdədir, ya da ən azı "Müsavat"a qarşıdırlar. Qarabəyov və dostlarının proqramı İslam birliyi tərəfdarı olub və Türk birliyi əqidəsinə zidd olduğu üçün iranlıları qane etsə də, onları sabit və strateji bir əqidəyə sahib qrup hesab etmıək olmaz". [152] Təbatəbaiyə görə, "ittihadçı"lar daha çox osmançılarla bağlıdır, "Müsavat"ın yeni hökumətə seçkilərdə qalib gəlməməsi üçün də əllərindən gələni edirlər: "Bu gün Müsavatın rəqibi İttihaddır. Aralarında olan məslək fərqli ilə yanaşı İttihad Partiyası Müsavatı yerə vurmaq üçün hər bir partiya ilə mütəffiq olmağa hazırdır". [153]

Təbatəbai yazırdı ki, Azərbaycanın ədliyyə naziri danışarkən, Azərbaycanın Rusiyanın varisi olduğunu bildirib və buna görə də Rusiya hüququndan ona aid olanları irs aparacağını deyib. [154] Təbatəbai isə hesab edirdi ki, Azərbaycan Rusiya məhkməsindən irs apara bilməz. Çünki "İranın" tarixi baxımdan bu məsəldə daha çox haqqı var, sadəcə Rusiyanın zoruyla bağlanmış müqavilələr nəticəsində bundan mərhum olub. [155]

Bu məsələ ilə bağlı Qacarlar hökumətindən Təbatabiyə ünvanlanmış məktubda (24 dekabr 1919) yazılırdı: "Bu arada qeyd edim ki, Ədliyyə nazirnin "Azərbaycan Rusiyanin varisidr və Rusiya hüququndan ona aid olan hissəni irs aparır" ifadəsi bu yerdə müəyyən qədər nəzakətdən xaric olmaqla yanaşı, həm də, məntqi dəlillərə ziddir. Çünki əgər Rusiya üçün varis axtarsaq, İran dövləti hal-hazırda Azərbaycan hökumətnin yerləşdiyi və İrandan zorla ayrılan mülklərə hamıdan çox layiqdir. Qeyd etdiyiniz kimi əgər Azəbaycan hökuməti rəsmi olaraq tanınarsa, İran dövləti heç bir halda icazə verməyəcək ki, rusun sabiq məhkəmlərinə özünün varisliyini təmin etsin". [156]

Bütün hallarda 1919-cu ilin yazından başlayaraq Azərbaycan-Qacarlar münasibətləri qurulmağa başlamış, həm Azərbaycanın

[152] Yenə orada, s.116
[153] Yenə orada, s.118
[154] Yenə orada, s.90
[155] Yenə orada, s.91
[156] Yenə orada, s.126

Qacarlarda elçiliyinin açılması, həm də Qacarların Azərbaycan Cümhuriyyətinə Qafqaz Fövqalədə Heyətini göndərməsi, eyni zamanda, 1919-cu ilin payızında Paris Sülh Konfranslı çərçivəsində Azərbaycan nümayəndə heyətinin başçısı Ə.M.Topçubaşovun Qacarların xarici işlər naziri Firuz Mirzə ilə görüşməsi buna bariz örnəklərdir. [157] Eynulla Mədətli yazır ki, Qacarlar dövləti yalnız 1920-ci ilin 20 martında Azərbaycan Cümhuriyyəti ilə bir çox sahələrdə ikitərəfli sazişlər və dostluqa haqqında müqavilələr imzaladı. Dostluq haqqında müqavilədən sonra Qacarlar dövlətinin Azərbaycanda səfirliyi də fəaliyyətə başladı. Bununla da, Qacarlar ən azından "zahiri rəsmiyyət" kimi də olsa, Azərbaycan Cümhuriyyətinin varlığını tanımış oldu. [158]

Qeyd edək ki, Xiyabani hərəkatını yaxından izləyən və həmin dövrdə Azərbaycan Cümhuriyyətinin Qacarlardakı ilk böyük elçisi Adil xan Ziyadxan 1920-ci ilin mart ayının əvvəllərində Güney Azərbaycandakı siyasi vəziyyət dəyərləndirərkən iki Azərbaycanın birləşməsi ehtimalından da söz açmışdır. O, yazırdı: "İran Azərbaycanında İrandan ayrılmaq və Azərbaycan Cümhuriyyəti ilə birləşmək yönündə bu anda zəif də olsa, təbliğat davam edir. Azərbaycan Cümhuriyyəti yaxın gələcəkdə İranda meydana gələcək olaylara hazır olmalıdır".[159] O, yazırdı ki, farslar Azərbaycan Cümhuriyyətinə düşmən, türklər, o cümlədən Güney Azərbaycan türkləri isə qardaş və dost kimi yanaşırlar.

Üstəlik, Güney Azərbaycan türkləri də artıq farsyönlü Tehran rejimindən qurtulmağı düşünürdülər. Adil xan Ziyadxan 12 apreldə Azərbaycan Cümhuriyyətinin Xarici İşlər Nazirliyinə göndərdiyi məktubda yazırdı: "İran Azərbaycanlıları özəlliklə deyirlər ki, Azərbaycan azərbaycanlılar üçündür və nə zamana qədər Tehrandan göndərilən fars idarəçilərini doyuracağıq. Onların tək məqsədi zavallı Azərbaycan xalqını sömürmək, xalqın əlindən zorla alınan paralarla Tehranda saraylar tikib baxçalar yapmaqdan ibarətdir". [160]

Ancaq məlum olduğu kimi, Azərbaycan Cümhuriyyətinin 1920-

---

[157] Mədətli Eynulla. İranda Azərbaycan tarixi məsələləri. Bakı, Turxan NPB, 2020, s.199
[158] Yenə orada, s.222
[159] Nəsibli Nəsib. Azərbaycan Demokrat Respublikasının xarici siyasəti. Bakı, Qanun, 2011, s.214
[160] Yenə orada, s.215

ci ilin aprelində Sovet Rusiyası tərəfindən işğalı, daha sonra da Xiyabani hökumətinin süqutu nəticəsində iki Azərbaycanın birləşməsi məsələsi yarımçıq qaldı.

**Qacarlar dövründə Azərbaycan Türk aydınlarının aryançılıq, irançılıq və turançılıq, türküçlük baxışları.** Ümumiyyətlə, XX əsrin birinci rübündə Qacarlar Türk dövlətinin sonunun gəlməsində aryançı şiəliklə yanaşı, "İran" və "iranllılıq" ideolojisi də mühüm yer tutmuşdur. Hər halda vaxtilə islamda şiə məzhəbçiliyi bu daha güclü şəkildə aryançılıqla uzlaşdıraraq Qacarlarda ruhani hakimiyyəti əl keçirən aryançı farsdillilər, Məhəməd Əli Şah Qacarla (1907-1909) Əhməd şah Qacarın hakimiyyətləri zamanında (1909-1925) "İran" və "iranlılıq" ideolojisi ilə də siyasi hakimiyyəti əsasən ələ keçirməklə bütövlükdə Türk dövlətini tamamilə qəsb etməyə başlamışlar. Həmin dövrdə aryançı qüvvələr zərdüşti ruhlu şiəçiliklə yanaşı, "İran" və "İranlılıq" ideolojisini ön plana çıxarmaqla hakim Türk ulusunun üzərində qorxunc bir oyun oynamışlar: "1925-ci ilə qədər türk sülaləsinin idarə etdiyi Qacarlar dövlətinin devrilməsində və farsların hakimiyyətə gəlməsində ilk növbədə, Güney Azərbaycan türklərinin İslam dini adı altında onların şüurlarına yeridilən şiəçilik-irançılıq ideyası qarşısında yenilmələri olmuşdur". [161]

Bizcə, Səfəvilər dövründə daha çox türklər, o cümlədən Azərbaycan türkləri ilə "şiəçilik" dini ideolojisi adı altında "din-məzhəb qardaşlığı" qılığına girən farsdilli aryançılar, Qacarlardan başlayaraq "İran və İranlılıq" adı altında ortaq vətən və ortaq dövlət ideyasını daha çox mənimsəmişdir. Burada əsas məqsəd türklərin din-məzhəb (şiəlik) həssaslığından sui-istifadə etdiklər kimi, eynilə ortaq dövlət ya da vətən ideyasıyla türklükdən tamamilə yayındırmaq olmuşdur. Rəsulzadə "İran türkləri" əsərində açıq şəkildə yazırdı ki, Qacarlar dövlətindəki türklər əsasən şiəliyin, qismən də "İran mədəniyyəti"nin təsiri altında xeyli dərəcədə farslaşıblar, ya da iranlılaşıblar: "Farslar türk ağalarını öz uluslarına yad bulmadıqlarından onları ulusal İran ağaları kimi bəyənmiş, türklər də fars uyğarlığını mənimsəmiş, fars dilini ulusal ədəbi dil saymışlar. Bu yolla 500 (1000) ildən bəri şahlıq taxtında bir Türk xanı otursa da, bu xanlar, eləcə də türklər iranlı-

[161] Ələkbərov Faiq. Milli ideologiya probleminə tarixi-fəlsəfi baxış (II hissə). Bakı, «Elm və Təhsil», 2014, s.26

laşmış, yəni fars kimi tanınmışlar. Az sayda türkmənlərdən başqa, türklərlə, yəni azərbaycanlılarla Qaşqaylar İranın rəsmi məzhəbi olan şiəliyə bağlıdırlar. Şiəlik İran türklərini elə farslaşdırmışdır, indi onlar özlərini türkləşmiş fars, yəni kökcə iranlı sayarlar...”.[162]

Bu nəzər nöqtəsindən yanaşsaq görərik ki, hələ 19-cu əsrdə Hind-Avropa mədəniyyətinin təsiri altında iranlılığı dəstəkləyənlər, ya da təbliğ edənlər də (Mirzə Fətəli Axundzadə, Zeynalabdin Marağayi, Mirzə Kazım bəy və b.), buna qarşı olub türklüyünü müdafiə edənlər də (A.A.Bakıxanov, H.Zərdabi, S.Ə.Şirvani və b.) olmuşdur. Qeyd edək ki, çar Rusiyası tərəfindən Quzey Azərbaycan türkləri arasında özlərini “tatar”, Güney Azərbaycan türkləri arasında “persian”, “iranlı” adlandıranlara hər cür şərait yaradıldığı halda, bu xəttə uymayanlar isə müxtəlif üsullarla cəzalandırılmışlar.

Hesab edirik ki, 19-cu əsrdə (özəlliklə, 1828-ci il 10 fevral türkmənçay sülh müqaviləsindən sonra) çar Rusiyasının Azərbaycan türklərinin iki yerə bölünməsi, üstəlik həmin xalqın bir hissəsinin farslaşdırılması/ iranlılaşdırlması, digər hissəsinin isə tatarlaşdırılması/ruslaşdırlması prosesində Mirzə Fətəli Axundzadə, Zeynalabdin Marağayi və başqaları az-çox dərəcədə iştirak etmişlər. Başqa sözlə, onlar Azərbaycan türklərinin milli kimliyi, milli dili, milli tarixi, mili mədəniyyəti kimi məsələlərdə daha çox rusiyaçıların və irançıların mövqeyinə yaxın olublar. Özəlliklə, M.F.Axundzadə, Zeynalabdin Marağayinin Rusiyanın təbəələri olmalarına baxmayaraq irançılıq, farsçılıq ideyalarını təbliğ etmələri, üstəlik çarizmin onlara bu yoldə hər cür dəstək vermələri çox düşündürücüdür. Şübhəsiz, Rusiyanın onlara belə bir şərait yaratmasının əsas səbəbi “farsdilli”, “iranlı” kimliyi içində assımilyasiya olunmasını istədiyi Güney Azərbaycan türklərini Şimali Azərbaycan türklərindən tamamilə ayırmaq idi.

Məsələn, Güney Azərbaycanın Təbriz yaxınlığındakı Xamnə qəsəbəsində doğulub sonralar çar Rusiyasının təbəəsi kimi Tiflisdə yaşayan Mirzə Fətəli Axundzadə “İran”, ya da Hind-Avropa və “Türk-Turan” məsələsində, “İran” mövqeyindən çıxış etmiş, zərdüştliyə meyil göstərmişdir. Yəni Axundzadə açıq şəkildə Hind-Avropa nəzəriyyəsini müdafiə edərək Sasanları, Zərdüştiləri İran/Fars

[162] Rəsulzadə M.Ə. Qafqaz türkləri. Bakı, Təknur, 2012, s.19

tarixinin və mədəniyyətinin tərkib hissəsi kimi görmüşdür. Çünki XIX əsrdən başlayaraq Əhmənilər və Sasanilər hakimiyyətlərini ideallaşdıran farsdilli dini və qeyri-dini ideoloji qüvvələr, eyni zamanda burada yaşayan türklərin, o cümlədən Azərbaycan türklərinin farsdan dönmə olması təbliğatını da aparmışılar.

Bu anlamda XIX əsrdə Azərbaycan Türk aydınları arasında "iranlılığ"ın ən böyük təbliğatçısına çevrilən Mirzə Fətəli Axundzadə Qacar şahzadələrini belə inandırmağa çalışırdı ki, Qacar soyu Türk-Moğollardan çox İranla ya da farslarla bağlıdır. Bu anlamda özünü də "Farsdan dönmə Türk", "zahirən Türk" kimi qələmə verən Axundzadə birmənalı şəkildə ömrünün son çağlarında "İran", "iranlılığın" və zərdüştçülüyün ideoloqu olmuşdur. O, əvvəlcə soyunun-sopunun türkmən olduğunu ifadə etdiyi halda,[163] sonralar özünü "zahirən türk" adlandırıb əslini-nəslini farslara bağlamış, açıq-aşkar "İran" və irançılıq məfkurəsinin təbliğatçısı olmuşdur. Axundzadə yazır: "Qoy bütün iranlılar bir həqiqəti başa düşərək desinlər ki, biz parsların övladlarıyıq, İran bizim vətənimizdir. Hümmət sahibi olmaq, ülviyyət axtarmaq, qeyrət və namus sahibi olmaq bizdən öz həmcinslərimiz, həmdillərimiz və həmvətənlərimizin təəssü-bünü çəkməyi tələb edir. Biz yadların, yolkəsənlərin, qaniçənlərin təəssübünü çəkməməliyik".[164]

Axundzadənin irançılıq "yol"unu davam etdirən Güney Azərbaycanın Marağa şəhərində dünyaya gəlib sonralar çar Rusiyasının təbəəsi olan Zeynalabdin Marağayi də çar ideoloqlarının təsiri altında etnik soyunu kürdlərə bağlayaraq "İbrahim bəyin səyahətnaməsi" əsərində (o, bu kitabını çar Rusiyasının təbəəsi olduğu dövrdə yazmışdır) "İran" və irançılıq ideyalarını təbliğ etmişdir. Onun qəhrəmanı "İran" adını eşidən kimi ixtiyarı əlindən getmişdir" ki,[165] deməli o, "tarixi-coğrafi Azərbaycan"a və onun əhalisinə antitürk məfkurənin çərçivəsində yanaşmışdır (bütün bunlarla bağlı kitabın 1-ci cildində hərtərəfli bilgilər verilmişdir).

Çox maraqlıdır ki, Axundzadələr, Marağayilər Qacarların Azərbaycan əyalətindən çar Rusiyasına gəlib onun təbəəliyini qəbul

---

[163] Axundzadə M.F. Əsərləri. Üç cilddə.III cild. Bakı, Şərq-Qərb, 2005, s.222
[164] Axundzadə M.F. Əsərləri. Üç cilddə.III cild. Bakı, Şərq-Qərb, 2005, s.142
[165] Marağayi Zeynalabdin. İbrahim bəyin səyahətnaməsi.Bakı, Avrasiya pess, 2006, s.261

etdikdən sonra "irançılıq" ideyasına qapıldqları halda, onlardan fərqli olaraq 1828-ci ildən sonra Çarlığın müstəmləkəçiliyi altında yaşamağa məhkum olan Qafqaz Azərbaycanının Türk aydınlarının çoxu "Azərbaycan" anlayışını və onun müsəlman əhalisini Türklüklə izah etmişlər. Buna örnək olaraq A.A.Bakıxanovu, [166] S.Ə.Şirvanini,[167] H.Zərdabini, [168] C.Ünsizadəni,[169] M.Şahtaxtlı[170] və başqalarını göstərə bilərik ki, onlar hər fürsətdə türklüklərini dəfələrlə ifadə etmişlər.

XIX əsrin sonu, XX əsrin əvvəllərində çar Rusiyasının işğalı altında yaşayan Quzey Azərbaycan Türk aydınlarının əksəriyyəti (Əli bəy Hüseynzadə, Hüseyn Cavid, Əlabbas Müznib, Ömər Faiq Nemanzadə və b.) Türklük, Turan ideyasını daha çox mənimsədikləri halda, Qacarlar dövlətinin əsas ulusu olan türklər, o cümlədən Güney Azərbaycan Türk aydınları onlara məxsus olan bu dövləti əldə saxlamaq üçün, ya da Qərb ideologiyasınən təziri altında bir müddət "iranlılıq" ideolojisini müdafiə etmişlər.

Hər halda Məhəmməd Əli şahın (1907-1909) hakimiyyəti dövründən aryançılar Qacarlar dövlətində üstünlüyü ələ almağa başlamışdılar ki, bu da bir tərəfdən xarici qvvələrin (Rusiya və Böyük Britaniya) hərbi müdaxilələri, digər tərəfdən isə "İran", "İranlılıq", "Aryanizm" cərəyanın güclənməsi ilə bağlı olmuşdur. Əslində Əhməd şah Qacar azyaşlı (o, 12 yaşında şahlıq taxtına oturmuşdur) olduğu, eləcə də ilk məşrutə məğlubiyyətə uğradığı üçün faktiki olaraq ilk dövrlərdən hakimiyyət əsasən aryançıların əlində idi.

Bizcə, bu dövrdəki irançılıqla aryançılığı bir qədər fərqləndirmək lazımdır. Hər halda türk, o cümlədən Azərbaycan Türk aydınlarından bir qismi (M.Ə.Talıbzadə və b.) liberal, demokrat əqidədən çıxış edərək irançılığı ortaq dövlətçilik, ortaq yurd, ortaq haqq və azadlıqlar anlamında dəstəkləyib, aryançılıqdan uzaq durduqları halda, ancaq digər qisim Azərbaycan Türk aydınları (S.Kəsrəvi, M.Əfşar və b.) irançılıqla yanaşı aryançılığı, fars millətçiliyini də təbliğ etmişlər.

---

[166] Bakıxanov A.A., Gülüstani-İrəm. Bakı, Möminin, 2001, s.206-207
[167] Zərdabi Həsən bəy. Əkinçi. 1875-1877. Tam mətni. Bakı, Avrasiya Press, 2005,s.26
[168] Şirvani S.Ə. Seçilmiş əsərləri. 3 clddə. II cild. B., «Avrasiya Press», 2005, s.130
[169] Azərbaycanlı."Əvam gəzmək–yuxu yatmaqmı dedin?".Kəşkül,16 noyabr,1890,№ 115
[170] Şahtaxtlı M. Zaqafqaziya müsəlmanlarını necə adlandırmalı? "Kaspi",1891,№ 93

**A) Aryançılıq problemi.** İkinci Məclis dövrlərində (1909-1911) və sonralar Qacarlardakı bir çox Türk aydınlarının, dövlət xadimlərinin, o cümlədən Cəlaləddin Mirzə Qacar, Seyid Həsən Tağızadə, İbrahim Həkimi, Əhməd Kəsrəvi, Mahmud Əfşar və başqalarının yalnız ortaq dövlətçilik, ortaq vətən anlamında təbliğ olunan "İran", "iranlılıq" ideolojisinin deyil, **aryançılığ**ın əsas təbliğatçıları olmaları, sonuncu Azərbaycan Türk imperiyası Qacarların tənəzzülündə mühüm rol oynadı. S.C.Pişəvəri yazır: "Ə.Kəsrəvinin əqidəsinə görə o vaxt Məhəmmədəli Mirzə Bağşah dəstgahı qurub azadixahları asdırıb-kəsdirilməsinə nail olanlardan biri də həmin Həkimül-mülk (İbrahim Həkimi-F.Ə.) ilə Həsən Tağızadə və başqa azərbaycanlı nümayəndələrinin azadlığa qarşı laqeydliyi və xainanə rəftarı olmuşdur. Kəsrəvi, Tağızadəni o zaman çar Rusiyası səfirinin dilindən yalan söyləməkdə də ittihamlandırır. Məhəmmədəli Mirzənin məşrutəni pozmasına bəraət qazandırmağa çalışır. Kəsrəvinin yazılarından hiss olunur ki, Tağızadə ingilis səfirliyi ilə bağlı olduğundan onun bir işarəsi ilə məclisi tərk edib qaçmış, Məhəmmədəli Mirzə ilə azadixahların müqavimətini sındırmaqda iştirak etmişdir. Həkimi isə Tağızadə kimi hərəkət edərək, azadlıq meydanında bəzən özünü ondan da mühafizəkar bir adam kimi göstərmişdir. Ona görə məşrutə dövrünün bəlli-başlı dövlət adamları sırasına keçməyə müvəffəq olmuşdur". [171] Doğrudan da, Kəsrəvi "İran məşrutə inqilabının tarixi" əsərində S.H.Tağızadəni şahla əlbir hərəkət etməkdə, ingilislərlə iş birliyində ittiham etmişdir. Bununla bağlı tarixçi alim Eynulla Mədətli "İranda Azərbaycan tarixi məsələləri" kitabında geniş məlumat vermişdi.[172]

I Dünya müharibəsi və ondan sonrakı dövrdə də Seyid Həsən Tağızadə, Mahmud Əfşar, Əhməd Kəsrəvi, Arif Qəzvini, Hüseyn Kazımzadə-İranşəhr və başqaları aryançı "irançılıq" ideolojisini davam etdirmiş, hətta onlar bir çox fars millətçilərindən daha çox aryançılığı təbliğ etmişlər. "S.H.Tağızadə "Kavə" qəzetini Berlində təsis etmiş (1916), bu qəzet 1924-cü ilə qədər fars şovinizmi və irqçiliyi təbliğ etmişdir. Hüseyn Kazımzadə-İranşəhrin qurduğu digər

[171] Pişəvəri S.C. Xatirələr. Bakı: ADF-nin nəşri, 2005, s.181
[172] Mədətli Eynulla. İranda Azərbaycan tarixi məsələləri. Bakı, Turxan NPB, 2020, s.123-124

bir mətbu orqan –“İranşəhr” dərgisi də eyni düşüncələri yaymaqda idi. Mahmud Əfşar Yəzdinin qısa bir müddət sonra qurduğu “Ayəndə” dərgisi də Paniranizmin ideoloji yapılanmasında önəmli rol oynnadı. Mahmud Əfşara görə, vətəndaşlar özlərini öncə iranlı deyil, Türk, Ərəb, Kürd, Bəxtiyari və ya Türkmən olaraq ifadə etdikləri müddətcə İran dövləti dağılır. Bunun üçün də etnosların dillərini, bölgəçilik duyğularını, boy-soy bağlarını ortadan qaldırmalı, fars dili və İran tarixini tanınmış əyalətlərə götürməliyik’”.[173]

Rəcəb Albayraq “Türklərin İranı” əsərində aryançı Tük aydınlarından, dövlət xadimlərindən bəhs etmiş (S.H.Tağızadə, Mahmud Əfşar, Əhməd Kəsrəvi, Hüseyn Kazımzadə, Seyid Ziyaəddin Təbatəbai və b), onların fars millətçiliyinin yaranmasında fars aydınlarından nəinki az, hətta bir qədər də çox rol oynamasını və türklərin assimilyasiyasında mühüm yer tutduqlarını lifadə etmişdir. Albayraq yazır: “Fars irqçiliyinin özülünə ilk daşı Əbdurrəhim Talıbov-Təbrizi 1834-1911 (Təbrizli Əbu Talib Nəccarın oğludur), Mirzə Ağa xan Kirmani və Müstəşarüd-Dövlə Təbrizi (Türk) kimi ziyalılar qoymuşlar. Zaman içində Mirzə Melkum xan (İsfahan ermənilərindən, qəzetçi, faramuşxanaya–lojaya mənsub İranın tanınmış masonlarından), Hüseyn Kazımzadə Təbrizi (Türk –Berlində “İranşəhr” dərgisini çıxarmışdır), Abbas İqbal Aştiyani (İran Mədəniyyəti Akademiyasının daimi üzvü), Müşfiq Kazımi (Türk), Seyid Əhməd Kəsrəvi (Türk, dəyərli bir düşünür və yazar), Dr. Mahmud Əfşar (Sistanlı – guya Afşar imiş. İrqçi “İrani-Cavan” əncüməninin qurucusu və türkcə yer adlarının dəyişdirilməsi layihəsinin memarı. Tehranda eyni məqsədə xidmət edən “Ayəndə” dərgisini çıxardı) ... inkişaf və metodizə edilmişdir.

Seyyid Ziyaəddin Təbatəbai (Fars, siyasət adamı), Rəsizadə Şəfəq Təbrizi (Türk), Rəşidi Yasəmi (Kirmanşah kürdlərindən), İbrahim Purdavud (Gilək, farscanın ərəbcədən arındırılması və Zərdüştlüyün milli din olaraq önə çıxarılmasının savunçusuydu. Rza xan zamanında, farscayı arılaşdırmaq üçün Dil Qurumu/ Fərhəngistan qurulmuştur), Zəkaülmülk Məhəmməd Əli Füruği( Bağdad yəhudilərindən. Fəramuşxanə/lojaya mənsub İranın tanınmış masonlarından), Məhəmməd Qəzvini (Türk), Mirzə Məhəmməd Hüseyn

[173] Nesibli Nesib. Azerbaycan tarihi: Millet-Devlet-Siyaset.Ankara, Altınordu,2019, s.493

Nainî, Əbdülkərim Suruş, Möhsin Kadıver, Dr.M.Mürtəzəvî (Türk), Dr.Tağı Ərani, Əbdül-Əli Kâreng, Nasih Natiq (Türk), Qulam-Rza İnsafpur və digərləri Fars irqçiliyinin, digər ifadə ilə Pan İranizm/ Pan Aryanizmin önəmli təmsilçiləri olaraq önə çıxmışlardır. Bu şəxsiyyətlər, İranda dəyər verilən sahib-i qələm və düşünürlərdir. Nə yazıqdır ki, özəlliklə Türklərə yönəlik asimilasiyon projə və proqramlarında etkin rol oynayaraq, sahib olduqları elmə vəfasızlıq etmişlərdir. Böyük bölümünün Fars kökənli olmamaqla bərabər Fars şovinisti olmaları ortaq yönləri olub, çox şaşırdıcı, eyni zamanda patalojik bir durumdur. Fikirlərini ilk dönem "Kavə" və "İranşəhr" dərgiləri ilə yaymaya çalışmışlardır. "İranşəhr" dərgisi, Fars dilini və Ari irqini İranın milli və tarixi kimliyi olaraq qəbul etməkdəydi".[174]

**B) "İrançılıq" problemi.** 20-ci əsrin əvvəllərində Qacarlarda mövcud olan hökumətlər, siyasi partiyalar, ictimai təşkilatlar, mətbuat orqanlarının çoxunda "iranlılıq" düşüncəsi hakim kəsilmişdi ki, bunu təbliğ edənlərin sıraları arasında da tanınmış Azərbaycan Türk aydınları var idi. "İrançılığ"ı ortaq dövlətçilik, ortaq yurd, ortaq haqq və azadlıqlar anlamında dəstəkləyib, aryançılıqdan uzaq duran Azərbaycan Türk aydınları da əslində bu düşüncəyə qapılmaqla bir çox məsələlərdə yanlışlığa yol verdilər

Bu cür düşünən Türk aydınları hesab edirdilər ki, türklərin əldə etdiyi uğurlar yalnız onlara deyil, eyni zamanda türklər və farslar üçün "ortaq yurd" və "ortaq dövlət" olan "İran"a, "iranlılığ"a xidmətdir. "İran" və "İranlılıq" məsələsini məhz bu anlamda qəbul edən, onun əsil mahiyyətinə varmayan bəzi Türk aydınlarımızın "İran" və "iranlılıq" adına mücadilə etmələrini anlamaqla yanaşı, bu zaman yol verdikləri bəzi xətaları da görmək lazımdır. Onlar məsələnin əsil mahiyyətindən xəbərsiz olduqları üçün, Avropasayağı ideyaların (liberalizm, demokratiya, konstitusiyalı ölkə və s.) da təsiri altında daha çox Qacarların yeniləşməsinə, yəni parlamentli və konstitusiyalı dövlətə çevrilməsinə diqqət yetirsələr də, ancaq parlamentdə farsların çoxluq təşkil etməsi, fars dilinin dövlət dili olması, hətta parlament üzvlərinin məcburi şəkildə fars dilini bilməsi

[174] Albayraq Rəcəb. Türklərin İran. Yaxın gələcək. 2 cilddə. 2-ci cild. Bakı, Elm və təhsil , 2016, s.571-572

şərtinin olması və digər məsələlər qəbul edilməz idi.[175]

Çox təəssüflər olsun ki, hətta, Quzey Azərbaycandan olan bəzi Türk aydınlarımız belə (Ə.Ağaoğlu, M.Ə.Rəsulzadə və b.) ilk dövrlərdə şiəçiliyin, sosial-demokratiya ideyasının, ortaq vətən, ortaq dövlət kimliyi düşüncəsinin təsiri altında bir müddət "İran" və "İranlılıq" ideyasını türklüyə, türkçülüyə zidd hesab etməmişlər. Onlar milli məsələrə nəzər yetirməkdən daha çox Məşrutə dövründə "İran" və "iranlılıq" ideolojisinin Qacarlar dövlətinin tərkibində yaşayan bütün ulusları bir arada tutması məsləsinə üstünlük vermişlər. Məsələn, həmin dövrdə Qacarlardakı Məşrutə hərəkatında yaxından iştirak etmiş milli ideoloqumuz Məhəmməd Əmin Rəsulzadə "İran türkləri" (1912-ci il) adlı əsərində buna aydınlıq gətirməyə çalışmışdır. O, həmin əsərində Məşrutə dövründə türklərin əldə etdiyi uğurları qələmə aldıqdan sonra, onu da qeyd edirdi ki, türklərin bu uğurları türklükdən çox "İran" və "iranlılıq"la bağlıdır: "Türk devrimçiləri, Türk elçiləri, Türk qurumları dediyimizdə bunların ancaq türklük üçün çalışdıqları düşünülməsin. İranın türk anayasaçıları türklüklərini düşünməmiş, bütün igidliklərini ancaq iranlılıq, ortaq yurd üçün etmişlər!".[176]

Gördüyümüz kimi, sonralar türklüyün, turançılığın, azərbaycançılığın əsas ideoloqlarından biri olan Rəsulzadə ilk dövrlərdə "Avropa mərkəzçi" ideologiyaların təsiri altında Qacarlar dövlətində hürriyyət, insanlıq, demokratiya, məşrutiy-yət yolunda mücadilə apararkən türklüyünü düşünməmiş, daha çox "İran" və "iranlılıq" üçün çalışmışdır. Şübhəsiz, ilk dövr-lərdə Rəsulzadənin bu cür düşünməsi onun sosial-demokrat əqidəsinə bağlılığı, hər cür milliyyətçiliyə qarşı olmasıyla yanaşı, "iranlılığ"ın əsil mahiyyətindən və "Avropa mərkəz-çilər"in türklərə qarşı yönəlmiş əsas hədəflərindən əsasən xəbərsiz olması idi. Məhz bunun nəticəsi idi ki, Rəsulzadə istər 1905-1908-ci illər Bakı, istər 1909-1911-ci illər Tehran, istərsə də 1911-1913-cü illər İstanbul mətbuatında Qacarlar dövlətindəki türklərlə bağlı yazdığı məqalələrində "İran milləti", "İran hürriyyəti",

[175] Nesibli, Nesib. Azerbaycan tarihi: Millet-Devlet-Siyaset. Ankara, Altınordu yayınları, 2019, s.491
[176] Rəsulzadə M.Ə. İran Türkləri. Bakı, "Təknur", 2013, s.34

"İran inqilabı", "İran və iranlılar", "iranlı" [177] hətta, "iranlılıq" kimi anlayışları türklük düşüncəsinə zidd kimi görməmişdir. [178]

Bu cür düşüncənin nəticəsi olaraq da, Rəsulzadə və digər bəzi türk aydınları "İran", "iranlılıq"la yanaşı "İran türkləri", "İran Azərbaycanı" kimi yanlış anlayışların dövriyyəyə girməsində də müəyyən rol oynamışlar. Bizcə, Türk ulusunun və Azərbaycanın adının bu şəkildə "İran"la yanaşı çəkilməsi yanlış idi. Ancaq Rəsulzadə həmin dövrdə sosial-demokratizmin təsiri altında buna ciddi önəm verməmiş, türklərin "İran" və "iranlılıq" ugrunda mücadiləsinə təbii yanaşmış, üstəlik sonralar özünün də yazdığı kimi, bu prosesin iştirakçılarından bir olmuşdur. Özəlliklə, Rəsulzadənin 1909-1911-ci illərdə Tehranda nəşr olunan "Yeni İran" qəzetindəki məqalələrində "iranlılıq" nəzər nöqtəsindən çıxış etmişdir ki, [179] yalnız Türkiyəyə mühacirəti dönəmindən (1911-1913), özəlliklə də 1-ci Dünya müharibəsi başlayandan sonra onun fikirlərində ciddi dəyişikliklər baş vermişdir.

Bizcə, Rəsulzadə də Türklük və Turanla bağlı "Azərbaycan" milli ideyası 1-ci Dünya müharibəsi dövründə (1914-1918) meydana çıxmışdır. Belə ki, 1-ci Dünya müharibəsi nəticəsində yeni milliyyətlərin ortaya çıxacağına inanan Rəsulzadə təmsil olunduğu cəmiyyəti əvvəlcə Türk milliyyətçiliyi ya da Qafqaz Türk milliyyətçiliyi, Qafqaz türkləri kimi qələmə versə də,[180] daha sonra Azərbaycan Türk milliyətçiliyi, Azərbaycan türkləri anlayışları üzərində dayanmışdır. [181] "Nə Qafqasiya, nə də İran" məqaləsində isə o, açıq şəkildə Şimali Azərbaycanda ya da Qafqazda yaşayan türklərin özlərini Qacarların Azərbaycan əyaləatində yaşayan türklərdən ayrı müstəqil bir etnoqrafik vücud kimi görüb "Qafqaz türkü" adlandırmasını yanlışlıq hesab etmişdir. Türk şöbələri arasında "Qafqaz türkü" ismiylə tanınan etnoqrafik şöbə yoxdur, deyən Rəsulzadə yazırdı: "Azərbaycan türkü, Azərbaycan şivəsi, Azərbaycan ədəbiyyatı var. Ola da bilər. Fəqət Qafqasiya türkcəsi və Qafqasiya türkü olamaz. Bu gün nə "Xosrov Pərvizi" yazan Mirzə

---

177 Rəsulzadə M.Ə. Əsərləri (1903-1909). I cild, Bakı, Azərnəşr, 1992, s.28, 48-49
178 Rəsulzadə M.Ə. Əsərləri (1909-1914). II cild, Bakı, Şirvannəşr, 2001, s.8, 30-31
179 Yenə orada, s.8, 30-31
180 Rəsulzadə M.Ə. Əsərləri. III cild, - Bakı: "Elm", 2012, s.284, 311, 363, 367, 530
181 Rəsulzadə M.Ə. Əsərləri. III cild, - Bakı, "Elm", 2012, s.536-537

Abdullah iranlı, nə də Kazımoğlu qafqasiyalıdır. Onların ikisi də azərbaycanlılardır. Birincisinin əsəri, ikincisinin də mütaliəsi nə iranca yazılmış, nə də qafqazca. İkisi də türkcə yazılmışlar. Biz, özümüzü qafqasiyalı sananlar bu həqiqəti bir kərə bilməli və anlamalıyız ki, yurdumuzda mühacir və mehman sifətilə yaşayan "iran"lılar, az bir istisna ilə İran Azərbaycanından gəlmiş iranlılardır. Onların dili də, məişəti də, adət və əxlaqları da bizimkinin eynidir. Başqa dürlü olamaz da. Çünki hamımız bir kütləninn (Azərbaycan Türkünün) parçası, bir məcmuin hissəsiyiz, xəlq təbrincə, "hamımız bir bezin qırağıyız", Araz çayının qismən bu, qismən də o tərəfində bulunan türklər, bir kərə bilməlidir ki, nə iranlı, nə də qafqasiyalı bəlkə: azərbaycanlılardır".[182]

Gördüyümüz kimi, Rəsulzadə Azərbaycan milli ideyasını hər şeydən öncə Qafqaz türkləri ilə "İran" türklərini birləşdirən, onların biri-birindən ayrı deyil vahid ulus olması anlamında gündəmə gətirmişdir. Başqa sözlə, Rəsulzadənin irəli sürdüyü "Azərbaycan" ideyasının əsasını Dərbəndən Kəngər korfəzinə, Bakıdan İrəvanadək eyni adət-ənənəyə, əxlaqa, məişətə, dilə, ədəbiyyata sahib olan türklərin vahidliyi, bütünlüyü təşkil etmişdir. Bu mənada Rəsulzadə yazılarında artıq "Azərbaycan türkləri",[183] "Azərbaycan muxtariy-yəti" [184] anlayışlarına geniş yer verir, türk xalqları arasında Azərbaycan türklərinin öz dili, öz ədəbiyyatı, öz adəti olmasını müdafiə edirdi.[185] Bizcə, "Azərbaycan muxtariyyəti" ideyasını ortaya atan Rəsulzadə, bununla da yeni bir Türk dövlətinin adının bəlirlən-məsi yolunda ciddi zəmin hazırlamış, eyni zamanda "Qafqaz" türkləriylə "İran" türklərinin ortaq gerçək adını da dəqiqləşdirmişdir: Azərbaycan türklüyü!!!

"Tarixi-coğrafi Azərbaycan"ın Turanla biri-birini tamamlaması məsələsinə gəlincə, M.Ə.Rəsulzadə 1-ci Dünya müharibəsi dövründə (1914-1918) anladı ki, türklərlə farslara istinadən "ortaq yurd" hesab etdiyi "İran", ortaq ideologiya saydığı "iranlılıq" üçün savaş türklərə fəlakətdən başqa heç nə verməmiş,

---

[182] Rəsulzadə M.Ə. Əsərləri. III cild, - Bakı, "Elm", 2012, s.537
[183] Rəsulzadə M.Ə. Əsərləri. IV cild, - Bakı, "Qanun nəşriyyatı;", 2013, s.150
[184] Rəsulzadə M.Ə. Əsərləri. IV cild, - Bakı, "Qanun nəşriyyatı;", 2013, s.204, 388
[185] Rəsulzadə M.Ə. Əsərləri. IV cild, - Bakı, "Qanun nəşriyyatı;", 2013, s.186

bundan qazanan yalnız farsdillilər və onun havadarları olmuşdur. Ona görə də, Rəsulzadə 1915-1916-cı illərdən etibarən siyasi, mədəni, əxlaqi, etnik, adət-ənənə anlamlarda İran və Turan anlayışlarını biri-birindən ayırmağa başladı. Bizcə, İran və Turan anlayışlarının biri-birinə zidd olmasını daha dərindən anladıqdan sonra da, türklər üçün "İran", "iranlılığ"ın deyil, Turan və Azərbaycanın önəmli olması qənaətinə gəldi.

Bu anlamda Rəsulzadənin Novruz bayramı ilə bağlı yazdığı məqalələrdə İran və Turan məsələsini gündəmə gətirməsi, həmin bayramın əslində türklər, o cümlədən Azərbaycan türkləriylə bağlı olmasını müdafiə etməsi təsadüfi deyildi. Rəsulzadə yazırdı ki, türklərin tilsimlənmiş mühasirədən çıxdıqları gün (Ərgənəqon) martın 9-u imiş, moğollar da əski türklərdə martın 9-nu bayram saxlayarlarmış. Demək, Novruz bayramı da əsla türklərə yabançı bir şey deyildir.[186] Rəsulzadəyə görə, Qurd ilə 9 rəqəminə türklərdə, türk asari-tarixiyyəsində böyük bir ehtiram görülür. Rəsulzadə yazırdı: "Türk ənənəsi, türk əsatiri və türklərin imdiki məişətləri Novruzun kəndilərinə yabançı bir şey olmadığını göstəriyor. Bütün Türkistan – bu əski Turan – Novruzu İran qədər bənimsəmişdir. Azərbaycan, bəlli Türkiyə dəxi martın 9-nu ailələr içində mütədəvvəl xüsusi bir ənənə ilə yad edər... Uzun bir vəqt öylə düşünülüyordu ki, bu təsir İrandan keçmişdir. Fəqət, İran ilə Turanın daima biri-birilə vuruşduğu halda, sırf İran ənənəsi olan Novruzun nədən dolayı turanlılar tərəfindən də böylə əzizlənməsi bir az şübhəli idi. Qədim türk və moğol ənənələri və əsatiri haqqında başlamaqda olan tədqiqat ortaya moğollarca məşhur olan "qurtuluş" əfsanəsini çıxarıyor ki, bu əfsanəcə dəmirdən yapılma bir "sədd" vasitəsilə "Ərgənəqon" da hasarlanıb qalmış olan türkləri bozqurd (Pörtəcnə) bu gün xilas etmişdir. Demək ki, bu gün turanlılardan ötrü qurtuluş bayramı olmuşdur".[187]

Rəsulzadənin fikrinə görə, qurtuluş, qurtulmaq kimi sözlər heç şübhə yoxdur ki, qurd sözündən törəmişdir. Başqa sözlə, nicat və azad olmaq mənasına gələn türkcə qurtulmaq və qurtuluş sözləri həmin qurd və olmaq kəlimələrindən ibarətdir. Deməli, qurtulmaq

[186] Rəsulzadə M.Ə. Əsərləri. III cild, - Bakı: "Elm", 2012, s.169
[187] Rəsulzadə M.Ə. Əsərləri. III cild, - Bakı: "Elm", 2012, s.343

sözü ehtimal qurd olmaq deməkdir ki, qurd kimi yol bulub Ərgənəqondan çıxmağa dəlalət edir.[188] O, yazırdı: "İranilərin babası olan İrəc, turanlıların babası olan Tur və ərəblərin babası olan Sam Yafəsin oğlanları idi. İranilər ilə turanilərin sonra ərəblər ilə bunların vuruşması, qardaşlar və əmioğlanları arasında görülməkdə olan vuruşmalar qəbilindən qeyri-təbii olmadığı kimi, aralarından müştərək ənənə dəxi ortaqlı bir baba malı kimi təsəvvür oluna bilməzmi? Turanilik olsun – deyə Novruza qarşı çıxmaq bəncə Şərq və İslam millətlərindən iki böyük ünsür arasında lüzumsuz soyuqluq salmaqdır. Bundansa zatən şərikli olan bu günü heyvanat, nəbatat, xülasə bütün kainatla bərabər istiqbal edərsək, daha münasib olmazmı?".[189]

Rəsulzadə hesab edirdi ki, bir çoxları 11-ci əsrdə Türk Səlcuqlardan Cəlaləddin Məlikşahın yeni təqvimlər düzəldərək "İran"da Novruz ənənəsini bərpa etməsini, Türk Qəznəlilərdən Sultan Mahmud Səbiktəkinin fars şairi Firdovsiyə, məzmunu iranlıların turanlılar əleyhində icra elədikləri "pəhləvanlıqları" şeirləndirən bir "Şahnamə" yazdırtmaq qəbilindən bir xəta kimi görsələr də, bunu ancaq bu cür dəyərləndirmək doğru olmaya bilər: "Fəqət elmi-fənn sevgilisi olan Cəlaləddini bu fikrə sövq edən gizli və hiss edilməz amillərdən birisi də novruzun turanlılarca bir "qutuluş" günü olduğu ənənəsi olmasın?... Hər halda gözəl baharın, qışın öldürücü "siyəhcal"ından çıxması ilə turanilərin "Ərkənəqon" məhbəsindən qurtuluşlarına təsadüf edən bir günü elmi və fənni surətdə təyin edən böyük Səlcuq hökmdarı bu xüsusda müvaxizə deyil. Təqdir olunmalı!...".[190]

Deməli, Rəsulzadə iranlıların "Novruz"una qarşı turanlıların "Qurtuluş günü"nü ya da Ərgənəqonu irəli sürmüşdür. Bu anlamda Rəsulzadəyə görə Turanlılar üçün mücadilə vermək və mücadiləçi olmaq daha çox önəmlidir: "Turan cinsi təbiət qədər mətin, onun qədər qüvvətlidir. Təbiət o qüvvətilə, o məhəbbətilə əsir qalar da, sonra tazələnməyə, donuşluqdan qurtulmağa ehtiyac göstəriyor. Turan qövmlərindən ötrü də qışlar, donmuşlar sovuqlar vardır. Bunlardan qurtulmaq dəxi kəndilərinə müqəddərdir. Əski moğol

---

188 Rəsulzadə M.Ə. Əsərləri. IV cild, - Bakı, Qanun nəşriyyatı, 2013, s.82
189 Rəsulzadə M.Ə. Əsərləri. III cild, - Bakı: "Elm", 2012, s.344
190 Yenə orada, s.344

əsatiri bu qurtuluşlardan birini martın 9-da sorağ veriyor. Təbiətin bayram etdiyi bu gün turanilərin də qurtuluş günüdür”.[191]

Qeyd edək ki, Rəsulzadədən öncə “İran”, “İranlılıq” və İran şiəliyi məsələsində, aşağı-yuxarı eyni yanlışlığı başqa bir Türk aydını Əhməd bəy Ağaoğlu da etmişdi. Buna səbəb də, 19-cu əsrin sonu, 20-ci əsrin əvvəllərində çar Rusiyası türkləri, o cümlədən Quzey Azərbaycan türkləri arasında şiəlik anlamında iranlılığın, sünnilik anlamında isə osmanlılığın təbliğ olunması idi. [192] Bu anlamda Ə.Ağaoğlu da 1880-ci illərin sonu, 1890-cı illərin əvvəllərində Parisdə olarkən şiəçilik məzhəbi anlamında “İranlılığ”a, “İran mədəniyyətinə” aludə olmuş, özünü “iranlı” kimliyinə bağlamışdır. [193] O, bu dövrdə Parisdə, daha sonra tərcümə olunaraq Tiflisdə nəşr olunan “İran cəmiyyəti” başlıqlı silsilə məqalələrində üç məsələyə 1) İslam aləmi, 2) İran cəmiyyəti, 3) şiəlik xüsusi diqqət yetirmişdir. Ə.Mirəhmədov “Əhməd bəy Ağaoğlu” monoqrafiyasında yazırdı: “Nəhayət, o illərdən Ağaoğlu nəinki Avropa Şərqşünaslığının Azərbaycan və İran haqqında bəzi yanlış müddəalarının təsirlərindən də azad deyildi, o, özünü həm də İran mədəniyyətinin mümayəndəsi, şiəliyin ardıcıl tərəfdarı kimi təqdim edir, hətta bu İslam məzhəbini müstəqil, ayrıca bir din kimi alırdı”.[194]

Doğrudan da, sözügedən məqaləsində Ağaoğlu açıq şəkildə yazırdı ki, İslam aləminin nicatı olan “İran” Fransanın Avropada oynadığı rolu oyanayaraq özünü yeniləşdirməyə çalışan Türkiyəni qabaqlaya bilər. Bu anlamda ingilislərin “İran”a toxunmasını onlar üçün bir bomba təhlükəsi kimi xarakterizə edən Ağaoğlu hesab edirdi ki, “İran” üçün şiəlik məzhəbi ya da şiə təmayüllü ruhanilik institutu heç də gerilik hesab oluna bilməz. Mirəhmədov yazır: “Ruhanilik institutunun demokratik mahiyyətdə olduğunu, səylə nəzrə çatdıran müəllif iddia edir ki, bizdə əhalinin bütün təbəqələrinin ruhani təhsil-tərbiyə almaq və molla olmaq imkanı vardır. Burada ruhanilərin mənfi keyfiyyətləri də qeyd edilir və onların öz vəzifələrini icra edərkən yol verdikləru çoxlu mənfi hallar

---

[191] Yenə orada, s.344

[192] Yenə orada, s.432

[193] Ağayev Ə. Şiə dinində məzdəki inancları (Fransızcadan çevirəni Hamlet Qoca) / “Mədəniyyət dünyası”, X buraxılış, 2005, s. 57-62.

[194] Mirəhmədov Əziz. Əhməd bəy Ağaoğlu. Bakı, “Ərgünəş”, 2014, s.18

həyati misallarla tənqid olunur. İranın İslamı qəbul etməsinin qısa tarixçəsi veriləndən sonra yeni dini təfəkkürün qədim İran məzhəb və etiqadları ilə varislik əlaqəsinin səciyəsi müəyyənləşdirilir və şiəlyin yayılması bu aspektlərdə tədqiq edilir. Müəllif ölkənin tarixindən və xalqın mənəvi-əxlaqi aləmindən çıxış edərək ortodoks İslamla şiəçilik arasındakı qarşdurmanın qanunauyğunluğunu sübuta çalışır".[195]

Ağaoğlu yalnız sonralar qismən 1895-ci ildən, özəlliklə də XX əsrin başlarından irançılıq, iran şiəçiliyi hisslərindən tamamilə uzaqlaşaraq öncə "İslam birliyi", daha sonra da Türk birliyi və Turançılıq ideyalarının ideoloqlarından birinə çevrilmişdir. O, 1903-cü ildə "Bizim millətçilər" məqaləsində yazırdı ki, farslar "İslamı özü bildiyi şəkildə, özünün mənəvi ehtyaclarına uyğun olaraq dəyişdi, öz "ərəbçiliyini" elə zorladı, ona elə pozğunluq və dekandetlik gətirdi ki, indi də İslam özünə gələ bilmir. İslama bütün məzhəblər, bütün təfriqələr, bütün zorlamalar, subversiv nəzəriyyələr İrandan gəldi və yalnız "assimilyatora" qarşı sönməz-tükənməz nifrətlə təlqin edildi. İran, bu nifrəti ört-basdır edərək, bəzən onu gizlədərək, səbrlə öz vaxtını gözlədi".[196]

Məhz bundan sonra o, aryançı "iranlılığ"ın əsil mahiyyətini görə bilmişdir. Ağaoğlu 1911-ci ildə "Türk Yurdu" dərgisinə yazdığı "Türk aləmi" adlı məqaləsində yazırdı: "Türk qədər təməssülə (assimilyasiyaya) şəraiti mühitiyyəyə meyil etməyə yaxın bir millət yoxdur. Türk mühitinin əsriridr, o qədər ki özünü, öz şərəfili qövmiyyəsini, heysiyyəti-tarixiyyəsini, ədəbiyyatını, dilini və hətta milli ənənələrini belə unutmağa hazırdır. Bu həqiqəti tariximizin bütün səhifələri isbat edir: Türklər İran mədəniyyətiniun amili və birincisi olduqları halda, adəti qövmiyyə və milli dillərini unudaraq bütün qəlbləri ilə fars adət və lisanına qapıldılar".[197]

Əhməd bəy Ağaoğlu "İran və inqilabı" əsərində isə aryançı ruhlu İranın, İranlılığın mahiyyətini hətərəfli şəkildə ortaya qoymuşdur. Onun fikrincə, Türk sülalələrində milli şüurun olmaması, fars dilinə və ədəbiyyatına həddən artıq önəm verməsi, şiəliyin dövlət məzhəbinə çevrilməsi türklərdən çox farsların işinə yaramış,

---

[195] Mirəhmədov Əziz. Əhməd bəy Ağaoğlu. Bakı, "Ərgünəş", 2014, s.18-19
[196] Ağayev Əhməd bəy. Bizim millətçilər. Kaspi qəzeti, Bakı, 25 sentyabr
[197] Ağayev, Ahmet. Türk alem-i. Türk Yurdu, sayı 1, yıl 1, 30 kasım 1911, s.16-17

sonunda türklərin hakimiyyətinin sonunu gətirmişdir.[198]

Beləliklə, "tarixi-coğrafi Azərbaycan" əhalisinin böyük çoxluğu türk olmasına baxmayaraq, çar Rusiyası ideoloqlarının və ingilis dəstəkli irançı ideoloqlarının sayəsində müxtəlif adlarla adlandırılmağa başlanmışdı. Şübhəsiz, belə bir durumda quzeyli-güneyli Azərbaycan türklərinin vahid ulus olaraq həm Qacarlar dövlətinin qurucusu və sahibi olaraq ingilis-rus dəstəkli irançılara, buna paralel də olaraq dünyanın jandarmı olmağı bacarmış çar Rusiyasına qarşı mücadilə aparmaları çox çətin idi. Məhz belə bir şəraitdə ən doğru yol "tarixi-coğrafi Azərbaycan"la Türklüyün, Turanlılığın bütünlüyündən çıxış etmək idi ki, bunun mühüm cizgilərini 19-cu əsrin sonu, 20-ci əsrin əvvəllərində Əli bəy Hüseynzadə, Mirzə Ələkbər Sabir, Əbdülxaliq Cənnəti, Ö.F.Nemanzadə, M.Hadi, Hüseyn Cavid kimi milli ziyalılarımız ortaya qoymuş, daha sonra Ə.Ağaoğlu, M.Ə.Rəsulzadə, N.Yusifbəyli, Əmin Abid, M.B.Məhəmmədzadə və başqaları da bu yolun ən qızğın tərəfdarları olmuşdur.

XIX-XX əsrlərin qovşağında M.Ə.Rəsulzadə, Ə.Ağaoğlu və başqa aydınlarımızla müqayisədə "İran", "İranlılıq" ideolojisinin əsil mahiyyətini vaxtında anlayan və ona qarşı Türkçülük, Turançılıq ideyalarını irəli sürən Əli bəy Hüseynzadə olmuşdu.

Turani ləqəbiylə yazılar, şeirlər yazan Hüseynzadənin "Türklər kimdir və kimlərdən ibarətdir" (1905) əsəri bizcə, Turançılığa, Türk-Turan mədəniyyətinə giriş olmaqla yanaşı, Azərbaycan türklərinin Turan daxilində mühüm yer tutuduğunu ifadə etmişdir. Çünki bu əsərdə "əcdadımızın müştərək mənşəyi Turan"a işıq tutulmağa cəhd göstərilir ki, burada da Azərbaycan türklərinin Türk-Turanlı olduqlarını və Azərbaycan türkəcəsinin də Turan dil ailəsinə aid Türk dilindən başqa bir dil olmadığını açıq şəkildə ifadə etmişdir.

Ə.Hüseynzadəyə görə bu gün türklərin, o cümlədən Azərbaycan türklərinin Yaz bayramında təbiət ünsürləri (od, su, torpaq və hava) ilə bağlı keçirdiyi mərasimlərin kökü, mənşəyi də irançı zərdüştiliklə deyil Türklərə aid şamanizmə, tanrıçılığa gedib çıxır.[199] Ə.Hüseynzadə yazırdı ki, İslam istisna olmaqla türklərin əksəriyyəti

---

[198] Ağaoğlu Əhməd. İran və inqilabı. Bakı: Azərnəşr, 2009, s.27-39

[199] Hüseynzadə Əli bəy. Seçilmiş əsərləri.Bakı, Şərq-Qərb, 2007, s.55

başqa dinlərə ciddi şəkildə meyil və istedad göstərməmiş, göstərənlər isə öz etnik mənşələrini belə unutmuşlar. Ancaq İslam dininə tapınmış Türklər həm müsəlman aləminin mühüm bir istinadgahına çevrilmiş, həm də öz tayfa və milliyyətlərini qoruyub-saxlamışlar. Buna birinci səbəb ərəblər kimi türklərin də böyük bir millət olub, eyni zamanda Ərəbistandan uzaq yaşamaları göstərilsə də, əsas ikinci səbəbdir ki, türklərin dilinin əsasını Turan (Ural-Altay) dil ailəsi, ərəblərin dilini isə Sami dil ailəsi təşkil edir.[200] Deməli, Hüseynzadə birmənalı şəkildə Turanın Hind-Avropa və Samilərlə yanaşı, böyük bir əzəmətə malik olmasını ifadə etmişdir.

Beləliklə, Azərbaycan türkləriylə "İran" farslarının adət-ənənələri arasındakı fərqləri də otaya qoyan Turançılığın ideoloqu bildiridi ki, Qacarlar dövlətində yaşayan türklərin böyük qismi də məhz Turana bağlı Azərbaycan türkləridir. Əli bəy Hüseynzadə «Füyuzat» jurnalında İran və Turan məsələsinə aydınlıq gətirmək üçün yazırdı ki, Firdovsinin «Şahnamə»də İranın tarixi və İranı idarə edən sülalələrlə bağlı bəhs etdiyi əfsanələr qədim hind hekayələrindən götürülmüşdür: «Bu hekayələrin nəhayət, Hindistandan uzaqlaşdırılan Zərdüşt tərəfindən İrana gətirildiyi zənn olunuyor. Çünki Pişdadiyan əsatiri hökmdarlarının adları daha əvvəl qədim hind tarixində keçiyor».[201] Qeyd edək ki, Ə.Hüseynzadə bu bilgini tanınmış Türk alimi Şəmsəddin Saminin «Qamusi-Elam» əsərindən götürmüşdür. Ş.Samiyə görə Zərdüşt brəhmənlərin dinindən ayırılıb yeni məzhəb icad etdiyindən, vətənindən uzaqlaşdırılmış və o, İrana gəlmiş şah Gəştasib tərəfindən himayə olunmuşdur. İranda yaşayan Zərdüşt qədim hind əsatirlərini («Cəmşid», «Zöhhak», «Firudin»və b.) iranlılara öyrətmiş, bu əsatirlər Zərdüştün tarixi kitabı «Zənd Avesta»da da əks olunmuşdur. [202] Deməli, Ş.Sami kimi Ə.Hüseynzadə də zərdüştiliyi birmənalı şəkildə Hind-İran, Hind-Avropa mədəniyyətinə aid etmişdir.

Doğrudur, o da, digər Türk aydınları kimi qavram olaraq bu ölkədən bəhs edərkən Qacarlar, Əfşarlar, Səfəvilər, Səlcuqlarla

---

[200] Hüseynzadə Ə.Seçilmiş əsərləri.B:Şərq-Qərb,2007, səh. 57

[201] Hüseynzadə Əli bəy. Qırımızı qaranlıqlar içində yaşıl işıqlar. Bakı: Azərnəşr, 1996, səh. 111

[202] Yenə orada, səh. 220

yanaşı, onlara adekvat olaraq "İran", "İran milləti", "iranlı", "İran tarixi" anlayışlarından da istifadə etmişdir. Həmin dövrün təbliğatının nəticəsi olaraq, digər aydınlarımız kimi bu anlayışlardan istifadə edən Turançılığın ideoloqu, eyni zamanda bir Türk aydını olaraq "İran"a, "İran millət"inə olan sevgisinə aydınlıq gətirməyə çalışmışdır: "Bizim kimi ümum sair türklərin İrana olan məhəbbəti İranın şimalən həm türk, həm müsəlman, cənubən də ancaq müsəlman bulunduğu üçündür, yoxsa sadə farslıq üçün deyildir. İran farsları ilə bərabər bədəni-ümumi İslamda bir üzv buludnuqca bizim ona riayətimiz bir kamaldır. Lakin farslar İranı özləri ilə bərabər vücudi-İslamdan ayrı bir şey hesab etməyə və məzahibi-islamiyyənin heç birinə qənaət etməyərək, yenidən Zərdüştü "təqdisə" və mədəniyyətini əhyaya qalxışdıqca bizim onlarla heç bir əlaqəmiz olamaz. "Füyuzat"ın tutduğu yol türklük, müsəlmanlıq və avropalılıqdır. Türk hissiyyatı ilə mütəhəssis, İslam dini ilə mütədəyyin və Avropa mədəniyyəti-hazirəsilə mütəməddin olmaqdır. Yoxsa farslaşmaq, Zərdüştün sönmüş mədəniyyəti ilə mədəniləşmək deyildir. Şəhərimizdə farsi lisanında çıxaraq üstü örtülü bir Şərq bürokratiyası qoxusu nəşr edən "Həqayiq" məcmuəsi "Həblülmətin" cərideyi-mötəbərəsindən ibrət almalı idi, anlamalı idi ki, farslığın, fars lisanının, fars əfkarının meydani-ictahidi İranın cənubi ilə, Belucistan və Hindistandır, yoxsa Azərbaycan, Qafqaz, Rusiya və ələlümum Baykal gölündən Afrika səhrayi-kəbirinə qədər imtidad edən Türk aləmi-müəzzəmi deyildir".[203]

Birincisi, Hüseynzadənin bu fikirlərindən belə bir nəticə çıxartmaq olar ki, Türklərin, Türk aydınlarının "İran"a olan sevgisi "İran"ın şimalının türk-müsəlman, cənubunun (farsdillilərin) isə müsəlman olmasına görədir. Əgər farsdillilər nə zamansa müsəlmanlıqdan imtina edərək zərdüştlüyə dönərlərsə, türklər birmənalı şəkildə onlardan ayrılacaqlar. Başqa sözlə, Hüseynzadə "İran mədəniyyəti" adı altında zərdüştlük maskasına bürünmüş fars şovinistlərinə demək istəyirdi ki, farslarla türkləri bir arada tutan "ortaq vətən" ya da fars mədəniyyət, fars dini (zərdüştlük), fars dili deyil, İslam dini və İslam mədəniyyətidir. Əgər farslar türklərlə

---

[203] Hüseynzadə Əli bəy. Qırmızı qaranlıqlar içində yaşıl işıqlar. Bakı, Azərnəşr, 1996, s.180.

onları birləşdirən əsas bağdan – İslam dini və İslam mədəniyyətindən uzaqlaşıb fars dininə (Zərdüştlüyə), fars mədəniyyətinə üz tutmaq niyyətindədirlərsə Türklər onların yoluyla getməyəcəkdir, çünki türklərin öz yolu vardır.[204] "Atəşi-Zərdüştü heç bir vaxt təqdis edəmiyəcəyiz. Biz Zərdüştə Budda və Konfusi ilə bərabər ancaq hörmət edə biləriz"[205] deyən Hüseynzadə şiəlik məzhəbinin də "İran"ın, fars mədəniyyətinin adına çıxılmasına qəti etiraz edirdi. O, yazır: "Şimdi, şiə məzhəbini burada zikr etməməkdən istidlal edə bilərəm ki, onu İran ixtiraatındanədd ediyorsan! Lakin yanılyorsan, zikr etdiyin dörd məzhəb ixtiraatdan mədud olmuyacağı kimi, şiəlik də nə ixtiradır və nə də İran ixtirasıdır. Haqq bildiyimiz bu beş məzhəbin beşi də islamiyyətin ibtidayi –zühuruna qərib zamanlarda ya çox az sonra övsuq və o vaxt əldə bulunan mənbələrə istinadən ictihad təriqilə təşəkkül etmiş məzhəblərdir. Ona görə də, ixtira deyil, ictihaddır!".[206]

İkincisi, Hüseynzadə farslara xəbərdarlıq edirdi ki, "İran" əsasən iki hissədən ibarətdir, onun da yalnız cənubunda farslıq, fars dili, fars mədəniyyəti hakimdir. "İran"ın şimalında, o cümlədən Azərbaycanda, Xorasanda isə türklük, Türk dili, Türk mədəniyyəti mövcuddur ki, bu da, Baykaldan başlayıb Afrika səhralarına qədər geniş bir ərazidə hökm sürən Türk aləminin (Turanın) ayrılmaz bir hissəsidir. Bizcə, Hüseynzadənin bu fikirlərində "ortaq yurd" məsələsi baxımından türklərlə farslar arasında bərabərlik işarəsi qoyulmaqla yanaşı, sonunculara hədlərini aşmaması tövsiyyə olunurdu. Başqa sözlə, "İran" adlandırılan bu ölkəyə farslardan bəlkə də çox Türklərin haqları olduğunu, eyni zamanda hər iki millətin öz dilinin və mədəniyyətinin olması da xüsusilə vurğulanırdı.

Bütün bunları nəzərə alaraq deyə bilərik ki, Qacarlar süquta uğrayana qədər "İran" nə qədər farslara aid idisə, Turan da bir o qədər türklərin idi. Üstəlik, ötən min il ərzində də Türklər yalnız Turan da deyil, farsdillilərin yaşadığı "İran"da da hakim qüvvə idilər. Artıq burada dövlət dili, rəsmi yazı nə qədər önəmli olursa olsun, bütün hallarda idarə etmə Türklərin əlində olmuşdu. Bir Türk sülaləsi zamanı gələndə digər Türk sülaləsini devirərək Turanda və "İran"da

[204] Yenə orada, s.184.
[205] Yenə orada, s.185.
[206] Yenə orada, s.184.

hakim olurdu. Bunu, artıq Türk olmayan bütün millətlər, etnoslar o cümlədən farsdillilər də təbii bir hal kimi qəbul etmişdilər.

Ə.Turaninin Turançılq məfkurəsi Azərbaycan türkləri arasında geniş əks-səda doğurmuşdur. Belə ki, Əhməd bəy Ağaoğlu, Əbdülxaliq Cənnəti, Mirzə Ələkbər Sabir, Abdulla Şaiq, Yusif Ziya Talıbzadə, Əlabbas Müznib, Məhəmməd Hadi, H.Cavid, Ə.Cavid, C.Cabbarlı, Y.V.Çəmənzəminli, Ümgülsüm, Məmməd Həsən Vəliyev, M.Ə.Rəsulzadə və başqaları birmənalı şəkildə Turançılıq məfkurəsindən çıxış ediblər. Sadəcə, Azərbaycan Turançılarından bir qismi (Ə.Cənnəti, A.Şaiq, Ə.Cavad, H.Cavid və b.) Turançılığı bədii, digər qismi (Ə.Ağaoğlu, Ə.Müznib, M.Ə.Rəsulzadə və b.) isə elmi formada əks etdirmişlər.

Ə.Hüseynzadənin turançılıq ideyalarından təsirlənən M.Ə.Sabir, Ö.F.Nemanzadə, Ə.Cənnəti, Y.Talıbzadə, M.Hadi, H.Cavid və başqaları məqalə və şeirlərində artıq istər tarixi-coğrafi, istərsə də etnik anlamdakı "Azərbaycan"ı az da olsa, Türklüklə, Turanlılqla bir bütün kimi görməyə başlamışlar. Məsələn, Ə.Cənnəti məhz həmin hisslərin altında Hüseynzadənin "Füyuzat" jurnalında (1907, 7 avqust) "Fəxriyyə" şeirində yazırdı:

*Hərçənd düçari-mühəni-əhli-cəfayız,*
*Hərçənd bu əyyamdə pabəndi-bəlayiz,*
*Ey xar görən bizləri, bizlər nücəbayız,*
*Meydani-həmiyyətdə ələmdari-vəfayiz.*
*Turanlılarız, sahibi-şənü şərəfiz biz!*
*Əslafımızın nayibi xeyrül-xələfiz biz!..* [207]

Sabir isə Cənnətinin "Fəxriyyə"sinə cavab olaraq "Molla Nəsrəddin" jurnalında (1907-ci il, 26 avqust) nəşr olunan eyni adlı şeirində Cənnətiyə cavab kimi satirik şəkildə də olsa, açıq-aşkar türklərin rusçuluq, iranlılıq və osmanlılıq, sünnilik və şiəlik təəssübkeşliyini tənqid edərək Turan, Türklük üçün mücadilə verməyə çağırırdı. Əsrlər boyu müxtəlif dini, qeyri-dini inanclara görə bir-birinə düşmən kəsilən, həmin inanclar uğrunda savaşan türklərin (Şah İsmayılla Sultan Səlim, Çingiz xanla Məhəmməd Şah Xarəzm, Cahan şahla Uzun Həsən, Əmir Teymurla İldırım Bəyazid və başqaları kimi) Türklüklə Turanlılığı bir kənara qoyub çar

[207] Cənnəti Əbdülxaliq. Fəxriyyə. Füyuzat jurnali, Bakı, 1907-ci il avqust.

Rusiyasında rusçuluq, Türkiyədə "osmanlılıq", Qacarlarda "iranlılıq" üçün mücadilə verməsini Sabir belə tənqid edirdi:

*İndi yenə var tazə xəbər, yaxşı təmaşa,*
*İranlılıq, osmanlılıq ismi olub ehya,*
*Bir qitə yer üstündə qopub bir yekə dəva,*
*Meydan ki, qızışdı olarıq məhv sərapa...*
*Onsuz da əgərçənd ki, yeksər tələfiz biz!*
*Öz qövmümüzün başına əngəlkələfiz biz!*[208]

Azərbaycan Türk aydını Hüseyn Cavid üçün Çingiz xan, Əmir Teymur və başqa türk hökmdarları türk tarixinin ən şanlı qəhrəmanlarıdır. Onun fikrincə avropalılar İskəndərləri, Napoleonları və başqa həmyerlilərini böyük sərkərdə adlandırıb heykəllər ucaltdıqları halda, türklərin öz qəhrəmanlarına qan içən, zalım kimi isimlər verib ləkələmələri haqsızlıqdır.[209] Eyni zamanda, o, türklərin həmişə törələrinə sahib çıxmalarını və milli şərəflərini uca tutmalarını, xüsusilə qeyd etmişdir:

*Bir zamanlar şərəfli Turanın,*
*O cihani ğəyuri qavğanın,*
*Qəhrəman, bərguzidə evladı,*
*Türklərin adlı-şanlı əcdadı,*
*Saldırıb titrədirdi yer yüzünü,*
*Hökm edər, dinlətirdi hər sözünü.*[210]

Vaxtilə türklərin mərhəməti sayəsində canını qurtaran millətlərin indi türkə qənim kəsilməsini tarixin acı istehzası adlandıran Cavidin fikrincə, artıq türklər zamanın dəyişməsini görməli, oyanmalı, özünü tanımalı və yüksəlməlidir. «Qoca bir türkün vəsiyyəti» şeirində də Cavid qeyd edirdi ki, ilk vəzifəmiz Türk millətinin şanlı tarixini, mədəniyyətini və mənəviyyatını öyrənmək olmalıdır. Yəni ilk növbədə, milli mənsubiyyətimizi tanımalı və türk olmağımızla fəxr etməliyik: «Bir millətin tarixidir kökü, yurdu, yuvası, Tarixiniz baş ucundan hərgiz əksik olmasın. «Altay» dağı, «Makan» çölü, «Yasın» ovası, Birər aydın səhifədir, hər türk gərək anlasın».[211]

Əhməd Cavad da şeirlərində həm turançılığı, həm də onun

---

[208] Sabir M.Ə. Hophopnamə. İki cilddə, I cild. Bakı, "Şərq-Qərb", 2004, s.124.
[209] Cavid Hüseyn. Əsərləri. Beş cilddə. II cild. Bakı, «Lider nəşr.», 2005, s.70
[210] Cavid Hüseyn. Əsərləri. Beş cilddə. I cild. Bakı, «Lider nəşr.», 2005, s.52
[211] Cavid Hüseyn. Əsərləri. Beş cilddə. I cild. Bakı, «Lider nəşr.», 2005, s.128

müstəqil bir qolu olan Azərbaycan türkçülyünü təbliğ etmişdi. Onun turançılığı «Çırpınırdın Qara dəniz» şeirində daha aydın şəkildə ifadə olunmuşdu.[212] Həmin dövrdə Əlabbas Müznib isə “Türk tarixi” kitabında türk, tatar və moğolları Turanlı ruslar, farslar, hindlilər, ermənilər-hayları isə Ariyalı adlandırmışdır. Turan və Turanlı anlayışlarını daha çox Azərbaycana, Qafqaza bağlayan Müznibin də Turançılıq məfkurəsinə sahibləndiyini görürük.[213]

Gördüyümüz kimi, 20-ci əsrin əvvəllərində Qərbdən, “Avropa mərkçəzçilikdən” qaynaqlanan “İran mədəniyyəti”, “iranlıllıq”, “İran şiəçiliyi” yalnız Güney Azərbaycan Türk aydınları deyil, Quzey Azərbaycan Türk aydınları arasında da yayılmışdı. Ancaq bu anti-türk mahiyyətli aryançı “iranlılıq” ideolojisinin əsil mahiyyətini dərk etdikdən sonra bir müddət buna uymuş Quzey Azərbaycan Türk aydınları vaxtında ondan uzaqlaşa bildikləri halda, bir çox obyektiv və subyektiv şərtlərə görə Güney Azərbaycan Türk aydınlarından, siyasətçilərindən müəyyən bir qismi (Seyid Həsən Tağızadə, Mahmud Əfşar, İbrahim Həkimi və başqaları) bu və ya digər formada ona bağlı qaldılar.

Doğrudur, ikinci Məclis dövründə çox keçmədən Səttarxan və silahdaşlarına olan xəyanət, fars şovinizminin yüksələn xətlə artması, xüsusilə Birinci Dünya müharibəsi dövründə farslar arasında “Aryançılığın” geniş təbliğindən sonra türklərdən, o cümlədən Azərbaycan Türk ziyalılarından bir qismi aryançı “iranizm”, ya da “irançılıq” ideolojisindən üz döndərdilər. Başqa sözlə, aryançılığın önə çəkilərək bunun müqabilində türklərin aşağılanması, bəzi Azərbaycan Türk aydınlarının ayılmasına və “irançılıq” ideolojisindən uzaqlaşıb, digər Türk aydınlarımız (Ş.M.Xiyabani, M.Ə.Şəbüstəri, M.T.Rüfət və b.) kimi türkçülük, ən azından azərbaycançılıq ideyası uğrunda mübarizə aparmalarına səbəb oldu.

**Qacarlarda Xiyabani hərəkatı və Azadistan.** Bütün hallarda 1-ci Dünya müharibəsi dövründə aryançı “İran məşrutəçiləri” və havadarlarının (xüsusilə də İngiltərənin) əsil simaları üzə çıxmışdır ki, özəlliklə onların “İrançılıq-Aryançılıq” ideolojisi ilə Qacarlar dövlətini gah Almaniyanın, gah da İngiltərənin yedək halına

[212] Cavad Əhməd. Seçilmiş əsərləri. Bakı, «Şərq-Qərb», 2005, s.140
[213] Müznib Ə. Seçilmiş əsərləri. Bakı, Şərq-Qərb, 2006, s.115

gətimək istəyi, eyni zamanda türkləri aşağılamaq siyasəti nəticəsində Azərbaycan türkləri Səttarxanın başçılığı ilə gerçəkləşmiş Məşrutə hərəkatından sonra mübarizənin ikinci mərhələsinə başladılar. Bu dəfə Azərbaycan türklərinin başında Şeyx Məhəmməd Xiyabani dayanırdı. Şübhə etmirik ki, Xiyabaninin başçılıq etdiyi Azərbaycan milli hərəkatı (1917-1920) ilk növbədə, Qacarlar dövlətində idarəetməni xeyli dərəcədə ələ almış aryançı irançılara və onların havadarlarının imperailizm siyasətinə qarşı baş qaldırmışdı.

Fevral 1917-ci ildə çar Rusiyası süqut etdikdən sonra Moskvanın xaricdəki, o cümlədən də Qacarlardakı hərbi qüvvələrini geri çağırması ilə Güney Azərbaycanın bir sıra vilayət mərkəzlərində İDP-nin yerli partiya komitələri açıq fəaliyyətə keçmiş, təşkilatın mətbuat orqanı "Təcəddüd" ("Yeniləşmə") qəzeti nəşrə başlamışdır. Hətta, 24 avqust 1917-ci ildə Təbrizdə Güney Azərbaycanın müxtəlif vilayətlərindən olan 480 nümayəndənin iştirakı ilə İDP-nin yerli komitəsinin konfransı keçirilmiş və Konfrans Azərbaycan Demokrat Partiyasının/ Firqəsinin (ADF/ADP) müstəqilliyini elan etmişdi. Bu dövrdən etibarən ADP/ADF-nin fəaliyyət dairəsi xeyli genişlənmiş, onun ayrı-ayrı yerlərdə şöbələri yaranmışdı. Bu dövrdə rəsmən olmasa da bir ilə yaxın müddət ərzində Güney Azərbaycanda bütün işlər M.Xiyabaninin rəhbərlik etdiyi ADP tərəfindən yönətilmişdi.[214]

1918-ci ilin əvvəllərində Sovet Rusiyası Qacarlardan rus ordusunu geri çəkməyə başladı ki, buna qədər, hətta bir müddət sonra da ADF ilə onlar arasında münasibətlər heç də pis deyildi. "ADP bu illərdə Sovetlərlə birlikdə siyasi aksiyalar da təşkil edirdi. Avqustda "Partiyanın Rusiyadakı İnqilaba Baxışı" başlıqlı məruzə qəbul edilmiş, bolşevikləri nəzərdə tutaraq "biz proqramında öz ölkəsinin və digər ölkələrin xalqlarının azadlığını müdafi edən partiyayla dost olmalıyıq" [215] prinsipi açıqlanmışdır. ADP-nin lideri Xiyabani də çıxışlarında bolşeviklərə meyilliyini gizlətmir, onlarla sıx iş birliyi yapılmasını təklif edirdi". [216]

---

[214] Qasımlı A. Güney Azərbaycan türkləri son 100 ildə. Bakı, Adiloğlu, 2012, s.34

[215] Cənubi Azərbaycan tarixinin oçerki (1828-1927). Bakı, Elm, 1985, s.205

[216] Nesibli, Nesib. Azerbaycan tarihi: Millet-Devlet-Siyaset. Ankara, Altınordu yayınları, 2019, s.500-501

Qeyd etdiyimiz kimi, həmin dövrdə Azərbaycan üçün əsas təhlükə 1917-1918-ci illərdə Böyük Britaniya, Fransa və ABŞ tərəfindən aysorlarla ermənilərdən ibarət yaradılmış qondarma "xristian qoşunu", ya da qondarma "Aysor-erməni dövləti" idi.[217] "Aysor-erməni dövləti"nin əsas hədəfi də Azərbaycan türklərini etnik soyqırım etmək idi ki, nə Xiyabani, nə də onun başçılıq etdiyi ADF "irançılar"la onların havadarlarının, yəni ingilislərin, rusların "xristian ordusu"nun Azərbaycanda başlatdıqları qırğınların qarşısını almaq gücündə deyildilər. "Aysor-erməni dövləti" 1918-ci ilin fevral-may aylarında təkcə Urmiya və Salmasda on minlərlə Azərbaycan türkünü soyqırıma məruz qoymuşdu.[218]

Ancaq 1918-ci ilin yayında Osmanlı ordusunun 4-cü və 6-cı alaylarının qəhrəmanlıqları nəticəsində Urmiya, Salmas, Xoy eləcə də digər Güney Azərbaycan kəndlərilə şəhərləri birləşmiş "erməni-aysori ordusu"ndan azad edildilər. Bu zəfərdən sonra xalqın böyük coşqusu ilə qarşılanan Osmanlı Türk Ordusu Təbrizə daxil olmuş, Təbriz valisi Hacı Möhtəşəm üs-Səltənəni vəzifəsindən kənarlaşdıraraq yerinə erməni və aysori birliklərini Miyanabad yaxınlığında məğlub edən Məcid üs-Səltənəni vali təyin etmişdi. Osmanlı ordusunda Azərbaycan Türkləri də erməni və aysori birləşmiş qoşunlarına qarşı vuruşmuş və bu Azərbaycanlılar Osmanlı nüfuzu altında Təbrizdə də Yusif Ziyanın başçılığı ilə "İttihadi İslam" Partiyasının yerli təşkilatını yaratmışdı. Bu partiyanın orqanı olan "Azerbadeqan" qəzetinə Trabzonda təhsil almış gənc Azərbaycanlı şair Mirzə Rəfat redaktor təyin edilmişdi. Bu dönəmdə İttihadi-İslam Partiyasinin bəzi üzvləri, xüsusilə Təbrizin mücahid liderlərindən olan və Osmanlı ordusunda savaşan Hacı Ağanın Xiyabanini özünə rəqib gördüyündən onu euspərəstlikdə suçlamış, ona görə də Təbrizdəki Osmanlı yetkililəri ADP-ni qapadaraq Xiyabani və Nubərini həbs edərək Qarsa sürgün etmişdilər. "Tədqiqatçılar qeyd edirlər ki, Osmanlı dövlətinin əsas məqsədi Rusiya ilə Türkiyə arasında tampon dövlət olaraq Bütöv Azərbaycan dövləti yaratmaq idi. Bu məqsədlə savaş

---

[217] Səfəri Həsən. Cənubi Azərbaycan: 1918-ci il soyqıdırmı. Bakı, "Araz" nəşriyyatı, 2016, s.85-92

[218] Məlikzadə Tohid (Dilməqani). Güney Azərbaycan Birinci Dünya müharibəsi illərində - soyqırım. Bakı, "Bakı çap evi", 2010, s.117-118, 177, 193

əsnasında İttihad və Tərəqqi Komitəsinin Qafqaz məsələləri üzrə baş sözcüsü Ömər Naci Bəy Güney Azərbaycanda Qüzey Azərbaycanın birləşərək Birləşmiş Azərbaycan dövlətinin yaradılması fikrini irəli sürmüşdü".[219] Ə.Ağaoğlu da yazırdı ki, Osmanlı dövlətinin inqilabçı ziyalıları, o cümlədən Ömər Naci Qacarlar dövlətində baş verən bu hadisələrdə yaxın iştirak etmişdir. Ağaoğlu yazırdı: "Mərhum Ömər Naci bir neçə arkadaşı və dostu Səlmaslı Səid ilə Azərbaycanın içərisinə qədər girməyi və oralarda məlum olan atəşli xitabəti ilə əhalini təhrik etməyə müvəffəq olmuşdu". [220]

Başqa bir məlumata görə, Xiyabani Azərbaycan xalqını "Aysor-erməni" hərbi birləşmələrinin zülmündən xilas etmiş Osmanlı ordusunun Təbrizdən çıxarılmasını tələb edib və bunun da nəticəsində, ADF-nin lideri bir müddət Qarsa sürgün edilmişdir.[221] Sovet Azərbaycanı dövründə Qulam Məmmədli dövrünün də şərtləri nəzərə alsaq, Xiyabani ilə Osmanlı ordusu arasında yaranmış problemi belə izah etmişdir: rus qoşunları Azərbaycanı tərk etdikdən sonra Təbrizə gələn Türk əsgərləri taxıl məsələsində əvvəlcə Xiyabani ilə razılaşdıqları halda, daha sonra aclıq vəziyyətində olan əhalinin olan-qalanını da əlindən alıb. Xiyabaninin Türk hərbi komandalarına etiraz nəticəsində o, ölkədən sürgün olunmuşdur.[222] Şübhəsiz, bu məsələdə anlaşılmazlıq, ya da iki qardaş türkün arasına girmiş xainlər olmuş və nəticədə də həmin xoşagəlməz hadisə baş vermişdir. Ola bilsin ki, Xiyabaninin həbsində Qacarlar hökuməti, xüsusilə də vəlihəd Məhəmməd Həsən Mirzə maraqlı olmuşdur.[223]

Birinci Dünya müharibəsinin nəticələrinə görə, Osmanlı ordusu 1918-ci ilin noyabrında Güney Azərbaycanı tərk etməyə məcbur olduqdan sonra Təbrizə qayıdan Xiyabani ADF daxilində yaranmış fikir ayrılığının qarşısını almaq üçün bir çox cəhdlər göstərsə də, uğursuzluqla nəticələnmişdi. Belə ki, partiya daxilindəki

---

[219] Qasımlı A.Güney Azərbaycan türkləri son 100 ildə. Bakı, Adiloğlu, 2012, s.35
[220] Ağaoğlu Əhməd. İran və inqilabı. Bakı: Azərnəşr, 2009, s.108
[221] Əhməd Vüqar. Şeyx Məhəmməd Xiyabani (həyatı, mühiti və ədəbi fəaliyyəti). Bakı, "Müəllim", 2010, s.45
[222] Məmmədli Qulam. Şeyx Məhəmməd Xiyabani (Azərbaycan xalqının milli azadlıq mübarizəsi tarixindən). Bakı, Azərnəşr, 1949, s.58-59
[223] Nesibli Nesib. Azerbaycan tarihi: Millet-Devlet-Siyaset. Ankara, Altınordu yayınları, 2019, s.500-501

"tənqidiyun" ("tənqidçilər") qrupu başda Zeynalabdin xan Kazımzadə, Hüseyn Kazımzadə, Əhməd Kəsrəvi olmaqla, "təcəddüdiyun" ("yenilikçilər") fraksiyasını, xüsusilə də Xiyabanini qeyri-demokratik addımlar atmaqda, Osmanlı ilə əməkdaşlıqda, Azərbaycanı "İran"dan ayırmaqda ittiham edirdilər.[224] Halbuki, yuxarıda da qeyd etdiyimiz kimi, Osmanlı ordusunun Güney Azərbaycandan çıxarılması tələbini irəli sürən Xiyabani, bunun qarşılıqlığında Qarsa sürgün edilmişdi. Əkrəm Rəhimliyə görə, Ə.Kəsrəvi başda olmaqla "tənqidiyun"çuları əsas narazlıqları Azərbaycan türkcəsinin işlədilməsi, Milli hökumətin "Azadistan" adlandırılması, Milli muxtariyyat tələbi ilə çıxış etməsi, "aryançılıq"dan uzaqlaşıb azərbaycançılığa əsaslanması və bu kimi milli məsələlər olmuşdur.[225]

Bu dövrdə Güney Azərbaycanda ADF ilə yanaşı, İran Demokrat Partiyası, İttihad-Tərəqqiyi İslam, Sosial-Demokrat Ədalət Partiyası, Əksəriyyun, İstiqlali İran, İslam Firqəsi, Nüsrət, Əhrar, İraniyani Mütərəqqi və digər partiyalar da fəaliyyət göstərirdilər. Bu partiyaların proqramlarında əlkədə milli məsələnin varlığı demək olar ki, yer almamışdı. Yalnız İrşad Partiyasının proqramında Quzey Azərbaycanla Güney Azərbaycana öz gələcəyini təyinetmə haqqının verilməsi zərurəti, İraniyani Mütərəqqi isə İranda fars olmayanların ibtidai məktəblərdə ana dillərində təhsil almasından yana olduğunu açıqlayırdı.[226] İran Kommunist Partiyası isə yalnız 1920-ci ilin iyununda Ənzəlidə öz varlığını elan etmişdir.

1919-cu ilin avqustunda Böyük Britaniya ilə Qacarların baş naziri Vüsuqüdövlə arasında 1907-ci il avqustunda bağlanmış müqaviləni (həmin müqaviləyə görə Qacarlar çar Rusiyası və İngiltərə tərəfindən iki hərbi nüfuz dairəsinə bölünmüşdür) əvəz edən yeni müqavilənin (bununla da Qacarlar dövləti demək olar ki, İngiltərənin hegemonluğu altına keçmiş olurdu) bağlanması Gilan, Xorasan və Azərbaycanda geniş etirazlara səbəb oldu. Bu etirazların mərkəzində isə yenə də Azərbaycan və Xiyabaninin başçılıq etdiyi ADF dayanırdı.

---

[224] Əhməd Vüqar. Şeyx Məhəmməd Xiyabani (həyatı, mühiti və ədəbi fəaliyyəti). Bakı, "Müəllim", 2010, s.11

[225] Azadlıq uğrunda mübarizə tariximizdən: Xiyabani hərəkatı-90. Bakı, "Bakı çap evi", 2011, s.129

[226] Həbibov Ə. Cənubi Azərbaycanda azadlıq hərəkatı. Bakı, Azərnəşr, 1968, s.65-110

Buna görə də, 1919-cu ilin sentyabrında keçirilən 4-cü çağırış Qacarlar Məclisinə Təbriz və şəhərətrafı məntəqələrdən seçilən 9 deputatadan altısı ADF-nin təmsilçisi idi və onların içərisində ən tanınmış millət vəkili Xiyabani idi.

1920-ci il aprelin əvvələrində Azərbaycanda ingilis imperializminə qarşı çıxışlar daha da genişlənmişdi. Bunun məntiqi nəticəsi olaraq 1920-ci ilin aprelin 7-də Cənubi Azərbaycanda Xiyabaninin başçılığı ilə Təbrizdə üsyan başlamışdır. üsyana rəhbərlik etmək üçün İctimai İdarə Heyəti (İİH) təşkil olunmuş, bu təşkilata Şeyx Məhəmməd Xiyabani başçılıq etmiş, üsyançılar bu təşkilatın rəhbərliyi altında iki gün müddətində yerli dövlət idarələrini demək olar ki, ələ keçirmiş, şəhər polisi və ingilis hərbi qüvvələrini əyaləti tərk etməyə məcbur etmiş, silahlı üsyançılar qan tökülmədən qələbə çalmış, Müstəqil Azərbaycan Höküməti yaranmış, Güney Azərbaycanın rəsmi adı kimi "Azadıstan məmləkəti" elan edilmiş və bu adın rəsmən tanınması mərkəzi hökümətdən tələb olunmuşdu. Aydın Mədətoğlu yazır: "İctimai İdarə Heyəti mərkəzdən təyin edilmiş dövlət məmurları və hərbi qulluqçuları Təbrizdən qovmuş, yerlərinə ADP-nin tanınmış üzvlərini təyin etmişdi. Təbrizdə başlanmış üsyan tədricən Güney Azərbaycanın digər mahal və şəhərlərini də əhatə etmiş, İran Konstitusiyasına uyğun olaraq Demokratik islahat, torpaq reformu, mərkəzdə Milli Məclisin yenidən seçilməsi və Əyalət Əncümənlərinin yaradılması haqqında müraciətə cavab verilmədiyindən İctimai İdarə Heyəti Milli Hökuməti yaratmış, Şeyx Məhəmməd Xiyabani Milli Hökümətin rəhbəri seçilmişdi. Mərkəzi Hökümətin tərkibinə ADP-nin 20 nəfər üzvü daxil edilmiş, Milli Hökümətin mərkəzi orqanı olan "Təcəddüd" qəzetinin redaksiyası vəliəhdin iqamətgahı olan Ala Qapıya köçürülmüş, beləliklə Təbrizdə mərkəzdən təyin edilmiş heç bir məmur qalmamışdı". [227]

A.Qasımlı daha sonra yazır ki, ilk əvvəllər hərəkat rəhbərləri Azərbaycana muxtariyyət verilməsi, Konstitusiyasının təkmilləşdirilməsi və konstitusiyalı monarxiya tərəfdarı kimi çıxış edirdilərsə, Milli Hökumət yaradıldıqdan sonra artıq İranda monarxiya rejiminin ləğvi və Respublika yaradılması fikrini irəli sürməyə başlamışdılar. Cəmi 5 ay yaşamasına

[227] Qasımlı A.Güney Azərbaycan türkləri son 100 ildə.Bakı, Adiloğlu, 2012, s.36-37

baxmayaraq Milli Hökümət kənd təsərrüfatı, maarif, maliyyə, səhiyyə, ədliyyə, vəqf, hərbi işlər və digər sahələrdə islahatlar həyata keçirməyə başlamış, bu sahələr üzrə müvafiq idarə və nazirliklər yaratmışdı.[228]

Doğrudan da, ADP və onun lideri Xiyabani İDP-dən fərqli olaraq ölkənin federallaşması və muxtariyyət tələbini irəli sürmüşdür. Təbrizdəki beş aylıq halkimiyyəti dövründə Xiyabani Azərbaycanın muxtariyyatı düşüncəsini gerçəkləşdirmiş, mərkəzdən göndərilən vali və vali yardımçısının fəaliyyətini məhdudlaşdırmış, İranın keçərli olan Anayasasına uyğun olaraq daha Azərbaycanda vilayət və əyalət əncümənlərinin qurulmasını tələb etmiş və bunun da qarşılığını da Tehrandan almayınca, daha sonra Anayasanı da aşaraq, 24 iyun 1920-ci ildə Milli Hökumətin qurulduğunu bəyan etmişdi.[229]

Bundan sonra aryançı irançıların əlində olan Parlament ya da Tehran hökuməti Səttarxanın birinci Məşrutəni qorumaq üçün başladığı hərəkatı məhv etdikləri kimi, Xiyabaninin Təbrizdə başlayan yeniləşmə və milli hərəkatını aradan qaldırmaq üçün hərəkətə keçdilər. O zaman Səttarxanın ilk Məşrutəni qoruma hərəkatını rusların əliylə məhv edən aryançı irançılar bu dəfə ingilislərin dəstəyilə Azərbaycan valisi Eynəddövləyi ortaya atdılar. “Mən qoca vaxtımda əllərimi xalq qanı ilə boyamaq istəmirəm” deyən,- Eynəlddövlənin bundan imtina etməsiylə aryançı irançıların təsiri altında olan Tehran hökumətinin baş nazirləri (Vüsuquddövlə, Müşirəddövlə) Azərbaycanın yeni valisi Müxbirəssəltənənin əliylə bunu həyata keçirdilər. Belə ki, Xiyabaninin milli hökuməti 1920-ci ilin sentyabrın 12-də devrildi və o, Təbrizdə gedən döyüşdə şəhid oldu.[230]

Xiyabaninin öldürülməsindən bir az sonra 1921-ci ildə Azərbaycan türkü, Xorasan valisi Məhəmməd Tağı Püsyanın mərkəzi Məşhəd olan Xorasanda başlatdığı milli hərəkatda məğlubiyyətə uğramışdır.[231] Qeyd edək ki, Məhəmmədtağı xan Bağır xan oğlu Soltanzadə Püsyan 1891-ci il avqustun 7-də Təbriz şəhərində hərbçi-mülkədar ailəsində anadan olub. Püsyanı 1920-ci

[228] Yenə orada, s.37

[229] Nesibli Nesib.Azerbaycan tarihi: Millet-Devlet-Siyaset.Ankara, Altınordu, 2019, s.504

[230] Saray Mehmet. Kuzey ve Güney Azerbaycan türklerinin tarihi. Bakı, “Şərq-Qərb”, 2010, s.307-308

[231] Qaradağlı Eldar. Azərbaycan mərkəzli türkçü düşüncə. İstanbul, ÇAV yayınları, 2012, s.359-360

ildə Xorasana gücləndirilmiş jandarm dəstəsinin rəisi təyin edirlər. Məhəmmədtağı xan hələ mühacirət dönəmindən tanıdığı Şeyx Həsən Tehrani vasitəsilə Demokrat Firqənin fəalları ilə tanış olur və onların fikrinə hörmətlə yanaşır. Xorasanda Hərbi Milli Cəmiyyət Mərkəzinin yaradılmasında yaxından iştirak edir.

1921-ci il aprelin 25-də xalqın qəti tələbilə M.X.Püsyan Xorasan valisi təyin edilir. O, rüşvətxor məmurlar işdən uzaqlaşdırır, “Xüsusi qvardiya təşkilatı” yaradır, hərbi kurslar təşkil edir. Tehranda həbsdən azad edilərək baş nazir vəzifəsinə gətirilən Ə.Qəvamüssəltənə və Hərbi Nazir Rza xan, eləcə də irticaçı qüvvələr M.X.Püsyanın Xorasanda keçirdiyi demokratik islahatlardan qorxuya düşərək onu İranı parçalamaqda suçlayaraq bölgəyə silahlı qüvvələr göndərirlər. Rza xanın 5 min nəfərlik silahlı qüvvələri yerli irticaçıların yardımı ilə Məhəmmədtağı xan Püsyanı mühasirəyə alırlar. O, özünün təşkil etdiyi Azərbaycan türklərindən ibarət "Dəmir dəstə" ilə birlikdə son nəfəsinədək döyüşür. Onun ölümü də geniş azadlıq nümayişinə çevrilir. Məhəmmədtağı xan Soltanzadə Püsyan tarixinə azadlıq, demokratiya yolunun qəhrəmanlıq simvolu kimi daxil olur.[232]

**Böyük Britaniyanın Rza Pəhləvi həmləsi və Qacarların süqutu.** Çox yazıqlar olsun ki, bu olaylar baş verərkən Əhməd şah Qacar əsasən, bütün bunlardan kənarda qalmışdır. Üstəlik, onun formal ağalığı dövrünün son illərində ingilislər onu yeni bir oyuna gətirmək istəmişlər. Belə ki, İngiltərə 1918-1919-cu illərdə Sovet Rusiyası əleyhinə “antikommunist koalsiya” yaradırdı ki, bu məsələyə Qacarları da daxil etmək niyyətində idi. Ancaq Əhməd şah Qacar ingilislərin bütün təzyiqlərinə baxmayaraq, Qacarların Sovet Rusiyasına qarşı “antikommunist ölkə” olması oyununa qarşı çıxmış, əslində dövlətin İngiltərənin vassalı olması paktına qol atmaqdan imtina etmişdir. Əhməd şah Qacar ingilislərə deyirdi ki, kimə pul-para dağıdırsınızsa anlaşmayı da ona imzalatdırın. O, hesab edirdi ki,

---

[232] https://ali-shamil.tr.gg/M%26%23601%3Bh%26%23601%3Bmm%26%23601%3Bdta%26%23287%3B%26%23305%3B-xan-P.ue.syan.htm

yoxsul ölkəsini sataraq şah kimi qalmaqdansa İsveçrə bazarlarında alverlə məşğul olmaq daha məqbuldur.[233]

Beləliklə, Böyük Britaniya başda olmaqla imperialist qüvvələr Əhməd şah Qacarı taxtdan endirib onun yerinə əvvəllər çar kazak polkunda soldat, sonra mehtərbaşı və kazak briqada rəisi olmuş Pza Pəhləvi adlı birisini taxta çıxartmaq üçün planlarını həyata keçirməyə başladılar. Belə ki, ingilislərin göstərişiylə Qacarlar dövlətinin quzeydəki kazak süvarilərinin başçısı Rza Pəhləvi 1921-ci ilin fevralında Tehranda hakimiyyəti ələ keçirmişdir. Bu hadisədən sonra Seyyid Ziyaəddin Təbatəbai ingilislərin təlimatı ilə yeni hökumət qurmaqla bağlı Əhməd Şah Qacara müraciıt etmişdir. Əhməd Şah Qacar da yeni hökuməti qəbul etmiş və bununla da S.Z.Təbatəbai baş nazir, onun təqdimatı ilə Rza Pəhləvi isə "Sərdari-süpah" ləqəbi verərək Qacarlar ordusunun başçısı, daha sonra da hərbi nazir vəzifəsinə təyin etmişdi.

1923–cü ildə ingilislərin İrandakı ağalığına qarşı etirazlar daha da genişləndiyindən xalqın təzyiqi ilə S.Z.Təbatəbai hökuməti istefa verməyə məcbur olmuş, belə bir vəziyyətdə Əhməd Şah Qacar yeni hökuməti təşkil etməyi Rza Pəhləviyə tapşırmış, o da özündən əvvəlki hökumət başçıları kimi ikiüzlü siyasət yürüdərək demokratik vədlərlə işə başlayaraq hətta Süleyman Mirzə İsgəndəri və Hacı Əli Məmaliki kimi sol qüvvəllərin nümayəndələrini də hökumət üzvlüyünə daxil etmişdi. Beləliklə 1921-ci ildə hərbi nazir, 1923-cü ildə isə baş nazir olan və bununla da hərbi və mülki hakimiyyəti öz əlində cəmləşdirən Rza "xan" titulu ilə ölkənin müxtəlif yerlərində davam edən milli-demokratik hərəkatları kazak dəstələri vasitəsilə qəddarlıqla yatırmış, Güney Azərbaycanda Şahsevən, Xalxal, Talış və Maku xanlıqlarını da özünə tabe etdirmiş, hətta hökumət başçısı olandan bir ay sonra Əhməd Şahı məcbur etmişdi ki, ölkəni tərk edib Avropaya "müalicə" olunmağa getsin. Əli Bəsiri "Xatiratı Rza şah" əsərində göstərir ki, Rza Pəhləvi özü bu barədə yazmışdı: "Bəli, mən

[233] Həsənli Cəmil. Güney Azərbaycan: Tehran – Bakı – Moskva arasında (1939-1945). Bakı, "Diplomat", 1998, s.36

şahı (Əhməd Şah Qacar nəzərdə tutulur - F.Ə) məcbur etdim ki, İrandan Avropaya mühacirət etsin”.[234]

Doğrudan da, Əhməd Şah Qacar bir müddət sonra ölkəni tərk edərək Avropaya getmiş və qardaşını da öz taxtına varis təyin etmişdir. Lakin Əhməd Şah gedəndən sonra Rza Pəhləvi ölkədə V Məclisin toplanması barədə göstəriş vermiş və öz yeni “proqramını” Məclisə təqdim etmişdi. Rza, 130 il hazırda “İran” adlanan məmləkətə şahlıq etmiş Qacar sülaləsinə son qoymaq üçün ictimai rəyi nəzərə alaraq “Respublika” şüarını irəli sürmüş və o zamankı qəzetlərdə Əhməd Şahın əleyhinə məqalələr dərc etdirmiş, şahın karikaturasını çəkdirtmiş, bir sıra şüarlar səsləndirmişdir: “Əhməd Şah heç zaman ölkəyə şahlıq etməmiş!”, “Ondan bizə şah olmaz!”, “Məhv olsun Əhməd Şah!”. N.Nəsibli yazır: “Rza xan, 1923-cü ilin son aylarından Qacar sülaləsinin devrilməsi, ümumilikdə monarxiyanın qaldırılması və ölkədə cümhuriyyət rejiminin qurulması istiqamətində kampaniya başlatdı. Rza xan hökumətinin gizli yönətimi altında Qacarların devrilməsi və “cümhuriyyət uğrunda hərəkat” prosesində mitinq və nümayişlər düzənlənir, qəzetlərdə Qacarların İranın inkişafına əngəl olduğu, cümhuriyyət quruluşunun üstünlükləri anlatılırdı. Məclisdə bu məsələlərlə bağlı Rza xanın tərəfdarları çox yönlü bir kampaniya həyata keçirirlərdi. Qacarların İran tarixindəki rolu, onlara qarşı təbliğat bir çox hallarda mətbuatda Fars irqçiliyi şəklini alırdı”.[235]

Rzanın tərəfdarları Qacarların devriməsi ilə bağlı aparılan kampaniyada, Türk sülaləsinin əsas dayağı olan Azərbaycana da xüsusi diqqət ayırmış, bununla bağlı Rza Pəhləvi Azərbaycanın bir çox şəhərlərinə səyahət etmişdir. Nəsibli yazır: “Azərbaycanın mülk sahibləri-birjua çevrələri Rza xana yardım məqsədi ilə Təbrizdə Azərbaycan Milli Hərəkatı Birləmiş Komissiyası ismi ilə təşkilat qurdular. Qəzet yazarları, nazirliklər, siyasi fəallar və Məclis üzvləri bu təşkilatdan teleqraflar alırdı. Bu təşkilatın teleqraflarının İran milliyyətçiliyi və Fars irqçiliyi ruhunda qələmə alındığı diqqət

---

[234] Azəroğlu Balaş. İstibdad dövrünün ədəbiyyatı . XX əsr Cənubi Azərbaycan ədəbiyyatında demokratik ideyalar. 1900-1985–ci illər, Məqalələr məcmuəsi, Bakı, 1990, s.95

[235] Nesibli, Nesib. Azerbaycan tarihi: Millet-Devlet-Siyaset. Ankara, Altınordu yayınları, 2019, s.509

çəkicidir. Bunlar "Moğol övladları Qcarların Azərbaycan sayəsində var olduqları" və "Kəyan taxtını qəsb etdikləri" kimi sözlərlə dolu idi. Təbrizdəki bu təşkilat İranın müxtəlif şəhərlərindəki yaxın təşkilatların koordinasiya mərkəzi rolunu oynayırdı. Təbrizdən onlara göndərilən teleqraflarda təlimatlar verilir, ancaq Təbrizə gələn teleqraflar hesab sorma xarakteri daşıyırdı. Təbrizdəki təşkilata tabe olan və onun yerli təşkilatı olaraq Tehranda yaşayan Azərbaycan Müctəhidləri təşkilatı qurulmuşdu. Doğrudan bu təşkilatın qatılmasıyla Qacarların devrilməsi kampaniyasında fəaliyyət göstərməyən Məclisin Azərbaycan nümayəndələri həbs edildi və bu nümayəndələrin Məclisə girməsi qadağan olundu". [236]

Bununla da Rza Pəhləvi Qacarların hakimiyyətdən salınması hərəkatında ehtimali türk (Azərbaycan)-fars qarşıdurmasının qarşısını almağa çalışmışdır. Hər halda Azərbaycan türkləri Qacarlar dövlətinin yarnmasında əsas rol oynadıqları üçün, Rza xan və onun ətrafındakılar da bu faktorı nəzərə alaraq Azərbaycan məsələsinə xüsusi diqqət yetiridirlər. Ancaq o başqa məsələ idi ki, Qacarlar hakimiyyəti özünün türklük mahiyyətindən çox uzaqlaşdıqları üçün Azərbaycan xalqı arasında onlara münasibət xeyli dərəcədə dəyişmiş, üstəlik azərbaycanlılar arasında da Rza Pəhləviyə müsbət meyillər meydana çıxmışdı. Bu baxımdan V.Mustafayevə görə, anti-Qacar kampaniyası mahiyyət etabarilə antitürk xarakter daşımasına baxmayaraq, ümumilikdə İran diviziyalarının yerləşmə coğrafiyasını fars-Azərbaycan qarşıdurması ilə əlaqələndirmək doğru deyil: "Birincisi, bu rayonlar ənənəvi olaraq İranın az ya çox mütəşəkkil hərbi qüvvələrinin mərkəzi idi; ikincisi, həmin rayonlar hələ 1922-ci ilin əvvəlində Rza xanın taxt-taca doğru irəliləməsi perspektivi aydın olmayanda müəyyən edilmişdi; üçüncüsü, yeni İran ordusunun əsas təşkilatçıları və komandirləri azərbaycanlılar idi; nəhayət dördüncüsü, Azərbaycanın tacir və mülkədarları taxt-tac uğrunda mübarizədə Rza xanın dayağı idilər". [237]

Azərbaycan məsələsini xeyli dərəcədə öz lehinə çevirməyə nail olan Rza Pəhləvi daha sonra "Respublika" quruluşuna keçmək,

---

[236]Yenə orada, s.510-511

[237] Mustafayev Vidadi. Cənubi Azərbaycanda milli şüur (XX əsrin birinci yarısı). Bakı, Əbilov, Zeynalov və oğulları, 1998, s.107

yoxsa "Şahlıq" rejimində qalmaq məsələsini həll etməyə çalışmışdır. Belə ki, Məclisdə özünün də dəstəklədiyi "Respublika" tərəfdarları ilə "Şahlıq" tərəfdarı əleyhdarları arasında mübarizə getdiyi bir zamanda Rza Pəhləvi bu məsələnin öz xeyrinə həlli üçün Qum şəhərinə din başçılarının yanına məsləhətə getmiş və qayıtdıqdan sonra: "Hazırkı şəraitdə İranın respublikalı dövlətlə idarə etməyin mümkün olmadığını" elan etmişdir. Əslində, bununla da Rza Pəhləvi bir oxla iki quş vurmuş, bir tərəfdən "Respublika" şüarını gündəlikdən çıxarmaqla "şahlıq" tərəfdarlarını özünə bağlamış, digər tərəfdən isə "Məhv olsun Əhməd Şah" şüarını qüvvədə saxlamışdı.

Rza Pəhləvi tərəfdarları olan ingilis dəstəkli aryançılar ölkədəki ağır vəziyyətdən istifadə edərək Məclisdəki Türk deputatlara təzyiq göstərmiş, Rzanın hakimiyyət başına keçməsi üçün: "Məclis xalqın rifahı üçün Qacar sülaləsinin hakimiyyətdən düşdüyünü elan edir və ölkəni Qanuni-əsasinin (Kontitusiyanın) verdiyi imkan dairəsində müvəqqəti idarə etməyi Cənab Rza xan Pəhləviyə tapşırır" kimi bir təklifi deputatların müzakirəsinə çıxarmışdılar. Məclisin sədri Müdərris bu təklifə heç bir rəy bildirmədən parlamenti tərk etmişdir. Ancaq Rza Pəhləvinin tərəfdarları bu layihənin təkrar müzakirəyə çıxarmış, nəhayət 12 dekabr 1925-ci ildə Məclisin 257 üzvü lehinə, 3 üzvü bitərəf qalmaqla Rzanı İranın şahı seçmiş, Konstitusiyada da dəyişiklik edərək "Qacar" kəlməsini "Pəhləvi" kəlməsi ilə əvəz etmişdilər. Beləliklə, 31 oktyabr 1925-ci ildə 130 illik Qacar sülaləsinə və 1000 illik Türk hakimiyyətinə son qoyaraq 12 dekabr 1925-ci ildə məharətlə hazırlanmış ssenari əsasında Rza "Rza Şah Pəhləvi" soy adı ilə "İran" deyilən məmləkətin irsi şahı elan edilməsinə nail olmuşdu.[238]

Qeyd edək ki, hakimiyyəti əldə saxlaya bilməsi üçün Əhməd şaha ilk kömək əlini uzadan Türkiyə Cümhuriyyətinin qurucusu, tanınmış dövlət xadimi Mustafa Kamal Atatürk olmuşdur. Atatürk həmin vaxt Parisdə olan Əhməd şahı geri dönərək öz hüquqları uğrunda mübarizə aparmağa təklif etmiş və bu məsələdə ona hər cür yardım göstərəcəyinə söz vermişdi. Lakin səhhətindəki problem-

[238] Qasımlı A.Güney Azərbaycan türkləri son 100 ildə.Bakı, Adiloğlu, 2012, s.40-41

lərdən də cana doymuş Əhməd şah artıq siyasətə qayıtmaq istəmirdi və o, Atatürkün təklif etdiyi köməkdən nəzakətlə imtina etdi.[239]

Beləliklə, ingilislər ruslarla birlikdə 1909-cu ildə Qacarlara çox ciddi bir zərbə vuraraq Məhəmməd Əli şahı hakimiyyətdən uzaqlaşdırıb aryançı farsların əliylə Qacarlar Hökumətləri və Məclislərini zaman zaman ələ keçirdikləri kimi, 1925-ci ildə də aryançı Rza Pəhləvi vasitsilə Qacarların qanuni hakimiyyətinə son verib, saxta yollarla "şah" seçməklə nöqtəni qoyular. Bütün bunların qeyri-qanunu ya da oğurluqla baş verməsini iddia edən Məhəmməd Əli şahın bacısı, Əhməd şahın bibisi Fəxrüssəltənənin bu suçlamalarına cavab olaraq ingilislərin oyuncaq "şah"ı Rza Pəhləvi demişdir: "Xanım, mən Qacarın tacını oğurlamadım, tac düşmüşdü küçəyə, onu götürüb qoydum öz başıma".[240]

Tanınmış mütəfəkkir, dövlət xadimi Mirzə İbrahimov bu məsələlərlə bağlı yazırdı: "Bütün bu mürəkkəb mübarizələr bir neçə ilin ərzində İran dövlət dəstgahında cürbəcür hadisələrlə, müxtəlif şəxsiyyətlərin dövlət başına gəlib düşməsilə, nəhayət, çar kazak polkunda soldatlıq eləmiş kobud, amansız, eyni zamanda hiylə və riyakar Rza xanın yuxarılara qalxması ilə, istibdad tərəfdarları ilə demokratlar arasında qurduğu oyunlar nəticəsində 1925-ci ildə Kəyan taxt-tacına sahib olub qanlı Pəhləvi sülaləsi hakimiyyətinin yaranması ilə tamamalandı...".[241]

S.C.Pişəvəri də 1945-ci ildə yazırdı ki, Rza Pəhləvi qeyri-qanuni şəkildə Qacarlar taxtında oturmuşdur: "Qanun əsasının maddələrindən bir çoxu bu axırıncı 25 il içərisində dəyişdirilmişdir. Məsələn, Rza şah Qacar ailəsinin şahlığına aid olan maddəni ləğv edərək onun yerinə öz padişahlığını yerləşdirmişdir".[242] Əhməd Ağaoğlunun təbrincə desək, bununla da "soyundan uzaqlaşmış və mənən, cismən çökmüş Qacar sülaləsi",[243] tarixin arxivində öz yerini tutmağa başladı. Bununla da, Azərbaycan türklərinin tarixində daha faciəli bir dövrə qədəm qoyulmuş oldu.

---

[239] ADR-İran diplomatik münasibətləri Qafqaz Fövqəladə Komissiyasının sənədləri işığında (1919-1920-ci illər). Bakı, Şərq-Qərb, 2017, s.312-313

[240] Süleymanoğlu Fikrət. Səhənd. Bakı, Nurlar NPM, 2017, s.9

[241] Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. 4 cilddə, 2.cild. Bakı, Elm,1983, s.17

[242] Pişəvəri S.C. Məqalələri. Bakı: Azərnəşr, 2016, s.195

[243] Ağaoğlu Əhməd. İran və inqilabı. Bakı: Azərnəşr, 2009, s.123

## 1.2. 1925-1978-ci illərdə İran Pəhləvilər rejimində və Güney Azərbaycanda ictimai-siyasi və mədəni mühit

Son əsrlərədə istər hərb meydanlarında, istərsə də ictimai şüurlarda aparılan antitürk ideyaların nəticəsi olaraq ingilislər başda olmaqla, Avropa dövlətlərinin iş birliyi nəticəsində 1925-ci ildə Qacarlar hakimiyyəti qeyri-qanuni devirlərək onların yerinə aryançı İran Pəhləvilər gətirildi. Bununla da əfsanəvi "İran"ın sözdə gerçəkçi, hüquqi "İran dövləti"nə çevrilməsi adı altında ciddi zəmin hazırlanaraq türklərin son min ildə idarə etdiyi bölgənin bilərəkdən farsçı-aryançı "İran"a çevrilməsi prosesinə rəsmi şəkil verilməyə başlandı. Məhz bunun nəticəsi olaraq, öncədən də "İran" və "Turan" məsələlərində şüuru qarışdırılan türklər, o cümlədən türk aydınlar arasında aryançı İran Pəhləvilərin hakimiyyətə gətirilməsiylə də, ziddiyyətli düşüncələr daha da dərinləşdi. Başqa sözlə, Qacarların devrilməsindən sonra (1925) türklər arasında tək vətən, tək mədəniyyət, tək dil, tək millət olaraq "Persia" və "İran" anlayışları şüurlara zorla yeridilməyə başladı. Beləliklə, "İran mərkəzli Fars düşüncə sistemi" Azərbaycan mərkəzli Türk düşüncə sistemi üzərində xeyli dərəcədə qələbə qazanmış oldu.[244]

**Aryançı İran Pəhləvilərin ingilispərəst dövrü və Güney Azərbaycan.** Qeyd edək ki, 1935-ci ilə qədər Pəhləvilər daha çox "Persia" adından istifadə edir və bunun zəmnində də Azərbaycan türklərini məhvetmə siyasətini açıq şəkildə aparırdılar. Rza Pəhləvi hakimiyyətini de-yure rəsmiləşdirdikdən dərhal sonra Azərbaycan türklərini repressiya etmə siyasətini daha da sürətləndirdi. Demək olar ki, iran-fars faşizmi nəticəsində on minlərlə Azərbaycan türkü yurd-yuvasından sürgün edildi ya da həbsxanaya salındı. Pəhləvilərin bu siyasətinin arxasında türklərin ana dillərində danışmaqdan, özlərini türk adlandırmaqdan imtina etməkdən tutmuş, farslaşdırmaya zorla məcbur edilməsi üçün nəzərdə tutulan hər bir şey dayanırdı.

Hər halda 1925-ci ildən sonra Türk dilində təhsilin qadağan olunması, üstəlik orduda və məktəblərdə Türk dilində danışmağa

---

[244] Qaradağlı Eldar. Azərbaycan mərkəzli türkçü düşüncə. İstanbul, ÇAV yayınları, 2012, s.235

görə ciddi cəzaların tətbiq edilməsi, eyni zamanda 1928-ci ildə Türk dilində qəzət-jurnalların və kitabların nəşrinin dayandırılması, milli teatrların bağlanması, milli təşkilatların sıradan çıxarılması, məktəblərdə, ictimai yerlərdə türkcə danışmağn rəsmən qadağan olunması, türkcə kitablar və əlyazmaların yığışdırılıb yandırılması, türkcə tarixi və coğrafi adların farslaşdırılması başlandı. V.Mustafayev yazır: “1926-27-ci ildəəyalət maarif idərəsinin yeni rəisi A.Möhsüni Azərbaycana gəldi. O, ”azəri hünərməndlərini çağırıb onları təhqir edərək azəri dilində nümayiş-teatr verməyi qadağan etdi”. Yeni maarif rəisi hətta məktəbdə azərbaycanca danışan uşaqların boynuna kəndir keçirib axura bağlamağı əmr etdi. Onu həmin vəzifədə əvəz edən Q.Zovqi məktəblərdə azərbaycanca danışan uşaqları cərimə etmək üçün xüsusi qutular asmağı göstəriş verdi”.[245]

Üstəlik, Güney Azərbaycanın kiçik ərazi vahidlərinə, yəni ostanlara və şəhristanlara bölünməsi, hətta, Azərbaycanda əhalinin siyahıya alınması zamanı türklərlə bağlı “eşşəklərin siyahıya alınması” kimi ifadələr işlədilməsi və bu kimi insanlıqdan kənar əməllər xalq arasında ciddi etirazlara səbəb oldu. Bütün bunların başında dayanan, “Pəhləvi” adını Rzaya məsləhət görən baş nazir Məhəmmədəli Füruği və İngiltərənin Tehrandakı səfirliyinin müşaviri Erdeşir Reporter, hərbi komandan Aron Sayd və başqaları olmuşlar.[246] S.C.Pişəvəri yazırdı: “Rza şah Azərbaycan xalqından və onun azadlığa olan əlaqəsindən həmişə nigaran olduğuna görə mərhum Şeyx Məhəmməd Xiyabaninin rəhbərlik etdiyi hərəkat basdırıldıqdan sonra orada firqə naminə heç bir ciddi müəssisənin yaradılmasına imkan verilməmişdir. Hətta Süleyman Mirzənin 1921-1929-cu illərdə qurduğu zəif ictimai firqə belə Azərbaycanda Rza şah məmurlarının ciddi təqibi və Ələsgər Sərtibzadənin xudpəsəndliyi nəticəsində parlayıb, cəmiyyətdə mühüm yer tuta bilməmişdir. Həmin tarixdə bəzi zəhmətkeş və açıq fikirlilər vasitəsilə təşəkkül tapan İran Kommunist Firqəsinin Azərbaycandakı yerli təşkilatı daha çox məhdud dairədə və fövqəladə gizli fəaliyyət göstərməsinə

[245] Mustafayev Vidadi. Cənubi Azərbaycanda milli şüur (XX əsrin birinci yarısı). Bakı, Əbilov, Zeynalov və oğulları, 1998, s.110

[246] Heyət Cavad. Dilimiz, ədəbiyyatımız və kimliyimiz uğrunda (məqalələr toplusu 1). Bakı, Elm və təhsil, 2011, s.593

baxmayaraq... aşkar edilib, fəal üzvüləri isə başqa azadixahlarla birlikdə Qəsri-Qacar həbsxanasına göndərilmişlər. Bir sözlə demək olar ki, Rza şahın süqutu və mütəffiq dövlətlərin hərbi qüvvələrinin İrana varid olduğu vaxt 1941-ci il 25 avqust tarixdə Azərbaycanda siyasət və təşkilat naminə heç bir şey yox idi”.[247]

Deməli, İngilis-Fars siyasətinin ortaq maraqlarından çıxış edən Pəhləvilərin aryançılıq əsasında “tək İran milləti” yaratmaq ideyası ilk növbədə, Güney Azərbaycana, Azərbaycan türklərinə qarşı yönəlmişdi. Mirzə İbrahimov yazır: “Hakim fars şovinizmi, müstəbid şah hakimiyyəti artıq neçə əsr idi ki, İranda yaşayan başqa millətlərin, xüsusən farslardan sonra böyük əksəriyyəti təşkil edən 12-16 milyona qədər Cənubi Azərbaycan əhalisinin milli hüquq və ixtiyaratını qəbul etmirdi. Hətta Rza şah Azərbaycan sözünü xəritədən tamamilə silmək üçün İranı “ostanlara” (əyalətlərə) bölmüşdü. Bu əyalətləri nömrələmişdi də: birinci Ostan, İkinci Ostan və s. Bütün bunlara baxmayaraq, azərbaycanlılar, kürdlər və başqaları özlərinin qədim milli mədəniyyətini, dilini, ədəbiyyatını böyük çətinliklərlə də olsa, qoruyub saxlayır, yaşadır, inkişaf etdirirdi. İstibdadın təqibləri, həyata keçirdiyi cəza tədbirləri isə xalqı daha da qəzbləndirir, gücləndirirdi”.[248]

Məmməd Sadıq Aran da 1942-ci ildə, “Sənan Azər” ləqəbi ilə Türkiyədə yayınladığı “İran Türkləri” kitabında yazırdı ki, Pəhləvilər bu ölkədəki türklərin mövcudluğunu təkzib və tarixini təhrif edir, Türk toponimlərini, o cümlədən coğrafi adları farslaşdırır, uşaqlara Türk adları verməyi qadağan edir, Türk dilində məktəbləri qadağan edir və onlara məcburi farsca təhsil verir, özünü Türk kimi təqdim edənlərə cəza kəsir, Türkcə kitabları məhv edir.[249] O, yazırdı: “Biz İranda yaşayan Türklər əsirlərdən bəri İranın şərəfini qanımızla və canımızla qoruduq. Buna müqabil İrandan heç bir haqq istəmədik. İran hökuməti də bizə daim ögey oğul nəzəriylə baxdı və hələ də elədir. Sayımız 5 milyonu keçən bizlər bu gün İrandakı 60 min erməni qədər mədəni bir haqqa malik deyilik. Bu nədən belədir? Bunu biz yalnız özümüzə soruşmalyıq. Biz daima şücaət və cəsarətimizi

---

[247] Pişəvəri S.C. Xatirələr. Bakı: ADF-nin nəşri, 2005, s.21

[248] Cənubi Azərbaycan ədəbiyyatı antologiyası.4 cilddə, 3. cild. Bakı, Elm, 1988, s.9

[249] Azər Sənan. İran Türkleri. İstanbul, Cümhuriyet maatbası, 1942, s.17-18

farsların kefi üçün sərf etdik və susduq. Susanlara isə heç bir yerdə pay verməzlər. Vətəndaşlar, haqqımızı istəmək zamanı gəlmişdi. Biz artıq miskin və pərişan halda yaşaya bilmərik. Bilməliyik ki, əsrimiz milliyyət əsridir. Milliyyət demək, mənlik deməkdir. Mənliyini idrak etməyən Tanrısını bulamaz. Biz köləklikdən qurtulmalıyız”.[250]

Azərbaycan türklərinin rəsmi dövlət idarəçiliyində iştirakına da qadağa qoymaq məqsədilə Rza “şah” bir neçə addım atdı. Bunlardan biri Qacarların federal yapısını aradan qaldıraraq yeni ərazi-idari sistemi ortaya qoymaq idi. Nəsibli yazır: “Bu dəyişikliyin məqsədlərindən biri fars olmayanların birliyini mümkün olduğu qədər pozmaqdı. Bu dəyişikliklə eyni zamanda, əski yer adlarını da hafizələrdən silmək məqsədi güdülürdü. Yeni ərazi bölünməsinə görə, Azərbaycan əyaləti iki parçaya ayrıldı. Bununla birlikdə əyalətin tarixi-coğrafi adı yox edildi və isimlərin yerini sadəcə nömrələr aldı. Əyalətin əsas qismi üçüncü (mərkəzi Təbriz şəhəri) və dördüncü (mərkəzi Rezaiyə, öncəki Urmiya şəhəri) onların tərkibinə qatıldı. Zəncan vilayəti və türklərin yaşadığı digər bölgələr bunların tərkibinə daxil edilmədi, onlara müstəqil idarəetmə statusu da verilmədi. Daha sonraları 3. ostan Doğu Azərbaycan, 4. ostan isə Batı Azərbaycan olaraq adlandırıldı”.[251]

Azərbaycan türklərinə qarşı yönəldilmiş addımlardan digəri də bütün dövlət idarələrinə “Soyu Türk olan və Türkcə danışan şəxsləri dövlət müəssisələrində məsul vəzifələrə təyin etməmək və mövcud olanları da bəhanə tapıb xaric etmək” məzmunlu gizli bir sərəncam idi. Bu sərəncamı Möhsini və Zövqi kimi maarif nazirləri, Abdulla Mustafa kimi Şərqi Azərbaycan valisi yerlərdə həyata keçirmiş, “Paniranizm” ideologiyasının təbliğatçıları Rzazadə Şəfəq Təbrizi və Əhməd Kəsrəvi kimi “sapı özümüzdən olan baltalar” da fars dilinin zorla yayılması, “Vahid İran milləti” ideyasının əhaliyə təlqin edilməsi, Quzey Azərbaycan və Güney Azərbaycanda yaşayan eyni dilli, eyni adlı, eyni tarixli, eyni mədəniyyətli Türklərin müxtəlif xalqlar olduğunu xüsusi canfəşanlıqla sübut etməyə çalışmışdılar. Belə ki, Möhsininin “Türkcə danışanların boynuna noxta keçirib

[250]Yenə orada, s.20

[251] Nesibli, Nesib. Azerbaycan tarihi: Millet-Devlet-Siyaset. Ankara, Altınordu yayınları, 2019, s.517

axıra bağlayın" kimi göstərişi, Zövqinin Azərbaycan məktəblərində tənəffüs zamanı belə Türkcə danışan şagirdləri cəzalandırmaq üçün "cərimə sandıqları" qoydurması və digər sərəncamları, Abdulla Mustofinin "Azərbaycanlılar türkdürlər, onlar yonca yeyib "Məşrutə" alıblar, indi də ot yeyib İranı abad edərlər" deməsi, İran Pəhləvilərinin irqçi-faşist mahiyyətini tamamilə ortaya qoymuşdu. Mirzə İbrahimov yazır: "Bütün İranda azadlıq və demokratiyanın kökünü kəsmiş Rza şah istibdadı ilə Azərbaycanda zülm və təzyiq qat-qat artdı. Azərbaycan dilində yazmaq və oxumaq qadağan olundu. Azərbaycanın böyük, kiçik bütün idarələri fars məmurları ilə dolduruldu. Rza şah Azərbaycan adını xəritədən silmək üçün əlindən gələni etdi. Rza şahın hakimiyyəti illərində Azərbaycan şəhələri bir xərabəzarə çevrildi. Azərbaycanın gəlirini çəkib apardılar. İşsizlik, kasıblıq və səfalət hər yanı bürüdü. Bütün bunlardan əlavə Azərbaycan xalqına qarşı etimadsızlıq və təhqiri münasibət daha da dərinləşdi. Təbriz valisi Mustofi azərbaycanlıları nalayiq sözlərlə təhqirdən çəkinmədi. Hər tərəfdə azərbaycanlılara qarşı pis münasibət yarandı. Onları bir çox dövlət qulluq və vəzifələrinə buraxmadılar. Fars məmurları azərbaycanlılarla "işağlçı irq" nümayəndəsi kimi rəftar etdilər. Azərbaycan dilində danışanları idarələrdən qovdular. Məhkəmnləri fars dilində apardılar. Ömründə bir kəlmə farsca danışmamış Azərbaycan kəndlilərilə də sorğu-sualı farscaya keçirdilər. Azərbaycan dilində ədəbiyyat oxumaq, şeir yazmaq və yaxud mahnıya qulaq asmaq cinayət sayıldı".[252]

V.Mustafayev yazır ki, 1934-cü ildə İran Məclisinin qəbul ettdiyi növbəti qanun layihəsinə görə, bundan sonra başqa dillərdə məktublaşma, işlər, ərizələr qəbul edilməyib baxılmayacaq idi. Bu qanunda həmçinin, məmurun yerli dili bilməsinin zəruri olmadığı qeyd edilirdi. "1930-cu illərin əvvəllərində İranda yeridilən assimilyasiya siyasəti haqqında "Peykar" qəzeti yazırdı ki, İranın əhalisi qeyri-fars olan geniş rayonları, xüsusən Azərbaycan, Kürdüstan, Ərəbistan (Xuzistan) bu gün də hər cür hüquqdan məhrumdurlar. Burada yaşayan uşaqlar qeyri-ana dilində olan məktəblərdə oxumağa məcburdular. Həmin rayondan məclisə

---

[252] İbrahimov Mirzə. Cənubi Azərbaycanda milli-demokratik hərəkat haqqında.// "İnqilab və mədəniyyət" jurnalı, Bakı, 1947, №4

seçilmiş nümayəndənin mandatı fars dilini bilmirsə, təsdiq edilmir. Bütün dövlət məmurları farslardan təyin olunurlar və onlar bu rayonların əhalisinə qul kimi baxırlar. Onların ərizə və şikayətləri mütləq fars dilində tərtib edilməli və baxılmalıdır. Hüquq- mühafizə orqanları fars dilində tərtib olunmayan ərizələri qəbul etmirlər, bu da milliyyətcə fars olmayan şəxslərin qeyri-qanuni surətdə məhkum olmasına səbəb olur”.[253]

Üstəlik, İran Pəhləvilər dövründə Hüseyn Kazımzadə, Rzazadə Şəfəq, Mahmud Əfşar, Mahmud Qənizadə, Əhməd Kəsrəvi kimi sapı özümüzdən olan “balta”ların aryançılığı təbliğ edərək anti-Azərbaycan konsepsiyalarını nəzəri cəhətdən “əsaslandırmağa” çalışmaları da çox təəssüf doğuran hal idi. Onların müdafiə etdikləri aryançılıq nəzəriyyəsini sonralar yenə də azərbaycanlılardan Mənu-çehr Mürtəzəvi, Ə.Karəng, İnayətulla Rza, Hüseynqulu Katibi, İrəc Əfşar və başqa paniranist ideoloqlar dirçəltməyə təşəbbüs göstərmiş, ancaq onlar da heç bir əsaslı sonuc əldə edə bilməmişlər.[254]

Bu dövrdə İran Pəhləvilərinin irqçi, mürtəce siyasətinə qarşı çıxan İran Komminist Partiyası (İKP) olmuşdur. V. Mustafayev yazır ki, İKP özünün ikinci qurultayında (1927) ölkədə milli məsələni ayrıca nəzərdən keçirib bu barədə xüsusi qərar qəbul etmişdi: “Qurultayın sənədlərində İranda müxtəlif millətlərin: ərəb, türkmən, kürd, türk millətlərinin yaşamasından, onların İran feodalları və ingilis imperializmi tərəfindən ikiqat zülmə məruz qalmalarından danışılır, İranda milli azlıqlar məsələsinə böyük əhəmiyyət verilirdi. 2 nömrəli qətnamədə o cümlədən deyilirdi: ”İran kommunist partiyası öz proqramına bütün kommunist partiyalarının milli məsələ barəsində ümumi tələbi vəşüarını, yəni hər bir millətin özünün tam müstəqilliyi, hətta mərkəzi hökümətdən ayrılmaq hüququ şüarını daxil etməli və həmin şüara uyğun hərəkət etməlidir”... İKP-nin II qurultayının materialları fars dilində azərbaycanlıların öz milli hüquqları olan, türk milləti olduğu etiraf olunan ilk sənədlər idi. Həmin fakt azərbaycanlıların milli şüurunun formalaşması və inkişafı tarixi baxımdan olduqca mühüm idi. Bu

[253] Mustafayev Vidadi. Cənubi Azərbaycanda milli şüur (XX əsrin birinci yarısı). Bakı, Əbilov, Zeynalov və oğulları, 1998, s.111-112
[254] Qasımlı A. Güney Azərbaycan türkləri son 100 ildə.Bakı,Adiloğlu, 2012, s.42-43

fakt göstərdi ki, burjua ziyalılarından fərqli olaraq, geniş təbəqələrin nümayəndələri xalqın etnik şüuruna uyğun olaraq azərbaycanlıları türk hesab etməklə kifayətlənməmiş, onları millət kimi tanımışlar. Bu cəhətin əhəmiyyəti onda idi ki, öz mahiyyəti etibarilə millətçi olan Azərbaycan burjuaziyası nəinki milli ideya işləyib hazırlamadı, əksinə o, öz-özünü assimilyasiya uğrunda çıxış edərək milli (o cümlədən Azərbaycan) məsələnin həllindən uzaq olmasını, Azərbaycan millətinin spesifik milli mənafeinin ifadəçisi olmağa hazır olmadığını nümayiş etdirdi”. [255]

V.Mustafayev yazır ki, İKP-nin millətlərin öz müqəddəratını təyin etmə hüququ uğrunda və dövlətin assimilyasiya siyasətinə qarşı çıxmasına baxmayaraq, o özü yazılı sahədə ideoloji mübarizəni fars dilində apararaq dillərin bərabərlik prinsipini gözləmirdi, bu daİranda mütərəqqi, demokratik quruluşun bərqərar olması uğrunda mübarizə aparan İKP-nin sosial bazasını məhdudlaşdırırdı: “Başqa sözlə, İKP uğrunda mubarizə apardığı prinsipləri əməldə həyata keçirmirdi. Əgər azərbaycanlılar İKP-nin tərkibində millətlərin (o cümlədən Azərbaycan millətinin) öz müqəddəratını təyin etmək hüququ uğrunda prinsip etibarilə çıxış edirdilərsə, Azərbaycan ziyalılarının, orta təbəqələrin, xırda burjuaziyanın bir sıra nümayəndələri real milli zülm siyasətinə qarşı çıxaraq öz etirazlarını bu və ya digər şəkildə nümayiş etdirirdilər. Başqa sözlə həmin təbəqələrin nümayəndələri azərbaycanlıların milli hüquqlarını indi və burada həyata keçirməyə çalışırdılar. Buna görə də Azərbaycanda milli hərəkat xırda burjua xarakteri daşıyırdı”. [256]

**Aryançı Pəhləvilərin almanpərəst dövrü və Güney Azərbaycan.** İkinci Dünya müharibəsi ərəfəsində və müharibə illərində Pəhləvilərin türkləri ucdantutma məhvetmə və farslaşdırma siyasəti bir qədər dəyişdirildi. Çox güman ki, bunan əsas səbəb Azərbaycan türklərinin farslaşdırma siyasətinə, aryanizmə qarşı ciddi müqavimət göstərməsi idi. Başqa sözlə, türkləri, o cümlədən Azərbaycan türklərini sərt siyasətlə, yəni zor tətbiq etmə üsulu ilə farslaşdıra bilməyəcəklərini anlayan Pəhləvilər nisbətən yumşaq güc

[255] Mustafayev Vidadi. Cənubi Azərbaycanda milli şüur (XX əsrin birinci yarısı). Bakı, Əbilov, Zeynalov və oğulları, 1998, s.112-113

[256] Yenə orada, s.213-214

siyasətinə üz tutası oldular. Bu məqsədlə 1938-ci ildə “Pərvəreşi-Əfkar” (Fikirlərin Yayılması Qurumu) təşkilatı yaradıldı ki, burada da əsas məqsəd elm və təhsil yolu ilə aryançılığı Azərbaycan türklərinin şüuruna yeritmək idi. N.Nəsibli yazır: “Məşrutə dönəmindən qalma “İran milləti” anlayışına yeni rənglər qatıldı. Əski İran tarixinin, özəlliklə Sasani dönəminin ideallaşdırılması rəsmi tarixçiliyin özünü təşkil etdi. Məktəblərdə tədris edilən və mətbuat yayın orqanlarında müdafiə edilən “Ariya irsi”, insanlığın ən qiymətli tarixi dəyəri olaraq təqdim edilirdi”.[257]

Bizcə, Pəhləvilər xüsusilə də, Almaniyaya ilə yaxınlaşdıqdan sonra Azərbaycan türklərini zorla farslaşdırıb fars milləti adlandırmaqdan bir qədər geri çəkilib, almanların da məsləhətləri ortaq “iranlı”, “İran milləti” kimliyi yaratmaq işinə daha çox girişdilər. Bu anlamda Azərbaycan xalqını farslara qohum xalq elan etmək məqsədilə Pəhləvilər “Persia” adını arxa plana keçirərək “İran”-“Aryan” adını önə çəkdilər. Bu o demək idi ki, Pəhləvi ideoloqları artıq Azərbaycan türklərinin farsdan dönmə siyasətini nisbətən yumşaldıb, onlara daha çox “azəri” damğasını vurmaqla, farslarla azərilərin iran/aryan mənşəli olması təbliğatını gücləndirdilər. Başqa sözlə, 1935-ci ilə qədər Azərbaycan türklərini farsdan dönmə deyib zorla farslaşdıranlar, bu dəfə Azərbaycan türklərini “azəri” adı altında farslara qohum xalq elan etməklə özlərinə bağlamağa başladılar. Onların nəzərində farslarla “azəri”ləri birləşdirən də İran mədəniyyəti, İran dövləti, fars dili, bir sözlə ortaq Ariyan irqi idi. Əkrəm Rəhimliyə görə, hakimiyyətə gələn gündən fars şovinizmini təbliğ edən Rza Pəhləvinin sonralar ingilislərdən çox almanlarla yaxınlaşmasında “aryançılıq” nəzəriyyəsi mühüm rol oynamışdı: “Bu məfkurədə farsların ali irqə - “ariya” irqinə mənsubluğu və bu irqin alman irqi ilə qohumluğunun “sübuta” yetirilməsinə cəhd edilirdi”.[258]

Aydın Qasımlı da yazır ki, Rza şah Azərbaycan Türklərinə qarşı yönəlmiş fars şovinist siyasətində o dövrdəki alman farsizminin

---

[257] Nesibli, Nesib. Azerbaycan tarihi: Millet-Devlet-Siyaset. Ankara, Altınordu yayınları, 2019, s.515

[258] Rəhimli Əkrəm (Bije). 21 Azərə gedən yol. Güney Azərbaycanda milli-demokratik hərəkat (1941-1946-cı illər). Bakı, “Araz”, 2015, s.16

irqçilik və ariçilik nəzəriyyələrindən bəhrələnmişdi: "Azərbaycan Türklərinə qarşı planlı şəkildə və daha qəddarcasına həyata keçirilən bu siyasət mahiyyətcə Azərbaycanın bir ölkə kimi tamlığına və Azərbaycan Türklərinin milli bütövlük şüuruna qarşı yönəlmişdi. Bu məqsədlə Rza şah ölkədə faşist yönlü təşkilatlar yaratmış, silahlı qüvvələr daxilində, sarayda, nazirliklərdə, hərbi sənaye müəssisələrində, texniki-peşə məktəblərində, ali təhsil müəssisələrində faşist ruhlu mütəxəssislər yerləşdirmiş, hətta ölkədə faşist çevrilişi hazırlamış, ölkənin dörd bir yerinə faşist agentləri səpələmişdi".[259]

Bizcə, "Persia" və "İran" anlayışlarının türklər arasında ziddiyyətlərə yol açmasının nəticəsi olaraq Azərbaycan türklərinin əksəriyyəti bundan çıxış yolu kimi Arian-Fars kimlikli "İran"a qarşı, Türk-Turan kimlikli "Azərbaycan"ı ortaya qoydular. Yəni 1925-ci ildə Türk Qacarlar dövlətini itirməyimizin nəticəsi olaraq ortaya çıxan ariyan-fars kimlikli "İran"a qarşı təskinliyimizi, daha sonra da xilasımızı Türk ruhlu "Azərbaycan"da axtarmağa başladıq. Çünki Türk ulusu olaraq şüurlarmızı qarışdıran Fars-Arian "İran"ından qurtulmaq üçün hələlik, böyük "Turan" deyil, onun mərkəzi olan Azərbaycan qurtuluş yolumuz kimi görünməkdə idi. Bu anlamda 1925-ci ilə qədər mövcud olan Türk dövlətlərinə "Turan" çərçivəsində deyil, onun əsas mərkəzi olan Azərbaycan yönündən yanaşmağa məcbur olduq. Faktiki olaraq Türk ruhlu Azərbaycanın kiçik bir hissəsi Sovet Rusiyasının, böyük hissəsi isə İran Pəhləvilərinin nəzarəti altında olduğu üçün də, 1925-ci ilə qədərki Türk dövlətlərini ya "İran", ya da "Azərbaycan" dövlətləri şəklində görməyə məcbur edildik. Üstəlik, Azərbaycanın böyük hissəsi 1925-ci ildən sonrakı Pəhləvilər "İran"ın nəzarəti altında olduğu üçün, 1925-ci ilə qədər burada hökm sürmüş Türk dövlətlərini "İran" dövlətləri şəklində şüurlarmıza yeridilməsi ilə əsasən, razlaşmağa məcbur edildik. Belə ki, guya, Midiyanın süqutundan sonra (e.ə. 550-ci il) "İran"ın təqribən 2500 illik şahlıq dövrü olub ki, onun da əsasını farslar qoyublar. Sadəcə Türk Qəznəlilərdən başlayaraq həmin "İran"ı min ildir Türk dövlətləri idarə ediblər ki, elə onlar da "İran müstəbidləri"dir. Çünki bu uydurmalara görə, bu Türk dövlətləri (Səfəvilər, Əfşarlar, Qacarlar və b.) də "İran", "iranlıq",

---

[259] Qasımlı A. Güney Azərbaycan türkləri son 100 ildə. Bakı, Adiloğlu, 2012, s.43

"İran mədəniyyəti", "fars dili"nə xidmət edərək Azərbaycana, Azərbaycan xalqına düşmən olublar. Bütün bu uydurmalar da yalnız Quzey Azərbaycan deyil, Güney Azərbaycandakı ədəbiyyat, tarix, fəlsəfə kitablarında geniş şəkildə təsvir olunmuşdur.[260]

Böyük Britaniyanın (və davamçısı ABŞ-ın) Sovetlər Birliyinin (və davamçısı Rusiya Federasiyasının) və İran Pəhləvilərin (və davamçısı İran İslam rejiminin) Azərbaycan türklərinə qarşı apardığı aşağı-yuxarı eyni siyasət nəticəsində də Nadir şah Əfşarlar, Şah İsmayıl Xətailər, Şah Təhmasiblər, Nadir Şah Əfşarlar, Ağa Məhəmməd şah Qacarlar bir sözlə, bütün Türk hökmdarları "İran" şahına çevrilir, "İran" şahları kimi də Türkün və Azərbaycanın düşməni olurdular. Başqa sözlə, araşdırdığımız dövrdə, yəni Sovetler Birliyində Stalinin, Pəhləvilərdə Rza Pəhləvinin apardığı siyasət Azərbaycan türklərinin milli varlığının inkarına qarşı yönəldilmiş, bunun nəticəsi olaraq dövriyyəyə saxta "İranlı" və "Azəri" kimliyi gətirilmişdir.[261]

Ona görə də, Türkiyə və Azərbaycanın rəsmi tarixçiliyində də 1925-ci ildən sonrakı "İran"a nisbətlə "İran şahları" kimi adı keçən bütün Türk hökmdarları düşmən və işğalçı kimi qələmə verilirlər. Özəlliklə, Sovetlər Birliyi dövründə yazılan rəsmi "Azərbaycan tarixi" kitablarında 1925-ci ildən sonrakı, xüsusilə 1935-ci ildə "rəsmi"ləşmiş "İran"a nisbətlə Səfəvilər, Əfşarlar, Qacarlar dövlətləri heç bir saf-çürük edilmədən, özəlliklə son min il ərzində bu coğrafiyada Türk dövlətlərinin hakimiyyət sürmələri nəzərə alınmadan hamısı Azərbaycana, Türkiyəyə bütünlükdə Türklüyə düşmən kimi qələmə verilmişdir.

Bizcə, "Azərbaycan tarixi" kitablarında Səfəvilərin, Əfşarların, Qacarların hakimiyyətini yalnız "İran hökmranlığı" kimi qələmə verib, onlardan "yadelli hökmranlıq" kimi bəhs etmək doğru deyildir. Özəlliklə də, Nadir şah Əfşar ya da Ağa Məhəmməd şah Qacar necə "yadelli hökmdar" ola bilər ki, onlar Azərbaycanı, Türklüyü hər hansı ideyadan üstün saymış, hakimiyyətlərini Turanın mərkəzi Azərbaycanda bəyan etmiş, dövlətin iki mühüm paytaxtını – Təbrizi

---

260 İbrahimov Mirzə. Cənubi Azərbaycanda milli-demokratik hərəkat haqqında.// "İnqilab və mədəniyyət" jurnalı, Bakı, 1947, №4

261 Turan Refik. Azerbaycanda Okutulan Tarih Ders Kitablarında Stalin və Uyğulamalarına Yakşalım. Ankara, Bilig, payız 2013, sayı 67, s.284-285

və Tehranı Azərbaycan ərazisində tutmuşdular.

Beləliklə, 2-ci Dünya müharibəsi başlayana qədər artıq Azərbaycanda İran Pəhləviləri rejiminə qarşı ciddi bir narazlıq formalaşmışdı. Məhz bu narazlığın fonunda da Azərbaycan xalqınən arasında meydana gəlmiş milli şəraiti xarakteriz edən Vidadi Mustafayevə görə, etnik cəhətdən yekcins olan əsas sosial təbəqələr prinsip etibarilə iş verənlərin mənafeyini müdafiə edən, eyni zamanda hakim millətin nümayəndəsi olan fars (yaxud qeyri-milli) məmurlar vasitəsi ilə bir-birinə bağlanmışdılar: "Sosial strukturda aşağı mövqe tutan təbəqələr ayrı-seçkilikdən daha çox, ilk növbədə azərbaycanlı hakim təbəqələrin iqtisadi, siyasi, sosial zülmündən əziyyət çəkir, ona görə də başlıça olaraq sosial azadlıq uğrunda çıxış edirdilər, hərçəend öz milli mənafeyi onlara yad deyildi. Farsdilli Azərbaycan ziyalılarının bir hissəsi öz xalqının assimilyasiya olunması uğrunda çıxış edir, ziyalıların digər hissəsi ayrı-seçkilik siyasətindən narazılıq edirdilər, çünki həmin siyasət onların maddi mənafeyinə toxunur, onları əyalətdə fars ziyalılarından asılı vəziyyətə salırdı". [262]

V.Mustafayevə görə, beləliklə, əyalət iqtisadi və sosial infrastruktur cəhətdən tənəzzül keçirir, Azərbaycan xalqı isə ilk növbədə məmurların özbaşınalığı, şovinizmi şəklində təzahür edən milli zülmə məruz qalırdı: "Bu zülmü ən konkret, gözə çarpan şəkildə və daim azərbaycanlı məmur və ziyalılar hiss və dərk edirdilər, ona görə də onların arasında həm bu zülmə müqavimət, həm dəən başlıcası, Azərbaycan millətinin spesifik mənafeyinin dərk edilməsi və öz qrup mənafeyinin milll mənafe ilə eyniləşdirilməsi prosesinin getməsi özünü göstərirdi. Yuxarıda qeyd edilənlər göstərir ki, Azərbaycanda dövlətin millətçilik siyasəti və məmurların şovinist özbaşınalığına qarşı narazılıq mövcud idi və artırdı. Lakin bu narazılıq qeyri-mütəşəkkil və fərdi-hissi səviyyədə özünü göstərirdi. Bu da sosial strukturun əsas komponentlərinin etnik yekcinsliyi, ölkədə polis diktaturasının hökm sürməsi, və deməli xırda burjuaziyanın və ilk növbədə ziyalıların fəaliyyətinin mütəşəkkilliyi və onun təşkilatçılıq fəaliyyəti üçün mühüm şərt olan demokratik

---

[262] Mustafayev Vidadi. Cənubi Azərbaycanda milli şüur (XX əsrin birinci yarısı). Bakı, Əbilov, Zeynalov və oğulları, 1998, s.116-117

şəraitin olmamsı ilə bağlı idi”. [263]

**2-ci Dünya müharibəsi dövründə Güney Azərbaycan və 21 Azər hərəkatı.** 1941-ci ilin avqust ayında Sovet ordusu “İran”a daxil olaraq ölkəninin bir hissəsini işğal etmiş, Rza şah hakimiyyətdən öz bədnam oğlu Məhəmməd Rzanın xeyrinə imtina edərk 16 sentyabr 1941-ci ildə istefa vermiş və 17 sentyabr 1941-ci ildə ölkəni tərk etmişdi. Mütəffiq qoşunlarının (SSRİ, Böyük Britaniya, ABŞ və b.) “İran” ərazisinə daxil olub, Rza şahın ölkədən qaçmasından sonra Güney Azərbaycanda bir çox milli və qeyri-milli təşkilatlar - Tudə Partiyası, Azadlıq Cəbhəsi Partiyası, Azərbaycan Zəhmətkeşlər Təşkilatı, Azərbaycan Cəmiyyəti, İrani-Bidar, Ziddi-Faşist Cəmiyyəti, Həmkarlar Təşkilatı və başqaları ortaya çıxdı.

Bu təşkilatlar arasında “İrani-Bidar” (Oyanmış İran), “Hizbi-Tudeyi-Azərbaycan faşist”kimi təşkilatlar qeyri-milli yol tutmuşdular. Pişəvəri yazır ki, xüsusilə faşist əqidəlilər “Hizbi-Tudeyi-Azərbaycan faşist” təşkilatında bir araya gəlmişdilər. O, yazırdı: “Məxsusən faşist ünsürləri özlərinin cinayətlərinə pərdə çəkmək məqsədi ilə daha artıq fəaliyyət göstərirdilər. Hacı xan Çələbi, Məmməd Əli xan Nurazər (Daruğa), Əxbarı və qeyrilərinin təşkil etdikləri Hizbi-Tudei Azərbaycan bu məqsədlə qurulmuş bir təşkilat idi. Vaxtında bütün siyasi dəstələrə əl atmağa çalışan Fəhimi bu təşkilat ilə də Azərbaycan Zəhmətkeşləri kimi rəftar edib, onu özünün siyasətini icra etmək üçün alət qərar verməyə müvəffəq olmuş və istifadə etdikdən sonra qaba bir şəkildə dağıtmışdır”. [264]

Bu dövrdə Azərbaycanda imperialistlərinin əli ilə yaradılmış qeyri-milli təşkilatlardan biri də “İrani-Bidar” olmuşdur. Bu təşkilatın ideyaları “Fəryad”qəzetində nəşr olunurdu ki, burada da əsas məqsəd “iranlılığ”a, “İran birliyi”nə xidmət etmək idi.

Həmin dövrdə Azərbaycan Zəhmətkeşlər Təşkilatı və Azərbaycan Cəmiyyəti isə işlərini tamamilə Azərbaycanın azadlığı üzərində qurmaslar da, ancaq milli yol tutub Azərbaycan və azərbaycanıçılıq ideyası onların məramnaməsində mühüm yer tutmuşdur. S.C.Pişəvəri yazır ki, Azərbaycan Zəhmətkeşlər Təşkilatının xalq

---

[263] Mustafayev Vidadi. Cənubi Azərbaycanda milli şüur (XX əsrin birinci yarısı). Bakı, Əbilov, Zeynalov və oğulları, 1998, s.117

[264] Pişəvəri S.C. Xatirələr. Bakı: ADF-nin nəşri, 2005, s.29-30

içərisində nüfuz tapmasının əsl səbəbi onu təşkil edənlərin Azərbaycanda yaşayan zəhmətkeşlərdən ibarət olması idi: "Müxtəlif adamlar məsələn, İsrafil Qadiri, Hüseyn Rizvan, Əhməd İslami və qeyrilərinin müstəqil surətdə topladıqları dəstələrin birləşməsindən əmələ gələn bu təşkilatın təkcə Təbrizdə on mindən ziyadə üzvü var idi. Şəhərin müxtəlif yerlərində cürbəcür ünvanlar altında təşkil tapan zəhmətkeş klubları gecə-gündüz dolu olub, orada danışılan sözlər, aparılan təbliğat xalqın illər boyu arzu etdiyi məqsəd ətrafında idi. "İstibdad hökumətini yıxmaq, zülm və şəqavətə (əzab) xatəmə vermək, ərbabların, qaniçənlərin əllərini ictimai işlərdən uzaqlaşdırıb, xain məmurlar, qaniçən jandarmlar, rüşvətxor tiryəkinin şərrin bir dəfəlik xalqın başından rəf etmək" sözləri həqiqətdə xalqın xoşuna gələn, onun ürəyindən çıxan sözlər olduğundan onları cəlb edib gündən-günə təşkilata yaxınlaşdırırdı".[265] Pişəvəriyə görə, bu təşkilatın nöqsanı isə onun azsavadlı adamlardan toplanmasında və onların arasında xalqa rəhbərlik edə bilən təcrübəli adamların olmamasında idi. Azərbaycan Zəhmətkeşlər Təşkilatı həm daxili təxribatlar, həm də Pəhləvilər rejiminin basqıları altında 1942-ci ilin payızında öz fəaliyyətini dayandırmağa məcbur olmuşdu.[266]

1941-ci ilin oktyabrında Təbrizdə yaranan Azərbaycan Cəmiyyətinin qurucuları Mirzə Əli Şəbüstəri, İsmayıl Şəms, Əli Maşınçı, Cəfər Əkbəri, Mirzə Mehdi Çavuşi, Hilal Nasiri və başqaları olmuşdur. Noyabrın 1-dən etibarən fars və türk dillərində "Azərbaycan" qəzetini nəşr edən "Cəmiyyət"in əsas ideyaları burada öz əksini tapmışdır. V.Mustafayev yazır ki, milli və sosial azadlıq üçün mübarizə aparan bu təşkilat, siyasi sahədə demokratik konstitusiya və qanuni idarəetmənin həyata keçirilməsini, əyalət və vilayət əncümənlərinin təşkil edilməsini, nümayəndələrin Məclisə xalq tərəfindən seçilməsini, Azərbaycanın qanuni haqlarının müdafiəsini, dövlətin Azərbaycanda sənayə müəssisələri inşa etməsini, işsizliyin ortadan qaldırılmasını, dil azadlığının verilməsini, ana dilində bütün səviyyələrdə təhsil və kitab yayınlanmasını istəməkdəydi.[267]

---

[265] Yenə orada, s.25

[266] Rəhimli Əkrəm (Bije). 21 Azərə gedən yol. Güney Azərbaycanda milli-demokratik hərəkat (1941-1946-cı illər). Bakı, "Araz", 2015, s.24

[267] Mustafayev Vidadi. Cənubi Azərbaycanda milli şüur (XX əsrin birinci yarısı). Bakı, Əbilov, Zeynalov və oğulları, 1998, s.110-111

“Azərbaycan” qəzetində “İran milləti” anlayışından fərqli duyğu, dil ənənə və torpaq bütövlüyünə aid “Azərbaycan milləti” qavramından tez-tez istifadə olunurdu. Burada göstərilirdi ki, Azərbaycan millətinin əsasını Azərbaycan türkləri, onun dili, ənənələri təşkil edir və bu milləti başqa bir millətlə (yəni farslarla) eyniləşdirmək mümkün deyildir. Bu anlamda panirançıların Azərbaycanın zorla türkləşməsi müddəasını rədd edən “Azərbaycan” qəzetinin yazarları bildiridilər ki, Azərbaycan əski dövrlərdən Türk yurdu olmuşdur və indi də Azərbaycan türkləri bu yurdun sahibləridir. V.Mustafayev yazır: ““Cəmiyyət” azərbaycanlılarda öz dili haqqında obyektiv təsəvvür yaratmağa səy göstərirdi. “Azərbaycan” qəzeti azərbaycanlıların özünəməxsus qədim və zəngin dili olduğunu xüsusi qeyd edirdi. Qəzet Azərbaycanda fars dilinin yayılmadığını, Azərbaycan dilinin türk dilləri sistemində müstəqilliyini, Azərbaycan ıhaslisinin dili ilə İranın digər əyalətlərinin əhalisinin dili arasında hələ VII əsrdən heç bir oxşarlıq olmadığını, İranda monqolların hökmranlığı ilə Azərbaycanın türkləşməsi arasında heç bir əlaqə olmadığını qeyd edir, Azərbaycanda indiki dilin işlənməsi dövrünü göstərirdi”.[268]

Pişəvəriyə görə, Azərbaycan Cəmiyyətinin əsas rolu ondan ibarətdir ki, Tehran irticasına qarşı bəslədiyi ədavət üzrə Azərbaycan, azərbaycanlılıq ideyası üzərində işə balaşyıb, bu məqsədlə də yarı Fars, yarı Türk dilində “Azərbaycan” qəzetini yayınlamaqla milli mübarizə yolunda birinci addım atmışdır: “İstər Azərbaycan Cəmiyyəti, istər Azərbaycan Zəhmətkeşlər Təşkilatının işləri tamamilə Azərbaycan azadlığı üzərində olmasa da, Azərbaycan adı onların arasında mühüm yer tutur. Zəhmətkeşlər əksərən aşağı təbəqəyə mənsub olduqlarından Tehrana az əhəmiyyət verdilər. Azərbaycan Cəmiyyəti başçılarının içərisində ictimai təcrübəyə malik adamlar daha artıq idi. Onların başladıqları Azərbaycan dilinin intişarı böyük bir qədəm olduğu halda, təşkilatın başında onun əhəmiyyətini dərk edən rəhbərlikedici adamlar çox az idi. Bununla belə “Azərbaycan” ruznaməsi Azərbaycan dilində məqalə və şerlər çap etdiyinə görə xalq içərisində tez bir sürətdə intişar tapmağa başlamışdı. Azərbaycanda şöhrət qazanan şairlərdən: Biriya, Etimad və qeyrilərinin bu ruznamə vasitəsilə Azərbaycan dilində şer

[268] Yenə orada, s113

yazmaqla siyasi mübarizəyə həsr etdikləri də ayrıca qeyd edilməlidir. Təəssüflə deməliyik ki, cəmiyyət hələ özünə layiq rəhbərlər tapıb onu irəli çəkə bilməmişdi. Başda duranların çoxusu, hətta onun sədri belə təşkilat üsuluna aşna deyildi. Xalqa gündəlik şüar verib cəmiyyətin xətti-hərəkətini təyin etmək işində başçılar çox naşı və mübtədi (sadə) idilər. Bunlar cəmiyyəti və xalqı hara aparacaqlarını özləri də dərk edə bilmirdilər”.[269]

Pişəvəriyə görə, Azərbaycan Cəmiyyətinə daxil olmağa tələsən camaat ilə Zəhmətkeşler Cəmiyyətinə yanaşanlar təbəqə və ictimai cəhətdən bir-birindən uzaq olsalar da Azərbaycanlılıq məsələsinə hər ikisi də əlaqə göstərməklə bir yol ilə gedirdilər. Azərbaycan təəssübü və demokratik hissiyyatı bu təşkilatların hər ikisində nəzəri cəlb edə bilmişdi. [270] Pişəvəri hesab edir ki,bu baxımdan Tudə Partiyası, ya da İXP-nin yerli təşkilatı kimi Azərbaycan Cəmiyyəti və Azərbaycan Zəhmətkeşlər Təşkilatı Azərbaycan Milli hərəkatının pionerləri adlanmağa layiq milli təşkilatlar olub. O, yazırdı: “Çünki bu təşkilatlar özləri ortadan getdikləri halda, bir qrup şəxslərin gözlərini açıb onları ictimai və siyasi məsələlər ilə məşğul olmağa cəlb etdi. Azərbaycan Cəmiyyəti “Azərbaycan” ruznaməsinin yarı Azərbaycan, yarı fars dilində nəşr etdiyinə görə onun milli xidmətin xüsusi qeyd etmək lazımdır. Azərbaycan Cəmiyyəti milli təəssübdə Hizbi-Tudədən və Zəhmətkeşlər təşkilatından çox irəli gəlmiş bir sazman (təşkilat-F.Ə.) hesab olunmalıdır”. [271]

Qeyd edək ki, Azərbaycan Cəmiyyəti və Azərbaycan Zəhmətkeşlər Təşkilatı dağıdılqıdan sonra Azərbaycanda güclənən despotizm dövründə demokratik qüvvələr Ziddi-Faşist Cəmiyyətinin adı altında fəaliyyət göstərə bilirdilər. Hizbi-Tudə və sair təşkilatların təşkil edə bilmədikləri mitinqlər, nümayişlər onu adı ilə təşkil olunurdu. Pişəvəri yazırdı: “Faşist ziddinə mübarizə aparan bir təşkilata dövlət və irticai ünsürlər curət edib, bir söz deyə bilmirdilər. Hətta mətbuat şədid surətdə qadağan edildiyi halda, təzə ərsiyə çıxıb siyasətə qoşulmuş Biriya, Mir Rəhim Vəlayi və qeyriləri azadixahların sözlərini bu cəmiyyətin tərəfindən nəşr olunan

---

[269] Pişəvəri S.C. Xatirələr. Bakı: ADF-nin nəşri, 2005, s.26-27
[270] Yenə orada, s.27
[271] Yenə orada, s.29

"Yumruq" ruznaməsi vasitəsilə intişar verirdilər. Polis Ziddi-Faşist Cəmiyyəti namına toplanan mitinqlərini dağıda bilmirdi. Hətta Ziddi-Faşist Cəmiyyətinin mərkəzi bir zaman Hizbi-Tudə tərəfindən çox geniş dairədə istifadə olunurdu".[272] Pişəvəriyə görə, Ziddi-Faşist Cəmiyyəti, Zəhmətkeşlər Təşkilatı, Azərbaycan Cəmiyyəti və başqa demokratik cəmiyyətlər bir sözlə, ADF-dən əvvəl yaranan təşkilatların hərəsi bir növ onun yaranması üçün zəmin hazırladıqları nöqteyi-nəzərdən faydalı və səmərəli işlər hesab olunmalıdır.

Azadlıq Cəbhəsi təşkilatına gəlincə, bu qurum bir neçə mətbu orqanı ("Sitarə", "İran", "Xorşidi-İran" və b.) əsasında 1943-cü ildən etibarən Tehranda ortaya çıxıb. Azərbaycanda çox da güclü dəstəyə sahib olmayan Azadlıq Cəbhəsindən hər bir qüvvə öz maraqları üçün istifadə etməyə çalışmışdır. Pişəvəri də yazır ki, ADF yaranan zaman Azadlıq Cəbhəsinin Azərbaycandan olan yerli təşkilatlarından faydalanılmışdır: "Həmin bu təşkilatın səbəbi ilə biz vaxtıkən bütün Azərbaycan şəhərlərində baş bilən adamlarla tanış ola bilmişdik. Mən özüm 1944-cü il isfənd ayında Təbriz, Xoy, Urmiyyə, Ərdəbil şəhərlərinə müsafirət edib, böyük konfranslar verdikdən sonra cəbhənin heyətini intixab etməklə, Azərbaycanın siyasət adamları ilə yaxından tanış və dost olmuşdum. Ona görə firqəmizin təşkilinə başladığımız vaxt Cəbhəi-Azadi təşkilatı bizə hazır və amadə bir vəsilə olub, hər yerdə firqənin şöbəsini onların vasitəsilə qurmağa müvəffəq ola bildik".[273]

1943-cü ilin başlanğıcında Xəlil Azərbadqan, M.Hilal Nasiri, H.Rivzan və başqaları tərəfindən Azərbaycanda "Demokratiya ocağı" adlı təşkilat da yaradılmışdı. Məşrutiyyət və muxtariyyat tərəfdarı olan "Demokratiya ocağı" 1944-cü ilin sonunda İXP Azərbaycan əyaləti təşkilatına birləşmişdi.[274]

1941-ci ilin payızından etibarən Sovet Azərbaycanından Mərkəzi Komitənin 3-cü katibi Əziz Əliyevin başçılığı ilə gələn nümayəndələr Güney Azərbaycanda bir tərəfdən marksizm-leninizm, digər tərəfdən isə milli hərəkatla bağlı təbliğatlar aparmağa başla-

---

[272] Yenə orada, s.32

[273] Yenə orada, s.49-50

[274] Rəhimli Əkrəm (Bije). 21 Azərə gedən yol. Güney Azərbaycanda milli-demokratik hərəkat (1941-1946-cı illər). Bakı, "Araz", 2015, s.29

dılar. Onların başçılığı ilə Təbrizdə "Vətən yolunda", "Qızıl əskər" kimi qəzetlər yayınlandı. 6 iyun 1945-ci il tarixində Sovetlər Birliyi Kommunist Partiyası MK-nin siyasi bürosunun Güney Azərbaycanda və İranın digər əyalətlərindəki milli hərəkatları təşkilatlandırma və dəstəkləmə ilə bağlı gizli bir sənəd qəbul etməsi, buradakı vəziyyətə xeyli dərəcədə təsir göstərdi. Çünki bu sənəddə "İran" daxilində Azərbaycana geniş milli muxtariyyat verilməsi üçün hazırlıq çalışmalarına başlanması ilə bağlı təməl prinsiplər bəlirlənmişdi.[275]

Bizcə, məhz bundan sonra SSRİ xüsusi xidmət orqanlarının yardımıyla 1941-ci ilin oktyabrında yaradılmış, xalq arasında isə Tudə kimi tanınan İran Xalq Partiyası – Hizbe Tudeyi İranın Azərbaycan əyalət təşkilatının təməlində Azərbaycan Demokrat Partiyasının/ Firəqəsinin (ADF) yaranması təsadüfi deyildi. Belə ki, İXP-nin (Tudə) rəhbərliyi şah rejiminin tərəfdarları ilə eyni cəbhədə çıxış edərək ölkədə yaşayan xalqlara muxtariyyat verilməsinin əleyhinə çıxırdılar. Buna görə də Azərbaycanda yeni bir partiyanın qurulmasına ehtiyac yaranırdı. Pişəvəri də xatirələrində yazır ki, həmin dövrdə İXP-nin (Tudə Partiyası) Azərbaycandakı əyalət komitəsi uğur qazana bilmirdi: "Azərbaycanlılar doğrudan-doğruya Tehrana, hətta onun azadixahlarına daha ürəkdən inanmadıqlarını mükərrər (təkrar) surətdə sübuta yetirmişlər. Onların arasında milli təəssüb ciddi bir şəkil aldığından istər-istəməz qeyri Azərbaycanlıya onların ürəkləri qıza bilmirdi. Onlar xaricdən gələn adamları mənimsəyə bilmirdilər, hətta Hizbi-Tudənin Təbrizə göndərdiyi azərbaycanlı təbliğatçılara belə yerli camaat biganə kimi baxırdı. Bir ilin müddətində oraya Hizbi-Tudənin mərkəzi komitəsi üç mühüm heyəti göndərdiyi halda daxili mübarizəyə xatəmə verib səlahiyyətdar əyalət komitəsi təşkil edə bilməməsinin də səbəbi budur".[276]

Mirqasım Çeşmazərə görə də, həmin tarixi şəraitdə Azərbaycanda elə bir yeni siyasi partiyanın yaranması zəruri idi ki, o partiya siyasi hərəkət xəttində və fəaliyyətində Azərbaycan xalqının milli azadlıq hərəkatı ilə "İran" xalqlarının demokratik hərəkatının sıx əlaqəsini yarada bilsin: "Elə bir siyasi partiya lazım idi ki, o partiya

[275] Həsənli Cəmil. Cənubi Azərbaycanda Sovet-Amerika-İngiltərə qarşıdurması (1941-1946). Bakı, "Azərbaycan", 2001, s.96-98
[276] Pişəvəri S.C. Xatirələr. Bakı: ADF-nin nəşri, 2005, s.24

daha geniş təbəqələri və sosial qüvvələri özünün tələb vəşüarlarında nəzərə alaraq öz rəhbərliyi altınaala bilsin. Azərbaycanda milli azadlıq hərəkatı öz məramnaməsi, siyasi hərəkət xətti; əhalinin müxtəlif sinif və təbəqələrinə yanaşmaq tərzi; təşkilat quruluşu və mübarizə formaları ilə fərqlənən yeni siyasi partiya yaranmasını zəruri etmişdi. Azərbaycanda o partiya müvəffəqiyyət qazana bilərdi ki, oAzərbaycan xalqının inqilabi ənənələrini davam etdirə bilsin. Nəhayət, Azərbaycanda elə bir yeni siyasi partiyanın yaranması zəruri olmuşdu ki, o partiya Azərbaycan xalqının inqilabi yaradıcılığından, mübarizənin müxtəlif formalarından, konkret şərait və fürsətdən vaxtında istifadə edə bilsin. Yuxarıda göstərilən mahiyyətdə yeni siyasi partiyanın yaranmasına Azərbaycanın 1941-1945-ci illərdəki siyasi, iqtisadi və sosial həyatı geniş zəmin hazırlamışdı. Bu yeni siyasi partiya Azərbaycan Demokrat Firqəsi oldu..[277]

Güneyli araşdırmaçı, milli fəal Arif Kəskin də yazır ki, 1945-ci ilin payızında Azərbaycan Demokrat Firqəsinin (ADF) qurulduğu günlərdə bütün ictimai və siyasi proseslər milli bir hərəkatın yaranışı üçün əlverişli idi: "Pişəvəri ilə Əli Şəbüstəri arasında gedən danışıqlar və yazışmalar nəticəsində Pişəvəri "Ajir" qəzetini buraxıb Tehrandan Təbrizə gəldi. Bu dövrdə Azərbaycanda Tudə Partiyasından və Azadlıq Cəbhəsindən başqa partiya yox idi. Tudə Partiyasının fəaliyyəti praktiki nəticələr vermirdi, çünki onun sinfi ideologiyası xalqın bütün təbəqələrini birləşdirə bilmirdi. Pişəvəri və Şəbüstəri milli hərəkatın təşkilatlanması zərurətini anlayaraq 12 maddəlik bir müraciətnamə hazırladılar. Həmin müraciətnamə 3 sentyabr 1945-ci ildə yayıldı. Türkcə və farsca olan müraciətnamə 48 Azərbaycan millətçisi tərəfindən imzalanmışdı. Burada İranın bütövlüyünü qorumaq şərtilə Azərbaycan xalqının mədəni muxtariyyat və özünüidarə hüququ tələb olunurdu. Müraciətnamədə əyalət və vilayət əncümənlərinin yenidən qurulması istənilir, bütün ictimai, iqtisadi və siyasi mövzulardan bəhs olunurdu. Müraciətnamə yayıldıqdan sonra Azərbaycanın bütün kənd və şəhərlərindən onu dəstəkləyən teleqramlar göndərildi. Əslində bu müraciətnamənin yayılması ilə ADP rəsmi fəaliyyətə başladı. 12 sentyabr 1945-ci ildə partiyanın konfran-

[277] Çeşmazər Mirqasım. Azərbaycan Demokrat Partiyasının yaranması və inkişafı. Bakı, "Elm", 1986, s.45-46

sı keçirildi və 11 nəfərdən ibarət qurucular komitəsi yaradıldı. Pişəvəri bu komitənin sədri, Şəbüstəri isə müavini seçildi”.[278]

1945-ci ilin oktyabrında ADP-nin qurultayı keçirildi və solçu tudəçilər də ona qoşuldular. Qurultayda ADP-nin nizamnaməsi qəbul olundu, 3 sentyabr müraciətnaməsinin müddəaları bir daha təsdiq olundu, milli muxtariyyat və Azərbaycan Türk dilinin rəsmi dil olması qərara alındı. Qurultay tərəfindən S.C.Pişəvəri ADF MK-nın sədri, M.Ə.Şəbüstəri və Sadıq Padeqan müavinləri seçildilər. ADF MK-nın İcraiyyə Heyəti S.C.Pişəvəri, M.Ə.Şəbüstəri, S.Padeqan, M.Biriya, S.Caviddən ibarət olmuşdur.[279]

Artıq Azərbaycan Milli Hərəkatının ruporu rolunu ADF oynayırdı ki, SSRİ Sovet Azərbaycanının əliylə ona nəzarət etməyə çalışırdı. Sovet Rusiyasının əsas məqsədi də ADF-ni türklük ruhundan, türk fəlsəfəsindən mümkün olduğu qədər uzaq tutmaq idi. Sovet ideoloqları bacardığı qədər milli təmələ söykənməyən azərbaycançılıq ideolojisini Azərbaycan türkçülüyü ideyasının yerinə yerləşdirməyə çalışmışdır.[280] Sovet Rusiyası ideoloqlarının ADF daxilində apardığı türklük ruhundan uzaq azərbaycançılıq ideyası onun liderlərinə, o cümlədən S.C.Pişəvəriyə, F.İbrahimiyə və başqalarına da təsirsiz ötüşməmişdir.

1945-ci ilin noyabrında Təbrizdə 150 min nəfərin imzası və 700-dən çox nümayəndənin iştirakı ilə Böyük Xalq Qurultayı (Konqresi) keçirildi. Burada Azərbaycanın müstəqilliyini təmin etmək və daxili məsələləri yoluna qoymaq üçün 39 nəfərdən ibarət Milli heyət seçildi. Milli heyətə mərkəzi hökumətlə (Tehranla) danışıqlar aparmaq və Milli Məclisə seçkilər keçirmək səlahiyyəti verildi. Qurultaydan sonra noyabrın 27-də Azərbaycanda Milli Məclisə seçkilər keçirilməyə başladı və dekabrın 1-də başa çatmış seçkilərin nəticəsi olaraq 32 seçki dairəsindən 100 millət vəkili seçildi.[281]

---

[278] Kəskin Arif. Güney Azərbaycanda Milli Hərəkatın tarixi təməlləri. // Bakı-Təbriz. Dünya Azərbaycanlılarının dərgisi. №3 (6). Bakı, “Qanun” nəşriyyatı, 2006, s.35

[279] Əhməd Vüqar. Mir Cəfər Pişəvəri: Həyatı, mühiti və yaradıcılığı. Bakı, Göytürk, 1998, s.43

[280] Qaradağlı Eldar. Azərbaycan mərkəzli türkçü düşüncə. İstanbul, ÇAV yayınları, 2012, s.244-245

[281] Əhməd Vüqar. Mir Cəfər Pişəvəri: Həyatı, mühiti və yaradıcılığı. Bakı, Göytürk, 1998, s.44-47

1945-ci il dekabrın 12-də (21 Azərdə) Azərbaycan Milli Məclisi açıldı və Mirzə Əli Şəbüstəri Məclisin sədri seçildiyi halda, S.C.Pişəvəri də Milli Hökumətin baş naziri vəzifəsini tutdu. Bununla da Azərbaycanda 11 nəfərdən ibarət Milli hökumət yaradılmış, Təbriz şəhəri şah ordusundan tamamilə azad edilmiş, Azərbaycan türkləri hakim fars şovinizminin zülmündən qurtulub siyasi hakimiyyəti ələ almışdır. Eyni zamanda, Milli hökumət dövründə Azərbaycan Türkcəsini rəsmi dövlət dili elan edilmiş, ana dilində ilk, orta və ali məktəblər (Təbriz Universiteti) açılmış, ana dilində onlarla qəzet, jurnal və ədəbi məcmuələr nəşr edilmiş, milli radio ana dilində verilişlər yayınlamış, Milli hökumətin himni təsdiq edilmiş, qiraət-xanalar, qadınlar klubu, gecə məktəbləri təsis edilmiş, yoxsul və topraqsız kəndlilərə pulsuz paylanmış, 30 minlik nizami milli fədai ordusu yaradılmışdır. Bir sözlə, 21 Azər hərəkatına böhtan yağdıranların 65 ildə görə bilmədiyini Güney Azərbaycan Milli hökuməti bir il müddətində şərəflə yerinə yetirmiş, Azərbaycan Türklərinin qəlbində silinməz izlər buraxmışdır.[282] Gülarə Yenisey yazırdı: "Pişəvəri Milli Hökumətinin XX əsr İran tarixində ən yaxşı siyasi orqanizasiyaya sahib etno-siyasi hərəkat olduğunu söyləyə bilərik". [283]

Azərbaycan Milli Hökuməti 15 maddəlik proqramda aşağıdakı müddəaları özünün ən yaxın vəzifəsi hesab etmişdir:

1. Milli Muxtariyyatı dünyaya tanıtmaq. Onun inkişafını təmin etmək üçün ciddi tədbirlər görmək. Milli dövləti demokratik əsaslar üzrə qorumaq və bu yolda qarşıya çıxan çətinlikləri aradan qaldırmaq.

2. Milli Muxtariyyatı möhkəm əsaslar üzrə qurub, xalqla yaxınlaşdırmaq məqsədilə çox tez bir zamanda vilayət əncümənlərinin seçkilərinə başlamaq və yerli idarəçiliyin nəzarətini onların ixtiyarına vermək.

3. Şəhərlərin inkişaf və abadlığı üçün tez bir zamanda şəhər bələdiyyələrinin demokratik əsaslar üzrə seçib, onların işlərini düzgün surətdə hərəkətə salmaq.

---

[282]Onullahi Seyidağa. Azərbaycan xalqının şərəf tarixi, "Dünya Azərbaycanlıları" dərgisi, 2002, I nömrə, səh. 67-71

[283]Yenisey, Gülara. İranda etnopolitik hareketler (1922-2004), İstanbul, Ötüken, 2008, s. 142.

4. Yerlərdə mütərəqqi və azadxahlardan bələdiyyə rəisləri seçib onların köməyi ilə keçmiş əsarətgətirici hərəkət və təhqiredici əməllərin qarşısını alıb, bütün ölkədə əmniyyət və asayişi təmin etmək.

5. Jandarm və polis idarələrini xain və xalqı əzib fəlakətə salan şəxslərin əlindən alıb azad və vətənpərəst adamlara tapşırmaq, onların işlərini, xalqın arzu və ehtiyaclarını təmin etmək.

6. Vergi qanunlarını nəzərdən keçirmək və maliyyə idarəsinin bütün xərclərini yoxladıqdan sonra çox tez bir zamanda milli büdcə layihəsini Milli Məclisin təsdiqinə vermək, ümumiyyətlə, maliyyə siyasətinin gəlir və çıxar əsasını ölkənin tərrəqqi və inkişafı üzərində qərarlaşdırmaq.

7. Muxtariyyatı, Milli Məclisi və Milli Dövləti qorumaq və onun gələcəyini təmin etmək üçün kəndlərdə və şəhərlərdə fədai dəstələrini bir mərkəz ətrafında təşkil edib, Milli Xalq Ordusu yaratmaq və bu ordunun müasir silahlarla təmin olunması üçün ciddi tədbirlər görmək.

8. Mədəni-maarif sahəsində dövlətin qarşısında iki böyük məsələ durur:

1) Milli dili bütün məktəblərdə rəsmi olaraq qəbul edib həyata keçirmək;

2) Savadsızlığa qarşı mübarizə aparmaqla pulsuz və icbari təhsili həyata keçirmək. Bunların hamısından əvvəl Milli hökumət ali təhsil məsələsinə xüsusi əhəmiyyət verməli, Milli Darülfünunun əsasını qoymağa çalışmalıdır.

9. Ticarət və iqtisadi sahədə milli hökumət ilk növbədə milli sənayeyə əhəmiyyət verməli, mövcud olan müəssisələri düzgün istiqamətdə inkişaf etdirməli, yeni karxanalar açmaqla ölkənin sənayeyə olan ehtiyacını təmin etməlidir. Dövlət ticarət sahəsində Azərbaycanın ticarət mərkəzi ola bilməsi üçün tədbirlər görməli və yollar axtarmalıdır.

10. Yolların təmir və abadlığı, poçt, teleqraf və telefon kimi rabitə vasitələrini genişləndirib müasir hala salınması hökumətin əsas vəzifələrindəndir.

11. Kəndli ilə ərbablar arasında olan ixtilafları aradan qaldırmaq üçün ədalətli qanun layihəsi hazırlayıb bu yolla, kəndli və ərbab məsələsini həll etməli.

12. Kəndlərdə və şəhərlərdə gündən-günə artmaqda olan işsizliyin qarşısını almaq üçün dövlət torpaqlarını tezliklə kəndlilər arasında bölməli, Azərbaycanı tərk edib xaricdə Milli Muxariyyətimiz əleyhinə təbliğat aparan torpaq sahiblərinin torpaqlarını müsadirə edib, torpaqsız kəndlilər arasında bölüşdürmək. Xalqın əksəriyyətini kəndlilər təşkil etdiyi üçün gələcəkdə kənd təsərrüfatı banklarını gücləndirmək və bunun vasitəsilə həmin kəndliləri kreditlə təmin etməklə torpaqları ədalətli surətdə onlara satmaq.

13. İşsizliklə ciddi mübarizə aparmaq üçün ciddi tədbirlər görmək, yüngül sənaye, yol işləri, ticarət və sairəni artırmaqla işsizliyə son qoymaq.

14. Fəhlə və zəhmətkeşlərin məişətini düzgün istiqamətdə inkişaf etdirmək üçün iş və əmək qanunu layihəsini hazırlayıb Milli Məclisin təsdiqinə verməli və işçilərin sığorta olunması üçün tədbirlər görülməlidir.

15. Səhiyyə işlərinə ciddi fikir verib, ilk növbədə ümumi keçici xəstəliklərin qarşısını almalı, xüsusilə kəndlərə və aşağı təbəqələrə həkim təyin etmək, onlara dərman verməklə xalqın sağlamlığı təmin edilməlidir.[284]

28 yanvar 1946-cı ildə Azərbaycan Milli hökumətinin başçısı S.C.Pişəvəri BMT Baş Asambleyasına müraciət etmiş və Azərbaycan xalqı adından Azərbaycan Milli hökumətinin tanınmasını xahiş etmişdir. Müraciətdə deyilir: "Dünyanın ən qədim xalqlarından olan Azərbaycan xalqı özünün zəngin milli tarixinə malikdir. Əsrlərin keşməkeşində o, öz milli dilini, adət və ənənələrini qoruyub saxlaya bilmişdir. İran zülmkarları Azərbaycanı öz hakimiyyətləri altına alaraq onun sərvətini amansızcasına taladılar. Nəticədə Azərbaycanın çiçəklənən kənd və şəhərləri dağılmaq həddinə gəlib çatdı. Şovinist... İran hökmdarları Azərbaycanlıların mövcudluğunu tamamilə inkar etməyə cəhd göstərir, onların dilini əlindən almaqdan, hər cür təhqiredici əməllərdən çəkinmirdi.... Tehran

---

[284] Qasımlı Aydın. Türklər. Bakı, "E.L." Nəşriyyat və Poliqrafiya şirkəti MMC, 2012, s.69-71

hökumətinin müqavimətinə baxmayaraq, bu ilin 21 Azərində Azərbaycan xalqının əsrlərdən bəri apardığı azadlıq mübarizəsi qələbə ilə başa çatdı. Atlantik Xartiyasına uyğun olaraq Milli Məclisin, Azərbaycan Milli hökumətinin qurulması ilə nəticələndi.

Azərbaycanda demokratik əsaslara dayanan bir Milli hökumət qurulub və öz fəaliyyəti barədə bütün dünyaya məlumat yayıb. 5 milyonluq Azərbaycan xalqı milli dilinin, tarixinin, mədəniyyətinin köməyi ilə özünün müasir bir xalq olduğunu dərk etdi və bir də heç vaxt fars zülmünün altında inləməyə, fars dilinin İrandakı başqa xalqların dilləri üzərində ağalıqlarına icazə verməyəcəkdir. Bu xalq bir nəfər kimi öz həyatını milli azadlığına və dövlətinə qurban verməyə hazırdı. Yeni, demokratik Azərbaycan hökuməti qısa vaxt ərzində ictimai, iqtisadi, mədəni sahələrdə ciddi dəyişmələr edə bilib, daxili təhlükəlsizlik tam bərqərar olunub. Yeni Milli hökumətin fəaliyyəti sayəsində əsrlərlə istismar olunan xalq adi insani şəraitdə yaşamağa başlayıb. Bununla da o, öz milli dövlətini qurmağa, onu idarə etməyə qadir olduğunu göstərir. Azərbaycan xalqının iradəsi ilə... qurulan Azərbaycan Milli hökuməti artıq danılmaz faktdır.

BMT Baş Asambleyasına müraciəti ilə Azərbaycan xalqı xahiş edir ki, Azərbaycan Milli hökumətinin mövcudluğu faktı tanınsın və kənardan müdaxilə olmadan ona öz taleyinin özü tərəfindən müəyyənləşdirilməsinə təminat verilsin". [285] Beləliklə, 1946-cı ildə "Azərbaycan məsələsi" bir neçə dəfə yenicə yaranmış Birləşmiş Millətlər Təşkilatında müzakirəyə çıxarılsa da, ancaq ABŞ və İngiltərənin səyi və "İran" şahına köməyi, xüsusilə şəxsən Stalinin açıq xəyanəti nəticəsində onun müstəqilliyinin tanınması baş tutmamışdı.

Üstəlik, SSRİ-nin təzyiqi ilə Milli Hökumətin "İran" adlanan mərkəzi hökumətlə əvvəl Tehranda danışıqlar aparması, sonra isə 13 iyun 1946-cı ildə Təbrizdə 15 maddədən ibarət müqavilə imzalaması və bu müqaviləyə əsasən Zəncanın tərkisilah edilərək şah hərbi qüvvələrinin ixtiyarına verilməsi vəziyyəti dəyişdi.[286] Çox keçmədən Tehran hökuməti 1946-ci ilin yayında Azərbaycan Milli hökuməti ilə

---

[285] Şövkət Tağıyeva, Əkrəm Rəhimli, Səməd Bayramzadə, Güney Azərbaycan (Məlumat kitabı). Bakı Orxan, 2000, səh. 236-237

[286] Əhməd Vüqar. Mir Cəfər Pişəvəri: Həyatı, mühiti və yaradıcılığı. Bakı, Göytürk, 1998, s.59

bağladığı sazişi xaincəsinə pozaraq ABŞ-dan aldığı böyük hərbi texnika və 50 minlik qoşunla Azərbaycan üzərinə hücuma keçməyə başlamışdır. Vüqar Əhməd yazır ki, Pişəvəri belə bir vaxtda "İran" qüvvələrinə təslim olmaqdan imtina etdi, lakin doktor Salamulla Cavid və Mirzə Əli Şəbüstəri Tehrana göndərdikləri teleqramda təslim olduqlarını bildirdilər. Pişəvəri və 8 mindən çox azərbaycanlı demokrat Təbrizi tərk edərək Quzey Azərbaycana üz tutmalı oldu.[287]

Bununla da, xarici güclərin həryönlü dəstəyi ilə 50 bombardımançı təyyarə, 65 zirehli tank, 174 top, 3 min pulemyot, xeyli miqdarda qumbara və mina kimi dövrün ən müasir silahları ilə təchiz edilmiş 50 min nəfərlik İran Pəhləvi ordusu sanki böyük bir dövlətlə müharibə edirmiş kimi 4 dekabr 1946-cı ildə Azərbaycana hücum edərək Güney Azərbaycanı qan dənizində boğdu. Bu hücum nəticəsində 25 mindən çox Azərbaycan türkü edam edilmiş, 100 mini sürgünə göndərilmiş, 20 mini xarici ölkələrə mühacirət etmək məcburiyyətində qalmışdılar.[288]

Yeri gəlmişkən, həmin dövrdə Azərbaycan Milli Hökumətinin lideri S.C.Pişəvəri və Azərbaycan SSR-nin başçısı Mircəfər Bağırov iki Azərbaycanın birləşməsi məsələsini də müzakirə ediblər. Onlar bu məsələnin həlli üçün Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Bürosunu çağırıb Azərbaycanın birləşdirilməsi haqqında qərar qəbul ediblər. Hətta, Bağırov Sovet İttifaqı Kommunist partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosundan xahiş edib ki, Azərbaycanın birləşməsi haqqında qərar qəbul etsin. Lakin Sovetlər Birliyinin başçısı Stalin buna razı olmayıb və Azərbaycandan təqdim olunan sənədi siyasi Büroda müzakirəyə çıxarmayıb. Bununla da Azərbaycanın birləşməsi məsələsi ikinci dəfə baş tutmayıb. Eyni zamanda, M.C.Bağırov hesab edirmiş ki, əgər Azərbaycan Milli hökuməti "İran"la əlaqəni vaxtında birdəfəlik kəsib Sovet Azərbaycanı ilə birləşdiyini elan etmiş olsaydı, o zaman məğlub olmazdı. Pişəvəri isə əksinə hesab edirmiş ki, Milli hökumətin

[287] Yenə orada, s.61
[288] Qasımlı A. Güney Azərbaycan türkləri son 100 ildə. Bakı, Adiloğlu, 2012, s.155

süqutunda onların Sovet Azərbaycanı, o cümlədən Sovetlər Birliyi ilə münasibətlər qurması mühüm rol oynamışdır. [289]

Ümumilikdə, Azərbaycan Milli Hökumətin ömürü bir il sürüb, ABŞ-ın dəstəyi ilə Pəhləvilər tərəfindən məhv edilsə də, bütün hallarda onun varlığı Azərbaycan türklərinin qəsb edilmiş haqqının geri qaytarılması yolunda çox mühüm bir mərhələ idi.

**2-ci Dünya müharibəsindən sonra "İran" və Güney Azərbaycan.** Milli Hökumətin süqutundan sonra Məhəmməd Rza şah xarici qüvvələrin məsləhəti və köməyi ilə ölkədə və xüsusilə Güney Azərbaycanda demokratların fəaliyyətinin qarşısını almaq məqsədilə xüsusi proqram hazırlayıb təhlükəsizlik şurasında təsdiq etdirmiş, xüsusi komissiyalar yaradılmışdır. Belə ki, şah hökuməti ABŞ Xarici İşlər Nazirliyinin məsləhəti ilə xüsusi "Proqram" hazırlamış, bu proqramı şah tərəfindən təşkil edilən Təhlükəsizlik Şurasında təsdiq etdirmiş və bu proqramda nəzərdə tutulan məsələləri həyata keçirmək üçün xüsusi komissiyalar yaratmışdı. Bu proqramda nəzərdə tutulan əsas məsələlərdən biri də demokratik və milli qüvvələrin fəaliyyətinin qarşısını almaq idi. "Bu məqsədlə rejim tərəfindən Gilan, Mazandaran, Xorasan və Azərbaycan ostanlarından 99,99 faizi Azərbaycan Türklərindən ibarət 6 min, Tehrandan 3 min demokrat həbs edilərək ölkənin cənub bölgələrinə sürgün edilmişdi ki, bunların arasında 900 nəfər universitet müəllimi və dövlət məmurları var idi. Şah rejimi tərəfindən təkcə 1947-ci ilin sonuna kimi Güney Azərbaycanda 20 minə yaxın adam dövlət üçün təhlükəli hesab edilərək həbs olunmuş və icbari iş cəzasına məhkum edilərək ölkənin cənubuna sürgünə göndərilmişdi. Məmməd Rza və onun başçılıq etdiyi şovinist rejim Azərbaycana məğlub bir ölkə kimi baxmış, Azərbaycan Türkləri ilə məğlub bir millət kimi rəftar etmiş, Pişəvəri tərəfdarlarının bir qismini güllələtmiş, bir qismini dar ağacından asdırmış, bir qismini ev-eşiyindən, var dövlətindən məhrum etmiş, bir qismini ölkədən didərgin salmış, bir qismini də sürgünə göndərmişdi".[290]

[289] Mədətli Eynulla. İranda Azərbaycan tarixi məsələləri. Bakı, "Turxan NPB", 2020, s.297-298

[290] Qasımlı Aydın. Güney Azərbaycan türkləri son 100 ildə. Bakı, Adiloğlu, 2012, s.157-158

Qeyd edək ki, "21 Azər" hərəkatından "ağ inqilaba" qədər Güney Azərbaycanda baş verən sosial-siyasi və iqtisadi məsələləri Səməd Bayramzadə "Güney Azərbaycan: İranda "21 azər"dən "ağ inqilab"a qədər" kitabında geniş şəkildə şərh etmişdir. [291] **S.**Bayramzadə bu kitabında demoqrafiya, iqtisadi məsələləri ilə yanaşı, İran Pəhləvilər rejiminin 1947-1962-ci illər arasında Güney Azərbaycanda həyata keçirdiyi mədəni və sosial-siyasi təzyiqləri, assimilyasiya prosesini və buna qarşı mübarizə aparan Azərbaycan xalqının mübarizəsini hətərəfli şəkildə izah etməyə çalışmışdır. [292]

2-ci Dünya müharibəsindən sonra siyasətin sərbəstləşməsi və 1947-ci ildə keçirilən seçkilərdə ortaya çıxan Məclisin quruluşu İngiltərə başda olmaqla böyük dövlətlərin İran adlanan ölkə üzərindəki siyasi və iqtisadi hegemonluğuna qarşı mübarizənin mərkəzi oldu. Belə bir şəraitdə 1949-cu ildə Azərbaycan Türk mənşəli Məhəmməd Müsəddiq Milli Cəbhə adlanan siyasi təşkilat yaratmışdır. Müsəddiq hesab edirdi ki, bu günə qədər İran adlanan ölkənin əsas problemi siyasi cəhətdən təşkilatlana bilməməsi olmuşdur. bu anlamda Milli Cəbhə 4 məsələyə xüsusi diqqət yetirirdi: 1) seçki qanunlarını düzəltmək, 2) mətbuat qanunlarında təftiş yapmaq, 3) iqtidarı düzəltmək, 4) Konstitusiyanın 48-ci maddəsini yenidən izah etmək (demokratiya və məşrutiyyət).

Müsəddiq 1950-ci ildə keçirlən parlament seçkiləri zamanı isə üç önəmli məsələnin üzərində dayanmışdır: 1) İran ancaq əski yanlış pozitiv balanslaşdırma siyasətini uyğun tərəfsiz politkayla (öz dəyişiylə neqativ balanslaşdırma) dəyişdirirsə xarici siyasətində milli istiqrarını qoruya bilir, 2) Şahın demokratiya idaərəçiliyinə hörmət göstərib ordunun yönətimini öz əlindən buraxması gərəkdir, 3) Seçki düzəninin dəyişdirilməsi gərəkliliyi, yəni xalqın nəzarətində və dürüst şəkildə yapılması. Deməli, Milli Cəbhənin ideolojisi və milli aydın qrupların əsas məqsədi Pəhləvi istibdadına qarşı mücadilə etmək və Məşrutiyyət anayasası çərçivəsində demokratiya təməlinə dayanırdı. Məhz bunun sayəsində də, parlament seçkilərində Müsəddiqin lideri olduğu Milli Cəbhə ciddi uğur qazandı. Bu dövrdə

---

[291] Bayramzadə Səməd. Güney Azərbaycan: İranda "21 azər"dən "ağ inqilab"a qədər. Bakı, Tərəqqi, 2016 (rus dilində)
[292] Yenə orada, s.101-267

İngiltərə ilə görüşlərdən nəticə çıxmadığından, İran adlanan ölkənin parlamentin Neft Məclis komissiyası 25 noyabr 1950-ci ildə ingilislərlə görüşmələrdən çəkildi. Bu hadisələrdən sonra Milli Cəbhə lideri M.Müsəddiq 19 fevral 1951-ci ildə Neft Məclis komissiyasının bəzi millət vəkilləri ilə İran neftinin milliləşdirilməsi üçün məsləhətləşdi. İran neftini milliləşdirən qərar 1951-ci ilin martında parlamentdə qəbul edilib. Beləliklə, İngiltərənin İran nefti üzərindəki imtiyazları ləğv olunub. Məclisdə neft sənayəsinin milliləşdirilməsi qərarının qəbulunda iştirak edən Müsəddiq 1951-ci ilin aprelində İranın baş naziri vəzifəsinə seçilib.

Neftin milliləşdirilməsi Müsəddiq ilə İngiltərə hökumətini qarşı-qarşıya gətirdi, çünki həmin dövrdə İran nefti ingilislər üçün həyati önəm daşıyırdı. İrandakı neft sahələrini itirmək istəməyən İngiltərə bu məsələni Lahey Ədalət Divanına qədər daşıdı. Eyni zamanda İrana bir heyət göndərərək milliləşdirmə qərarını tanıyacaqlarını ancaq bunun 100-də 50 hissəsi və "Anqola-İranian Oil Company" damı altında olmasını təklif etdi. Ancaq bu təklif Müsəddiq tərəfindən rədd edildi. Buna görə də İngiltərə İranı iqtisadi baxımdan zor vəziyyətdə qoymaq üçün beynəlxalq embarqo çağırışı etdi. İngilis donanmasına aid gəmilər Bəsrə körfəzinə keçdi.

İngiltərənin bütün cəhdlərinə baxmayaraq 1952-ci ildə Laheydəki Beynəlxalq Ədalət Divanı neft davasında verdiyi vəzifəsizlik qərarı İranın qalibiyyəti mənasına gəlirdi. Bu qərardan sonra ilk ölkə ilə münasibətləri çıxılmaz nöqtəyə gəldi və 1952-ci il noyabrda Müsəddiqin İngiltərə səfirliyi ilə əlaqələri tamamən qopdu. Müsəddiq bir tərəfdən nefti milliləşdirərkən digər tərəfdən də ölkədəki iqtisadi problemləri həll etmək üçün cəhd edirdi. Bu məqsədlə böyük torpaq sahiblərinin əlindəki torpaqların bir qismini torpaqsız kəndlilərə paylamaq istəyirdi. Ancaq Müsəddiqin bu cəhdləri onu böyük sahibəri ilə qarşı-qarşıya gətirdi. Neftin milliləşdirilməsi vaxtı Musəddiqi dəstəkləyən bəzi din adamları ilə əlaqələr pozulurdu. Müsəddiqə düşmən olan general Fəzlullah Zahidi ilə hərbi gücü əlində cəmləyən Raşidiyan qardaşların birlikdə hərəkət etməsi Müsəddiq üçün çətin bir dönəmi başladırdı.

Bu vaxt İngiltərə itirdiklərini geri almaq məqsədi ilə ABŞ ilə Müsəddiqi devirmək planlarını qururdu. 1953-cü il martda TP-

Ajax,“Operasyon Ajax” deyilən bir plan CİA və İngiltərə kəşfiyyat servisi M16 tərəfindən tətbiq edilməli idi. Planın məqsədi Müsəddiqi xalqı ayağa qaldırmaqla vəzifədən əl çəkməyə məcbur etmək idi. Amerika və İngilis kəşfiyyatı Müsəddiq hoküməti ilə düşmən olan qruplarla yaxınlaşmağa başladı. Milyonlarla dollar rüşvətin dağıdıldığı bu işlərdən sonra bu qruplar idarəetmədən razı olmayan xalqı ayağa qaldırdı və ölkədə asayişi pozdu. Bu qarşıdurmalarda yüzlərlə insan həyatını itirdi.

Məhəmməd Rza da Müsəddiqi vəzifədən uzaqlaşdırıb onun yerinə general Fəzlullah Zahidi gətirdi. Bu səbəbdən də Müsəddiqin tərəfdarları da küçələrə axışdı və şah əvvəlcə İraqa, sonra da Romaya qaçdı. Müsəddiqi devirmək üçün edilən bu həmlə uğursuz oldu. Lakin bir neçə ay sonra generallar ölkədəki qarışıqlığa son vermək iddiası ilə Müsəddiqi, nazirlər və tərəfdarlarını həbs etdi ki, şah da üç gün sonra İrana qayıtdı. İngiltərə və ABŞ demokratik seçkilərlə iqtidara gələn və xalqın istəyi ilə nefti milliləşdirən, həyata keçirməyə çalışdığı islahatlarla democratiyanın qarşısını açmağa çalışan Müsəddiq hökumətini devirdilər. Beləliklə, 1953-ci ildə ABŞ və Böyük Britaniya xüsusi xidmətlərinin səyi ilə Müsəddiq hakimiyyətdən uzaqlaşdırıldı.

Məhəmməd Rza şahın qudası general Fəzlullah Zahidinin başçılığı ilə gerçəkləşdirilən 1953-cü il hökumət çevrilişindən sonra Müsəddiq hökumətini müdafiə edən Güney Azərbaycanda hərbi vəziyyət yenidən bərpa edilmiş, Azərbaycan Demokrat Firqəsi və İran Xalq Partiyası üzvləri, liberal düşüncəli zabitlər təqib olunub həbs edilmiş, bir çoxu hərbi məhkəmənin hökmü ilə güllələnmişdilər. Mərkəzi hökumət və şahın ABŞ-a yaxınlaşması ilə İran 24 fevral 1955-ci ildə “Bağdad paktı” na daxil olmuş, 1957–ci ildə irticaçı general Teymur Bəxtiyarinin rəhbərliyi altında gizli polis orqanı olan SAVAK adlı təşkilat yaradılmışdı. Bununla da, İran adlanan ölkədəki demokratik qüvvələr qeyri-leqal şəraitdə mübarizəni davam etdirmiş, yalnız 1960-cı ildə yenidən təşkilatlana bilmişlər.

Tarixşünaslıqda İkinci Milli Cəbhə adlandırılan təşkilatın rəhbərliyində artıq Mehdi Bazərgan əsas yer tuturdu. Ondan əlavə Şapur Bəxtiyar, Kərim Səncabi, Dariuş Forouhar, Qulamhüseyn Sadiqi, Allahyar Saleh və digər liberallar İkinci Milli Cəbhənin

liderləri idilər. Lakin daxili fikir ayrılıqları səbəbindən Mehdi Bazərgan bir il sonra Milli Cəbhəni tərk etdi. Bazərgan 1961-ci ildə Ayətullah Mahmud Taleqani ilə birlikdə İran Azadlıq Hərəkatı adlı təşkilat yaratdı.[293] Liberal, dünyəvi Milli Cəbhədən fərqli olaraq İAH demokratik, lakin islam qaydalarının əhəmiyyətli rol oynayacağı cəmiyyətin qurulmasını hədəfləyirdi. Taleqani də Bazərgan kimi islamlıq və demokratiyanın bütünlüyündən çıxış edirdi. Tanınmış fəlsəfəçi alim Həsən Hüseynova görə Taleqaninin sosial fəlsəfəsində cihad formalı dini-siyasi mübarizə mühüm yer tutmuşdur.[294]

Mərkəzi hökumətin daxili və xarici siyasətinə qarşı Azərbaycanda etirazlar getdikcə gücləndiyindən Məhəmmədrza şah 15 iyun 1961-ci ildə Təbrizə gəlmiş və burada əhalinin şikayətlərinə baxmaq üçün xüsusi komissiya yaratmışdı. Yaranmış təhlükənin qarşısını almaq üçün "yuxarıdan" islahatlar həyata keçirməyə başlanmış və bu məqsədlə ABŞ-ın da məsləhətləri ilə "Ağ inqilab" adlandırılan islahatlar proqramı həyata keçirilməyə başlanmışdı. 1962-ci ildən 1978-ci ilə qədər mərhələlərlə həyata keçirilən "Ağ inqilab" proqramı nəticəsində Güney Azərbaycanda bəzi islahatlar həyata keçirilmiş, xüsusilə savadsızlığın ləğvi həyata keçirilməyə başlamış, 1966- cı ildə Urmiyada Kənd Təsərrüfatı, 1974-cü ildə Zəncanda Əkinçilik və Heyvandarlıq İnstitutları açılmış, 27 kino–teatr, 5 muzey, 47 kitabxana fəaliyyət göstərmiş, Təbriz və Urmiyada televiziya stansiyaları tikilmiş, Təbriz, Ərdəbil və Urmiya şəhərlərində fars dilində 7 həftəlik, bir gündəlik qəzet çıxmışdı.[295]

Bütün bunlara baxmayaraq, Güney Azərbaycanda polis və təhlükəsizlik orqanlarının fəaliyyəti daha da genişləndirilmiş, hərbi qüvvələrin silahlı dəstələri "gecə ovuna" çaxaraq yüzlərlə insanı həbs etmiş, terror üsullarına əl ataraq neçə-neçə Azərbaycan ziyalısını məhv etmişdilər.

Məsələn, Məhəmmədrza Pəhləvi dövründə də əsas istiqamətlərdən biri Ə.Kəsrəvinin 1920-ci illərin birinci yarısında irəli sürdüyü "Azəri dili" nəzəriyyəsini daha geniş şəkildə

[293] Hüseynov Hüseyn. Seyid Mahmud Taleqaninin dini-siyasi təlimi və sosial fəlsəfəsi. Bakı, Təknur, 2006, s.24

[294] Yenə orada, s.255-256

[295] Qasımlı Aydın. Güney Azərbaycan türkləri son 100 ildə. Bakı, Adiloğlu, 2012, s.52-53

əsaslandırmaqdan, güney Azərbaycanda fars dilinin mövqeyini, onun Azərbaycanda yaranan ədəbiyyatın əsas dili olduğunu hərtərfli əks etdirməkdən, bununla da Azərbaycan Türk dilinin rolunu heçə endirməkdən və Türk dili uğrunda mübarizənin mənasızlığını sübut etməyə çalışmaqdan ibarət idi. Vidadi Mustafayev hesab edir ki, bu yöndə fəaliyyət göstərən dörd müəllifin rolunu ayrıca qeyd etməık lazımdır: "Bunlardan ikisi – Mənuçehr Mürtəzəvi və Əziz Dövlətabadi azarbaycanlı idi və birincisi, "Azəri dili" nəzəriyyəsini geniş şəkildə əsaslandırmaqla, o birisi Azərbaycanda ədəbiyyatın fars dilində yaradıldığını sübut etmək məsələsi ilə məşğul idi". [296]

Ümumiyyətlə, 1960-1970-ci illərdə də rəsmi İran tarixçiliyi Azərbaycan xalqını və dilini (Türk və Türk dili) təhrif etməkdə, Ə.Kəsrəvidən qalan "Azəri nəzəriyyəsi"ni təkrarlamaqdaydı. Bu qeyri-elmi nəzəriyyə öncəki illərdə olduğu kimi M.Mürtəzəvi, Rzazadə Şəfəq, Əbdüləli Karəng, S.Şüari, Yəhya Zöka, Şəfi Cavadi və başqalara tərəfindən davam etdirilmişdir.

Eyni zamanda, Pəhləvilər dövründə Azərbaycan türklərinə aid milli coğrafi adların, toponimlərin farslaşdırılmasına çalışıldı. Qalibə Hacıyeva (Gültəkin) yazır: "Toponimik tədqiqatlar nəticəsində əldə edilmiş faktlardan aydın olur ki, Pəhləvi sülaləsinin həyata keçirdiyi bu şovinist siyasət dil, tarix, mədəniyyət və başqa sahələrdə olduğu kimi, Güney Azərbaycanda yaşayan Azərbaycan türklərinin dilində, eləcə də toponimiyasında da öz böyük təsirini göstərmiş və göstərməkdədir". [297] Q.Hacıyeva (Gültəkin) bu və ya digər məsələləri "Cənubi Azərbaycan toponimləri" kitabında geniş şəkildə tədqiq etmiş, qədim Türk toponimləri ilə bağlı bir sıra maraqlı mülahizələr irəli sürmüş xüsusilə də, Oğuz boyları adlarının hər birini ayrı-ayrılıqda izah etmişdir. [298]

Beləliklə, 1950-1970-ci illərdə çox zor şərtlər altında da olsa, Azərbaycan xalqı arasında milli-demokratik ruhlu yeni bir ziyalı

---

[296] Mustafayev Vidadi. 1958-1978-ci illərdə İran elmi fikrində Azərbaycan dili məsələsi. // Bakı-Təbriz. Dünya Azərbaycanlılarının dərgisi. №3 (6). Bakı, "Qanun" nəşriyyatı, 2006, s.45

[297] Gültəkin Qalibə. Azərbaycanın güneyində farslaşdırılmış qədim Türk toponimləri // Güney Azərbaycan: Tarixi, siyasi və kulturoloji müstəvidə (Məqalələr toplusu). Bakı, Azərnəşr, 2010, s.158

[298] Hacıyeva Qalibə. Cənubi Azərbaycan toponimləri. Bakı, Elm, 2008, s.84-100

nəsli yetişdi. Məsələn, Səməd Behrəngi, Məmmədhüseyn Şəhriyar, Səhənd, Həkimə Billuri, Həbib Sahir, Həmid Nitqi, Əli Təbrizli, Zehtabi və başqaları milli-demokrtatik ruhun daşıyıcıları kimi Azərbaycan mədəniyyət tarixində mühüm yer tutdular.

Bizcə, Azərbaycan Milli hökumətinin qurulması ərəfəsində və Milli Hökumət dövründə mədəniyyət sahəsində atılan addımlar misilsiz bir sərvət olmuşdur. Azərbaycan türkcəsində nəşr olunan qəzet və jurnallarla yanaşı, yeni kitabların işıq üzü görməsi, təhsilin Azərbaycan türkcəsində həyata keçirilməsi bunun ən bariz nümunələridir. Doğrudur, irançı Pəhləvilər rejimi ABŞ-ın hərbi dəstəyi ilə milli mədəniyyətmizi məhv etmək üçün bütün yollara əl atdı. Ancaq Milli hökumət dövrünə ortaya qoyulan əmək, düşmənlərin bütün represiyya əməllərinə baxmayaraq sonralar da öz bəhrəsini verməyə davam etdi. Belə ki, Milli hökumətin iradəsiylə gerçəkləşmiş mədəniyyət hadisələri milli ruhlu yeni bir nəslin formalaşmasına böyük təkan vermiş oldu.

Hər halda Milli Hökumətin birillik varlığı o qədər möhtəşəm olub ki, Pəhləvilər tərəfindən on minlərlə soydaşlarımızın ödürülməsi, yurd-yuvalarından sürgün edilməsi belə onun varlığını tarix səhnəsindən silə bilmədi və bilməyəcək də. Tam əksinə hesab edirik ki, məhz Milli hökumətin apardığı milli-demokratik siyasət nəticəsində Pəhləvilər İkinci Dünya müharibəsindən sonra nə qədər toparlanmağa çalışsa da bütün əməkləri nəticəsiz qaldı, hətta, Məhəmmədrzanın "Ağ inqilabı" belə onların çürük, faşist ideologiyasını xilas edə bilmədi.

Bütün bunlarla yanaşı, onu da etiraf etməliyik ki, Pəhləvilər rejiminin var olduğu müddətdə Türklük və Güney Azərbaycan təxminən yarım əsr ərzində əsasən dramatik, facəvi bir dövr yaşadı. Prof. Nəsib Nəsibli yazır: "Millətləşmə prosesinin tələblərinə etina göstərməyən və təşəbbüsü fars etnosuna buraxmış olan Türklük, bu yanlışlığın bəlasını çox ödəmək məcbutiyyətində qaldı. Tarixində ilk dəfə məzlum millət durumuna düşdü. İrçqi Pəhləvi rejimi Türklüyün varlığını rədd etdi, onunla münasibətlərində qatı bir assimilyasiya siyasəti həyata keçirdi. Türklük, İranın bütünlüyü, Pəhləvi

hakimiyyəti üçün əsil təhlükə sayıldı”.[299]

İkinci Dünya müharibəsindən sonrakı mərhələdə, xüsusilə də 1950-ci illərdə Azərbaycan Demokrat Firqəsi (ADF) özünü toparlamağa çalışdı. Səməd Bayramzadə yazır ki, Azərbaycan milli-demokratik hərəkatının məğlubiyyətindən sonra ADF mühacirət etməyə məcbur oldu, partiyanın siyasi fəaliyyət tarixində yeni, ikinci mərhələ başlandı. O, yazır: “Həmin mərhələnin başlanğıcında Cənubi Azərbaycanın siyasi həyatında müxtəlif mütərəqqi cavanlar təşkilatları fəaliyyətə başladı. Lakin İran irticası tərəfindən bu ərazidə terror rejimi yaradıldığından yerlərdə ADF təşkilatlarını bərpa etmək və Azərbaycanın, eləcə də İranın bütün demokratik qüvvələri ilə əlaqə saxlaya biləcək mərkəzi idarə aparatı yaratmaq mümkün olmadı. Belə bir vəzifəni 1948-1953-cü illərdə İranın görkəmli ictimai-siyasi Salamulla Cavidin rəhbərliyi ilə Tehranda təşkil edilmiş və fəaliyyət göstərmiş Azərbaycan Demokrat Partiyası Möərkəzi Bürosu (ADP MB) öz üzərinə götürdü. ADF MB-nin fəaliyyət proqramına təşkilati işlər, qeyri-leqal şəraitdə qəzetlərin çapı, Azərbaycan cavanlar və qadınlar cəmiyyətlərinin təşkili, ADF və İXP Mərkəzi Komitələri (MK-ları) ilə rabitə yaradılması kimi məsələlər daxil idi”.[300]

Səməd Bayramzadəyə görə, 1950-ci illərdə ADP MB özünün mətbu orqanlarında ADF mövqeyindən və onun şüarları ilə çıxış etmiş, onun proqram və nizamanməsini bu çıxışlarda əsas götürmüşdür. S.Bayramzadə daha sonra yazır: “ADF-nin fəhlə partiyası olması mövqeyindən çıxış edən İXP MK-sı da 1952-ci ildən başlayaraq İranda vahid fəhlə partiyasının yaradılması uğrunda mübarizəyə başlamış və göstərmişdir ki, bir ölkədə bir neçə müstəqil fəhlə partiyasının fəaliyyəti qələbəni təmin edə biləcək birliyi nəinki pozur, hətta onun parçalanması üçün şərait yaradır və mövqelərini zəiflədir. ADF rəhbərliyi birliyin yaradılması zərurətini qəbul etməklə üç partiyanın (Kürdüstan Demokrat Partiyası, ADF və İXP) MK nümayəndələrindən ibarət “Vahid hərəkat komitəsi” və ya

---

[299] Nesibli, Nesib. Azerbaycan tarihi: Millet-Devlet-Siyaset. Ankara, Altınordu yayınları, 2019, s.572

[300] Bayramzadə Səməd. ADF-nin yaranması və fəaliyyəti barədə bəzi mülahizələr// “21 Azər-70” mövzusunda Elmi Konfransın materialları. Bakı, “Araz”, 2015, s.165

"Əlaqə bürocu" adı altında bir mərkəzin yaradılmasını təklif edirdi. 8 il müddətində (1952-1960-cı illər) bu bəhanə zəminində ADF və İXP rəhbərləri arasında ideoloji və taktiki mübarizə getmiş və hər tərəf öz mövqeyinin düzgünlüyünü müdafiə etməyə çalışmış və nəticədə o dövrkü Sov.İKP rəhbərliyinin məsləhətini əldə rəhbər tutan "demokratlar" və "tudəçilər" İXP-nin qələbəsini təmin etmişlər".[301]

Bununla da, 1960-cı ilin avqustunda Sovetlər Birliyinin təzyiqi nəticəsində ADF yenidən İXP-yə (Tudəyə) birləşdirilmiş, o, formal şəkildə öz adını və Mərkəzi Komitəsini qoruya bilmişdi. Bütün hallarda ADF-nin İXP-yə birlədirilməsi Güney Azərbaycan milli hərəkatına böyük zərbə olmuşdu. S.Bayramzadə yazır: "Tarixi təcrübə göstərdi ki, İXP və ADF-nin birləşməsi İran xalqlarının demokratik hərəkatına müəyyən zərbələr vurdu: 1) hər iki partiya 8 il müddətində demokratik qüvvələrin rejimə, terrora, zorakılığa və imperializmin ölkədəki təcavüzkar siyasətinə qarşı mübarizəsinə rəhbərlik etməsi əvəzinə öz enirjilərini aralarındakı münasibətləri aydınlaşdırmağa sərf etmişlər; 2) İXP MK və ADF MK üzvləri arasındakı ziddiyyətlər milli çəkişmə xarakteri aldı. Belə çıxdı ki, ADF azərbaycanlı və İXP isə fars millətləri nümayəndələrinin mənafelərini təmsil edir. Son nəticədə müxtəlif millətlərdən olan xalq kütlələri içərisində də partiyanın nüfuzu aşağı düşməklə ona qarşı ögey münasibət formalaşırdı; 3) cəmiyyətin müəyyən qüvvələri (əsasən orta təbəqələr) belə bir partiyanın arxasınca getməkdən imtina etdilər və onun şah rejimi üzərində qələbəsinə inamı itirdilər".[302]

ADF yalnız "İslam iniqlabı" ərəfəsində və inqilab dövründə yenidən fəallaşmış, İXP-dən fərqli olaraq Azərbaycan milli hərəkatını və Ayətullah Şəriətmədarinin dəsti-xəttini dəstəkləmişdir. Ancaq İran İslam rejimi öz yerini möhkəmlətdikdən sonra onun fəaliyyətini tamamilə qadağan etmişdir. Bunun da nəticəsində ADF-nin üzvlərinin bir çoxu Avropaya, ABŞ-a, Türkiyəyə, Quzey Azərbaycana və digər ölkələrə mühacirət etmişlər.

Ümumiyyətlə, 1960-cı illərdən sonra Azərbaycan Demokrat Firqəsi daha çox Quzey Azərbaycanda və mühacirətdə fəaliyyət göstərməyə məcbur olmuşdur. 1962-1966-cı illərdə ADF-in Bakı

[301] Yenə orada, s.167
[302] Yenə orada, s.168

Komitəsinin birinci katibi Söhrab Tahir olmuşdur. 1979-2014-cü illərdə isə ADF-nin sədri Əmirəli Lahrudi olub. Quzey Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ADF-nin fəaliyyətində canlanma olmuşdur. Uzun müddət Əmrəli Lahrudinin sədrlik (1979-2014) etdiyi ADF hər zaman Azərbaycan Milli hərəkatının istiqlalı ideyasına sadiq qalmışdı.

Ə.Lahrudidən sonra ADF MK-nin sədri Valeh Quluzadə, daha sonra da Adilə Çernikbulənd olmuş, ancaq 2019-cu ilin noyabrında firqə daxilində müəyyən anlaşılmazlıqdan sonra ADF adı altında iki qurum meydana çıxmışdır. Belə ki, özlərini ADF-nin əsil varisi kimi təqdim edən Rəhim Hüseynzadə (ADF MK-nın sədri), Səməd Bayramzadə (ADF MK-nın sədr müavini) və başqaları Adilə Çernikbuləndin başçılıq etdiyi ADF-nin legitimsizliyini iddia edirlər. Şübhəsiz, bu kimi hallar Bütöv Azərbaycan ideyasının gerçəkləşməsi, o cümlədən Güney Azərbaycan milli hərəkatının qalibiyyət hədəfinə çatması yolunda yaxşı hal deyildi. Ümid edirik ki, qısa müddət ərzində ADF əvvəlki nüfuzunu bərpa edəcək və yenidən vahid orqanizmə çevrilə biləcəkdir.

## 1.3. 1979-2020-ci illərdə İran İslam rejimində və Güney Azərbaycanda ictimai-siyasi və mədəni mühit

İran Pəhləvilərinin demokratik, milli və antiimperialist qüvvələrə qarşı ardı-arası kəsilməyən hücumlarına, cəza tədbirlərini artmasına, üsyançı bəzi tələbələrin həbs edilməsinə baxmayaraq, xüsusilə də, 18 fevral 1978-ci ildə Təbrizdə baş verən üsyan bütövlükdə ölkənin ictimai-siyasi həyatına mühüm təsir göstərmiş, Pəhləvilər monarxiyasına öldürücü zərbə vurmuşdu. 1978-ci ilin sentyabr ayında Pəhləvi rejiminə qarşı inqilabın ikinci mərhələsi başlamış, 30 dekabr 1978-ci ildə Təbriz yenidən ayağa qalxmış, "Şah getsin" təkidli tələbini irəli sürmüşdür.[303]

Bununla da, sayı milyonları ötən inqilabçıların təzyiqi nəticəsində öz gücsüzlüyünü görən Məhəmmədrza şah 16 yanvar 1979-cu ildə ölkədən qaçmış, 16 fevral 1979-cu ildə şahpərəstlərin son

[303] Qaradağlı Eldar. Azərbaycan mərkəzli türkçü düşüncə. İstanbul, ÇAV yayınları, 2012, s.365-366

qüvvələri də Təbriz və Güney Azərbaycanın digər şəhələrində tam-amilə məğlubiyyətə uğradıldaqdan sonra 54 illik şovinist aryançı-farsçı İran Pəhləvilər hakimiyyətinə son qoyulmuşdur.

1979-cu ilin fevralın əvvəlində yarı fars, yarı fransız mənşəli Ruhullah Xomeyninin rəhbərliyi ilə İslam Cümhuriyyət Partiyası (İCP), həmin ayın sonunda isə Türk mənşəli Seyid Məhəmməd Kazım Şəriətmədarının lideri olduğu Müsəlman Xalq Partiyası (MXP) qurulmuşdu. MXP-nin əsas gücü Azərbaycan şəhərlərində, Tehranda və Qumda idi. Hər halda o dövrdə "İslam inqilabı"nın əsas mərkəzlərindən biri Təbriz olmuş, "Şah"a qarşı ən sərt şüarlar burada verilmişdir. Ancaq Tehranda hələ də güclü olan fars millətçiləri bununla barışa bilməyib, onlar da Azərbaycan-Təbriz mərkəzli inqilaba qarşı İslam dini adı altında fars şiəçiliyini təşkilatlandırmağa başlamışdılar.[304]

Çox keçmədi ki, Xomeyinçilərlə Şəriətmədariçilər 1979-cu ilin dekabrında Təbrizdə üz-üzə gəldilər. İran-fars millətçiləri Xomeyninin liderliyilə "İslam inqilabı"nı milli maraqlarına yönəltməyi çalışdığı zaman buna qarşı Qum və Təbriz çıxdı. Başda Ayətullah Şəriətmədari olmaqla, Azərbaycan xalqının, o cümlədən Müsəlman Xalq Hərəkatının "İslam Cümhuriyyəti"ndən başlıca tələbləri yeni Anayasaının yazılması ilə yanaşı Əyalət-vilayət sisteminin rəsmiləşməsi, çoxpartiyalılıq sisteminə keçid, dünyəvi və hüquqi dövlətin olması, milli dillərin tədrisi, Qurucular Məclisinin millət tərəfindən seçilməsi idi.[305]

Tudə, Fədai, Mücahid kimi təşkilatların MXP hərəkatının ətrafında birləşib, onin irəli sürdüyü tələblərə dəstək vermək əvəzinə aryançılıq yolunu tutmaları Azərbaycan xalqı üçün çox böyük zərbə oldu. E.Qaradağlı da doğru yazır ki, bu qurumların "İslam inqilabı"ından sonra ən son birləşmə imkanı Təbriz idi: "Onların özgür və içdən gələn inancları olsaydı, Xalq Müsəlman istəklərinə dəstək olaraq devrimin insiyativini ələ alacaq, başqa millətlərin də aparıcı lider quruluşlarını bu dirənişə çəkməklə rejim qarşısında böyük cəbhə açacaqdılar. Amma nə yazıq ki, bu işi görmək yerinə Xomeyni despotizmini kütlədən üstün tutaraq bugünkü fəlakətlərin

[304] Yenə orada, s.368-369
[305] Yenə orada, s.369-370

oluşmasında birbaşa rol sahibi oldular”.[306]

Şübhəsiz, Tudə, Fədai, Mücahid kimi təşkilatların Şəriətmədarçı-Xomeyniçi qarşıdurmasında Xomeynin yanında yer alması, eyni zamanda önəmli məqamlarda Şəriətmədarinin cəsarətli addımlar atmaması öz işini gördü. Xüsusilə də, 1979-cu ilin dekabrın 5-6 da Təbrizdə Xomeyninin dini hakimiyyətinə qarşı MXP-nin başlatdığı üsyan zamanı, Xomeyniçilərin Azərbaycan Türk əsgərlərinin silahlarını buraxması ilə bağlı tələbi qarşısında Şəritəmədarının geri addım atması, yəni onun fətvasıyla silahların yerə qoyulması və bundan dərhal sonra Hizbullah, Xalq Mücahidləri və Tudəçilərin eyni səngərdə birləşib Azərbaycan xalqına qarşı olmalaır hər şeyi həll etdi.

Xomeyinçiliyə qarşı baş qaldırmış Təbriz və Qum üsyanları yatırıldıqdan sonra MXP də, İlam dininin düşməni kimi ləğv edilib, yüzlərlə türk gəncləri dar ağacına çəkildi. Beləliklə, qətiyyətsiz, cəsarətsiz addımlarıyla “islam inqilabı”nın liderliyini Xomeyninin əllərinə tərk edən Şəriətmadəri çox keçmədən də, onunla qarşıdurmadan məğlub çıxıb ev dustağına çevrildi və 1986-cı ildə müəmmalı şəkildə də öldü.[307]

Aydın Qasımlı da yazır ki, Güney Azərbaycan Türkləri hələ inqilabın gedişi və inqilabın ilk illərində siyasi partiya və cəmiyyətlər yaratmış, milli dildə bir sıra qəzet və jurnallar nəşr etməyə başlamışdılar: “Lakin bu təşkilatlar heç bir il də fəaliyyət göstərmədən 1980-ci ilin əvvəllərində qanundan kənar elan edilmiş, üzvlərinin bir qismi məhv edilmiş, bir qismi həbs edilmiş, böyük əksəriyyəti isə xaricə mühacirət etmək məcburiyyətində qalmışdılar. Xomeyninin İrana gəlişinə qədər inqilabın lideri sayılan Azərbaycan türkü Məhəmməd Kazım Şəriətmədarinin başçılığı ilə yaradılan “Müsəlman Xalq Partiyası” inqilabın qələbəsindən sonra ikinci plana sıxışdırılmış və heç bir siyasi məsələnin həllinə cəlb edilməmişdi. 5 dekabr 1979-cu ildə referendumun nəticələri təhrif edilmiş şəkildə elan edilərkən Müsəlman Xalq Partiyası Təbrizliləri etiraz mitinqinə və nümayişə çağırmış və sonda 6 dekabr 1979-cu ildə Təbrizdə üsyan baş vermişdi. Üsyançılar demokratik tələblərlə yanaşı milli tələblər də irəli sürərək ölkədə yaşayan bütün xaqlara “öz müqəddəratını təyin

[306] Yenə orada, s.370
[307] Yenə orada, s.374

hüququ" tələbini irəli sürmüş, Təbrizdəki dövlət idarələrini, radio və televiziya stansiyalarını, təyyarə meydanını ələ keçirərək Azərbaycan İslam Cümhuriyyətini elan etmişdilər. Üsyanın aparıcı qüvvələri üzvlərinin sayı üç milyona qədər təxmin edilən Müsəlman Xalq Partiyasının məfkurəvi başçısı, böyük sərmayə sahibi, ölkədəki Azərbaycan Türkləri arasında böyük nüfuza sahib olan dini başçı sayılan və Qum şəhərində yaşayan Şəriətmədarini Təbrizə dəvət etmişsə də radikal mübarizəni qəbul etməyən, barışdırıcı mövqe tutan Ayətullah Şəriətmədari üsyan mərkəzinə gəlməkdən imtina etmiş, bununla da hərəkatın sınmasına yardım etmiş, üsyanın yatırılmasını asanlaşdırmış və sonda İranın daxili muzdlu silahlı qüvvələri olan "pasdarlar" tərəfindən üsyan yatırılmışdı. Üsyan yatırıldıqdan sonra Müsəlman Xalq Partiyası dövlət tərəfindən qadağan edilmiş və təşkilat tamamilə dağıdılmış, sonda Şəriətmədari də məhv edilmişdi".[308]

1978-ci ildə Pəhləvilər rejiminin əleyhinə etiraz hərəkatının vüsət alması ilə Mehdi Bazərgan da yenidən siyasətə qayıtmış, o, daha çox müstəqil şəxs kimi davranaraq Fransada yaşayan Xomeyni və Milli Cəbhə arasında vasitəçilik etmiş və monarxiyaya qarşı vahid müqavimət düşərgəsinin yaranmasına çalışmışdır. Bu dövrdə Milli Cəbhə də dünyəvi modeldən imtina edir, din və demokratiyanın sintezi haqqında danışır. Bu da onun daxilində parçalanmaya səbəb olur. Kərim Səncabi Parisə gedib Xomeyni ilə razılaşma axtararkən, Şapur Bəxtiyar konstitusiyalı monarxiya quruluşuna tərəfdar çıxaraq şahin baş nazir postu təklifini qəbul edir. Təşkilat üzvlərinin əksəriyyəti isə Səncabi xəttini dəstəkləyir.

Hələ "İslam inqilabı" qalib gəlməmiş, 1979-cu ilin fevralın 4-də Xomeyni yeni hökumətin qurulmasını M.Bazərgana tapşırmışdır. Bir həftə sonra, inqilabın qələbəsi və monarxiyanın son baş naziri Şapur Bəxtiyarinin istefasından sonra ikihakimiyyətlilik sona yetmiş, Bazərgan inqilabdan sonra İran adlanan ölkənin ilk baş naziri olmuşdur. Mömin müsəlman olmasına, İslam qaydalarına ciddi əməl etməsinə baxmayaraq, Mehdi Bazərgan teokratik dövlət quruluşunun tərəfdarı deyildi. Bu səbəbdən də onunla Xomeyni arasında fikir ayrılıqları ilk günlərdən zühur edir. Baş nazir "vilayəti-fəqih"

---

[308] Qasımlı A. Güney Azərbaycan türkləri son 100 ildə. Bakı, Adiloğlu, 2012, s.116

institutuna qarşı çıxır, ölkənin yeni adını İran İslam Demokratik Respublikası olmasını istəyirdi. Lakin Xomeyni "Demokratik" sözünün tətbiqini qəti surətdə rədd edir.

1979-cu il martın 31-də keçirilən referendumun nəticəsi olaraq 1 aprel 1979-cu il tarixində "İran İslam Respublikası" adlı teokratik dövlət olaraq dünyaya elan edildi. Bütün bunlara baxmayaraq Bazərgan baş nazir kimi inqilabdan sonrakı repressiyaların qarşısını almağa çalışır, ancaq əsasən bunu bacarmırdı. Məhdud səlahiyyətlər ona çoxsaylı ölüm hökmlərini ləğv etməyə imkan vermirdi. İki dəfə istefa versə də, Xomeyni tərəfindən qəbul olunmamışdı. 1979-cu ilin noyabrın 4-də radikallaşmış kütlənin ABŞ səfirliyinə hücumu və diplomatların ailələri ilə birlikdə girov götürülməsi baş nazirin səbrini daşdıran son damla olub. Mehdi Bazergan iki gün sonra, yəni noyabrın 6-da baş nazir vəzifəsindən istefa vermişdi.

Beləliklə, İran adlanan ölkədə teokratik dövlət qurmağa başlayan, 1979-1989-cu illərdə "İslam İniqlabi Şurası"nın başçısı, ölkənin Ali Rəhbəri olan Xomeyni bütün hakimiyyəti İslam Cümhuriyyəti Partiyası ətrafında və öz əlində cəmləşdirməyə nail ola bilmişdir. 1979-cu ilin avqustunda əsasən ruhanilərdən ibarət yaradılan Mütəxəssislər Şurasının görüşlərində milli haqlarla bağlı müddəalar Xomeyninin təkidləri ilə konstitusiyadan çıxarıldı. P.Məmmədli yazır: "İran İslam inqilabının əsas ideoloqları İmam Xomeyni və onun yaxın ətrafı – Ayətullah Montəziri, Meşkini, Kilyani, Xomeyninin oğlu Əhməd Xomeyni, Höccətülislam Ərədbili islam prinisiplərini təbii olaraq milli münasibətlər sferasına da gətirdilər və bununla fars olmayan xalqların milli özünüdərkinin yüksəlişinə mane olmağa, bu xalqlar arasında milli-azadlıq ideyalarının inkişafının qarşısını almağa çalışdılar. Onlar sadəcə, şiə-dini əsaslarına dayanan paniranizm konsepsiyasına üstünlük verir, islam şüarlarını hər şeydən üstün tutmağa çağırır və bunu hər bir müsəlmandan tələb edirdilər".[309] Xomeyni və onun tərəfdarları açıq şəkildə milli məsələyə düşmən münasibət bəsləsələr də, ancaq farslığa ayrıca yanaşır, onu iranlılıq adı altında müdafiə etməyə davam edirdilər.

"İslam inqilabı"ndan sonra ilk baş nazir Mehdi Bazərgan və ilk prezident Bəni Sədrin milli muxtariyyatla bağlı yumşaq yanaşmaları

---

[309] Məmmədli P. "Varlıq" jurnalında ədəbiyyat məsələləri. Bakı, Elm, 2000, s.19

da heç bir nəticə vermədi. Hətta, "İran İslam" konstitusiyasında dolaysıyla da olsa, milli məsələ ilə bağlı bəzi müddəalar öz əksini tapmışdı ki (məsələn, 15-ci maddəyə görə, fars olmayan digər xalqlar öz dillərində yazmaq, oxumaq, qəzetlər çıxarmaq, kitablar yayınlamaq hüququ əldə etmişdi), həmin maddələr də İran-İraq müharibəsi (1980-1988) əldə bəhanə edilərək quru söz olaraq qaldı. Nəsibli yazır: "İslam Cümhuriyyəti dövlətinin ölkədəki Türklüyə münasibətini prinsip olaraq öncəki Pəhləvi rejiminin politikalarının davamı olduğunu ifadə etməliyik. Teokratik iqtidar da türklərə təbii haqlarını belə verməkdən imtina etdi. Yeni İran Anayasasının ölkədəki qövmlərin və tayfaların birliyi məsələsindəki ehtişamlı vədinə baxmayaraq, İslam Cümhuriyyəti dönəmində Pəhləvi dönəminin Türk düşmənliyi daima gündəmdə olmuş, Türklüyün varlığı İranın bütövlüyü üçün təhlükə olaraq görülmüş, dövlət adamları, ölkənin irqçi aydın kəsimi və ayrıca assimilyasiya etdiyi türklər, Türk əhalisi arasında milli kimliyin formalaşmasına əngəl olmuş,, Türk milli hərəkatını acımasızca təqib etmişlərdi. Anayasanın 15. maddəsində, eyni zamanda da "özünü idarə bölgələrinin haqq və vəzifələri" adlı qanunda öngörülən "yerli dillərin" istifadəsi, bu dillərin yerli idarəetmə qurumlarında istifadə olunması, yerli kültürlərin araşdırılması və tanıdılması sahəsində öngörülən vədlər kağız üzərində qaldı. İran dövləti son on illər içində Türklüyün milli yöndən şüurlanması və təşkilatlanmasının qarşısını almağa çalışdı".[310]

Xomeyni İran-İraq müharibəsi dövründə MXP-dən sonra kommunistlərin Tudə Partiyasının (1983), ən sonda da rəhbərlik etdiyi İslam Cümhuriyyət Pariyasının (1987) fəaliyyətini qadağan etmişdi. Həmin dövrdə "İslam iniqlabı"nda da fəal iştirak etmiş, "İslam İnqilabi Şurası"nın üzvü olmuş Seyid Əli Xamenei isə onun sağ əli idi. 1981-1989-cu illərdə iki dəfə İran adlanan ölkənin prezidenti vəzifəsini də icra etmiş Xamenei, 1989-cu ildə Xomeyni öldükdən sonra "İslam İniqlabi Şurası"nın başçısı, ölkənin Ali Rəhbəri vəzifəsinə təyin edildi və hələ də, bu vəzifələrinə davam etməkdədir.

1989-cu ildə Xomeyninin ölümündən sonra, başqa bir türk düşməni Haşimi Rəfsancani İran İslam Cümhuriyyətinin prezidenti

[310] Nesibli, Nesib. Azerbaycan tarihi: Millet-Devlet-Siyaset. Ankara, Altınordu yayınları, 2019, s.589

seçildi. A.Qasımlı yazır: “Rəfsəncaninin başqanlığında İranda totalitar bir rejim quruldu və bununla da Türk kimliyi daha da geriləməyə başladı. Türk düşmənçiliyini dövlət siyasəti mərhələsinə qaldıran Rəfsəncani hökuməti və onun tərəfdarları heç bir əxlaqa sığmayan addımlar atdı. Belə ki, rəsmi şəkildə Azərbaycanla müharibə şəraitində olan Ermənistana yardım etdi, bəzi mətbu orqanları istisna olmaqla türkcə bütün qəzet və jurnalları bağlatdı. Müharibə dövründə çökmüş Güney Azərbaycan iqtisadiyyatını daha da çökdürdü, xalqı səfalətə sürüklədi. Acınacaqlı haldır ki, bu işə vəzifəni milli maraqlardan üstün tutan «sapı özümüzdən olan baltalar» daha doğrusu, «içimizdəki şeytanlar» da rəvac verdi və verməkdədir. Belə ki, şah rejimini devirmək üçün Qurani-Kərimin «Biz insanları müxtəlif dillərdə və müxtəlif rənglərdə yaratdıq» ayəsinə söykənərək yola çıxan İslam Cumhuriyyət Partiyası qısa zamandan sonra fars şovinizminə dayanaraq bu müqəddəs ayənin də əleyhinə gedərək Iranın parçalanma ehtimalını irəli sürdü. Fars şovinizminə dayanan bu partiyanın yetkililəri ilk olaraq zərbəni onlarla eyni vaxtda yaranmış Müsəlman Xalq Partiyasına, onun lideri Şəriətmədariyə və ən başlıcası, Azərbaycan türklərinə vurmağa başladılar. Bu məqsədlə onlar «Rəhbərlik parçalanmaz» şüarını irəli sürərək bütün təbliğat maşınlarını işə saldılar və Azərbaycan Türklərinin öndə gedənlərini səhnədən sıxışdırıb çıxarmağa, onun təşkilatını məhv etməyə və öz Fars hegomonluqlarını bərpa etməyə müvəffəq oldular. Bu işdə onlara əslən türk olan və prezident olmaq istəyən doktor Bənisədr, Baş prokuror olmaq istəyən Hüseyn Müsəvi, din adamları Ayətullah Qazi, Ayətullah Xalxali və başqaları da yardımçı oldular. «Ağacı içindən qurd yeyər» demiş atalar. Bu «qurdlar» da Ulu Çinar Azərbaycanı içindən yedilər və «həşəratları» Vətənin içinə doldurub onun bütün olan-qalan qanını da sordular. Şəriətmədarini Vətəndən ayırıb məhv etdilər. Yüzlərlə millət və Vətən qeyrəti çəkənləri şəhid etdilər, zindanlarda çürütdülər, ev dustağı etdilər. Vətəndən didərgin saldılar. Milləti başsız qoydular. Meydanı boş görən fars şovinistləri, şah dövründə olduğu kimi yenə də müqəddəs vətənimizdə at oynatmağa başladılar. Pəhləvilərdən sonra hakimiyyəti ələ keçirən şovinist məzhəbçi islamçılar da onlar kimi fars dilini bir məzhəb dili kimi yenə də dövlətin rəsmi dili

olaraq saxladılar. Hətta onlar şiəliyi belə fars məzhəbi kimi təqdim etməyə başladılar. Bütün bunların da nəticəsində fars dili və fars şiə məzhəbi fars kimliyini hakim mövqeyə çıxardı”.[311]

İran İslam Respublikasında 1997-ci ildə Məhəmməd Xatəmi başda olmaqla “reformistlər” adlanan qrupun xalqın iqtidara gəlməsi həm ölkə daxilində, həm də xaricdə İran İslam rejiminin reformalar yolu ilə dəyişəcəyinə bir inam yaratmışdı. Ancaq A.Qasımlı dorğu yazır ki, əslində isə Xatəmi də başda olmaqla bu “reformistlər” fars şovinizminin üçüncü dalğasının təmsilçiləri idilər. Bu fars millətçi dalğa təmsilçiləri digər iki şovinist dalğalardan fərqli olaraq Iranda etnik fərqlilikləri qəbul edir və güya bunun dövlət tərəfindən də qəbul edilməsinə çalışırlar. Onlar “İran”da güya həm milli kimliyi və həm də etnik kimliyi qəbul edir və göstərirdilər ki, “İranın milli kimliyi farslar və fars dili çərçivəsində şəkillənməli, etnik kimlik isə yalnız mədəni sahədə qalmalı, heç bir vəchlə siyasi meydana gətirilməməlidir”. A.Qasımlı yazır: “Çox təəccübləndirici haldır ki, onlar İran deyilən məmləkətin əsas etnosu hesab olunan 35 milyonluq Azərbaycan türkünü də bu etnik kimliyə daxil edirlər. Bütün bunlara bir demokratiya donu da geydirməyə çalışaraq milli problemləri arxa plana keçirməyə cəhd edirlər. Arada bəzi kosmetik dəyişikliklərlə millətimizi çaşdırmağa çalışan Xatəmi hökuməti və onların «reformist» düşüncələrinin də iç üzü tezliklə açıldı və millətimiz bu əcaib və hiyləgər torun nədən ibarət olduğunu anladı. Öncə “reformistlər”lə mühafizəkarların mübarizəsinin “islahatçılar”ın qələbəsi ilə nəticələnəcəyinə ümid bağlayan daxili və xarici qüvvələrin ümidləri boşa çıxdı. Artıq “reformistlər” də iflasa uğradı və “İran siyasi sistemi islah edilə bilən bir siyasi sistem deyil” mövqeyi düşüncələrə hakim kəsildi”.[312]

1979-2009-cu illərdə keçirilən parlament və prezident seçkilərinin hamısı mühafizəkar İran İslam rejiminin nəzarəti altında olduğundan millət vəkilləri və prezident seçilməmiş, Vilayəti-Fəqih və onun tabeliyində olan “Şureyi-Nigahban” və 12 nəfərdən ibarət Konstitusiyaya Nəzarət Şurası tərəfindən təyin edilmişlər. 30 illik hakimiyyətləri dönəmində İran hakim dairələri İran Konstitu-

[311] Qasımlı A. Türklər. Bakı, “E.L.” NP MMC, 2012, s.80-81
[312] Yenə orada, s.81-82

siyasından sui istifadə edərək ölkəni bütünlüklə İslam dini və hətta şiəliklə heç bir əlaqəsi olmayan fars şovinizmi ilə idarə etmişlər. Artıq "İran" cəmiyyəti də görür ki,"din siyasətdən ayrı deyil, bizim siyasətimiz dinimizdir" - deyən bu şovinist İran İslam rejiminin İslam dininə dəxli olmayan xüsusi bir siyasətləri var.

12 iyun 2009-cu ildə İran İslam Respublikasında növbəti prezident seçkisi keçirildi. "Vilayəti-Fəqih" və "Şureyi-Nigahban"ın nəzarəti altında keçirilən bu "seçki"də 12 nəfərdən ibarət Konstitusiyaya Nəzarət Şurası tərəfindən qeydə alınan 4 namizəd iştirak edirdi. Bu seçki dünyada olduğu kimi Quzey Azərbaycanda da diqqət və maraqla izlənildi. Çünki bu seçkilərdə İran-İraq müharibəsi dövründə 8 il İran islam rejiminin baş naziri vəzifəsində çalışan, o zaman prezident olan Seyid Əli Xameneyi ilə davamlı problem yaşayan, baş nazirlikdən çəkildikdən sonra 20 il evdə oturan, əslən Azərbaycanın Xamnə şəhərindən olan Azərbaycan Türkü Mirhüseyn Musəvinin prezidentliyə namizədliyi formal da olsa, qeydə alınmışdı.

Aydın Qasımlı yazır ki, Mirhüseyn Musəvi İran İslam Respublikasının tarixində ilk dəfə olaraq həyat yoldaşı ilə birgə 20 gün müddətində çox gərgin keçən təbliğat və təşviqat nəticəsində prezident Əhmədi Nejadın daxili və xarici siyasətini kəskin tənqid edərək mövcud iqtidardan bezənlərin və İranda yeni bir dönəmin başlanmasına ümid bəsləyənlərin səsini qazanmağa nail olmuşdu. Lakin seçicilərin yarıdan çoxunu təşkil edən Azərbaycan Türklərinin və xeyli miqdarda digər xalqlardan olan gənclərin və xüsusilə qadınların, həmçinin onun mənsub olduğu solçu İslamçıların və onun gələcək hakimiyyətindən yararlanmağa çalışanların səs verdiyi Mirhüseyn Musəvinin səsləri seçki komissiyası tərəfindən Əhməd Nejadın xeyrinə saxtalaşdırılaraq İran xalqlarının iradəsi zorlandı. Seçkilər bitən kimi bütün seçkiyə nəzarəti əlində cəmləşdirən dini lider Əli Xamneyi tələsik şəkildə öz namizədi Əhməd Nejadı "qələbə" münasibətilə təbrik etdi.[313]

Bu seçki "İran" xalqları, xüsusilə bu günə qədər Azərbaycan Milli Hərəkatına biganə yanaşan və irançılıq əhvali-ruhiyyəsi ilə yaşayan bir çox Azərbaycan türkləri üçün yeni bir imtahan oldu. Bu cür düşünən soydaşlarımız da gördülər ki, şovinist İran İslam rejimi

[313] Qasımlı A. Güney Azərbaycan türkləri son 100 ildə. Bakı, Adiloğlu, 2012, s.118

hətta, ona illərlə sədaqətlə xidmət etmiş Mirhüseyn Musəvi kimilərə də etibar etmir. Bu seçki bir daha göstərdi ki, nə qədər ki, Mirhüseyn Musəvi kimilər keçmiş səhvlərindən nəticə çıxarıb Güney Azərbaycan Milli Hərəkatı ətrafında birləşib bir güc mərkəzinə çevrilməyiblər demokratik mübarizədə heç bir uğur əldə edə bilməyəcəklər.

**"İslam inqilabı"ndan sonra Azərbaycan milli hərəkatı.** Bütün hallarda "İslam inqilabı"ndan (1979) sonra "Azərbaycan" adlı bir neçə mədəni cəmiyyətlərin yaranması, milli dildə qəzet-jurnalların nəşri yeni ümid işıqları oldu. "İslam inqilabı" dövründə türk dilli mətbuatın nəşrinə və yayılmasına imkan yaranmış, beləliklə "17 yanvar 1979-cu ildə Təbrizdə Türk və fars dillərində "Ulduz" adlı qəzetin ilk nömrəsi çapdan çıxmış və bu qəzet ana dilində ilk olaraq Məhəmməd Rza Pəhləvi diktaturasının devrildiyini xalqa xəbər vermişdi".[314]

"İslam inqilabı"ndan sonra yaranan "Varlıq" dərgisi isə öz adını Azərbaycan Türk xalqının var olmasından, yəni "biz varıq" şüarından almışdı. Başqa sözlə, dərginin qurucusu Cavad Heyətin təbrincə desək, Pəhləvilər dövründə türk kimliyinin, türk dilinin, türk varlığının inkar olumasına qarşı olaraq jurnal Həmid Nitqinin tövsiyəsi ilə "Varlıq" adını almışdır.[315] Eyni zamanda, bu dərgi İ.Qaspıralının "Dildə, fikirdə və işdə" birlik ideyasını həyata keçirməyə çalışırdı.[316]

Ümumiyyətlə, inqilabın ilk illərində, 1979-1981-ci illərdə Təbriz, Tehran, Ərdəbil, Urmiya, Zəncan və Sərabda, sonrakı illərdə isə Astara, Miyana, Əhər, Xoy, Maku, Şəbüstər, Muğan və başqa şəhərlərdə gündəlik, həftəlik, aylıq və ildə 3 dəfə nəşr olunan qəzet, jurnal və məcmuələr çap edilərək yayılmışdı. Bu mətbuat orqanlarında İran və Güney Azərbaycan xalqının sosial-iqtisadi problemləri ilə yanaşı Azərbaycan Türklərinin tarixi, mədəniyyəti, dili və ədəbiyyatı ilə bağlı yazıları, həmçinin Güney və Quzey Azərbaycanın şair və yazıçılarının əsərlərindən parçalar dərc edilmişdi. 1979-1981-ci illərdə dərc edilən "Azadlıq", "Azərbaycan",

[314] Şövkət Tağıyeva, Əkrəm Rəhimli, Səməd Bayramzadə, Güney Azərbaycan (Məlumat kitabı), Bakı, Orxan, 2000, səh. 340.
[315] Heyət Cavad. Dilimiz, ədəbiyyatımız və kimliyimiz uğrunda (məqalələr toplusu 2). Bakı, Elm və təhsil, 2014, s.28, 274`
[316] Yenə orada, s.94, 138

"Azərbaycanın səsi", "Araz", "Azərbaycan əncüməni", "Dədə Qorqud", "Koroğlu", "Çənlibel", "Günəş", "Xalq sözü", "Qardaşlıq", "Odlar yurdu", "Yoldaş", "Ülkər", "Gənclik", "Varlıq" kimi qəzet, jurnal və məcmuələr daha xarakterikdir.[317]

Bu qəzet-jurnallar arasında milli ruhuyla daha çox önə çıxan "Yoldaş", "Dədə Qorqud", "Varlıq" və digər mətbuat orqanları əsasən Azərbaycan türklərinin milli kimliyini, türk dilini müdafi etmiş, türklərin aryanlardan, ya da farslardan öncə bu torpaqlarda yaşamasını sübut etməyə çalışmışlar. H.Nitqi, C.Heyət, M.Zehtabi və başqaları paniranizm, aryançılıq ideologiyasına qarşı mübarizə aparmış, Azərbaycan türklüyünün, türklüyün müdafiəsi uğrunda əllərindən gələni ortaya qoymağa çalışmışlar.

Xüsusilə də, dr. Cavad Heyətin rəhbəri olduğu "Varlıq" dərgisi Türk varlığını Fars irqçiliyinin hücumlarından qorumaq üçün mücadilə etmişdir. P.Məmmədli yazır: ""Varlıq" dərgisinin yarandığı illərdə milli varlığının yaşamaq və məhv olmaq dilemması ilə qarşılaşan bir xalqın ana dilində sözə, fikrə böyük ehtiyacı vardı. "Varlıq" Güney Azərbaycan mədəni mühitindəki bu boşluğu doldurmaq üçün yarandı". [318] "Varlıq" dərgisinin əsas yazarları Həmid Nitqi, Cavad Heyət, Məhəmmədəli Fərzanə, Qulamhüseyn Beqdeli, Həmid Məmmədzadə, Əli Kəmali, Səməd Sərdarniya, İsmayıl Hadi, Həsən Məcidzadə-Savalan, Kərim Məşrutəçi və başqaları burada əsas diqqəti Türk varlığını qoruyub saxlamağa, inkilşaf etdirməyə və Türk birliyinə yönəltmişdir. P.Məmmədli yazır: ""Varlıq" təkcə Şimal və Cənub arasında birlik körpüsü olmayıb bütün Türk dünyasının keçmişi, indisi və gələcəyi haqqında mötəbər elmi, ədəbi yazılar verməklə Türk xalqlarının birliyinə xidmət edir. Qədim türklər, orta türklər, İslam dövrü və sonrakı dövrdə Türk dövlətləri və mədəniyyəti haqqında silsilə tədqiqatlar öz soy-kökü dərk etməkdə hər bir türkə yardımçıdır". [319]

"İslam inqilabı"ndan sonrakı ilk illərdə milli mətbu orqanlarla yanaşı, bir sıra milli təşkilatlar da yarandı. Məsələn, 1979-cu ilin

---

[317] Şövkət Tağıyeva, Əkrəm Rəhimli, Səməd Bayramzadə, Güney Azərbaycan (Məlumat kitabı), Bakı, Orxan, 2000, səh. 456-458.
[318] Məmmədli P. "Varlıq" jurnalında ədəbiyyat məsələləri. Bakı, Elm, 2000, s.32
[319] Yenə orada, s.38

martında Təbrizdə Həbib Sahirin başçılığı ilə Azərbaycan Mədəniyyət Ocağı yarandı. Yəhya Şeydanın liderliyində isə Azərbaycan Maarif Yığıncağı təsis edildi. 1979-cu ilin aprelində isə Tehranda Azərbaycan Yazarlar və Şairlər Cəmiyyəti quruldu. "Yoldaş" qəzetinin baş redaktoru Hüseyn Düzgün, Salamulla Cavid, Məhmmədəli Fərzanə və başqaları bu təşkilatın ayarnmasında mühüm rol oynadılar. Tehrandakı milli mədəniyyələ bağlı təşkilatlardan biri də Azərbaycan Məsələlərini Araşdıran Qrup idi. Bu cəmiyyətlərdə millətləşmə, "millət olma" məsələləri müzakirə edilmiş, bu yolda ana dili probleminin həlli vacib hesab edilmişdir. Türk ziyalıları inanırdılar ki, Türk dili tezliklə İran adlanan ölkənin rəsmi dillərindən biri olacaq və öz haqq etdiyi yerini alacaqdır. Eyni zamanda bu təşkilatlarda Quzey Azərbaycan türkcəsi ilə Güney Azərbaycan türkcəsi arasındakı oxşar və fərqliliklər, Türk dilinin yad dillərdən təmizlənməsi, Türk mədəniyyəti ilə bağlı qurumların yaranması və digər məsələlər də müzakirə obyekti olmuşdur.

"İslam iniqlabı"nın üstündən bir neçə il keçdikdən sonra başlayan İran-İraq müharibəsi (1980-1988) daha çox Azərbaycan milli hərəkatına zərbə vurmuşdur. Çünki bu müharibədən sui-istifadə edən Xomeyinçilər, İran İslam rejimi Azərbaycan türklərinin milli haqlarını boğdular. Hətta, konstitusiyanın 15-ci maddəsində öz əksini tapmasına baxmayaraq ana dilində tədrisə imkan vermədilər. eyni zamanda, Xomeyni iqtidarı öz hakimiyyətini möhkəmləndirən kimi ilk zərbəni Azərbaycan türklərinə, onların siyasi təşkilat və cəmiyyətlərinə və mətbuatına vurdu. "Varlıq" dərgisi istisna olmaqla yuxarıda göstərilən bütün mətbu orqanlar qapadıldı. N.Nəsibli yazır: ""İran hamımızın vətənidir" sözünü sıx sıx təkrarlamaqla birlikdə, "Varlıq" dərgisi Bütöv Azərbaycan fikrinə də yabançı qalmamışdır.Quzey Azərbaycanın əski İranın bir parçası olduğunu iddia edən məqalələr, bizcə, dərginin davamlılığını qorumaq məqsədi ilə yayınlanmışdır; eyni zamanda tarix və dil mövzularına yer verən bu cür məqalələr Bütöv Azərbaycan idealını gündəmdə tutmaq arzusundan doğmuşdur. Quzey Azərbaycanın Azərbaycan adlandırlmasının "bir yanlış" olduğunu və onun yerinə Aran kəliməsinin istifadə olunmasını önə sürən əsilsiz yazılara "Varlıq" yazarlarının, özəlliklə Dr. Cavad Heyətin sərt formalı elmi

məqalələri ilə cavab verilmişdir”.[320]

Güney Azərbaycan milli oyanış hərəkatının yenidən dirçəlişi SSRİ-nin dağılması və Quzey Azərbaycanın müstəqilliyini bərpa etməsi (1991) ilə başlamışdır. Xüsusla də, Quzey Azərbaycanda Əbülfəz Elçibəyin bir illik hakimiyyəti (1992-1993) dönəmində Güney Azərbaycan türkləri ilə bağlı irəli sürdüyü şüarlar Azərbaycan Milli hərəkatının dirilişində mühüm rol oynamışdır. Azərbaycan Mlli hərəkatının dirilişini özü üçün təhlükə hesab edən İran İslam rejimi bir tərəfdən Quzey Azərbaycanın güclənməməsi üçün Dağlıq Qarabağ problemi ilə bağlı Ermənistana hər cür yardımlar etdi, digər tərəfdən Doğu Azərbaycanla Batı Azərbaycanın adlarını dəyişdirmək cəhdlərində bulundu; onların əraziləri daha da kiçildilməyə başlandı. Xüsusilə də, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı İran İslam rejiminin ikili oyunlar oynaması, ziddiyyətli mövqe tutması diqqətçəkicidir. Eynulla Mədətli yazır: “Ermənilərin Azərbaycan torpaqlarına təcavüzün ilk günlərindən İran hökuməti Dağlıq Qarabağ münaqişəsinə münasibətdə ziddiyyətli mövqe nümayiş etdirmişdir. İran sözdə özünü sülhün və ədalətin tərəfdarı kimi göstərərək, münaqişənin həllində öz vasitəçiıliyini təklif etsə də, qeyd edildiyi kimi, təcavüzkarla təcavüzə məruz qalan ölkə arasında heç bir fərq qoymayaraq işğalçı Ermənistana qarşı hər hansı əməli tədbir görməmişdir. Əksinə, İran Ermənistanla öz münasibətlərini, xüsusən də hərbi-strateji əlaqələrini möhkəmləndirmək, bu ölkədən yeri gələndə həm Azərbaycana qarşı istifadə edir, həm də Ermənistanı Türkiyə-Azərbaycan-Mərkəzi Asiyanın Türk dövlətləri arasında regional bufer ölkə kimi dəstəkləyir, beləliklə türk əsilli xalqların birliyinə və əlaqələrinə mane olmağa çalışır”.[321] E.Mədətli onu da doğru yazır ki, Azərbaycan xalqının yaddaşında İran İslam rejiminin vasitəçiliyi ilə Tehranda Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı üçtərəfli danışıqlar getdiyi bir zamanda, yəni 1992-ci ilin mayın 8-də Şuşa şəhərinin ermənilər tərəfindən işğal edilməsi də mənfi bir hal kimi həkk olunmuşdur.[322]

---

[320] Nesibli Nesib.Azerbaycan tarihi: Millet-Devlet-Siyaset.Ankara, Altınordu, 2019, s.604
[321] Mədətli Eynulla. İranda Azərbaycan tarixi məsələləri. Bakı, “Turxan NPB”, 2020, s.394-395
[322] Yenə orada, s.396

Məşhur Azərbaycanşünas alim, Kembric Universitetinin professoru Tadeuş Svyatoçovski «Araz» dərgisinə verdiyi müsahibəsində göstərir ki: «Güney Azərbaycanın istiqlaliyyəti labüddür, qarşısı alınmaz prosesdir. Bu Azərbaycan xalqının tarixi hüququdur. ABŞ kimi dünya siyasətində aparıcı mövqe tutan bir ölkənin belə qlobal məsələyə biganə qalması qeyri-mümkündür Güney Azərbaycanın istiqlaliyyəti bir qədər sonra baş verəcək. Çünki istər Quzeydə, istərsə də Güneydə imperiyalar öz işini görüb. Bütün psixoloji, tarixi və kulturoloji sədd və manelərin aradan qalxması üçün müəyyən zaman keçməlidir».[323]

"İslam iniqlabı"ndan sonra Azərbaycan Türk xalqının İran İslam rejiminə qarşı direniş addımlarından biri də, 1992-ci ildən başlayaraq davamlı olaraq hər il keçirlən Babək Qurultayları, yəni Bəzz qalasına yürüşlər olmuşdur. Bəzz qalasına yürüşlərin 1990-cı illərin sonu, 2000-ci illərin başlarında daha güclü bir hala gəlməsi, artıq onların sayının bir milyonu ötməsi rəsmi Tehranı ciddi şəkildə narahat etmişdi. Bu baxımdan hərəkətə keçən Mola-Fars rejimi bütün güc vasitələrinə, o cümlədən həbslərə, təqiblərə və sairə əl ataraq Babək Qurultayının qarşısını almağa çalışmış, xeyli dərəcədə də buna nail olmağı bacarmışdı.

Ancaq 2006-cı ilin may-xordad hadisələri Azərbaycan Milli hərəkatın 21-ci əsrdə ən yüksək bir dağlası olmuşdur. Belə ki, Fars-mola rejiminin faşist qruplarının "İran" qəzetində və telekanallarında Azərbaycan türklərininin milli kimliyini və dilini tez-tez aşağılaması may üsyanlarına səbəb olmuşdur. Nəsibli yazır: "İki həftə boyunca davam edən nümayişlər qolluq gücləri ilə çatışmalar ortamında keçdi. Təbriz və Tehran tələbələrindən sonra Əhər, Parsabad, Ərədbil, Xoy, Mərənd, Zəncan, Soyuqbulaq (Mahabad), Sulduz, Urmiya və digər şəhərlərdəki qanlı çatışmalarda 50-dən çox aksiyaçı öldürüldü, yüzlərlə insan yaralandı, minlərlə nümayişçi həbs edildi. İranın yüksək dini rəhbəri Ayətullah Xamenei bu olayların ortaya çıxmasını ənənəvi bəhanə - Qərbin təxribatları ilə izah etməyə çalışdı və "Azərbaycanın bu təxribatlara uymayacağı, düşmənə

[323] "Araz" dərgisi, № 1 (2), 1997-ci il

gərəkli cavabı verəcəyini" açıqladı".[324]

Xüsusilə 22 may 2006-cı ildə İran deyilən məmləkətdə baş verən Milli hərəkat bu rejimə vurulan ən ağır zərbə oldu. "Ya istiqlal, ya ölüm!", "Azərbaycan bir olsun, mərkəzi Təbriz olsun!", "Haray, haray, mən Türkəm!", "Qalx ayağa Azərbaycan!", "Azərbaycan var olsun, düşmənləri yox olsun!", "Türk dili, İranda rəsmi dövlət dili olmalıdır!" kimi şüarlarla başlayan bu hərəkat təkcə "İran"ı deyil, bütün dünya dövlətlərində geniş əks-səda doğurdu. 28 may 2006-cı ildə İslam Milli Şurasının qarşısında gerçəkləşən nümayişdə oxunmuş olan bildiri Azərbaycan Türk milli hərəkatının önəmli tarixi bir sənədi hesab oluna bilər. Həmin sənəddə göstərilirdi ki, son 100 ildə İrandakı millətlər, xüsusilə də türklər fars irqçiliyinin mədəni, siyasi, iqtisadi sahələrdə şovinizmi və ayrımçılığı ilə üz-üzə qalmış, türk dilinin və mədəniyyətinin yox edilməsi üçün hər şey edilmişdir. Ən əsası odur ki, bölgənin 7 min illik tarixi deyil, ancaq 2500 illik Ariya-Fars tarixi, mədəniyyəti təbliğ olunmuş, digər xalqlar, o cümlədən türklər "gəlmə" və vəhşi xalq olaraq tanıdılmışdır. Pəhləvilər dönəmində türk xalqına və digər xalqlara edilmi haqsızlıqlar "İslam inqilabı"ndan sonra da davam etdirilmiş, konstitusiyanın 15, 19 və 20-ci maddələrində fars olmayan digər xalqlarla bağlı yer alan məhdud haqlar da gerçəkləşməmişdir. Nümayişçilərin İslam Şura Məclisinin qarşısında da əsas iki tələb: 1) Türk dilinin rəsmən tanınması; uydurma "Azəri dili"nin dövlət orqanlarında, ölkənin rəsmi yazışmalarında önlənməsi; ibtidai məktəbdən başlayaraq universitetədək ölkənin türklərin yaşadığı bölgələrdə ana dilində təhsil; 2) Türkcə yayınlar yapan ölkə çaplı radio-televizya mərkəzinin qurulması; Türk dil və ədəbiyyat qurumunun, ölkə universitetlərində Türk dili bölümələrinin qurulması, irəli sürmüşdü.[325]

Eyni zamanda, nümayişçilər konstitusiyanın 15, 19 və 20-ci maddələrində fars olmayan digər xalqlarla bağlı yer alan haqlarının gerçəkləşdirilməsini, Bəzz-Babək qalasına yürüşlərin bərpa edilməsini, Azərbaycan Millətinin Haqlarını Müdafiə Şurasının

---

[324] Nesibli Nesib. Azerbaycan tarihi: Millet-Devlet-Siyaset. Ankara, Altınordu yayınları, 2019, s.617-618

[325] Yenə orada, s.618-622

yaradılmasını, Azərbaycan türkcəsində kağız paraların basılmasını, Türkiyə ilə Azərbaycan arasında Dostluq evinin qurulmasını, Azərbaycan ziyalılarına, dövlət xadimlərinə abidələrin ucaldılmasını və digər milli məsələləri də irəli sürmüşlər.

May hadisələri Azərbaycan Respublikasının və Türkiyə Cümhuriyyətinin parlamentlərində geniş şəkildə müzaklirə olundu və rəsmi Tehranın nümayişçilərə qarşı amansız davranışları qınandı. Güney Azərbaycandakı milli hərəkat yenidən dünya siyasi müstəvisinə daxil oldu. Belə ki, artıq 26 iyun 2006-cı ildə Avropa Birliyinin üç komissiyasında "İran"la bağlı müzakirə gündəmə gətirildi. Bu komissiyalar - İnsan haqları Komissiyası, Təhlükəsizlik Komissiyası, Avropa Birliyinin İran üzrə Xüsusi Komissiyası - İranda yaşayan Azərbaycan türklərinin, ərəblərin, kürdlərin və bəlucların, hətta İran İslam rejiminə müxalif olan fars nümayəndələri də dəvət edilərək müzakirələrdə iştirak etdilər. Bu tədbirdə qəbul edilən bəyanatda Güney Azərbaycanla bağlı məsələlər də öz əksini tapdı. Bundan sonra, ABŞ Dövlət Departamenti və Avropa Parlamenti də Güney Azərbaycan türklərinin, eləcə də digər xalq və etnik qrupların hüquqlarının pozulması ilə bağlı bəyanat verdi.

22-28 may 2006-cı il may-xordad hadisələrindən sonra Azərbaycan milli hərkatının əsas diqqət mərkəzində 2011-ci ildən etibarən Urmiya gölünün sürətlə qurması və, hökumətin bu məsələyə biganə yanaşması olmuşdur.

Beləliklə, yeni dövrdə bütöv Azərbaycan ideyasına bu və ya digər şəkildə bağlı olan Azərbaycanın güneyində və quzeyində Azərbaycan Demokrat Firqəsi (ADF), Cənubi Azərbaycan Milli Azadlıq Hərəkatı (CAMAH), Güney Azərbaycan Milli İstiqlal Cəbhəsi, Güney Azərbaycan Aydınlar Birliyi, Dünya Azərbay-canlıları Konqresi (DAK-1, DAK-2), Güney Azərbaycan Milli Oyanış Hərəkatı (GAMOH), Yeni GAMOH, Bütöv Azərbaycan Birliyi (BAB), Dünya Azərbaycanlılarının Haqlarını Müdafiə Komitəsi, Güney Azərbaycan Milli Birlik Şurası, Bütöv Azərbaycan Ocaqları (BAO), Güney Azərbaycan Liberal Demokrat Partiyası (GALDP), Azərbaycan Qurtuluş Təşkilatı, Vahid Müstəqil Azərbaycan Cəbhəsi, Azərbaycan İstiqlal Şurası, Azərbaycan Demokratik Milli Birlik Şurası, Bütöv Azərbaycan Hərəkatı (BAH),

Azərbaycan Öyrənci Hərəkatı (AZÖH), Güney Azərbaycan Demokrat Partiyası (GADP), Azərbaycan Milli Dirəniş Hərəkatı (AMDH), Azərbaycan Siyasi Quruluşlarının Əməkdalıq Platforması və başqaları meydana çıxdılar.

Bu gün Güney Azərbaycan türklərinin birinci müttəfiqi məhz çağdaşlıq və onun mahiyyətini əks etdirən demokratiya və insan haqları məsələsidir. Dünya Azərbaycanlılarının Haqlarını Müdafiə Komitəsiinin rəhbərlərindən olmuş Böyük Rəsuloğlu bununla bağlı yazır: "Şovinizmin beynəlxalq səviyyədə əleyhimizə apardığı siyasi fəaliyyətə... qarşı ən dəyərli silah radikallıq, yıxıcılıq deyil, demokratiyadır. Güney Azərbaycan Milli Hərəkatı indiki anda yalnız beynəlxalq hüquq normalarından, milli müqəddəratımızı təyin hüququndan istifadə edərək fars şovinizmini diz çökdürə bilər...Bizim öz daxilimizdəki çatışmazlıqları gizlətmədən açıqlayıb, analiz edib çarə yolu tapmağımız Hərəkatımızın gələcəyinin təminatıdır". [326] Böyük Rəsuloğlu onu da yazır ki: "Bu gün fars şovinizmi bir dar boğazdan keçir və qurtulacağı yoxdur".[327]

Bu anlamda Azərbaycan Mərkəzli Türkçü Düşüncə Sistemi ideyasının müəllifi, siyasi-milli fəal, ideoloq Arif Kəskinin də baxışları maraqlıdır: "İstiqlal və Bütövlük problemimiz həll olunduqdan sonra da Azərbaycan və Azərbaycanlılıq olqusu davam edəcək. Bu yöndən baxıldığında istiqlal və Bütövlük bir dönəmsəl problemdir. Ancaq Azərbaycan və Azərbaycanlılıq isə tarix boyu davam edən bir olqudur". [328]

A.Kəskinə görə, bu o anlama gəlir ki, azərbaycanlılığın ön plana çıxması fonunda artıq Azərbaycan türkləri, eləcə də digər bəzi xalqlar üçün "iranlılıq" paradiqması çökməkdədir. O, yazırdı: "İran İslam Cümhuriyyətinin bir siyasi rejim olaraq məşrutiyyət böhranı Şiə-İslam böhranını da doğurmuşdur. İranda Şiə-İslamın siyasi müstəvidə bphranı iranlılıq kimlyini də tənəzzülə uğratmışdır. Şünki Şiə-İslam sistemi iranlılıq kimliyinin təməl nöqtəsi olmuşdur. İranlılıq kimliyinin təməl nöqtəsi olan Şiə-İslam sisteminin böhrana

---

[326] Rəsuloğlu, Böyük. Azərbaycan uğrunda. Bizim yol, Bakı, Nurlar, 2009, s. 90-91.
[327] Rəsuloğlu, Böyük. Azərbaycan uğrunda. Bizim yol, Bakı, Nurlar, 2009, s. 33
[328] Qasımlı A. Güney Azərbaycan türkləri son 100 ildə. Bakı, Adiloğlu, 2012, s.181

girməsi ilə iranlılıq kimliyinin tənəzzülə başlamışdır".[329] Kəskinə görə, iranlılığın çöküşü fonunda Güney Azərbaycan Milli Hərəkatı dominant bir hala gəlmişdir.

Güney Azərbaycanın başqa bir milli fəalı Rza Kəskin "Türk dili və İran kimliyi" (2000) kitabçasında yazır ki, "İran" cəmiyyətində ciddi böhran var və onun aradan qaldırmağın tək yolu dəyişikliklərin olmasıdır. Bunun üçün ilk növbədə, farsçılıq əsasında təşəkkül tapmış İran milli kimliyinə, İran milləti anlayışlarına yenidən baxılmasını zəruri hesab hedan R.Kəskinə görə, türk dilində yazıb yaratmaq istəyənlərə, türk mədəniyyətini təbliğ edənlərə bölücü, şovinist kimi baxmaq doğru deyildir.[330]

Prof. M.Zehtabi ilə birlikdə 1986-cı ildə "Azərbaycan Mədəniyyət Ocağı"nı yaradan, Azərbaycan Milli hərəkatının son dövrlərdə ən fəallarından biri olan Həsən ağa Dəmirçi Azərbaycani İran İslam rejimi tərəfindən daim təqiblərə və həbslərə baxmayaraq, heç bir zaman bu yoldan geri çəkilməmişdir. Dəmirçi də hesab edirdi ki, Azərbaycan türkləri qəsb edilmiş bütün haqlarını geri qaytarmalıdır.

Tanınmış ziyalı, prof. Nəsib Nəsibliyə görə Güney Azərbaycan Milli hərəkatının daxilindəki cərəyanlar arasında (mədəni muxtraiyyat, milli məhəlli muxtariyyat və ya federallaşma, milli istiqlal və b.) ən doğru olan istiqlalçılıqdır. Onun fikrincə, 1925-ci ildən etibarən İranda hakimiyyəti ələ alan İran Pəhləvilər və İran İslam rejimlərinin türklərə, oz cümlədən Azərbaycan türklərinə qarşı apardığı 100 illik assimlyasiya və məhvetmə siyasəti bundan başqa yolun nəticəsiz olduğunu ortaya qoyur.[331]

Nəsibliyə görə, Azərbaycan Milli hərəkatının uğur qazanması üçün milli qüvvələr ilk növbədə, "İran" xaricindəki "sağ" və "sol" dairələr Azərbaycan Türk xalqının azadlığı naminə bir araya gəlməyi bacarmaldır. İkincisi, milli qüvvələr federalçılıq, istiqlalçılıq, kültürçülük məsələlərində konkret yol tutmalı, müəyyən bir mexanizmlə, dəlilərlə öz işini aparmalıdır. Üçüncüsü, proqram

---

[329] Kəskin Arif, Yaşar Kalafat. İranlılıq paradiqmasının çöküş prosesi və güney Azərbaycan milli hərəkatının yüksəlişi // Güney Azərbaycan: Tarixi, siyasi və kulturoloji müsrəvidə (Məqalələr toplusu). Bakı, Azərnəşr, 2010, s.8

[330] Kəskin Rza. Türk dili və İran kimliyi. Zəncan, Sepehr nəşriyyatı, 2000, s.5-6

[331] Nəsibli Nəsib. Güneyli-Quzeyli məsələlərimiz. Bakı, «Aypara 3», 2013, s.193-195

sənədlərini qaydaya saldıqdan sonra, taktik məsələlər işlənib hazırlanmalı, konkret bir xətt üzərində işə davam edilməldiri. Dördüncüsü, milli qüvvələrin koordinasiya mərkəzi olmalı, beşincisi ölkə daxilində təşkilatlanma işi sürətlənməlidir. Altıncısı, federalçılar və istqilalçılar milli burjuaziyanı milli işə cəlb etməlidir.[332]

Dünya Azərbaycanlıları Konqresinin (DAK) həmsədri, tanınmış ziyalı, millət vəkili Sabir Rüstəmxanlı isə hesab edir ki, Güney Azərbaycan türklərinin gələcəyi ilk növbədə, öz əllərindədir və Türk birliyinin yolu da Güney Azərbaycandan, Azərbaycanın bütövlüyündən keçir: "DAK bir məslək işidir. Orada toplaşanlar, Bütöv Azərbaycan uğrunda mübarizə aparan, haqq səsinizi dünyaya çatdıran cəfakeş insanlardır". [333]

S.Rüstəmxanlı "İran"ın dini rəhbəri S.Ə.Xameneyi ünvanladığı açıq məktubunda da göstərirdi ki, Quranda belə xalqların təbii haqları tanındığı, aqibətlərinə görə hər bir xalqın özünün cavabdehlik daşıdığı halda, indiki İran İslam rejimi buna əməl etmir: "Quranda hər bir türk insanının baş ucundan asılması gərəkən ayələr çoxdur. Məsələn, 2-ci surənin 30-cu ayəsində açıq-aşkar deyilir ki, xalqlar öz aqibətlərinə görə məsuliyyəti özləri daşıyırlar. Zülmə dözüb başqasına boyun əyənlər öz bədbəxtliklərini yaxınlaşdıranlardır. Bunu bilə-bilə bizim milləti niyə zülmə və farslaşdırma siyasətinə dözməyə məcbur edrisiniz?". [334] Daha sonra S.Rüstəmxanlı doğru yazır ki,Azərbaycan türkləri hər zaman mənəvi dəyərlərə yüksək qiymət verən, mərhəmətli bir xalqdır: "Hakimiyyət onların əlində olanda İranda bütün millətlərin inkişafı üçün şərait yaradıb. Lakin Pəhləvi rejimi türk idarəçiliyinin bu tolerantlıq ənənələrini məhv etdi və bu yolla İran dövlətinin mənəvi dayaqlarını sarsıtdı. Bu gün də ölkənizin müxtəlif mətbuat orqanlarında türklər təhqir olunur, buna etraz edən soydaşlarımız isə dəstə-dəstə zindanlara atılır, adi haqlarını tələb etdiklərinə dəhşətli işgəncələrə məruz qalırlar. Bu onu göstərir ki, "İslam Cümhuryyəti" adına qurulmuş indiki hakimiyyəti türklərə münasibət baxımından Pəhləvi rejimindən heç nə ilə fərqlənmir".[335]

---

[332] Yenə orada, s.199-200
[333] Rüstəmxanlı Sabir. Dərdə əyilmə. Bakı, «Qanun», 2013, s.609
[334] Yenə orada, s.625
[335] Yenə orada, s.627

S.Rüstəmxanlıya görə, artıq Güney Azərbaycanlılar federallaşmadan, mədəni muxtariyyadan əl çəkib milli istiqlala doğru getməkdədir: "İndi Güneydə fikirlərin aydınlaşma prosesi gedir. Mövcud düşüncə fərqləri müzakirə edilir. Güneylilərin bir qismi İranın hamısına bir Türk dövlətii olaraq baxırlar və İranda Türk-Azərbaycan idarəçiliyinin yenidən gerçəkləşdirilməsini düşünürlər. Bir qisim güneylilər İranın federativ bir dövlətə çevrilməsini də məqbul sayırlar. Bunların yanında mədəni muxtariyyat istəyənlər, insan haqlarının bərpasını yetərli sayanlar da var. Amma çoxluq istiqlalını istəməkdədir. Dünya Azərbaycanlıları Konqresi də son söylədiklərimin yanındadır. Biz İran türklərinin istiqlalını doğru yol olaraq qəbul edirik. Çünki bunun böyük bir tarixi, dövlətçilik ənənəsi var".[336]

Bütöv Azərbaycan Hərəkatının (BAH) sədri Yasəmən Qaraqoyunlu hesab edir ki, artıq Güney Azırbaycanda İranlılıq paradiqması çökdüyü halda, Azərbaycanlılıq paradiqması yayılmaqdadır. Onun fikrincə, SSRİ-nin parçalanması və Quzey Azərbaycanın müstəqilliyini bərpa etməsindən sonra Güney Azərbaycan Milli hərəkatı İstiqlal hərəkatına çevrilmişdir. Qaraqoyunlu yazır: "Azərbaycanlılaşma, Türkləşmə, Çağdaşlaıma Güney Azərbaycan Milli hərəkatının əsas ideyasıdır. Güney Azərbaycanın siyasi gələcəyinin təsbitində Quzey Azərbaycan Respublikası bir model, örnək rolunu oynayır. Məhz bu baxımdan Quzey Azərbaycanda rəsmi dil, və milli kimlik, tarixi şüur, mədəniyyət, din kimi məsələlərdə, ideoloji-humanitar siyasətdə hər zaman Güney Azərbaycanla birləşmə perspektivinə əsaslanan siyasət yeridilməlidir. Güney Azərbaycan artıq öz gələcəyini qurmaq məqsədilə təşkilatlanmaqdadır". [337]

Y.Qaraqoyunluya görə, əvvəlki dövrlərlə müqayisədə bu gün Güney Azərbaycan təşkilatlarının çoxunun əsas amalı Güney Azərbaycanın istiqlalı, ortaq ideyaları isə türkləşmək və azərbaycanlılaşmaqdır. Onun fikrincə, artıq Güney Azərbaycan Türkləri bu günə qədər olan bütün hərəkatlardan, o cümlədən 21 Azər hərəkatından ciddi dərs çıxarmalı və yalnız Güney Azərbaycanın

---

[336] Yenə orada, s.658

[337] Qaraqoyunlu Yasəmən. Müasir Azərbaycan dövləti Azərbaycanın tarixi-etnik torpaqlarının onda birində qurulub. Transqafqaz.com. Bakı, 30 iyun 2020-ci il.

müstəilliyi uğrunda mübarizə aparmalıdır.[338]

Böyük Quruluş Partiyasının başqanı, millət vəkili Fazil Mustafa (Qəzənfəroğlu) da hesab edir ki, yeni dövrdə "Bütöv Azərbaycn ideyası"nı dilə gətirən və siyası hədəfə çevirən Əbülfəz Elçibəy olmuş, daha sonra özü də daxil olmaqla bir çox təbliğatçılar meydana çıxmış, təşkilatlar yaranmışdır. Ancaq artıq Bütöv Azərbaycan ideyasına bir qədər fərqli rakursdan yanaşdığını deyən F.Mustafaya görə iki yüz il öncə çar Rusiyasının işğal etdiyi Quzey Azərbaycanda bu gün müstəqil, dünyəvi Azərbaycan Respublikası olduğu halda, Güney Azərbaycanda isə yenə də danışılan, savaşılan, müqavilə bağlanan İran var. O, yazır: "Və bir də İranın içərisində beş yüz il, iki yüz il öncəkindən düşüncə sisteminə görə fərqlənməyən əhali var, bu əhalinin də adı azərbaycanlılarıdr. Ayrılma yoxdursa, birləşmə ifadəsini haradan götürmüşük? Biz İrandan qurtulmuşuq, qopmuşuq, Səfəvi-molla zehniyyətindən qismən qurtularaq anti-İran mahiyyətli 1918-ci il Cümhuriyyətini qurmuşuq və bugünkü müqəddəs dəyərimiz olan bu dövlət də həmin Cümhuriyyətin varisidr. Artıq ağlı başında olan insanlar bilir ki, dünyanın atə. Altında geridə qoyduqlarımızı qayıdıb götürmək həm də qazandığımızın itirilməsi mənasına gələcək. Bu gün Güney Azərbaycanda yaşayan insanlar da, Borçalıda, Dərbənddə yaşayanlar da bizim canı, qani, dili bir qardaşlarımızdır, ancaq vahid bir coğrafiyanın içində onları yaşatmaq xəyallarını qurmaq əvəzinə, onların yaşadıqları ərazinin hüquqlu, zəngin,dövlət idarəçiliyinə təsir gücü olan vətəndaşlarına çevrilməsinə yardım etməliyik". [339]

Üstəlik, F.Mustafa bütöv azərbaycançı ideoloqlardan fərqli olaraq hesab edir ki, bu gün bütöv azərbaycançıların ümid etdiyinin əksinə olaraq, hazırda İran türkünün özünü Azərbaycan türkü kimi tanıması prosesinin güclənməsi əvəzinə, daha çox din faktorunun, yəni şiəliyin təsiri ilə Azərbaycan türkünün İranlı kimliyinə bağlanışı prosesinin gücləndiyi müşahidə edilir. Onun fikrincə, yaşadığımız bölgədə Azərbaycan türklərinin məskunlaşmasını daha qədimlərə daşıma cəhdləri də bizi daha güclü və qədim İran mədəniyyətinin,

---

[338] Qaraqoyunlu Yasəmən. Azərbaycan Milli hərəkatı milli iradəyə söykənməlidir. Aqreqator.az. Bakı, 12 dekabr 2019-cu il.
[339] Mustafa Fazil. Bütöv Azərbaycanlı axtarışı. Bakı, «Nurlar» NPM, 2014, s.155

fəlsəfəsinin, dini ənənələrinin içində əritməyə yönləndirir. Ona görə, bütün bunları bir kənara qoyub, Azərbaycan türkləri düşüncəsini, tarixini İran kültür məkanından qopararaq daha irəlici Türk kültür dairəsinin güclənməsinə dəstək verməyə sərf etməlidir.[340] F.Mustafa yazır: "İndi düşünək, Azərbaycan türklüyü farsların milli dini olan Şiəliklə öz arasında sərhədləri cızaraq, Peyğəmbər Məhəmmədin təbliğ etdiyi İslama qovuşarsa; ən azı otuz milyona yaxın insanımız Allaha daha gücül və təqiyyəsiz bir imanla bağlanacaq, Allaha başqa qulların vasitəçiliyinə üz tutmayacaq, Allahın dinini də bir qrup Səfəvi mollasının inhisarına, İrançı zehniyyətə təslim etməyəcəkdir. Fars dininin daşıyıcısı olaraq, bizlər bu gün əslində Türk vücudu ilə düşünən İranlılarıq. Bu cür dəyişməz formada mühafizə edilən dini-fəlsəfi dünyagörüşün ictimai tərəqqiyə müsbət mənada təsir göstərmək imkanları isə xeyli azdır. Acı bir həqiqtədir ki, şimalda olan qismimiz Türkmənçay hadisəsi ilə 1828-ci ildə İran bataqlığından qurtulub modern dünya haqqında təsəvvürə sahib olma şansı qazansaq da, böyük çoxluğumuz cənubda hətta, İrana nifrət edən İrançı olaraq qalmağa davam edirik". [341] Deməli, F.Mustafa Bütöv Azərbaycan ideyasını artıq bir kənara qoyub, daha çox Azərbaycan Respublikasının güclənməsi və onun sərhədlərindən kənarda yaşayan azərbaycanlıların, o cümlədən Güney Azərbaycan türklərinin də mövcud olduqları dövlətlərin tərkibində bütün sahələrdə birləşib önə çıxmalarını daha uyğun görməkdədir.

BAO Mərkəzi Şurasının üzvü, tanınmış ziyalı, tarixçi alim Aydın Qasımlı isə hesab edir ki, Güney Azərbaycan Milli Hərəkatının ideya qaynağı istiqlal və bütövlük məfkurəsini də öz içində barındıran Azərbaycan Mərkəzli Türkçü Düşüncə Sistemidir: "Azərbaycan Mərkəzli Türk Düşüncə Sistemi Azərbaycan Türklərinin iqtisadi, siyasi, sosial və mədəni inkişafını qapsayan milli səadətini Azərbaycanlılıqda görən, Azərbaycan Türk kimliyini mərkəz qəbul edən, Azərbaycan Türklərinin dil, tarix, coğrafiya və mədəni düşüncəsini ortaya qoyan, istiqlal və Bütövlüyü Azərbaycanlılıq kimliyinin nəticəsi hesab edən, Güney Azərbaycan

[340] Mustafa Fazil. Azərbaycanda türk kimliyi və saxta tarix problemi. Bakı, «Nurlar» NPM, 2014, s.8
[341] Yenə orada, s.624

Türklərinin problemlərini İran mərkəzli arayışların içərisində həll olunmayacağını irəli sürən, Fars və İran Mərkəzli hər cür arayışların Azərbaycan və Azərbaycanlılıq varlığına təhdid və təhlükə olaraq görən və Azərbaycanı mərkəz qəbul edən və Azərbaycan Türk milliyyətçiliyndə milliyyətçilik və dövlətçiliyi birləşdirən bir dünyagörüşdür. Bu dünyagörüşün başlıca hədəfi Azərbaycan Türk kimliyini qorumaq və bu kimlik içərisində Azərbaycan Türklərini iqtisadi, siyasi və mədəni inkişafa erişdirməklə sonda Müstəqil, Demokratik Güney Azərbaycan Dövlətini yaratmaq, Azərbaycanın Bütövlüyünə nail olmaq və onu əbədi qoruyub saxlamaqdır".[342]

Tanınmış ziyalı-alim, prof. Vaqif Sultanlı isə hesab edir ki, dünya təcrübəsindən çıxış edərək hazırda Güney Azərbaycan mühacir dövlətinin yaranmasına ehtiyac var. O, yazır: "Ümumiyyətlə, qeyd olunmalıdır ki, dünya təcrübəsində mühacir dövlətlərin yaranması əsasən iki aspektdə özünü göstərir: 1) mövcud siyasi rejimə və onu devirmək məqsədinə, 2) istiqlalliyət və öz müqəddəratını təyinetmə missiyasını gerçəkləşdirmək məqsədinə. Güney Azərbaycan mühacir dövlətinin yaradılmasının milli haqlarımızın daha çevik şəkildə siyasi gündəmə gətirilməsinə təkan verəcəyi şübhə doğurmur. Çünki burada problem rejimi dəyişməyə deyil, istiqlal məfkurəsinin gerçəkləşməsinə, milli haqların tanınmasına, millətlərin müqəddaratını təyinetmə prinsiplərinə əsaslanır". [343]

Ümumiyyətlə, bu gün Güney Azərbaycan türklərinin, ümumilikdə Azərbaycan türklərinin gələcək müqəddəratı, siyasi statusu ilə bağlı dörd istiqamətdən, ya da dörd mülahizədən bəhs etmək mümkündür:

1) Güney Azərbaycanın İran adlanan ölkənin tərkibində mədəni muxtariyyət qazanmasını istəyənlər və bu istiqamətdə çalışanlar (Türk dilinin status qazanması, Türk mədəniyyətinin status əldə etməsi, Türk dilində orta və ali məktəblərin olması və s.);

2) Güney Azərbaycanın mərkəzə bağlı məhəlli və ya milli muxtariyyət qazanmasını istəyənlər və bu yöndə çalışanlar (daha çox

---

[342] Qasımlı A. Güney Azərbaycan türkləri son 100 ildə. Bakı, Adiloğlu, 2012, s.180

[343] Sultanlı Vaqif. Güney Azərbaycan mühacir dövlətinin yaradılması zərurəti // Güney Azərbaycan: Tarixi, siyasi və kulturoloji müstəvidə (Məqalələr toplusu). Bakı, Azərnəşr, 2010, s.29

ölkənin federalaşmasından çıxış edənlər və Güney Azərbaycan Muxtar Respublikasının yaranmasını istəyənlər);

3) Güney Azərbaycanın müstəqillik qazanması və gələcəkdə Quzey Azərbaycanla birləşməsi yönündə çalışanlar (istiqlalçılar və bütövlük tərəfdarları);

4) İran adlanan ölkədə hakimiyyətin Türklər tərəfindən bərpa olunmasını, hətta bundan sonra Quzey Azərbaycanın da həmin dövlətdə birləşdirilməsini istəyənlər və bu yöndə çalışanlar (turançılar).

Əslində bu gün milli-mədəni muxtariyyatdan daha çox Qacarlar dövləti dövründə olduğu kimi, milli-məhəlli muxtariyyatı tələb edənlər və bununla da federallaşmaya meyil göstərənlər daha çoxdur. Hər halda Güney Azərbaycan türkləri Səfəvilər, Əfşarlar və Qacarlar dövründə olduğu qədər olmasa da, ən azıdnan Azərbaycanın muxtariyyat stausunu bərpa etmək istəyirlər. Əgər bu status da mərkəzi hökumət, yəni rəsmi Tehran tərəfindən gerçəkləşdirilməyəcəksə, o zaman Güney Azərbaycan türkləri bu dövlətin tarixi, hüquqi və faktiki qurucuları olmalarına baxmayaraq, onun tərkibindən çıxıb ayrıca dövlət olmaq haqqını gerçəklədirməli olacaqdır.

Bu o deməkdir ki, hazırda "İran İslam Respublikası" adlanan dövlətdə Güney Azərbaycan və onun xalqı bu dövlətin qurucusu olaraq nəinki haqq etdiyi yerdədir, üstəlik ən çox haqsızlığa məruz qalmaqdadır. Təbii ki, bu sonsuza qədər belə davam edə bilməz. Bu anlamda bu problemin həlli milli mədəni muxtariyyatda deyil, ən azından milli-məhəlli muxtariyyatdadır. Milli-məhəlli muxtariyyat isə o deməkdir ki, Güney Azərbaycan "İran İslam" adlanan ölkədən ayrlmır, ancaq onun idarəetmə orqanları, qanunvericilik orqanları, bələdiyyə orqanları əsasən Güney Azərbaycan xalqının özü tərəfindən müəyyənləşdirilir. Şübhəsiz, bu da, daha çox "İran"ın federallaşması deməkdir ki, Qacarlar dövründə (məşrutəyə qədər də, məşrutədən sonra da) də məhz ölkə bu yöndə idarə olunmuşdur. Sadəcə, məşrutədən sonra bu kimi məsələlər həm hökumət, həm də parlament tərəfindən bir az da inkişaf etdirilmişdir.

Əgər Tehran hökuməti türklərin, o cümlədən Güney Azərbaycan türklərinin neçə minllik haqqını bərpa etməkdənsə, assimil-

yasiya siyasətinə davam edəcəksə, o zaman yeni bir Türk dövlətinin yaranması qaçılmaz olacaqdır. Bizcə, artıq hazırda Güney Azərbaycan türklərinin də Təbrizdə yeni bir Türk dövləti yaratmaqdan başqa yolu qalmayıb. Çünki ötən 40 il ərzində İslam dini adı altında hakimiyyəti idarə edən İran İslam rejimi aryançı qılığından və Türk düşmənçiliyindən əl çəkmədi. Bu isə o deməkdir ki, 54 illik Pəhləvilər rejimi kimi İran İslam hakimiyyətinin də Türkün haqqını Türkə vermək niyyəti yoxdur üstəlik, aşkar şəkildə Türk düşmənçiliyi siyasətini də aparmağa davam edir.

Əgər 1925-ci ilə qədər pis-yaxşı bu dövlətdə hakim bir millət olan türklər bu gün nə milli-mədəni muxtariyyata, nə də milli-məhəlli muxtariyyata rəva görülmürsə, o zaman tək yol yeni bir dövlət yaradıb sıfırdan başlamaqdır. Bir sözlə, vaxtilə özünün yaratdığı dövlətdə artıq bir əsrə yaxındır, bütün haqq və azadlıqlardan məhrum olan şərəfli, qürurlu bir millətin yapa biləcəyi tək xilas yolu, əvvəllər də bunu dəfələrlə ortaya qoyduğu kimi, yeni bir Türk dövlətçiliyinin əsasını qoymaqdır. Sadəcə, yeni bir Türk dövləti bu dəfə hər hansısa bir Türk boyunun öncüllüyü ilə deyil, kollektiv Türk şüurunun nəticəsi olaraq meydana çıxmalıdır. Yəni Türkün Oğuz və Qıpçaq boyları ortaq Türk dünyagörüşündən, Türklük şüurundan hərəkət edərək Azərbaycan mərkəzli Türk dövlətçilyini yaratmaq üçün hərəkətə keçməlidirlər.

Yeni bir Türk dövlətinin sərhədlərini, coğrafiyasını, bayrağını, idarəetməsini isə onun, neçə min illik Türk dünyagörüşü bəlirləyəcəkdir. Biz Türklər hər zaman Türklük şüuru ilə, Türk fəlsəfəsi ilə dövlətimizi yaratdıq, böyütdük və ucalqtdıq. İndi də Türk xalqı eyni yoldan hərəkət edib yeni bir Türk dövlətini yaradacaq, bizimlə bərabər olmaq istəyənlərə qapısını açıq tutacaq, düşmənçilik edənlərə də layiqli yerini göstərəcəkdir.

Beləliklə, bizcə, yeni bir Türk dövlətinin quruculuğu yolunda millətləşmə, dövlətləşmə və bütövləşmə dedikdə, aşağıdakılar nəzərdə tutumalıdır:

Biz, **millətləşmə** dedikdə, yeni bir millət yaratmağı deyil, dünənə qədər var olmuş böyük Türk millətimizin bütün sahələrdə (dil, tarix, mədəniyyət və s.) dirilişini dərk etməliyik.

Biz, **dövlətləşmə** dedikdə dünyada ilk dəfə dövlətə sahib olmağı deyil, vaxtilə var olmuş dövlətlərimizin (Aratta, Kuti, Subar, Turukki, Manna, Midiya, Oğuzlar, Xəzərlər, Hunlar, Səlçuqlar, Baharlılar, Bayandurlular, Qızılbaşlılar, Əfşarlar, Qacarlar və b.) külləri içindəki qığılcımları tutuşdurmaq və növbəti bir Türk dövlətini ortaya qoymağı idrak etməliyik.

Biz, **bütövləşmə** dedikdə, Türk şüurumuzdakı bütün yad ideyalardan qurtulmağı, yad dövlətlərin tərkibində parça-parça yaşamağı bir kənara qoyub, həm şüuri, həm də fiziki anlamda bir olmağı anlamalıyıq.

Demək istədiyimiz odur ki, millətləşmə, dövlətləşmə və bütövləşmə anlayışlarına qarşılqılı şəkildə baxaraq, birinin o birisi ilə daim bağlılığını göz önündə tutaraq, yeni bir Türk dövləti yaratmaqdan başqa çarəmiz yoxdur. Artıq bizlər nə Səfəviləri, nə Əfşarları, nə də Qacarları bərpa edə bilmərik, çünki o dövlətlərimizin ilkin mahiyyəti ilə son mahiyyəti arasında xeyli fərqlər vardır. Bunu bizə edənlər təbii ki, Türk düşmənləri oldular və həmin dövlətlərimizi, ən sonuncu olaraq da Qacarlar Türk dövlətini əlmizdən aldılar. Artıq biz türklər, nə qədər də desək ki, İran Pəhləvilər, İran İslam rejimləri də bizim Türk dövlətçiliyimiz üzərində qurulub, bu gerçəklik dövlətimizin artıq əlimizdən çıxması gerçəkliyini ortadan qaldırmır və qaldırmayacaq da. Ona görə də millətləşmə, dövlətləşmə və bütövləşmə üçüçlüyündən çıxış edərək yeni bir Türk dövlətinin təməlini atmaq lazmdır. Şübhəsiz, böyük Azərbaycanın bir hissəsində kiçik bir Azərbaycan Respublikasının mövcudluğu isə yaxın illərdə qurulacaq böyük Türk dövlətinin əsas nüvəsidir. Bu, elə bir təbii gerçəklikdir ki, bütün dünya millətləri bir araya gəlib buna qarşı çıxsalar belə, yenə də Azərbaycan mərkəzli yeni böyük Türk dövlətinin meydana çıxmasına əngəl ola bilməyəcəklər.

**Çağdaş dövrdə Turan-İran məsələləri kontekstində Azərbaycanı bütövləşdirməyin əsasları.** Əsrlərlə aparılan antitürk ideologiyanın nəticəsi olaraq ingilislər başda olmaqla, Avropa dövlətlərinin iş birliyi nəticəsində 1925-ci ildə Türk Qacarları devirlərək onların yerinə aryançı fars Pəhləviləri hakimiyyəti gətirilməsi artıq heç kəsə sirr deyil. Bununla da əfsanəvi "İran"ın gerçəkçi bir İran dövlətinə çevrilməsi üçün ciddi zəmin hazırlanaraq

türklərin ən azı min ildən çox idarə etdiyi bölgənin bilərəkdən farsçı-ariyançı "İran"a çevrilməsi prosesinə rəsmi şəkil verilməyə başlandı. Məhz bunun nəticəsi olaraq, öncədən də "İran" və "Turan" məsələlərində şüuru qarışdırılan türklər, o cümlədən türk aydınlar arasında "Arian" kimlikli Pəhləvilərin hakimiyyətə gətirilməsiylə də, ziddiyyətli düşüncələr daha da dərinləşdi. Başqa sözlə, Qacarların devrilməsindən sonra (1925) türklər arasında "Türk Turanı" (Turanian) ilə yanaşı, ortaq vətən, mədəniyyət və dövlət kimlili "İran" anlayışı şüurlarda yer tapmağa başladı. Bizcə, "İran" anlayışının türklər arasında ziddiyyətlərə yol açmasının nəticəsi olaraq Azərbaycan türklərinin əksəriyyəti bundan çıxış yolu kimi Arian-Fars kimlikli "İran"a qarşı, Türk-Turan kimlikli "Azərbaycan"ı ortaya qoydular. Yəni 1925-ci ildə Türk Qacarlar dövlətini itirməyimizin nəticəsi olaraq ortaya çıxan aryan-fars kimlilki "İran"a qarşı olaraq təskinliyimizi, daha sonra da xilasımızı Türk "Azərbaycan"da aramağa başladıq. Çünki Türk ulusu olaraq şüurmuzu dolaşdıran Fars-Arian "İran"ından qurtulmaq üçün ilk növədə, Turan deyil, Bütöv Azərbaycan qurtuluş yolumuz kimi görünməkdədir.

Bu anlamda vaxtilə Türk hökmdarlarınını apardığı mücadiləni və islahatları da Turan çərçivəsində deyil, geniş mənada "İran" dar anlamda isə Azərbaycan yönündən yanaşırıq. Bu zaman Azərbaycanı müdafiə etmək naminə də Türk hökmdarlarının mücadiləsini və islahatlarını 1925-ci ilə qədər pis-yaxşı mövcud olan Türk sülalələ dövlətlərinin "Turan" çərçivəsində deyil, 1925-ci ildən sonra hakimiyyətə gətirilmiş Pəhləvilərə nisbətdə Fars-Arian "İran"ı kontekstində görür, bu cür "İran"ı da yalnız 1925-ci ildən sonraya yox bütün zamanlara şamil edərək Azərbaycanın daimi düşməni kimi qələmə veririk. Sovetlər Birliyinin və Pəhləvilərin Azərbaycan türklərinə qarşı apardığı aşağı-yuxarı eyni siyasət nəticəsində də Nadir şah Əfşarlar, Şah İsmayıl Xətayilər, Şah Təhmasiblər, Nadir Şah Əfşarlar, Ağa Məhəmməd şah Qacarlar bir sözlə, bütün Türk hökmdarları "İran" şahına çevrilir, "İran" şahları kimi də Türkün və Azərbaycanın düşməni olurlar. Başqa sözlə, Sovetler Birliyində Stalinin, Pəhləvilərdə Rza Pəhləvinin apardığı siyasət Azərbaycan türklərinin kimliyinə yönəldilmiş, bunun nəticəsi olaraq dövriyyəyə saxta "İranlı" və "Azəri" kimliyi gətirilmişdir.

Ona görə də, Türkiyə və Azərbaycanın rəsmi tarixçiliyində 1925-ci ildən sonrakı "İran"a nisbətlə "İran şahları" kimi adı keçən bütün Türk hökmdarları düşmən və işğalçı kimi qələmə verilirlər. Özəlliklə, Sovetlər Birliyi dövründə yazılan rəsmi "Azərbaycan tarixi"kitablarında 1925-ci ildən sonrakı "İran"a nisbətlə Səfəvilər, Əfşarlar, Qacarlar dövlətləri heç bir saf-çürük edilmədən, özəlliklə son min il ərzində bu coğrafiyada Türklərin hakimiyyət sürmələri nəzərə alınmadan bütünü Azərbaycana, Türkiyəyə bütünlükdə Türklüyə düşmən kimi qələmə verilmişdir.

Ona görə də hesab edirik ki, "Azərbaycan tarixi" kitablarında Səfəvilərin, Əfşarların, Qacarların hakimiyyətini yalnız "İran hökmranlığı" kimi qələmə verib, onlardan "yadelli hökmranlıq" kimi bəhs etmək doğru deyildir. Özəlliklə də, Nadir şah Əfşar ya da Ağa Məhəmməd şah Qacar necə "yadelli hökmran" ola bilər ki, onlar Azərbaycanı hər şeydən üstün saymış, hakimiyyətlərini Turanın mərkəzi Azərbaycanda bəyan etmiş, dövlətin iki mühüm paytaxtını – Təbrizi və Tehranı Azərbaycan ərazisində tutmuşdular. Yoxsa, kimlərsə xəyal edirlər ki, Əfşarlar ya da Qacarlar bu dövləti ingilis-amerikan-masson birliyinin əliylə hakimiyyətə gətirilən "Pəhləvilər", ya da indiki şiəçi-farsçı "Mollalar" üçün qurmuşlar? Əgər yalnız buna istinad edərək Əfşarlar və Qacarları "yadelli" hesab edənlər varsa böyük yanlışlıq edirlər. Əgər bu gün türklər ən azı min ilə yaxın bir tarixdə hakimiyyət sürdükləri əfsanəvi ya da gerçək Turan və İran coğrafiyalarında mövcud olan "İran İslam Respublikası"nda haqsız duruma düşüblərsə, bu fars ya da farsdillilərin qəhrəmanlığı ilə deyil, ingilis-rus-alman qüvvələrinin işbirliyi nəticəsində baş vermişdir.

Ona görə də, bu gün əfsanəvi ya da gerçəkçi Turan və İran coğrafiyasında mövcud olan "İran İslam Respublikası"nın varlığını göz önündə tutaraq, üstəlik türklərin burada əsasən söz sahibi olmamasından çıxış edərək Səfəvilər, Əfşarlar və Qacarlardan imtina etməyimiz doğru deyildir. Çünki xarici qüvvələrin əliylə sonuncu Oğuz-Türk dövləti Qacarların yerinə hakimiyyətə gətirilmiş farsdilli "Pəhləvilər"lə "Mollalar" türklər olmadan varlıqlarını sürdürə bilmək halında deyildir. Hər halda bugünkü "İran İslam Respublikası" adlı dövlətin hakimiyyətində türklər, özəlliklə Azərbaycan türkləri mühüm yer tutmaqdadır. Bir sözlə, Türklər, o cümlədən Azərbaycan

türkləri olmadan Pəhləvilər dönəmində olduğu kimi, "İran İslam Respublikası" böyük ölçüdə əhəmiyyətini itirir. Bunu, "İran İslam Respublikası"nda hakim qüvvə olan farsdilli "Mollalar" rejimi də, onları vaxtilə Türk Qacarların yerinə hakimiyyətə gətirmiş xarici qüvvələr də yaxşı bilirlər. Əgər bu gün türklər, o cümlədən bu millətin ana qolu olan Güney Azərbaycan türkləri "İran İslam Respublikası"ndan ayrılıb müstəqilliyini elan edərsə, "İran" adlanan ölkə demək olar ki, bitər.

Ona görə də, indiki farsdilli şiəçi "Mollalar" rejimi da yaxşı anlayırlar ki, "İran İslam Respublikası"nın hakimiyyətini, onun parlamentini, dini rəhbərliyini Azərbaycan türklərindən tamamilə kənarda tutmaq ağılsızlıq, məntiqsizlikdir. Heç bunu, ingilis-amerikan qüvvələrinin əliylə hakimiyyətə gətirilmiş farsdilli Pəhləvilər bacara bilmədilər. Sadəcə, Pəhləvilər dövründə də yüksək, məsul vəzifə tutan Türk məmurlarının, Türk millət vəkillərinin, Türk dini rəhbərlərinin əksəriyyətinin şüurunda "İran"ın bütövlüyü, "İrançılıq" əsas yer tuturdu. Doğrudur, Azərbaycandan olan türk məmurlar, dini rəhbərlər, millət vəkilləri arasında da Azərbaycan türklərinin "İran İslam Respublikası"ndakı mövcud durumuyla razılaşmayanlar var. Özəlliklə, Türk dilinin orta məktəblərdə tədris olunmaması, Türk dilində mətbuatın azlığı, Urmiya gölünün quruması, Azərbaycan türk torpaqlarının digər ostanlar arasında bölüşdürülməsi, Oğuz-Türk mədəniyyətinə biganə münasibət və digər məsələlər buraya aiddir. Bütün bular isə, "İran", "İrançılıq" eyni zamanda şiəçilik ideologiyaları adı altında istismar olunan türkləri, o cümlədən Azərbaycan türklərini yeni yollar aramağa məcbur edir. Bunu, son günlərdə yaradılmış Türk millət vəkillərinin fraksiyası da bir daha ortaya qoymuş oldu. "İran" parlamentinin az qala yarısını təşkil edən Türk millət vəkillərinin Fraksiyasının yaradılması da göstərdi ki, son yüz ildə "İran", "irançılıq" ideologiyasının Türklərin ya da Azərbaycan türklərinin varlığını inkarı üzərində qurulması əsasən, heç nəyi dəyişdirməmişdir.

Təbii ki, bu günə qədər türklərin, o cümlədən Azərbaycan türklərinin indiki "İran İslam Respublikası"nda tamamilə təsirsiz hala gətirilə bilməməsində yaxın 10 yüz ildə Azərbaycan Türk sülalələrinin (Atabəylər, Elxanilər, Qaraqo-yunlular, Ağqoyunlular,

Səfəvilər, Əfşarlar vəb.) burada hakimiyyət sürməsi faktı əsas rol oynayır. Əslində məhz Oğuz-Türk sülalə dövlətlərinin sayəsində indiki "İran İslam Respublikası" mövcuddur, dünyada müəyyən bir nüfuzu vardır. Halbuki indi "İran"da hakim qüvvə olan aryançı farslar, farsdillilər son on (10) əsrdə demək olar ki, Türklər, o cümlədən Azərbaycan Türkləri qədər bu ərazilər üçün savaş verməmiş, onun böyüməsində və mövcudluğunda həlledici rol oynamamışlar. Oğuz-Türk boylarının gücü və idrakıyla qurulmuş Səfəvilər, Əfşarlar və Qacarlar dövründə bu torpaqlar üçün yüzlərlə savaşlar aparmış, eyni zamanda yüzminlərlə, milyonlarla övladlarını bu yolda qurban vermişlər. Belə olduğu təqdirdə, Türklər, Azərbaycan türkləri necə ola bilər ki, Səfəvilərdən, Əfşarlardan, Qacarlardan imtina etsinlər?! Onlar bu savaşları apararkən Fars milləti, ya da Farsistanla deyil, ilk növbədə Oğuzluğuı, Türklüyü, Azərbaycanlığı ilə öyünmüşlər.

1925-ci ildə Böyük Britaniyanın birbaşa dəstəyi ilə Qacarlar dövlətini qanunsuz olaraq devirərək onun yerinə "İran-Pəhləvi" adlı saxta bir hökumət quran, daha sonra bu saxtakarlığı "İran İslam Cümhuriyyəti" ismiylə 1979-cu ildən indiyə qədər davam etdirən "şiəçi-irançı mollalar"a qarşı əsas gücün Türklər, o cümlədən Azərbaycan Türkləri olması şübhəsizdir. 1925-ci ilədək Qacarlarda, yəni öz dövlətlərində pis-yaxşı yaşayan Azərbaycan Türklərinin "İran-Pəhləvi" və "İran İslam Cümhuriyyəti" dövrlərində ön plana çıxmasının əsas səbəbi qanunsuz hakimiyyətə gələnlərin, özlərini türklər qarşısında ağa kimi apararaq bütün haqq və hüquqlarını tapdalamaları, qanları bahasına qurulmuş dövlətin din-məzhəb qardaşı saydıqlarının əliylə əleyhinə çevrilmələri olmuşdur. Əgər Qacarlar dövləti dövründə fars, türk, kürd, ərəb, lur fərqi qoyulmadan hər bir etnik qrupun dilinə, mədəniyyətinə, əxlaqına, həyat tərzinə saygı göstərilirdisə Türkün qurduğu dövlətdə ingilislərin oyuncağı olaraq "hakim" olan "irançı"ların özəlliklə, Türk düşmənçiliyi qəsdli xarakter daşımışdır.

Belə ki, irançı-şiəçi "mollalar" Türksoylu millət vəkillərinin təmsil olunduğu fraksiyanın yaradılmasına icazə verməsinin ardınca, Azərbaycanda 6 illik ibtidai təhsil üçün Ana dili dərsliyi hazırlanması haqqında qərar da qəbul edib. Farsların öncüllüyündəki

sözdə demokratik "İrançılar"la, sözdə dinçi-şiəçi "mollalar" Türk dövlətini qanunsuz olaraq qəsb etdikllərini yaxşı bilirlər, bunu yaxşı bildikləri üçün də məcburən bu addımları atırlar. Vaxtilə irançı-şiəçi "mollalar" bu qanunsuzluqlarını Əhəmənilər və Sasanilərdən qalma dövlətçilikləriylə, bu coğrafiyada onlardan əvvəl və sonra mövcud olmuş Türk dövlətçiliyini ört-basdır etmək istəsələr də, bu çox da uğurlu alınmayıb. Onlar yaxşı bilirlər ki, Avroplıların da yardımıyla ortaya qoyduqları bu cür aldatmacalar, quramalar müvəqqətidir və Türkün varlığı gec-tez onların saxta "İran-İslam" adlı qurama dövlətçiliyini məhv edəcəkdir. Ona görə də şiəçi-irançı "mollalar" ikibaşlı oyun oynayırlar. Belə ki, qanunsuz olaraq "hakim" qüvvəyə çevrildikləri gündən (1925) üzü bəri bir tərəfdən Türklərin, o cümlədən Azərbaycan türklərinin milli varlığına fasiləsiz olaraq qəsd edir, yəni onun dilini, mədəniyyətini, əxlaqını, həyat tərzini aşağılayırlar. Buna paralel olaraq da Azərbaycan türklərinin "İran-fars" kökənli olması təbliğatını aparır, ortaq yurd və ortaq kimlik anlamında "İran", "İranlı", "İran mədəniyyəti" kimliyini üst səviyyəyə qaldırmağa çalışırlar. Digər tərəfdən şiəçi-irançı "mollalar" din amilindən yararlanaraq Azərbaycan türklərinin müsəlman kimliyini qanunsuz ağalıqları yolunda bir oyun halına salmışlar. Bir sözlə, şiəçi-irançı "mollalar" hər iki amildən istifadə edərək qanusuz ələ keçirdikləri Türk dövlətinin yenidən əsil sahiblərinə qayıtmamasına çalışırlar.

Bu anlamda şiəçi-irançı "mollalar"ın son zamanlarda Türklərin, o cümlədən Azərbaycan türklərinin xeyrinə atdığı kimi görünən addımlara çox həssas yanaşmalıdır. Qacarlardan qəsb olunmuş Parlamentdə əsasən Türksoylu millət vəkillərinin təmsil olunduğu fraksiyanın yaradılması, eyni zamanda Azərbaycanda 6 illik ibtidai təhsil üçün Ana dili dərsliyinin hazırlanması müsbət amillər olsalar da, bunu  böyük bir uğur hesab edib şişirtmək də, eləcə də "mollalar"ın oyunu sanıb tamamilə gözardı etmək də doğru deyildir. Doğrudur, bu gün Qacarlar dövlətində qanunsuz olaraq oturan "irançı-şiəçi" qılıqlı "mollalar"ın qismən də olsa, bu addımları atmaqla Türk varlığıyla razılaşmalı olmaları ən azı 1925-ci ildən indiyə qədər apardıqları antitürk ideologiyasının az-çox uğursuzluğunu ortaya qoyur. Ancaq Qacarlar-Türk Parlamentini "İran-Fars Parlamentinə" çevirərək biz türklərə Türk Fraksiyasını

"bəxş" edənlərə, eləcə də avropalıların əliylə yağmaladıqları Türk dövlətinin yerində qurduqları qanunsuz "hakimiyyətləri" dönəmində Ana dili-Türk dilinin aradan qaldırıb indi bu yöndə hansısa kiçik bir güzəştə gedənlərə haqq etdikləri yerlərini göstərənə qədər əsas hədəfimizdən uzaqlaşmamalıyıq. Çünki irançı-şiəçi "mollalar" bu addımları atmağa məcbur olsalar da, ancaq onların da özlərinə görə müəyyən planları var. Şübhəsiz, "irançı-şiəçi" qılıqlı "mollalar" bu addımları atmaqla Azərbaycan Türklərini əsas hədəfdən yayındırmaq, bununla da qanunsuz ağalıqlarını sürdürmək məqsədi güdürlər. Bu anlamda buna oxşar digər "gözlənilməz" addımlar da atmağa davam edəcəklər. Belə bir durumda Azərbaycan türkləri daha soyuqqanlı davranaraq Qacarlar dövründə qəsb olunmuş dövlətçiliyini bərpa etməyə çalışmalıdırlar. [344]

İrançı-şiəçi mollalar dərk etməyə başlayıblar ki, Qacarlardan qəsb etdikləri dövləti nə irançılıq, nə də şiəçiliklə saxlamaq mümkün deyildir. Azərbaycan türklərinə edilən son "güzəştlər"in arxasında irançılıqla farsçı şiəçiliyin çöküşü kimi acı həqiqət dayanır. Bu "güzəşt"lər qanunsuz irançı-şiəşi "molla" ağalığının ciddi siqnallarıdır. Bu "güzəştlər" o deməkdir ki, "şiəşçi-irançı mollalar" Azər-baycanla, Azərbaycan türkləriylə bir yerdə, bir dövlətdə yaşamaq istəyirlərsə, ya vaxtilə ingilislərin, almanların daha sonra amerikanların oyununa gəldiklərini açıqca ortaya qoyub qanunsuz sahibləndikləri dövləti öz yiyələrinə geri verməli, ya da ölkənin ən azından iki hissəyə bölünməsinə razı olub yalnız Farsistanda və ətrafında ağalıqlarına davam etməlidirlər.

Hazırda 1990-cı illərin başlarında "Sovet Azərbaycanı"nın SSRİ-nin tərkibindən çıxaraq müstəqilliyini bərpa etməsi, eyni zamanda ilk dövrlərdə əsasən, daha sonra qismən Türk ruhunu ifadə etməsi "İran Azərbaycanı"nda geniş əks-səda doğurmuşdur. Belə ki, "İran Azərbaycanı" kəliməsindəki "İran" kimliyinə və vətəninə etiraz olaraq Azərbaycanın güne-yində yaşayan soydaşlarımız iki vacib şüar irəli sürməkdədirlər: 1) "Haray, haray mən Türkəm!"; 2) "Azərbaycan var olsun, istəməyən kor olsun!" ya da "Azərbaycan İran deyildir!". Gördüyümüz kimi, hər iki şüar birmənalı şəkildə

---

[344] Ələkbərli Faiq. Turan sivilizasiyasına giriş: Turan məfkurəsi və Tanrıçılıq. Bakı, "Xan" nəşriyyatı, 2017, s.481

"İranlı" ya da onun kiçik forması olan "azəri" milli kimliyinə, eyni zamanda "İran" adlı vətən-ölkə kimliyinə qarşı ortaya atılmışdır. "İranlı-azəri" etnik, "İran" vətən-ölkə kimliyinə qarşı isə dəqiq şəkildə Türk etnik kimliyilə Azərbaycan vətəni kimliyi qoyulur. Çünki "Mən Azərbaycanam", "Mən Türkəm" ikiliyi vətən və millət ya da millət və vətən anlayışlarının milli düşüncədə daşlaşması, monolitləşməsidir. Deməli, Güney Azərbaycan türklərinin əsas yolu Güney Azərbaycanın vətən və milli kimlik baxımdan "İran"a bağlı olmadığını isbat etmək, bu anlamda "İran Azərbaycanı" anlayışının yerinə də "Türk-Turan Azərbaycanı" düşüncəsini formalaşdırmaqdır. Bizcə, son zamanlarda bu yolda Güney Azərbaycan Türk aydınlarından Səhənd, M.Zehtabi, Əli Təbrizli, Həmid Nitqi, Qulamrza Səbri Təbrizi, Cavad Heyət, Həsən Dəmirçi, Səid Muğanlı, Abbas Lisani, Lətif Həsənli və başqaları böyük əmək sərf ediblər.[345]

Bütöv Azərbaycan ideyası ilə vaxtilə ən fəal təşkilatlardan biri 1997-ci ildə ABŞ-ın Los- Angeles şəhərində təsis olunmuş Dünya Azərbaycanlıları Konqresi (DAK) olmuşdur. Səadət Kərimi yazır: "DAK bütün Azərbaycan Türklərinin səsini dünya ictimai rəqyinə duyurmaq, Dağlıq Qarabağın işğalı, Xocalı soyqırımı, İrandakı Azərbaycan Türklərinin haqları kimi məsələlər çözüm tapmaq məqsədilə oluşturulan bir qurum və dünyadakı Azərbaycan diasporunun bir hissəsini birləşdirən beynəlxalq bir təşkilatdır. 2005-ci ildə təşkilat parçalandı və DAK adlı iki qurum fəaliyyət göstərməyə başladı. Onlardan birinə Cavad Derəxti, digərinə Məhəmmədrza Xeşti rəhbərlik edirdi. Sonradan Məhəmmədrza Xeştinin rəhbərlik etdiyi DAK öz adını dəyişərək Demokratik DAK (DDAK) adlandırdı".[346]

Bütöv Azərbaycan ideyasının gerçəkləşməsi yolu ilə bağlı vaxtilə Azərbaycan Xalq Cəbhəsinin lideri olmuş, Azərbaycan Respublikasının eks-Prezidenti Əbülfəz Elçibəyin başçılığı ilə 1997-ci ildə əsası qoyulmuş Bütöv Azərbaycan Birliyi (BAB), 1998-ci ilin noyabrında isə rəsmən təsis edilmişdi. BAB-ın 2000-ci ildə qəbul olunmuş Məramnaməsinin giriş hissəsinin "Təbii haqlarımız" bölməsində qeyd olunur ki, dünyadakı 50 milyonluq Azərbaycan

---

[345] Yenə orada, s.482

[346] Kərimi Səadət. Azərbaycan milli və siyasi ideologiyası haqqında. Bakı, Elm və təhsil, 2017, s.80

türkü müstəqil Bütöv Azərbaycan dövlətini qurub öz-özünü idarə etmək və öz müqəddəratını özü təyin etmək hüququna malikdir.[347] Məramnamədə "Bütöv Azərbaycan anlayışımız" adlanan birinci bölümündə başlıca hədəflər, mərhələlər, görüşlər, prinsiplər və vəzifələr göstərilir. Məramnamədə Müstəqil, Bütöv və Demokratik Azərbaycan BAB-ın başlıca hədəfləri kimi qəbul edilir. Bu hədəflərə çatmaq üçün isə üç strateji mərhələ - hazırlıq, müstəqillik, bütövləşmə mərhələləri müəyyən edilmişdir.[348]

Aydın Qasımlıya görə, Güney Azərbaycan Milli Hərəkatını yönləndirmək məqsədi ilə Elçibəy və Arif Kəskin bəy tərəfindən işlənib hazırlanan və tərəfdarları tərəfindən dəstəklənən bir nəzəri proje olan BAB və Azərbaycan Mərkəzli Türk Düşüncə Sistemi və Milli Birlik Şurasının Təşəbbüs Qrupu Güney Azərbaycanın qurtuluşu yolunda "biz kimik?, niyə bu günə qalmışıq?, nə etməliyik?, hardan başlamalıyıq?, nəyi əsas götürməliyik?, hara gedirik?, əsas problemlərimiz nədir?, qurtuluşumuz hardadır?" və s. bu kimi fundamental suallara cavab axtarmağı və bu suallara bu və ya digər dərəcədə cavab verməyi özünə hədəf seçmişdir. Bütöv Azərbaycan və Azərbaycan Mərkəzli Türk Düşüncə Sisteminin yaradıcıları və tərəfdarları Güney Azərbaycan Türklərini Azərbaycan coğrafi məkanı ətrafında birləşdirməyi, onlara milli istiqlalı əldə etmək üçün çətin olan doğru yolu göstərməyi, nəyi qorumaq lazım olduğunu, dostu və düşməni tanımağı, millətlər arasında öz yerini müəyyənləşdirməyi və ən başlıcası nə istəmələrini qarşısına məqsəd qoymuşdur. [349]

Bütöv Azərbaycan dövlətinin qurulmasını isə Əbülfəz Elçibəy üç strateji mərhələyə (hazırlıq, müstəqillik, bütövləşmə) ayırmışdı:

1. Hazırlıq mərhələsi (millətləşmə).Bu strateji mərhələdə ilk öncə türk milli kimlik şüuru güclənib dərinləşməli, beyinlərdə oturuşmalı, kütləviləşməlidir.

Bu mərhələdə həmçinin üç sütunlu milli təşkilatlanma - Quzey, Güney Azərbaycan və xaricdə yaşayan Azərbaycan türkləri - sistemi

---

[347] Ədilli Şirvani. Milli ideologiyamız: Türklük, Çağdaşlıq, İslamlıq. Bakı, Elm və təhsil, 2013, s.120

[348] Yenə orada, s.122

[349] Qasımlı A. Güney Azərbaycan türkləri son 100 ildə. Bakı, Adiloğlu, 2012,, s.184

qurulub başa çatmalı, intensiv və səmərəli fəaliyyət göstərməli, milli güc bir araya gətirilərək eyni hədəfə doğru yönəldilməlidir. Azərbaycanın ərazi və milli bütövlük problemi qlobal siyasətin gündəliyinə çıxarılmalı və beynəlxalq dəstək qazanılmalıdır.

Azərbaycanın Quzeyində dövlət müstəqilliyi daha da möhkəmlənməli, Milli Dövlət quruculuğu və demokratikləşmə dərinləşməli, siyasi, iqtisadi, hərbi, sosial, mədəni və elmi-texniki sahələrdə irəliləyiş olmalı, əhalinin həyat səviyyəsi yüksəlməli, Azərbaycan Respublikasının beynəlxalq əlaqələri genişlənməli, strateji tərəfdaşlarımızla iş birliyi güclənməlidir.

2. Güney Azərbaycanın müstəqillik mərhələsi (dövlətləşmə). Biz Güneydə gedən prosesllər nəzərə alaraq bu mərhələyə daha böyük önəm veririk. Bu strateji mərhələdə milli azadlıq hərəkatı başlayıb Güney Azərnaycanda istiqlaliyyət qazanılmalı və Müstəqil Dövlət qurulmalıdır.

Quzey Azərbaycan Respublikası bu milli-azadlıq hərəkatını tam dəstəkləməli, qurulacaq Müstəqil Dövləti hərtərəfli müdafiə etməli və onun beynəlxalq aləmdə tanınmasına çalışmalıdır.

3. Bütövləşmə mərhələsi. Bu strateji mərhələdə əlli və ya altımış milyonluq Azərbaycan xalqının Ümumxalq referondumu müsbət rəy bildirdikdən sonra iki Azərbaycan Dövlətinin parlamentlərinin birləşmiş, komissiyası yaradılmalı və Azərbaycanın bütövləşib vahid dövlətə çevrilmə mexanizmi hazırlanaraq həyata keçirilməlidir.

Bütün bunları gerçəkləşdirmək üçün tarixi səhvlərimizi saf-çürük etməli,görəcəyimiz işləri düzgün müəyyənləşdirməli, bütün başlıca görüşlərimizi uyğunlaşdırmalı, başlıca prinsiplərimizi ortaya qoymalı, xalqımızı hazırlayaraq mərhələ- mərhələ tələsmədən və gecikmədən hədəfə doğru irəliləməliyik.[350]

Bütün hallarda Elçibəy inanırdı ki, indiki "İran" gec-tez Təbrizin bir yumruğu ilə dağlacaq,[351] Azərbaycanın güneyi müstəqil olduqdan sonra Azərbaycan Birləşmiş Respublikası, ya da Azərbaycan Federal Respublikası yaranacaqdır.[352]

1998-2003-cü illərdə BAB Sədrinn İdeoloji işlər üzrə müavini,

[350] Qasımlı Aydın. Türklər. Bakı, "E.L." NP şirrkəti MMC, 2012, s.118
[351] Elçibəy Əbülfəz. Bütöv Azərbaycan yolunda., Bakı, "Nurlar", 2004, s.270
[352] Elçibəy Əbülfəz. Bütöv Azərbaycan yolunda., Bakı, "Nurlar", 2004, s.275

sonra isə BAB Mərkəzi Şurasının sədri vəzifələrini tutumuş Arif Rəhimoğlu hesab edirdi ki, bununla da müəllifi Elçibəy olan Bütöv Azərbaycan ideyasının yaxın – orta – uzaq vədəli strateji hədəfləri aydınlaşmış, nəzəri-ideoloji hazırlığın ana xətləri dəqiqləşdirilmiş və Quzey Azərbaycanda, Güney Azərbaycanda, soydaşlarımızın yaşadığı xarici ölkələrdə görüləcək işlər müəyyənləşdirilmişdir.[353] A.Rəhimoğluna görə, 40 milyondan artıq sayı olan xalqımız içərisində eyni bir milli kimlik şüurunun biçimləndirilməsivə Bütöv Azərbaycan ideyasının bu şüurun predmetinə çevrilməsi Bütöv Azərbaycan strategiyasının bel sütununu – təməlini təşkil edir. Ona görə bilərək, yaxud bilməyərək bu təməlin inkarı əslində Bütöv Azərbaycan ideyasının inkarı deməkdir. O, yazırdı: "Milli kimlik şüuru təqdim olunan səviyyədə bəsit bir anlayış deyil. Bu şüurun mövcudluğu üçün 40 milyondan artıq sayı olan xalqımız içərisində: 1. eyni bir dil şüurunun; 2. eyni bir tarix şüurunun; 3. eyni bir mədəniyyət şüurunun; 4. eyni bir Vətən şüurunun; 5. eyni bir siyasi məfkurə şüurunun; 6. eyni bir demoqrafik Vətən şüurun; 7. eyni bir iqtisadi şüurun və s. varlığı gərəkdir. Milli kimlik şüurumuzun bu tərkib hissələrindən hər birinin ümum xalqımız içərisində formalaşması və Bütöv Azərbaycan ideyasının onların predmetinə çevrilməsi gərgin fəaliyyət tələb edən açır bir surəcdir. Lakin tək qurtuluş və bütövlük yolumuz da məhz budur. Çünki milli kimlik şüuru milli gücün təməlini təşkjil edir və milli gücün səviyyəsi birbaşa milli kimlik şüurunun səviyyəsindən asılıdır".[354]

A.Rəhimoğluna görə, Bütöv Azərbaycan ideyasının gerçəkləşməsi üçün, milli kimlik şüurunun biçimlənməsi və buradakı millətləşmə prosesində ədəbi dil anlayışı mühüm yer tutur. Onun fikrincə, burada ilk növbədə vahid xalqın danışıq dilinin inkişafı, vahid əlifba sorununun həlli vacibdir.[355] Milli dil məsələsindən sonra, Vətən anlayışının üzərində dayanan Rəhimoğlu hesab edir ki, toplumun millətə çevrilməsi üçün onun bəlli bir coğrafi hüdud (Vətən) daxilində yaşaması, yaxud kütləvi olaraq buna can atması əsas şərtlərdən biridir: "Millətləşmiş toplum gec-tez milli dövlətini

---

[353] Rəhimoğlu A. Bütövlük qibləsinin Elçibəy yolu. Bakı, Elm və təhsil, 2016, s.30
[354] Yenə orada, s.35-36
[355] Rəhimoğlu Arif. İdeologiya. Bakı, Elm və təhsil, 2017, s.137-150

quraraq öz etno-coğrafi hüdudlarını siyasi hüdudlara çevrir və ya bu yöndə daim mübarizə aparır. Milətləşməmiş toplum isə nəinki öz milli dövlətini qurmağa laqeyd yanaşır, hətta öz etno-coğrafi hüdudlarının başqa etnosun əlində olmasına belə dözər və taleyi ilə razılaşıb qismətinə boyun əyər. Lakin toplumu bu qəflət yuxusundan ayıltmağa yönəlmiş ayrı-ayrı şəxslərin və qrupların fəaliyyəti uyğun şərait yetişincə kütləviləşir və toplumun qurtuluş yolu olan millətləşmə sürəci (prosesi) başlayar”.[356]

Ə.Elçibəy tərəfindən formulə edilən “Millətləşmə, Dövlətləşmə, Bütövləşmə”, ya da “Bütövləşmə, Millətləşmə, Dövlətləşmə!” devizlərində bir qədər fərqliliyə baxmayaraq, əslində hər ikisinin öz mahiyyətinə doğru olduğunu yazan A.Rəhimoğluna görə, “bütövləşmə” anlayışı birinci anlamda siyasi-fiziki birliyi, ikinci anlamda isə fikirdə, şüurda bütövlüyü (milli birlik) ifadə edir. O, yazırdı: “Göründüyü kimi, a) variantında devizin məntiqi aırlığı millətləşmə anlayışı üzərinə, b) variantında isə devizin məntiqi ağırlığı məsələlərə “bütövlük özülündən yanaşma” şərti üzərinə düşür. Birincidə necəliyi bəlirlənməyən millətləşmə başlanğıcına söykənirlir ki, sonda dövlət qurulsun və birləşsin, ikincidə isə bütövləşmə (“bütövlük özülündən yanaşma”) başlanğıcı əsas götürlür ki, sonda millətləşmə də, dövlətləşmə də bu bütövlük özülü üzərində yüksələ bilsin”.[357]

Qeyd edək ki, Əbülfəz Elçibəyin vəfatından (2000) bir müddət keçdikdən sonra BAB-ın fəaliyyəti nisbətən zəifləsə də, son illərdə aktivləşməyə başlamışdı. Hazırda BAB-ın Rəyasət Heyətinin sədri Aqil Səmədbəyli təşkilatın öz nüfuzunu və fəaliyyətini bərpa etməsi yolunda çalışmaqdadır.

2000-ci illərin sonlarına doğru BAB-ın fəaliyyətinin zəifləməsi, ya da tamamilə dayandırması fonunda Bütöv Azərbaycan ideyasının gerçəkləşməsi yolunda yeni təşkilatların yaranmasını zərurəti ortaya çıxdı. Bu hədəfi, müqəddəs Bütöv Azərbaycan ideyası yolunu tutmuş qurumlardan biri kimi Bütöv Azərbaycan Ocaqları (BAO) 2011-ci ilin noyabrında “Rəsulzadə-Elçibəy Ocağı”nın bazasında ictimai

---

[356] Yenə orada, s.151

[357] Rəhimoğlu A. Bütövlük qibləsinin Elçibəy yolu.Bakı, Elm və təhsil, 2016, s.115

təşkilat kimi təsis olunmuşdu.[358] "Rəsulzadə-Elçibəy Ocağı" 2000-ci ilin axırlarında millətçi Azərbaycan gəncləri tərəfindən yaradılmış və milli ideyaların, o cümlədən Azərbaycanın bütövlüyü ideyasının təbliği ilə məşğul olan dərnək xarakterli təşkilat olmuşdur. Təşkilatın ilkin Təşəbbüs Qrupu 2011-ci ilin noyabrın 19-da əvvəlcə özünü "Böyük Azərbaycan Ocaqları" kimi elan etmişdir. Ancaq Təşəbbüs Qrupunun 5 iyun 2012-ci il toplantısında təşkilatın "Bütöv Azərbaycan Ocaqları" adlandırılması qərarına gəlinmişdir.

Eyni zamanda 2012-ci ilin noyabrında BAO-nun 11 nəfərlik İdarə Heyəti yaradılmış və Zahir Əlisoy təşkilatın başqanı seçilmişdir. Daha sonrakı illərdə BAO-nun gənclik qolu (2013), Dil və Tarix Qurumu (2014), Mərkəzi Şurası (2014), BAO TV (2014), BAO-nun Türkiyə təmsilçiliyi (2015) yaradılmışdır.

BAO-nun ilk təsis konfransı 2014-cü ilin mayında gerçəkəşmiş, 19 noyabr 2016-cı ildə isə Birinci Qurultayı (Qurultay səlahiyyətli Ümumi Yığıncaq) keçirilmişdir. İlk Qurultayda keçirilən səsvermələr nəticəsində BAO-nun başqanı yenidən Zahir Əlisoy, Mərkəzi Şuranın sədri Paşa Həsənli, Mərkəzi Nəzarət Təftiş Komissiyasının sədri Yusif Baba seçilmişdir. BAO başqanınən təyinatları əsasında ideologiya məsələləri üzrə müavin Dilavər Əzimli, Türk dünyasıyla əlaqələr üzrə müavin Faiq Ələkbərli, siyasi məsəslələr üzrə müavin Alı Balayev, təşkilat məsələlər üzrə müavin Araz Şamil təyin olunmuşdur.

31 yanvar 2021-ci il tarixində BAO-nun İkinci Qurultayı (Qurultay səlahiyyətli Ümumi Yığıncaq) keçirilmişdir. 2-ci Qurultayda da BAO başqanı olaraq Zahir Əlisoy seçilmiş, yeni rəhbərlik və Mərkəzi Şura formalaşmışdır.

Qeyd edək ki, BAO-nun qarşısına qoyduğu millətləşmə, bütövləşmə və dövlətləşmə prinsiplərinin həyata keçirilməsində Aydın Mədətoğlu, Mehriban Vəzir, Firudin Ağasıoğlu, Eldəniz Şamlı, Zəkulla Bayramlı, Fəzail İsmayıl Böyükkişi, Şahlar Hacıyev və başqa ziyalılarımız da yaxından iştirak etməkdədirlər.

Tanınmış ziyalılarımızla yanaşı BAO-nun tutduğu yolun gerçəkləşməsi yönündə bütöv azərbaycançılar sırasında Şirvani

---

[358] Ədilli Şirvani. Milli ideologiyamız: Türklük, Çağdaşlıq, İslamlıq. Bakı, Elm və təhsil, 2013, s.141

Ədilli, Rizvan Hüseynov, Natiq Ulubəy, Təbriz Musayev, Faiq Quliyev, Hakim Sadıqlı, Rüfət Muradlı, Ceyhun Quliyev, Mailə Bayramlı, Fərrux Əmrəli, Azər Ağakişiyev, Şahin Bəkirli, Oqtay Daşoğuz, Zəka Sahib, Mehman Əhmədli, Oğuz Rza Sadıkoğlu, Babək Türkoğlu, Xəqani Salmanov, Saday Quliyev, Elvin Abdulla (Turan), Elnur Həsənli, Gündüz Rzayev, Asiman Əsədsoy, Samir Xancan, Müşfiq Çələbi, Seymur Mürsəl, Şahmar Abdullayev və başqalarının da adlarını qürurla yaza bilərik.

BAO-nun nizamnaməsində Azərbaycan türklərinin öz tarixi torpaqlarında milli, hüquqi, demokratik və dünyəvi dövlətinin qurulması təşilatın məqsədi kimi qəbul olunmuş və təşkilatın bu yolda əsas ənəgl olan fars şovinizminə qarşı mübarizə apardığı qeyd edilmişdir. Bu istiqmətdə BAO təxminən var olduğu 10 il müddətində (2011-2021) bir çox mühüm işlər görmüş, 230-dan çox tədbirlər-konfranslar, aksiyalar təşkil etmiş, 190-dan çox rəsmi sənəd qəbul etmiş, qərarverici orqanların 185-dən çox rəsmi toplantısı keçirilmişdir və bu yöndəki işlərini hazırda da davam etdirməkdədir.

Dünya azərbaycanlılarının bir araya gəlməsi və problemlərinin həlli istiqamətində tanınmış dövlət xadimi, 1993-2003-cü illər Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin də mühüm xidmətləri olmuşdur. On il müstəqil Azərbaycan dövlətinin başçısı olmuş H.Əliyev Dünya Azərbaycanlılarının Həmrəylik Günü Münasibətilə xalqa ünvanladığı müraciətlərində hər dəfə xüsusilə vurğulayırdı ki, Azərbaycan bütün dünya azərbaycanlılarının tarixi Vətəni, doğma ata-baba ocağıdır. H.Əliyev 1996-cı il dekabrın 28-də Dünya Azərbaycanlılarının Həmrəylik Günü Münasibətilə xalqa ünvanladığı müraciətdə deyirdi: "Suverenliyimiz daim yaşatmaq, dövlət müstəqilliyimizi əbədi etmək üçün harada yaşamasından asılı olmayaraq, bu gün hər bir azərbaycanlıdan müqəddəs Azərbaycan qayəsi ətrafında əməl və əqidə birliyi, sarsılmaz həmrəylik tələb olunur. Zaman-zaman qəlbimizdə yaşatdığımız müstəqillik və azadlıq ideallarının həyata keçdiyi bu tarixi sınaq anlarında dünyanın müxtəlif guşələrində soydaşlarımızın Vətən təəssübkeşliyinə, övladlıq haqqına daərin inamını ifadə edərək, Sizi azad, müstəqil, qüdrətli, demokratik Azərbaycan dövləti uğrunda səfərbər olmağa və

milli həmrəyliyə çağırıram”.[359]

H.Əliyev 1997-ci ilin dekabrında da Azərbaycan xalqına etdiyi müraciətində bir daha qeyd edirdi ki, dünyanın bütün ölkələrində yaşayan və qəlbi doğma Azərbaycanla bir döyünən həmvətənlərimizin də xalqımızın milli azadlıq mübarizəsində, ölkəmizin tərəqqisi və inkişafı yolunda önəmli xidmətləri vardır. O qeyd edirdi ki, bütün azərbaycanlılarda, bu və ya digər tellərlə bağlı olan hər bir şəxsdə azərbaycançılıq, vətənpərəvərlik hissləri, tarixi torpağımıza, yurdumuza, mədəniyyətimizə məhəbbət aşılamaq hamımızın ümdə vəifəsidir: “Müstəqil Azərbaycan Respublikası dünyada yaşayan bütün azərbaycanlılar üçün doğma Vətəndir. Hansı ölkədə yaşamasından asılı olmayaraq, azərbaycanlı öz ana dilini, dinini, milli ənənələrini heç zaman unutmamalıdır. Hər bir azərbaycanlı fəxr etməlidir ki, onun böyük tarix, qədin zəngin mədəniyyətə malik olan Azərbaycan kimi Vətəni vardır. Hər bir azərbaycanlı bilməlidir ki, onun arxasında Azərbaycan Respublikası kimi müstəqil bir dövlət durur”.[360]

Bizcə, H.Əliyev 1998-ci ilin dekabrında Azərbaycan xalqına etdiyi müraciətində isə Dünya Azərbaycanlılarının birliyi ideyası məsələsinə bir az da aydınlıq gətirmişdir. 21-ci əsrin astanasında Dünya Azərbaycanlılarının həmrəyliyinə daha çox ehtiyac olduğunu deyən H.Əliyev bildirirdi ki, sayca dünyanın ən iri millətləri ilə müqayisə olunan xalqımızı qarşıdan gələn yüzillik və minillikdə ciddi və müqəddəs mübarizələr gözləyir: “Biz nəinki təkcə müstəqil Azərbaycan dövlətçiliyinin qorunması, möhkəmlənməsi və inkiaf etməsi uğrunda, eyni zamanda bütün dünya azərbaycanlılarının milli hüquaqlarının, tarixi haqlarının həyata keçirilməsi ilə bağlı ciddi iş aparmalıyıq. Bütün bu müqəddəs vəzifələrə nail olmaq üçün biz azərbaycançılığın dövlət rəmzlərini yaşadan müstəqil dövlətimiz ətrafında daha sıx birləşməliyik. Vətənini, xalqını sevən hər bir soydaşımız və ya digər tellərlə bağlı ölkəmizə bağlı olan hər bir şəxs Azərbaycan dövlətini öz arxasında hiss edərək azərbaycançılıq, vətənsevərlik hissləri ilə tarixi torpaqlarımıza, yurdumuza, mədəniyyətimizə məhəbbət aşılamalıdır. Vətənimizin, respublikamızın taleyi

---

[359] Azərbaycan diasporu: Tammətnli elektron materialalr məcmuəsi. Bakı, AR Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası, 2005, s.14
[360] Yenə orada, s.17

hər bir azərbaycanlının taleyinə çevrilməlidir”.[361]

Qeyd edək ki, Heydər Əliyevin sərəncamı ilə 2001-ci ilin 9-10 noyabrda Bakı şəhərində Dünya Azərbaycanlılarının 1-ci Qurultayı keçirilmişdir. Qurultayda Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının üzvləri müəyyənləşdirilmiş və H.Əliyev Şuranın sədri seçilmişdir. Dünya Azərbaycanlılarının 1-ci Qurultayında 36 xarici dövlətdə yaşayan həmvətənlərimizin cəmləşdiyi 200-dən çox müxtəlif təşkilatı təmsil etməklə 406 nümayəndə və 63 qonaq iştirak etmişdir. Noyabrın 9-da Qurultayın ilk iş günündə çıxış edən H.Əliyev Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi yolunda həyata keçirilən tədbirlər və qarşıda duran vəzifələr barədə ətraflı bəhs etmişdir. O, dünya azərbaycanlıları arasında milli birliyin və həmrəyliyin təmin edilməsi, Azərbaycan dövləti ilə dünya azərbaycanlılarının əlaqələrinin mökəmləndirilməsi, qarşıya çıxan problemlərin həllində səylərin birləşdirilməsi zərurəti, ana dilimizin və milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması və inkişaf etdirilməsi haqqında öz fikirlərini söyləmişdir. H.Əliyev deyirdi: “Biz istəyirik ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar həmin ölkələrin vətəndaşı kimi, istədikləri kimi yaşasınlar. Ancaq heç vaxt öz milli köklərini, milli mınsubiyyətlərini itirməmişlər. Bizim hamımızı, azərbaycanlıları birləşdirən milli mənsubiyyətimizdir, tarixi köklərimizdir, milli-mənəvi dəyərlərimizdir, milli mədəniyyətimzidir – ədəbiyyatımız, incəsənətimiz, musiqimiz, şeirlərimiz mahnılarımız, xalqımız mıənsub olan adət-ənənələrdir. İnsan hansı ölkədə yaşamasından asılı olmayaraq, gərək öz milliliyini qoruyub saxlasın. Dünyada eyni zamanda assimilyasiya prosesi də var. İnsanlar – mən azərbaycanlılar haqqında danışıram – gərək, yaşadıqları ölkədə, yenə deyirəm, o şəraiti mənimsəyərək, orada özləri üçün yaxşı mövqelər tutsunlar. Ancaq daim öz milli-mənəvi dəyərlərinə, milli köklərinə sadiq olsunlar. Bizim hamımız birləşdirən mıhz bu amillərdir. Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır. Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olubdur. Biz həmişə bu ideya ətrafında birləşmə-

[361] Yenə orada, s.18

liyik. Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir".[362]

Qurultay öz işini 8 komissiyada – İnsan hüquqları və beynəlxalq əlaqələr, Ana dili və Azərbaycanşünaslıq, Elm və təhsil, Mədəniyyət, İqtisadi əlqalər, Gənclər və idman məsələləri, Ermənistanın Azərbaycan təcavüzünün aradan qaldırılması məsələləri, KİV və informasiya mübadiləsi komissiyalarında davam etdirmişdir. Qurultay 103 nəfərdən ibarət Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasını və onun 23 nəfərdən ibarət İdarə Heyətini, İdarə Heyətinin sədrini və dörd müavinini seçmişdir.

Dünya Azərbaycanlılarının 2-ci Qurultayı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə 2006-cı il martın 16-da yenə də Bakıda keçirilmişdir. Bu qurultayda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının sədri seçilmişdir. 2-ci Qurultayda 49 xarici dövlətdən 593 nümayəndə, 388 nəfər qonaq, ümumilikdə 1231 nəfər iştirak etmişdir.

Dövlət başçısı İ.Əliyevin qurultaydakı nitqi xaricdə yaşayan soydaşlarımızın təşkilatlanması və diaspora quruculuğu siyasətinin yeni mərhələsinin başlıca istiqamətlərini və bu mərhələdə qarşıda duran vəzifələri müəyyənləşdirmişdir. Azərbaycan Prezidentinin nitqindəki tövsiyə və tapşırıqlar Azərbaycan diasporunun yeni dövrdəki fəaliyyətinin ideoloji təməlini təşkil etməklə yanaşı, dünya azərbaycanlılarının birliyinin konseptual əsaslarının milli dövlətçilik ideologiyası müstəvisində formalaşmasının tarixi-siyasi əhəmiyyətini daha dəqiq qiymətləndirmək imkanı yaratmışdır. İ.Əliyev nitqinin sonunda demişdir: "Azərbaycan xalqı böyük xalqdır. Biz 50 milyonuq. Bu, dünya miqyasında böyük xalqdır. Bizim hamımızın bir Vətəni var- Azərbaycan. Çalışmalıyıq ki, doğma Vətənimizi möhkəmləndirək, zənginləşdirək, qüdrətli dövlətə çevirək".[363]

Qurultayda Azərbaycan və Türkiyə diasporalarının birgə fəaliyyət strategiyasının müəyyənləşdirilməsi məsələsinin geniş

---

[362] Yenə orada, s.18

[363] Əliyev İlham. İnkişaf – məqsədimizdir. Bakı, Azərnəşr, 2014, s.20

müzakirəyə çıxarılması və Qətnaməyə bununla bağlı xüsusi müddəanın daxil edilməsi böyük uğur kimi dəyərləndirlə bilər. Hər halda Azərbaycan və Türkiyə diaspora təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsivə bu sahədə əməkdaşlığın sistemli şəkildə həyata keçirilməsi yeni mərhələnin əsas vəzifələrindən biridir.

İlham Əliyev 2006-cı ilin aprelində ABŞ-ın Vaşinqton şəhərində keçirilən Beynəlxaql Münasibətlər Şurasındakı görüşdə də bildirib ki, bu gün dünyanın müxtəlif yerlərində 50 milyondan çox azərbaycanlı yaşayır, o cümlədən İranda xeyli sayda etnik azərbaycanlı yaşayır və onların hamısının taleyi bizim üçün çox vacibdir.[364] Dövlət başçısı İ.Əliyev bir gün sonra Vaşinqtonda Azərbaycan ismasının üzvləri ilə baş tutan görüşdə isə bildirib ki, Azərbaycan xalqı böyük xalqdır: "50 milyonluq Azərbaycan xalqı dünya miqyasında böyük xalqdır, istedadlı xalqdır. Alimlərimiz, yazıçılarımız, şairlərimiz, sərkərdələrimiz bizim tarixi şəxsiyyətlərimizdir. Gərək bunu hamı bilsin. Bütün dünya bunu bilməlidir və biz də gərək bir olaq".[365]

Dünya Azərbaycanlılarının 3-cü Qurultayı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə 2011-ci il iyulun 5-6 da yenə də Bakıda keçirilmişdir. Dünya Azərbaycanlılarının 2-ci Qurultayında 42 xarici dövlətdən 579 nümayəndə və 211 nəfər qonaq, ümumilikdə 1272 nəfər iştirak etmişdir. Dövlət başçısı İ.Əliyev qurultaydakı çıxışında bildirmişdir ki, dünya azərbaycanlılarının birliyi Azərbaycan dövlətini daha da gücləndirir, möhkəmləndirir: "Müstəqil Azərbaycan bütün azərbaycanlıların Vətənidir. Bizim bir Vətənimiz var – Azərbaycan! Bizim bir dilimiz var – Azərbaycan dili! Bizim ümumxalq ideologiyamız var – azərbaycançılıq məfkurəsi! Mən arzu edirəm ki, dünyada yaşayan bütün azərbaycanlılar həmişə bir yerdə olsunlar. Həmişə bilsinlər ki, onların arxasında güclü Aəzrbaycan dövləti dayanır və onlar hər zaman Azərbaycan dövlətinə arxalana bilərlər".

Dünya Azərbaycanlılarının 4-cü Qurultayı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə 2016-cı il iyulun 3-4 də keçirilmişdir. Dövlət başçısı İ.Əliyev qurultaydakı

[364] Yenə orada, s.239
[365] Yenə orada, s.286

çıxışında bir sıra mühüm məsələlərə toxunmuş, hər bir azərbaycanlının, Azərbaycan vətəndaşının Prezidenti olduğunu xüsusilə vurğulamışdır.

Ümumiyyətlə, dövlət başçısının həm Qurultaylarda, həm Dünya Azərbaycanlıları ilə görüşlərdə səsləndirdiyi: "Mən, yalnız 9-10 milyonluq Azərbaycan Respublikasının deyil, 50 milyonluq dünya azərbaycanlılarının Prezidentiyəm"sözü, onun uzaqgörənliyindən xəbər verir. Hər halda dövlət başçısının "Mən 50 milyonluq dünya azərbaycanlılarının Prezidentiyəm", sözü yalnız Quzey Azərbaycanda deyil, Güney Azərbaycanda da böyük əks-səda doğurmuş, İlham Əliyevin bu sözləri Dünya Azərbaycanlılarının Qurultaylarında, Dünya Azərbaycanlıları Konqreslərində, ayrı beynəlxalq və yerli konfranslarda, mətbuat səhifələrində, televiziyalarda dəfələrlə səsləndirilmiş, xatırlatılmışdır.

**Dağlıq Qarabağ məsələsi və Güney Azərbaycan.** Biz, hər daim düşünmüşük ki, vaxtilə Çarlıq və Sovet Rusiyası tərəfindən yaradılan Dağlıq Qarabağ probleminin kökündən həlli üçün iki əsas istiqamətdə iş aparmağımız lazımdır. Bunlardan birincisi, şübhəsiz ki, Rusiya ilə bağlıdırsa, digər tərəfdən İran İslam rejimi və onun bu gün tərkibində olan Güney Azərbaycan faktoru da mühüm yer tutmaqdadır. Kitabımızın birinci[366] və ikinci cildlərində[367] Çarlıq və Sovet Rusiyası dövründə Dağlıq Qarabağ probleminin nə cür yaranması və onun həlli yolları ilə bağlı mülahizələrimizi geniş şəkildə ifadə etmişdik. Eyni zamanda, 1-ci Qarabağ Vətən müharibəsi dövründə Ermənistan qarşısında məğlub duruma düşməyimizdə Rusiya Federasiyası, İran İslam Respublikası və bəzi Qərb dövlətlərinin (Fransa və b.) rolunu da göstərməyə çalışmışdıq. 1994-cü ilin mayın 8-də Ermənistanla Azərbaycan arasında Bişkek protokolu, yəni atəşkəs imzalanana qədər Azərbaycan Respublikasının yalınız "Dağlıq Qarabağ" adlanan keçmiş muxtar vilayətinin ərazisini deyil, eyni zamanda 7 rayonunu, yəni Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı da rus-erməni hərbi birləşmələri tərəfin-

[366] Ələkbərli Faiq. Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi (XIX-XX əsrlər) . I hissə. Bakı, Elm və təhsil, 2018

[367] Ələkbərli Faiq. Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi (XIX-XX əsrlər) . II hissə. Bakı, Elm və təhsil, 2020

dən işğal olunmasını da qeyd etmişdik. Eyni zamanda, həmin torpaqların işğaldan dərhal azad olunması ilə bağlı BMT Təhlükəsizlik Şurası tərəfindən dörd qətnamə qəbul edilsə də, 2020-ci ilin sentyabrına qədər bunun heç bir nəticəsi olmamışdır.

Onu da göstərmişdik ki, 20-ci əsrdə Azərbaycan və Ermənistan xalqları arasında baş verən münaqişələr, o cümlədən 1905-1906-cı illlər erməni-müsəlman münaqişəsi, 30-31 mart Azərbaycan türklərinin soyqırımı, 1918-ci ilin 29 mayında Azərbaycan Milli Şurasının İrəvanın və ətrafının ermənilərə güzəştə getməyə məcbur olması, 1920-ci ilin dekabrında Azərbaycan SSR tərəfindən Zəngəzurun bir qisminin Ermənistana verilməyə məcbur edilməsi, 1923-cü ildə DQMV-nin yaradılması, 1948-1953-cü illərdə yüz minlərlə azərbaycanlının indiki Ermənistan ərazisindəki əzəli torpaqlarından deportasiyası, 1992-ci il 26 fevral Xocalı soyqırımı, 1988-1994-cü illər arasında Dağlıq Qarabağın və onun ətrafındakı digər 7 rayonun işğal olunması Qarabağ münaqişəsinin həlli yolunda müharibəni qaçılmaz edirdi.

Onu da qeyd etmişdik ki, Azərbaycan xalqına qarşı törədilmiş bu soyqırımlarda və torpaqlarımızın işğalında erməni şovinistləri qədər Rusiya və İran İslam rejiminin hakim dairələri də mühüm rol oynamışlar. Hər halda, heç vaxt unutmamalıyıq ki, xüsusilə də Çarlıq və Sovet Rusiyası olmadan ermənilər Azərbaycan-Türk soyqırımlarını təkbaşına həyata keçirə bilməz, torpaqlarımızı işğal etmək iqtidarında olmazdı. Bu o deməkdir ki, biz bu soyqırımlarda və torpaqlarımzıın işğalında yalnız ermənilərin və Ermənistanın deyil, eyni zamanda Rusiyanın, İran adlanan ölkənin və bəzi Qərb dövlətlərinin də əsas pay sahibi olmasını yaddan çıxartmamalıyıq. Bu bir faktdır ki, vaxtilə Azərbaycan torpaqlarının müəyyən bir hissəsində Ermənistan dövlətini yaradan Qərb dövlətləri və Rusiya yaxın tariximizdə torpaqlarımızın digər bir hissəsinin işğal olunmasında fəal oynamaqla yanaşı ikinci bir saxta, qondarma «erməni dövləti»nin qurulması məsələsində də ikiüzlü siyasətini davam etdirməkdə idi. Üstəlik, Rusiya, İran İslam rejimi, Fransa və başqa anti-Azərbaycan anti-Türk dövlətləri tərəfindən daima təmənasız silahlandırılan Ermənistanın bölgədə sülhün bərqərar olmasına razılıq verməsini gözləmək mümkün deyildi.

Bunu, 2016-ci il qısa müddətli aprel döyüşləri də bir daha ortaya qoydu. Aprel döyüşlərində ciddi hərbi uğurlar əldə edən Azərbaycan ordusunun hərbi əməliyyatları dayandırması üçün Rusiya, İran İslam Respublikası, Fransa və başqa anti-Azərbaycan anti-Türk dövlətləri əlindən gələni etdi və buna nail oldular.

Beləliklə, 27 sentyabr-9-noyabr 2020-ci il tarixləri Azərbaycan xalqının taleyində yeni bir mərhələdir; işğal altında olan torpaqlarımızı nəyin bahasına olursa olsun azad etmək üçün bir QURTULUŞ savaşı, 2-ci Qarabağ Vətən müharibəsi idi. Bu dövrdə Azərbaycan ordusunun qarşısında bir hədəf dururdu: Ermənistanla olan dövlət sərhədlərini bərpa etmək və öz sərhədləri daxilindəki bütün erməni terrorçularını və yandaşlarını təmizləmək! Bu prosesdə də hansı dövlətlərin Azərbaycanla çiyin-çiyinə, hansı dövlətlərin isə düşmən olduğu Azərbaycan xalqına əsasən bəlli idi. Ən azı 30 illik təcrübəyə əsasən Azərbaycan xalqı yaxşı bilirdi ki, 2-ci Qarabağ müharibəsində hansı dövlətlər onun dostu, hansı dövlətlər də düşmənidir.

Əlbəttə, Vətən müharibəsində tək millət (TÜRK) iki dövlət (Azərbaycan+Türkiyə) kimi qəbul etdiyimiz Türkiyənin yanımızda olması təbii idi: Azərbaycan Türkiyə, Türkiyə Azərbaycan deməkdir! Bu gerçəyi, heç bir qüvvə dəyişə bilməzdi! Müharibə başlayan ilk gündən son günədək ilk növbədə, Azərbaycanı birmənalı şəkildə dəstəkləyən Türkiyə oldu. Türkiyə Cümhuriyyətinin dövlət başçısı Rəcəb Tayyip Erdoğan bütün çıxışlarında Azərbaycana hər cür siyasi-mənəvi dəstək verdiklərini, hətta lazım gəldiyi anda, Azərbaycan hərbi dəstək verməyə də hazır olduğunu dəfələrlə bəyan etdi. Eyni zamanda, Türkiyə Cümhuriyyətinin xarici işlər naziri Mövlüd Çavuşoğlu 44 günlük müharibə dövründə bir neçə dəfə Azərbaycana səfər edərək Azərbaycanın dövlət başçısı İlham Əliyevlə görüşdü. Bu onu göstəririd ki, Azərbaycana siyasi-mənəvi dəstək verən Türkiyə ən yüksək səviyyədə Qarabağın işğaldan azad olunmasına bizimlə eyni dərəcədə maraqlı və istəklidir.

Şübhəsiz, Türkiyə ilə yanaşı 2-ci Qarabağ Vətən müharibəsində Azərbaycana ən çox siyasi-mənəvi dəstək verən Pakistan olmuşdur. Bu baxımdan Türkiyə və Pakistanın Azərbaycana verdiyi dəstək Azərbaycan xalqının yaddaşında əbədi yaşayacaqdır. Eyni

zamanda, bu müharibədə Azərbaycana siyasi-mənəvi dəstək verən ölkələr arasında Quzey Kipr Türk Cümhuriyyəti, Ukrayna, İsrail, Moldava, Bosinya-Hersoqovniya, Gürcüstan və digər dövlətlər də olmuşdur.

Əlbəttə, 2-ci Vətən Qarabağ müharibəsində Ermənistana açıq və ya dolayısıyla dəstək verən dövlətlər arasında isə Fransa, Yunanıstan, Cənubi Kipr, BƏƏ, İran İslam Pespublikası, Rusiya Federasiyası, Hollandiya və digər dövlətlər olmuşdur.

Xüsusilə də müharibə dövründə Fransanın dövlət başçısı Makronun, eyni zamanda bir qrup fransız millət vəkilinin İrəvana gedərək onlara dəstək verməsin də çox şeylərdən bir daha xəbər verdi. Bu bir daha göstərdi ki, Fransa ATƏT Minsk Qrupunun həmsədri ola bilməz. Üstəlik, müharibədən sonra da Fransa senatının, Parlament Assambleyasının "Dağlıq Qarabağ" adlı qondarma rejimi tanımaqla bağlı qəbul etdiyi qərarlar hər şeyi bir daha aşkar etdi. Doğrudur, Fransa hökuməti fransız senatorların və parlamentarilərin qəbul etdiyi qərarların qəbul edilməz olduğunu, onu tanımadıqlarını ifadə etdilər. Ancaq bütün hallarda Fransanın tərəfli mövqeyi rəsmi Parisin Qarabağ münaqişəsində ermənipərəst tərəfini açıq şəkildə ortaya qoymuşdu.

Ümumilikdə, ATƏT Minsk qrupunun həmsədrlərinin (Rusiya, Fransa və ABŞ) müharibə dövründə fərqli mövqe tutmaları, xüsusilə Fransanın açıq, Rusiyanın da dolayısıyla Ermənistanı dəstəklədiyi bir daha ortaya çıxmış oldu. ABŞ isə bu məsələ də, yenə də ikili standartları ilə yadda qaldı. Bu isə o demək oldu ki, ATƏT Minsk qrupunun fəaliyyətini dayandırmasından başqa bir yol qalmamışdı. Artıq Dağlıq Qarabağ məsələsində real iki aktiv qüvvə vardı: Türkiyə və Rusiya.

Müharibə dövründə İran adlanan ölkənin ikiüzlü əməllərinin də dəfələrlə şahid olduq. İran İslam rejimi dolaysıyla da olsa, Azərbaycanın işğaldan azad etdiyi ərazilərdə, guya hansısa terrorçu qrupların olduğunu iddia edirdi. Maraqlıdır ki, müharibəyə qədər Ermənistana işğalçı, separatçı rejimə terrorist deməyib, savaş dövründə Azərbaycan ordusunun işğaldan azad etdiyi bölgədə təfkirçi terrorçu qruplaşma axtaran ölkə də İran adlanan ölkə oldu. Çox təəssüflər olsun ki, İran adlanan ölkə 1-ci Qarabağ Vətən

müharibəsində olduğu kimi, 2-ci Qarabağ Vətən müharibəsində də açıq olmasa da, dolayısıyla Ermənistana hərbi yardımlar etdi. İran adlanan ölkənin indiyə qədər Ermənistanın yanında yer alması və bunun da Bütöv Azərbaycan ideyasının gerçəkləşməsi təhlükəsindən qaynaqlanması, hər kəscə bəlli bir məsələdir.

Ona görə də 2020-ci il 27 sentyabrda Azərbaycan ordusunun əks-hücumla başlayan 2-ci Qarabağ Vətən müharibəsində qısa müddətdə cəbhədə əldə etdiyi uğurlar rəsmi Tehranı çox ciddi şəkildə narahat etdi. Ancaq bunu pərdələməyə çalışan İran adlanan ölkə Ermənistana olan münasibətlərdə, o cümlədən Qarabağ məsələsində sözdə, geri addımlar da atdı. Hər halda İran İslam rejiminin yüksək çinli məmurlarının, hətta ən sonunda Ali Ruhani İdarənin rəhbəri Seyid Əli Xameneinin Azərbaycanın ərazi bütövlüyünü dəstəkləmələri ilə bağlı bəyanatları ortadadır. Ancaq onların açıqlamalarında Azərbayacanın ərazi bütölüyündən tərəf olmaları ilə bərabər daim diqqəti çəkən başqa məqamlar da var. Belə ki, İran İslam rejimi bir tərəfdən Azərbaycan Respublikasındakı tərəfdarlarını rəsmi Bakıya, Türkiyəyə və ümumilikdə türklüyə qarşı qışqırtmağa çalışdı, digər tərəfdən Azərbaycanla sərhəd bölgəsinə külli-miqdarda hərbi qüvvə və texnika cəlb etdi.

Bütün bunlar o anlama gəlir ki, Azərbaycan ordusunun cəbhədə əldə etdiyi uğurlar yalnız işğalçı Ermənistana deyil, onu pərdəarxasında dəstəkləyən İran İslam rejiminə də ciddi zərbədir. Ona görə də, 44 günlük müharibə dövründə və sonrasında "İran"ın yüksək çinli ordu rəhbərlərinin dolaysıyla Azərbaycanın işğaldan azad etdiyi ərazilərdə, guya hansısa terrorçu təfkirçi qrupların olduğunu iddia etmələri də təsadüfi deyildi. Halbuki İran İslam rejimi yaxşı bilir ki, bu bölgədə bir terror qruplaşması varsa, o da, Ermənistandır! Həmin terrorçu Ermənistanı dəstəkləyənlərdən biri də, bu və ya digər formada elə İran İslam rejiminin özüdür. Bizcə, əgər İran adlanan ölkə odla oynamağa davam edəcəksə, oynadığı od onun özünü yandıracaqdır. Yəni Təbrizin, bütövlükdə Güney Azərbaycan türklərinin ayaqlanması ilə sonu çatacaqdır. Hər halda 44 günlük müharibəyə qədər Ermənistana işğalçı, separatçı rejimə terrorist deməyən rəsmi Tehranın, Azərbaycan ordusunun işğaldan azad etdiyi bölgədə təfkirçi terrorçu qruplaşmaalr axtarması heç bir

məntiqə və qonşuluq münasibətlərinə sığışmırdı. Xüsusilə də, İran adlanan ölkənin ən böyük və bağışlanmaz səhvi vaxtilə işal altında olan Şuşadakı azərbaycanlılara-türklərə aid məscidi İran-fars məscidi kimi təmir etdirməsi olmuşdu. "İran"ın həm terrorçularla iş birliyi etməsi, həm də Azərbaycana aid məcsidi İran-fars məscidi kimi təmir etdirməsi qəbuledilməz idi.

2-ci Qarabağ Vətən müharibəsindən sonra xalq arasında Bütöv Azərbaycan ideyası daha da populyarlaşdı. Məhz bunu daha yaxşı anlayan İran İslam rejimini daha çox düşündürən məğlub Ermənistanın deyil, öz gələcək aqibətidir.

Əlbəttə, bu günə qədər və indinin özündə də rəsmi Bakı hər zaman İran adlanan ölkənin rəhbərliyi ilə münasibətdə həssas olmağa çalışmışdır. Ancaq "İran" hökumətinin həddini aşacağı təqdirdə Türkiyə ilə hərbi birliyi gücləndirən Azərbaycan 2-ci Qarabağ Vətən müharibəsindən sonra rəsmi Tehranla münasibətlərinə yenidən baxa bilər. Rəsmi Bakı müharibədən sonra "İran"ın Azərbaycandakı tör-töküntüləri ilə bağlı müəyyən tədbirlər görməklə yanaşı, eyni zamanda Güney Azərbaycandakı soydaşlarımızın milli haqqları uğrunda apardığı mübarizəyə də artıq biganə qalmamalıdır. Bizcə, Azərbaycan Respublikasının təbii haqqıdır ki, bütün dünya azərbaycanlılarına, o cümlədən Güney Azərbaycan türklərinə arxa, dayaq olsun. Unutmayaq, 1-ci Qarabağ müharibəsində olduğu kimi, 2-ci Qarabağ müharibəsində də Güney Azərbaycan türkləri Azərbaycan xalqının yanında olmasını dəfələrlə ifadə etdilər. Belə ki, Güney Azərbaycan türkləri Quzey Azərbaycan xalqına həmrəylik üçün, eyni zamanda İran İslam rejiminin gizli yollarla Ermənistana hərbi yardım etməsinə etiraz olaraq Təbrizdə, Urmiyada, Ərdəbildə, Xoyda və başqa şəhərlərimizdə yürüş və mitinqlər keçirdilər. Güney Azərbaycan türklərinin milli iradəsi sayəsində rəsmi Tehran bir çox hallarda Ermənistana hərbi yardım etməkdən geri addım atmağa məcbur oldu.

Ancaq 44 günlük 2-ci Qarabağ Vətən müharibəsi bitdikdən sonra da (10 noyabr) İran İslam rejimi tərəfindən Azərbaycana münasibətdə xoşagəlməyən addımlar və hərəkətlər davam etmişdir. Bəzi hallarda özlərini Azərbaycana münasibətdə xeyirxah kimi göstərmək istəyən İran İslam rejiminin əslində əsas hədəfi

Azərbaycan qələbəsinə kölgə salmaq, bunun müqabilində də Ermənistanı gücləndirməkdir. Bu baxımdan İran İslam rejiminin işğaldan azad olunmuş Azərbaycan torpaqlarında quruculuq işlərinə yardım etməsi çağrışını və Naxşıvan-Zəngilan koridorunun açılması əvəzinə, Xudafərin körpüsü üzərindən alternativ yol təklif etməsini səmimi görmürük.

Birincisi, İran İslam rejiminin işğaldan azad olunmuş Azərbaycan torpaqlarında quruculuq işlərində iştirakına qətiyyən yol vermək olmaz. Əgər Azərbaycan hökuməti belə bir razılıq verərsə, İran İslam rejimi tərəfindın yalnız problemlərlə üz-üzə qalacaqdır. Məlum olduğu kimi, 30 il bundan əvvəl İran islam rejimi Azərbaycana humanitar yardım etmək, azərbaycanlılara İslam dininin şəri qanunlarını öyrətmək bəhanəsi ilə özünə dayaq mərkəzləri yaratmış, insanlarımızın şüurlarını irançılıqla, iran şiəçiliyi ilə zəhərləməyə başlamışdılar. İndiyə qədər də bu prosesi davam etdirməyə çalışan İran İslam rejimi indi də, bu vasitəilə öz anti-Azərbaycan, anti-Türk əməllərinə davam etməyə səy göstərməkdədir. Ona görə də, əgər İran İslam rejimi Azərbaycanın işğaldan azad olunmuş ərazilərində peyda olunması yalnız rəsmi tehranın və Ermənistanın işinə yarayacaqdır. Bu baxımdan Azərbaycan hökuməti İran İslam rejiminin bu cür qeyri-səmimi çağrışlarını rədd etməlidir.

İran İslam rejimimin Xudafərin körpüsü üzərindən Naçxıvan-Zəngilan koridoruna alternativ yol təklif etməsi də, yenə də rəsmi Tehranın və Ermənistanın maraqlarına hesablanmışdır. İran İslam rejimi Naxşıvan-Zəngilan koridorunun açılmasıyla Ermənistanla sərhədlərinin aradan qaldırılmasından ciddi şəkildə narahatdır. Çünki bu koridorun açılması ilə İran İslam rejiminin Ermənistanla siyasi, iqtisadi və ən əsası hərbi münasibətləri xeyli dərəcədə zərbə altında qalacaqdır. Başqa sözlə, İran İslam rejiminin Ermənistan üzərindən Azərbaycana təzyiq vasitələri zəifləmiş, xeyli dərəcədə aradan qalxmış olacaqdır. Bu baxımdan İran İslam rejiminin əl ayağa düşüb Naxçıvan-Zəngilan koridoruna qarşı alternativ yol təklif etməsi anlaşılandır. Bizcə, əslində 2-ci Qarabağ Vətən müharibəsindən heç də Ermənistandan az olmayaraq, özünü məğlub hesab edən İran İslam rejimi olmuşdur. Hətta, 44 günlük müharibədə

Azərbaycanın qələbə əldə etməməsi üçün sözdə də olsa, daşıdığı "İran İslam" adını zərbə altında qoymuş oldu.

Ümumiyyətlə, 2-ci Qarabağ Vətən müharibəsində İran İslam rejimi özünü bir islam dövlətindən daha çox, etnik-irqçi bir dövlət kimi apardı. Başqa sözlə, bu müharibədə də hər şeydən əvvəl, İran İslam rejimi Azərbaycanla münasibətdə nə İslam dininə, nə şiəlik məzhəbinə, nə də insanlığa uyğun hərəkət etmədi. Üstəlik, İran İslam rejimi din və məzhəb baxımdan ondan uzaq olan Ermənistana bu və ya digər formada dəstək verdi. İran islam rejiminin ermənilərə bu dəstəyinin arxasında da yalnız Güney Azərbaycan faktoru dayanmır, eyni zamanda Ermənistan və İran İslam rejiminin Hind-Avropa nəzəriyyəsinə əsaslanan fars-erməni ortaq kimliyi dayanır. Çünkisi hər ikisi özünü Hind-Avropa nəzəriyyəsindən çıxış edərək Ariyan irqinə aid hesab edirlər. Belə olduğu təqdirdə də, yalnız Azərbaycan xalqı deyil, Türkiyə və digər dünya dövlətləri də İran İslam rejiminin əslində bir müsəlman dövlətindən çox, irqçi fars şovinist dövləti kimi özünü aparmasının şahidi oldu.

Rusiya da 2-ci Qarabağ Vətən müharibəsi dövründə zahirən özünü təfəsiz kimi göstərməyə çalışsa da, ancaq faktiki olaraq Ermənistanın yanında yer almışdır. Xüsusilə də, Rusiyanın dövlət başçısı Vladimir Putinin bir yandan Dağlıq Qarabağın Azərbaycan ərazisi olmasını dilə gətirməklə yanaşı, guya, vaxtilə Sumqayıtda, Dağlıq Qarabağda ermənilərin faciələrə məruz qalmasını səsləndirməsi də birmənalı qarşılana bilməz. Üstəlik, Rusiya Federasiyasınnı xarici işlər naziri Sergey Lavrovun rus hərbçilərinin sülhməramlı kimi bütün tərəflərin razılığı ilə münaqişə bölgəsinə, yəni Dağlıq Qarabağa gələ biləcəyinə eyham vurması da təsadüfi deyildi. Biz, Azərbaycan xalqı olaraq bir daha Azərbaycanda rus hərbçilərini görmək istəməsək də, qanımız bahasına başa gəlmiş müstəqil Azərbaycanda rus əsəgrini qəbul etməsək də, Lavrovun bu açıqlaması nəticədə gerçək oldu. Çox maraqlıdır ki, Rusiyanın Qarabağ münaqişəsinin sülh yolu ilə həllində Türkiyənin daha yüksək formada iştirakını görməməsi də səbəsiz deyilmiş. Çünki 10 noyabrda ortaya çıxmış üçtərəfli bəyantda Türkiyənin adı belə çəkilməmiş, sadəcə bölgədə fəaliyyət göstərəcək Sülhməramlı

Monitorinq mərkəzinin olmasından, dolayısıyla rəsmi Ankaranın orada yer ala bilməsindən bəhs olunmuşdur.

Beləliklə, müharibə günlərində Azərbaycanın cəbhədə uğurlu yürüşünün davamı üçün inanırdıq ki, əgər söhbət Vətəndən, Milli Birlikdən, Azərbaycanımızın bütövlüyündən gedirsə, səbrli və təmkinli olmaq lazımdır. Hər halda hamımız yaxşı anlayırdıq ki, Şuşanın, Xankəndinin, Laçının işğaldan azad olunması hansı dərəcədə mübarizə və mücadilə tələb edir. Xüsusilə də, noyabrın 4-də işğal altındakı Dağlıq Qarabağda yuvalanmış seperatçı rejimin başında dayananların Xankəndindən İrəvana qaçması təsadüfi deyildi. Bu onu göstərirdi ki, Azərbaycan ordusunun Şuşa və Xankəndini işğaldan azad etməsi an məsələsidir. Bu baxımdan noyabrın 7-də Azərbaycan Müdafiə Nazirliyinin yaydığı məlumat olduqca maraqlı idi: "Azərbaycan Ordusu Şuşa şəhərini atəşə tutmayıb". Bizcə, əslində nazirlik bunu demək istəmişdir ki, Şuşa şəhərində döyüşlər getdiyi və böyük ölçüdə Azərbaycan əsgərinin nəzarəti altında olduğu bir məqamda Azərbaycan Ordusunun uzaqdan onu top atəşinə tutmasına ehtiyac qalmamışdır. Doğrudan da, noyabrın 8-də dövlət başçısı İlham Əliyev Şuşanın işğaldan azad olunduğunu xalqa bəyan etdi!

Ancaq noyabrın 9-dan 10-na keçən gecə Azərbaycan, Ermənistan və Rusiya arasında birgə şəkildə bəyan edilən bəyanat Ermənistanın məğlubiyyətlə barışmasını ifadə etməklə yanaşı, Dağlıq Qarabağa Rusiya Federasiyasının sülhməramlılarının gəlməsini (5+5 illik müddətə) də özündə əks etdirməsi Azərbaycan cəmiyyətində birmənalı qarşılanmadı. Azərbaycan xalqının çoxu üçtərəfli Bəyanatdan irəli gələrək Ağdam, Kəlbəcər, Laçın rayonlarının dinc şəkildə boşaldılmasının, Naxçıvanla Zəngilan arasında koridorun olmasının (hələlik bu istiqamətdə bir yenilik yoxdur) sevincini yaşayarkən, eyni zamanda bir qisim insanlar Dağlıq Qarabağda yerləşən Rusiya sülhməramlılarının burada özünü hakim qüvvə kimi aparması, üsətlik separatçıların "başçı"sı Arayik Harutyunyanla görüşlər keçirməsi və ən əsas vacibi Xankəndi, Ağdərə, Xosavənd və keçmiş DQMV-nin Azərbaycan ordusu tərəfindən işğaldan azad olunmayan digər ərazilərin ermənilərin nəzarəti altında qalması kimi məsələlərdən dolayı ciddi şəkildə narahat olmağa başladılar.

Ancaq bütün bunlara baxmayaraq, Azərbaycan dövlətinin başçısı İlham Əliyev çıxışlarında bildirirdi ki, artıq Dağlıq Qarabağ problemi deyilən münaqişə artıq bitib, sadəcə indən belə bu münaqişə tarixi anlamda işlədilə bilər. Bu sözləri dövlət başçısı İlham Əliyev 10 dekabr 2020-ci il tarixində Bakını Azadlıq meydanında keçirilən Zəfər paradında bir daha səsləndirdi. Onunla birgə Zəfər paradında iştirak edən Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan da bəyan etdi ki, artıq Qarabağ azadlığa qovuşmuş, Ana vətən Azərbaycanla yenidən birləşmişdir.

Ancaq burada diqqəti çəkən əsas amil o idi ki, hər iki dövlət başçısı Qarabağın azadlığa qovuşmasından, Azərbaycana yenidən birləşməsindən bəhs edərkən, hazırda da Xankəndi başda olmaqla Dağlıq Qarabağın ermənilər yaşayan və Rusiya "sülhməramlıları"nın nəzarəti altında olan bölgədə yaşananlarla bağlı bir söz demədilər. Belə ki, hazırda Rusiya "sülhməramlıları"nın nəzarət etdiyi Dağlıq Qarabağda separatçıların rahat hərəkət etmələri, orada separatçıların başçısının sözdə "iqamətgahında" görüşlər keçirib "təyinatlar" vermələri və bu kimi qəbuledilməz hallar davam etməkdədir. Üstəlik, Laçın koridorunun, özü də 5 kilometrlik bir en şəklində mövcudluğu narahatçılıq doğuran ciddi faktordur.

Digər tərəfdən bir çox hadisələr göstərir ki, Dağlıq Qarabağ bölgəsindən erməni silahlıları tamamilə təmizlənməmişdir. Üstəlik, erməni terrorçuları Rusiya sülhməramlıları arxasına alaraq mövcud təmas xəttələrində möhkəmlənməyə çalışırlar. Burada diqqəti çəkən əsas məqamlardan biri də, hələ də Dağlıq Qarabağ bölgəsində təmas xəttinin olması və atəşkəs deyilən bir anlayışın mövcudluğudur. Xüsusilə də, 26 noyabr, 8 dekabr, 12 dekabr 2020-ci il tarixlərdə erməni terrorçuların Xocavənd rayonunun Sur kəndində, Hadrut qəsəbəsi yaxınlığında Azərbaycan əsgərlərini şəhid etmələri, üstəlik vaxtilə yalnız azərbaycanlılar yaşamış iki kəndi boşaltmaq istəməmələri və Azərbaycan əsgərinin silah gücünə oranı geri qaytarmaları narahatçılığımızın əsassız olmamasını ortaya qoyur. Digər tərəfdən 8-12 dekabrlar arasında baş verənlər, 10 noyabr üçtərəfli Bəyanatdan sonra atəşkəsin ciddi pozulmaları kimi qiymətləndirilir ki, bu da başa düşülən deyildir. Bu cür hallar dekabrın sonlarına

doğru Xocavəndin Tuğ kəndində təkrar olunmuş, yenə də Azərbaycan əsgərləri arasında şəhid və yaralananlar olmuşdur.

Hər halda Azərbaycan əsgərinin öz ərazisində terrorçuları təmizləməyə davam etməsi atəşkəsin pozulması deyil, terrorçuların məhv edilməsi olaraq dəyərləndirilməlidir. Artıq bununla bağlı 13 dekabra Azərbaycanın Müdafi Naizirliyinin və Dövlət Təhlükəsizlik Xidmətinin birgə məlumatı da yayınlanıb. Həmin məlumatda da göstərilir ki, Rusiya sülhməramlıları erməni terrorçularını oradan çıxartmaq üçün Azərbaycanla birgə iş aparsa da, ancaq bəzi erməni terrorçuları Azərbaycan torpaqlarını tərk etmək əvəzinə terrorçuluqla məşğuldurlar. Məlumatda, erməni terroru nəticəsində Azərbaycan əsgərlərindən dörd şəhidin olduğunu, buna adekvat olaraq da Azərbaycan Respublikasının Dövlət Təhlükəsizlik Xidmətinin Xocavənd rayonu ərazisində antiterror əməliyyatı keçirmək məcburiyyətində qaldığı bildirilib. Məlumatda o da bilirilir ki, Ermənistan tərəfi üçtərəfli bəyənatın müdəalarının yerinə yetirilməsini təmin etməli, atəşkəs rejiminin qorunmasına və sülhün təmin olunmasına dəstək verməli, ərazidə qalmış erməni silahlı dəstələri və ya Ermənistan silahlı qüvvələrinin qalıqları vasitəsilə təxribatların törədilməsi, vəziyyətin qəsdən gərginləşdirilməsi cəhdlərindən çəkinməlidir.

Ancaq görünən odur ki, hazırda Dağlıq Qarabağın ermənilər yaşayan və Rusiya sülhməramlılarının nəzarəti altında olan ərazilərdə Azərbaycan hakimiyyəti bərqərar olmayacağı müddətcə, bu kimi "atəşkəs" pozulması halları çox olacaqdır. Ümumiyyətlə, Azərbaycanın öz ərazisində "atəşkəs" anlayışının, o cümlədən dövlət daxilində hər hansısa "təmas xətti"nin olması qəbul edilməzdir. Bunun tək çıxış yolu Laçın koridorunun bağlanması, Dağlıq Qarabağın hazırda Rusiya sülhməramlılarının nəzarəti altında olan Xankəndində, Xocalıda, Əsgəranda, Xocavənddə, Ağdərədə Azərbaycan bayrağının dalğalanmasıdır. Bir sözlə, Laçın koridoru bağlanmadığı, Rusiya sülhməramlıları (əgər onları sülhməramlı adlandırmaq mümkündürsə) Dağlıq Qarabağ bölgəsini tərk etmədiyi müddətcə, Azərbaycanın BMT tərəfindən tanıdğı ərazisində suverən hakimiyyətinin tam bərqərar olması da mümkün olmayacaqdır. Hər halda 2-ci Qarabağ Vətən müharibəsində 2840-dan çox şəhid verən,

minlərlə qazisi olan Azərbaycan əvvəl-axır ərazi bütövlüyünü tam şəkildə təmin etməlidir.

Ona görə də, 10 noyabr 2020-ci il tarixində imzalanmış üçtərəfli (Azərbaycan-Ermənistan-Rusiya) bəyanata Ermənistanın bir çox hallarda əməl etməməsi, Rusiya sülhmərmalılarının da öz səlahiyyətlərindən tez tez kənara çıxmalara yol verməsi Azərbaycan xalqını cidi şəkildə narahat etməkdədir. Xüsusilə də, Ermənistanın yüksək çinli məmurlarının Dağlıq Qarabağa qeyri-qanuni şəkildə səfər etmələri, üstəlik Xankəndində qondarma rejimin tör-töküntülərinin "başçısı" ilə görüşlər keçirmələri əsla qəbuledilməz-dir. Çox təəssüf ki, 2021-ci ilin yanvar ayının ilk günlərində də Ermənistan tərəfindən həm terrorçuların, həm də yüksək çinli məmurların Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə qeyri-qanuni şəkildə səfər etmələri baş vermişdir. Azərbaycanın dövlət başçısı İlham Əliyev də haqlı olaraq hər iki məsələylə bağlı Ermənistan rəhbərliyini və Rusiya sülhməramlılarını ciddi şəkildə tənqid etmiş, bunun bir daha təkrarlanmaması üçün xəbərdarlıq etmişdir. Şübhəsiz, Ermənistan ərazisindəki terror qruplaşmalarının Azərbaycan ərazisinə keçərək təxribat törətmələrinə görə Ermənistan və Rusiya sülhməramlıları məsuliyyət daşıyır. Əgər bu hallar tez-tez təkrar-lanarsa, Azərbaycan dövləti beynəlxalq hüquqa əsasən müvafiq addımlar atmaq məcburiyyətində qalacaqdır. Dövlət başçısı İlham Əliyevin də qeyd etdiyi kimi, Azərbacanın öz ərazisində istənilən təxribatçılığı artıq terrorçuluq kimi qiymətləndirlir və ona görə də hərəkət edəcək. Bizcə, Ermənistan rəhbərliyi bundan ciddi nəticələr çıxarmalıdır. Əks təqdirdə, dəmir yumruq ermənilərin başının üstündən əksik olmayacaq. Yalnız Ermənistan deyil, onun açıq və gizli tərəfdarları da bundan ciddi nəticə çıxarmalıdır.

11 yanvar 2021-ci ildə Rusiya Federasiyasının paytaxtı Moskvada yenə də dövlət rəhbərlərinin iştirakı ilə ən yüksək səviy-yədə üçtərəfli (Azərbaycan-Ermənistan-Rusiya) görüş keçirilmişdir. Bu görüşdə Azərbaycan dövlət başçısı İlham Əliyev bir daha Dağlıq Qarabağ münaqişəsinin tarixin arxivinə atıldığını və Ermənistanın 10 noyabr bəyanatına əməl etməsinin vacibliyindən bəhs etmişdir. Rusiyanın dövlət başçısı V.Putin isə 10 noyabr bəyanatının dmüddəalarınən yerinə yetirilməsi ilə paralel olaraq daha çox

Azərbaycan və Ermənistan arasında nəqliyyat və iqtisadi sahələrdə münasibətlərin yaranması məsələsinə vurğu yapmışdır. Bizcə, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması, yəni nəqliyyat və iqtisadi sahələrdə hər hansı bir irəliləyişin olması üçün ilk növbədə, Ermənistan Dağlıq Qarabağın Azərbaycan ərazisi olduğunu və onun BMT tərəfindən təsbit olunmuş ərazi bütövlüyünü tanımalıdır. Başqa sözlə, Azərbaycanın de-fakto və de-yure Dağlıq Qarabağ üzərində hakimiyyəti bütün sahələrdə təsbit olunmalıdır.

Digər tərəfdən Ermənistanın təxribatçı addımları ilə 10 noyabr bəyanatında öz əksini tapmış müddəaların gerçəkləşməsinin sual altında qalması baş verərsə, Azərbaycan da beynəlxalq hüquq müstəvisində öz haqq işini hərbi yolla davam etdirmək məcburiyyətində qalacaq. Həra halda Azərbaycan noyabrın 10-da imzalanmış üç tərəfli bəyanata ciddi şəkildə əməl etdiyi halda, Ermənistan tərəfi bir çox hallarda ciddi kənara çıxmalara yol verir. Xüsusilə də Dağlıq Qarabağdakı qondarma rejimin rəhbərliyi ilə görüşlər keçirir, üstəlik, Azərbaycanın ərazi bütövlüyünü pozur və digər təxribatçı hallara yol verir. Azərbaycanın humanitar məsələlərlə bağlı bəzi proseslərə həssas davranmasından nə Ermənistan, nə də Rusiya sülhməramlıları sui-istifadə etməməlidir. Dağlıq Qarabağda baş verən hər bir şeydən Azərbaycan dövlətinin xəbəri olmalı və buna nəzarəti həyata keçirilməlidir. Ümid edirik ki, Türkiyə və Rusiyanın birgə Monitorinq Mərkəzi bu məsələlərə nəzarəti tezliklə öz üzərinə götürüb Dağlıq Qarabağda baş verən bütün hadisələrlə bağlı Azərbaycan hökumətini məlumatlandıracaqdır. Ən vacibi də odur ki, Türkiyənin dövlət başçısı R.T.Ərdoğanın da dediyi kimi, çox keçmədən Dağlıq Qarabağda Rusiya və Türkiyənin birgə Monitorinq Mərkləzinə, Rusiya sülhmərmalılarına da ehtiyac qalmayıb Azərbaycan dövləti bölgəyə tam hakim olacaqdır.

Bizcə, bununla bağlı Azərbaycanın ərazi bütövlüyünün sözün tam anlamında gerçəkləşməsi yolunda Türkiyənin hərbi bazasının Azərbaycanda olması çox vacib rol oynaya bilər. Hələlik, Türkiyə, üçtərəfli bəyantdan irəli gələrək Dağlıq Qarabağ bölgəsində Sülhməramlı Monitorinq Mərkəzində müşahidəçi qüvvə kimi iştirak edir. Türkiyə əsgərlərinin Dağlıq Qarabağa göndərilməsi ilə bağlı sənəd TBMM-də də təsdiq olunmuş, buna 4 partiyanın (AKP, CHP,

MHP İP) millət vəkilləri yekdilliklə səs vermişlər. Türkiyə əsgərləri ilk mərhələdə bir il Azərbaycanda olacaq və Dağlıq Qarabağda elan olunmuş atəşkəsə nəzarət üçün Rusiya ilə birlikdə Sülhməramlı Monitorinq Mərkəzində iştirak edəcəkdir. İndiki halda ümidimizi ilk olaraq Türkiyə əsgərlərinin Sülhməramlı Monitorinq Mərkəzində olması və prosesləri diqqətlə və yaxlndan izləməsidir. Hər halda ümid edirik ki, Türkiyə Dağlıq Qarabağın faktiki olaraq nəzarəti altında olmayan, ancaq de-yure Azərbaycan aid olan hissəsində baş verənləri yaxından izləməklə qalmayacaq, həmin ərazilərdə də Azərbaycan hakimiyyətinin tam bərəqrar olmasına öz töhfəsini verəcəkdir. Bunun üçün isə, qısa müddətdə Azərbaycanla Türkiyə arasında hərbi sazişin bağlanması və Türkiyənin hərbi bazasının Azərbaycanda yerləşdirilməsidir. Bununla bağlı 2020-ci ilin dekabrın sonlarına doğru və 2021-ci ilin yavarında Türkiyənin həm Sülhməramlı Monitorinq Mərkəzində iştirak etmək, həm də Azərbaycanda hərbi bazaların yaradılması istiqamətində hərəkətə keçəməsi təqdirəlayiq haldır.

Bizcə, Azərbayan türkləri də tarixin bu amansız dərslərindən, xüsusilə də soyqırım faktlarından nəticə çıxarmalı, dostlarını və düşmənlərini bir daha yaxşı tanımalıdırlar. Şübhəsiz, Azərbaycan xalqına qarşı törədilmiş bu soyqırımlarda erməni şovinistləri qədər rus şovinistləri, fransız radikal millətçiləri də mühüm rol oynamışlar. Hər halda, heç vaxt unutmamalıyıq ki, bəzi Qərb dövlətləri və Rusiya olmadan ermənilər Türk-Müsəlman soyqırımlarını təkbaşına həyata keçirə bilməz, Azərbaycan torpaqlarını uzun müddət işğalda saxlaya bilməzdi. Deməli, bugünə qədərki Azərbaycan Türk soyqırımlarının mahiyyətini dərindən anlayıb doğru nəticə çıxarmalayıq. Bu o deməkdir ki, biz bu soyqırımlarda yalnız ermənilərin və Ermənistanın deyil, eyni zamanda Rusiyanın və Qərbin də əsas pay sahibi olmasını yaddan çıxartmamalıyıq. Bu bir faktdır ki, vaxtilə Azərbaycan torpaqlarının müəyyən bir hissəsində Ermənistan dövlətini yaradan Rusiya və Qərb dövlətləri yaxın tariximizdə torpaqlarımızın Dağlıq Qarabağ hissəsinin işğal olunmasında fəal oynamaqla yanaşı ikinci bir süni «erməni dövləti»nin qurulması məsələsində də ikiüzlü siyasətini davam etdirmişdir. Yalnız müzəffər Azərbaycan ordusu-

nun 44 günlük 2-ci Qarabağ Vətən müharibəsi nəticəsində qondarma "Dağlıq Qarabağ" rejimi məhv əsasən edilmişdir.

Bu bir gerçəkdir ki, hazırda Rusiya sülhməramlıların himayəsi altında Dağlıq Qarabağın müəyyən bir bölgəsində (Xankəndi, Xocalı, Xocavənd, Ağdərə, Əsgəran və b.) hələ də, ermənilər yaşamağa davam edirlər. Ümid edirik ki, həmin ermənilər arasında yaşayan terrorçular tezliklə zərərsizləşdirilərək, Azərbaycan qanunvericiliyi qarşısında cavab verəcəklər. Eyni zamanda, qısa müddət ərzində Xankəndi başda olmaqla, Dağlıq Qarabağın bütün bölgəsində Azərbaycan hakimiyyəti bərpa ediləcək və azərbaycanlıların doğma torpaqlarına qayıdaraq burada yaşaması gerçəkləşcəkdir. Bir sözlə, bizlər də çox inanmaq istəyirik ki, Dağlıq Qarabağ münaqişəsi doğrudan da tarixin arxivinə atılmışdır. Ancaq Laçın koridorunun mövcudluğu, Xankəndində qondarma rejimin tör-töküntülərinin qalması və seperatçılara aid bez parçasının hələ də Azərbaycan torpaqlarında dalğalanması, separatçıların məhkəməyə cəlb edilməməsi, bir çox hallarda Rusiya "sülhməramlıları"nın separatçıları müdafiə edən hərəkətlərlə çıxış etməsi, hətta Rusiya bayrağı ilə separatçı rejimin bez parçasının yan-yana qoyulması, Ermənistanın yüksək çinli məmurlarının Xankəndinə səfər etməsi və bu kimi digər qəbul edilməz hallar, narahatçılığımızı davam etdirməkdədir. Bütün bunlardan çıxış edərək hesab edirik ki, Dağlıq Qarabağ münaqişəsi xeyli dərəcədə həll olunsa da, ancaq 3-cü Qarabağ Vətən müharibəsinin olması ehtimalını tamamilə bir kənara da qoymaq olmaz.

Bu baxımdan hesab edirik bir tərəfdən Dağlıq Qarabağ münaqişəsinin kökündən həll edilməsinə çalışmaqla ilə yanaşı, bununla paralel olaraq Güney Azərbaycan məsələsini də daim gündəmdə saxlamalyıq. Çünki Güney Azərbaycan məsələsi, buradakı Milli hərəkatın varlığı və güclənməsi Bütöv Azərbaycan ideyası ilə birbaşa bağlıdır. Eyni zamanda, Güney Azərbaycan Milli hərəkatının güclənməsi Dağlıq Qarabağ probleminin kökündən həll olunması baxımından həyati əhəmiyyət daşımaqdadır.

**Bütöv Azərbaycan və Türk Birliyi.** Bu gün Türk dünyası üçün Quzey və Güney Azərbaycan türklüyünün birləşməsi ən ciddi məsələlərdən biridir. Çünki yalnız Azərbaycan türkləri mənəvi-psixoloji və fiziki anlamda birləşdikdən sonra Türklük yeni bir güc

əldə edəcəkdir. Bizcə, Azərbaycan türklüyünün bütövləşməsi bütün Türk Dünyasına ciddi bir güc qatacaqdır. Çünki Azərbaycan türklüyünün yerləşdiyi coğrafi və strateji mövqe Türklük üçün son dərəcə önəmlidir. Eyni zamanda Azərbaycan türklüyü tarixən Türklük və Turançılıq ideyasını özündə yaşadan və yaşda biləcək ən əsas mərkəzlərdən biridir. Bunu, Qərb dünyası da, eyni zamanda onların sayəsində Qacarları devirərək hakimiyyətə gələn farsçı-irançı qüvvələr də yaxşı bilirlər. Bu anlamda Azərbaycanın bir hissəsində müstəqil Türkçülüyün olması irançıları və havadarlarını çox narahat edir.

Ancaq bu gün İran İslam rejiminin bütün cəhdlərinə baxmayaraq Güney Azərbaycanda Azərbaycan Cümhuriyyətinə, ümumAzərbaycan türklüyünə sevgi durmadan artmaqdadır. Dogrudur, Quzey Azərbaycandakı bəzi ruspərəstlər, farspərəstlər, ingilispərəstlər bu sevginin artmaması üçün əllərindən gələni edirlər. Bütün hallarda onlar bunun qarşısını ala bilmirlər və bilməyəcəklər də. Bunu, Qərbdə, Rysiyada və İran İslam rejimi də yaxşı anlayır, nəticənin onlara görə daha da ürəkaçan duruma gəlməməsi üçün hər cür əmək sərf edirlər. Quzey Azərbaycanın yeni uğurlar əldə etməsi Rusiya və İran İslam rejimi üçün eyni dərəcədə təhlükəli hesab olunur; bu qüvvələr, hər yolu dənəyərək iki Azərbaycanın bir olmasına yol verməK istəmirlər!

Ancaq artıq Azərbaycan Türkləri iki əsrlik ayrılığa, parçalanmaya son demək üçün yeni bir aşamaya qədəm qoyublar. Əgər Azərbaycan türkləri Əfşarlar və Qacarların ilkin dönəmlərində olduğu kimi toparlana bilsələr, yalnız Təbrizli, Bakılı, İrəvanlı, Dərbəndli, Xoylu, Urmiyalı, Gəncəli, Qəzvinli Azərbaycana deyil, bütövlükdə əski Turana sahib çıxa bilərlər. Bəlkə, bu günün reallıqları baxımından yazdıqlarımız xəyalpərəstlik kimi görünür, ancaq biz türklər dəfələrlə xəyal görünənləri gerçəkliyə çevirmişik. Bunun əksi olaraq da gerçək olanları da, bir xəyal kimi əlimizdən vermişik. Bu anlamda Nadir şah Əfşarın ağıllı siyasəti nəticəsində böyük Azərbaycan mərkəzli Türk dövləti qurmaq yolunu davam etdirməliyik.

Bunun üçün bu gün Azərbaycanın bütövləşdirməyin əsaslarını, yəni bütövləşdirmə yolundakı əsas prinsiplərimizi ortaya qoymaq zamanıdır. Bizcə, Azərbaycanı bütövləşdir-məyin əsasları aşağıdakı məsələlərin aydınlığa qovuşmasıyla birbaşa bağlıdır: 1. Yeni

dönəmdə tarixi-coğrafı Azərbaycanın siyasi-ideoloji Azərbaycana çevrilməsi yolundakı ilk addımlar – Əfşarlar dönəmində Azərbaycan vilayətinin qurulması: 2. Azərbaycanın Qacarlar dönəmindəki yeri və mövqeyi; 3. Azərbaycan Cümhuriyyətinin qurulması və Azərbaycanın bütövlüyü məsələsinin yeni qoyuluşu; 4. Sovetlər Birliyi və İran Pəhləviləri dönəmində Azərbaycanın bütövlüyü məsələsinin siyasi və milli aspektləri; 5. Quzey Azərbaycanın müstəqilliyi dönəmində Güney Azərbaycanda yüksələn "Milli İstiqlal" davası.[368]

Əgər biz birinci və ikinci məsələlərə bir bütün şəkildə yanaşsaq görərik ki, yeni dönəmdə "tarixi-coğrafi Azərbaycanı" siyasi-ideoloji Azərbaycana çevirən və ona rəsmi status verən Nadir şah Əfşar, onun yolunu davam etdirən Ağa Məhəmməd şah Qacar və Abbas Mirzə olmuşdur. Dogrudan da, bu üç Türk dövlət xadimi Azərbaycanın bütövləşməsi ugrunda çox mücadilə vermiş, bu yolda önəmli işlər görmüşlər. Ancaq əgər bugünkü "Azərbaycan tarixi" kitablarında onların adları yalnız başkəsən, yadelli işğalçı, qaniçən hökmdarlar kimi yazılırsa, deməli Turan qayəli Azərbaycan milli ideyasının, Azərbaycanın bütövlüyünün mahiyyətini sözün həqiqi mənasında dərk etməmişik. Bu məsələylə bağlı hökmən deməliyəm ki, nə vaxta qədər "Azərbaycan Türk xalqının tarixi"ni deyil, "Azərbaycan taixi"ni, yəni yalnız coğrafi bir ərazinin ya da vətən tarixini yazacaq, buna uygun olaraq sinkretik bir tarix uyduracağıqsa, o zaman Nadir şahlar, Ağa Məhəmməd şahlar, Abbas Mirzələr bizlər üçün doğma deyil, yad olacaqlar.

Bu məsələnin burada geniş izahına yol vermədən deyə bilərik ki, xalqın deyil, coğrafi ərazi ya da vətən tarixini yazmağa davam etidyimiz üçün mövcud "Azərbaycan tarixi" kitablarında da bizə bəlli səbəblərdən, əsasən Azərbaycanın bütövləşməsindən çox Azərbaycanın parçalanmasını təbliğ edilir. Çünki bu gün Azərbaycan tarixçilərinin əksəriyyətində cəsarət və iradə yoxdur ki, Azərbaycan türklərinin tarixini yazsınlar. Əgər belə bir tarixi kitablar yazılarsa, Azərbaycanın, Azərbaycan türklüyünün bütövləşməsi və son nəticə olaraq Türk Birliyinin qurulması gerçək olacaqdır.

---

[368] Ələkbərli Faiq. Turan sivilizasiyasına giriş: Turan məfkurəsi və Tanrıçılıq. Bakı, "Xan" nəşriyyatı, 2017, s.490

Bunun üçün də yeni tarix kitablarında Nadir şah, Ağa Məhəmməd şah, Abbas Mirzə kimi Türk böyüklərini Azərbaycanın, Azərbaycan türklüyünün bütövlüyü üçün müca-dilə vermiş və bu yolda şəhid olmuş şəxsiyyətlər kimi qələmə verməliyik. Bu gün onları türk, qacar, əfşar, azərbaycanlı və sair adlandırmağımızdan asılı olmayaraq onlar bu torpaqlarda savaşlar vermiş, bu torpaqlarda hökmdarlıq etmiş Azərbaycan türkləridir. Əgər biz bunu doğru şəkildə övladlarımıza çatdıra bilsək, o zaman Azərbaycanın bütövlüyü də gerçəkləşəcəkdir. Əgər yeni nəsil bilsə ki, Nadir şahlar, Ağa Məhəmməd şahlar, Abbas Mirzələr onların ata-babalarıdır, özləridirlər, onların müstəqil və azad Türk dövlətlərində yaşamaları üçün çar Rusiyası, İngiltərə, Fransayla mübarizə ediblər, o zaman onların özlərinə inamı daha da artacaq, bütövlük və birlik ideyasına möhkəm sarılacaqdır. Bu anlamda Azərbaycanın bütövləşməyin ilk prinsipi bugünkü nəslin Nadir şah Əfşarlara, Ağa Məhəmməd şah Qacarlara, Abbas Mirzələrə sahib çıxmaları və onların törəmələri, davamçıları olduğunu bilməlidirlər.[369] Bizcə, indiyə qədər "Azərbay-can tarixi" kitablarında, eyni zamanda başqa kitablarda şüurlarımıza yeridilmiş "akademik tarix"in əsil mahiyyətini dərk etmədikcə "Gülüstan" və "Türkmənçay" barış müqavilələrinə münasibətimiz dəyişməyəcəkdir. Əgər bir xalqın tarixində onun hökmdarının - Ağa Məhəmməd şah Qacarın Şuşada öldürülməsinə mədhiyyələr yazılmışdırsa, hələ də bu davam edirsə, təbii ki, Azərbaycan Türk hökmdarı Abbas Mirzənin də bütövlük uğrunda apardığı müharibə-ləri "İran adılanan ölkə"nin adına yazmaqla kifayətlənəcəyik.

Ümumiyyətlə, XX əsrin əvvəllərində Quzey və Güney Azərbaycan türkləri, onun tanınmış simaları N.b.Yusifbəyli, M.Ə.Rəsulzadə, Səttarxan, Bağırxan, Ş.M.Xiyabani və başqaları, əsasən Azərbaycanın mənəvi, daha sonra fiziki birliyi ugrunda çox mühüm işlər görmüşlər. Təbii ki, burada müəyyən yanlışlıqlar və kənara çıxmalar olmuşdur, amma bu məsələyə bir bütün kimi yanaşsaq, bütövlük yolunda ciddi addımlar atılmışdır. Amma etiraf etməliyik ki, Sovetlər Birliyi və Pəhləvilər dönəmində bu ideyalara qarşı antitəbliğat maşını işə düşdü. Belə ki, Quzey Azərbaycanın müstəqilliyini itirməsi (1920 aprel), çox keçmədən Türk Qacarlar

[369] Yenə orada, s.491

dövlətini Fars Pəhləvilərin əvəz etməsi Güney Azərbaycanda Quzey Azərbaycana olan münasibəti dəyişməklə yanaşı, onun statusu da aşağı düşdü. Bu isə Azərbaycanın bütövlüyü yolunda müəyyən dəyişikliкəri özüylə bərabər gətirdi. Burada əsas məsələ birbirinə yaxın iki Türk dövlətinin – Azərbaycan Cümhuriyyətinin və Qacarlar dövlətinin mahiyyətinin dəyişməsi, bunun əvəzində zahirini qoruyub saxlaması idi. Belə olduğu təqdirdə, artıq iki Azərbaycanın bir olması məsələsi başqa aspektlərdən gündəmə gəlməyə başladı. Yəni Azərbaycanın bütövləşməsi məsələsi SSRİ tərəfindən milli məsələdən kənara çıxarılaraq "beynəlmiləlləşdirildi". [370]

Bu anlamda, özəlliklə SSRİ rəhbərliyinin başçılığıyla 2-ci Dünya müharibəsi illərində Azərbaycan SSR ilə Güney Azərbaycanın birləşdirilməsi olayı, Azərbaycanın bütövləşdirilməsi yolunda müsbət cəhətləriylə yanaşı, mənfi məqamları ilə də tarixə iz saldı. Hər halda Güney Azərbaycanda Milli hökumətin yaranması həm buradakı Azərbaycan türklərinin Pələvilərə qarşı özünü ifadəsinin bir örnəyi, həm də Quzey Azərbaycanla birləşə bilməsi ideyasını daha da gücləndirdi. Sadəcə, həmin dövrdə Azərbaycanın bütövlüyü ideyasının guya, SSRİ tərəfindən ortaya atılması, daha sonra rsəmi Moskvanın bunun arxasında dayanmaması kimi mülahizələr Azərbaycan türklərinin yaddaşında mənfi iz buraxdı.

Bu gün Quzey Azərbaycanın müstəqilliyi Güney Azərbaycanın müstəqilliyi üçün əsas prinsiplərdən biri olmaqla yanaşı, bütövlüyə doğru gedən yolda bir mayakdır. Doğrudur, türklər arasında yalnız Azərbaycana deyil, bütövlükdə əski Midiyaya sahib çıxmaqla bağlı da ideya vardır. Təbii ki, əski Turan Midiyasına sahib çıxmaq üçün də öncə güclü, bütöv və yenilikçi Azərbaycan olmalıdır! Yəni bütün hallarda Azərbaycan bir olmalıdır ki, ondan sonra digər ideyalarımızı həyata keçirək. Əgər iki Azərbaycan bir olarsa, o zaman dünya tarixində Səfəvilərə, Əfşarlara, Qacarlara olan münasibət də, bugün-kü mifik "İran"a və gerçək Turana olan baxışlar da dəyişəcəkdir!!!

[370] Yenə orada, s.492

# II FƏSİL

# XX əsrdə Güney Azərbaycan Türk fəlsəfi və ictimai fikrinin inkişaf yolları

## 2.1. Milli-demokratik və siyasi-fəlsəfi ideyalar (ümumi baxış və əsas təmsilçiləri)

XX əsrdə yaşayıb yaratmış Güney Azərbaycan Türk mütəfəkkirlərinin fəlsəfi və sosial-siyasi dünyagörüşləri daha çox üç istiqamətdə: 1) Milli-demokratik və siyasi-fəlsəfi ideyalar; 2) Milli maarifçilik və ictimai-fəlsəfi ideyalar; 3) İslam fəlsəfəsi və islamçılıq ideyaları üzrə inkişaf etmişdir. Əlbəttə, bu bir nisbi bölgüdür, çünki həmin ideyaların hər biri az və ya çox dərəcədə hər bir mütəfəkkirə öz təsirini göstərmişdir. Sadəcə, burada söhbət başlıca meyillərdən və müəyyən dərəcədə fərqli baxışlardan gedir.

Güney Azərbaycan Türk mütəfəkkirləri arasında milli-dini və dünyəvi-fəlsəfi ideyaların sintezindən çıxış edən milli-demokratlar Şeyx Məhəmməd Xiyabani, Tağı Rüfət, Seyid Cəfər Pişəvəri, Firudin İbrahimi, Məhəmməd Biriya və başqaları olmuşlar. Onların dünyagörüşlərinə görə, Azərbaycan Milli Hərəkatını irəli aparmaq üçün ən ideal variant sosial-demokrat (qismən də liberal demokrat) prinsiplərindən mümkün olduğu qədər yararlanmaq, həmin ideyaları milli özünəməxsuluqlarla bütünləşdirmək idi. Bu baxımdan onlar türkçülük və islamçılıq ideyalarına çox da meyil göstərməmiş, milliliyi daha çox azərbaycançılıq (Azərbaycan milləti, Azərbaycan dili) kimi, islamçılığı da dünyəvilik prinsipləri çərçivəsində qəbul etmişlər. Bir sözlə onlar bir tərəfdən, XX əsrdə dünyaca məşhur sosial-demokratiyanın, liberal demokratiyanın bir çox prinsiplərini qəbul edib onu həyata keçirməyə çalışdıqları halda, digər tərəfdən həmin ideyalarla Azərbaycan milli ideyası, islamçılıq arasında oxşar tərfələri ortaya qoyub Azərbaycan Milli Hərəkatını gerçəkləşdirməyə çalışıblar. Bu anlamda onları əsasən sosial-demokratiya, müəyyən qədər də liberal-demokratiya cərəyanlarının tərəfdarı olmaqla yanaşı, milli-demokratlar kimi də qəbul etmək olar. Onlardan Şeyx

Məhəmməd Xiyabani, Əli Müsyö Təbrizi, Heydərxan Əmioğlu, Səid Səlmasi, Tağı Rüfət, Seyid Cəfər Pişəvəri, Firudin İbrahimi, Məhəmməd Biriya və başqalarını xüsusilə qeyd etmək lazımdır.

Burada həmin mütəfəkkirlərimizin dünyagörüşünə təsir göstərmiş "İran", "iranlı", "İran dövlətçiliyi" anlayışları ilə bağlı olan bir məsələyə aydınlıq gətirməyi vacib bilirik. Bu da, Səttar xan, Xiyabani,[371] Pişəvəri və ondan sonrakı dövrlərdə milli mütəfəkkirlərimizin bir çoxu tərəfindən tez-tez vurğulanan "Həqiqətdə İrana məşrutəni alan Azərbaycan xalqı olmuşdur",[372] "Azərbaycan İran azadlığının işıqlı məşəli olmuş, o həmişə məşəl olaraq qalmalıdır"[373] kimi mülahizələrlə bağlıdır. Bu mülahizələr bizcə, nə o dövrdə, nə də sonralar doğru izah olunmamışdır. Birincisi, "İran" anlayışının nə vaxt, kimlər tərəfindən ortaya atılması və nə zaman "rəsmiləşməsi" zamanlarına diqqət etmək lazımdır. Xüsusilə də, Qacarlar dövləti dövründə baş verən Məşrutə hərəkatı, Xiyabani hərəkatı ilə, 1925-ci ildən sonra qeyri-qanuni hökm sürmüş İran Pəhləvilərində baş vermiş Pişəvəri hərəkatı və digərlərini eyniləşdirmək doğru deyildi.

İkincisi, bizcə, Səttarxanın, Xiyabaninin apardığı "milli hərəkatlar" məsələsi heç də Qacarlar dövlətinə, bir qədər də dəqiqləşdirsək onu idarə edən Türk sülaləsinə, onların hakimiyyətdən getməsinə yönəlməmişdir. Əksinə, 1925-ci ilə qədərki milli hərəkatlar "irançılıq" ideolojisi adı altında Qacarlar hakimiyyətini ələ keçirmiş fars millətçilərinə və onun havadarlarına qarşı idi. Bu baxımdan Qacarlar dövründəki milli hərəkatlar Azərbaycan xalqının Qacarlar dövlətindən ayrılıb müstəqil milli dövlət yaratması, ya da Qacarların hakimiyyətinə birdəfəlik son qoymaqla izah oluna bilməz. Doğrudur, Azərbaycan məşrutəçiləri Tehrana göndərdikləri teleqrafda Məhəmməd Əli Qacarın taxtdan getməsini tələb etmişlər.[374] Bizcə, buna səbəb də, Qacarlar şahının ruslarla ingilislərin əlində oyuncağa çevrilib "irançılar"ın maraqlarına cavab verən siyasəti yürütməsi olmuşdur. Ancaq Azərbaycan məşrutəçiləri həmin teleqrafda bu tələbi ilə yanaşı, yeni bir Qacarlar hökmdarının (məsələn,

[371] Həsənli Cəmil. Sovet dövründə Azərbaycanın xarici siyasəti (1920-1939). Bakı, "Adiloğlu", 2012, s.107
[372] Pişəvəri S.C. Məqalələri. Bakı: Azərnəşr, 2016, s.373
[373] Yenə orada, s.122
[374] Yenə orada, s.48

Müzəffərəddin şah Qacar kimi) taxta çıxıb məşrutəyə sahib çıxacağına inamlarını da ifadə etmişlər. Bizcə, məşrutə hərəkatında olduğu kimi, bəzən Xiyabani hərəkatında da Azərbaycanın müstəqil olmağa dair fikirlərin səslənməsi[375] isə daha çox Qacarlar dövlətində Türk hakimiyyətinin formal hal alıb, ingilis-rus havadarlığında farsçıların ön plana çıxması ilə bağlı olmuşdur.

Ona görə də, bizcə, 1925-ci ilə qədərki Azərbaycan Milli hərəkatlarında əsas məqsəd Qacarlar dövlətini Türk ruhundan məhrum edib, onu iranlılaşdıran fars millətçiləri ilə havadarlarını zərərsizləşdirmək və Türkün ədalətli, xalqçı hakimiyyətini bərpa etmək idi (xüsusilə də, 1907-ci ilin avqustunda bağlanmış müqaviləyə görə Qacarların Rusiya və İngiltərənin hərbi nüfuz dairəsinə bölünməsindən sonra). Ancaq çox yazıqlar olsun ki, sapı özümüzdən olan baltaların, yəni "özümüzünkülər"in (Kəsrəvilər, Tağızadələr, Zeynalabdinxanlar, Mahmud Əfşarlar və b.) də xəyanəti sayəsində, Məşrutə və Xiyabani hərəkatlarından daha çox faydalanan yenə də, Türk və Azərbaycan düşmənləri oldular.

Fikrimizcə, İran Pəhləvilərinin qeyri-qanuni hakmiyyətinə qarşı Pişəvəri başda olmaqla, aparılan 21 Azər hərəkatı isə sözün həqiqi mənasında, Azərbaycan Milli Azadlıq Hərəkatı idi. Çünki Pəhləvilər dövründə Azərbaycan xalqının türk kimliyi, türk dili, türk mədəniyyəti tarixdə görünməmiş bir formada assimilyasiya olunmuşdur. Bunun da nəticəsində, Azərbaycan xalqında radikal millətçi fars hakimiyyətinə qarşı elə bir nifrət yaranmış idi ki, Pişəvərinin başçılığı ilə yaranan Milli Hökumət hər an Tehranla əlaqələri tamamilə kəsib Milli istiqlalın bir addımlığına qədər gedib çıxmışdı. Sadəcə olaraq, yuxarıda da qeyd etdiyimiz kimi, Sovet Rusiyasının xəyanəti nəticəsində Azərbaycan Milli hökuməti milli muxtariyyətlə razılaşmağa məcbur olub, Tehran hökuməti ilə danışıqlar aparmış, ancaq bunu heç bir fayda verməyəcəyini də dərindən anlamışdır.

Demək istədiyimiz odur ki, Azərbaycan mərkəzli Məşrutə və Xiyabani hərəkatlarından fərqli olaraq 21 Azər hərəkatının qarşısında Azərbaycan xalqının milli muxtariyyətdən də çox milli istiqlalının ortaya qoyulması an məsələsi idi və buna təbii yanaşmaq lazımdır.

---

[375] Tağyeva Ş., Rəhimli Ə., Bayramzadə S., Güney Azərbaycan (Məlumat kitabı). "Xiyabani" oçerki. Bakı, "Orxan", 2000, s.197

Hər halda Azərbaycan mərkəzli Məşrutə və Xiyabani hərəkatlarının formal da olsa, Qacarlar dövlətinin rəhbərlik etdiyi Tehran hökumətinə qarşı ayaqlanması ilə, irançı Pəhləvilər və onun davamçısı Əhməd Qəvvam başda olmaqla, Tehran hökumətinə qarşı ayaqlanmış 21 Azər hərəkatını eyniləşdirmək qətiyyən doğru deyildi. Doğrudur, hər üç hərəkatın Tehran hökumətinə qarşı çıxmasında və irəli sürdüyü tələblər arasında oxşar cəhətlər də var. Ancaq məsələyə daha ümumi prizmadan baxanda görürük ki, ilk iki Azərbaycan Milli hərəkatında Türk ruhundan əsaslı dərəcədə məhrum olmuş Tehran hökumətinə qarşı nə qədər etiraz, narazlıq, hətta kin-küdrət varsa belə, bu Qacarlar Türk dövlətindən ayrılmağa, ya da Qacarları hakimiyyətdən devirməyə qədər pik nöqtəyə gəlib çatmamışdır.

Ancaq biz görürük ki, 21 Azər hərəkatı Azərbaycan xalqının Pəhləvilərə qarşı haqlı olaraq yaranmış nifrətin nəticəsi olaraq, milli istiqlal qovuşmaq üçün son bir addım atmağa qədər yaxınlaşmışdır. Pişəvəri çıxışlarında, yazılarında nə qədər "İran istiqlaliyyəti", "iranlı" kimliyini ortaya qoymağa çalışsa da, bizə elə gəlir ki, bu sadəcə, son addımı atmağa maneə olan ciddi əngəllərin nəticəsi idi. Başqa sözlə, milli istiqlala bir addım qalmışkən, onu "İran istiqlaliyyəti", ümumi "iranlı" kimliyindən danışmağa vadar edən, yetərincə gücün olmaması, üstəlik, Sovet Rusiyasının ikili oyunları, Böyük Britaniya və ABŞ-ın Tehran hökumətinə hər cür yardım etməsi idi.

Bizcə, 21 Azər hərəkatından sonra Azərbaycan xalqının əsaslı bir qismində Milli istiqlal ideyasının davam etməsinə səbəb, ikinci Dünya müharibəsindən sonra Pəhləvilərin başına gəlmiş Məhəmməd Rzanın atasından qalma fars millətçiliyini daha qəddar şəkildə həyata keçirməsi olmuşdu. Bəlkə də, Pişəvəri başda olmaqla 21 Azər hərəkatının liderləri az da olsa, irançı Tehran hökuməti ilə anlaşıb Milli muxtariyyət formasında "iranlı", "İran dövlətçiliyi" şəklində birgəliyi sürdürməyə inanırdılar. Ancaq bu "azacıq inamı" da Pəhləvilərin ikinci qondarma "şah"ı Məhəmməd Rza və fars millətçiləri demək olar ki, kökündən məhv etdilər. İrançı Tehran hökumətlərinin qərarları ilə 1947-1957-ci illərdə on minlərələ Azərbaycan türkünün repressiya olunması, yurd-yuvalarından sürgün edilməsi tarixin qara ləklərindən biridir.

Doğrudur, "İslam inqilabı"ndan sonra (1979) Azərbaycan xalqı-

nın sözdə islamçı Tehran hökuməti ilə anlaşaraq Milli istiqlal ideyasından vaz keçəcəyi, başqa sözlə farslarla türklərin bir arada yaşaya biləcəyi ilə bağlı ümidlər az da olsa, yaranmağa başladı. Ancaq sözdə islamçı İran İslam rejiminin bir çox məsələlərdə (dil, milli kimlik, mədəniyyət və s.) Pəhləvilər rejimindən fərqlənmədiyi ortaya çıxınca, Azərbaycan xalqının xeyli bir qismində 21 Azər hərəkatından qalma Milli istiqlalın bir addımlığında olma hissi daha güclənmişdir.

***

Məşrutə hərəkatında yaxından iştirak edən **Ş.M.Xiyabani** daha çox milli-demokratik və liberal-demokratik ideyalardan çıxış etmişdir. Bütün hallarda Xiyabani milli-mənəvi dəyərlərlə sosial-demokrat, liberal-demokrat ideyaların uzlaşdırlmasından və milli-demokrat olaraq Azərbaycan xalqının milli haqlarının bərpasından yana olmuşdur ( Xiyabanidən ayrıca bəhs etmişik).

Xiyabanidən sonra sosial-demokratik ideyalarla milli-mənəvi ideyaların uzlaşmasından yana olub, bunu daha çox irəliyə aparan **Seyid Cəfər Pişəvəri** olmuşdur. Özünün də ifadə etdiyi kimi, əgər Xiyabani milli davanı təkbaşına və müəyyən çatışmazlıqlarla aparırdısa, Pişəvəri milli davanı daha sistemli şəkildə həyata keçirməyə çalışmış, ömrünün son illərində daha çox milli-demokratik mövqe tutmuşdur (Pişəvəridən ayrıca bəhs etmişik).

Sosial-demokrat cərəyanına meyilli olan **Heydərxan Əmioğlu** (1880-1921) Urmiya şəhərində doğulmuş, br müddət sonra valideynləri Qafqazın Gümrü şəhərinə köçmüşdür. O, orta məktəbi İrəvan şəhərində bitirmiş, Tiflisdəki gimnaziyada isə elektrik mühəndisliyi ixtisasına yiyələnmişdir. Bir müddət Bakıda da yaşayan Əmioğlu, daha sonra Qacarlara gedərək Məşhəd, Tehranda müxtəlif vəzifələr yerinə yetirmiş, burada ilk dəfə elektrik xətləri çəkmişdir. Daha çox solçulara əməkdaşlıq edən Əmioğlu Qacarlardakı inqillab illərində (1906-1909) Səttarxan və Bağırxanla dostluq əlaqələri qurmuşdur.

1918-ci ildə azərbaycanlılarla aysori-erməni-kürd qüvvələri arasında çıxan toqquşmalarda yaxından iştirak edən Əmioğlu düşmənlərin Mərənd və Xoydan geri çəkilmələrində böyük rolu olmuşdur. 1920-1921-ci illərdə Gilanda sosialist dövlət yaratmış

Mirzə Kiçik xana böyük köməkliklər göstərən Əmioğlu, 1921-ci ildə onun adamları tərəfindən də öldürülmüşdür.[376]

Təbriz şəhərində anadan olam **Əli Müsyö Təbrizi/Kərbəlayi** (1886-1910) həyat yolunu müəyyənləşdirmək üçün çox gənc yaşlarında Rusiyanı, Avropanın bir sıra ölkələrini gəzib dolandı, Fransa inqilabları tarixini öyrəndi. Fransız xalqının demokratiya uğrunda mübarizəsi, axıdılan qanlar və əldə edilən nəticə onu cəlb etdi. Odur ki, vətəninin də monarxiyadan xilas olub demokratik respublikaya çevrilməsi üçün yollar axtarmağa başladı. Bir müddət İstanbulda yaşayan və oradakı monarxiya əleyhdarları ilə uzun-uzadı söhbətlər edən Kərbəlayı Əli Təbrizə qayıtdıqdan sonra az zamanda Mösyö Əli kimi tanındı. Bu da səbəbsiz deyildi. Çünki, o, söhbətlərində fransız xalqının respublikalı quruluşuna keçmək üçün apardığı mübarizəsindən tez-tez misallar çəkirdi.[377]

O, Qacarlar dövlətində 1906-cı ildə "İctimayyün-e ammiyyun" (Sosial-Demokrat) təşkilatının qurucularından biri, "Mərkəzi-Qeybi"n əsas aparıcısı olmuşdur. O, "Əncümən" qəzetinin nəşrində də yaxından iştirak etmişdir. Əli Müsyö Məşrutə hərəkatının ən fəallarından biri olmuş, 1908-1909-cu illərdəki Azərbaycandakı Məşrutə iniqlabı zamanı Səttar xanla birlikdə hərəkət etmişdir. 1909-cu ildə Təbriz bələdiyyəsinə rəhbərlik edən Əli Müsyönün 1910-cu ildə Rusiyanın Təbrizdəki konsulluğunun əməkdaşları tərəfindən zəhərlənərək öldürüldüyü iddia olunur.

Dilməqan şəhərində doğulan **Səid Səlmasi (1887-1909)** mədrəsədə oxumuş, fars və fransız dillərini öyrənmişdir. Ömrünün bir hissəsini səyahətlərdə keçirən Səlmasi İstanbul və Bakı şəhərində də yaşamışdır. O, Səlmasa qayıtdıqdan sonra tərəqqi və mədəniyyət yolunda var qüvvəsi ilə çalışmış, öz xərci ilə məktəb açmış, "Şəfəq" adlı qəzet nəşr etdirmişdir. Qacarlarda baş verən 1906-ci il inqilabı nəticəsində Güney Azərbaycada əmələ gələn milli hərəkatının fəal iştirakçılarından olmuş, "İrşad", qəzetində, "Füyuzat" jurnalında yenilikçi, milli ruhlu şeirlər çap etdirmişdir.

Məşrutə dövründə Qacarlar Milli Məclisinə seçilmiş millət vəkilləri bu münasibətlə Təbrizdən Tehrana gedirkən, Səlmasi Azər-

[376] https://az.wikipedia.org/wiki/Heyd%C9%99r_xan_%C6%8Fmio%C4%9Flu
[377] https://ali-shamil.tr.gg/%26%23399%3Bli-M.oe.sy.oe.-T%26%23601%3Bbri.htm

baycan məhbusları ilə, o cümlədən Əbdürrəhim Talıbzadə ilə görüşmüş, fikri mübadiləsi etmişdir. O, 1909-cu ilin fevralında Xoy şəhərində mətbəə açaraq, orada yeni kitabların nəşrilə də məşğul olmuşdur. Səlmasi həmin ilin fevralın 24-də Məşrutə əleyihdarları olan irticaçılar tərəfindən şəhid edilmişdir.[378]

Qeyd edək ki, Əli bəy Hüseynzadə "Siyasəti-fürusət" əsərində SəSəlmasidən də söz açmış, onu "şəhidi-azadi" kimi yad etmişdir.[379] Məhəmməd Hadi isə "Tərəqqi" qəzetində Səlmasi ilə bağlı yazırdı ki, "namipakı xatiratı-millətə nəqş olunmuş" belə bir şəxsiyyətin xatirəsini əbədiləşdirmək üçün gec-tez təmsil etdiyi milləti ona abidə ucaldacaqdır.[380]

Ona aid "Ləyaliyi-iztirar", "Xəyali-mənfur" şeirlərində cəhalətdən, qəflətdən, zülmdən şikayət edən bir gəncin həsrətləri bədii təcəssümünü tapmışdır. Səlmasi mütləqiyyəti, Şərq cəhalətini tənqidlə yanaşı, şeirlərinin bir qismində ədalətli gələcəyə, bəşəri azadlığa ümidini də ifadə etmişdir. O, "Ləyaliyi-iztirar" şeirində inanırdı ki, gec-tez hürriyyətpərəstlər istibdadpərəstlərin kökünü kəsmək, "zülm ağacını yıxmaq üçün" nə lazımdır edəcək, bir gün bəşəriyyətdə azadlıq hökm sürəcəkdir. Səlmasi yazırdı:

*Şad olur dil görüncə millətimin,*
*Bir böyük mərifətli əhrarın.*
*Qət edirlər qələmlə rişəsini,*
*Şəcəri-zülm olan məlainin...* [381]

Ancaq dövründəki bir çox gerçəkliklər, yəni istibdadın əsasən güclü olub hürr tərəfdarlarını bir çox hallarda əzməsi bəzən Səlmasini də bədbinliyə sövq etmişdir. Ancaq Səlmasi "Xəyali-mənfur" şeirindən də gördüyümüz kimi, bu kimi mənfur, bədbin xəyallardan qurtulub gerçək azad bir həyata qovuşmağa can atmışdır. O, yazırdı:

*Çəkil, həyatımı müdhiş edən xəyal, çəkil.*
*Müdam nifrətə bais o hali-tənnazın.*
*Çəkil də qılma mənə şux müşribanə nigah,*
*Sübati-əzmimi qırmaz o çeşmi-qəmmazın.*

---

[378]Cənubi Azərbaycan ədəbiyyatı antologiyası.4 cilddə,2. cild.Bakı, Elm,1983, s.160
[379] Hüseynzadə Əli bəy. Siyasəti-Fürusət. Bakı, Elm, 1994, s.124
[380]Qəribli İslam. Səid Səlmasi // Cənubi Azərbaycan ədəbiyyatı tarixi (XX əsr). İki cilddə, 2-cild. Bakı, Qanun, 2013, s.72
[381] Yenə orada, s.74

*Danışma! Sus deyirəm, istəməm; yəqin etmə,*
*Gəlirmi yadına bir şəb başın sinəmdə ikən*
*O almalıq denilən yerdə biz oturmuşduq...*
*Ağacların arasında qüruba qarşın yenin.*[382]

"Təhəssür" şeirində də istibdadan gileyini və narazılığını ifadə edən Səlmasi bütün hallarda, zülmə qalib gəlib azadlığa qovuşmağın mümkünlüyünü də ifadə etmişdir. O, yazırdı:

*Yetişir guşə dadi-istimdad,*
*Hər tərəfdən havayi-istibdad.*
*Eləyir cismi-milləti məsumun,*
*Hökfərma, nifaqü-məhv və dad.*[383]

Səlmasi "Amali-Vətən" şeirində isə inqilabi duyğularla vətənə sevgisini bu formada ifadə etmişdir. O, bu şeirində daha çox Vətən və Millət amalını ön plana çəkmişdir:

*Amalımız, əfkarımız üqbali-vətəndir,*
*Sərhəd bizə, qələ bizə xaki-vətəndir.*
*Dəva günü yeksər görünən qanlı kəfəndir,*
*İranlılarıq, can veribən nam alarıq biz,*
*Dəvada şəhadətlə hamı kam alarıq biz.*

*Qanilə qılıncdır görünən baydağımızda,*
*Can qorxusu yoxdur dilimizdə, canımızda,*
*Hər guşədə bir şir yatıb torpağımızda,*
*İranlılarıq, can veribən nam alarıq biz,*
*Dəvada şəhadətlə hamı kam alarıq biz.*[384]

Səlmasi dövlətçilik anlamında o dövrdə şüurlara hakim kəsilmiş "iranlı" kimliyi baxımından Vətən amalını ifadə etmişdir. Yuxarıda da qeyd etdiyimiz kimi, Qacarlar dövlətinin hakimiyyətinin son dövründə meydana çıxmış və geniş yayılmış "iranlı" kimliyi daha çox dövlət, vətən və millət qavramlarının ortaq bir nöqtəsi olmuş, bu zaman türk, fars, ərəb, kürd, bəluc və başqalarını özündə birləşdir-

[382]Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. 4 cilddə, 2-cild.Bakı,Elm,1983, s.161
[383]Səlmasi Səid. Təhəssür. "Füyuzat" jurnalı, 24 mart, 1907-ci il, sayı 13
[384]Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. 4 cilddə, 2-ci cild. Bakı, Elm, 1983, s.161

mişdir. Ancaq zamanla məlum olmuşdur ki, "iran" və "iranlı" kimliyini ortaya atanların əsas məqsədi aryançılığı-farsçılığı burada hakim vəziyyətə gətirmək olmuşdur. Bu baxımdan həmin dövrdə istər Səlmasi, istərsə də başqa Azərbaycan Türk aydınlarının "iran", "iranlı" kimliyinə doğma yanaşmasını təbii qarşılamaq lazımdır.

Təbriz şəhərində dünyaya gələn **Hacı Rza Sərraf (1853-1907)** da yeniləşmə tərəfdarı olub Məşrutə inqilabında yaxından iştirak etmişdir. Xüsusilə də, onun 1907-ci ildə Təbrizdə nəşr olunan "Azərbaycan" jurnalının 2-ci sayında yazdığı inqilabi bir şeiri qısa müddətdə bütün ölkədə yayılmışdır.[385] O, yazırdı:

*Ey millәti-islam, oyan, vәqti sәhәrdir,*
*Gör bir nә xәbәrdir.*
*Bәsdir, bu qәdәr yatma, çürürsәn nә xәbәrdir.,*
*Dur, vәqti-sәhәrdir.*
*Qafil düşübәn, dinivü dünyaya satıbsan,*
*Yüz ildi yatıbsan.*
*Bәsdir, gözün aç, sәndә kәsalәt nә qәdәrdir,*
*Dur, vәqti-sәhәrdir...*
*Bidәrdligi başlama, axtarma hәmiyyәt,*
*Zalım, degü qeyrәt .*
*Qeyrәt dedigün başә bәla, cana xәtәrdir,*
*Dur, vәqti-sәhәrdir.*[386]

Mirzə İbrahimov hesab edir ki, Sərrafın şeirinin əsas hədəfi və məzmumu, o dövrdə müsəlman ölkələrinin hamısı üçün bir bəla olan geriliyi qırmaclamaqdır, bu geriliyi aradan qaldırmağa çağırışdır: "Bu isə Sərrafın şeirindəki "Millәti-İslam" anlayışına başqa çalar verir, sanki şair deyir, ey müsəlmanlar, hamınız bir dərddəsiniz, ayılın, səhər açılıb, hərəkətə gəlin, yatanları tapdalayıb keçirlər. İranın o zamankı ictimai, siyasi vəziyyətində və cəmiyyətdə gedən mübarizələr fonunda bu şeir demokratik, inqilabi ruhu gücləndirirdi".[387]

Qeyd edək ki, Sərraf dini-fəlsəfi məzmunlu şeirlər də yazmış, burada daha çox Həzrət Əli və İmam Hüseynlə bağlı düşüncələrini

[385]Nadirov Özbək. Hacı Rza Sərraf // Cənubi Azərbaycan ədəbiyyatı tarixi (XX əsr). İki cilddə, 2-cild. Bakı, Qanun, 2013, s.59
[386]Cənubi Azərbaycan ədəbiyyatı antologiyası.4 cilddə,2.cild. Bakı, Elm,1983, s.126
[387]İbarhimov Mirzə. Dur vəqti səhərdir // Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. 4 cilddə, 2.cild. Bakı, Elm,1983, s.19

ifadə etmişdir.

Təbriz şəhərində ruhani ailəsində dünyaya gələn **Mirzəli Siqqətül-islam Musa oğlu (1860-1911)** uşaq yaşlarından etibarən üsul, fiqh, fəlsəfə, kəlam, ədəbiyyat, tarix və astronomiya elmlərini öyrənməyə başlamışdır. O, sərdari-milli Səttarxanın başçılığı ilə gerçəkləşmiş Azərbaycan mərkəzli Məşrutə hərəkatında yaxından iştirak etmişdir. Onun əsas əsərləri "İzahül-əxbar", "Kitablar güzgüsü", ya da "Kitabların adları", "Siyasəti-islamiyyə", "Əgər millət, əgər biz türklər qəflət etsək", "Risaleyi-siyasət", "Elmi-rical", "Lallar kitabçası" və başqalarıdır.

Siqqətül-islam "Lallar kitabçası"nda bəşəriyyətin gələcəyinə ümidlə baxır, bir gün dünyada zülmün sona çatacağına inanırdı. Ona görə, həmin günə qədər isə hər bir xalq ayrı-ayrılqda istibdadlara qarşı mübarizə aparıb öz əlkələrində əmin-amanlıq, qayda-qanun yaratmalıdır. O, yazırdı: "Doğrudur, elə bir gün gələcək ki, dünyada bir qanun və bir nəfər hökumətlik edəcəkdir, zəmanın gedişi belə bir günü yetişdirməyə zamindir, - amma hələlik, o günə çatana qədər gərək hər bir ölkənin qanunu olsun və özünü idarə etsin".[388]

O, hesab edirdi ki, təqribən 80 il ərzində Qacarlar dövlətində ancaq durğunluq olmuş, ədalət ortadan qalxmış, onun yerini istibdad yutmuşdur. O, yazırdı: "Həştad il bizi dovşan yuxusuna verdilər, biz geri qaldıq, başqaları inkişaf etdilər. Məşrutə bir yana dursun, şəriət və millət soruşmadı: Nə üçün belə?.. Məşrutəçilər qələm azadlığı və dil azadlığı istəyirlər ki, "əmr be məruf və nəhy əz münkər" hüququ əldə etsinlər. Bunları ondan ötəri istəmirlər ki, istibdad sifətini müstəbidlərdən alıb, özləri ona yiyələnsinlər".[389]

Siqqətül-islama görə, müstəbidləri hakimiyyətdən uzaqlaşdırıb özləri müstəbidə çevirələnlər məşrutəçi ola bilməzlər. Onun fikrincə, bu cür məşrutəçilərin məqsədi 80 illik istibdad son vermək deyil, hakimiyyətə gələrək onu davam etdirməkdir. Bu axımdan Təbriz məşrutəçilərinin heç bir istibdadla razılaşmayacağını yazan Siqqətül-islama görə, Azərbaycanın milli hüququ olmalıdır. O, yazırdı: "Deyirlər ki, şəhər təslim olmayınca Təbrizi öz hökmlərindən müstəsna edəcəklər. Təbriz əhalisi milli hüquq tələb edirdilər və

[388]Cənubi Azərbaycan ədəbiyyatı antologiyası.4 cilddə,2.cild. Bakı, Elm,1983, s.36
[389]Yenə orada, s.126

edirlər. Milli hüquq tələb etmək istibdaddan suvay heç bir məntiqdə "şərarət" adlandırılmır.[390]

Siqqətül-islam onu da bəyan edirdi ki, hər şey xalq ilə dövlət arasındakı səmimi birlikdən asılıdır. Bu səmimi birliyin əsasında Müzəffərəddin şah Qacar dövründə verilmiş Məşrutəyə sahib çıxılmasıdır. O, yazırdı: "Əgər dövlət məşrutəni verməsə, xalq ilə dövlət arasında birlik və əmin-amanlıq olmasa, tərəflər bir-birlərindən arxayın olmasalar, get-gedə fəsad genişlənər, bütün ölkədə əmniyyət olmaz, çapavulluq yayılar, beləliklə nə baş qalar, nə papaq... Əgər biz təbrizlilər də öz təkliflərimizə əməl etməsək, özümüzü hər şeydən azad və məsuliyətsiz hesab etsək düşmən saqinin əlindən köməksizlik badəsini ilk içən biz olacağıq, - vəssalam!".[391] O, açıq şəkildə yazırdı ki, şahı başqa bir ölkənin qulu olub, vəkilləri məclisə yad olan məmləkətin gələcəyi yoxdur:

*Məhv elə bir şəhi ki, olub özgənin qulu,*
*Sonra qanıyla əllərini sən xizab elə.*
*Viran elə o məclisi kim yad vəkilidir,*
*Xalqa könül verən kəsi sən intixab elə.*[392]

Siqqətül-islam haqlı olaraq Türk olduğu halda türklükdən, Türk ədalətindən uzaq düşən Məhəmmədəli şahı, eyni zamanda məşrutə qılığındakı aryançı-irançı deputatları tənqid etmişdir.

XX əsrin əvvəllərində yaşamış **Mirzəzadə Eşqi, ya da əsil adı ilə Seyid Məhəmmədrza (1893-1924)** Azərbaycanın Həmədan şəhərində dünyaya gəlmiş inqilabçı ruhlu ziyalılarımızdan biri olmuşdur. 15 yaşından etibarən millətinin, vətəninin ağır vəziyyətinə dair siyasi şeirlər, məqalələr yazan Eşqi "Siyasət", "İyirminci əsr" adlı qəzetlərdə milli-demokratik, sosial-demokratik baxışlarını ifadə etməyə çalışmışdır. O, 1924-cü ildə baş nazir Rza Pəhləvi tərəfindən edam olunmuşdur. Onun əsas əsərləri "Eşqinin idealı", "Novruznamə", "Dirçəliş", "Qan bayramı" və başqalarıdır.

O, "Eşqinin idealı" əsərində yaşadığı cəmiyyətin gerçək təsvirini ortaya qoymuşdur. Belə ki, o, Müzəffərəddin şahın Məşrutə elan etməsi, ancaq oğlunun həmin Məşrutəni lğəv etməsi dövründə

---

[390]Yenə orada, s.126-127
[391]Yenə orada, s.127
[392] Yenə orada, s.30

bir kəndlinin başına gələnlərdən bəhs etmişdir. Məlum olur ki, iki oğlunu Məşrutəyə qurban verən ata, sonda ümidini Məhəmmədəli şahın məğlubiyyəti ilə ölkədə ədalətin bərqərar olmasına bağlayır. Ancaq Məhəmmədəli şahı taxtdan salan məşrutəçilər heç də "inqilab" ümidlərini doğrultmurlar. Eşqi yazırdı:

*Mənə ki, çatmış idi hər cəfayi-məşrutə,*
*İki cavan balam olmuş fədayi-məşrutə,*
*Nəsib olmadı hərgiz səfai-məşrutə,*
*Ərizə verdim. Əya, övliyayi-məşrutə,*
*Ki mən qabaq kim idim, olmuşam kim indi bilin!*[393]

Kəndliyə verilən cavab o olur ki, "inqilab"dan bir şeylər gözləmək əvəzinə gedib özünə bir iş tapsın. Bunuunla da "inqilab"a bəslədiyi ümidləri torpağa dəfn edən kəndli belə Məşrutə hakimiyyətindənsə, yenə "istibdad"ın-Qacarların daha yaxşı olması qənatəinə gəlirdi. O, kəndlinin dilindən yazırdı:

*Necə deyim sizə, bu inqilabi-bədbünyad,*
*Vəsilə oldu, onun sayəsində hər şəyyad,*
*Barındı, çoxlarının oldu xanəsi abad,*
*Bəs inqilab bu isə, var olsun istibdad!*
*Həzar mərtəbə xoşdur, cəfası müstəbidin!..*
*Mən inqilab adına çəkdim ol qədər zəhmət,*
*Dedim məni edəcək bəxtiyar hürriyyət...*[394]

Eşqiyə görə, bu "inqilab"a sipəhidarilər kəfil olduğu üçün, o nəticəsiz qaldı, bundan qazanan ikiüzlü məşrutəçilər oldu. O hesab edirdi ki, bütün bunların bir daha təkrarlanması üçün sosial-demokratiya cərəyanına bel bağlamaq lazımdır. O, yazırdı:

*Mənim cahanda fəqət gizli bir məramım var,*
*Odur məni bu həyata edən bu gün vadar...*
*Açanda ağzını etsin məramını izhar,*
*İki işıqlı gözündə oxundu hissi-vüqar,*
*Təcəssüm etdi o, gözlərdə inqilabi-Lenin.*

*Dili təlatümə gəldi mən ağzına baxacaq,*

---

[393]Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. 4 cilddə, 2-ci cild. Bakı, "Elm", 1983, s.180
[394] Yenə orada, s.181

*O dil göründü mənə qanlı bir qızıl bayraq,*
*Onun kəlamına bir ləhzə mən qulaq asaraq,*
*Dedim, diyari-Firudin od tutub yanacaq...*[395]

Eşqi də inanırdı ki, ancaq "Lenin iniqlabı" yoluyla Qacarlar dövlətində inqilab edib, milləti yeni bir xoşbəxt aləmə, ağ günə çıxartmaq mümkündür. O ümid edirdi ki, yalnız "Lenin iniqlabı"ndan sonra da, hamı bərabər yaşayacaq, zülm sona çatacaq və xoşbəxtlik hökm sürəcəkdirdır. O, yazırdı:

*Şərəfsiz etməyəcək sərvəti özünə şüar,*
*Nə əşrəfi olacaqdır şərafətə meyar,*
*Nə fəhlə muzdunu kəsmək, pul ilə istismar,*
*Şərəf sayılmayacaqdır nə qəsr, nə talar,*
*Şərəf sayılmayacaq fayton ilə at, maşın.*[396]

O, "Ehtiyac, ey ehtiyac" şeirində isə ehtiyacdan irəli gələn çarəsizliyi, ümidsizliyi anlatmağa çalışmışdır. Eşqi göstərməyə çalışır ki, ehtiyac bəzən mərdi namərdə çevrir, hörmətlini hörmətsiz edir, doğrunu oğrunun qapısına getməyə vadar edir. O, yazırdı:

*Hər xəta kim, adəmi aləmdə bədrəftar edər,*
*Ol xətaya ehtiyac insanları vadar edər.*
*Yoxsa insanlar xətanı özlərinə ar edər,*
*Hansı bir adəm "xətəkaram" deyə iqrar edər?*
*Ehtiyac insanları təbi sönük bimar edər.*
*Bir ilin xoş halını bir gündəcə ağlar edər;*
*Ehtiyac insanları bihörmət eylər, zar edər.*
*Mərdi namərdin yanında bəndə eylər, xar edər.*
*Kim edər aslanları tülkü məzac?*
*Ehtiyac, ey ehtiyac!*[397]

Eşqi "Ruzigar, ey ruzigar!" şeirində də daha çox diqqəti dünyadakı ədalətsizliklərə, haqsızlıqlara məzlumların zalımlar tərəfindən istismarına yönəltmişdir. Dünyanın başdan ayağa fitnə, möhnət, zülmlə dolduğunu yazan Eşqi hakim rolundakı "Ruzigar"ın hökmranlığı altındakı dünyada zülmətin nur, qaranlığın işıq, zülmün ədalət üzərində hökmranlığına bir anlama verə bilmədiyini ifadə

---

[395] Yenə orada, s.183
[396] Yenə orada, s.184
[397] Yenə orada, s.184

etmişdir. O, yazırdı:

*Sən ədalətxahsansa dəhridə zalim nədir?*
*Xəlqi bir xəlq etmisənsə, cahülü alim nədir?*
*Sən özün kər salim isən, feli-nasalim nədir?*
*Binəva məhkuma cövrü zülm edən hakim nədir?*[398]

O, daha sonra rəmzi mənada üz tutduğu "Ruzigar"ın birmənalı olmayacaq əməllərindən bəhs etmişdir. Eşqi yazırdı:

*Sərçəni məhv etməyə qırğını etdin zülmkar,*
*Sən verən dişlərlə aslan yüz maralı parçalar,*
*Bu yaratmaqda, bu öldürməkdə bir hikmətmi var?*
*Bir əlin kuzə düzəldər, bir əlin kuzə qırar,*
*Yox sənin tək dəhirdə bietibar,*
*Ruzigar, ey ruzigar.*[399]

Mirzəzadənin dünyagörüşündə ilk növbədə, sosial-demokrat cərəyanı əsasında insanlığın və bəşəriyyətin xilası məsələsi öz əksini tapmışdır. O, ümid edirdi ki, elə bir zaman gəlcək dünyada insanlar arasında heç bir bərbaərsizlik qalmayacaqdır.

Eyni zamanda, o, dünya gerçəkliyində bir-birinə zidd olan məsələlərə (ədalət və zülm, sevgi və nifrət, doğru və yalan və s.) də toxunmuş, bu zaman bir növ Yaradanın işlərinə əl aparmışdır.

Sərab mahalının Dünni kəndində əkinçi ailəsində anadan olan **Bayraməli Abbaszadə-Hammal (1859-1926)** Güney Azərbaycandakı Məşrutə hərəkatında yaxından iştirak etmişdir. Mirzə Ələkbər Sabirlə dostluq əlaqələri olan Hammal ictimai-siyasi görüşlərində "molla nəsrəddinçilər"in yolunu izləmşdir. O, bir müddət Bakıda yaşasa da, sonra Təbrizə dönərək Səttarxan hərəkatına qoşulmuşdur.[400] O, Məşrutə hərəkatıyla bağlı yazırdı:

*Məşrutə bizim canımızı aldı, daduşcan,*
*Avara edib çöllərə də saldı, daduşcan.*
*Hər yerdə olur meyvəsi şirin bu dirəxtin,*
*İranda yetişmibdi, hələ kaldı, daduşcan.*
*Xan rüşvət verib, molla alıb, oldu müvafiq,*

---

[398] Yenə orada, s.186
[399] Yenə orada, s.186
[400] Rüstəmli Asif. Bayraməli Abbaszadə // Cənubi Azərbaycan ədəbiyyatı tarixi (XX əsr). İki cilddə, 2-cild. Bakı, Qanun, 2013, s.82-85

*Bir söylə görüm millətə nə qaldı, daduşcan?* [401]

O, başqa bir şeirində də yazırdı ki, nə olursa-olsun Milli hərəkatdan üz döndərməyəcək və hər daim mübarizə aparacaqdır:

*Mən ruzi-əzəldən demişəm: - Əncümənəm mən,*
*Gər döysələ, öldürsələ də, insimənəm mən.*
*Söz verməræm əğyarə, məgər möhtəmənəm mən?*
*Millət yolunda ölməyə hazır-kəfənəm mən.*
*Mən vermişəm aləmdə xəcalət sənə, Həllac?!*
*Vaizlik edib vəz oxuyursan mənə, Həllac!* [402]

Ömrünün son illərini Quzey Azərbaycanda yaşayan Hammal marksizmin sol qanadına (rus bolşevizminə) meyil göstərmişdir. Qacarlar dövlətində baş qaldırmış Məşrutə hərəkatının çox keçmədən irançıların və havadarlarının bir oyun halına gətirməsinə cavab olaraq o, yazırıdı:

*Məşrutə bizim canımızı aldı, daduşcan,*
*Avarə edib, çöllərə də saldı, daduşcan.*
*Hər yerdə olur meyvəsi şirin bu dirəxtin,*
*İranda yetişmiyibdi, hələ kaldı, daduşcan.*
*Xan rüşvət verib, molla alıb oldu müvafiq,*
*Bir söylə, görüm millətə nə qaldı, daduşcan?*
*İranlılarıq, şahsevənik, köhnəpərəstik,*
*Məbudumuz əmmamə ilə şaldı, daduşcan.* [403]

Hammal, Məhəmməd Əli şah Qacar devrilib onun yerinə oğlu Əhməd şah Qacarın gəlməsindən sonrakı vəziyyətin daha da acınacaqlı olması qənaətində idi. O, yazırdı:

*Millət yığılıb, Məmdəli atdı qırağa,*
*Keçdi qoluqüvvətlilərin əmri qabağa,*
*Təslim olunub təxt-ədalət bir uşağa.*
*Başda oturanlar hamısı düşdü ayağa.*
*İş tərsinə döndü, bütün adət dəyişildi,*
*Qanun pozulub, vəzi-vilayət dəyişildi...*

---

[401]Yenə orada, s.91
[402]Yenə orada, s.97
[403] Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. 4 cilddə, 2-ci cild. Bakı, "Elm", 1983, s.99

*Əhdi-pəsəri-madəri-xaqan unuduldu,*
*İrana müsəllət olan əyan unuduldu.*
*Bəy, molla, ımir, malik ilə xan unuduldu,*
*Həqqi-üləma, rütbeyi-ərkan unuduldu.*
*Hər şəxsə görə əmri-məişət dəyişildi,*
*Qanun dəyişib, vəzi-vilayət dəyişildi.*[404]

O, ölkədə olan bütün ədalətsizlik, hüquqsuzluğun əsas səbəbkarı kimi Qacarlar hakimiyyətini görürdü. Hammal yazırdı:

*Nəsli-Qacara nə lazımdı bəzək,*
*Eşqilə dövreyi-dünyanı gəzək.*
*Borc alıb olmasa yollarda əzək,*
*Dolu-boş oldu cibişdan, sənə nə!*
*Oldu İran hamı viran, mənə nə?*[405]

Hammal Qacarları tənqid etməklə yanaşı, onların yerinə gözünü dikən Rza Pəhləvi və havadarlarının da əsil mahiyyətini ifşa etməyə çalışmışdır. O, yazırdı:

*Mus-mus deyə axır Rza xan müstafalaşdı,*
*Gizlin bəzənib, çıxdı üzə, masqasın açdı.*
*"Hürriyyəti-İran" deyərək, taca yanaşdı,*
*El şahlığıdır" söylədi, amma ki, o çaşdı.*
*Dırmaşdı sənin taxtına İran, gözün aydın.*[406]

O, ictimai-siyasi görüşlərində müsəlman ölkələr ilə Avropa ölkələrinin müqayisəsini vermişdir. Məsələn, "İslamda elm" şeirində Avropa mədəniyyəti ilə İslam mədəniyyətini bir qədər satirik üslubda müqayisəsini verən Hammal yazırdı:

*Bu müsəlman qəribə millətdir.*
*Çümləsi talibani-cənnətdir.*
*Kim deyir yoxdur elmimiz, aya.*
*Sər-bəsər bizdə elmü-sənətdir.*
*Qanmayırlar ülumi-islamı,*
*Bizlərin elmi cümlə hikmətdir.*
*Baxma Avropanın cəmaətinə,*
*Cümlədə cəhldir, cəhalətdir.*

[404] Yenə orada, s.100
[405] Yenə orada, s.104
[406] Yenə orada, s.113

*Elmsizdir tamam əcnəbilər,*
*Bizdəki elmdir, məharətdir.*[407]

O, "Vəsiyyət" şeirində müsəlman xalqlarının geriliyinin əsas səbəbkarı kimi gördüyü ruhani təbəqəni tənqid etmişdir:

*Söylə Molla, niyə sən bizləri bidar elədin,*
*Yüz min ildən yatan islamı xəbərdar elədin?*
*Canı çıxsın hərə bir bərrü-biyabanda qalıb,*
*Ürəyin yandımı sən onları hüşyar elədin?*
*Həftə bir mən dedim: ey milləti-islam, ayılın,*
*Dediyin sözdən usandınmı və ya ar elədin!*[408]

Hammal mühafizəkarlıqdan yeniliyə, istibdaddan ədalətə gedən yolu isə sosial-demokratiya cərəyanında, ya da marksizm-leninizmdə görmüşdür. O, yazırdı:

*Cahanda, binəvalar xain hər yerdə xar olsun,*
*Ucalsın, beyreqi-Şura həmişə payidar olsun!*[409]

O, "Şərqin səadəti" şeirində isə ümid edirdi ki, Sovet Rusiyasının "qırmızı bayrağı" Şərq ölkələrində də dalğalanacaqdır:

*Şərqə hürriyyət doğarsa, mәncә, zəhmətdən doğar,*
*Şənü-şövkət, birlik etməkdən, həmiyyətdən doğar,*
*Əldə al bayraq, dodaqda, dildə hürriyyət sözü,*
*Nail olmaq məqsədə, əlbəttə, qeyrətdən doğar.*
*Zülmü yıxmaq, haqqı almaq, xalqı azad eyləmək,*
*Haqqı istərsən, bu günkü, şanlı qüvvətdən doğar.*
*Ey qızıl əsgər, qızıl kəndçi, qızıl işçi, bu gün,*
*Şərqi azad eyləmək əzm ilə hümmətdən doğar.*[410]

Hammal da, sosial-demokratiyanın təsiri altında olmuş, insan və bəşəriyyətin gələcəyini sosialist ideyaların qalib gəlməsində görmüşdür. O da ümid edirdi ki, məhz dünyada yeganə doğru yolu tutanlar sosial-demokratlardır.

Xiyabaninin yaxın silahdaşlarından biri olan **Cəfər Xamneyi (1866-1922)** də milli-demokratik ideyalara bağlı olmuşdur. ADF-in orqanı olan "Təcəddüd" qəzetinin açıq fikirli, demokrat ruhlu

[407] Yenə orada, s.115
[408] Yenə orada, s.119
[409] Yenə orada, s.115
[410] Yenə orada, s.121-122

mühərrirlərindən olan C.Xamneyinin şeirlərində bəzən pesimist çalarlar olsa da, yenlikçilik daha çox milli ruhla səsləşmiş, gələcəyə böyük ümidləri özündə əks etdirmişdir. Məsələn, o, "İyiriminci əsrə" adlı şeirində daha çox pessimist kimi görünür:

*Ey bəlalar saçan iyiriminci əsr,*
*Qanlı faciələr, vəhşət heykəli.*
*O qara üzünü kənara çevir,*
*Sənin hər anında zülmətin əli.*

*Zülmətin qəbirdən daha qorxulu,*
*Təməlin oddandır, bəzəyin candan.*
*Gözləri qarışıq matəm yuxulu,*
*Hər anın, nəşənin yurdun pozan.*[411]

Ancaq onun XX əsrin gəlişi ilə bağlı pessimizmi müvəqqətidir. Hər halda, C.Xamneyinin "Ümid fəlsəfəsi" şeirində biz, XX əsrin qan-qadasının bitəcəyi və işıqlı günlərin gələcəyinə böyük ümid var. O, yazırdı:

*Biz də bu beş günlük lal ömrümüzdə*
*Neçə-neçə yaşıl tarlalar gördük,*
*Neçə-neçə sarə sünbüllər dərdik,*
*Elə keçmişdə də əkən biz idik,*
*Gələcək dəni də biz əkəcəyik.*
*Gah alan olursan, gah bağışlayan,*
*Gah zülmət içində, gah da parlaqsan.*
*Dünyada əbədi qalan olubmu?*
*Istər birgə ol, istər dağınıq.*
*Biz ki, zaman-zaman məhv oluruqsa,*
*Yenə də mövcuduq, yenə də varıq.*[412]

Onun "Vətənə" şerində də pessimizmdən qurtulub mübarizə aparmağa yönəlik güclü hiss var. Xamneyi yazırdı:

*Özün şir olsan da, aciz qalmısan,*
*Qorxaq bir tülkünün pəncəsində sən.*
*Gözləri qapalı fikrə dalmısan,*

---

[411] Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. 4 cilddə, 2-ci cild. Bakı, "Elm", 1983, s.122
[412]Yenə orada, s.70

*Qılınclar asılıb başının üstdən.*
*Qalx, bu şir gücündən bizə nişan ver,*
*Ya can al, ya da ki, döyüşdə can ver.*[413]

Xamneyinin dünya ilə bağlı düşüncələrində ziddiyyətlər özünü göstərmişdir. O, yaşadığı dünyanın gerçək üzünü görüb bir tərəfdən pessimizmə qapılmaqla yanaşı, digər tərəfdən gələcəyə münasibətdə isə nikbin görünməyə çalışmışdır.

XX əsrin birinci yarısında yaşamış, Məşrutə hərəkatında aktiv iştirak etmiş **Ələkbər Dehxuda (1879-1955)** fəlsəfəylə də yaxından maraqlanmışdır. Dehxudanın "Məsəllər və hökmlər" (4 cildlik), "Divani-Dehxuda", "Lüğətnamə" kimi əsərləri ilə yanaşı, Ş.L.Mönteskye və başqa filosoflardan tərcümləri də vardır. Dehxuda açıq fikirli, yenilkçi bir ziyalı olmuşdur. Məsələn, o, "Şeyxülislam əzasında cənab "Molla Nəsrəddin"ə təziyət" şeirində riyakar mollaları və rüşvətxor məmurları tənqid etmişdir. O, yazırdı:

*Qaldı mənə bircə söz ki, aya,*
*Din kefli ilə bəpa olurmu,*
*Qoçu ilə kudeta (hərbi çevriliş) olurmu?*
*Hərçənd ki, neçə baş kəsildi.*
*Toplara cənazələr asıldı,*
*Minlərcə dağıldı xanimanlar,*
*Çoxluca yıxıldı dudmanlar.*
*Həm dara çəkildi nəşi-Müslim,*
*Həm cəhlə bulaşdı nami-alim.*[414]

O, "Arifin yolu" şeirində yazırdı:

*Dedim ki, bu könül nədir bəs belə?*
*Dedi ki, sirlərə məskəndir elə.*
*Bir aşıq var dedim, dedi ki, əsla,*
*Ziyalı fikridir nur saçan ona.*
*Bu açıq alınıdır dünyada fəqət,*
*Düyünlü qaş üstə xoş bir əlamət.*
*Olma sən kimsəyə əsla bədgüman,*
*Qəlbinə dəysə də əgər bir nadan.*

[413]Yenə orada, s.70
[414] Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. 4 cilddə, 2-ci cild. Bakı, "Elm", 1983, s.247

*Eşq dənizində qəm gövhərləri,*
*Səsləyir yığmağa dostlar, bizləri.*[415]

Dehxuda inqilabçılığı ilə yanaşı, müdrikliyi ilə də tanınmış simalardan biri olmuşdur. onun nəsihətverici kəlamları öz dövründə də sonralar da geniş yayılmışdır.

Güney Azərbaycanın tanınmış ziyalılarında olan **Məmmədəli Səfvət (1878-1941)** əvvəlcə Təbrizdə, sonra da Qumda təhsil almışdır. 1910-cu ildə Təbrizdə təşkil olunan Maarif Əncüməninin banilərindən biri olan Səfvət Ş.M.Xiyabaninin də yaxın silahdaşı olmuşdur. Pəhləvilər rejiminin təqibindən dolayı ömrünün son illərini Qumda keçirən Səfvətin əsas əsərləri aşağıdakılardır: “Mizanül-insan” (“İnsanın ölçüsü”), “Mənabeül-hökm” (“Hökmün mənbələri”), “Danişü-pərvəriş” (“Təlim və tərbiyə”), “Min bir şair”, “Dastani-dustan”, “Bir dəstə gül” və b.

Səfvətin yaradıcılığında fəlsəfi, sosial-fəlsəfi mülahizələr də az deyildir. Məsələn, o, “Cana gəldim” şeirində yazırdı:

*Nə eşq olayqdı, nə aşiq, nə dil, nə dilbər olaydı,*
*Nə gül olaydı, nə bülbül, nə mey, nə sağər olaydı.*
*Nə hüsni-rəy, nə ahu kimi baxan gözlər,*
*Nə zülm olaydı, nə kakil, nə müşgü ənbər olaydı.*[416]

Eyni zamanda, o yazırdı ki, nə kapitalizmlə sosializm, nə də varlıyla yoxsul da olmayaydı:

*Nə kapital, nə sosyal olaydı, nə...*
*Nə fəqir olaydı, nə sərvət, nə zər, nə zərgər olaydı.*
*Nə hökm olaydı, nə hakim, nə ədl olaydı, nə zur,*
*Nə kargər, nə rəiyyət, nə sər, nə sərvər olaydı.*
*Nə bu cahani-cəhənnəm nişan, nə xilqəti-adəm,*
*Nə huri olaydı, nə qılman, nə abi-kövsər olaydı.*[417]

O, “Zamanın göstərişi” şeirində də dünyadakı haqsızlıqdan, ədalətsizlikdən, sosial bərabərsizlikdən bəhs etmişdir. O, yazırdı:

*Hər eybi, hər qəbahəti, hər xubs tinəti,*
*Sitr eyləyən fəqət bu cahanda cinayımış,*

---

[415] Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. 4 cilddə, 3-cü cild. Bakı, “Elm”, 1988, s.21

[416] Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. 4 cilddə, 2-ci cild. Bakı, “Elm”, 1983, s.189-190

[417] Yenə orada, s.190

*Xadimlərin təracümi-əhvalı göstərir,*
*Zatən bu mülkü millətə xidmət xətayımış.*
*Ta görməyim cinayət edənlər qiyafəsini,*
*Əvvəl ölümdü çarəsi, son inzivayımış.*
*Bu feyzi rəhnümayi-təriqətdən almışam,*
*Səhni-səfa dedikləri matəmsərayımış.*
*Guya təbiətin də bu xilqətdə məqsədi,*
*Məxluqa büsbütün ğəmü rəncü ənayımış.*
*Səfvət, məlal xatirimə çarəsaz yox,*
*Dil əhli hər zaman arasan binəvayımış.*[418]

Səfvət "Səs salar fəryadımız" şeirində yalnız eşqlə haqsızlığa, ədalətsizliyə qarşı mübarizə aparmağın mümkünlüyündən bəhs etmişdir. O, yazırdı:

*Eşqdir ancaq bizim bu aləmi-icadımız,*
*Eşqdir dünya üzündə ən böyük ustadımız.*

*Kim bizi yad eyləyər, kimdir baxan məhbuslara,*
*Bir yana çıxmaz bizim əsla ki, ahü dadımız.*

*Ömrümüz girdaba düşmüş, qərq olur, yoxdur əlac,*
*Kimdən olsun böylə bir pis gündə, de, imdadımız*[419]

Səfvətin dünyagörüşündə də cəmiyyətin çağdaşlaşmasına meyil güclü olmuşdur. O da, dövrünün populyar sosial-demokrat əqidəsinə rəğbət bəsləmiş, onun sayəsində insan və bəşəriyyətin problemlərinin öz həllini tapacağına ümid etmişdir.

Təbrizli **Əli Fitrət (1890-1947)** sosial-demokrat əqidəli olmuş, 21 Azər hərəkatında, Milli demokratik hökumətin quruculuğunda aktiv iştirak etmişdir. O, 1945-ci ildə Təbrizdə "Vətən yolunda" qəzeti yanında təşkil edilmiş "Şairlər məclisi"nin ilk üzvlərindən biri olmuşdur. Milli hökumət süquta uğradıqdan sonra (12 dekabr 1946), İran Pəhləvilər rejimi tərəfindən öldürülmüşdür.

Fitrət "Bum və bülbül", "Divani-Fitrət" kitablarında və digər əsərlərində bir tərəfdən sosial-demokratizm crəyayanını, digər

---

[418] Yenə orada, s.191

[419] Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. 4 cilddə, 3-cü cild. Bakı, "Elm", 1988, s.21

tərəfdən Azərbaycan milli hərəkatını tərənnüm etmişdir. O, "Vətən eşqi" şeirində milli hərəkatı tərənnüm edərək yazırdı:

*Mənim yarım diyarımdır, dəxi özgə bir yarım yox,*
*Vətəndən qeyri-aləmdə mənim mehrü nigarım yox,*
*Vətən məftunuyam, dildə, odur səbrü qərarım yox,*
*Məhəbbət camını nuş etmişəm, peymanə-peymanə.*[420]

Fitrət hesab edirdi ki, Azərbaycan xalqının azadlığına, onun dilinə qəsd edənlər heç bir şeyə nail ola bilməyəcəklər. Çünki bu xalq öz azadlığını və ana dilini heç bir halda başqalarına qurban vermək niyyətində deyil. O, yazırdı:

*Bu cavan dövlətin vücudundan,*
*Xalqa baği-cinandır Təbriz,*
*Gördü ki, xalqımız olub azad,*
*Odi ki, şadmandır Təbriz.*
*Bil, əzəldən hünərli insana,*
*Hər zaman qədrdandır Təbriz.*
*Demokratın təlaşi-səindən,*
*Bax nə əmnü əmandır Təbriz.*
*Dəxi bundan sonra qəm eləmə, dil,*
*Paytəxti-zalandır Təbriz.*
*Bizə lazım deyil ayrı bir lisan,*
*Sahibi-xoşlisandır Təbriz.*
*Biz bu dildə gərək deyib oxuyaq,*
*Bizə bu dil rəvandır Təbriz.* [421]

Fitrət də, 21 Azər hərəkatında iştirak etmiş bir çox mütəfəkkirlərimiz kimi, Sovet Rusiyasi ideologiyasınnı təsiri altında dilini, milli kimliyini "azər" adlandırırdı:

*Dilim azər, elim azər, məkanım Azəristandır,*
*Əgər min canım olsa, hər biri bu namə qurbandır.*[422]

1917-ci ilin oktyabrında rus bolşeviklərin Rusiyada hakmiyyətə gəlməsini orada yaşayan xalqlar üçün ümid işığı kimi qiymətləndirən Fitrət inanırdı  ki, bununla da bütün ölkələrə hürriyyət gəlməyə başlamışdır. O, yazırdı:

---

[420] Yenə orada, s.25
[421] Yenə orada, s.31
[422] Yenə orada, s.25

*Mübarək oktyabrdır, gətir saqi, mənə badə,*
*Bu bayramda qəmin olmaz, əmin ol mərd azadə,*
*Bu bayramdan saçıldı hər diyara nuri-hürriyyət,*
*Qızıl xətt ilə tarixə keçib mənşuri-hürriyyət.*
*Verildi hər hər yerə, hər ölkəyə dəsturi-hürriyyət...*
*Salam olsun sənə bizdən bu gün, ey namvər rəhbər,*
*Sənin lütfünə indi dikibdir gözlərin ellər,*
*Bu vazeh sözdür aləmdə ata övladını gözlər.*
*Bizi salma nəzərdən, ey olan bikəslərə yavər,*
*Rəvadırmı düçar olsun bəşər birəhm səyyada.*[423]

Əli Fitrət də inqilabçı, yenilikçi ruhlu bir ziyalı olmuş, insan və bəşəriyyətin gələcəyini daha çox sosial-demokratizm cərəyanında görmüşdür. Hətta, rus bolşeviklərinin lideri Leninin bu yolda digər xalqlar kimi azərbaycanlılara da bir mayak olacağına inanmışdır. O, yazırdı:

*Şurəvilər ittihad ilə yetişdi kamına,*
*Yazdı fərmani-səadət çərxi-şura namına,*
*Afərin olsun bu ali millətin iqdamına,*
*Ki, onun hər fərdi-fərdi, qeydidən azad olur.*[424]

Ümumilikdə, Fitrətin dünyagörüşündə sosial-demokratizmdən çox milli ideyanın üstünlüyü özünü büruzə vermiş, o, məhz Azərbaycanın milli azadlığı uğrunda da şəhid olmuşdur.

Sosial-demokratiya cərəyanına meyil göstərən Ərdəbilli **İbrahim Zakir (1891-1971)** gənc yaşlarında "molla nəsrəddinçilər"in təsiri altında olmuş, Azərbaycan milli hərəkatına qoşularaq Milli Hökumətin quruculuğunda fəal iştirak etmişdir. 1946-cı ilin 12 dekabrında Milli Hökumət məğlub olduqdan sonra Bakıda yaşayan Zakir "Mənim andım", "Savalan xatirəsi", "Vətən nəğmələri" və başqa kitablarında həm kommunizm təlimini, həm də milli azadlıq ideyasını tərənnüm etmişdir.

O, milli azadlıq ideyası ilə bağlı "Azər" şeirində 21 Azər hərəkatını (12 dekabr 1945) tərənnüm edərək yazırdı:

*Ey Azər bayramı, ey Azər günü,*
*Sən azad elimin iftixarısan.*

---

[423] Yenə orada, s.25
[424] Yenə orada, s.28

*Çox sevir ürəkdən xalqımız səni,*
*Çün bizim Nehzətin yadigarısan...*

*Gözüm önündədir o yaxın zaman,*
*Odur, dəstə-dəstə qəhrəman ordu,*
*Keçdikcə Səttərxan xiyabanından,*
*Şadlığa qərq olur azəri yurdu.*[425]

Zakir "Təbriz" şeirində də yazırdı ki, Səttarxan, Xiyabanidən sonra Pişəvərinin başçılığı ilə Təbriz yenidən oyanmış və 21 Azər olayı baş vermişdir. O, yazırdı:

*Yatmadı demokrat firqəsi rahət,*
*O, Azər ayında başladı nehzət,*
*Tutdu yer üzünü səndəki şöhrət,*
*Oldun bütün dillər əzbəri, Təbriz...*

*De görüm, hardadır milli hökumət?*
*Sənə üz veribdir, bu qəm, bu möhnət.,*
*Hanı o abadlıq, hanı o sənət,*
*Ey Azər elinin vüqarı, Təbriz!*[426]

Zakir də digər güneyli demokratlar kimi milli azadlıq ideyasını tərənnüm edərkən "Azər eli", "Azəristan", "Azəri yurdu" və bu kimi anlayışlardan istifadə etmişdir ki, bu yenə də Sovet Rusiyasının ideoloji basqılarının nəticəsi idi. Hər halda Zakir də bunda uzaq dura bilməmiş "türk" deyəcəyi hər bir məsələni "azər", "azəri" kimi ifadə etmişdir. Beləliklə, özünü əqidəli bir kommunist kimi aparan Zakir hesab edirdi ki, dünyanın gələcəyi də kommunizmlə bağlıdır. O, yazırdı:

*Dünyada olub şəmsi-dirəxşan kommunistlər,*
*Haqqı eyləyib xalqa nümayan kommunistlər.*
*İstər kommunist firqəsi aləm ola abad,*
*Millətlər ola bir, hamı ömr eyləyə dilşad,*
*Məzluma, fəqirə oluna hər cür imdad,*
*Heç kimsə əsir olmaya, ellər ola azad,*
*Dünyanı edər bağü gülüstan, kommunistlər,*

[425]Yenə orada, s.33-34
[426]Yenə orada, s.36

*Xalqı eləyər xoş günə mehman, kommunistlər.*[427]

Daha sonra bütün dinlərin də uydurma olduğunu irəli sürərək tənqid edən Zakir yazırdı ki, haqq deyilən Quran, Tövrat, İncil deyil işçinin özüdür.[428] Bütün bunları ortaya qoyan başlıca kommunistin də Lenin olduğuna şübhə etməyən Zakir iddia edirdi ki, Quzey Azərbaycanı ağ günə çıxaran bolşeviklər Güney Azərbaycanı da bir gün xilas edəcəkdir. O, yazırdı:

*Kimdir bu şəhəri (yəni Bakını-F.Ə.) işıqlandıran,*
*Dahimiz Leninin böyük qüdrəti!*
*Odur ölkəmizdə işıq yandıran,*
*Qurtaran qüssədən, qəmdən bizləri.*

*Odur ki, Təbriz də tutub üzünü*
*Qızıl Moskvadan nicat gözləyir.*
*Böyük Moskvaya dikib gözünü,*
*Onun dühasından həyat gözləyir.*[429]

Gördüyümüz kimi, Zakirin dünyagörüşündə sosial-demokrat təlimi və milli ideyalar paralelik təşkil etmişdir. O, Azərbaycan xalqının azadlığı yolunda ən uyğun cərəyan kimi marksizmi görmüş, ömrünün axırına qədər də buna əsasən sadiq qalmışdır.

Bakıda anadan olub, ancaq 1938-ci ildən etibarən Güeny Azərbaycanda yaşayanlardan biri də **Əli Cavadzadə Tudə** olmuşdur. Azərbaycan Milli hərəkatı məğlub olduqdan sonra (1946) Bakıya qayıdan Tudə "Cənub nəğmələri" kitabı ilə məşhurlaşmışdır. Tudə sosial-demokrat əqidəli olmuş, marksizm-leninizm təliminə böyük ümidlər bəsləmişdir.

Güney Azərbaycanın Astara şəhərində dünyaya gələn **Firudin İbrahimi (1918-1947)** isə ixtisasca hüquqşünas olub. O,1943-cü ildən etibarən S.C.Pişəvərinin redaktoru olduğu "Ajir", daha sonra "Rəhbər", "Zəfər", "Yeni Şərq", "Azərbaycan" və digər qəzetlərlə əməkdaşlıq etmişdir.[430] 1945-ci ilin oktyabrında Təbrizdə keçirilən ADF-nin qurultayında Firidun İbrahimi partiyanın rəhbər heyətinə

[427] Yenə orada, s.39
[428] Yenə orada, s.40
[429] Yenə orada, s.41
[430] İbrahimi Firudin. Sülh uğrunda (Paris Sülh konfransı barədə qeydlər. 1946). Bakı, Elm və təhsil, 2018, s.6-7

seçilib. Bir ay sonra isə Milli Məclisə keçirilən seçkilərdə o da məclisə üzv seçilir. 1945-ci il dekabrın 12-də Seyid Cəfər Pişəvəri Nazirlər Kabinetini formalaşdıranda Firidun İbrahimini Azərbaycan Milli Hökumətinə baş prokuror təyin edir. F.İbrahimi 1946-cı ildə Parisdə keçirilən Sülh Konfransında da iştirak edib. O, 1947-ci il mayın 22-də Pəhləvilər rejimi tərəfindən edam olunub.

İctimai-siyasi baxışlarına görə sosial-demokrat (əvvəlcə sol yönlü İran Xalq Partiyasının, yəni Tudənin, daha sonra da sol-mərkəzçi yönlü ADF-nin üzvü olub) olan F.İbrahiminin nisbətən geniş həcmli əsərləri 1946-cı ildə nəşr olunmuş "Azəbaycan danışır... İftixarlı tariximizdən bir neçə parlaq səhifə"[431] silsilə məqalələri və "Sülh uğrunda (Paris Sülh konfransı barədə qeydlər. 1946)" hesabat xarakterli əsərləridir.

O, "Sülh uğrunda" hesabat xarakterli məktublarında Böyük Britaniyanın, ABŞ-ın və digər Qərb dövlətlərinin Paris Sülh Konfransındakı siyasətini, ideyalarını tənqid etdiyi halda, Sovet Ruisyasının siyasətini isə müdafiə etmişdir. O, yazırdı ki, yalnız Sovet Rusiyası millətlərin haqq və hüquqlarının qorunmasında, davamlı sülhün bərqərar olmasında maraqlıdır: "Sosialist quruluşunun əsas mahiyyəti ilə əlaqədar olaraq Sovet hökuməti xalqlar arasında dostluq yaratmaq və davamlı bir sülh yaratmaq siyasətini təqib etməkdədir. Sovet nümayəndələri Paris Sülh Konfransında demokratik və ədalətli bir sülh yaradılması yolunda böyük fədakarlıqlar göstərmişlər".[432] İbrahimi inanırdı ki, Qərb dövlətləri dünyanı yenidən müharibəyə cəlb etmək istədikləri halda, Stalin başda olmaqla SSRİ isə sülhün tərəfdarı kimi çıxış etmişdir. Ona görə, həmin beynəlxalq konfransa Stalinin "Sunday times"ə verdiyi müsahibə isə sülh nəğməsi kimi qarşılanmış, xalqlar içərisində gələcək sülh və təhlükəsizliyə möhkəm etimad yaratmışdır.[433]

F.İbrahimi, "Azəbaycan danışır... İftixarlı tariximizdən bir neçə parlaq səhifə" əsərində isə, Sovet Rusiyasının ideoloji təsiri nəticəsində türklükdən uzaq azərbaycançılığı təbliğ etmişdir. Belə ki,

---

[431] İbrahimi Firudin. "Azəbaycan danışır... İftixarlı tariximizdən bir neçə parlaq səhifə". Bakı, Elm və təhsil, 2018

[432] İbrahimi Firudin. Sülh uğrunda (Paris Sülh konfransı barədə qeydlər. 1946). Bakı, Elm və təhsil, 2018, s.106

[433] Yenə orada, s.110

o, midiyalıları Azərbaycanın xalqının əcdadı adladırır, hətta onları farslardan ayırır, ancaq türk olub olmamaları barədə bir kəlmədə yazmır. [434] Ancaq o, midiyalılar kimi Massagetlərin, Skiflərin hökmdarı Tomrisi də Azərbaycan xalqının övladı hesab etmişdir. [435] Üstəlik, yad ideyaların təsiri nəticəsində qədim Azərbaycan xalqının atəşpərəst olduğuna inanan F.İbrahimi yazırdı: "..Bizim vətənimizin adı Azərbaycan, yəni odlar diyarı və bizim iftixarlı xalqımızın adı isə azərbaycanlıdır".[436] O, Midiyanı nəzərdə tutaraq daha sonra yazırdı: "Tarixi-elmi tədqiqatlar sübut edir ki, Azərbaycan milləti müstəqil bir tarixə, dilə və müstəqil qədim mədəniyyətə, parlaq tarixi sivilizasiyaya malik olmuşdur. Bu mövcud əsaslı amillərin nəticəsidir ki, bugünkü Azərbaycan millətinin ulu babaları, yəni madlar uzun müddət pars istilası altında yaşadıqdan sonra nəhayət bir daha öz milli azadlıq və istiqlallarını əldə etməyə nail olmuşlar".[437]

F.İbrahimi ümid edirdi ki, parslar Makedoniyalı İskəndərin və Selevikidlərin hakimiyyətləri altında olduqları zamanlarda azərbaycanlılar yeni müstəqil bir hökumətin əsasını qoymağa, azadlıq bayrağını dalğalandırmağa nail olduqları kimi, indi də öz azadlıq bayraqlarını qaldırıb onu qorumağa hazırdırlar. [438] Onun fikrincə, azadlıq bayrağını əldə etmək üçün də irançıların Azərbaycan xalqının mədəniyyətinə, dilinə, tarixinə qarşı yönəlmiş böhtanlarına, hədyanlarına cavab verməklə yanaşı, eyni zamanda demokratik və azad Azərbaycan uğrunda da mübarizə aparmaq lazımdır. O, yazırdı: "Avantüristlər Azərbaycan millətinin dili, mədəniyyəti və ədəbiyyatı əleyhinə qorxmadan qələm çalmaqda davam edirlər və bizim dilimizə, adət-ənənələrimizə münasibətdə tam ləyaqətsiz bir şəkildə minlərlə aşağılama və hörmətsizlik göstərirlər, bizi tarixsiz bir millət kimi təqdim edirlər, millətimi təhqir edirlər, bizi mədəniyyətsiz millət kimi qələmə verirlər, bizi konstitusiya əleyhinə çıxan kütlə kimi göstərirlər. Bunlar ana dilinin bərpası, unudulmuş Konstitusiyanın əsas maddələrinin icrası tələbini və həqiqi demokratik

---

[434] İbrahimi Firudin. "Azəbaycan danışır... İftixarlı tariximizdən bir neçə parlaq səhifə". Bakı, Elm və təhsil, 2018, s.28

[435] Yenə orada., s.44

[436] Yenə orada., s.60

[437] Yenə orada, s.72

[438] Yenə orada, s.73

prinsiplərin icrasını siyasi qanuna zidd bir hərəkət kimi göstərir və beləliklə, Azərbaycanın qeyrətli və ləyaqətli mücahidləri və övladlarının qanı bahasına əldə edilmiş nailiyyətləri inkar edirlər”. [439]

İrançıların Azərbaycan xalqının əleyhinə yönəlmiş böhtan və iftiralarına cavab olaraq o, yazırdı ki, Rza Pəhləvinin quldur siyasətini davam etdirənlər özlərinin uydurduqları saxta bir tarixi azərbaycanlılara heç vaxt qəbul etdirə bilməyəcəklər: “Repressiya siyasətinin nüfuz və təsiri nəticəsində elə bir vəziyyət yaranmışdır ki, tariximizi təhrif etməyə, hər cür tarixi nailiyyətlərimizi əlimizdən almağa, tarixi şəxsiyyətlərimizi aradan aparmağa çalışan şəxslərin imzası ilə bu gün paytaxt qəzetlərinin səhifələrində onların dayaz ağıla malik olmalarını göstərən yazılar dərc olunur. Bunlar başa düşmürlər ki, bir millətin tarrixini heç bir qüvvə ilə dəyişmək, mövhumat pərdəsi və uydurma əfsanələrlə örtmək, xalqın nəzərindən gizlətmək mümkün deyil. Bir milləti tarixi nailiyyətlərindən məhrum etmək mümkün deyil. Çünki layiq və yaşar bir millət sonucda özünün həqiqi xarakterini göstərəcəkdir, gec, ya da tez ətrafında göyərən alaq otlarını təmizləyəcəkdir”. [440]

İbrahimi dünyagörüşünə görə sosial-demokrat təliminə yaxın olsa da, ancaq daha çox milli-demokrat mövqeyi ilə seçilmişdir. Eyni zamanda, o, “Azərbaycan dili”, “Azərbaycan milləti” adı altında azərbaycançılıq ideyasını təbliğ etmişdir.

XX əsrin birinci yarısında inqilabçı ruhlu şeirləri ilə diqqəti cəlb edən türk qadınları da olmuşdur. Məsələn, **Nimtac xanım Səlmasi** 1917-1918-ci illərdə aysori-kürd qüvvələrinin Səlmasda, Urmiyada və digər Azərbaycan şəhərlərində törtədiyi soyqırım aktlarına öz şeirlərində kəskin şəkildə cavab vermişdir. O, “Qadınların kişilərə xitabı” şeirində yazırdı:

*Bir başqa Nuh ola, yeni tufan qopa gərək,*
*Ta bu ləkəylə damğalı yer tarümar ola.*
*Yırtıldı ar pərdəsi, əfsus, əcəmilərin,*
*Ver biz tikək ki, sizlər üçün bəlkə ar ola.*
*Öz zülfünü açıb bu qadınlar deyir belə:*
*Eybi açaq ki, nakişilər burda xar ola.*

---

[439] Yenə orada, s.22
[440] Yenə orada., s72.

*Qızlar açıblar Urmuda öz ay cəmalını,*
*Məqsəd budur ki, küçədə bir ahü-zar ola.*
*Səlmasda çox bacı üzünə qan yaxıb bu gün,*
*Qardaş qanilə ta ki, şəhər taləzar ola.*
*Xilqət ki, bənd edur bir eli eyşü-işrətə,*
*İstər yəqin ki, min cürə dərdə düçar ola.*[441]

Səlmasi "Tehrana xitab" şeirində də ictimai-siyasi motivdən çıxış edərək, dövlət rəhbərlərinin idarəetmədəki bacarıqsızlıqlarını, nöqsanlarını tənqid atəşinə tutmuşdur. O, yazırdı:

*Yetirsinlər Tehrana, bilsin qafil uyanlar:*
*Qurd sürünü dağıtdı, harda yatıb çobanlar?*
*Bizim papaq qoyanlar harda itib-batıblar?*
*Aparsın bir yaylığı sabah, qoy örtsün onlar.*
*Başçıların məskəni, parklar olubdur bu gün,*
*Uşaqların naləsin eşitsin pəhləvanlar.*
*Yetimlərin göz yaşı axıb güclü sel olsun,*
*Aparsın o parkları, boğulsun o nadanlar.*
*Hanı bizim iyidlər, bir vaxt var idi burda?*
*Tariximiz yad edir, heyif, itib-batanlar.*
*Hanı gələ bir aslan, əzmlə, fəryad ilə,*
*Dola bu tülklərlə o məhbəslər, zindanlar.*
*Bizim pəri gözəllər əsir olub divlərə,*
*Hanı o xoşbəxt günlər, hanı o xoş zamanlar?*
*Vətənpərəstlər hamı uzaq düşüb vətəndən,*
*Özgələrin əsiri, hardadır o cavanlar?*
*Ölüm hayanda qaldın?! Gəl tut mənim əlimdən,*
*Apar görüm hardadır, röyalara uyanlar?*[442]

Nimtac xanımın şeirlərinin ruhundakı üsyankarlığı ilə yanaşı, milli dəyərlərə bağlılığı görməmək mümükn deyildir. O, Azərbaycan türkünün yenidən dililişini görmək istədiyi üçün, onları milli oyanışa səsləmişdir.

Azərbaycan türklərinin qadın ziyalılarından olan **Şəms Kəsmai** Təbrizdə çarşabsız gəzən ilk xanımlardan biri hesab olunur.

---

[441]Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. 4 cilddə, 2-ci cild. Bakı, "Elm", 1983, s.47
[442] Yenə orada, s.47

Onun şeirlərində də iniqlabçılıq, yenilkçilik ön planda olmuş və insanları sosial bərabərliyə səsləmişdir. O, yazırdı:

*Nə qədər ki, insanlıq öz arxasını*
*zərü-zibaya söykəyəcək,*
*Qardaşlığa, ittifaqa inanma sən.*
*Nə qədər ki, bərabərlik öz gücündə deyil hələ,*
*Qədim Şərqin nicatını heç anma sən.*
*Ayağımız altına da göz tikilib,*
*Üstümüzə tamah yüklü, ox çəkilib.*
*Şəms, Qəmər azad gəzir söyləsələr,*
*inanma sən.*
*Yalvarmaqla səsimizə səs verilməz,*
*Yasdığımız-qeyrətimiz, bəlkə yağı bunu bilməz.*[443]

XX əsrin ilk yarısında yaşamış **Pərvin Etisami (1906-1941)** də qadın ziyalılarımız arasında mühüm yer tutur. Etisami də digər xanım ziyalılarımız kimi iniqlabçı ruhu, yenilikçiliyi ilə fərqlənmişdir. Məsələn, o, "Deyil" şeirində bir sərxoşun dili ilə valini, hakimi, polis rəisini, mollanı çox ustalıqla tənqid etmişdir:

*Yaxasından yapışıb tutdu polis bir məstin,*
*Dedi: – ey dost, bu yüyəndirmi? De, paltar deyil?*
*O cavab verdi qəzəblə: – yıxılarsan küçədə,*
*Dedi: – Yoxdur günahım, yol özü həmvar deyil.*
*Dedi: – Qaziyə gərək mən səni təhvil verim,*
*Dedi: – Qazi özü də dəm yatıb, hüşyar deyil.*
*Dedi: – Valinin evi tindədi, tərpən də gedək,*
*Dedi: – Qazi kimi, heç Vali də bidar deyil.*
*Dedi: – Rəisə deyim, get gecələ məsciddə,*
*Dedi: – Bəs onda deməzlər ki, günhakar deyil?*
*Dedi: – Dirhəm verəsən lal olacaqdır molla,*
*Dedi: – Bəs onda şəriət? Mənə bu ar deyil?*
*Dedi: – Qanuna görə tərki-libas eyləyərəm,*
*Dedi: – Çoxdan üzülüb, bir elə paltar deyil.*[444]

---

[443] Yenə orada, s.72-73
[444] Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. 4 cilddə, 2-ci cild. Bakı, "Elm", 1983, s.271

Etisami "Ey rəncbər" şeirində isə diqqəti kəndlilərin dözülməz həyatına və bunda əsas günahkar olan hakimlər, məmurlar və mollalar tərəfindən istismar olunmasına  çəkmişdir. Ona görə, bir para çörək üçün tər axıdan kəndlinin əmək haqqı sonda yalnız əzabdır, çünki əsas güc hakimlərin, mollaların əlindədir:

*Günəş, torpaq kimi düşmən, hələ*
*azğın küləklər də,*
*De bir nədən əmək haqqın yalnız*
*əzabdır, ey rəncbər!*
*Tapdalanmış hüququndan soruşsan,*
*sən müqəssiri,*
*Deyər yüz-yüz yekə qarın xandır,*
*cənabdır, ey rəncbər!*
*Sorurlar zəli tək qanın, çıxır gör,*
*bir necə canın.*
*Yu qanda əl-ayağını, elə bil*
*abdır, ey rəncbər!*
*O xudpəsənd, harın divin boğazından*
*tutub  həbs et,*
*Həqiqətin bu üzündən bulud hicabdır,*
*ey rəncbər!*
*Qazi qərarı rüşvətdir, nə dindir,*
*nə şəriətdir,*
*Füqaraya göz yummağı ondan*
*cavabdır, ey rəncbər!*[445]

Onun "Azadlıq nişanı" şeirində Pəhləvi rejiminin əsarətinə, zülmünə, assimilyasiya siyasətinə qarşı bir üsyan var:

*Mənim şüarımdır azadlıq demək,*
*Bununçün kasıblıq qimətim olub.*
*Həmişə tikirəm, özüm çılpağam,*
*Elə bu cürə də yaşayacağam.*[446]

*****

XX əsrdə milli-demokratik cərəyana qarşı çıxıb **irançılıq, aryançılıq ideolojisi**nin yanında yer alan Azərbaycan Türk

[445] Yenə orada, s.272
[446] Yenə orada, s.279

mütəfəkkirləri, siyasətçiləri də olmuşdur. Onların arasında ən tanınmışlardan Ə.Kəsrəvi, S.H.Tağızadə, M.Əfşar, M.Qənizadə və başqalarının adlarını çəkmək olar.

Təbriz şəhərinin Hökmava məhəlləsində anadan olan **Əhməd Kəsrəvi (1890-1946)** mədrəsədə ərəb dilini və ədəbiyyatını, dini və dünyəvi elmlərin əsaaslarını öyrənmiş, daha sonra Amerika məktəbində təhsil almış və orada da müəllim kimi dərs keçməyə başlamışdır. Siyasi fəaliyyətə İran Demokrat Partiyasının (İDP) sıralarına qoşulmaqla başlayan Kəsrəvi 1917-1920-ci illərdə Xiyabaninin başçılıq etdiyi Azərbaycan Demokrat Partiyasının işlərində də yaxından iştirtak etmişdir. 1920-ci illərin sonlar,i 1930-cu illərin başlarında Tehranda ədliyyə sistemində işləyən Kəsrəvi, Xuzistan əyalətinin ədliyyə rəisi olmuş, oradan istefa verdikdən sonra vəkillik, qəzetçilik və müəllimliklə məşğul olmuşdur.[447] Belə ki, 1934-1942-ci illərdə "Peyman" jurnalının, daha sonra "Bayraq" qəzetinin redaktoru olan Kəsrəvi 1946-cı ilin mart ayının 11-də "İslam fədailəri cəmiyyəti"nin üzvləri tərəfindən öldürülmüşdür.[448]

O, milliyyətcə Azərbaycan türkü olsa da, özünü irandilli azərilərdən hesab etmişdir. Bu baxımdan da, Kəsrəvi əsərlərində Azərbaycan xalqının ari irqinə mənsub olduqlarını sübut etməyə çalışmış və aryançılığı müdafiə edən kəsrəvçiliyin əsasını qoymuşdur. Kəsrəvçilik onun 3 cildlik "Tarixe-məşruteye-İran" ("İran məşrutə tarixi"), "Şəhriyaran-e-qomnam" ("Naməlum hökmdarlar"), "Azəri, ya zəbane-bastane-Azərbaycan" ("Azəri, yaxud Azərbaycanın qədim dili"), "Namhâ-yı Şehrhâ ve Dehhâ-yı İran, Defter-i Evvel ve Duvvum/ İranın şəhər və köylərinin adları, birinci və ikinci dəftər", "Tarihçe-i Şir u Hurşîd/ Aslan və Günəşin tarixi", Şeyx Səfi ve Tebâreş/ Şeyx Səfi və onun soyu" və başqa əsərlərində öz əksini tapmışdır. O, əsərlərində Azərbaycana xüsusi yer ayırsa da, məsələlərin izahında İran millətçiliyi mövqeyindən çıxış etmiş, İranda yaşayan azərbaycanlıların farslaşdırılmasına yönəlmiş aryançılıq kimi irqçi ideyanın tərəfdarı olmuşdur. Vidadi Mustafayev yazır ki, İranın milli birliyinin digər azərbaycanlı ideoloqu S.Ə.Kəsrəvi

---

[447] Mədətli Eynulla. Azərbaycan tarixi məsələləri İran tarixşünaslığında (XX əsrin əvvəlləri). Bakı, "Turxan NPB", 2017, s.40

[448] https://az.wikipedia.org/wiki/%C6%8Fhm%C9%99d_K%C9%99sr%C9%99vi

Mahmud Əfşarın proqramının məntiqiliyini ”elmi cəhətdən” əsaslandırmağa cəhd göstərmişdir. Özunün ”Azəri ya zəbane bastane Azerbaycan” (”Azəri yaxud Azərbaycanın əski dili, 1926) kitabında S.Ə.Kəsrəvi Şərq dillərində olan mənbələrə birtərəfli yanaşaraq ”sübut” etmişdir ki, Azərbaycan əhalisinə Türk dili türklər tərəfindən zorla XI-XIV əsrlərdə qəbul etdirilmiş və Azərbaycan dili ölkədə XV əsrdə sabitləşmişdir”.[449]

Doğrudan da, Ə.Kəsrəvi Tehranda işıq üzü görmüş “Azəri və ya zəban-e bastan-e Azərbaycan” əsərində Azərbaycan xalqının kimliyi, soykökü və dili haqqında yazırdı ki, Azəri dili Türk dili ailəsinə mənsub deyildir: “Azəri dili İran kökənli bir dildir. Azərilər, Səlcuqların İrana gəlməsindən sonra türkləşmişdir. Quzey Azərbaycan tarix boyu Azərbaycan adını daşımamışdır. Qafqaz Albaniyası olan Quzey Azərbaycana Azərbaycan adını M.Ə.Rəsulzadə vermişdir. İranın tərkibində olan (Güney) Azərbaycan hər zaman Azərbaycan olaraq adlandırılmışdır.”[450] Ümumiyyətlə, məllif bu əsərində azərbaycanlıların türk yox, azəri adlı ayrı bir millət olduqları fikrini irəli sürmüşdür. Kəsrəviyə görə Azərbaycan dili türk dil ailəsinə mənsub deyildir və “azəri dili” İran-Aryan mənşəli bir dildir. Ona görə, “azərilər” Səlcuqluların “İran”a gəlməsi ilə türkləşməyə başlamışdılar. Kəsrəvi tarihi gerçəkləri diqqətə almadan, azərbaycanlıların moğollardan öncə farsdilli olduğu hökmünü vermişdir. Daha sonra o, Azərbaycanda bir neçə kiçik kənddə Aryani qrupların danışdığı tat dillərini dəlil göstərməyə çalışmışdır. Anlamsız xəyali baxışıyla Azərbaycan türklərinin dilinin daha öncə fars dili olduğunu isbat etməyə çalışmışdır.[451]

Quzey Azərbaycanın əslində Qafqaz Albaniyası olduğunu iddia edən Kəsrəviyə görə Araz çayından şimaldakı ölkə tarixin heç bir dövründə Azərbaycan adlanmamışdır. Onun fikrincə, bu ölkəyə “Azərbaycan” adı Məhəmməd Əmin Rəsulzadə tərəfindən verilmişdir. Müəllifə görə əsl Azərbaycan “İran”ın tərkibindəki Güney Azərbaycandır və tarix boyu məhz bu ərazi Azərbaycan adlanmışdır. Kəs-

[449] Mustafayev V. Cənubi Azərbaycanda milli şüur (XX əsrin birinci yarısı). Bakı, Əbilov, Zeynalov və oğulları, 1998, s.105-106

[450] Kəsrəvi Əhməd. Azəri, ya zəban-e bastan-e Azərbayqan, Tehran, Taban, 1317

[451] Zehtabi Məhəmməd Tağı. İran Türklərinin əski tarixi. 2-cilddə, 2-ci cild. Təbriz, “Əxtər”, 1377 (1998), 292-396

rəvi, "Şəhriyaran-e-qomnam" kitabında yazır: "Təəccüblüdür ki, Arrana indi Azərbaycan adı vermişlər. Baxmayaraq ki, Azərbaycan və ya Azərbayeqan Arranın yanında yerləşmiş digər ərazinin adıdır. Ən qədimdən əldə məlumat vardır ki, bu iki ərazi həmişə bir-birindən ayrı olmuş və heç vaxt Arran, Azərbaycan adlanmamışdır". [452]

N.Nəsibliyə görə də, paniranizmin Azərbaycana baxışının şəkillənməsində Kəsrəvinin "Azəri, yaxud Azərbaycanın qədim dili" kitabı mühüm rol oynamışdır. O, yazır: "Kəsrəvi bu kitabında Fars şovinizmini önə çıxaran düşüncələrini isbat etmək üçün məqsədli olaraq seçdiyi bəzi Ərəb qaynaqlarını mənbə göstərmiş, yanlış sonuclar çıxarmışdır. Bu kitabın əsas düşüncəsi belədir: İranın digər əyalətləri kimi Azərbaycanın da əski yerli əhalisi arilərdir; Azərbaycan əhalisi İran dillərindən biri olan azəricə danışmışdır; Türk boylarının İranın bu bölgəsinə yerləşmələri nəticəsində Türk dili zorla bölgə əhalisinə qəbul etdirilmişdir. Bu mülahizənin məqsədi Azərbaycan Türklərində kökləri ilə bağlı şübhə, aşağılıq kompleksi yaratmaq, Azərbaycan əhalisini farslaşdırmaqdır". [453]

Kəsrəvi həm də "təmiz dil" siyasəti fikrini, fars dilinin başda ərəbcə olmaq üzrə əcnəbi dildə olan sözlərdən təmizləmə, həm də "pak din", ya da "təmiz din" (dinin xurafatdan ayrılması) fikirlərini irəli sürmüşdür. [454] Kəsrəvi "İran"ın ən böyük probleminin dil, din və etnik müxtəliflik olduğunu iddia edirdi. Onun fikrincə, yalnız "İran"da deyil, bütün Şərqdəki geriliyin əsas səbəbi cəmiyyətdəki müxtəliflikdir. Kəsrəviyə görə böyük islahatların nəticəsinin qalmasının əsas səbəbi cəmiyyətdəki müxtəliflik və bölünmüşlükdür. O, yazırdı: "Firqələşməni ləğv etməliyik. Din, dil və regional fərqlilikləri aradan qaldırmalıyıq. Bu ancaq milli şüurun meydana gəlməsi ilə mümkündür. İran milli şüurunu yaymalıyıq".

Rəcəb Albayrak Kəsrəvi haqqında yazır ki, o, kitablarında, İran və Azərbaycanın əski və orta çağ tarixi və toponimiyasından bəhs etməklə yanaşı, əsərlərində Panİranizm axını çox güclüdür: "Kesrevi'ye göre, Selçuklu Türkleri'nden başlayarak, Kacar Türk

[452] Kəsrəvi Ə. Şəhriyaran-e-qomnam . Tehran, 1928, s.246, 265
[453] Nesibli, Nesib. Azerbaycan tarihi: Millet-Devlet-Siyaset. Ankara, Altınordu yayınları, 2019, s.506
[454] Mədətli Eynulla. Azərbaycan tarixi məsələləri İran tarixşünaslığında (XX əsrin əvvəlləri). Bakı, "Turxan NPB", 2017, s.41

hanedanın tahtan uzaklaştırılıp Pehlevilerin iktidara gelişine kadar geçen zaman, İran'ın kayıp ve karanlık yüzyıllarıdır. Sosyal-siyasi görüşleri *"Kesrevizm"* adı altında 1930'lu yıllardan başlayarak, düalist karakter taşımıştır. Toplumun ortak hukuka sahip, küçük mülkiyet sahiplerinden oluşması ve toprağın kullananlara ait olması görüşünü taşıyordu. Eserlerinde Azerbaycan'a özel yer ayırsa da, problemlerin izahında Fars milliyetçiliği nokta-i nazarından hareket etmiştir. *"Ari ırk, tek din ve tek bayrak"*ın dışında İran'da ne varsa ayaklar altına alınması gerektiğini savunmuştur. Ona göre, Azerbaycanlılar eğer Zerdüşt'ün vatanında yaşamak istiyorlarsa, Türkçe'yi bırakıp, Farsça konuşmak zorundadır. Türkçe, Zerdüşt'ün torunları olan Azerbaycanlılara yakışmamaktadır. Güney Azerbaycan Türkleri'nin Farslaşdırılması yönündeki ideal ve faaliyetleri nedeniyle, İran Türkleri'nin tepkisini çekmiş ve Türk halkına ihanetle suçlanmıştır. Güçlü bir ilim adamı olmasına rağmen, ortaya koymaya çalıştığı subjektif tezleri İran yönetimlerince ciddiye alınmış, O ve fikirdaşları yüzünden Türklerin Faslaştırılması için akla-hayale gelmeyen uygulamalara girişilmiştir. Onun izinden giden Kesreviciler/ Pan İranistler yüzünden İran Türkleri büyük zulümlere maruz kalmıştır".[455]

Kəsrəvinin çox sayıdakı əsərinin yanı sıra, Sufiliyi (*"Sûfîgeri/ Sûfizm")*, Bəhailiyi (*"Bahaîgeri/ Bəhaizm")* və Şiəliyi ("*Şiigeri/ Şiəlik")* təniqd edən kitabları da vardır. Digər aryançılar kimi dinin, İran toplumunun xəstəliyinin əsas cavabdehçisi olduğunu düşünüdü. Kəsrəvi, çalışmalarının birində, şiəliyi tarixi seyir içərisində ələ almış, gerçəklərin yanlış yorumlanması və şişirdilməsi yoluyla, Şiəliyin iranlıları yanlış yola götürdüğü sonucuna varmışdır: *"Şiilik, akıl ile ters düşmesine ek olarak, bu sahada kabul edilemeyecek bir olgudur. Ayrıca anlamlı bir hayatın yaşanmasına da engel teşkil etmektedir. ...Bu mezhep, takipçilerinin doğru yoldan çıkmasına ve gerçek dinden uzaklaşmalarına yol açmıştır. Şiiler, kendilerini 'Kurtarıcılar grubu' olarak adlandırırlar. Kendi mezheplerinden*

---

455 Albayraq Rəcəb. Türklərin İran. Yaxın gələcək. 2 cilddə. 2-ci cild. Bakı, Elm və təhsil , 2016, s.595-596

*başka bir şey de tanımazlar. Ancak gerçek, bu iddia edilenin tam tersidir. Hakikatte onlar dinin tamamen dışındadırlar”.*[456]

Beləliklə, Kəsrəvi Pəhləvilərin İslam dini əleyhdarlığına və zərdüştizmi müdafiə etməsinə əsaslanaraq yeni din – “Pakdin” yaratmağa cəhd göstərmişdir. Onun “Pakdini”nin də əsasında məhz zərdüştlük və İran mədəniyyəti dayanırdı.

Yəzd-Sistan bölgəsində yaşayan türklərin əfşar boyundan olmasına baxmayaraq (bəzi mənbələrə görə, Yəzd-Sistan əfşarları tamamilkə farslaşmışdılar), paniranizmin, aryançılığın tanınmış simalarından hesab olunan **Mahmud Əfşar-Yəzdi (1893-1983)** siyasi elmlər sahəsində təhsil almış, 1921-ci ilə qədər İngiltərə və Hindistanda yaşamışdır. Müasir fars millətçiliyi nəzəriyyəsini təkmilləşdirmək, sistematik hala gətirmək üçün Əfşar 1921-ci ildə “Əncuməni İrani cəvan” adlı dərnək yaratmış, 1925-ci ildən etibarən isə “Ayəndə” dərgisini nəşr etməyə başlamışdır. Bu jurnal ölkədə fars millətçiliyi fikrini yayan mətbu orqan idi. Burada nəşr olunan yazıların əsas mövzusunu aryançı ruhlu «mərkəziyyətçi dövlət və vahid milli kimlik» təşkil edirdi. Tədqiqatçı alim Vidadi Mustafayevə görə, Qacarlar sülaləsinin hakimiyyətdən salınması ərəfəsində Azərbaycan ziyalılarının bir sıra nümayəndələri azərbaycanlıların zorakılıqla assimilyasiya edilməsi, paniranizmin fəal ideoloqları kimi çıxış edirdilər. Mustafayev yazır: “Bu cəhətdən İran və Azərbaycan azərbaycanlılarını təmsil edən iki ziyalının mənəvi fəaliyyətinin bir sıra cəhətləri maraq doğurur. Onlardan biri Əfşar tayfasının nümayəndəsi, bir vaxtlar Yəzd şəhərində məskən salmış tacirin oğlu Mahmud Əfşar 1925-ci ilin avqustundan Tehranda “Ayəndə” jurnalını nəşr etməyə başladı. M.Əfşar jurnalın birinci nömrəsində böyük bir məqalə ilə mərkəzləşdirmə və xüsusən, güya milli birlik və müstəqillik naminəİranın qeyri-fars xalqlarının tezliklə assimilyasiya olunması uğrunda çıxış etmişdir. O güman edir ki, İran dövlətinin mövcudluğu İran hökumətinin İran xalqlarının etnik və etnoqrafik müxtəlifliyinin, dil, adət-ənənə, paltar, etnonim və sairəni ləğv edib-etməməsindən asılıdır.... Onun fikrincə dil cəhətdən milli yekcinsliyə nail olmaq üçün aşağıdakı tədbirləri həyata keçirmək lazımdır; ibtidai məktəblər açmaq və burada təhsili farsca aparmaq, İran

[456] Yenə orada, s.597-598

tarixini tədris etmək, milli rayonlarda, xüsusən Azərbaycan və Xuzistanda fars dilində ucuz kitabçalar və hökumət qəzetləri nəşr etmək və s. Bundan əlavə M.Əfşar yenə də həmin məqsədlə qeyri-fars xalqları fars rayonlarına köçürmək, qeyri-fars toponimləri fars toponimləri iləəvəz etmək, orduda, dövlət idarələrində, məhkəmədə və s. qeyri-fars dillərinin qadağan edilməsini məsləhət görürdü”.[457]

Doğrudan da Mahmud Əfşar “Ayəndə” jurnalıdakı məqaləsində açıq şəkildə irançılığı, ariyançılığı təbliğ etmiş, Azərbaycan türklərini heç bir ciddi əsas olmadan Hind-Avropa irqinə aid etmişdir. O, yazırdı: «İranın milli birliyini qorumaq və mükəmməlləşdirmək cəmiyyətimizin tələbi və idealımızdır. İranın milli birliyi nə deməkdir? İranın milli birliyi ölkə sərhədləri daxilində yaşayan insanların əxlaqi, ictimayi və siyasi birliyidir. İranın milli birliyi siyasi istiqlaliyyət və torpaq bütünlüyünü vacib qılır. Milli birliyi necə əldə edə bilərik? Fars dili bütün ölkə çapında yayılmalıdır. Regional müxtəliflik, məsələn geyim və əxlaq müxtəlifliyi aradan qaldırılmalıdır. İranda yaşayan etniklərin hər biri ayrı bir dildə danışmamalıdır. Dil, əxlaq, geyim və ənənə birliyi mövcud olmadıı müddətcə, siyasi istiqlalımız və torpaq bütünlüyümüz daim təhlükə altında olacaqdır. İranda yaşayan müxtəlif qəbilə və etnikləri bənzərləşdirmədiyimiz, yəni iranlılaşdırmadıımız müddətcə gələcəyimiz təhlükə altında qalacaqdır. İranın bütün bölgələrində, xüsusən Azərbaycanda fars dili yayılmalıdır, farsca olmayan coğrafi adlar dəyişdirilməlidir”.[458]

Deməli, o, İran adlanan ölkənin birliyini farslaşdırma siyasətinin həyata keçirilməsində görürdü. Buna görə də fars dilinin bütün ölkə üzrə rəsmi dil olmasına və məhəlli dillərin yerini tutmasına çalışırdı. Bu bölgədə yaşayan qeyri-fars millətlərinin dillərini yabancı dillər hesab edəb Avşar, bu dilləri ortadan qaldırmaq üçün texniki metodlar da təkif edirdi. Eyni zamanda Əfşar tövsiyə edirdi ki, fars dilinin Azərbaycanda yayılması, möhkəmlənməsi üçün bütün vasitələrdən – radiodan, məktəbdən,

---

[457] Mustafayev V. Cənubi Azərbaycanda milli şüur (XX əsrin birinci yarısı). Bakı, Əbilov, Zeynalov və oğulları, 1998, s.85-86

[458] Ayəndə, 1925, 1. il, s.5-6

qəzet, jurnal və kitablardan istifadə olunmalı, farsca çap məhsulları burada ucuz qiymətə satılmalı, hətta havayı paylanmalıdır.

Əfşar iranlılaşmanı tərəqqi və müstəqilliyin təməli olaraq qəbul edir, müxtəliflik və çeşidliliyi isə ziddiyyət, geriliyin səbəbi hesab edirdi. Onun tarix anlayışı, təhlükələr üzərində qurulmuş təfəkkür tərzinin məhsulu idi. M.Əfşara görə İran adlanan ölkə tarix boyu müxtəlif təhlükələrdən keçmişdi və indi də bu təhlükələrlə üz-üzədir. O, bu təhlükələri belə sadalayırdı:Qırmızı təhlükə: Kommunizm təhlükəsi; Yaşıl təhlükə: Ərəb və İslam təhlükəsi; Sarı təhlükə: Türk və Türkiyə təhlükəsi; Qara təhlükə: Cəhalət və mollaların təhlükəsi. Fars millətçiliyini əsas alaraq qurulan dövlət bu təhlükələrin qarşısını almalıdır düşüncəsindən çıxış edən Avşar bu təhlükələrdən qurtulmanın tək yolu olaraq iranlılaşmanı görürdü. Avşara görə fars millətçiliyinin əsas vəzifəsi güclü bir mərkəziyyətçi dövlət qurmaq, fars olmayanlar arasında fars dilini yaymaq, türkləri və ərəbləri sərhədyanı bölgələrdən ölkənin daxilinə köçürmək idi.

Müəllif müasir fars millətçiliyinin təməl prinsiplərini isə belə sıralayırdı: Fars millətçiliyi digər millətləri farslaşdırmaq müddəası üzərində qurulmuşdur; türk düşmənliyi ilə silahlanmışdır; ərəb və islam əleyhdarı olaraq inkişaf etmişdir; islamın yerinə Zərdüşt dinini qəbul etmişdir; qərbçi dünya görüşünü mənimsəmişdir; modernləşmə tərəfdarıdır; fars millətçiliyi Ari irqini İranın ilk sakinləri və sivilizasiya qurmuş qövm hesab edən tarix tələqqisi üzərinə bina edilmişdir.

Beləliklə, fars millətçiliyi nəzəriyyəsini açıq-aşkar şəkildə təbliğ edən Mahmud Əfşarın təklifləri konkret və radikal idi: türk dili qadağan olunsun, onun müstəqil dil olmadığı və Azərbaycanda əvvəllər işlənmədiyi "elmi şəkildə" sübut edilsin, Güney Azərbaycan ərazisi müxtəlif adlar altında parça-parça edilməklə, "Azərbaycan" adı unutdurulsun, əhali ölkənin farsdilli bölgələrinə köçürülüb assimilyasiya olunsun. Yuxarıda da qeyd etdiyimiz kimi, türklüyü "sarı təhlükə" kimi xarakterizə edən Əfşar yazırdı: "Sarı təhlükə müvəqqəti təhlükə deyil, bütün İran mənşəli millətlər və xalqlar (iranlılar, əfqanlar, kürdlər, tatlar və taciklər) üçün bir növ ümummilli və daimi bir təhlükədir". [459]

[459] Ayəndə, 1926, 2. il, s.559-560

Etnik mənşəcə Azərbaycan türklərindən **İbrahim Həkimi** də qeyri-milli yol tutmuş istər Qacarlar dövləti zamanı Məşrutə hərəkatında millət vəkili, istərsə də İran Pəhləvilər rejimində baş nazir olaraq Azərbaycan Türklüyünə zidd işlər görmüşdür. Həkiminin Məşrutə hərəkatında ikiüzlü rol oynamasını Ə.Kəsrəvi, S.C.Pişəvəri və başqaları ifadə etmişlər.

Azərbaycan Milli hökumətinin qurulması ərəfəsində və mövcudluğunun ilk aylarında (24.10.1945–20.01.1946) İran Pəhləvilərinin baş naziri olmuş İbrahim Həkimi Azərbaycan milli hərəkatına qarşı olmuşdur. Həkiminin bu anti-Azərbaycan əməlləri ilə bağlı S.C.Pişəvəri yazırdı ki, onun hələ, Məşrutə hərəkatı zamanı ikiüzlü rol oynamasını heç kim unutmayıb. [460] Bu baxımdan Həkiminin Azərbaycan Milli hökumətinə də qarşı oyunlar oynaması ilə bağlı Pişəvəri yazırdı: "Həkiminin bizi hiylə yolu izləmək tədbirlərindən birisi də onun əyalət və vilayət əncümənləri barəsindəki tədbirlərdən ibarət idi. O, Sədrül-Əşraf kimi bu əncümənlərin qabağını almaq üçün gülünc dəlil və sübutlar gətirməyib sadə bir surətdə onların dəvət və təşkil edilməsi lüzumunu elan etdi. O bu vasitə ilə öz yanında bizim təbliğat bəhanələrimizi əlimizdən almış olduğunu düşünürdü. fikir edirdi ki, Məclisi-Şurayi-Milli kimi əncümənləri də elə təşkil etmək olar ki, xalq hakimiyyətinin əsasını təşkil etmək əvəzində xalqın azadlıq hüququnu tapdalamaq üçün qanuni bir vasitə ola bilsin. Onun niyyəti bu idi. Sadə bir surətdə bir ox ilə iki nişan vurmaq istəyirdi". [461]

1945-ci il noyabrın 20-də İran Pəhləvilərinin XIV məclisində Azərbaycanın vəziyyəti haqqında baş nazir olaraq çıxış edən İ.Həkimi Azərbaycan milli demokratlarına işarə edərək demişdi: ""...pozucu ünsürlər və pozuculuq salmaq istəyənlər şiddətli surətdə təqib olunacaqlar. Dövlət qəti iqdam edəcəkdir". Baş nazir İran qoşununa və hökumət orqanlarına azadlıq hərəkatı əleyhinə əməl azadlığı tələb etdi". [462] M.Çeşməzər yazır ki, 1945-ci ilin dekabrında İ.Həkimi hökuməti Birləşmiş Millətlər Təşkilatında Azərbaycan

---

[460] Pişəvəri S.C. Xatirələr. Bakı: ADF-nin nəşri, 2005, s.181
[461] Yenə orada, s.199-200
[462] Çeşməzər Mirqasım. Azərbaycan Demokrat Partiyasının yaranması və inkişafı. Bakı, "Elm", 1986, s.88

azadlığı əleyhinə uydurma məsələ qaldırdığı vaxt, İXP Mərkəzi Komitəsi və İran Azadlıq Çəbhəsinin Mərkəzi Şurası Londona, BMT sessiyasına teleqram göndərərək İran hökumətinin irticaçı, antidemokratik hökumət olduğunu və İran xalqlarının nümayəndəsi olmadığını göstərməklə Azərbaycan Xalq hakimiyyətini müdafiə etmişdi.[463]

Etnik mənşəcə Azərbaycan türkü olan **Hüseyn Kazımzadə-İranşəhr** əvvəlcə Xiyabani birlikdə Azərbaycan milli hərəkatında iştirak etsə də, sonralar aryançılığı təbliğ etmişdir. Əhməd Kəsrəvi yazır ki, H.Kazımzadə Təbrizdə demokratların rəhbərlərindən biri, Azərbaycan Demokrat Partiyasının Şeyx Məhəmməd Xiyabaniyə müxalif olan "tənqidyyunçu"lar cinahının başçısı omuşdu. Xiyabani üsyanı başlatdıqdan sonra onun fəaliyyətini dayandırmış və Azərbaycandan sürgün etmişdir.

1922-ci ildə H.Kazımzadənin Almaniyada-Berlində təsis etdiyi "İranşəhr" dərgisində "İran gəncliyi"nin millətçilik ruhunun möhkəmlənməsindən bəshs olunmuş, İranın qədim əzəməti haqqında məqalələr meydana gəlmişdi. "Milliyyət və vətənpərvərlik" prinsipindən çıxış edın H.Kazımzadə Azərbaycanda İran milliyyəti milli birliyi xeyrinə geniş təbliğat aparılması, İran maarifi və fars ədəbiyyatının yayılması məsələlərində təkid edirdi. Şəfəq Rzazadə, Ə.Kəsrəvi kimi o da, sübut etməyə çalşırdı ki, azərbaycanlılar mənşəcə farsdırlar, türk dili onlara zorla qəbul etdirilib. Bu baxımdan H.Kazımzadə cəmiyyət qarşısında duran bütün məsələlərin həllini cəmiyyətin üstqurumunda və ideologiyasında mümkün dəyişikliklər aparmaqla vahid "İran milləti" yaratmaqda axtarırdı. O yazırdı: "Milliyyət, ictimai prinsiplərimizin ən müqəddəsi və bizim milli amalımızın Kəəbəsi olmalıdır. Milliyyət, bizim bütün xarabalıqları abad edən, bütün pərişanlıqları islah edən cəmi müstəqilliyin dayağı və xilasedici dairəmiz olacaq". Milliyyət deyəndə vətəndaşlıq və ari irqinə mənsubluğu başa düşən Kazımzadə daha sonra yazırdı: "İranlılıq... öz güclü, gərilmiş qanadları altında dili və dinindən asılı olmayaraq İran millətinin bütün üzvlərinə yer verir. Kimliyindən - kürd yaxud bəlüç, gəbr yaxud erməni olmağından asılı olmayaraq

---

[463] Yenə orada, s.90

damarlarında ari qanı axan və İranı öz Vətəni sayan hər bir fərd iranlı sayılmalı və iranlı adlandırılmalıdır”.[464]

Şərqşünas alim Vidadi Mustafayevə görə, H.Kazımzadənin bu siyahısına düşməyən azərbaycanlılar üçün iranlı olmaq öz dili, tarixi, mədəniyyəti, etnonimi, milli şüuru olmamaq demək idi və fars millətі tərəfindən assimilyasiya olunmaqdan başqa bir məna daşımırdı: ““İranşəhr” jurnalı alman şərqşunası İ.Markvartın ”Azərbaycan” adlı kitabından (jurnal belə təqdim edir) bir neçə səhifəni tərcümə edərək çap etmişdir. Həmin kitabdan tərcümə olunmuş və jurnalda dərc edilmiş hissənin girişində qeyd edilir ki, Türkiyədə azərbaycanlıların türk ”irqinə” mənsubiyyətini sübut etməyə çalışırlar, hərçənd ”həmin məsələ iranlıların çoxuna axiracan aydın deyil..” Hökumət bu məsələ barəsində heç bir tədbir görməmiş və görmur, buna görə də ”həmin məsələnin qəti həlli üçün və azərbaycanlıların İran mənşələri barəsində hər cürəşübhələri aradan götürmək üçün” H.Kazımzadə həmin kitabı azərbaycanlıların ari mənşəli olmalarının əsas dəlili kimi təsəvvür edərək tərcümə və çap etməyi öz qarşısına məqsəd qoymuşdur. Göründüyü kimi, müəllif (Kazımzadə) qəti əmin idi ki, azərbaycanlılar arilərdilər. Adətən bir sıra İran müəllifləri azərbaycanlılar arasında İranizmin güclənməsinə pantürkizm ideologiyasının təsiri ilə türkçülük meylinin qarşısının alınması kimi baxırdılar”.[465]

Bu dövrdə Azərbaycanın Qəzvin şəhərində dünyaya gələn **Arif Qəzvini (1882-1933)** də paniranizmi təbliğ etmişdir. Qəzvini açıq şəkildə türklük əleyhdarı olub aryançılığı müdafiə etmişdir: “Türkün dilini çəkib çıxarmaq gərək, bu dilin ayağını ölkədən kəsmək və fars diliylə dörd nala Arazı keçmək uyğundur. Ey səhər nəsimi, qalx və Təbrizlilərə de ki, Zərdüştün ana yurdu Çingizin yurdu deyildir”. Məhz bu aryançılıq təəsübü ilə də o, hesab edirdi ki, Türk Qacarların yerinə gələn fars Pəhləvilər ölkəyə cümhuriyyət quruluşu sayəsində ədalət gətirəcəkdir. Qəzvini yazırdı:

*Getsə Qacar əgər, gəlsə gözəl cümhuri,*
*Xəlq bayram eyləyib bir dəm olardı azad.*[466]

---

[464] Mustafayev V. Cənubi Azərbaycanda milli şüur (XX əsrin birinci yarısı). Bakı, Əbilov, Zeynalov və oğulları, 1998, s.83
[465] Yenə orada, s.83-84
[466] Cənubi Azərbaycan ədəbiyyatı antologiyası.4 cilddə, 2-ci cild. Bakı, Elm, 1983, s.208

Bu dövrdə Salmasda dünyaya gələn Azərbaycan Türk kökənli **Mahmud Qənizadə (1878-1935)** də türklüyünü danıb Aryançılığı müdafiə etmək yolunu tutmuşdu. Gənc yaşlarından bir sıra qəzetlərdə ("Həblül-mətin" və b.) məqalələr yazan Qənizadə 1908-1910-cu illərdə Urmiyada "Fəryad" adlı qəzetin redaktoru da olmuşdur. 1910-cu ilin axırlarında Almaniyaya- Berlinə gedən Qənizadə 1926-ci ilə qədər burada yaşamışdır. O, Almaniyada olduğu dövrdə irançılığın ciddi şəkildə təsiri altına düşmüş, S.H.Tağızadə və başqaları kimi aryanizmin təbliğatçılarından biri olmuşdur. Hətta, o, 1924-cü ildə "Rövşən bəyə cavab" adlı bir kitab yazaraq "Azərbaycanın Türk olması" gerçəkliyini öz yanlış müddəaları ilə cavablandırmağa çalışmışdı.

Qeyd edək ki, Həsən Rövşən Barkın 1921-1925-ci illərdə Türk ocaqlarında verdiyi konfranslarda, "Vətən" qəzetində yayınladığı məqalələrdə Türkiyədə İranın yetərincə tanınmadığına, özəlliklə buradakı yerli dörd milyon türklərin durumuyla maraqlanmadığına diqqət çəkmişdir. O yazırdı ki, İran adlanan ölkəni vahid millət bilib, ancaq fars kimi görmək yanlışdır: "Orada farslar, yəni həqiqi əcəmlər İran türklərini Türk olduqları üçün, həqir görürlər. İranda bir Əcəm bir Türkə qızdığı zaman ona Türkə xar, yəni eşşək Türk diyə xitab edər".[467] O, çox haqlı olaraq deyirdi ki, aryançılığı müdafiə edən Türk aydınları əsilsiz əfsanələrə qapılmış, uçurumlar qazılan bir mühitə yuvarlandırılmış, "dahi" saydıqları Rza Pəhləvinin Cümhuriyyət oyunları ilə qandırılmışdır.

M.Qənizadə isə Rövşən bəyə etiraz olaraq yazdığı kitabında azərbaycanlıların türk deyil, ari irqinə mənsub olduğunu iddia edirdi. Qənizadə yazırdı: "Əski Midiya əyaləti, Zərdüştün vətəni, ta Ərəb istilasına qədər yeddi yüz il sönmədən yanan atəşkədə-yi azimə- "Azərgəşnəsb" ilə daha yüzlərcə atəşkədələrin beşiyi, Babəki Xürrəminin mesgetorreası (doğum yeri) və İranın təməl daşı olan Azərbaycanın əhalisinə necə olur da Türk deyirsiniz? Qiyafə, səciyyə, məlaməh-i vechiyə "fizioloji" veelhasil hər nöqteyi-nəzərdən tam bir iranlı olan azərbaycanlının harasında türklükdən cüzi bər əsər bula bilərsiniz? Millətlər daima lisanları ilə yek

[467] Barkın, Hasan Ruşen. Deşilmeğe Muhtaç Bir Dert. Türkiyede İran türkleri Neden Acemileşiyor? Vatan Gazatesi, İstanbul, 25 agustos, 1921

digerindən təfriq olunmaz. Tövrlər, əxlaq və təmayüllərdir ki, mədar-i hökm ola bilir”.[468]

Rzanın “dahi” və ingilis köləsi olması məsələsinə gəlincə, Qənizadə yazırdı: “Sərdar Sepeh həzrətləri heç bir zaman dahi olmaq iddiasına düşməmiş, o qayət sadə, qayət mütəvazi bulunmaqla bərabər, dəmir pəncə, mətin bir əzim və irayə sahibdir ki, o sayədə sizin əfsanə dediyiniz o orduyu quraraq... sabitlik və asayişi İrana gətirmişdir. Siz ona istər “ingilis köləsi”, istər nə deyirsiniz deyin, biz iranlılar Rza xan həzrətlərinə tapınır və o zatdan gələcəyə aid daha böyük şeylər gözləyirik”.[469]

V.Mustafayev də yazır ki, Azərbaycan dilinə, azərbaycanlıların türk etnosuna mənsubiyyətinə münasibətdə eyni mövqe tutan, demokratik hərəkatın tanınmış xadimlərindən biri də şair-publisist, Mahmçud.Qənizdə olmuşdur. Ona görə M.Qənizadə də sübut etməyə çalışmışdır ki, “Azərbaycan türkləri heç vaxt türk dilində yazmamış, fars dilindən istifadə etmişlər, türk dili bir zaman itib gedəcək, Azərbaycanda türk yoxdur”.[470]

Həmin dövrdə aryançı irançılığın təbliğatçılarından biri də **Rzazadə Şəfəq Təbrizi** olmuşdur. M.Qənizadə kimi o da, Həsən Rövşən Barkın İran adlanan ölkədə türklərin vəziyyəti ilə bağlı yazdıqlarına cavab verməyə çalışmış, Berlində bir kitabça (“Türk mütəfəkkirinin nəzəri-intibahına”) yayınlamışdır. R.Ş.Təbrizi də iddia edirdi ki, İran adlanan ölkənin əsas milləti farslar olub, türkcə danışan “azərilər” də farslar kimi, əslində arilərə aiddir. Bu baxımdan Təbriziyə görə, milliyyəti yaradan ünsürlər arasında dilin önəmi yoxdur və əsas olan “İran milləti”dir. Onun düşüncəsindəki “İran milləti”nin əsasında isə dildən çox tarix, adət-ənənələr, ədəbiyyat və digər məsələlər dururdu: “Milliyyət onu təşkil edən fərdlərin arasında ortaq olan tarix, adət və ənənələr, din ədəbiyyat, vəətn kimi ümumi prinsiplərin məhsulu olaraq var olan xüsusi bir ruh hali, bir iç duyğudur”.[471]

---

[468]Qənizadə Mahmud. Rövşən bəyə cavab. Berlin, Kavyani, 1924, s.15
[469]Yenə orada, s.5-6
[470] Mustafayev V. Cənubi Azərbaycanda milli şüur (XX əsrin birinci yarısı). Bakı, Əbilov, Zeynalov və oğulları, 1998, s.105
[471]Təbrizi Rzazadə Ş. Türk mütəfəkkirinin nəzəri-intibahına. Berlin, İranşehr, 1924, s.19

R.Ş.Təbrizi Pəhləvilər dövründə də paniranizm ideologiyasının təbliğatçısı kimi Azərbaycanda fars dilinin zorla yayılması, vahid "İran milləti" ideyasının əhaliyə təlqin edilməsi, Quzey Azərbaycan və Güney Azərbaycanda yaşayan eyni dilli, eyni adlı, eyni tarixli, eyni mədəniyyətli türklərin müxtəlif xalqlar olduğunu xüsusi canfəşanlıqla sübut etməyə çalışmışdır.

Bu dövrdə Azərbaycanın tanınmış ziyalılarından təbrizli **Hüseynqulu Katibi Coşqun (1910-1990)** da irançılığı ilə önə çıxmışdır. O, hüquqşünas olmaqla yanaşı, tarixə, mədəniyyətə, sosilogiyaya aid yazdığı əsərlərdə ("Azərbaycan və İranın milli məsələsi", "Şükufeyi-ədəb", "Quldarlıq", "Bəşər hüququ elanı", "Liberalizmdən sosializmə qədər", "Ədəb və ədəbiyyat", "Azərbaycan maarif və mədəniyyət tarixi", "İranda hökumət tarixinə bir baxış" və b.), daha çox irançılığı müdafiə etmişdir. Məsələn, o, "Azərbaycan və İranın milli məsələsi" (1942) kitabında o yazırdı ki, Azərbaycan xalqının "İran milləti"ndən ayrı bir millət, xalq kimi göstərilməsi doğru deyildir.[472] O, xüsusilə də, 1941-1945-ci illərdə bu yöndə fəaliyyət göstərən Azərbaycan Cəmiyyətini və onun yayın orqanı olan "Azərbaycan" qəzetinin milli ruhuna qarşı çıxmışdı. İranın milli birliyi çərçivəsində "Azərbaycan məsələsi"ni şərh etməyə çalışan Katibi hesab edirdi ki, önəmli olan "İran milləti"dir: "İranda bir çox ləhcə və dilin olmasının, bir neçə qəbilənin yaşamasının, nüçə cür məslək və məzhəbin mövcud olmasının nə önəmi var ki? Onların heç biri önəmli deyil, çünki İran, millət və vətən qavramları bunların hamısından üstündür, onların milli və ictimai qayələri eynidir. Azərbaycanın İranın digər bölgələri ilə qayə birliyinin xaricində heç bir birliyi olmasa belə, Azərbaycanın varlığı ilə İranın bir parçası olduğunu bütün dünyaya təkrar təkrar bildirə bilərik: keçmişdə belə olmuş, indi də belədir və gələcəkdə də heç bir şey olmasa, yenə belə olacaqdır. Dilinin türkcə olmasına baxmayaraq, ruhən iranlı olduğunu söyləyən o pak və güclü Azərbaycan əhalisi haqlıdır".[473]

[472]Katibi Hüseynquli. Azərbaycan və İranın milli məsələsi. Təbriz, 1942, s.5-6
[473]Yenə orada, s.16

Maraqlıdır ki, H.Katibi ancaq sonralar daha çox Azərbaycan milli hərəkatına meyil göstərmiş, Əli Təbrizli və başqa Türk millətçiləri ilə yaxın münasibətləri olmuşdur.

Azərbaycan türklərindən olub sonralar irançılığın əsas müdafiəçilərindən birinə çevrilən **Seyid Həsən Tağızadə** (1878-1970) Təbrizdə ruhani ailəsində dünyaya gəlmiş, bir sıra mənbələr onun nəslinin əslən Ordubaddan olduğunu yazmışdır. Tağızadə XX əsrin astanasında dini biliklərlə çox uzağa gedə bilməyəcəyini tez anladığından həm missioner məktəbində ingilis və fransız dillərini öyrənmiş, həm də "Loğmaniyyə" adlı yeni tipli orta təhsil müəssisəsində dünyəvi biliklərə yiyələnməyə çalışmışdı.

O, 1898-ci ildə özü kimi gənc həmfikirləri ilə birlikdə Təbrizdə "Tərbiyət" məktəbini və kitab mağazasını qurmuş, həmvətənlərini dünya haqqında çağdaş təlimlərlə tanış etmək məqsədi ilə fransız alimi Kamill Flammarionun "Populyar astronomiya" kitabını "Əcayibe-asiman" adı ilə fars dilinə çevirmişdi. O, həmçinin 1903-1904-cü illərdə Təbrizdə "Gəncineyi-fünun" ("Bilik xəzinəsi") məcmuəsini çap etmişdi.[474] Yeniyetməlik və ilk gənclik çağlarından gələcək mübarizələr üçün yetişən Seyid Həsənin ömrü hadisələrlə zəngin olmuşdur. "İran daxilən və zahirən, ruhən və cismən avropalaşmalıdır!" - şüarı onun 70 illik ictimai-siyasi və elmi fəaliyyətinin əsas prinsiplərindən olmuşdur. Məhz bu düşüncə ilə ölkəni müasirləşdirməyi, feodal dərəbəyliyindən və xarici asılılıqdan xilas etməyi qarşısına məqsəd qoyan 1906-1909-cu illər Məşrutə inqilabının öncülləri sırasına gətirmişdi.[475]

1906-cı ildə Təbrizdən Qacarlar dövləti Məclisinə seçilən Həsən Tağızadə parlament fəaliyyətini 1967-ci ildə, İran Senatının sədri kimi başa vurmuşdu. Qacarlar dövlətinin ilk qanunverici orqanında o, ardıcıl Konstitutsiya tərəfdarlarından biri kimi tanınmışdı. Ölkədə parlamentarizm ənənələrinin yaradılmasına qarşı çıxan Məhəmmədəli Şah 1908-ci ildə Məclisi bağladıqdan sonra Tağızadə ölkəni tərk etmişdir. Onun əqidə yoldaşlarından ikisi, "Suri-İsrafil" qəzetinin naşiri Mirzə Cahangir xan, "Natiqlərin

---

[474] Şəfiyeva Əfşan. Seyid Həsən Tağızadə və İranın modernləşməsi. Bakı, Araz nəşriyyatı, 2016, s.96-97

[475] Azadlıq.- 2012.- 14 noyabr.- s..14.

sultanı" ləqəbi ilə tanınan məşhur ziyalı və din xadimi Mirzə Nəsrulla Behişti isə "Şahi-bağ"da, Qacar hökmdarının gözləri qarşısında edam edilmişdilər. [476]

Bir neçə ay Londanda sürgündə qalandan sonra İrana qayıdan Həsən Tağızadə Təbrizdə məskunlaşmış və Məhəmməd Əli şah hakimiyyətdən devrilənə qədər doğma şəhərində yaşamışdı. O, ölkənin idarəçiliyini öz əlinə alan 20 nəfərlik Müvəqqəti İcra Şurasının tərkibinə seçilmişdi. 1909-cu ildə ölkəsinin tarixində ilk çağdaş siyasi partiya sayılan İran Demokrat Partiyasını təsis etmişdi.

İkinci çağırış Qacarlar parlamentinə (1909-1911) deputat seçilmiş Tağızadə anti-ruhani, dünyəvilik mövqeyinə görə Nəcəf ali ruhanilərinin fitva verilməsi səbəbilə 1910-cu ildə məcburi şəkildə Tehrandan uzaqlaşdırılmış, əvvəlcə İstanbulda, sonra London və ABŞ-da yaşamışdır. [477] Birinci Dünya müharibəsi başlananda isə Berlində yerləşərək, burada gənc yazıçı Seyid Məhəmmədəli Camalzadə ilə birlikdə "Kavə" ("Dəmirçi") jurnalını (Berlin, 1916-1922) çap etməyə başlamışdı. Müharibə illərində jurnal paniranizmin siyasi maraqlarını qoruyaraq almanpərəst mövqe tutmuş, daha çox Rusiya və Böyük Britaniya əleyhinə çıxışları ilə tanınmışdı. Hərb başa çatdıqdan sonra "Kavə" İran-Fars milli mədəniyyətinin Avropadakı başlıca orqanına çevrilmişdi. [478]

Bütün bunlarla yanaşı, bəzi mülahizələrə görə Həsən Tağızadə Qacarların 5-ci Məclisinin digər deputatları Seyid Həsən Müdərris, Yəhya Dövlətabadi və gələcək baş nazir Məhəmmədəli Müsəddiqlə birlikdə 1925-ci ilin oktyabrında Qacar sülaləsinin ləğvi haqqındakı qanunun əleyhinə səs vermişdir. [479] Ancaq əsas həqiqət odur ki, Seyid Həsən Tağızadə əvvəlcə Məşrutə inqilabının fəallarından biri kimi siyasətə atılaraq Qacarlarda mütləqiyyət quruluşuna qarşı mübarizə aparsa da, sonralar digər hakim sülalə - İran Pəhləviləri ilə yaxınlaşmış, həm Rza Pəhləvinin, həm də onun oğlu Məhəmməd Rzanın hakimiyyəti illərində yüksək vəzifələr tutmuşdur. Hər halda Tağızadənin uzunmüddətli siyasi və dövlətçilik

---

[476] Azadlıq.- 2012.- 14 noyabr.- s..14.

[477] Şəfiyeva Əfşan. Seyid Həsən Tağızadə və İranın modernləşməsi. Bakı, Araz nəşriyyatı, 2016, s.100

[478] Azadlıq.- 2012.- 14 noyabr.- s..14.

[479] Azadlıq.- 2012.- 14 noyabr.- s.14.

fəaliyyəti ərzində tutduğu vəzifələrin qısa siyahısı belədir - Xorasan qubernatoru, Böyük Britaniyada "İran" səfiri (iki dəfə), "İran"ın Yol və Nəqliyyat naziri, İran Maliyyə naziri, Fransada İran səfiri, İran Senatının sədri (1949-1967-ci illər). Bundan başqa, o, dəfələrlə "İran"ın xüsusi missiya ilə dünyanın aparıcı ölkələrinə göndərilən nümayəndə heyətlərinə başçılıq etmişdi.[480]

Tanınmış ingilis iranşünası, "1905-1909-cu illər İran inqilabı" kitabının müəllifi Eduard Braun adıçəkilən əsərində Tağızadənin səciyyəsini verərək yazırdı: "O, cəsarəti, müstəqilliyi və siyasi prosesləri ələ almaq baxımından qeyri-adi bacarığı ilə layiq olduğu yüksəkliyə ucalmışdı. Onun cəlbedici işıqla parıldayan gözlərində və nurlu sifətində nə isə insanı özünə çəkən, rəğbət doğuran bir ifadə vardı. Əgər gümanım məni aldatmırsa, o, öz dühası ilə böyük coşqu doğuran, böyük qurbanlar verməyə ruhlandıran və millətlərin tarixində uzun müddətli təsir buraxmağa qadir olan şəxsiyyətlərdən sayıla bilərdi".[481]

Seyid Həsən Tağızadə müxtəlif illərdə Şərqşünasların Beynəlxalq Cəmiyyətinin sədr müavini, Kembric Şərqşünaslıq Konqresi İran bölümünün başçısı, Beynəlxalq İbn-Sina konqresinin sədri, İrandakı Tərcümə və Nəşr İnstitutunun Direktorlar Şurasının üzvü və elmi məsləhətçisi, İranın Fəlsəfə və Humanitar Elmlər üzrə Cəmiyyətinin sədri, İranşünasların Birinci Beynəlxalq Konqresinin sədri kimi elm təşkilatçılığına da öz ciddi töhfələrini vermiş, Böyük Britaniyanın Kembric və ABŞ-ın Kolumbiya universitetlərində Şərq fəlsəfi və siyasi fikrinə, İran tarixinə və ədəbiyyatına dair mühazirələr oxumuşdur.[482]

O, soy-kökü, etnik mənsubiyyəti etibarı ilə Azərbaycan türkü olsa da, özünü daha çox iranlı saymış və "İran Pəhləvilər" rejiminin maraqlarını müdafiə etmişdi. BMT-də Cənubi Azərbaycan məsələsi müzakirə olunarkən "İran" nümayəndə heyətinə rəhbərlik məhz ona həvalə olunmuşdu. 1945-ci ildə Sovet qoşunlarının Təbrizə girməsi və Pişəvəri hökumətinə hərbi-siyasi dəstək göstərilməsi ilə əlaqədar

---

[480] Şəfiyeva Əfşan. Seyid Həsən Tağızadə və İranın modernləşməsi. Bakı, Araz nəşriyyatı, 2016, s.102-108

[481] Azadlıq.- 2012.- 14 noyabr.- s.14.

[482] Azadlıq.- 2012.- 14 noyabr.- s.14.

İran Pəhləvilərinin rəsmi etirazı da beynəlxalq qurumlara Tağızadə vasitəsi ilə çatdırılmışdı. Vaxtı ilə demokratiya uğrunda mübarizə aparmasına və İran Demokrat Partiyasının qurucusu olmasına baxmayaraq, sonda Həsən Tağızadə İran Pəhləvilər rejiminin və İran şovinizminin tərəfində dayanaraq, irançılıq mövqeyindən mənsub olduğu xalqın haqqının tapdanmasına göz yummuşdu.[483]

Tağızadə "Qədim İan təqvimi" adlı əsərində açıq aşkar irançılığı təbliğ etmiş, farsları qədimləşdirməyə və böyük bir mədəniyyət sahibi kimi təqdim etməyə çalışmışdır.[484] O, Novruz bayramını tamamilə farsların adına yazmış, ancaq Səlcuqlar dövlətinin hökmdarı Məlikşahın dövründə bu bayramın rəsmi bayramı kimi qeyd edilməyə başlamasının əsil səbəblərini göstərməmişdir. Üstəlik, Tağızadə adı çəkilən əsərində Firdovsinin mürtəce millətçiliyini pərdələməyə çalışmış, onu həqiqi bir müsəlman kimi qələmə verib şüubiyəyə heç bir bağlılığının olmadığını iddia etmişdi.[485]

Tehran şəhərində anadan olan **Məhəmməd Müsəddiqin (1882-1967)** atası Mirzə Hidayətulla xan Aştiyani, anası Şahzadə Malikə Tac Xanım Qacar (Müzəffərəddin şah Qacarın kiçik bacısı) olub. Müsəddiq ali təhsilini hüquq ixtisası üzrə almış, daha sonra İsveçrədə Lozanna Universitetini bitirərək hüquq üzrə doktorluq dərəcəsi almışdır. Müsəddiq Müzəffərəddin Şah Qacarın böyük qızı Zəhra Xanım Qacarla (1879-1965) evlənmiş və onların 5 övladı olmuşdur. O, siyasi fəaliyyətinə 1914-cü ildə Fars əyalətinin valisi seçilməsi ilə başlamışdı. Rza Pəhləvinin 1921-ci ildə etdiyi çevrilişdən sonra yeni yaranan hökumətdə əvvəl maliyyə naziri daha sonra isə xarici işlər naziri vəzifələrini yerinə yetirmişdir. 1922-ci ildə Azərbaycan valisi təyin edilən Müsəddiq 1923-cü ildə Milli Məşvərət Məclisinin üzvü olmuşdur. Ancaq Rzanın özünü şah elan etməsinə qarşı çıxdığı üçün vəzifəsindən kənarlaşdırılıb.

1941-ci ildə Rza Pəhləvi taxtdan çəkilmək məcburiyyətində qaldqıdan bir neçə il sonra Məhəmməd Müsəddiq yenidən siyasi

---

[483] Azadlıq.- 2012.- 14 noyabr.- s.14.
[484] Şəfiyeva Əfşan. Seyid Həsən Tağızadə və İranın modernləşməsi. Bakı, Araz nəşriyyatı, 2016, s.114-115
[485] Yenə orada, s.118-119

arenaya qayıdır və ikinci dəfə məclisə seçilir (1944). Həmin dövrdə İngiltərənin İran üzərindəki siyasi və iqtisadi hegemonluğu davam edirdi ki, buna qarşı olanların başında dayanan M.Müsəddiq SSRİ-nin İranın şimalında neft çıxartmaq və axtarış hüququnun tanınmasına qarşı da uğurlu bir müxalifət aparırdı.

Siyasətin sərbəstləşməsi və 1947-ci ildə keçirilən seçkilərdə ortaya çıxan məclisin quruluşu İngiltərə başda olmaqla böyük dövlətlərin "İran" üzərindəki siyasi-iqtisadi hegemonluğuna qarşı mübarizənin mərkəzi oldu. Həmin şəraitdə 1949-cu ildə Müsəddiq Milli Cəbhə adlanan siyasi təşkilat yaratmış, 1950-ci ildə keçirilən parlament seçkilərində Milli Cəbhə ciddi uğur qazanmışdı. Müsəddiq 19 fevral 1951-ci ildə Neft Məclis komissiyasının bəzi millət vəkilləri ilə İran neftinin milliləşdirilməsi üçün məsləhətləşmələr aparmışdı. Onun sayəsində də nefti milliləşdirən qərar 1951-ci ilin martında parlamentdə qəbul edilib. Çox keçmədən də, Müsəddiq 1951-ci ilin aprelində İran Pəhləvilərində baş naziri vəzifəsinə seçilib.

Müsəddiq bir tərəfdən nefti milliləşdirərkən digər tərəfdən də ölkədəki iqtisadi problemləri həll etmək üçün cəhd edirdi. Bu məqsədlə böyük torpaq sahiblərinin əlindəki torpaqların bir qismini torpaqsız kəndlilərə paylamaq istəyirdi. Ancaq Müsəddiqin bu cəhdləri onu böyük sahibəri ilə qarşı-qarşıya gətirdi, bəzi din adamları ilə əlaqələri pozuldu. ABŞ və İngilis kəşfiyyatı Müsəddiq hoküməti ilə düşmən olan Fəzlullah Zahidi və Raşidiyan qardaşları ilə yaxınlaşmağa başladı. Milyon dollarlarla rüşvət qarşılığnda Müsəddiq əleyhidarları idarəetmədən razı olmayanları ayağa qaldırdı və ölkədə asayişi pozdu, qarşıdurmalarda yüzlərlə insan həyatını itirdi.

Bununla da Məhəmməd Rza dərhal Müsəddiqi vəzifədən uzaqlaşdırıb onun yerinə general Fəzlullah Zahidi gətirsə də, Müsəddiqin tərəfdarlarının küçələrə axışması ilə şah əvvəlcə İraqa, sonra da Romaya qaçdı. Müsəddiqi devirmək üçün edilən bu həmlə uğursuz oldu. Lakin bir neçə ay sonra generallar ölkədəki qarışıqlığa son vermək iddiası ilə Müsəddiq, nazirlər və tərəfdarları həbs etdi ki, şah da üç gün sonra İrana qayıtdı. İngiltərə və ABŞ demokratik seçkilərlə iqtidara gələn və xalqın istəyi ilə nefti milliləşdirən, həyata keçirməyə çalışdığı islahatlarla demokratiyanın qarşısını açmağa çalışan Müsəddiq hökumətini devirdilər. Beləliklə, o, 1953-ci ildə

ABŞ xüsusi xidmətlərinin səyi ilə hakimiyyətdən uzaqlaşdırılıb. Çevrilişdən sonra Müsəddiq vətənə xəyanət maddəsi ilə 3 il müddətinə həbs edilərək həyatının son illərini ev dustaqlığında keçirib. O, 1967-ci ilin martında ev dustaqlığında da vəfat edib.

E.Qaradağlı hesab edir ki, məşrutə zamanından ortaya çıxan liberalizm cərəyanına meyil göstərən Azərbaycan liberalları ilə Tehran liberallarının iş birliyindən hər daim antiTürk, antiAzərbaycan qüvvələr faydalanmışdır. Bu baxımdan o, liberal meyilli M.Müsəddiqin İran adlanan ölkədə apardığı islahatların nəticəsiz qalmasını da təsadüfi hesab etmirdi. Qaradağlı yazır: "İran Milli Cəbhəsi, Azadlıq Nehzəti, Millət partiyası, İran partiyası kimi adlar altında fəaliyyət göstərən bu antitürk, antiAzərbaycan kəsim, siyasi ideolojidə həmişə səltənətçilərin xadimi olmuşdur. İran liberalizmi öz dirçəlişindən bəri , heç zaman müstəqil siyasi iradə sürdürə bilməmişdir. İran liberalizminin ən zirvə zamanı şübhəsiz, Müsəddiqlə bağlıdır. Liberalizmin ən milli və həqiqətən millət sevər lideri Müsəddiqin qısa baş nazirlik dövrünü müstəsna edərsək İran liberalizmi ömür boyu siyasi sahənin birinciliyində dayana bilməmişdir". [486]

**Mehdi Bazərgan (1907-1995)** Tehranda Azərbaycan türkü ailəsində dünyaya gəlib. Onların nəsli İran adlanan ölkənin şimal-qərbində yerləşən, Türkiyə sərhədindən 3 km-lik məsafədəki Bazərgan məntəqəsindədir. İlkin təhsildən sonra o, Rza şah hökumətinin göndərişi ilə 1926-1936-cı illərdə Parisdə termodinamika mühəndisi ixtisasına yiyələnir və ölkəsinə dönür. 1939-cu ildən İranı məşhur Təbatəbai nəslindən olan Mələk xanımla evlənməsi onun əlaqələrini daha da genişləndirir. 2-ci Dünya müharibəsində Bazərgan ona təhsil vermiş Fransanın köməyinə getməyi özünə borc bilərək Şarl De Qollun rəhbərlik etdiyi Fransa Müqavimət hərəkatında iştirak etmişdir. 1943-cü ildə Tehrana dönən Bazərgan Tehran Universitetinin mühəndislik fakültəsinin ilk dekanı olub.

Bazərgan 1949-1953-cü illərdə Məhəmməd Müsəddiqin başçılığı altında fəaliyyət göstərmiş Milli Cəbhəyə rəğbətlə yanaşmışdır. 1951-ci ildə Müsəddiq baş nazir seçildikdən sonra Bazərgan yeni yaradılan İran Milli Neft Şirkətinin ilk rəhbəri təyin olunub.

[486] Qaradağlı E. Azərbaycan mərkəzli türkçü düşüncə.İstanbul,ÇAV yayınları,2012, s.328

1953-cü ilin avqustunda Müsəddiq hökuməti devrildikdən sonra Bazərgan da vəzifəsindən uzaqlaşdırlır.

Bundan sonra demokratik qüvvələr qeyri-leqal şəraitdə mübarizəni davam etdirmiş, yalnız 1960-cı ildə yenidən təşkilatlana bilmişlər. Tarixşünaslıqda İkinci Milli Cəbhə adlandırılan bu təşkilatın rəhbərliyində artıq Bazərgan da təmsil olunurdu. Ondan əlavə Şapur Bəxtiyar, Kərim Səncabi, Dariuş Forouhar, Qulamhüseyn Sadiqi, Allahyar Saleh və digər liberallar İkinci Milli Cəbhənin liderləri idilər. Lakin daxili fikir ayrılıqları səbəbindən Mehdi Bazərgan bir il sonra Milli Cəbhəni tərk etdi. O, 1961-ci ildə Ayətullah Mahmud Taleqani ilə birlikdə İran Azadlıq Hərəkatı (İAH) adlı təşkilat yaradır. [487] Liberal, dünyəvi Milli Cəbhədən fərqli olaraq İAH demokratik, lakin islam qaydalarının əhəmiyyətli rol oynayacağı cəmiyyətin qurulmasını hədəfləyirdi. O, islamı batil inanclardan arındırıb moderm elmlər və islamdan oluşan yeni, elmi bir islam meydana gətirməyə çalışırdı. Bazərgan elmi yöntəmlərlə din haqqında modern bir izah ortaya qoyub, elm və din arasında qarşılıqlı bir bağlantı olduğunu göstərmək üçün çalışırdı.

Deməli, İAH və onun lideri Bazərgan daha çox dini hakimiyyətdən uzaq, anca islamla bağlı dünyəvi bir dövlətin tərəfdarı idi. O, Ayətullah Taleqani kimi bəzi ruhaniləri yanına alsa belə, yenə də, bu hərəkat islamda, o cümlədən şiəlikdə yenilikçiliyi ilə fərqlənirdi. O, Qərb imperializminə qarşı mücadilədə islamın yeni və siyasi izahlarının verilməsini doğru saymışdı. Bu cür baxışlarına görə, Bazərgan 1960-cı illərdə Qərb imperializminin köləsi Məhəmməd Rza Pəhləvi tərəfindən bir neçə dəfə həbs olunub. 1964-cü ildə şah məhkəməsi onu 10 il azadlıqdan məhrum edib ki, lakin 3 il sonra siyasətlə məşğul olmamaq şərti ilə azadlığa çıxarıb. O, yalnız 1978-ci ildə İran Pəhləvilər rejimində etiraz hərəkatının vüsət alması ilə yenidən siyasətə qayıdıb. O, daha çox müstəqil şəxs kimi davranaraq Fransada yaşayan Xomeyni və Milli Cəbhə arasında vasitəçilik edir, monarxiyaya qarşı vahid müqavimət düşərgəsinin yaranmasına çalışır.

Bu dövrdə Milli Cəbhə də dünyəvi modeldən imtina edir, din və demokratiyanın sintezi haqqında danışır. Bu da onun daxilində

---

[487] Hüseynov Hüseyn. Seyid Mahmud Taleqaninin dini-siyasi təlimi və sosial fəlsəfəsi. Bakı, Təknur, 2006, s.24

parçalanmaya səbəb olur. Kərim Səncabi Parisə gedib Xomeyni ilə razılaşma axtararkən, Şapur Bəxtiyari konstitusiyalı monarxiya quruluşuna tərəfdar çıxaraq şahin baş nazir postu təklifini qəbul edir. Təşkilat üzvlərinin əksəriyyəti isə Səncabi xəttini dəstəkləyir.

1979-cu ilin fevralın 4-də Xomeyni yeni hökumətin qurulmasını Mehdi Bazərgana tapşırır. Bir həftə sonra, inqilabın qələbəsi və monarxiyanın son baş naziri Şapur Bəxtiyarinin istefasından sonra ikihakimiyyətlilik sona yetir və Bazərgan inqilabdan sonra İran İslam rejiminin ilk baş naziri olur. Mömin olmasına, İslam qaydalarına ciddi əməl etməsinə baxmayaraq, Bazərgan teokratik dövlət quruluşunun tərəfdarı deyildi. Bu səbəbdən də onunla Xomeyni arasında fikir ayrılıqları ilk günlərdən zühur edir. Baş nazir "vilayəti-fəqih" institutuna qarşı çıxır, ölkənin yeni adını İran İslam Demokratik Respublikası olmasını istəyirdi. Lakin Xomeyni "Demokratik" sözünün tətbiqini qəti surətdə rədd edir.

1979-cu il martın son günlərində keçirilən referendumda dövlətin adı rəsmən İran İslam Respublikası olaraq qəbul edildi. Baş nazir həmçinin inqilabdan sonrakı repressiyaların qarşısını almağa çalışır, lakin bunu, əsasən bacarmırdı. Məhdud səlahiyyətlər ona çoxsaylı ölüm hökmlərini ləğv etməyə imkan vermirdi. İki dəfə istefa versə də, Xomeyni tərəfindən qəbul olunmamışdı. Noyabrın 4-də radikallaşmış kütlənin ABŞ səfirliyinə hücumu və diplomatların ailələri ilə birlikdə girov götürülməsi baş nazirin səbrini daşdıran son damla olub. O, iki gün sonra baş nazir vəzifəsindən istefa vermişdi. E.Qaradağlı yazır ki, Azərbaycan türklərinin son tanınmış liberallarından biri olan M.Bazərganın əvvəlcə baş nazir olub, daha sonra istefa verməsi təsadüfi olmamışdır: "Ən son bir liberal (özlərini "milli-məzhəbi" səsləndirirlər) Xomeyinin əlilə baş nazir qoyulmuş, elə həmin adamın əlilə də vurulmuş Təbriz doğumlu M.Bazərgan olmuşdur. Mehdi Bazərgan Təbrizdə "Bağşümal" adlı futbol meydanında 50 min vətəndaşının qarşısında Türkcə danışmaqdan aciz qalınca farsca belə söyləmişdir: "Ey mənim böyük millətim məni bağışla ki, öz ana dilimdə danışa bilmirəm"".[488]

---

[488] Qaradağlı Eldar. Azərbaycan mərkəzli türkçü düşüncə. İstanbul, ÇAV yayınları, 2012, s.328-329

Mehdi Bazərgan 1982-ci ildə Məclisin spikeri Rəfsancaniyə göndərdiyi məktubda inqilabın nəticələrindən məyus olduğunu bildirərək hökuməti terror və qorxu atmosferi yaratmaqda, həbsxana və məzarlıqları doldurmaqda günahlandırıb. İAH 1984-cü il seçkilərini boykot etdiyindən Bazərgan yeni Məclisə düşə bilməyib. O, 1985-ci ildə İran prezidentliyinə namizədliyini irəli sürsə də, lakin Konstitusiyanı Müdafiə Şurası "etibarsız element" kimi onu qeydə almamışdı. Nəticədə tərəfdarları seçkini boykot etdilər. 1986-cı ildə Bazərgan və bir neçə tərəfdarı bir qrup radikal tərəfindən oğurlanıb, fiziki təzyiqə məruz qalandan sonra buraxılıblar. Həmin il ABŞ-ın İsrail vasitəsilə "İran"a gizli silah satışı barədə skandalın (İrangeyt) üzə çıxması da Bazərganın hökuməti sərt tənqid etməsinə səbəb olub. O, 20 yanvar 1995-ci il tarixində İsveçrədə dünyasını dəyişmişdir.

# ŞEYX MƏHƏMMƏD XİYABANİ

**Həyat və yaradıcılığı.** Azərbaycan Türk mütəfəkkiri Şeyx Məhəmməd Xiyabani (1879/80-1920) Təbriz yaxınlığındakı Xamnə qəsəbəsində anadan olmuş, Təbriz və Mahaçqala şəhərlərində dini və dünyəvi elmlərdən təhsil almışdır. Belə ki, astronomiya, riyaziyyatla yanaşı, fəlsəfə, tarix, islam tarixi ilə yaxından tanış olan Xiyabani müctəhidlik dərəcəsinə yüksəlmiş, bir müddət Hacı Kərimxan məscidinin axundu, imamcüməsi, ya da vaizi olmuşdur. O, 1907-1909-cu illərdə Qacarlar dövlətində baş vermiş Məşrutə hərəkatında mühüm rol oynayaraq Təbriz Əncüməninin və Şura Məclisinin vəkili, 1909-1911-ci illərdə fəaliyyət göstərən 2-ci Məclisdə İran Demokrat Partiyasının Azərbaycandan seçilən millət vəkili olmuşdur. 2-ci Məclis Tehran hökuməti tərəfindən buraxıldıqan az sonra Xiyabani yenidən çar Rusiyasına üz tutaraq 1916-cı ilə qədər Mahaqalada və Peterburqda yaşamışdır. Çar Rusiyasında olduğu müddətdə sosial-demokratiya təlimi ilə yaxından tanış olan Xiyabani də bu ideyaya xeyli dərəcədə maraq yaranmışdır.

1917-ci il fevral burjua inqilabı çar Rusiyasında olduğu kimi, Qacarlarda da geniş əks-səda doğurdu ki, İran Demokrat Pratiyasının Azərbaycanda-Təbrizdəki Vilayət Komitəsinin sədri olan Xiyabani qısa bir müddətdə Azərbaycan türklərinin liderinə çevrildi. Eyni zamanda, o, 1917-1920-ci illərdə Təbrizdə nəşr edilən "Təcəddüd" ("Yeniləşmə") qəzetinin əsas yazarlarından biri və 4-cü Məclisdə də millət vəkili olmuşdur. İran Demokrat Partiyasının Azərbaycan Vilayət Komitəsinin 1917-ci ilin avqustundakı iclasının qərarı ilə müstəqil Azərbaycan Demokrat Firqəsi (ADF) yaradılıb, onun Mərkəzi Komitəsinin sədri Xiyabani seçilmişdir. 1917-1918-ci illərdə Azərbaycan, xüsusilə də Təbriz ADF və onun liderinin böyük nüfuzu altında olub, demək olar ki, idarəetmə onların öz əllərində idi.[489]

Həmin dövrdə Azərbaycan üçün əsas təhlükə 1917-1918-ci illərdə Böyük Britaniya, Fransa və ABŞ tərəfindən aysorlarla ermənilərdən ibarət yaradılmış qondarma "xristian qoşunu" ya da qon-

---

[489] Əhməd Vüqar. Şeyx Məhəmməd Xiyabani (həyatı, mühiti və ədəbi fəaliyyəti). Bakı, "Müəllim", 2010, s.10

darma "Aysor-erməni dövləti" idi.[490] Onun əsas hədəfi də Azərbaycan türklərini etnik soyqırım etmək idi ki, nə Xiyabani, nə də onun başçılıq etdiyi ADF "irançılar"la onların havadarlarının, yəni ingilislərin, fransızların Azərbaycanda başlatdıqları qırğınların qarşısını almaq gücündə deyildilər. "Aysor-erməni dövləti" 1918-ci ilin fevral-may aylarında təkcə Urmiya və Salmasda on minlərlə Azərbaycan türkünü soyqırıma məruz qoymuşdu.[491] Ancaq 1918-ci ilin yayında Osmanlı ordusunun 4-cü alayının qəhrəmanlıqları nəticəsində Urmiya, Salmas, Xoy eləcə də digər Azərbaycan şəhərləri və kəndləri birləşmiş "erməni-aysori ordusu"ndan azad edildilər.

Bütün bunlara baxmayaraq, Xiyabani ilə Osmanlı hərbi komandanlığı arasında anlaşılmazlıq baş verdi. Xiyabani Güney Azərbaycan xalqını "Aysor-erməni" hərbi birləşmələrinin zülmündən xilas etmiş Osmanlı ordusunun Güney Azərbaycandan çıxarılmasını istəyib və bunun da nəticəsində, o, Qarsa sürgün edilmişdi.[492] Sovet Azərbaycanı dövründə Qulam Məmmədli dövrünün də şərtləri nəzərə alsaq, Xiyabani ilə Osmanlı ordusunun həmin alayı arasında yaranmış problemi belə izah etmişdir: rus qoşunları Azərbaycanı tərk etdikdən sonra Təbrizə gələn Türk əsgərləri taxıl məsələsində əvvəlcə Xiyabaniylə razılaşdıqları halda, daha sonra aclıq vəziyyətində olan əhalinin olan-qalanını da əlindən alıb. Xiyabaninin Türk hərbi komandalarına etiraz nəticəsində o, ölkədən sürgün olunmuşdur.[493] Bizcə, bu məsələdə ya anlaşılmazlıq, ya da iki qardaş türkün arasına girmiş xainlər olub, nəticədə də həmin xoşagəlməz hadisə baş verib.

Birinci Dünya müharibəsinin nəticələrinə görə, Osmanlı Azərbaycanı tərk etməyə məcbur olduqdan sonra Təbrizə qayıdan Xiyabani ADF daxilində yaranmış fikir ayrılığının qarşısını almaq üçün bir çox cəhdlər göstərsə də, uğursuzluqla nəticələndi. Belə ki, partiya daxilindəki "tənqidiyyun" (tənqidçilər) qrupu başda Zeynalabdin xan, Ə.Kəsrəvi olmaqla, "təcəddüdiyyun" (yenilikçilər) fraksiyasını, xüsusilə də Xiyabanini qeyri-demokratik addımlar atmaqda,

---

[490] Səfəri Həsən. Cənubi Azərbaycan: 1918-ci il soyqıdırmı. Bakı, "Araz", 2016, s.85-92
[491] Məlikzadə Tohid (Dilməqani). Güney Azərbaycan Birinci Dünya müharibəsi illərində - soyqırım. Bakı, "Bakı çap evi", 2010, s.117-118, 177, 193
[492] Əhməd Vüqar. Şeyx Məhəmməd Xiyabani. Bakı, "Müəllim", 2010, s.45
[493] Məmmədli Qulam. Şeyx Məhəmməd Xiyabani (Azərbaycan xalqının milli azadlıq mübarizəsi tarixindən). Bakı, Azərnəşr, 1949, s.58-59

Osmanlı ilə əməkdaşlıqda, Azərbaycanı "İran"dan ayırmaqda ittiham edirdilər. [494] Halbuki, dəfələrlə qeyd etdiyimiz kimi, Osmanlı ordusunun Güney Azərbaycandan çıxarılması tələbini irəli sürən Xiyabani, bunun qarşılıqlığında Qarsa sürgün edilmişdi. Əkrəm Rəhimliyə görə də, Kəsrəvi başda olmaqla "tənqidiyyun"çuların əsas narazlıqları Azərbaycan türkcəsinin işlədilməsi, Milli hökumətin "Azadistan" adlandırılması, Milli muxtariyyat tələbi ilə çıxış etməsi, azərbaycançılığa əsaslanması və bu kimi milli məsələlər olmuşdur.[495]

1919-cu ilin sentyabrında keçirilən 4-cü çağırış Qacarlar Parlamentinə Təbriz və şəhərətrafı məntəqələrdən seçilən 9 deputatdan altısı Azərbaycan Demokrat Partiyasının təmsilçisi idi və Məclisə seçilən deputatlara Xiyabani rəhbərlik edirdi. Onlar Tehrana teleqram vuraraq Vüsuqüddövlə hökumətinin ingilislərlə 1919-cu ilin avqustunda bağladığı təslimçi sazişə görə Məclisə gətməyəcəklərini bildirirlər. Çünki Böyük Britaniya ilə Qacarların baş naziri Vüsuqüdövlə arasında, 1907-ci il avqustunda bağlanmış müqaviləni (həmin müqaviləyə görə Qacarlar dövləti çar Rusiyası və İngiltərə tərəfindən iki hərbi nüfuz dairəsinə bölünmüşdür) əvəz edən yeni müqavilənin bağlanması ilə Qacarlar dövləti tamamilə İngiltərənin hegemonluğu altına keçirdi. Bununla da Təbrizdə etirazlar artdı, mitinqlər çoxaldı və nəticədə Vüsuqüddövlə kabineti istefa vermək məcburiyyətində qaldı. Bundan sonra Müşiridövlə baş nazir kürsüsündə əyləşdirilir ki, o da, yazışmalar yolu ilə ADF-nın liderlərini dilə tutub gözlənilən üsyanın qarşısını almağa çalışır. Bu zaman ADF-nın daxilində müxalif olan "tənqidyyunçu"lardan bir qisim yeni hökumətin tərəfinə keçir.

Bütün bunlara baxmayaraq, mərkəzi hökumətin atdığı bu cür addımlara, eyni zamanda ingilis imperializminə etiraz olaraq 1920-ci ilin aprelin 7-də Xiyabaninin başçılığı ilə Təbrizdə üsyan baş verir. Üsyana rəhbərlik etmək üçün "Heyət-e Ectemaye"nun (İctimai Heyəti) əsasını qoyur və "ictimai sülh və qayda-qanun" və "İranda konstitusiyanın bərpa edilməsi" tələblərinin əks olunduğu

[494] Əhməd Vüqar. Şeyx Məhəmməd Xiyabani. Bakı, "Müəllim", 2010, s.11
[495] Azadlıq uğrunda mübarizə tariximizdən: Xiyabani hərəkatı-90. Bakı, "Bakı çap evi", 2011, s.129

bəyannaməni nəşr edirlər.[496] Yeni yaranan İctimai Heyətə Şeyx Məhəmməd Xiyabani sədr, Mirzə Tağıxan Rəfət, Zeynalabdin Qiyami və başqaları üzv seçilirlər. Üsyan ilk gündən xalq kütlələri tərəfindən böyük rəğbətlə qarşılanır. Əvvəlcədən aparılmış təbliğat nəticəsində hökumətin müxtəlif silahlı qüvvələri də üsyançıların tərəfinə keçir. Üsyançılar arasında ciddi nizam-intizam hakim olur. "Xiyabaninin dediyi kimi səkkiz aylıq ciddi hazırlıqdan sonra həyata keçirilmiş bu üsyanın başlaması ilə Cənubu Azərbaycanda milli azadlıq hərəkatı yeni mərhələyə daxil olur".[497] 1920-ci il aprelin 7-də Xiyabani Təbrizdəki mitinqdə deyirdi: "Bu gün dünya camaatına rəsmən bildiririk ki, biz Vüsuqüddövlə və ingilis talançı sazişini (1919-cu il sazişi nəzərdə tutulur – F.Ə.) bağlamış hökumət əleyhinə üsyan etmişik və... Azərbaycan adını Azadıstana dəyişərək bu gündən bu adı rəsmi ad kimi elan edirik".[498]

Altı ay ömür sürən və 1920-ci ilin sentyabrın 12-də Tehran hökuməti tərəfindən süquta uğradılan "Azadistan" adlı Milli muxtariyyat dönəmi Azərbaycan xalqının tarixində mühüm yer tutdu. Milli muxtariyyata son verildiyi gün, Təbrizdə gedən döyüşdə şəhid olan Xiyabaninin şəhid olmazdan öncə dediyi son sözü belə olmuşudr: "Şərəfli ölüm, şərəfsiz yaşamaqdan yaxşıdır!".

Xiyabaninin tədqiqatçısı Əli Azəriyə görə, ölümündən əvvəlki iki gecəni evində qaldığı Hacı Şeyx Həsən xanın Təbrizin yeni valisi Müxbirəssəltənədən onun üçün can təhlükəsizliyi istəmək təklifinə isə Xiyabani belə cavab vermişdir: "Mən ölməyi təslim olmaqdan üstün tuturam. Düşmənlərin qarşısında diz çökmərəm. Mən məşrutiyyət dövrünün uşağıyam, Ərəb xilafətinə baş əyməyən Babək Xürrəminin sülaləsindənəm".[499]

Yeri gəlmişkən, Ə.Azəri "Ş.M.Xiyabaninin Təbrizdəki qiyamı" əsərində Xiyabanini "gənc Türk qəhrəmanı, Azərbaycan türklərinin azadlıq hərəkatınını lideri", "Azadistan Türk Muxtar Dövləti"nin

---

[496] Atabəyi Turac. Azərbaycan: etnik mənsubiyyəti və İranda qüdrət uğrunda mübarizə, Bakı, "Təhsil" nəşriyyatı, 2002, s.70

[497] Tağıyeva Şövkət. 1920-ci il Təbriz üsyanı, Bakı. Azərnəşr, 1990, s.48

[498] Yenə orada, s.48

[499] Azeri Ali. Azadistan devleti və Şeyh Muhammed Hiyabani (1918-1920). Ankara, Elipa, 1994, s.266

başçısı kimi qələmə vermişdir.[500] [501]M. İbrahimov yazır: “Məşrutə inqilabından sonra Cənubi Azərbaycanda başlamış və bütün İranı lərzəyə salmış, hərəkətə gətirmiş ən güclü inqilabi hərəkat 1917-1920-ci illərdə Şeyx Məhəmməd Xiyabaninin başçılığı ilə olan hərəkatdır ki, o Azərbaycan xalqının azadlıq mübarizələri tarixində şərəfli yer tutur”.[502]

**Sosial-fəlsəfi baxışları.** 1917-ci ildən etibarən “Təcəddüd” (“Yeniləşmə”) qəzetində azadlıq, bərabərlik və ədalət ideyalarını təbliğ edən Xiyabani hesab edirdi ki, müsəlmanlar müasir dünyada yeni mədəniyyət yaratmaq, heç olmazsa istər-istəməz meydana gələcək bir mədəniyyətin yaranmasında fəal iştirak etməlidirlər. Onun “Yeniləşmə” fəlsəfəsinə görə, yeni bir mədəniyyətin yaranmasında hər kəsin öz layiqli borcunu yerinə yetirmək üçün iki əsas işdə səy göstərməsi zəruridir: bunlardan biri ağıl və təfəkkür, digəri isə səbat və həmrəylikdir. Əslində buradakı “Təcəddüd” (“Yeniləşmə”) fəlsəfəsi Avropadakı liberalizmlə bir çox cəhətlərinə görə üst-üstə düşsə də, milli özünəməxsusluğu ilə fərqlənirdi. Bunu nəzərdə tutaraq Xiyabani yazırdı ki, İslam dünyasında “Təcəddüd” məsləki siyasi dildə çox vaxt “liberalizm” kəlməsi kimi istifadə olunsa da, ancaq bu, Avropa liberalizmini təqlid etmək anlamına gəlməməlidir.[503]

Deməli, Xiyabani bir tərəfdən Avropa mədəniyyətinin, Avropa fəlsəfəsinin müsbət tərəflərini görür, onun öyrənilməsinin vacibliyini dərk edir, ancaq digər tərəfdən milli-dini mədəniyyətə əsaslanmaqla yeniləşməni vacib hesab etmişdir. Bu da, o anlama gəlir ki, Xiyabani bütün hallarda yeniləşmənin milli-dini dəyərlər əsasında olmasının daha doğru olacağına inanmışdır. Hər halda, Xiyabaninin dövründə yaşamış bir çox çağdaşları həddən artıq, ifrat şəkildə Avropa ya da Qərb mədəniyyətinə üz tutmaqla öz cəmiyyətlərinə xeyirdən daha çox zərər vermişlər. Bizcə, Xiyabaninin Avropa mədəniyyətinə bu cür yanaşması tamamilə doğru olmaqla

[500] Azadlıq uğrunda mübarizə tariximizdən: Xiyabani hərəkatı-90. Bakı, “Bakı çap evi”, 2011, s.223-224

[501] Azəri Əli. Qeyame Şeyx Mohemmed Xiyabani dər Təbriz, Tehran, 1328

[502]Cənubi Azərbaycan ədəbiyyatı antologiyası.4 cilddə, 2. cild. Bakı, Elm, 1983, s.16-17

[503] Xiyabani Ş.M. Azərbaycan və Azərbaycan demokratik qüvvələri. Bakı, “Müəllim”, 2010, s.117

yanaşı, eyni zamanda onun "Təcəddüd" fəlsəfəsi dövrün məntiqinə də xeyli dərəcədə uyğun olmuşdur.

Bizcə, Xiyabaninin bir müdrik filosof kimi düşüncələrində Qərbin fəlsəfəsi ilə üst-üstə düşən gələcəyə real bir inamla yanaşı, həm də həmin inamı gerçəkləşdirə biləcək milli-dini dəyərləırə əsaslanan məntiqli bir təfəkkür var idi. Bu baxımdan "Təcəddüd" fəlsəfəsində artıq son əsrlərdə Şərqin, o cümlədən İslam Şərqinin üzərinə çökmüş "qorxu" anlayışına yer yoxdur, bunun əvəzində cəsarətlilik, inamlılıq ön plandadır. Başqa sözlə, bu yeniləşmə fəlsəfəsində həm bu günə, həm də gələcəyə münasibətdə qorxunu dəf edib, ancaq cəsarəti tutmaq vacibdir. Xiyabaniyə görə, qorxuya yenilmiş insanın, ya da xalqın gələcəyi və gələcəklə bağlı ümidləri də ola bilməz. Doğrudan da, son əsrlərdə İslam Şərqi cəmiyyətlərinin əsas problemi də məhz sxolastik ehkamlarla hökm sürən din qorxusu olmuşdu. Məhz Şərqin üzərində hökm sürən "qorxu" düşüncəsini nəzərdə tutaraq o, yazırdı: ""Qorxuram" sözü onu deyən adamın öz vicdanı qarşısında biabırcasına etdiyi etirafdır. "Qorxuram" sözü rəzalətin ən alçaq dərəcəsini və onu deyən adamın ruh düşkünlüyünü andıran bir formul və ifadədən ibarətdir. "Qorxu" insanın təbiətində mövcud olan ən çirkin bir hiss və uğursuz bir həyəcandır. Bu hiss adamı mərdlik şərəfindən və alicənablıq məziyyətindən məhrum edərək onu nisginliyin ən aşağı dərəcəsinə endirir və ən murdar heyvanlarla bir sırada qoyur. Ağciyər adamlar, yəni cəsarətsiz, ürəksiz qocalar, gənclər, qadınlar və oğlanlar təbii olaraq qorxaq bir ictimaiyyəti, qorxaq cəmiyyət və milləti təşkil edərlər. Qorxaq bir millət isə çox çəkmədən öz başında bir qəddarın əlində giriftar olar".[504]

Bizcə də, bir millətin, ya da xalqın çöküşünün, özünə inamsızlığın əsasında "qorxu" instinkti dayanır. Daha doğrusu, artıq "qorxu" hər hansı cəmiyyətin şüuruna hökmran kəslincə, zamanla da bir stereotip halına gələrək instinkt halına çevrilir. Artıq həmin cəmiyyətdə ən kiçicik bir islahat, yeniləşmə istəyi belə, çox böyük təhlükə sayılır. Belə olduğu təqdirdə də, həmin cəmiyyətlər ya onu idarə edənlərin, ya da xarici qüvvələrin asanlıqla istismarına çevrilirlər.

Bu anlamda Xiyabani çox doğru yazırdı ki, qorxu insanlar kimi, xalqların da qul olmasının başlıca səbəblərindən biridir.

[504] Yenə orada, s.131

Üstəlik, qorxu təkcə siyasi köləliyə səbəb olmur, eyni zamanda ziyanverici və fəlakətli hadisələrin meydana gəlməsinə də kömək edir. Xiyabani yazırdı: "Beləliklə, qorxaq adam hədə, zor qarşısında özünü itirir, çaşır və hüququndan belə əl çəkir, ən müqəddəs varlığından məhrum olur, habelə bu iyrənc qorxunun uğursuz təsiri nəticəsində qorxağın bədənindəki müqavimət qüvvələri də azalaraq hər cür xəstəliklərin hücumuna, yoluxmasına imkan yaranır. Mikroblar gündən günə canlanır, güclənir və qorxağın sağlamlığının məhv və həlak olmasına səbəb olur". [505]

Deməli, ayrı ayrı fərdlərin içini bürüyən qorxu, daha sonra müyyən sosial qrupları və sonunda da bütövlükdə cəmiyyəti bürüyür. Şübhəsiz, cəmiyyətin içini bürüyən "qorxu" hissi fəlakət olmasa da, ancaq fəlakətin xəbərçisidir. Bu anlamda Xiyabani də çox doğru yazırdı ki, ayrı-ayrı fərdləri sarıyan qorxu bilavasitə fəlakətin səbəbi olmasa da, fəlakətdən törənən nəticələrin daha da gərginləşməsində çox böyük rol oynayır. O, yazırdı: "Qorxu minimum dərəcədə kədəri, qüssəni artırır. Yüksək ziyanverici dərəcəyə çatdıqda isə ya bilavasitə fəlakətlərin törəməsinə səbəb olur, ya da həyatı bərbadedici kor bir ehtiras kimi təcəssüm edərək istərsə maddi, istərsə də mənəvi cəhətcə insanı bütün rahatlıqdan məhrum edir. Qorxu insanın düşüncə qüvvələrini, ağıl və kamalını hərəkətdən saxlayır, onun cismi qüvvələrini də dərhal faəliyyətdən salır. Qorxu sağlamlıq nümunəsi, sayıqlıq və zəka mənbəyi olan bir şəxsi solğun, qansız quru bir heykələ, şüursuz, iradəsiz, fəaliyyətsiz xə xülyaya tutulmuş, məğlub bir adama çevirir. Qorxu insanın sağlamlığında da eyni təsiri göstərir. Tək-tək adamların bədənində qorxudan törənən nəticələr eynilə xalq kütlələrində də törənir. Özü-özülüyündə yenilməz, böyük qüvvəyə malik olan bir xalqı qorxu heçə-puça çıxarır".[506]

Bu, o anlama gəlir ki, "qorxu" insana iki: 1) mənəvi, 2) maddi tərəflərdən təsir göstərməklə onun dirəniş gücünü də qırır. Başqa sözlə, insan həm mənəvi anlamda, həm də fiziki anlamda "qorxu"nun əsiri olaraq yeniləşməyə meyilli olmur. Ayrı-ayrı fərdlərin içində hökm sürən "qorxu" bütövlükdə cəmiyyətin də

[505] Yenə orada, s.131
[506] Yenə orada, s.131-132

yeniləşməsinin qarşısını alır. Bununla da mənəvi və maddi anlamda "qorxu"ya əsir düşən cəmiyyət nəinki yeniləşməyə meyil edir, üstəlik də gerilik içində tənəzzülə uğramağa davam edir. Şübhəsiz, "qorxu"nu dəf etməyin əsas çarəsi isə "cəsarət"liklə bağlıdır və yalnız onun sayəsində cəmiyyət yeniləşməyə qadir olur. Xiyabani də iddia edirdi ki, qorxu inkişaf, təkamül və yeniliyin qabağını alan ən böyük mane, bəşəriyyətin düşmənidirsə, cəsarət isə tam əksinə insanlıq üçün var olmaq deməkdir: "Qorxu deyilən bu uğursuz hiss bəşəriyyətin şərəf, heysiyyət, mənlik və mərdlik kimi nəcib hislərini təhlükəyə salır. "Qorxu" olan yerdə insan qabiliyyət və məziyyətdən məhrum olur. İnsan adını daşımaq və insaniyyət şərəfinə malik olmaq istəyən şəxs qorxmamalıdır. "Qorxmamaq", bu bəşəriyyət aləmində mövcud olan şərəf və heysiyyəti qorumaq üçün bir vasitədir. Lakin təkcə qorxmamaq kifayət etməz, bundan əlavə cəsarətli, qoçaq və ürəkli də olmaq lazımdır. Qorxunun əskinə olaraq cəsarət ancaq ağıl və igidlik silahı ilə silahlanmış və uzaqgörənlik hissi ilə aşılanmış cəsarət, çoşqun və fədakar bir qoçaqlıq millətlərə nicat verə bilər".[507]

Xiyabani yazırdı ki, qorxu milliyyət, azadlıq və bəşəriyyətin əsaslarını pozduğu halda, cəsarətlilik, igidlik həmin əsasları möhkəmləndirir, sarsılmaz edir, qoruyur. Xiyabaniyə görə, qorxu kimi cəsarətlilik ya da igidlik də iki cürdür: maddi igidlik və mənəvi igidlik. O, yazırdı: "Maddi igidlik təhlükə və xəbər qarşısında soyuqqanlıqdan ibarətdir ki, onun ən yüksək dərəcəsi "ölümə qarşı" etinasız olmaqdır. Çünki ən böyük təhlükə ölümdür və heç kim ölümlə iki dəfə qarşı-qarşıya gəlməyəcəkdir. Maddi igidlik elə bir həqiqətdir ki, onu mənimsəmək mümkündür... Qorxaq bir əsgər müharibə meydanında on dəfə qəhrəmanlıq göstərsə, cəsarətlənə bilər. Qorxmaz əsgər isə daha cəsarətli olar. Maddi igidliyi təmrin etmək (yəni ölümə alışdırmaq) bədənimizi sükunət və mətanətə, daimi aramlığa öyrədər".[508]

Deməli, qorxuya qarşı ən ciddi mübarizə cəsarətlilik, igidliklə əlaqəli olub, onu dəf etməyin əsas çarəsi də bununla bağlıdır. Bunu yaxşı anlayan Xiyabani mənəvi və maddi qorxuya

---

[507] Yenə orada, s.132
[508] Yenə orada, s.132-133

qarşı da, mənəvi və maddi cəsarətliliyi irəli sürürdü. Xiyabaniyə görə, mənəvi igidlk isə insanın öz ehtiraslarına hakim olmaq və onları özünə tabe edə bilməyindən ibarətdir. Başqa sözlə, ehtirasına, hissiyyatına, ümumiyyətlə nəfsinə qapılmayan insan cəsarətli və igid adamdır. Bu o anlama da gəlir ki, mənəvi qorxunu dəf etməyin ən əsas çarəsi də, nəfsinə güc gəlib onu yenməkdir. Xiyabani yazırdı: "Təbiətin zəruri qanunlarına çox vaxt qələbə çalmaq mümkün olmur, buna baxmayaraq bacarıqlı şəxslər öz nəfslərinə üstün gələ bilərlər. Belə şəxslər yaralanır, canını qurban verər, ölər lakin qorxmazlar. Belə adamlar məğlubedilməzdirlər. Bu igidlik məziyyətdir, o, məntiqi təhlil və möhkəm iradədən doğulur. O, sərbəst fikirlə qəbul edilən bir qərarın təcəssümüdür. "Qorxmamalıyam, buna görə nə qorxuram, nə də qorxmaq istəyirəm!" – igidin qərarı belə olmalıdır. İndiyə qədər elə bir insan qüvvəsi yaxud təbii qüvvə olmamışdır ki, bu qərara qarşı qələbə çala bilsin. Dediyimiz kimi, mənəvi igidlik insanın əzmidir, iradəsindən asılıdır və buna görə də mənəvi igidliyin "vaxtı" vardır. Bu vaxtı təyin edən zaman ölçüsü isə bizin şərəf və izzəti nəfsimzidir. İnsanın hərəkəti və işi "qorxu" adlana biləcək bir dərəcəyə çatarsa o zaman igidliyin çoşub-daşmaq vaxtı və qorxunu tamamilə məhv etmək vaxtı da çatar".[509]

Xiyabanidə güclü optimizm və gələcəyə inam var idi. O hesab edirdi ki, xalqın bu gün verdiyi şəhidlər, qurbanlar onun keçmişdəki ətalətinə, ixtiyarsızlığına son qoymaq, bunun əvəzində gələcəyinin öz əllində olmasına inamına işarədir. Onun fikrincə, bu baxımdan azadlıq uğrunda şəhid olanları ağlamaqla deyil, əksinə, şadyanalıqla qarşılamaq lazımdır. Xiyabaninin nəzərində bu, "varlıq gülşəninə acizlik, nalə və miskinliklə deyil, ümid və şərəf gülüşləri ilə girmək" üçün vacib idi. Çünki bir fərdin, ya da ayrı-ayrı fərdlərin ah naləsi bütövlükdə cəmiyyəti pessimizmə aparır. O, yazırdı: "Dəfələrlə dediyim kimi, fərd ilə cəmiyyətin əhvali-ruhiyyəsində böyük fərq vardır. Cəmiyyətin əhval-ruhiyyəsi fərdlərin əhval-ruhiyyəsinin yekunudur. Lakin bu əhval-ruhiyyə həmin cüz olan əhval-ruhiyyədən tamamilə fərqlənir. Fərdin əhval-ruhiyyəsi fərdin əhval-ruhiyyəsinə tabe olmalıdır. Çox nadir hallarda elə bir əhval-ruhiyyə tapıla bilər ki, özünü bu tabelikdən xilas edə bilsin. Dəfələrlə

[509] Yenə orada, s.133

elə olmuşdur ki, alim və ya bilikli bir adam cəmiyyətin əhval-ruhiyyəsinin təsiri altında öz hikmət və biliyini əldən vermişdir”.[510]

Deməli, fərd və cəmiyyət arasında sağlam münasibətlər qurulmayanda, hər ikisi zərər çəkmiş olur. Belə ki, pozulmuş bir cəmiyyətin təzyiqi altında əxlaqlı, sağlam düşüncəli adam da məhv olub gedə bilər. Yəni bir cəmiyyətdə rüşvətxorluq, adam aldatmaq, yalan danışmaq kimi hallar adi hala çevrildiyi bir dövrdə, bunun doğru olmadığını bildiyi halda, eyni şeyi təkrarlayanların bu vəziyyətin səbəbkarlarından çox da fərqi yoxdur. Ancaq əgər fərd öz əxlaqında, düşüncəsində möhkəm dayanarsa, cəsarət və igidlik ortaya qoyarsa o zaman müəyyən anlamda cəmiyyəti də yaxşılığa doğru dəyişə bilər. Başqa sözlə, bir şeyə dur deməyi bacarıb, vəziyyəti dəyişdirmək, yeni imkanlar ortaya qoymaq bacarığı insanın, ya da ayrı-ayrı insanların öz əlindədir. Ancaq bunun üçün həmin fərd, ya da fərdlər ağılda, cəsarətdə, bacarıqda güclü olub bir sistem qurmalıdırlar ki, bu günə qədər mövcud olan mənfi yönlü tabuları məhv edib, onun yerində müsbət yönlü işlər ortaya qoysunlar.

Xiyabani hesab edirdi ki, indiyə qədər “İran” xalqı özbaşına həyat sürmüş, alaq otu kimi təbiətin qoynunda kor-təbii şəkildə yaşamışdır və bundan da istibdad rejimləri daim yararlanmışdır. O, yazırdı: “İran xalqı möhkəm əqidə olmadan, təcrübə və imtahanlardan sayıqlıqla istifadə etmədən, təşkilat və tərtibatsız şəkildə uzun müddət özbaşına və təbii yol getmişdir. O, bugünkü günə kortəbii surətdə yaşayıb gəlmişdir. Bu özbaşına göyərmiş ağaca peyvənd vurulmalıdır. Yeni, sağlam və düzgün nəzəriyyəni bu camaata təlqin etməklə, onun mühitində bir təcəddüd-təkamül yaranmasına nail olmalıdır”.[511] Bizcə, bu fikirlərə çox da həqiqəti özündə əks etdirmir. Hər halda 20-ci əsrin əvvəllərinə qədər bu bölgədə hakim olmuş dövlətlərin, xüsusilə də həmin dövlətlərin əksəriyyətinin qurucusu olan türklərin “özbaşına və təbii yolla” hərəkət etməsi doğru deyildir.

Xiyabaniyə görə, “təcəddüd-təkamül” fəlsəfəsini, yalnız xalqın iradəsi ilə həyata keçirmək mümkündür. Çünki xaqlın iradəsi

---

[510] Xiyabani Ş.M. Nitqləri/Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. 4 cilddə, 2-ci cild. Bakı, “Elm”, 1983, s.411

[511] Yenə orada, s.411

nəzəri baxımından bütün bəşər kütlələrinin fövqündədir. Bu o anlama gəlir ki, yeniləşmə və təkamül bir yerdə götürülməli, yeniləşmə siyasəti doğru aparılçalıdır. Daha doğrusu, yeniləşmə inqilabi sıçrayışlarla deyil, təkamül əsasında həyata keçirilməlidir. O, yazırdı: "Xalqın iradəsinin istədiyi şey müqəddəs və möhtərəmdir. Lakin bu iradə müstəqil yaşamaq üçün vicdana (xalq vicdanı – F.Ə.) malik olmalıdır. O (xalq vicdanı – F.Ə.), nəzərlərdə saf, səmimi və parlaq şəkildə aydın olmalı və öz varlığını sübut etməlidir. Cəmiyyəti təşkil edən fərdlərdən hər biri bir başşaş ruh ilə, müstəqil vicdan ilə silahlanıb, bu ruhiyyənin qüvvəsini dünya qarşısında nümayiş etdirməlidir".[512]

Bizcə, Xiyabaninin əsas məqsədi həm ayrı-ayrı fərdlərin, həm də bütövlükdə "xalqın vicdanı"nı oyatmaq idi ki, o, bu yolda hər bir şeyə qatlanmağa hazır idi. Bu yolda, o, bir müdrik olduğu qədər də, fədai idi. Özündə müdrikliyi və fədakarlığı birləşdirən Xiyabani açıq şəkildə yazırdı ki, "xalqın vicdanı"nı oyatmaq üçün, onun yalnız qəhrəmanlıqlarını, igidliklərini deyil, nöqsan və eyiblərini də göstərmək lazımdır: "Biz tərəqqi və təkamül yolunu ona nişan veririk. Batil təsəvvür və xəyalları onun şüurundan çıxardıb, bunların yerinə həyat bəxş edən yeni fikirləri yerləşdirməyə çalışırıq. Bu məqsədə çatmaq üçün deyirik: bu cəmiyyəti təşkil edən fərdlərdən hər birisi xalqa olan böyük ruh yüksəkliyi ilə silahlanıb, öz varlığında saxladığı azadlıq və istiqlal ruhunu başqalarına da təlqin etsin". [513]

Şübhəsiz, Xiyabaninin dediklərində böyük bir həqiqət və gerçəklik var idi. Xüsusilə, "xalqın vicdanı"nı oyatmaq məsələsində o, çox haqlı idi. "Xalqın vicdanı" deyilən, elə bir həqiqətdir ki, fərdləri və cəmiyyəti yeni bir mübarizəyə və dəyişilməyə hazırlayır. Ancaq bu mübarizə və dəyişilmənin qurbansız olmayacağı ilə yanaşı, həmin qurbanların qanları bahasına da millətin millət olacağı fəlsəfəsi var idi. Sadəcə, bunun üçün köhnəpərəstliyə son verib yanlız yenilikpərəst tərəfdarı olmaq, yəni öz əsrinin əleyhdarı olmaqdan vaz keçmək lazım idi. Xiyabani nitqlərinin birində deyirdi: "Biz istəyirik ki, əl və ayaqlarımızı cəhalət və nadanlıq zəncirlərindən xilas edib azad hərəkət edək, yüz illik zülmət və fəlakətdən

---

[512] Yenə orada, s.412
[513] Yenə orada, s.412

qurtaraq. Biz irəli getmək, tənəzzül və geriliyimizin qarşısını almaq istəyirik. Biz görürük ki, zamanamız tərəqqi və təməddünün ən yüksək dərəcəsinə çatmış, biz isə o mərhələdən çox uzaq düşmüşük. Biz yalnız zamanımıza müvafiqət etmək deyil, bəlkə ondan daha çox, gələcəyi düşünüb qarşıdakı gələcək həyata hazırlşamalıyıq”.[514]

Onun fikrincə, hər bir xalq zəmanəyə uyğunlaşıb onun şərtlərinə görə hərəkət etməli, başqa xalqlarda olan müsbət tendensiyaları mənimsəməli, ancaq bunu təqlidçilik şəklində etməməlidir. Çünki başqa xalqları olduğu kimi təqlid edənlər özü olmur və başqa xalqın assimliyasiya təhlükəsi ilə üz-üzə qalır. O, təqlidçiləri nəzərdə tutaraq deyirdi: “Belə adamlar keçmişi unudur, gələcəyin isə fikrini çəkmirlər. Bunlar yaşadıqları zamana həyatı əlaqə ilə bağlıdırlar. Onlar bu günkü paltarlarını ata-babalarınnı palatarları ilə müqayisə etmir və sabah nə kimi paltar geyinəcəklərini və nə şəklə düşəcəklərini də təsəvvürə gətirə bilmirlər. Lakin bu gün əyinlərində olan paltarı canlarından əziz tutub, oni sevirlər. Taza modalı papaq, paltar, hətta Avropa başmağını geyinmək belə onların nəzərində mühüm problem təşkil edir. İctimai yaşayış da belədir”.[515]

Xiyabani bir tərəfdən təqlidçiləri, digər tərəfdən köhnəpərəstləri tənqid edərək deyirdi ki, zəmanə ilə ayaqlaşmaq istəyən xalqın özündə də hərəkət olmalıdır. Yəni xalqın qabaqcıl ziyalıları həm mühafizəkarlara qarşı mübariz aparmalı, həm də yeniləşmək istərkən təqlidçilikdən uzaq durub, müəyyən qədər də olsa özünəməxsusluğu da ortaya qoymalıdır. Başqa sözlə, müsəlmanlar ictimai həyatda adət etdikləri köhnəpərəstlikdən və təqlidçlikdən əl çəkib, gələcəyi də nəzərə almalıdırlar. O, yazırdı: “Siz bir həyat tərzinə adət etmişsiniz. Elə ki, bu tərzin pis cəhətlərini başa düşdünüz, o vaxt həmin həyatı dəyişmək istəyəcəksiniz, lakin işdə islahat və təcəddüd yaratmaq isətərkən köhnə adətlərlə olan əlaqəniz sizi soyudur və məyus edir. Lakin biliniz ki, sizin dövrünüz atalarınızın dövründən başqadır. Bu gün sizin qoyduğunuz papaq, dünən atalarınızın qoyduğu papaq deyildir. Sabah da bugünkü papağı qoymayacaqsınız. Gələcəyi nəzərə almalısınız. Evladlarınızı o zaman üçün tərbiyə etməlisiniz. Bilməlisiniz ki, yaxın gələcəkdə elə bir gün qarşınıza

[514] Yenə orada, s.418
[515] Yenə orada, s.419

çıxacaqdır ki, o vaxt sizə bugünkü məramınızı təklif etdikdə, siz onu köhnəlmiş və nöqsanlı görəcək, ölümü ona tərcih edəcəksiniz”.[516]

Yeni yetişən nəsli keçmişin köhnəpərəst adətlərindən uzaqlaşdırmağa çalışan Xiyabaniyə görə, gənclər üçün mükəmməl, xoşbəxt, yeni bir gələcək hazırlamaq lazımdır. Bu arzu və əzmlə işləyərək, vəhşilik və barbarlıq dövrünə qayıtmaq istəyən köhnəpərəstlərə, mütəcelərə qarşı mübarizə apardıqlarını deyən, Xiyabani yazırdı: “Mən bu günün ideyasını zəncir sayır və deyirəm: ey bədbəxt və şüursuz mürtəce! Sən bu başsız xalqı hansı həlakətin qaranlığına və fəlakət dərəsinə qaytarmaq istəyirsən? Bizim dediklərimiz dəlillədir”.[517]

Onun fikrincə, köhnəpərəst adətlər inkişaf və tərəqqinin əleyhinə olub, köhnəpərəstlərin əlində əsas silahlardan biridir. O, nitqlərinin birində deyirdi: “Sizin dünyalar qədər pis adətləriniz vardır ki, onlar sizin ictimai və siyasi cəhətdən inkişafınıza mane olur. Bu manelərdən birisi odur ki, siz həqiqəti tanıdığınız paltarda görmədikcə onu qəbul etmirsiniz. Bir çox mühüm və əsaslı məsələlər qarşısında ləclik edirsiniz. Lakin mən istəyirəm ki, dəlil və əsaslarla bəzi məsələləri şərh edim. Mən elə güman etmirəm ki, siz ağıl və məntiq qarşısında belə mətləbi anlamaqdan boyun qaçırasınız. Vəsvəsə və şəkki kənara atın, bir-birilə fərqli olan iki nəzəriyyə arasında öz ağlınızı işə salıb, mühakimə edən və qəti qərara gəlin”.[518]

Xiyabani hesab edirdi ki, fəlsəfi anlamda bu iki nəzəriyyə “varlıq və yoxluq” məsələsidir. Onun fikrincə, mübahisəli oilan bu məsələni dərindən dərk etmək lazımdır. O, yazırdı: “Fəlsəfə alimləri arasındakı “varlıq və yoxluq” məsələsi mübahisəlidir. Deyirlər ki: hər bir şeyin tamamilə aradan getməsi, məhv olması və ya bir şeyin öz-özündən vücuda gəlməsi mümkün deyildir. Hər bir varlıq özündən əvvəlki və keçmiş bir vücudun nəticəsidir. Bu qanun hallara və şəkillərə də aiddir. Mövcud olan heç də mümkün deyildir ki, gözlənilmədən yox olsun və aradan çıxsın və ya yerini özündən fərqli olan başqa bir hala versin. Elə bir hala ki, əvvəlcədən yox idi. Bir dəmir parçasını böyük zəhmət nəticəsində başqa şəklə salırlar.

516 Yenə orada, s.419
517 Yenə orada, s.420
518 Yenə orada, s.421-422

Ondan kotan və ya digər bir alət qayırırlar; kotandan qılınc, top və ya tüfəng lülləsi qayırmaq mümkün olur. Lakin bu halların hər birisində biz məcburuq ki, ilk şəkildə olan dəmiri öz istədiyimiz şəklə salmaq üçün, onun əvvəlki şəklini məhv etmək üçün çəkic zərbələri sərf edək. Deməli hər bir ikinci hala keçmək, birinci hala istinad edir və heç bir gözlənilməyən təhəvvül qabili-təsəvvür deyil”.[519]

Xiyabaniyə görə, qanmaz adamın birdən birə bilikli alim olması mümkün olmadığı kimi, uzun illər bir istibdadın zülmü altında yaşamış xalq da birdən birə azad ola bilməz: “İnqilabların nəticəsidir ki, siz bu gün yeni əqidələr haqqında məlumata malik olmuşsunuz. Lakin kamal dərəcəsinə çatmamısınız. Sizi özbaşına buraxmaq olmaz. Sizin şəklinizi dəyişmək lazımdır. Sizi diri, düşüncəli və mütəcəddüd bir millət etməlidir. Alimlər demişlər ki, təməddünün əsası bundan ibarətdir ki, qədim adətlər, köhnə qaydalar tədricilə məhv olub onların yerini yeni düsturlar tutsun. Biz bu düsturları sizə öyrədəcəyik”.[520]

Ola bilsin ki, Xiyabaninin bu fəlsəfəsini o zaman özü, ya da bir neçə nəfər anlaya bilmişdir. Ancaq ən əsası odur ki, Xiyabaninin yeniləşmə və təkamül fəlsəfəsi, yəni milləti millət etmək naminə əvvəlcə ayrı-ayrı fərdlərdə vicdanı oyatmaq, daha sonra da onu bir məslək halına gətirib xalqın ümumi vicdanına çevrmək çox doğru düşüncə idi. Xiyabani deyirdi: “Azadxahlardakı vicdani əqidə onlarda vicdani əlaqəni təşkil edir və onları ittifaqa, birliyə çağırır. Biz azadxahların bir arzu, bir məram, əqidə və bir məqsədimiz vardır. Biz hamımız deyirik ki, bu məmləkətdə həqiqi məşrutuyyət hökm sürsün. Şəxsi nüfuzlar və imtiyazlar ləğv edilsin. Həqiqi milli hakimiyyət qurulsun. Müəssisələrimiz və idarələrimiz milliləşsin. Yəni milli hakimiyyətin əsasına arxalansın. Biz deyirik: ədalət, bərabərlik və azadlıq olsun. Bu sözlərin müxtəsər xülasəsi belədir: Biz öz əsrimizin övladları olmaq istəyirik. Biz bəşəri təkamül qafiləsindən uzun yollar boyu geri qala bilmərik. Zəmanəsinə ağ olana zaman cəza verəcəkdir. Məslək birliyi qardaşlıq yaradır. Bir məsləkdə olan iki nəfər iki qardaş kimidir”.[521]

---

[519] Yenə orada, s.421-422
[520] Yenə orada, s.422
[521] Yenə orada, s.413-414

Xiyabaniyə görə, xalqın vicdanına hesablanmış məslək, xüsusilə də siyasi məslək bütün məsləklərdən üstündür. Çünki siyasi məslək vicdanları oyadır və müəyyən bir istək üzrə insanları könüllü olaraq bir araya gətirir. O, deyirdi: "Siyasi məslək bütün əqidələrə hakim və üstündür. Din, məzhəb, tayfa və milliyyət siyasi əqidələr qarşısında təsir və nüfuz edə bilməz. Məslək vəhdəti birlik və məhəbbət doğurur".[522] Onun bu baxışları daha çox sosial-demokratlara yaxın idi. Çünki sosial demokratlar da din, tayfa, milliyyət məsləyini deyil siyasi məslək, yəni azadlıq, ədalət və bərabərlik şüarlarını irəli sürürdülər. Görünür, bu baxışlarından dolayı Sovetlər Birliyi dövründə Xiyabanini az qala marksist elan etmək istımişlər. Sadəcə olaraq, burada Xiyabaniyə görə də, bəşəriyyətin səadəti dini, milli mənsubiyyətindən asılı olmayaraq yalnız bu ideyalar uğrunda mübarizə aparan insanlar vasitəsilə təmin olunacaqdır: "Bu gün bütün dünyada qaldırılmış azadlıq bayrağı altında insanlar xoşbəxt həyat sürəcəklər. Yaşasın bütün dünya azad xalqları arasında dostluq və qardaşlıq rabitəsini yaratmaq istəyənlər".[523]

Bu anlamda S.C.Pişəvəri ilə razılaşırıq ki, Səttarxan silah gücü və igidliyi ilə Azərbaycanın adını ucaltdığı halda, Xiyabani alimanə, yəni müdrik nitqləri və cəsarətli yazıları ilə Azərbaycan tarixinə, Azərbaycan mədəniyyətinə öz adını yazdıra bilmişdir. Pişəvəri Təbrizdə Xiyabaninin abidəsinin açılışı münasibətilə etdiyi çıxışında deyirdi: "Şeyx böyük mütəfəkkir idi. Onun nitqlərini oxuyanda insan təzə şeylər öyrənir. Onun sözləri dərin və mənalıdır. Onun nitqlərinin içərisində artıq sözlər çox azdır. Lakin bir çox əməli təkliflər vardır".[524]

Pişəvəriyə görə, Xiyabani iman və əqidə adamı olsa da, həm mühiti müsaid olmayıb, həm də ətrafındakıların çoxu onun fəlsəfəsini başa düşməyib, o da çox məsələləri açıq deyə bilməyib. Ola bilsin ki, Pişəvəri bu məsələ də bir qədər haqlı idi. Çünki doğrudan da müdrik və cəsarətli bir ziyalı olan Xiyabanini ətrafındakılar tam anlaya bilmirdilər, ya da istənilən səviyyədə anlamamışlar. Pişəvəri yazırdı: "Şeyxin dedikləri bizim istədikləri-

---

[522] Yenə orada, s.414
[523] Yenə orada, s.415
[524] Pişəvəri S.C. Məqalələri. Bakı: Azərnəşr, 2016, s.155

mizin müqəddiməsidir... Rəşidlik nəzəri ilə baxsaq, Səttarxan qəhrəman imiş. O, düşmən qabağında təslim olmamışdır. Amma fikir, elm və məlumat nöqteyi-nəzərindən baxsaq, Şeyxin məqamı fövqalədə böyükdür. Sərdar rəşid imiş. Şeyx o xasiyyətlərə malik olduğu halda, bir də onun alimlik məqamı var idi”.[525]

Xiyabaninin əksər tədqiqatçıları da Pişəvəri kimi hesab edirlər ki, o, siyasi fəaliyyəti, nəzəri-fəlsəfi baxışları ilə Azərbaycan xalqının milli azadlıq və demokratiya hərəkatı taixində dərin iz buraxmışdır.[526] Məsələn, Qafar Kəndliyə görə də, Xiyabani Azərbaycan fəlsəfi fikrinin inkişaf tarixində yeni bir dövr açmış, onun “Təcəddüd” fəlsəfi məktəbində Azərbaycanın böyük inqilabı nəsli yetişmişdir: “Doğrudan da, Xiyabaninin fəlsəfi məktəbində hər şey yeni əsasla qurulmuş, hər şeyin həllində millətin, füqareyi-kasibənin, zəhmət adamlarının, şəhər və kəndlərdə alın təri ilə çörək qazananların mənafeyi əsas götürülmüşdür. Köhnə siyasi məfhumlar alt-üst edilmişdir. Təcəddüd məsləkində inqilabın əsas məsələsi olan hakimiyyət məsələsi inqilabçı nöqteyi-nəzərindən daha radikal şəkildə qoyulurdu”.[527]

Qafar Kəndlinin fikirlərindən də belə anlaşılır ki, Xiyabani ictimai-fəlsəfi baxışlarına görə, sosial-demokratlara, bir qədər də dəqiqləşdirsək marksisit sosial-demokratlara yaxın olmuşdur. Onun sayəsində xeyli dərəcədə köhnə siyasi məfhumlar alt-üst edilmiş, yeni kateqorial anlayışlar dövriyyəyə gətirilmişdir. Eyni zamanda, o, marksist sosial-demokratlara yaxın olmaqla yanaşı, milli demokratiyaya daha çox meyil göstərmişdir.

**Xiyabaninin dini görüşləri**. Xiyabaninin dünyagörüşünün formalaşmasında İslam dininə münasibəti də mühüm yer tutmuşdur. İslam fəlsəfəsi, İslam tarixi ilə yaxından tanış olan Xiyabani müctəhidlik dərəcəsinə yüksəlmiş, bir müddət Hacı Kərimxan məscidindinin axundu, imamcüməsi, ya da vaizi olmuşdur. Bu da, onu göstərir ki, Xiyabaninin dinə, o cümlədən İslam dininə münasibəti əsaslı olmuşdur. Xiyabani irsinin araşdırmaçılarından

[525] Yenə orada, s.156

[526] Tağyeva Ş., Rəhimli Ə., Bayramzadə S., Cənubi Azərbaycan. “Xiyabani” oçerki. Bakı, “Orxan”, 2000, s.197

[527] Azadlıq uğrunda mübarizə tariximizdən: Xiyabani hərəkatı-90. Bakı, “Bakı çap evi”, 2011, s.62

professor Vüqar Əhməd hesab edir ki, Sovetlər Birliyi dövründə "sosializmin "iti baltası" altında tədqiqat aparan publisistlər onu az qala ateist, eyni zamanda materialist adlandırmaqdan belə çəkinməsələr" də,[528] əslində Xiyabani haqqındakı bu fikirlər heç də həqiqəti özündə əks etdirmir. V.Əhməd yazır: "Xiyabani İslami dəyərlərə, müqqəddəs Qurani-Kərimə xüsusi əhəmiyyət verir, demokratiyanı, azadlığı və ümumiyyətlə, hürr yaşamağı bunsuz təsəvvürünə gətirmirdi. Eyni zamanda, insanların İslam ehkamlarına riayət etmədikləri halda, onların mənsub olduğu cəmiyyətin mədəniyyətinin tənəzzülə uğramasını dilə gətirirdi".[529]

Əkrəm Rəhimli də hesab edir ki, Xiyabani özünün dini-fəlsəfi baxışlarında islam dəyərlərinə, islamın müqqədəs kitabı Qurandakı ədalətə çağırış olan prinsiplərə riayət olunmasını əsas şərt kimi sürürdü. Rəhimli yazır: "Xiyabani islamda dini-fəlsəfi prinsiplərin pak əxlaq, halallıq, bərabərlik və ədalət üzərində qurulduğunu söyləyirdi. Başqasının hüququna təcavüzü, haqqının əlindən alınmasını, zülm və zorakılığı islama xəyanət hesab edirdi və ona qarşı çıxmağı özünün mübarizəsində əsas hədəf kimi qəbul etmişdi".[530]

Doğrudan da, Xiyabaninin yazılarında və nitqlərində İslam dininə, islamlığa daima həssas yanaşdığını görürük. Belə ki, o, İslam dinini yeni mədəniyyətlərin yaranması yolunda mane deyil, tam əksinə yolgöstərəni olduğuna inanırdı. Onun İslam dininə bu cür yanaşmasını daha təmkinli bir baxış hesab etmək olar. Çünki həmin dönəmdə İslami Şərqi ölkələrində ziyalıların əksəriyyəti hesab edirdi ki, müsəlman xalqlarının tənəzzül və gerilik içində olmasının əsas səbəbkarı İslam dinidir. Xiyabani yazırdı: "Allah-təalanın İslamın bizim üçün istədiyini yenidən əldə etmək, müasir dünyada yeni mədəniyyət yaratmaq, ya heç olmasa istər-istəməz meydana gələcək bir mədəniyyətin yaranmasında fəal iştirak etməkdə öz layiqli borcunu yerinə yetirmək üçün biz müsəlmanların iki əsas işdə səy

---

[528] Yenə orada, s.86

[529] Əhməd Vüqar. Şeyx Məhəmməd Xiyabani (həyatı, mühiti və ədəbi fəaliyyəti). Bakı, "Müəllim", 2010, s.68

[530] Azadlıq uğrunda mübarizə tariximizdən: Xiyabani hərəkatı-90. Bakı, "Bakı çap evi", 2011, s.125

göstərməsi zəruridir: bunlardan biri ağıl və təfəkkür, digəri isə səbat və həmrəylikdir”.[531]

Deməli, Xiyabaniyə görə müsəlmanların həyatında ağıl və həmrəylik bir bütünlük təşkil etməlidir və biri o birini gücləndirməlidir. Başqa sözlə, ağıl (islam təfəkkürü) və həmrəyliyi (müsəlman qardaşlığı) bir yerdə tuta bilən müsəlmanlar öz cəmiyyətlərində inkişafa da səbəb olacaqlar. Xiyabani daha sonra yazırdı: “Bu iki qiymətli gövhəri əldə etmək üçünsə müqəddəs Qurani-Kərimdən faydalanmaqdan daha qənaətbəxş bir iş ola bilərmi? Quran kimi hansı bir kitabda varlıq aləmində, dünyada elmə, səbrə, təfəkkürə və tədbirə, millətlərin, xalqlaırn taleyindən nəsihətamiz məsələlərə bu qədər diqqət verilmişdir? İrqi, milli, hətta məzhəb ixtilaflarının və dil fəqihilə mövcud olmasına baxmayaraq, Quran bizim vəhdət amilimiz, bizi bir-birimizə bağlayan ən möhkəm kəndirimiz – vasitəmizdir. Əgər onun qədrini bilsək, bir tərəfdən durğunluqdan və adətpərəstlikdən, digər tərəfdən başqalarının qarşısında özümüzü itirməkdən uzaq olsaq, ağılla ona müraciət etsək, bugünkü həyatımızı və gələcəymizin üfüqlərini onun nuru ilə işıqlandıra bilərik”.[532]

Şübhəsiz, burada İslam dini, ya da İslam fəlsəfəsi ilə dünyəvi elmlərin uzlaşdırılması çox vacibdir. Əlbəttə, dünyəvi elmlər dedikdə, burada sözün həqiqi mənasında bəşəriyyətə xidmət edən elmlərdən, fənlərdən söhbət gedir. Yəni hər bir xalq öz dini dəyərlərini bildiyi qədər, obyektiv xarakter daşıyan və millətin inkişafına xidmət edən dünyəvi elmlərdən də agah olmalıdır. Bunlar bir-birini tamamlamalıdır ki, hər hansı xalq başqa xalqların, xüsusilə də daim qəsbkarlıq, faşizm niyyəti güdənlərin qurbanına çevrilməsin.

Bu baxımdan Xiyabaninin o fikri ilə razılaşırıq ki, artıq günün tələblərinə cavab verməyən, üstəlik milləti geriçiliyə sürükləyən dini, ya da milli olsun adətpərəstlikdən əl çəkilməli, başqa xalqarın inkişafına səbəbə olan texnologiyaları milli-dini özünəməxsusluqları qotumaq şərtilə, tətbiq etmək lazımdır. Digər tərəfdən də unutmaq lazım deyil ki, milli-dini irsimizin özündə də kifayət qədər lazımlı olub, ancaq unudulmuş dəyərli elmi bazamız var ki, onlara yenidən

[531] Yenə orada, s.88-89
[532] Yenə orada, s.88-89

müraciət olunmalıdır. Xiyabani yazırdı: "Bizim dərdimiz budur ki, bir zamanlar elm, hikmət və mədəniyyət bayraqdarı olan İslam ümməti son əsrlərdə zəifləmiş və geri qalmışdır. Zamanın qalib, böyük nüfuza malik mədəniyyəti qarşısında kədər doğrucu bir ətalət üzündən, hətta bu mədəniyyətin də əldə etdiyi nailiyyətlərdən bəhrələnmək fürsəti və imkanı tapmamışdır. Bizim bu zəifliyimiz, bir zaman bəşər taleyinin başı üzərində parlaq bir ulduz kimi işıq saçmış, dövrünün qalib mədəniyyətinin də borclu olduğu və indinin özündə də bir sıra əsərləri və təsirləri həmin pərəstişin yadigarı olaraq qalmış bir mədəniyyətin sona çatmasının nəticəsidir". [533]

Xiyabani çox doğru qeyd edirdi ki, milli-dini irsimizi yetərincə bilmədiyimiz üçün, onu çox vaxt arxa plana qoyub, ancaq hazırda inkişafda olan mədəniyyətlərin arxasınca sürünürük. Başqa sözlə, azərbaycanlılar, ya da Azərbaycan Türkləri öz milli mədəniyyətlərinə və dini mədəniyyətlərinə daha dərindən yiyələndikcə, o zaman onların inkişafa əngəl deyil də, əksinə səbəb olduğunu daha dərindən anlamış olacaqlar. Eyni zamanda, azərbaycanlılar bilməlidirlər ki, bu gün inkişafda olan mədəniyyətlər, xüsusilə də Qərb mədəniyyəti öz uğurlarına görə yalnız Yunan-Roma mədəniyyətinə deyil, eyni zaamnda Şərq mədəniyyətinə, o cümlədən də İslam mədəniyyətinə borcludur. Sözün açığı, bu həqiqəti 100 il əvvəl olduğu kimi, bu gün də anlayanlar hələ də yetərincə deyildir. Bütün hallarda, Xiyabani kimi filosoflarmızın yalnız ictimai-siyasi məsələlərdə deyil, eyni zamanda, fəlsəfi və sosial-fəlsəfi məsələlərdə də öz sözlərini deyə bilməsi, yeni fikirlər irəli sürməsi qürurvericidir. Hər halda Xiyabaninin öz dövründə bu məsələləri həm dərindən anlması, eyni zamanda anladıqlarını doğru bir şəkildə cəmiyyətə çatdırması olduqca müsbər bir xüsusiyyətdir.

**İctimai-siyasi görüşləri.** Xiyabaninin ictimai-siyasi baxışlarında sosial-demokratiya cərəyanını yaxından maraqlandıran əməyə münasibət və insan əməyinin ədalətli şəkildə dəyərləndirlməsi də mühüm yer tutmuşdur. O, "Əmək və fəhlələr" məqaləsində yazırdı ki, Versal Sülh konfransında "Əmək" ünvanlı ayrıca maddənin müzakirə olunub, bəşəriyyət adına obyektiv bir qərar alınması çox müsbət bir addımdır. Ona görə, son dövrlərdə baş verən

---

533 Yenə orada, s.89

müharibələrdə, iniqlablarda əsas yeri "iqtisadi şərait" tutmuşdur ki, maddi mahiyyəti olan bu amil səbəb və nəticə olaraq bütün bəşəriyyəti öz hakimiyyəti və nüfuzu altına almışdır. Xiyabani yazırdı: "O (iqtisadi şərait), insanların həyatını bir-birinə zidd iki hissəyə: biri qulluq həyatı, digəri isə rifah və xoşbəxtlik həyatına bölərək sənayedə güclü təbii qüvvələrdən istifadə zəminəsi və nəhəng "maşinizm" zəminəsi yaratmışdır. Həmin iqtisadi şərait həyat uğrunda olan qanlı ölüm-dirim mübarizəsi meydanında "muzdurluq rejimini" bərpa etmiş, bədbəxt, muzdur fəhlə kütlələrinin sümük və qanını mədəni maddələr yaxud taxıl qalaqları tək zavod və karxanaların çərxlərinin dişləri arasında əzilib məhv olmasına və beləliklə kapitalını artırıb, iqtisadi bazarın möhkəmlənməsinə səbəb olmuşdur. Bəşəriyyət uzun illər boyu qaranlıq zavodlarda maşının dəmir çəkiclərinin yemi olmuşdur". [534]

Xiyabaninin bu düşüncələrdən belə bir nəticəyə gəlmək olur ki, o da, kapitalist münasibətlərinin əleyhinə olmuş, insan bərabrəliyinin, sosial bərabərliyin tərəfdarı kimi çıxış etmişdir. Eyni zamanda, o, iqtisadi şəraitin sosial bərabərliyi hansı amillər əsasında pozmasını və bunun aradan qaldırılması yollarını göstərməyə çalışmışdır. Onun fikrincə, bunun da əsas yollarından biri məzlumların zalımlar tərəfindən istismarına son qoyulmasıdır ki, bunu da ancaq mübarizə və mücadilə aparmaq yolu ilə bərpa etmək mümkündür.

O, yazırdı ki, Avropa kapitalistləri arası kəsilmədən bir-birinə müharibə elan edərək döyüşə başladıqları zaman qoşun sıralarının böyük hissəsini də həmin fəhlə kütlələri təşkil etmişdir. Xiyabaniyə görə, məcburi olaraq həmin döyüşlərdə iştirak edən fəhlə kütlələri böyük qurbanlar verməli olmuşdur: "Dəhşətli müharibə fəhlə kütlələrinin qanını həddindən artıq tökdü, onların arası kəsilmədən göstərdiyi səylərini qanla qiymətləndirdi. Bütün dünya fəhlə kütlələrinin göstərdiyi səylərinin şahidi oldu. İstərsə müharibə cəbhələrində, istərsə metropoliya küçələrində, istərsə də geniş xalq kütləleri içərisində demokratik hərəkatın gündən-günə nailiyyət əldə etməsi və müvəffəqiyyət uğrunda böyük addımlar atması məhz fəhlə kütlələrinin birlikdə göstərdikləri fədakarlıqlar nəticəsində olmuşdur.

[534] Xiyabani Şeyx Məhəmməd. Azərbaycan və Azərbaycan demokratik qüvvələri. Bakı, "Müəllim", 2010, s.135

Həmin fədakarlıqlara (dözülməz ictimai təzyiqlərdən qurtarmaq üçün göstərilən səylərə) mükafat olaraq veriləcək nailiyyət şəkili sülh müqaviləsində fəhlə kütlələrin diləklərinə yer verməkdən, o diləklərə rəsmiyyət verib həyata keçirməkdən, fəhlə kütlələrinin gələcəyi üçün gözəl və sevindirici ümidlər verməkdən başqa bir əklil ola bilməz”.[535]

Xiyabaninin ictimai-siyasi baxışlarında Azərbaycan xalqının yeniləşməsi, azərbaycanlılıq ruhu, milli haqlarını qoruması ön planda olmuşdur. Ona görə, bu yolda Azərbaycan xalqını heç bir çətinlik, imtahan qorxutmamalıdır. Çünki Xiyabaniyə görə, Azərbaycan türkləri əsrlərboyu həmişə zülmə və ədalətsizliyə qarşı bir dirənişçilik, yenilikçilik və ədalətlilik mərkəzi olmuşdur. Hazırda da Azərbaycan öz simasını qoruyaraq azadlıq, ədalətlilik və yenilkçilik simvolu olmalı, Tehranda hakimiyyəti ələ almış irançı “məşrutəçilər”in yalançı, ikiüzlü əməllərinə “dur” deməlidir. Xiyabani “Azərbaycan” adlı məqaləsində yazırdı: “Bu gün Tehranın gözü Azərbaycanın parçalanmış vücuduna dikilmişdir. Dodaqlardan eşidilən kəlmələrdə, qələmlərin yazdığı sözlərdə təqdir səsləri və təhsin nəvaları eşidilməkdədir. Lakin, ey qeyrətli Azərbaycan, ey Vətən məftunlarının istiqamətli övladları, ey azadlığın qorxu bilməyən qəhrəmanı, ey təriflərə möhtacı olmayan Azərbaycan!.. Ey Azərbaycan! Bütün bu təqdir və təqdislər sənin verdiyin şəhidlərin qanı bahasıdır”.[536] [537]

Xiyabaninin ortaya qoyduğu Azərbaycan xalqının azadlıq ruhunu, azərbaycanlılıq ruhunu doğru dəyərləndirən Azərbaycan Türk mütəfəkkiri, dövlət xadimi Mirzə İbrahimova görə, Azərbaycanda baş qaldıran xalq hərəkatlarında milli özünəməxsusluq daim özünü büruzə vermişdir. M.İbrahimov yazırdı: “Şeyx Məhəmməd Xiyabaninin qiyamında azərbaycanlılıq ruhu daha artıq özünü göstərirdi. Səttar xan inqilabından sonra güclənən irtica və təzyiq, hakim fars dairələri və istibdadın artan zülmü Azərbaycanı mütləşdirmir, yatırdıb sakit etmir, əksinə, daha artlıq oyadır və

---

[535] Yenə orada, s.136

[536] Xiyabani Məhəmməd. Azərbaycan// Azərbaycan publisistikası antologiyası. Bakı, “Şərq-Qərb”, 2007, s.571

[537] Azadlıq uğrunda mübarizə tariximizdən: Xiyabani hərəkatı-90. Bakı, “Bakı çap evi”, 2011

hərəkətə gətirirdi. Getdikcə Azərbaycandakı xalq hərəkatları, daha artıq milli xüsusiyyət kəsb etməyə başlayırdı”. [538]

Şübhəsiz, Xiyabaninin başçılığı ilə gerçəkləşən hərəkat Azərbaycan türklərinin milli hərəkatı olub, Qacarlar dövlətinin rəhbərliyini ələ keçirib onu oyuncaq halına gətirmiş irançılara və onların havadarlarına, xüsusilə də Böyük Britaniyaya qarşı yönəlmişdi.[539] Yəni Xiyabani hərəkatının əsas məqsədi nə Qacarları devirmək, nə də Qacarlar hakimiyyətini qəbul etməməklə bağlı olmamışdır. Doğrudur, Xiyabani çıxışlarında hər bir xalqın müstəqil olmağa haqqı çatdığını da vurgulayırdı: “Bir xalqın şərafəti üçün birinci şərt onun müstəqil olmasıdır. Müstəqil olmayan bir xalqın əzmi və hörməti yoxdur”. [540] [541] Bizcə, məşrutə hərəkatında olduğu kimi, bəzən Xiyabani hərəkatında da müstəqil olmağa dair fikirlərin səslənməsi daha çox Qacarlar dövlətində türk hakimiyyətinin formal hal alıb, ingilis-rus havadarlığında farsçıların ön plana çıxması ilə bağlı olub.

Başqa sözlə, Xiyabani hərəkatı Qacarlar dövlətini “irançılıq” və “demokratiya” adı altında ələ keçirib, sömürgə altına gətirmiş aryançı irançılara və onların havadarlarına, xüsusilə də ingilislərə qarşı idi. Çox yazıqlar olsun ki, həmin irançılar arasında bilərəkdən, ya da bilməyərəkdən “özümüzünkülər” də var idi. Bu baxımdan Xiyabani də yaxşı anlayırdı ki, Azərbaycana, Azərbaycan türklüyünə, onun ədalətsizliyə, haqsızlığa qarşı baş qaldırdığı milli hərəkatlara zərbələri yanlız özgələr (rus millətçiləri, ingilis millətçiləri və b.) deyil, “özümüzünkülər” də vurmuşlar.

Hər halda başçılıq etdiyi ADF daxilindəki “özümüzünkülər”dən hesab olunan “tənqidiyun”çulardan Kəsrəvilərin, Zeynalabdinxanların, Seyid Əl Mühəqqiqlərin irançı mövqe tutaraq Xiyabanini qeyri-demokratik addımlar atmaqda, Osmanlı ilə

[538] İbrahimov Mirzə. Cənubi Azərbaycanda milli-demokratik hərəkat haqqında.// “İnqilab və mədəniyyət” jurnalı, Bakı, 1947, №4, s.79-80
[539] Həsənli Cəmil. Sovet dövründə Azərbaycanın xarici siyasəti (1920-1939). Bakı, “Adiloğlu”, 2012, s.83
[540] Xiyabani Ş.M. Nitqləri/Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. 4 cilddə, 2-ci cild. Bakı, “Elm”, 1983, s.430
[541] Tağyeva Ş., Rəhimli Ə., Bayramzadə S., Cənubi Azərbaycan. “Xiyabani” oçerki. Bakı, “Orxan”, 2000, s.197

əməkdaşlıqda, Azərbaycanı "İran"dan ayırmaqda ittiham etmələri, [542] təasadüfi deyildi. Görünür, Xiyabani məhz bu amilləri nəzərdə tutaraq yazırdı: "..Azərbaycan; bəhanə axtaran özgələr və kin-küdrətli özününküləri qarşısında vurdu, vuruldu, öldürdü, öldürüldü, həyatın çətinliklər və çək-çevirləri içərisində inqilab və təkamül yolunu keçib yaşadı. Ucdantutma qırğınlar, soyğunlar, zülm və işgəncələr Azərbaycandakı istiqlaliyyət hərəkatını və azadlıq tələblərini məhv edə bilməyəcəkdir. Özgələr və "özümüzünkülər" ürəklərində saxladıqları yaramaz fikirlərini həyata keçirmək məqsədilə bu torpağın yaralı sinəsi üzərində dar ağacları qurdular. Zülm və vicdansızlığın qara kölgəsini bu qana boyanmış torpağın üzərinə saldılar. Lakin bu ölkənin qeyrətli cavanları və qəhrəman qocaları başlarını rəşadət səmalarında uca tutub, zülm və ədalətsizlik dünyasını öz ayaqları altında gördülər".[543]

Bütün faciələrə baxmayaraq Xiyabani ümidsizliyə qapılmağın əleyhinə olub, Azərbaycan xalqını fəlakətdən, səfalətdən xilas olmağa səsləyirdi. Ona görə, Azərbaycan xalqı nə özgələrin ona vurduğu yaralardan qorxmalı, nə də "özümüzünkülər"in xəyanətinə görə geri çəkilməlidir. O, yazırdı: "Tutalım ki, bu gün fəlakət və səfalət girdabında boğaza qədər müsibətlərə batmış, vücudun əziyyətlərə düçar olmuş, ən ağır ehtiyaclar içərisində gücsüz və qüvvətsiz əl-ayaq çalmaqdasan. Tutalım ki, qışın bu şaxtası lüt vücuduna qorxunc neştərlərini sancmaqdadır: pərişan, solğun və yurdsuzsan. Tutalım ki, çox bədbəxtsən. Tutalım ki, müharibədə iştirak edən ölkələr sənin qədər xar olmamışlar. Təqsirli millətlər sənin qədər əzab və işgəncələrə düçar olmamışlar... Tutalım ki, başdan-ayağa yaralanmış və parçalanmısan. Bununla belə o abırlı başını yüksək tut, vətənin qəlbindən gələn təsəlli səslərini dinlə, qoy bu səs sənin ürək və ruhunda dərin bir intibahın qüdrətli tufanını doğursun. Çünki sən yıxılmış pəhlivana, ayağa düşmüş qəhrəmana bənzəyirsən ki, onun ayağa qalxması üçün qeyrət və həmiyyət damarlarına təsir etmək ən yaxşı çarə və tədbirdir". [544]

---

[542] Əhməd Vüqar. Şeyx Məhəmməd Xiyabani (həyatı, mühiti və ədəbi fəaliyyəti). Bakı, "Müəllim", 2010, s.11

[543] Xiyabani Məhəmməd. Azərbaycan// Azərbaycan publisistikası antologiyası. Bakı, "Şərq-Qərb", 2007, s.570

[544] Yenə orada, s.571

Xiyabani Azərbaycanın başdan-ayağa yaralanmasını və parçalanmasını dərk etdiyini, ancaq bunun belə davam etməyəcəyinə böyük inam bəsləyirdi. O, Azərbaycan xalqının bu ağrı-acılara son verərək başını dik tutmağa və yenidən milli azadlığa can atmağa çağırırdı. Xiyabani hesab edirdi ki, Azərbaycan yeniləşmə və təkamül yolunun yeganə yolçusudur. Bu mənada, onu heç bir çətinlik, imtahan qorxutmamalıdır. Bu sınaqdan da üzü ağ çıxmalıdır. Xiyabani yazırdı: "Əgər sən həmin inqilab və mübarizənin vücuduna maddi qüvvə vermiş demokratik Azərbaycansansa, əgər məşrutənin xəmrini yoğurmuş və bərikitmiş qan sənin damaralarında axırsa, vətəndə gedən islah və təmir dövrəsinə hazır olub, özündə səy və çalışqanlıq taparsan".[545]

Xiyabani inanırdı ki, pozmaq və dağıtmaq istibdadçıların işidirsə, qurmaq və inkişafa nail olmaq isə demokratik qüvvələrin əlindədir. Azərbaycan xalqı da hər daim demokratiyanın, azadlığın, yeniləşmənin beşiyi olub, istibdadın evini yıxdıqdan sonra keçmiş xarabalıqlar üzərində gələcəyin saraylarını yüksəltməlidir. O, bir müdrik kimi yazırdı ki, bunun, yəni gələcəyin saraylarınln yüksəlməsi üçün fikir və düşüncə lazımdır: "Uzağı görən, uzağı düşünən fikir. Ağıllı və tədbirli fikir. Yaradıcı və canlandırıcı fikir.Tətbiq və icraedici düşüncə. İslah edib intizam yaradan fikir. Səbir və səbat, yenilik, dissiplin və təşkilat, ayıqlıq, ümidvarlıq və fədakarlıq tələb edən fikirlər olmalıdır. Bəli, fədakarlıq və həmişə fədakarlıq". [546]

O, fədakarlıq istədiyi xalqına müraciətində deyirdi: "Milli ruhlu, milli əqidəli elə bir hökumət qurmaq istəyirik ki, onu milli hökumət adlandırmaq mümkün olsun. İstiqlaliyyət və azadlıq təntənəsi tam və mükəmməl şəkildə zəfər çalsın. Bu fikir və baxışları geniş xalq kütləsini çatdırmaq və yaymaq bir fikir adamı olan hər ziyalının müqəddəs borcu və vəzifəsidir". Onun bu baxışlarına istinadən bəzi tədqiqatçılar hesab edirlər ki, Xiyabani Milli hökumətin formasını Cümhuriyyət idarəçiliyində görmüşdür.[547]

---

[545] Yenə orada, s.572

[546] Yenə orada, s.573

[547] Azadlıq uğrunda mübarizə tariximizdən: Xiyabani hərəkatı-90. Bakı, "Bakı çap evi", 2011, s.62

Xiyabani deyirdi ki, Milli azadlığa qovuşmaq üçün siyasətçilərin işlətdikləri yalanlardan istifadə etmək fikri yoxdur, o, sözünü doğru və açıq deməyin tərəfdarı idi: “Elə düşmənləri daha çox qorxuya salan da bizim düzlüyümüz və qorxmazlığımızdır. Biz aldanmayacağıq. İstibdad və xəyanət zamanlarında Qanuni-əsasiyyəyə müxalif və azadlığa düşmən olanlar bizi aldada bilməyəcəklər. Biz çox imtahanlardan keçmişik. On beş illik inqilabımız həddibuluğa çatmış və yaşa dolmuşdur. Artıq pisi yaxşıdan ayırd edə bilir və bir dəfə təcrübədən çıxmış işi, daha təcrübə etmək istəmirik. Qanuni-əsasinin ən sadiq keşikçiləri inqilabı yaradanlardır. Azadxahlar bu müqəddəs keşiyi özlərinin ən mühüm vəzifələri saymalıdırlar. Bu elə bir ləyaqətli vəzifədir ki, insan onun yolunda gözüyumlu qurban gedə bilər. Mühüm zamanlarda adi məsələləri unutmalı, əsil vəzifəni və ictimai mənafei nəzrədə tutmalıdır. Öz qeydinə qalmağı yaddan çıxarmaq lazımdır. Yalnız ümumin, cəmiyyətin qeydini və fikrini çəkməlidir”. [548]

O, deyirdi ki, yeganə vəzifə düşmənlərin Milli hərəkata qarşı uzanmış əllərini birdəfəlik kəsməkdir: “Uca və gur səslə deyirik: Ey müstəbid, ey mürtəce! Hamınız bilin ki, sizin namusunuz, mal və canınız amandadır. Lakin budan sonra demokratiyanın müqəddəratı sizin kirli əllərinizə verilməyəcəkdir. Bu sözlər bir şəxsin, bir vahid fərdin, bir müəyyən natiqin, bir nəfər Xiyabaninin dili ilə deyilmir. Bu sözləri deyən demokratizmin ruhudur”.[549]

Seyidağa Onullahi hesab edir ki, azərbaycanlıların özlərini bir millət kimi dərk etməsi Şeyx Məhəmməd Xiyabani hərəkatı dövründə daha kəskin xarakter almışdı: “1920-ci il mayın ayının 27-də Şeyx Məhəmməd Xiyabani demişdir: “Azərbaycan azərilərə aiddir... Millət həqiqi xidmətçilərini tanıyır. Azərbaycan sözdə vətənpərvərlərin yalanlarına inanmayacaqdır. Millətimizin özü bu vicdansızların toruna toruna düşməyəcəkdir... Türkü türkə qarşı qaldırmaq istəyirdilər... millətimiz ayıq olmalıdır, yaşamağın nə olduğunu bilməlidir. İrəliləmək istəməyənlərin ölmələri gərəkdir. Biz azərbaycanlılar öz dəyərimizi bilməliyik, özümüzə güvənməli-

[548] Xiyabani Ş.M. Nitqləri/Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. 4 cilddə, 2-ci cild. Bakı, “Elm”, 1983, s.409
[549] Yenə orada, s.409

yik. Bir millətin şərəfli olması üçün ilk şərt müstəqillikdir. Bir millətin müstəqilliyi, azadlığı o millətin cəsarət və qəhrəmanlıq duyğularını qorumaqdır. Hər millət özünə uyğun olan hökumətin qurulmasına icazə verir". Şeyx Məhəmməd Xiyabani qurduğu hökuməti milli namus kimi qiymətləndirirərk demişdir: "Şərəf, iftixar, şanlı bir keçmiş tarixə və yüksək dinə sahib olan bir millət öz ölkəsində səfalət və rəzalət içində yaşaya bilməz"".[550] Xiyabani daha sonra demişdir: "Bu günə qədər Azərbaycan millətinin vaxtı hər dəfə yeni şahlıq yaratmaqda keçmişdir. Bu millət məhkumiyyət çarpayısından qalxıb özü hakimiyyət taxtına çlxmalıdır. Dövlətləri və səltənətləri millətlər yaradır, artıq şahlıq dövrü keçdi. Azərbaycanda hakimiyyət tamamən millətin olmalıdır".[551]

Eynulla Mədətli yazır ki, İran tarixşünaslığında ilk əvvəllər Xiyabani hərəkatına iki cür münasibət olmuşdur: "Bir tərəf Xiyabanini və havadarlarını ayrımçı hesab edərək iddia edirlər ki, əgər M.Xiyabani qalib gəlsəydi onda onun Azadistan adlandırdığı Azərbaycan İrandan ayrılmış olacaqdı və güman ki, iki qonşu dövlətdən biri ilə birləmiş olacaqdı. Buna görə də, bu yanaşmanın tərəfdarları M.Xiyabani hərəkatına mənfi münasibətlərini gizlətmirlər. İkinci qrup tədqiqatçılar isə Xiyabanini azadlıqsevər və demokrat kimi qiymətləndirir və onun məqsədinin Azərbaycanda, sonra isə bütün İranda demokratik hakimiyyətin qurulması olduğunu göstərərək ona rəğbətlə yanaşırlar. Şübhə yox ki, M.Xiyabani hərəkatının, onun səbəb və nəticələrini tərəfsiz, dəqiq və obyektiv təhlil və qiymətləndirilməsi uzun zaman tarixi tədqiqatların əsas problemlərindən biri olaraq qalacaqdır". [552]

Beləliklə, Xiyabani hərəkatını hərtərəfli təhlil edən E.Mədətli yazır: "M.Xiyabani yalnız Azərbaycanın deyil, İranın azadlıqsevər qüvvələrini mövcud Konstitusiyanın dəyişdirilməsi, gələcək dövlət quruluşunun xalq tərəfindən müəyyən edilməsi, xalq lazım bilərsə şahlıq rejiminin demokratik respublika ilə əvəzlənməsinin mümkünlüyün irəli sürür, İranın tərkibində, onun ayrılmaz bir hissəsi

[550] Onullahi Seyidağa. İranda milli məsələnin qoyuluşu// Güney Azərbaycan: Tarixi, siyasi və kulturoloji müsrəvidə (Məqalələr toplusu). Bakı, Azərnəşr, 2010, s.8

[551] Yenə orada, s.8

[552] Mədətli Eynulla. Azərbaycan tarixi məsələləri İran tarixşünaslığında (XX əsrin əvvəlləri). Bakı, "Turxan NPB", 2017, s.229

olaraq demokratik idarəçiliyin real nümunələrini bütün ölkəyə nümayiş etdirir, mütərəqqi islahatlar tələbini mərkəzi hökumətə gönədirirdi. M.Xiyabani və onun demokratik ardıcılları ölkədə hər hansı bir xarici qüvvənin təsirindən azad, müstəqil siyasət yetitməyin tərəfdarları idilər və mərkəzi hökuməti ingilislərin təsiri altında olduğuna görə tənqid edirdilər”.[553]

Bizcə də, bütün hallarda Xiyabani Azərbaycanın Qacarlar dövlətindən tamamilə ayrılmasının tərəfdarı olmamışdır. Xiyabaninin və digər demokratların əsas tələbi Azərbaycana muxtariyyət verilməsi, Qacarlar dövlətinin demokratikləşməsi, ingilis və rus boyunduruğundan xilas olması idi. Vidadi Mustafayev yazır: “Demokratlar üçün spesfik milli mənfəət müstəqil önəmə sahib deyildi, onların mübarizəsi İranın müstəqilliyi və torpaq bütövlüyünün müdafiəsinə, vilayətdə (əyalətdə) konstitusiyalı idarəetmə şəklinin queulmasına, Azərbaycanda istiqrarın hakim olmasına, tərəfsiz İranda (xüsusilə də Azərbaycanda) düşmən tərəflərin hərbi fəaliyyətlərinin, Azərbaycanın qərbində türklərlə asurilər arasında yaşanan çatışmaların təxribatının ortadan qaldırlmasına yönəlmişdi”.[554] N.Nəsibli də hesab edir ki, Xiyabani və onun lideri olduğu ADP bəyan etdikləri yeniləş.mə fəlsəfəsinə uyğun olaraq daha çox İranın modernləşməsinə, demokratikləşməsinə İngiltərnin müstəmləkəçiliyindən qurtulmasına və bütün bunlarla yanaşı Azərbaycanın da muxtariyyat əldə etməsinə çalışmışdır.[555]

Xiyabaninin başçılıq etdiyi Milli hökumətə “Azadistan” adı verməsi də birmənalı qarşılanmamışdır. Bəzi tədqiqatçılara görə, onun Azərbaycan əyalətini “Azadistan” (“Azadllıq ölkəsi”) adlandırmasına səbəb quzey Azərbaycandakı Azərbaycan Cümhuriyyətinin varlığı olmuşdur. Yəni Xiyabani artıq dünyada Azərbaycan adlı bir dövlət olduğu üçün, Milli hökumətə “Azadistan” adını vermişdir. Xiyabaninin tədqiqatçılarından Şövkət Tağıyeva hesab edir ki, o dövrdə Azərbaycan Cümhuriyyəti rəhbərliyinin Güney

---

553 Mədətli Eynulla. İranda Azərbaycan tarixi məsələləri. Bakı, “Turxan NPB”, 2020, s.257

554 Mustafayev V. Cənubi Azərbaycanda milli şüur (XX əsrin birinci yarısı). Bakı, Əbilov, Zeynalov və oğulları, 1998, s.76

555 Nesibli Nesib. Azerbaycan tarihi: Millet-Devlet-Siyaset. Ankara, Altınordu yayınları, 2019, s.505

Azərbaycanla birləşmək niyyətinə ADF və onun lideri Xiyabaninin münasibəti mənfi olmuşdur.[556]

Azərbaycan xalqının milli azadlığı üçün, Xiyabani Azərbaycan türkcəsinin inkişafına da xüsusi diqqət yetirirdi. O, bir lider kimi çıxışlarını əsasən Azərbaycan türkcəsində edir, bir növ başqalarına da örnək olurdu. Onun məqsədi türk dilinin nüfuzunu qoruyub saxlayıb, yəni farslaşdırma siyasətindən uzaqlaşdırmaq idi. Ona görə də, Xiyabani Azərbaycan Demokrat Firqəsinin (ADF) yığıncaqlarında, mitinqlərdə türk dilində danışır və başqalarını da buna məcbur edirdi. Ancaq türk olmalarına baxmayaraq "tənqidiyun"çulardan Əhməd Kəsrəvi, Seyid Əl Mühəqqiq kimi iranpərəstlər tapılırdı ki, türk dilinin inkişafına qarşı çıxırdı. Onlar Xiyabaninin bir müddət sürgündə olmasından istifadə edərək partiya iclaslarını fars dilində aparır, Azərbaycanda fars dilini inkişaf etdiriməyə çalşırdılar. Xiyabani sürgündən qayıtdıqdan sonra onların bu əməllərinə ciddi şəkildə etiraz etmişdir.[557]

Eldar Qaradağlı hesab edir ki, Xiyabani siyasi lider olmaqdan daha çox, romantik demokrat olub: "O sanki Avropada yaşayırmış kimi, açıq mitinqlər keçirir, siyasi ədəbiyyat yaradır, milləti demokrat olmağa, abrış və hüzur içində yaşamağa çağırırdı. Böyük Mücahid, mürtəcelər qarşısında böyük kütlə birliyi yaratmaq, milli və ya təcəddüd ordusu qurmaq, soydaş ittifaqlara açıq baxmaq yerinə, təməlsiz siyasi hakimiyyət yaratmağa üstünlük verərək bu dəfə atris Lomombo taleyini Azərbaycanda yaşayarkən, Xiyabani də, inandığı yalançı demokratlar - əslində irqçi farslar tərəfindən namərdcəsinə qətlə yetirildi".[558] E.Qaradağlıya görə Xiyabani hərəkatının zəif tərəfləri arasında türklük düşüncəsindən xeyli dərəcədə uzaq olması, Təbrizlə məhdudlaşması, Azərbaycan adını Azadistanla əvəz etməsi, Türkiyədən uzanan əlləri, yəni yardım təklifini geri çevirməsi və digər məsələlər olmuşdur.[559]

Xiyabaninin başqa bir tədqiqatçısı prof. Vüqar Əhməd isə hesab edir ki, Şeyx Məhəmməd Sovet Rusiyasının qurucusu

---

[556] Azadlıq uğrunda mübarizə tariximizdən: Xiyabani hərəkatı-90. Bakı, "Bakı çap evi", 2011, s.52-53

[557] Yenə orada, s.42

[558] Qaradağlı E.Azərbaycan mərkəzli türkçü düşüncə. İstanbul,ÇAV yayınları,2012, s.112

[559] Yenə orada, s.112-113

V.İ.Leninə və Qırmızı Orduya müsbət meyil bəsləmiş, Azərbaycan Cümhuriyyəti və onun liderlərinə isə hüsn-rəğbət göstərməmişdir: "Tarixi mənbələr göstərir ki, Xiyabaninin "Azərbaycan" adının "Azadistan"a çevirməsinin səbəbi məhz bu olmuşdur. Onun Quzey Azərbaycanın 1918-ci il may ayının 28-də elan olunan müstəqillyinə qeyri-səmimi münasibəti, onun Quzey Azərbaycanı "XI qızıl ordu" işğal edənə qədər, Quzey Azərbaycanla bütün əlaqələrinin kəsilməsinə səbəb olmuşdu. Xiyabaninin "Turançılıq ideyası"na da münasibəti müsbət olmamışdır. Lakin Nəriman Nərimanov kimi, Xiyabani də sonradan Leninin və bolşeviklərin riyakarlığını görüb peşimançılıq çəkmişdir".[560]

Prof. Cəmil Həsənli isə bu barədə bir qədər fərqli fikir yürüdərək hesab edir ki, Quzey Azərbaycanın zorla sovetləşməsinin gedişində Rusiya bolşeviklərinin ölkənin müstəqilliyinə məhəl qoymaması Xiyabanini ehtiyatlı hərəkət etməyə vadar etmişdi. Belə ki, rus bolşeviklərin Quzey Azərbaycanda, Gilanda işğalçılıq siyasəti yürütdüyü üzə çıxınca Xiyabani Sovet Rusiyasının yardımlarının təmannasız ola bilməsinə şübhələri artmağa başladı. Ona görə də, o, Sovet Rusiyasının yardımlarından imtina edib, "hərəkatın ilkin mərhələsində kiçik hallar istisna olmaqla, Ş.M.Xiyabani bolşevizmə qarşı barışmaz mövqe tutub". [561]

V.Əhmədin də qeyd etdiyi kimi, Nəriman Nərimanovun timsalında Sovet Rusiyasına başqa dövlətlərdən çox ümid bəsləyən Xiyabani, rəsmi Moskvanın da işğalçılıq siyasətini (buna ən bariz örnək doğma Azərbaycan Cümhriyyətinin işğalı idi) açıq şəkildə gördükdən sonra rus bolşevizminə ümidləri xeyli dərəcədə azalmışdır. Ancaq bu heç də, Xiyabaninin milli-demokrat əqidəsindən əl çəkməsi də ola bilməzdi. Hər halda onun lideri olduğu ADF-nin məramnaməsində sosial-demokrat, liberal-demokrat prinsiplər də öz əksini tapmışdır ki, ancaq onlar daha çox demokratlar, ya da milli-demokratlar kimi tanınırdılar. Artıq milli-demokratlar isə başda

---

[560] Əhməd Vüqar. Şeyx Məhəmməd Xiyabani (həyatı, mühiti və ədəbi fəaliyyəti). Bakı, "Müəllim", 2010, s.52-53

[561] Həsənli Cəmil. Sovet dövründə Azərbaycanın xarici siyasəti (1920-1939). Bakı, "Adiloğlu", 2012, s.106

Xiyabani olmaqla, rus bolşevizminin iç üzünü daha real şəkildə gördükdən sonra onlarla da əlaqələrini kəsmişdilər.

Nəsib Nəsibli də yazır ki, əvvəllər, hətta üsyanın ilk aylarında Rusiyada davam edən prosesi önəmli hesab edir, bolşeviklərlə iş birlyindən çəkinməyən Xiyabani daha çox Gilanda bolşeviklərin terror və talanlarından sonra 1920-ci ilin avqustunda "Yuq Rossii" qəzetinə verdiyi müsahibəsində Rus bolşevizmini Çarizmin digər üzü kimi dəyərləndirmişdir.[562]

Güney Azərbaycanda yaranan Milli hökumətə "Azadistan" adının verilməsi məsələsinə gəlincə, C.Həsənli onu da belə izah edir: "Xiyabaninin silahdaşlarından olan İsmayıl Əmir Xizinin təklifi ilə yeni yaranmış dövlətin adını "Azadistan" qoydular. Əmir Xizi məsləhət gördü ki, Azərbaycan məşrutə yolunda çox səylər və İrana azadlıq gətirdiyindən, dünyada artıq Azərbaycan adlı dövlət olduğundan milli azadlığa qovuşmuş ölkənin adını "Azadistan" qoysunlar. Xiyabani bu fikri qəbul etdi".[563]

Doğrudan da, Xiyabani Əmir Xizinin bu məsləhətindən sonra demişdir: "Azərbaycanın adını Azadistana dəyişərək, bu gündən bu adı rəsmi ad kimi elan edirik".[564] Xiyabaninin Azərbaycan Cümhuriyyətinə olan mövqeyini isə C.Həsənli belə izah edir ki, onun Quzey Azərbaycana münasibətdə ehtiyatlı mövqeyi hərəkatın ilk dövrlərində rəsmi Bakının ingilislərin təsirində olması, sonrakı dövrdə isə Sovet Rusiyası tərəfindən işğal olunması ilə bağlı idi. Başqa sözlə, Xiyabani istər İngiltərə, istərsə də Rusiya tərəfindəın olsun, bütövlükdə xarici müdaxilənin əleyhinə olub.[565] Tarixçi alim T.Svyatoçovski də yazır ki, Azərbaycan Cümhuriyyətinin Sovet Rusiyası tərəfindən işğalı Xiyabaniyə çox pis təsir göstərmişdir.[566]

---

562 Nesibli, Nesib. Azerbaycan tarihi: Millet-Devlet-Siyaset. Ankara, Altınordu yayınları, 2019, s.504

563 Həsənli Cəmil. Sovet dövründə Azərbaycanın xarici siyasəti (1920-1939). Bakı, "Adiloğlu", 2012, s.107

564 Kəsrəvi, S.Əhməd. Tarix-e hijdahsale-ye Azərbaycan. Tehran, 1353/1974, s.873

565 Həsənli Cəmil. Sovet dövründə Azərbaycanın xarici siyasəti (1920-1939). Bakı, "Adiloğlu", 2012, s.107

566 Svyatoçovski Tadeuş. Rusiya və Azərbaycan. Sərhədyanı bölgə keçid dövründə. Bakı, "Xəzər Universiteti" nəşrş., 2000, s.131-132

Bizcə də, Xiyabaninin “Azadistan” adının üzərində dayanmasında artıq Azərbaycan adlı dövlətin mövcudluğu mühüm rol oynamışdır. Həmin Azərbaycan Cümhuriyyəti adlı dövlətlə yaxından münasibətlər qura bilməməsində də, bir tərəfdən İngiltərənin, o biri tərəfdən Sovet Rusiaysının imperalizm siyasəti öz təsirini göstərmişdir. Əlbəttə, bu heç də Xiyabaniyə tamamilə haqq qazandırmaq anlamına da gəlməməlidir. Ancaq dövrün şərtlərini və bölgənin xaotik durumunu da nəzərə almamaq mümkün deyildir. Ümumlikdə, Xiyabaninin Qacarlar dövləti daxilində “Azadistan” adlı muxtariyyət qurması çox da qeyri-adi deyildir. Çünki burada əsas məqsəd çökməkdə olan Qacarlar dövlətində “Azadistan” adlı muxtar bir qurum yaratmaqla, bütövlükdə ölkədə ədalətliliyi, hüquq bərabərliyini bərpa etmək idi.

Xiyabanin ictimai-fəlsəfi, sosial-siyasi və dini fəlsəfi görüşləri ilə bağlı düşüncələrimizi yekunlaşdıraraq, hesab edirik ki, o, öz dövrünün sözün həqiqi mənasında müdrik bir şəxsiyyəti olmuşdur. Xiyabani daha çox fərd və cəmiyyətin bir-birinə bağlılığı, yəni ayrı-ayrı fərdlərin kollektiv halda birləşib ümumi ruhu ifadə etməsi fəlsəfəsi üzərində çalışmışdır. Onun bu fəlsəfəsinə görə, fərdlər daima “xalqın vicdanı” olamldır ki, xalq köləliyə və səfalətə sürüklənməsin. Bu anlamda “xalqın vicdanı”nı hər daim ayaq üstə tutmaq üçün, yeri gələndə onun eyiblərini göstərməyi də bacarmaq lazımdır. Bu o anlama gəlir ki, hər hansı bir xalqın eyiblərini, nöqsanlarını göstərmək onu aşağılamaq niyyəti ilə də, ya da onu yüksəklərə qaldırmaq üçün də istifadə oluna bilər. Xiyabaninin fəlsəfəsində isə fərdin hər cür qorxunu və köləliyi içində öldürüb, cəsarətlə və igidliklə millət, vətən yolunda özünü şəhid etmək əsas yet tutmuşdur. O, özü də məhz bu fəlsəfənin bariz daşıyıcısı kimi vətən və millətin azadlığı uğrunda şəhid olmuşdur.

# MİRZƏ TAĞIXAN RƏFƏT

**Həyat və yaradıclığı.** Təbrizdə dünyaya gələn Mirzə Tağıxan Rəfət Təbrizi (1889/90-1921) ilk təhsilini burada aldıqdan sonra atası Ağa Məhəmməd Təbrizi onu İstanbula göndərmişdir. İstanbulda ana dili türk dili ilə yanaşı fars və fransız dillərində təhsil aldıqdan sonra Rəfət Trabzonda (Türkiyə) Naseri məktəbinin əvvəlcə fransız dili müəllimi, daha sonra da müdiri olmuşdu. O, Trabzonda yaşayarkən "Bir nəfər iranlı" imzası ilə Trabzondakı fransızdilli "L'Orient" ("Şərq") qəzetində ədəbi və siyasi məqalələr ilə cıxış etmişdir. Bu səbəblə Rəfət Trabzonda fransız konsulluğu tərəfindən Fransa hökumətinin fəxri medal ilə təltif edilmişdi. Bu məsələ ilə bağlı türkiyəli araşdırmaçı Enver Uzun yazır: "Trabzon'da kaldığı 2-3 yıllık bir süre zarfında Tağı Rıfet Fransız Sörler Mektebi'nde ve Ferör Muallimin okullarında görev yapmış ve Fransadaki gazetelere değil, Trabzon'da Osman Nuri Eyüboğlunun Dabağhane başındaki İkbal Matbaası'nda Fransızca çıkarılmakta olan "L'Orient (Doğu)" gazetesinde yazmış olmalıdır".[567]

Əhməd Kəsrəvi "Şeyx Məhəmməd Xiyabanı üsyanı" kitabında yazır ki, Rəfətin atası Ağa Məhəmməd Trabzon "iranlıları"ndan olub, altı, ya da yeddi oğlu varmış: "Onlardan iki böyük oğulu-Mizə Möhsünxan və Mirzə Təqixan Trabzondakı katolik missionerlərinin açdığı məktəbdə dərs oxuyub diplom almışdılar. Bu iki qardaş 1916-di ildə Təbrizə gəlir. Bir yaxın qohumlarının yardımı ilə Mirzə Möhsünxan "Firdovs" mədrəsəsində müdir, Mirzə Tağıxan da orada müəllim işləyib".[568]

1916-cı ildə Trabzonun çar Rusiyası tərəfindən işğalından sonra Rəfət Təbrizə qayıtmış və milli demokratik hərəkatda fəal iştirak etmişdir. O, əvvəlcə İran Demokrat Partiyasının (İDP) üzvü olmuş, daha sonra da İDP-nin Təbriz Komitəsi əsasında yaranmış Azərbaycan Demokrat Firqəsinin (ADF) qurucularından və ideoloqlarından biri olmuşdur. Gənc yaşlarından Azərbaycan milli hərəkatına qatılan Rəfət Xiyabani ilə birlikdə ADF-nin "sol

[567]Uzun Enver. Mirza Tagı Rıfet han, Trabzon, "Eser Ofset", 2017, s.45
[568]Kəsrəvi Əhməd. Şeyx Məhəmməd Xiyabanı üsyanı. Tehran, "Mərkəz", 1998, s.52

mərkəzçi” “təcəddud”yun qrupunu təmsil etmişdir.

Xiyabaninin nəvəsi Fəraməz Xiyabani Əsl babası haqqında xatirələrində yazır ki, Xiyabani, Əbülqasim Füyuzat, Fərivərd Abdullazadə, İbrahim Əmirxızı və Tağı xan Rəfət birlikdə istibdad əleyhinə mübarizədə insanları səfərbər etmək, konstitusiyanın tam şəkildə icra edilməsinə, demokratiya, ədalət və hüquq bərabərliyinə nail olmaq üçün az sonra ADF-nin orqanı olacaq “Təcəddüd” adlı qəzetini nəşr etməyi qərara alırlar.[569]

İdeya rəhbəri Ş.M.Xiyabani olan “Təcəddüd” qəzetinin birinci sayı 1917-ci il aprelin 9-da çıxır. Mirzə Təqixan Rəfətin təşəbbüsü ilə fransızca renessans sözünün ərəb dilində qarşılığı olan “Təcəddüd” ifadəsi (yeniləşmə) qəzetə ad kimi seçilir. “Qəzetin 1-13-cü saylarının mühərrirləri Əbülqasim Füyuzat və Əbülfət xan Ələvi, 59-86-cı saylarının müdiri və baş redaktoru Mirzə Təqixan Rəfət, 87-202-ci sayları müdiri və redaktoru Xiyabani olur”.[570]

1917-ci ilin aprelində İDP-nin Azərbaycan Vilayət Komitəsinin təsis toplantısı keçirilmiş, Azərbaycanın bölgələrindən gəlmiş 480 nəfər bu toplatıda iştirak etmişdir. Bir neçə gün sürən müzakirədən sonra konfransda yeddi maddəlik bir qərar qəbul edilmişdir. Toplantıda Azərbaycan Demokrat Firqəsi (ADF) yaradıldığı və rəhbərliyinə də Ş.M.Xiyabani, Mirzə İsmayıl Nobəri, Məhəmmədəli Badamçı, Mirzə Tağıxan Rəfət, Əhməd Kəsrəvi, Doktor Zeynalabdinxan, Sultanzadə, Zeynalabdin Qiyami, Nurulla xan Yekani, Mirzə Əli Heyət və başqalarının seçildiyi elan edilmişdir.

Mirzə Tağıxan Rəfət həm partiyada yenilikçilik tərəfdarı kimi fəal çalışır, həm də mitinqlərdə Xiyabaninin və başqalarını türkcə xalqa müraciətlərindən parçaları fars dilinə çevirərək “Təcəddüd” qəzetində çap edirdi.

Urmiya və Salmas bölgəsinin əhalisi erməni-aysori “xristian ordusu” tərəfindən qətliamlara məruz qaldığı bir vaxtda İhsan paşanın rəhbərlik etdiyi Osmanlı əsgəri birlikləri 1918-ci ilin iyununda Güney Azərbaycana daxil olaraq bu qırğınların qarşısını

---

[569]Xiyabani Əsl Fəraməz. Şeyxin nəvəsi babası haqqında. Azadlıq uğrunda mübarizə tariximizdən: Xiyabani hərəkatı-90. Bakı, “Bakı Çap Evi”, 2011 s.218

[570]Mirzəyeva Cəmalə. Təcəddüd qəzeti Xiyabani hərəkatının ideoloji silahı kimi, Azadlıq uğrunda mübarizə tariximizdən: Xiyabani hərəkatı-90. Bakı, “Bakı Çap Evi”, 2011, s.204

almışdır. Xoyu mühasirəyə almış Andranik Ozanyanın rəhbərlik etdiyi erməni-aysori ordusu ilk döyüşdəcə məğlub olub geri çəkilmişdir. 1918-ci il sentyabrın 25-də xalqın arzusu ilə Osmanlı əsgəri birlikləri Əli İhsan Paşanın komutanlığı ilə Təbrizə daxil olur. Güney Azərbaycanın idarəedilməsini təşkil etmək üçün "İttifaqı-islam" deyilən bir təşkilat qurulur. Bu təşkilatın qurucuları sırasında Mirzə Tağı xan da olur. Mirzə Tağı xan həm də Osmanlı ordusunda müşavirlik (08.06-01.10.1918) vəzifəsini yerinə yetirir. Eyni zamanda, Mirzə Tağı xan Azərbaycan valisi Nizamul-səltənənin də istəyi ilə Türk dilində "Azərbaycan" adlı qəzet də nəşr etdirir.[571] Bu zaman "Tənqidiyyun" qrupunun üzvləri durmadan Osmanlıların əleyhinə təbliğat aparır, onları işğalçı adlandırır, təbliğatlarının fanatiklər arasında daha da təsirli etmək üçün təqiqət ayrı-seçkiliyini körükləyirdilər. Hətta, Mirzə Tağıxan Rəfəti Osmanlıya yaltaqlıq etməkdə, Xəlil Paşanın istəyi ilə "Azərbaycan" qəzetini Türk dilində çıxarmaqla Osmanlı siyasətinə qulluq etməkdə suçlayırdılar.[572]

1918-1919-cu illərin başlarında Rəfət "Təcəddüd" qəzetinin 59-86-cı saylarına redaktorluq etməklə yanaşı, ADF Gənclər təşkilatının "Azadistan" adlı elmi, nəzəri-siyasi jurnalını da ən ağır və gərgin günlərdə nəşr etdirə bilmişdir. Milli azadlıq, dil, ədəbiyyat məsələlərini işıqlandıran jurnalın ayda iki sayının çap edilməsi planlaşdırılsa da, cəmi 4 sayı işıq üzü görmüşdür.

1920-ci ilin iyunun da elan edilmiş "Azadistan" adlı muxtar dövlət süquta uğradıqdan sonra, yəni 1920-ci ilin sentyabrında o da, Xiyabani kimi öldürülmüşdü.

**Milli-demokratik və fəlsəfi maarifçilik.** Xiyabaninin yaxın silahdaşı hesab olunan Rəfət bütün sahələrdə, o cümlədən mədəniyyətdə, fəlsəfədə və ədəbiyatda da yeniləşmənin tərəfdarı kimi tanınmışdır. Onun fikrincə, yenilikçilərin istədikləri düşüncə və incəsənət dunyasında, ədəbiyyatda yeni bir eranı yaratmaqla bağlıdır. Rəfətə görə, bu gün vacib olan köhnəlmiş lakin, hələ də üstün olan statusu dəyişərək yeni müasir status ilə əvəz etməkdir. Bunun üçün də ən güclü vasitə dildir. Çünki dil insanın fikir və hisslərini ifadə etmək üçün bir alətdir. O, "Modernistlərin bəyanatında" fikrini belə

---

[571]Uzun Enver. Mirza Tagı Rıfet han, Trabzon, "Eser Ofset", 2017, s.19-20
[572]Yenə orada, s.21

ifadə edirdi: “Əgər biz iddia edə biləriksə ki, insan fikirləri və hissləri eralar ərzində hec bir dəyişikliyi qəbul etmir, onda dil dəyişikliyi də yararsız ola bilər. Aydındır ki, intellektual və perspektual müasirlik ədəbi müasirliyi tələb edir”.[573] Rəfət daha sonra yazırdı: “Bu açıq və aydın bir həqiqətdir ki, yeni fikir və yeni hisslər ədəbiyyatda da yeniləşmə tələb edir. Daha doğrusu, ədəbi yeniləşmə, yəni təfəkkür və deyim tərzində yeniləşmə fikirlərin və hisslərin yeniliyini göstərən yeganə sübutdur”.

Qacarlar dövlətində “yeni şeirin öncülü”, yeni ədəbi-fəlsəfi baxışların nümayəndəsi hesab olunan Rəfət Türkiyədə yaranmış “Sərvəti-finun”nun Azərbaycandakı davamçılarından da biri idi. O da, “Sərvəti-finun”çular kimi ədəbiyyatı həm forma, həm də məzmun cəhətdən yeniləşdirmək, dili sadələşdirmək, ənənəvi Şərq motivlərini və poetik sistemini dəyişdirmək, Qərb mədəniyyət usulunu təbliğ etmək yolunu tutmuşdu. “Təcəddüd”, “Azərbaycan” qəzetlərinin, “Azadistan” jurnalının əsas yazarlarından biri kimi Rəfət bu mətbu orqanlardakı məqalələrində yeni həyatın tələblərini ifadə etməyə çalışmışdır. Onun ilk yazılarında demokratik əhval-ruhiyyə, vətənpərvərlik və xəlqilik əsas yer tutmuşdur.[574] Bu baxımdan Rəfət çağdaş “İran” poeziyasının ilk şairi kimi də tanınmışdır. Eyni zamanda, o H.Sahir, Ə.Xürrəm, Y.M.Daneş və başqa şairlərin və yazıçıların ardıcılları olduqları "Rəfət Məktəbi" adlandırılan ədəbi məktəbin yaradıcısıdır.

Cəmalə Mirzəyeva yazır ki, ədəbi aləmdə bir-birinə qarşı mübarizə aparan iki tərəf meydana gəlmişdi. Bu mübarizədə ənənə tərəfdarları klassik üslubdan uzaqlaşmağı qəbul etmir, yeni üslubda yaranmaqda olan ədəbiyyatı, xüsusilə də mənzum ədəbiyyatı tənqid edirdilər. Klassik ədəbiyyat tərəfdarlarının ən nüfuzlu təşkilatı Məliküşşüəra Baharın yaratdığı və başçılıq etdiyi “Daneşkədə” ədəbi məclisi idi. “Təcəddüd” qəzeti ədəbiyyatda da yeniləşmə tərəfdarı kimi çıxış edərək köhnəliyi qəbul etmir, ənənədən ayrıla bilməyənləri şiddətli tənqid edirdi. “Təcəddüd” qəzetində ədəbi tənqidlə bağlı əsas məqalələr Təqi Rəfətə aid idi. O, fars, türk,

[573] Məmmədli Pəvanə. Cənubi Azərbaycan: ədəbi şəxsiyyətlər, portretlər (I Hissə). Bakı, Sabah, 2015, s.22

[574] Cənubi Azərbaycan ədəbiyyatı antologiyası.4 cilddə, 2.cild. Bakı, Elm,1983, s.162-163

fransız dillərində şeirlər yazıb, "İran" ədəbiyyatında "yeni şeir"-in əsasını qoyanlardan biri olub.[575] [576]

P.Məmmədlinin fikrincə, "Sərvəti-fünün" ədəbi məktəbinin Qacarlar dövlətində davamçısı olan Tağıxan Rəfət poeziyanı həm forma, həm də məzmun cəhətdən yeniləşdirmək, dili sadələşdirmək, Şərq motivlərini və poetik sistemini dəyişdirmək kimi ədəbi məramı qarşısına məqsəd qoymuşdur. Çalışdığı "Təcəddüd" qəzetində özünə həmfikir və məsləkdaşlar tapmışdır... Bununla ədəbiyyatın həm forma, həm də məzmununda təcəddüd yaratmış, sərbəst şeirin əsasını qoymuşdur. O, "Təcəddüd"də, "Azadistan" jurnalında açıq imza ilə və ya "Femina" təxəllüsü ilə dərc etdirdiyi şeirləri, eyni zamanda dərin məzmunlu məqalələri ilə milli-azadlıq hərəkatına yaxından kömək göstərmişdir.[577]

Qeyd edək ki, bəzi fars tədqiqatçıları çağdaş ruhlu, yenilikçi ədəbiyyatın banisi kimi Nima Yuşiçin adını çəkirlər. Halbuki ondan əvvəl Tağıi Rəfət, Şəms Kəsmai kimi azərbaycanlı-türk ziyalılar yenilikçi ruhlu ədəbiyyatın banisi idilər.[578] Maraqlıdır ki, həmin dövrdə Berlində çıxan "Kavə" qəzeti və onun baş yazarı S.H.Tağızadə isə Tağıxan Rəfəti təniqd edən yazılar yazmışdır. Tağızadənin yanı sıra Mahmud Qənizadə, Hüseyn Kazımzadə, İrəc Mirzə və başaqaları da öz yazılarında Rəfəti tənqid etmiş, onun şeirlərini bəsitlikdə, mənasızlıqda ittiham etmişlər.[579]

İslam Qəribli yazır ki, Rəfət özünü ictimai mövzular aləmində daha sərbəst hiss edirdi: "Tanış ola bildiyimiz şeirlərində biz onu, əsasən, cəmiyyətdən, onun insanı əzən qanunlarından, daha doğrusu qanunsuzluqlarından narazı bir şəxs kimi görürük. Bu narazılıq heç də bədbinlik və pessimizm notları ilə müşahidə olunmur. Şair xalqın parlaq səhərini mübarizədə gördüyündən vətən övladlarına məyus

---

[575]Mirzəyeva C. Təcəddüd qəzeti Xiyabani hərəkatının ideoloji silahı kimi, Azadlıq uğrunda mübarizə tariximizdən: Xiyabani hərəkatı-90. Bakı, 2011, s.204

[576]Cənubi Azərbaycan ədəbiyyatı antologiyası.4 cilddə, 2.cild. Bakı,Elm, 1983, s.162-163

[577] Məmmədli Pərvanə. Şeyx Məhəmməd Xiyabaninin publisistikası, Azadlıq uğrunda mübarizə tariximizdən: Xiyabani hərəkatı-90. Bakı, "Bakı Çap Evi", 2011 s.186, 184

[578] Məmmədli Pərvanə. Cənubi Azərbaycan: ədəbi şəxsiyyətlər, portretlər (I Hissə). Bakı, Sabah, 2015, s.23-24

[579] http://www.tabrizinfo.com/tabriz/mashahir/rafaat.htm

olmamağa, öz haqqını müdafiə edərək onu qazanmağa çağırır”.[580]

“Azadistan”da dərc olunan yazılarının birində Rəfət gənclərə üzünü tutaraq yazırdı: “Tam sərbəstliklə düşünün və özünüzü hiss edin. Fikir və suallarınız yazın... Heç vaxt azadlıq hissinizi itirməyin. Başqalarını təqlid edərkən ifrata varmayın və mümkün qədər özünüz olun. Tənqid etməkdən qorxmayın, ancaq heç bir səbəb olmadan da yersiz tənqid etməyin. Ani, şiddətli bir hücum qarşısında da ilk düşüncələrinizdən heç vaxt qorxub vaz keçməyin”.[581]

**İctimai-siyasi görüşləri.** Rəfət, ictimai-siyasi görüşlərində də yenilikçi baxılarıyla, inqilabçılığı ilə fərqlənmişdir. “Təcəddüd” qəzetinin 43-cü sayında (9 zilhiccə 1335-ci il, hicri 26 sentyabr 1917-ci il) o, yazırdı ki, hər hansı bir cəmiyyətin həyatımda ən mühüm anlardan biri seçkilərdir. Hər bir vətəndaş səsinə sahib çıxmalıdır ki, həmin cəmiyyətdə demokratikləşmə mümkün olsun. Rəfət yazırdı: “Verməli olduğumuz səs bizim azadlığımızı məhdudlaşdıra bilər. Yəni səsimizi verdiyimiz andan etibarən yaydan çıxan ox kimi nəzarət əlimizdən çıxacaq, azadlığımız və haqqımızı itirmiş olacağıq. Biz, sadəcə səs verməden bir saniyə öncə və səs verdiyimiz ana qədər keçən qısa müddət ərzində sərbəstik. Bu iki saniyə arasındakı zaman bizim sərbəstliyimizin, azadlığımızın qısa ömrüdür. Bu qısa zamanın tək bir meyvəsi bizim səsimizdir. Dəyərli dostlarım, ölüm və qalım bu bir tək səsə bağlıdır. Vətəndaşlar, oyaq olmaq gərəkdir, bu məsələni aydın qavramaq gərəkdir”.[582] Bir sözlə, onun fikrincə, insan öz fərqli fikrini, rəyini deməyi də, seçilib və seçmək hüququnu da bilməlidir. Əks təqdirdə istəmədiyimiz şəxsə məcburi olaraq verdiyimiz rəy bizim azadlığımızın sərhədini məhdudlaşdıracaq, daha sonra azadlığımız da əlmizdən alacaqdır.[583]

O, hesab edirdi ki, insan öz şüurunda dəyişikliklər etməyi bacarmalı, gerilikçi qalıb daima keçmişə qapanmamalıdır. O, “Ey, iranlı cavan” şeirində yazırdı:

---

[580] Qəribli İslam. Ş.M.Xiyabani hərəkatı dövründə Cənubi Azərbaycanda ədəbi mühit. Azadlıq uğrunda mübarizə tariximizdən: Xiyabani hərəkatı-90. Bakı, 2011 s.152

[581] http://www.tabrizinfo.com/tabriz/mashahir/rafaat.htm

[582] Azeri Ali. Azadistan devleti ve Şeyh Muhammed Hıyabani(1918-1920), (Yayına hazırlayan Seyfeddin Altaylı). Ankara, “Elila Elektronik İletişim Ajansı”, 2004, s.80

[583] Məmmədli Pərvanə. Cənubi Azərbaycan: ədəbi şəxsiyyətlər, portretlər (I Hissə). Bakı, Sabah, 2015, s.23

*Qalx yerindən vətən oğlu, nəzr et asimana,*
*Üfüqün rəngi günəşdi, nevə gör döndü qana.*
*Qalx gülər üzlə salamla açılan al səhəri,*
*Qalx ki iş vaxtı çatıb gözləməyin ol səhəri.*
*Qalx iri addım ilə get irəli, başla işə,*
*Məyus olmaq səni bil məhv edəcəkdir həmişə.*
*Bil döyüş gözləyir indi yolunu öndə sənin,*
*Sabaha səsləyir hər an səni doğma Vətənin...*[584]

1918-ci ilin martında Urmiyada ingilis və rus hərbçilərinin yardımı ilə xristian aysori-erməni qüvvələrininn müsəlman türkləri qırmasından təsirlənən Rəfət "Urmu yandı" şeirini yazaraq "Təcəddüd" qəzetində çap etdirmişdir:

*Bundan yaxşı günlər gözləyirdi Urmu.*
*Urmu Rus inqilabını gördükdə,*
*Ürəyində çırpınan bağırtını içəri qaytardı*
*Yorğun köksündə qışqırtını udarkən,*
*Belə sandı:*
*Yenə də bağışlamalıdır köhnə düşmanı*
*Yazıqlar olsun, kişilik itib batdı!*
*Urmu yandı.*[585]

Rəfət inqilabçı, yenilikçi ruhlu milli sosial-demokrat olmuşdur. Onun "Təcəddüd" qəzetinin 24-cü sayında nəşr olunmuş "Yaşasın müsavat" şerində də milli sosial-demokrat tərəfi özünü daha çox büruzə vermişdir. O, yazırdı:

*Yenə yetdi iqbalımız,*
*Hasil oldu amalımız,*
*Nə aydın istiqbalımız,*
*Yaşasın İstiqlalımız,*
*Yaşasın Hürriyyət,*
*Yaşasın Müsavat!*
*Fexr-ü şərəf misdağımız,*
*Rövşen hamı afağımız,*
*Azad olsun torpağımız,*
*Yaylağımız, qışlağımız,*

---

[584]Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. 4 cilddə, 2-ci cild. Bakı,"Elm, 1983, s.164
[585]Kəsrəvi Əhməd. Şeyx Məhəmməd Xiyabanı üsyanı. Tehran, "Mərkəz", 1998, s.54

*Yaşasın Hürriyyət,*
*Yaşasın Müsavat!*
*Millət hamı qardaşımız,*
*Fəth-ü zəfər yoldaşımız,*
*Öz əlimiz, öz başımız,*
*Torpağımız, dağ daşımız,*
*Yaşasın Hürriyyət,*
*Yaşasın Müsavat!*
*Qardaşlarım qeyrət edin,*
*Təhsil üçün himmət edin,*
*Nə vaxtadək ibrət edin,*
*Kəsb-i şərəf, Rəf'ət edin,*
*Yaşasın Hürriyyət,*
*Yaşasın Müsavat!*

Bizcə, Rəfətin demokrat ruhu sonralar daha çox milli-demokrat yönündə inkişaf etmişdir. Hər halda o, Xiyabani ilə müqayisədə Türk mədəniyyətini, Türk kimliyini çox öndə tutmuş, Azərbaycan türklüyünü müdafiə və təbliğ etmişdir. Hesab edirik ki, onun demokratiyadan milli demokratiyaya daha çox meyil etməsində 1917-ci ilin oktyabrında Rusiyada hakimiyyətə gələn rus bolşeviklərin və onların uzantılarının zaman-zaman Azərbaycan türklüyünə qarşı etdiyi çirkin oyunlar, eyni zamanda digər milltlərə aid "demokrat"ların ikiüzlü əməlləri də mühüm rol oynamışdır. T.Atabəyi yazır ki, Azərbaycanlı demokratları 1917-ci il Rusiya inqilabını alqışlayaraq "öz məmləklətlərində demokratiya uğrunda mübarizə aparmaqla yanaşı, digər millətlərin təməl suverenliyinə hörmət bəsləyərək Rusiyada fəaliyyət göstərən həmin qruplarla" qarşılıqlı dostluq əlaqələri yaratmaq üçün partiyanın əyalət komitəsini təsisi etdilər. Lakin çox keçmir ki, həmin inqilabçıların Araz çayının o biri sahilində həyata keçirdikləri siyasi tədbirlər azərbaycanlı demokratları öz nəhəng qonşuları ilə daha ehtiyatlı və sayıq münasibətlər qurmağa vadar edir.[586]

Araşdırmaçı alim Əli Şamil yazır ki, buna görə də Xiyabani, Tağıxan Rəfət və başqa azərbaycanlı demokratlar marksizm

---

[586]Atabəyi Turac. Azərbaycan: etnik mənsubiyyəti və İranda qüdrət uğrunda mübarizə, Bakı, "Təhsil" nəşriyyatı, 2002, s.72

cərəyanının bolşeviklər adlandırlan qrupun yeritdiyi siyasətə, eləcə də rusların himayəsilə təşkil olunmuş bütün qruplara xoş münasibət bəsləmirdilər: "Çünki bu qrupların tərkibindəkilərin əksəriyyətini ermənilər təşkil edirdilər. Onlar da siyasi mübarizə aparmaq əvəzinə müsəlmanları kütləvi şəkildə qırır, talanlar törədirdilər. Urmiyada, Salmasda törədilən soyqırımları, Qafqazdakı soyqrımından canlarını qurtara bilənlərin Təbrizə, Mərəndə gəlib çıxmaları, bolşeviklərin tez-tez mövqelərini dəyişmələri əhalidə bu qruplara qarşı mənfi münasibət formalaşdırmışdır. Ona görə də Təbrizdə bolşeviklərin bir hissəsi qaçmış, bir hissəsi də "bolşeviklərə kömək edən" Almaniya konsulluğuna sığınmışdı. Təbriz demokratik hökuməti böyük silah və sursat anbarı yerləşən Almaniya konsulluğunu mühasirəyə alaraq bolşeviklərin təslim olmasını tələb edir. Alman konsulluğu buna etiraz etdikdə, ora mühasirəyə alınır. 45 günlük mühasirə qarşılıqlı atışma və Alman konsulunun ölümüylə nəticələnir. Sonda bolşeviklər silahı verməyə və təslim olmağa məcbur qalırlar".[587]

ADF-nin rəhbərliyi başda Xiyabani və Rəfət olmaqla nəinki bolşeviklərlə əməkdaşlıq etməkdən çəkinir, artıq onlara müdaxiləçi kimi baxırdılar. Hətta Cəngəl hərəkatı adı ilə məşhurlaşan, Gilan üsyanının rəhbəri Kuçek Xan Qacarlarda məşrutənin bərpa edilməsi məqsədilə Xiyabaniyə birgə əməkdaşlıq təklif etdikdə Xiyabani ona "Səninlə Vüsuqüddövlə arasında nə fərq var? O, İranı ingilis qüvvələrinin əlilə idarə etmək istəyir, sən isə rusların dəstəyi ilə bu işi həyata keçirmək istəyirsən".[588]

Əli Şamil yazır ki, 1919-cu ilin avqust-sentyabr aylarında Qacarlar dövlətinin Dördüncü Məclisinə seçkilər keçiriləndə Mirzə Tağıxan Rəfət öz namizədliyini verməsə də, ADF-nin liderlərindən biri kimi tez-tez seçicilərlə görüşür, alovlu çıxışlar edir, qəzetdə məqalələr yazaraq seçiciləri demokratlardan olan namizədlərə səs verməyə həvəsləndirir. Aparılan səmərəli təşkilati işlər öz bəhrəsini verir. Təbriz və şəhər ətrafından doqquz deputat yerindən altısını

---

[587]Şamil Əli. Azərbaycan Cümhuriyətinin təsiri ilə yaranmış Azadıstan dövləti və onun ideoloqu Mirzə Təqixan Rəfət. //Azərbaycan Cümhuriyyəti: Tarixi, siyasi və ədəbi-kulturoloji müstəvidə (elmi məqalələr toplusu). Bakı, Nurlar NPM, 2018, s.100-101
[588]Atabəyi Turac. Azərbaycan: etnik mənsubiyyəti və İranda qüdrət uğrunda mübarizə, Bakı, "Təhsil" nəşriyyatı, 2002, s.73

ADF-nın tərəfdarları qazanır.[589]

Ancaq bu dövrdə ingilislər Qacarlar dövlətini də Hindistan kimi, bir müstəmləkəyə çevirmək məqsədi ilə 1919-cu il avqustun 9-da baş nazir Vüsuqüddövlə ilə müqavilə bağlayır və buna etiraz edənlərdən biri də ADF-nin liderlərindən biri olan Rəfət idi. O, Şeyx Məhəmməd Xiyabaninin öndərliyi altında ingilis imperializminə və mərkəzi hökumətin anti-Azərbaycan siyasətinə qarşı 1920-ci ilin 7 aprelində başlayan milli hərəkatda aktiv rol oynamışdır. Həmin günlərdə Rəfət yalnız təşkilati işlərdə, ideya-siyasi mübarizədə Xiyabani ilə çiyin-çiyinə olmaqla qalmır, həm də şeirlərilə üsyan bayrağı qaldırır, xalqı mübarizəyə səsləyirdi:

*Qalx yerindən vətən oğlu, nəzər et asimana,*
*Üfüqün rəngi günəşdi, necə gör döndü qana.*
*Qalx, gülər üzlə salamla açılan al, səhəri,*
*Qalx ki, iş vaxtı çatıb, gözləməyin, ol səhəri.*
*Qalx, iri addım ilə get irəli, başla işə,*
*Məyus olamaq səni bil məhv edəcəkdir həmişə.*
*Bil döyüş gözləyir indi yolunu öndə sənin,*
*Sabaha səsləyir hər an səni doğma Vətənin...*
*Bir təzə fəsil gəlibdir, yeni nəslin baharı,*
*Bağların, bağçaların gör necə artmışdı barı.*
*Qalx ki, xoşbəxtlik özü qarşına gəlmiş gülərək,*
*Qalx, düzəlt qamətini, meydana çıx Rüstəm tək.*
*Zal kimi bağrını qoy kamana, sən oxu at,*
*Səsləyir, bax, səni xoş günlərə indi bu həyat.*[590]

1920-ci ilin iyunun 24-də Ş.M.Xiyabaninin qurduğu Milli Hökumətin Rəyasət Heyətinə 20 nəfər daxil idi ki, onların sırasında Məhəmmədəli Badamçı tacir, Haşim Neysai, Mahmud Əmin mülkədar, Mirzə Təqixan Rəfət, İsmayıl Əmrirxızı, Əbülqasim Füyuzat ziyalı, Nurulla xan Yekani, Nüsrətulla Neysari, Zeynalabdin Qiyami məşrutə inqilabının iştirakçısı və inqilab veteranları var idilər. Təqixan Rəfət ADF və Milli Hökümətdə Xiyabaninin

[589]Şamil Əli. Azərbaycan Cümhuriyətinin təsiri ilə yaranmış Azadıstan dövləti və onun ideoloqu Mirzə Təqixan Rəfət. //Azərbaycan Cümhuriyyəti: Tarixi, siyasi və ədəbi-kulturoloji müstəvidə (elmi məqalələr toplusu). Bakı, Nurlar NPM, 2018, s.102
[590]Yenə orada, s.104

köməkçisi və mədəni- maarif məsələləri üzrə müşaviri vəzifəsini yerinə yetirirdi. O, bu vəzifədə də sonuna qədər qaldı və milli hərəkat yolunda şəhid oldu.

Qeyd edək ki, Rəfət Azərbaycanda qadın azadlığının da qatı tərəfdalarından biri olmuş, "Femina" təxəllüslü yazılarında, məsələn "Qadınlara xitab" və digər şeirlərində onların zülmətdən işığa çıxmasının vacibliyini ifadə etmişdir. O, yazırdı:

*Sənə Zöhrə, Ay, Günəş adı qoydular cahanda,*
*Ancaq özün dünyada bir gün görə bilmədin.*
*Sən bu zülmət ölkədə, bu qaniçən dövranda,*
*Ürəyincə sevinib, bir doyunca gülmədin.*
*O kəslər ki, qarşında diz çöküb səcdə edir,*
*İnanma sən onların eşqinə, ülfətinə.*
*Çöldəki vəhşilər tək, onlar fəqət, ov güdür,*
*Onlar layiq deyildir sənin məhəbbətinə...*[591]

"İran mətbuatının analitik tarixi" kitabında M.Təbatəbai dövrün mədəni mühiti, ədəbiyyatdakı müasirlik səylərindən bəhs edərkən yazırdı: "O (Rəfət-F.Ə), Azərbaycan siyasətinin, ədəbiyyatının ruhundakı müasirliyin İran ədəbiyyatı və siyasətinə keçməsini istəyirdi".[592] Yəhya Arianpura görə, Tağixan Rəfət siyasətlə jurnalistika, ya da siyasət və ədəbiyyat arasında düzgün qurulmayan münasibətlərin qurbanı olmuşdu.[593]

Rəfət bir tərəfdən hər cürə yeniliyə qarşı çıxan mühafizəkarlara, digər tərəfdən isə ifrat yenilikçiləri, liberalistləri tənqid etmişdir. O hesab edirdi ki, həddən artıq mühafizəkarlıq kimi, ifrat müasirləşmək tərəfdarı olmaq da zərərlidir. Deməli, Rəfət bir milli demokrat kimi Azərbaycan milli hərəkatının Türklük ruhunu daha çox ifadə etmişdir. Onun demokratik görüşləri Türk dünyagörüşü ilə daha çox səsləşirdi. Bu anlamda da Xiyabani ilə müqayisədə demokratiya və liberazimə münasibətdə daha çox milli ruhunu ifadə etmişdir.

[591]Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. 4 cilddə, 2-ci cild. Bakı, Elm, 1983, s.163
[592]Bigdeli Əli. Çağdaş İran Tarixində Siyasi Qətliamlar. 1-ci cild. Tehran, Soroush, ilk nəşr, 1377, s.449
[593]**https://bichakmeh.blogsky.com/1386/10/08/post-120/**

## SEYİD CƏFƏR PİŞƏVƏRİ

**Həyat və yaradıcılığı.** Güney Azərbaycanın Xalxal mahalının Zeyvə kəndində doğulan Seyid Cəfər Pişəvərinin (1892-1947) valideynləri 1905-ci ildə Bakıya köçdükləri üçün, o, təhsilini bu şəhərdəki "İttihad" və "Darül-müəllimin" mədrəsələrində almışdır. Pişəvəri özü də, çox keçmədən müəllim olmuş, ərəb, fars dillərindən və İslamın tarixi fənnindən dərs demiş, ilk dövrlərdə maarifçi-demokratizmə meyilli olmuşdur.[594] 1917-ci il fevral burjua inqilabından sonra milli-demokratiya ilə boşevik sosial-demokratiyası arasında tərəddüd edən Pişəvəri Oktyabr iniqlabının da təsiri ilə get gedə milli ideoloq M.Ə. Rəsulzadənin ideyalarından uzaqlaşaraq, başda Nəriman Nərimanov olmaqla sosial-demokratlarla əməkdaşlıq etmişdir. Ə.Rəhimli yazır: "Əvvəllər M.Ə.Rəsulzadənin məqalələrindəki məsləkə köklənən, "Açıq söz" qəzetində yazılarını çap etdirən S.C.Pişəvəri sonrakı illərdə N.Nərimanovun mövqeyinə keçir. İranın azadlıq və qurtuluşu üçün Moskvaya, Sovetlərə ümid bağlayır".[595]

O, Bakıda yayınlanan "Ədalət", "Əncümən", "Həqiqət" və digər qəzet-dərgilərdəki yazılarında sosialist ideyaları təbliğ etmiş, sosial-demokrat yönlü "Ədalət" Partiyasının üzvü olmuşdur.[596] Həmin dövrdə Pişəvəri bir sosial-demokrat olaraq yazırdı: "Mənim xalqımın, vətənimin nicatı və səadəti Rusiya inqilabçılarının istədikləri rejiminin bərqərar edilməsindədir. Rusiyada Leninin iftixarlı zəfər bayrağından başqa ayrı bir bayraq dalğalanarsa İranın istiqlalı və azadlığı həmişə təhlükə qarşısında qalacaqdır".[597]

Pişəvəri 1919-1920-ci illərdə "Ədalət" Partiyasının "Hüriyyət" adlı qəzetinin baş redaktoru vəzifəsində də çalışmışdır. Azərbaycan Cümhuriyyəti Sovet Rusiyası tərəfindən süquta uğradıldıqdan sonra (1920, 27 aprel) "Ədalət" AKP-yə birləşdirilmiş, daha sonra Pişəvəri başda olmaqla "ədalət"çilərdən böyük bir qismi Qacarlarda baş qaldırmış kommunust Cəngəli hərəkatına qoşulmuş, çox keçmədən yeni

[594] Rəhimli Əkrəm. Seyid Cəfər Pişəvəri (Həyatı və ictimai-siyasi fəaliyyəti). Bakı, Nurlar NPM, 2009, s.21-29
[595] Yenə orada, s.32-33
[596] Yenə orada, s.36
[597] İbrahimov T.A. İran Kommunist Partiyasının yaranması. Bakı, Azərnəşr, 1963, s.156

yaradılmış (1920, 9 iyun) Gilan hökumətində vəzifə tutmuşdur.

İKP-nin 1920-ci ilin iyunda Rəştdə keçirilmiş ilk qurltayında Mərkəzi Komitəyə seçilən Pişəvəri Cəngəli hərəkatı uğursuzluğa düçar olduqdan az sonra (1921-ci ilin əvvəlləri) Tehranda "Həqiqət" qəzetinin baş redaktoru kimi fəaliyyət göstərmişdir. O, 1921-1923-cü illərdə "Həqiqət"də dərc olunmuş "İqtisadi əsarət", "Dünya fəhlələrinin inqilabı", "İranda ideoloji inqilab", "Səfalət hardandır?", "Vahid cəbhə", "Paris kommunası" və digər məqalələrində "İran" xalqlarını əsarətdən qurtarmaq yollarından bəhs etmişdir. O, bu dövrdə ümid edirdi ki, Əhməd şah Qacardan sonra onun yerini qeyri-qanuni tutan Rza Pəhləvi demokratik islahatlar aparacaq.[598] Şübhəsiz, Pişəvərinin bu ümidləri özünü doğrulda bilməzdi. Qeyd edək ki, həmin dövrdə eyni ümidləri M.Ə.Rəsulzadə də bəsləmişdir.[599] Ancaq ingilislərin maşası olan Rza Pəhləvinin havadarlarının maraqları ilə hərəkət etdiyi bəlli idi. Rza Pəhləvi özünü ilk dövrlərdə zahirən demokratik göstərsə də, əslində başqa çirkin niyyətlər güdürdü. Pişəvəri də məhz həmin çirkin niyyətin qurbanı olaraq 1929-1940-cı illərdə Qəsri-Qacar həbsxanasının dustağı olmuşdu.

O, 1941-1946-cı illərdə Tehranda "Ajir" ("Xəbərdarlıq"), Təbrizdə isə "Azərbaycan" qəzetlərinin əsas yazarlarından olub. O, 1941-1945-ci illərdə sosial-demokrat yönlü İran Xalq Partiyasının (İXP) üzvü olsa da, artıq daha çox milli demokrat mövqeyi ilə tanınmışdır. Ə.Rəhimliyə görə, Pişəvəri hələ, həbsxanada olarkən radikal "solçuluq"dan yan qaçmış, həbsxanadan çıxdıqdan sonra "sağ" və "sol" qüvvələr arasında orta mövqe tutmağa çalışmışdır.[600]

Təbrizdən 14-cü Məclisə millət vəkili seçilməsinə baxmayaraq, irançıların (istər Tehran hökuməti, istərsə də İXP daxilindəki) ikibaşlı oyunları nəticəsində deputat mandatını ala bilməyən Pişəvəri, bu hadisədən sonra Azərbaycana-Təbrizə dönmüşdür. 1945-ci ildə Azərbaycan Demokratik Firqəsini (ADF) yenidən bərpa edən Pişəvəri, həmin ilin dekabrın 12-də (21 Azərdə) Təbrizdə yaranan

[598] Rəhimli Əkrəm. Seyid Cəfər Pişəvəri. Bakı, Nurlar NPM, 2009, s.36
[599] Resulzade M.E. Yeni Kafkasiya yazıları (1923-1927). Ankara, Türk tarih kurumu yayınları, 2017, s.213-215
[600] Rəhimli Əkrəm. Seyid Cəfər Pişəvəri. Bakı, Nurlar NPM, 2009, s.77-81

Azərbaycan Milli hökumətinin baş naziri olmuşdur.[601] Azərbaycan Milli hökuməti devrildikdən (1946-cı il 12 dekabr) az bir müddət sonra Pişəvəri Quzey Azərbaycana gəlməyə məcbur olub, çox keçmədən də 1947-ci ilin iyun ayında Gəncə-Yevlax yolunda baş verən avtomobil qəzasından sonra [602] yerləşdirildiyi Yevlax xəstəxanasında müəamalı şəkildə vəfat edib.[603]

**İctimai-siyasi görüşləri.** Pişəvərinin ictimai-siyasi görüşlərində istər beynəlmiləlçi, istərsə də milli sosial-demokrat kimi olsun, əsas məsələ Azərbaycan xalqının milli özünüdərk və milli azadlıq məsələləri olmuşdur. Əlbəttə, o, gənc yaşlarında sosial-demokrat təliminə daha çox böyük ümidlər bəsləmiş, bu baxımdan Sovet Rusiyasının yaranmasına və digər xalqlara da azadlıqlar gətirəcəyinə inanmışdır. Bizcə, Pişəvəri marksizm əqidəsinin daşıyıcısı olsa da, zamanla milli demokratiyaya meyil göstərmiş, xüsusilə də Milli Hökumət zamanında bunu daha çox ifadə etmişdir. Bu anlamda Pişəvərinin sosial-demokratiya ilə bağlı dünyagörüşündəki iki məsələni: 1) beynəlmiləlçiliyi, 2) milliliyi, nəzərə almaq lazımdır.

Bizcə, Pişəvəri uzun müddət sosial-demokratiya təliminə daha çox beyəlmiləlçilik mövqeyindən yanaşmış, yalnız bu kontekstdə Azərbaycan xalqının da xoşbəxt olacağını düşünmüşdür. Bu baxımdan Pişəvərinin Bakıda olarkən ancaq sosial-demokratlarla əməkdaşlıq etməsini, hətta milli demokratlara qarşı əks cəbhədə dayanmasını təsadüfi hesab etmək olmaz. 1918-1920-ci illərdə Bakıdakı sosial-demokrat əqidəli "Ədalət" partiyasının əsas fəallarından olan Pişəvəri "Lenin" adlı məqaləsində yazırdı ki, V.İ.Leninin başçılığı ilə Rusiyada 1917-ci ilin oktyabrında baş verən oktyabr inqilabı Şərq xalqlarını da, imperialistlərin yürütdüyü əsarətdəm, zülmdən xilas edəcəkdir. O, yazırdı: "Lenin yoldaş Oktyabr inqilabı zamanında özünü həm baş siyasi rəhbər, həm atəşin bir mübəlliğ, həm odlu bir inqilab şairi, həm də bir ictimaiyyət alimi kimi tanıtmışdır. Rusiya iniqlabında göstərilən məharətin, aparılan siyasətin tam bir nisfi onun ağıl dühasına bağlıdır. Lenin yoldaş bir çox Şərq inqilab qəhrəman-

[601] Əhməd Vüqar. Mir Cəfər Pişəvəri: Həyatı, mühiti və yaradıcılığı. Bakı, Göytürk, 1998, s.29
[602] Rəhimli Əkrəm. Seyid Cəfər Pişəvəri. Bakı, Nurlar NPM, 2009, s.193-199
[603] Əhməd Vüqar. Mir Cəfər Pişəvəri. Bakı, Göytürk, 1998, s.63-64

ları ilə tanış idi və onların vasitəsilə Şərq aləmində inqilab atəşini yandırıdı. Hal-hazırda Rusiya Şura dövləti ümumi əksinqilab dünyası içərisində yeganə bir inqilab vahəsidir, Lenin yoldaş o vahədə şölələr saçan məşəldir. Dünyayı yıldızlatan bir günəşdir. Əski Avropanın və Amerikanın qara bulutları inqilab vahəsi üzərinə hücum çəkərək parlaq günəşimizi qapamaq istəyir. Şərq aləmi günəşsiz yaşayamaz; sönər, yenə məhv olar. Şərq aləmi dağınız səflərini birləşdirərək qara bulutlara hücum etməlidir. Kirli dumanları dağıtmalıdır. Dağıtmalıdır ki, günəşimiz parlasın, mühitimizi şəfəqlərilə ziyalılandırsın. Lenin yoldaşımız yaşasın; ürəklərimizdə cahan inqilabına qarşı bəslənən ümidlərimzi möhkəmlətsin".[604]

O, "Ayılıbıdr" feleytonunda da sosial-demokrat əqidəli birisi olaraq digər firqələri qəbul etmədiyini və doğru yolun ancaq kommunizmlə bağlı olmasına inanırdı. O, yazırdı: "... sənə nə deyirəmsə sən şübhəsiz qəbul elə, çünki mən başqa firqəbazlar kimi şəxsi qərəzimi gözləmirəm. Həmişə ümumi mənfəətinə söz söyləyib çalışıram. İstər daşnak, istərsə o birisi, mənim üçün təvafütü yoxdur. Hər kəs ki insaniyyətə müzür əməliyyata bulundu, düşmən hesab edirəm".[605]

Pişəvəri digər bir feleytonunda da açıq şəkildə milli hökuməti bəylərin-xanların hökuməti kimi tənqid edib, özünü fəhlə-kəndli sinfinin tərəfdarı kimi qələmə vermişdir. O, yazırdı: "İkinci məktub "Azərbaycan" ruznaməsini tənqid edərək yazır ki, mən bilmirəm "Azərbaycan" nə üçün iki-üş həftə bundan irəli yazdıqlarını unudur. Hansı ki, o yazmırdı ki, İran qəzetlərinin hamısı İngiltərə tərəfindən nəşr olunan burjua tərəfdarlarıdır. İndi isə "Rəd" qəzetini həqq tərəfindən gələn ayat, müdirini islam tərəfdarı və türklük hüququnu mühafizə edən məlik göstərir. Buna da belə cavab vermək olar ki, yoldaş, bunlar siyasətdir. Bəylərin belə siyasəti çox olar, hələ mabədi var. Allah qoysa, üçüncü rəngi görərsiniz. O vaxt anlarsınız ki, bəylərin siyasəti necə olar, utanmaq-zad ancaq fəqirlər üçündür. Onlar indi bir söz deyirlərsə, bir dəqiqədən sonra inkar edə bilərlər".[606]

Bunun ardınca elə həmin məqaləsində Pişəvəri bəy-xan hökuməti hesab etdiyi Azərbaycan Cümhuriyyəti hökumətinin rəhbərliyi-

---

[604]Cənubi Azərbaycan ədəbiyyatı antologiyası.4 cilddə,2. cild.Bakı, Elm,1983, s.459
[605]Pişəvəri S.C. Ayılıbdır. "Hürriyyət" qəzeti, 14 avqust 1919 -cu il, sayı 14
[606]Pişəvəri S.C. O yan bu yandan. "Hürriyyət" qəzeti, 17 dekabr 1919 -cu il, sayı 38

nin dilindən kəndliləri satirik anlamda aşağılayan bir şeirini də vermişdir. Həmin şeirdən belə məlum olur ki, kəndli torpaq tələb etməməli, azadlıq istəməmli, bir sözlə özlərini bəy-xanla bərabər tutmamalıdır.[607]

Pişəvəri Azərbaycan Cümhuriyyəti rəhbərliyini, o cümlədən Müsasvat firqəsini onda ittiham edirdi ki, bərabərlikdən, demokratiyadan bəhs etdikləri halda buna əməl etmirlər.[608] Sovet Rusiyası təhlükəsi Azərbaycana yaxınlaşdığı bir dövrdə dünənə qədər "Müsavat"a üzv olan bəzi fəhlələrin oradan uzaqlaşmasını Pişəvəri sosial-demokratcasına şərh edirdi: "Müsavat firqəsi də, əz qərar məlum fəhlələrdən ümidini kəsib, gücünü verib burjualara. Çünki müsavatçılar fəhlələrdən vəfa görə bilmədilər. Zatən fəhlə-kəndliyə bel bağlamaq da olmaz. Çünki onlar insandırlar, başları, ağıl və fərasətləri vardır. Bir də görürsən ki, mətləbi qandı. Onda heç zəncir ilə də saxlamaq istəsən qalmayacaqdır. Necə də son zamanlarda "İttihad" ilə "Müsavat"ın başına belə bir bəla gəldi. "İttihad"dan kəndlilər, "Müsavat"dan isə fəhlələr istefa verib çıxmağa başladılar. Allah ikisinə də rəhmət eləyib liderlərinə cəza xeyri versin. Siz milli firqələrdə əhrarə göz tikmişsinizsə səhv etmişsiniz".[609]

Pişəvəriyə görə, Azərbaycandakı ittihadçılar, müsavatçılar kimi Gürcüstandakı menşeviklər də bərabərlik, beynəlmiləlçilik məsələsində ikili yol tutublar. Ona görə, yalnız sosial-demokratlar bu məsələdə ən doğru yoldadır: "Məhz sosyalizm gərək elə olsun ki, Nikolay özü də həsəd aparsın. Beynəlmiliyyət deyilən şey bundan ibarətdir. Kim deyə bilər ki, menşeviklər burjaziyanın xeyrinə çalışırlar? Bu heç vaxt olmaz və qətiyyən yalandır. Menşeviklər mömün, müqəddəs, sülhcu, fəqət pambıq ilə baş kəsən insanlardır. Deyəsən, çox uzunçuluq etdim. Eybi yoxdur, sosyalist yoldaşları yaddan çıxarmaq olmaz. Onlar indi də millətçilikdən əl götürsələr, sosyalizma tez vücuda gələr. Onlar da layiqincə işləyə bilməzlər. Onlar üçün gərək millətçilik və başqa adlar ilə dünya inqilabını təxirə salıb, mücahidət gəstərsinlər".[610]

---

[607]Pişəvəri S.C. O yan bu yandan. "Hürriyyət" qəzeti, 17 dekabr 1919 -cu il, sayı 38

[608]Pişəvəri S.C. O yan bu yandan. "Məşəl" jurnalı, 30 dekabr 1919 -cu il, sayı 4

[609]Pişəvəri S.C. O yan bu yandan. "Hürriyyət" qəzeti, 9 fevral 1920 -ci il, sayı 49

[610]Pişəvəri S.C. O yan bu yandan. "Hürriyyət" qəzeti, 9 fevral 1920 -ci il, sayı 49

Seyid Cəfər Pişəvəri «Müsavat» haqqında bu fikirləri də irəli sürmüşdür: «Müsavat firqəsi Mərkəzi Komitəsi və bütün təşkilatlarında üç ayrı fraksiya hakim olmuşdu: 1) Kiçik burjua ünsürləri ilə birlikdə mərkəzdə mövqe tutan Məhəmməd Əmin Rəsulzadə qrupu; 2) İnqilabi hərəkatın təsiri altında qalan və sol təmayül göstərən Mirzə Bala Məhəmmədzadə qrupu; 3) Sağ cinaha mənsub olan Nəsib Bəy Yusifbəylinin mülkədar qrupu».[611]

Doğrudur, Pişəvəri bir sosial-demokrat kimi ancaq "Müsavat"ı deyil, eyni zmanda gürcü menşeviklərini və erməni daşnaklarını da tənqid etmiş. Xüsusilə də, Pisəvəri öz xatirələrində yazdığı kimi, erməni daşnaklarının Bakıda türk-müsəlman əhaliyə törətdiyi qırğınlardan dəhşətə gəlmişdir: «Mən 1918-ci il mart ayında daşnakların vəhşiliklərini, saysız günahsız adamların, xüsusilə bitərəf cənubi Azərbaycanlıların öldürülüb karvansaraylarda meyitlərinin yandırılmasını öz gözümlə görmüşəm. Bu çox faciəli və nifrətəlayiq bir hərəkət idi».[612] Ancaq o, bu oyunların mərkəzində məhz rus boleviklərinin dayanmasını, özəlliklə də onların erməni daşnaklarına hər cür dəstək verməsini çox gec anlamışdır.

Bizcə, 1930-cu illərdə Pəhləvilər rejiminin zindanında məhbus olarkən Pişəvəri müəyyən dərəcədə marksist sosial-demokratiyadan uzaqlaşaraq **milli-demokratiyaya** doğru yönəlmişdir. Belə ki, o, həbsxanadan çıxdıqdan sonra sosial-demokat əqidəsində qalmağa davam etməklə yanaşı, milli məsələlərə daha həssasla yanaşmış, xüsusilə də, Səttarxan və Xiyabani hərəkatlarında baş verən hadisələri daha çox milli yöndən izah etmişdir.[613]

Pişəvəri hesab edirdi ki, Azərbaycan xalqı XX əvvəllərindən başlayaraq Milli azadlıq hərəkatının yeni bir mərhələsini yaşamaqdadır. O, zərrə qədər də olsun şübhə etmirdi ki, Səttarxanın başçılıq etdiyi Məşrutə hərəkatı Milli azadlıq yolunda çox mühüm bir mərhələ olmuşdur. 1945-ci ilin avqustunda Səttarxanın qəbri üstə təşkil olunmuş mitinqdəki nitqində Pişəvəri deyirdi: "Azərbaycanlı hiss edirdi ki, onun vətəni, mədəniyyəti və milli şəxsiyyəti vardır.

---

[611] Pişəvəri Mir Cəfər. Seçilmiş əsərləri, Bakı, Azərnəşr, 1984, s.402

[612] Yenə orada, s.398

[613] Saray Mehmet. Kuzey ve Güney Azerbaycan türklerinin tarihi. Bakı, "Şərq-Qərb", 2010, s.344

Bunları qoruyub saxlamalıdır. O, anlayırdı ki, özbaşınalıq üsul-idarəsi, zorakılıq, quldurluq rejimi həmin böyük arzu qarşısında mane təşkil etmişdir”.[614]

Təbriz başda olmaqla Azərbaycanda Səttarxanın başçılıq etdiyi məşrutə hərəkatı zamanı Məhəmməd Əli şah Qacarın yanında yer almış Gilan əyalətindən Sipəhdarın, Bəxtiyarilərdən Sərdar Əsədin, erməni daşnaklarından Yefremin və başqalarının az sonra şaha xəyanət edərək “İran”, “iranlılıq” adlı maskaya bürünmüş farsdilli “məşrutəçilərə” qoşulması İngiltərə ideoloqları tərəfindən öncədən planlaşdırılmışdı. Səttarxanla Məhəmməd Əli şah Qacarın ingilislər tərəfindən oyuna gətirilərək üz-üzə qoyulmasına şübhə etməyən S.C.Pişəvəri sonralar bu məsələ ilə bağlı yazırdı: “Bu heç də aydın deyil ki, Yefremin dəstələri İranın azadlığı və istiqlaliyyətinə sərdare-millinin (Səttarxanın – F.Ə.) mücahidlərindən daha çox əlaqə bəsləsinlər. Yaxud Bəxtyari xanları mərkəzi hökuməti qvvətləndi-məkdə Təbriz və Tehran azadixahlarından daha irəlidə olsunlar. Burada bir çox incəliklər var. Həmin incəliklər Azərbaycan mücahid-lərinə əlaqə bəsləyənləri tarixçilərin, qəzetçilərin yazıları, xüsusilə klassik tarix kitablarından şübhələndirir”.[615]

Qacarlardakı bir çox Türk aydınlarının, dövlət xadimlərinin (Həsən Tağızadə, İbrahim Həkimi, Əhməd Kəsrəvi və b.) “İran”, “İranlılıq” ideolojisinin təsiri altına düşmələri də, sonuncu Azərbaycan Türk imperiyasının tənəzzülündə müəyyən rol oynadı. Pişəvəri yazır: “Ə.Kəsrəvinin əqidəsinə görə o vaxt Məhəmmədəli Mirzə Bağşah dəstgahı qurub azadixahları asdırıb-kəsdirilməsinə nail olanlardan biri də həmin Həkimül-mülk (İbrahim Həkimi-F.Ə.) ilə Həsən Tağızadə və başqa azərbaycanlı nümayəndələrinin azadlığa qarşı laqeydliyi və xainanə rəftarı olmuşdur. Kəsrəvi, Tağızadəni o zaman çar Rusiyası səfirinin dilindən yalan söyləməkdə də ittihamlandırır. Məhəmmədəli Mirzənin məşrutəni pozmasına bəraət qazandırmağa çalışır. Kəsrəvinin yazılarından hiss olunur ki, Tağızadə ingilis səfirliyi ilə bağlı olduğundan onun bir işarəsi ilə məclisi tərk edib qaçmış, Məhəmmədəli Mirzə ilə azadixahların müqavimətini sındırmaqda iştirak etmişdir. Həkimi isə Tağızadə

[614] Pişəvəri S.C. Məqalələri. Bakı: Azərnəşr, 2016, s.16
[615] Yenə orada, s.22-23

kimi hərəkət edərək, azadlıq meydanında bəzən özünü ondan da mühafizəkar bir adam kimi göstərmişdir. Ona görə məşrutə dövrünün bəlli-başlı dövlət adamları sırasına keçməyə müvəffəq olmuşdur".[616]

Pişəvəri demək istəyirdi ki, Qacarlar dövlətinin süquta uğramasında və milli qüvvələrin məhvində ancaq fars millətçiləri deyil, eyni zamanda sapı özümüzdən olan baltalar, yəni azərbaycanlı kəsrəvilər, tağızadələr, həkimilər və başqaları da az rol oynamamışlar. Məşrutə hərəkatında Səttarxana və Bağırxana, Xiyabani hərəkatında Xiyabaniyə ən ağır zərbə vuranlar arasında da, artıq irançılığa xidmət edən tanınmış azərbaycanlar heç də az olmayıblar. Bu baxımdan Səttarxanın Tehrana (daha çox da Tehrandakı həmvətənlərinə), Xiyabaninin müşavirlərinə (yəni öz həmvətənlərinə) inanması onların faciəli sonluğu ilə bitmişdir [617] (Yeri gəlmişkən, Pişəvəri də Mir Cəfər Bağırov kimi kommunist həmvətənlərinə inamının qurbanı olmuşdu).

Pişəvəriyə görə, bu gün də Azərbaycan adını, onun muxtariyyətini eşitmək istəməyən fars şovinistləri qədər, irançılıq ideolojisinə qapanmış azərbaycanlılar da vardır. Həmin irançı azərbaycanlılar bu məsələ də qanuna hörmətdən və ona əməl etməkdən bəhs edirlər. Pişəvəri yazırdı: "Mənim vətənsevər tanıdığım şəxslərdən biri deyirdi ki, sən nitqlərinin birində qanuna ehtiram edib, ona tabe olmaqdan bəhs etmişdin. Mən bunu inkar etmirəm. qanun möhtərəmdir. Qanunsuz bir ölkədə ədaələt, əmniyyət, insaniyyət ola bilməz. Amma qanun hər iki tərəfdən möhtərəm tutulmalıdır. Fransa inqilabının böyük mütəfəkkiri Jan Jak Russo özünün məşhur əsərlərindən birində belə deyir: "Razılıq ikitərəfli olamlıdır. Əgər o, bir tərəfdən pozulsa, ikinci tərəf ona tabe olmağa məcburi deyildir". Russonun nəzərində qanunlar xalq ilə dövlət arasında qarşılıqlı razılaşmadan, qərardan başqa şey deyil. İndi bizim hökumətimizin (Tehran hökuməti - F.Ə.) başında duranlar məclisimizin əksəriyyətini təşkil edənlər özlərinin çıxardıqları və yazdıqları qərarları pozub ayaq altına salmışlar. Ona görə biz o qanunları ləğv edilmiş hesab etməyə məcburuq".[618]

---

[616] Yenə orada, s.187
[617]Yenə orada, s.154
[618] Yenə orada, s.68-69

Pişəvəri yazırdı ki, Azərbaycan xalqı qanunların əsasını və kökünü böyük qurbanlar bahasına almışdır: "Mərkəzi Hökuməti özlərinin ata-babadan qalma irsi hesab edən xainlər onu əməldə silib, süpürüb gizlətmişlər. Bizim haqq və ixtiyarımızı təmin edən Əyalət və Vilayət Əncümənləri haqda qanundan illərdir ki, əsər-əlamət yoxdur. Bizə qanundan danışan ağadan tələbimizə cavab istəyirik. Onların boşboğazlıqdan başqa bir işləri yoxdur. Biz həqiqəti açıq-aydın xalqa çatdırırıq. Bizim xalqa müraciətmizdə meydana atdığımız şüarların əsasını da qanun təşkil edir".[619]

Pişəvəri yazırdı ki, xalqın maariflənməsi çox vacibdir, çünki savadlı və sağlam cəmiyyət heç vaxt zülmün, təzyiqin altında yaşamaz. Onun fikrincə, insanlarla heyvanlar arasında olan böyük fərq də bundan ibarətdir: "İnsan ictimai bir varlıqdır. O, tək öz başına yaşamır və onun məqsədi fəqət şəxsi həyatını təmin etmək deyil. İnsan cəmiyyət üçün yaşayır. Ona görə hər bir kəs ictimai mənafeyi şəxsi mənafedən üstün tutmalıdır. Hər kəs öz başını saxlamaqdan ötrü yaşasaydı, onda dünyada böyük simalar, fədakar qəhrəmanlar, öz canlarını vətən və millət yolunda fəda edən rəşid insanlar tapılmazdı. Bu fədakarlıq fəqət bilik, maarif, təşkilat və əxlaq nəticəsində mümkündür. Biz gərək camaatın mənafeyini öz şəxsi mənfəətlərmizdən üstün tutmağa adət edək. Yalnız bu vasitə ilə xalqımızı fəlakətdən xilas edə bilərik". [620]

Ona görə, Azərbaycan xalqının əsas mənafeyi milli azadlıq mübarizəsindən bir addım da olsun geri çəkilməməkdir. O, yazırdı: "Azad və demokrat vətənimizin şanlı bayrağı altında xalqımız müqəddəs vəzifəsini – azadlıq mübarizəsini davam etdirəcəkdir. Azərbaycan Tehran ilə bir yerdə əsir Hindistan olmaqdansa, özü üçün azad İrlandiya olmağı üstün tutur. Tehran hərzə və sürüşkən gözəllər kimi hər gün bir lotunun qucağına atıla bilər. Azərbaycan isə namus və və heysiyyətinə əlaqəmənddir. O biganələrin alçaq nökəri olan Rza xanların boyunduruğu altına bir daha girməz və gündə bir lotuya təslim olmaz. Biz hər qiymətə olur-olsun, dünya hadisələrinin verdiyi imkandan istifadə edib, azadlığımızı təmin edəcəyik. Boşboğaz və xain çızmaqaraçıların cəfəngiyyatları bizi tutduğumuz

[619] Yenə orada, s.69
[620] Yenə orada, s.75

yoldan geri qaytara bilməz”.[621]

O, çox doğru qeyd edirdi ki, əsrlər boyu mövcud olmuş bir xalqın milliyyətini 2-3 nəfərin xoşuna gəlməkdən ötrü inkar etmək insanlığa yaraşmaz. O, yazırdı: “Başladığımız böyük hərəkatın milli rəng və milli xasiyyətini dəyişdirmək istəyənlər xalqımızın silahını əlindən almağa çalışırlar. Bunların “azadlıq istəyən” maskaları bizi çaşdıra bilməz. Azadlıq istəyən adamlar bir millətin başqa bir millət üzərində hakim olmaq tələbini irəli sürməməlidir. Azadlıq istəyən insanlar gərək haqq və ədaləti inkar etməsinlər. Haqq və həqiqət isə azərbaycanlıların milli dil, adət-ənənə, milli əxlaq, milli istedad ilə hesablamağı tələb edir”.[622]

Bütün bunlarla yanaşı Pişəvəri Azərbaycanın milli azadlığını “İran” adlanan ölkədən tamamilə kənarda görmürdü. O, yazırdı ki, Azərbaycanın “İran”dan heç vəchlə ayrılmasının tərəfdarı deyildir: “Azərbaycanı İrandan ayırıb ayrı bir məmlkətə yapışdırmaq sözü fəqət firqəmizin düşmənləri tərəfindən ortaya gətirilmişdir. Biz bu şüarın yalan və mənasız olduğunu əməldə sübut edirik. Biz İranın istiqlaliyyət və ərazi bütövlüyünə tam tərəfdarıq”.[623] O, yazırdı ki, ADF bir tərəfdən xalqın öz hüququnu var qüvvəsi ilə müdafiə etməsində, digər tərəfdən “İran”ın istiqlalı və ərazi bütövlüyü ilə əlaqəli olmasında səmimidir: “Biz İran bayrağını da dəyişmirik. Lakin biz öz milli muxtariyyətimizi tələb edirik. Milli muxtariyyət milli istiqlal ilə fərqlidir”.[624]

Pişəvərinin Azərbaycanda faktiki böyük ölçüdə hakimiyyəti ələ aldığı halda, Milli muxtariyyatdan irəli gedib Milli istiqlal məsələsini ortaya qoya bilməməsində Sovet Rusiyasının xəyanətkar mövqeyi mühüm rol oynamışdır. Bunu, açıq şəkildə görən Pişəvəri Sovet Ruisyasının lideri İ.V.Stalinə məktub yazaraq Azərbaycan Milli hökumətini zərbə altında qoyduğuna görə, rəsmi Moskvaya öz etirazını bildirmişdir. Buna cavab olaraq Stalinin 1946-cı ilin mayında Pişəvəriyə göndərdiyi məktubdan da görmək mümkündür ki, bolşeviklər tərəfindən Azərbaycanın Milli istiqlal məsələsinin

---

[621] Yenə orada, s.119
[622] Yenə orada, s.120
[623] Yenə orada, s.138, 141
[624] Pişəvəri S.C. Xatirələr. Bakı: ADF-nin nəşri, 2005, s.254

üstündən qalın xətt çəkilmişdir. Stalin həmin məktubunda açıq şəkildə yazırdı ki, bir tərəfdən Böyük Britaniya, ABŞ onların qarşısında məsələ qoyur ki, nə zaman SSRİ İrandan, Çindən qoşunları gerə çəkərsə, o zaman onlar da Misir, İndoneziya, Yunanıstan, Danimarka və başqa ölkələrdən ordularını çıxaracaqlar. Digər tərəfdən isə, İranın Qəvam hökuməti Sovet Rusiyası ilə dil tapmağa hazırdır və bu da, rəsmi Moskvanın maraqlarına cavab verir. Stalin yazırdı: “Bizə məlum olduğuna görə, Siz demişsiniz ki, biz əvvəlcə Sizi göylərə qaldırnmış, sonra isə uçuruma yuvarlamşıq və Sizi rüsvay etmişik. əgər bu doğrudursa, onda bu bizdə təəccüb doğurur. Əslində isə nə baş vermişdir? Biz burada hər bir inqilabçıya məlum olan adi inqilabi fənd tətbiq etmişik. İrandakı şərait kimi belə bir vəziyyətdə özümüz üçün hərəkatın məlum minimim tələbini əldə etməyi təmin etməkdən ötrü hərəkatı irəli qaçırmaq, minimum tələblərdən irəli getmək və hökumət üçün təhlükə yaratmaq, hökumət tərəfindən ediləcək güzəştlər üçün imkan yaratmaq lazımdır. Daha irəli qaçmadan, Siz İranın indiki vəziyyətində hazırda Qəvam hökumətinin getməyə vadar olduğu tələblərə nail olmaq imkanına malik ola bilməzdiniz. İnqilabi hərəkatların qanunu belədir”. [625]

Bununla da, əslində Stalin açıq-aşkar şəkildə Azərbaycan Milli hökumətini Sovet Rusiyasının maraqları naminə zərbə altında qoyduğunu etiraf etmiş olurdu. Bunu, çox yaxşı dərk edən Pişəvəri də, artıq Tehran hökuməti ilə müəyyən bir razılığa gəlmək məcburiyyətində qalmış olurdu. Ona görə də, sözügedən məktubdan sonra onun yazılarında, çıxışlarında “İran istiqlaliyyəti”, “İranın bütövlüyü”, “iranlı” anlayışları tez-tez vurğulanırdı: “Azərbaycan hər nə istəmiş olsa, İran daxilində qalmaq şərtiylə istəyir. Xülasə, biz hər dil ilə danışmış olsaq, hər bir hədəfə doğru getsək də iranlı olmaq, İran hüdudunda qalmaq istəyirik. Bizim mərkəzi hökumətlə anlaşmamız möhkəmləndikcə xarici düşmənlərin təşviş və iztirabı şiddətlənir”. [626]

Buna səbəb o idi ki, irançı Tehran hökuməti Azərbaycan Milli Hökumətinə hədə-qorxunu artırarkən yalnız əvvəldən arxalandığı

[625] Rəhimli Əkrəm. Seyid Cəfər Pişəvəri. Bakı, Nurlar NPM, 2009, s.217-218
[626] Pişəvəri S.C. Məqalələri. Bakı: Azərnəşr, 2016, s.318

havadarları İngiltərə və ABŞ-a deyil,[627] artıq Sovet Rusiyasına da arxalanırdı. Pişəvəri üçün əgər ABŞ və Böyük Britaniyanın iç üzü müharibə illərində meydana çıxmışdırsa, Sovet Rusiyasının əsil simasını Milli hökumət qurulduqdan az sonra "kəşf" etdi. Çox güman ki, Sovet Rusiyasının əsil simasının da ortaya çıxması ilə Pişəvəri də "İran istiqlaliyyəti", iranlı təəssübkeşliyi bir az artdı və o, Qərb dövlətlərini, xüsusilə də ABŞ-ın tənqidi fonunda bunu ortaya qoydu: "Biz şərqlilər Amerika və onun mədəniyyətini bu müharibə başlanana qədər lazımınca tanıya bilməmişdik. Onların çağırılmamış "qonaqlar"dan ibarət hərbi şəxslərinin paytaxtda göstərdiyi yaramaz hərəkətləri və maliyyə idarələrimzidə onların maliyyə mütəxəssilərinin çirkin və alçaq əməlləri xalis maddi gəlir və ruhsuz mədəniyyətlərinin iç üzünü açıb bizə göstərdi. Amerika din xadimlərinin yarım əsr çəkdikləri zəhmət və apardıqları təbliğatı İran xalqının nəzərində sıfır dərəcəsinə endirmiş oldu. Şərqlilər, mənəviyyata daha artıq əhəmiyyət verdikləri üçün amerikalıların maddiyyat, xüsusən neft davalarını gördükdə onlardan tamam üz döndərməyə məcbur olurlar... Özümüz öz ölkəmizi min illərlə idarə etmişik və bundan sonra da edəcəyik heç bir xarici qüvvə bizi bu qanuni haqdan məhrum edə bilməz".[628]

Artıq bu o anlama gəlirdi ki, Pişəvəri Sovet Rusiyasının xəyanətindən, ya da onların tələblərindən sonra Tehran hökuməti ilə müəyyən bir razılığa gəlməli idi. Pişəvəri onu da yaxşı anlayırdı ki, Tehran hökuməti ilə istənilən anlaşmanın isə axırı yoxdur. Ancaq bütün hallarda, bəlkə də bir ümid işığı olaraq Pişəvərinin başçılıq etdiyi Milli hökumətlə "İran"ın baş naziri Qəvamüssəltənə hökuməti arasında 15 maddəlik bir müqavilə bağlandı (13 iyun 1946-cı il). Həmin 15 maddəlik müqavilədən açıq-aşkar şəkildə görünürdü ki, Tehran hökuməti Azərbaycan üzərində ağalığını tam bərpa etmək niyyətindədir, çünki burada Milli hökumətin ləğvi ilə milli muxtariyyətdən uzaqlaşaraq daha çox mədəni muxtariyyətə aid vədlər verilirdi. Hər halda valinin Tehran hökuməti tərəfindən göndərilməsi, Milli Məclisin Əyalət əncüməni olaraq qəbul edilməsi ona işarə idi ki, Tehran hökuməti milli muxtariyyəti tamamilə qəbul

[627] Yenə orada, s.204
[628] Yenə orada, s.319-320

etmir, sadəcə olaraq ana dilinin tədrisi, Mili Universitetin saxlanılması, torpaqların kəndlilər arasında bölünməsi, yeni seçki qanunun yaradılması (Azərbaycanda dövlət məmurlarının xalq tərəfindən seçilməsi), qadınlara seçib seçilmək hüququnun verilməsi, Əyalət əncümənin qalması kimi vədlərlə vaxt qazanırdı.[629]

Pişəvəri ilk vaxtlar Sovet Rusiyasının da zəmanəti ilə ümid edirdi ki, Qəvamüssəltənə başda olmaqla Tehran hökuməti Azərbaycan xalqına verdiyi vədləri yerinə yetirəcəkdir.[630] Ancaq çox keçmədən buna inamının azaldığını deyən Pişəvəri deyirdi ki, onlar atalarının buraxdıqları yanlışlığı təkrarlamayacaqlar: "Azərbaycanlı şirin sözlər çox eşitmişdir və onlardan acı təcrübələr daha çox almışdır. Qoy mürətcelər və azadlıq düşmənləri açıq surətdə öz təkliflərini düşünüb anlasınlar ki, bu qara o qaradan deyil. Azərbaycan fəqət öz azadlığını təmin etmək sayəsində İranın istiqlal və İran camaatının azadlığının zamini ola bilər. Atalarımız məşrutəni alıb, müstəbidlərin əlinə tapşırdılar, ya imkan verdilər müstəbidlər məşrutəni onların əllərindən alsınlar. Biz bu acı təcrübədən ibrət dərsi almışıq. Azadlığı təmin etmək, cürbəcür rənglər və növbənöv niqablar altında qabağa çıxan mürtəcelərin burnunu əzmək üçün əsaslı bir səngər vücuda gətirib kəskin bir silah təhiyyə etməyə müvəffəq olmuşuq. O da qanlı və yorulmaz mübarizə meydanında böyüyüb gündən-günə yüksəlməkdə olan firqəmizdən ibarətdir".[631]

Beləliklə, Qəvam başda olmaqla farsbaşlı rejimin vədlərini gerçəkləşdirməyəcəyini daha dərindən anlayan Pişəvəri açıq şəkildə yazırdı ki, "əgər Tehran hökuməti aldıqlarımızı qanuni şəkilə salmasa nehzətimiz (hərəkatımız) davam edəcək".[632] Başqa sözlə, Milli hökumət Azərbaycanın daxili muxtariyyəti, milliyyət və dili məsələsində bir addım olsun geri çəkilməyəcək.[633]

Milli hökumət adından SSRİ rəhbərliyinə ünvanladığı son müraciətdə Pişəvəri etiraf edirdi ki, rəsmi Moskvanın istəyi üzrə Tehran hökumətinə bir çox güzəştlərə getmişdir. O, yazırdı: "Bizim böyük güzəştlərimizi bütün dünya bildiyi kimi siz daha gözəl bilirsiz.

---

[629] Yenə orada, s.322-325
[630] Yenə orada, s.328-330
[631] Yenə orada, s.361
[632] Yenə orada, s.364
[633] Yenə orada, s.372

Biz bu saziş yolunda Milli Hökumətimizi ləğv etdik, Milli Məclisimizi Əyalət Əncüməninə döndərdik, fədai dəstələrini nigəhban təşkilatına təbdil etdik, milli qoşunumuzun ixtiyarını və fərmandehliyini onların əlinə tapşırmağa hazırlandıq. Bütün aidatımızı onların xəzinəsinə, yəni Milli Banka verməyə başladıq. Bunların hamısı ondan ötrü idi ki, onların əlinə dəstaviz verməmiş olaq. Qəvam isə bizim güzəştlərimizi gördükdə hər gün tələbatını artırıb, hazırda işi o yerə gətirib çıxardıb ki, istəyir nagəhani bir həmlədə azadlığımızı birdəfəlik xatimə versin. O, neft məsələsini qabağa çəkşmişdir ki, Qızıl Ordunun İrandan çıxmasını təmin etsin və Azərbaycan milli nehzətini ortadan aparsın”. [634]

Belə bir ağır şəraitdə Azərbaycan xalqı və ona rəhbərlik edən ADF rəhbərlərinin Sovet Rusiyasından iki əsas istəkləri var idi: 1) Sovet Rusiyası Gwney Azərbaycanı az da olsa silahla təmin etsin, 2) İranda böyük bir hərəkat başladılaraq irticaçı qüvvələrə qarşı döyüşüb, Tehranla əlaqəni birdəfəlik kəsib Milli hökuməti bərpa etmək. [635] Ancaq bunun əvəzində Sovet Rusiyasının Təbrizdəki konsulluğu Milli hökumət rəhbərliyinə Azərbaycana hücum edən “İran” hərbi qüvvələrinə qarşı silahlı müqavimət göstərməməyi, onlara qarşı mötədil mövqe tutmağı məsləhət görür. Başqa sözlə, Milli hökumətin Mir Cəfər Bağırov vasitəsilə Sovet Rusiyasına etdiyi bütün yardım müraciətləri cavabsız qalır. Bununla da, 21 Azər hərəkatı 1946-cı ilin dekabrın 12-də İngiltərə və ABŞ-ın birbaşa hərbi yardımları ilə də “İran” hərbi qüvvələri tərəfindən məhv edilir, Azərbaycan Milli Hökuməti süquta uğradılır. [636]

**Sosial-fəlsəfi görüşləri.** Pişəvərinin sosial fəlsəfəyə aid görüşlərində hakimiyyət, muxtariyyət, sinfi mübarizə, federalizm, millət, dil və digər məsələlər mühüm yer tutmuşdur. Onun fikrincə, müasir dünyada hakimiyyətin idarə olunmasında federalizm və muxtariyyət daha çox aktuallıq kəsb etməkdədir. O, yazırdı: “Puç fikir və çürük iddiadır ki, deyirlər: məhəlli ixtiyarat və fedarasion üsulu mərəkəziyyəti kölgədə qoya bilər. Bunun əksinə olaraq təcrübə sübut etmişdir ki, qəbilələr, millətlər və mərkəzdən xaricdə yaşayan

[634] Yenə orada, s.416
[635] Yenə orada, s.420
[636] Yenə orada, s.423-424

əhalinin nə qədər müstəqil və sərbəst surətdə dövlət işlərinə müdaxilə və iştirakları təmin edilərsə, o nisbətdə onların vətənlə əlaqələri və məhəbbətləri artıq və möhkəm ola bilər. Bu mülahizə və fikir əsasında məşrutəxahlıq cərəyanını əmələ gətirənlər və İranın qanun əsasını yazanlar əyalət və vilayət əncümənlərini irəli çəkib çalışmışlar ki, bu vasitə ilə ümumiran xalqını ölkənin müqəddəratını təyin etməkdə şərik etsinlər, əyalət və vilayətlərin xüsusi ehtiyaclarını onların əhalisi vasitəsilıə aradan götürməyə çalışsınlar”.[637]

Pişəvəri hesab edirdi ki, “İran” daxilində də ən çox avtonomiya haqq edən Azərbaycan xalqıdır. O, yazırdı: “Biz Azərbaycanın xüsusiyyətindən bəhs edirik və deyirik ki, bu geniş torpaqda 4 milyon yarım azərbaycanlı yaşayır və bu camaatın dil, adət-ənənəsi cəhətdən İranın başqa əyalətləri ilə böyük fərqi vardır. Əgər biz istəyirik ki, bu xalq öz maarif işlərində və öz torpağının abadlığında iştirak etsin, hərgiz bu mərkəziyyətin əleyhinə olmayıb, bəlkə onun qüvvətlənməsinə çalışmış oluruq. Bəzi dar düşüncəli adamlar xəyal edirlər ki, zor ilə, çomaq, iti xəncər gücü ilə bir xalqın dilini, xüsusiyyətini, ənənəsini ortadan qaldırmaq mümkündür. Bu xam xəyal ilə onlar səy edirlər insanları zorla məcbur etsinlər ki, hətta Azərbaycanın ucqar kəndlərində belə öz ana dilindən başqa bir dil bilməyən kəndçilər fars dilində danışsınlar. Bunlar təsəvvür edirlər ki, İran xalqını aldatmaq üçün yaratdıqları milli vəhdət sözü fəqət libasları və dilləri süni surətdə birləşdirmək vasitəsilə mümkün olacaqdır. Bunlar bilmirlər ki, dilin kökü anaların sinəsindən və xalqın ənənəsindən, onların ocaqları başından qalxır. İndi nə qədər analar diri və ocaqlar yanmaqdadır, bir xalqın dilini, ədəb və milli ənənəsini əvəz etmək mümkün olan işlərdən deyil”.[638]

O doğru hesab edirdi ki, Milli birliyə nail olmaq üçün xalqın hamısı öz xüsusiyyətini və daxili azadlığını saxlamaqla inkişaf edib, biri-birinə bərabər olmalıdır. Ancaq Azərbaycan xalqı iranpərəst Pəhləvilərin əliylə hər cür azadlıq və ixtiyardan məhrum edilmiş, ana dilində təhsil almaq qadağan olunmuş, ziyalıların səsi boğulmuşdur. İrançılar Azərbaycan xalqının şəxsiyyətini, dilini, ənənələrini, milli kimliyini hər an alçaltmaq və təhqir etməklə məşğuldurlar. O,

---

[637] Yenə orada, s.28-29
[638] Yenə orada, s.30-31

yazırdı: “Bu xalq deyir ki, biz istəyirik ki, İranın istiqlaliyyətini və bütövlüyünü hifz etməklə bərabər öz daxili işlərimizi idarə etməkdə muxtar və azad olaq, öz evimizi öz meyil və iradəmizlə idarə edək və milli məhəlli ehtiyaclarımızı öz gücümüzlə aradan qaldıraq. Azərbaycan deyir: Tehran bizim dərdlərmizə yetişmir və bizim ehtiyaclarımızı nəzərə alıb çarə etməkdə acizdir. Bizim maarifimizin tərəqqisinin qarşısını alır, bizim ana dilimizi təhqir edib, başqa vətəndaşlarımız kimi yaşmağa yol vermir. Bununla belə, biz oradan əlaqəmizi kəsmək iddiasında deyilik. Ölkəmizin tamam və ümumədalətli qanunlarına itaət edəcəyik. Məclise-Şuraye-Millidə və Mərkəzi Hökumətdə iştirak etməliyik. Fars dilini dövlət dili olmaq şərti ilə milli məktəblərimizdə öz dilimiz ilə bərabər tədris etməyə imkan verəcəyik, amma bunların hamısı ilə bərabər özümüz üçün bu haqqa qabilik ki, gərək öz evimizin sahibi və ixtiyarı özümüz sahibi və ixtiyarı özümüz olub, onu öz səliqəmizlə idarə etmək imkanına malik olaq”.[639]

Pişəvəri “Əyalət Əncüməni” məqaləsində də açıq şəkildə ifadə edirdi ki, Əyalət əncüməni, yəni milli muxtariyyət azərbaycanlıların qanuni haqqıdır, bu xalq onu qanı bahasına və qurbanlar verməklə əldə etmişdir: “Bu günə qədər müstəbidlər, məşrutə hökumətini öz əllərində alət edənlər və azadlıq düşmənləri bu haqqımızı əlimizdən almağa müvəffəq olmuşlar. İndi dünya dəyişib. Demokratik və azadlıq cəbhəsi olan qalib çıxıb, irtica və istibdad qüvvəsi məhv olmağa məhkum edilib. Ona görə də biz fürsətdən istifadə edib haqqımızı öz gücümüzlə ələ almalıyıq. Tehran artıq öz zalimanə iradəsini bizə zorla qəbul etdirməyə qadir deyil. Bizim yolumuz aydın və aşkardır. Azadlığı alıb onu əməli təşkilat vasitəslə əldə saxlamalıyıq”. [640] O hesab edirdi ki, Azərbaycan Əyalət Əncüməni tək Azərbaycan məsələsini deyil, bütün azadlıq məsələsinin həlli deməkdir.

Pişəvəriyə görə, “Azərbaycan Əyalət Əncüməni” məşrutə tarixində ortaya çıxaraq öz sözünü demiş, sadəcə Pəhləvilər dövnəmində buna son verilmişdir ki, azərbaycanlılar yenidən milli haqlarını geri almaq niyyətindədir. O, yazırdı: “Burada məlum bir həqiqəti sizə çatdırmaq istəyirəm. Bu, məlumdur deyirlər: “Haqqı almasan, onu sənə verməzlər”. Mənim əqidəmə görə, bu kamil bir

[639] Yenə orada, s.32
[640] Yenə orada, s.61

şüar deyildir. Mən isə deyirəm "Haqqı almaq bəlkə asan bir işdir, lakin onu saxlamaq əsas şərtdir". Əgər bizim qəhrəman məşrutəxahlarımız bu nöqtəyə diqqət ayırsaydılar, indi Azərbaycan, bəlkə də bütün İran dünyanın ən azad, ən demokratik məmləkətlərindən biri olardı. İndi düçar olduğumuz yoxsulluq, fəlakət, aclıq və səfalət qabağımıza çıxmazdı. Azərbaycan xalqı qırx il bundan əvvəl təşkil etdiyi Əyalət Əncüməni vasitəsilə özünün siyasi ləyaqət və istedadını sübut etmişdir". [641]

O, yazırdı ki, bu günə qədər ölkənin federativ və ya muxtar əyalətlərdən təşkil edilməsi məsələsini ilk dəfə ADF ortaya atmamışdır. Sadəcə, ADF-nin Əyalət və Vilayət Əncüməni məsələsini qəti və israrlı şəkildə ifadə etməsi, üstəlik bütün "İran"da böyük azadlıq məsələsini qoyması bir çoxlarını rahatsız etmişdir. [642] Çünki Əyalət və Vilayət Əncümənlərinin ortadan qaldırlması nəticəsində "İran" xalqları məşrutə və azadlqılardan məhrum olmuş, beş-üç xain bütün məmləkətin müqəddəratını əllərinə keçirməyə nail olmuşlar. Onun fikrincə, rüşvətxorluq, sui-istifadələr, xalqım malına, canına, namusuna təcavüz etmələr – bütün bunlar hamısı milli hökumətin, məhəlli muxtariyyatın ortadan qaldırılmasından sonra baş vermişdir. O, yazırdı: "Biz deyirik: "Qırx ildir sədrüləşraflar, davərlər və məclisdə oturan xainlər xalqın haqqını tapdalamışlar. Bu gün Azərbaycan xalqı öz haqqını almağa qərar almışdır. Biz onu Sədrüləşrafdən də tələb etmirik. Çünki onun hökuməti qeyri-qanuni hökumətdir. O, həmişə azadlıq əleyhinə mübarizə etmişdir. Biz öz xalqımızın köməyilə haqqımızı almağa çalışırıq və çox gözəl bilirik ki, müstəbidlər xalqın haqqını bu sadəliklə verməzlər". [643] O, yazırdı: "Milli muxtariyyət Azərbaycan millətinin tələblərinin yerinə yetirilməsi üçün zəmanətdir. Bu ondan ötrüdür ki, Azərbaycan millətinin demokratik hərəkatı mərkəzi hökumətin hiylə və aldadıcı siyasəti nəticəsində Məşrutə inqilabı və Xiyabaninin qiyamı kimi aradan aparılmasın". [644]

Pişəvəri "Azərbaycan" qəzetinin 11 sentyabr 1945-ci il tarixində

---

[641] Yenə orada, s.73
[642] Yenə orada, s.130
[643] Yenə orada, s.134
[644] Yenə orada, s.201

yazmışdır: "Hər bir xalqın müqqədəratı öz tərəfindən təyin edilməlidir. Milliyyət azadlığı və hər bir xalqın öz müqqədəratını təyin etməsində azad və muxtar olmasının əsas prinisipləri dil azadlığı, milli mdəniyyət azadlığı və sair iqtisadi, siyasi və ictimai azadlqılardan ibarətdir". [645] Beləliklə, biz deyə bilərik ki, Pişəvəri muxtariyyat və federal idarəetmə sistemində daha çox maraqlı olub, onu bütün yönləriylə izah etməyə çalşmışdır.

Pişəvərinin sosial-fəlsəfi görüşlərində **qrupla (partiyayla) xalqın, fərdlə liderin birliyi** mühüm yer tutur. Pişəvəri yazırdı: "Axı insan ictimai bir varlıqdır. O, ağac, daş və ya kərpic deyil. O, danışmaq, zarafat etmək, dərdləşmək, kitab oxumaq, çay içmək, papiros çəkmək istəyir. O, öz yoldaşları və tanışları ilə ünsiyyətdən ləzzət almaq, faydalı bir şəxs kimi cəmiyyətin tərəqqəsi yolunda çalışmaq istəyir. O, işləyib balaları üçün həyat şəraiti yaratmaq istəyir. Bütün bu adətləri birdən-birə yaddan çıxaramaq heç də asan iş deyil. Həmahəng, məqsədsiz və yorucu həyata heç də aylar və illərlə dözmək olmaz".[646]

O, yazırdı: "Biz biriydik: "mən və camaat". Bir söz danışıb, bir fikir edirdik. Ona görə mən xalqın üzündə böyük razılıq müşahidə etməklə onun bizə ürəkdən inandığınnı və inam üzərində bizim müvəffəqiyyətimizin yüzdə-yüz təsdiq edilə biləcəyini yəqin etdim. Xalqı sevmək və etimadının süslü olmağını birinci dəfə olaraq bu iclasda dərk etdim. O günədək əgər siyasi mübarizə və firqəvi bir iş ilə məşğul olmağı özümə vəzifə bilirdimsə, ondan sonra xalq dostluğu, xalq ailəsinin məsuliyyətli bir üzvü kimi ağır vəzifə daşıdığımı hiss etdim. Ona görə xalq sözü, xalq işi, xalq səadəti mənim üçün yüksək və ali bir hədəf şəklində özünü göstərdi. O gündən etibarən şüarlar, məramnamələr, iclaslar və konqreslərdə çıxarılan qərarların doğruluğu üçün həmin xalq səadətini bir vahid, bir ölçü olaraq təqib edərək təklifləri bu əsas üstündə qurub düzəltməyə çalışdım. Bu ölçü üzərində gördüyümüz işlərdə, həmişə yüzdə-yüz müvəffəqiyyətimizin təmin olunduğu əməl də mənə aydın oldu. Bir sözlə, o gündən etibarən gücümüz, hədəfimiz və

[645] Onullahi Seyidağa. İranda milli məsələnin qoyuluşu// Güney Azərbaycan: Tarixi, siyasi və kulturoloji müsrəvidə (Məqalələr toplusu). Bakı, Azərnəşr, 2010, s.8
[646] Pişəvəri Seyid Cəfəri. Zindan xatirələri. Bakı: Bakı çap evi, 2014, s.103

zəifliyimizin xalqda olduğunu tam mənası ilə dərk etdim. Bu həqiqəti nəzərdə tutmayan zaman yoldan azır və xalqdan uzaqlaşmaqla, işlərimizin qaldığını hiss etməyə başladım”.[647]

Ona görə, xalqla partiya, xalqla lider arasındakı münasibətlər həmişə şəfaf olmalıdır. Özəlliklə də, xalq arasındakı təbəqələri xüsusi mülkiyyət və sair məsələlərə görə üz-üzə qoymaq doğru deyildir. Bu baxımdan o, dəfələrlə bildirirdi ki, ADF sinfi mübarizə uğrunda çalışmır: “Firqəmiz milli bir firqə olduğu üçün sinif və təbəqə nəzərdə tutulmayıb. Ümumi camaatı öz bayrağı altına çağırır”.[648] Sadəcə, milli hərəkatdan kimlərsə sui-istifadə edib zəhmətkeş təbəqəni əzmək istəyəcəksə, o zaman belələrinə qarşı ADF-nin rəftarı çox sərt olacaqdır.[649] Eyni zamanda, əllərinə fürsət, qüdrət düşərsə, Azərbaycanı tərk edib Tehranda və ya ayrı şəhərlərdə Azərbaycanın gündən-günə genişlənən azadlıq hərəkatına düşmən olan xainlərin əmlakını müsadirə edib, ehtiyacı olanların ixtiyarına verilməsini təmin edəcəklər. O, yazırdı: “Xalqın əlinin zəhməti ilə toplanmış sərvət onun azadlığı əleyhinə sərf edilə bilməz və buna yol vermək xəyanətdir. Firqəmizin bu şüarını mülkiyyət əleyhinə yazıb təfsir edənlərin alçaq və fitnəkar olduğu məlumdur. Aqrar məsələdə torpaq islahatı keçirmək üçün bütün mütərəqqi dövlətlərin proqramında olduğu halda, torpaqsız və aztorpaqlı kəndlini himayə etməyimizi bizə günah hesab etmək olmaz”.[650]

O yazırdı ki, Tudə Partiyası ətrafında sol hərəkatın qabağını almaqla milli şüarın daha tez yazılmasına çalışıblar. Burada da əsas məqsəd, “sol hərəkat”dan əsasən uzaq duran kəndliləri və xırda malikləri ADF-yə cəlb etmək olmuşdur: “Bu vasitə ilə biz solluq və avam fırıldaqçılıq zərbəsilə firqəni əlində alət edən adamların qarşısını alıb, eyni zamaqnda xalqın firqəyə hüsn-rəğbət göstərməsini təmin etmiş olduq. Bu düzgün siyasətin nəticəsi idi ki, camaatın ümumi təbəqəsi, hətta ruhanilər, ortabab kəndlilər və xırda maliklər də bizim şüarımızı qəbul etdilər”.[651]

“Sol hərəkat”dan, başqa sözlə kommunizmdən bir qədər

---

[647] Pişəvəri S.C. Məqalələri. Bakı: Azərnəşr, 2016, s.215-216
[648] Yenə orada, s.39
[649] Yenə orada, s.127
[650] Yenə orada, s.131
[651] Yenə orada, s.153

uzaqlaşıb daha çox mərkəzçi, yəni demokrat mövqe tutmasını Pişəvəri belə izah edirdi ki, kommunistlərin xüsusi mülkiyyətin ləğvi və digər prinsipial tələbləri var idi, həmin dövrdə bunu həyata keçirmək mümkün deyildi. O, yazırdı: "Həqiqətdə bizim firqəmiz Kommunist firqəsi deyildi. Biz Azərbaycanda olan şərait daxilində xüsusi mülkiyyəti ləğv edə bilməzdik. Hizbi-Tudənin böyük səhvini təkrar etmək bizə yaramazdı. Biz eləyə bilməzdik ki, milli bir firqə olduğumuz halda birinci addımda sinfi mübarizəni alovlandıraq. Bizim hədəfimiz Azərbaycanda milli və demokratik bir rejim yaratmaq və dərəbəylik rejiminin kökünü qazıb aradan qaldırmaq və xalqı müasir, mütərəqqi yola çəkməkdən ibarət idi. Ona görə kommunist və ya sosialist adını üstümüzə qoya bilməzdik". [652]

O, daha sonra yazırdı: "Torpaq bölgüsü və mülkiyyəti ləğv etmək məsələsi Azərbaycanın və İranın o günkü şəraitində mümkün olan iş deyildi. Bundan ötrü xalq, xüsusən kəndlilər hələki layiqincə hazırlanmamışdı. Doğrudur, Azərbaycanda torpağın ən mühüm hissəsi mülkədarların ixtiyarındadır. Bununla belə yüz minlərlə xırda malik və az torpaqlı kəndliləri də narahat etmək olmazdı. Yeganə yaşayış vasitəsi olan torpaqdan onları məhrum etməyə yol verilməməli idi. buna görə biz məramnaməmizdə, xüsusi mülkiyyəti ləğv etməyib onu saxlamağı qeyd etmişdik". [653]

Ancaq Pişəvəri bundan az sonra keçirilən birinci Kəndli konfransındakı (1846, aprel) nitqində deyirdi ki, mümkün olduğu qədər istifadəsiz olan torpaqları kəndlilərə pulsuz veriblər, çünki milli azadlığın əsas zamini kəndlilərdirlər: "Əgər kəndli olmasaydı, biz onu əldə edə bilməzdik. Kəndlilər bu Hökuməti yaratdıqları üçün onun arxasında dururlar". [654] Pişəvəri dana sonra deyirdi ki, Azərbaycanın birinci və həqiqi ağası kəndlilər olduğu üçün torpaq bölgüsü, yer bölgüsü zamanı hampa ilə torpaqsız kəndli arasında narazlıq olmasın. Başqa sözlə, kəndlilərlə hampalar yer bölgüsünü qardaşcasına həll edib, bu ölkənin azadlığını da bir yerdə qorumalıdırlar. [655]

Pişəvəri **din** məsələsinə də ehtiyatla yanaşmış, hər vaxt Milli

---

[652] Pişəvəri S.C. Xatirələr. Bakı: ADF-nin nəşri, 2005, s.123
[653] Yenə orada, s.123
[654] Pişəvəri S.C. Məqalələri. Bakı: Azərnəşr, 2016, s.290
[655] Yenə orada, s.291

hökumərlə ruhanilər arasındakı tarazlığı qoruyub saxlamağa çalışmışdır. O, yazırdı ki, din məsələsində aparılan doğru taktikanın nəticəsində ruhanilər Milli hərəkatın qalib gəlməsi üçün çalışıblar, ən azı dualar ediblər: "O vaxt mən eşidirdim, firqəyə mənsub olmayan adamlar xalqın milli nehzətinə tərəfdarlıq edirdilər. Məscidlərdə, minbərlərdə milli nehzətimizin irəliləyişi üçün dua edirdilər. Xalq hiss etmişdir ki, biz onun məzhəbi hissiyyatına müxalif deyilik. Amma bu təziyə nə qədər ağıllı olsa, o qədər əzəməti və təsiri artıq olar. Biz çalışacağıq xalq düşmənləri əzadarlıqdan öz siyasi məqsədləri üçün istifadə etməsinlər. Mürtəcelər bu əzadarlıqlardan da sui-istifadə etmək istəyirlər".[656]

O, yazırdı: "Azərbaycan ruhaniləri bunu yaxşı bilirlər ki, Rza xan işə başlayanda xalqı aldatmaq üçün əvvəl özü dəstə başına düşürdü, sonra isə məscidləri bağlatdırırdı, dindar üləmaları təhqir etdirirdi. Ruhanilər bunu yaxşı bilirlər ki, diktatorluq onların xeyrinə deyil, diktatorlar əvvəl xalqı aldatmaq üçün əvvəl özlərini məzhəbə bağlı qələmə verib, sonra məzhəbin əleyhinə işləyirlər. Bunu gözümüz görüb".[657] Pişəvəri güman edirdi ki, ruhanilər də xalqı yaxşı yola hidayət etmək üçün azadlığın lazım olduğunu dərk edirlər. Çünki azadlıq olsa, onlara xalqı haqq yola dəvət etməyə imkan yaranır. Onun fikrincə, bu baxımdan ruhaniləri ələ almaq isteyən Tehran hökumətinin fırıldağını onlar anlamalı və bu oyuna getməməlidirlər: "İndi Tehrandakı mürtəcelər bu məsələdən istifadə etməyə çalışırlar, amma onlar bu yoldan istifadə edə bilməyəcəklər. Mən fikir edirəm ki, bizim ruhanilərimiz fövqəladə mətin və yaxşı adamlardır. Təcrübə göstərib ki, onlar xalqımızın nehzətinin əleyhinə olmamışlar. Buna görə firqəmiz onlara artıq dərəcə ehtiram və izzət qaildir. Bizim xalqımız ayıq, düzgün və imanlı bir xalq olduğu üçün mürtəcelərin əlində alət olmayacaq. Ruhanilərimizə gəldikdə onlar irticadan uzaq adamlardır".[658]

Pişəvərinin yaradıcılığında soial fəlsəfə ilə bağlı olan **dil və milliyyət** məsələsi də xüsusi yer tutmuşdur. Onun fikrincə, Ana dilinin kökü xalqımızn qanında və ürəyindədir. O, yazırdı: "Biz onu

[656] Yenə orada, s.405
[657] Yenə orada, s.405
[658] Yenə orada, s.406

(Ana dilini-F.Ə.) ana südü ilə əmib, vətənimizin ruhu oxşayan havası ilə tənəffüs etmişik. Onu təhqir edənlər, onu bizə zorla qəbul etdirildiyini və süni olduğunu göstərmək istəyənlər bizim həqiqi düşmənlərimizdir. Çox xain və əcnəbi ünsürlər qərinələr ilə bu gözəl dili ortadan götürməyə çalışmışlar. Onun tərəqqisinə və yaşamasına mane olmaq qəsdi ilə xüsusən ən qəddar azadlıq düşməni olan Rza şah dövləti var qüvvəsini sərf etmişdir". [659] O, daha sonra yazır: "Azərbaycan dili süni bir deyil. Onun böyük xalqı və geniş camaat qüvvəsi kimi arxası var. Dilimiz xalqın yaratdığı dastanlar, zərbi-məsəllər, hekayə və nağıllar vasitəsilə dünyanın ən böyük dilləri ilə rəqabət edə bilər, şairlərimiz, ədiblərimiz bu dil vasitəsilə öz hislərini, hünər və sənətlərini meydana gətirib xalqın nəzərini cəlb edə bilərlər. Bizim vəzifəmiz onu genişləndirmək, onu müasir hala salmaq, onun gözəlliklərini, incəliklərini, hiss və dəyərlərini toz-torpaq arasından çıxarıb, təmiz və ali bir zərf içərisində xalqa təqdim etməkdən ibarətdir". [660] Pişəvəriyə görə, Azərbaycan dili o qədər qüvvətli, sərf-nəhv qaydaları o qədər möhkəm və təbiidir ki, hətta onun içinə daxil edilmiş fars və ərəb kəlmələri çıxarılsa belə, onunla böyük fikirləri, ali məqsədləri yazıb şərh etmək mümkündür. Lakin biz xalqın istedadını nəzərdə tutub bu işi tələsik görməyə ehtiyac hiss etmirik. Əqidəmizə görə yazı gərək xalqın danışdığı və anladığı bir şivədə verilsin. Məqsədimiz ədəbi müsabiqə deyil, xalqı başa salmaq, ona həqiqəti aydın bir surətdə göstərməkdir. Bu cəhətdən biz xalq tərəfindən qəbul edilib işlədilən ərəb və fars kəlmələrinin müvəqqəti olsa belə saxlamaq lüzumunu inkar etmirik. Lakin onları öz dilimizin qaydalarına təbiq edib, onun ahənginə uyğun bir hala gətirməliyik". [661]

O hesab edirdi ki, dünyada elə bir dil tapılmaz ki, o tamamilə müstəqil olsun və qonşu dillərin təsirinə düşməsin: "Bizim Azərbaycan dili də Azərbaycanın tarixi və coğrafi mövqeyinə görə əcnəbi dillərin təsirindən kənarda qalmamışdır. İstər-istəməz bir çox yad kəlmələr xalqımızın ağzına düşmüş və zaman-zaman onlar milliləşmişdir. Biz dilin təkamülünü nəzərdə tutub o kəlmələrdən

---

[659] Yenə orada, s.46
[660] Yenə orada, s.46
[661] Yenə orada, s.47

istifadə etməyi lazım bilirik. Lakin bundan sui-istifadə edib dil və yazını qəlizləşdirməyə və mənası anlaşılmaz kəlmələri işlətməyə çalışanlara ciddi müxalifət etməliyik".[662]

Milli dilin əhəmiyyəti ilə bağlı başqa bir məqaləsində Pişəvəri çox doğru qeyd edirdi ki, ölümə hazır olmayan, qurban verməyən bir millət yaşaya bilməz, ona yaşamaq haqqı verilmir və bu yolda əsas məsələ dil problemidir: "Xalqı mübarizəyə cəlb etmək yolunda dil məsələsi də olduqca önəmli təsir buraxan məsələdir. Yarıfars və yarıazərbaycanca yazmağa başladığımız "Azərbaycan" qəzeti çox tez bir zamanda farscadan xilas olub, yalnız azərbaycanca nəşri xalqın hörmət və məhəbbətini tez bir zamanda özünə cəlb etdi. Xalqın birbaşa ana dilini işlətməyə başlamsı fövqalədə maraq kəsb etmiş oldu. Məsələn, 12 şəhrivər bəyannaməsində şüarlarımız meydana çıxan gündən xalqın məhəbbətini qazandı. Misli görülməmiş və kimsənin ağlına gəlməyən bir məsələ də teleqrafın Azərbaycan dilində yazılması idi".[663]

O, dəfələrlə qeyd edirdi ki, milli dil məsələsi azərbaycanlılar üçün çox mühüm və əsasdır. O, yazırdı: "Məlumdur ki, əhalimiz qərinələrdən bəri öz ana dili ilə danışmış və danışmaqdadır. Bu dilə qarşı qaba, heç bir dəlill və sübuta söykənməyən, həqiqətləri danmağa çalışanların əllərində qane edici heç bir şey yoxdur. Altı, yeddi yaşında təzə dil açmış bir uşağa yabançı bir dili zorla qəbul etdirmək cinayətdir. Təlim-tərbiyə ilə məşğul olanların əksəriyyəti azərbaycanlıların əsəbiliyini bunda görürlər. Ana dilində yazıb oxumağı qadağan etmək maariflənmənin qabağını almaq, onun təkamülünə mane olmaqdır. Beş milyondan çox kənd və şəhərlərdə yaşayanlarımız bir tərəfə qalsın, hətta məhəlli məktəblərdə təhsil alanlarımız belə ömürlərinin axırına qədər fars dilini düzgün tələffüz etməkdə çətinlik çəkirlər".[664]

Pişəvəri xatırladırdı ki, Pəhləvilər hakimiyyətə gəlib (1925) Azərbaycanı parçalamaq siyasəti yürütməzdən əvvəl, Azərbaycanda ana dilində məktəblər, teatrlar var idi və milli dil inkişaf edirdi. Ancaq türk dilinin qadağan olması siyasəti ilə Azərbaycanda

---

[662] Yenə orada, s.47
[663] Yenə orada, s.49
[664] Yenə orada, s.76

vəziyyət dəyişməyə başladı. Pişəvəri deyirdi ki, bu gün onların əsas tələblərindən biri də Qacarlar dövründə olduğu kimi, ana dilində tədrisin yenidən bərpa edilməsidir.[665] Onun fikrincə, zorla, "milli vəhdət" adı altında bir xalqın dilini dəyişmək, yəni ana dilindəın məhrum edib başqa bir dilə, o cümlədən fars dilinə bağlamaq mümkün deyildi. O, yazırdı: "Bunlar bilmirlər ki, dilin rişəsi anaların sinəsindən və xalqın adab və rüsumu olan ocaqlar başından qalxır. Nə qədər analar dili və ocaqları yanmaqdadır, bir xalqın dilini və adab-rüsumunu əvəz etmək mümkün olan iş deyildir. Milli birlik o vaxt müəyyəsər olar ki, xalqın hamısı öz xüsusiyyətini və daxili azadlığını saxlamaqla tərəqqi edib, bir-birilə bərabər ola bilsin. Azərbaycan xalqı mərkəzin çürümüş və çirkin siyasətçilərinin siyasəti sayəsində özünün istedad və qabiliyyətinə baxmayaraq, hər cür azadlıq və ixtiyaratdan məhrum edilmişdir. Onun oğullarının öz ana dilində təhsil almaq imkanları olmamışdır".[666]

Pişəvərinin imzaladığı Azərbaycan Milli Hökumətinin (1946-cı il 6 yanvar) dil haqqında qərarı ilə ana dilində təhsil almaq məsələsi kökündən həll olunmuşdur. Həmin qərarın ilk maddəsində yazılmışdır: "Bu gündən etibarən Azərbaycanda Azərbaycan (türkcəsi) dili rəsmi dövlət dili hesab olunur. Dövlətin qərarları və rəsmi elanlar, həmçinin xalq qoşunları hissələrinə verilən əmrlər və qanun layihələri mütləq Azərbaycan dilində yazılmalıdır".[667] Eyni zamanda, bu qərarda göstərilirdi ki, bütün idarələr öz işlərini Azərbaycan türkcəsində yazmağa məcburdurlar, bu dildə yazılmayan sənədlər rəsmi sənəd hesdab olunmayacaq. Bununla yanaşı, Azərbaycanda yaşayan başqa millətlərin nümayəndələri öz işlərini ana dillərində aparmağa haqlı olsalar da, lakin öz rəsmi elan və yazılarında Azərbaycan dilini işlətməyə məcburdurlar. Eyni şəkildə, Azərbaycanda yaşayan azlıqlar xüsusi milli məktəblərindəki təhsili öz ana dillərində olduğu halda, Azərbaycan dilinin tədrisi də məcburidir.[668]

Pişəvəri yazırdı ki, Milli hökumət dövründə onların dil məsələsi barəsində şüarları olduqca əməli və sadə idi: "Firqə Azərbaycan

---

[665] Yenə orada, s.77
[666] Pişəvəri S.C. Xatirələr. Bakı: ADF-nin nəşri, 2005, s.76
[667] Rəhimli Əkrəm. Seyid Cəfər Pişəvəri. Bakı, Nurlar NPM, 2009, s.217
[668]Yenə orada, s.217-218

dilinin rəsmi surətdə qəbul edilməsi tələbini sürməklə iftixar kəsb edə bilmişdi. Dilimiz yeni bir dil deyildir. Onun qədim keçmişi olduğunu kimsə inkar edə bilməz. Bu dildən Dədə-Qorqud hekayələrindən başlayaraq, zəmanəmizədək yazılıb, intişar verilən qiymətli əsərlər o dilin geniş və mədəni bir dil olub qərinələr boyu davam etməsini isbat etmişdir. Xalq isə neçə qərinə fars istilasına məruz qaldığı halda, öz dilini hifz edib ona ürəkdən bağlı oldğunu göstərmişdilər". [669] Pişəvəri Azərbaycan xalqının qədim bir dil olmasını yazmaqda nə qədər haqlı olsa da, ancaq xalqın əsrlərboyu fars istilasına məruz qaldığını yazmaqda əsasən haqsız idi. Çünki Azərbaycan türkcəsi yalnız Əhəmənilər və Sasanlar dövründə müəyyən qədər sıxıntılar yaşamış, ancaq ondan əvvəlki və sonrakı dövrlərdə ciddi problemlər üzləşməmişdir. Yalnız irançı Pəhləvilərin qeyri-qanuni hakimiyyətə gəlişindən sonra Türk dili bəlkə də, tarixdə bənzəri olmayan bir problemlə üz-üzə qalmışdır ki, bu da, farsların minillik hakimiyyətsizlikdən irəli gələn şovinistliyinin, barbarlığının təzahürü idi. Bunu, Pişəvərinin aşağıdakı fikirləri də təsdiq edir: "Farslar Azərbaycan dilini inkar etməklə, bizim milliyyətimizi də rədd edirdilər. Onların içərisində elə həyasız adamlar var idi ki, azərbaycanlıların danışdıqları dili fars dilinin bir şöbəsi olduğunu deməkdən belə çəkinmirlər. Azərbaycanda fars dili dövlət dili olduğundan, fəqət qüdrət hesabına məktəblərdə tədris edilir, zorla idarələrdə işlənirdi. Həqiqətdə azərbaycanlılar o dildə təhsil aldıqdan sonra belə dürüst tələffüz edə bilməzlər. Xalqın əksərini təşkil edən zəhmətkeş kütlə isə öz ana dilindən qeyri, məsələn, fars dili ilə öz fikirlərini söyləməyə qadir deyildi. Azərbaycanlılar həmişə öz ana dillərinə nisbət çox təəssübkeş olub, o dili təhqir edənlərə qarşı bəslədikləri nifrəti gizlədə bilməz və bu hissi gizlətmək də istəməzlər".[670]

Pişəvəri daha sonra yazırdı ki, darslar azərbaycanlıları sadə, düzgün və şücaətli tanıdıqlarına görə azadlıq meydanında onlara çata bilməyəcəklərini də heç vaxt unutmaz: "Yeri gəldikdə onu söyləməkdən belə çəkinmirlər. Azərbaycanlı özünü iranlı adlandırdığı halda hərgiz fars adlandırmazdır. Bu səbəblərə görə bizim dil azadlığı şüarmız xalq içərisində daha artıq təsir bağışladığı

[669] Pişəvəri S.C. Xatirələr. Bakı: ADF-nin nəşri, 2005, s.81
[670] Yenə orada, s.82

kimi düşmənlərimizin daha şədid etirazına səbəb oldu. Rza şahın Azərbaycanı qaranlıqda saxlamaq üçün onun apardığı xainanə siyasət nəticəsində vaxtilə İranın abad, mütərəqqi şəhərləri hesab olunan Təbriz, Ərdəbil, Urmiyyə, Xoy sənaye cəhətdən fövqəladə bir surətdə geri qalmış, nəticədə minlərcə azərbaycanlı öz ana yurdunu tərk edərək, Mazandaran, Xuzistan və sair məntəqələrdə iş aramağa məcbur olmuşdu". [671]

Onun fikrincə, dil və milliyyət məsələsi Azərbaycan xalqının ölüm-dirim məsələsidir. Bu dili fars dilinin bir şöbəsi hesab edənlər isə həqiqəti danmaq yolunu tutublar. O, yazırdı: "Bu dili danmaq həqiqəti danmaq kimidir. Bizim içimizdə elə adamlar var ki, özü fars dilini bilmədiyi halda, deyir mənim dilim fars dilidir. Mən demirəm ki, fars dili pisdir, deyirəm mənim dilim azərbaycan dilidir. Öz dilini danan azərbaycanlı xain deyil, nədir?".[672]

Pişəvəri hesab edirdi ki, Azərbaycan xalqının dilini fars dilinə, milli kimliyini fars kimliyinə bağlamaq kökündən yanlışdır. Xüsusilə də, fars millətçilərinin iddia etməsi ki, azərbaycanlılar moğolların dövründə dillərini dəyişiblər, bunun heç bir ciddi əsası yoxdur. O, yazırdı ki, Kəsrəvi kimləri nə qədər öz dillərini və kimliklərini danıb farsmənşəli "azəri dili", "azəri" kimliyinə aldansalar da, Azərbaycan xalqı heç vaxt fars dilini və fars kimliyini qəbul etməmişdir. Ona görə, Azərbaycan mütəfəkkirlərinin (Nizami, Xaqani və b.) fars dilində əsərlər yazaması da onlar fars olmasına dəlalət edə bilməz, çünki ərəb, fransız, ingilis olmadıqları halda bu dildə yazıb yaradan başqa xalqların mütəfəkkirləri kifayət qədərdir. O, yazırdı: "Azərbaycanlıların fars olmadıqları da tarixdə isbat edilmiş bir hadisədir. Azərbaycan xalqı isə neçə min illik istila və əsarətə baxmayaraq, hər vaxt özünün xüsusiyyətini əldən verməyib...".[673]

Burada təəssüf doğuran hal odur ki, Pişəvəri də ən azı min illik Türk dövlətlərinin varlığını bir kənara qoyub, 19-cu əsrdə ortaya atılan "irançılıq/aryaçılıq" ideyasının təsiri altında Azərbaycan xalqının daima "İran" imperiyasının əsarəti altında olduğunu yazır. Yuxarıda da qeyd etdiyimiz kimi, "irançılıq" ideyasının mahiyyətini

---

[671] Yenə orada, s.82
[672] Pişəvəri S.C. Məqalələri. Bakı: Azərnəşr, 2016, s.373
[673] Yenə orada, s.248

tam dərk edə bilməyən Pişəvəri "2500 illik İran şahlığı" uydurmasının təsiri altında Azərbaycan xalqını, Azərbaycanı da bu "şahlığ"ın əsarəti altında göstərmişdir. Belə anlaşılır ki, F.İbrahimi kimi Pişəvəri də Midiyanın süqutundan 1945-ci ilə qədərki dövrü "İran şahlığı" dövrü hesab edir və Azərbaycanı da onun tərkibində istila, əsarət altında görür: "Bu xalqın mənşəyi və babalarının (Qeyrətli Midiyalıların) böyük bir dövlət təşkil edib, uzun illərcə müstəqil siyasi həyat sürdüklərini də irəli çəkməliyik. Səfəvi sultanlarının Azərbaycan oğullarından təşkil etdiyi Qızılbaş ordusunun bugünkü İranın təşkilində gördükləri böyük işlər və göstərdikləri böyük qəhrəmanlıqdan da bəhs etməyə geniş vaxtımız yoxdur". [674] Görünür, məhz uydurma "irançılıq" ideyasının təsiri altında Pişəvəri hesab edirdi ki, Səfəvilər dövlətinin qurucuları azərbaycanlılar-qızılbaşlılar olsalar da, onlar da "İran şahlığ"ına aiddirlər. O, yazırdı: "Əgər indi İran hökuməti varsa, onu icad eyləyən Azərbaycanın qızılbaş ordusu olmuşdur. Bu ölkəni, beş-altı şeyx Azərbaycan kəndlilərinin zoru ilə yaratmışdır". [675] Bunu, nəzərdə tutaraq o, tez-tez vurğulayırdı ki, "İran" dövləti azərbaycanlılar vasitəsilə təsis olunmuşdur.[676]

Beləliklə, o da, əsasən hesab edirdi ki, 2500 illik dövrdə Azərbaycan "İran"ın istilası, əsarəti altında olmuşdur. Üstəlik də, bu 2500 ilik "İran şahlığı" istilası, əsarəti dövrünə baxmayaraq Azərbaycan xalqı heç bir məntiq olmadan guya "irançılığı", "iranlılığı" qəbul etdiyi halda, sadəcə fars dilini və fars kimliyini özündən uzaq tutub. Şübhəsiz, birincisi, 2500 illik "İran şahlığı"nın özü başdan ayağa uydurma idi və onun böyük bir dövrü "Turan/Türk xaqanlığı" ilə bağlıdır. İkincisi, Azərbaycan xalqı istər fars imperiyaları (Əhəmənilər, Sasanlar), istərsə də Türk imperiyaları (Midiya, Hunlar, Parfiya, Qəznəvilər, Səlcuqlar, Oğuzlar, Çingizxanlar, Teymurlar, Səfəvilər, Əfşarlar, Qacarlar və b.) dövründə əsasən türklüklə bağlı olmuşlar. Həmin Türk dövlətlərini (Midiya, Parfiya, Səlcuqlar, Səfəvilər və b.) çoxunu Azərbaycan türkləri yaratdıqları halda, indi onu "İran şahlığı" adına bağlayıb,

[674] Yenə orada, s.32
[675] Yenə orada, s.258
[676] Yenə orada, s.184

sonra da demək ki, "İran" dövləti azərbaycanlılar tərəfindən yaradılıb, ancaq biz öz yaratdığımız dövlətlərin əsarəti altında olmuşuq, bunun bir məntiqli izahı yoxdur.

Burada bizim milli kimliyimizi, milli dilimizi, milli dövlətçilik ənənlərimizi, milli mədəniyyətimizi "Qordion düyünü"nə salan ən azı son iki əsrdə aparılan uydurma "irançılıq" ideyasıdır. Xüsusilə də, ingilislərin (qismın də yəhudilərin) başını çəkdiyi "irançılıq" ideyası elə bir formada ortaya atılmış və təbliğ edilmişdir ki, burada fars kilmliyi, fars dili, fars mədəniyyəti, fars dövlətçiliyi şişirdilərək türk kimliyi, türk dili, türk mədəniyyəti, türk dövlətçiliyini kölgədə qoymuşdur. Bununla da, dünənə qdər (1925) bu ölkənin, bu coğrafiyanın hakimi və yerli əhalisi olan Türk xalqı Fars xalqının qarşısında xüsusilə də, milli şüur baxımından məğlub duruma gətirilmişdir. Üstəlik, bu bölgədə, coğrafiyada Türk kimliyinin, Türk dilinin, Türk mədəniyyətinin, Türk dövlətçiliyinin saxtalaşdırılması və unutdurulması fonunda, ən böyük zərbə böyük Turan/Türk dövlətlərinin daima mərkəzi olmuş Azərbaycana, Azərbaycan türklərinə vurulmuşdur. Bu məsələdə aktiv rol oynayan İngiltərə və Rusiyanın türkləri, xüsusilə də Azərbaycan türklərini sıradan çıxarıb (Azərbaycan Türk mərkəzli hakimiyyəti çökdürmək yolu ilə), onun yerinə farsları hakimiyyətə gətirməkdə (İran Fars mərəkəzli hakimiyyəti təsis etməklə) əsas məqəsdləri indi "İran" adlanan ölkəni nəzarəti altında saxlamaq, dünya ağalıqlarını gücləndirmək olmuşdur.

Bu bir gerçəklidir ki, İngiltərə və Rusiya imperiyalarının ən azı son iki əsrdə bu bölgədə oynadıqları oyunların ən böyük qurbanı da Azərbaycan türkləri olmuş, bu xalq yalnız hərb meydanlarında deyil, milli şüur baxımından da böyük yaralar almışdır. Hər halda son dövrlərdə Azərbaycan xalqının ziyalılarının milli təfəkküründə yaranmış yarımçıqlıqlar onların dünyagörüşlərinə, ictimai-siyasi fəaliyyətlərinə, fəlsəfi-dini dünyagörüşlərinə də ciddi şəkildə təsir göstərmişdir. Bizcə, XX əsrdə yaşayıb yaratmış Rəsulzadənin, Ağaoğlunun, Hüseynzadənin, Nərimanovun, Xiyabaninin, Pişəvərinin və başqa aydınlarımızın dünyagörüşlərində ortaya çıxan müəyyən ziddiyyətlər ümumililkdə Azərbaycan Türk təfəkküründə yaranmış yarımçıqlılarla bağlıdır.

Bu baxımdan Pişəvərinin milliyyət məsələsində farsla heç bir əlaqəsi olmayan "Azərbaycan milləti", "azərbaycanlı", "Azərbaycan dili" anlayışlarını müdafiə etməklə yanaşı, yanlış olaraq ümumi hesab etdiyi "iranlı" kimliyini, "İran dövlət"çiliyini də qəbul etməsi, bəhs etdiyimiz Azərbaycan türk təfəkküründə otaya çıxmış naqisliklərlə bağlıdır. Özü də, burada diqqət yetirsək görərik ki, bəzi mütəfəkkirlərimiz kimi Pişəvəri də, "iranlı" kimliyini, "İran mədəniyyətini" fars kimliyi, fars mədəniyyəti, fars dili kimi aşağı-yuxarı qəbul etdiyi halda, ancaq "Azərbaycan milləti", "azərbaycanlı", "Azərbaycan dili" anlayışlarınının sinonimi olaraq türk milləti, türk dili, türk mədəniyyəti məfhumlarına müraciət etmir. Şübhəsiz, burada sosial-demokratizmə balılıqla yanaşı, Sovet Rusiyası ideologiyasının təzyiqi də mühüm rol oyamışdır. Çünki 1930-cu illərin oratalarından etibarən Sovet Rusiyası türk, Azərbaycan türkü anlayışlarını qəbul etmir və yalnız qeyri-müəyyən "Azərbaycan milləti", "azərbaycanlı"lıq üzərində dayanırdı. Məhz bunun nəticəsi idi ki, Pişəvəri "azərbaycanlılığ"ın, "azərbaycan dili"nin fars dili, fars kimliyi ilə heç biri bağlılığının olmadığını irəli sürsə də, ancaq ümumilikdə "iranlı" kimliyinin içində qəbul edir, türk kimliyini idə bir kənara qoyurdu. Başqa sözlə, o, bir tərəfdən dəfələrlə xatırlatsa da ki, azərbaycanlı özünü "iranlı" adlandırdığı halda, heç vaxt fars adlandırmaz,[677] ancaq bizcə, azərbaycanlının, Azərbaycan türkünün "iranlı" olmaqla razılaşması heç də fars adlandırmaqdan az təhlükəli deyildi.

Bu baxımdan, araşdırdığımız dövrlə və həmin dövrün mütəfəkkirlərinin, o cümlədən də Pişəvərinin dünyagörüşündəki ziddiyyətləri anlamaq üçün burada əsas diqqət edəcəyimiz məsələlərdən biri də onların bir tərəfdən Azərbaycan türkü olaraq İranın ərazi bütövlüyünü, İran dövlətçiliyinin təhlükəsizliyini düşünməsi, digər tərəfdən bunu edərkən də "iranlı" olmaq məsələsidir. Birincisi, "İran" adı altında coğrafiyanın, dövlətin bütövlüyü "iranlı" olmaqla səsləşə də, bu Pəhləvilərin hakimiyyətindən sonra (1925) və "İran" adının rəsmiləşməsi ilə bağlıdır (1935). Hər halda, 1925-ci ilə qədər (ən azı son minillikdə) bu ölkəni bütövləşdürən də, onun təhlükəsizliyini təmin edən də Türk dövlətləri olmuşdur. Yəni

[677] Yenə orada, s.169

"iranlı" olmaq və "İran" dövləti olmaq yeni dövrün məhsulu olduğu halda, türkün şüurundakı dövlətçilik, ərazi bütövlüyü məsələsi hər daim olmuşdur. Ona görə də, yeni dövrdə türklərin əksəriyyəti əski dövlətçilik şüuru baxımından "İran" və "iranlı" anlayışlarını mənimsəmməkdə çətinlik çəkmədikləri halda, sadəcə olaraq bu "irançılığı"ın mahiyyətindən irəli gələn farslığı, aryançılığı əsla qəbul etməmişlər. Halbuki fars millətçiləri üçün türklərin "İran", "iranlı" anlayışlarını qəbul etməyin özü, aryançılıq anlamında fars dilinə və fars kimliyinə assimilyasiya olunmaq üçün ciddi ideoloji bir addım idi. Başqa sözlə, türklər "İran", "iranlı" anlayışlarını dövlətçilik və ərazi bütövlüyü çərçivəsində yanaşdıqları halda (bunu əsil mahiyyətini dərk edib, ya da etməmələrindən asılı olmayaraq), farslar üçün isə bu, türklərin aryançılığı (fars dilinə, fars kimliyinə, fars mədəniyyətinə) qəbul etdirib, farslaşdırmaq yolunda lazım idi.

Bizcə, məsələnin əsil mahiyyətini çılpaqlığı ilə dərk etməyən, "iranlılığı farslığa qarışdıran cahillər"lə[678] razılaşmayan Pişəvəri də, bu anlamda "iranlı" kimlyinə yad baxmır, daha çox fars dili, fars kimliyi üzərindən farslaşdırmanın aparılmasının əleyhinə çıxırdı. Ona görə də, tez-tez xatırladırdı ki, "İran" dövləti azərbaycanlılar vasitəsilə təsis olunmuşdur[679] və Azərbaycan xalqı ümumiyyətdə iranlı olsa da, xüsusiyyətdə azərbaycanlıdır.[680] Halbuki Azərbaycan xalqı üçün əsas təhlükə məhz "ümumiyyətdə iranlı" kimi qalmağa davam etməsi, Türk dövlətlərini "İran dövlətçiliyi" adı altında, özü də "iranlı" kimi qəbul etməsi idi.

Beləliklə, bizcə, Pişəvərinin düşüncələrində, siyasi fəaliyyətində xeyli dərəcədə sosial-demokratiya (xüsusilə də marksizm-leninizm) ideyasının, həmin ideyanın aparıcı qüvvəsi olan Sovet Rusiyasının ciddi təsiri və təzyiqi olmuşdur. Müəyyən mənada o, siyasi fəaliyyətdə və dünyagörüş məsələlərində N.Nərimanovun, Xiyabaninin yolunu təkrar etmişdir. Hər halda Pişəvəri də, Xiyabani və Nərimanov kimi, sosial-demokrat ideyasına, o cümlədən həmin ideyanın aparıcı qüvvəsi hesab etdiyi Sovet Rusiyasına böyük ümidlər bələmişdir. Ancaq bu ümidlər özünü doğrultmayanda daha çox milli-

---

[678] Yenə orada, s.329
[679] Yenə orada, s.184
[680] Yenə orada, s.344

demokrat mövqeyinə yaxınlaşsa da, tamamilə ondan qopa da bilməyib (N.Nərimanovla Xiyabani də eyni aqibəti yaşayıb). Yəni inandığı əsas məsələ o olub ki, Azərbaycan, Azərbaycan xalqı tarixən "İran şahlığı"nın istilası altında olmuş, hazırkı dövrdə sosial-demokratiya ideyasının (Kominterin) və Sovet Rusiyasının yardımı ilə tamamilə olmasa da, ən azı muxtar formada milli azadlıqlarına qovuşa bilərlər. Bizcə, Sovet ideoloqları Pişəvəriyi də inandırıblar ki, Azərbaycan xalqı üçün Milli İstiqlala qovuşmaq şəraiti yetişmədiyi üçün öncə, milli muxtariyyəti əldə etmək vacibdir. Milli istiqlal şəraiti yetişənə qədər də, Azərbaycan və Azərbaycan xalqı "İran istiqlaliyəti" və "iranlı" kimliyindən imtina etməməli idi.

Üstəlik, o da, Sovet Rusiyasının ideoloqlarının tarix, mədəniyyət, fəlsəfə kimi mühüm sahələrdə təsiri altına düşərək milli-dini (türklük, islamlıq) məsələlərdə yanlışlığa yol verib. O, Quzey Azərbaycanda sosial-demokrat əqidəsinə bağlı soydaşları kimi (N.Nərimanov, S.M.Əfəndiyev və b.), milli kimliyinin və ana dilinin türk olduğunu bildiyi halda, marksizm-leninizm təliminin təsiri, Sovet Rusiyası ideologiyasını təzyiqi altında bunu arxa plana keçirərək, sadəcə milli azadlıq idealını ön plana çıxarıb. Bu baxımdan Pişəvərinin yazılarında və çıxışlarında "Türk dili", "Türk milləti", "Azərbaycan türk milləti" deyil, əsasən "Azərbaycan dili", "Azərbaycan milləti", "Azərbaycan xalqı", "azərbaycanlılar" kimi ifadələrdən istifadə etməsi təsadüfi olmamışdı. Sovet Rusiyasının ideoloqları Azərbaycan milli hərəkatını mümkün olduğu qədər türklük ruhundan uzaq tutmağa çalışırdılar. Buna əsas səbəb də Sovet Rusiyasının ikinci Dünya müharibəsi ərəfəsində Türkiyəylə münasibətlərinin kəskinləşməsi, buna uyğun olaraq da bütün imperiya ərazisində, o cümlədən Şimali Azərbaycanda antintürk siyasət yürütməsi idi. Ona görə də, Sovet Rusiyası Azərbaycan milli hərəkatının türklük üzərində qurulmasının tamamilə əleyhdarı olub, əsas diqqəti sosial-demokratizmə və türklük ruhundan uzaq azərbaycançılığa kökləməyə çalışırdılar. Bütün bunlar Pişəvərinin dünyagörüşünə təsirsiz ötüşməmişdir.

## TAĞI ƏRANİ

**Həyat və yaradıcılığı.** Təbriz şəhərində, məmur ailəsində anadan olan Tağı Əraninin (1902-1940) ailəsi sonralar Tehrana köçmüşdür. Məktəbdə özünü çalışqan və çox fərasətli bir şagird kimi tanıtdıran Tağı 1920-ci ildə orta məktəbi uğurla qurtararaq Tehran Tibb institutuna daxil olub. O, Tehran Tibb institutunda oxuduğu illərdə Qacarlar dövlətində inqilabi çıxışlar baş verirdi. Ərani də, bu prosesdən kənarda qalmamış 1918–1920-ci illərdəki Azərbaycan milli hərəkatında fəal iştirak etmişdir.[681]

Ərani 1922-1928-ci illərdə Berlin universitetində fizika-kimya fakültəsində təhsilini davam etdirmiş, eyni zamanda könüllü dinləyici kimi fəlsəfə fakültəsinin mühazirələrində iştirak etmişdir. O, Berlin Universitetinin müdavimi kimi təhsil müddətində adlı-sanlı professorların, o cümlədən Albert Enşteyn və Maks Plank kimi dünya şöhrətli alimlərin mühazirələrini dinləmişdir.

T. Əraninin ilk tədqiqatları şərqşünaslıq sahəsinə aiddir. 1924-cü ildən etibarən onun Avropa şərqşünasları ilə sıx elmi və dostluq əlaqələri yaranmağa başlayır. Əraninin Berlinə gəldiyi vaxt orada alman, ingilis və digər xalqların alimlərindən ibarət bir qrup təşkil olunmuşdu və onlar Qot, Leyden, Sankt Peterburq kitabxanalarında və başqa elmi mərkəzlərdə qorunub saxlanılan Şərq klassiklərinin əlyazmalarının nəşr edilməsi vəzifəsini öz qarşılarına məqsəd qoymuşdular. Həmin qrupa Fr. Rozen, Ed. Braun, Məhəmmədxan Qəzvini, Mirzə Mahmud Qənizadə, Şəhidzadə, Tağı Ərani və başqaları daxil idilər.

Ərani tərəfindən klassik mütəfəkkirlərin nəşr olunmuş əsərlər arasında Ömər Xəyyamın "Evklidin kitablarındakı çətin müddəaların şərhi" kitabı xüsusi diqqət kəsb edir. Bu əsərin Leyden kitabxanasında qorunub saxlanılan əlyazması 1925-ci ildə Qot kitabxanasının köməyi ilə Berlinə çatdırılmış və burada Ərani onun üzünü köçürmüşdür.

O, 1928-1930-cu Berlin universitetində fars, türk, ərəb poetikası və məntiqdən dərs deməklə yanaşı, gizli martksist iniqlabi dərnəyə

[681]Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. 4 cilddə, 2-ci cild. Bakı, Elm, 1983, s.450

daxil olmuşdur. "O, 1930-cu ildə İrana qayıdaraq, Tehran universitetində fizika və kimyadan dərs demiş, eyni zamanda tələbələr arasında marksist ideyaları yaymışdır. 1934-1935-ci illərdə nəşr etdirdiyi "Dünya" məcmuəsində elmə, texnikaya, ictimai həyata, sənətə materialist baxımdan yanaşan məqalələri dərc olunmuşdur. 1935-ci ildə təsis etdiyi gizli mətbəədə İran Kommunist Partiyasının müraciətlərini çap etdirmişdir". [682]

O, 1930-cu ildən 1931-ci illədək Hərbi nazirliyin kimya zavodunda işləmiş, daha sonra 1936-cı ilədək müəllimlik etmişdir. 1936-cı ildən 1937-ci ilin aprelinədək, yəni həbs olunanadək Tağı Ərani Maarif nazirliyində təhsil şöbəsinin müdiri vəzifəsində də çalışmışdır.

Demək olar ki, 1930-cu illərdə İran Pəhləvilər rejimində kommunistlərin əsas lideri Ərani idi. Onun mətanəti və radikal inqilabi əhvali-ruhiyyəsi Tehran rəhbərliyini qəzəbləndirmiş və onun məhv edilməsi planı hazırlanmışdır. Mirzə İbrahimov da yazırdı ki, 1930-cu illərdə irqçi-faşist Pəhləvilər diktaturası terrorçuluğa əl atan zaman, buna qarşı olanların başında T.Ərani dayanmışdır: "Lakin bu terror və təqiblər də İranda inqilabi fikri, inqilabi hərəkatı öldürə bilmədi. Elə həmin illərdə məşhur inqilabçı, Azərbaycan xalqının böyük oğlu, alim və filosof Tağı Ərani "Dünya" jurnalını çap etməyə başladı. Bu jurnal inqilabi ideyaları, marksist-materialist dünyagörüşünü yaymaqda böyük rol oynadı. 1937-ci ildə İranda çoxlu yeni həbslər oldu. Ərani başda olmaqla İran Kommunist Partiyasının 53 ən görkəmli xadimini zindana atdılar. Bir az sonra məşhur "53-lər məhkəməsi" başladı ki, həmin məhkəmədə Əraninin beş saatlıq "müdafiə nitqi" İran inqilabi fikrinin ən qiymətli sənədlərindən olmaqla siyasi-bədii publisistikanın da kəsərli əsərlərindəndir". [683]

T.Ərani siyasi fəaliyyətinə və Rza şah diktaturasına qarşı çıxışlarına görə 1937-ci ildə həbs edilmişdir. Həbsxanada həm ağır xəstələnən, həm də işgəncələrə məruz qalan Ərani 1940-cı il fevralın 4-də 38 yaşında ikən Pəhələvilər rejiminin qurbanı olmuşdur.

---

[682] Şükürov Ağayar. Müstəqil dövrün fəlsəfəsi və filosofları. Bakı, "Sadə", 2007, s.34-35

[683] Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. 4 cilddə, 2-ci cild. Bakı, Elm, 1983, s.18

Ərani nəşr etdirdiyi əsərlərinin siyahısını özü belə yazmışdır: "Selseleye usule olume dəqiqe" (Ddəqiq elmlərin əsasları silsiləsi). Bu, beş adda kitabdan ibarətdir: 1. Fizik (fizika, iki cild); 2. Şimi (kimya, iki cild); 3. Bioloji (nəbatat, heyvanat); 4. Psixoloji (psixologiya); 5. Üsule maddiye dialektik (Dialektikanın materialist əsasları); Onun digər əsərləri: 1. Teorihaye elm (Elm nəzəriyyələri); 2.Bəşər əz nəzəre maddi (Bəşəriyyət materializm baxımından); 3. Ürfan və materializm; 4. Rübaiyyate Xəyyam (Xəyyamın rübailəri); 5. Qəzəliyyate Sədi (Sədinin qəzəlləri); 6. Nasir Xosrovun əsərləri; 7. "Dünya" jurnalı.

**İctimai-siyasi və fəlsəfi görüşləri.** O, marksist-leninçi fəlsəfəyə və digər sahələrə aid ("Dialektik materializm", "Fizka elminin əsasları", "Kimya elminin əsaları" və b.) əsərlərində əsasən materialist dünyagörüşündən çıxış etmişdiur. Onun materialist dünyagörüşü orta əsr şair və mütəfəkkirlərindən Xəyyamın, Sədinin, Nasiri Xosrovun və başqalarının əsərlərinə aid elmi-tənqidi izahlarında da özünü büruzə vermişdir. Azərbaycanın tanınmış fəlsəfəçi alimi, prof. Ağayar Şükürov yazır: "Əraninin fəlsəfi yaradıcılığında materialist dialektika, tarixi materializm və təbiətşünaslığın fəlsəfi problemləri mühüm yer tutur. V.İ.Leninin "Materializm və empriokritisizm" əsərinin İranda təbliğində mühüm rol oynayan Ərani materiya haqqında Lenin tərifinə yüksək qiymət vermiş, maxizm və ona yaxın idealist cərəyanları ifşa etmişdir. Ərani Kantın apriori "anlayışından", Hegelin "mütləq ruh" konsepsiyasından, Dekartın dualizmindən bəhs etmiş, Berklinin subyektiv idealizminin Şopenhaurenin irrasionalizminin mürtəce mahiyyətini açıb göstərmişdir. Ərani ictimai, inkişaf qanunlarının şərhində ardıcıl materialist mövqe tutmuşdur".[684]

"Atom dinamikası və dalğalar", "Laboratoriya və fizika-kimya sənəti", "Ümumi dialektika" adlı əsərlərində də Tağı Ərani əsas diqqəti materializm fəlsəfəsinə yönəltmişdi. T.Əraninin araşdırmaçılarından Əsəd Rza Yəqubi yazır ki, onun yaxın silahdaşları, o cümlədən sonralar İran Xalq Partiyasının (İXP) liderlərindən olan İrəc İskəndəri də xatirələrində azərbaycanlı materialist filosofun öz dövründə tanınmış bir sima olduğunu

[684] Şükürov Ağayar. Müstəqil dövrün fəlsəfəsi və filosofları. Bakı, "Sadə", 2007, s.35

yazmışdı: "İrəc İsgəndəri mənə ünvanladığı 20 dekabr 1956-cı il tarixli məktubunda bildirir ki, onun bir çox əlyazmalarında materializm fəlsəfəsi, Eynşteyinin nisblik nəzəriyyəsi ilə bağlı çox maraqlı elmi kəşflər vardır. İrəc İsgəndəri əlavə edir: ""Ərani elmi axtarışlarının son mərhələsində belə bir nəticəyə gəlmişdir ki, zaman, məkan, materiya, hərəkət və enerji – bunlar vahid birlikdə yerləşir. Bunu elmi dəlillərlə sübut etməyə, eləcə də Eynşteynin nəzəriyyəsini genişləndirib inkişaf etdirməyə çalışırdı"".[685]

Materialist filosof kimi Qərb mədəniyyətini təbliğ edən aryançı ideoloqlara qarşı çıxan Tağı Ərani yazırdı ki, Qərb mədəniyyəti özü böhran vəziyyətindədir. T. Ərani Qauptmanın (1862-1946), Kayzerin (1878-1945), Şpenqlerin (1880-1936) mistika və pessimizmini və xüsusilə Berqsonun (1859-1941) "Əxlaq və dinin iki mənbəyi" və "Yaradıcı təkamül" kitablarını da tənqid etmişdir. Ərani "Dünya" jurnalının 1-ci nömrəsinin redaksiya məqaləsində yazırdı: "Bizim gənclik nə sxolastik düşüncə tərzli köhnəpərəst qocaların öyüd və nəsihətləri ilə, nə də "ziyalı" müasirlərinin boş-boş danışıqları ilə biliklərə və elmlərə olan öz həvəsini təmin edə bilmir ki, bu da onun sağlam düşüncə yolundan azmasına və ümidsizləşməsinə səbəb olur. "Dünya" jurnalının tarixi rolu ondan ibarətdir ki, bu gəncliyə inkişafın həqiqi yolunu göstərsin, odur ki, yalnız materializm onu böhrandan çıxarmaq qabiliyyətinə malikdir."[686]

Ərani marksist dialektik metodun təbliğatı yönündə çıxış edir, gənclərin düşüncəsində həyat və mövcud dünya haqda realist təsəvvürlərin inkişaf etdirilməsinə, onlarda xoşbəxt gələcəyə ümid və optimizm bəxş etməyə çalışırdı. Ərani "Dialektik materializm" adlı silsilə məqalələrində marksist materialist dünyagörüşünü təbliğ edir və idealizmi tənqid edirdi. "Dialektik materializm nəzəriyyəsi – bu, insan təfəkkürünün inkişafının bu günədək əldə olunmuş ən yüksək səviyyəsidir." O, belə hesab edirdi ki, istənilən hər bir mütəfəkkir və ya yazıçı düşüncələrdəki problemlərdən xilas olmaq üçün həyata və cəmiyyətə dialektik materializm "optik şüşə"sindən baxmalıdır. T. Ərani A. Eynşteyni və M. Plankı isə ona görə tənqid edirdi ki, onlar

[685]Yəqubi, Əsəd Rza.Təqi Ərani: zəka və təvazö. ADF-nin saytı. 2020
[686] Yəqubi, Əsəd Rza.Təqi Ərani: zəka və təvazö. ADF-nin saytı. 2020

dialektik-materialist metodologiyasına malik ola-ola dəyərli elmi kəşflərindən gərəkli olan fəlsəfi nəticələri çıxarmayıblar.[687]

Ərani "Psixologiya", "Dialektik materializm", "Mistika və materializm", "Bəşəriyyət materializm nöqteyi-nəzərindən" və digər əsərlərində fəlsəfi təfəkkürün iki əsas cərəyanı – idealizm və materializmin Aristoteldən Berqsonadək və Demokritdən Marksadək tarixini nəzərdən keçirmişdir. O, "Dünya" jurnalında dərc olunan öz məqalələrində idealist fəlsəfənin tarixi və sinfi köklərini açıb göstərmişdir. "Dünya" jurnalı hakim ideologiyanın mənəviyyatdan kənar mahiyyətini ifşa edirdi, dini, monarxiyanı və ifrat şovinizmi qamçılayırdı.[688]

Əraninin "Dünya" jurnalını nəşr etdirməsi istibdad rejiminə qarşı etiraz hərəkatının ciddi şəkildə genişlənməsinə və canlanmasına imkan vermişdi. Xüsusilə də, "Dünya" jurnalının rasizmi ifşa etməsi və onun faşizmə qarşı qəti çıxışları getdikcə faşist Almaniyasından daha çox asılı vəziyyətə düşən Rza şahı özündən çıxarmışdı. Ona görə də, 1930-cu illərdə Rza şah ölkənin ən mürtəce qüvvələri başda olmaqla demokratiyanın son qalıqlarını da məhv etdi, ölkə konstitusiyasını kobudcasına pozdu, seçki, mətbuat, toplaşmaq və fikir azadlığını heçə endirdi. Ancaq bütün bunlar da Əraninin və onun silahdaşlarının siyasi fəaliyyətini dayandıra bilmədi. Onlar tam gücləri ilə Pəhləvilərə qarşı mübarizəni davam etdirirdilər.

Əsəd Rza Yəqubi yazır ki, Təqi Ərani despotizm əleyhdarı, sülh, azadlıq və yeniliyin yorulmaz carçısı idi. Eyni zamanda dəqiq elmlər sahəsində açıq qalmış bir sıra ümdə problemləri araşdırır, əldə etdiyi nəticələri nəşr etdirməyə hazırlaşırdı. Ancaq bütün üstüörtülü və məxfi tədbirlərə baxmayaraq Rza şahın qəddarlığından yan keçə bilməmşdi. Təqi Ərani rəsmi dairələrin xoşagəlməz münasibətlərinə qarşı etiraz əlaməti olaraq məktublarının birində yazırdı: "Mən, Avropada qalıb elmi axtarışlarımı davam etdirsəydim dünya şöhrəti qazana bilərdim. Məni, vətənə xidmət vəzifəsi İrana dönməyə məcbur etmişdir".[689]

---

[687] Yəqubi, Əsəd Rza.Təqi Ərani: zəka və təvazö. ADF-nin saytı. 2020

[688] Təriqpeyma İsmayıl. Doktor Tağı Əraninin ictimai-siyasi və dövlət görüşləri. Bakı, 1965, s.67

[689]Yəqubi Əsəd Rza. Azərbaycanda təlim-tərbiyə mədəniyyəti,təhsil və pedaqoji fikir tarixi: Seçilmiş əsərləri. Bakı, Nurlan, 2005, s.245

Əraninin Pəhləvilər rejiminin məhkəməsinin qarşısında söylədiyi nitqləri də çox ibrətamizdir. O, məhkəmə qarşısında deyirdi: "Burada ilk baxışdan sanki cinayət məhkəməsinin iclasının keçirilməsinə baxmayaraq, mahiyyət baxımından bu məhkəmə sosial mübarizə meydanıdır. Burada üç tərəf – ittihamçı, cavabdeh və qərəzsiz hakim yoxdur. Əksinə, yalnız iki tərəf vardır: biri hakim və dövlət ittihamçısı, digəri isə biz. Hər iki tərəf öz qruplarının maraqlarını müdafiə edirlər. Onlardan hansı haqlıdır, bunu tarix göstərəcək." O, öz müdafiə nitqində daha sonra deyirdi: "Proletarlara bağlılığın və onların hüquqlarının müdafiə olunmasının bu qədər sərt şəkildə cəzalandırılması cəmiyyət üçün rüsvayçılıqdır." [690] O, daha sonra qeyd edirdi ki, Pəhləvilər quduzlaşmışdır: "İctimai cərəyan dalğalanan bir çaya bənzəyir, gözləyin ki, çör-çöp kimi çayın sahilinə, palçıq kimi təkinə yapışmayın, çalışın ki, çayın ortasının ən pak və təmiz qətrələrindən olasınız. Biz axın əleyhinə üzdüyümüzü bilirik. Lakin qüvvətli qollarımızla bu axının istiqamətini dəyişdirənə qədər üzəcəyik". [691]

O, daha sonra deyirdi ki, bəşəriyyətin müqəddəs idealları, insani əxlaq normaları İran Pəhləvilər rejimində iyrənc bir şəkilə salınmışdır. Belə ki, burada sülh və azadlıqdan, yoxsulluqdan, pozğunluq və fahişəliyin qarşısının almaqdan danışanları həbs edirlər, öldürürlər. Ərani yazırdı: "Zəhmətkeşlərin tərəfdarı olmaq və onların hüququnu qorumaq üstündə bu qədər şiddətli cəza verilməsi cəmiyyət üçün olduqca böyük bir rüsvaylıqdır. Nə üçün zəhmətkeşdən bu qədər qorxursunuz? Polis məmurlaırının, üstündə zəhmətkeş sözü yazılmış bir vərəqəyə gözləri sataşan kimi bütün varlıqları ilə ona hücum etmələri nə qədər də ikrahgətiricidir. Cin bismillahdan, Tehran polis idarəsinin zəhmətkeşdən qorxduğu qədər qorxmur. Məgər sizin həyatınızın bütün ehtiyaclarını zəhmətkeşlər təmin etmir, məgər İran millətinin onda doqquz əksəriyyəti zəhmətkeş deyildirmi? Zəhmətkeşə qarşı çıxmaq məgər İran millətinə və həmin demokratik məşrutə qanunlarına qarşı çıxmaq deyildirmi? Onda bəs nə üçün polis idarəsinin bütün qüvvəsi zəhmətkeşlərin tərəfdarlarını təqib etmək işinə sərf edilir? Bu cürə

[690] Yəqubi, Əsəd Rza.Təqi Ərani: zəka və təvazö. ADF-nin saytı. 2020

[691] Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. 4 cilddə, 2-ci cild. Bakı, Elm, 1983, s.451

təqib və mühakimələr nə tək sizin kütlə əleyhinə olduğunuzu, eyni zamanda onlardan bərk qorxduğunuzu göstərir. Bu şiddətli təqibin qorxudan, titrəmədən başqa özgə səbəbi ola bilməz. Beləliklə, siz özünüz istəmədən kütlənin qüdrətini etiraf edirsiniz”. [692]

Ərani hesab edirdi ki, mübarizə kapitalistlərlə zəhmetkeşlər arasında gedir və burada qalib sonunda ağalar tərəfindən istismar olunan fəhlə-kəndli sinifi olacaqdır. O, yazırdı: “Siz əsas qəzayi vəzifələr tutmaq şəraitinə malik deyilsiniz. Qəzayi vəzifələrə layiq olmaq üçün hər şeydən əvvəl insaf, mehribanlıq, cəsarət, ədalətə və vəzifəyə əlaqə lazımdır. Əsas qanunun tamamlayıcısının 28-ci maddəsinə görə qəzayi qüvvə ölkənin üç müstəqil qüvvəsindən biridir. Bu qüvvə tam istiqlala malik olmalıdır, başqa iki qüvvənin iradəsinin təsiri altında olmamalıdır. Bu təcrübə məşrutəli ölkələrdə, xüsusilkə icraçılıq qüvvəsinin həmin irəlidə qeyd etdiyim təcavüzkarlıqlarınını qarşısını almaq üçündür. Qəzaii-məqamın şərəfi misilsizdir. Milləti təşkil edən fərdlərin müqəddəratı və ümumin həqiqi təhlükəsizliyi onlara tapşırılmışdır. Lakin siz! Siz qəzayi-qüvvənin əhəmiyyətini icraçılıq qüvvəsinin nazirliklərindən birinin idarələrindən biri olan polis idarəsinin bir şöbəsi olmaq dərəcəsinə qədər alçaltmışsınız. Dünyanın hər yerində qəzayi-qüvvə hətta siyasi rejimlərdən də üstündür. Minlərlə siyasi dəyişikliklər dağa əsən külək kimi qəzayi-qüvvənin qədim və əzəmətli heykəlinə iz də sala bilmir”. [693]

M. İbrahimov hesab edir ki, Əraninin məhkəmdə ortaya qoyduğu “müdafiə nitqi” böyük tarixi-ədəbi sənəddir: “...onu öz məntiqi gücü, cəsarəti, zəkanın qüdrəti, bədii parlaqlığı etibarilə bu qəbildən olan ən yaxşı tarixi sənədlərlə, məsələn, Sukarnonun, Dmitrovun müdafiə nitqlərilə müqayisə etmək olar. Ərani öz nitqində İran zəhmətkeşlərinin ağır vəziyyətini təsvir edərək məhkəmə prosesini onların hüququnu istismar edən despotizmdən müdafiə prosesinə çevirdi”. [694]

Doğrudan da, Əraninin əsas məqsədi özünün deyil, bütövlükdə zəhmətkeşlərin hüququnun müdafisəi olmuşdur. O,

---

[692]Yenə orada, 1983, s.451-452
[693]Yenə orada, s.453-454
[694]Yenə orada, s.27

müdafiə nitqində deyirdi: "Bu günkü müttəhimlərin İran millətinin ən seçilmiş nümayəndələri olduqlarını, bu vaxta qədər onlardan heç birinin xidmətdən başqa ayrı bir iş görmədiyini və İranın həmişə fəxri olduqlarını hazırkı məhkəmə heyəti çox yaxşı bilir. Müddəil ümumun ittihamları düzgün olduğu təqdirdə belə, yenə də həmin dəstə İran millətinin diri bir millət olduğunu sübut etmiş, o millət üçün fəxr qazandırmış və sizi diri bir millətin qəzayi qüvvəsi etmiş olur. Ona görə də rəftarınız çox dəqiq olmalıdır. Mən burada özümü müdafiə etdikdə məqsədim özüm deyildir. Mənim müdafiəm ümumidir və öz haqqımda dediklərim az, ya çox başqalarının haqqında da düzgündür".[695]

Pişəvəri yazırdı ki, 53 nəfər arasında Ərani bütün cəhətlərinə görə daha ləyaqətli və cəsarətli olub: "Məncə, doktor Ərani siyasi mübarizənin rəhbərlik üçün irəli çəkdiyi və yetişdirdiyi fövqəladə və nadir adamlardan biri olmuşdur. Onun kitablarından, yazılarından, məqalələrindən, xüsusilə difaiyyə layihəsi və məhkəmədəki nitqindən görünür ki, öz ömrünün çoxunu kitab oxumaq və əsər yazmağa, fikir və qələm mübarizəsinə həsr etmişdir. Doktor Ərani istər dost və istərsə də düşmənlərin etirafına əsasən zülm, zorakılığın və mütləqiyyətin ən şiddətli dövründə ziyalı gənclər yetişdirib tərbiyələndirən, diktatorluq hökuməti, habelə çürümüş və qələt irticai fikirlər əleyhinə mübarizə edən yeganə şəxsiyyət olmuşdur".[696]

M.Biriya Əraninin ölümünə həsr etdiyi şeirində yazırdı:

*Zülm ilə ölüb bu gün bir insan,*
*Qiymətli həqiqətin yolunda.*
*Bir müddət olub məkanı zindan,*
*Zəncir varmış onun qolunda.*
*Bağlanmış imiş tənabi-zülmə,*
*Haqqın şərəfi, o nuri-irfan.*
*Son dözməyib iztirabi-zülmə,*
*Məhbəsdə əzab ilə verib can.*
*Hər növ cəzaya oldu məhkum,*
*Gəstərdi bizə nicat üçün yol.*
*Azad yaşamaqdan oldu məhrum,*

[695] Yenə orada, s.455
[696] Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. 4 cilddə, 3-cü cild. Bakı, Elm, 1988, s.374

*Kəşf etdi yeni həyat üçün yol.*
*Şad ol daha, ey şəhidi-naşad,*
*İfrtitəyi-zülmü kin boğulmuş.*
*Etməklik üçün bu xalqı azad,*
*Minlərlə Əranilər doğulmuş.*
*Rəhmət sənə, ey müini-millət.*
*Dillərdə adın olubdur əzbər.*
*Ruhun bizi etdi haqqa dəvət,*
*Rəhmət sənə, ey sevimli sərvər!*[697]

Rəcəb Albayrak "Türklərin İranı. Yaxın gələcək" kitabının ilk bölümündə yazır ki, Azərbaycan Türk ziyalısı Tağı Ərani xeyli dərəcədə irançılıq ideolojisinin təsiri altında olmuşdur. Albayrak yazır: "Komünist ideolojisini benimseyen Tude Partisi'nin kurucuları arasında yer alan Dr. Taki Arani, döneminin birçok entelektüeli gibi, farslaşdırma siyasetini destekliyordu. Azerbaycan'la ilgili bir makalesinde; Azerbaycan'ı *"İran'ın beşiği"* saymış ve Azerbaycanlıların Azerbaycan Türklerinin aslında Azeri oldukları ve ana dilleri olan eski Farsça'yı vahşi Moğolların saldırısı sonucu unuttuğunu Türkçe konuşmaya başladıklarını iddia etmiştir. Arani'ye göre bu olay, yani Türkçe olayı çok tehlikelidir. Çünkü Azerileri, yanlışlıkla Türk olduklarına ve İran'dan ayrılmaları gerektiğine inandıran bir unsurdur. Bu problemin hall edilə bilmesi amacıyla, Türkçe'nin ortadan kaldırılıp Farsça'nın yaygınlaştırılması için her türlü yol ve yöntem uygulanmalıdır". [698]

V.Mustafayev də yazır ki, "azərbaycanlılara türk dilinin zorla qəbul etdirilməsi və onların tezliklə assimilyasiya olunması ideyasını İranda kommunist hərəkatının görkəmli xadimlərindən biri, milliyyətcə azərbaycanlı olan Tağı Ərani də həmin dövrdə qızğıncasına müdafiə edirdi". [699]

Nəsib Nəsibliyə görə, 1920-1930-cu illərdə İran adlanan ölkədə fars "İran milləti" konseptindən fərqli digər bir konsept ortaya

[697] Biriya, Məhəmməd Bağırzadə. Əsərləri. Bakı, "Elm" nəşriyyatı, 2010, s.76-77
[698] Albayraq Rəcəb. Türklərin İran. Yaxın gələcək. 2 cilddə. 1-ci cild. Bakı, Elm və təhsil , 2016, s.71
[699] Mustafayev Vidadi. Cənubi Azərbaycanda milli şüur (XX əsrin birinci yarısı). Bakı, Əbilov, Zeynalov və oğulları, 1998, s.87

qoyulmamış və həmin dövrdə “iranlı” kommunistlər, o cümlədən T.Ərani də bu konseptdən kənara çıxmamışdır. O, yazır: “İran Kommunust Partiyasının ikinci Urmiya Qurultayında İran xalqının çox millətli bir yapıya sahib olması, Fars olmayanların öz qədərlərini təyinetmə haqlarının olduğu bəyan edilsə də, bu fikir bir bəyanatdan uzağa getmədi. O dönəm İran kommunistlərinin lideri sayılan Dr. Tağı Ərani milli azlıqlar məsəlsəində hökumətin rəsmi stratejiyasını dəstəkləyirdi. O, sürətli çağdaşlaşma prosesini ieəli sürür, eyni zamanda fars dilinin yabançı sözlərdən təmizlənməsini, Zərdüştlük fikirlərinə yenodəın şahs verilməsini, Sasani imperatorluğu dövründə mövcud olan, mərkəzləşdirilmiş idarəçiliyin bərpasını müdafiə edirdi. “Azərbaycan: “İranın ölüm-qalım məsələsi” adlı məqaləsində isə Türkcənin Azərbaycanda kökünün qazınmasını, Azərbaycanda farsca məktəblərin açılmasını, bu bölgəyə farsca kitabların, dərgi və qəzetlərin göndərilməsini təklif edirdi”.[700]

Qeyd edək ki, Əraninin sosial-demokrat, ya da kommunist əqidəsindən çıxış etməsi milli qüvvələr tərəfindən əsasən tənqid olunmuşdur. Buna səbəb də sosial-demokratizm, ya da kommunist ideyasından çıxış edən xarici qüvvələrin, xüsusilə də rus bolşeviklərinin Azərbaycan türklərinin başına gətirdikləri faciələrdir. Ona görə də Tağı Əraninin bir sosial-demokrat kimi bu ideyanı müdafiə etməsi və onun təbliğatını aparması, sonralar heç də birmənalı qarşılanmamışdır.

Eyni zamanda, onun irançılığı müdafiə edərək türklüyə qarşı çıxması da, Azərbaycan Türkləri arasında çox mənfi qarşılanmışdır. Bizcə, Əraninin əsas tənqid hədəfinə çevrilməsində də, əsas məsələ marksizm əqidəsinə inanmasından çox, irançılığı müdafiə edərək türk kimliyini danmaq yolu tutması olmuşdur. Bütün hallarda Əranini sosial-demokratizm əqidəsinə və irançılığa görə tənqid edənlər belə, onun mübarizliyini və istedadını da etiraf etmək məcburiyyətində qalmışlar.

[700] Nesibli, Nesib. Azerbaycan tarihi: Millet-Devlet-Siyaset. Ankara, Altınordu yayınları, 2019, s.515-516

# MƏHƏMMƏD BİRİYA

**Həyat və yaradıcılığı.** Məhəmməd Bağırzadə Biriya (1914-1985) Təbriz şəhərində dülgər ailəsində doğulub. 1920-ci ilə ailəsi dolanışıq üçün Bakıya köçsə də, bir müddət sonra oradan da Xorasana gediblər. İlk təhsilini Xorasanda alan Biriya özkeçmişində yazır ki, anası xəstələndiyi üçün Xorasandan yenidən 1923-cü ilin sonlarında Bakıya qayıdıblar. 1933-cü ilin yanvarında yenidən Təbrizə dönən Biriya 1934-1936-cı illərdə əvvəlcə Bələdiyyə İdarəsində qeydiyyatçı, daha sonra Su İdarəsində katib və Dəmiryol İdarəsində hesablayıcı işləyib.

İkinci Dünya Savaşı başlayandan sonra ictimai-siyasi fəallığını artıran Biriyanın şeir və yazıları Təbrizdəki “Vətən yolunda” "Azərbaycan", "Xavəre-no", Tehrandakı “Rəhbər”, "Mərdom", "Zəfər", "Dəmavənd", qəzetlərində nəşr olunmuşdur. 1941-ci ilin dekabrında on beş gün Bakıda olan Biriya Təbrizə döndükdən sonra kapitalizmi, imperializmi, müstəmləkəçiliyi tənqid edən şeirlər və məqalələr yazıb, toplantılarda dünyanın xilası sosialistərlə bağlı olduğunu söyləyib. 1942-ci ildə yenidən Bakıya gəlməyə məcbur olan Biriya burada yaşadığı müddətdə Azərbaycan Yazıçılar İttifaqında üzv qəbul edilmiş, Azərbaycan Radio Komitəsində işləmişdir. 1943-cü ilin yanvarında yenidən Təbrizə dönən Biriya İran Antifaşist Ocağında və İran Kommunistlərinin Hezbi (farsca partiya) Tudənin (farsca xalq) təşkilatında çalışmış, az sonra Azərbaycanı Həmkarlar İttifaqının sədiri seçilmişdir. O, Həmkarlar İttifaqına rəhbərlik etdiyi vaxt fəhlələrlə ərbablar (sahibkarlar) arasında 41 maddəlik bir müqavilə də imzalanmasına nail olur.

Bütün bunlarla yanaşı Biriya “Qələbə” adlı qəzetə redaktorluq edir, "Çətirbazlar", "Ruznamə idarəsində", "Stalinqrad", "Ərbab və əkinçi", “Mussolini”, “Hitler və Mussolini” kimi kiçik pyeslər yazaraq Təbrizdəki Şire-Xurşid Teatrında, Marağa Şəhər Teatrında səhnəyə qoydurur.[701]

Təbrizdəki Sovet Mədəniyyət Evi 1945-ci ilin aprel ayının sonlarında İranın bir qurup ictimai-siyasi fəalını sözdə Sovet

[701] Biriya, Məhəmməd Bağırzadə. Əsərləri. Bakı, “Elm” nəşriyyatı, 2010, s.6-7

Azərbaycanının yaradılmasının 25 illiyi münasibətilə Bakıda təşkil edilmiş təntənəli toplantılarda iştirak etməyə göndərir ki, onların arasında Məhəmməd Biriya da var idi. Sovetlər Birliyinin qurduğu plan əsasında Biriya yenidən Təbrizə qayıtdıqdan sonra onu Tehrana dəvət edirlər. Tehrandakı Həmkarlar İttifaqının rəhbərliyi Biriyani 1945-ci ilin sentyabrında Parisdə keçirilən Ümumdünya Həmkarlar İttifaqı Konqresinə göndərir.

Sovet Rusiyasının təlimatı ilə Güney Azərbaycan Kommunistlərinin partiyası "Tudə"dən ayrılıb Azərbaycan Demokrat Firqəsini yaratmasından narazı qalsa da, Biriya partiyanın 1945-ci ilin oktyabrında keçirilən Birinci Qurultayında Mərkəzi Komitənin plenumuna və bürosuna üzv seçilib. O, bundan iki ay sonra Azərbaycan Milli Məclisinin deputatı, yeni qurulan hökümətin də Maarif Naziri olub. Milli hökümətin ideoloqlarından biri kimi Biriya məktəblərdə dərslərin Azərbaycan türkcəsində keçilməsinə, yeni tədris proqramının yaradımasına, dərsliklərin yazılmasına nail olub.

Ancaq Sovetlər Birliyi müttəfiqlərinin təzyiqi və "İran" hökumətinin verdiyi vədlər sayəsində ordusunu "İran"dan çıxardıqdan sonra, Tehran höküməti də "Şuralar Məclisinə azad seçkilər keçirilməsini təmin etmək" bəhanəsi ilə Güney Azərbaycana qoşun yeridir. İran qoşununa müqavimət göstərin-gəstərməmək məsələsində Azərbaycan Demokiratik Firqəsinin rəhbərləri arasında fikir ayrılığı yaranır. Şəbüstəri, Doktor Cavadi, Məhəmməd Biriya Güney Azərbaycana doğru irəliləyən İran əskəri birliklərinə qarşı dirəniş göstərməyi təklif edirlər. Pişəvəri, Sadiq Badəkən isə Sovet Azərbaycanına çəkilib Sovetlər Birliyi vasitəsilə İran təzyiq göstərməyi təklif edirlər.

1946-cı ilin dekabrında Təbrizdə qurulmuş Milli Hökumətin rəhbərlərinin əksəriyyəti, eləcə də hərbi birliklərdə, polis təşkilatlarında olanların böyük bir qrupu Sovet Azərbaycanına keçir. ADF-nin baş katibi vəzifəsini öz üzərinə götürən Biriya partiyanın taktikası və bölgədə nizam-intizamın qorunması haqqında bəyanat hazırlayıb radio ilə oxuyur. İran qoşunları Təbrizə gəlib çatmamış bölgədəki Milli Hökumətdən narazı qüvvələr təşkilatlanaraq İslam Ordusu adı altında birləşir, hökumət idarələrinə basqın edərək milli

hökumətin tərəfdarlarını, fədailəri öldürür və ya həbs edir, evlərlin basqın edərək mal-mülkünü talayır, ailələrinə təcavüz edirlər.

İran hökumətinin göndərdiyi əskəri birliklər və yerdəki irticaçı ünsürlərin qəddarlığının qarşısını ala bilməyən Biriya və silahdaşları silahlı müqavimət göstərərək özlərini qorumaq üçün yaxınlıqdakı Sovet xəstəxanasına sığınırlar. Həmin gün ABŞ-ın general konsulu Saten Sovet xəstəxanasına gələrək oraya sığınanları vermələrini tələb edirlər. Lakin xəstəxananı baş həkimi orada kənar adam olmadığını deməklə Biriya və silahdaşlarını qorumuş olurlar. Təbrizdəki Sovet konsulu Moskva ilə danışıqdan sonra xəstəxanaya sığınanları konsulluğa gətirərək Biriyanı 1947-ci ilin martın 7-də təyyarə ilə Bakıya yola salır. O, Bakıda bərpa olunmuş ADF-nin Mərkəzi Komitəsinə üzv və təbliğat şöbəsinə müdir təyin olunub. Hətta onu Bakı Ali Partiya Məktəbində oxumağa göndəriblər. Biriya isə Moskvanın göstərişlərinə əməl etmir. Silahdaşlarının fəaliyyətindəki qüsurları kəskin tənqid edir, Sovetlərin İran məsələsində yeritdiyi siyasəti bəyənmədiyini hər yerdə açıq söyləyir.

1947-ci il aprelin 11-də Pişəvərinin Yevlax yaxınlığında avtomobil qəzasına salınaraq öldürülməsi Biriyanı bərk narahat edir. Kommunistlərin dedikləri ilə əməlləri arasında ziddiyətləri ali partiya məktəbində oxuduğu zaman daha aydın görüb peşmanlıq keçirən şair 1947-ci ilin dekabrın 27-də İranın Bakıdakı konsulu Behnamın qəbuluna gedərək səhv etdiyini söyləyir və Təbrizə dönmək üçün ona paspor verməsini xahiş edir.Moskvadan Azərbaycan rəhbərliyinə qəti göstəriş verirlər ki, nə yolla olur-olsun Məhəmməd Biriyanın İrana getməsinin qarşısını alsınlar.

1947-ci il dekabrın 28-də Dövlət Təhlükəsizliyi Komitəsi Biriyanı İrana yola salmaq adı ilə evindən çıxarıb polis idarəsinə təhvil verir. Yeddi aydan çox davam edən işgəncəli istintaq da Biriyanın iradəsini qıra bilmir. Əməlində heç bir cinayət tərkibi olmasa da ona 10 il həbs cəzası verir və Qazaxıstan Respublikasının Karaqanda şəhərindəki 415 saylı islah əmək düşərgəsinə göndərirlər. Şair həbsxanada da "dinc durmadığına" görə dəfələrlə cəzalandırılır, bir həbsxanadan başqa həbsxanaya köçürülür.

Biriya həbsxanalardan SSRİ hüquq mühafizə orqanlarına, beynəlxalq təşkilatlara ərizələr yazaraq günahsız həbs edildiyini

bildirsə də onun şikayətlərinə əhəmiyyət verən olmur. 1954-cü il aprelin 3-də SSRİ Nazirlər Sovetinin sədri Georgi Malinkova ərizə yazaraq 6 ildən artıqdır günahsız həbsdə yatdığını və vətənə dönmək istədiyini bildirir. Yalnız 1956-cı il avqustun 30-da Məhəmməd Bağırzadə Biriyanın şikayət ərizəsinə də baxılaraq əməlində cinayət tərkibi olmadığına görə işinə xitam verilib.

Həbsxanadan Bakıya dönən Biriya həbsxanada olduğu kimi İslam dinini təbliğ edib, Sovet qanunlarındakı nöqsanları, Sovet həyat tərzini kəskin tənqid edib. Eyni zamanda onu İranda da əzab-əziyyət, həbsxana həyatı gözlədiyini bilsə belə, oraya geri dönmək üçün Bakıdakı İran konsulluğuna müraciət edib. Oradan viza almağın mümkün olmadığını görən şair Moskvaya yollanıb. Moskvada Biriyanın "İran" səfirliyinə getmək istədiyini görən polis şairi salayaraq milis idarəsinə aparıb. Polis idarəsində onu "Sovet milisini təhqir etməkdə" suçlayıblar. Məhkəmə şairə 2 il həbs cəzası verərək Tambovdakı həbsxanaya göndərib. [702]

O, həbsdən çıxdıqdan sonra yenidən Bakıya gəlsə də, ona burada yaşamağa icazə verməyərək Şamaxıdakı bir sovxoza sürgün ediblər. Biriya 1957-ci il yanvarın 18-də Azərbaycan hökümətinin rəhbərlərinə 16 maddəlik bir məktub göndərərək yenidən kiril əlifbasından imtina edib ərəb əlifbasına qaytarmağın, marksizm-leninizm məktəblərini bağlamağın, Marks, Engels, Lenin və Stalinin heykəllərini götürməyin, sərhədləri açmağın, siyası səbəblərdən həbsə və sürgünə göndərilmiş insanların azad edilməsinin, şəriətin bərpa edilməsinin vacibliyini vurğulamışdır. İnsanların və millətlərin haqqının tapdandığından bəhs edən bu məktub şairin yenidən təqib və həbsinə səbəb olub.

Uzun sürən mübarizədən sonra 1980-ci il sentyabrında Təbrizə qayıdan Biriya ilk günlər "İslam inqilabı"nı mədh edərək onun tərənnüm etsə də, ümidləri burada da puça çıxıb. Cəmiyyətdəki nöqsanları kəskin tənqid edən şeirlər yazdığı üçün onu burada da həbs ediblər. Biriyanın həbsxanada sağalmaz xəstəliyə tutulduğunu görən hakimiyyət orqanları onu rəsmi surətdə həbsdən azad edil-

[702] Biriya, Məhəmməd Bağırzadə. Əsərləri. Bakı, "Elm" nəşriyyatı, 2010, s.8-9

diyini elan edib Təbrizdəki kimsəsizlər evinə göndəriblər. O, 1985-ci il fevralın 19-da Təbrizdəki kimsəsizlər evində vəfat etmişdir.[703]

**İctimai-siyasi görüşləri.** Onun ictimai-siyasi görüşlərində milli məsələlər, o cümlədən Vətən və Millət sevgisi, Azərbaycan xalqının azadlığı mühüm yer tumuşdur. Biriya üçün Azərbaycan xalqının azadlığı hər şeydən önəmli idi. O, yazırdı:

*And içirəm namusuma, məsləkimə, vicdanıma,*
*Gün kimi dünyada müqəddəs tanınan imanıma.*
*Ya səni azad eləyim, ya boyanım al qanıma,*
*Haqqın üzü dönməz inan, Azərbaycan, Azərbaycan!*
*Ey torpağı ləlü mərcan, Azərbaycan, Azərbaycan!*[704]

O, "Azərbaycan el marşı" şeirində də yazırdı ki, bir yolumuz varsa, o da hürriyyətin yoludur:

*Süd vermişdir bizə ana işığında ülkərin,*
*Bəslənmişik qucağında al günəşin, səhərin,*
*Hər yerini bürümüşük Qaflankuhun, Xəzərin,*
*Alır bizdən bütün ellər sorağın zəfərin,*
*Biz dünyanın qorxu bilməz bir qəhrəman eliyik,*
*Alovlardan yaranılmış Azərbaycan eliyik!*[705]

O, məşrutənin 38-ci ildönümü münasibətilə yazdığı şeirində də Azərbaycan xalqının milli azadlığından bəhs etmişdir. Biriya iddia edirdi ki, Azərbaycan xalqı əsrlər boyu şahların əlindən bəlalar çəkmiş, zülmün pəncəsində oyuncaq olmuşdur. Onun fikrincə, bu bəlalara, zülmə yalnız Məşrutə dönəmində Səttarxanın başçılığı ilə baş verən hərəkatda son qoyulmuşdur.[706] Görünür, bu prizmadan çıxış edərək Biriya Qacarlar dövlətini də qəbul etmirdi. O, yazırdı:

*Mən deyirəm: - Azərbaycan qəhrəmanlar yurduddur,*
*Şücaətli Bağırxanlar, Səttarxanlar yurdudur.*
*Böyük Qacar şahlarını yola salmış bu diyar,*
*Onun hər bir qarşında əcdadımın haqqı var.*[707]

[703] https://ali-shamil.tr.gg/M%26%23601%3Bh%26%23601%3Bmm%26%23601%3Bd-Ba%26%23287%3B%26%23305%3Brzad%26%23601%3B-Biriya.htm
[704] Biriya, Məhəmməd Bağırzadə. Əsərləri. Bakı, "Elm" nəşriyyatı, 2010, s.29
[705] Yenə orada, s.30
[706] Yenə orada, s.60
[707] Yenə orada, s.69

Biriya Azərbaycan xalqının azadlığına qarşı çıxaraq Azərbaycan türklərini farslşadırmağa, islam dinini inkar yolunu tutub zərdüştlüyün təbliğatını aparmağa çalışmış Əhmməd Kəsrəvini də tənqid etmişdir. O, yazırdı:

*Mən demədimmi bir belə salma cəfayə milləti,*
*Hər necə olsa millətin vardır əlində qüdrəti,*
*Döydülər canişinivü, al kötəkdən ibrəti,*
*Qoydular aşiyanəvi yaxşı xərabə, Kəsrəvi,*
*Mən demədimmi söyləmə xəlqə xitabə, Kəsrəvi!?...*

*Mən demədimmi etiraz etmə gğzldi dinimiz,*
*Xatəmül-ənbiya kimi vardı bizim müinimiz,*
*Həşrə gələndə zöhrə tək parlayacaq cəbinimiz,*
*Tuş olacaqsan onda sən dərdü əzabə, Kəsrəvi,*
*Mən demədimmi söyləmə xəlqə xitabə, Kəsrəvi!?*[708]

Biriya Azərbaycan xalqının azadlığını sosial-demokratiya cərəyanı əsasında gördüyü üçün, hər iki məsələni bir yerdə ifadə etməyə çalışmışdır. Bu anlamda o, "Yaranmışam" şeirində daha çox yoxsulları, zəhmətkeşləri müdafiə etmiş, zülmə qarşı daima onlarla birgə mübarizə aparacağnı bildirmişdir. O, yazırdı:

*Mən fitrətən mübarizi-dövran yaranmışam,*
*Yoxsullara ümüdü nigahban yaranmışam.*
*Həqiqətin yolunda natiqi-Quran Əli kimi,*
*Öz qanıma zəmanədə qəltan yaranmışam.*
*Peykani-zülmə sinəmi mən etmişəm hədəf,*
*Zəhmətkeşin nicatına qalxan yaranmışam.*[709]

Ancaq o, həmin şeirin sonunda Azərbaycan xalqının azadlıq bayrağının yüksələcəyini də ifadə etməyi unutmamışdır. Biz, onun "İrticaya xitab" şeirində də görürük ki, bir tərəfdən istismar olunan insanın, digər tərəfdən millətin azadlığını ifadə etmişdir:

*Ey ölkəni zülm ilə qoyan dəhrdə viran,*
*Məhkum ola bilməz sənə bundan sonra insan.*
*İnsan əzəlindən yaranıb əşrəfi-xilqət,*
*Layiq deyil əsla ona zənciri-əsarət.*

---

[708] Yenə orada, s.223
[709] Yenə orada, s.33

*Qoy biz də bir insan tək olaq naili-amal,*
*Gəl etmə bizim haqqımız qəhr ilə pamal.*
*Bəsdir bu təkəbbür, utan, ey cahili məğrur,*
*Vicdanın əgər varsa, bizi eyləmə məcbur...*
*Dərya kimi coşmuş, coşacaq qüdrəti-milli,*
*Qurmuş, quracaq xalq özünə dövləti-milli.*
*Azad olacaq şanlı elim möhnətü qəmdən,*
*Yurdumda əsər qalmayacaq zülmü sitəmdən.*[710]

O, fəhləyə üz tutaraq deyirdi ki, artıq qəflət yuxusundan ayılmaq, dünyada zalımdan mərhəmmət ummaq deyil mübarizə aparmaq lazımdır. Biriya yazırdı:

*Göz aç, ey kargər, bəsdir ayıl bir xabi-qəflətdən,*
*Cahanda mərhəmət umma bu qanundan,bu dövlətdən.*
*Saraldın, gül kimi soldun, əzildin, paymal oldun,*
*Büküldü qamətin qəmdən, qocaldın dərdü möhnətdən.*
*Həmişə gözlərin giryan, soyuqda ac-sussuz, üryan,*
*Daş olsa dillənər insan, gələr cana bu zillətdən.*[711]

Biriya fəhlələrin bir may bayramının onlar üçün hansı əhəmiyyət daşımasından bəhs etmişdir. O, yazır:

*Bir may aləmdə bütün kargərin bayramıdır,*
*Füqəranın, kasıbın, rəncbərin bayramıdır,*
*Sevən azadlığı məzlum bəşərin bayramıdır,*
*Bizi qərq eyləməyin bəhri-cəhalətdə yenə.*[712]

Uzun müddət bir sosial-demokrat, ya da demokrat kimi Biriya inanmışdır ki, Azərbaycan xalqına azadlığı bu əqidə və həmin dövrdə həmin əqidəni imperiya maraqlarına çevirmiş Sovet Rusiyası ilə bağlıdır. Bu anlamda o, bir müddət şeirlərində sosial-demokratizmlə yanaşı, Sovet Rusiyasını və onun ordusunu da mədh etmişdir. O, "Qızıl ordudur" şeirində yazırdı:

*Dünyanı qurtaran qəmdən, kədərdən,*
*Xalqı azad edən şərdən, xətərdən,*
*Zövq alan həmişə gücdən, hünərdən,*
*Doymayan fəthdən, sonsuz zəfərdən,*

---

[710] Yenə orada, s.47
[711] Yenə orada, s.70
[712] Yenə orada, s.161

*Bütün aləm bilir Qızıl ordudur,*
*Müqəddəs vətəni Sovet yurdudur.*[713]

Rus bolşeviklərin əsil üzünü bilməyənə qədər Biriya hesab edirdi ki, Sovet Rusiyası hər kəsə, hər xalqa hürriyyət verir, məzlumların hətta, insanlığın yanında yer alır. O, yazırdı:

*Babəklərin övladı olan Qırmızı ordu,*
*Keçmiş, keçir hürriyyətin uğrunda başından.*
*İnsanlığın uğrunda ölənlər diridirlər,*
*Olsun canın insanlığa, azadlığa qurban!*[714]

O, Sovet Rusiyasına inandığı dövrdə faşizmə, faşist Almaniyasına isə nifrət bəsləmişdir. Biriya bir çox şeirlərində məsələn, "Faşistdir, faşist", "Hitlerə" və başqa yazılarında faşizmə, faşist ideyasına mənfi münasibətini ifadə etmişdir:

*Cümlə yaranmışları naşad edən,*
*Dəhrdə çox fitnələr icad edən,*
*Xalqı qırıb, aləmi bərbad edən,*
*Dövləti-alman faşistir, faşist.*[715]

Biriya faşist Almaniyasının başçısı, ideoloqu Adolf Hitlerə həsr etdiyi şeirində isə yazırdı:

*Ey varlığa, azadlığa, insanlığa düşmən,*
*Bəsdir daha artıq, bir utan öz əməlindən.*
*Tökdün bu qədər qan məgər etməzmi kifayət?*
*Yoxdurmu bu haqsızlığa, bu zülmə nəhayət?*[716]

**Fəlsəfə və dinə münasibəti.** Onun bəzi şeirlərində fəlsəfi məsələlər də öz əksini tapmışdır. Məsələn, o, "Mən kiməm?" şeirində öz varlığına bir cavab tapmaq istəmişdir:

*Mən kiməm? – Laüball bir Məcnun,*
*Çöhrəsi qönçələr kimi solğun.*
*Mən kiməm? – bir ümidsiz məhzun,*
*Sinəsi zülmü cövrdən pürxun.*
*Mən nəyəm? – bir ovuc qara torpaq,*
*Ərşdən yüksək, ərzdən alçaq.*

---

[713] Yenə orada, s.50
[714] Yenə orada, s.52
[715] Yenə orada, s.62
[716] Yenə orada, s.77

*Mən nəyəm? – Bir nümuneyi-xilqət,*
*Leyk əşya kimi bilahərəkət.*
*Mən kiməm? – Bir bəlakeşi dövran,*
*Yediyü dərdü-qəm, evi viran.*
*Mən kiməm? – Bir həyatdan məyus,*
*Taleyi ruzgarı tək mənhus.*
*Mən nəyəm? – Bir xəyali sözlə bəşər,*
*Dilimi bağlamış fəsadla, şər.*
*Mən nəyəm? – Zinəti-dövrani-məzar,*
*Dəhrdən qəbrə ərməğani-bahar.*
*Mən nəyəm, ya kiməm? – Demək bir heç,*
*Ey mənim heçliyim, təlaş ilə keç!*[717]

Onun bir az da pessimizm fəlsəfəsinə yönəlik düşüncəsi digər şeirlərində də öz əksini tapmışdır. O, yazırdı:

*Nə azadam bu aləmdə, nə əldə ixtiyarım var,*
*Nə qüssə əl çəkir məndən, nə dildə bir qərarım var.*
*Qəfəsdə saxlamış zalım, fəzanımdam alır ləzzət,*
*Təsəvvür eyləməz gün tək münəvvər bir şüarım var.*
*Dilim bağlı, gözüm bağlı, qulağım kar, üzüm gülməz,*
*Günə həsrət qalan gülsüz, səfasız laləzarım var.*
*Neçin mən olmayım məhzun, ürəkdən etməyim nalə,*
*Hər addımda müəyyəndir qazılmış məzarım var.*[718]

O, "Görünür" adlı başqa bir şeirində də pessimizmə qapılmış kimi təsir bağışlasa da, ancaq nisbətən mübarizə aparmaq həvəsini də ifadə etmişdir.[719] Biriya xüsusilə də, "Təzə həyat istərəm" şeirində artıq daha çox nikbin ruhlu görünür.[720] Onun "Azadlıq-Əsarət" şeirində isə "Azadlıq" və "Əsarət"in dilindən bəşriyyətə bir səsləniş var. Biriya əvvəlcə "Azadlıq"ın dilindən yazırdı:

*-Məndən saçılır yer üzünə nuri-məhəbbət,*
*Asudə pənahımda yaşar elmü-ədalət.*
*Mən etmişəm insanlara viranəni gülşən,*
*Olmuş əbədilik saf ürəklər mənə məskən.*

---

[717] Yenə orada, s.34
[718] Yenə orada, s.32
[719] Yenə orada, s.38
[720] Yenə orada, s.41

*Məndən alır ilhamını aləmdə təbiət,*
*Sayəmdə çatır kamına aləmdə bəşəriyyət.*
*Hər bir qan içən müstəbidin bağrını yardım,*
*Məğrur, yaramaz başları pəncəmlə qopartdım.*
*Zalımlara sabitdi mənim qəhrü inadım,*
*Azad yazılır səhfeyi-tarizlərə adım.*
*Güldükcə üzüm xəlqi-cahan şad olacaqdır,*
*Zənciri-sitəmdən bəşər azad olacaqdır.*[721]

Daha sonra isə o, "Əsarət"in dilindən onun mahiyyətini göstərməyə çalışmışdır:

*- Gəldim eləyim ərzdə insanlığı pamal,*
*Dünya yaranandan yaşayır məndə bu amal.*
*Hər nöqtəyə getsəm bəşərin çöhrəsi gülməz,*
*Hər zülmkarın beyni olubdur mənə mərkəz.*
*Üç mənzərə ruhlandırır qəlbimi artıq:*
*Haqsız törəyən qanlı ölüm, göz yaşı, aclıq.*
*Bunlar doğur aləmdə fəqət cəngü cədəldən,*
*Hər istədiyim fitnə verir baş bu əməldən.*
*Şeytan kimi afaqda kim olsa tamahkar,*
*Ancaq o, bütün fikrimi, əsrarımı anlar.*
*Bir kimsədə yox məndə olan kinü ədavət,*
*Tarixdə deyirlər adıma zülmü əsarət.*[722]

O, "Əsarət"ə qarşı üsyan etməyi təklif edərək deyirdi ki, hər kimdə haqqa qarşı ehtiram varsa, haqsızlıq əleyhinə qiyam etməlidir:

*İllər boyu əsarətə məhkum olan bəşər,*
*Üsyanla çatdı haqqa, tarixə qıl nəzər.*
*Yox, qardaşım, səməri qanlı göz yaşın,*
*Üsyanla yüksələr o bəlalar çəkən başın.*
*Üsyanla odlanıb evi hakim dövlətin,*
*Üsyanla şad olub üzü gülmüş həqiqətin.*[723]

O, "Lənət" şeirində isə yazırdı ki, bəşəriyyət onun həqiqətə, azadlığa bağlı olan düşüncəsini anlamalıdır:

*Qoy anlasın əfkarımı axır bəşəriyyət,*

---

[721] Yenə orada, s.42
[722] Yenə orada, s.42
[723] Yenə orada, s.48

*Mən aşiqi-məftununam, ey nuri-həqiqət.*
*Arxanca düşüb torpağa, hər yerdə süründüm,*
*Xainlərə dəhşətli qiyafətlə göründüm.*
*Etdim o böyük varlığını dəhrdə isbat,*
*Çoxlar içəcək oldu mənim qanımı, heyhat!*[724]

Biriya "Haqq" şeirində də insanları və cəmiyyətləri xilas edəcək bir haqqdan bəhs etmişdir. O iddia edirdi ki, yalnız haqq bütün zülmlərə, əsarətlərə son qoymaq gücündədir:

*Parçalar ərbabi-zülmü xəncəri bürrani-haqq,*
*Yandırar eyvani-küfrü atəşi-vulkanı-haqq.*
*Sındırar bir zərbət ilə zülmətin gəşdisini,*
*Qərq edər sakit dənizdə nagahan tufani-haqq.*

*Cövri-istibdada bir gün, şübhəsizdir, son qoyar,*
*Qaniçən hakimləri məhkum edər divani-haqq.*

*Yırtılar labüd bu cəhlin köhnə mövhum pərdəsi,*
*Bir günəş tək hər yeri pürnur edər irfani-haqq.*[725]

O, "Bəşər" şeirində də insanı tərif edərək onu azadlığa və haqqa can atmağa çağırmışdır. Biriya yazırdı:

*Ey lüt qalıb soyuq gecəni lüt yatan bəşər,*
*Daim fəğanü dərdü məlalə batan bəşər.*
*Ömründə görməyən bu fəna mülkdən səmər,*
*Bir loxma nan üçün özünü qul satan bəşər.*
*Ey dar ağaclarında görərkən cənazəsin,*
*Azadlıq həsrətilə çoşub çarpışan bəşər.*[726]

Biriya "Həqiqət" adlı şeirində isə dünyada yaşamağın, var olmağın, eləcə də var olduğu həyatda haqqla nahaqq arasındakı həqiqət meyarını tapmağa çalışırdı. O, yazırdı:

*Xəlq etdi o gündən ki, məni xaliqi-hikmət,*
*Dünya deyilən fitnəli qəmxanaya gəldim.*
*Adəm kimi olmuşdum əzəl sakini-cənnət,*
*Həvvaya uyub aləmi əfsanəyə gəldim.*

---

[724] Yenə orada, s.49
[725] Yenə orada, s.61
[726] Yenə orada, s.71

*Mən bilməz idim hiyləni, təviri, riyanı,*
*Mərmər kimi ağ, göz yaşı tək pak idi qəlbim.*
*Fikir etməz idim fəlsəfəyi-dövri-zamanı,*
*Məsrur idim, olduqca fərəhnak idi qəlbim.*
*Azad idim bir nöqtədə mən, hər bir əməldə,*
*Olmuşdu vücudum fəqət öz əmrimə təslim.*
*Mən  haqq ilə nahaqqı düşünməzdim əzəldən,*
*Etdi bəşəriyyət mənə o hikməti təlim.*[727]

O, əlifbanı öyrənib kitablarla tanış olduqdan sonra bir çox məsələlərdə həm gözünün açıldığını, həm də ziddiyyətlərlə qarşılaşdığını deyirdi. Biriya yazırdı:

*Mən onda düşündüm niyə keçmişdə səlatin,*
*Qanlar axıdıb, ərzi edib qəhr ilə bərbad.*
*Etdi mədəniyyət işığı qəlbimi rövşən,*
*Gördüm ki, ərəb, kürd, əcəm, hindlə əfqan-*
*Bunlar hamısı aləmi-məkanda bəşərkən,*
*Vaxtilə edib bir-birini qanına qəltan.*
*Tarix boyu qanla suvarılmış qara torpaq,*
*Kəşf olmayıb axır yenə mənayi-həqiqət.*
*Etmişsə siyasət sitəmiərzi oyuncaq,*
*Axır boğacaqdır onu dəryayi-həqiqət.*[728]

Biriya "Aləmə baxdıqca" şeirində də fəlsəfi mühakimələr yürütməyə davam etmiş, dünyanın anlaşılmaz məsələlərindən söz açmağa çalışmışdır. O, yazırdı:

*Aləmə baxdıqca insan, doğulur əfsanələr,*
*Müstəbid sultanlara dərbar imiş viranələr.*
*Yurd olub bayquşlara çox hökmranlar məskəni,*
*Möhtəşəm, ali saraylar, qəsrlər, kaşanələr.*[729]

Biriya "Qalacaq" şeirində isə yaranmışın bir gün puç olmasının mahiyyətini açmağa çalışmışdır. O, yazırdı:

*Yaranmışın sonu heçdir bu fani dünyada,*
*Bəşər bütün gedəcək, yer dəniz, səma qalacaq.*
*Hanı həkimi- məhəbbət mənə əlac eləsin,*

[727] Yenə orada, s.78
[728] Yenə orada, s.79
[729] Yenə orada, s.84

*Əgər o baxmasa bu dərdə bişəfa qalacaq.*
*Məzəmmət etymə, bu fürsət mənə qənimətdir,*
*Nə mey, nə saqi, nə dilbər, nə də səfa qalacaq.*
*Açanda qəbrimi bu cismdən nişanə fəqət,*
*Vücudu xakə dönən bir quru qafa qalcaq.*[730]

O, sual edirdi ki, bütün bunların bir anlamı olmalıdır və heç bir şey səbəbsiz ola bilməz. Bu baxımdan Biriya ümid edir ki, zamanla kainatın sirləri aydınlaşacaq və dünya cənnətə çevriləcək:

*Nədir bu alçaq-uca xilqətin xəzinələri,*
*Nə vaxtacan bütün əsrarı ixtifa qalacaq?*
*Yəqin ki, qalmayacaq zülmdən cahanda əsər,*
*Bu varlığı yaşadan hikmətü düha qalacaq.*

*Tamam əvəz olunur ərzdə bu qanunlar,*
*Hər iş mürrüvət ilə əqlü insafa qalacaq.*
*Qərinələr keçəcək, məmləkət behişt olacaq,*
*Yer üzrə insana bənzər mələkliqa qalacaq.*[731]

Biriya deyirdi ki, dünyaya gələndə ruhu zahirən azad olduğu halda, mahiyyət etibarilə zülmlə zəncirlənmişdir. O, hər zaman zəncirlənmiş ruhunun nə zaman azad olması gözləmiş, bunun uğrunda mücadilə etmişdir. Biriya yazırdı:

*Xəlq olandan ruhi-pakım zahirən azad ikən,*
*Batinən zənciri-zülmə bağlanıb fəryad edər.*
*Həbs olubdur cismimin guya içində çırpınır,*
*Gözləyir, görsün onu Xaliq nə vaxt azad edər.*
*Etsə qanuni-bəşər pamal əgər əfkarımı,*
*Qeydi yox, əsla həqiqət istimdad edər.*
*Hər nə qədər dünyada möhkəm olsa zülmün payəsi,*
*Mənəvi bir qüvvəyi-sabit onu bərbad edər.*
*Biriya, ölsən də, rahat yat, sənin yazdıqların,*
*Hər zaman azğınları insanlığa irşad edər.*[732]

---

[730] Yenə orada, s.87-88
[731] Yenə orada, s.88
[732] Yenə orada, s.90

O, "Dövranə əsir yaranmış insan" şeirində də insan probleminə, insanın zəmanəyə necə əsir olmasının sirlərindən bəhs etmişdir. Biriya yazırdı:

*Ey qönçə kimi gözəl pərivəş,*
*əfkaruvu etmirəm müşəvvəş.*
*Lakin sənə bir neçə sözüm var,*
*Təqdir deyən o çərxi qəddar,*
*Qəlbin bəşərin kabab edibdir,*
*Çox xanələri viran edibdir.*
*Yox zərrə vəfası ruzgarın,*
*Var sonda xəzanı hər baharın.*
*İnsanlara dəb qurub təbiət,*
*Gül tək açılıb solar, nəhayət.*
*Bu fəlsəfəni unutma sən də,*
*Ahu kimi çox düşmə kəməndə.*
*Bu aləmə etibar etmə,*
*Bişərmlərin dalınca getmə.*
*Olsun öz əlində ixtiyarın,*
*Hifz eylə, pozulmasın vüqarın.*
*Təqdirə dedim ki, yoxdur çarə,*
*Aldanma bu dəhri-nabəkarə.*
*Pis-yaxşı, keçər həmişə dövran,*
*Dövranə əsir yaranmış insan.*[733]

Biriyanı düşündürən məsələlərdən biri də insanın ölümlü olması idi. O, insan üçün ölüm anlayışının yaratdığı hissi ifadə etməyə çalışmışdır. O, yazırdı:

*Ölüm, ölüm... Məni daim düşündürən bu xəyal!*
*Edir yaranmışı hər bir qədəmdə istiqbal.*
*Ölüm nədir, nə deməkdir? – Açılmayan bir düyün,*
*Çəkir yer altına insanı cəbr ilə hər gün.*
*Onun əlilə solur qönçə tək açan bağlar,*
*Gülümsəyən onu kim görsə, şübhəsiz, ağlar.*
*Onun əlilə, fəqət puç olur ümid ilə əməl,*
*Odur edən bəşəri bir iradəsiz heykəl.*
*Onun əlilə yetim körpələr çəkər nalə,*

[733] Yenə orada, s.102-103

*Tərəhhüm eyləməz o, bəxtəvərlə xoş iqbala.*
*Onun əlilə girir xakə hökmrani-cahan,*
*Təbii qüdrətinə varmı olmayan heyran?*
*Onun əlilə yanır odların içində həyat,*
*Verilməmiş hələ bir qövmdən həyata nicat.*
*Ölüm, ölüm...! O demək intəhali bir xilqətdir,*
*Bəs onda çəkdiyimiz hər nəfəs qənimətdir.*[734]

O, "mən kiməm" sualına isə yalnız insanlıq problemi ilə bağlı deyil, bir müsəlman kimi də cavab vermişdir. O, müsəlman kimi özünü daha çox şiə təəssübkeşi kimi ifadə etmişdir.[735] O, İslam dininə aid bayramları da vəsf etmiş, onların müsəlman xalqlarına təsirindən bəhs etmişdir. Ümumilikdə, sosial-demokrat olarkən İslam dininə münasibətdə hər daim həssaslıq nümayiş etdirib daha çox mötədil mövqe tutatn Biriya, ömürünün son illəridə isə islamlığa daha çox yaxınlaşmışdır.

Ümumilikdə, Biriyanın dünyagörüşündə də bir çox ziddiyyətləri müşahidə etmək mümkündür. O, gənc yaşlarında sosial-demokrat ideyasının daha çox radikal tərəfdarlarından biri kimi çıxış etmişdir. Xüsusilə də, Azərbaycan xalqının azadlığını sosial-demokratiyanın yer üzərində qələbə çalmasında görən Biriya hesab edirdi ki, bu məsələdə də dünyada liderliyi Sovet Rusiyası edir. O, uzun müddət Sovet Rusiyasının dünyada sosial-demokratiya ideyasının gerçəkləşdirməsinə inanmışdır. Ancaq Azərbaycan Milli Hökuməti məğlub olduqdan sonra Sovetlər Birliyində, o cümlədən Sovet Azərbaycanında yaşamağa məcbur olan Biriya, burada olduğu müddətdə bir çox həqiqətlər görmüş və sosial-demokratiya əqidəsinə olan inamını itirmişdir.

Biriyanın fəlsəfəyə aid baxışları isə daha çox insan, insanlıq və insanlığın mübarizəsi ilə bağlı olmuşdur. Özünün bir insan kimi var olma səbəblərini daim düşünən Biriya eyni zamanda, insanlığın gələcək taleyi ilə də bağlı fəlsəfi mühakimələr irəli sürmüşdür. Onun bu fəlsəfi mühakimələri arasında insanlığın yalnız zülmə, əsarətə qarşı mübarizəsi nəticəsində var olması mühüm yer tutmuşdur.

---

[734] Yenə orada, s.119
[735] Yenə orada, s.130

## ƏLİRZA NABDİL OXTAY

**Həyat və yaradıcılığı.** Uşaqlıq və gənclik illərini Təbrizdə keçirən Əlirza Əli oğlu Nabdil Oxtay (1944-1972) 1961-ci ildə Tehran Universitetinin hüqüq fakültəsinə qəbul olunub. O, 1967-ci ildə universiteti bitirib ali təhsilli hüquqşünas diplomu alsa da, ancaq unversitet illərində kommunist ruhlu insanlarla oturub-durduğuna görə 1967-ci ildə ali məktəbi bitirdikdən sonra ona ixtisası üzrə iş verməyiblər.

Xoyda müəllim işlədiyi illərdə o, Güney Azərbaycanın mütərəqqi fikirli, tərəqqipərvər ziyalılarından olan Səməd Behrəngi ilə tanış olub. Bu tanışlıq onun dünyagörüşünün formalaşmasında, ondakı sosial-demokratizm əqidəsinə bağlılıqla yanaşı, milli ruhun güclənməsində də mühüm rol oynayıb.[736]

O, əqidə dostalarından olan Bəhruz Dehqani və Manaf İmani ilə birgə "İran Xalq Fədai Partizanları" təşkilatının Təbriz qanadının mərkəzi özəyini yaratmağa müvəffəq olub. Bu təşkilatın üzvləri İranın müxtəlif bölgələrinə səpələnib gizli fəaliyyətə başlayıb və silahlı üsyan ideyasını qızğın təbliğ ediblər. İranı bürüyən "Silahkəl silahlı üsyanı" yalnız şah rejimini deyil, dünyanın qüdrətli kapitalist ölkəsi olan ABŞ-da qorxuya salıb. ABŞ gizli təşkilatlarla mübarizədə İrana kömək üçün əlindən gələni əsirgəməyib. Şah rejiminin xüsusi xidmət orqanları üçün kadrlar hazırlayıb, onları modern avadanlıqlarla, gizli dinləmə cihazları və silahlarla təmin edib.[737]

1971-ci ilin baharında Tehranın Paminar rayonunun xəfiyyələri tərəfindən izlənilən Nabdil hökumətə qarşı silahlı mübarizəni təbliğ edərkən dövlət məmurlarının atəşinə məruz qalaraq ağır yaralanıb və huşsuz halda ələ keçirilib. Uzun sürən məhkəmələr ona altı dəfə ölüm hökmü çıxarsa da, hökmün icrasına onun dilindən söz ala bilmədiklərinə görə cəsarət etməyiblər. Nəhayət, 1972-ci il martın 13-də Ə.Nabdil Manaf Fələki və digər səkkiz məsləkdaşı ilə birlikdə edam edilib.[738]

---

[736] Oxtay, Əlirza Nabdil. Əsərləri. Bakı, "Qoliot Qkup", 2009, s.5
[737] https://ali-shamil.tr.gg/%26%23399%3Blirza-Nabdil-Oxtay.htm
[738] Oxtay, Əlirza Nabdil. Əsərləri. Bakı, "Qoliot Qkup", 2009, s.6

"Oxtay" təxəllüsü ilə yazan Ə. Nabdilin əsərləri "İşıq", "Tülkü kitabı", "Azərbaycan və milli məsələ", "Tozlu piano", "Yurd", "Səttarxanın atlıları" və başqalarıdır.

**İctimai-siyasi görüşləri.** Nabdilin dünyagörüşünün əsasında sosial-demokratizm, ya da marksizm ideyaları əsas yer tutduğu üçün, o, bütün ictimai-siyasi məsələləri bu yöndən izah etməyə çalışmışdır. Buna ən bariz nümunə də, onun Azərbaycan milli hərəkatına da məhz sosial-demokrat, marksist kimi yanaşmasıdır.

O, "Azərbaycan və milli məsələ" əsərində Azərbaycan türklərinin formalaşmasına qısa nəzər yetirməklə əsas diqqəti Azərbaycan milli hərəkatına və marksizmə yönəltmişdir. Öncədən qeyd edək ki, Oxtay Azərbaycan türklərinin formalaşması məsələsinə də daha çox marksist kimi yanaşmış, bu anlamda Qərb ideologiyasının və Sovet Rusiyasının uydurmalarına inanaraq türklərin bu bölgəyə Orta Asiyadan gəlməsinə, Orta əsrlərdə formalaşmasına inanmışdır.[739]

Bütün bunlarla yanaşı, Oxtay hesab edirdi ki, paniranççıların iddia etdiyi kimi, Səfəvilər dövründə guya, farsdilli əhalinin zorla türkləşdirilməsi və türk dilində danışmağa məcbur edilməsi mülahizəsi kökündən yanlışdır. O, yazırdı: "Millətçilərin hazırkı Azərbaycan dilinin fars dilinin yerinə keçməsi ilə bağlı yazdıqları və düşündükləri də axmaq və cəfəng fikirlərdən başqa bir şey deyil. Onların Səfəvilər hakimiyyəti məmurlarını təzyiqi ilə əhalinin türkcə danışmağa məcbur edildiyini və az bir zaman ərzində öz dillərini türkcəyə dəyişmələri barədə fikirləri tamamilə uydurma və kökündən səhvdir". [740]

Oxtay yazırdı ki, Səfəvilər belə bir addım atmadığı halda, ona böhtan paniranççılar isə özləri həmin yolu tutublar. Yəni Azərbaycan türkcəsinin məhv olunması üçün Pəhləvilər dövründə ən çirkin üsullara əl atıblar. Oxtay yazırdı: "Bunların (yəni aryançıların-F.Ə.) fikrincə, adi üsullarla Azərbaycan dilini kökündən məhv etmək olmaz. Bunun üşün yaşayış yerlərindən uzaqda, dağlarda uşaq evləri və bağçaları tikmək, südəmər körpələri ata-analarından ayıraraq orada böyüdüb tərbiyə etmək lazımdır ki, onlar fars təbiyəsi alaraq farslaşsınlar və öz milli kimliyini unutsunlar. Rza şah diktaturası

[739] Yenə orada, s.108-109
[740] Yenə orada, s.109

illərində millətçi-faşist təfəkkürlü ideoloqların təklifləri ilə İran xalqları belə milli-mədəni təzyiqlərə çox məruz qalmışdı. Keçmiş rejimin varisi və davamçısı olan hazırkı rejim bu siyasəti davam etdirərək təzyiqi daha da artırdı... Ölkənin inkişafına və birliyinə zidd olan belə bir millətçi hərəkat, farslaşdırma siyasəti riyakarlıqdan başqa bir şey deyil. Bu siyasət hazırkı şəraitdə müəyyən təbəqə və qüvvələrin vasitəsi ilə əyalətlərdə də şovinizmı çevrilməkdədir”.[741]

Beləliklə, Oxtay nədən “Azərbaycan və milli məsələ” mövzusuna müraciət etməsini aydınlaşdırmağa çalımışdır. O, iddia edirdi ki, fedolazim dövründə, bir az da dəqiqləşdirsək Məşrutə hərəkatından öncə, dini və etnik vəziyyət xeyli dərəcədə fərqli idi. Oxtay yazırdı: “Məşrutə inqilabından əvvəl İran mədəniyyət və ədəbiyyatının Azərbaycan bölməsi elə bir spesfik, özəl xüsusiyyətə malik olmamışdır ki, biz bu gün onu məzmun və forma baxımından İran ədəbiyyatı və mədəniyyətindən ayrı, tədric edilmiş şəkildə öyrənməli olaq. Dini tərqiətlərin yayılması, inkişafı və müxtəlif çalarlarda təzahürü, orta əsrlərin fikir cərəyanları, həmin dövrlərin qarşılıqlı mübarizələri şifahi və yazılı ədəbiyyatda da öz əksini tapırdı... Azərbaycanın Məşrutə inqilabından əvvəlki dövrünün ədəbiyyatına nəzər saldıqda heç bir etnik yönümlük və milli mübahisə doöuran məsələ ilə rastlaşmırıq. Bu illərdə daha çox türkcə yazmaq hər hansı bir dil və ya millətə üstünlük vermək meyli kimi başa düşülməməlidir”.[742]

Bizcə, Oxtayın burada nəzərdə tutduğu “İran mədəniyyət və ədəbiyyatı” anlayışı dövləti ifadə etmişdir. Məşrutəyə qədər və Məşrutə hərəkatı dövründə də indi İran adlanan ölkəni, bu dövləti Türk hakimiyyətləri idarə etmişdir. Dövlətin idarəçiliyi türk hakimiyyətlərinin əllərində olduğu dövründə də, heç bir etnik problem, ya da dil üstünlüyü məsələsi olmamışdır. Üstəlik, bu kimi problemi farslar Şüubiyyə hərəkatı, ancaq farsca yazmaq (“Şahnamə”) kimi ifrat millətçilik meyilləri ilə ortaya qoymuşdur. Oxtay yazırdı: “Bütün bunlara rəğmən, İslam dünyasında baş verən son hadisələr Şüubiyyə sayaq başqa bir hərəkatın yaranmasına səbəb olmadı. Türkdilli Azərbaycan xalqı isə öz formalşama və inkişafı

[741] Yenə orada, s.110
[742] Yenə orada, s.111

prosesində elə bir vəziyyətlə üzləmiş olmadı ki, ona milli reaksiya verməli olsun. Nəticədə Azərbaycanda məzmunca etnik münaqişəyə aid "Şahnamə" kimi bir əsər yaranmadı. Şah İsmayılın (o, özü azərbaycandilli şair idi) tərəfdarlarının Osmanlılara qarşı mübarizəsi də etnik yox, ancaq və ancaq dini amac və təriqət zəminində olan bir mübarizədir".[743]

Oxtaya görə, Məşrutə inqilabı orta əsrlərdən qalan ənənə və mədəni meyarların bir qismini dağıtdı, hadisələrin gedişində inqilabi kütlələri yenidən tərbiyə etdi və təşkitlandırdı: "Mədəni hərəkat yalnız siyasi hərəkatın başlanğıcında yox, həm də siyasi hərəkatın inkişafı ilə əlaqədar dirçələrək çiçəkləndi. Yüzillər boyu heç nədən şübhələnməyən, fikir donuqluğunu qiymətli miras kimi qorumuş şəhər yoxsulları onları sıxan mühitdən və idarə üsullarından şübhələnməyə başladılar və özlərini bir çox ənənəvi üsulların əlindən azad etməyə cəhd göstərdilər. İnsanlar, siniflər, dini qruplar, şəhər və əyalətlər arasındakı sərhədlər, süni çəpərlər azaldı, yaxud da məhv edildi".[744]

O, ölkə daxilindəki müxtəlif təbəqələrin Məşrutə hərəkatı dövründə eyni məqsəd uğrunda birləşməsinin iki cəhətini göstərmişdir: "Birinci, bu birləşmə vacib və zəruri idi. İmperialistlərin iradəsiz nümayəndəsi timsalında mərkəzi hakimiyyətin cəllad feodalları ədalətsevər kütlələrə qarşı silahlandırıldığı və səfərbər etdiyi bir dövrdə müxtəlif şəhərlərin müxtəlif dinlərə qulluq edən və müxtəlif millətlərə mənsub olan əhalisi çarəsiz qalaraq birləşməyə məcbur oldular. Bu həmrəylik və birlik hissi coğrafi sərhədləri də aşa bildi, Osmanlı məşrutəçilərini və Qafqazın sosial-demokrat könüllü mücahidlərini də Qacarlar səltənəti sərhədlərinin içərisinə cəlb etdi. Mübarizənin əsas hədəflərindən biri də bütün ölkəni cənginə alaraq istehsal qüvvələrinin inkişafına mane olan feodalizm hasarlarını yıxmaq idi. İfratçı əyalət psixologiyasına malik millətçilər bu faktı başa düşə bilməzlər. Onların fikrincə, Azərbaycanın Məşrutə mübarizəsi etnik, milli xarakterli olsaydı daha yaxşı olardı".[745]

Deməli, Oxtay Məşrutə hərəkatının Azərbaycan türkləri ilə məhdudlaşmamasını, onun digər xalqlarla birlikdə həyata keçirilmə-

[743] Yenə orada, s.111
[744] Yenə orada, s.112
[745] Yenə orada, s.112-113

sini daha məqbul hesab etmişdir. Ancaq görünən odur ki, o, Məşrutə hərəkatında iştirak etmiş digər xalqların, xüsusilə də farsların İngiltərənin hamiliyi ilə hərəkət etməsini çox dərindən dərk etməmişdir.

Oxtaya görə, ikincisi Məşrutə hərəkatındakı həmrəyilik müxtəlif səbəblərdən milli və dini xüsusiyyət kəsb edə bilməzdi və həmin müxtəlif səbəbləri belə izah etmişdir: "Çünki bu o ölkə idi ki, müstəmləkəçi siyasi müqavilələr bağlamaq nəticəsində hər gün daha artıq talan olunub parçalanmağa doğru gedirdi. İnqilabi oyanış və Məşrutə hərəkatından qabaq əhali özünün hansı dini qrupa, yaxud sinfə mənsub olduğunu daha yaxşı bilirdi. Onlar təqlid etdikləri din alimini, yaxud təriqət şeyxini, şəhərlərinin hakimini, məmləkətin şahının Qacarlardan hansının olduğunu tanıyırdılar".[746]

Onun fikrincə, istehsal qüvvələrinin getdikcə inkişafı, xarici ticarətin genişlənməsi, daxili və xarici mədəni əlaqələrin çoxalması nəticəsində Qacarların fikir mühitində dəyişikliklər baş verdi və ölkənin qabaqcıl ziyalılarının bir hissəsində milli şüur formalaşdı. Oxtaya görə, Qacarların daxili və xarici siyasətində tütün monopoliyasına qarşı başlanan ilk anti-imperialist düşüncə cərəyanı, çox keçmədən bir qüvvəyə çevrilmişdi; bu prosesdə Azərbaycan türkləri də fəal şəkildə iştirak etmişdilər. Ancaq "ilk anti-imperialist düşüncə cərəyanı"nın daha çox "iranlılar" anlayışını ortaya çıxartmasına inanan Oxtay bunu belə izah edirdi: "Burada olan "iranlılarıq" sözünün mənası bundan ibarətdir ki, Qacar şahlığının biliksiz və qapaz altında yaşayan pərakəndə, donuq beyinli kütlələri indi bilikli, müttəfiq və mübariz vətəndaşlara çevrilərək imperializm və saray feodallarına qarşı səfərbər olmalıdırlar. O vaxtkı şəraitdə bütün əyalətlərin əhalisi eyni səviyyədə imperializmin və feodalların siyasi, iqtisadi, mədəni təzyiqlərinə məruz qalırdı. Saray isə bu iki qüvvənin – imperialistlərin və feodalların çalışan əli idi".[747]

Əlbəttə "iranlı", "İran" sözünün meydana çıxmasında Qərbin maraqları farsları dirçəltmək və hakimiyyətə gətirmək olduğu halda, Qacarların isə məqsədi daha çox dövlətçilik anlayışı altında türk, qeyri-türk bütün xalqları bir çatı altında tutmaq idi. Ancaq zamanla Qacarların türklük şüurundan xeyli dərəcədə uzaqlaşması ikinci amili

---

[746] Yenə orada, s.113
[747] Yenə orada, s.114

birinci amilin kölgəsində buraxmaya başlamışdı. Qacarlar dövlətinin türk, qeyri türk əhalisinə, onların qabaqcıl ziyalılarına gəldikdə isə, zamanla onlar arasında da hər iki faktora əsaslı "iranlı" anlayışı geniş yayılmağa başladı. Əgər türk ziyalılar üçün bu ad ancaq dövlətçiliyi, ortaq vətəni ifadə edirdisə, fars ziyalılar isə Böyük Britaniya və digər Avropa ölkələrinin dəstəyinə də arxalanaraq, "iranlılıq" adı altında Aryançılığı dirçəltməyi və hakimiyyəti ələ keçirməyi düşünürdülər.

Bizcə, bu anlamda Nabdil Oxtay "iranlı", "İran" anlayışlarının nədən birdən-birə ortaya çıxmasını hərtərəfli dərk edə bilməmiş, məsələnin ancaq bir tərəfini göstərmişdir. Bu anlayışları, ancaq bir yöndən dəyərləndirməyin nəticəsi olaraq da Oxtay Qacarların son dövrlərində "Tehran şüuru" ilə "Təbriz şüuru" arasındakı fərqli və oxşar cəhətlərinin əsil mahiyyətini də, ortaya qoymaqda çətinlik çəkmişdir. Məsələn, o, yazırdı ki: "Azərbaycanda siyasi və mədəni hərəkatın öz xüsusiyyətləri və spesfikliyi var idi ki, buna heç bir şübhə ola bilməz. Məhz bu xüsusiyyətlər idi ki, Tehran hərəkatını Təbriz hərəkatından fərqləndirir. Amma bu xüsusiyyət pantürkistlərin uşaqcasına təsəvvürlərinin əksinə olaraq etnik və milli cəhətlərdən qaynaqlanmır". [748]

Nabdil iddia edirdi ki, Təbriz hərəkatının Tehran hərəkatından fərqləndirən əsas cəhət, burada tacir burjuaziyasının xeyli dərəcədə inkişafı, Rusiya və Almaniya kapitalistlərinin ilk yarımfəhlə ocaqlarını yaratmaları, rus və osmanlı işğalçılarının və yerli feodalların təzyiqi olmuşdur. Çox təəssüf ki, Osmanlını çar Rusiyası, Böyük Britaniya kimi bərabər tutaraq Türkiyəni də işğalçı adlandıran Oxtay daha sonra yazırdı: "Bunlardan əlavə, bu yerlərdə şəhərli yoxsul kütlələr və əkinçilərdən Qafqaz sənayesində ucuz işçi qüvvəsinin bitməz mənbəyi kimi istifadə olunur, məhz onlar Azərbaycanı o illərin demokratikləşdirmə yoluna salırdılar. Məhz həmin spesfik şərait İranın bu hissəsini digər hissələrindən fərqləndirirdi. Burada "azərbaycanlı ruhu", yaxud başqa bir səbəb axtarmaq əbəsdir. Bu məsələdə Azərbaycanda əyalətə, bölgəçiliyə əsaslanan millətçiliyin olmaması səbəbsiz deyildi. Yerli, yaxud xırda burjuaziyanın

[748] Yenə orada, s.114

əyalətçiliyə əsaslanan millətçiliyə meyil etməyə sövq edən heç bir səbəb yox idi”.[749]

Gördüyümz kimi, Oxtay Məşrutə hərəkatında Azərbaycan türklərinin yerini, rolunu dolğun başa düşməkdə çətinlik çəkdiyi üçün, liberal və istismarçı feodalların (aryançı farsların və onlara qoşulan sapı özümüzdən olan “balta”ların) hakimiyyəti necə ələ keçirmələrini də ətraflı izah etməmişdir. Sadəcə, o, çox keçmədən Məşrutə hakimiyyətinin başına keçən ikizülü feodal istismarçı liberalların (Aryançıların) Səttarxan və silahdaşlarını Tehrana çağıraraq zərərsizləşdirdiklərini, daha sonra da bütün demokratik qüvvələrə qarşı xəyanət planı hazırlayaraq millitarizm diktaturasına üz tutduqlarını yazmışdı. O, yazırdı: “Feodal istismarçı liberallar demokratik qüvvələrə qarşı xəyanət planları hazırlamaqla yanaşı, həm də öz liberal xüsusiyyətlərindən uzaqlaşmağa başlamışdı. Bu isə zaman keçdikcə millitarizm diktaturasına zəmin yaratdı (fars millətçiliyinə-F.Ə.). Mütərəqqi qəzetlər təzyiqə məruz qaldılar və mətbuat sahəsində mötədil kompromist və imerialist nümayındələri at oynatmağa başladılar. Belə ki, 1299-cu il (1920) Tehran mətbuatı, o cümlədən yarımrəsmi “İran” qəzeti, “Novbər”, “Kövkəb” və “Rədd” qəzetləri davamlı olaraq azadlıqpərvərləri və müqavimət hərəkatını pisləməklə məşğul olur, heç bir ikiüzlülük və yaltaqlıqdan əl çəkmirdilər”.[750]

Aryançılar hamiləri Böyü Britaniyanın təlimatları əsasında “irançlıq” və liberalizm oyunları ilə əvvəlcə Azərbaycan türklərinin qabaqcıl ziyyallalarından bir qismini öz tərəflərinə çəkdilər. Bu isə ona görə lazım idi ki, həmin Azərbaycan türkləri liberalizmi əsas tutaraq Qacarlar hakimiyyəti ilə iş birliyinə getməyi düşünməsin və yalnız “irançılıq”la kifayətlənsinlər. Bununla da Azərbaycan Türk ziyalıları araında ikitirəliyə nail olan, eyni zamanda Qacarlarla onların arasındakı uçurumları dərinləşdirən aryançılar sonunda da, irançılıq adı altında fars millətçiliyini hakim vəziyyətə gətirməyə başladılar. Beləliklə, məlum olmağa başladı ki, “İran”, “iranlı”, “İran mədəniyyəti”, “İran dövlətçiliyi” və bu kimi anlayışlar əsasən farslara aiddir. Üstəlik, bütün bunların fonunda türk dili, türk kimliyi,

[749] Yenə orada, s.115
[750] Yenə orada, s.115-116

türk mədəniyyəti, türk varlığı daha çox aşağılanmağa və təhqir olunmağa başlandı.

Qacarlarda İngiltərənin dəstəyi ilə fars millətçiliyinin artması dövründə Azərbaycanda, Xorasanda və Gilanda baş qaldıran hərəkatların səbəbsiz olmadığını yazan Oxtaya görə, bunların arasında ən təsirlisi Xiyabani hərəkatı olmuşdur. İlk dövrlərdə ADF-nin lideri, "Təcəddüd" qəzetinin baş redaktoru Şeyx Məhəmməd Xiyabaninin mədəniyyət məsələlərinə diqqət yetirdiyi qeyd edən Oxtay daha sonra yazırdı ki, onun əsas hədəfi ölkədə demokratik üsulları qərarlaşdırmaq, imperializm ağalığına son qoymaq idi.

Bizcə, Xiyabani də, o zaman sosial-demokratizmin, ya da liberal demokratizmin təsiri altında olduğu, eyni zamanda fars millətçiliyinə və onu dəstəkləyən Böyük Britaniya imperializminə qarşı mübarizə apardığı üçün islamlıq, xüsusilə də türklük məsələsinə həddən artıq ehtiyatla yanaşmışdır. Şübhəsiz, bütün bunlardan dolayı Xiyabani xüsusilə də, türklük məsələsində, Osmanlıya münasibətdə bəzi yanlışlıqlara da yol vermişdir. Yenə də təəsüf ki, Oxtay bütün bunlardan doğru nəticə çıxara bilməmişdir. O, yazırdı: "Almaniya imperializminin qidalandırdığı və osmanlıların dəstəklədikləri "İslami birlik" tərəfdarları o günlərdə (1918-ci il) Təbrizdə nəşr etdikləri qəzetdə azərbaycanlıların türk olması şüarı üzərində dayanaraq bütün İran demokratik hərəkatında parakəndəlik və düşmənçilik yaratmaq istəyirdilər. Xiyabani onların əks-inqilabçı və anti-milli əməllərini ifşa etdi, qəzetlərini isə bağlatdırdı". [751]

Ancaq az sonra Oxtay özü də dolayısıyla etiraf edirdi ki, Xiyabani və tərəfdarları feodal istismarçı liberalları tənqid eib, hətta liberalların irticaya münasibətdə kompromis addımlarına qarşı radikal metodlarla siyasi hakimiyyəti ələ keçirmək istəklərinə baxmayaraq, yenə də onları "ən solçu demokratlar" kimi qələmə vermək doğru deyildir. O, yazırdı: "Xiyabani və onun demokrat yoldaşlarının Böyük Oktyabr Sosialist İnqilabını müsbət qarşılamalarına baxmayaraq, onlar sosialist inqilabının Cənuba doğru irəliləməsinə və Qafqazda Azərbaycan SSR-nin təşkilinə qarşı çıxmış və bu mövqeylərini İranın Azərbaycan əyalətinin adını dəyişməklə sübut etmişdilər. Bu ölkənin şimal hissəsinin yenidən Azərbaycan adlandırılması

---

[751] Yenə orada, s.116

Xiyabani demokratlarının zənninə görə yaxşı heç nə vəd etmirdi. Bu, bolşevizmin daha da irəliləməsi kimi qiymətləndirilirdi”. [752]

Beləliklə, Oxtayın düşüncəsində Azərbaycan Məşrutə hərəkatı kimi, Xiyabani hərəkatı da türklük zəminindən uzaq olmuş, bu hərəkatlarda əsas yeri demokratizm, ya da liberal və sosial-demokratizm ideyaları tutmuşdur. Başqa sözlə, Səttarxan da, Xiyabani də başçlıq etdiyi hərəkatlarda imperialistlərə və yerli feodal istismarçılığına qarşı mübarizə aparmış, Qacarlar dövlətindəki bütün xalqların eyni demokratik haqq və azadlıqlara nail olımasına çalışmışlar. Oxtayın bu məsələlərlə bağlı gəldikləri qənaətlərdə həqiqət payının olmasını təsdiq etməklə yanaşı, ancaq hər iki liderin və onların silahdaşlarının tamamilə türklük, islamlıq ruhundan uzaq olmalarını söyləmək də mümkün deyildir. Sadəcə, Səttarxan və Xiyabaninin əsas hədəfləri Qacarlar hakimiyyətinin, onun parlamentinin imperialistlərin ağalığından və yerli feodalların zülmündən qurtulması, konstitusiyalı bir dövlətin olması idi. Bizcə, onlar bu məsələlərdə səmimi bir yol tutub, hətta Xiyabaninin timsalında türklük məsəsləsində bəzi xətalara yol versələr də, ümumilikdə Qacarlardakı bütün xalqlar adına mübarizə aparmış, şübhəsiz Azərbaycan xalqının da bu hərəkatların mərkəzində dayanması reallığında ifrata varmadan diqqətə almışlar.

Ancaq Səttarxanla Xiyabaninin başçılıq etdiyi hərəkatlardan fərqli olaraq, digər cərəyanlar, xüsusilə də aryançıların başını çəkdiyi qüvvələrin əsas istəkləri hakimiyyət dəyişikliyinin olması, türklərin hakimiyyətinin devrilib farsların ağalığının bərqərar olması idi. Aryançılar əsas həfəflərini gerçəkləşdirmək üçün də “irançılıq”, “liberalizm”, “demokratiya”, “məşrutə” və bu kimi o dövrün populyar məslələrini öz maraqlarına yönəltməyi bacardılar. Onlar bu yolda əvvəlcə Səttarxan və onun silahdaşlarını zərərsizləşdirdilər (əsas məqsəd də Azərbaycan-Türk ruhlu Məşrutəni ortadan qaldırmaq idi), daha sonra da Xiyabani hərəkatını məhv etdilər.

Xüsusilə də, Xiyabani hərəkatının məhv edilməsi o anlama gəlirdi ki, aryançılar nəinki hər hansı millətçi ruhlu türk varlığını, heç onun Azərbaycan adlı demokrat, sosial-demokrat, liberal-demokrat yönlərini də görmək istəmirlər. Bir sözlə, aryançılara və hamiləri

[752] Yenə orada, s.117

ingilislərə, eləcə də ruslara görə Azərbaycan mərkəzli türk, ya da qeyri-türk Tehran hakimiyyətinə son qoyulmali idi. Bu anlamda Böyük Britaniyanın birbaşa dəstəyi ilə Xiyabani hərəkatını və digər hərəkatları da məhv edən aryançılar addım-addım fars hakimiyyətinin qurulmasına hazırlaşırdılar.

Aryançıların və hamilərinin bu məqsədlərini, yəni fars hakimiyyətinin reallaşmasını həyata keçirmək üçün də Rza Pəhləvi kimi bir "oyuncaq lider" lazım idi. Oxtay onu doğru yazırdı ki, müxtəlif oyunlardan sonra çevriliş nəticəsində Rza Pəhləvi Böyük Britaniyanın dəstəyi ilə hakimiyyətə gətirildi: "Bu çevriliş banda başçısının tacqoyması və ölkədə tayı-bərabəri olmayan irticanın tüğyan etməsi ilə nəticələndi. İran taxt-tacında İngiltərə imperializminin nümayındəsi olan, onların havadarlığı ilə hakimiyyətə gələn Rza şah dərhal feodallarla birləşdi. Onlar keçmiş Qacar xanədanının bir çox saray qulluqçuları, zabitləri, Avropada hüquq və fəlsəfə sahəsində ali təhsil almışlarla iş birliyi quraraq onların yardımı ilə xırda şəhər burjuaziyası və geniş zəhmətkeş kütlələrin anti-istibdad və anti-imperialist hərəkatlarına qarşı kəskin mübarizəyə başladılar. Xalqın müqavimətini qırmaq isə o qədər də çətin deyildi. Bunun əsas səbələrindən biri də 1920-ci il hərəkatnın məğlubiyyətindən sonra hərəkatın siyasi rəhbərliyə malik olmaması idi. Bundan əlavə, tez-tez uğursuzluğa tuş gəlməyi və məğlub olmağı təcrübə edən insanlar artıq ümidsizlik və pessimizmə qapılmışdılar". [753]

Oxtaya görə, İngiltərənin birbaşa dəstəyi ilə qeyri-qanuni şəkildə hakimiyyəti zəbt edən türklük düşməni aryançı Rza Pəhləvinin qarşısında duran əsas vəzifələr sırasına aşağıdakılar daxil idi: İngiltərə imperializminin mənafeyinin qorunması üçün inzibati və əlaqə şəbəkələrinin yaradılması və genişləndirilməsi; hakimiyyətə qarşı olan hər hansı müqaviməti qəddarcasına yatırmaq; məscidlərə yığışmış etirazçıları güllləbaran etmək; əhaliyə geyim məhdudiyyəti qoymaq, yəni hamını eyni formada geyinməyə məcbur etmək; İngiltərə üçün strateji əhəmiyyətə malik dəmir yolu xəttini çəkmək; əhalinin yoxsul təbəqəsində Sovetlər Birliyinə nifrət hisini gücləndirmək.[754]

[753] Yenə orada, s.117-118
[754] Yenə orada, s.118

Oxtaya görə, Rza Pəhləvi inqilabi ənənə və təcrübəyə malik bir xalqın müqavimətini qıraraq məmləkəti İngiltərə imperializminin ağalıq etdiyi bir məkana çevirmək üçün yalnız başsız xırda burjuaziyanı və demoktatik qüvvələri deyil, eyni zamanda nüfuzlu din xadimlərini də ya sıradan çıxartdı, ya da öz maraqlarına tabe etdirdi. O, yazırdı: "Beləliklə, ən son olaraq din xadimləri köhnəlmiş, çürümüş metodları və qocalmış, titrək səsləri ilə hakimiyyət orqanları qarşısında tədricən təslim halına düşərək passiv mövqeyə çəkildilər. Elə bir vaxtda ki, hakimiyyətdəkilər modern hərbi vasitələr, idarəçilik, təlim və təbliğat kimi silahlar, üsullarla silahlanaraq xırda burjaziyanın islamçılığı qarşısında fars şovinizmini, ariya irqçiliyini qoyurdular ki, Daryuş, Kiruş, Zərdüşt və Firdovsi irsi bunların tükənməz təbliğat vasitələri idi". [755]

Bizcə, din xadimlərinin bir qisminin Pəhləvi hakimiyyətinin tərəfinə keçməsi, digər hissəsinin isə susmağa üstünlük verməsi təsadüfi deyildi. Pəhləvilər tərəfinə keçərək aryançılığı təbliğ edənlərin əksəriyyəti fars din xadimləri olduğu halda, susanların da çoxu Türk din xadimləri idi. Beləliklə, fars din xadimlərini də öz tərəfinə çəkən Pəhləvilər əsas hədəf kimi də, Azərbaycan türklərinin dilini, mədəniyyətini bir sözlə, varlığını məhv etməyi götürmüşdür.

Oxtay görə 2. Dünya müharibəsi dövründə faşist Almaniyasına qarşı müharibə aparan ölkələrin, xüsusilə də Sovet Rusiyası ordusunun İran adlanan ölkəyə, o cümlədən Güney Azərbaycana daxil olmasını xalq rəğbətlə qarşılamış, yenicə formalaşmış fəhlə sinfi sevinmiş, birjuaziya-proletariat konflikti güclənmiş və kəndlilər də özlərində qüvvə taparaq feodallarla mübarizəyə başlamışdır. Onun fikrincə, həmin dövrdə yenidən Azərbaycanda baş qaldıran milli hərəkatın çatışmayan cəhəti daha çox anti-imperialist, anti-feodal, demokratik olmaması idi. Başqa sözlə, Oxtay 21 Azər hərkatının milliliyə meyil etməsini məqbul saymamış, onun daha çox demokratik dəyərələrə sahib çıxmasınınm vacibliyini ortaya qoymuşdur. O, yazırdı: "20 illik diktatura rejimi dövründə azərbaycanlılar da 20 il müddətində Tehran rejiminin milli-mədəni zülmü və istismarçılığına dözmüşdülər. o zamanlarda bu bölgədə əsas konfliktin feodallarla kəndlilər, böyük burjuaziya ilə proletariat

[755] Yenə orada, s.120

və şəhər zəhmətkeşləri arasında olduğunu düşünmək sadəlöhvlük olardı. Düşünürük ki, həmin illərdə xalq taqətdən düşsə, öz daxili ziddiyyətlərinə başı qarışsa da, Qızıl ordunun işal etdiyi ərazidə heç bir gücə malik olmayan Tehran rejimi ilə xalq arasında gərgin və dərin konflikt var idi. Belə bir şəraitdə hansı şüarlarla inqilabçı, siyasətçi və demokrat bir rəhbər əhalini birləşdirə bilərdi? Təbiidir ki, bu şüar mahiyyətcə anti-imperialist, anti-feodal, demokratik və milli olmalı idi. Bu siyasi lider Rza şahın pərakəndəlik yaradan siyasətinə qarşı olaraq bütün İran xalqlarını birlə.şdirməli idi. Amma Demokrat Firqəsi nə etdi? Azərbaycanın taleyini İrandan ayırmaqla (baxmayaraq ki, sözdə başqa şey deyirdilər), "Dil bizim üçün ölümdirim məsələsidir" kimi mənasız və heç bir problemi həll edə bilməyən şüarları ortaya atmaqla (hansı ki, bu şüarlar yalnız vəzifəpərəst burjua xələflərinin ağzından çıxa bilərdi), siniflərarası mübarizəni rədd edib mahiyyətsiz reformist proqram ortaya qoymaqla yenicə formalaşmış, təcrübəsiz fəhlə sinfini və kəndliləri qorxunc uçuruma doğru apardılar. Firqənin liderləri və aparıcı qüvvələri milçək kimi Qızıl ordunun şirniyyatının başına yığıldılar, kəpənək kimi kütlələrin inqilabının başına yox! Onlar hakimiyyətlə bağlı burjua və imerializmlə mübarizə etmədən demokratik hakimiyyətlərinin mövcudluğunu elan etdilər və bir ildən sonra xalqı sahibsiz, başsız, arxasız buraxıb sərhəddi keçərək qaçdılar".[756]

Deməli, Oxtay bir tərəfdən Pişəvərini və onun silahdaşlarını millətçiliyə meyil edib demokratik prinsiplərdən uzaqlaşmaqda, digər tərəfdən isə İran adlanan ölkənin bütövlüyünə zidd addımlar atmaqda, imperializmlə mübarizə aparmaq əvəzinə Sovet Rusiyasından tamamilə asılı vəziyyətə düşməkdə ittiham etmişdir. Oxtay xüsusilə də, 1941-1946-cı illərdə ADF-nin milli məsələni, o cümlədən milliyyət və dil məsələsini önə çəkməsini doğru görməmiş, bütün bunları İran adlanan ölkədə demokratik qüvvələrin imperializmə, istismarçı feodallara qarşı mübarizədə bütövlüyün qorunmasına zidd addım kimi dəyərləndirmişdir. O, yazırdı: "Bu dövrdə siniflərarası mübarizə rədd edildi və ona qarşı çıxıldı. Buna görə də firəqnin mətbuatını ancaq milli ruhlu və azərbaycançılığı əks etdirən əsərlər işğal etdi. Azərbaycan və azərbaycanlıların

---

[756] Yenə orada, s.125-126

üstünlüklərini təbliğ edən əsərlər çoxaldı. Sol demokrat Firudin İbrahimi daha irəli gedərək "Azərbaycanın əski tarixindən" adlı məqaləsində sübut edir ki, əslində, madların mədəniyyəti parslardan daha qədim tarixə malikdir. Beləliklə, milliyyət və dil məsələsi əsas şüara çevrildi. Azərbaycanlıların xüsusi millət kimi digər iranlılardan ayrı götürülərək onların taleyinin "fəxr" ediıən firqə əli ilə həll edilməli olduğu düşünülürsə, bu halda belə bir dünyagörüşünün təbliğini parçalayıcı (bu da irticaçı burjuaziyanın maraqlarına uyğun olmalı idi və oldu) və demokratik hərəkata manetörədici təbliğat kimi qiymətləndirib pisləmək olar".[757]

Bizcə, əslində həmin dövrdə Pişəvərinin özü nə qədər sosial-demokrat cərəyanına əsaslansa da, artıq bu zaman xeyli dərəcədə siniflərarası mübarizə əhəmiyyətsizləşmişdir. Çünki Pəhləvilər rejiminin qeyri-qanuni hakimiyyəti dövründə farslar zor-xoş "ən üstün, ari xalq" elan edildiyi halda, türklər isə vəhşi, barbar, mədəniyyətsiz" xalq kimi aşağılanır, assimlyasiya olunurdu. Belə olduğu təqdirdə, artıq mübarizə siniflərarası deyil, millətlərarası münaqişəyə çevrilmişdi. Bu baxımdan 2-. Dünya müharibəsinin başlanmsı və Rza Pəhləvinin taxtdan salınmasından sonra artıq yenidən bir siniflərarası mübarizəni ortaya qoymaq mümkün deyildi. Rza Pəhləvi taxtdan salınana qədər əzilən Azərbaycan türkləri, onu istismar edən isə hakim farslar olduğu üçün, birdən-birə vəziyyəti dəyişdirib hər hansı siniflərarası mübarizədən danımaq mənasız idi. Bir sözlə, Pəhləvilərin qeyri-qanuni hakimiyyəti dövründə iki millət arsasında yaradılmış uçurumlar elə bir həddə çatmışdı ki, artıq Qacarların dövrünün tənəzzül dövründə həmin xalqın qabaqcıl ziyalılarının, ya da zəhmətkeş insanlarının ayrı-ayrı ideyalar (liberalizm, sosail-demokratizm və b.) əsasında bir araya gəlməsi kimi məsələlər, artıq indi əsasən ortadan qaldırılmışdı. Bu baxımdan Pişəvəri hətta, bir çox hallarda bu gerçəkliklə razılaşmaq məcburiyyətində idi. Başqa sözlə, ADF-nin sosial-demokratizm prinsiplərindən müəyyən qədər uzaqlaşıb sağ mərkəzçiliyə üz tutması gerçək şəraitdən irəli gəlmişdi.

Ancaq bütün hallarda ADF İran adlanan ölkənin digər xalqlarının da haqq və azadlıqlarını daim müdafiə etmişdir. Bu

---

[757] Yenə orada, s.126

baxımdan Oxtayın iddia etməsi ki, ADF-nin əsas məqsədi Azərbaycan xalqının milli hisslərini qıcıqlandırmaq, millətçilyə sövq etmək və əyalət hakimiyyətinə əsaslanmaq olmuşdur, bütün bu kimi mülahizələr kökündən yanlışdır. O, yazırdı: "Adı İran yox, Azərbaycan firqəsi olan bu firqənin məqsədi İran xalqlarının düşmənlərini mıhv etmık deyildi. Bu firqə və onun rəhbərləri ancaq bir əyalətin hakimiyyətini istəyirdi və ümid yerləri İran xalqı yox, Sovet Sosialist ordusu idi. Firqə yalnız işğal edilərək ona veriləcək bir bürokratik sistemi, siyasi qurluşu bərqərar edə bilərdi. Bu sistemi möhkəmləndirmək üçün isə əhalinin milli hisslərini qıcıqlandıraraq firqəyə sarı yönəltmək lazım idi. Bu məqsədin əsas yükü ədəbiyyatın üzərinə düşürdü. Təbrizdə belə bir düşüncəyə malik "Şairlər məclisi" yarandı və bu məclisin üzvləri düşünülmüş, təşkilatlanmış formada Azərbaycan millətçiliyini təbliö etməyə başladılar. Bu məclisə üzv olmaq şərti isə həmin o düşücəyə malik olmaq idi. Buna görə də bir qrup dayaz düşüncəli vəzifəpərəstlə bir neçə milli mədəniyyətsevər gənc məclisdə bir yerə toplaşdılar". [758]

Ümumiyyətlə, bizcə, Oxtayın ADF-ni millətçilikdə və demokratik prinsiplərdən kənara çıxmaqda ittiham etməsi əsasən doğru deyildi. ADF-nin millətçiliyi heç bir halda fars millətçiliyi ilə eynmiləşdirlə bilməzd. Çünki birincisi, öz xalqının milli kilmliyini, milli dilini, milli mədəniyyətini məhv olmaqdan qorumaq üçün "millətçilik" etdiyi halda, ikincisi isə "ən üstün, ari xalq" adı altında digər xalqları xüsusilə də, Türk varlığının məhvi üzərində təşəkkül tapmış millətçilik idi.

Biz, bu iki "millətçilik" arasında ciddi fərqi 21 Azər hərəkatı məğlub olduqdan sonra, daha bariz və gerçək nümunlərlə göstərə bilərik. Oxtayın da qeyd etdiyi kimi, Azərbaycan milli hökumətinin süqutundan sonra Pəhləvi-fars irticası Azərbaycan türklərinə münasibətdə daha da qəddarlaşdı, onu bütün sahələrdə (siyasi, mədəni, iqtisadi, coğrafi və s.) məhv etmək üçün əllindən nə gəlirsə etdi. O, yazırdı: "Qaniçən İran irticasının bu baxışı rejimi azərbaycanlı və mühacirətdəki azərbaycanlılara qarşı təzyiqi artırmağa sövq etdi. İrtica mətbuatında "Rus toxumu Qulam Yəhya" kimi söüyşlərin bol-bol işlədilməsi rejimin azərbaycanlıların inqilabi keçmişindən və

[758] Yenə orada, s.126-127

bunların sovetlərə meyil etməsindən qorxduğunu və onlara nifrətini göstərirdi. Bütün bu amillər, bir tərəfdən Tehrana köçmüş gözüac "yeni azərbaycanlıların" milli mənliklərini danmağa sövq edir, digər tərəfdən müəyyən müqavimət hərəkatlarının formalşaması ilə nəticələnirdi. Fəhlələrin müqaviməti adətən sahibkarlar və onların yolunu davam etdirən şəxsiyyətsizlər tərəfindən edilən milli təhqirin (türkə xər-eşşək türk) təsiri qarşısında özünü qorumaqdan ibarət idi. Bu növ müqavimətlər adətən jandarm müdaxiləsi və polis idarələrində azərbaycanlı fəhlələrə daha artıq əziyyət verilməsi ilə nəticələnirdi".[759]

Bütün bunlar o anlama gəlirdi ki, bir daha Azərbaycan türklərinin milli varlıqlarını orumaq üçün əsasən, millətçilikdən başqa bir yolu qalmırdı. Oxtay da hesab edir ki, bu dövrdə müqvimətin digər forması kimi millətçilik dalğası güclənmiş və Azərbaycan Türk millətçiliyinin ən parlaq siması Əli Təbrizli və Həbib Sahir olmuşdur. Onun fikrincə, bütün İran türklərinin birləşməsindən yana olan Əli Təbrizlinin sinfi zülmə, aryançılığa, dini mövhumata qarşı mübarizəsi yalnız bir qrup adam tərəfindən yaxşı qarşılanmışdır: "Belə irqçi düşüncələr həmişə İranda məğlubiyyətə uğramış və bu gün də Ankara-İstanbul dollarları ilə böyüyən dayaz düşüncəlilərin səylərinə baxmayaraq, iranlı sahibkarlarının çox azının uşaqları Türkiyədə təhsil alır və İranda da çox az adam bu fikrə şərik çıxır".[760]

O, yazırdı ki, 1960-cı illərin əvvələrində isə bir qrup gənc Azərbaycan ədəbiyyatının keçmiş və müasir əsərlərini oxumağa, öyrənməyə başladılar. Onlar rejimin ağır basqılarına baxmayaraq, öz ana dillərinin ədəbiyyatı ilə tanış olub, onu bacardıqca mənimsəyib davam etdirmək istəyirdilər.[761] Oxtay hesab edirdi ki, 21 Azər hərəkatının məğlub olmasından sonra milli qüüvələr daha çox Şəhriyarın "Heydərbabaya salam", Səhəndin "Sazımın sözü" əsərlərindən istifadə edərək milli varlıqlarını mühafizə etməyə çalışırdılar. O, yazırdı: "Azərbaycan mədəniyyətinə meyilin artması şəraitində Azərbaycan əədəbiyyatı səhnəsində ordu yığmaq məqsədilə firqəçi-tudəçu-xuruşşovçuların hesebatı bundan ibarət idi.

[759] Yenə orada, s.128-129
[760] Yenə orada, s.131
[761] Yenə orada, s.136

Bu hərəkətlər əksəriyyyəti ziyalı və savadlı xırda burjua olan Azərbaycanın milli mədəniyyətini sevənlərin fikrinə pis təsir etdi, daha doğrusu 1340-cı ildə (1961-ci il) İranda yeni fikirli cərəyanların yaranması ilə milli zülmün varlığı təsəvvüredilməz qədər güc və aydınlıqla Azərbaycan gəncinin beynində öz əksini tapdı. Onlar milli məsələni daha dərindən öyrənmək üçün öz milli dil, ədəbiyyat və musiqiləri ilə tanış olmalı idilər. İrtica illər boyu qulaq, baş-beyin aparan səsi ilə qışqıraraq Azərbaycan xalqının dili və mədəniyyətinin əsl yox, gəlmə, kimdənsə götürülmə olduğunu sübut etmək üçün boş-boşuna çalışdı. Düşünüldü ki, Azərbaycan dili və mədəniyyətini tezliklə kökündən qazmaq lazımdır. Dövlət bu qənaətdə oldu ki, bunu qəbul etməklə azərbaycanlı özünü eybəcər və şikəst üzv kimi təsəvvür edərək hazırkı zülm və sıxıntını könüllü surətdə qəbul etməyə məcbur olacaq".[762]

Bütün hallarda o, milli məsələyə daha çox marksist mövqedən yanaşdığı üçün, Azərbaycan xalqının gələcəyini də, ancaq sosial-demokrat ideyalarının gerçəkləşməsində görürdü. Bu baxımdan Oxtay Pəhləvilərə qarşı mübarizə aparmaqla yanaşı, Azərbaycan milli hərəkatını da qəbul etmirdi. O, yazırdı: "Bu gün bu tip əyalətçiliyi (Azərbaycana milli muxtariyyət tələb edən ADF və onun tərəfdarları nəzərdə tutulur – F.Ə) sədaqətlə mütərəqqi, hətta markzism sayan gənclərin sayı azalmaqda olsa da, ancaq hələ qarşımızda iki mərhələ var: Birincisi, bəziləri öz yerilərini daha çox sevirlər və yalnız öz yerlərində siyasi fəaliyyət göstərə biləcəklərini düşünürlər və nəticədə başqa bölgələrdə işləməqə maraqları olmur, yaxud öz yerlilərinə dəlilsiz inamıarı olduğu halda, baqşa əyalətlərin kütlələrinə qarşı inamsız və şübhəli olurlar. Şübhəsiz, bu hərəkətlər özünü marksist sayan adama yaraşmır. İkinci, azərbaycanlı kütlələr və xüsusən Azərbaycanda yaşayanlar üçün milli məsələyə diqqət yetirmək lazımdır. Bunlar şovinist irticasından əziyyət görüb, irtica nümayəndələri və hakim millətin biliksiz ünsürləri tərəfindən təhqir olunublar. Əyalətçilik mikrobu belə bir vəziyyətdə inkişaf edə bilər".[763]

O, yazırdı: "Stalin və Mao Tsedzun milli məsələnin həlli üçün çox dəyərli yollar göstərmişlər. onlar bizə öyrədiblər ki, hakim

[762] Yenə orada, s.142
[763] Yenə orada, s.144

millətin şovinistliyi və məhkum millətin ifrat nasionalizmi vahid ziddiyyətin iki tərəfini təşkil edirlər. yalnız proletariatın xalqın bütün inqilabi qüvvələrini səfərbər edəcəyi təqdirdəbu ziddiyyət aradan qaldırla bilər və onun hər iki tərəfini qarşılqılı şəkildə məhv edər. Hər millətin ifrat nasionalizminin məhvi o millətin proletariatının üzərinə düşür. Biz dözüm və hövsələ ilə bütün İran millətlərinin sədaqətli fəhlə və ziyalılarına izah edib praktikada sübut edəcəyik ki:

1. Ölkə miqyasında proletariyatın inqilabi vəhdəti olmadan sinfi düşmənə qələbə çalmaq olmaz;

2. Millətlərin heç biri üstün deyil. İmperializmə və irticaya qələbə çalmaq üçün gərəkdir ki, proltariyatın bayrağı altına birləşsinlər. bu, obyektiv reallıqdır.

Sinfi instinkt bunu bütün məzlum millətlərə öyrədir və biz gərək onun gedişini sürətləndirək. Biz, şübhəsiz ki, fəhlə sinfinin və xalqın vəhdətinə uyğun gəlməyən hər hansı bir meyiliu məhv edəcəyik. Var olsun dünya inqilabı və dünya proletarlarının birliyi! Çiçəkli olsun İran marksist fəhl sinfinin hərəkatı! Ölüm olsun imperializmə və onun iranlı itlərinə!. Ölüm olsun fars şovinizminə! Ar olsun əyalətçilərə! Uğurlu olsun İran xalqının azadlıq hərəkatı!”.[764]

Gördüyümüz kimi, Nabdil 20-ci əsrin ikinci yarısının ilk rübündə marksist ideyaları təbliğ edən bir mütəfəkkirimiz olmuşdur. O, hesab etmişdir ki, İran adlanan bütün ölkələrin xalqlarının, o cümlədən Azərbaycan xalqının azadlığı marksizmlə bağlıdır. Başqa sözlə, Oxtay bütün hallarda milli hərəkatları qəbul etməmiş, onlara bir marksist kimi yanaşmış və tınqid etmişdir.

**Milli maarifçilik görüşləri.** O, “Tozlu piano” şerində susmuş pianonu dilləndirmək və dillənmiş pianonun sədaları altında Azərbaycan xalqını yeni inqilaba dəvət etmək istəmişdir. O, yazırdı:

*Sazaqlı bir səhər parçalıyacaq,*
*Qara səssizliyi tozlu piano.*
*Qızğın barmaqlardan axacaq o gün,*
*Səhəndin buzlanmış ağca gülləri!*
*Qorxulu bir rəqsə başlayırlar, bax,*
*Dağların açmamış solan gülləri!*
*Canlanır dənizlər, qıvrılır çöllər,*

[764] Yenə orada, s.144

*Qaçırlar ulduzlar qanlı göylərdən,*
*Ulduzlar – gecənin bahdırları....*[765]

Nabdil daha sonra yazırdı:

*Uşaqlar, əlizi mənim qəlbimin,*
*İstiliyi ilə qızdırın, gedin,*
*Yoxsa soyuq əllər nə edə bilər?*
*Sazaq dan yerində bizi gözləyir,*
*Soyuq əllər ilə aça bilmərik,*
*Gələcək günlərin qızıl qapısın.*
*Soyuq əllər ilə çala bilmərik,*
*Günlərin sazında zəfər mahnısın!*[766]

Oxtay "İşıq" şerində də inqilabi duyğularını daha da inkişaf etdirmişdir. O, "Damcı-damcı qaranlıqda tər tökən" "qara telli kibritçi"yə xitabən yazırdı:

*Od yurdunun qızılca dağlarından,*
*Milyonlar ton kükürd çəkib səpgilən.*
*Karxanadan belə kibrit tökgilən*
*Ki, zülmətin kökün yandırıb-yaxsın,*
*Bütün aləm bizlərə heyran baxsın!*[767]

O, "sarı telli zəncanlı"dan isə kəskin bıçaqlar yonub düzəltməyi xahiş edir:

*Yırta bilsin zülmün çirkin ürəyin,*
*Qırsın ölüm quşunun da qanadın!*
*Bəlkə çoban azad çalsın tütəyin.*[768]

“Xurma telli müəllim”dən isə şairin istədiyi qaranlıq siniflərə, oradakı uşaqların ürklərinə işıq saçmaqdır:

*İşıqlıq aç qaranlıq klaslara,*
*İşıqlıq aç klaslarda toplanan,*
*Ay-ulduzsuz o kiçik dünyalara.*
*Korluq çəkən balaca insanların,*
*Oddan isti, qardan aydın qəlbində*
*Bəşəriyyət sözün təkcə yazgilən*

---

[765] Yenə orada, s.50
[766] Yenə orada, s.50
[767] Yenə orada, s.46
[768] Yenə orada, s.46

*İnsanların qol-qanadını bağlayan,*
*Göylərdəki qorxu fikrin pozgilən...*

*Bircə yol da xalçanda bir şəkil sal,*
*Baxanların dizlərini qurutsun,*
*Bir şəkil sal, ərbabları qorxutsun!*
*Zalımların barmaqların düyünlə,*
*Süleyman tək qalx, əjdəri zəncirlə.*
*Qoy xalçanı satan-alan bilsin ki,*
*Sənin dilsiz əllərində nələr var.*
*Xalça üstə başmaqlı yeriyənlər,*
*Bilsinlər ki, dilsiz dinsə, nə qopar!*[769]

O, "Səttarxan atlıları" şeirində inqilabi ruhunu ifadə etmişdir. Nabdil burada yalnız məşrutə hərəkatını tərif etməmiş, eyni zamanda həmin hərəkatın yenidən dirçəldilməsinin zəruriliyindən bəhs etmişdir. Oxtay hesab edirdi ki, Azərbaycan xalqının gələcəyi üçün despotizm, istibdad məhv edilməlidir. O, Səttarxan atlılarının dilindən yazırdı:

*İstibdad qoşununa,*
*Gedirik qırğın salaq.*
*Gedirik ölkəmizi,*
*Yadlar əlindən alaq!*
*Gedirik gədiklərin,*
*Qurdların tutub boğaq.*
*Bəlkə gələcəkdə siz,*
*Balalar, dincələsiz.*
*Qızıl atın belində,*
*Dağlara yüksələsiz.*[770]

O, "Yurd" şeirində də xalqın və insanın azadlığından söz açır:

*– Ax, niyə Azərbaycanda isti bir ocaq yoxdur?!!...*
*Ax niyə xalqımın əlləri soyuqdur?..*
*Könül quşunun ürəyi sıxılır.*
*Dağların, çayların o tayından da,*
*Heç bir isti ocaq,*

---

[769] Yenə orada, s.46-47
[770] Yenə orada, s.24

*Heç bir isti qucaq,*
*Çağırmadı mənim könül quşumu.*
*O, ürək ilə dərdləşir....*
*Ürək tarixin sözüdür,*
*Ürək tarixin özüdür.*
*Təkcə o, ümidsiz könül quşuna söyləyir ki:*
*-İnsan məhkum olmayacaq,*
*İnsanlıq solmayacaq!*[771]

O, "Sınıq" şeirində isə Xudafərin körpüsünün timsalında bir xalqın iki yerə parçalanması faciəsini ifadə etməyə çalışmışdır:

*Körpünün başında ağladım getdim,*
*Suların könlünü dağladım getdim,*
*Qəlbimi daşlara bağladım getdim,*
*Körpünü qoruyun, a nazlı quşlar...*
*Biz yenə elləri bura səslərik,*
*Bükülməz biləklər, qollar bəslərik,*
*Bu çayı biz yenə körpüləyərik,*
*Ömrümüz yenə də əzəldən başlar.*[772]

Beləliklə, Oxtayın dünyagörüşündə müəyyən ziddiyyətlərin olması ilə yanaşı, ümumilikdə Azərbaycan Türk ictimai fikrinə bağlılığı danılmazdır. Ancaq sosial-demokratiya, ya da marksizmə bağlı Azərbaycan Türk mütəfəkkirləri kimi, o da, Azərbaycan xalqının Türk varlığını, o cümlədən onun türk kimliyini, türk dilini qəbul etməklə yanaşı, ancaq bütün bunlara marksist kimi yanaşmışdır.

Azərbaycan milli hərəkatının insani, bəşəri, sosial-demokratik yönlərini göstərməyə çalışan Oxtay daha çox marksizm əsasında İran adlanan ölkənin xalqlarının azadlığa qovuşacağına inamışdır. Bir sözlə, Oxtay İran adlanan ölkədə marksist bir rejimin qurulmsı uğrunda mübarizə aparmış, ayrıca götürülümüş milli hərəkatları heç bir halda qəbul etməmişdir.

---

[771] Yenə orada, s.36
[772]Yenə orada, s.71

## 2.2. Milli maarifçilik və ictimai-fəlsəfi ideyalar (ümumi baxış və əsas təmsilçiləri).

XX əsrdə Güney Azərbaycanda milli maarifçilik və ictimai-fəlsəfi ideyaların əsas məsələləri türkçülük/turançılıq və azərbaycançılıq olmuşdur. Şübhəsiz, Azərbaycan Türk mütəfəkkirlərinin çoxu ən azı mədəni-tarixi şüur anlamında öz türklüklərini və azərbaycanlıqlarını dərk etmişlər. Ancaq onların türklüyü və azərbaycanlılığı ancaq bir milli kimlik, milli dil anlamında başa düşüb özünümüdafiə etməklə kifayətlənməmiş, eyni zamanda onları sosial-siyasi, ictimai-fəlsəfi baxımından ideal mübarizə üsulu kimi də qəbul etmişlər.

Bizcə, milli maarifçi və ictimai-fəlsəfi ideayalardan çıxış edən mütəfəkkirlərimiz Mirzə Əli Möcüz Şəbüstəri, Mirzə Həsən Rüşdiyyə, Səməd Behrəngi, Səhənd, Həmid Nitqi, Məhəmmədəli Fərzanə, Salamullah Cavid, Qulamhüseyn Saidi, Həkimə Billuri, Məhəmməd Tağı Zehtabi, Təbrizli Əli, Şəhriyar, Cavad Heyət, Qulamrza Səbri Təbrizi və başqaları olmuşdur. Doğrudur, onların çoxu da ümumi "İran dövlətçiliyi", "iranlı" kimliyindən kənara çıxmamaqla yanaşı, Türk və Azərbaycan milli özünəməxsusluğunu ortaya qoyaraq daha çox mədəniyyət və tarix üzərindən türk dilini, türk kimliyini, Azərbaycan ruhunu müdafiə edib ən azı milli varlığımızı qoruyub saxlamağa çalışmışlar.

Ümumilikdə, bütün mütəfəkkirlərmizin türkün özünə dönüşü, öz milli tarixini, milli adət-ənənələrini, milli şəxsiyyətlərini təbliğ etmək, bu anlamda tarix şüurunu, siyasi şüurunu və ictimai-fəlsəfi şüurunu formalaşdırmaqda rolları əvəsizdir. Milli maarifçilik və ictimai-fəlsəfi ideyalara əsaslanan mütəfəkkirlərmizə (Nitqi, Zehtabi, Təbrizli Əli, Cavad Heyət və b.) görə, milli kimliyini, milli fəlsəfəsini, milli mədəniyyətini dərindən anlamayan bir xalqın bəşəri və dini dəyərlər uğrunda mübarizəsi müəyyən anlamda əhəmiyyətsizdir.

Milli maarifçilik və ictimai-fəlsəfi ideyalara əsaslanan mütəfəkkirlərmiz türkçülük/turançılıq və azərbaycançılıq ideyaları ilə bağlı bəzən fərqli düşüncələrə sahib olsalar da, ümumilikdə dünyagörüşün bütövlüyü baxımından bir-birlərini tamamlamışlar.

Hər halda onlardan bəzilərinin (Təbrizli Əli, Nitqi və b.) azərbaycançılıqdan çox turançılığa önəm verməsinin əsas səbəblərdən biri irançılıq ideyasına qarşı turançılığı daha əsaslı, tutarlı ideal olaraq görmələri idi. Eyni zamanda, turançıların fikrincə, XIX əsrdə olduğu kimi XX əsrdə də irançılıq oyununa düşərək farsçılığı təbliğ edən sapı özümüzdən olan baltalara, yəni “özümüzünkülər”ə (Əhməd Kəsrəvilər, Mahmud Əfşarlar, Həsən Tağızadələr və b.) qarşı mübarizədə də turançılıq daha əhəmiyyətli idi.

Bütün bunlarla yanaşı, milli maarifçilik və ictimai-fəlsəfi ideyalara əsaslanan mütəfəkkirlərmizin yaradıcılıqlarında müəyyən qədər dini-fəlsəfi məsələlər də olmuşdur. Xüsusilə də, onların dini məsələyə baxışlarında milli kimliyin, eləcə də millətlərin haqq və hüquqlarının Qurani-Kərimdə hansı formada öz əksini tapması əsas mövzulardan biri olmuşdur.

***

XX əsrin birinci yarısında milli maarifçiliyin və ictimai-fəlsəfi ideyaların əsas tərənnümçülərindən biri **Mirzə Əli Möcüz Şəbüstəri** olmuşdur. O, bir tərəfdən xalqı daima maarifləndirməyə, yəni cəhalət və nadanlqıdan uzaqlaşdırmağa, digər tərəfdən isə çağdaş ictimai-fəlsəfi ideyalara dəvət etməyə çalışmışdır (onun haqqında ayrıca bəhs etmişik).

Qacarlarda “maarifçiliyin ilk atası” hesab olunan, Azərbaycan Türk mütəfəkkiri **Mirzə Həsən Rüşdiyyə (1851-1944)** Təbrizdə ruhani ailəsində dünyaya gəlmiş, ilk təhsilini ərəb və fars dillərini mükəmməl bilən, dövrünün tanınmış ziyalılarından olan maarifçi atası Molla Mehdidən almışdır. Ruhani olmaq istəsə də, daha sonra bu fikirdən daşınmışdır. Bunun əsas səbəblərindən biri İstanbulda iki təbrizli naşir - Mirzə Nəcəfəli xan və Ağa Məhəmməd Tahir tərəfindən nəşr olunan, İran mətbuatı tarixində ilk mühacir mətbu orqanı sayılan "Əxtər" (1875-1896) ilə tanışlığı idi.

1875-ci ildə Osmanlı dövlətinə yollanan Rüşdiyyəni orada fəaliyyət göstərən məktəblərin adı onun diqqətini cəlb edir və özünə Rüşdiyyə təxəllüsünü götürür. İstanbul, Beyrut və digər şəhərlərin təhsil sistemi ilə yaxından maraqlanır. 1880-ci ildə daxil olduğu Beyrutda Darül-müəllimində (Pedaqoji Universitet) təhsil aldığı zaman üsuli-cədid (ərəb dilindən tərcümədə "yeni tərz" və ya "yeni

üsul" deməkdir) məktəblərinin təsis olunması və idarə edilməsi prosesi haqqında ətraflı məlumatlar əldə edir, eyni zamanda "Əlifbanın asan və yeni üsul ilə tədrisi"ni öyrənir.[773] Beyrutda türk ziyalılarından dərs aldıqdan sonra yenidən İstanbula gələn Rüşdiyyə buranın elm, maarif və mədəniyyətlə zəngin mühiti onda maarifçilik ideyalarının yaranmasında və inkişafında böyük rol oynayır.

1883-cü ildə İrəvana gələn Rüşdiyyə burada yaşayan qardaşı Mirzə Əlinin də köməyilə yerli müsəlmanlar üçün müasir tipli dünyəvi ilk üsuli-cədid məktəbini açır. Onun pedaqoji fəaliyyətinə məhz İrəvanda başlaması təsadüfi deyildi. Çünki XIX əsrin ikinci yarısında Qafqazda başlanmış maarif intibahı Azərbaycanın güneyindəki ziyalıların da diqqətini cəlb etmişdi.

Uğurlu pedaqoji fəaliyyətinə baxmayaraq, Mirzə Həsən Rüşdiyyə İrəvanda çox qalmır. O,1887-ci ildə təcrübəli müəllim olaraq Təbrizə qayıtmış və Qacarlarda "Dəbistan", "Mədrəseyi-Rüşdiyyə" adlı ilk üsuli-cədid məktəblərinin, ya da yeni üsullu dünyəvi məktəblərin əsasını qoymuşdur.[774]

Pərvanə Məmmədlio yazır ki, Rüşdiyyənin təlim metodlarının İslami prinsiplərə uyğun gəlmədiyini iddia edən din xadimləri "Mədrəsəyi-Rüşdiyyə"ni bağlamaq əmrini vermiş, o, yalnız 1893-cü ildə məktəbi Nəsrəddin şah Qacarın oğlu, Azərbaycan vilayətinin valisi Müzəffərəddin xanın şərəfinə "Rüşdiyyəyi-Müzəffəriyyə" qoymaqla bərpa edə bilmişdir. Rüşdiyyənin açdığı yeni üsullu məktəbin ən böyük əhəmiyyəti həm də ondan ibarət idi ki, burada tədris təlimi Türk dilində aparılırdı. Bəzi tədqiqataçılar hesab edirlər ki, Güney Azərbaycanın məktəb tarixində "Rüşdiyyəyi-Müzəffəriyyə" Səfəvilər dövründən sonra ana dilində olan ilk türk dilli məktəb idi.[775]

Qeyd edək ki, M.Tərbiyət, Əhməd Müdərris, Hüseyn Kamal Təbibzadə və başqaları 200-dən çox şagirdin təhsil aldığı məktəbin müəllimləri olmuşlar. Lakin yenə də narazı qalan din xadimləri

---

[773] Cekli Əlhəddin, Paşazadə Tərxan. Həsən Rüşdiyyə. "Dövlət və Din" İctimai fikir toplusu, (№ 6 (20), Bakı, noyabr-dekabr 2010, səh.197-198.

[774] Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. 4 cilddə, 1-ci cild. Bakı, "Elm", 1981, s.292

[775] Məmmədli Pərvanə. Cənubi Azərbaycan : ədəbi şəxsiyyətlər, portretlər. Bakı, Sabah, 2015, s.13

Rüşdiyyədən əl çəkməyib onu öldürməyə, məktəblərini isə bağlamağa çalışırdılar və ona qarşı fətva verdilər.

1894-cü ildə Mirzə Həsən Rüşdiyyə özünün ilk "Vətən dili" adlı kitabını yazıb Təbrizdə çap etdirmişdir. “Vətən dili” Türk dili (Azərbaycan) üzrə səs üsulu əsasında tərtib edilərək Güney Azərbaycanda çap edilmiş ilk əlifba dərsliyi idi. "Rüşdiyyəyi-Müzəffəriyyə"də tədris olunan ana dili dərsləri məhz Rüşdiyyənin özünün ilk "Vətən dili" kitabı üzrə aparılırdı. Sadə və aydın dildə yazılan bu dərslik onu qavramaqda məktəblilər üçün heç bir çətinlik yaratmır və sövti (səs) üsulu ilə ərəb əlifbasının öyrənilməsini xeyli asanlaşdırırdı. [776] Sövti üsulu ilə yazılmış ilk əlifba dərsliyi Qacarlarda, o cümlədən Güney Azərbaycanda yayılmışdı. Bununla bağlı Seyid Cəfər Pişəvəri qələmə aldığı "Vətən dili" məqaləsində yazırdı: "Vətən dili" ana dili deməkdir. Böyük maarifpərvər bu kitabı yazarkən həqiqi bir rəvanşünas kimi uşaqların yaş səviyyəsini, qəlbini və əhval-ruhiyyəsini nəzərə alaraq, onun idrak qabiliyyətinə müvafiq sürətdə hekayə və misallar tərtib etmişdir".[777] Ümumiyyətlə, Pişəvəri Rüşdiyyəni Azərbaycanın böyük xalq və maarif xadimi hesab etmişdir. O, yazırdı: "Yüz ilə yaxın ömrünü maarif, azadlıq yolunda, nadanlıq və cəhalət əleyhinə mübarizə işinə sərf etmiş olan qocaman müəllim, mərhum Hacı Mirzə Həsən Rüşdiyyə Azərbaycan millətinin fəxr edəcəyi ən parlaq və tarixi simalardandır. Rüşdiyyə Azərbaycan xalqının ən böyük xalq və maarif xadimidir. O yaxşı bilirdi ki, hər xalqın tərəqqisi onun mədəni-maarif səviyyəsinin tərəqqisi üçün şərait və vəsaitin olmasından asılıdır. Məhz buna görə də o bu şəraiti yaratmaq və lazımı vəsaiti əldə etmək uğrunda var qüvvəsiylə çalışmışdır".[778]

M.İbrahimov yazır: “Rüşdiyyə maarifpərvər adam olmuşdur. O, cənubda ağır şah zülmü və ana dilinin təqibi şəraitində məktəb açmaqla, Azərbaycan dilinin təlilimінə böyük diqqət verməklə, bu

---

[776] Hüseyni M. Rüşdiyyə və "Vətən dili (Mirzə Həsən Rüşdiyyə-150)."Ədəbiyyat" qəzeti, Bakı, 17 avqust 2001.

[777] Pişəvəri S.C. "Vətən dili" (Azərbaycan dilində birinci dərs kitabına dair), "Azərbaycan" qəzeti, İran, 16 mehr 1324.

[778] Pişəvəri S.C. Azərbaycanın böyük xalq və maarif xadimi. "Azərbaycan" qəzeti, İran, 2 mehr 1324

dildə ilk dərs kitabları yaratmaqla xalqın maarifi və mdəniyyəti qarşıdında unudulmaz xidmət göstərmişdir”.[779]

Həsən Rüşdiyyə 1897-ci illədək Təbrizdə yeni üsulda doqquz məktəb açsa da, şah üsuli-idarəsi və mürtəce ruhanilər onu incitmiş, açdığı məktəbləri gah bağlamış, gah da qarət etmiş və digər müxtəlif vasitələrlə ona ciddi təzyiqlər göstərmişlər. Bu fitnəkar qəsdlər zamanı məktəblilərdən ölən və yaralananlar da olmuş, Rüşdiyyə özü də bir neçə dəfə ağır yaralanmışdı.

Tarixə Rüşdiyyə məktəbləri adıyla düşmüş həmin təhsil ocaqlarının tədris planına nəzər saldıqda, buraya türk (Azərbaycan), fars, fransız dilləri, sərf-nəhv, ədəbiyyat, riyaziyyat, fizika və digər fənlərin daxil edildiyini görmək olar. İranda sxolastik tədris üsuluna zidd olan, tədris işinin sövti üsul ilə aparıldığı bu məktəblərin şah üsuli-idarəsi və mürtəce ruhanilər tərəfindən dəfələrlə bağlanmasına baxmayaraq, Rüşdiyyə məktəbləri XIX əsrin sonlarında XX əvvəllərində Qacarlarda yeni tədris üsulunun yayılmasında mühüm rol oynamışdır. Bu məktəblərin Azərbaycan üçün ən əhəmiyyətli məqamı isə Səfəvilər dövründən sonra Cənubi Azərbaycanda ana dilimizdə açılan ilk milli məktəb idi. Bəlkə elə buna görə bu təhsil ocaqlarına "Rüşdiyyeyi-Milli" məktəbi də deyilirdi.[780]

1896-cı ildə taxta çıxan Müzəffərəddin şah Mirzə Əli xan Əminüddövləni sədrəzəm (Baş nazir) təyin etdi. Əminüddövlə Azərbaycan hakimi olduğu zaman Rüşdiyyənin gördüyü işləri təqdir və müdafiə edirdi. Onun Tehrana çağırılması Təbriz mürtəcelərinin Rüşdiyyəyə qarşı olan fitnəkar hücumlarını daha da alovlandırdı. Bu sıxıntılı günlərdə Rüşdiyyə yenə də Əminüddövlə tərəfindən müdafiə olundu. Sədrəzəm onu Müzəffərəddin şahın əmrilə Tehranda üsuli-cədid məktəbi açmağa dəvət etdi. Bu dəvət ilə Rüşdiyyə apardığı maarifçilik mücadiləsinin yeni mərhələsinə qədəm qoydu.[781]

Tehranda hökümətin köməkliyilə həm paytaxtda, həm də bir sıra böyük şəhərlərdə yalnız oğlanlar deyil, qızlar üçün də “Rüşdiyyə”

---

[779] Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. 4 cilddə, 1-ci cild. Bakı, “Elm”, 1981, s.37

[780] Cekli Əlhəddin, Paşazadə Tərxan. Həsən Rüşdiyyə. "Dövlət və Din" İctimai fikir toplusu, (№ 6 (20), Bakı, noyabr-dekabr 2010, səh.200-201.

[781] Yenə orada, s.201-202.

məktəblərini açmağa başlayır. Bu baxımdan Rüşdiyyənin ən böyük xidmətlərindən biri də qadın azadlığı və qadın təhsili uğrunda mübarizə aparıb qızlar məktəbi açması, korlar üçün yeni oxumaq üsulu ixtira edib, onlar üçün də məktəb təsis etməsi idi.

1898-ci ildə təşkil edilən Maarif Əncüməni və Ali Maarif Şurası yaradıcılarından olan Rüşdiyyənin tədris metodu artıq özünü doğrultmuşdu. İranda açılan bütün üsuli-cədid məktəbləri bu metodla işləməyə üstünlük verirdi. Lakin bir qədər sonra Tehranda açdığı yeni üsullu məktəblərin sərbəst fəaliyyətinə imkan verilməmişdir.

1898-ci ilin iyul ayında yeni maarifçi hərəkatın hamisi olan Əminüddövlə sədrəzəm vəzifəsindən kənarlaşdırıldı. Bu hadisə Rüşdiyyə və digər maarifpərvər ziyalıların vəziyyətini pisləşdirdi. Əgər əvvəllər fitnəkar qüvvələr mürtəce ruhanilərdən ibarət idisə, indi onlara saray məmurları da qoşulmuşdu. Bu təhlükəli vəziyyətdən qurtulmaq üçün Rüşdiyyə vətəni tərk edib, 1900-cü ildə Məkkə, Şam şəhərlərinə, Misirə və Qafqaza üz tutmuşdur.

Demokratik xalq hərəkatı gücləndiyi vaxtlarda isə Rüşdiyyə doğma Təbrizə qayıdıb, Şeşgilan məhəlləsində yenidən məktəb açmağa müvəffəq olmuşdur. Daha sonra Tehranda da yenidən "Rüşdiyyə" məktəbini açmış, "Əncüməni tənviri əfkar" cəmiyyəti qurmuş, [782] "Vətən dili", "Ana dili" və digər adlarla ilk əlifba dərsliklərini yazıb nəşr etdirmişdir.

1902-1903-cü illərdə o, Tehranda nəşr etdirdiyi "Məktəb" və "Tehran" qəzetlərində maarifçilik ideyaları, elmi-metodiki tövsiyə və təlim üsulu barədə məqalələr yazır, eyni zamanda şah üsuli-idarəsini ifşa edirdi. Mürtəce mütləqiyyət rejiminə qarşı çıxaraq, radikal mövqe nümayiş etdirməsi onun həbsi və Xorasan əyalətinə sürgün olunması ilə nəticələnmişdir.[783]

Cənubi Azərbaycandakı Milli demokratik hərəkatı dövründə Tehrana qayıdıb, 1905/11-ci illərdə ictimai və elmi-pedaqoji fəaliyyətini davam etdirmişdir. Məşrutə hərəkarı dövründə o, Tehranda yeni “Rüşdiyyə” məktəbini açmış, “Əncüməni tənviri

[782] Məmmədli Pərvanə. Cənubi Azərbaycan : ədəbi şəxsiyyətlər, portretlər. Bakı, Sabah, 2015, s.15

[783] Seyidov Fikrət. Dədə Qorquddan Şəhriyara qədər. Güney Azərbaycanda pedaqoji fikr. Bakı, 2003, səh. 188.

əfkar" təşkilatını yaratmış, daha sonralar "Məktəb" və "Tehran" qəzetlərinin təsisçisi və əsas yazarlarından olmuşdur.[784] O, 1944-cü ildə, 93 yaşında Qum şəhərində vəfat etmişdir.

Rüşdiyyə türk və fars dillərində 27 kitab yazmışdı. Bunların içərisində dərsliklər çoxluq təşkil edirdi. O, türk və fars dillərində didaktik uslubda yazdığı "Bədayətut-təlim", "Kifayətut-təlim", "Nehayətut-təlim", "Təkmelətus-sərf", "Ana dili", "Əlifbayi-Ruşdiyyə", "Usuli-əqaid və ya ittihadi-bəşər", "Ana dili", "Əlifbayi-Rüşdiyyə", "Üsuli-əqaid və ya ittihadi-bəşər" və digər əsərlərin müəllifidir.[785]

XX əsrdə yaşamış milli maarifçilərimiz arasında **Mirzə Cabbar Əsgərzadə Bağçaban (1885-1969)** da vardır. Urmiyada anadan olan Bağçaban İrəvanda, Mərənddə, Təbrizdə, Şirazda, Tehranda və başqa şəhərlərdə pedaqoq-maarifçi kimi tanınmışdır.[786] 1923-cü ildə Təbrizdə ilk dəfə "uşaqlar bağçası" açan, daha sonra "Müəllimlər ittifaqı"nı təsis edən Bağçaban ehranda müəllimlərə məxsus aylıq "Dil" dərgisini də nəşr etməyə başlamışdır. O, bu dərgidə müəllimlərin hüquqlarını müdafiə etməklə yanaşı, milli maarifçiliklə də məşğul olmuşdur. Məsələn, o, qəzetin ilk sayında ""Dil" nəşriyyəsinin baş məqaləsi"ndə yazırdı: "Mürtəcelər və xainlər öz məkirli düşüncələrini yayaraq Azərbaycanın azadlıqsevər xalqını ləkələməklə, Səttar xanların, Xiyabanilərin ocağını kor etmək istəyirlər. Onlar sonsuza qədər parlamenti, dövləti bir ovuc talançıların və oğruların meydanına çevirəmık istıyirlər. Biz bu vasitə ilə hər bir sinif yaxud təbəqədən olan mürtəce və xaninlərin əməllərinə dərindən nifrət edirik. Bu hərəkatı və ondan yaranan milli məclisi ümum İran xalqına təbrik deyirik. Son olaraq qeyd edirik ki, Azərbaycan məsələsi azərbaycanlıların özləri tərəfindən həll olunmalıdır. Onlar ki, bu müqəddəs işdə təhdid və qorxu ilə əcnəbilərin müdaxilə etməsini istəyir və bu yolla lillənmiş sudan balıq tutumaq fikrində olduqlarını bəyan edirlər. Demək qardaş qırğını salmaqla bu altı min illik ölkə tarixini dağıtmaqla İran

---

[784] Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. 4 cilddə, 1-ci cild. Bakı, Elm, 1981, s.292

[785] Məmmədli Pərvanə. Cənubi Azərbaycan : ədəbi şəxsiyyətlər, portretlər. Bakı, Sabah, 2015, s.11-17

[786] Əkbərov Zahid. Cabbar Əsgərzadə // Cənubi Azərbaycan ədəbiyyatı tarixi (XX əsr). İki cilddə, 2-cild. Bakı, Qanun, 2013, s.189-191

məşrutə inqilabına xəyanət edirlər. Bunlar İranın azadlıq və xoşbəxtliyinin düşmənləri sayılır”. [787]

Bağçabanın yaradıcılığında da əsas yeri milli maarifçilik tutmuşdur. O, yaradığıcılığının ilk dövrlərində M.Ə.Sabirin azadlıq ruhu ilə dolu olan şeirlərinin təsiri altında olmuş, onun milli maarifçilyindən ilham almışdır. Bu baxımdan Sabirin ölümünə həsr etdiyi bir rübaisində, o, yazırdı:

*Fəxr edər xaki-məzarın zati-pakınla sənin,*
*Çün şərafətyab olubdur zatik-pakınla türab.*
*Ol qara xaki işıqlandırmısan xurşidvar,*
*Bizləri zülmətdə qoydun, eylədin sən ehticab.* [788]

O da, Sabir kimi feleytonlarında xalqa fırıldaq gələn vaizləri, mollaları, mərsiyəxanları, əyanları və başqalarını tənqid etmişdir. Məsələn, Bağçaban vaizin dilindən onun xalqa necə hiylələr gəlməsini belə anlatmışdır:

*Xəlqə vəz eyləyirəm hiyləvi-əfsanə ilə*
*Möhtərəm ayları ətrafima xəlqi yığaram.*
*Bağlaram yaxşıca təqlid ipinə onları mən,*
*Mən hara noxtalı olsam, oları noxtalaram.* [789]

Eyni zamanda, o, molla və mərsiyəxanın dillərindən onların xalqa nevə hiylə gəlmələrini də təsvir etməyə çalışmışdır. Bağçaban mollanın dilindən yazırdı:

*Gündə bir övrətə mən on kərə kəbin kəsərəm*
*Hərəsindən onların altıca şahi alaram.*
*Hey Qurandan, namazından, nəzrindən yetişir,*
*Xərcələrəm gen boluna, saqqalı əlvan boyaram.*

Daha donra o, mərsiyəxanın dilindən yazırdı:

*Başlaram şur ilə şəhnazı səri-minbərdə*
*Hey “ağam vay” deyərəm, qışqıraram,bağıraram*
*Hər əda etməli olsam, bu sözün müxtəsəri,*
*Ümmətin pulun alıb gözlərini isladaram.* [790]

---

[787] Bağçaban Mirzə Cabbar. “Dil” nəşriyyəsinin baş məqaləsi. 1324-cü il (1945) aban ayı, 1-ci sayı. http://aze.adfmk.com/entries/b%C9%99yanatlar/tarixi-bir-s%C9%99n%C9%99d

[788]Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. 4 cilddə, 2-ci cild. Bakı, “Elm”, 1983, s.132

[789]Yenə orada, s.132

O, “Molla və hörümçək” şeirində də diqqəti mollaların ikiüzlüyünə, xalqa necə hiylələr gəlməsinə yönəltməyə çalışmışdır. Bir sözlə, Bağçaban da mollaların əsil “fəlsəfəsi”ni ortaya qoymaq üçün hörümçəyə nəsihət verən mollanın əsil məqsədini ifşa etmişdir. Belə ki, hörümçəyi milçəkləri öldürməmək üçün dinə-imana səsləyən mollaya axırda verilən cavab çox düşündürcüdr. O, hörümçəyin dilindən mollalara üzünü tutaraq yazırdı:

*Dedi: zəhmət çəkibsən ay molla!*
*Sən özün qanını müsəlmanın*
*Sorma qardaş! Varınsa vicdanın.*
*İltimasın bizə qəbul olmaz,*
*Dediyin səndə çün vüsal olmaz.*
*Pisdisə özgənin qanın içmək?-*
*Sən özün get, qan içmədən əl çək!*[791]

Bağçaban görə, yeni dövrdə insanların maariflənməsi nəticəsində İslam dinin əsil mahiyyətinin xalq tərəfindən anlaşılması, sünni-şiə məsələsinin ortadan qalxması mollalara əl vermir. Ona görə də, mollalar hər cür vasitələrə əl ataraq, milli-dini birlik adları altında əllərində çıxan tərəfdarlarını geri qazanmağa çalışırdılar. O, bir şeirində şeyxin dilindən yazırdı:

*Sünni və şiə sözünü atdılar,*
*Birlik ilə milləti aldatdılar.*
*Malı mala, canı cana qatdılar,*
*Aşımıza yaxşıca zəhir qatdılar.*[792]

Milli maarifçilərimizdən qacarlar nəslindən olan **İrəc Mirzənin (1874-1925)** əsərlərində daha çox vətənpərvərlik özünü göstərir. Onun vətənpərvərliyinin əsasında millətinin övladlarının maariflənməsi dayanırdı. Mirzə hesab edirdi ki, millətin əsas bəlası cəhalət və nadanlqıdır. O, yazırdı:

*Cəhlini bil ki, silərdim bu elin,*
*Yoxdur imkan, heyfi olsun ki, çətin;*
*Yazdığım yaxşı-pisi kaş ki, bütün,*
*Vaxt ola mən köçürürəm millət üçün.*[793]

[790] Yenə orada, s.133
[791] Yenə orada, s.136
[792] Yenə orada, s.207

İrəc Mirzənin yaradıcılığında "Arifə" məktub (Arif Qəzvin nəzərdə tutulur) poeması da xüsusi yer tutur. Poemada polkovnik Məhəmməd Tağı xanın başçılığı ilə Xorasanda baş vermiş xalq üsyanı təsvir olunmuşdur. Bununla bağlı Qulamrza Səbri Təbrizi yazırdı: "Üsyanın təşkilatçısı ilə yaxın dost olan İrəc Mirzə bu hadisə fonunda İran siyasi həyatının acı, kədərli mənzərəsini əks etdirmişdir. Şair belə qənaətə gəlir ki, üsyanın məğlub olmasında xalqın savadsızlığı və fəaliyyətsizliyi mühüm rol oynamışdır. Bunun da səbəbkarı dövlət və məscidlərdir, müsəlman müsəlman fanatikləridir. O, xüsusilə din xadimlərinin xalqı əsarətdə saxlamaq üçün dəridən-qabıqdan çıxdıqlarını satirik bir dillə təsvir edir".[794]

İ.Mirzənin yaradıcılığında qadın problemi də mühüm yer tutmuşdur. O, qadınların şəriətlə hüquqlarının məhdudlaşdırılmasının, onların əşya kimi alınıb-satılmasını, rəyi soruşulmadan ərə verilməsini, çadraya büründürülməsini tənqid etmişdir. Mirzə qadınları öz hüquqları uğrunda ayağa qalxmağa çağırırdı.[795]

Təbrizdə anadan olan **Məmmədəli Manafzadə Sabit (1888-1940)** Məşrutə hərəkatı dövründə "Şəkər" qəzetini nəşr etdirmişdi. Hərəkat məğlub olduqdan sonra Bakıya gələn Manafzadə "İttihad" məktəbində müəllim işləmişdir. O, daha sonra bir neçə il Aşqabadda müəllim kimi fəaliyyət göstərmiş, 1924-cü ildə yenidən Bakıya dönmüşdür. O, ömrünün son illərini də Aşqabadda yaşamışdır.[796]

Sabit hesab edirdi ki, riyakar din xadimləri məktəbə, maarifə mənfi münasibət bəsləməklə cəmiyyətə böyük zərbə vurular. Bu baxımdan digər maarifçilər kimi, o da müsəlman xalqlarının oyanışına və tərəqqisinə çalışmışdır. Sabit yazırdı:

*İslam ölkəsində görüyüm bu hal,*
*Kilki-xəyalə yazdıracaq bir uzun məqal.*
*Caham əlində cəhlin o qüvvətli təşnəsi,*
*Daim edər məişəti-islami payimal.*
*Zahid deyir ki, sifeyi dünyadan əl çəkin,*

[793]Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. 4 cilddə, 2-ci cild. Bakı, Elm, 1983, s.199
[794] Təbrizi, Qulamrza Səbri. Zamanın nəbzi. Bakı, "Turan evi", 2006, s.28-29
[795]Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. 4 cilddə, 2-ci cild. Bakı, Elm, 1983, s.198
[796]Əhməd Vüqar. Məmmədəli Manafzadə Sabit // Cənubi Azərbaycan ədəbiyyatı tarixi (XX əsr). İki cilddə, 2-cild. Bakı, Qanun, 2013, s.197-208

*Lazım deyil cahanda müsəlmana mülki-mal.* [797]

Təbrizdə anadan olan **Qulamhüseyn Səidi (1926-1985)** Təbriz Universitetinin tibb fakülytəsini bitirmiş, 1964-cü ildən İranın Tədqiqat və İctimai Araşdırmalar Mərkəzində çalışmış və 1965-cı ildə siyasi baxışlarına görə həbs edilmişdir. 1979-cu il "İslam inqilabı"nın qələbəsindən sonra Xomeyni hakimiyyətinə müxalif mövqe tutan Səidi Fransaya mühacirət etmişdir. Yaradıcılıq irsi zəngin olan Səidinin "Şəhərdə bir qərib", "Gülər üzlü tatar", "Top", "Vərəzil əliçomaqlıları" və digər hekayə, povest və romanları vardır.

Azərbaycan Türk mütəfəkkiri **Məhəmmədhüseyn Şəhriyar** yaradıcılığa fars dilində "İran mədəniyyətini", "İran tarixini" tərif etməklə başladığı halda, müəyyən qədər anasının da təhriki ilə Türkcə də əsərlər yazmağa başlamış, çox keçmədən Türk dilini, Türk mədəniyyətini və azərbaycanlılığı özündə əks etdirən əsərlərin müəllifi olmuşdur. Ancaq ümumilikdə Şəhriyar heç vaxt "İran mədəniyyəti", "iranlı" kimliyindən imtina etməmiş, bu baxımdan onun milli maarifçi görüşləri daha çox "İran mədəniyyəti", "iranlı" kimliyi içində Türk kimliyinin aşağılanmaması və onun tanınmasına yönəlmişdir. Eyni zamanda, o, İslam dini ilə bağlı da müəyyən fikirlər ifadə etmişdir (Şəhriyar barəsində də ayrıca bəhs etmişik).

Türkoloq **Cavad Heyət** isə ancaq "İslam inqilabı"ndan sonra türk mədəniyyətini, türk tarixinə, türk dilinə həsr etdiyi yazıları ilə milli ziyalı kimi tanınmışdır. O da, heç bir zaman ümumi "İran mədəniyyəti", "İran dövlətçiliyi", "iranlı" kimliyindən imtina etməmiş, sadəcə olaraq bütün bunlarla yanaşı türk və Azərbaycan özünəməxsusluğunu da ifadə etməyə çalışmışdır. Başqa sözlə, Heyət bir tərəfdən Azərbaycan türklüyünü "İranlı" kimliyinin içində gördüyü, hətta "İran dövlətçiliyi"nin yaranmasında və inkişafında Türkün mühüm rolundan dəfələrlə bəhs etdiyi halda, eyni zamanda türk dilinin, türk kimliyinin fars kimliyi içində assimilyasiya olmasına isə qəti etirazını bildirmişdir (C.Heyət haqqında da ayrıca bəhs etmişik).

"Varlıq" dərgisinin də tanınmış müəlliflərindən olan **Həsən Rəşidi** Türklüyün, Azərbaycan türklüyünün dirilişində mühüm rol oynamış ziyalılarımızdan biridir. O, "Türklər və İranda onların tarix, dil və kimlikləri haqqında araşdırma" adlı kitabında, Türk tarixini,

[797] Yenə orada, s.201

Türk dilini və Türk kimliyini tədqiq etmişdir. H.Rəşidi ilk növbədə, paniranizmin əsil mahiyyətini ifadə edib, onun insanlıq xaricində olan irqçiliyini göstərmişdir. O, yazırdı ki, Pələvilər hakimiyyətə gələndən bu günə qədər Türk tarixi, Türk dili və Türk kimliyi daima təhrif olunmuş, hər bir sahədəki varlığı inkar olunmuşdur.[798] Rəşidi də yazırdı ki, bi bölgənin tarixinin Əhəmənilərdən başlaması kökündən yanlışdır, onlardan əvvəlcə burada Şumerlər, Elamlar, Kutilər, Mannalılar və başqalarının möhtəşəm mədəniyyətləri və dövlətləri olmuşdur. O, göstərirdi ki, farslar buraya gələnə qədər şumerlər, elamlar, türklər və digər xalqlar yüksək mədəniyyətə sahib olmuş, ancaq farslar din və əxlaq məsələsində olduqca barbar, vəhşi olmuşlar.[799] Rəşidiyə görə, türklərin bu bölgəyə gəlmə olması mülahizəsi də kökündən yanlışdır. O, da Zehtabi kimi hesab edir ki, aryanlar-farslar bu bölgəyə gəlməmişdən öncə, ən azı 4500-4000 il öncə türklər digər xalqlarla birlikdə burada var olmuş, yeni yeni türk axınları ilə qaynayıb qarışmışlar.[800] Həsən Rəşidi çox haqlı olaraq yazırdı ki, ötən min il ərzində bu bölgədə fasiləsiz hakim olan türklər başqa xalqlara, başqa dillərə, o cümlədən fars dilinə yüksək dəyər verib, hətta öz dilinə bəzən bu qədər dəyər vermədiyi halda, farslar ancaq fars olanı və özünü fars hesab edəni iranlı sayırlar. Üstəlik, farslar 1925-ci ildən üzü bu yana ən çox türkləri hədəf almış və assimilyasiya etməəy çalışmışdır.[801]

**Səhənd** bir sosial-demokrat olaraq da, millətçi olaraq da hər daim Azərbaycan türklərinin milli haqq və hüquqlarının müdafiəçisi olmuşdur. Onun inqilabi-demokratik, milli-demokratik siyasi-fəlsəfi görüşlərində milli məsələlər də mühüm yer tutmuşdur. Əgər ilk dövrlərdə daha çox "İnsanlıq birliyi" idealı ilə sosial-demokrat ideyalar ön planda olmuşdursa, ancaq çox keçmədən mütərəq-qipərvər "millətçilik", milli-demokratik ideyalar daha çox özünü büruzə vermişdir (Səhəndən də ayrıca bəhs etmişik).

**Məhəmmədtağı Zehtabi** uzun bir müddət "İran" xalqlarının bir yerdə İran-fars millətçiləri, Pəhləvilər rejimi üzərində qələbə əldə

[798]Rəşidi Həsən. Türklər və İranda onların tarix, dil və kimlikləri haqqında araşdırma. Tehran, "Əndişeyi nou", 1383 (2004), s.11-12
[799]Yenə orada, s.19-23
[800]Yenə orada, s.75-117
[801]Yenə orada, s.271-272

edilə biləcəyinə inanmışdır. Bəlkə də, 1978-1979-cu illlərdə baş verən "islam iniqlabı" Zehtabinin ümidlərinin doğrultması yönündə də müəyyən bir qığılcım oldu. Ancaq Pəhləvilərdən sonra hakimiyyət başına gələn İran İslam rejiminin Azərbaycan türklərinə qarşı assimilyasiya siyasətini davam etdirməsi, üstəlik bunu yalnız irançılıq deyil, şiəçilik ideolojisi altında da aparması Zehtabininin yenidən milli dəyərlərdən möhkəm yapışmasına səbəb oldu (Zehtabi haqqında da ayrıca bəhs etmişik).

Təbrizdə dünyaya gələn Azərbaycan Türk mütəfəkkiri **Mir Mehdi Etimad/Natiqi (1900-1981)** "Etimad mədərəsəsi"nin qurucusu olmaqla yanaşı, yenilikçi, islahatçı və milli ruhlu ziyalı olmuşdur. O, 2-ci Dünya müharibəsi dövründə ölkədə yaranan nisbi azadlıqdan istifadə edərək 1942-ci ildə "Şairlər Məclisi"ni yaradır və onun başçısı olur. Azərbaycan Milli hökuməti məğlib olduqdan sonra (196-cı il 12 dekabr) iki il dustaq həyatı yaşayan Etimad məcburən Tehranda həyatına davam etmişdi.[802]

Etimadın əsas əsəsrləri "Əlifbayi-cədid", "Cidayətül-kəlam", "Gəlinlər bəzəyi", "Gün qönçəsi" və başqalarıdır. Onun şeirlərinin məzmununda əsas yeri milli maarifçilik, o cümlədən milli azadlıq, milli haqlar təşkil edir. Esmira Şükürova yazır ki, Milli Hökumətin dövlət himni kimi, Etimadın "Yaşa, yaşa, Azərbaycan" şeirinin qəbul olunması təsadüfi olmamış, onun milli mücadiləçi qədər, istedadının dərinliyindən xəbər vermişdi. Həmin şeirində o, yazırdı:

*Ey Vətənim Azərbaycan,*
*Əbədi odlardan nişan.*
*Adlı-sanlı keşmişin var,*
*Sən böyütdün qəhrəmanlar.*
*Qoca Şərqin çırağısan,*
*Azadlığın bayrağısan.*
*Tarix boyuca yadigar*
*İftixarlı asarın var.* [803]

O, "Qoyma həqqini batsın" şeirində də diqqəti daha çox milli mücadiləyə yönəltmişdi. Etimad yazırdı:

---

[802]Şkürova Esmira. Mir Mehdi Etimad // Cənubi Azərbaycan ədəbiyyatı tarixi (XX əsr). İki cilddə, 2-cild. Bakı, Qanun, 2013, s.256-258
[803]Yenə orada, s.261

*Ah çəkmək. Yaxa yırtmaq elməz dərdə dava,*
*Dayan al həqqini, fikir etmə batan günləridir.*
*Pozdu əfkarımı başda yazılan vaqeələr,*
*Yapışıb söz-söz gördüm uzanan günləridir.*[804]

Etimad hesab edirdi ki, artıq Azərbaycan xalqı ayılıbdır və öz milli haqqını yenidən geri qazanacaqdır. O, yazırdı:

*Laylay demə millət ayılıbdır, dəxi yatmaz,*
*Əlləşmə belə, heç kim həyatını sənə satmaz.*
*Mən mərd oğulam, bil ki qanım pak və təmizdir,*
*Bir kəs o kəsif qanıva öz qanını qatmaz.*[805]

O da, Sovet Rusiyasının ideoloji təzyiqi altında digər demokratlar kimi dilini, milli kimliyini, vətənini "azər", "azəri" kimi qələmə vermişdir. Etimad yazırdı:

*Azərəm, mən də Azəri eliyəm,*
*Bu bağın bir saçaqlı sünbülüyəm...*
*Yaşasın Azəri el yaşasın,*
*Yaşasın Azəri dili yaşasın.*[806]

Eyni zamanda, o, kommunizm təlimini, onun Sovet Rusiyasındakı lideri Lenini də təbliğ etmişdir. O, yazırdı:

*Bu gün eydi-mübarəkdirdəlil olmuş səadətdən,*
*Bu gün millət xilas oldu zəlalətdən, cəhalətdən.*
*Hümayün Oktyabrdır, bu gün fərxəndə saətdir,*
*Əsiri-bəndi-qeydi-zülm olan şəxsə bəşarətdir.*
*Zəmanü-dərdi rəncü qəm gedib, ruzi-rəfahətdir,*
*Şərafətli bəşər azad olub qeydi-əsarətdən.*[807]

Etimada görə, yalnız sosial-demokrat təlimi sayəsində insanlar və xalqlar zülmdən, əasrətdən xilas ola bilər ki, həmin xalqlardan biri də Azərbaycan xalqıdır. O ümid edirdi ki, gec-tez Azərbaycan xalqı da öz milli haqq və azadlıqlarını əldə edəcək və dünyada xoşbəxt, azad xalqlardan biri olacaqdır. O, yazırdı:

*Bir gün gələcək xalqımız insan olacaqdır,*
*Bu torpağımız rozeyi-rizvan olacaqdır.*

---

[804]Cənubi Azərbaycan ədəbiyyatı antologiyası.4 cilddə, 2 cild.Bakı,Elm, 1983, s.224
[805]Cənubi Azərbaycan ədəbiyyatı antologiyası.4 cilddə, 3 cild. Bakı,Elm, 1988, s.58
[806]Yenə orada, s.64
[807]Yenə orada, s.65-66

*Ellər, obalar seyrə çıxıb toy tutacaqlar,*
*Qəm kəlməsini dildən, ürəkdən atacaqlar.*
*Bülbül açacaqdır qanadın güllər önündə,*
*Güllər güləcək fəxrilə bülbüllər önündə.*
*Gülşən güləcək, kül güləcək, bağ güləcəkdir,*
*Torpaq güləcək, daş güləcək, dağ güləcəkdir.* [808]

Etimadın əsas məqsədi xalqının bir gün azadlığa qovuşması idi. O, bu yolda sosial-demokratizm təliminə, xüsusilə də rus bolşevizminə həddən artıq inanmaqla yanlış etsə də, bütövlükdə Azərbaycan milli hərəkatına sadiq bir şəxsiyyət olmuşdur.

Təbrizdə anadan olan **Səməd Behrəngi** (1939-1967) ilk təhsilini "Dəbristani-Tərbiyət və Daneşsərayi"də alıb, məktəbi bitirdikdən sonra Tufarqan mahalının Mamağan, Guqan və başqa yerlərdə ibtidai sinif müəllimi kimi çalışıb. Eyni zamanda, Təbriz Universitetinin filologiya fakültəsinin ingilis dili şöbəsində qiyabi təhsil alan Behrəngi tələbəlik illərində "Xənde" (*Gülüş*) adlı həftəlik divar qəzeti də buraxıb. İlk ədəbi tənqidi və satirik qələm təcrübələrini bu dövrdə yazıb.

Behrəngi və onun fikir dostları, xüsusilə Behruz Dehqani Azərbaycan kəndlərində folklor nümunələri toplayıblar. [809] Sirus Mədədinin verdiyi məlumata əsasən, onların topladıqları folklor nümunələri İran şahının qeyri-fars dillərlə əlaqədar siyasətlərinə görə çap olunmayıb. O, sonradan bu nağılları fars dilinə çevirərək həmkarı Behruz Dehqani ilə birlikdə nəşr etdirib. Həmin nağıllar yalnız bir müddət sonra türk dilində Sirus Mədədi vasitəsilə "Azərbaycan nağılları" adı ilə Tehranda çap olunub. Eyni zamanda, onun fars dilindən Azərbaycan Türk dilinə çevirdiyi tərcümələri də dövri mətbuatda çıxıb. [810]

Onun ilk hekayələri olan "Adət", "Binam" 1959-cu ildə dərc olunub. Bundan sonra o, "Ulduz və qarğalar", "Çuğundursatan oğlan", "Balaca qara balıq" və başqa hekayə və nağıllarını yazıb (1967-1969). Səməd bir müddət Təbrizdə nəşr olunan "Mehdi

---

[808] Yenə orada, s.72-73

[809] Məmmədli Pərvanə. "Güney Azərbaycandakı çağdaş ədəbiyyata bir baxış". 525.az. 7 may 2013.

[810] Insafəli Hidayət. Səməd Behrənginin Azərbaycan ədəbiyyatına təsiri. https://www.amerikaninsesi.org/a/behrengi-124946934/722957.html

Azadi" və "Adinə" qəzetlərində məqalələrlə çıxış edib. Daha sonra məqalələrini "Məcmueyi məqaleha" ("Məqalələr məcmuəsi") adı ilə kitab şəklində çap edib.[811]

O, 1967-ci il avqustun 31-də Xumarlı yaşayış məntəqəsi yaxınlığında Araz çayında müəmmalı şəraitdə boğulub. Fəaliyyətinə görə dəfələrlə təqiblərə məruz qalmağını əsas götürərək bir çox insanlar onun şah rejimi tərəfindən öldürülməsini iddia etsələr də, rəsmi mənbələr isə onun sadəcə çayda batdığını deyirlər. Behrəngi Təbrizin İmamiyyə qəbiristanlığında dəfn edilib.

Nabdil Oxtay onun ölümündən sonra "Səməd könlümdədir" şeirini yazıb, daha sonra isə bu şeirə musiqi bəstələnib. Həmkarları onu "Azərbaycan kəndlilərinin canlı dili", "Milli mədəniyyətin oyaq vicdanı", "Xalqa üz tutan", "Səyyar müəllim" adlandırıblar. Qulamrza Səbri Təbrizi "Səməd Behrəngi yaradıcılığında humanizm" məqaləsində yazırdı: "Səməd Behrəngi ilk dəfə olaraq Azərbaycan xalqının içərisindəki odu şöləlişləndirdi. İlk dəfə olaraq o, Azərbaycan dilinin tədrisi üçün kitablar yazdı. O, çox çətinliklərə və Pəhləvi rejiminin təzyiqlərinə baxmayaraq bir hekayəsində yazırdı ki, işıq nə qədər az olsa da, qaralıqda görünür. Səmədin bir ulduizundan min ulduzlar yarandı, balaca işığı hər yeri tutdu".[812]

Behrənginin əsərləri "Balaca qara balıq", "Adət", "Binam", "Ulduz və qarğalar", "Çuğundursatan oğlan" və başqalarıdır.

Behrəngi əsərlərində xalqımızın azadlıq, birlik arzularını əks etdirmiş, insanları zülmə, istibdada qarşı mübarizə aparmağa çağırmışdır. O, daha çox "Balaca qara balıq" kitabı ilə tanınıb ki, bu əsər İran inqilabının manifesti hesab edilir. "Balaca qara balıq" İranda şah rejiminə qarşı müxalif olan və rejimin qurbanına çevrilən ən məşhur əsərlərdən biridir.

Siyasi alleqoriya janrında olan "Balaca Qara Balıq" hekayəsində müəllif öz azadlıq arzularını balaca balığın dili ilə ifadə edib. Balaca Qara Balığın dünyaya göz açdığı mühit Səməd Behrənginin yaşadığı cəmiyyətin oxşarıdır. Burada cəhalət hökm sürür. Ətrafdakı balıqlar heç nə ilə maraqlanmır, yeknəsək həyat yaşayırlar. Onların düşüncəsinə görə həyat yalnız yeməkdən, yatmaqdan, arxda mənasız

---

[811] Yenə orada

[812] Təbrizi, Qulamrza Səbri. Zamanın nəbzi. Bakı, "Turan evi", 2006, s.23

vaxt keçirməkdən ibarətdir. "Yox, ana, mən belə gəzintilərdən yorulmuşam. Buradan uzaqlaşmaq və başqa yerlərdə nələr olduğunu bilmək istəyirəm. Birdən zənn edərsən ki, bunları mənə kimsə öyrədib, yox, ana, çoxdan bu fikrə düşmüşəm. Əlbəttə, ondan-bundan çox şeylər öyrənmişəm. Məsələn, bunu başa düşmüşəm ki, balıqların çoxu həyatlarını boşu-boşuna keçirdiklərindən gileylənirlər. Daim ah-nalə edir, hər şeydən şikayətlənirlər. Bilmək istəyirəm görüm, həyat elə bir qarış yerdə o yana-bu yana gedib qayıtmaqdanmı, qocalıb heç nə görməməkdənmi ibarətdir, yoxsa başqa dünya da mövcuddur!?"[813]

Ancaq gəncliyin təmsilçisi olan Balaca Qara Balıq belə həyat tərzi ilə barışmır. O, arxdan (köləlikdən) çıxmaq, böyük dünyaya (azadlığa) qovuşmaq istəyir. Ətrafdakı mühafizəkar balıqlar isə onun bu istəyini əsla anlamır və bir ağızdan deyirlər: - Başqa dünya yoxdur! Dünya elə gördüyün bu dünyadan ibarətdir. [814]

Balaca Qara Balıq nə anasının yalvarışlarına, nə də qonşularının tənələrinə məhəl qoymayaraq, ətalət və köləlik mühitini tərk etməyə özündə cəsarət tapır. Artıq o, kölələlərlə bir yerdə yaşamaq istəmir və azadlıq yolunu seçir. Hətta, onun arxasınca ağlayan anasına kiçik Qara balıq deyir ki, əslində onun halına deyil, köləliyi qəbul etmişlərin halına ağlamaq lazımdır: "Anacan, mənim üçün ağlama. Geridə qalmış qoca balıqların halına ağıla". [815]

Onun bu hərəkəti digər balaca balıqları da cəsarətləndirir. Onlar Balaca Qara Balığın arxasınca deyirlər: "Sən bizi qəflət yuxusundan oyatdın".[816] Genişliyə, yeni dünyaya doğru gedən yolda Balaca Qara Balıq çox çətinliklərlə üzləşir. Hər dəfə ölümlə üz-üzə qalır. Balaca Qara balıq düşünür: "Ölüm hər an məni yaxalaya bilər. Ancaq mən bacardığım qədər yaşamalı, ölümdən qaçmalıyam. Ancaq ölümlə qarşılaşa da bilərəm. Önəmli deyil, önəmli olan budur ki, mənim həyatım və ya ölümüm başqalarının həyatına necə təsir göstərəcəkdir".[817]

---

[813] Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. 4 cilddə, 4-cü cild. Bakı, Elm, 1994, s.332
[814] Yenə orada, s.334
[815] Behrəngi Səməd. Məhəbbət nağılı. Bakı, Azərnəşr, 1987, s.29
[816] Cənubi Azərbaycan ədəbiyyatı antologiyası.4 cilddə, 4-cü cild. Bakı, Elm, 1994, s.334
[817] Yenə orada, s.343

Doğrudan da, yolda onun qarşısını müxtəlif qüvvələr kəsir ki, onlardan Şaqqa balıq, Balıqudan buna nümunədir. Şaqqa balıq kiçik balıqların arasına ədavət salır, onların qüvvələrini parçalayır və sonra da asanlıqla "qurt" eləyib udur. Balıqudan da balaca balıqların qənimidir. Lakin bu və ya digər xeyir qüvvələr Balaca Qara Balığa həmişə kömək olurlar. O, çətinliklərdən qurtularaq irəliyə doğru yolunu davam etdirir və nəhayət, gədib dənizə çıxır. Bu, onun arzuladığı geniş, azad dünyadır.[818]

O, əsəri nikbin sonluqla tamamlamaqla gəncliyin yenilməz qüvvə olduğunu nəzərə çarpdırmaq istəmişdir. Gənclər təcrübəsiz olsalar da, daim axtarışdadırlar, heç bir vəchlə köhnəliklə barışmırlar. Əsərdə Balaca Qara Balığın gəlib çatdığı genişlik gəncliyin arzuladığı yeni, azad həyatın rəmzidir.[819]

Azərbaycanın güneyindəki Astarada anadan olan **Söhrab Tahir (1926-2016)** "Səadət" və "Şahpur" məktəblərində 9-cu sinfədək təhsil almış, SSRİ ordusunun Güney Azərbaycana daxil olmasından sonra xalq hərəkatında fəal iştirak etmişdir. O, 1946-cı ildə Bakıya təhsil almağa göndərilmiş, 1952-1957-ci illərdə ADU-nun filologiya fakültəsində oxumuşdur. Tahir 1962-1966-cı illərdə ADF-in Bakı komitəsində birinci katib, "Azərbaycan" qəzeti və jurnalı redaksiyalarında bədii şöbələrdə müdir, "Səhər" ədəbi-tarixi jurnalında baş redaktor müavini, 1984-cü ildən "Azərbaycan" jurnalında redaktor olmuşdur. Əsərləri: "Vətənlə sevgi arasında (şeirlər və poemalar)". (1986), "Qonşu qızın məktubları (povest və roman)" (1985), "Əmanət (povestlər)" (1991), "Sevgi əfsanəsi (şeirlər və poemalar)" (1983) və b.

Təbrizin Çayqırağı məhəlləsində anadan olan **Məhəmmədəli Fərzanə (1923-2006)** ilk təhsilini məhəllə məktəbində fars dilində alıb. Gənclik illərində "Qövsi" təxəllüsü ilə şeirlər də yazan Fərzanə orta məktəbi bitirdikdən sonra müəllimliklə məşğul olmağa başlayıb. Daha sonra Təbriz Universitetindəki pedaqoji kurslarda təhsilini fars dilində davam etdirib.[820]

---

[818]Yenə orada, s.343

[819]Yenə orada, s.344-345

[820] Esmira Fuad. "Məhəmmədəli Fərzanə: "Oxudum bülbül oldum…"". senet.az. (4 mart 2015)

1942-ci ildə Təbriz milli kitabxanasında işə başlayan Fərzanə eyni zamanda, oxuduğu mədrəsədə müəllim kimi qalıb işləmək təklifi alıb. Kitabxanada gələcəyin folklorşünas alimi bir sıra anadilli kitabları oxumaq, bədii ədəbiyyatla daha yaxın təmasda olmaq imkanı qazanıb və şəxsi mütaliəsi sayəsində bilik səviyyəsini, dünyagörüşünü, elmi səviyyəsini inkişaf etdirib. Təbriz milli kitabxanasında sonsuz maraq və həvəslə Azərbaycan türkcəsində yazılmış kitabları, divan, təzkirə və əlyazmaları öyrənməyə başlayıb.[821]

Kitabxanada təsadüfən əlinə keçən və üstündə "Batil (məhv olacaq) kitablar" yazılmış bağlama onun həyatını tamamilə dəyişmişdir. Bu bağlamada XX əsrin 15-20-ci illərində nəşr olunmuş, alim Məhəmmədəli Tərbiyətin kitabxanaya bağışladığı və bəlkə də bütün İranda yeganə nüsxə olan "Kitabi Dədə Qorqud" dastanı və Mahmud Kaşğarlının "Divanü Lüğat-it-Türk" kitabı daha çox diqqətini çəkir.[822] İlk yazılı türk abidəsi, türkdilli ədəbiyyatın, türk təfəkkürünün ana kitabı olan «Dədə Qorqud» dastanını dərindən oxuyub mənimsədikdən sonra, o, həyat istiqamətini müəyyənləşdirir, dastanla bağlı ciddi araşdırmalara başlayır. O, dastanın tarixi köklərini araşdırıb və mənbə olaraq Azərbaycan, Türkiyə, Avropa, həmçinin Orta Asiyada "Dədə Qorqud" dastanı haqqında yazılmış məqalə və kitabları götürür.

M.Fərzanə 21 Azər hərəkatı inqilabının qələbə çalmasından sonra, daha çox Azərbaycan türkcəsində yazıb-yaratmağa başlayır. "Füzuliyə yeni bir baxış", və "Divani-lüğət-it-türk"-də olan atalar sözləri və məsəllər" adlı Azərbaycan türkcəsindəki ilk yazıları "Vətən yolunda" qəzetində dərc olunur. Azərbaycan şifahi xalq ədəbiyyatı, folklor məsələləri ilə bağlı ardıcıl tədqiqatlar aparan ədib "Azərbaycan milli dastanları" və "Ana dilimiz və milli varlığımız uğrunda" adlı silsilə məqalələr yazaraq "Vətən yolunda" qəzetinin 1945-ci il saylarında nəşr etdirir. Bu məqalələrində o, əsasən "Kitabi-Dədə Qorqud", "Koroğlu", "Qaçaq Nəbi", "Aşıq Qərib" dastanları

---

[821] Şamil Əli. Məhəmmədəli Fərzanə. https://ali-shamil.tr.gg/M%26%23601%3Bh%26%23601%3Bmm%26%23601%3Bd%26%23601%3Bli-F%26%23601%3Brzan%26%23601%3B.htm

[822] Məmmədli Pərvanə. Cənubi Azərbaycan: ədəbi şəxsiyyətlər, portretlər (I Hissə). Bakı, Sabah, 2015, s.94

haqqında məlumat verir, onların süjet xəttini, mövzu dairəsini, baş qəhrəmanlarının xarakterik xüsusiyyətlərini geniş təhlil edir. Milli hökumət dövründə ana dilində müxtəlif elm sahələrini əhatə edən dərsliklərin yazılıb çapa hazırlanmasında fəal iştirak edir. Bir il içərisində ana dilində 40-a yaxın elmi-publisistik məqalə çap etdirməklə yanaşı, folklor nümunələri və ədəbiyyat tariximizə dair materiallar toplayıb.[823]

21 Azər hərəkatı məğlub olduqdan sonra Təbrizdə qalmağa üstünlük verən Fərzanə çox keçmədən həbs cəzasına məhkum olunub. Həbsdən azad olduqdan sonra yenidən ədəbi, elmi, publisistik fəaliyyətini davam etdirməyə çalışan Fərzanəni şah rejimi Təbrizdə, Marağada və Ərdəbildə qısamüddətli zindana atsa da, əməlində cinayət tərkibi tapa bilmədiklərindən azad etməli olub. 1953-cü ildə Təbrizdən Tehrana köçən Fərzanənin 1979-cu ildı baş tutan "İslam inqilabı"ndan sonra, H.Nitqi, Kərim Məşrutəçi, Mənzuri Xamneyi, Səməd Sərdarniya, Qulamhüseyn Beqdeli, Həsən Məcidzadə Savalan, Cavad Heyətlə birlikdə "Varlıq" jurnalının işıq üzü görməsində böyük rolu olmuşdur.[824]

Onun əsərləri: "Bayatılar", "Dədəmin kitabı", "Təmsillər və məsəllər", "Azərbaycan el sözləri", "Azərbaycan el mahnıları", "Azərbaycan uşaq folkloru", "Molla Nəsrəddin lətifələri", "Azərbaycan aşıqları antologiyası", "Ana dilimiz və milli varlığımız haqqında xatirələr" və başqalarıdır.

**Hacı Məhəmməd Naxçıvani (1880-1962)** əslən Naxçıvandan olsa da, Təbrizdə doğulmuşdur. Təbrizin Talibiyyə mədərəsəsində təhsil alan Naxçivani dini və dünyəvi elmlərə dərindən yiyələnmişdir. Təbriz Milli Kitabxanasını qurucularından (1956) biri sayılan Naxçivani bir çox Azərbaycan mütəfəkkirlərinin əsrlərini çap etdirmişdir. O, "Ərməğan", "Mahtab" və "Yəğma" jurnallarında "Saib Təbrizi", "Əbu Əli Sinanın məzarı", "Sədrəddin Rəbii", "Məazi Təbrizi", Məhəmməd ibn Əlbəis və Azərbaycan dili" və başqa məqalələrini nəşr etdirmişdir. Naxçıvaninin başlıca əsərləri isə "Dünya müharibəsinin hərbi tarixi", "Qətran Təbrizinin divanına

[823] Esmira Fuad. "Məhəmmədəli Fərzanə: "Oxudum bülbül oldum…"". senet.az. (4 mart 2015)
[824] Yenə orada.

müqəddimə", "Dar ağacından asılmış Siqətülislam", "Nizamiyyənin tarixi", Mirzə Əli Ləlinin həyatı" və başqalarıdır.

Xalxal bölgəsinin Nirov kəndində kasıb bir ailədə anadan olan **Salamullah Cavid (1900-1986)** ibtidai təhsilini mollaxanada almış, daha sonra ailəsi Bakı şəhərinə köçmüşdür. Bakıdakı "İttihad" məktəbində təhsilimi davam etdirən Cavidə 1914-cü ildə bu məktəbə müdir təyin olunan M.Tərbiyət yardım etmişdir. O, burada oxumaqla yanaşı "Təməddün" məktəbində müəllim işləmişdir. Daha sonra Tehran Tibb Universitetində tibbi təhsil almağa başlayan Cavid 1921-ci ildə yenidən Bakıya qayıtmaq məcburiyyətində qalıb. Bakı Tibb İnstitutunda təhsilini davam etdirən Cavid buranı qurtarıb həkimlik diplomunu aldıqdan sonra təkmilləşdirmə kursunu keçmək üçün Moskvaya gedib.

1929-cu ilə kimi əsasən Bakıda yaşayan Cavid daha sonra Tehrana dönərək burada dövlət sığorta idarəsində həkim işləyib. Ancaq İKP-nin üzvü kimi kommunist fəaliyyəti göstərdiyinə görə bir neçə il həbsdə yatan Cavid Təbrizdəki demokratik hərəkat başlayan zaman onun fəallarından biri olub.[825]

1945-ci ildə qurulan Azərbaycan Milli Hökumətində Seyid Cəfər Pişəvəri tərəfindən Azərbaycan valisi və Azərbaycan Milli Hökumətinin daxili işlər naziri olan Cavid Milli Hökumətinin süqutundan sonra həbs olunub. Həbsxanadan azad olduqdan sonra siyasi fəaliyyətdən çəkildiyini bəyan edən Cavid Tehranda həkim kimi fəaliyyət göstərib, eyni zamanda Azərbaycan Kültür Cəmiyyətini qurub. O, 1986-cı ildə Tehranda vəfat edib.

Onun əsas əsərləri aşağıdakılardır: "Dostlar görüşü", "Unudulmuş fədakarlar", "O günün həsrətiylə. Xatirələr", [826] "Azərbaycan və fars dilində təlimat", "Siyasi gündəlik", "İran məşrutə hərəkatı və dünya azadixahlarının rolu" və b.

Azərbaycan Türk ziyalılarından tarixçi alim **Səməd Sərdariniya (1947-2008)** Təbrizdə anadan olub Təbriz Universiteti və ehran Universitetində tarix və hüquq ixtisaslarına yiyələnib. "İslam inqilabı"ndan sonra C.Heyətin rəhbərlik etdiyi "Varlıq" jurnalının yaranmasında iştirak etməklə yanaşı, onun fəal yazarlarından olan

[825] https://az.wikipedia.org/wiki/Salamulla_Cavid
[826] Cavid Salamulla. O günün həsrətiylə. Xatirələr. Bakı, Yurd, 2003

Sərdariniya Güney Azərbaycanda tariximizə yeni baxış təqdim edən, onu təhriflərdən, qərəzlərdən təmizləyib elmi təməl üzərində qurmağa çalışan tarixçilər nəslinin görkəmli nümayəndəsi idi. Araşdırmalarında daim Azərbaycanı bütöv, vahid olaraq təqdim edən Sərdarniyan Bakıda fəaliyyət göstərən Azərbaycan Universiteinin "Fəxri doktoru" adına layiq görülüb. O, 2008-ci ilin aprelində Təbrizdə vəfat edib.

Onun başlıca əsərləri aşağıdakılardır: "Azərbaycan Məşrutə dönəmində", "Azərbaycanın məşhurları" (2 cilddə), "İrəvan müsəlmanların yaşadığı vilayət olmuşdur", "Təbriz – birincilər şəhəri", "Təbriz – İranda çap sənətinin beşiyi", "Arazın hər iki tayında müsəlmanların soyqırımı", "Molla Nəsrəddin Təbrizdə", "Məşrutə dönəmində Azərbaycan qəzetləri", "Təbriz Tənbəki üsyanı illərində", "Əli Müsyo", "Azərbaycan teatrının tarixi", "Bağır xan Salari-Milli", "Qarabağ müharibəsi", "Qarabağ tarixin gedişində", "İstiqlal qəhrəmanı Siqqətülislam" və b.

Sərdariniyanın "Arazın hər iki tayında müsəlmanların soyqırımı" kitabında erməni quldur dəstələrinin rus və ingilis hərbi qüvvələrinin köməyinə arxalanaraq Türkiyə, Qacarlar xüsusilə də Azərbaycan türklərinin yaşadıqları ərazilərdə çoxsaylı cinayət törətmələri, müsəlman kənd və şəhərlərini xarabazara çevirmələri, yüz minlərlə günahsız insanların qətliamını təşkil etmələri tutarlı sənədlər və mənbələr əsasında açılıb göstərilir. [827]

Onun "İrəvan müsəlman sakinli vilayət olmuşdur" kitabı isə tarixi faktları ortaya qoymaqla, erməni və onlara havadarlıq edən ölkələrin siyasətçilərinin, tarixçi alimlərinin yalan və uydurmalarını ifşa etmək məqsədi ilə qələmə alınıb. Müəllif kitaba yazdığı müqəddimədə qeyd edir ki, Qacarlar- Rusiya müharibələrindən, xüsusilə də Türkmənçay müqaviləsindən sonra ermənilərin Çuxursəd vilayətinə və onun mərkəzi İrəvana köçürülməsinə rusların birbaşa himayədarlıq etmələrinə və "məşəqqətlər görmüş millətə" hər cür dəstək vermələrinə baxmayaraq, 1918-ci ilə qədər ermənilər

[827] https://az.wikipedia.org/wiki/S%C9%99m%C9%99d_S%C9%99rdariniya

Qafqazın heç bir məntəqəsində əhalinin əksəriyyətini təşkil etməyiblər.[828]

Kitab İrəvanın ilkin yaşayış məskəni kimi formalaşması mərhələsindən başlayaraq burada yaşayan müsəlmanların (azərbaycanlıların) daşnakların əli ilə kütləvi şəkildə qətlə yetirilməsinə qədərki böyük tarixi mərhələni əhatə edir. Kitabın ilk hissələrində müəllif tarixi sənədlər və fotolar əsasında rus işğalı ərəfəsində İrəvanın tarixi-coğrafi mənzərəsini, şəhərin türk-müsəlman memarlığı əsasında yaradılmış memarlıq quruluşunu, mədəniyyət abidələrinin, dini mərkəzlərin (yeddi məscidin), karvansarayların və digər ictimai müəssisə və təşkilatların şəklini oxucuya təqdim etməklə onun tarixi bir müsəlman-türk şəhəri olduğunu sübut etməyə nail olub.[829]

Təbrizdə anadan olan **Ələkbər Pakzad Həddad (1901-1966)** da daha çox milli maarifçiliklə məşğul olmuş, Azərbaycan xalqının milli oyanışına çalışmışdır. Məsələn, o, "Ax, neyləyim" şeirində xalqın maariflənməsinin vacibliyi ilə bağlı yazırdı:

*Xabi-qəflətdə yatan millət oyanmır yenə də,*
*Uca yerdən yıxılıb, sanki duranmır yenə də.*
*Yatır şəbpərətək gündüzü axşama kimi,*
*Gecələr ovci-səadətdə uçanmır yenə də.*
*Nə ümid ilə yaşar dəhrdə insan görəsən?*
*Rahi-ümidi tapanmır bular indi yenı də...*
*Hamı zənciri-əsarətdən özün etdi xilas,*
*Bu yazıq millət o zənciri açanmır yenə də.*
*Bu tilsimati-cəhənnəmdə hələ qalmalıyıq,*
*Sahiri-əsr bu cadunu pozanmır yenə də.*[830]

Həddad başqa bir şerində yazırdı ki, ancaq bu dünyada milləti, vətəni üçün bir şeylər etməyə, yəni onu cəhalətdən, zülmkarlaırn əlindən xilas etməyə çalışmışdır:

*Vətən havasına gəldim bu darü dünyada,*
*Vətən bəla ilə gördüm olubdu mala-mal.*

---

[828] Sərdariniya Səməd. İrəvan müsəlman sakinli vilayət olmuşdur. Bakı, "Zərdabi" nəşriyyatı, 2014, s.9-10

[829] Yenə orada, s.11-20

[830] Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. 4 cilddə, 3 cild. Bakı, Elm, 1988, s.91

*Vətən bəlalıdır, mən də bəlalı, millət də,*
*Bəla edir bizi, həm biz bəlanı istqibal.*
*Qələm yazır bu sözü indi mən özüm demirəm,*
*Vətən bəlalı olar biəlaqə olsa rical.*
*Xəyanət eylədilər xalqə, millətə, vətənə,*
*O kəslər ki, olub sahibü-məqamü cəlal.*
*Bizə olar bu zəlalət yolun nişan verdi,*
*Olar bu millətin əxlaqını edib paymal.*[831]

Həddada görə, məhz dövlətin başında dayananların riyakarlığı, ikiüzlülüyü nəticəsində millət, vətən bəlalara düçar olmuşdur. Onun fikrincə, bütün bu zülmlər yetməzmiş kimi, üstəlik müasirləşmək, Qərb mədəniyyətinə yiyələnmək adı altında da millət nadanlığa sürüklənmiş, əxlaqı, dəyərləri pozulmağa başlamışdır. Həddad yazırdı ki, əgər insanlar arasında abır-həya gözləməmək, böyük-kiçik gözləmədən nə gəldi danışmaq, sərbəst hərəkətlər etmək, oğlanlar arasında qızlara məxsus bər-bəzəyə, gözəl görünməyə meyil göstərmək və s. mədəniyyət hesab olunursa, o, bunu qəbul etmir və indi barbarlıq, vəhşilik adlanan qədim adət-ənənələrə üstünlük verir:

*Budur təməddün əgər, zindabad vəhşiyyət!*
*O vəhşilik bizə bir mayeyi-səadət idi.*[832]

Təbrizdə anadan olan **Məhəmmədəli Hilal Nasir (1903-1949)** Xiyabani hərəkatında iştirak etmiş, kitab və dərgilər nəşr etməklə xalqının milli oyanışına, maariflənməsinə çalışmışdır. O, "Sitareyi-Azərbaycan", "Azərbaycan ulduzu" qəzetini, "Hophopnamə", "Divani Lahuti" və digər kitabları nəşr etdirmişdir. Eyni zamanda, o, "Mirzə Tağı xan Əmiri-kəbir", "Nicati-bəşər", "Ana dili" pyeslərini yazıb Təbriz səhnəsində tanaşaya qoymuşdur.

21 Azər hərəkatında yaxından iştirak edən Nasir də sosial-demokratizm cərəyanına meyil göstərmiş, Sovet Rusiyasının bolşevizm siyasətinə bir müddət inanmışdır. Məsələn, o, bir əsərində inanırdı ki, Sovetlər Birliyində bütün xalqlar, insanlar azad, bərabər və xoşbəxt olaraq yaşayırlar. Nasir yazırdı:

*Mülki-Şurada kədər əfasənədir,*
*Hər nə varsa orda hər insanədir.*[833]

---

[831] Yenə orada, s.93
[832] Yenə orada, s.95

O, "Oktyabr" şeirində isə yazırdı ki, guya, oktyabr inqilabı ilə dünya zülmdən azad edilib.[834] Nasir də bir çox ziyalılarımız kimi həmin dövrdə Azərbaycan xalqının nicat yolunu əsasən sosial-demokratizmdə görmüş, ancaq onun, xüsusilə rus bolşevizminin əsil mahiyyətini dərk etməkdə çətinlik çəkmişdir.

20-ci əsrdə yaşayan **Hüseyn Səhhaf** Güney Azərbaycanın Təbriz şəhərində dünyaya gəlmiş, bir sıra qəzet və jurnallarda ("Səhənd", "Azərbaycan", "Vətən yolunda" və b.) şeir və məqalələrlə çıxış etmişdir. 21 Azər hərəkatında yaxından iştirak edən Səhhaf Milli hökumətə həsr etdiyi bir şeirində yazırdı:

*Eşq ola eşq ilə azadlıq sevən bir millətə,*
*Qoydular sidq ilə mərdanə qədəm hürriyyətə,*
*Qüvvəti-qəlb ilə iqdam etdilər bu nehzətə,*
*Qərinələr zillət çəkən ellər yetişdi izzətə,*
*Azəristanda olub milli hökumət bərqərar,*
*Azər övladı bu gün dünyaya eylər iftixar.*
*İttifaq ilə bu gündə vermişdik biz əl-ələ,*
*Əhli-Azərbaycan olmuş təmami yekdilə,*
*İttihadilə bütün dünyaya saldıq vəlvələ,*
*Qoymarıq bir də vətən övladı düşsün müşkülə,*
*Almışıq muxtariyyət, qəmli könüllər şad olub,*
*Şirlər zənciri-istibdadidən azad olub.*[835]

O, "Milli hökumətə" şeirində də yazırdı ki, artıq Azərbaycan xalqının həmiyyət, qeyrət, birlik vaxtıdır. Səhhaf yazırdı:

*Milləti-Azər bu gün vacibdi versin əl-ələ,*
*İttihad etsin gərək, olsun təmamən yekdilə,*
*İttifaq ilə salın bünyadi-zülmə vəlvələ,*
*Mövqeyi-şirkətdi, izhari-şücaət vaxtıdır.*[836]

20-ci əsrdə yaşamış təbrizli **Mir Mehdi Çavuşi (1909-1967)** də sosial-demokratizmə meyil göstərmiş milli maarifçilərmizdən olmuşdur. O, inanırdı ki, dünyada bir gün zalımların məzlumlar

[833] Yenə orada, s.106
[834] Yenə orada, s.112
[835] Yenə orada, s.113
[836] Yenə orada, s.115

üzərində zülmünə son veriləcək fəhlə-kəndli sinfinin xəyalları gerçək olacaqdır:

*Gərçi dövran dəyişib, vəzi qərarın bilirəm,*
*Pozacaq ölkələrin zülmü-büsatın bilirəm,*
*Füqəra-kasibənin onda xəyalın, bilirəm,*
*Birləşib sanki dənizdir gəlir üsyanə kasıb!*
*Quracaq məhkəməni ədl ilə üdvanə, kasıb!*[837]

Çavuşi də sadəlövhlüklə yazırdı ki, bütün bunları gerçəkləşdirən də, guya dünyaya ədaləti, sosial bərabərliyi gətirən Sovet Rusiyası, rus bolşevizmidir. O, yazırdı:

*Salma özün əbəs yerə boş-boş xəyalə sən,*
*Bəsdir bu qədr dözmüsən odlu məlalə sən,*
*Doğmuş günəş səadətilə, bax şimalə sən,*
*Dur indi mən kimi eli et şadman, cocuq,*
*Qoy qalmasın ürəkdə bu həsrət nəhan, cocuq.*[838]

Bütün xalqların pənahı kimi gördüyü "Leninin yolu"nu getməklə Azərbaycan xalqının da azadlığa və xoşbəxtliyə çatacağına inanan Çavuşi Azərbaycan milli hərəkatını da təbliğ etmişdir. O, "Azərbaycan" şeirində Azərbaycan xalqının qəhrəmanlığından, mütəfəkkirlərindən söz açmış, onun böyük bir tarixnin, mədəniyyətinin olmasını vurğulamışdır.[839] Ancaq bu zaman o da, sosial-demokrat əqidəli bir çox ziyalılarımız kimi Azərbaycan türklərinin milli kimliyini "azəri", dilini "Azərbaycan dili" kimi qələmə vermişdir.[840]

Bakıda anadan olan **Balaş Azəroğlu** ömrünün bir müddətini (1938-1946) Güney Azərbaycanda yaşamış, 21 Azər hərəkatında yaxından iştirak etmişdir. "Səhər şəfəqləri", "Mənim günəşim", "Elə oğul istəyir vətən" və digər kitabların müəllifi olan Azəroğlu sosial-demokrat əqidəli milli maarifçi olmuşdur. Özünü "inqilab şairi" adlandıran Azəroğlu yazırdı:

*Mən əl açıb göylərdən diləmədim azadlıq,*
*Mənim arxalandığım onlardan daha artıq,*

---

[837] Yenə orada, s.137
[838] Yenə orada, s.138
[839] Yenə orada, s.143-144
[840] Yenə orada, s.146

*Ölkələr həsrət çəkən afitab şairiyəm,*
*Azadlığın çarçısı, iniqlab şairiyəm.*[841]

O, "Səttarxan" şerində isə diqqəti Səttarxanın başçılığı ilə Təbrizdə baş qaldırmış Məşrutə hərəkatına yönəltmiş, həmin hərəkatda Azərbaycan xalqının, o cümlədən Səttarxanın yerini və rolunu ifadə etmişdir.

*İranın elləri bizə göz dikib,*
*Azadlıq günəşi demək bizdədir.*
*Bunu şərqlilər də bilmişdir artıq,*
*Bizdən keçəcəkdir Şərqə azadlıq.*[842]

Azəroğluya görə, 21 Azər hərəkatının məğlub olması müvəqqətidir, bir gün Azərbaycan xalqı öz azadlığını əldə edəcəkdir:

*Dostlar süngüylə qazdı: "Mücahid",*
*Mənim də "Fədai" qalacaq adım.*
*Sabahkı döyüşə olmasam şahid,*
*Başqa bir ad ilə yenə övladım*
*O gün vuruşacaq...*
*Bil, bu zülmətdən*
*Qurtaracaq səni, vətən, ey vətən.*[843]

Azəroğlu daha çox milli maarifçiliklə məşğul olmuş, Quzey Azərbaycanda yaşadığı müddətdə də ADF-nin liderlərindən biri kimi, Milli hərəkatın qalib gəlməsi uğrunda mübarizə aparmışdır.

Bakıda anadan olub, ancaq 1938-ci ildən etibarən Güeny Azərbaycanda yaşamış **Haşım Tərlan** Azərbaycan Milli hərəkatı məğlub olduqdan sonra (1946) bir müddət sürgündə olmuşdur. Sürgün bitdikdən sonra o, Pəhləvilər rejiminə qarşı mübarizəsini davam etdirmiş,[844] 1979-cu ildə baş verən "islam iniqlabı"na da müəyyən ümidlər bəsləmişdir. O, Məhəmmədrza şahın devrilməsindən sonra yazırdı:

*Açaq üzdən niqabın, dərbarı millət tanısın,*
*Şah xəyanətlə gedən yolları millət tanısın,*

---

[841] Yenə orada, s.179
[842] Yenə orada, s.185
[843] Yenə orada, s.187
[844] Məmmədli Pərvanə. Cənubi Azərbaycan: ədəbi şəxsiyyətlər, portretlər (I Hissə). Bakı, Sabah, 2015, s.113-115

*Xəlqə təhmil olunan murdarı millət tanısın.*[845]

Ancaq "islam iniqlabı" Azərbaycan türklərinin ümidlərini doğrultmadı ki, bundan sonra Tərlan diqqətini bir daha milli maarifçiliyə yönəltmişdir. O, "Dədə Qorqud" şeirində yazırdı:

*"Dədə Qorqud", müqəddəsdir əməlin,*
*Qaranlığa nur çiləyir məşəlin,*
*Kəs rişədən istismarın təməlin,*
*Sənlə birgə iradəli elim var,*
*Dan yerində günəş kimi parlar.*[846]

O, "Dilimi qaytarın mənə" şeirində də yazırdı ki, ona lazım olan Azərbaycanın azadlığı və milli dilidir:

*Dil deyirəm... məni anmır,*
*Səsləyirəm, öz dayanmır.*
*Nəvələrim məni qanmır,*
*Dilimi qaytarın mənə.*[847]

Təbrizdə anadan olan **Kərim Məşrutəçi (Sönməz)** hüquq təhsili almış, uzun müddət bank idarəsində işləmişdir. 1979-cu il "islam inqilabı"ndan sonra "Varlıq" dərgisində məqalələr, şeirlər yazan Sönməzin "İsanın son şamı", "Ağır illər", "Yeni yollar açan dağçı" və digər əsərləri vardır.[848]

Sönməz "İsanın son şamı" poemasında obrazlardan birinin dili ilə dünyadakı ziddiyyətli, təzadlı məsələlərə toxunmuşdur. O, dünyada xeyir və şər, ədalətli və ədalətsizliyin əsil səbəbkarını tapmağa çalışmış, dinlərin adından çıxış edənləri tənqid etmişdir:

*Məsul kimdir? Sənsən, ya mən?*
*Ya onlar ki,*
*"Böyük Tanrı" deyə-deyə,*
*Başardıqca,*
*Yazıq, məzlum kütlələri,*
*Cəhalətdə saxlyaırlar.*
*Məzlumların tarix boyu,*

---

[845] Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. 4 cilddə, 4-cü cild. Bakı, Elm, 1994, s.126
[846] Yenə orada, s.129
[847] Əhməd Vüqar, Rzayeva Dilbər (tərtibçi müəlliflər). Cənubi Azərbaycan şeiri antologiyası. Bakı, Ecoprint, 2018, s.181
[848] Məmmədli Pərvanə. Cənubi Azərbaycan: ədəbi şəxsiyyətlər, portretlər (I Hissə). Bakı, Sabah, 2015, s.144-150

*Zülmə qarşı,*
*Ölüm-dirim döyüşündə,*
*Zalımlara arxa durub,*
*Tək onları haqlayırlar?*
*Məsul kimdir? Sənsən, ya mən?*
*Ya onlar ki, "İsa" deyib,*
*Tədqiqatçı alimləri,*
*Yaradıcı insanları*
*Alovlara tapşırırlar.*[849]

Esmira Şükürova görə, Sönməzin qənaəti belədir ki, insan gərək öz həmcinslərinin şərəfini qorumağı ən müqəddəs qanun kimi dərk etsin, insan özünün və digər bəşər övladlarının qədrini bilməsə, ümumbəşəri dəyərlərdən də məhrum olar, nəfsinə qul olanlar, həyatı ancaq tamah gözü ilə görənlərin xidmətçisinə çevrilər. Başqa sözlə, Sönməzə görə insanı kim alçaldarsa, onun özü də alçalar, səfalət və rəzalətin dirçəlməsinə kömək etmiş olar. [850] Esmira Şükürova doğru qeyd edir ki, fars şovinizminin və dovet ideologiyasının meydan suladığı, insan ruhunun əsarətdə qaldığı bir vaxtda o taylı-bu taylı xalqın həsrətini qələmə alması bir şair kimi Sönməzin sözünə və Milli ruhuna sədaqətindən, yaralı Azərbaycanın sarsılmaz ruhundan xəbər verirdi. [851]

O, poemalarında olduğu kimi, şeirlərində də Türk milli varlığını daim ön planda tutmuş, xüsusilə Türk dilini məhv etmək istəyənlərə tutarlı cavablar vermişdi. Bu baxımdan o, "Anam dili" şeirində doğma dilinə sahib çıxmağın əhəmiyyətindən bəhs etmişdir. Sönməz yazırdı:

*Dodaqlarım gülümsərkən əzəldə,*
*Anam mənə "oğul" deyib bu dildə,*
*Ana dili unudulmaz min il də*
*Həqiqətdə bu dil mənim canımdır,*
*İliyimdir, sümüyümdür, qanımdır.*[852]

---

[849]Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. 4 cilddə, 4-cü cild. Bakı, Elm, 1994, s.171
[850]Şkürova Esmira. Kərim Məşrutəçi Sönməz // Cənubi Azərbaycan ədəbiyyatı tarixi (XX əsr). İki cilddə, 2-cild. Bakı, Qanun, 2013, s.488
[851]Yenə orada, s.491
[852]Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. 4 cilddə, 4-cü cild. Bakı, Elm, 1994, s.181

Sönməz "“Mən”sizləmişəm” şeirində isə Türk kimliyindən, Türk dünyagörüşündən zorla uzaqlaşdırlmasına etiraz edir:

*Ey mənim mənliyim, imdadıma yet!*
*Bircə gəl mənlə qovuş, dadıma yet!*
*Məni bas bağrına fəryadıma yet!*
*Axı mən gör necə sənsizləmişəm.*[853]

Ərədbil yaxınlığındakı Nir qəsəbəsində dünyaya gələn **Həsən Məcidzadə Savalan** üçün də Türklüyü, Türk dili və mədəniyyəti, Azərbaycanlılığı hər şeydən öncəllik təşkil etmişdi. [854]

O, “Elmizdən, dilimizdən” şeirində yazırdı:

*Daim yaşayış oldu bizə bir qara dustaq,*
*Əl-qol yerinə bəndə vurulduq dilimizdən.*
*Lal ol dedilər, bilmıdik heç bu nə sözdür,*
*Səs çıxmadı bir başlı olan aqilimizdən.*
*Min hiyləyə aldandı özünü başlı bilənlər*
*Post aldı, məqam aldı, usandı elimizdən*
*Çün satdı elin, doğma dilin, oldu şərəfsiz.*[855]

Savalan “Hədər olmaz” şeirində də yazırdı ki, doğma dilə, Türk dilinə sahib çıxmaq lazmdır. O, yazırdı:

*Sən yurduva yan, yan elüvə, yanmalı vaxtdır,*
*Doğma dilivə yansan əgər bisəmər olmaz.*
*Bax gör səni dünyada tanırlar bu dil ilə,*
*Dil olmasa, varlıqda bütünlük gedər olmaz.*[856]

Azərbaycanın tanınmış qadın ziyalılarından olan **Həkimə Billuri (1926-2000)** Zəncan şəhərində dünyaya gəlmiş, 21 Azər hərəkatında fəal iştirak etmişdir. Milli hərəkat məğlub olduqdan sonra (1946) Bakıya köçmüşdür. Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini (1952) və Moskva İctimai Elmlər Akademiyasını (1963) bitirmişdir. Onun başlıca əsərləri "Mənim arzum" (1949), "Mübarizə illərində" (1951), "Şairin yadigarı"

[853] Əhmıəd Vüqar, Rzayeva Dilbər (tərtibçi müəlliflər). Cənubi Azərbaycan şeiri antologiyası. Bakı, Ecoprint, 2018, s.209
[854] Şkürova Esmira. Kərim Məşrutəçi Sönməz // Cənubi Azərbaycan ədəbiyyatı tarixi (XX əsr). İki cilddə, 2-cild. Bakı, Qanun, 2013, s.573
[855] Əhməd Vüqar, Rzayeva Dilbər (tərtibçi müəlliflər). Cənubi Azərbaycan şeiri antologiyası. Bakı, Ecoprint, 2018, s.218
[856] Yenə orada, s.221

(1957), "Səhər günəşi" (1964), "İstərəm" (1969), "Çinar gözləyir məni" (1975), "Şerlər" (1980), "Bir də bahar gəlsə" (1984), "Səriyyə" ("Ölməz qəhrəman"), "Sənin həyatın", "Məhin", "O göylərin altında" və başqalarıdır.

Onun yaradıcılığında da daha çox maarifçi-mədəni məzmunlu türkçülk, azərbaycançlıq və islamçılıq mühüm yer tutur. Məsələn, Billurinin dini baxışları daha çox Yaradana, onun sonuncu Peyğəmbərinə və Əhli-Beytə bağlılıqda özünü büruzə vermişdir. Bütün varlığı, ürəyi, duyğuları ilə Yaradana bağlı olan Billuriyə görə, Məhəmməd peyğəmbər dünyaya qardaşlıq, sədaqət, dəyanət gərirmişdir. O, yazırdı:

*Hamı "Mən" deyəndə, Sən ümmət dedin,*
*Qardaşlıq, dəyanət, sədaqət dedin.*
*Dünyaya, bəşərə səadət dedin,*
*Ulu peyğəmbərim, Rəsulallahım!*[857]

Billuri hesab edirdi ki, "qılıncla müsəlman" olmaq anlayışı yalandır, çünki o, özü də bir haqq məşəli ilə yanaraq, peyğəmbərin idrakına inanaraq müsəlman olub:

*Tapındım möhtəşəm Quranına mən,*
*Qəlbimi titrədən azanına mən.*
*Əzablı ömrünün hər anına mən,*
*Ulu peyğəmbərim, Rəsulallahım!...*

*Səninlə tanıdım Allahımı mən,*
*O vahid, o dönməz pınahımı mən,*
*Ona bağlamışam sabahımı mən,*
*Ulu peyğəmbərim, Rəsulallahım!*[858]

Billuri "Rəsulalllah" şeirində isə şikayət edir ki, İslam dünyası yenə də böhran içindədir, artıq şəriətin qanun qaydaları çoxdan unudulmuşdur. Islam dininin şərtlərini yerinə yetirmək əvəzinə, müsəlmanlar bir-birinə qənim kəslimiş, üstəlik bir çoxu kafirlərə arxa olmuşlar. O, yazırdı:

*Dağıtmışlar cəlalımı,*
*Artırmışlar məlalımı,*

---

[857] Billuri Həkimə. Seçilmiş əsərləri. Bakı, Şərq-Qərb, 2005, s.9
[858] Yenə orada, s.10

*Haram almış halalımı,*
*Yarağımsan, Rəsulallah!*

*Müsəlman kafirə arxa,*
*Danır gözüm baxa-baxa,*
*Ona necə deyix əxa?*
*Sınağımsan, Rəsulallah !*[859]

O, ümid edirdi ki, yalnız "peyğəmbərlər peyğəmbəri" kimi Allahın sonuncu elçisi insanlığın yer üzündəki səsi olub, bəşərin dərdinə çarə tapa bilmək gücündədir.

Onun yaradıcılığında milli-maarifçiliyin ictimai-siyasi məzmunu özünü daha çox azərbaycançılıq ruhu və Azərbaycan milli azadlığı ilə bağlı mövzularda büruzə vermişdir. O, gənc yaşlarında, qələmə aldığı "Azərbaycan" şeirində (1946) 21 Azər hərəkatının qələbəsinə çox sevinmiş, bu yolda canını belə qurban verməyə hazır olduğunu ifadə etmişdir:

*Azərbaycan, Azərbaycan şanlı yurdum, məskənim*
*Ey umudum, səadətim. təravətli gülşənim!*
*De, oxşadım neyə səni, ey sevimli Vətənim?*
*Qoy yolunda qurban getsin həyatımla bədənim.*[860]

O, "Azərbaycanım" adlı başqa bir şeirində də azərbaycançılıq hisslərini tərənnüm edərək yazırdı ki, vətənini, millətini düşünmədən yaşamaq, bir an olsun mümkün deyildir:

*Bir quşam ilk yurdum, yuvam da sənsən,*
*Mehriban elim də, obam da sənsən,*
*Nənəm də, anam da, babam da sənsən,*
*Köksünə sığınım ata məkanım,*
*Ümidim, sevincim, Azərbaycanım!*[861]

Billuri "Azadlıq yolunun yolçusuyam mən" şeirində isə Azərbaycan adlı vətəninin və millətinin azadlıq axtarışındadır:

*Azadlıq yolunun yolçusuyam mən,*
*Səninüçün ağ günlər gəzirəm, Vətən*
*Dünyanı gəzsəm də mən qarış-qarış,*

---

[859] Yenə orada, s.11-12
[860] Yenə orada, s.16
[861] Yenə orada, s.17-18

*Yenə səninləyəm, səninlə, bilsən.*[862]

Bir tərəfdən fars millətçilərinin Azərbaycan türklərini assimilyasiya siyasəti, yəni milli dilini, milli mədəniyyətini, milli tarixini, milli varlığını inkar etməsi, digər tərəfdən Azərbaycan xalqının iki hissəyə parçalanmış olması, Billuruni düşündürən əsas məsələlərdən biri idi. Şübhəsiz, "parçalanmış xalq" statusunu daşımaq çox çətindir, üstəlik bunun özünü hansı formada dərki daha ağrılıdır. Hər halda, Sovet Rusiyasının təbliğatı o şəkildə qurulmuşdu ki, Azərbaycan çar Rusiyası və "İran" arasında parçalanmışdır, bölünmüşdür.

Ancaq əsil həqiqət ondan ibarət idi ki, birincisi o dövrdə çar Rusiyasıyla müharibə aparan fars "İran" deyil, Türk Qacarlar dövləti idi. İkincisi, belə olduğu təqdirdə Türk Qacarlar dövləti nə səbəbə Türk Azərbaycanı çar Rusiyası ilə öz arasında bölüşdürməli idi? Deməli, bütün bunlar cəfəngiyyatdan başqa bir şey deyil idi. Əslində 1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay sülh müqavilələri ilə Türk Qacarlar dövləti Cənubi Qafqazın, o cümlədən Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı ilə barışmağa məcbur oldu. Bu hadisələrin üstündən təxminən 100 il keçdikdən sonra, Türk Qacarlar dövləti özü də tarix səhnəsindən getdi və onun yerini fars "İran"ı tutdu. Məhz bundan sonra, o ideya daha çox təbliğ olunmağa başladı ki, vaxtilə Azərbaycan çar Rusiyası və "İran" arasında parçalanmış, ya da bölünmüşdür.

Sözün açığı, bir hissəsi Sovet Rusiyasının, böyük hissəsi isə artıq fars-Pəhləvi "İran"ın tərkibində olan Azərbaycanın, Azərbaycan xalqının parçalanmış kimi ortada olması da artıq bir gerçəklik idi. Sadəcə, bu "parçalanmış xalq" gerçəkliyi həmin dövrün şərtləri ilə kifayətlənməyib, onun tarixi istər-istəməz 19-cu əsrin əvvəllərinə qədər aparılıb çıxarılırdı. Tarixi şüurla bağlı olan "parçalanmış xalq" məsələsini məhz bu prizmadan dəyərləndirən Billuri də yazırdı ki, iki əsrdir ayrılıq var və bunu qəbul etmək mümkün deyildir:

*İki əsr ayrılıq,*
*Dəhşətə bir bax!*
*Bu dərdə dözməzdi dünyada bir dağ.*
*Bir xaqlı böldülər, sərhəd qoydular,*

[862] Yenə orada, s.20

*İkiyə bölünən Araz ağladı.*
*Sərhəd yaraladı ana torpağı,*
*Bir elin, bir xalqın müsibətinə*
*Min kaman inlədi, min saz ağladı.* [863]

Billuriyə görə, “parçalanmış xalq” olmağımıza və birləşə bilməməyimizə səbəb də “xırda millət” olub “böyük millət”lərin “praçala, hökm elə” siyasətinə qurban olmağımızdır. [864] Şübhəsiz, Billurinin burada ifadə etdiyi “xırda millət” olub “böyük millət”lərin “parçala, hökm elə” siyasətinə dözməyimizin özü də nisbi bir gerçəklikdir. Çünki bu günün gerçəkliyində “xırda millət”ik, ancaq ən azı 1925-ci ildədək pis-yaxşı Türk Qacarlar dövləti var idi. Ancaq onun da süqutu ilə doğrudan da istər Azərbaycanın quzeyində, istərsə də Azərbaycanın güneyində yaşayan Azərbaycan türkləri əslində dünyanın nəzərində ya “azlıq”dır , ya da “xırda millət”dir. Deməli, vaxtilə çar Rusiyasının, Sovet Rusiyasının işğalı altında olub bu gün müstəqil olan Quzey Azərbaycan xalqı və 1925-ci ildə hakimiyyəti əlindən qeyri-qanuni şəkildə zəbt edilən Güney Azərbaycan xalqı bütövləşmədikcə dünya xalqlarının nəzərində ya “kiçik dövlət”, ya da “azlıq” hesab olunmağa davam edəcəkdir.

Üstəlik, İran Pəhləvilər və İran İslam rejimləri Qərb dövlətlərinin himayəsi ilə qeyri-qanuni hakimiyyət sahibi olduqdan sonra, Azərbaycan türklərini haqlı ikən haqsız göstərmək üçün əllərindən gələni ediblər. Belə ki, iran-fars millətçiləri Qərb dövlətlərinin himayəsi ilə Azərbaycan türklərini hər bir formada təhqir və təhdid yoluna əl atıblar. İran-fars şovinistləri milli haqqını istəyənləri, tələb edənləri hər daim ya öldürüblər, ya da “cinayətkar” adlandırıb həbsxanalarda, sürgünlərdə çürüdüblər. Bunu, “Sürgün” şeirində (1947) Billuri də açıq çəkildə ifadə etmişdir:

*Haqq deyən çürüyür zindanınızda,*
*Vətənini sevən boranda, buzda*
*Can verir acından, soyuqdan yenə.*
*Nələr etmədiniz əziz vətənə?..* [865]

---

[863] Yenə orada, s.24
[864] Yenə orada, s.28
[865] Yenə orada, s.63

Billuri buna etiraz edərək, heç bir zaman Azərbaycan xalqının iran-fars millətçilərinin əsarəti ilə barışmayacağına, yenidən öz torpaqlarında azad yaşayacaqlarına inanırdı:

*Qoymaram zərbələr dəysin elimə,*
*Gərək sahib olum ana dilimə*
*Əlimlə uçurub qara zindanı*
*Gərək azad edim Azərbaycanı!*[866]

O, "İntiqam" adlı şeirində də bir gün Azərbaycan xalqının yenidən özündə güc tapıb Səttarxanların, Xiyabanilərin, Pişəvərlərin yolunu davam etdirəcəklərinə və milli bayraqlarını Azərbaycan səmasında qaldıracaqlarına inanırdı. O, yazırdı:

*Bunu unutmamış xalqımız ancaq:*
*O gün ki, yenidən silahlanacaq.*
*O gün kəsiləcək zalımın əli.*
*Düşəcək torpağa zülmün heykəli!*[867]

Billurinin "İnanıram o parlaq günə" şeirində də Azərbaycan xalqının gec-tez öz dilinə, öz elinə, öz kimliyinə sahib çıxacağına böyük inamı ifadə olunmuşdur. O, zərrə qədər də olsun, Azərbaycan xalqının haqq etdiyi azadlığa qovuşacağına şübhə etmirdi:

*Xalqımın əməli bilirəm haqdır,*
*Haqqın al günəşi parlayacaqdır!!!*
*Bil ki, ölməyəcək ana dilimiz*
*Nə qədər yaşayır şanlı firqəmiz!*
*Onda ki, xalqımız edəcək qiyam –*
*O gün biləcəksən nədir intiqam!*[868]

O, "Azadlıq baharı" (1960) şeirində də, Azərbaycan xalqının milli azadlıq hislərinin tərcümanı olmağa çalışmışdır. Billuriyə görə, "azadlıq baharı" Azərbaycan elinə də gəlməli, azərbaycanlılar milli haqlarına qovuşmalı, iran-fars millətçilərinin zülmünə son verilməlidir. O, yazırdı:

*Gəl, azadlıq baharı, sənsiz gülərmi çəmən?*
*Sənsiz qəlbim, düşncəm durularmı bir anlıq?*
*Sənsiz ne elim gülər, nə də qəlbim danışar,*

---

866 Yenə orada, s.63-64
867 Yenə orada, s.63-64
868 Yenə orada, s.94

*Gəl, azadlıq baharı, gəl, gəl, zamandır artıq.*[869]

Billuri Azərbaycan xalqı üçün “azadlıq baharını” gözlədiyi bir zamanda “islam inqilabı”nın baş verməsi, onun üçün də bir ümid işığı olmuşdur. Bir çox Azərbaycan mütəfəkkirləri kimi, o da ümid etmişdir ki, “inqilab” bütün “İran” xalqlarına azadlıq, haqq-ədalət gətirəcəkdir. O, bu ümidlərlə yazırdı:

*1979!*
*Sənə əhsən! Sənə alqış!*
*Sən qışınla gətirmisən*
*Azadlığın baharını.*
*Istibdadın pəncəsindən qurtarmısan*
*Doğma Vətən diyarını!*[870]

O, inanırdı ki, “inqilab” nəticəsində Pəhləvilər və onun arxasında dayanan Qərb imperialistləri birdəfəlik məğlub olacaq, təxminən yarımsərlik aclıq, zindan, ölüm, sürgün bitəcək, Azərbaycan xalqı da milli kimliyini, milli dilini, milli mədəniyyətini ifadə edə biləcəkdir. Ancaq çox keçmədən “inqilab” nəticəsində hakimiyyət başına gələn İran İslam rejimi Pəhləvilərdən heç də çox fərqlənməyən şovinist siyasəti ilə bütün milli ümid və istəklərin üstündən qara bir xətt çəkmiş oldu. Bu baxımdan Pəhləvilərdən sonra İran İslam rejimindən ağır bir zərbə alan Azərbaycan türklərinin yenidən toparlanması heç də asan olmadı. Bununla da heç bir vaxt əsarət altında yaşamaqla barşımayan Azərbaycan türkləri Milli oyanış hərəkatının yeni bir mərhələsinə daxil olublar.

Azərbaycanın tanınmış qadın ziyalılarından **Mədinə Gülgün (1926-1991)** Bakıda anadan olmuş, onun ailəsi 1938-ci ildə Ərdəbil şəhərinə köçmüşdür. Daha sonra o, Təbrizdə "Azərbaycan" qəzetinin redaksiyasında xüsusi müxbir vəzifəsində işləmişdir. Milli Hökuməti məğlub olduqdan sonra (1946) Bakıya qayıdan Gülgünün şeirlərində nəzərə çarpan cəhət şeirlərinin xalqın həyatı və mübarizəsi ilə bağlı olması idi. [871] Vətən sevgisi, azadlıq həsrəti yaradıcılığının əsas leytmotivini təşkil edən Gülgünün əsərləri bunlardır: “Təbrizin baharı” (1950), “Savalanın ətəklərində” (1950),

---

[869] Yenə orada, s.75
[870] Yenə orada, s.80
[871] Əliqızı A. Azadlıq və istiqlal poeziyası. Bakı-2001, s. 40-41

“Firidun” (1963), “Dünyamızın sabahı” (1976), (1976), “Ömrün payız dayanacağı” (1983) və b.

Gənc yaşlarında dünyasını dəyişən **Mərziyə Üskuyi (1945-1973)** Pəhləvilər rejiminə qarşı mübarizə aparmış, milli hərəkatın dönməz mücahid qadınlarından biri olmuşdur. O, yazırdı:

*Nə yolun uzaqlığı,*
*Nə qaranlıq çuxurlar,*
*Nə durğunluq həvəsi,*
*Məni yoldan qoymadı.*
*İndi qaraşmışam mən,*
*Qurtulmaz dalğalara,*
*Varlığımız çalışmaq,*
*Yoxluğumuz dayanmaq!* [872]

O, “İlk ölüm təcrübəsi” hekayəsində isə cəmiyyətdəki haqsızlığa etiraz etmiş, ədalətsizliyin köklərini izah etməyə çalışmışdır.[873] O, “Mən günəşi sevirəm” şeirində yazır ki, uşaqlıq aləmində ürəyində işıq var olduğu üçün heç nədən qorxmur:

*Uşaqlıq aləmiydi, ürəyim işıq idi*
*Kiçik, təmiz dünyama, oyun yaraşıq idi.*
*Yoldaşlarım dövrəmdə, hamısı şad, kinəsiz*
*Bir an küs küsü olsaydə, genə barışıq idi.*
*Qaranlıq qorxuluydu, amma ondan qaçmazdıq,*
*Gecələr nağıllarda şirin, təmiz məhəbbət*
*Bizi barışdırardı.*
*Elə buna görə də,*
*Könlümüzün qapısını kinələrə açmazdıq.*
*Elə bil gözlərimiz gecələr də görərdi,*
*Ulduzlar ay-günəş tək bizə işıq verərdi.* [874]

M.Üskuyiyə görə, uşaqlığının üstündən aylar, illər keçdikdən sonra çox şey dəyişdi və sevincin, xoşbəxtliyin yerini kədər, bədbəxtlik tutdu. O, yazırdı:

*Zaman, naqqa balıqtək, uşaqlığımı uddu.*

---

[872]Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. 4 cilddə, 4-cü cild. Bakı, Elm, 1994, s.235
[873] Yenə orada, s.347
[874] Əhməd Vüqar, Rzayeva Dilbər (tərtibçi müəlliflər). Cənubi Azərbaycan şeiri antologiyası. Bakı, Ecoprint, 2018, s.291

*Keçəri qəmlərimin, kiçik sevinclərimin*
*Yerin böyük kədərlər, sönməz kinələr tutdu.*
*Günəş bizim ölkədən oğurlandı, tutuldu,*
*İsti işıq çeşməsi qurudu və qurtuldu.*
*İndi illərdən bəri gecələrimi aysız,*
*Gündüzlərimi güncüz başa çatdırıram mən.*
*Böhtan, yalan aldanmış yurdumuzu bürüyüb.*
*Şadlığın, səadətin kökü dibdən quruyub.*[875]

Bütün bunlara baxmayaraq, Üskuyiyə görə heç bir şey onun uşaqlıqdakı azacıq sevincini, xoşbəxtliyini əlindən ala bilməz:

*İndi poladdan tüfəng, hədsiz-hesabsız fişəng,*
*Xalqın sönməz eşqindən bir də dayaq lazmdır.*
*Hər kəs sevsə günəşi başqa sevgisin atar,*
*Yorulub yolda qalmaz, unudar özünü də.*
*Uzaq dağlar dalından gedib günəşi tapar.*
*Uca səslə deyirəm: mən günəşi sevirəm!*
*Mən günəşi sevirəm!*[876]

Azərbaycanımızın güneyindəki Astarada anadan olan **Behzad Behzadi** (1927-2008) buradakı orta təhsilini bitirdikdən sonra Tehranda Daneşsəraye Moqəddəmat məktəbində oxuyaraq müəllim ixtisası qazanıb və daha sonra Ali Müəllimlər məktəbinə qəbul olsa da, orada çox oxuya bilməyib. 1944-cü ilin fevralında təhsilini yarımçıq qoymalı olub. İran Azərbaycanında gedən demokratikləşmə hərəkatı, ana dilində ümumtəhsil məktəblərinin və universitetin açılması gənc Behzadı da özünə doğru çəkib. O, Təbrizə gələrək S.C.Pişəvərinin rəhbərliyi ilə qurulmuş Milli Hökumətin ana dilində açdığı Təbriz Universitetinin fizika -riyaziyyat fakültəsinə qəbul olunub. Behzad vətənində gedən dəyişikliklərin sıravi bir seyrçisi olaraq qalmayıb və milli fəal iştirakçıya çevrilib. Milli Hökumət süquta uğradıqdan sonra Behzad Behzadi bir müddət yarımgizli yaşamalı olub. Astara, Təbriz, Semnan, Tehran, Noşəhr (Ələmdeh) məktəblərində müəllim işləməklə yanaşı, biliyini artırmaq üçün daim öz üzərində işləyən Behzad Behzadi 1951-ci ildə "Bəşəriyyət" və

[875] Yenə orada, s.292
[876] Yenə orada, s.292

"Bəşire ayəndə" qəzetinin, 1951-55-ci illərdə "Azərbaycan" qəzetinin baş yazarı olmaqla yanaşı, həm də tərcüməçilik edib.

Behzad Behzadi bir müddət Milli Sığorta Şirkətində işləmiş, orada müdirlər heyətinin üzvlüyünədək yüksəlmiş, Tehran sğorta şirkətinin qurucusu və müdirlər heyətinin üzvü olub. O, sığorta təşkilatlarında işləməklə kifayətlənməmiş, metodik vəsaitlər də hazırlayıb çap etdirmişdir. 1959-cu ildə nəşr etdirdiyi "Ömür sıgortası haqqnda məlumat" kitabçası uzun illər sığorta işçilərinin stolüstü kitabı olub. İranda Beynəlxalq Ümumi Anbarlar Fedarasyonunun qurucusu olan Behzad Behzadi bir müddət həmin təşkilata rəhbərlik də edib.

Behzadi güzaranını təmin etmək üçün müxtəlif sahələrdə çalışsa da, daima ana dilinin qorunması, milli mədəniyyətin yaşadılması yollarını düşünüb. Odur ki, Azərbaycanda kiril əlifbası ilə çap olunmuş 4 cildlik Azərbaycan Dilinin İzahlı lüğəti kitabını 1995-ci ildə ərəb əlifbasıyla Tehranda nəşr etdirməsini təqdirəlayiq hadisə saymaq olar. Behzad Behzadi yalnız 4 cildlik Azərbaycan Dilinin İzahlı lüğəti kitabını çap etdirməklə kifayətlənməyib, özünün uzun illər üzərində işlədiyi "Azərbaycanca-farsca sözlük" kitabını 2003-cü ildə və "Farsca-Azərbaycanca sözlük" kitabını da 2004-cü ildə tamamlayıb oxucuların ixtiyarına verməklə yanaşı, İranda keçirilən Birinci və İkinci Turk Dili Yazı Qaydaları Seminarlarında da fəal iştirak edib, ərəb əlifbasıyla türkcə sözlərin orfoqrafiyasını hazırlayıb. 1998-ci ildə "Azərbaycan türkcəsinin yazılışı qaydaları haqqında" kitabını çap etdirib. Eyni zamanda, 1998-ci ildə farsca nəşr etdirdiyi Oğuz türklərinin ədəbi epik şah əsəri "Kitabi Dədəm Qorqud" əsəri farsdilli oxuculara geniş bilgi verib. Behzad Behzadi 2003-cü ildə "Azəri" adlı jurnalın nəşrinə nail olub. Azərbaycan türkcəsinin qorunması və inkişaf etdirilməsi yolunda böyük əmək sərf edən B.Behzadi 2003-2008-ci illərdə Tehranda nəşr etdirdiyi «Azəri» aylıq jurnalı ilə İranda dilimiz və ədəbiyyatımızın inkişafına xidmət etmiş oldu. B.Behzadi yeddi sayı müstəqil çap olunan "El dili və ədəbiyyatı" jurnalını "Azəri" jurnalının əlavəsinə çevirməklə onu yaşadıb.[877]

---

[877] https://ali-shamil.tr.gg/Behzad-Behzadi.htm

İranın Əraq vilayətindəki Qərağan bölgəsinə bağlı Bəndəmir kəndində anadan olan **Əli Kamali (1944-**1996) Tehran universitetində hüquq fakültəsini bitirib. Tehranda birinci dərəcəli ədliyyə vəkili işləyən Əli Kamali ölkədəki haqsızlığa satirik şeirlərilə cavab verir. “Nəflə", "Ağ kamal" imzaları ilə şeirlər yazıb "Tevfiq" dərgisində çap etdirir. 1979-cu ildə çap etdirdiyi satirik şerləri toplusunu da "Nəflə" adlandırır. İrandakı “islam inqilabı”na böyük ümidlər bəsləyən Əli Kamali mitinqlərdə səsləndirilən şüarları toplayıb kitab kimi çap etdirir, lakin onun bu ümidləri puça çıxır. İran İslam rejimi verilən vədlərə əməl etmir, türkcə qəzet və jurnalları bağialyır və Türkcə məktəblərin olması söz olaraq qalır. İran İslam rejiminin vədlərindən əli üzülən Əli Kamali “Varlıq” jurnalının heyətinə qoşulur. Bu jurnalda ilk çap etdirdiyi "Qara buluddan çıxan ay Telimxan" məqaləsi ona böyük şöhrət qazandırdı. XX yüzilliyin önlərində Savə bölgəsindəki türklər yaşayan kəndlərin sayı 800-ə çatırmış indi həmin kəndlərin sayı 450-yə enmişdi. Kamali də soydaşlarının yaşadığı kəndlərini sayının azalmasına təssüflənmiş, bu məsələyə diqqəti yönəltmiş, kəndlərdən folklor örnəkləri, bölgədə yaşamış aşıq və şairlərin əsərlərini toplamışdı. Topladığı materiallar haqqında ardıcıl Tehrandakı "Varlıq" jurnalında məqalələr çap etdirmişdi.[878]

Uzun müddət ADF-nin sədri olmuş **Əmirəli Lahrudi** (1924-2014) Güney Azərbaycanın Meşkin mahalının Lahrud kəndində anadan olub. 1943-cü ildə əvvəlcə Hizi Tudeyi İran təşkilatına üzvü, 1944-ci ildə partiyanın şərqi Meşkin mahal komitəsinin sədri olan Lahrudi 1945-ci ildə Azərbaycan Demokrat Firqəsinin(ADF) üzvü və Meşkin mahal komitəsinin sədr müavini seçilib. 1946-cı ilin oktyabr ayında Təbrizdə hüquq və siyasi məktəbin tələbəsi olan Lahrudi Milli Hökumət devrildikdən sonra Sovet Azərbaycanına mühacirət edib, siyasi fəaliyyətini ADF-nin Ağdam və Quba təşkilatında davam etdiib. 1960-ci ildə ADF Tudə partiyası ilə birləşdikdən sonra partiyanın mərkəzi komitə üzvü və icraiyyə komitəsinin üzvü seçilib. Lahrudi 1960-1968-ci illərdə Almaniyanın Leyspiq şəhərində yerləşən partiyanın mərkəzidə işləmiş, 1968-ci ildə Azərbaycana qayıtmış və ADF Mərkəzi Komitəsində öz

---

[878] https://ali-shamil.tr.gg/%26%23399%3Bli-Kamali.htm

fəaliyyətini davam etdirmişdir. O, 1979-2014-cü illərdə ADF-nin sədri olmuş, eyni zamanda «Azərbaycan» jurnalının redaktoru vəzifəsində çalışıb.

1935-ci ildə Təbrizdə anadan olan **Rza Bərahəni** ilk təhsilini Təbrizin Pərvayiş mədrəsəsində alıb. Daha sonra Türkiyədə ingilis diində təhsil alan Bərahəni ingilis ədəbiyyatından doktorluq müdafiə etmişdir. İran Pəhləvilər rejiminə döndükdən sonra Tehran Universitetində ingilis dili və tətbiqi ədəbiyyatdan dərs deyib. 1968-ci ildə "İnsanlıq tarixi" kitabını çap etdirməyə çalışıb, bu mümkün olmasa da "Hakim və məhkum mədəniyyət" məqaləsinə görə həbs olunub. Rza Bərahəni "İran"ın yenilikçi ədiblərindən Qulamhüseyin Səidi, Cəlal Aləhməd, Əhməd Şamlu ilə birlikdə yazıçılar birliyi yaradıb. Lakin təqib və təzyiqlər onların fəaliyyətinə mane olduğundan Rza Bərahəni xaricdə işləməyə gedib. ABŞ-dakı Yuta Unverisitetində ingilis dili və tətbiqi ədəbiyyatdan dərs deyib, professor seçilib. 1979-cu ildə İranda baş verən "islam inqilabı" mühacirətdə olan bir çox ziyalılar kimi Bərahanidə də ölkədə demokratikləşmə baş verəcəyi ümidini oyadıb. [879] O, bu ümidlə yenidən Tehrana qayıdaraq universitetdə işləməyə başlayıb.

İran İslam rejimi yerini möhkəmlətdikdən sonra onu yenidən həbs edib. 9 ay zindanda yatan ədibi məhkəməsiz azad edilib və yenidən Tehran Unversitetində professor köməkçisi işləməsinə icazə verilib. Mühit onu sıxdığına, yaradıcılığına və araşdırmalarına əngəl olduğuna görə yenidən ABŞ-a gedərək Ayova Unversitetində çalışıb. O, İran ədəbiyyatşünaslığında Avropa tipli ədəbi tənqidin banisi və İran şeirində yeniləşmə hərəkatının öncüllərindən bir kimi tanınıb. İranda müasir elmi ədəbi tənqidin əsasını qoyanlar sırasında birinci Rza Bərahəninin adı çəkilib. [880]

Təbrizdə anadan olan **Hüseyn Düzgün** İran Pəhləviləri dövründə bir müddət "Azadlıq beşiyi və ictimai sənətin xüsusiyyəti" adlı jurnal nəşr etdirmişdir. "İslam inqilabı"ndan sonra da milli ruhlu şeirlər və məqalələr yazmağa davam edən Düzgün "Ana vətən, ana vətən" şeirində deyirdi:

---

[879] Məmmədli Pərvanə. Cənubi Azərbaycan: ədəbi şəxsiyyətlər, portretlər (I Hissə). Bakı, Sabah, 2015, s.162-164

[880] https://ali-shamil.tr.gg/Rza-B%26%23601%3Brah%26%23601%3Bni.htm

*Yad bağrır, yalan-yalan,*
*Mənə deyir: bizə inan!*
*Etmir bunu əsla güman,*
*Səndən olmaz heç əl çəkmək,*
*Ana vətən ana vətən!*[881]

Yeni dövrdə Güney Azərbaycanın milli ruhunu ifadə edən ziyalılarımızdan olan **Nigar Xiyavi (1960)** də Azərbaycanlılığı, Türklüyü, Türk dili, Türk mədəniyyəti ilə qürur duyub, onlar üçün mücadilə verməkdədir. O, şeirlərindən birində yazır:

*Azərbaycanımızgil, dilimizgil, bizgil,*
*Bu havada bu tonqal,*
*Bu havalıqda niyə alovlanır ki, dədəmizi yandırır?*
*Dilim, dişimin arasında,*
*Bir yerlərə ilişib məssəbsiz.*
*Əlimdə yerlərə barmaq cücərsə də,*
*Dolaşığını aça bilmirəm.*[882]

N.Xiyavi "Kimin qızıyam?" şeirində də aşkar şəkildə ifadə edir ki,onun varlığı Azərbaycana, Türklüyə, Savalana bağlıdır. Son bir əsrdə türklüyünə böyük zərbə vurulduğunu yaxşı anlayan Nigar xanım bütünü bunlara baxmayaraq "bir az da türklüyüm var" deyə haray salır. Onun fikrincə, artıq milyonlarla Azərbaycan Türkü başı aşağı yaşamaqdansa milli azadlıq uğrunda mübarizə aparmalı və layiq olduğu bir ucalıqda dayanmalıdır.[883]

"Mişov" Mədəniyyət dərnəyinin və "Mişov dağı" dərgisinin qurucularından olan **Aqşin Ağkəmərli (1960)** də yeni dövrdə Güney Azərbaycanın milli ruhunu yaşatmağa çalışan çağdaş aydınlarımızdan biridir. A.Ağkəmərli də hesab edir ki, Azərbaycan Türkünün bir yolu var: milli azadlıq! O, "Kölə" şeirində yazırdı ki, vaxtilə böyük dövlətlərə sahib olan Azərbaycan Türkü ondan olmayanlara hər zaman yardım edib dəyər verdiyi halda, bu gün həmin yadlar Türkə qənim kəsiliblər:

*Həyat sürmüşük,*

---

881 Əhməd Vüqar, Rzayeva Dilbər (tərtibçi müəlliflər). Cənubi Azərbaycan şeiri antologiyası. Bakı, Ecoprint, 2018, s.294

882 Fuad Esmira (tərtibçi müəllif). Günümüzün Güney ədəbiyyatı antologiyası – Poeziya. Bakı, Elm və təhsil, 2018, s.17

883 Yenə orada, s.14-15

*Sevinclə kədərlə.*
*Sevincimizi zorla paylaşmışıq –*
*Kədərləri içimizə gömüləndə*
*Dünya mənim olub.*
*Yalvara-yalvara öz varlığımıdan*
*Özgələrə pay vermişəm...*
*Qapımdakı köləm bu gün ağam olub –*
*Bəlkə də haqlıymışam mən*
*Belə köləliyə boyun əymakdə...*[884]

Ağkəmərliyə görə, artıq Azərbaycan Türkü 100 il başına gələn faciələrdən sonra tarixdən ibrət dərsi çıxarmalıdır. Bunun da tək yolu vaxtilə Türkün böyüklüyündən hər daim faydalanıb, ancaq son əsrlərdə Türkə qənim kəsilənlərə boyun əyməkdənsə, yadların köləsi olmaqdansa onlara yenidən öz yerlərini bildirməliyik. O, yazır:

*Dərs almadı atam atasından,*
*Dərs almadıq biz atalarımızdan,*
*Nə əvvəlində-*
*Nə sonunda.,*
*Nə düzündə, yüzümüzdə,*
*Nə Təbrizimizdə, nə Bakımızda...*
*Dostumuzdan neçə üz gördük,*
*Düşməndən betər gördük.*
*Tumarlandıq bir az-*
*Xumarlandıq bir az.*
*Mürgülüyə-mürgülüyə,*
*Hər birimiz-*
*Bir özgənin kölgəsində,*
*Sürüm-sürüm süründük,*
*Varımızdan döndük*
*Varlığımızdan...*[885]

Yeni dövrdə Güney Azərbaycanın milli ruhunu özündə əks etdirən müəlliflərdən biri olan **Ruqiyyə Səfərinin (1979)** yaradıcılığında da əsas yeri türklük, Turan ideyası tutmaqdadır. Esmira Fuadın da yazdığı kimi, Uzaq Sibirdən Ötükənədək uzanan

[884] Yenə orada, s.26
[885] Yenə orada, s.26

ucsuz-bucaqsız əraziyə sahib olmuş döyüşkən Türk fatehlərinin dünyada yaratdığı yeni coğrafi məkana – Turana əsən yellərlə salam göndərib üz tutan gənc şairin şanlı keçmişlə ilgili özləmini duyur, milli kimliksiz yaşamağın qəhrinin çəkilməzliyini anlayırıq. [886] R.Səfəri "Ey əsən yel!" şeirində yazırdı:

*Ey əsən yel!*
*Külümü sovuracaqsan*
*Barı ölkəmə doğru əs,*
*Bir gəldiyimə varayım.*
*Qoy sağ əlim Ötükənə pay olsun,*
*Sol əlim isə Sibrimi tutsun!*
*Araz laylamı sızlasın beşiyində*
*Özləmli baxışlarıma.*
*Qoy torpağım olsun məzarım,*
*Kimliyim isə baş daşım,*
*Bu anılmayan çağda,*
*Ey əsən yel!..* [887]

R.Səfəri başqa bir şeirində də milli azadlıq istəyini ifadə edir və Türk kimliyinin müdafiəsinə qalxırdı. O, yazır ki, Güney Azərbaycan xalqı gec-tez bütünazadlıqlarına qovuşacaqdır:

*Zərrə-zərrəmdə vətən nisgili,*
*Beynimdə azadlıq fırtınası*
*Və göz giləlarim torpağımın boyasındadır...*
*Məni harda asırsız asın,*
*Dar ağacımdan bayrağım yellənəcək*
*Və gömüldüyüm yerdən Azadlıq cücərəcək!* [888]

Yeni dövrdə Güney Azərbaycanın milli ruhunu özündə əks etdirən müəlliflərdən **Məlihə Əzizpurun (1979)** yaradıcılığında da Türklük ön plandadır. M.Əzizpur Türklüyü, Azərbaycan Türklüyünü məhv etməyə, assimiliyasiya etməyə çalışanlara, xüsusulkə də onların yanında yer alıb bəzən aryançılığı farslardan da artıq şəkildə təbliğ edən "özümüzünkülərə" üz tutaraq yazırdı:

*Çörəkləri qəhbə təri qoxuyan*

[886] Yenə orada, s.6
[887] Yenə orada, s.652
[888] Yenə orada, s.652

*Siyasət fahişələri!*
*Tarix zibilliklərində sümsünərkən,*
*Görmədinizmi kğpəkliyinizin adına*
*Bir parça sümük belə yoxdur?!*
*Varlığınız belı yoxluq biçimindədir!*
*Bu bizik,*
*Tarix yaşlı TÜRK!*
*əsirlərin çərçivəsinə sığmayan ƏR*
*Dustaqlara yerləşməyən NƏR!*
*Söyləyin, necə quyruq bulayırsınız*
*Soframızın başında*
*Eeey...! Qapımızın itləri?!*
*Əlbəttə ki,zaman, tərsə geyib başmağını.*
*Yoxsa, duyardınız*
*Qurdumuzun səsi necə uzanır*
*Altaylardan Balkanlara...*[889]

Əzizpur daha sonra yazırdı ki, bir zamanlar dünyaya meydan oxuyan Türklər yenidən diriliş halındadır və öz sözünü yenə də deyəcəkdir. Başqa sözlə, Türkün düşmənlərinin bütün fəlsəfəsi heç bir nəticə verməyəcək və Türk olmalı olduğu ucalığa gec-tez qovuşacaqdır. O, yazırdı:

*Bizim, ulu Türküstan çəlündə - at belində*
*Qızıl səhifələrimizi artırmaq üçün*
*Qoca tarix kitabına...*
*Başa düşürük*
*Bic fəlsəfəniz, ölümdən süd əmir...*
*Bu bizik!*
*TÜRK oğlu TÜRK!*
*Oğuz xaqan. Alp Ər Tonqa, Tomris,*
*Atilla, Babək, Atatürk!..*[890]

Çağdaş dövrdə Güney Azərbaycanın milli ruhunun daşıyıcılarından biri olan **Abutalıb Allahyari Tutqun (1961)** da əsas diqqəti Türk varlığına, Türk dünyagörüşünə yönəltmişdir. O, "Əslim var" şeirində yazır:

---

[889] Yenə orada, s.647
[890] Yenə orada, s.648

*Axı mənim Qorqud dədəm,*
*Tomris nənəm,*
*Babəkim var!*
*Yaramazlar boğazına qurşun tökən,*
*Lovğalara qan udduran,*
*Koroğlum var,*
*Nigarım var!*
*Səzlar*
*Yanıq Kərəmim var!*
*Bəlkə də varlığım bağırır mənim?!*
*Əslim var,*
*Əslim var mənim!*[891]

Milli fəallardan biri olan **Sürrəya Bəxşi (Aylar)** "İyirmi" şeirində müəllimin Azərbaycanın güneyi və quzeyindən bəhs etməsini dilə gətirmişdir. O, müəllimin dilindən yazır:

*Güney, quzey Azərbaycan.*
*Gözəl, göyçək vardır eli,*
*Millətinin Türk dili,*
*Desə mənə hər kim ancaq,*
*Nəyə bənzər bu gül torpaq,*
*Verim ona tam iyirmi.*[892]

Uşaqlar isə müəllimin bu sualına cavab olaraq bildirirlər ki, Azərbaycan və Türk dili sevgidir, qeyrətdir, cənnətdir, birlikdir, ədəb qanıdır, imandır, qanaqandır, bayraqdır və sairdir. S.Bəxşiyə görə müəllim şagirdlərinin cavablarına qulaq asdıqdan sonra sanki nəfəsi kəsilmişdir:

*Sındırdı öyrətmən sükutun bağrın,*
*Sözlərinin tutdu ardın*
*Dedi: bütün siz deyənlər*
*Düzdü amma, azdı güllər...*
*Gözəl yurdum Azərbaycan*
*Unutmayıb hələ səni*
*Bəslədiyin bu övladlar*

[891] Yenə orada, s.326
[892] Əhməd Vüqar, Rzayeva Dilbər (tərtibçi müəlliflər). Cənubi Azərbaycan şeiri antologiyası. Bakı, Ecoprint, 2018, s.454

*Azad yaşa deyə-deyə.*
*Ad dəftərdə verdi iyirmi*
*Uşaqların hamısına,*
*El qocası Dədə Qorqud.* [893]

Güney Azərbaycanımızın milli ruhlu ziyalılarından olan **Məsud Haray** 8 ilə yaxın türklükdən uzaq olub irançılığa meyil etsə də, daha sonra Turançılığa üz tutmuş, türkcə düşünməyə başlamışdı. O, "Özgürlük" şeirində yazırdı:

*Mən arzular yelkəniyəm,*
*Dənizin bağrında,*
*Dalğalar qucağında,*
*Layla kimi.*
*Qocaman dağların daşıyam,*
*Başıma qar yağmasa,*
*Köksümdə Boz Qurd olmasa,*
*Boğuluram.*
*Mən arzular yelkəniyəm,*
*Özgürlüyə sarı yel əsməsə də.*
*Dalğalar sussa da,*
*Boz Qurdlar olmassa da,*
*Özüm ulayıb,*
*Dəlilər kimi dənizə batacağam,*
*Özgürlüyümə çatacağam.* [894]

M.Haray hesab edirdi ki, özgürlüyə çatmaq üçün Azərbaycan türkləri əl-ələ verib yeni bir tarix yazmalıdır. O, yazırdı:

*Əl-ələ verərkən qalxacayıq biz,*
*Tarixə qan ilə salacayıq iz,*
*Səninlə birlikdə olacayıq biz.*
*Sel kimi, vulkan tək patlayacayız,*
*Dağ-dərə saymadan atlayacayız.*

*Bu Vətən, bu torpaq namusumuzdur,*
*Düşmənə verəcək kabusumuzdur,*

[893] Yenə orada, s.456
[894] Fuad Esmira (tərtibçi müəllif). Günümüzün Güney ədəbiyyatı antologiyası – Poeziya. Bakı, Elm və təhsil, 2018, s.442-443

*Biz Türküz, türkəcmiz qamusumuzdur,*
*Türkcəmiz təmizdir, taysızdır, qızım,*
*Tarixdə fəxrimiz saysızdır, qızım.*[895]

Azərbaycanın güneyindən olan **Məhəmməd Ərğəvan** Təbriz şəhəri yaxınlığındakı Alyanaq kəndində doğulmuş, orta məktəb təhsilini Təbrizdə almışdır. "İslam inqilabı"ndan gözləntiləri doğrulmayan və siyasi görüşlərinə görə həbs olunan Ərğəvan azadlığa çıxdıqdan sonra əvvəlcə Azərbaycan Respublikasına gəlmiş, daha sonra da Almaniyaya mühacirət etmişdir.

O, "Üç nöqtə" məqaləsində yazır ki, əski çağın sonu, yeni çağın başlanğıcı ilə üz-üzə dayanırıq: "Yırtıcılar isə istəklərinə uyğun, quzu dərisində mələşir. Böylə biçim, çağın gələcəyinə dirəşir. Artıq pambıq qılınclar haraysız başlar üzəcək yenidən. Bu acımasızlıq, qansız savaş deyə başlayıb yavaş-yavaş...".[896] Ərğəvan "Qara tabut" yazısında isə bir "ölü"nün dilindən tabutunun arxasınca dediklərini dilə gətirir: "Çox ölkələr dolaşdım. Çeşidli topluluqlar içərisində rahatca yaşadım. Kimsədən incimədim, kimsəni incitmədim. O kimsələrin çoxu gözlü ikən kor idi. Sıralarında, gözlüklə çevrəni sezən az deyildi. Bugün texnoloji korların, qılçasızların, əl-ayaqsızların sorumlarını çözmüşdür. Ancaq nadanların sorumları olduğu kimi qalır. Çox boynu yoğunlarla didişmişəm. Danqaz olduqlarından diz çökəcəklərini bilirdim. Çünki danqazın çıxış yolu çomaqdır. Başa düşdüm ki, gerçəkdən ölkələri fırladanların bir azı apdallardır, bir çoxu isə abdal. Ancaq abdalların çoxu, beyinsiz apdalların qulluğundadır. Onları azca çəkindirən yasalardır. Yasa yalnız yırtıcılğın qarşısını almaqdan ötrüdür. Bir kor anlayırsa, bir çolaq başa düşürsə, bir əl-ayaqsız duyumludursa, toplumun belinə yük deyildir. Gerçək yük – gözlü, qılçalı, əl-ayaqlı danqazlardır. Onlar, alaçiy görüşlərlə, topluluqların ağ gününü, qara günə çevirirlər. Bilməyən öyrənir, sorumu da bitir. Ancaq dad, alaçiylər əlindən".[897]

Azərbaycanın güneyindən olan **Əli Daşqın** Ucan-Bostanoba bölgəsinin Xalacı kəndində anadan olub orta təhsilini Təbrizdə

---

[895] Yenə orada, s.448

[896] Ərğəvam Məhəmməd. Üç nöqtə //Güney Azərbaycan nəsri: Bağlanğıcdan bu günə qədər (Antologiya) . Bakı, Nurlar NPM, 2017, s.398

[897] Yenə orada, s.402

almışdır. Onun da yaradıcılığında milli motivlər əsas yer tutmuşdur.[898] O, "Türk" şeirində İran irqçiliyinə qarşı milli kimliyini, milli varlığını ifadə etmək istəmişdir:

*Boz qurdun dərisi kürküm,*
*Bayların papağı börküm,*
*Məm buyam, Türk oğlu türküm!*
*Ellərimə, yadlarıma.*[899]

Esmira Şükürova hesab edir ki, Ə.Daşqının mövzu obyekti həyat, cəmiyyət və bu cəmiyyəti təşkil edən insanların bütövlükdə xalqının yaşantıları, həyat tərzi, sevinci, faciə və məhrumiyyətləri, duyğu və düşüncələr aləmidir: "Bu şeirlərdə onu əhatə edən cəmiyyətin çatışmazlıqlarına, insanların problemlərinə, dərd və ağrılarına, mənəvi üzüntülərinin səbəblərinə münasibət potik qəlibə salınaraq təqdim olunur. Qoynunda doğulub boya-başa çatdığı doğma yurda, Ana dilinə sonsuz sevgisini misralarına hopduran şair soydaşlarına, şovinizm siyasəti nəticəsində el-obasından didərgin düşərək bütün dünyaya səpələnmiş Azərbaycan türklərinə səslənir".[900] Əli Daşqın üzünü Bütöv Azərbaycan xalqına tutaraq yazır:

*Ortaq baxtımızın sin daşıyıq biz,*
*Bir qoca, ağbirçək ananın oğlu,*
*Bir kövrək bacının qardaşıyıq biz,*
*Uzat əllərini əlimə doğru!*
*Ögey dolandıqcaartıq yanarıq,*
*Axı biz hamımız bir anadanıq...*[901]

Əli Daşqın nəsr əsərlərində də Türk kimliyini, Türk varlığını, türk dilini hər daim ifadə etməyə çalışmış, bu yolda mücadilə aparmışdır. Məsələn, o, "Bıçaq və sümük" povestində məktəblərdə Türk dilinə qadağan qoyulub, ancaq fars dilində tədrisin aparılmasına etirazını bildirmişdi. Daşqın hesab edirdi ki, Azərbaycan türklərinin yalnız fars dilində oxuyub, farsca düşünməsi ən böyük haqsızlıqdır. Həmin povestdəki qəhrəmanı Bilginin dili ilə o, milli təəssübkeşliyin

---

[898] Yenə orada, s.327-328
[899] Daşqın Əli. Könül saxsısı. Bakı, Avrasiya-Press, 2005, s.245
[900] Şükürova Esmira. Əli Daşqın // Cənubi Azərbaycan ədəbiyyatı tarixi (XX əsr). İki cilddə, 2-cild. Bakı, Qanun, 2013, s.636
[901] Daşqın Əli. Könül saxsısı. Bakı, Avrasiya-Press, 2005, s.377

vacibliyindən bəhs etmişdir. Ancaq nəticədə məlum olur ki, Bilgin milli təəssübkeşliyin qurbanı olsa da, bacısı onun yolunu davam etdirmişdir. [902]

XX əsr və XXI əsrin əvvəllərində yaşayıb yaratmış milli maarifçi ziyalılarımızdan Cəfər Kaşif, Fəxrəddin Məhzun, Mir Tağı Milani, Yəhya Şeyda, Həsari, Kəmali, Huşyar, Musa Tahiri, Məhəmmədli Düzdüzani, İsmayıl Cəfərpur, Pənah Makulu, Həmzə Fəthi Xoşginabi, Gəncəli Səbahi, Tağı Fazili, Süleyman Salis, Əli Şərif Dilcuyi, Davud İntizar, Səid Qarabulud, Ənsar Qaradağlı, Hadi Qaraçay, Rəsul Yunan, Azəryar Danişvər, Şərifə Cəfəri, Ramin Bəxşi, Heydər Boyat, Araz Əhmədoğlu, Süleyman Cəfərli, Duman Ərdəm, Sayman Aruz, Mehdi Əzimi, Şəlalə Cavanşir, Əmin Hacılu, Maral Təbrizli, Ümid Nəccari, Oxtay Vətənxah, Türkan Urmulu və başqlarının da adlarını çəkmək olar.

[902]Şükürova Esmira. Əli Daşqın // Cənubi Azərbaycan ədəbiyyatı tarixi (XX əsr). İki cilddə, 2-cild. Bakı, Qanun, 2013, s.640-641

# MİRZƏ ƏLİ MÖCÜZ ŞƏBÜSTƏRİ

**Həyat və yaradıcılığı.** Azərbaycanın Şəbüstər şəhərində dünyaya gələn Mirzə Əli Möcüz Şəbüstəri (1873-1934) ilk təhsilini burada alıb. Atasının ölümündən sonra İstanbulda yaşayan qardaşlarının yanına gedən Şəbüstəri 16 il burada ömür sürmüş və dini elmlərlə yaxından tanış olmuşdur.

1905-ci ildən sonra İstanbuldan Şəbüstərə dönən Möcüz Vətənindəki cəhalətə, nadanlığa, milli ruhsuzluğa dözməyərək, bu dövrdən etibarən yalançı ruhanilərə, zülümkar məmurlara və irqçi aryançılara qarşı mübarizə aparmış, öz təbrincə desək, ana dilində milli maarifçi ruhlu "növhəxanlığ"a başlamışdır: "Bu növhəxanlığım bəzi din üləmalarının xoşuna getmədi, mənə müharibə elan etdilər. İyirimi altı il bir-birimizlə münaqişə etdik. Xeyrat verdilər, çağırmadılar. Toy oldu, mən getmədim. Bununla belə sonuna qədər mübahisə etdim, mən yazdım, həm də öz ana dilimdə yazdım... Fars dilini çox da yaxşı bilmirəm və bu dildə çox az yazmışam. Həm də elə sanıram ki, azərbaycanlılar fars dilindən o qədər də xoşlanmazlar".[903]

O, 1933-cü ildə İran Pəhləvilər rejimi tərəfindən Şəbüstərdən Şahrud şəhərinə sürgün edilmiş və bir il sonra da vəfat etmişdir.

**İctimai-siyasi görüşləri.** Şəbüstəri yaradıcılığında türklüyün və azərbaycanlılığın şovinist irançılar tərəfindən aşağılanmasına etiraz edərək yalnız müdafiə olunmaqla kifayətlənməyib, eyni zamanda Azərbaycan türklərinin milli haqlarının bərpasını kəskin bir dillə Qacarlar və Pəhləvilər hakimiyyətlərindən tələb etmişdir. Şübhəsiz, onun Qacarlarla Pəhləvilərdən tələbləri arasında xeyli dərəcə fərq var. Çünki onlardan biri, yəni Qacarlar türklüyünü unutdurlub farslaşmağa-iranlılaşmağa üz qoyduğu halda, Pəhləvilər Türklərin bütün varlığını inkar edərək onu assimilyasiya can atan ifrat irqçi bir rejim idi.

O, hər şeydən əvvəl anlayırdı ki, Qacarlar dövlətini Türk sülaləsi idarə etsə də, faktiki olaraq burada daha çox əzilənlər və cəhalətin qurbanı olanlar yenə də türklərdir. Üstəlik, Qacarlar dövlətinin başında dayananların çoxu türklüyü gerilik, vəhşilik kimi

---

[903] Şəbüstəri Mirzə Əli Möcüz. Şeirləri. Bakı, "Oskar", 2007, s.3-4

başa düşüb, Türk dilində danışmağı belə özlərinə eyib hesab edirlər. O, yazırdı:

*Dünən şer ilə bir namə apardım şahi-İranə,*
*Dedi: "Torki nə midanəm, məra to beççə pəndari?"*
*Özü Türk oğlu Türk, amma deyir Türki cəhalətdir,*
*Xudaya, müzməhil qıl təxtidən bu ali-Qacari!*
*Ümidin kəsmə, Möcüz, yaz anan təlim edən dildə,*
*Gəzər bir ərmağantək dəftərin, bil, Çinü Tatari!*[904]

Bu cür milli ruhlu şeirləri ilə Möcüz Qacarların başında duranlara sərt bir formada türklüklərini xatırladır, onları qəflət yuxusundan oyadaraq türklüyə – türk kimliyinə, türk dilinə, türk mədəniyyətinə arxa çevirməkdənsə, ona dayaq olmağa, ölkəni, o cümlədən hər vaxt Türklüyünn məbədgahı olmuş Azərbaycanı bərbad haldan abad hala gətirməyə çağırırdı. O, yazırdı:

*O zaman xalq şadiman olacaq*
*Ki, vətən madəri-zəban olacaq.*
*Onda tehranlı nagiran olacaq*
*Əhli-Azərbaycanə, inşallah!*[905]

O, şeirlərində daha çox Məhəmməd Əli şahla Əhməd şah Qacarı tənqid etmişdir. Məsələn, Şəbüstərinin Məhəmməd Əli şaha olan nifrəti Məşrutəni ləğv edib Məclisi topa tutdurması idi:

*Bağladı Məclisi-Şuranı topa Məmmədəli,*
*Düşdü öz canına axır şərəri, mən neyləyim!*[906]

Məhəmməd Əli şahın yerinə taxta oturdulan Əhməd şah Qacarı isə o, səriştəsizlikdə, mənasız və düşüncəsiz həyat sürməkdə, Vətən və millət qayğısından uzaq olmaqda ittiham etmişdir. Şəbüstərə görə, Millət qan ağlarkən sultanın ancaq yeməklərdən, musiqidən zövq alması və Avropa mehmanxanalarında kef-damaqla yaşaması qəbuledilməz bir haldır:

*Əhli-xibrə qoydular qantarə, şahi çəkdilər,*
*Əlli batman istixanı gəldi, yüz batman əti...*
*Millət ağlarkən, o sazü-suz ilə məşğul idi,*
*Qarnı şişməzdi o qədri gər olaydı qeyrəti.*

---

[904] Şəbüstəri Mirzə Əli Möcüz. Seçilmiş Əsərləri. Bakı, "Şərq-Qərb", 2004, s.44
[905] Yenə orada, s.85
[906] Yenə orada, s.49

*Qoydu şapqa başına, etdi Firəngistanə əzm,*
*Səhni-mehmnxanədə tüğyanə gəldi şəhvəti.*[907]

Bəlkə də, Şəbüstəri bir həqiqəti unudurdu ki, doğrudan da Əhməd şah özü siyasətdə bacarıqsız, səriştəsiz olsa da, ancaq Qacarlar dövlətində hakimiyyət böyük ölçüdə faktiki olaraq ingilislərin və onun maşası olan irançıların əlində idi. Bu anlamda Şəbüstərinin böyük sevinclə qarşıladığı Xiyabani hərəkatı da Qacarlar dövlətindən çox ingilis ağalığına və irançı qılıqlı fars şovinizminə etiraz idi. Başqa sözlə, demokratik hərəkatın başlıca məqsədi Qacarları devirməkdən çox, onu formal hala gətirərək ölkədə ağalıq edən irançılara və onun havadarları ingilislərə öz yerini göstərmək olmuşdur. Bizcə, bir çox mütəfəkkirlərimiz kimi Şəbüstəri bu məqama çox da diqqət yetirməmiş, ölkənin acınacaqlı bir durumda olmasına görə əsasən Qacarları və onun hökmdarlarını görmüşdür. O, yazırdı:

*O tacü təxtə oldu namizəd ali-Qəcər axir,*
*Yüz il qan ağladı millət, vəli, ahəstə-ahəstə,*
*Tükəndi qəlb evində səbr, ucaldı nalələr axir.*
*Vətəndə qalmadı bir yer ki, viran etməsin Qacar,*
*Fərar etdi vətəndən milləti-xunincigər axir.*
*Min üç yüz qırx iki il keçdi çün tarixi-hicrətdən,*
*Qəza səsləndi: zalim, dur görək, bəsdir yetər axir!...*
*Xilas oldu vətən, əhli-vətən, Möcüz, bihəmdüllah,*
*O taxtı badə verdi padişahi-bihünər axir!*[908]

Hətta, bu cür yanlış düşüncənin təsiri altında da Şəbüstəri Böyük Britaniyanın birbaşa dəstəyi ilə 1925-ci ildə Əhməd şahın formal hakimiyyətinə də son verilərək onun yerinə gətirilən Rza Pəhləviyə, onun "Cümhuriyyət" quruluşu vədinə böyük ümidlər bəsləmişdir. O, "Cümhuriyyətə" şeirində yazırdı:

*Saqiya! Bir badə ver əbnayı-cümhuriyyətə,*
*Təşnədir əhli-vətən səhbayi-cümhuriyyətə,*
*Sakit ol, ahəstə gəl, tünd əsmə, ey badi-səba,*
*Qorxuram toz əyləşə simayi-cümhuriyyətə!*
*Bir para nadan kişi "Başsız bədən olmaz" deyər,*

[907] Yenə orada, s.44-45
[908]Yenə orada, s.45

*Bəs, demək vaqif deyil mənayi-cümhuriyyətə.*
*Qurda verdi kəlləni çün kəlləsiz çobanımız,*
*Ol cəhətdən düşmüşük sövdayi-cümhuriyyətə.*[909]

Yaxud da o, yazırdı:

*Sənə qurban olum, ey dəftəri-cümhuriyyət,*
*Bu gözəl toxum bizim yerdə çocuqlar, ya yox?*
*Ali-Qacar fələk salsa ayaqdan, cana,*
*Görəsən milləti-İran genə yuxlar, ya yox?*[910]

O, hesab etsə də ki, "zülmkar" Qacarların ağalığına son verilib onun yerinə "mütərəqqi", "cümhuriyyətçi" Rza Pəhləvinin gəlməsi ilə ölkədə qayda-qanun, ədalət bərqərar olacaq, ancaq çox keçmədən hər şey öz çılpaqlığı ilə ortaya çıxdı. Belə ki, "mütərəqqi" Rza Pəhləvi Qacarların son dövründəki haqsızlığa, ədalətslziyə aryançı irqçiliyi də əlavə etməklə daha böyük fəlakətlərin əsasını qoymuşdur. Belə ki, ölkədə "tək İran milləti" yaratmaq istəyən Rza Pəhləvinin özünü fars-"Pəhləvi" adlandıraraq türklərə qarşı apardığı irqçilik siyasəti Əhməd şahın dövründəki haqsızlığı, özbaşnalığı belə kölgədə qoymuşdur. Şübhəsiz, bunun daha ağrılı olduğunu dərindən anlayan Şəbüstəri üçün bunu, dilə gətirməmək mümkün deyildi:

*Pəhləvizadə çıxıb taxta deyirlər, deyəsən*
*O qoyub başına taci-Qəcəri, mən neyləyim?!...*
*Gözü, qaşı, bədəni, hər bir yeri bənzər şahə,*
*Az imiş mədrəki, yoxmuş hünəri, mən neyləyim?!*[911]

Başqa bir şeirində isə Şəbüstəri yazırdı ki, dünənə qədər Cümhuriyyətdən danışan Rza da şahlıq həvəsinə düşərək taxta oturmaqla Əhməd şahdan də betər şəkildə zorakılıq üsullarına əl atmaqdadır. Əhməd şahın "qalın qafalığı" üzündən Qacarların hakimiyyətinə son qoyulduğuna, onun yerinə keçən Pəhləvilərin də ingilislərin aryançılıq ideologiyası ilə bir tərəfdən din-imandan uzaqlaşıb, o biri tərəfdən də türklərə divan tutmasını Şəbüstəri həzm edə bilmirdi:

*Bəs ki, qalındı qafası, şikəmi misli kötük,*
*Eyləməz hərgiz ona qüssə əsər, Məmmədəli.*

---

909 Yenə orada, s.46
910 Yenə orada, s.47
911 Yenə orada, s.49

*İnqraz aləminə qoydu qədəm ali-Qəcər,*
*Yerinə keçdi onun pəhləvilər, Məmmədəli.*
*Dinü iman gedər əldən, olusan əhli-səqər,*
*Dedim axir sənə mən etmə səfər, Məmmədəli.*
*Börkü Allah yaradıb, şapqanı şeytani-rəcm,*
*Başuva qoyma onu, eylə həzər, Məmmədəli.*
*Özün oxşatma firəngə, urusa, gəl vətənə,*
*Düyəni bas başına misli-düsər, Məmmədəli.*[912]

İngiltərə tərəfindən Pəhləvilərin qeyri-qanuni şəkildə hakimiyyətə gətirilərək türklərə qarşı başlanan assimilyasiya siyasətini artıq dərindən anlayan Şəbüstəri üçün, əsas vacib olan bu məsələnin əsil mahiyyətini xalqa çatdırmaq idi. Bu anlamda o, bir tərəfdən "mütərəqqi", "demokrat" Rza Pəhləvinin üzündəki maskasını çıxarmaq idi isə, digər tərəfdən də onun arxasında dayanıb aryançılığı təşviq edən İngiltərəni ifşa etmək idi:

*Aman, ingilisin əlindən, aman!*
*Yeridir su altından hər gün saman,*
*Onun öhdəsindən gələmməz cahan,*
*Xuda, ingilisi özün vur yerə!*[913]

Deməli, Şəbüstəri Qacarlarla müqayisədə irqçi Pəhləvilərin İngiltərəyə arxalanaraq apardığı siyasəti daha qorxunc hesab etmişdir. Onun fikrincə, Pəhləvilərin hakimiyyətə gəlməsilə xüsusilə də türklər, o cümlədən Azərbaycan türkləri üçün bəla bir idisə, artıq ikiqat artmışdır. Belə ki, ingilispərəst Vüsuqiddövlə və Qəvamüsəltənə ilə bir yerdə Rza Pəhləvi türklərə divan tutur, onları zorla assimilyasiya edərək farslaşdırmağa çalışırdı. O, yazırdı:

*Gəhi bihəya qəsdi-İran edir,*
*Yığır Dari-Şurani viran edir,*
*Vüsuqi, Qəvami yenə xan edir,*
*Olur düşməni-can maliklərə.*[914]

Şəbüstəri artıq şübhə etmirdi ki, vaxtlə ərəbləri Vəhabilik adı altında Osmanlıya qarşı qaldıran ingilislər indi Pəhləvilərin arxasında

[912] Yenə orada, s.70
[913] Yenə orada, s.49
[914] Yenə orada, s.50

dayanaraq farslar istisna olmaqla "İran" xalqlarına, xüsusilə də Azərbaycan türklərinə divan tutmaqdadır.[915]

Şəbüstəriyə görə, bu kimi bəlalardan qurtulmağın tək yolu Azərbaycan türklərinin yenidən oyanışı və öz xəttini müəyyənləşdirməsi ilə bağlıdır. Ona görə də M.Ə.Sabir kimi, millətin oyanması və tərəqqi etməsi məsələsinə daha çox diqqət yetirib, "mən xalqımı Sabir kimi oyadacağam" deyən Möcüz, Qərb millətlərinin oyandığı bir zamanda müsəlman xalqlarının hələ də, xabi-qəflətdən oyanmamasını, üstəlik oyanmış millətlərim müstəmləkəsi halına düşməsini, onların oyuncağına çevrilməsini qəbul edə bilmirdi:

*Quruldu tazə aləm, aç gözün, eylə nəzər, millət!*
*O hansı elmdir – elmi ki, icad etdi telfuni,*
*Soruş hər yerdən istərsən, sənə versin xəbər, millət,*
*O elmin qüvvəsilə xəlq olundu çap maşini,*
*Basar saatdə öfraq üstünə min cür əsər, millət.*[916]

Şəbüstəri ümid edirdi ki, zaman gələcək Qərb millətləri kimi müsəlman xalqları da oyanıb öz istiqballarını əldə edəcəklər. Çünki əvvəlki dövrlərdən fərqli olaraq artıq müsəlman xalqlarında da milli oyanış və tərəqqi duyulmaqdadır. O, yazırdı:

*Təəssüf bisəmərdir, çün keçən-keçdi, köçən-köçdü,*
*Ayıl, bundan sora qoyma keçə ömrün hədər, millət!*
*Ümidin kəsmə, məyus olma istiqbali-millətdən,*
*Tamam eylə sözün, Möcüz, ayılmış bir qədər millət.*[917]

O, yazırdı ki, vətənini, millətini və dinini sevən müsəlmanlar elm öyrənməli və cəhalətə son qoymalı, qəflət yuxusundan oyanmalıdır:

*Niyə, ya rəb, belə xar oldu əzizani-vətən?*
*Düşmən elmilə bizi eylədi həmmal özünə,*
*Kim zəlil etdi bizi? – Cəhl! A müsəlmani-vətən!*
*Vətənsiz cismidi, siz də vətənə can kimisiz,*
*Razı olmun qala cansız vətən, ey cani-vətən!*[918]

---

[915] Yenə orada, s.182-184
[916] Yenə orada, s.24
[917] Yenə orada, s.23-24
[918] Yenə orada, s.47

Möcüz hesab edirdi ki, Qərb millətlərinin oyanması və tərəqqi etməsinin əsasında isə onların din ilə dövləti, dini elmlərlə dünyəvi elmləri bir-birindən ayırması, xüsusilə dünyəvi elmlərin öyrənilməsinə mühüm yer verməsi həlledici rol oynamışdır. Dünyəvi elmləri öyrənməklə Qərb millətləri bir çox sahələrdə kəşflər və ixtiralar etmiş, bununla da cəhalət və nadanlıqdan birdəfəlik qurtulumuşlar. Ancaq bütün bunlara baxmayaraq, Şərq millətləri, xüsusilə İslam Şərqi ölkələri bundan nəinki nəticə çıxarmış, üstəlik elmi kəşfləri, ixtiraları şeytan əməli adlandıraraq, cəhalət və nadanlığı, dini xurafat və dini mövhumatı bir az da artırmışlar:

*Həram etdi sizə təhsili-elmi alimi-cahil,*
*Binayi-elmi yıxdı, eylədi zirü zəbər, millət.*
*Cəhalət eylədi İranı viran, milləti fəhlə,*
*Nəçün məzlumdur, yarəb, bizim bu dərabədər millət!*[919]

Onun fikrincə, bir millət o vaxt tərəqqi edər ki, mədəniyyətini, etiqadını, adət-ənənələrini düzgün qavrasın. Ancaq müsəlman xalqlar bütün bunları dərk etməklə kifayətlənməməli, eyni zamanda zamanın tələbləri ilə ayaqlaşmalı, yəni oyanmalı və cəhalətə birdəfəlik son qoymalıdır:

*Nə yatıbsan, ayıl, ey milləti-biçarə ayıl!*
*Xabi-qəflətdə basar, qorxuram üdvan səni!*
*Serb ayıldı yuxudan, sən hələ xorna çəkisən,*
*Nə əcəb hala qoyub nəşəyi-qəlyan səni!*

Şəbüstərə görə, əgər müsəlman xalqları vaxtında ayılmasa inkişaf etmiş "laməzhəblər" – Qərb millətləri ondan geridə qalan millətləri, o cümlədən müsəlman xalqlarını öz müstəmləkələrinə çevirəcəkdir. O, "Ey müsəlmanlar!" şeirində yazırdı:

*Bu laməzhəblər, ey qardaş, gülüstan etdi dünyani,*
*Kəfənpüşani-qəbristanə – zindan, ey müsəlmanlar!*
*Nə meyittdən həya eylər, nə seyiddən, nə molladən,*
*Niyə qorxmur xudadən əhli-İran, ey müsəlmanlar?!*
*Deyirlər əl basıb bunlar – üzü qırxıq müsəlmanlar,*
*Təcəddüdxah olan xanlar bə Quran, ey müsəlmanlar!*
*Deyil agah bu zalimlər təriqətdən, şəriətdən,*
*Belə zülm etmədi xəlqə Küçükxan, ey müsəlmanlar!*[920]

[919] Yenə orada, s.24

O, "Ustad" şerində də göstərirdi ki, "laməzhəb" qərblilər, o cümlədən ingilislər ustadlarına qulaq asaraq, onlardan öyrənərək cəhalətin daşını birdəfəlik atdılar. Üstəlik, qərblilər müəllimləri sayəsində tərəqqi edərək nəinki Avropada, eyni zamanda müsəlman ölkələrində də ağalıq etməyə başladılar. O, yazır:

*Kimin əlindədir indi Mədinəvü Məkkə,*
*O pak yerlərimiz: Kərbəla, Nəcəf, Bağdad?*
*Səsin çıxartma, amandır ki, başım üstə durub*
*Əlində tiği-düsər ingilisi-bədbünyad...*
*Gəlin gedək, oxuyaq, biz də əhli-Qərb kimi*
*Ki, bəlkə əl çəkə bizdən o niaman cəllad.*
*Gəlin tutaq, bu müəllimlərin başını qızıla,*
*Olar da elmilə cahanı eyləsin irşad.*[921]

O, doğru yazırdı ki, başqa millətlər varislərinə elm miras qoyduqları halda, hələ də müsəlman xalqlarının mirası kəfən və cənnətdir.[922] O, bir şeirində bunu belə müqayisə edirdi:

*Çıraqi-bərqilə dünyanı rövşən eylədi kafər,*
*Müsəlman, sən nə etdin ixtira, verdin xəbər xəlqə?*
*Amerika alimi xəlq etdi bir dəsgah ahəndən (radio),*
*Gəhi dəf çaldı ahən, gahi ney şamü səhər xəlqə.*
*Dedin sən millətə: "Yar başuvi, aş sinəvin bəndin,*
*Döşün dəl, mıx və mismar ilə!" Öyrətdin nələr xəlqə?*[923]

Şəbüstəri onu da doğru yazırdı ki, öz milli dəyərlərindən və milli sisitemindən uzaq düşən xalqlar, başqaların təsiri altında ancaq təqlidçiliklə məşğuldur. O, yazırdı:

*Xoruz kimi niyə millət qanad çakıb bannır?*
*Olaydı kaş bunun bir ağıllı fəlsəfəsi.*[924]

Onun ictimai-siyasi görüşlərində sosial-demokratizmə meyillilik də hiss olunur. Məsələn, o, kiçik bir şeirində rus bolşeviklərinin lideri Leninə xilaskar kimi baxmışdır. Şəbüstəri yazırdı:

*Tutaq Lenin ətəyindən, ona pənah aparaq,*
*Zəmanəmizdəki həllali-müşkülat odur!*

---

[920] Yenə orada, s.39
[921] Yenə orada, s.65
[922] Yenə orada, s.66
[923] Yenə orada, s.128
[924] Yenə orada, s.133

*Həmişə vird elə, məhdüsənasını Möcüz,*
*Fəqirə qeydi-sitəmdən verən nicat odur!*[925]

O, "Şura Naxçıvanı" şeirində isə, Quzey Azərbaycanın Naxçıvan bölgəsinin Rusiyanın 11-ci ordusu tərəfindən zorla sovetləşdirilməsini mədh etmişdir. Şəbüstəri yazırdı:

*Şükri-lillah millət oldu kamiran,*
*Xələti-həmra geyindi Naxçıvan.*
*Dövləti-Şura quruldu ədlilən,*
*Tudeyi-məzlum oldu hökmran...*
*Hər tərəfdə bəzmi işrət çidədir,*
*Naxçıvana rəşk edər bəği-cinan.*
*Rəşk edər Təbriz, Şəbüstər, Xamnə*
*Rəşk edər bu mülki-Azərbayican.*
*Qibtəmiz yersiz deyil, var illəti,*
*Orda toydur, burda matəm, əlaman!*
*Möcüza, qan ağlama bir gün gələr,*
*Şərqdə qalmaz əsarətdən nişan!*[926]

Bizcə, Şəbüstəri nə qədər rus bolşevizminə, Sovet Rusiyasına rəğbət bəsləsə də, ümumilikdə onlara tam bağlılığını söyləmək mümkün deyil. Hər halda Şəbüstəri milli ruhlu ziyalı olduğu, türklüyünü daha dərindən dərk etdiyi üçün onun rus bolşevizminə axıra qədər inam bəsləməsi inandırıcı görünmürdü.

**Din məsələsi.** Möcüz yaradıcılığında islamın bəzi dini ayin və mərasimlərinə də toxunmuş, bu məsələ də nöqsanları göstərməyə çalışmışdı. Məsələn, o hesab edirdi ki, müsəlmanların orucluq bayramı heç də islamın ruhuna, qayda-qanunlarına uyğun həyata keçirimir. Onun fikrincə, buna səbəblərdən biri orucluğun əsl mahiyyəti və mənası barədə əksər müsəlmanların xəbərsizliyi, digər isə yalançı ruhanilərin və mollaların bu mərasimdən sui-istifadə etməsidir. Məhz bunun nəticəsidir ki, oruculuq müsəlmanların xeyir və bərəkətinə, ruhi və maddi cəhətdən sağlamlaşmağına xidmət etməli olduğu halda, yalançı ruhanilərin və əksər müsəlmanların

[925]Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. 4 clddə, 2-ci cild. Bakı, "Elm", 1983, s.79
[926]Yenə orada, s.79-80

cahilliyi səbəbindən başqa mənalara yozulur. Möcüz "Mübarək ay" şeirində bu münasibətlə yazırdı:

*Molla bir aydır deyir məsələyi-heyzidən,*
*Qan tökülür məscidə lətteyi-xurnizidən,*
*Heyf ki, aclıq bu gün qoydu məni feyzidən*
*Lal olasan, ey kişi, saldın ayaqdan məni.*[927]

Möcüz hesab edirdi ki, müsəlmanlar məhərrəmlik mərasimində İmam Hüseyni (ə) layiqincə yad etmirlər. Belə ki, İmam Hüseyn (ə) Kərbəlada düşmənlə mərdanə cəng etdiyi, ləyaqətlə şəhadətə qovuşduğu halda, özünü onu davamçıları hesab edənlərin əksər qismi öz başını yarıb, bədəninə zəncir vurmağı qəhrəmanlıq hesab edirlər. Halbuki onlar imamı deyil, öz pərişan vəziyyətlərini düşünüb ağlamalıdırlar. Möcüz yazırdı:

*Gəh yarırsız başüzi, gəh çərtirsiz,*
*Bu nədi, qardaş, düşünün bir özüz,*
*İndi ki, vardır sizin ağlar gözüz,*
*Ağlayın öz hali-pərişanuza!*[928]

Möcüzə görə, müsəlmanların avam və cahillikdən, elmsizlik və biliksizlikdən qurtarmaq, despotik hökmdarlar və ikiüzlü din xadimlərinə qarşı mübarizə aparmaq əvəzinə, başını yarmaqla və yaxud bədəninə zəncir vurmaqla cənnətə gedəcəyinə ümid etməsi nadanlıqdır. Çünki imam yolunda başını yarıb canını ona qurban verməyə hazır olduqlarını deyənlərin əksəriyyəti Hərmələni, ya da Şimrü görsələr fikirlərindən dönəcəklər. O, yazırdı:

*İndi bu ki, göydə uçar başyaran,*
*Başını şəst ilə açar başyaran,*
*Hərmələni görsə qaçar başyaran,*
*And ola o kəlleyi-nadanuza!*[929]

Möcüzün fikrincə islama, o cümlədən İmam Hüseynin (ə) şəhadətinə zidd olan fikirləri müsəlmanların şüuruna yeridən və onları bu cür əməllərə, yəni baş yarmağa, zəncir vurmağa sövq edənlər isə axundlar, vaizlər, şeyxlər və mollalardır. Belə ki, riyakar ruhanilər müsəlmanlara peyğəmbərin, onun övldalarının doğru

---

[927] Şəbüstəri Mirzə Əli Möcüz. Seçilmiş Əsərləri. Bakı, "Şərq-Qərb", 2004, s.112
[928] Yenə orada, s.93
[929] Yenə orada, s.94

yolunu göstərmək əvəzinə, onları əsarətə, cəhalətə və xurafata sürükləyirlər. Möcüzə görə, əsil mömin müsəlman müsəlman qardaşına belə nəsihət verməz, səhv yol göstərməz:

*Dedin sən millətə: "Yar başuvi, aç sinəvün bəndin,*
*Döşün dəl, mıx və mismar ilə!" Öyrətdin nələr xəlqə?*[930]

Mütəfəkkir yaxşı anlayırdı ki, məhərrəmliyi bu cür islama və imamın şəhadətinə uyğun olmayan şəkildə qeyd edənlərin bunda şəxsi maraqları olmuşdur. Belə ki, riyakar ruhanilər məhərrəmlikdə müxtəlif dini oyunlar təşkil etməklə həm öz ciblərini doldurur, həm də nüfuzlarını artırlar. Bunu nəzərə alaraq Möcüz yazırdı ki, artıq yalançı ruhanilərin məhərrəmlikdə ciblərini doldurmaq məqsədlərini müsəlmanlar anlamalıdırlar:

*Bir tərəfdə mərsiyəxan istiri həqqülbəka,*
*Ağladıb çünki məhərrəmdə məni sübhü məsa,*
*Hər gün on beş dəfə şagirdi dayanır qapıya,*
*Səsləri: Ay Kərbalayi, beş min altun ver görax!*[931]

Mirzə Əli riyakar ruhanilərin islama və imamın şəhadətinə uyğun olamyan əməlləri ilə bağlı deyirdi ki, 20-ci əsrdə öz-özünün başını yarmaq, bədəninə xəsarət yetirmək, üstəlik riyakar ruhanilərin ciblərini pul ilə doldurmaq cahillik və nadanlıqdır. Onun fikrincə, əgər baş yarmaq, zəncir vurmaq xeyirli iş olsaydı ilk növbədə, buna müsəlmanlara təhrik edən riyakar din xadimləri özləri əməl edərdilər. Bu baxımdan məhərrəmlikdən ən çox faydalananlar başlarını yarıb qanını tökənlər deyil, məhz riyakar ruhanilərdir. O ruhanilər ki, müsəlmanlara məhərərmlikdə imamın təziyəsini saxlamağı vacib hesab etdikləri halda, özləri buna qətiyyən əməl etmirlər.[932]

Ona görə də müsəlmanlar Kərbəlada baş verənlərdən doğru nəticə çıxarıb İmam Hüseyn (ə) kimi əqidə yolunda şəhid olmağın mənasını dərk etməlidirlər. Müsəlmanlar anlamalıdırlar ki, insan nə öz sağlamlığına, nə də başqa bir müsəlman qardaşının səhhətinə zərər yetirməklə imamın yolunda ola bilməz. Xüsusilə, islama zidd əməlləri törədərək cənnətə getməyi düşünmək, Möcüzün də təbrincə desək, nadanlıq və cahillikdir. Ona görə, müsəlmanın əsas əməli heç

[930] Yenə orada, s.128
[931] Yenə orada, s.157
[932] Yenə orada, s.182-183

də başını yarıb qanını tökmək deyil, köməyə ehtiyacı olan din qardaşlarına, bacılarına yardım etməkdir. Belə ki, imam yolunda başını yaranların, ağı deyənlərin, yaxud da müqəddəs yerlərə (Həcc və b.) ziyarətə gedənlərin yanı başındakı çarəsiz müsəlman qardaşlarına yardım etməmələri qəbuledilməzdir. O, yazırdı:

*Ey ümməti-Məhəmmədə rəhm etməyən kişi,*
*Nar əhlisən, güvənmə nəmazü təharətə!*
*Din qardaşın əyalı məhəlləndə ac yatır,*
*Virzü vəbalı boynuma, getmə ziyarətə.*[933]

Şəbüstərinin şerilərindən hiss olunur ki, onun dinə münasibəti ancaq İslama olunmuş əlavələri, o cümlədən dini xurafat və mövhumatı tənqidlə kifayətlənməmiş, o bəzi hallarda ümumilikdə şəriətin hökmləri ilə razılaşmadığını ifadə etmişdir:

*Saqiya! Dur gətir bir nazənin canan mənə,*
*Cənnəti verdim sənə, lazım deyil qılman mənə.*
*Öldü Adəm qüssəsindən, düşməni sağdır hələ,*
*Qorxuram buğda yedirdə hiyləgər şeytan mənə.*
*Mən bir aləm istərəm, "yox!" ləfzi orda olmasın,*
*Rozeyi-rizvanda, yarəb, kim verər qəlyan mənə?*[934]

Başqa bir şeirində isə meyin dinə zərə vermədiyini yazan Şəbüstəriyə görə, dini rəvayətləri bir kənara qoyub reallıqları görüb və ondan nəticə çıxarmaq lazımdır:

*Bu gün millət nəyə möhtacdır, ondan bəyan eylə,*
*Göy elmin bilmək İran əhlinə nəftü şəkər verməz!*
*O göy ki, görməyib ömründə bir yol binəva vaiz,*
*Bizə bəhs eylər ondan, gördüyü yerdən xəbər verməz!*
*Burax haruti-maruti, gətir meydanə baruti,*
*Süpahü ləşkərə, molla, ayətülkürs xətər verməz!*[935]

O, yazırdı ki, İslam dinini qəbul etdikdən sonra "İran" milləti xortdana, quleybanıya inanmış vətən azadlığı da əlindən almışdır. Möcüz yazırdı:

*Bu əmri-mühəqqəqdi ki, biz milləti-İran*

[933] Yenə orada, s.27
[934] Yenə orada, s.62
[935] Yenə orada, s.76

*Xortdana və quli-biyabana inannux.*
*Əfsus ki, nisvani-vətən görmədi bir gün,*
*İrani min üç yüz sənə cəhl etdi qaranlux.*[936]

O başqa bir şeirində isə yazırdı ki, dinü imanı Quranı xətm eyləmək, dini rəvayətlərə inanmaq deyil yeni növ silahlara sahib olmaq, ya da dünyəvi elmlərə yiyələnmək saxlayar:

*Dinü imani nə saxlar? Tirü şəmşirü tüfəng.*
*Xətmi-Quran eyləməklə qalsa, Quran yaxşıdır.*
*Şürbilər dünyanı işğal eylədi, biz yatmışıq,*
*Bəngü tiryak olmasa dini-müsəlman yaxşıdır.*
*Can sıxar elmi-riyazi, cəbrü hikmət, həndəsə,*
*Elm təsxirül-əcinənə dərsi-bətlan yaxşıdır...*
*Nəfi yoxdur bizlərə elmi-məadin öyrənək,*
*Bizə lazım lampalardan köhnə şamdan yaxşıdır.*[937]

Yaxud da o, yazırdı:

*Cəm olun, ey qövm, verin səs-səsə,*
*Qoymayın asınlar təzə mədrəsə,*
*Şərə müğayirdi fizik, həndəsə,*
*Köhnə kitabları yığın yanuza!*[938]

Şəbüstəri başqa bir şeirində də Sabirsayağı yazırdı ki, müsəlmana dünyəvi elmləri, o cümlədən həndəsə, fizika, riyaziyyat, coğrafiya öyrənmək lazım deyil, bundansa təsbehini çevirməli, namazını qılmalı, orucunu tutmalı, cənnətdəki huriləri arzulamalıdır. O, yazırdı:

*Deyirəm: məscidə get, eylə nəzər şeyxə tərəf,*
*Elmi-əşyanı burax, baxma təvarixə tərəf,*
*Heyət axir çəkəcək oğluvu Mirrixə tərəf,*
*İşdi, qayıtsa işin nalevü əfqan olacaq!*

*Əvəzü sureyi-"Yasin" – o bizim xanəxərab*
*Cümə axşamı oxur cəddinəşmi və hesab.*
*Nə qədər mədrəsədə var o "Fizik" adlı kitab,*
*Bu vilayətdə nə qare və nə Quran olacaq!*[939]

[936] Yenə orada, s.59-60
[937] Yenə orada, s.86
[938] Yenə orada, s.95

O, cənnət məsələsinə də həssas yanaşır, orada iki min huriyə bir kişinin düşməsini Sabirsayağı tənqid edirdi. O, yazırdı:

*Cənnətdə, deyərlər, huri, koser vardır,*
*Əmma iki min dilbərə bir ər vardır,*
*O hurilərə gərək kim olsun talib,*
*O şəxs ki, onda zuri-əjdər vardır.*[940]

Deməli, gah açıq formada, gah da sarkazmla Şəbüstəri ehkamçı-lokalçı dini təfəkkürü tənqid edir, onun yeniləşməyə qarşı olmasını pisləyirdi. O, yazırdı:

*Cəm olluq bir yerdə çox, dünyalıq işimiz yox,*
*Söhbətimiz tamamen racedir axirətə.*
*Aləmi-manyatimiz batil etdi hissini,*
*Milləti-biçarəni saldı xabi-qəflətə.*[941]

Yaxud o, yazırdı:

*Qəm çəkmək ilə meyli-təbiət ələ gəlməz,*
*Təsbih çevirməklə şəriət ələ gəlməz.*[942]

O, "Ya Rəb", "Allah" şeirlərində də Yaradana müraciətlə islam dini, şəriətlə bağlı olan narazlıqlarını ifadə etmişdir.

*Vaiz buyurur: Başuva vur, canuvi incit;*
*Bu barədə təklifi-müsəlman nədi, ya rəb?..*
*Təğyir əgər vermiyəcək xülqinə xəlqin,*
*Pəs fəlsəfeyi-din nədi, ərkan nədi, ya rəb!*
*Gər qorxudur ayati-cəhənnəm bizi, pəs bu*
*Əminiyyəvü nəzmiyyəvü ajan nədi, ya rəb?*[943]

O, "Allah" adlı şeirində də mollaları tənqid edərək onların əməlləri sayəsində millətin qəflət yuxusundan oyanmadğını yazır:

*Bir az istər ayıla millət-İran, Allah!*
*Dəsti yorğan çəkər başına mollan, Allah!*
*Yatdı nadan, qoyub səcdəyə başini axund*
*Dedi: Ey cismimiə can, dərdima dərman, Allah!*
*Yaradıbsan mənə, yarəb, nə həməl heyvanlar –*
*Minməsi, sürməsi, yük çatması asan, Allah?*[944]

---

[939] Yenə orada, s.140
[940] Yenə orada, s.152
[941] Yenə orada, s.102
[942] Yenə orada, s.121
[943] Yenə orada, s.130

Şəbüstəriyə görə, buğda yediyi üçün hər daim Allah tərəfindən adı Quranda hallandırılan Adəmin bu rüsvaydan qurtulması mümkün olmadğı halda, sıradan bir müsəlmanın Yaradandan hər hansı istəklərdə bulunması mənasızdır:

*İki buğdan yeyib Adəm neçə min il əvvəl,*
*Hələ də eyliri rüsvay onu Quran Allah.*
*İstəyirdi biri məsciddə xudadən yorğan,*
*Gördüm ağlar, deyər: "Ey qadiri-mənnan, Allah!"*
*Dedim: Axmaq kişi, gündə sənə bir danə lavaş*
*Verə bilmir, necə versin hələ yorğan Allah!*[945]

Buradan belə bir nəticə çıxarmaq olar ki, Şəbüstəri Allahın hər şeyə qadir olmasına şübhə ilə yanaşmışdır. Onun fikrincə, insanların Allahdan bir şeylər gözləyərək yaşaması gerçəkliyə uyğun deyildir. Əgər insan hər bir işini özü görmək əvəzinə Allahın iradəsinə bağlayırsa, o zaman gərəkdir ki, can və mal təhlükəsizliyinin də qayğısına qalmasın. Halbuki mollalar belə Allahın hər şeyə qadir olduğunu dilə gətirsələr də, can və mal təhlükəsizliklərinin qayğısına qalmağı da unutmurlardı. O, yazır:

*Dedi: Risalə oxursan? Dedim: Hesab oxuram!*
*Dedi: Hesab deyil, şəxsə din lazımdır!*
*Dedim ki: Dini nə saxlar? Dedi: Müsəlmanlıq!*
*Dedim: Xeyr, iki yüz min süpahi-mübin lazımdır!*
*Dedi: Cəfəng danışma, xudadi hafizi-din,*
*Bizə nə topçu, nə sərbazü zərrəbin lazımdır.*
*Dedim: Neçün qapuvi bağlısan yatan vaxtı?*
*Demək sənə gərəvü, əngəbün lazımdır.*
*Qapuvi qoysan açıq, düzd olar evə daxil,*
*Aparsa malı, səhər şüruşin lazımdır.*[946]

O, "Olmuşam" şeirində isə açıq şəkildə yazırdı ki, bu cür müsəlmanlıqdan nifrət edərək insanlıq anlayışını qəbul edir. Çünki o, müsəlmanlığı daha çox zahiri anlamda qəbul etmişdir:

*Nə qızılbaşəm, nə fərraşəm, nə hakim, saqiya,*
*Bir soruş məndən: Nəçün bəs mən müsəlman olmuşam?*

---

[944] Yenə orada, s.131
[945] Yenə orada, s.132
[946] Yenə orada, s.135

*Buğdaya sarı dedim qıra qara dedim, şirə sifid,*
*O cəhətdən mən belə bidünü-iman olmuşam.*
*Bimürvvət görmüşəm bəs ki, müsəlman firqəsin,*
*Etmişəm nifrət müsəlmanlıqdan, insan olmuşam.*[947]

Şəbüstəri başqa bir şerində isə açıq şəkildə yalnız müsəlmanlıq deyil, bütün dinlərdən nifrət etdiyini ortaya qoyur, üstəlik həmin dinlərin yaradıcısının özünü, yəni Yaradanı belə tənqid edir. Allahın özü tərəfindən yaradılmış insanların niyə bu qədər zülm çəkməsinə haqq qazandıra bilməyən Şəbüstəriyə görə, əgər Allah hər şeyə qadirdirsə və hər bir şey onun iradəsi altındadırsa, o zaman Yaradan niyə yaratdıqlarının qayğısına qalmaq əvəzinə, onları zülmə düçar etmişdir. Halbuki Allah özü bu qədər xəyanətlərə məruz qalsaydı, buna dözməyib bir tədbir görərdi:

*Fəraqi mən yaratseydim, məni daşlardı övrətlər,*
*Sənə çatmır gücü xəlqin, tükəndü səbrü taqətlər!*
*Hürər, narahət eylər, gah dişlər, incidər xəlqi;*
*Demax olmur ki: Ey adil, nəyə lazımdı bu itlər?*
*Tökərdin birənin qanın, kəsərdin kəhlənin nəslin,*
*Əyər bir yol səni bədxab edəydi o xəyanətlər!*[948]

Ona görə Allah bir tərəfdən yaratdığı insanın qayğısına qalmayıb onun zülmlərinə göz yumduğu halda, digər tərəfdən insanlar üçün göndərdiyi peyğəmbərlər də ziddiyyətli fikirlərdən çıxış etmişlər. Belə ki, Allah bir peyğəmbərə verdiyi bir vədi, başqa peyğəmbərə fərqli şəkildə yenə də təkrar etmişdir. O, yazırdı:

*Deyir Musaya bir söz, söyləyir İsayə bərəksin,*
*Ona dana deyim, ya sərsəri, ey bifərasətlər?*
*Pəs etdi miri-dərbari rəvanə kuhi-hürrayə,*
*Ərəb məbusinə ruhi-əmin verdi başarətlər.*
*Üruc etdi mələk əflanə, Əhməd şəhri-bəthayə,*
*Yetirdi Əhmədə bisimü telfunilə ayətlər.*
*Genə qanlar töküldü, beydəqi-üsyan qovzandı,*
*Bəraət surəsində oldu çün murdar millətlər.*
*Deyir Tovratidə: Cənnət sizindir, ey yəhudilər,*
*Yaranmış məhz sizdən ötrü ol ali imarətlər!*

---

[947] Yenə orada, s.124
[948] Yenə orada, s.178

*Edir İncilidə kafər yəhudi millətin yeksər,*
*Deyir İsaviyə: Qorxmun, sizin malizdi cənnətlər!*
*Deyir Quranda bipərva: Cəhənnəm əhlidir tərsa,*
*Müsəlmandır mənim dostum, onundur nazü-nemətlər!*[949]

Şəbüstəri yalnız dinlərə münasibətdə kəskin mövqe tutmur, bununla da bütün dini, sinfi, irqi ayrı-seçkiliyi bir kənara qoyaraq "insanlıq" vurğusunu ortaya qoymağa çalışırdı:

*Biz insanıq əgər, olmaz bu cür insani dirrəndə,*
*Nə insan? Bəlkə bizdən yaxşıdır, kürkani dirrəndə,*
*Əgər hökmən "biz insanıq"deyər əyani dirrəndə,*
*Gərək onlar da hökmən əl çəkə izadən, ey saqi!*[950]

Ola bilsin ki, onun dini, sinfi, irqi ayrı-seçkiliyi qəbul etməyərək "insanlıq" fəlsəfəsi üzərində dayanmasında da dövrünün beynəlmiləlçi sosial-demokrat ideyasının da müəyyən təsiri olmuşdur. Hər halda dünyanın səadət gülşəninin solmasını insanlar, cəmiyyətlər arasındakı ziddiyyətlərdə, müharibələrdə görən Şəbüstəri bu ədavətə son qoyub adamları bir-birlərini sevməyə çağrırdı:

*Səadət ölməz hərgiz həmzəban olsa məhəbbətlə,*
*Səadət istisən – həmnövüvi sev pak niyyətlə...*[951]

Onun fikrincə, səadət pak olub ondan qaçan insan günahkardır. Əgər insanlar özünü doğru aparıb oğruluqdan, haqsızlıqdan yan qaçsalar, ən əsası "səadət" kəlməsini nadandan deyil, müdrikdən, xüsusilə də İsa peyğəmbərdən öyrənsələr o zaman dünyanın düzəni də dəyişər. O, yazırdı:

*Səadət pakdir, ondan qaçan insan müqəssirdir,*
*Aparsa düzd xəlqin kisəsin, ajan müqəssirdir,*
*Səadət kəlməsin təfsir edən nadan müqəssirdir,*
*Onun təfsirin öyrənsin gərək İsadən ey saqi!*[952]

Deməli, insanlıq fəlsəfəsinin mənimsənilməsi naminə Şəbüstəri yalnız İslam dinindən, onun peyğəmbərindən deyil, eyni zamanda xristianlıqdan və onun peyğəmbəri İsadan da öyrənməli çox şeyin olduğunu etiraf edirdi.

---

[949] Yenə orada, s.178
[950] Yenə orada, s.83
[951] Yenə orada, s.82
[952] Yenə orada, s.83

Eyni zamanda o, insanlıq fəlsəfəsinin yalnız dinlər əsasında izahının da əleyhinədir. Onun fikrincə, bütün hallarda bu dünyada müvəqqəti yaşayan insan üçün vahid dinə inam mümkün olmadığı qədər, vahid əxlaqdan, vahid ideyadan, vahid ümiddən da söhbət gedə bilməz:

*Hər işdə bir ümid ilə insan yaşar, gedər,*
*Nikü bədə baxılmasa, hər iş aşar, gedər.*
*Var ixtilaf təbidə, əxlaq bir deyil,*
*Hər kəs bir özgə iş dalınca qoşar, gedər...*
*Dünya seyrgahdır, hər kəs gələr, gəzər,*
*Bir nik-nam qalsa qalar, simü zər gedər.*[953]

Deməli, insanın varlığı və yoxluğu məsələsində "Dünya"nın da kifayət qədər yeri və rolu vardır. İnsan dünyada yaşayır və ölür ki, öləndən sonra bədəni də dünyada qalır, torpağa qarışır. Başqa sözlə, insan bu dünyada nə qədər bünövrəsini möhkəm etməyə çalışsa da, axırda dünya yenə də onu yıxır və özünə çəkir. O, yazırdı:

*Keçər, gedər sənəvatı şühuri dünyanın,*
*Misal əbri ləyal suhuri dünyanın.*
*Bu gün ki, çıxdı başa, bir gün ömürdən getdi,*
*Həmişəlik deyil eyşü süruri dünyanın.*
*Soruş, desin sənə bir-bir keçənlərin halın,*
*Qərayü gurdə Bəhram Guri dünyanın.*
*Dağıtdı kəlleyi Kavusi qəbrdə həşərat,*
*Qarışdı torpağa kibrü qüruri dünyanın.*
*Edər sümüklərivi sürmə aliyat cahan,*
*Tənavül eylər ətün marü-muri dünyanın.*
*Bünövrəni nə qədər möhkəm eylisən, eylə,*
*Təkan verəndə yıxar, çoxdu zuri dünyanın!*[954]

Şəbüstərinin dünyagörüşündə qadın azadlığı da mühüm yer tutmuşdur. Möcüz çadranın əleyhinə çıxaraq qadınlara cəmiyyət daxilində kölə kimi baxılmasını əsla qəbul etmirdi.

*Möcüzün fikri budur – yırtın o gen tumanları,*
*Harda görsəz düryəli, başın əzin toxmaq ilə!*
*Çün anaz doğdu sizi, geydirdi qarə əynizə,*

[953] Yenə orada, s.146
[954] Yenə orada, s.146

*Daxil etdi səmmi-mövhumatı nazik beynizə,*
*Gözləriz doldu, ataz saldı kəfən çün çiynizə,*
*Axdı burnuzdan zılıx sildiz onu qurşaq ilə.*[955]

Möcüzə görə, bir gün qadınlar da, elə kişilərin özü də mədəniyyət sübhi ilə oyanıb tərəqqi edəcəklər ki, o zaman nə kişilərin saqqalını qırxmasına, nə də qadınların çadrasız gəzməsinə pis baxmayacaqlar:

*Mən saqqalı, sən zülfü həna ilə boyarsan,*
*Verrux o zaman əl-ələ, bulvarı dolannux.*
*Möcüz utanır, qırxmır saqqalı deyirlər,*
*Yox!.. Bizdə həya olsa, cəhalətdən utannux!*[956]

Vaizlərin qadınların "Yusif surəsini" oxumamaları tövsiyəsini gülünc bir şey adlandıran Möcüzə görə, əgər Quranı Allah ərəblərə nazil eləyibsə, o zaman ərəb qadınları da bu surəni təlavət edəndə onun mahiyyətindən xəbərdar olmalıdırlar. Əks təqdirdə belə anlaşılar ki, Allahın kəlamı qadınları zəlalətə salmaq üçün göndərilib. O, yazırdı:

*Bu surəni təlavət edəndə ərəb qızı,*
*Bilməz məgər nə yapdı Züleyxayi-məhliqa?*
*Salmaz xuda kəlamı ünası zəlalətə,*
*"Təhzib xülq" üçündü o tarixi-ənbiya!*
*Eşqin sonu, bilər ki, nadamətdir, iftizah,*
*"Vəstəqrəni lizənbikəni" övrət anlasa.*[957]

O, "Qızlar" adlı şeirində də göstərmyə çalışırdı ki, qızların elm və təhsil alması, heç də oğlanlardan az əhəmiyyətli deyildir:

*Cəhalət bəhri-bipayandi qərq eylər sizi axir,*
*O dəryadən gərək elm ilə çıxsın sahilə qızlar!*
*Oxuyub yazmayan insan olar namərhəmə möhtac,*
*Gedib əyləşməz əğyar ilə, gər yazmaq bilə qızlar.*
*Savadız olsa, olmaz hiç kəs əsrarizə vaqif,*
*Savadız olmasa, sirriz düşər dildən-dilə, qızlar.*
*Peyğəmbər əmr edib təhsil etmək gülli-ziəqlə,*
*Gərək əhsli-savad olsun təmamən aqilə qızlar!*[958]

---

[955] Yenə orada, s.32
[956] Yenə orada, s.60
[957] Yenə orada, s.77

Şəbüstəri göstərəməyə çalışırdı ki, İslam dinində qızların təhsil almasını qadağan edən bir surə, ayə ya da hədis yoxdur. Üsətlik, peyğəmbər özü də əmr edib ki, kişi və qadın olmasından asılı olmayaraq bütün müsəlmanlar təhsilı almalıdırlar. Ancaq vaizlərin, ruhanilərin təbliğatı nəticəsində xalq əlinə çubuq alan qızları deyil, əlinə qələm alanlara tənə edirlər:

*Çubuq alsa ələ qızlar məzəmmət eyləməzlər heç,*
*Vurarlar tənə yüz yerdən qələm alsa ələ qızlar.*
*Gecə-gündüz işi qeybət o cahil qızların, Möcüz!*
*Əgər vaiz qoya, məşğul olarlar elm ilə qızlar.*[959]

O, başqa bir şerində isə ironiya ilə yazırdı ki, qızın məktəbi “mətbəx”, ustası da “qazança”dır. Başqa sözlə, qıza məktəb “yaraşmaz” deyən[960] mütəfəkkir əslində qadınların təhsil almasının qatı tərəfdarlarından biri idi. O, “Bacılar” şeirində deyirdi ki, qadın bir sözünü başqa diyarda olan ərinə çatdırmaq üçün hansısa mirzəyə möhtac olurdu. Çox vaxt da, qadın istədiyi bir sözünü mirzənin yazdığı məktub vasitəsilə ərinə çatdırmaqdan utanmış, çəkunmişdir. O, yazırdı:

*Zibəs ki, təngə düşər qəlb, razıyam, buna ki,*
*Gedim cəhənnəmə, əmma kağız yazım, bacılar!*
*Oxur, yazır hamı millət xanımları, lakin,*
*Əlif görəndə dirək zənn edir bizim bacılar!*[961]

O, “Bəzək” şeirində isə yazırdı ki, qadınlar qır-qızılları, ləl-cəvahirati ilə deyil, savadlılığı, elmliliyi ilə fəxr etməlidir.[962] Şəbüstəri ancaq yuxusunda görürkü vaiz deyir ki, “İran” qızları camallarını açsın, ölkə işıqlansın. Ancaq o, yuxudan oyanıb vaizə deyəndə ki, oğlanlar kimi qızlar da yazı yazmağı öyrənməlidirlər, şeyx onun sözünü yarımçıq kəsərək bunun mümkün olmadığını deyir. Bu məqamda Nadir şahın meydanda olmasını arzulayan Şəbüstəri yazırdı:

*Səni verrəm qəzəm binti Rəsulallahə, ey vaiz,*
*Büsati-cəhli yıx, qoy aləmi-nisvan işıqlansın!...*

---

[958] Yenə orada, s.79
[959] Yenə orada, s.79
[960] Yenə orada, s.84
[961] Yenə orada, s.91
[962] Yenə orada, s.92

*Cəsarətlə qədəm qoy ərseyi-meydanə, ey Nadir,*
*Qılıncın eylə üryan, ərseyi-meydan işıqlansın.*
*Düşüb zindani-cəhlə Yusifi-Gümgəştə müddətdir,*
*Züleyxa, aç cəmalin, guşeyi-zindan işıqlansın!*[963]

Şəbüstəri yazırdı ki, peyğəmbər özü belə elm-təhsil almağı qadınlara fərz buyurduğu halda, mollaların onun bununla bağlı hədisini nəzərə almamaları doğru deyildir. O, yazırdı:

*Tələbi-elm edib fərz peyğəmbər dişiyə,*
*Lakin axundlar atıbdır bu hədisi eşiyə,*
*Nameyi gəlsə ərindən, oxuda yad kişiyə,*
*Verə namərhəm ilə baş-başa xəlvətdə gərək.*

*Məsləhət bilmir axund dərs oxuya canbacılar.*
*Yazmıya, oxumuya, neyliyə bəs xanbacılar?*
*Yığışa bir yerdə dəstan deyə nadan bacılar.*
*Olmuya söhbəti-elmiyyə bizim kətdə gərək.*[964]

Ona görə, bir ailədə qız uşağının dünyaya gəlməsini qaşqabaqla qarşılmaq nadanlıq, avamlıqdır. Çünki insan nəslinin artımının birinci səbəbkarı qadınlardır.[965]

Beləliklə, Mirzə Əli Möcüzün yaradıcılığında da, müsəlmanların avam və cahillikdən, elmsizlik və biliksizlikdən qurtulması, despotik hökmdarlar və ikiüzlü din xadimlərinə qarşı mübarizəsi və milli birlik, milli oyanış fəlsəfəsi əsas yer tutmuşdur. Möcüz müsəlmanların, soydaşlarının geriliyinə əsas günahkar kimi yalançı ruhaniləri və millətpərəstləri görürdü. Onun fikrincə, nə vaxta qədər ki, islamın adından çıxış edən ruhanilər, hacılar və mollalar var, islam ölkələrinin tərəqqi etməsi mümkün olmayacaqdır. Ona görə də ilk növbədə, onların iç üzünün açılmasını və ifşa edilməsini əsas məsələlərdən biri hesab etmişdir. Ancaq bütün bunlarla yanaşı, o, haqlı olaraq yazırdı ki, müsəlmanların ruhanilər və mollalar tərəfindən aldadılmasının əsas səbəbkalarından biri də özləri, yəni əksər müsəlmanların cahil və nadan olmalarıdır. Əgər müsəlmanlar islamın əsl mahiyyətindən xəbər tutsalar, eyni zamanda

[963] Yenə orada, s.111
[964] Yenə orada, s.143
[965] Yenə orada, s.149

dünyəvi elmləri öyrənsələr bu zaman Qərb millətləri kimi, tərəqqi edər və duynada özlərinə layiq yeri tutarlar.

Bizcə, bu anlamda Nabdil Oxtayın Möcüzün dini dünyagörüşü ilə bağlı fikirləri də qiymətlidir. O, yazırdı: "Möcüz dinə qarşı mübarizını özünə xas bir mövqedən, açıq və materialist mövqedən yox, din xadimlərinə qarşı olan ümumi mübarizədən ayırmayır, əksinə, bu mübarizəni dini himayə edənlərin, yəni Qacar şahlarının və feodalların, yerli nüfuzluların və inhisarçıların əleyhinə mübarizənin tərkib hissəsi kimi götürürdü". [966]

Möcüzün Yaradanın varlığına münasibətdə tərəddüdlərə də rast gəlirik. Belə ki, o, bəzi şeirlərində ətrafında baş verən hadisələri qiymətləndirərkən buradakı ziddiyyətləri izah etməkdə çətinlik çəkmşdir. Ona görə ədalətli olan Yaradanın zülmün də baiskarı olması doğru deyilsə, o zaman buna kimin səbəb olduğunu necə izah etmək mümkündür. Başqa sözlə, Şəbüstəri Yaradanın bir tərəfdən ədalətli olduğu halda, o bir tərəfdən insanların ac-susuz, çarəsiz qalmasına bir anlam verə bilməmişdir.

Möcüzün ictimai-siyasi görüşlərinə gəlincə, o ilk dövrlərdə Qacarları daha çox tənqid etmiş, onların istibdadını pisləmişdir. Türk olduqları halda türklüklərini unudan Qacarların artıq ədalətdən, obyektivlikdən, xeyirxahlıqdan uzaq düşdüklərini iddia edən Şəbüstəri bir müddət ümidini qeyri-qanuni şəkildə hakimiyyəti zəbt edən aryançı Pəhləvilərə bağlamışdır. Ancaq aryançı Pəhləvilər Qacarlardan da daha kəskin şəkildə istibdadçılıq etdiyi, üstəlik türklüyü də məhv etmək yolu tutduğu üçün Şəbüstəri onlardan da əlini üzmüş, bu dəfə ümidini sosial-demokratiya cərəyanına bağlamışdır. O bir müddət sosial-demokratiya cərəyanının dünyada ən yaxşı nümunəsinin Sovet Rusiyasının ortaya qoyduğuna inanmış, rus bolşevizmini də zaman zaman mədh etmişdir.

---

[966] Oxtay, Əlirza Nabdil. Əsərləri. Bakı, "Qoliot Qkup", 2009, s.122

# MƏHƏMMƏDƏLİ TƏRBİYƏT

**Həyat və yaradıcılığı.** Təbriz şəhərində anadan olan Mirzə Məhəmmədəli Tərbiyət (1877-1940) əvvəlcə Molla Zeynalabdinin açdığı ibtidai məktəbdə təhsil almış, daha sonra Təbrizin adlı-sanlı həkimlərindən olan Mirzə Nəsrullaxanla Məhəmmədəlixan Küfrinin yanında Avropa və Şərq təbabətini öyrənmişdir. Hər iki həkimin tövsiyyəsilə fransız və alman dillərini öyrənən Tərbiyət nücum, riyaziyyat və tibb sahəsində özəl dərslər almasına baxmayaraq sonradan pedaqoji sahəyə maraq göstərib. Ərəb, fars, fransız və ingilis dillərini də mükəmməl öyrənib.[967]

1894-1895-ci illərdə Təbrizdə hökumətin açdığı Müzəffəriyyə mədrəsəsində təbiət fənnindən, 1898-1912-ci illərdə isə yeni açılmış Loğmaniyyə mədrəsəsində nücum və coğrafiyadan dərs deyib. O, müəllim işləməklə yanaşı, daim öz üzərində çalışmış, dövrün tanınmış alimi Mirzə Abdulladan xüsusi dərslər almışdır.

1896-cı ildə Tərbiyət şəhərin tanınan ziyalıları Seyid Həsənxan Ədalət və Seyid Məhəmməd Şəbüstəri ilə bir araya gələrək "Tərbiyət" adlı yeni tipli mədrəsə və kitabxana açıb. Bir müddət keçəndən sonra kitabxananın Tehranda da şöbəsi yaradılıb. O, daha sonra Təbrizdə avropa tipli ilk əczaxana və "Gencineyi-fünun" ("Bilik xəzinəsi") adlı jurnal təsis edib. Ayda iki dəfə nəşr olunan jurnalda Tərbiyətin ilk elmi məqalələri də nəşr olunub. Ancaq bütün bu yeniliklər mühafizəkarların narazılığına səbəb olur, çox keçmədən qaragüruhçular və islahatçılar arasında toqquşma baş verir. Tərbiyət kitabxanasının Tehranda şöbəsinin açılması, kitabxanalara Asiya, Afrika və Avropa ölkələrindən türk, ərəb, fars, fransız və ingilis dillərində kitab, qəzet və jurnal gətirilməsi mühafizəkarları daha da qəzəbləndirir. Təqiblərdən yaxa qurtarmaq, təzyiqlərdən uzaqlaşmaq üçün Məhəmmədəli əvvəlcə Qafqaza, daha sonra isə İstanbula gedir. İstanbulda o, kitabxanalarda elmi axtarışlar aparır.[968]

---

[967] Fərəcov Savalan. Dumanlı Təbrizin işıqlı ədibi. http://medeniyyet.az/page/news/19817/Dumanli-Tebrizin-isiqli-edibi.html

[968] Nəhmətova Könül. Məhəmmədəli Tərbiyətin "Danişməndani-Azərbaycan" əsəri. Bakı, Elm və təhsil, 2012, s.51

İstanbuldan sonra Dəməşq, Beyrut, İskəndəriyyə və Qahirə şəhərlərinə də səfər edən Tərbiyət bu şəhərlərin böyük kitabxana və elmi müəssisələri ilə əlaqələr qurur, görkəmli ziyalılarla tanış olur. O, bu müddətdə ilk qələm təcrübəsi olan "Hünər öyrədən", "Qədim mədəniyyətlər", "Ana yurdum" və "Təqvimi-Tərbiyət" adlı əsərlərini yazır. Qahirədən İstanbula, oradan da Qafqaz yoluyla Təbrizə dönən Məhəmmədəli Tərbiyət burada da ailə həyatı qurur.

Sonralar Avstriya, Fransa və İngiltərəyə də səfər edən Tərbiyət Avropanı gəzib-dolandıqdan, oradakı vəziyyəti öyrəndikdən, həmyerliləri ilə görüşüb İranın gələcəyini müzakirə etdikdən sonra yenidən İstanbula gəlir. Burada yazıçı Əliəkbər Dehxuda ilə birlikdə "Səadət" əncümənində yaxından iştirak edir. 1903-1911-ci illərdə publisistika ilə ardıcıl məşğul olan M.Tərbiyət 1908-ci ildə Təbrizdə nəşr olunan "İttihad" qəzetinin redaktoru da olub.

M.Tərbiyət ikinci çağrış Qacarlar Milli Məclisinə Təbrizdən nümayəndə seçilsə də, xarici güclərin və daxilil irticanın təhrikilə Məclis dağıdılıb. O, təqiblərdən yaxa qurtarmaq üçün Təbrizdən Bakıyaya gələrək bir müddət təbrizlilərin "İttihat" məktəbində müdir işləyib. Tərbiyət 1909-cu ildə Təbrizdən Qacarlar parlamentinə yenidən millət vəkili seçilsə də, ancaq bu dəfə də məclisin fəaliyyətinin yenidən dayandırılması ilə təkrar ölkədən getməli olub.

Birinci Dünya Müharibəsinin sonunadək İstanbulda siyasi mühacir kimi yaşayan Məhəmmədəli Tərbiyət Misirə və Avropa ölkələrinə də dəfələrlə səfər edib. İstanbulda da "Tərbiyət" kitabxanası açan və onu işlədən Tərbiyət burada "İran"da çap olunan qəzet və jurnallar haqqında elmi araşdırmalar aparıb.

1921-ci ildə Təbrizə dönən Tərbiyəti Təbriz vilayətinin maarif idarəsinə rəis təyin ediblər. O, yaranmış vəziyyətdən istifadə edərək "Gəncineyi- maarif" adlı jurnal nəşr etməyə başlayıb. Az müddətdə Azərbaycanın bir çox kənd və qəsəbəsində ibtidai və orta məktəbin açılmasına nail olan M.Tərbiyət ilk dəfə qızlar üçün də ibtidai və orta məktəb açdıra bilib. Tarixi abidələrin bərpası və qorunmasına da çalışan Tərbiyət Təbrizdə ümumi dövlət kitabxanasının və qiraət-

xanasının açılmasına da nail olub. 1923-cü ildən isə kitabxanadakı kitabların katoloqunu hazırladaraq hissə-hissə çap etdirir.[969]

1925-ci ildə maarif müdiri vəzifəsindən uzaqlaşdırılan Tərbiyət 1927-ci ildə Təbriz bələdiyyə idarəsinə başqan seçilib. Şəhərin abadlaşdırılması, yeni xiyabanların salınması üçün böyük əmək sərf edən Tərbiyət Təbrizin ilk Avropa tipli parkı olan "Gülüstan" parkının salınmasına da nail olub. 1927-1929-cu illərdə Təbriz bələdiyyəsinə rəhbərlik edən Təbriyət sonra doğulduğu şəhərdən Milli Məclisə deputat seçildiyinə görə Tehrana köçüb. Orada ictimai və siyasi fəaliyyətlə yanaşı, elmi fəaliyyətini də davam etdirir.[970]

Tərbiyətin çoxlu elmi-publisistik əsəri olsa da, ona ən çox şöhrət gətirən 1935-ci ildə tamamladığı "Danişməndani-Azərbaycan" əsəridir olur. Çünki bu əsərdə qədim dövrdən XX yüzilliyin 1930-cu illərinədək yazıb yaratmış azərbaycanlı şair, yazıçı, nəqqaş, rəssam, xəttat, musiqici, jurnalist, alim haqqında bilgi toplanmışdır.

V.Mustafayev yazır ki, M.Ə.Tərbiyətin "Danişməndane Azərbaycan" (1935) kitabı öz dövrü üçün Azərbayan xalqının bütövlüyü, milli birliyi analmında çox mühüm rol oynamışdır: "Kitabın adı azərbaycanlıların bir hissəsinin Azərbaycanın iki yerə bölünməsi ilə razılaşmadığını bildirərək, Azərbaycanın tarixiliyi, vahidliyi və bütövlüyünü simvolizə edirdi. Bu həm də ondan görünür ki, müəllif öz kitabına Şimali Azərbaycanda, Cənubi Azərbaycanda və Azərbaycandan kənarda (istər İranda, istərsə ondan xaricdə) yaşamış tanınmış azərbaycanlıların bioqrafiyalarını daxil etmişdi. Başqa sözlə, müəllif üçün nəinki Azərbaycan bütöv bir ölkə, eləcə də azərbaycanlılar vahid bir xalq, millət idi. Azərbaycanın min illik tarixini əhatə edən əsərə Azərbaycan dilli poeziya nümunələri də daxil edilmiş, bununla da azərbaycanlıların türk dilində yazmadıqları haqqında iddialar ifşa edilmişdi. Buna görə də həmin əsər panİranistlər və fars şovinistləri arasında kəskin etiraza səbəb olmuşdur".[971]

---

[969] Şamil Əli. Məhəmmədəli Tərbiyət. https://ali-shamil.tr.gg/M%26%23601%3Bh%26%23601%3Bmm%26%23601%3Bd%26%23601%3Bli--T%26%23601%3Brbiy%26%23601%3Bt.htm

[970] Yenə orada.

[971] Mustafayev Vidadi. Cənubi Azərbaycanda milli şüur (XX əsrin birinci yarısı). Bakı, Əbilov, Zeynalov və oğulları, 1998, s.115

**Fəlsəfə tarixi və elmi maarifçilik görüşləri.** Qeyd edək ki M.Ə.Tərbiyətin ən dəyərli əsər olan "Danişməndanı Azərbaycan" kitabında Azərbaycan Türk fəlsəfə tarixi ilə yanaşı, onun dünyagörüşü də öz əksini tapmışdır. Başqa sözlə, o, Azərbaycan Türk fəlsəfə tarixinə aid mütəfəkkirlərdən bəhs edərkən, öz fikirlərini də ifadə etməyə çalışmışdır. Ən əsas məsələ isə odur ki, Tərbiyət Azərbaycanı da, onun mütəfəkkirlərini də bir bütün kimi görmüş və tədqiq etmişdir. Bununla bağlı fil.ü.e.d. Rəhim Əliyev yazır: "Alimin cənublu və şimallı Azərbaycan maarifçi ədəbiyyatını bütöv gördüyünü və bildiyini onun "Qüdsi Abbasquluağa" Bakıxanov, "Seyid Əzim Şirvani", "Qasım bəy Zakir", "Mir Möhsün Nəvvab" kimi məqalələrindən görmək olur".[972]

Doğrudan da, M.Tərbiyət «Danişmendani-Azərbaycan» kitabında ən qədim dövrlərdən 20-ci əsrin əvvəllərinə qədər yaşamış əksər Azərbaycan Türk mütəfəkkirlərini vahid çatı altına toplamağa çalışmış, onlar haqqında dəyərli bilgilər vermişdi. Hətta, bəzən o, Azərbaycana, türklüyə bağlılığı şübhə doğuran mütəfəkkirlərlə bağlı da öz fikirini bildirməyə çalışmışdır. Məsələn, Tərbiyət bu əsərində Zərdüşti və zərdüştlüklə bağlı fikirlərini özünəməxsus şəkildə təqdim etmişdir. O, Zərdüştü bir tərəfdən Azərbaycan alimləri sırasına aid etsə də, ancaq onu farsların peyğəmbəri adlandırmışdır. Tərbiyət yazırdı: "Zərdüşt – Azərbaycanın ən məşhur şəxsiyyətlərindən məzdis dininin əsasını qoyan və Avestanın ən qədim hissəsinin müəllifidir. Şərq və Qərb tədqiqatçıları parsların bu peyğəmbəri haqqında bir çox kitablar və risalələr yazmışlar".[973] Tərbiyətin fikirlərindən belə çıxır ki, Zərdüşt Azərbaycanın məşhur şəxsiyyəti olsa da, ancaq parsların peyğəmbəri olmuşdur. Tərbiyət fikirini əsaslandırmaq üçün Əbu Reyhan Biruniyə müraciət etmişdir. Biruni Zərdüştün vətəni və etnik mənşəyi ilə bağlı ziddiyyətli fikirlər söyləmiş və ən sonda belə qənaətə gəlmişdir ki, Zərdüşt Azərbaycandan olmuşdur.[974] Tərbiyət də Biruninin ziddiyyətli fikirlərinə istinad

---

[972]Əliyev Rəhim. Məhəmmədəli Tərbiyət // Cənubi Azərbaycan ədəbiyyatı tarixi (XX əsr). İki cilddə, 2-cild. Bakı, Qanun, 2013, s.274

[973] Tərbiyət Məhəmmədəli. Danişməndani-Azərbaycan. Bakı,Azərnəşr, 1987, s.151

[974] Yenə orada, s.153

edərək Zərdüştün vətəni olaraq Azərbaycanı görməklə yanaşı, ancaq onu farsların peyğəmbəri adlandırmışdır.

Tərbiyət adı çəkilən əsərində Azərbaycan Türk fəlsəfə tarixi ilə bağlı olan 10-11-ci əsrlərdə yaşamış filosof-mütəfəkkir Əbülhəsən Bəhmənyar haqqında da geniş məlumat vermişdi. Tərbiyət onun haqqında yazırdı: "Mövlana Bəhmənyar fəlsəfənin çətin və mürəkkəb məsələləri haqqında bəhs etməyə, tədqiqat aparıb fikir söyləməyə böyük maraq göstərmiş, ömrünün çox hissəsini fəlsəfə məsələlərinin həllinə və hikmət sirlərinin aydınlaşdırılmasına həsr etmişdir. Bu iki məşhur alim, yəni Əbu Əli ibn Sina və Bəhmənyar arasında bir çox fəlsəfi suallar haqqında yazılı mübahisələr olmuş və Əbu Əli ibn Sina bu suallara cavab vermişdir".[975]

O, Bəhmənyarla bağlı daha sonra yazırdı ki, onun haqqında bir çox müəlliflər yazmış, onun yalnız Azərbaycanın deyil, Şərq dünyasının böyük mütəfəkkiri olduğunu bildirmişlər.

Tərbiyət 12-ci əsrdə yaşamış Eynülqüzat Miyanəci haqqında isə yazırdı ki, o, Şeyx Həmid Qəzali ilə dost olmuş, onunla məktub-laşmışdır: "Eynülqüzatın əsərlərindən biri " "Zübdətül-həqaiq fi kəşfid-dəqaiq" ("incə məfkurələri kəşf etməkdə ən aydın həqiqətlər") əsəridir ki, "Təmhidat" ("Müqəddimlər") adı ilə də məşhur olmuş və on hissədən ibarətdir. Bu əsər yüksək səviyyəli və incə məzmunlu əsər olaraq, onda bir sıra həyəcanlı rübailər vardır".[976]

O, 14-cü əsrdə yaşamış Əbdülqadir Kəmaləddin Marağayidən bəhs edərkən daha çox onun Quranın bilici olmasına, musiqini dərindən bilməsinə, xəttatlıq qabiliyyətinə və fəlsəfi biliyinə nəzər yetirmişdir: "O, öz zövq və istedadına görə riyaziyyat və musiqi elmlərinə digər elmlərdən artıq rəğbət göstərmiş, müasir alimlər və müəlliflərin bu sahədəki əsərlərini mütaliə edib, bu elmlərin incəlliklərini tamamilə öyrəndikdən sonra bir çox əsərləri tərcümə etmiş və bir sıra samballı əsərlər yazmışdır. Kəmaləddin musiqi sahəsində nəzəri məsələlərlə praktikanı birlışdirib, mahnı və nəğmələrin tərkibi və səslərin uyğunlaş-ması haqqında tədqiqat aparmış, bu sahədə böyük müvəffəqiyyət əldə edərək, bir sıra yeni mahnılar düzəltmişdir".[977]

---

[975] Yenə orada, s.52
[976] Yenə orada, s.85
[977] Yenə orada, s.88-89

10-cu əsrin sonu, 11-ci əsrin əvvəllərində yaşamış Məhəmməd Baba Kuhi Bakuvi haqqında da məlumat verən Tərbiyətə görə, o, təsəvvüf təriqəti alimlərindən və çox hədis bilən şəxslərdən olmuş, bu təriqət haqqında çoxlu hekayələr toplamışdır: "Mövlana Əbu Abdullah ibn Bakuyə hicri qəməri V (XI) əsrin mə.hur ariflərindən olmuş və Nişaburda İmam Qəşiri və Şəeyx Əbu Səidlə görüşümüşdür. O, Şirazın yaxınlığında bir mağarada güşənişin olmuşdur ki, indi bu mağara onun məqbərəsidir. Onun məclisində bir çox təriqət başçıları, alimlər və ariflər iştirak edirdilər".. [978]

Tərbiyətə görə, Mahmud Şəbüstəri də həqiqət yolçularının Kəbəsi, dinin səadəti, fəxri olaraq Azərbaycanın məşhur ariflərindən biri olmuşdur. O, yazırdı ki, Şəbüstəri ömrünün çoxunu səyahətdə keçirmiş, bir çox alimlər və ariflərlə görüşmüş, onlarla məktublaşmışdır. Ona görə, Şəbüstərinin ən məşhur əsəri hesab olunan "Gülşəni-raz" məsnəvisi Əmir Hüseynin suallarına cavab olaraq yazılmışdır: ""Gülşəni-raz" əsəri olduqca səlis və rəvan dildə yazılmış, hamının hüsn-rəğbətilə qarşılanmışdır. Bu əsər dönə-dönə Təbrizdə,Tehranda və Hindistanda çap edilmiş, ariflər və alimlər ona izahlar və nəzirələr yazmışlar". [979]

O, hürufliyin banisi Fəzlullah Nəimi haqqında isə yazırdı ki, təsəvvüf təriqətinin böyük şəyxlərindən olan Nəimi bir sıra nadir elmlərdə, təsəvvüfdə və hikmətdə yüksək rütbəyə çatmışdır. Tərbiyət yazırdı: "Şah Fəzlullahın ölümündən sonra onun fikirləri və təriqəti bütün islam aləminə yayılmışdır. Əl-Əliyül-əla, Seyid İmadəddin Nəsimi və başqaları kimi onun canişinləri və naibləri Anadoluya qaçmış, Bəktaşilərin təkyələrinə və xanəgahlarına yol tapıb, bəktaşi təriqətinin əvəzinə hürufu təriqətini təbliğ etməyə başlamışlar. Bəktaşilər sadəlövh, dərin bilik sahibi olmadıqlarına görə hürufilərin fikirlərini qəbul etmişlər. bu yolda bir çox qanlar tökülmüş və faciəli hadisələr baş vermişdir". [980]

Tərbiyət şair-filosof Nizami Gəncəvi haqqında isə yazırdı ki, o, Azərbaycanın ən böyük söz ustası və mütəfəkkiridir. Tərbiyət Nizami Gəncəvinin"Beşliy"i haqqında qısa icmallar verdikdən sonra yazırdı: "Nizami Gəncəvi həm aşiqanə, həm də həmasi şeirdə misilsiz usta

[978] Yenə orada, s.185
[979] Yenə orada, s.194
[980] Yenə orada, s.246-247

olmuş, döyüş meydanına, eləcə də şənlik məclisinə uyöun olan sözlər və ifadələr işlətməkdə; incə və zövqə yatan təşəbbüskar, bədii, mənalı, məzmunlu, gözəl və zövq verən istiarələr, təşbilər yaratmaqda, hadisələri, eləcə də təbiət mənzərələrini öz incəlikləri ilə təsvir etməkdə həddən artıq məharətli olmuşdur. buna görədir ki, bu gəncəli şair bütün ədəbiyyatşünasların hüsni-rəğbətini cəlb etmiş, onun yaradıcılığından iqtibas edən söz ustaları istisnasız olaraq, Nizami adını böyük hörmətlə dilə gətirmiş və onu tərifləmişlər”.[981]

Əsərində Xaqani Şirvanidən də bəhs edən Tərbiyət yazırdı ki, o, öz dövrünün ədiblərindən fərqli olaraq, əsrindəki elmlərin bir çoxunda, xüsusilə fəlsəfə, heyət, nücum və musiqidə dərin bilik sahibi olmuşdur: “Buna görə də o, şeirlərində bu elmlərə aid ifadələr işlətmişdir. Xaqani tarixi və qədim hadisələr, xəbərlər haqqında geniş məlumatlı olmuş, şeirlərində bu hadisələrə işarə etmişdir”.[982]

17-ci əsrdə yaşamış Saib Təbrizidən də bəhs edən Tərbiyətə görə, Saibin külliyyatında hikmətli sözlər və məsəllərlə bəzənmiş bir sıra şeirlər vardır. O, yazırdı: “Saib hər şeiri vaxtına münasib və hər sözü yerinə müvafiq bir təzdə demiş, şeirlərinin çoxu zərbülməsəllərlə ifadə edilmişdir. Onun bir çox sözləri və hikmətli ifadələri zərbülməsəl kimi dillərdə gəzərək yayılmışdır. Lakin bir çox adam bilmədiklərinə görə, onları müəllifi məlum olmayan və xalq sözləri kimi bilirlər, halbuki, bu şeirlərin hamısı Saibin divanında vardır”.[983]

Tərbiyət Səfəvilərdən, onun mütəfəkkirlərindən və dövlət xadimlərindən , xüsusi bir həvəslə bəhs etmişdir. Rəhim Əliyev hesab edir ki, Tərbiyət mənşə etibarilə Səfəvilər dönəmində yüksəlmiş feodal ailəsinə məxsus olduğu üçün həmin dövrə və Səvəfi xanədanına aid olanlara xüsusi rəğbət bəsləmişdir. [984] Belə ki, O, Heydər Səfəvidən, Cüneyd Səfəvidən, Şah İsmayıl Xətayidən bəhs edərkən “qızılbaşlığ”ın da mahiyyətini açmağa çalışmşıdır. O, yazırdı: “Sultan Heydər öz tərəfdarlarını digərlərindən fərqləndirmək üçün o zaman türkmanların geydiyi araqçını on iki yarıqlı qırmızı taca çevirib, onu öz sülaləsinə

[981] Yenə orada, s.260
[982] Yenə orada, s.359
[983] Yenə orada, s.285
[984]Əliyev Rəhim. Məhəmmədəli Tərbiyət // Cənubi Azərbaycan ədəbiyyatı tarixi (XX əsr). İki cilddə, 2-cild. Bakı, Qanun, 2013, s.281

məxsus olan papaq kimi elan etdi və bu papağı qoymaqla bu sülaləyə mənsub olan adamları digərlərindən fərqləndirdi. Sonralar bu papağı qoyanlar "qızılbaş" adı ilə mışhur oldular. Qızılbaş papağı geymək bir müddət davam etmişdir. Yeddi tayfa: Ustaclu, Şamlu, Rumlu, Təklu, Zülqədər, Əfşar və Qacar tayfalarından təşkil olunmuş Şah İsmayılın qoşunun da on iki yarıqlı qırmızı heydəri papağı qoyub "qızılbaş" adlandılar".[985]

O, Şah İsmayıl Xətai haqqında da xüsusi ehtiramla bəhs etmişdir. Tərbiyət yazırdı ki, Xətai 16-cı əsrin ən böyük dövlət xadimlərindən biri olmaqla yanaşı, həmin yüzilliyin söz ustadlarındandır: "O, Xətai, bəzən də İsmayıl təxəllüsü ilə fars və türk dillərində şeir deyərdi. Onun divanı və "Dəhnamə", "Behcətül-əhrar" ("Azad adamların sevinci"), "Nəsihətnamə", "Mənaqibul -əsrar" adlı əsərləri vardır".[986]

Tərbiyət Mirzə Fətəli Axundzadədən bəhs edərkən onu, həm qədim, həm müasir elmlərə yiyələnmiş, nitq və mübahisədə böyük bacarıq sahibi kimi qiymətləndirmişdi. O, yazırdı: "Axundzadə müsəlman xalqlarının vəziyyyəti ilə dərindən tanış olmaq və onların geriqalma səbəblərini öyrənib tədqiq etmək üçün bütün qüvvəsini sərf etmiş, müasir Qərb xalqlarının mədəniyyətini Şərq xalqlarına aşılamaq, onların inkişafına şərait yaratmaq yolunda böyük səy göstərmişdir. Ümumiyyətlə, onun əsərlərinin özəyini bu mövzu təşkil etmişdir. O, fars, türk və ərəb dillərində yazdığı bütün əsərlərini müsəlman xalqlarına, onların adət, ənənə, əxlaq, mədəniyyət, ədəbiyyat, qanun və dövlət rejimlərinin tənqidinə həsr etmişdir".[987]

Tərbiyətə görə Axundzadə ərəb əlifbasında islahatların aparılması təklifi ilə də doğru yol izləmişdi: "Axundzadənin səksən il bundan əvvəl göstərdiyi təşəbbüsü bir sıra məşhur maarifpərvər şəxsiyyətlər də davam etdirmiş, müxtəlif məqalələr və kitablar yazmış, hər biri yeni əlifba düzəltmişdirsə, ancaq onlardan heç biri tənqid edilən nöqsanları və çatışmazlıqları aradan qaldıra bilməmiş, bunda görə də bu təşəbbüslər müvəffəqiyyət qazana bilməmişdir".[988]

[985] Tərbiyət Məhəmmədəli. Danişməndani-Azərbaycan. Bakı,Azərnəşr, 1987, s.321
[986] Yenə orada, s.366
[987] Yenə orada, s.29
[988] Yenə orada, s.31

Rəhim Əliyev doğru yazır ki, Tərbiyət filosof Axundzadənin dünyagörüşünü çox ustalıqla, dərindən açmışdır: "Alim Axundovdan bir Azərbaycan maarifçisi kimi yox, bütün müsəlman dünyasını dərindən reform edib müasirləşdirmək istəyən böyük ideoloq, bütün müsəlmanların təəssübkeşi kimi danışır və yazır".[989]

O, 19-cu əsrin ikinci yarısı, 20-ci əsrin əvvəllərində yaşamış Mirzə Əbdürrəhim Talıbovdan bəhs edərkən, onu Azərbaycanın maarifpərvər, fəzilətli şəxsiyyətlərindən hesab etmişdir: "İranda məşrutə rejimi elan olunmazdan əvvəl Talıbov İran xalqının zehnini işıqlandırmaq və onları maarifləmdirmək məqsədilə bir çox kitablar yazmışdır".[990]

Tərbiyət "Danişməndani-Azərbaycan" əsərində xüsusilə də 19-cu əsr – 20-ci əsrin əvvəllərində yaşamış, ancaq Azərbaycan cəmiyyətində az, ya da çox az tanınan Heyran xanım, [991] Mirzə Yusifxan ("Yer qatları", "Gəncinəyi-daniş", "Risaləyi-islahi xətti-islam" və b.),[992] Fətəli şah Qacarın nəvəsi Əbülhəsən Mirzə/ Heyrət Şeyxürrəis ("İttihadül-islam", "Azad adamların kitabı", "Müntəxəbi-nəfis" və b.),[993] Ağa Abid oğlu Fazil Dərbəndi Şirvani ("Xəzain əl-əhkam", "Hökmlərin xəzinələri", "Sənət cövhəri" və "İbadət iskiri" və b.), Əhməd Şirvani ("Sevinclər bağı", "Aydınlaşdırmaq metodu", "Parıldayan incilər", "Bəxtiyarlıq tacı" və b.), Ağa Abdullah Müdərris Zünuzi ("İlahi işıqlar", "Parıldayan işıqlar" və b.),[994] Ağa Əli Zünuzi ("Axirəti isbat etmək üçün bilik yolları" və "Maraqlı fəlsəfə məsələləri" və b.),[995] fəlsəfə və kəlam elmlərində mütəxəssis olmuş Ağa Seyid Saleh Xalxali ("Üç izah" və b.), Əbdülfəttah Marağayi ("Kitabül-ənavin" və b.) Qaradağlı Əli Molla Əliyari ("Şəxsiyyətlər haqqında ən yaxşı arzular", "İslam şəriət qanunlarının izahlarında möhkəm dəlillər"və b.), əsli İrəvandan olub Təbrizdə yaşamış şiə əqidəli Fəzləli Təbrizi ("Ariflərin bağları", "Səfərnameyi-Avropa" və b.), Mirzə Əliağa Siqətülislam ("Kitabların güzgüsü", "Şikayəti araşdırmaq üçün

[989]Əliyev Rəhim. Məhəmmədəli Tərbiyət // Cənubi Azərbaycan ədəbiyyatı tarixi (XX əsr). İki cilddə, 2-cild. Bakı, Qanun, 2013, s.276
[990] Tərbiyət Məhəmmədəli. Danişməndani-Azərbaycan. Bakı,Azərnəşr, 1987, s.99
[991] Yenə orada, s.378-379
[992] Yenə orada, s.234-235
[993] Yenə orada, s.380
[994] Yenə orada, s.20
[995] Yenə orada, s.21-22

risalələr", "Xəbərlərin izahı", "Lallar haqqında risalələr" və b.), [996] Nəcəf şəhərində şiə təriqətinin başçısı olmuş Ağa Şeyx Həsən Mamağani ("Üsul elmi sirlərinə çatmaq üçün xoş xəbər" 14 cildlik "İslam qanunlarını izah edən vasitələr haqqında kitab" və b.) [997] və başqa şəxsiyyətlərdən bəhs etmişdir.

Ümumiyyətlə, M.Tərbiyət dünyagörüş baxımından dərin biliklərə sahib olmuş, yalnız Azərbaycan Türk mütəfəkkirləri haqqında deyil, başqa xalqların alimləri haqqında da bilgilər verməyə çalışmışdır. Bizcə, onun Azərbaycan Türk mütəfəkkirləri ilə bağlı yazdıqları qiymətli məlumatlar bu gün də öz əhəmiyyətini itirməmişdir. Hər halda Tərbiyətin "Danişməndani-Azərbaycan" əsərində qələmə aldığı elə Azərbaycan Türk mütəfəkkirləri var ki, onlar haqqında ilk dəfə məlumat verilmişdi. Üstəlik, o, çox az tanınan Azərbaycan Türk mütəfəkkirləri, ədibləri haqqında qısa, ancaq əsas mahiyyəti ifadə edə biləcək qədər oxucuları məlumatlandıra bilmişdir.

[996] Yenə orada, s.317-318
[997] Yenə orada, s.23-24

# SƏHƏND

**Həyat və yaradıcılığı.** Azərbaycanın Marağa şəhərində dünyaya gəlib, orta təhslini Təbrizdə alan Türk mütəfəkkiri Bulud Qaraçorlu Səhənd (1926-1979) Azərbaycan Demokrat Firqəsinin (ADF) sıralarına qoşulduğu üçün, 21 Azər hərəkatının süquta uğramasından (1946-cı il 12 dekabr) dərhal sonra həbs olunub. Həbsxanadan çıxdıqdan sonra milli azadlıq uğrunda mübarizə aparan gizli dərnəklərdə fəaliyyət göstərən Səhənd, 1949-cu ilin ortalarında “İran”da başlanan inqilabi-demokratik hərəkatda da fəal iştirak etmişdir. Həmin hərəkatda iştirakına görə Təbrizdə yenidən həbs edilən Səhənd bu dəfə Tehrana sürgün olunmuş, həbsxana həyatını burada yaşamalı olmuşdur. [998]

Ölkədə hamını farsca danışmağa məcbur etdikləri bir zaman Səhənd 1951-1953-cü illərdə zindanda olarkən ana dilində "Araz" və "Xatirə" poemalarını yazdı. 1953-cü ilin yayında həbsxanadan çıxan Səhənd Tehranda yaşamağa davam edib, burada bir toxuculuq emalatxanasında işə düzəldikdən sonra boş vaxtlarında “Kitabi-Dədə Qorqud” boylarını da nəzmə çəkməyə başlamışdır. [999]

1967-ci ildə elmi ezamiyyədə olan şərqşünas Rüstəm Əliyev Tehranda yaşayan və milli dəyərləri yaşatmağa çalışan soydaşlarımız, o cümlədən Səhəndlə görüşüb. O, R.Əliyevr vasitəsilə Sovet Azərbaycanındakı şairlərlə əlaqə yaradıb. 1969-cu ildə keçmiş SSRİ məkanına səfər edən Səhəndin əsas məqsədlərindən biri də Quzey Azərbaycandakı qan qardaşları ilə görüşmək idi ki, Təbrizə qayıtdıqdan sonra azərbaycançılıq ruhu onda bir qədər də güclənmişdir. Belə ki, bu səfərdən sonra onun yaradıcılığında iki Azərbaycanın bir olması ideyası möhkəmlənmiş, Azərbaycan xalqının birləşəcəyi halda azad olacağına inamı artmışdır.

1979-cu ildə ürək xəstəliyindən vəfat edən Səhəndin milli-maarifçilik və inqilabi-demokratik ruhlu siyasi-fəlsəfi ruhlu baxışları isə “Sazımın sözü”, “Dədəmin kitabı” əsərlərində, mənzum məktub-

[998] Məmmədli Pərvanə. Cənubi Azərbaycan: ədəbi şəxsiyyətlər, portretlər (I Hissə). Bakı, Sabah, 2015, s.135
[999] Yenə orada, s.137

larında və bir çox şeirlərində öz əksini tapmışdır.

**Siyasi-fəlsəfi baxışları.** Səhəndin inqilabi-demokratik ruhlu siyasi-fəlsəfi baxışlarını ortaya qoyan "Xatirə", "Şallaq", "Səbir daşı", "Araz", "Fədailər marşı" kimi poema və şeirləri, "Sazımın sözü", "Dədəmin kitabı" əsərləridir. O, bu əsərlərində yanlız inqilabi-demokratik ruhunu deyil, eyni zamanda fəlsəfi düşüncələrini də ifadə etmişdir. Məsələn, Səhənd "Şallaq" şeirində "qanun", "ədalət", "həqq", "insan" anlayışlarının kapitalistlərin əlində necə qorxunc silaha çevrildiyindən bəhs edir. Onun fikrincə, "qanun", "ədalət", "həqq", "insan" anlayışlarını istismar edən kapitalistlər onları öz maraqlarına tabe etdikləri halda, istismar olunan məzlumlar üçün həmin anlayışlar tamam başqa mahiyyət kəsb edirlər:

*Qanun?*
*Bütün qanun kitabların*
*Vərəq-vərəq*
*Yırt, doğra!*
*Qanun yazan əlləri bur,*
*Qələmləri*
*Sındır, tulla!*
*Quranları, İncilləri*
*Mollaların, keşişlərin*
*Vur başına!..*
*Ədalət?*
*"Ədalət"dən boş danışan*
*Boşboğazın*
*Sız boğazın!...*[1000]

Türk mütəfəkkiri burada məsələni çox doğru qoyur ki, "qanun" və "ədalət" məsələsini istər dini kitablar, istərsə də hüquqi kitablar çox yaxşı ifadə edirlər. Ancaq onları həyata keçirməyə gələndə din xadimləri və dövlət məmurları "qanun" və "ədaləti" öz bildikləri kimi yozaraq icra edirlər. Belə olduğu təqdirdə, "Qanun aliliyi", "Ədalət mələyi" özü minüzlü olur və onu istənilən yerə sürükləmək mümkündür. Başqa sözlə, güclünün əlində "qanun" və "ədalət" zor aparıtıdırsa, gücsüz üçün isə "qanun" və "ədalət" bir haraydır, imdaddır. Eyni sözləri "həqq", ya da "həqiqət" anlayışları haqqında

[1000] Səhənd. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2006, s.17

da demək mümkündür. O, yazırdı:

*Həqq?*
*Həqq – deyə, həqiqət – deyə*
*Banlayan bayquşlara hayxır:*
*- Sus!*
*Uladığın boş və mənasızdır!*
*Nahaq tökülən qanlara,*
*Haqsevərlər başına qoparılan*
*Qanlı tufanlara*
*Milyonlar, milyonlar*
*Göz baxır!*[1001]

Sözün açığı, mütəfəkkirin burada "Həqq" anlayışına verdiyi istehzalı, ironiyalı "tərif" tam yerindədir. Doğrudan da, "Həqq" və "Həqiqət" deyə "banlayan"larla haqsevərlik uğrunda qanı bahasına mübarizə aparanlar arasında yerlə-göy qədər fərq var. Ancaq milyonlar üçün bunun çox da mənası yoxdur, çünki milyonların özü də "Həqq" və "Həqiqəti" daha çox "banlayanlar" kimi dərk edirlər, ya da onlara da belə sərf edir. O, yazırdı:

*Bir də həqiqətə tanış bir ürək*
*Tanır sevgilisin hər surətində,*
*Mən qol qoymayıram ürfana demək,*
*Həqiqət var insan mərifətində*

*Həqqin, həqiqətin bağçası hər vax*
*İnsanla gül açır, insanla solur,*
*Ən böyük həqiqət insandır ancax,*
*İnsansız həqiqət olsa, kor olur.*[1002]

Deməli, "həqiqət"in meyarı insan özüdür, yəni hər bir insan üçün "həqiqət" ona sərf edən, ya da onun dərk etdiyi qədər doğru olan "həqiqət"dir. Ancaq "ən böyük həqiqət insan" özüdürsə, o zaman hər bir insan digər insanın düşüncəsindəki "həqiqəti" görməyi bacarmalıdır. Yəni həqiqətin doğruluğu "həqiqət" içində aşkar olunmalıdır. Bunun üçündə hər bir insan digər insanla daxili mahiyyətlərində var olan ortaq həqiqəti ifadə etməyi bacarmalıdırlar. Bu,

---

[1001] Yenə orada, s.18
[1002] Yenə orada, s.74

elə bir həqiqətdir ki, hər bir insanın daxilində o, vardır. Bu həqiqət, insana təmannasız sevgi və məhəbbətdən yoğrulmuşdur. O, yazırdı:

*İnsanlıq yüksələn ən uca yerin*
*Bir adı sevgidir, biri məhəbbət!*
*Hər yanı axtardım mən dərin-dərin,*
*Araya bilmədim başqa həqiqət!.*[1003]

Sadəcə, insan öz daxili mahiyyətində əsil "həqiqət"in nədən ibarət olduğunu bildiyi halda, ancaq onu təzahür edərkən buna əməl etmir. Başqa sözlə, bütün insanlara məxsus olan "həqiqət" daxili meyar kimi bir olduğu halda, onun xarici təzahürü çox müxtəlifdir. Bu müxtəliflik isə ona gətirib çıxardıb ki, əsil "insani həqiqət" ortadan qaldırılmış, artıq ortaq bir "həqiqət" deyilən anlayışdan danışmaq mənasız olmuşdur. Ancaq bundan ən çox zərər çəkən də yenə insanın özüdür. Hər bir insanın, hər bir millətin təzahür olaraq ortaya qoyduğu praqmatik həqiqətlər (yəni insanın, ya da hər hansı xalqın özünə sərf edən həqiqətlər), iç mahiyyətli əsil həqiqətləri üstələdikcə, dünyada insanlığa zərbə dəyir. Çünki artıq elə bir dünyada yaşayırıq ki, insan ortaq "həqiqət"i itirdiyi üçün, artıq haqlı və haqsız olanların yerləri də səhv düşmüşdür. Belə ki, dünyada elə insan, ya da millət var, haqsız olmasına baxmayaraq haqlı, yaxud da əksinə elə insan ya da millət var haqlı olmasına rəğmən haqsız durumdadır.

Bəs, bu cür müxtəlif "həqiqət"lərin içində insan olmaq, insanlıq hansı anlamdadır? Hər bir insan, ya da xalq öz inandığı "həqiqət"lər üçün mübarizə aparıb, bu yolda fəda olduğu halda, "insanlıq" adlanan "həqiqət"in bir mənası varmı? Səhəndin təbrincə desək, "İnsan", "İnsanlıq" hansı "mədəniyyət"in daşıyıcısıdır: quranın, yoxsa dağıdanın? Bəlkə, bunun özü də nisbidir. Çünki "həqiqət"i öz maraqlarının qurbanına çevirən "insan" adlı varlıqların çoxusu zahirən "insan", daxilən quduz bir canavardır. Səhənd yazır:

*İnsan?*
*Bu dişi qarnında quduzun*
*"Mədəniyyət" çuxasın qap,*
*Başına bir cüt buynuz,*
*Gövdəsinə bir quyruq tap!*[1004]

---

[1003] Yenə orada, s.80

Deməli, "İnsan"ın əynindən "mədəniyyət" çuxasını, təzahüründən "həqiqət" meyarını çıxaranda onun əsil siması üzə çıxır. Məlum olur ki, süni "mədəniyyət" çuxasına bürünmüş, eqoist "həqiqət" prinsipləri ilə silahlanmış "İnsan"lar əslində məzlumların taleyini həll edə bilməzlər. Çünki süni "mədəniyyət"ə, eqoist "həqiqət"ə əsaslanan "insan"lar üçün insanlıq fəlsəfəsi yoxdur.

Bütün bunlarla yanaşı, digər tərəfdən insanın mübarizə içində olduğu dünyada bir də "həyat" adlı həqiqət, ya da "həyat" fəlsəfəsi də var. Səhənd üçün "həyat" – həm ulu təbiətin ən maraqlı əfsanəsi, həm də ilhamlara cuman həqiqətin nişanəsidir:

*Bəli, həyat ən bədii*
*Çıxışdır varlıqların,*
*Demək, varlıq bu çıxışla*
*Nişan verir öz əsrarın.*

*Təbiət də, həqiqət də*
*Şəkil tapır həyat ilan,*
*Həyatsız nə anlaşılar*
*Bu dünyadan, bu varlıqdan?!*[1005]

Doğrudan da, "həyat" olmadan nə "həqiqət"in, nə də "təbiət"in bir mənası yoxdur. Eyni zamanda, "həyat" Varlığın əsas nişanələrindən biri, bəlkə də birincisidir. Səhəndin təbrincə desək, insan da "həyat"ın Varlığı nəticəsində təbiətin və dünyanın sirdaşı, həqiqətin də duyar könlü, görər gözü və yoldaşıdır:

*Yersiz deyil, varlıqlara*
*Məqsəd olmuş əgər insan,*
*Təbiəti o dirildir*
*Həyatilan, varlığılan.*[1006]

Onun fikrincə, insan sönülməz bir şölə kimi işıq salır kainata və zülmətlərdə bata-bata hər vaxt əbədiyyət axtarır. Bu anlamda, Səhənddə optmizim, yəni gələcəyə inam çox güclüdür. O inanır ki, qaranlıq günlərin ardınca işıqlı günlər gələcək, hər bir fəlakətin

[1004] Yenə orada, s.18
[1005] Yenə orada, s.97
[1006] Yenə orada, s.97

qurtuluşu, hər yenişin bir yoxuşu var. Başqa sözlə, gələcəyə baxışda ümid nə qədər zəif olsa da, yenə də özünü doğruldacaq. O, yazırdı:

*Ümid hər nə qədər zəif olsa da,*
*Bütün düyünləri boşaldar, açar.*
*Ümid bir qığılcım, bir qor olsa da,*
*Tonqalalr yandırar, alovlar saçar.*[1007]

Doğrudur, Səhəndin daxili dünyasında bəzən gələcəyə münasibətdə tərəddüdlər də sezilir. Buna səbəb kimi, hər bir insan, bir müdrik kimi onun da bu dünyaya gəlib-gedən insanın taleyi maraqlandırır. Başqa sözlə, o da, insanın bu dünyaya gəlib-getməsində məqsədin nə olmasını, özünün kim olmasını anlamağa, bundan baş çıxarmağa çalışır. Öz daxili aləmində bunu tam həll edə bilməyən, çözə bilməyən Səhənd bunun özünü də dilə gətirib izah etməkdə çətinlik çəkir. O, yazırdı:

*Qarşımda axırı görünməz bir yol,*
*Baxıram, baxdıqca gözüm qaralır.*
*Duyub-düşündükcə, fikrə daldıqca*
*Fəlsəfə mat qalır, məntiq koralır.*

*Qəribə bir hala qalıram bəzən,*
*Kaş ki o halı vəsf edə biləydim,*
*Olaydı sənin də əlindən tutub,*
*Bir an o aləmə gedə biləydim.*[1008]

Səhəndin getmək istədiyi o aləm, hər şeyi ona izah edəcək bir yer olmalı idi. Ancaq insanın xəyalında düşündüyü o aləm var ki, oraya elə bir halda daxil olmaq olur ki, o halı da izah etmək mümkün deyil. İnsan bəzən elə bir hala gəlir ki, varlığı ilə yoxluğu arasında tərəddüd edir. Özü öz varlığını nə təsdiq, nə də inkar edə bilir. Varlıq və yoxluq arasında olmaq halı, doğrudan da ola bilməz dediyin şeyin var olması, ola bilər dediyinin isə var olmamsı kimi bir şeydir. Səhənd bu məsələni belə izah edir:

*Vəsf etmək o halı mümkün deyil, yox,*
*Adını mən "heyrət" qoyuram ancaq,*
*Bir də ağıl, məntiq, hikmət naminə*

[1007] Yenə orada, s.169
[1008] Yenə orada, s.216

*Olanmaz bir "vara" inanmamaq.*

*Varlıq! Bəli, müdhiş bir vaqeiyyət,*
*"Əcəb, doğrudan da varıymışam mən?!*
*Bu da ki, dünyadır, bəli, dünyadır!"*
*(Gözlərim kəlləmə çıxır heyrətdən).*

*Olanmaz, olanmaz, yox, bu olanmaz!*
*("Olanmaz" söyləyirsən, "var"a bir bax!)*
*Mümkün inanmaya heç nəyə insan,*
*Nec.ə özlüyünə inanmayacax?!*

*Olanmaz, olanmaz, yox, bu olanmaz!*
*Necə ki, mən varam?! Nə təhər, hardan! –*
*Deyə həqiqətdən qaçsam da bir an,*
*Varlığım əl çəkmir, tutur yaxamdan.*[1009]

Bir tərəfdən öz "var"lığına inamayan, ancaq digər tərəfdən o, "var"ı hiss edən Səhənd üçün kainatın özünün varlığı bir müəmmadır. Yəni "var" olmağının özündə bir şübhə duyan, eyni zamanda, tamamilə var olmamağı da ağlına sığıdıra bilməyən Səhənd bu sulların içində məntiqli bir cavab tapmağa çalışır:

*-Bu nə quruluşdur, mən kiməm, nəyəm?*
*Bu ""mümkün"ə səbəb hansı "imkan"dı?*
*Deyirlər: "Aləmin yaradanı var",*
*Olsa, varlığına o da heyrandı.*

*Bu söz küfr olsa da, həzyan olsa da,*
*Ancaq təfəkkürün baş zirvəsidir.*
*Hər nədir dünyaca yükün altında,*
*Əql arabasının nalə səsidir.*[1010]

Səhənd yazırdı ki, insan üçün hər şeyi zamanda, məkanda görmək təbii bir adət olsa da, ancaq onun elmi, zəkası artdıqca hər bir şeyin, qanunun özünü də daima öz ölçüsü ilə ölçüb. Ancaq bəzən

[1009] Yenə orada, s.217
[1010] Yenə orada, s.217

ölçülər düz gəlməyəndə insan özü də buna heyrət edib, bu nə cür ola bilər? O, yazırdı:

*Halbuki insanın elə lap özü,*
*Bütün əcəblərdən əcəbdir, dinməz!*
*Çünki "varlıq" kimi əsas müəmma*
*Yəqin heç arşına düz gələ bilməz.*

*Heç açar bu sirrin xəzinəsinin*
*Qapısın hələ də açmayıb, açmaz!*
*Bu günəşdən işıq vaqeiyyətin*
*İşığı, nədənsə, insana saçmaz.*[1011]

"Könül atı" ilə keçmişə, gələcəyə və hər yerə gedən, xəyal qədər "xəyal atını" sürən, materialist düşüncəli Səhənd aydın bir həqiqətə çatmasa da, bir şeyə əmindir:

*Bütün varlıqları görüb keçərkən,*
*Hər yerdə görmüşəm özümü, səni.*

*Fikirsiz, duyğusuz çox şey görmüşəm,*
*Bir yox, iki yox, bu dünya-aləmcən,*
*Lakin heç alətdə fikri, duyğunu*
*Ayrı görməmişəm fikirləşəndən.*

*Quru, boş fikir yox, fikirləşəndir,*
*Bütün varlıqları duyur, anlayır,*
*Anlanan olmasa, nə anlaşılar?*
*İş anlayışda yox, anlanandadır.*

*O deyir ki, yüzü yüz ayə deyə mən*
*Dünyanı, insanı dana bilmirəm,*
*Baş verən ən kiçik hadisəni də*
*Mənasız, səbəbsiz sana bilmirəm.*

*Yolun çəkib gedən bu qafilənin*
*"Kamal" adlı yüksək bir məqsədi var,*
*Bu gedişdə insan həm yolkəsəndir,*

---

[1011] Yenə orada, s.218

*Həm qafilədir, həm qafiləsalar.*[1012]

Səhəndin fikrincə, bu dünyada uydurduğu hər bir şey insanın duyğularının, ağlının məhsuludur. Başqa sözlə, şeytan da, mələk də, cin də, pəri də insan tərəfindən uydurulmuşdur. Eyni zamanda, xeyir və şer deyilən də insanın öz daxili mahiyyətindən irəli gəlib, gah xeyri yatırdıb şəri oyadır, gah da şəri yatırdıb xeyri oyadır. Bu kimi mücərrədliklər içində əsil həyat həqiqətini dərk etməyə can atan insan üçün ilk növbədə, gerçək olan da bu dünyanın özüdür. O, yazırdı:

*Əgər çıxa bilsək mücərrədlikdən,*
*Həyatı həqiqət gözilə görsək,*
*Ölüm "həyat" – deyə, "yenilik" – deyə,*
*Bir dəyişikliyə çevriləcək.*

*Bir dəyişiklik ki, nəticəsində*
*Çürük çevrilir cavan qüdrətə,*
*Qafilə yeni güc, yeni qüvvətlə*
*Yolun çəkib gedir əbədiyyətə.*

*Demək, Xəyyamların əsfələnməsi*
*Yersiz olmasa da, ancaq yanlışdır,*
*"Kuzəçi" yeni bir "qədəh" düzəldir,*
*Dalıyca köhnəni "çalır, sındırır".*[1013]

Səhənd hesab edirdi ki, çətinliklər çox olsa da, insan da onu qarşılayacaq qədər güc-silah da var. Çünki təbiət tükənməz qüvvələrini insana qul yaradıb yaradan zaman. O, yazırdı:

*Ömür burulğanına atılan insan*
*Sanma əl-qol çalıb axır boğulur,*
*Bu vuruşmalardan, ziddiyyətlərdən*
*Yenilik cücərir, kamal doğulur.*[1014]

Səhəndə görə, hər kəs görə bilmir bu yolun, bu gedişin axırı hara gedir və bu düşkün xəyallar bəzən onun da zəhləsini aparır. Bu

---

[1012] Yenə orada, s.218-219
[1013] Yenə orada, s.219-220
[1014] Yenə orada, s.220

duyğulardan sarsılan mütəfəkkir düşünür ki, görünməz bir məqsədin daşlı-torpaqlı yolunda həyatın mənası nədir? O, yazır:

*Yaxud dünya adlanan*
*Bu "susuz biyabanda"*
*Bir yarımçıq kuzə su?*

*Hər "mənasız bir həvəs"*
*Yandırı içimizi,*
*İçdirir onu bizə?!*

*"Həvəs"lərin sayı yox,*
*Ətəş sönülməz, ətəş*
*Boşalır hər an kuzə?!*[1015]

Ona elə gəlir ki, bir dustaq məhkum kimi dirəyə bağlanıb, öz əcəlini gözləyir. Həmin əcəl anında o, ölümünü gözləyən digər məhkumların da iztirabını yaşayarkən bunun boş bir xəyal olduğunu anlayır. Səhəndə görə, ömrün, həyatın başqa həqiqəti var və o düşkün xəyallardan uzaqlaşır:

*Mən gördüyün dünyada*
*Hər şey aşkar, aydındır,*
*Günəş var, işıq salır!*

*İnsanlar məhkum deyil,*
*Çiçək açır, bar verir,*
*Həyatından zövq alır.*

*İnsanlıq var, dostluq var,*
*Sevgi var, məhəbbət var*
*Mən gördüyün dünyada!*[1016]

Düşkün xəyaldan uzaqlaşıb işıqlı bir xəyala dalan Səhəndə görə, burada insan tək özü deyil, onun keçmişi, gələcəyi, eşqi və məqsədi var. Eyni zamanda, bu aləm, kainat da quru, boş xəyal deyilmiş, orada dörd fəsil hakimdir. O, yazırdı:

*İtil, ey düşkün xəyal,*

[1015] Yenə orada, s.221
[1016] Yenə orada, s.222

*Səfil röyalarınla!*
*Dünyamdan çıx, tək dolan!*
*Get, varlığı, həyatı,*
*Eşqi, dostu, insanı*
*Hər nə ki sanırsan, san!*
*Mən tək özüm deyiləm,*
*Xalqımın, ellərimin*
*Nəbzi mən ilən vurur!*
*Hər qəlbim çırpınarkən*
*Köksümdə bir ürək yox*
*Milyon ürək çırpınır!*
*Mən o kəpənəyəm ki,*
*Dünyada "Həyat" adlı –*
*Şöləyə vurulmuşam!*

*Yansam da, bakım yoxdur,*
*Əzəldən bu sevdada*
*Yanmağa doğulmuşam!*
*İçimdə, ürəyimdə*
*İnsan idealının*
*Üfüqsüz dünyası var!*
*Eşqimin, inamımın*
*Dalğası dağlar boyda,*
*Sahilsiz dəryası var.*
*Mən tək özüm deyiləm,*
*Keçmişdən doğulmuşam,*
*Məndən doğur gələcək!*
*Mən tək özüm deyiləm,*
*Çürüsəm də, ölsəm də*
*Varlığım ölməyəcək!*[1017]

Mütəfəkkir "Səbir daşı" şeirində də "insan", "insanlıq" məsələlərinə vurğu etməklə yanaşı, məzlumların zalımlara qarşı birləşməsinin əhəmiyyətindən bəhs etmişdir. Onun fikrincə, "insanlıq" anlayışını istismar edən zalımlarla mübarizədə dünyada artıq

[1017] Yenə orada, s.223-224

səbir qalmamışdır. Dünyanın hər bir tərəfində məzlumların səbir kasası aşıb daşmaqdadır. O, yazırdı:

*Məndən qabaq, məndən iraq,*
*Ayrı-ayrı diyarlarda*
*Səbri, dözümü daşanlar vardılar.*
*Yenə eşitmişdim:*
*İnsanlıq adına ləkə,*
*İnsan həyatına təhlükə olan*
*Yaramazlıqlarla*
*Duruşanlar, çürümüş nizamları dağıdanlar,*
*Yarlı-yaraşıqlı həyat quranlar var dünyada.*
*Vəhyin, ilhamın həyatdan alan*
*Allahsız bir "peyğəmbər"*
*Bu yolun, məzhəbin*
*Rəhbəridir – dedilər.*[1018]

Səhəndin bu şeirindən görmək olar ki, o gənc yaşlarında makrsizm-leninizm ideyalarına çox bağlı olmuş, bu fəlsəfi təlimin banisi Karl Marksın "Kapital"ı, eləcə də özünü onun davamçısı hesab edən V.İ.Leninin əsərləri ilə yaxından tanış olmuşdur. "Fəzilət dünyasının, səadət röyasının nişanələrini" Marksın, Leninin əsərlərində tapan Səhənd hesab edirdi dünyanın beş qitəsində yaşayan hər bir xalq Allahsız "peyğəmbər"in, yəni Leninin əsərlərini oxuyub, dərk edə bilərdi. Çünki onun əsərlərində insanların eyni sosial hüquqlarla bərabər yaşaya bilməsi aydın şəkildə təsvir olunmuşdur. O, yazırdı:

*Çox qısa, çox da aydın idi sözlər.*
*Vaqedə bir kəlmə, təkcə bir: Əgər*
*Hər kəsin əməyi özünə verilsə,*
*Kimsənin haqqını dartıb almasa kimsə,*
*Dünyada sahmansızlıq olmaz,*
*Fəlakətdən rəzalətdən iz-əsər qalmaz.*
*Bunusa bircə yolu var demək:*
*Dünyada, yer üzündə*
*Haqsızlar çalışıb ac yatanlarla*
*Birləşsin gərək!*[1019]

[1018] Yenə orada, s.20

Gördüyümüz kimi, Səhənd də ondan öncə yaşamış bir çox mütəfəkkirlərimiz kimi (M.Ə.Rəsulzadə, A.Kazımzadə, Ə.Ağaoğlu, N.Nərimanov və b.) bir müddət marksizmin təsiri altına düşmüş, sosial-demokrat ideyalarını Avropa xalqlarının öz maraqlarına uyğun olaraq istifadə etmələrini ilk dövrlərdə dərindən dərk edə bilməmişdir. Ona görə də, Səhənd bir müddət daha çox sosial-demokrat ideyalarına bağlı olmuş, milli məsələni bir qədər arxa planda saxlamışdır. Çünki o hələ inanırdı ki, yalnız dilindən, irqindən, cinsindən asılı olmayaraq dünyanın bütün məzlumlarının birləşməsiylə bəşəriyyət üçün azadlıq və xoşbəxtlik mümkün olacaqdır. Bunun üçün isə zalımlara qarşı mübariz aparıb qələbə əldə etmək mümkündür, necə ki, bunu Rusiya etdi. Səhənd sadəlövhcəsinə inanırdı ki, çar Rusiyasının devrilməsindən sonra onun yerini tutan Sovet Rusiyası məzlumların arxasında dayanan yeganə qüvvədir və zalımlara qarşı mübarizə aparan hər bir kəs də, ona arxalanmalıdır. O, yazır:

*Tarix həmişə cəlladlara boyun əyəcək?*
*Yox, yox!*
*Ey haqsevər insanların*
*Qibləsi olan əziz diyar!*
*Ey zəncirin qıranların*
*Ehtişamlı çıxışına tanıq olan*
*Qızıl meydan!*
*Bir gün Qorxunc İvanların*
*Başına kölgə saldığı günbəzin üstə*
*Nazlana-nazlana əsən bayraq!*
*Ziyarət etdiyim müqəddəs tabut!*[1020]

Səhənd bu şeirlərini yazmamışdan təxminən 40-50 il əvvəll Sovet Rusiyası Azərbaycanı işğal edərək on minlərlə insanlarımızı güllələmiş, yüz minlərlə insanlarımızı yurd-yuvasından sürgün etmiş, Pişəvərinin başçılıq etdiyi Milli hökumətin irançılar tərəfindən yerlə-yeksan edilməsinə isə göz yummuşdur. Bizcə, bütün bunları tam dərindən dərk edə bilmədiyi üçün o, ümidini əsasən marksizm-

[1019] Yenə orada, s.21
[1020] Yenə orada, s.24

leninizm ideyalarına bağlamış, Vətəninin və millətinin azadlığını bu ideyanın gerçəkləşməsində görmüşdür.

Hər halda o, "Xatirə" və "Araz" poemalarında 21 Azər hərəkatından, yəni Milli Hökumətdən və onun süqutundan sonra baş verənlərdən bəhs edərkən solçu mövqedən çıxış etmişdir. Onun fikrincə, 21 Azər hərəkatı ilk növbədə, yoxsul əkinçilər, haqsız fəhlələr, məhrum ziyalılar və məhkum kütllələr tərəfindən başlamış, ADF tərəfindən isə gerçəkləşdirilmişdir. O, yazırdı:

*Gülüzlü bir bahar doğdu,*
*Qışın qarlı sinəsindən.*
*Dağlar güldü, bağ oynadı,*
*Azad həyat nəğməsindən.*

*Qoy yayılsın qoca Şərqə*
*Bu sov, bu səs başdan-başa.*
*Biz sitəmkeş xalqları da,*
*Çağrırıq qurtuluşa!*[1021]

Ancaq çox keçmədən Milli hökumət süquta uğrayır ki, Səhənd bu məsələdə heç də az günahkar olmayan SSRİ-ni bir kənara qoyaraq yalnız Pəhləvilər rejimini və onun havadarı olan Qərb imperializmini, o cümlədən ABŞ-ı suçlayır. Onun fikrincə, bir sürü ilan, əqrəb, casus, çaqqal və s. Milli hökuməti məhv etmək üçün əllərindən gələni edərək Azərbaycan xalqının azadlıq səsini boğdular, Vətənin baharını qışa döndürdülər və bir sözlə, dünyada sülhün bərqərar olması, tarazlığın qorunması naminə bu xalqı qurban verdilər. O, yazırdı:

*Tarixdə Vətənə, hədəfə yola*
*Can qurban edənlər heç də az deyil.*
*Əzizlərin qurban verənlər də var,*
*(Minaya aparmış oğlunu Xəlil).*
*Ancaq bir millətin qurban olmasın,*
*Tarix göstərməyir, heç vaxt, heç zaman.*
*Qoy bir də söyləyim, dünyalar bilsin:*
*Sülhə qurban oldu bu Azərbaycan!*[1022]

[1021] Süleymanoğlu Fikrət. Səhənd. Bakı, Nurlar NPM, 2017, s.105
[1022] Yenə orada, s.107-108

Səhənd "Araz" poemasında isə daha çox diqqəti bir yox dünyada iki Azərbaycanın olmasına çəkərək, onlardan birinin (Güney Azərbaycanın) tamamilə kölə vəziyyətinə gətirildiyi halda, digərinin (Quzey Azərbaycanın) nisbətən müəyyən azadlıqlara sahib olduğuna inanırdı. Onun fikrincə, əvvəllər bir olan Azərbaycan xalqının sonralar iki yerə parçalanması və bu parçalanmanın müxtəlif yerlərə yozulması təsadüfi deyildi. Belə ki, Qacarlar dövlətinin çar Rusiyasının işğalından qoruya bilmədiyi Quzey Azərbaycanın indiki Pəhləvilər rejimi tərəfindən "İran" torpaqları kimi qələmə verilməsi doğru olmasa da, ancaq keçmiş dövrdə Türk dövlətlərinin tərkibində bir yerdə olmaları da bir həqiqətdir. Bu baxımdan poemada babanın dilindən nəvəyə deyilən sözlər də böyük bir həqiqət var idi ki, artıq hakimiyyətdə türk düşməni irançılar və onun havadarları olduğu üçün şərtlərdə dəyişilmişdi. Əgər Pəhləvilər rejimində müəllimlər uşaqlara Şimali Azərbaycanı "İran"ın bir parçası kimi qələmə verərək onun Rusiya əsarətində olmasından bəhs edirdilərsə, bu baba (Səhənd) üçün qəbul edilməz idi. Səhənd yazırdı:

*Mən nə edim ay baba,*
*müəllim dedi bizə.*
*Bax, onların hamısı*
*yazılmış dərsimizə.*
*Burda yazır ki, Qafqaz*
*bizim imiş bir zaman.*
*İndi isə ayırmış*
*qəsbkarlar İrandan.*[1023]

Baba isə nəvəsini inandırmağa çalşırdı ki, aryançıların məktəblərdə keçdiyi tarix uydurmadan başqa bir şey deyil. Belə ki, vaxtilə Türk dövlətlərinin tərkibində bir olan Azərbaycanın şimal hissəsini çar Rusiyası işğal edib o, bir müddət əsarət altında qalsa da, artıq burada müstəmləkədən söhbət gedə bilməz. Səhəndə görə, Şimali Azərbaycanda çar Rusiyasının, o cümlədən xanın, bəyin qara hakimiyyəti məhv olaraq onun yerində Sovet cümhuriyyəti qurulmuşdur ki, zəhmətkeşlərin əliylə yeni bir dövran başalmış və əsarət bitmişdir. Ancaq Şimali Azərbaycanda əsarətə son verildiyi bir

---

[1023] Yenə orada, s.117

zamanda isə Güney Azərbaycanda məhkumiyyət və müstəmləkəçilik başlamışdır. O, yazırdı:

*İndi əsir bizik ki,*
*görməyirik bir xoş gün.*
*Bağımız, əkinmiz,*
*talana gedir bütün.*
*Dünyada bundan ağır*
*milli əsarət nə var?*
*Öz dilimizdə bizi,*
*danışmağa qoymazalar.*[1024]

Onun solçu görüşləri Milli məsələdə olduğu kimi, İslam dininə münasibətdə isə heç bir zaman kəskin xarakter daşımamışdır. Başqa sözlə, bir tərəfdən varlıq və idrak, sosial fəlsəfi məsələləri solçu olaraq materialistcəsinə şərh edən Səhənd, digər tərəfdən aryançı Pəhləvilərə qarşı mübarizədə "sağçı" islamçılarla birgə mübarizəni də məqbul görmüşdür. Bizcə, bu prizmadan da Səhənd "İslam inqilabı"nınn bütün "İran" xalqlarına azadlıq gətirəcəyinə inanmış, bu ümidlə də, hələ dərindən bələd olmadığı "şiəçi" qılqılı, Xomeyniyə həsr etdiyi "İmama salam" şeirində "sağla-solun" birliyinin əhəmiyyətindən bəhs etmişdir:

*Tapşıraq şeytana-şeytanlara "sağ-sol" sözünü,*
*İttihad ilə, üxüvvətlə çıxardaraq gözünü!*[1025]

Artıq "solçu" Səhənd "sağçı" Xomeyninin cəbhədaşı kimi görür ki, tək istəyi də aryançı Pəhləvilərin aradan qalxması idi.

*Mən Səhəndəm, əyilənməz yada tufanlı başım,*
*El bilir, haqlı döyüşlərdə keçib çoxlu yaşım.*
*Öyürəm mən səni, ey dönməzim, ey cəbhədaşım,*
*Ey Əlinin xələf oğlu, sənə minlərcə salam*
*Ey yazıq kütlələrin rəhbəri, ey şanlı İmam!*[1026]

Hər halda Səhənddə ilk dövrlərdə bir çox Azərbaycan Türk mütəfəkkirləri kimi, "İslam inqilabı"nın bütün "İran" xalqlarına, o cümlədən buranın minillər boyu yerli və hakim xalqı olan türklərə də milli azadlıq, milli haqq və hüquqlar verəcəyinə müəyyən bir ümid

---

[1024] Yenə orada, s.119
[1025] Səhənd. İmama salam. "Varlıq" jurnalı, 1979, sayı 1, s.44
[1026] Yenə orada, s.44

bəsləmişdir. Yəni bütün bunlar nə Səhənddin solçu baxışlardan imtina etməsi, nə də "İslam iniqlabı"na, Xomeyniyə aldanması kimi yozulmamalıdır.[1027] F.Süleymanoğlu yazır: "Ona görə də Səhənd İslam İnqilabını böyük ümidlərlə qarşılamışdı. O, iniqlab liderlərinin ölkə xalqlarına hər cür bəşəri və milli haqların qaytarılacağı barədə verdikləri vədlərə, rəsmi bəyanatlara da səmimiyyətlə inanmışdı. Çünki xalq kütlələri qarşısında Allahdan, Qurandan, peyğəmbərdən və imamlardan danışan bu insanların meydanlarda dəniz kimi kükrəyən toplumu qandırmağa cürət edəcəklərini ağlına belə gətirmirdi. Həm də Pəhləvi rejiminin yaratdığı dözülməz durumdan qurtuluş mübarizəsinə sağçıların, solçuların və ya mərkəzçilərin rəhbərlik etməsinin indi onun üçün elə də böyük fərqi yox idi. Təki millət qanlı rejimdən xilas olub öz azadlığına qovuşsun. Onun Xomeyninin "Nə sağa, nə sola İslama!" şüarını nəzmə çəkməsi, ona yazdığı "İmama salam!" şeiri də bu səmimiyyətdən uzaq deyildi".[1028]

"İslam iniqlabı"nın liderinə çevrilmiş Xomeyninin və aryançı mollaların əsil niyyətini vaxtsız ölümündən dolayı Səhənd görə bilməsə də, iniqlab dövründə verilmiş vədlərin çoxunun sonaralar gerçəkləşməməsi də bir həqiqətdir. Xüsusilə də, "Millətin hüququ" adlı fəsilin 15-ci maddəsinə görə milli-etnik dildən istifadənin vurğulanmasına baxmayaraq söz olaraq qalması, 19-cu maddədə isə milli ayrı-seçkiliyə yol verilməyəcəyi göstərilsə də, onun da reallaşmaması başda Xomeyni olaraq şiəçi qılqılı irançı mollaların əsil mahiyyətini ortaya qoymuşdu.

**Marifçi-ictimai görüşləri.** Hesab edirik ki, 1960-cı illərin başlarından etibarən Səhəndin marksizm-leninizm ideyalarına rəğbəti azalmış, bunun əvəzində milli məsələlərə (milli azadlıq, milli dil, milli düşüncə, milli mədəniyyət və s.) meyli daha da artmışdır. Burada bir şeyə diqqəti çəkmək istərdik ki, marksizm ideyaları ilə milli ideyalara bağlılıq Səhənddə buna qədəre də paralel olmuşdur. Ancaq o, ilk dövrlərdə marksizm-leninizmə bağlı inqilabi-demokratik ruhlu siyasi-fəlsəfi ideyalara daha çox bağlı olub, milli məsələni onun tərkib hissəsi kimi gördüyü halda, sonralar vəziyyət

[1027] Süleymanoğlu Fikrət. Səhənd. Bakı, Nurlar NPM, 2017, s.49
[1028] Yenə orada, s.68-69

xeyli dərəcədə dəyişmişdir. Fikrimizcə, onun Azərbaycan türk eposu "Kitabi-Dədə Qorqud"u nəzmə çəkərək "Sazımın sözü" əsərini yazması da məhz milli məsələlərlə bağlı olmuşdur. Ümumiyyətlə, mütəfəkkirin milli məsələlərə dair baxışları "Sazımın sözü" əsərində, mənzum məktublarında və bir çox şeirlərində öz əksini tapmışdır. O, bu əsərlərində İran-fars millətçilərinin Azərbaycan türklərinin varlığını danmasına, dilinə, mədəniyyətinə qadağa qoymasına, milli haqq və hüquqlarını əlindən alınmasına etiraz etmiş, onları zorla farslaşdırmaq, iranlılaşdırmaq istəyənlərə qarşı çıxış etmişdir.

Milli məsələ ilə bağlı ən önəmlisi ana **dili** davası idi ki, mütəfəkkir bütün yaradıcılığı boyu Azərbaycan türkcəsinin qorunub saxlanılmasına böyük əhəmiyyət vermişdir. Çünki hər kəsin bildiyi bir həqiqət var idi ki, bir millətin əsas varlığı ilk növbədə, onun dilinin mövcudluğu ilə bağlıdır. Əgər bir xalqın dili əldən getsə, o, xalqı artıq məhv olmuş deməkdir. Bu anlamda iran millətçilərinin Azərbaycan türkcəsinin məhv olması ilə bağlı siyasətinə qarşı çıxan Səhənd "Yasaq" şeirində yazırdı:

*Taleyimə sən bax!*
*Düşüncələrim yasaq,*
*Duyğularım yasaq,*
*Keçmişdən söz açmağım yasaq,*
*Gələcəyimdən danışmağım yasaq,*
*Ata-babamın adın çəkməyim yasaq,*
*Anamdan ad aparmağım yasaq!*
*...Bilirsən?..*
*Anadan doğulandan belə*
*Özüm bilməyə-bilməyə*
*Dil açıb danışdığım dildə*
*Danışmağım da yasaq imiş, yasaq!*[1029]

O, mənzum məktublarına aid olan "Üçüncü ərməğan"da da ana dili məsələsinə toxunaraq yazırdı ki, tarixdə bir millətin öz ana dilində bur dərəcədə yasaq qoyulması görülməmiş bir məsələdir. Hətta, dünyanın ən qəddar hökmdarları hesab olunan zöhhaklar, fironlar, hitlerlər belə onlardan olmayan başqa bir millətə ana dilində

[1029] Səhənd. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2006, s.28

danışmağı qadağan etməmişdir, ancaq iran millətçiləri bunu Azərbaycan türklərinə qarşı həyata keçirirlər:

*Ömürlük zindanmış pəs mənim taleyim,*
*Qaradan qaraymış alnımın yazısı,*
*Dünyada məndən də yazığı olarmı:*
*Arzusu – dilində danışmaq arzusu....*

*Zöhhaklar, fironlar, hitlerlər dünyada*
*Neyləsə, neyləsə, neyləsə, neyləsə,*
*Açgilan tarixi, varaqla, baxgilan,*
*"Dilində danışma!" – demədi bir kəsə...*

*Yurdumu, elimi dustağa salanlar*
*Söyləsin mən daşam, torpağam, ax, nəyəm?*
*Qoymurlar sözümü ana dilimdə*
*Söyləyəm, söyləyəm, söyləyəm, söyləyəm!*[1030]

Səhəndin düşüncəsində ana dilinin varlığı çox önəmli olub, onu sıradan çıxartmaq istəyən iran millətçiləri və onun havadarlarna bu məsələdə bir addım olsun belə geri çəkilməyib. Səhənd hesab edirdi ki, istər ana dili, istərsə də digər milli məsələlər olsun bir addım geri çəkilmək əbədi məğlubiyyət deməkdir.

Bu baxımdan o doğru qeyd edirdi ki, irançı Pəhləvilər rejimi yaınız ana dilini deyil, düşünməyi, daha doğrusu türk kimi düşünməyi, **millətini (milli kimliyini) və vətənini (Azərbaycanı)** sevməyi də Türklərə qadağan etmişdilər. O, yazırdı:

*Düşünmək!..*
*Düşünürəm,*
*Düşünəmmirəm.*
*Sanki istəyirəm düşünüm,*
*Düşünəmmirəm.*
*Duyğularım qol-budaqdır,*
*Düşünəmmirəm.*
*Bilirsən,*
*Düşünmək yasaqdır.*[1031]

[1030] Yenə orada, s.51
[1031] Yenə orada, s.66

Fikrimizcə, məhz bütün bunları, yəni ana dilinə, milli düşüncəyə, millətinə və vətəninə qarşı olan faşist siyasəti nəzərə alaraq o, M.Şəhriyara ünvanladığı mənzum məktubunda da yalnız ana dili deyil, bütün milli məsələlərlə bağlı çox önəmli məqamlara toxunmuşdur. Səhənd çox dəqiq ifadə edirdi ki, Azərbaycan türkləri qurduqları dövlətlərdə daima mərd ikən namərdə rəhm etdikləri halda, indi həmin namərdlərə möhtac qalıb. O, yazırdı:

*Bu gün mən Səhəndəm, sən Şəhriyarsan,*
*Gəl başın ucaldaq qoca Təbrizin,*
*Bir kərə yadların daşın ataq,*
*Çəkək qayğısını öz elimizin...*

*Özgə çırağına yağ olmaq bəsdir,*
*Doğma ellərimiz qaranlıqdadır.*
*Yanıb, yandırmayaq yadın ocağın,*
*Evimiz soyuqdur, qışdır, şaxtadır.*[1032]

Biz buradan konkret o mənanı görürük ki, Azərbaycan türkü artıq ilk növbədə, öz Vətəninin və millətinin dərdini çəkməlidir. Halbuki Səhənd 1940-ci illərin sonu, 1950-ci illərdə daha çox İran xalqlarının, yaxud da bəşər xalqlarının azadlıq dərdini çəkirdi. Ancaq o çox keçmədən bir şey dərk daha dərindən dərk etdi ki, atalarımız demişkən, "öncə evin içi, daha sonra çölü". Yəni milli təəssübkeşlik, hətta millətçilik olmadan sosial-demokrat, liberalist olmağın heç bir anlamı yoxdur. O, yazırdı:

*Bu "şərəf", bu "şövkət", bu "qüdrət", bu "şan",*
*Hura, doğrudan da biz ar olsun!*
*Həyatın amansız bir qanunu var,*
*Təəssübsüz millət gərək xar olsun!*

*Milli təəssübdən danışdım, olsun,*
*Əslini itirən haramzadadır,*
*Mərd oğuyl vətənin haqqın itirməz,*
*Vətən insana ən böyük anadır.*

*Qoyun məhkum olum millətçilikdə,*

---

[1032] Yenə orada, s.34-35

*Dünyada millətini sevməyən kimdir?!*
*Dilin, elin, yurdun talan etsələr,*
*Acıyıb başına döyməyən kimdir?!*[1033]

Doğrudur, bütün bunlarla yanaşı Səhənd xüsusilə vurğulayırdı ki, onun millətçiliyi sadəcə millətsevərlikdir, yəni dilinin, elinin, mədəniyyətinin məhv olunmasına qarşı verdiyi bir mübarizədir. Başqa sözlə, onun millətçiliyi üstün bir millətçilik, yəni faşist, şovinist bir millətçilik deyil. Onun düşüncəsinə görə bütün millətlər əslində hamısı dost, qardaş olmalı, insanlıq üçün çalışmalıdır. Səhənd yazırdı:

*Pozmaq istəmirəm mən birlikləri,*
*İnsanlıq birliyi idealımdır,*
*Qardaşlıq, yoldaşlıq, əbədi barış,*
*Dünyada ən böyük arzularımdır.*

*Ancaq bir sözüm var: Mən də insanam,*
*Dilim var, xalqım var, yurdum, yuvam var,*
*Yerdən çıxmamışam göbələk kimi,*
*Adamam, haqqım var, elim, obam var.*

*Qul yaranmamışam yarananda mən,*
*Heç kəsə olmaram nə qul, nə əsir,*
*Qurtuluş əsridir insana bu əsr,*
*Əsir olanlar da buxovun kəsir.*[1034]

Bir tərəfdən "insanlıq birliyini" idealı hesab edən Səhəndin, digər tərəfdən millətçilik hissi bəsləyərək Azərbaycan türklərinin haqq davasını aparması təbii idi. Çünki dili, mədəniyyəti, eli başqaları tərəfindən assimilyasiya olunan, talan edən bir xalqın bu günü və gələcəyi də ola bilməzdi. Bu anlamda Səhəndin insanlıq birliyini arzulamaqla yanaşı, millətçiliyi ifadə etməsi bir o qədər zəruri idi.

Eyni zamanda bu "millətçilik hissi"nin təsiri altında, iki Azərbaycanın yenidən bir olması uğrunda da mübarizə aparan Səhənd hesab edirdi ki, bölünmüş bütün xalqlar (almanlar, koreyalılar və başqaları) dünya tərəfindən tanındığı halda,

[1033] Yenə orada, s.41-42
[1034] Yenə orada, s.42-43

Azərbaycan xalqının yada düşməməsi ədalətsizlikdir. [1035] Bu ədalətsizliyə son qoyacaq yeganə qüvvə də Azərbaycan xalqının özüdür, mübarizə aparıb bir olmaq diləyidir. O, yazırdı:

*Biz – vətən, vətən – biz, xalqımız bir deyir,*
*Tanıdaq ellərə mən səni, sən məni.*
*Dalğalar - gəmimiz, fırtına – şürtəmiz,*
*Bərk tutaq sükanı, qaldıraq yelkəni...*

*Bölünən ürəklər yapışsın, qovuşsun,*
*Dünyamız insana səadət paylasın,*
*Ellərin başından hər qada sovuşsun,*
*Körpələr dinləsin "elçi"nin laylasın.*[1036]

Hesab edirik ki, Səhənd "İnsanlıq birliyi" axtarışında olduğu bir zaman, insanlığın mahiyyətini öz xalqının milli kimliyində, millətinə və vətəninə bağlılıqda araması, xüsusilə də, "Kitabi-Dədə Qorqud" boylarına üz tutaraq "Sazımın sözü" əsərini yazması təsadüfi olmamışdır. O, insanlığın vaxtilə Oğuz dövlətində, Oğuz xalqında yüksək səviyyədə olduğunu göstərmək üçün bu əsərini qələmə almışdır. Səhənd bu əsərində də göstərir ki, əzəl gündən qəhrəmanlıq, mərdanəlik millətinin və vətəninin ad-sanıyla hər vaxt yanaşı olmuşdur. İnsanlıq üçün səciyyəvi olan bütün xüsusiyyətlər Oğuz xalqının, Oğuz elinin həyat tərzi olmuşdur. Oğuz xalqı daim başıuca, alnıaçıq həyat sürmüş, onun Qazan xan, Beyrək, Atropat, Xətai, Babək və başqa onlarla qəhrəmanlar olmuşdur. Həmin qəhrəmanların dövründə də, ədalət və hüquq hər şeydən üstün tutulmuşdur. [1037]

Bu baxımdan Oğuz elinə, Oğuz babalarına baxıb fəxr edən Səhənd Dədə Qorquda deyir ki, vaxtilə dünyaya meydan oxuyan Oğuz xalqının evladları bu gün Pəhləvilərin zülmü altında ev yiyəsi ikən evsiz qalıb, igidləri aciz günə düşürülüb və bir çoxu buna dözməyərək doğma yurd-yuvalarından baş götürüb qaçıblar:

*Dov düşüb dırnaqsız namərd əlinə,*
*Dişi batan yerin ətin qopardır,*

---

[1035] Yenə orada, s.41
[1036] Yenə orada, s.54-55
[1037] Yenə orada, s.127-128

*Dil açıb dilində danışanların*
*Çəkir boğazından dilin çıxardır.*

*Bircə dar günlərin dar axşamında*
*Xalqın əhvalına şəfəq qan ağlar,*
*Qəhrəman elivi nə günə salmış*
*Gör bu qara dövran, gör bu ruzigar!*[1038]

Doğrudan da, əsrlərboyu Oğuz-Türk xalqının hökm sürdüyü bir ölkə, xüsusilə də onun mərkəzi olan Azərbaycan və Azərbaycan türkləri bir tərəfdən Rusiyanın, o biri tərəfdən də ingilis hamiçiliyi fonunda Pəhləvilərin əlində əsir-yesir idi. Səhəndin dili ilə desək, Vətən və Millətin param-parça oldğu bir zamanda Dədə-Qorquda sənin oğlunam demək, çox ağrılıdır:

*Bir ürək aradan iki bölünüb,*
*Ayaq da qanlıdır, baş da qanlıdır!*
*Ağ saçlı analar qara geyinib,*
*Yanaq da qanlıdır, yaş da qanlıdır!*
*Utanıram sənə "oğlunam" – deyim,*
*Bilirəm yanında qaradır üzüm.*
*Dərdin çəkəni mən, eşidəni sən,*
*Sən dözənməyəndə, mən necə dözüm?!*[1039]

Vətənində "dodağı tiklib dili yasaqlanan" bir şəraitdə yaşamağa məcbur edilən Səhəndə görə, böyük Oğuz dövlətinin, Oğuz xalqının övladlarının belə bir aqibətə düçar olması qəbuledilməzdir. Türk düşmənləri yanlız hakimiyyəti, var-dövləti qəsb etməklə kifayətlənmədilər, eyni zamanda böyük bir keçmişi olan xalqın dilinə də, yurd-yuvalarına da əl uzatdılar. O, yazırdı:

*Bir də ki, nankorlar*
*Bir quru dilimi də mənim*
*əlimdən aldılar.*
*Bir qarış yerimdən də*
*Məni bayıra saldılar...*[1040]

---

[1038] Yenə orada, s.175
[1039] Yenə orada, s.175
[1040] Yenə orada, s.176

Dədə Qorqud isə Səhəndin, yəni övladının pərişan, natəvan şikayətlərini incik şəkildə, mükəddər olaraq dinlədikdən sonra, ona deyir ki, himməti ulu əcdadlarından deyil, özlərindən gözləməlidirlər. Vaxtilə Oğuz xalqı namərdə baş əyəmədən daim başıuca, alnıaçıq yaşayıbsa, qanları bahasına yadelli düşmənlərə təslim olmayıbsa, həyatı – şərəfdə, mərdlikdə bilibsə, bu gün onun övladları da ulu əcdadlarının yollarını davam etdirməlidirlər. Dədə Qorqud Səhəndə tövsiyə edir ki, hər bir müdrik, hər bir igid öz dövrünün məhsuludur. Onu geri qaytarıb müdriklik, igidlik etmək mümkün deyildir. O, Dədə Qorqudun dilindən yazırdı:

*Mən öz zəmanəmi yaxşı tanıdım,*
*Yaxşı yol göstərdim, yaxşı yol getdim,*
*Elimə ustad bir gəmiçi oldum,*
*Tufanlardan keçdim, sahilə yetdim.*
*Sən də öz əsrivi dərindən tanı,*
*Gəz, dolan, zamanın Qorqudun axtar.*
*Raket dövranında, atom əsrində*
*Əprimiş Qorquddan sizə nə çıxar?*[1041]

Dədə Qorqud onu da deyirdi ki, hər zaman başıuca yaşamaq üçün, əsrin hünərini öyrənmək gərəkdir. Başqa sözlə, ataya güvənmək əvəzinə yaşadğımız ərsrdə dünyada hünərli olmaq lazımdır. O, Dədə Qorqudun dilindən yazırdı:

*Get, qoca Dədədən himmət diləmə!*
*Himmət verəcəksən, himmətin olsa!*
*Atavın çırağın yanar saxlarsan,*
*Şərəfin, hünərin, qeyrətin olsa!*[1042]

Deməli, hər bir xalq, onun fərdi keçmişi ilə öyünüb durmaq əvəzinə tarixdən dərslər almalı, ancaq öz zamanına görə himmət edərək bəlalardan qurtulmalıdır. Başqa sözlə, insanın həyatı, yolu vuruşdur və zülmətə vuruşmaqla qalib gəlmək olar. Səhəndə görə, millət və vətən sözündə elə bir ülviyyət, həqiqət var ki, onun uğrunda şəhid olmağa dəyər:

*Vətəndir həyatın, ömrün hamısı,*
*Vətənsiz insanın günü hərdir,*

---

[1041] Yenə orada, s.178
[1042] Yenə orada, s.179

*Vətəndir igidin irzi, namısı,*
*Vətənə yan baxan bir dərbədərdir.*

*Üfüqsüz göylərdə qanadlansa da,*
*Dönüb yuvasında daldalanar quş,*
*Vətənsiz yaşayan səhman tapamaz,*
*Xarabada yatar uğursuz bayquş...*

*Ancaq eli üçün yaşayanların*
*Ölüb getmək ilən ömrü qurtarmaz!*
*Ölümlə həyatda bir bütünlük var,*
*Gül toxum olmasa, toxum gül olmaz!*[1043]

Deməli, vətən və millət uğrunda ölənlər, vətən və millətlə bütünləşir. Yəni belə insan üçün ölüm deyilən şey, sadəcə millətin ruhu ilə mənəvi cəhətdən də bir arada olmaqdır.

Bu baxımdan vətən və millət üçün mübarizə aparmağı həyat amalı hesab edən Səhənd yazırdı ki, Dədə Qoruqd boylarından birindəki təpəgöz misalını o, ikinci dünya müharibəsi illərində "ikigözlüllər"in sayəsində real şəkildə görüb. O, yazırdı:

*Mən məktəbi bitirmədən*
*Müharibə başlanmışdı.*
*Qafilcədən bir gün yadlar, gündüzləri*
*Bizim yerdə gecə olan Adamzadlar,*
*Çağrılmamış qonaq kimi*
*Yurdumuza soxuldular.*
*Gördük ki gözləri var,*
*Bizə belə deüdilər ki,*
*Ləngi uzun, əsrin boğaz*
*Oturarkən ayaqların*
*Masa üstə dırmaşdıran*
*Bu deylaqlar*
*İnsanlığı, azadlığı*
*"Qorumaqçın" (!)*
*Vətənindən baş götürüb,*
*Diyar-diyar*

[1043] Yenə orada, s.225

*Gəzişirlər, dolanırlar.*
*Sonra bizə*
*Qaraları, kölələri*
*"Azad" edən*
*Mübariz bir "baltaçı"dan*
*Danışdlar.*[1044]

Çağrılmamış qonaqlara inanıb evlərində yer-yurd verdiklərini yazan Səhəndə görə, müharibə bitdikdən sonra "insaniyyət qalib gəldi" deyən həmin ingilis-amerikanlar "azadlıq"dan, "hüriyyət"dən, "bəşəriyyət hüququ"ndan yalan-palan danışıblar. Ancaq Azərbaycan xalqının övladları öz torpağında iş işləyib, əkin əkmək istəyəndə çağrlmamış qonaqlar və onların maşaları fars millətçiləri bunu anlamaq istəməyiblər:

*Əlimizi,*
*Ağzımızı,*
*Dilimizi nişan verdik,*
*Bizi insan saymadılar.*
*Acıqlandıq.*
*Silahlandıq.*
*"Dəyirmanın suyun sovduq",*
*Ölkəmizdən yadı qovduq.*
*Dünya dedi:*
*Həq bizlədir.*
*Öz evinin qibləsini*
*Yaxşı bilir hər kəs özü.*
*Həqqin özü – sözün düzü.*[1045]

Ancaq çox keçmədən vətənə düşmənin dolduğunu yazan Səhəndə görə, onlara yardım edənlər arasında yalnız çağrılmamış qonaqlar deyil, "özümüzünkülər"də olmuşdur. Bir sözlə, çarğlmamış qonaqlar və daxili xəyanət nəticəsində Azərbaycan yenidən düşmənn caynağına keçəmli olmuşdur. Səhənd o zaman belə bir qənaətə gəlir ki, Dədə Qorqud boylarındakı əfsanlər boş yerə deyilmiş: ağacı qurd içindən yeyərmiş.[1046] O, yazırdı:

[1044] Yenə orada, s.248
[1045] Yenə orada, s.249-250
[1046] Yenə orada, s.250-251

*Bir daha mən*
*Tanımışam, tanımışam*
*Əsrimizin*
*"Birgözlüsün",*
*"Təpəgözün"!..*[1047]

Beləliklə, onun dünyagörüşündə Azərbaycan türkçülüyü ideyası daha çox ön planda olub, "İran" daxilində Güney Azərbaycan xalqının milli azadlıq ideyasını tərənnüm etməsinin nəticəsi olaraq onu "turançı" deyil "azərbaycançı" kimi qələmə vermişlər. Bununla bağlı F.Süleymanoğlu yazır: "Səhənd Güney Azərbaycanın milli dairələrində şərti olaraq "Azərbaycançı"lar və "Turançı"lar adlandırılan iki təmayüldən birinciyə aid edilirdi. "Azərbaycançı"lar Şimaldakı kimi milli muxtariyyət yaradılması, kollektiv milli hüquqların (yerli özünüidarə, ana dilində təhsil, mətbuat, ictimai birliklər və s.) təmin olunması və perspektivdə – yerli və beynəlxalq şəraitin imkan verəcəyi təqdirdə Şimalla birləşib vahid, müstəqil Azərbaycan dövləti yaratma ideyasını müdafiə edirdilər. "Turançı"lar isə "Azərbaycan" və "Azərbaycanlı" sözünü nəinki qəbul etmir, hətta bunu "fars şovinizminə xidmət" adlandırıdılar. Onlar mövcud milli problemlərin "Azərbaycan adlı qəfəsdən xilas edilib" bütün İran türkləri və ümumtürk kontekstində – Turan müstəvisində həll olunacağı ideyasını dəstəkləyirdilər".[1048]

Bizcə, "Azərbaycançı"lar və "Turançı"lar arasında məsələnin kəskin şəkildə qoyulması, xüsusilə də bunun qarşılıqlı "xəyanət"çilik ittihamları kimi süslənməsi doğru olmamışdır. Hər iki "tərəf"in baxışlarında yanlış və doğru olanların analiz olunması, ümumi məqsəd naminə ortaq, vahid ideyanın müəyyənləşməsi çox vacibdir. Bu baxımdan F.Süleymanoğlunun o fikri ilə də razılaşırıq ki, ümummilli məsələlərlə bağlı nisbi olaraq da iki "qrup"a ayrılanların bir-birlərini ittiham etməkdənsə, zehni və fiziki güclərini birləşdirmələri lazım idi: "Əlbəttə, bu təmayüllərin nümayəndələri bir-birinin fikrinə, dünyagörüşünə tolerant yanaşıb milli qurtuluş işinə birlikdə xidmət etmək sahəsində əməkdaşlıq etsəydilər, bəlkə də, daha çox nailiyyətlər əldə edə bilərdilər. Amma təəssüflər olsun

[1047] Yenə orada, s.252
[1048] Süleymanoğlu Fikrət. Səhənd. Bakı, Nurlar NPM, 2017, s.51

ki, onlar çox vaxt bir-birini "solçu stalinist", "maoçu", "xruşovçu" və "iranpərəst turançı" adlandırmaqla yaratdıqları birlikləri qaralamaq, gözdən salmaq və ya hansı yollasa dağıtmaqla məşğul olurdular".[1049]

Səhəndin yaradıcılığında **qadına, xüsusilə də anaya** olan hörmət də mühüm yer tutmuşdur. O, "Sazımın sözü" kitabında Oğuz ölkəsində milli adət-ənənələr arasında qadınlara olan ehtiramı, xüsusilə də anaya olan hörməti yüksək dəyərləndirmişdir. Məhz qadın, ana evin "bağbanı" kimi öz "bağı"nın ocağını qoruyur, özü yanmaqla ocağının məşəlinin sönməsinə yol vermir. Səhəndin təbrincə desək, ananın sinəsində Günəş boyda bir şölə var, alovlanıb yandıqca bu şölə əbədiyyət işıqlanır. Ona görə, Oğuz elində də hər daim Anaya dərin hörmət bəslənmiş, Ana qarşısında Teymurilər-Turan dövlətinin qurucusu Əmir Teymur belə ayaq dala qoymuş, bağışlanmasını isətmişdir:

*Bu haqqı tanıyan, haqqı sevən el*
*Mərifətdə incə yerlərə çatmış,*
*"Ana haqqı – Tanrı haqqıdır" – deyə*
*Belə bir bədii məsəl yaratmış.*[1050]

Səhəndə görə, Oğuz elində hər zaman qadınlara hörmət edilib, Oğuz törəsində heç bir zaman qadın-kişi ayrı-seçkiliyi olmamışdır. Yəni Türk qadınları (Burla xatun, Səlcan xatun, Nigar xanım, Həcər xanım və b.) öz ataları, ərləri, qardaşları ilə birlikdə at minərmiş, ox atarmış, döyüşərmiş və ən əsası odur ki, heç bir zaman qadın olduqlarına görə, aşağıllanmazlarmış. O, yazırdı ki, əslində bu günün özündə də Türk qadınları tarlalarda, zavodlarda və digər yerlərdə işıqlı bir mayak kimi dünyaya işıq salırlar:

*Qadınlığın, analığın*
*Yorğun gözü, tutqun bağrı*
*Ona baxıb, qurtuluşa*
*Yol axtarır, ilham alır.*[1051]

Beləliklə, deyə bilərik ki, Səhənd bir sosial-demokrat olaraq da, millətçi olaraq da hər daim Azərbaycan türklərinin milli haqq və hüquqlarının müdafiəçisi olmuşdur. Onun inqilabi-demokratik, milli-

---

[1049] Yenə orada, s.51
[1050] Səhənd. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2006, s.99
[1051] Yenə orada, s.130

demokratik siyasi-fəlsəfi görüşlərində milli məsələlər də mühüm yer tutmuşdur. Əgər ilk dövrlərdə daha çox "İnsanlıq birliyi" idealı ilə sosial-demokrat ideyalar ön planda olmuşdursa, ancaq çox keçmədən mütərəqqipərvər "millətçilik", milli-demokratik ideyalar daha çox özünü büruzə vermişdir.

Əslində Səhəndin insanlıq fəlsəfəsinin sonunda milli duyğularla tamamlanması təsadüfi olmamışdır. Əksər Azərbaycan Türk mütəfəkkirləri kimi insanlıq idealının vurğunu olan Səhəndin bu cür insani duyğularını anlamaqla yanaşı, onda daha sonra milli duyğuların ön plana çıxması da təbiidir. Çünki hər bir Türk mütəfəkkiri öz içində insanlığı və türklüyü yanaşı daşımışdır. Sadəcə olaraq, insanlıq duyğusu bəzən onları saflıqlarından, paklıqlarından irəli gələrək bununla bağlı mövcud olan cərəyanlara daha çox bel bağlamaları ilə nəticələnmişdir. Ancaq bel bağladıqlarının da sonralar iç üzlərinin açılması ilə, müəyyən qədər pessimizmə qapılsalar da çox keçmədən milli duyğular əsasında toparlanmışlar.

## HƏBİB SAHİR

**Həyat və yaradıcılığı.** XX əsr Azərbaycan türk mütəfəkkirləri arasında Həbib Sahirin (1903-1988) özünəməxsus yeri vardır. Təbrizdə dünyaya gələn, atasını 5 yaşında itirən Sahir ibtidai və orta təhsilini burada alqdıqdan sonra 1927-ci ildə İstanbula gedərək əvvəlcə "Dəbistane-İraniyan" məktəbində fars dili və ədəbiyyatı müəllimi kimi çalışmış, daha sonra İstanbul universitetində çoğrafiya ixtisasına yiyələnmişdir. Onun "İran Azərbaycanının təbii coğrafiyası" elmi işi "Azərbaycan Yurd bilgisi" dərgində nəşr olunmuşdur.[1052]

O, İstanbuldan Fransaya-Parisə getsə də, burada uzun müddət qala bilməmiş və Güney Azərbaycana dönmüşdür. Sahir, Vətənə geri döndükdən sonra Maarif idarəsinin təyinatı ilə Təbrizdə ixtisası üzrə müəllimlik fəaliyyəti göstərmişdir. Ancaq İran Pəhləvilər rejimi tərəfindən təqib və təzyiqlərə məruz qalan, bir neçə dəfə Vətənindən sürgün edilən Sahir qürbətdəki çətin həyatına baxmayaraq, heç bir zaman Azərbaycan milli hərəkatından uzaq qalmamışdır. O, sürgündə olduğu illərdə də Milli hərəkatın varlığını qoruyub saxlamasına çalışmışdır.[1053]

Onun yaradıcılığının ən məhsuldar dövrü 1941-1946-cı illərdə Təbrizdə yaşadığı dövrdür. O, Azərbaycan Milli Hökumətinin yaranmasını sevinclə qarşılamış və onun yanında yer almışdır.

Bir müddət o Pəhləvilər rejiminin devrilməsi üçün İran adlanan ölkədə başlanan islami hərəkata da müəyyən ümidlər bəsləmişdir. Sahir, "islam inqilabı"nın ilk illərində Azərbaycanın da bundan müyyən qədər qazanclı çıxacağna inanmışdır. ümid etmişdir. Hətta, onun rəhbərliylə Tehranda Azərbaycan Azadlıqsevərlər Partiyası (1979) yaranmış, anca çox keçmədən Mola-Fars rejiminin təzyiqləri ilə üz-üzə qalmışdır. Bununla da, "islam inqilabı"ndan əlini üzən Sahir Azərbaycan milli hərəkatı yolundakı milli işlərinə daha da böyük əzmlə sarılmışdır.

---

[1052] Məmmədli Pərvanə. Cənubi Azərbaycan: ədəbi şəxsiyyətlər, portretlər (I Hissə). Bakı, Sabah, 2015, s.28
[1053] Yenə orada, s.30-31

Sahirin əsas kitabları "Coğrafiyayi-xəmsə", "Dağınıq xatirələr", "Kövşən", "Səhər işıqlanır", "Kölgələr" və başqalarıdır. Vətəni Azərbaycanla yanaşı, bir müddət Türkiyədə də yazıb yaradan Sahirin yaradıcılığında ictimai-siyasi əsərlərlə yanaşı, müəyyən qədər romantik ruhlu fəlsəfi şeirləri də az deyildir.

**Fəlsəfi romantizm.** Onun əsərlərində romantik, estetik xarakterli fəlsəfi romantizm öz əksini tapmışdır. Bu yönlü şeirlərində Sahir daha çox xəyallarını ifadə etməyə çalışmışdır:

*Nə qədər ağlasan ağla! Ki sənin ağlayışın,*
*Bu qaranlıq gecə içrə əriyib məhv olacaq,*
*Nə səninçün də, bu göylərdə, qızıl gün doğacaq...*[1054]

"Qorxma" adlı şeirində də, o romantik duyğularını yazır:

*Qorxma, bu mavi göy altında yanan günəşin,*
*Və üfüqlərdə gülən al şəfəqin sönməyəcək.*
*Ilk baharına açacaq gül, ötəcək bülbüllər,*
*Dünyamız bir də bu aləmdə xəzan görməyəcək.*[1055]

Sahir "Qovala düşmanları!" şeirində də işığın qaranlığa bir gün qalıb gələcəyinə inamından söz açır. O, yazırdı:

*Qaranlıq içrə qardaşam,*
*Hələ gizlənibdir qızıl gün.*
*Bax, boğsa da səni qaranlıq,*
*Qırmızı səhəri düşün...*[1056]

O, "Həyatda ümid" şeirində isə yazırdı:

*Ümid əgər bu qaranlıq cahanda olmazsa,*
*Kim axtarırdı həyatın şəfəqli çeşməsini?*
*Həyatın eşqi əgər olmasaydı, xatirədə*
*Ölüm kəsərdi sevincin gözəl və şən səsini.*
*Ümid, köhnə şərabdır ki, xəqli sərxoş edər,*
*Ümid ilə qara dünya şəfalı cənnət olar.*
*Ümid ilə gül açar, bağçalar və quşlar oxur,*
*Yaşıllanır quru çöllər, axar, çoşar çaylar...*[1057]

---

[1054] Sahir Həbib. Seçilmiş əsərləri. Bakı, Lider nəşriyyatı, 2005, s.28
[1055] Yenə orada, s.55
[1056] Yenə orada, s.56
[1057] Yenə orada, s.153

Sahirin fəlsəfi romantizmində bədbinlik az, optimiz isə tam əksinə güclüdür. O, gələcəyə münasibətdə çox ümidli görünür ki, bu da onun şeirlərində açıq şəkildə hiss olunur. Sahir yazırdı:

*İstərəm qəmli və tufanlı geçə yolçulara*
*Bir fanus tək, ya da qütb ulduzu tək*
*rəhbər olam.*
*İstərəm yay günü çöllərdə axar*
*bir su olub,*
*Dum-duru göz yaşı tək yolda*
*Çuxur içrə dolam.*[1058]

Sahir bütün hallarda Azərbaycan türkünü mübariz olmağa, bir an olsun ruh düşkünlüyünə qapılmamağa çağrırdı. O, yazırdı:

*Dəhridən etmə şikayət, oxuma ayeyi-yəs,*
*Qoy nəsim dağdan əsib, həm meşə, həm bağ oxusun*
*Bir gəraylı çağır! Ey türkədarın mərd balası!*
*Sənin ahəngin ilə həm dərə, həm dağ oxusun!*[1059]

O, "Oyanmış" şeirində isə gələcəyə inama əsaslanan həyat fəlsəfəsini belə izah etmişdir:

*Tarixin əgər dəftərini açsan, görəcəksən,*
*Hər babı və hər fəsli qızıl qanla boyanmış!*
*Bir neçə qızıl qübbəli məbəd tikilirkən,*
*Xalqın evi uçmuş başına, xərməni yanmış,*
*İnsan ki həyat fəlsəfəsini anlamaz oldu,*
*Dünyada, o əfsanəyə, o əfsunə inanmış.*
*Şəhanə saraylarda gecə toy tutulanda,*
*Bir çox qapılar qəmlə və matəmlə qapanmış.*
*Gördünmü, sürü içrə gedən qurddu? Amandır!*
*Bax, quyruğuna, gözlərinə, sanma çobanmış,*
*Əsrin o qarı dayəsinə söylə ki, bir də!*
*Artıq demə laylay ki, yatan ellər oyanmış.*[1060]

**İctimai-siyasi görüşləri.** Sahirin ictimai-siyasi baxışları isə daha çox milli məsələylə (milli azadlıq, milli dil, milli düşüncə, milli mədəniyyət və s.) bağlı olmuşdur. İran Pəhləvilərin qeyri-qanuni

---

[1058] Cənubi Azərbaycan ədəbiyyatı antologiyası.4 cilddə, 3 cild.Bakı, Elm, 1988, s.81
[1059] Cənubi Azərbaycan ədəbiyyatı antologiyası.4 cilddə, 4 cild.Bakı, Elm, 1994, s.47
[1060] Yenə orada, s.47

hakimiyyətlərini de-yure rəsmiləşdirdikdən dərhal sonra (1925) Azərbaycan türklərinin milli varlığının assimilyasiyasına yönəlmiş siyasətə etiraz edənlərdən biri də Sahir olmuşdur. Sahir "Gülüstan dərsi" kiçik hekayəsində açıq şəkildə göstərir ki, mollalar, axundlar ibtidai məktəbdən başlayaraq aryançılığın təbliğatını apardığı halda, meydanlarda isə xalqı əyləndirənlər ana dilində oxuyurmuşlar. Sabir də deyirdi ki, farsca oxuyan mollaların nağllarındadnsa, meydandakıların türkcə oxumaları yaxşıdır, doğmadır.[1061]

Sahir milli görüşlərindən dolayı Təbrizdən digər şəhərlərə sürgün edilmişdir. O, "Sürgün" şeirində yazırdı:

*Qovuldum ah, vətnimdən, elimdən,*
*İllər boyu nələr gördüm, nələr mən.*
*Daşdan daşa dəydim başım qürbətdə,*
*Möhnət oldu yar-yoldaşım qürbətdə...*[1062]

Ancaq bütün bu çətinliklər Sahiri nəinki ümidsizliyə sürükləyir, tam əksinə yurdunda baş qaldıracaq bir milli oyanışla yadların, bayquşların vətəndən rədd olacağına inanır. O, yazırdı:

*Burax bayquş xarabada banlasın,*
*Xalqı düşmən söyüb-söyüb danlasın.*
*Lakin zaman dəyişməzdir mədarın,*
*Qurumzadıq qızl qanı əhrarın.*
*Şair yenə şer yazar el üçün,*
*Qarlar ərir çaylar üçün, sel üçün,*
*Boz buludlar günün önün tutammaz,*
*Özgə oymaq yurdumuzu udammaz.*[1063]

Pəhləvilər rejimi ilə mübarizənin nəticəsi olaraq 21 Azər hərəkatının qələbəsi və Milli Hökumətin qurulması onun yaradıcılığının ictimai-siyasi məzmununu daha da artırımışdır. O, Milli hökumətin yaranmasını sevinclə qarşılamışdır:

*Söndü qanlı şəfəqlərin,keçdi sakit bir gecə,*
*Dəyişildi bir gecədə bu dünyanın səhifəsi...*
*Dünya xalqı sevinirkən, gülümsədi Təbriz də,*

---

[1061] Sahir Həbib. Gülüstan dərsi //Güney Azərbaycan nəsri: Bağlanğıcdan bu günə qədər (Antologiya) . Bakı, Nurlar NPM, 2017, s.157-158
[1062]Cənubi Azərbaycan ədəbiyyatı antologiyası.4 clddə,2 cild.Bakı,Elm, 1983, s.226
[1063]Yenə orada, s.229

*Azadlığın bayrağını Ərkin üstdə taxdılar,*
*Yenə sönmüş məbədlərdə məşəlləri yaxdılar.*[1064]

Ancaq Milli hökumətin bir il sonra Pəhləvilər və havadarlarınca süquta uğraması ilə yenidən paniranizm, fars millətçiliyi Azərbaycanda hakim kəsildi. Sahir ana dilini yenidən yasaqlayan Pəhləvilərə etiraz olaraq yazırdı:

*Bizim türki şirin dildir,*
*Xoş sədalı zəngin dildir.*
*Dil günəşdir, işıq saçar*
*Səadətə qapı açar.*
*Yadın dili boyunduruq!*
*Bir keçiddir, buruq-buruq...*
*Kimsə yolun çaşıb azmaz,*
*Türkü deyib, farsi yazmaz.*[1065]

Başqa bir şerində isə o, yazırdı:

*Anlatdılar*
*Get məktəbə, uşaq oxut*
*Dərsdən sonra dön evinə*
*Xoşdur daxma.*
*Qaranlığa qərb oluban*
*Parlaq qızıl günə baxma.*
*Yada qul ol,*
*Dərdə alış.*
*Farsca danış*
*Əsirliyi, dərvişliyi təlqin eylə*
*Uşaqlara.*

Sahir "inqilab"dan sonra qələmə aldığı xatirələrində yazırdı ki, Pəhləvilər dönəmində orta məktəbdə uşaqlarla doğma ana dili olan türk dilində danışdığı üçün onu üç il "sərgərdan yəhudi kimi" bu şəhərdən o şəhərə köçürüblər.[1066] O, yazırdı:

*Türkcə yazdım, şirinləşdi sözlərim,*
*Gözlük taxdım, aydınlaşdı gözlərim.*[1067]

---

[1064]Cənubi Azərbaycan ədəbiyyatı antologiyası.4 cilddə,3 cild.Bakı, Elm, 1988, s.75
[1065] Sahir Həbib. Seçilmiş əsərləri. Bakı, Lider nəşriyyatı, 2005, s.79
[1066] Məmmədli Pərvanə. Cənubi Azərbaycan: ədəbi şəxsiyyətlər, portretlər (I Hissə). Bakı, Sabah, 2015, s.30
[1067]Cənubi Azərbaycan ədəbiyyatı antologiyası.4 cilddə, 2 cild.Bakı,Elm,1983, s.237

Firudin İbrahimiyə həsr etdiyi şeirində də Sahir ana dili məsələsinə toxunaraq yazırdı:

*Məktəblərdə ana dilin*
*Oxutduran ustad yoxdur.*
*Ordu-ordu oymaqlarda*
*Əsir çoxdur, azad yoxdur.*[1068]

Sahir irançı ideoloqlara tez-tez xatırladırdı ki, indi "İran" adlanan ölkənin əsas qurucuları və inkişaf etdirəni dünənə qədər Türk hökmdarları, Türk ordusu olub. O, yazırdı:

*Türk şahları olmasaydı,*
*Daş daş üstə qalmaz idi.*
*İran adlı məmləkəti*
*Tarix yada salmaz idi.* [1069]

O, "Məktəb xatirələri" şeirində də Qacarlar Türk dövlətini xatırlayır, Türk dövlətçiliyinin nisgili ilə yaşayırdı. Çünki Sahir Qacarlarda orta məktəbi oxumuş, ana dilində təhsil almışdır:

*Unutmaram, soyuq qışı, dağ, yayı,*
*Qızıl günü, saf ulduzu, ağ ayı.*
*Qacarlardan qalan hər bir misrayı...* [1070]

Bu məsələ ilə bağlı Nabdil Oxtay yazırdı ki, Sahir keçmiş həyatın tablolarını yaradaraq onu indiki kobud və rəhmsiz həyata, xüsusilə Tehran mühitinə qarşı qoyur, insanların öz yurdlarından didərgin düşməsindən acı-acı gileylənir və qürbət həyatının sıxıntılarından şikayət edir. Oxtay yazırdı: "O (Sahir-F.Ə.), bir vaxt sağlam həyata malik xalça toxuyan kirmanlı qızların fəna vəziyyətini, qürurlu Azərbaycanlı kəndlilərinin Tehranda, şəhər parkının hasarları yanında bilet satdıqlarını, hovuzların suyunu daşıyaraq təmizlədiklərini gördükdə həsrətlə ah çəkir, ürəyinin odlu nalələri göylərə yüksəlir. Beləliklə, Sahir ideal dünyanın təsvirindən real dünyanın təsvirinə keçir, lakin bunların, bu zülm və məşəqqətlərin səbəbini izah etməkdə çətinlik çəkir. Qocalmasına baxmayaraq o, 1940-cı illərdəki dünyagörüşü və ifadə üzullarından, keçmiş romantiklikdən və qeyri-kütləvi düşüncələrini bəyan

[1068] Sahir Həbib. Seçilmiş əsərləri. Bakı, Lider nəşriyyatı, 2005, s.53
[1069] Yenə orada, s.148
[1070] Yenə orada, s.24

etməkdən uzaqlaşır, siyasi-ictimai məsələlərə və həyat reallıqlarına obyektiv yanaşır”.[1071]

Sahirin romantikliyində də, reallığında da bir türk ruhu var idi. O, türklüyün İran adlanan ölkədə əzilməsi, assimilyasiya olunması ilə heç cürə razıla bilmirdi. Bu bir həqiqət idi ki, Qacarlar Böyük Britaniyanın birbaşa əliylə devrilərək qeyri-qanuni olaraq Pəhləvilər hakimiyyətə gətirildikdən sonra Azərbaycan türkləri üçün sözün həqiqi mənasında qara günlər başlamışdı. Sahir də türklüyün yenilməz bir davaçısı kimi onu hər daim diri tutmağa çalışmışdı. Çox təəssüf ki, Nabdil Oxtayın bu ruhunu doğru qiymətləndirə bilməmişdi: “Sahir İstanbul ləhcəsi və pantürkizmdən uzaqlaşa bilsəydi, bəlkə də onun şeirlərinin ziyalılar tərəfindən oxunmasına və qavranılmasına ümid etmək olardı. Şairin səmimliyi, “Şairlər məclisi” üzvlərinin çoxundan fərqlənməsi və keçmiş nəslin ən inkişaf etmiş və sadə yazan Azərbaycan şairi olmasına baxmayaraq, onun romantikliyi, arxaikliyi, şeirdə kütlə dili və həyatından uzaqlşaması , siyasi cəsarətinin olmaması, təcridi yaşayışa üstünlük verməsi, “kütlələrə və gələcəyə pessimist yanaşması” onunla xalq arasınd ayrılıq və uzaqlıq yaradırdı”.[1072]

Qeyd edək ki, ingilislərin yardımı ilə Qacarları devirənə qədər demokratiyadan, ədalətdən bəhs edən Rza Pəhləvi, hakimiyyəti qeyri-qanuni şəkildə mənimsədikdən sonra ən böyük zərbəni Azərbaycan türklərinə vurmuşdur. Sahir yazır:

*Hürriyyətdən zahirdə dəm vuranlar,*
*Hay-küy salıb el-oymağı yoranlar.*
*Xalq yolunda duzaq, kələk quranlar...*
*Bu günədək durur şirin ordusu!*
*Gəlir zülmət tanrısının gur səsi!...*[1073]

Sahir “İnqilab” adlı şeirində isə göstərirdi ki, Pəhləvilərin vaxtilə söz verib əməl etmədiyi “demokratiyası” kimi, “Ağ inqilabı” da başdan ayağa oyundur.[1074] O, yazırdı:

*Yağışlı şəhərdə ağ martıların,*

[1071] Oxtay, Əlirza Nabdil. Əsərləri. Bakı, “Qoliot Qkup”, 2009, s.132
[1072] Oxtay, Əlirza Nabdil. Əsərləri. Bakı, “Qoliot Qkup”, 2009, s.132
[1073] Sahir Həbib. Seçilmiş əsərləri. Bakı, Lider nəşriyyatı, 2005, s.27
[1074] Yenə orada, s.84

*Boz sular üzərə o tiranların*
*Məni də qəmlədər, mən də görmüşəm.*
*Sular qabaranda "ağ" atanları,*
*Mən də balıqçının ağın hörmüşəm.*[1075]

O, ifadə edirdi ki, Azərbaycan türklərini məhv etmək üçün iran millətçiləri ilə onun havadarları əlbir olublar. Çünki onlar üçün Azərbaycan türklərinin yenidən ayağa qalxıb Türk dövlətçiliyini bərpa etməsi yolverilməz idi. Sahir yazırdı:

*Yaxşı bilirdilər köhnə şeytanla*
*Döyüşən kimsənin yarası qanar.*
*Azər eli azad olsa bu gün*
*Əldən gedər yarın Xorasan bütün.*
*Odur ki, fars eli ayağa qalxmaz*
*İmperializmdən haqqını alar...*[1076]

Yeri gəlmişkən, Sahir burada çox doğru qeyd edir ki, Azərbaycan türklərinin assimilyasiyası məsələsində fars millətçiləri qədər Qərb dünyası, xüsusilə də Böyük Britaniya da məsuliyyət daşıyır. O, "Zənci" əsərində məhz Qərbin, o cümlədən ingilislərin ikiüzlü, riyakar siyasətindən bəhs edir. Sahir yazırdı:

*O nəcib irqdən olan ingilis,*
*İşi düşəndə sənə qucaq açar.*
*Bir ömnür səndən iş çəkər nəhayət:*
*Qocalanda səni it tək qovalar...*
*Al bayraq qovzadın meşəliklərdən,*
*əski sahibləri qovaladın sən.*
*Səni yuxlatmışdı Qərbin cadusu,*
*Tilsim qırıldı, gözün açdın sən...*[1077]

Gördüyümüz kimi, Sahir ancaq iran millətçilərinin deyil, eyni zamanda onların son sərlərdə əsas havadarlarından biri oilan ingilislərin də iç üzünü çox doğru şəkildə ifadə etmişdir. Burada açıq şəkildə iran millətçiləri ilə ingilis imperialistlərinin Azərbaycan türklərinə qarşı hansı formada iş birliyi içində olması öz əksini tapmışdır. Sözün açığı, burada Sahirin digər Azərbaycan türk mütə-

[1075] Yenə orada, s.116
[1076] Yenə orada, s.138
[1077] Yenə orada, s.151

fəkkirləri müqayisədə Qərblə İran faşizmi arasındakı münasibətləri daha dərindən dərk etməsini görürük. Doğrudan da, bir tərəfdən "Qərb cadugərlərinin", digər tərəfdən İslam dininə hər zaman nifrət edən farsların uyğun olaraq demokratiya və şiəllik adları altında Azərbaycan türklərinə qarşı oynadıqları oyunlar heç bir ölçüyə gəlmir. Aşağı yuxarı bu gün eyni ssenari Qərb, o cümlədən ABŞ və sözdə İran İslam Respublikası tərəfindən davam etdirilməkdədir.

Sahir "İslam inqilabı" gerçəkləşdiyi ilk illərdə (1979-1980) Azərbaycanında bundan faydalanacağına ümid etmiş, hətta onun rəhbərliylə Tehranda Azərbaycan Azadlıqsevərlər Partiyası (daha çox Azərbaycan Mədəniyyət Ocağı kimi tanınmışdı) yaradılmışdır. Siyasi və milli tələblərlə çıxış edən bu təşkilatın rəhbəri kimi Sahir ilk dövrlərdə etiraf edirdi ki, "İslam inqilabı" bütün xalqlara, o cümlədən Azərbaycan xalqına müəyyən nisbi azadlıq vermişdir.[1078] Sahir inanırdı ki, "islam iniqlabı" ABŞ və digər Qərb imperialistlərinə layiqincə cavab verməklə yanaşı, Azərbaycan xalqının insanpərvər və vətənpərvər amallarını, arzularını da həyata keçirəcəkdir.[1079] Ancaq Sahirin bu ümidləri özünü doğrultmadı. Bu dəfə də İran İslan rejimi Azərbaycan türklərinin haqlarını İslam dini, ya da şiəçilik pərdəsi altında qəsb etməyə başladı.

---

[1078] Məmmədli P. "Varlıq" jurnalında ədəbiyyat məsələləri. Bakı, Elm, 2000, s.24
[1079] Cənubi Azərbaycan tarixi məsələləri. Bakı, Elm, 1989, s.152

# MƏHƏMMƏDHÜSEYN ŞƏHRİYAR

**Həyat və yaradıcılığı.** Təbrizdə dünyaya gələn Azərbaycanın tanınmış mütəfəkkiri Məhəmmədhüseyn Şəhriyar (1905-1988) ilk təhsilini Xoşginab kənd məktəbində Molla İbrahim və Molla Ağa Məhəmməd Bağırdan almışdır. Şəhriyar Təbrizdə orta məktəbi bitirdikdən sonra, 1924-ci ildə Tehran Universitetinin Tibb fakültəsinə qəbul olunmuşdur. Şəhriyarın tədqiqatçısı, filoloq alim Esmira Fuad (Şükürova) yazır ki, universitetdə oxuduğu illərdə (1924-1929) şairin bəzi şeirləri Tehran mətbuatında nəşr olunmuşdur. Şəhriyarın ilk şeiri isə "Ədəb" dərgisində yayınlanmışdır.[1080] Esmira Fuad yazır: "Ancaq həkimlik diplomu almasına 2-3 ay qalanda, Şəhriyarım həyatında gözlənilməz ən üzücü olay baş verir: illərcə sevdiyi, "Pəri" deyə xitab etdiyi Sürrəyadan ayrılmaya və universiteti tərk etməyə zorlanan şairin ürəyinə "iki xəncər yarası" vurulur. Buna baxmayaraq, 1929-cu il 24 yaşındakı gənc şairə böyük bir uğur da gətirmişdir. Dostlarının Lütfüllah Zahidi, İrəc Mirzə, Məlikişşüara Bahar və digərlərinin israrıyla Tehrandakı "Xəyyam" Yayınevində Şəhriyarın ilk şeir kitabı "Divançası" yayınlanır". [1081]

Qeyd edək ki, 1929-cu ildə Şəhriyarın universitetdən çıxarılmasını və Tehrandan sürgün edilməsini siyasi səbəblərlə bağlı olduğunu yazanlar da var. E.Fuad da yazır ki, bəzi araşdırmaçılar Şəhriyarın Rza Pəhləvi yönətimi tərəfindən Tehrandan sürgün edilməsini qəbul etməsələr də, ancaq bunun əksini iddia edənlər də vardır: "Bəzi araşdırmaçılar Şəhriyarın Şah yönətimi tərəfindən sürülməsi gerçəyini qəbul etməməkdədirlər. Sürgün olayını üstünü müxtəlif nədənlərlə qapadırlar. Ancaq apaçıq bilinməkdədir ki, şairi Tehrandan, sosial-siyasi ortamdan, dövrün öndə gələn aydınlarından uzaqlaşdırmaq və ayırmaqla gələcəkdə ola biləcək xalq hərəkatının öncü qüvvətlərindən birini ortadan qaldırmaq üzərə Sürrəya məsələsindən istifadə etmişlərdir". [1082]

[1080] Fuad Esmira. Muhammed Hüseyin Şehriyar. İstanbul, Peon kitap, 2014, s.18
[1081] Yenə orada, s.18
[1082] Yenə orada, s.20

1929-cu ildə Tehrandan uzaqlaşdırılan Şəhriyar əvvəlcə Xorasana, daha sonra Nişapur və Məşhəddə sürgün edilmişdir. Yalnız 1935-ci ildə Tehrana dönən Şəhriyar H.İ.Əmirxızının yardımıyla "Felahət" Bankasında mühasib işləməyə başlar və atasının vəfatından sonra başsız qalan ailəsi də onun yanına gələr.

1930-cu illərin sonu, 1940-cı illərin başlarında Şəhriyar şeirdən, musiqidən və bütün dostlarından uzaqlaşaraq Tehranda dərvişlər təriqəti olan Zəhəbiyəyə qatılmış və tərkidünyalığa can atmışdır. [1083] Şəhriyarın tərkidünyalıqdan, xəstəliklərdən qurtulmasına, yenidən və özü də milli ruhlu şeirlər yazmağa başlamasına anası Kövkəb xanım səbəbkar olmuşdur. Şair 1945-1946-cı illər mövcud olmuş Azərbaycan Milli hökumətinin də tərəfdarlarından olmuş, daha sonra "Heydərbabaya salam" poeması ilə Pəhləvilərə kəsərli bir şəkildə öz sözlərini deməyi bacarmışdır.

1949-cu ildə dövlət məmurluğundan uzaqlaşdırlan Şəhriyar "Heydərbabaya salam" və "Tehran və Tehranlı, yaxud ey Tehranlı" əsələrindən sonra Tehranda daha çox təzyiqlərlə üz-üzə qalmışdır. Bununla da, 1950-ci illərin başlarında Təbrizə dönərək burada ailə həyatı qurmuş, bir bankda mühasib kimi işləməyə davam etmişdir.

"İslam inqilabı"nı sevinclə qarşılayan Şəhriyar Pəhləvilər rejiminin süqutundan sonra (1979) ara-sıra Təbrizlə yanaşı Tehran şəhərində də yaşamış, 1988-ci ildə vəfat etmişdir.

Əsasən fars və türk dillərində yazıb yartamış Şəhriyarın yaradıcılığında ictimai-siyasivə dini-fəlsəfi görüşlər mühüm yer tutmuşdur. Onun əsas əsərləri aşağıdakılardır: "Heydərbabaya salam", "Stalinqrad qəhrəmanları", "Eynşteynə Peygam", "Səhəndiyyə", "Gecənin əfsanəsi", "Şeir və hikmət" və başqaları.

**İctimai-siyasi görüşləri.** Şəhriyarın ictimai görüşlərində ən çox diqqət etdiyi məsələlərdən biri **ana dili** problemi olmuşdur. O, "Türkün dili" şeirində onu tamamilə məhv etməyə çalışan iran-fars millətçilərinə çox tutarlı cavab vermişdir:

*Türkün dilitək sevgili, istəkli dil olmaz,*
*Ayrı dilə qatsan bu əsil dil əsil olmaz.*
*Öz ləfzini farsa, ərəbə qatmasa şair,*

---

[1083] Bülluri Hökumə. Məhəmməd Hüseyn Şəhriyar. Bakı, "Elm", 1983, s.25

*Şerin oxuyanlar, eşidənlər kəsil olmaz.*[1084]

Mütəfəkkir çox doğru qeyd edirdi ki, Türk zalım və qisasçı deyil, ancaq onun varlığına, dilinə, törələrinə əl uzadanlara qarşı da səssiz qalmayacaq qədər hünərli, ürəklidir. Xüsusilə də, Türkün dilini bəyənməyib ona xor baxanlar bilməlidirlər ki, onun bu dünyada özünəməxsus yeri vardır. O, yazırdı:

*Fars şairi çox sözlərini bizdən aparmış,*
*Sabir kimi bir süfrəli şair pəxil olmaz.*
*Türkün məsəli, folkloru dünyada təkdi,*
*Xan yorğanı kənd içrə, məsəldir, mitil olmaz.*[1085]

O, başqa bir şeirində də Türk dilinin Azərbaycan türklərinin milli varlığı baxımından əhəmiyyətin bəhs edərək yazırdı:

*Acı dillərdə şirin türki olurdu hənzəl,*
*Mən şirin dillərə qatdım onu, halva elədim.*
*Hər nə qalmışdı keçənlərdən ona bal pətəyi,*
*Əridib mumlu balın şəhdi-müsəffa elədim.*
*Türki, vallah, analar oxşağı, laylay dlidir,*
*Dərdimi mən bu dəva ilə müdava elədim.*[1086]

Onun Milli məsələyə həsr olunmuş əsas əsəri isə “Heydərbabaya salam” poemasıdır. O, bu əsərində Azərbaycan Türk kimliyini, Türk törələrini, Türk dilinin möhtəşəmliyini, Türk əxlaqını ifadə etmişdir. Başqa sözlə, bu poema ilk növbədə, Azərbaycan türkünün yenidən özünə dönüşü, özünüdərki, bütövləşməyi olub parçalanmağa qarşı bir etiraz səsidir. O, yazır:

*Bir uçaydım bu çırpınan yelinən,*
*Bağlaşaydım dağdan aşan selinən,*
*Ağlaşaydın uzaq düşən elinən,*
*Bir görəydim ayrılığı kim saldı?*
*Ölkəmizdə kim qırıldı, kim qaldı?*[1087]

Ancaq Şəhriyar Azərbaycan türklərinin son əsrlərdə başına gətirilən bütün faciələrə baxmayaraq, bu xalqın yenidən toparlanacağına və bir olacağına ümidini heç zaman itirmirdi. Hər halda

---

[1084] Şəhriyar M. Seçilmiş əsərləri. Bakı, AVRASİYA PRESS, 2005, s.99
[1085] Yenə orada, s.68
[1086] Yenə orada, s.128
[1087] Yenə orada, s.48

poemanın sonunun nikbin notlarla bitməsi də buna ən bariz nümunədir. [1088] O, "Səhəndim" şeirində də Azərbaycan türkünün milli varlığını önə çəkib ondan heç bir vaxt vaz keçməyəcəyini qəti inamla ifadə edir. Şübhəsiz, buna səbəb həmin dövrdə assimilyasiya, yəni farslaşdırma siyasəti nəticəsində bəzilərinin öz kökünü danmaları idi. Bu bir çox milli mütəfəkkirlərimiz kim Şəhriyara da çox ağır təsir edir, milli varlığımızı qoruyub saxlamaq üçün əlindən gələni edirdi. Şəhriyar yazırdı:

*Azər elinin bir yaralı nisgiliyəm mən,*
*Nisgili olsam da, gülüm! Bir əbədi sevgiliyəm mən,*
*Yad məni atsa da, öz güləşnimin bülbülüyəm mən,*
*Elimin farsca da dərdini söylər diliyəm mən,*
*Həqqə doğru nə qaranlıq isə el məşəliyəm mən.* [1089]

O, Məmməd Rahimə yazdığı cavab şeirində də Azərbaycan xalqının birləşməyinin zərurətindən söz açırdı. Ona görə dili bir, qanı bir olan Güney Azərbaycanla, Quzey Azərbaycan xalqının birləşməkdən başqa yolu yoxdur. [1090] Artıq bütün millətlər kimi Azərbaycan xalqının da ayıldığını yazan Şəhriyar hesab edirdi ki, burada əsas məsələ farslamış azərbaycanlıların özünə dönməsidir. Belə ki, irançı Pəhləvilər rejimində məmurlar, əsgərlər, müəllimlər arasında azərbaycanlı olub ancaq aryançılığa xidmət edənlər də az deyildir. O, yazırdı:

*Milləti yıxan – öz qalası,*
*Sərbaz kimdir? – Öz balası.* [1091]

O, "Tehranlı və Tehran" əsərində isə Tehranda oturub özünü "ari" adlandırıb Türkü, Azərbaycan türkünü təhqir edən irançıları kəskin bir dillə tənqid etmişdir. Şəhriyara görə, Azərbaycan türkünü təhqir etməyə çalışan aryançı tehranlının əxlaqdan, tərbiyədən xəbəri yoxdur. O, yazırdı:

*Sən paytaxtdan – baş kənddənsən,*
*Vücudundan bir eşəkksən.*
*Əxlaqın yox, bitərbiyə,*

---

[1088] Yenə orada, s.56
[1089] Yenə orada, s.68
[1090] Yenə orada, s.75
[1091] Yenə orada, s.87

*Mərifətin yoxdur, niyə?*
*Eyib tapıb, mənə güldün.*
*Sən özünü adam bildin?*
*Vəsf etməyə yox bir cəhət,*
*Tapammıram bir söz deyim.*
*Ancaq tapdım səndə qələt.*
*Şükr indi ayrıram,*
*Dost düşməni – farsı türkdən...*
*Mənə qafqazlı qardaşlar,*
*Həmişə söylədi – "qardaş".*
*Daim hərmət gördün Türkdən,*
*Türkdür qəlblərə sirdaş.*[1092]

Bir Türk kimi digər Türk qardaşlarından da daima hörmət görən Şəhriyar üçün aryançıların isə Türk düşmənçiliyi başa düşülən deyildi. Azərbaycan türklərinin hər zaman "İran" üçün canını qurban verdiyinə inanan şairə görə, bütün bunların müqabilində onlar aryançılardan zülm, ədalətsizlik görmüşdür:

*Bir diyarda yaşayarıq,*
*İranlı - adını daşıyırıq,*
*Sanırdım ki, biz həmdərdik,*
*Düşünmə ki, biz namərdik.*
*Sən zülmkar, sən namərdsən,*
*Məmləkətə, fəqət dərdsən!*
*Dostla düşmən, düşmənə dost,*
*Zəhərlisən, acı, sərtsən...*[1093]

Yaxud da, o, yazırdı:

*Od diyarı Azərbaycan,*
*Tarix boyu sənə dəstək.*
*Bir dəfə də demədin – "can",*
*Çünki yoxdur səndə məslək.*
*Loru, kürdü düşmən sandın,*
*Onlarda müşkül asandı.*
*Igid Qaşqay tayfası da,*

[1092] Əhməd Vüqar, Rzayeva Dilbər (tərtibçi müəlliflər). Cənubi Azərbaycan şeiri antologiyası. Bakı, Ecoprint, 2018, s.149
[1093] Yenə orada, s.151

*Hey zülmündən əzab çəkdi.*
*Sanma ki, sən türklər təkdi,*
*Ey "pəhləvan", ey Pəhləvi,*
*Tarix boyu Türküm qəvi.*[1094]

Şəhriyar "İslam inqilabı"ndan sonra Cavad Heyətin rəhbərliyi ilə meydana çıxan "Varlıq" dərgisinin nəşrini çox yüksək qiymətləndirmişdir. O, yazırdı:

*Hərçənd qurtulmaq hələ yox darlığımızdan,*
*Amma bir azadlıq doğulub varlığımızdan.*
*"Varlıq" nə bizim təkcə azadlıq quşumuzdur,*
*Bir müjdə də vermiş bizə həmkarlığımızdan...*
*Huşyar olasız, düşməni məğlub edəcəksiniz,*
*Düşmənlərimiz qorxur huşyarlığımızdan.*
*Birlik yaradın, söz bir olar biz kişilərdə,*
*Yoxluqlarımız bitdirəcək varlığımızdan.*[1095]

Şəhriyarın bu şeirində də Azərbaycan türklərinin milli varlığının qorunub saxlanılması və milli birlik istəyi ön plandadır. O, "Varlığ"ın timsalında azərbaycanlıların daha da sıx birləşəcəyinə, özünü müdafiə refleksinin güclənəcəyinə inanmışdır.

Bizcə, Şəhriyarın milli ruhlu şeirləri arasında ən çox diqqət çəkən farsca yazdığı "Azərbaycan" şeiridir. Həmin şeir Azərbaycan türksəcinə Fikrət Sadıq tərəfindən tərcümə olunmuşdur. Əgər biz həmin şeirin bütövlükdə Şəhriyara məxsus olduğunu iddia etsək, o zaman onun burada İran millətçiliyinə, irançılığa qarşı açıq-aşkar üsyan etdiyini hesab edə bilərik. Belə ki, Şəhriyar bu şeirində bir tərəfdən Azərbaycan adından "İran"a çox böyük minnətlər qoyur, digər tərəfdən artıq Azərbaycanın üsyan edib "İran"dan azadlığını tam əldə etməsini diləyir. Öncə, Şəhriyarın "Azərbaycan" şeirində "İran"a necə böyük minnət qoymasına nəzər salaq. O, yazırdı:

*Bütün dünya bilir, sənin qüdrətinlə, dövlətinlə*
*Abad olub, azad olub mülki-İran, Azərbaycan!..*
*Qurtarmaqçün zalımların əlindən Rey şümşadını,*
*Öz şümşadın başdan-başa olub al qan, Azərbaycan!..*
*İgidlərin İran üçün şəhid olub, əvəzində*

[1094] Yenə orada, s.151-152
[1095] Şəhriyar M. Seçilmiş əsərləri. Bakı, AVRASİYA PRESS, 2005, s.102

*Dərd almısan, qəm almısan sən İrandan, Azərbaycan!*[1096]

Hesab edirik ki, Şəhriyarın burada ifadə etmək istədiyi həqiqətlər fikrin mahiyyətində dolaşdırlmışdır. Belə ki, dünyanın "mülki-İran" kimi tanıdğı coğrafiyada mövcud olan dövlətlərin əksəriyyətinin Türk-Turan mənşəli olması şübhəsizdir. Həmin Türk-Turan mənşəli dövlətlərdə Azərbaycan coğrafiyasının mühüm yer tutması, eyni zamanda Azərbaycan türklərinin həlledici rol oynaması da artıq bir çox elm adamları tərəfindən qəbul edilməkdədir. Ancaq burada incə məqam odur ki, Azərbaycan "Rey şümşadı" uğrunda mübarizə apararkən onu özünə yad hesab etməyib. "Rey şümşadı"nın yadlaşdırılması prosesi Qərb ideoloqlarının, o cümlədən ingilis alimlərinin əliylə 18-19-cu əsrlərdən sonra başlamışdır. Bu baxımdan Azərbaycan Türk igidlərinin hər zaman mifik "İran" üçün deyil, gerçək Türk dövlətləri uğrunda şəhid olmasından söhbət gedə bilər. Azərbaycan türkləri deyil, ümumilikdə bütün türklər o zaman "İran"dan dərd, qəm almışdır ki, iç xəyanətlər nəticəsində mərkəzi hakimiyyət zəifləmiş və pusquda dayanmış bir ovuc fars mənşəlilər müxtəlif hiylələrlə hakimiyyəti ələ keçirmişlər (Əhəmənilər, Sasanilər, Pəhləvilər, İran İslam rejimi). Ancaq onlar hətta, xəyanət nəticəsində hakimiyyəti qeyri-qanuni şəkildə ələ keçirib idarə etdikləri dövrdə belə türklər olmadan bunu bacara bilməyiblər. Bu gün də mollaların sözdə İran İslam Respublikası türklər olmadan bir gün olsun belə, hakimiyyəti və ölkəni idarə edə bilməzlər. Ancaq bu gün iran millətçilərinin, İran mollalarının yanında yer alan türklərin çoxu şüuru cəhətdən farslaşdırılmış, iranlılaşdırlmış türklərdir. O ki qaldı, Şəhriyarın "Azərbaycan" şeirində Azərbaycanı "İran"a qarşı üsyana səsləməsinə, buna da diqqət yetirməyi vacib bilirik. O, yazırdı:

*Övladların nə vaxtadək tərki-vətən olacaqdır?*
*Əl-ələ ver, üsyan elə, oyan, oyan, Azərbaycan!*
*Bəsdir fəraq odlarından kül ələndi başımıza,*
*Dur ayağa! Ya azad ol, ya tamam yan, Azərbaycan!*
*Şəhriyarın ürəyi də sənintək yaralıdır,*
*Azadlıqdır mənə məlhəm, sənən dərman, Azərbaycan!*[1097]

[1096] Yenə orada, s.176
[1097] Yenə orada, s.176-177

"Azərbaycan" şeirinin son misralarında mütəfəkkirin "İran"a, iran millətçilərinə qarşı açıq-aşkar üsyan etdiyini görürük. O, açıq-aşkar şəkildə Azərbaycanın üsyan edərək ya azad olması, ya da tamamilə məhv olması şüarını irəli sürüb azadlıqdan başqa yolun olmadığını deyir. Sözün açığı, Şəhriyarın digər əsərlərində "İran"a qarşı bu qədər açıq üsyankarlıq yoxdur. Doğrudur, o, bir çox şeirlərində poemalarında Azərbaycan türklərinin milli varlığını, kimliyini, dilini, mədəniyyətini müdafiə etmiş, onu repressiyaya məruz qoyanlara qarşı çıxmışdır. Ancaq "Azərbaycan" şeirində olduqu qədər digər əsərlərində bu dərəcədə üsyankarlığı, yəni Azərbaycanın milli azadlıq məsələsinin konkret, açıq formada qoyuluşunu görmürük.

Hətta, bunun tam əksinə olaraq "Əziz Azərbaycanıma xitab" qəsidəsində "İran istiqlalı" uğrunda Azərbaycanın xidmətlərindən söz açıb "İranın igid oğlu" Azərbaycan olmasaydı "İran"ın başsız qalacağını ifadə etmişdir. O, yazırdı:

*Qorudun başla, canla ellərin iqbalını,*
*Qorudun bir ər kimi İranın istiqlalını...*
*Zərdüştlər beşiyisən, mərddir sənin övladın,*
*Hər yerdə mərd tanınır, igid tanınır adın.*
*Sənsiz başsız qalardı, bikəs olardı İran,*
*Canısan bu diyarın, belə can sənə qurban!*
*İranın igid oğlu, bir xələf övladısan,*
*Qəlbin azər, yenilməz şöhrətin Azəristan.*[1098]

Şəhriyarın bu qəsidəsi ilə "Azərbaycan" şeiri arasında müəyyən qədər fərqin olması göz önündədir. Yenə "Əziz Azərbaycanıma xitab" qəsidəsində o, yazırdı:

*İranın tarixini odur qanıyla yazan,*
*Rəşadəti, mərdliyi vermiş dünyaya nişan.*[1099]

Əlbəttə, bütün bunlardan sonra iddia etmək olar ki, Şəhriyar "Azərbaycan" şeirini iran millətçiliyinin iç üzünü gördükdən sonra yazıb və başqa amillər də var. Ancaq ümumilikdə Şəhriyarın ancaq bir şeirində bu qədər Azərbaycanın azadlığı uğrunda radikal şəkildə üyankar olmasını görmək bir qədər uyğunsizluq yaradır ki, vaxtilə

[1098] Yenə orada, s.387
[1099] Yenə orada, s.390

Əkrəm Əylisli kimləri isə bunu tamamilə başqa yönlərə çəkmək istəmişdir. Belə ki, Ə.Əylisli "Azərbaycan" şeirini tərcümə edən şair Fikrət Sadıqın 1988-ci ilin noyabrındakı Meydan hərəkatının (Dirçəliş Günü) ruhuna uyğun olaraq ona bəzi əlavələr etməsini iddia etmişdi. Esmira Fuad isə yazır ki, Ə.Əylislinin iddiaları kökündən yanlışdır, çünki F.Sadıq bu şeiri Meydan hərkatından çox əvvəl farscadan türkcəyə çevirmişdir. E.Fuada görə, hələ 1963-cü ildə Qulamhüseyn Beqdeli Şəhriyara həsr etdiyi "Məhəmməd Hüseyn Şəhriyar" kitabında F.Sadıqın tərcüməsindən istifadə etmiş, üstəlik şairin 1966-cı ildə Bakıda nəşr olunmuş "Seçilmiş əsərləri"nə də bu şeir daxil edilmişdir.[1100] Bütün bunlar ona işarət edir ki, bütövlükdə "Azərbaycan" şeiri Şəhriyarın dünyagörüşünün ifadəsidir.

Ancaq bütün bunlarla yanaşı onu da qeyd etməliyik ki, yalnız "Əziz Azərbaycanıma xitab" qəsidəsində deyil, digər əsərlərində də Şəhriyar "İran" məsələsinə həssaslıqla yanaşıb, ancaq Azərbaycan milli ideyasını, Azərbaycan mədəniyyətini deyil, yeri gələndə "İran mədəniyyətini", "iranlılığı" da təbliğ edib. Məsələn, o, "Dənizin simfoniyası" əsərində qədim "İran mədəniyyəti"ni, "İran tarixi"ni, "İran" şahlarını öymüşdür. O, həmin əsərində "İran" şahlarının oturduğu "Təxti-Cəmşid"i nəzərdə tutaraq yazırdı:

*Birdən gecə etdi hamıdan tələb:*
*– Daranın qəsridir, gözləyin ədəb!*
*Gəlir ölməzliyin burda sədası,*
*Başmağın çıxarır dövrün Musası.*
*Daranın qəsridir, o möhtəşəm şah*
*Bir zaman olmuşdu aləmə pənah...*[1101]

Onun bu əsərində Dara yuxusunda görür ki, Makedoniyalı İskəndər, ərəblər, Çingiz xan "İran"a od vurub talayır. Halbuki guya, "İran" şahlarının dövründə ədalət hökm sürər, elm və mədəniyyət inkişaf edərmiş. Qədim lövhələrdə üç dildə (elam, babil, mixi) Əhəməni şahlarının hökmranlığından bəhs edildiyini, 31 xalqın onlara bac-xərac verdiyini, ancaq farsların bundan azad olduğunu qeyd edən Şəhriyara görə, həmin dövrün yeganə igid xalqı da parslar imiş. O, yazırdı:

---

[1100] Fuad Esmira. Muhammed Hüseyin Şehriyar. İstanbul, Peon kitap, 2014, s.52
[1101] Şəhriyar M. Seçilmiş əsərləri. Bakı, AVRASİYA PRESS, 2005, s.300

*Döyüş meydanında nizə oynadan,*
*Danışmaya bilməz igid parslardan.*
*Səadət naminə vuruşur onlar,*
*Qılmış cinayəti, zülmü tarimar.*
*O kəs ki, ağlıyla, iradəsiylə,*
*Taxtı da, tacı da almışdı ələ.*
*"Dünyanın qapısı" ad vermiş parsa,*
*Dünyanı tutacaq pars, kimin olsa.*[1102]

Deməli, Şəhriyar da müəyyən qədər fars-iran uydurmalarının təsiri altında olub Əhəməni şahlarını mədh etmiş, hətta onların dövrünü "Altın çağ" kimi qələmə vermişdir. Hər halda Şəhriyar Azərbaycan türklüyünə, türk dilinə, türk adət-ənənələrinə bağlı olmaqla yanaşı, "İran mədəniyyəti"nə, "İran dövlətçiliyi"nə müsbət yanaşmaları da ortadadır.

Biz, Şəhriyarın "İran mədəniyyəti", "İran dövləti" ilə bağlı mübət yanaşmalarını "Milli ideal" əsərində də görürük. Bu əsərində də, o göstərməyə çalışır ki, guya dünyada din, elm olmadığı dövrlərdə "İran"da hər ikisi də varmış. O, yazırdı:

*O nəslimiz ki, bizim eradan qabaq xan idi,*
*Olubdu qəyyuma möhtac yadelli "xanları"na.*
*Buludla söhbət edən sirli Təxti-Cəmşidə bax,*
*Uyubdu Keyvana dair o, dasitanlara.*
*Üfiqdə əks eyləyən nərələr də layla çalır*
*Şir Ərdəşirlərinə, qartal Ərdəvanlarına.*
*O vaxt ki, dindən əsər, elmidən nişan yox idi,*
*İranda elm ilə din fəxr edirdi öz barına.*[1103]

Şəhriyar hesab edir ki, ancaq sonralar "İran"da elm və din adına bir şey qalmamış, əsrlər boyu siyasət aləminin zülməti ziyalıların fikir çırağı ola bilməmişdir. Ancaq yenidən "İran"da bir qalxınmanın olduğuna inanan Şəhriyar yazırdı ki, saf məramlı bir təşkilat yaradaraq canilər dəsətəsini aradan qaldırıb yenidən əski "İran"ı dirçəltmək mümkündür:

*Gərəkdi saf məramlı hizbi təşkilat yarada,*
*İnamla el gələ azadlıq asitanlarına.*

[1102] Yenə orada, s.306
[1103] Yenə orada, s.396

*Vətən məhəbbətinə hər fəda olan yazıçı*
*O vaxt qoşulmalıdır ölkıə pəhləvanlarına.*
*Xəyanəti açılan dəstə cani dəstəsidir,*
*O dəstə yetməlidir öz cəzasının darına!*
*O gün sevinc ilə aclar əsil cəza verəcək*
*İran harınlarına, kinli qarsonlarına.*[1104]

Doğrudur, o, "İns və cins" şerində yazırdı ki, 5 min ildir burada sultanlar, şahlar hökm sürərək xalqa heç bir azadlıq verməmişdir. Hətta, 7-ci əsrdə İslam dininin burada yayılması belə, xalqı tamamilə əsarətdən qurtara bilməmişdir:

*Beş min ildir bu səlaətinə giriftar olmuşuq,*
*Din də gəldi, tapmadıq biz bu səlatindən nicat.*
*Bir yalançı din də olmuş şeytanın bir möhrəsi,*
*Doğru bir din ver bizə, ver bu yalan dindən nicat*[1105]

Hər halda onun bu şeiri əski "İran mədəniyyəti"ni, "İran dövlətçiıliyi"ni öyən əsərləri ilə üst-üstə düşmür. Çünki şair burada ən azı sultanların beş minillik hakimiyyətindən narazlığını ifadə etmişdir. Görünür o, bu şeirini "İslam iniqlabı" ilə Pəhləvilərin hakimiyyətdən uzaqlaşdırılmasından sonra yazmışdır. Çox güman ki, elə onun "Maarifimiz" şeiri də "islam inqilab"ından sonra yazılmışdır:

*Nəyimiz var öyünməli, cəhalətdir maarifimiz,*
*Maarifin özünə də xəyanətdir maarifimiz.*
*Əcnəbilər qələmiylə yazılmışdır proqramı,*
*Tutuquşu dərsi verir, o sifətdir maarifimiz.*
*Ustalaşıb düzü əyri, əyrini düz tanıtmağa,*
*Yazıq millət, faciədir, müsibətdir maarifimiz.*
*Harda ki nur qapısı var, yeddi yerdən qıfıllayır,*
*Bir qaranlıq uçurumdur, bir zülmətdir maarifimiz.*
*Əcnəbinin tənburilə oynadığın yetər, bəsdir,*
*Oyan millət, öz gözünlə gör, qəflətdir maarifimiz.*[1106]

**Dini-fəlsəfi görüşləri.** Şəhriyarin yaradıcılığında dini-fəlsəfi məsələlər də mühüm yer tutmaqdadır. O, bir müddət babiliyin, daha

---
[1104] Yenə orada, s.397
[1105] Yenə orada, s.131
[1106] Yenə orada, s.400

sonra da sosial-demokratizm, ya da marksizm-leninizm təlimlərinin təsiri altında İslam dinindən uzaqlaşıb "kafir" olanlara öz etirazını bildirir. O, yazırdı:

*Hanı Molla İbrahimin dərsi, hanı tay-tuşlar?*
*Şeyxilüslam hanı, yurdunda oxur bayquşlar!*
*Kim deyirdi ki, müsəlman qavi-yer alqışlar?*
*Babiyə, bolşevikə gör nə giriftar olduq,*
*Bələşib hər nəcisə, gör necə murdar olduq.*[1107]

O, "Allah boyağı" şeirində isə yazırdı:

*İslam oyatdı xalqı, başın qovzayan qaçır,*
*Şeytan bacarmadı ki, yatanlar oyanmasın.*
*Hər rəngi at, fəqət boyan Allah boyağına,*
*Hər aldadan boyaqlara qəlbin boyanmasın.*
*Xəlqin gözünü oyardı şahın mirqəzəbləri,*
*Qoy bir oyulsun öz gözü, ta göz oyanmasın.*[1108]

O, "İnsansaz inqilabımız" şeirində də İslamın əsasında baş verən iniqlaba böyük ümid bəslədiyini gizlətmirdi. O, yazırdı:

*Bir ümmət olaq, boyaqlar getsin,*
*Nə qırmızımız, nə də abımız.*
*Mübarək olsun imam xəttimiz,*
*Sazişkarlardan ictinabımız...*
*Cəbhə - Kərbəla, Fəllahilərtək*
*Hüseynilərdir həmrikabımız.*
*Hizbi-cümhuri inficarında*
*Behşitlərtək bu Türabımız.*
*Məhərrəm gəlir, aşura gəlir,*
*Şölə şəkəcək iltihabımız.*
*Şəhid mehrabıdır Əsədullahə,*
*Bizim saqimiz, qan – şərabımız.*
*Aşura bizim məktəbimizdir,*
*Qanla yazılmış bu kitabımız...*[1109]

Yaxud da, o, yazırdı:

*İranın ərzi xaricə getməz,*

---

[1107] Yenə orada, s.69
[1108] Yenə orada, s.114
[1109] Yenə orada, s.126

*İslamdır bizim ərziyabımız.*
*Mühazsireyi-iqtisadini*
*Sındırar bizim etisabımız.*
*İmperializmə bac verənmərik,*
*Bağlanıb daha bu hesabımız...*[1110]

O, "Allah vədəsi" şeirində isə ümid edirdi ki, "İslam inqilabı" hər cür pisliklərə son verib, yaxşılıqların təməli olacaqdır:

*Qoy bu inqilab sel kimi axsın,*
*Göy guruldasın, ildırım şaxsın.*
*Müstəzəfin qoy, haqqa çatarkən,*
*İslam baydağın dağlara taxsın.*[1111]

Onun dini baxışlarını tədqiq edərkən şiəlik təəssübkeşliyini də qeyd etməyə bilmərik. Məsələn, o, "Gecə və Əli" məsnəvisində yazırdı ki, Həzrət Əliyə hər şey əvvəlcədən əyan olurmuş, o hökmdarı olduğu məmləkətdə kimin ac, kimin çarəsiz olduğunu bilib dərhal yardım edərmiş. Şəhriyar yazırdı:

*Oruc tutan üçün gün ki, qurtarar,*
*Arpa çörəyiylə o, iftar açar.*
*Gecə qaranlıqda heç kəs bilmədən,*
*Ərəb yetiminin şamını verən,*
*Bir şah ki, gecələr gizlincə gedər,*
*Yoxsullar evinə hədiyyə verər.*
*Örtürdü bu sirri pərdeyi-cəli,*
*Heç kimsə bilməzdi Əliydi Əli.*[1112]

Şəhriyara görə, Həzrət Əli yalnız bir hökmdar deyil, dünyanın ən böyük bəşəridir. O, yazırdı:

*Haqla görüş üçün o böyük insan,*
*Qatili oyatdı səhər yuxudan.*
*Səcdəyə düşəndə, zalım arxadan,*
*Zəhərli qılıncla vurdu başından.*
*Qatili tutaraq əsir etdilər,*
*İşarə eyləyib ona dedilər:*
*Ey əsir! Əlinin qatili sənsən,*

---

[1110] Yenə orada, s.127
[1111] Yenə orada, s.131
[1112] Yenə orada, s.332

*Məyər sən Allahsan? Allaha düşmən?*
*Salıbsan aləmə gör nə böyük şər,*
*"Əli bəşərdirsə, ən yüksək bəşər".*[1113]

Onun islam fəlsəfəsinə baxışı bütövlükdə **insanlıq fəlsəfəsi**, humanizmlə də uzlaşırdı. Şəhriyarın əsərlərində təlqin etdiyi yüksək insani və mənəvi dəyərlər insanların, özəlliklə gənclərin formalaşmasında, yaxşı və pisi biri-birindən ayırmasında mühüm rol oynamışdır. O, "Gecənin əfsanəsi" mənzum əsərində yaxşılıq və pislik, xeyir və şər arasındakı mücadiləni önə çəkmişdir. Onun fikrincə, əgər zülmət nura, şər xeyirə güc gəlirsə bunun bir anlamı olmalıdır. Şair-filosofun burada əsas diqqət yetirdiyi isə bəzən gündüz ikən dünyanın necə qaranlığa, yaxud da gecə ikən dünyanın necə nurlana bilməsini ifadə etməyə çalışmışdır:

*Gündüzün saqisi günəş camını*
*Devirib sındırar, meyini tökər.*
*Ulduzlar səpilər ağlar gözündən,*
*Göylərə ahından bir duman çökər.*
*Sevdalı başına qoyar dizinə,*
*Gündüzün oyunu yetişər sona.*
*Bu zaman açılar yeni bir pərdə,*
*Aləm bürünsə də qara bir dona.*
*Gülməli bir səhnə düzəldər gecə,*
*Başlanar göylərdə atəşfəşanlıq.*
*Nə qədər sehrikar bir rejissordur,*
*Gecənin işini sezsən bir anlıq!*[1114]

Şəhriyara görə, Şərq dünyasının üzərində günəş deyil, sadəcə bir ay var ki, onun da üzərinə tor çəkilibdir ki, quyuya düşməsin. Ona görə qaranlığa, zülmətə qalib gəlmək üçün də ay-ulduzlar ordusu birgə mübarizə aparırlar:

*Ay-ulduz ordusu əllərdə nizə*
*Qaranlıq üstünə hücuma keçər.*
*Pərilər yurduna çevrilər meşə,*
*Hər yanda əfsanə, əfsun söylənər.*
*Yağar üfüqlərdən işıq aləmə,*

---

[1113] Yenə orada, s.332
[1114] Yenə orada, s.246

*Qaranlıq tüstü tək çəkilər geri.*
*Əlbayaxa olaq nurla qaranlıq,*
*Elə bil döyüşür div ilə pəri.*[1115]

O, yazırdı ki, gecə vaxtı nurla zülmətin mübarizəsindən nur qalib çıxır, bununla da dünyada ədalət zəfər çalır və hər yanda xoşbəxtlik hökm sürür. Şəhriyar yazırdı:

*Gözəl mənzərədir hər yana baxsan,*
*Bu sirri anlamaq deyildir asan,*
*Bu cəlal, əzəmət, bu büsat nədir?*
*Haqqın camalına bir ayinədir.*[1116]

Onun fikrincə, gecədən fərqli olaraq, ancaq gündüz olunca vəziyyət tamamilə dəyişir. Belə ki, gecə nur zülmətə qalib gəlib cənnət yaratdığı halda, gündüz isə əksinə zülmət nuru üstələyir. Bu anlamda Şəhriyara görə, insanlıq baxımından da gecədən çox gündüzdə şər, gecə də xeyir vardır. Çünki pis əməllərin əksəriyyəti gecələr deyil gündüzlər baş verir. Bu baxımdan şair-filosof hesab edir ki, gecə zamanı nur zülmətə qalib gəlsə də, ancaq gündüzün işığında zamanı bunu bacara bilmir. O, yazırdı:

*Hər sabah yerimdən durcaq,*
*Qəmlə möhnət olur mənimlə ortaq.*
*Gündüzün üzünü görüncə, aman,*
*Ürəyim köksümdə əsiq qorxudan!*
*Şər, fəsad çulğayır dünyanı gündüz,*
*Kor qoyar insanda vicdanı gündüz.*
*Salır min möhnətə gündüz bizləri,*
*O bizə göstərir xəbis üzləri*

Bizcə, Şəhriyarın istər İslama, istərsə də şiəlik məzhəbinə münasibətində dövrün şərtləri də mühüm rol oynamışdır. Hər halda, Şəhriyarın bir tərəfdə “İran mədəniyyəti” uydurmalarının təsiri altında zərdüştlüyə də müsbət baxması, ancaq bütün bunlarla yanaşı, xüsusilə də “İslam inqilabı” ərəfsində İslam dininə yenidən böyük ümidlər bəsləməsi və şiə təəssübkeşliyi təsadüfi ola bilməz. Onun dünyagörüşündə islamlıq fəlsəfəsinin mühüm yer tutmasını isə bir

[1115] Yenə orada, s.249
[1116] Yenə orada, s.251

çox suallara onun vasitəsilə cavab tapmağa çalışması ilə izah etmək mümükndür.

Hesab edirik ki, Şəhriyar öz milli-fəlsəfi düşüncələrini isə aryançılığın, daha sonra da İran şiəçiliynin təsiri altında tam şəkildə ifadə etməyə çətinlik çəkmiş, bəzən dövrün zor şərtlərindən çox kənara çıxmamağa çalışmışdır. Ancaq bütün hallarda Şəhriyarın milli-fəlsəfi ruhun daşıyısıcı olması və bunu Azərbaycan türklüyü məfkurəsinə mümkün olduğu qədər əks etdirməsi danılmazdır. Hər halda, Şəhriyarın dünyagörüşündə milli təfəkkürün ifadəsi daha çoxdur, nəinki yad təfəkkürlər. Buna ən bariz nümunə də onun "Heydərbabaya salam" poeması, "Azərbaycan", "Türk dili" şeirləri və digər əsərləridir.

# HƏMİD NİTQİ (AYTAN)

**Həyat və yaradıcılığı.** Təbrizin Surxab məhəlləsində dünyaya gələn Azərbaycan Türk mütəfəkkiri, hüquqşünas alim, türkoloq Həmid Nitqi/Aytan (1920-1999) ilk təhsilini M.H.Rüşdiyyənin məktəbində almış, daha sonra Firdovsi adına litseydə təhsilini davam etdirmiş və burada müəllimlərindən biri Həbib Sahir olmuşdur. 1936-cı ııdə Tehrana köçən Nitqi burada "İqdam", "Qanun", "Dəmavənd", "Xavəri-no" və başqa qəzetlərdə məqalələr yazmışdır. O, 1942-ci ildə Azərbaycan Cəmiyyətinə məxsus "Azərbaycan" qəzetinin baş redaktoru da olub.[1117]

1940-cı illərin başlarında Tehran Universitetinin hüquq fakültəsini bitirdikdən sonra, 1943-cü ildə Türkiyəyə-İstanbula gedib İstanbul Universitetində hüquq ixtisasını tamamlamış, burada da doktorluq dissertasiyasını müdafiə etmişdir. 1948-ci ildə Türkiyədən "İran"a dönən Nitqi bir müddət sonra Abadanda "İngilis-İran neft şirkətinin əlaqələr və qəzetçilik" idarəsində işə başlamış, az sonra isə şirkətin mətbu orqanı olan "Xəbərhaye ruz" qəzetinin redaktoru olmuşdur. Bir müddətdən sonra isə tədqiqat aparmaq üçün İngiltərə və ABŞ-a göndərilib.

1962-ci ildə Nitqi yenidən Tehrana qayıdıb və Neft konsorsiumunda ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi vəzifəsini tutub. Eyni zamanda onu Tehran Universitetində yeni açılan "İctimaiyyətlə Əlaqələr" fakültəsində dərs demək üçün dəvət ediblər. O, "Əllaməyi Təbatəbai" Universitetində müşavirlik vəzifəsində də çalışmış, 1994-cü ildə universitet rəhbərliyi ona "Yeni ictimaiyyətlə əlaqələr elminin atası" adını vermişdir.[1118]

Nitqi "İslam inqilabı"ndan (1979) sonra yaranan "Varlıq dərgisində Cavad Heyətlə bir yerdə çalışmışdır. O, uzun müddət həmin jurnalın baş yazarlarından biri olmuş, burada türlkologiya, ədəbiyyatşünaslıq, mədəniyyət sahəsində bir çox məqalələr yazmışdır. Dilçiliyin ümumi problemləri, milli-mənəvi intibah, milli düşüncənin

---

[1117] Məmmədli Pərvanə. Cənubi Azərbaycan: ədəbi şəxsiyyətlər, portretlər (I Hissə). Bakı, Sabah, 2015, s.78
[1118] Nitqi Həmid. Seçilmiş əsərləri. Bakı, AVRASİYA PRESS, 2005, s.5-6

formalaşması onun yazılarının əsas mövzularından idi. Nitqi Güney Azərbaycanda yazı qaydaları, ədəbi-bədii dil məsələləri üzərində uzun müddət çalışmış, başqa həmkarlarının da rəyini nəzərə almaqla «İmla qaydaları» adlı məqaləsini «Varlığ»ın əlavəsi kimi nəşr etdirmişir. O, Quzey Azərbaycanda artıq sınaqdan çıxmış imla prinsiplərinə istinad etməklə ərəb əlifbasının özünəməxsusluğu əsasında Azərbaycan dilinin fonetik quruluşuna uyğunlaşdırılmış vahid bir sistem yaratmağa nail olmuşdur.[1119]

Yaradıcılığı çoxşaxəli olan Nitqi uzun müddət jurnalistika ilə yanaşı elmi və bədii yaradıcılıqla da məşğul olmuşdur. Türkologiya, ədəbiyyat və tarixlə də yaxından ilgilənən H.Nitqi «Yönətiçilik və xalqla ilişkilər», «Dünyanın ən güclü 25 qəzeti», «Sosial ilişkilər üzərinə», «İnandırma, təbliğat və reklamçılıq» və başqa dərs vəsaitlərini, elmi əsərləri ərsəyə gətirmişdir.

O, 1989-cu ildən İngiltərənin məşhur Edenburq Universitetində "İslam və Orta Şərq" Araşdırmalar bölməsində elmi fəaliyyətini davam etdirmişdir. [1120] Nitqi Böyük Britaniyada çap etdirdiyi və Azərbaycan türkcəsinin inkişaf məsələlərinə həsr edilmiş məqaləlelrində də ötən əsrin əvvəllərindən bu günə qədər "İran"da Azərbaycan türklərinə, onların dil və mədəniyyətlərinə olan təzyiqlərdən bəhs etmişdir.

O, 1999-cu ildə İngiltərədə vəfat etmiş, İstanbulun Zəncirli quyu məzarlığında dəfn edilmişdir.

**Milli-maarifçilik və ictimai-fəlsəfi görüşləri.** H.Nitqinin dünyagörüşündə əsas yeri Türkün milli kimlik, milli dil, milli mədəniyyət bir sözlə, Türk varlığı mühüm yer tutur. Ona görə, aryançı Pəhləvilər rejimində türklər, Azərbaycan türkləri üçün ən vacib məsələ bir millət olaraq Varlıq məsələsi, Var olma problemidir. Çünki aryançı Pəhləvilər rejimi birmənalı şəkildə Türk varlığını ya tamamilə məhv etmək, ya da farsın içində əritmək siyasəti aparırdı. Bunun da nəticəsində zaman zaman türklər, o cümlədən Azərbaycan türkləri milli varlığını – Türk Varlığını ifadə edə bilmir, milli idealını – Qızıll Alma ülküsünü unutmağa başlayırdı.

---

[1119] https://ali-shamil.tr.gg/1-H%26%23601%3Bmid-Nitqi.htm,

[1120] Məmmədli Pərvanə. Cənubi Azərbaycan: ədəbi şəxsiyyətlər, portretlər (I Hissə). Bakı, Sabah, 2015, s.85

Bu baxımdan Nitqinin "Kimliyim", "Ovsun", "Hanı?" "Qızıl Alma", "Haqq qapısı" və digər şeirləri diqqətimizi cəlb edir. O, "Kimliyim" şeirində iran-fars millətçiləri tərəfindən, milli kimliyinə, yəni Türk kimliyinə qoyulmuş qadağadan bəhs edir. Nitqi, bu kiçik şeirində milli kimliyini, milli mədəniyyətini, milli dilini ifadə edə bilmədiyi üçün çəkdiyi iztirabları anladır:

*Qırılmış aynamda təkrar oluram,*
*Dağınıq anılar yellərdə uçur,*
*Beynimə cavabsız suallar dolmuş.*
*Can çəkən gecənin davamı üçün,*
*Sislər, dumanlar səfərbər olmuş.*
*Hələ də adımı deyə bilmirəm.*
*Hələ də kimliyim*
*Qırx qat boğçada*
*Ovsunlarla düyünlü*
*Gizlinli saxlanır.*
*Hələ də qardaşım bərkə düşəndə*
*Özündən utanır,*
*Əslini danır.*[1121]

Nitqi burada çox səmimi şəkildə etiraf edir ki, aryançı iran-fars millətçilərinin apardıqları şovinist siyasət nəticəsində bəzən nəinki milli kimliyi ifadə etmək mümkün olur, hətta yerə gələndə kimsə özündən utanıb əslini də danır. O, "Ovsun" şeirində də Türkü assimilyasia və məhvetmə siyasətinin nəticəsi olaraq baş verənləri nəzərdə tutaraq yazırdı:

*Məni ovsunladılar,*
*Dilimi bağladılar.*
*Qaçdımsa yetişdilər,*
*Nə əkdimsə biçdilər.*
*Əmək mənim bar əlim*
*Yadlar mənim yar əlim.*
*Utandım öz-özümdən*
*Sazımdan və sözümdən*
*Ayrılalı əslimdən*
*Öksüz*

[1121] Nitqi Həmid. Seçilmiş əsərləri. Bakı, AVRASİYA PRESS, 2005, s.101

*Və köksüz qaldım.*

*Öz qanadımla uçan,*
*Atlanıb dağlar aşan*
*Mən (Türk-F.Ə.),*
*Yerlərdə süründüm,*
*Qaranlığa büründüm,*
*Bataqlılıqlara gömüldüm,*
*Yaşayammadım öldüm.*

*Məni ovsunladılar*
*Dilimi bağladılar.*
*Açımaz isə dilim*
*Kim biləcək mən kimim?*[1122]

Şübhəsiz, iran-fars millətçilərinin ideologiyasının da mahiyyətində məhz bu dayanırdı ki, Azərbaycan türkü milli kimliyindən – Türk Varlığından və milli idealından – Qızıl Almadan (Turan) əl çəksin və yad ideyaların köləsinə çevrilsin. Bizcə, bunu nəzərə alaraq o, "Hanı?" şeirində Qızıl Alma ülküsünün axtarışına çıxmışdır. Onun "Qızıl Alma"sı Türk düşmənlərinin Türkü assimilyasiya və məhv etmə siyasətini həyata keçirdiyi zor bir dövrdə nə olursa oslun, Türkün varlığını və idealını unutmamaq idi. Nitqi yazırdı:

*Dumanlardakı əsrar,*
*Ormanların yaşıl ürpərməsi*
*Və zaman dəyirmanının qıcırtıqla dönməsi,*
*Az qala məni yoldan saxlayacaqdı.*

*Ulduzlardan soraq almasaydım,*
*Anamın əzbərlətdiyi*
*Və mənim unutduğum*
*Duaları*
*Yadıma salmasaydım.*

*O sehirli bağçada*

[1122] Yenə orada, s.37

*Bir alma ağacının budağından*
*Sallanan,*
*Alov-alov yanan*
*Qızıl alma,*
*Harada?*[1123]

O, 1962-ci ildə yazdığı "Qızıl alma" şeirində isə Türkün gəlcək üfüqünü belə görürdüı:

*Yüz illərin ötəsindən*
*Sənlə könül arasında,*
*Pıçıldaşır bir macəra:*
*Heyif sənlə görüşmədik,*
*Tanışmadıq,*
*Danışmadıq.*

*Neysə, səni bir möcüzə*
*Daha gözəl bir zamanda*
*Tarixin bir döngəsində*
*Qabağımıza çıxararsa,*
*Tutacağam əllərindən,*
*Belini bərk saracağam,*
*Ovun çalmış qartal kimi*
*Yuvama aparacağam.*
*Bir də səni caynağımdan*
*Heç bir qüdrət ala bilməz.*
*Oğru fələk neyləsə də*
*Səni məndən ça bilməz!*[1124]

Görülüdüyü kimi, Azərbaycan Türkü Qızıl almasını əldən vermiş, öz əlləri ilə qurduğu dövlətdə isə nəinki haqsız vəziyyətə gətirilmiş, üstəlik milli kimliyini, milli dilini danmağa və milli idealını unutmağa məhkum edilmişdir. Bütün buinlara baxmayaraq, bu faciələri onların başına gətirən fars millətçiləri və havadarları, özlərini daha haqlı sayırdılar nəinki Azərbaycan türklərini. Bu baxımdan Nitqi "Haqq qapısı" şeirində milli haqları tapdlanan Azərbaycan türkünün də, onun haqqını tapdalayan fars-iran

[1123] Yenə orada, s.33-34
[1124] Yenə orada, s.34

millətçisinin də özlərini hansı anlamda haqlı saymalarına aydınlıq gətirməyə çalışmışdır. O, yazırdı:

*Zülm altında əzilən,*
*Və əziləni əzən,*
*Birağızla bərabər*
*"Mən haqlıyam" deyərlər.*
*Əli qılıclı üçün*
*"Qılıc haqqı" haqların*
*Ən üstünüymüş məgər?*[1125]

Deməli, əzilən Azərbaycan türkü də, onu əzən aryançı fars millətçisi də, hər kəs özünə görə özünü haqlı hesab edir. Ancaq sən demə əsas məsələ odur ki, "qılınc haqqı" kimin əlindədirsə, gerçək olaraq haqlı da o, hesab olunur. Bu anlamda hazırda "haqlı" durumda olan iran-fars millətçiləridilər ki, çünki istər hiylə ilə olsun, istərsə də hiyləsiz, istər doğru yolla olsun, istərsə də əyri yolla gerçək olan budur, "qılınc haqqı" bu gün aryançı farsların əlindədir.

Doğrudur, "qılınc haqqını" geri almaq üçün türklər, xüsusilə də Azərbaycan türkləri 20-ci əsrdə bir neçə dəfə mübarizə aparıblar, ancaq ciddi və əsaslı qələbə qazana bilməyiblər. Məsələn, Azərbaycan türkləri "qılınc haqqını" əllərində saxlamaq üçün Səttarxanın, Xiyabaninin, Pişəvərinin başçılığı ilə bir neçə dəfə Milli hərəkata başlayıblar. Ancaq bütün hallarda bu milli hərəkatlar nəticəsində nə Qacarlar türklərini hakimiyyətdə saxlaya bilmək mümkün olmuş, nə də aryançı Pəhləviləri devirməyə nail ola bilmişlər. Bir sözlə, gerçək olan budur ki, hələ də əli qılınclı aryançı iran-fars millətçiləri və onların havadarları, o cümlədən onların yanında yer alan sapı özümüzdən olan baltalar "qılınc haqqı" sayəsində üstün, qalib tərəfdirlər.

Nitqiyə görə, "qılınc haqqını" geri almağa çalışanlardan biri də Şeyx Məhəmməd Xiyabani olmuşdur ki, ancaq onun başlatıdığı milli hərəkat düşmənlərin iş birliyi nəticəsində məğlub edilmişdir. O, Məhəmməd Xiyabaniyə həsr etdiyi "Şeyx Məhəmməd" şeirində üzünü Xiyabaninin ruhuna tutaraq deyirdi ki, onun ölümündən sonra (1920) Azərbaycan daha da yetim qalmış, uzun müddət özünə gələ bilməmişdi. Nitqi yazırdı:

*Lakin sən*

---

[1125] Yenə orada, s.117

*Röyalarımı xəyalınla doldurdun.*
*Gözümdə nur,*
*Dizimdə zor,*
*Ürəyimdə qürur*
*Oldun.*
*Amma nə üçün*
*Vəd etdiyin*
*Saat çalmadı?*
*Nədən əkdiyin ağac*
*Qol-budaq salmadı,*
*Yaralar sağlmadı?*[1126]

Nitqi Xiyabaninin ictimai-siyasi idealları ilə yaşasa da, ancaq həmin ideallarn özünü hələ də, doğrultmaması onda müəyyən qədər bədbinlik yaratmışdı. Belə olduğu təqdirdə, Nitqi üçün gələcəyə doğru bir ümid bəsləmək heç də asan deyildir və o, yenə də alovlanacaq bir inqilabi qığılcım axtarışındadır. Nitqi yazırdı:

*Və sağalmaz mənim də qanayan yaram,*
*Dağ başlarını duman aldıqca,*
*Bayatlarım sinəmdə qaldıqca,*
*Mənə öyüd ver, ey ulu kölgə.*
*Gülləri solduran yelə neyləyim,*
*Səsini itirən elə nə deyim?*[1127]

Yuxarıda da dəfələrlə qeyd etdiyimiz kimi, əslində Səttar xan və Xiyabani hərəkatları Qacarlar Türk dövlətinə qarşı deyil, Türk dövlətinin əlindən alınmağa başlamış "qılınc haqqının" saxlanılması ilə bağlı olmuşdur. Lakin bütün bu milli hərəkatlar öz məntiqi sonluğuna çatmadı və Qacarlar dövləti devrilib yerinə aryançı-irançı Pəhləvilər hakimiyyətə gətirildi. Bunu, Nitqi "Təbriz" poemasında çox dəqiq şəkildə ifadə etmişdir:

*Əsrimizin ərəfəsində*
*Gərçi şəhərmizdə*
*Az-çox bir şeylər vardı,*
*Genə də ərsə insanlara dardı.*
*Ölkəmizdə əbədi qışdı.*

---
[1126] Yenə orada, s.38
[1127] Yenə orada, s.39

*Rahat qaçmışdı, zillət artmışdı...*
*Səttarxanın bayrağı üfüqlərimizi sardı.*
*Qəlblər işıq, dizlər qəyim,*
*Hüseyn Bağbanlar,*
*Heydər Əmioğlular, Bağırxanlar,*
*Və səf-səf adsız qəhrəmanlar,*
*Hürriyyətin uğrunda savaşdılar, çalışdılar,*
*Qan töküb, can verdilər...*
*Beləcə də üsyanlarda, tufanlarda*
*Meydanlarda qazanılan böyük zəfər,*
*Oldu Tehranda əyləşən*
*Müftə yeyın, yalan deyən,*
*Tülkülərin qumarında*
*Hava, hədər.*
*Qıldı axır Şeyx Məhəmmədə*
*Xəyanətin qara əli.*[1128]

Aryançı pəhləvilər də hakimiyyətə gələr-gəlməz Türk kimliyinə, Türk dilinə, Türk mədəniyyətinə bir sözlə, Türk Varlığına və Türkün Qızıl Alma idealına (Türk Birliyinə) qadağalar qoydu. O, yazırdı:

*Var-yoxumu talayıb,*
*Sındırdılar belimi.*
*Əlli dörd il boyunca*
*Bağladılar dilimi.*
*Və heç də utanmadan*
*Elimə (Azərbaycan-F.Ə.) böhtan dedilər,*
*Dilimə (Türk dilinə-F.Ə.) yaman dedilər,*
*Varlığını (Türklüyünü-F.Ə.) dan dedilər.*
*Yalana (irançılığa-F.Ə.) aldan dedilər.*[1129]

Ancaq aryançı Pəhləvilər rejiminin anti-türk siyasətinə boyun əyməyən Nitqi bədbinliyə qapılmağı doğru görmür və pessimist fikirləri də özündən və silahdaşlarından uzaqlaşdırmağa çalışırdı. Bu baxımdan onun "Səhərə çıxan bir yol var" şeiri ibrətamizdir. O, "dibsiz bir quyudan", "qaranlıq gecədən" qurtulmaq

[1128] Yenə orada, s.138-139
[1129] Yenə orada, s.139

üçün yalvarmaq-yaxarmaq deyil, milli mücadilə aparmağı zəruri hesab edirdi:

*İllərdir boynunda zəncir daşırsan,*
*Yurdunda sürgünsən,*
*Gedib yaşarsan...*
*Kimsədən səs çıxmaz*
*Gəbərsək də biz.*
*İtərik*
*Çıxmazsa bir yola*
*Bu iz.*
*Sən yeri*
*Mənzilin uzaq ya yaxın*
*Dişin sıx!*
*Özünü itirmə sakın!*
*Dərdinin dərmanını umma kimsədən,*
*Kimsəmiz yoxdur ki,*
*Bir mənəm bir sən.*
*Ölsək də, qalsaq da, budur yol ancaq,*
*Çıx yola,*
*Bəlkə bir mənzilə çataq.*
*Mən qalsam,*
*Davam et yolunda yoldaş,*
*Dayanma,*
*Yeri get bu dağları aş.*
*Bilirəm səhərə çıxan bir yol var,*
*Dizində güc varkən yorulma, axtar.*[1130]

Nitqiyə görə, dünyada Türk milləti kimi çox az millət var ki, bu qədər düşməni olsun və onlara qarşı hər daim mübarizə aparmağı da bacarsın, heç bir zaman geri çəkilməsin: "Türk sözünün çox mənası var. Biri də "qüvvətli" deməkdir. Həqiqətən, bu millət çox dözümlüdür. Çox xalqlar gəlmişlər, getmişlər dünyadan. Bizə bənzəri az-az tapılar. Biz türklər bitkilərə bənzəyirik. Ölüb getdikdən sonra torpağı qazıb görərsən ki, kök sağlamdır, yenidən göyərəcək".[1131]

---

[1130] Yenə orada, s.40-41
[1131] Parçalanmış millətin harayı. Bakı, "Nurlar" NPM, 2007, s.100

Nitqi doğru deyirdi ki, dünyada həm yoxsul, həm də varlı xalq bizik: "Varlığımıza sahib çıxmırıq. Sahob çıxsaq, çox şeyimiz var. Məmləkətlər qurmuşuq. Biz beləyik: özgəni bəzər, özü lüt gəzər".[1132] Nitqi daha sonra yazırdı: "Bizi aldatmadılar, buna özümüz imkan yaratdıq ki, bizi aldatsınlar. Bu yanlışlığı gələn minillikdə (yəni 21-ci əsrdə-F.Ə) aradan qaldıracağıq".[1133]

Nitqi "Yeni gün-Novruz" şeirində də aryançılığa qarşı Türklüyünü, Turançılığı müdafiə etmişdir. O, yazırdı:

*Utancaq yaz günəşi dan yerində qızardı,*
*Firudin şahın mülkün*
*Tərk etdi qapqara qış.*
*Hr yana işıq sardı.*
*Ümid şövqilə kğnül yuxusundan oyandı,*
*Ürəklərdə ya.amaq istəyi alovlandı.*
*Bir uğurlu yeni gün.*
*İrəcin ölkəsində Novruz deyə adlandı.*
*Turun yurdunda isə*
*Ərgənəqon bayamı - deyə adlandı.*
*Yeni gün atalardan bizlərə yadigardır,*
*Yalnız çöllərdə deyil, evlərdə də bahardır.*[1134]

Qeyd edək ki, Nitqi Pəhləvilərin sonunun yaxınlaşdığı 1977-1979-cu illərdə "İslam hərəkatı"na da bel bağlamış, hətta "İslam inqilabı"ndan (1979) sonra Türk varlığına qoyulmuş qadağaların aradan qaldırlacağına, Azərbaycan türklərinin artıq haqq etdikləri şəkildə yaşayacağna ümid etmişdir. O, "Bu gündən sabaha" şeirində bu ümidlə yazırdı:

*Küllərdi*
*Şəfəqin gündüzə ərməğanı*
*Və küllərdə ümid adlı səməndər doğulurdu.*
*Açılmışdı işığın dili,*
*Danışırdı xatirəsiz sevgili.*

---

[1132] Yenə orada, s.100
[1133] Yenə orada, s.101
[1134] Əhməd Vüqar, Rzayeva Dilbər (tərtibçi müəlliflər). Cənubi Azərbaycan şeiri antologiyası. Bakı, Ecoprint, 2018, s.174

*Bəlkə sonu gəlmişdi bunca qəhərlərin*
*Bəlkə qərqi başdaydı artıq doğacaq səhərlərin.*[1135]

Xüsusilə də, o, "Təbriz" poemasının sonunda "inqilab"a böyük ümidlə baxdığını və çox şeyin yaxşı mənada dəyişəcəyinə inamını ifadə etmişdir. Nitqi yazırdı:

*29 Bəhməndə (1978-ci il Təbriz üsyanı-F.Ə.)*
*Fəcr əli ilə qaranlıq*
*Üfüqlərdən silindi.*
*Və bir il keçəmdi ki,*
*İnqilab ("İslam inqilabı"-F.Ə.) Günəş kimi*
*Qaranlığa son verdi.*
*Bizə bahar gətirdi,*
*Genə ümid budağı qənçələndi, gül açdı,*
*Genə gözəl Təbriz söz gəldi dil açdı.*[1136]

Bu ümidlərlə "İslam inqilabı"ndan sonra 1979-cu ildə yaranmış "Varlıq" dərgisinin belə bir ad almasının səbəbkarı da Nitqi olmuşdur. Dərginin qurucusu Cavad Heyətin təbrincə desək, Pəhləvilər dövründə türk kimliyinin, türk dilinin, türk varlığının inkar olumasına qarşı olaraq jurnal Həmid Nitqinin tövsiyəsi ilə "Varlıq" adını almışdır.[1137] Tədqiqatçılar hesab edirlər ki, Cavad Heyət dostu H. Nitqi ilə birlikdə İran adlanan ölkədə elmi türkologiyanın əsasını qoymuşdur.

Ancaq çox keçmədən Nitqinin "İslam inqilabı"na bəslədiyi ümidləri boşa çıxmış, ilk dövrlərdə Azərbaycan türklərinə və digər xalqlara münasibətdə bəzi kiçik güzəştlər olsa da, mahiyyət etibarilə İran Pəhləvilər rejimindən sonra onun yerinə hakimiyyətə gələn İran İslam rejimində əsasən heç nə dəyişməmişdir. Nitqi İran İslam rejiminin əsil simasını gördükdən sonra yazırdı ki, bu "bahar"da, yəni "İslam inqilabı" da yalançı "bahar" imiş:

*Nəfəsindən kəsildi axan sular,*
*Rənglər soldu,*
*Nəğmələr söndü,*

---

[1135] Nitqi Həmid. Seçilmiş əsərləri. Bakı, AVRASİYA PRESS, 2005, s.49
[1136] Yenə orada, s.139
[1137] Heyət Cavad. Dilimiz, ədəbiyyatımız və kimliyimiz uğrunda (məqalələr toplusu 2). Bakı, Elm və təhsil, 2014, s.28, 274

*Bağçalar tar-mar oldu,*
*Məclislər dağıldı,*
*Qədəhlər calandı.*
*Səssiz təslim oldu göl,dərə, oba*
*Nəşə talandı,*
*Kömüllər aynası paslandı,*
*Boydan-boya,*
*Ağ-appaq sarıldı dünya,*
*Bürüdü hər yanı sislərin pası,*
*Başladı mövsümün bitməyən yası.*[1138]

O, "Söylə mənə, falçı nənə" şeirində isə yazırdı ki, "İslam inqilabı"ndan Azərbaycan türkləri üçün gözlədiyi ümidləri boşa çıxır, hər gün bir az daha artıq ürəyi qapqara olur. O, yazırdı:

*Söylə mənə, falçı nənə,*
*Söylə,mənim röyalarım*
*Gerçəkləşcəkmi?*
*Haçan?*
*Açılacaqmı ürəyim?*
*Açılacaqsa nə zaman?*[1139]

Gördüyümüz kimi, onun yaradıcılığında əsas yeri milli-maarifçilik və siyasi-fəlsəfi məsələlər, yəni Azərbaycan türklərinin milli kimliyini, dilini, mədəniyyətini, milli mücadiləsini və milli idealını təbliğ etmək tutub. Nitqi üçün ən önəmlisi Türk Varlığını və Qızıl Alma idealını hər zaman diri tutmaq olmuşdur. O, bunun üçün bütün həyat və yaradıcılığı boyu Türk dilini, mədəniyyətini, kimliyini araşdırmış, Azərbaycan milli hərəkatlarını və onun tanınmış liderlərini təbliğ etmişdir. Onun Varlıq fəlsəfəsi daha çox Azərbaycan türkünün var olma fəlsəfəsi, İdealizmi isə Qızıl Alma idealının gerçəkləşməsi idi.

Bu baxımdan Pəhləvilər rejimi dövründə Türk Varlığını və Qızıl Alma ülküsünü müdafiə edərək onları yaşatmağa çalışan Nitqi heç bir zaman Aəzrbaycan türklərinin gəlcəyindən ümidsiz olmamışdır. Ən çətin, zor dövrdə belə Nitqi Azərbaycan milli hərəkatını ayaq üstə tutmağa çalışmış, bu yolun yolçularına ümidlər

[1138] Nitqi Həmid. Seçilmiş əsərləri. Bakı, AVRASİYA PRESS, 2005, s.40-41
[1139] Yenə orada, s.56

vermişdir. Nitqi, bu yolun gerçəkləşməsi baxımından "İslam iniqlabı"ndan da bir çox şeylər gözləmiş, hətta Cavad Heyətin qurucusu olduğu yeni dərgiyə "Varlıq" adını da o, təklif etmişdir. Ancaq İran İslan rejiminin Pəhləvilər rejimi kimi, Türklüyə, o cümlədən Azərbaycan Türklüyünə qarşı əsasən siyasətini dəyişdirməməsi Nitqi də müəyyən qədər ümidsizlik doğursa da, bu da müvəqqəti olmuşdur. Nitqi və silahdaşları yenidən toparlanaraq Milli hərəkatı diri tutmağa və haqq olanları yenidən geri qazanmaq uğrunda mübarizəyə davam etmişlər.

Ümumiyyətlə, Nitqinin yaradıcılığı öz yeni forması və dərin fəlsəfi məzmunu ilə seçilib. Xüsusilə də, "Kitabi-Dədə Qorqud"dan gələn Türk dünyagörüşünə aid milli fəlsəfə onun yaradıcılığının səciyyəvi xüsusiyyətlərindən olub.

# ƏLİ TƏBRİZLİ

**Həyat və yaradıcılığı.** Azərbaycan Türk mütəfəkkiri, türkçülüyün ideoloqu Əli Təbrizli (1929-1998) Təbrizin Münəccim məhəlləsində anadan olub, ibtidai və orta təhsilını burada alıb. 1945-ci ildə Milli Hökumət dönəmində ana dilində təhsilnə davam edən Təbrizli on beş yaşında olarkən ailəsi ilə birgə Tehrana köçüb. Gənc ikən çeşidli işlərlə məşğul olub və nəhayət, “Atropat” yayınevini açıb. O, ayrı-ayrı dövrlərdə ədəbi dərnəklər adı altında milli məsələləri müzakirə edən və milli işlərlə məşğul olan siyasi-mədəni qruplar yaradıb. Dəfələrlə Pəhləvi rejiminin zindanlarında dustaq olan Təbrizli bütün təzyiqlərə baxmayaraq, Türk folklor nümunələrini toplamağa başlayıb. ”Kərəm ilə Əsli” dastanını toplayıb yazıya köçürərək nəşr edən Təbrizli daha sonra Şah İsmayılın həyatı və şeirlərini əhatə edən iki cildlik “Şah İsmayıl” kitabını yayınlayıb.

1955-ci ildən sonra şair Həsən Məcidzadə Savalanla birlikdə çalışmağa başlayan Təbrizli bu işbirliyinin nəticəsi olaraq 4 ildən sonra “Əliağa Vahidin külliyyatı” kitabını ərsəyə gətirib. Daha sonra isə onlar “Azərbaycan nəğmələri və bayatıları” (iki cilddə), ”Koroğlu” dastanını nəşr ediblər. Eyni zamanda o, Savalanla birlikdə “Azərbaycan klassik ədəbiyyatından şeir məcmuələri”, “Füzuli divanı”, “Salman Mümtazın şeirləri”, “Əziz Nesinin hekayələri” və başqa kitabları hazırlayaraq nəşr edib.

Tanınmış ziyalımız, folklorşünas, türkoloq alim Əli Şamil yazır ki, Əli Təbrizli Həsən Məcidzadə Savalanın “Apardı sellər saranı” və başqa əsərləri çap edərkən şah jandarması nəşriyyata basqın edərək çap olunan və çapa hazırlanan, mətbəədə yığılan kitabları müsadirə edib, onun özünü də zindana atıblar. Ə.Şamil yazır: “Bu hadisə Əli Təbriziyə yalnız mənəvi deyil, həm də böyük maddi zərbə vurur. Buna baxmayaraq, o, ruhdan düşmür, mübarizəsini davam etdirir. Məqalələrində Türk elitası içərisində etnik təəssübün olmamasını tənqid edərək yazır ki, vara və sərvətə, qüdrətə və gücə, yaxşı yeyib və içməyə, habelə ev bəzəklərinə və yüzlərcə belə şeylərə və işlərə qiymət və dəyər qoyulurdu, ancaq dilə,

ədəbiyyata, milli mədəniyyətə, milli vicdana, özünü və millətini tanımağa elə bir könül və əlaqə göstərilmirdi. Və indi budur ki, bugünkü nəslin əlində bir öylə milli fərhəng yoxdur və olub qalan varsa da, ya gözlərdən itkindir və ya zamanın pası və tozu ilə örtülüdür”.[1140]

Təbrizli naşir olmaqla yanaşı, həm də bir şair, araşdırıcı, publisist kimi tanınıb. Ən önəmlisi isə, o, milli hərəkatın həm görkəmli nümayəndəsi, həm də ideoloqu kimi də məşhurlaşıb.

Onun əsas əsərləri “Ədəbiyyat və milliyyət”, “Əli Təbrizlinin qəzəlləri”, “Göz yaşları” kitablarıdır. Onun ictimai-fəlsəfi yönlü milli məsələlərə aid əsas baxışları 1960-cı illin başlarında qələmə aldığı “Ədəbiyyat və milliyyət”, ya da “Dil və ədəbiyyat” əsərində öz əksini tapmışdır.[1141]

**İctimai-siyasi görüşləri.** O, “Ədəbiyyat və milliyyət” əsərində İran-fars şovinizmini, Aryan irqciliyini tənqid etməklə yanaşı, həmin dövrün mənzərəsini də verməyə çalışmış və türkçülüyün zəif duruma gətirilməsi səbəblərini göstərməyə çalışmışdır.[1142] Bu baxımdan Təbrizli sağ, ya sol ideologiyalara ifrat bağlı olan soydaşlarını tənqid edir, onları milli məsələnin həllinə köklənməyə dəvət edirdi. O haqlı olaraq hesab edirdi ki, türklüyün arxa plana keçməsində iran-fars irqçiləri qədər öz türklüyünü unudub irançılığa-aryançılığa xidmət edən türklər də günahkardırlar: “Yuz illərcə, milyonlarca qoyun kimi doğulub, qoyun kimi yeyib və qoyun kimi qığılayıb, və sonra qoyun kimi ölub gedənlərimiz və onların yerin tutanlarımız, hər işə qulp qoyub, hər oyuna baş vurub, və tarix və coğrafiya oxuyub və yazıb, hər curə özgə dillər ögrənib və ögrədib, hakim və məhkum olub, varlı-varsız olub, dunya millətlərin və dillərin tanıyıb və hər cürə boyağa bulaşıb, ancaq özün və millətin, və kim imiş və kimdir və kim olacağın tanımayıb və hələ də tanımaq istəmir”.[1143]

---

[1140] https://ali-shamil.tr.gg/%26%23399%3Bli-T%26%23601%3Bbrizi.htm

[1141] Ağcaköylü Abdullah. Bilinmeyen Büyük Bir Türkçü ve Türkçeci Tabrizli Ali. – “Türk kültürü”, sayı 1, yıl 1, Kasım 1962, s.41-45

[1142] Məmmədli Pərvanə, Nəsib Nəsibli. Fikir və əməl böyüklərimiz./Təbrizli Əli/. Bakı, Nurlar NPM, 2014, s.427-429

[1143] Təbrizli Əli. Ədəbiyyat və miliyyət. Tehran, Atropat kitab evi, 1360, s.3

Türklərlə farsların islamaqədərki dövrünə nəzər salan Təbrizli hesab edirdi ki, İslamdan öncə farsların nəinki ciddi bir elmi-fəlsəfi, hec bir ədəbi, nəzmi, roman kitabları da yoxdur. Sadəcə, Sanskrit, Avesta, Mazda, Yəşt adlı bir neçə kitabcıqlar varsa da xurafat və movhumat üçün yazılıbdır. Bu baxımdan irançıların islamaqədərki İran tarixini goylərə qaldırmasını mənasız hesab edən mütəfəkkirə görə, üstəlik bunun fonunda farsların ərəb və turkləri "vəhşi və dilbilməz" kimi qələmə verməsi irqçilikdən başqa bir şey deyildir. Təbrizlinin fikrincə, əgər türklər və ərəblər vəhşi, yırtıcı olsaydı, Firdovsi "Şahnamə"sini ərəb əlifbasında yazıb Türk hökmdarına hədiyyə etmək niyyətinə düşməzdi. Təbrizli yazırdı: "Firdovsi ərəb əlifbası ilə nə üçün Türk şahı Mahmud Qəznəviyə "Şahnamə"ni yazmış? Bu uzun əsrlər boyu Həkim Fərrux Sistani, Ünsüri, Ənvəri, Qani Şirazi, Hafiz Şirazi, Vüsal Şirazi, Sədi Şirazi,... Kəmaləddin İsfahani, Məliküşşüəra Bahar Xorasani və yüzlərcə, minlərcə şairlər və məddahlar hünərləri və istedadlarını Ərəb, xüsusilə Türk üçün nəsar (hədiyyə) təqdim etmişlər". [1144]

Bütün bunların fonunda o, istər islamaqədərki, istərsə də İslam dinini qəbul etdikdən sonrakı dövrlərdə böyük mədəniyyətə, dövlətlərə sahib olan türklərin, xüsusilə də Turk xaqanlarının Türk dilinə, Türk ədəbiyyatına bir qədər biganə münasibət bəsləməsini, bunun əvəzində ərəb, fars dillərinə, onların ədəbiyyatına daha çox önəm vermələrini tənqid etmişdir. Təbrizli Əli hesab edirdi ki, Türk dövlətlərinin başçılarının milli dil və milli ədəbiyayt məsələlərində bir çox hallarda yanlış siyasət yeritmələri Türk xalqları üçün yaxşı olmamışdır. O, yazırdı: "Qulluqlarında yüzlərcə balaca şahlar, hökumətlər, tarix yazanlar, ədiblər və şairlər, memarlar və təbiblər olan ata və babalarımız, gələcək nəsil üşün, yəni bizlər üçün hec bir gözəl milli miras, milli dil və ədəbiyyat, milli tarix qoymayıblar. Fəqət günün nəğd olan qüdrət və gücünə qane olub, zəmanı və dünyanı kiçik və qısa düşünüblər... Dilə, ədəbiyyata, milli fərhəngə, milli vicdana, özün və millətin tanımağa elə bir könul və əlaqə göstərilmirdi. Və indi budur ki, bugunku nəslin əlində bir öylə milli

[1144] Təbrizli Əli. Ədəbiyyat və miliyyət. Tehran, Atropat kitab evi, 1360, s.4-5

fərhəng yoxdur və olub qalan varsa da ya gözlərdən itkindir, ya da zaman pası və tozu ilə örtülüdur”.[1145]

Azərbaycan Türk mütəfəkkirinə görə, Türk dövlətlərinin xaqanları, məmurları hər zaman başqa xalqlara, onların dillərinə, ədəbiyyatlarına hörmət etdikləri, hətta bir çox hallarda öz dillərindən, mədəniyyətlərindən də üstün saydıqları halda, bunun qarşılığında da daima zərbə alıblar. Ancaq bundan daha çox zərbə alan və uduzan tərəf isə Türk xalqları olmuşdur. Məsələn, Türk sultanı Mahmud Qəznəli fars şairi Firdovsiyə nə qədər comərdlik etsə də, nəticədə Firdovsi farsların uydurma tarixini yazmış, üstəlik orada türkləri aşağılamağa çalışmışdır.[1146]

Təbrizliyə görə, artıq türk müdrikləri bundan bir nəticə çıxarmalı Türkün milli tarix şüurunu formalaşdırmağa çalışmalıdır. Bunun üçün də, türklərin farslar, ermənilər və başqa millətlər kimi uydurma tarix, mədəniyyət yaratmağa ehtiyacı yoxdur. Sadəcə, türklər milli tarix şüurunu formalaşdırmağa və irançıların, aryançıların uydurudğu yalançı tarixi şüurlarını darmadağın etməlidir. Bunun üçün isə ilk növbədə, türkün qədim zamanlardan günümüzə qədər olan tarixi yenidən və milli şüur çərçivəsində araşdırılmalı, öyrədilməlidir. Burada onun əsas məqsədi mövcud “İran tarixşunaslığı”nın uydurma tarixçilik nəzəriyyələrini darmadağın etmək, bunun əvəzində türkün əsil tarixini ortaya qoymaq idi. Özü də, Türk tarixi, Türk mədəniyyəti, Türk fəlsəfəsi başqa bir mədəniyyətin (“İran”, Çin, Yunan və b.) heç vaxt bir parçası olmayıb, hər daim özünəməxsusluğu və müstəqil inkişafı ilə seçilmişdir.

N.Nəsibli və P.Məmmədli hesab edirlər ki, “Türk kimdir?” sualına cavab verərkən Əli Təbrizlinin özü də bir çox həqiqətlərlə yanaşı, bəzən şişirtmələrə də yol vermişdir. Onlar yazırlar: ““Türk kimdir?” başlıqlı bölümdə yazar insanlığın yaranma arealının Orta Asiya, Quzey Çin, Altay dağları, Aral gölü sahilləri olduğunu iddia edir. Oddan və çaxmaqdan ilk dəfə məhz buralarda istifadə edildiyi fikrini irəli sürür. Dünya elminin onillərlə müzakirə və münaqişə

---

[1145] Yenə orada, s.101

[1146] Məmmədli Pərvanə, Nəsib Nəsibli. Fikir və əməl böyüklərimiz./Təbrizli Əli/. Bakı, Nurlar NPM, 2014, s.431

etdiyi bu məsələdən sonra indiki türklərin və onların əcdadlarının yaşayış arealı, onların sayı məsələlərinə keçir. Bizim fikrimizcə, müəllif bu məsələlərə hissi yanaşır, bir sıra inanılmaz şişirtmələrə yol verir. Bununla belə, Türk törəyiş əfsanəsinin, əski Türk tarixinin izahı türkologiya elminə dayanır. Bu, İran şərtlərində cürət tələb edən iş olmaqdan başqa, həm də soydaşlarına gərəkli akademik bilgi çatdırmaq baxımından diqqəti çəkir. Əski türk tarixinin hunlar, Teoman, Mete, Attila kimi mövzularının incələnməsi, aşağılıq kompleksi keçirən soydaşlarının bilgi əskikliyini qapamaq baxımından çox önəmlidir. Burada diqqəti çəkən özəlliklərdən birisi də yazarın moğol mövzusundan yan keçməməsidir. Bəllidir ki, rəsmi İran tarixşünaslığında ən çox nifrət təlqin edilən moğollar İrana bədbəxtliklər gətirən əsas amil hesab edilməkdədirlər. Əli Təbrizli türk-tatar və moğolları eyni qövm hesab edir və onların qəhrəmanlıqlarla dolu keçmişini, etnoqrafik özəlliklərini qürurla təsvir edir. Yazarın oxucusuna və soydaşına verdiyi məsaj budur: rəsmi İran tarixşünaslığının iddialarının əksinə, sənin iftixar edəcəyin bir milli tarixin vardır; bu tarix iranşünaslığın bir hissəsi deyil, ümumtürk tarixinin bir bölümüdür”. [1147]

Bizcə, Təbrizli əsasən heç bir şişirtməyə yol verməmiş, Türk xalqlarının ən qədim məskənlərini və yayılma areallarını əsasən doğru göstərmişdir. Eyni zamanda, o, doğru olaraq da türk-tatarlarla moğolların ortaq yaxınlığını görə bilmişdir.

Vaxtilə onun türkçülüyünü tənqid edən Əlirza Nabdil Oxtaya görə isə, bütün İran türklərinin birləşməsindən yana olan Əli Təbrizlinin sinfi zülmə, aryançılığa, dini mövhumata qarşı mübarizəsi yalnız bir qrup adam tərəfindən yaxşı qarşılanmışdır. Oxtay yazırdı: “Əli Təbrizli tamamilə pantürkizm mövqeyinə keçərək marksistlər və azərbaycançılarla mübarizəyə başladı və bütün İran türklərinin birləşdirlməsi ideyasını özünün şüarı elan etdi. Onun bu əks-inqilabçı şeirləri yalnız onun təsirində olan bir qrup adam tərəfindən yaxşı qarşılandı. Bu şeirlərin əks-inqilabçı xüsusiyyəti ondadır ki, o türkdilli kütlələri sinfi mübarizədən çəkinməyə, irticaçı və kaitalist yerliləri ilə birləşməyə çağırırdı. Əli

[1147] Məmmədli Pərvanə, Nəsib Nəsibli. Fikir və əməl böyüklərimiz./Təbrizli Əli/. Bakı, Nurlar NPM, 2014, s.431-432

Təbrizli pantürkist kimi İran tarixinin türk soyu ilə fars soyu arasında mübarizədən ibarət olduğuna inanırdı”. [1148]

Bizcə, Oxtayın dediklərindən fərqli olaraq doğru yol tutan Təbrizli sübut etməyə çalışırdı ki, türklər ariyanların, o cümlədən farsların gelişindən bir neçə min il öncə indi İran adlanan ölkədə yaşamış və bu ərazidə bütün dövrlərdə öz damğasını ortaya qoymuşdur. Hətta, parslar Kir dövründə hakimiyyəti türksoylu madların-midyalıların əlindən alsalar da, ancaq çox keçmədən Parfiyanın dövründə türklər yenidən bu bölgədə hakimiyyətlərini bərpa ediblər. Əli Təbrizli onu da doğru göstərirdi ki, buna səbəb türk soyunun daha güclü və böyük tarixə malik olması idi.

Təbrizliyə görə, Pəhləvilərin türkün güc və əsl-nəsəbinin göstəricisi olan Qacarların yerinə hakimiyyətə gəlməsi, əslində hakimiyyətin farslar tərəfindən zəbt edilməsi idi: “Onlar hakimiyyətə gəldikdən sonra türk-fars arası mübarizəni kəskinləşdirdilər və hərtərfli olaraq türklərin milli və mədəni mövcudluğuna son qoymağa çalışdılar. Buna görə də biz azərbaycanlı və qeyri-azərbaycanlı bütün türkləri nasionalizm bayrağı altında birləşdirərək, əvvəlcə milli zülmü aradan qaldırıb, sobra sinfi məsələni həll edəcəyik. Bizim üçün milli haqlar məsələsi ölüm-dirim məsləsidir. Bunun həllinə nail olmağın yolu isə sinfi mübarizə şüarını verən farsların siyasi təşkilatlarında (Tudə Partiyasında və b.) iştirak etmək deyil. Çıxış yolu sinif, şəhər və diyardan asılı olmayaraq bütün türklərin birləşməsidir. Hətta, Türk kapitalistləri ilə istismarçı olsa da, bir təhər yola getmək olar, onlar fars kapitalistlərdən daha yaxşıdır və hər nə olsa yenə də millidir”. [1149]

Oxtaya görə, Təbrizlinin sayı şox da olmayan tərəfdarları və İranda pərakəndə olan başqa türkçü irqçilər anti-hakimiyyət xüsusiyyətinə malik deyil: “Onlar siyasi və sinfi şüarlardan uzaqdırlar, çünki hazırkı şəraitdə ideyalarının gerçəkləşməsinə zərbə dəyə bilər. Rejimi yumşaltmağa məcbur etmək arzusuyla onlar əxlaqi, mədəni təzyiqlər etmək yolu ilə rejimdən milli haqlarını dilənmək istəyirlər. Buna görə də rejim yarımmüstəmləkəçi təlim və tərbiyəni azərbaycanlıların yaşadığı ərazidə Azərbaycan dilinə

[1148] Oxtay, Əlirza Nabdil. Əsərləri. Bakı, “Qoliot Qkup”, 2009, s.129
[1149] Oxtay, Əlirza Nabdil. Əsərləri. Bakı, “Qoliot Qkup”, 2009, s.130

çevirsə və bir neçə Azərbaycan dilli qəzet və jurnalın nəşrinə icazə versə, onlar arzularına çatmış olarlar”. [1150]

Şübhəsiz, Oxtayın Əli Təbrizli və onun tərəfdarları, yəni türkçülərlə bağlı burada ifadə etdiyi fikirləri qəbul etmək mümkün deyil. Çünki Təbrizli və digər türkçülərin əsas məqsədi Pəhləvilər hakimiyyətindən nə isə dilənmək və bununla razılaşıb yerlərində sakit oturmaq ola bilməzdi. Xüsusilə də, Təbrizli kimi türkçülərin əsas məqsədi Türk varlığını yenidən oyandırmaq və milli dirilişə nail olmaq idi. Təbrizli yazırdı: “Bir millət gərək niyə və nədən özünü unudub qonşu ümidinə yaşasın və ya öz dili ola-ola özgə dilini özünə qablşadırsın. Bunlardan başqa, bu qədər təcrübə, bu qədər acı-acı sınaqlar, bu qədər tarixlər boyu ədavət ilə yaşamaqlar bu zatıqırığı tanımaq üçün bəs deyilmiş. Bunlar qoyun kimi bizi əldən ələ keçiriblər. Fars şahı bizi təhvil verib fars vəzirinə, fars vəziri qaçıb bizi təhvil verib fars mollasına və fars axundu da ola bilər ki, bizi təhvil versin fars çerikinə və habelə o buna, bu ona. Çünki bunları ayrı Allah yaradıbdır”.[1151]

Ümumiyyətlə, millət məsələsi ilə bağlı Təbrizli belə bir qənaətə gəlirdi ki, dünyada hər bir xalqın millət kimi formalaşması onun tarixi və mədəni şüuru ilə bağlıdır. Bu anlamda Türk xalqlarının milliyyətdən millətə keçidi özünəməxsus şəkildə baş vermişdir. Əlinin fikrincə, milli dil, ədəbiyyat, folklor, ədəb, milli hisslər, milli vicdan və bunların başında milli kültür hamısı milləti təşkil edir. Bu kimi xüsusiyyətlər də imkan vermir ki, bir millət digər millətin içində tamamilə əriyib yox olsun. Təbrizli Əli yazır: “Turklər ilə farsların din birliyi, rejim birliyi, coğrafi birliyi, iqtisad birliyi icbarən olursa da, hərgiz milli huviyyat [kimlik] və milli fərhəng birliyi, milli xususiyyat, və milli vicdan birliyi olamaz, cunki topraq (coğrafi) və iqtisad və rejim bir ola ola milli psixoloji, milli fərhəng və dil və ruhiyyat bir deyil və ola da bilməz. Cunki hərəsinin öz-özünə məxsus xasiyyət, dəb, ruhiyyat,əxlaq, əsəb və hətta jeni vardır. Budur ki, butun qovmi xususiyyatı ayrı-ayrı olan iki millətin torpağı, iqtisadi, rejimi, ictiması bir olsa da, ancaq bu iki ayrı-ayrı olan

[1150] Yenə orada, s.130

[1151] Onullahi S. İranda milli məsələnin qoyuluşu// Güney Azərbaycan: Tarixi, siyasi və kulturoloji müstəvidə (Məqalələr toplusu). Bakı, Azərnəşr, 2010, s.10

millətləri bir millət edə bilməz və son mərhələdə hər ünsür oz əslinə qayıdar”.[1152]

Bizcə, burada Təbrizlinin “millət”lə bağlı gəldiyi qənaət böyük ölçüdə doğrudur. Yəni eyni bir dövlətin çatısı altında yaşamaq o demək deyil ki, türklər kimi böyük bir tarixi şüuru, mədəni şüuru, dövlətçilik şüuru, milli dil şüuru olan bir millət azsaylı farsların diktator rejimi altında assimliyasiya olsunlar. Doğrudur, Pəhləvilər və İslam rejimləri uyğun olaraq irançılıq və şiəçilik ideyalarından istifadə edərək bunun üçün çox çalışıblar və çalışırlar da. Ancaq türklər heç bir zaman əsasən, türk kimliklərini fars kimlikləri ilə dəyişdirmədilər və dəyişdirməyəcəklər də.

Sadəcə, irançılıq və şiəçilik bəzi türk təbəqlərinə zaman zaman öz təsirini gəstərmişdir ki, bu da uyğun olaraq “İran milləti” və “müsəlman-şiə” kimliyi “birliyi”dir. Hər halda Türk milləti ilə yanaşı özünü “İran milləti”nin içində də görüb, “iranlı” sayan türklər müəyyən qədər fars-iran millətçilərinə uduzmuş olurlar. Çox yazıqlar ki,  Təbrizli də Türk milləti ilə yanaşı özünü “İran millət”inə daxil etməklə, bu yanlışdan yan qaça bilməmişdir. Şübhəsiz, buna əsas səbəb də, “İran” anlayışının həm coğrafi, həm də dövlət adı altında şüurlara yeridilməsi idi. Yəni irançıların apardığı siyasət nətisəcində istər-istəməz bu dövlətdə və coğrafiyada yaşayan bütün xalqlar (ərəblər, turklər, bəluclar, kurdlər, turkmənlər, farslar və b.) “İran milləti” və “İran dovləti” anlayışlarına yerləşdirlir.[1153]

Bütün bunlarla yanaşı, Təbrizli hesab edirdi ki, Azərbaycan xalqı Türkdür və onu “Azərbaycanlı”, ya da “Azəri” adlandırmaq doğru deyil. O, yazırdı: “İran türklərini yalnız Azərbaycan adındakı qəfəsdə tutanların hiyləsini indilik bütün İranda olan Türk qardaşlarımız açıqca gözə almamışlar və bu gün də Rusiyada, Avropada, İranda bizə Türk yerinə azərbaycanlı adını zorla və israrla təlqin edənlərin hədəfi budur, bizə təlqin etsinlər ki, Türk sadəcə Azərbaycanda ola bilər, yaınız o yerdə olduğu zamanda Türk deyil, bəlkə Azəri adını ala bilər”.[1154]

---

[1152] Təbrizli Əli. Ədəbiyyat və miliyyət. Tehran, Atropat kitab evi, 1360, s.89
[1153] Yenə orada, s.91-92
[1154] Yenə orada, s.88

Onun fikrincə, ümumiyyətlə, "İran" coğrafiyasındakı türkləri ancaq Azərbaycan çərçvəsində görmək, üstəlik də onlara "Azərbaycanlı", ya da "Azəri" demək, türklərin coğrafiyasını və sayını azaltmaqla bağlıdır. O, yazırdı: "Özgələri bizə Türk deməkdən cəkinmirlər, vəli özümüzünkülər cin bismillahdan qorxan kimi üşünürlər, cünki ya özlərinə etimad nəfsləri yoxdur və ya başqa yerlərdən dəstur və ya əmr almaqdadırlar".[1155]

Ümumiyyətlə, Əli Təbrizlinin əsas məqsədi bütün türklərin, o cümlədən Azərbaycan türklərinin milli tarix şüurunun və mədəni şüurunun yenidən bərpasıdır ki, müəyyən nöqsanları nəzərə almasaq əsasən doğru təsbitlər ortaya qoya bilmişdir. Burada vacib olan Türkün öz keçmişini öz şüuru ilə dəyərləndirə bilməsi, tarixdə buraxdığı səhvləri bir daha təkralamamasıdır. Eyni zamanda, türk öz dilini və kimliyini bir an olsun belə, unutmamalı və daima assimilyasiya qarşı mübarizə aparmalıdır.

Əli Təbrizli çox haqlı olaraq qeyd edirdi ki, Azərbaycan türkləri hansı dinə, partiyaya etiqad edib etməməsindən asılı olmayaraq milli məsələlərdə ortaq yol tutmalıdır. Onun fikrincə, vaxtilə başımıza gələn məğlubiyyətlərin səbəbi də məşrutiyyəti, demoktratiyanı, sosial-demokratizmi və s. məsələləri doğru təhlil edə bilməməyimizdir. O, yazırdı: "Məşrutə dövründə oz əlimizlə turk törəsi olan Qacarı yıxdıq, habelə firqədə milli adla üzərimizə rus qiyafəsində Kommunistlər cıxdı və sonra ruslar bizim üstümüzdə Amerikalılarla müamilə edib, bizi köhnə düşmənimizin əlinə tapşırdılar". [1156] Eyni zamanda, o, yazırdı ki, indi də ingilis və rusların əlaltıları Azərbaycanda köhnə oyunlarına davam edirlər: "İngilisin köhnə framasonları, rusların təzə framasonları, milli masqa altında məzlumlar sırasında, bugün "Varlıq" adı altında darlıq törətməkdədirlər. Və indi bu hiylələri və bu fürsətçi qəhrəmanları göz evinə alaraq baxalım ki, bugünkü nəsil, dünənki nəslin saymazlığından və duymazlığından nə cürə təcrübələr almalıdır".[1157]

Təbrizlinin dediklərində həqiqət payı çoxdur, ancaq Qacarların yıxılmasında yanlız günahkar başda Səttarxan olmaqla

[1155] Yenə orada, s.130
[1156] Təbrizli Əli. Ədəbiyyat və miliyyət. Tehran, Atropat kitab evi, 1360, s.104
[1157] Yenə orada, s.102

türk məşrutəçiləri deyil, eyni zamanda Türk törəsindən çox uzaqlamış Qacarlar da suçlu idilər. Ümumilikdə, Türk törəsindən uzaqlaşma bütün sahələrdə özünü ortaya qoymuşdu və bunun acı sonluğu olaraq yalnız Türk dövlətləri çökmədi, eyni zamanda Türk xalqları da ağır bir vəziyyətlə üz-üzə qalası oldular. Artıq Əli Təbrizlinin timsalında yenidən toparlanaraq Türk törəsinə dönüşün əsil mahiyyəti daxili tələbatdan irəli gəlirdi.

Eldar Qaradağlı isə hesab edir ki, Əli Təbrizlinin şillə kimi bu sözləri, iddialı dostlarının düşüncə ölçüsündən daha geniş idi. O, yazırdı: "Milli iradə aydınlıq iradəsi deməkdir. Aydınlıq iradəsi isə iç çirkabını, köləlik qorxusunu, özgəlik əxlaqını öldürməklə şərtlənir. Ə.Təbrizli və M.T.Zehtabi kimi düşünürlərimiz bunu bacardılar. Onlar düşmən tələsinin ipucunu yiyəsiz qafalarda buldular. Onlar "Nə mutlu, Türkəm" deyənə, (Atatürk) fəlsəfəsinin öz malları olduğunu bildilər. bu isə fars qardaşlığına, İran xalqları dostluğuna qarşı yaramazlıq hesab olundu! Çünki belə dostluğun ən gərəklisi rus ayısına, fars dayısına ufanmaqdır. Başqa deyimlə, bu dostluğun başlıca şərti, beyin çalarlarının irançılıq bataqlığına cummasıdır. Zehtabilər, Təbrizlilər Fars faşizminin gözlərinə baxa-baxa "göy yerə gəlsədə, mən mənəm, sən də sənsən!" sözünü deyib, millətin ürəyində yaşamağı bacardılar. Onlar milləti sadə bir toplum kimi deyil, bir sevgi kimi, bir varlığın anlamı kimi, bir sönməz ruh kimi sevdilər. Onlar bizim yerlərdə olan qutsallığı torpağa və ulusa aşırmağı bacardılar. Milləti özlərinə deyil, özlərini millətə həsr edən bu ədiblərimizin ruhu ulusumuzun beyninə yeridi". **[1158]**

Təbrizlinin şeirlərində də Azərbaycan türklüyünün yenidən dirilişi və toparlanması məsələləri xüsusi yer tutmuşdur. Məsələn, o, "Ərdəbil" şeirində Səfəvilər dönəmində milli-mənəvi əhəmiyyət kəsb etmiş Ərdəbilin yenidən o ruha dönməsinə, eyni zamanda bütün Türk xalqlarının birliyinə çağırış etmişdir:

*Ey olan tarixlərə zinət, gülüstan, Ərdəbil,*
*İftixar olsun ol canım da qurban, Ərdəbil*
*Tarixi tutmus ayaqdan-başa şanü söhrətin,*
*Sən ilə məşhur idi dünyada İran, Ərdəbil.*

---

[1158] Qaradağlı E. Azərbaycan mərkəzli türkçü düşüncə. İstanbul, ÇAV, 2012, s.21

*İndi bilməm nə oldu ki, gözdən, nəzərdən düsmüsən,*
*Olmusan itgin bu İran içrə viran, Ərdəbil.*
*Sən idin çesmi-çırağı ölkənin, ey şəhrimiz,*
*Fəxr edərdi sən ilə Azərbaycan, Ərdəbil!*

*Birləşə Türkiyə və dünyada hər nə Türk var:*
*Qırğızıstanü bu türkü Özbəkistan, Ərdəbil!*
*Ölmərəm görsəm ki, olmuş cümlə bu millətləri*
*Bir-birinə mehribanü canü canan, Ərdəbil!.*[1159]

Şübhəsiz, Əli Təbrizlinin türkçülük və turançılıq ruhu yeni nəsil Azərbaycan türklərinin milli ruhunun dirçəlişində və şəkillənməsində mühüm rol oynamışdır. Xüsusilə də, onun Türk dünyagörüşündən çıxış etməsi və görüşlərini Türklük nüvəsi əsasında formalaşdırması çox önəmli idi. Başqa sözlə, onun digər çağdaşlarından əsas üstünlüyü milli fəlsəfədən, Türk fəlsəfəsindən və dünyagörüşündən çıxış etməsi idi. Təbrizlinin Türk dünyagörüşünü daha dərindən mənimsəməklə yanaşı, onu ifadə etməkdə doğru yol seçməsi, milli fəlsəfənin yenidən dərki baxımdan çox önəmli olmuşdur.

[1159] Ağcaköylü Abdullah. Tebrizli Aliden seçme şiirler. - "Türk kültürü", sayı 2, yıl 1, Aralık 1962, s.32

## MƏHƏMMƏDTAĞI ZEHTABİ

**Həyat və yaradıcılığı.** Azərbaycan Türk mütəfəkkiri, tarixçi alim, türkoloq Məhəmmədtağı Zehtabi-Kirişçi (1923-1998) Təbriz yaxınlığındakı Şəbüstər mahalında dünyaya gəlib.

O, ibtidai təhsilə kənd məktəbində başlamış, lakin iki il oxuduqdan sonra, özünün təkidilə təhsilini Təbrizdə davam etdirmişdir. Təbrizdə əvvəl "Füyuzat" sonra isə "Firdovsi" adına məktəbin ədəbi şöbəsini bitirib müəllimlik etsə də, ali məktəbdə təhsil almaq fikrindən daşınmayıb. Zehtabi Təbrizdə Hacı Yusif Şüarın təşkil etdiyi xüsusi siniflərdə ərəbcə və katoliklər kilsəsində Müsyö Jozef Qvinderin sinfində fransızcanı yaxşı öyrənib. Ana dili ilə yanaşı fars, ərəb, fransız, sonralar mühacirət dövründə isə rus dilini öyrənib. 1940-cı illərdə Zehtabi Azərbaycan Demokratik Firqəsinin mətbu orqanı olan və Mirzə Əli Şəbüstərinin redaktorluğu ilə ana dilində nəşr olunan "Azərbaycan" qəzetində məqalə və şeirləri ilə çıxış edib.[1160]

1946-ci ildə Azərbaycan Milli Hökuməti dövründə açılmış Təbriz Universitetinin ilk tələbələrindən olub. Milli hökumət süquta uğradıldıqdan sonra Pəhləvilər rejiminin təqiblərindən qurtulmaq üçün 1948-ci ildə Bakıya gələn Zehtabi Sovet Rusiyası tərəfindən sərhəddi pozduğuna görə Sibir bölgəsinə sürgün olunub və üç il Sibirdə sürgün həyatı yaşayıb. "Şahın zəncirində" şeirində Sibirdəki həyatını qələmə alan Zehtabi Stalinin ölümündən sonra bəraət alaraq Sibirdən Düşənbə şəhərinə göndərilib. O, bir ildən sonra Bakıda təhsil almaq arzusu ilə Quzey Azərbaycana gələrək Bakı Dövlət Universitetinin tələbəsi olub. Çox keçmədən Zehtabi həmin universitetin Şərqşünaslıq fakültəsində 15 ilə yaxın, ərəb dili və ədəbiyyat fənlərini pedaqoq kimi tədris edib.[1161]

1969-cu ildə Bağdadda işləmək üçün işlədiyi universitetə müraciət edən Zehtabi 1971-ci ildə İraqa köçmüşdür. Bağdad

---

[1160] Məmmədli Pərvanə. Cənubi Azərbaycan: ədəbi şəxsiyyətlər, portretlər (I Hissə). Bakı, Sabah, 2015, s.101

[1161] Məmmədli Pərvanə. Fikir və əməl böyüklərimiz./Məhəmmədtağı Zehtabi/. Bakı, Nurlar NPM, 2014, s.413

Universitetində qədim türk dillərini və fars dilini tədris edən Zehtabinin dilçiliyə aid yazdığı iki kitabı dərs vəsaiti kimi istifadə olunub. Yazıb çap etdiyi əsərlər əsasında universitetin elmi şurası tərəfindən ona professor adı verilib. O, İraqda işlədiyi vaxtlar Avropaya səfər edərək bu zaman orada oxuyan güneyli azərbaycanlı tələbə gənclərlə görüşüb. Həmin tələbələr ona ana dilini öyrənmək üçün kitab tapmadıqlarını söyləyiblər və nəticədə o, "İran türklərinin sərfi" (morfologiyası) kitabını yazıb. Bu kitab tələbələrinin köməyi ilə 1976-cı ildə Almaniyada çap olunub.[1162]

İraqda yaşayan kərküklərin və ya türkmanların dili bəzi məhəlli fərqləri nəzərə almasaq, tamamilə Azərbaycan türkcəsində olduğu üçün Zehtabi həmin kitabları bir qədər təkmilləşdirərək İraq türkmanlarının ləhcə və ədəbiyyatı da daxil olmaqla digər bir dilçilik kitabı da hazırlayıb.

1979-cu il "İslam inqilabı"ndan sonra Təbrizə dönə bilən Zehtabi buradakı Təbriz Universitetində Azərbaycan türkcəsini eləcə də ərəb dilini tədris etməyə başlayıb. Zehtabi Berlində nəşr etdirdiyi "İran türklərinin sərfi" kitabını tədris etməkdən ruhlanaraq və Universitetində tədris zamanı yüzlərlə gənc oğlan və qızların dili öyrənib mənimsəməyə can atdıqlarını bu sahədə mənbə və ədəbiyyatın qıtlığını nəzərə alıb "Müasir Azərbaycan ədəbi dilinin leksikologiyası", "Ana dilimizi öyrənək" adlı kitablarını yazıb. Jurnalistika və tərcümə sahəsində də qələmini sınayan Zehtabi Berlində "Ərk" dərgisini, Bağdadda isə 5 müxtəlif dildə "Birlik yolu" adlı qəzetini nəşr etməyə nail olub.[1163]

Eyni zamanda, o, Təbriz şəhərində çoxlu milli ruhlu əqidədaşları ilə "Azərbaycan mədəniyyət ocağı"nı qurublar. "İslam inqilabı"ndan sonra ana dilinin istifadəsinin qadağan edilməsi nəticəsində oxyub yaza bilənlərin az olmasını nəzərə alan bəzi partiya və cəmiyyətlər qəzet və jurnal nəşr etməklə yanaşı Azərbaycan türkcənin öyrədilməsinə və yazılmasına yönəldilmiş kurslar açılıb ki, Təbriz şəhərində türkcə qrammatika kurslarının açılmasında Zehtabinin də böyük rolu olmuşdur. Zehtabi inqilabdan

[1162] Yenə orada, s.415
[1163] Yenə orada, s.416

sonra Təbriz radio və televiziyasında ana dilimizdə verilişlər yayımlamaq üçün kadrlar yetişdirmişdir. [1164]

1991-ci ildə Quzey Azərbaycanın yenidən azadlığa çıxması Güney Azərbaycanda da yeni ümidlər yaratmışdır. Məhəmmədtağı Zehtabi və Həsən Dəmirçinin rəhbərliyi ilə milli fəallar hər il Babək qalasına toplanmağa başlayıblar. Milli Fəallar Babəkin müstəmləkəçiliyə, işğala qarşı mübarizə aparmasını, onun dönməzliyini özlərinə simvol seçiblər. Hər il bu qurultay təkrarlandıqca iştirakçıların sayı artmış, bu artıq bir xalq hərəkatına çevrilmişdir.

Zehtabi 1998-ci ildə Şəbüstər şəhərində evində ölmüş halda tapılıb. Bəzi güneyli qruplar onun ölümünün təbii olmadığı və qətlə yetirildiyini irəli sürüblər. Bununla da Zehtabinin adı İran adlanan ölkənin müxalif qrupların yayımladığı şübhəli ölümlər və siyasi qətllər siyahısında dərc edilib

Zehtabi mədəniyyət, tarix, ədəbiyyat, dilçilik sahələrində aşağıdakı bir çox dəyərli əsərlərin müəllifidir: "İran türklərinin əski tarixi" (iki cilddə), "Müasir ədəbi Azəri dili (səs-sərf)", "İran türklərinin sərfi", "İslama qədər İran türklərinin dili və ədəbiyyatı", "Türkcəm mənim, səs bayrağım", "Bağban Eloğlu", "Bəzz qalasnında", "Mişovun əfsanələri" və b.

**İctimai-siyasi görüşləri.** Zehtabinin ictimai-siyasi görüşlərində milli məsələ xüsusi yer tutmuşdur. O, bir çox milli ziyalılarımız kimi gənc yaşlarından etibarən Azərbaycan Milli Hərəkatına böyük ümidlər bəsləmişdir. Bu anlamda onun 21 Azər hərəkatının süquta uğramasından sonra yazdığı "Sən osan, mən də buyam" şeiri diqqətə layiqdir. Həmin şeirin də, o, farslaşdırma siyasətinə qarşı çıxaraq türklüyünü, Türk dilini müdafiə etmişdir:

*Su deyibdir mənə əvvəldə anam, ab ki, yox.*
*Yuxu öyrətdi uşaqlıqda mənə, xab ki yox.*
*İlk dəfə ki, cörək verdi mənə, nan demədi.*
*Əzəlində mənə duzdanə nəməkdan demədi.*
*Anam əxtər deməyibdir mənə, ulduz deyib o.*
*Su donanda deməyibdir yəxdi bala, buz deyib o...*

*Bəli, daş yağsa da goydən, sən osan, mən də buyam.*

[1164] Yenə orada, s.416

*Var sənin başqa anan, vardı mənim başqa anam.*
*Özumə məxsus olan başqa elim vardı mənim.*
*Elimə məxsus olan başqa dilim vardı mənim.*[1165]

Milli hərəkatın təməl məsələlərindən biri də milli hüquq məsələsi idi ki, Zehtabi bu hüququ yalnız azərbaycanlılar üçün deyil, bütün xalqlar üçün istəyirdi. Azərbaycan Milli hərəkatı 2-ci Dünya savaşından sonra dünyada qələbə çalan ilk milli azadlıq hərəkatı idi. Bunun üçün də bütün dünya xalqlarının diqqətini çəkmişdi. Bu hərəkat bütün Doğu və Afrika xalqları, özəlliklə də İraq, Əlcəzair və Tunis kimi yaxın və Orta Doğu bölgəsi xalqlarının milli mücadilə ruhlarının güclənməsində çox təsirli və ümidverici olmuşdur.

İlk dövrlərdə sosial-demokrat cərəyanına meyilliyindən dolayı marksizm-leninizmə müəyyən ümidlər bəsləyən Zehtabinin bütün hallarda əsas nüvəsi milli-mənəvi dəyərlər, Türk dünyagörüşü olmuşdur. Hər halda bir müddət Bakıda yaşayan Zehtabi görürdü ki, bir çox məsələlərdə "Leninin ideyaları" ilə söz olaraq qalır və rus bolşevizmi marksizm ideyalarına çox da əməl etmirlər.[1166] Üstəlik, Sovet Azərbaycanının partiya, dövlət rəhbərləri çar Rusiyasının Azərbaycanın bir hissəsini işğal etməsinin 150 illiyini bayram kimi qəbul edirlər. Zehtabi yazırdı:

*Dalğın Xəzərdi söyləyəni bu rəvayətin,*
*Millət öləndə, bayram edər öz əsarətin.*
*"Azad olub bu el", el adından deyən nökər*
*Ovrəşlik ilə pərdələyir öz xəyanətin.*[1167]

Yeri gəlmişkən, Zehtabi Bakıda olduğu zaman Sovet Rusiyasının ideoloji təbliğatına qapılaraq şeirlərində "Azər", "Azəristan", "Azər övladı", "Azər əsgəri", "Azəri" ifadələrinə daha çox yer vermişdir.[1168] Əlbəttə, o, bu anlayışları Türk sözünün qarşığı kimi başa düşür və istifadə edirdi. Ancaq istər-stəməz burada Sovet Rusiyasının ideolji təbliğatı və qadağalarının da təsirinin olması şübhəsizdir. Çünki o, Bağdadda yaşadığı dövrdə artıq "Azər", "Azəri" deyil "Türk" anlyışından istifadə edirdi.[1169]

---

[1165] Parçalanmış millətin harayı. Bakı, "Nurlar" NPM, 2007, s.397
[1166] Zehtabi M.T. Başqa dilim, başqa elim var mənim. Bakı, "Elm", 2011, s.25
[1167] Yenə orada, s.107
[1168] Yenə orada, 138
[1169] Yenə orada, s.176

Sosial-demokrat cərəyanına, bundan dolayı Sovet Rusiyasına çox ümid bəslədiyi dövrdə Zəhtabi hesab edirdi ki, vaxtilə İran adlanan ölkənin xalqları Səttarxanın başçılğı ilə birləşib Qacarları taxt-tacdan qovduqları kimi yenə də əl-ələ verib Pəhləviləri hakimiyyətdən salmalıdırlar. O, yazırdı:

*Necə qovdu Səttarxanım Qacarı;*
*Necə verdi türk ilə kürd əl-ələ,*
*O gün saldı dərbarlara vəl-vələ!*
*Bəluc, türk, ərəb, fars, kürd indi gər*
*Vətən dağlarından qopub*
*Axan ayna çaylar kimi*
*Sədaqətlə birləşsələr,*
*Elə güclü bir sel qopar*
*Ki, hər taxt və tacı kökündən qazar.*[1170]

Şübhəsiz, Zehtabinin o fikri ilə razılaşmaq mümkün deyil ki, Qacarlara münasibətdə belə bir mövqe tutmaqla Türk məşrutəçilər də bundan qazandılar. Tam əksinə, Qacarların süuqta uğradılması ilə ən böyük zərbə yalnız Türk məşrutəçilərə deyil, ümumilikdə türk xalqına dəydi. Çox yazıq ki, həmin dövrdə Qacarlar dövləti ilə ona müxalif olan Türk Məşrutəçilər arasında anlaşma baş vermədi, hər iki tərəfin anlaşa bilməməsi nəticəsində də ümumilikdə məğlub hakim Türk xalq oldu. Zehtabi bu acı gerçəkliyi o zaman anlamadığı üçün başqa bir şeirində də yazırdı:

*Aləm deyir:*
*-Biz bilirk, siz inqilab nəslisiz.*
*Bütün İran xəqləriylə birlikdə*
*Qaldırmısız məşrutənin bayrağın,*
*Yandırmısız İranınzın ocağın.*
*Siz olmusuz taxtdan salan Qacarı,*
*Siz saymadız ingilisi, tezarı.*[1171]

Bizcə, çox sonralar Zehtabi Türk məşrutəçilərlə Qacarlar hakimiyyəti arasında vaxtilə baş verənləri daha obyektiv şəkildə yanaşa bilmişdir. Buna nümunə kimi onun poema janrında yazdığı "Bağban Eloğlu" əsərini göstərə bilərik. O, bu əsərində artıq həmin

[1170] Yenə orada, s.176
[1171] Yenə orada, s.185

dövrdə Qacarlarda hakimiyyətlə Türk məşrutəçiləri arasında baş verənləri rus bolşeviklərinin nəzər nöqtəsindən deyil, milli yöndən dəyərləndirmişdir. Zehtabinin ilk tədqiqatçılarından olan Pərvanə Məmmədli yazır ki, həmin əsərində Zehtabi marksist-leninçi ideoloqların Məşrutə inqilabının Rusiyadakı1905-ci il inqilabının təsiri iləbaşlanması fikrini qəbul etmir: "Zehtabi yazır ki, İran, xüsusilə Azərbaycan xalqının milli şüurunun yüksəlməsi, xalqın bir çox sahələrdəki tərəqqisi Məşrutə inqilabıbı baş verməsi üçün güclü amil olaraq tarixin zəruri bir hərəkatını meydana çıxarmışdır. Qeyd edir ki, Rusiyada 1905-ci il inqilabı boğulsa da, Məşrutə inqilabı uzun zaman (1912-ci ilin əvvəllərinədək) davam etdi. M.Zehtabiyə görə Mışrutə inqilabına 19-cu əsrin ikinci yarısında Osmanlı İmperatorluğunda ba. vermiş Tənzimat Hərəkatının böyük təsiri olmuşdu. O, bu hərəkatın ideoloji mərkəzinin İstanbul, habelə Misir olduğunu göstərir və bu inqilabın yetişməsində M.F.Axundzadə və M.Ə.Talıbovun maarifçilik rtolunu da vurğulayır. O, yazır ki, Məşrutəyə yardım yalnız Qafqaz və Rusiyadan deyil, Osmanlı Türkiyəsindən də gəlmişdi və Məşrutə geru çəkiləndən sonra İstanbul, məşrutəçilərin sığındığı və fəaliyyətlərini davam etdirdiyi şəhər olub". [1172]

Gördüyümüz kimi, Zehtabi bir müddət ümid etmişdir ki, İran adlanan ölkənin xalqları (türk, kürd, fars və b.) bir yerdə Pəhləviləri devirib ölkədə azadlıq və ədaləti bərpa edəcəklər.[1173] Bunun üçün isə həm hər xalqın pöz arasında, həm də həmin xalqlar arasında birlik vacibdir. O, "Birlik" şeirində yazır:

*Əgər kütlə qalxıb həyat istəsə,*
*Verər hökmün axırda bir gün zaman.*
*Dağılsın, nəhayət, gərək bəndlər;*
*Sökülməzmi zülmətdən axırda dan?*
*Elin birliyi silkələr dağları,*
*Dayanmaz önündə nə soltan, nə xan!*[1174]

[1172] Məmmədli Pərvanə. Fikir və əməl böyüklərimiz./Məhəmmədtağı Zehtabi/. Bakı, Nurlar NPM, 2014, s.419
[1173] Zehtabi M.T. Başqa dilim, başqa elim var mənim. Bakı, "Elm", 2011, s.66
[1174] Yenə orada, s.108

Zehtabi o zaman əsil gerçəyi görə bilmədiyi üçün, ümid edirdi ki, bu dəfə də bütün "İran" xalqları birləşib Pəhləviləri devirəcəklər. Çox güman ki, Zehtabi "Xalqlar nəğməsi" şeirində də "İran" xalqlarının birliyindən söz açır, "İran"ı özünün vətəni kimi qələmə verir. O, yazırdı:

*Həmişə olmuş vətənim İran,*
*Azadlıq üçün olaram qurban,*
*İran xalqlarını tanıyır hər yan...*

*Fars ilə türklər dursun yanaşa,*
*Ərəb, kürd, türkmən gəlsinlər qoşa,*
*Bəluc, qaşqayı dağ aşa-aşa...*[1175]

O, "İnsanları sevirəm" şeirində də əsil bir Türk övladı, mütəfəkkiri kimi heç biri milli, irqi, dini ayrı-seçkiliyi qəbul etmədiyini, insanlıq üçün yaşadığını ifadə etmişdir. Zehtabi yazır:

*Mən sevirəm insanları*
*Ürəyimtək, qanımtək –*
*Həyat quran insanları.*
*Mən sevirəm farsı, türkü, gürcünü*
*Ürəyimtək, canımtək.*
*İnsanlıqdan pay alan*
*Hər insanı sevirəm;*
*İstər qara, istər ağ.*[1176]

Zehtabinin burada vurğuladığı insanlıq məsələsi, heç şübhəsiz türklərin hər daim apardığı siyasətin önəmli bir parçası olmuşdur. Yəni Türk xalqlarının törəsində insanlq məsələsi ön planda olmuş, bütün Türk dövlətlərində əsasən heç bir milli və dini ayrı-seçkilik olmamışdır. Yəni Türk düşüncəsində Türk üstünlüyü deyə, bir kompleks olmamıdşır və olmadığı üçün başqa xalqların dilinə, mədəniyyətinə, törələrinə hörmətlə yanaşmışlar. Zehtabi də bu fəlsəfənin daşıyıcısı olan bir Türk müdriki idi:

*Hər kim sora məzlumların qanını,*
*Ta saxlaya şövkətini, şanını;*
*Hər kim bəşər karvanını saxlaya,*

---

[1175] Yenə orada, s.179
[1176] Yenə orada, s.179

*Təriqdən, yürüşdən;*
*Beyinləri cəhalətlə mıxlaya,*
*Min bir adla məzlumların sinəsini oxlaya,*
*Düşmən saya hər kim özgə milləti,*
*Üstün tuta öz millətin, ulusun,*
*Almanlısın, əfqanlısın, urusun,*
*Müsəlmanın, İsəvisən*
*Nifrətim var mənim ona ürəkdən.*[1177]

Bizcə, Zehtabi burada dolayısıyla Türkə qənim kəsilənlərə, o cümlədən fars irqçilərinə işarə edir. Farslara deyir ki, Türk heç zaman sizləri düşmən hesab etmədi, Türk dövlətlərində dilinizi, mədəniyyətinizi hər daim ifadə etdiniz. Ancaq bu gün hakimiyyət başında durub Türkün dilinə, kimliyinə, mədəniyəytinə qənim kəsilmisiniz. Bu o Türkdür ki, öz hakimiyyətləri boyunca insanlıq fəlsəfəsini hər daim həyata keçiriblər. Türk məmurları Türk xalqından daha çox başqa xalqlara qayğı ilə yanaşıblar. Çünkü Türk ailəsi öz övladlarını bu fəlsəfə, bu tərbiyə ilə böyüdürlər: sənin soyundan olmayanın dilini, törəsini aşağılama, sənə əl açanı geri çevirmə, basdığını kəsmə, aman diləyənə aman ver. Zehtabi yazırdı:

*Mən bir insan oğluyam,*
*İnsanlara bağlıyam.*
*Belələri az deyil:*
*Çinlisi var, ərəbi var, rusu var,*
*Hər rəngdən, hər millətdən.*
*Mən də Türkəm,*
*Azərbaycan türküyəm!*
*İnsanları Türk qəlbiylə sevirəm.*[1178]

Zehtabi çox müdrikcəsinə deyirdi ki, "İnsanları Türk qəlbi ilə sevirəm!". Sözün açığı, insanları Türk qəlbiylə sevmək hər millətin övladının işi deyildir. Ancaq Türk olanlar daha yaxşı anlayırlar ki, bütün insanları Türk kimi sevmək nə deməkdir, bunun fəlsəfəsi nədir. Şübhəsiz, insanları Türk qəlbiylə sevmək üçün türklük fəlsəfəsini, türk fəlsəfəsini dərk etmək lazımdır. Zehtabi ümid edirdi ki, çox keçmədən Türk oyanacaq, yenidən Türkün

[1177] Yenə orada, s.180
[1178] Yenə orada, s.180

dövranı geri gələcək və insanlığı Türk qəlbiylə sevməyin Türk dövlətində nə cür olmasını bəşəriyyət bir daha görəcəkdir:

*Al sazını, çal nəğməni, qoy Türkün oyansın,*
*Qəm munisi bundan sonra biganələr olsun.*
*Türkün də gələr dövranı, gəl nəğməni yaz sən,*
*Hər nəğmə gəzib dillərə əfsanələr olsun!*[1179]

Zehtabi uzun bir müddət "İran" xalqlarının bir yerdə İran-fars millətçiləri, Pəhləvilər rejimi üzərində qələbə əldə edə biləcəyinə inanmışdır. Bəlkə də, 1978-1979-cu illlərdə baş verən "islam iniqlabı" Zehtabinin ümidlərinin doğrultması yönündə də müəyyən bir qığılcım oldu. Ancaq Pəhləvilərdən sonra hakimiyyət başına gələn İran İslam rejiminin Azərbaycan türklərinə qarşı assimilyasiya siyasətini davam etdirməsi, üstəlik bunu yalnız irançılıq deyil, şiəçilik ideolojisi altında da aparması Zehtabinin yenidən milli dəyərlərdən möhkəm yapışmasına səbəb oldu.

**Milli maarifçilik və milli tarixi şüur.** Şübhəsiz, Zehtabi "İran türklərinin əski tarixi" kitabını məhz milli özünüdərk üçün qələmə almış, rəsmi İran tarixçiliyini alt-üst etmişdir. O, bu əsərində açıq şəkildə göstərir ki, türklər bu coğrafiyanın aborigen, yerli əhalisi olub, Şumerlərdə Türk mənşəli xalq olmuşdur. [1180] O, bu əsərində göstərməyə çalışır ki, farsdillilər isə çox sonralar türklərin yaşadığı bu ərazilərə gəlmiş və bir çox yerli mədəniyyətlərdən faydalanmışdır. Zehtabi yazırdı: "Aparılan əsaslı araşdırmalara görə, türklər İranda altı min il əvvəl yaşamış və əhalinin əksəriyyətini təşkil etmişlər. Bu nisbət bu gün də dəyişməmişdir. Güney Azərbaycan sərhədlərindən xeyli uzaqlarda olan və İranın mərkəzi əyalətlərindən sayılan Həmədan, Savə, Zərənd, Əsədabadın əhalisi həmişə farsdilli kimi qələmə verilmişdir. Bu, tamamilə yanlışdır. Bu gün də, bütün tarix boyu da oranın sakinləri türklər olmuşdur. bunu oradakı qazıntılar zamanı tapılmış gil lövhələr, o yerlərin toponimikası, folkloru, ədəbiyyatı təsdiq edir".[1181]

---

[1179] Yenə orada, s.190
[1180] Zehtabi M.T. İran Türklərinin qədim tarixi. Bakı, "Şəms", 2010, s.46
[1181] Zehtabi Məhəmməd Tağı. İran Türklərinin əski tarixi. 2-cilddə, 1-ci cild. Təbriz, "Əxtər", 1377 (1998), s.1-2

O yazırdı ki, aryan-fars qövmlərinin bu bölgəyə gəlişinə qədər, burada 3500 illik möhtəşəm mədəniyyətlər və dövlətlər olmuşdur. Zehtabiyə görə, bu kültürü yaradanlar günümüz İraq coğrafiyasında əski Şümerlər, günümüz İranın qərbində, mərkəzində və bütün Azərbaycan və Xəzərin güneyində Arattalar,Elamlar, Kassilər, Hurrilər, Kutilər, Lillibilər, Gilzanlar, Amerdlər, Kaspilər, Mannalar və Urartular olmuşdur; Əski tarix uzmanlarının böyük bir qrupu bu boyların iltisaqi dillərdə danışdığını və Mərkəzi Asiyadan gəldiyini təsbit etmişlər. [1182]

O, iltisaqi dilləri bugünkü Türk dilinin kökü olaraq görmüş, bu coğrafiyadakı əski qövmlərin tamamının iltisaqi dillərdə danışdığı, iltisaqi dillərin mütləq Türkcə olduğu mpvzusunda elm dünyasında bir-birindən fərqli görüşlərin mövcudluğunu yazmışdır. Zehtabiyə görə, ancaq fars qövmlərinin gəlişinədək burada Hind-Avropa dillər qrupuna daxil okan xalqların yaşaması elm tərəfindən bilinməməkdədir. Hind-Avropa tayfaları bi bölgəyə gələnə qədər burada daha çox Türk xalqları olmuş, ondan sonra sami, elam və digər xalqlar da mövcud olmuşdur. Zehtabi yazır ki, Pasagard qəbiləsinin öndərliyində, şərqdən İran coğrafiyasəna gələrək on dənə fars qəbiləsindən oturaq həyata keçən üçü Fars əyalətində, yeddisi isə Kirmanda yerləmişdir: "Bu on Hind-Avropa dilli qövm, Firdovsinin "Şahnamə"də gəstərdiyi kimi İran yaylasına gəlincə, tamamiylə fərqli həyat sürmüşlərdir. Onların yerləşdiyi bölgədə inkişaf etmiş mədəniyyətə sahib iltisaqi dillə danışan yerli xalqların (elamlar, kassilər, elliplər) bir neçə yüzil idarəsi altında yaşayaraq onlardan kültür, inkişaf etmiş həyat və yaşayış tərzi, əlifba, yazı və s. öyrənmişlərdir". [1183]

Zehtabi "İslama qədər İran türklərinin dili və ədəbiyyatı" əsərində də milli məsələləri diqqət mərkəzində saxlamışdır. O, yazırdı ki, ana dilimiz və ədəbiyyatımızın neçə min illik vəziyyəti, keçdiyi yolları, uğradığı müsbət və mənfi hadisələri bilımək və araşdırmaq üçün azərbaycanlı-türk xalqının ümumiyyətlə, çağadaş İran türklərinin o dövrdəki durumuyla tanış olması zəruridir:

[1182] Yenə orada, s.2-3

[1183] Zehtabi Məhəmməd Tağı. İran Türklərinin əski tarixi. 2-cilddə, 1-ci cild. Təbriz, "Əxtər", 1377 (1998), s.3

“İslamdan əvvəlki 4-5 min illik tariximizlə bu tanışlıqdan məqsəd yalnız və yalnız dilçilik və ədəbiyyatşünaslıq baxımından deyil, folklor və ədəbiyyatımızın siyasi, iqtisadi və sairə tarixi hadisələrlə ilgili olaraq keçdiyi yolu qısa aydınlaşdırıb aşıqlamaq və bu sahədə ilk addımlar atmaqdır, yoxsa islamdan qabaq neçə min illik zəngin tariximizi, hətta yığcam və qısa şəkildə belə, yazmaq üçün cildlərlə əsər lazımdır”. [1184]

Zehtabi daha sonra yazırdı ki, tarixə məlum olan miladdan 4-5 min il əvvəldən İslama qədərki uzun bir dövrdə cağdaş İranın butun Qərbi, Mərkəzi və Xəzərin cənub əyalət və mərkəzlərində, Quzey və Güney Azərbaycan da daxil olmaqla, həmişə Türk soylu ellər, qəbilələr, el birləşmələri və xalqları yaşayıb, bəşəriyyətin və “İran”ın ən əski və ən zəngin mədəniyyətini, hünəri və sənətini yaradaraq, onunla bütün Yaxın Şərq, Misir və hətta Avropaya örnək olmuş və yol göstərmişlər. O, yazır: “Cağdaş İranın bu göstərdiyimiz yerlərinin həmişə türk olmuş əhalisi, göstərdiyimiz min illiklərdə vahid turk dilində danışmış, bəşəriyyətin ən yuksək mədəniyyətlərindən birini yaratmışlar”. [1185]

Zehtabinin dünyagörüşünün əsasında Türk varlığının, Türk fəlsəfəsinin dayanması şübhəsizdir. O, ilk dövrlərdə sosial-demokratiya cərəyanına meyil göstərdiyi vaxtlarda belə, yenə də insanlıq və türklük fəlsəfəsinin vəhdətindən çıxış etmişdir. Başqa sözlə, hər nə qədər o, sosial-demokratiya əqidəsinə meyil edəndə daha çox insanlıq fəlsəfəsi üzərindən görüşlərini ifadə etməyə çalışsa da, ancaq əsil insanlıq fəlsəfəsinin türklüyün mahiyyətində olduğunu çox keçmədən daha yaxından dərk etmişdir. Bu anlamda Zehtabinin bütün varlığını Türk fəlsəfəsinə, Türk məədniyyətinə, Türk tarixinə bir öszlə, Türk varlığına həsr etməsi təsadüfi olmamışdır.

Burada xüsusilə qeyd etmək lazımdır ki, Zehtabinin ictimai-siyasi və maarifçilik görüşlərində türklük və insanlıq fəlsəfəsinin vəhdəti qırmızı bir xətlə müşahidə olunmaqdadır. Zehtabi çox doğru müəyyənləşdirə biilmişdir ki, Türk dünyagörüşü yalnız İran adlanan

---

[1184] Məmmədli Pərvanə. Fikir və əməl böyüklərimiz./Məhəmmədtağı Zehtabi/. Bakı, Nurlar NPM, 2014, s.421

[1185] Məmmədli Pərvanə. Cənubi Azərbaycan: ədəbi şəxsiyyətlər, portretlər (I Hissə). Bakı, Sabah, 2015, s.112

bölgə üçün deyil, dünyada mühüm yeri olan bir baxışlar sistemidir. Türk dünyagörüşünün mahiyyətini ortaya qoymaq üçün isə, Türk tarixini, Türk ədəbiyyatını, Türk adət-ənənələrini yenidən yazmaq lazımdır. Çünki yad tarixçilərin, kulturoqların, fəlsəfəçilərin Türk dünyagörşünə münasibəti əsasən qərəzli olmuşdur. Bu baxımdan Zehtabi öz qarşısına əsas vəzifə kimi Türk varlığını bütün sahələrdə (tarix, ədəbiyyat, dilçilik, mədəniyyət və s.) yenidən tanıtdırmağı qoymuşdur.

# CAVAD HEYƏT

**Həyat və yaradıcılığı.** Azərbaycan Türk mütəfəkkiri, türkoloq alim Cavad Heyət (1925-2014) 1925-ci ildə Təbrizdə anadan olmuşdur. O, ilk və orta təhsilini Təbriz, Həmədan və Tehranda almışdır. Tehranda orta məktəbi bitirdikdən sonra, Tehran Universitetinin tibb fakültəsinə daxil olmuşdur. Ancaq çox keçmədən tibbi təhsilini İstanbulda (1943-1946) davam etdirmişdir. Əmək fəaliyyətinə 1946-cı ildə İstanbul Universitetində başlayan Cavad Heyət 1949-cu ilədək burada cərrahlıq klinikasında çalışmış, daha sonra ixtisasını təkmilləşdirmək üçün Parisə getmiş, Paris Universitetinin cərrahlıq kafedrasında işləmişdir.

O, 1952-ci ildə yüksək dərəcəli cərrah ixtisasına yiyələnərək İran adlanan ölkəyə qayıtmış, 1953-cü ildən Tehranda "Hidayət" və "Ədliyyə" xəstəxanalarında cərrahlıq klinikaları quraraq onlara rəhbərlik etmişdir. Doktor Cavad Heyət İran adlanan ölkədə eksperimental cərrahiyyənin təməlini qoymuşdur. 1954-cü ildən etibarən ürək üzərində apardığı əməliyyatlar onu istedadlı cərrah kimi tanıtmışdır. Doktor Cavad Heyət 1954-cü ildə qapalı ürək əməliyyatı, 1962-ci ildə isə "İran"da ilk dəfə açıq ürək cərrahiyyəsini uğurla həyata keçirib. Bundan sonra o, "İran"da ilk dəfə ürək qapaqlarını dəyişdirmə, heyvanlarda ürək dəyişdirmə, Tehranda ilk dəfə insanda böyrək dəyişdirmə əməliyyatını uğurla həyata keçirdiyinə görə "Birinci Dərəcəli Əmək Ordeni" ilə təltif olunub. Tibb sahəsində qazandığı nailiyyətlər Cavad Heyətə geniş şöhrət gətirmişdir.

C.Heyət təbabətə dair qiymətli araşdırmaların müəllifi kimi də tanınırdı. Onun kitabları tibb sahəsində yazılmış dəyərli vəsait kimi mütəxəssislər tərəfindən daim yüksək qiymətləndirilmişdir. Bir sıra beynəlxalq elmi forumlar və toplantılarda öz təcrübəsinə əsaslanaraq dərin məzmunlu məruzələrlə çıxış etmiş alimin 100-dən artıq məqaləsi müxtəlif tibb jurnallarında işıq üzü görmüşdür. Heyət uzun müddət cərrahlığın tədrisi və cərrahların yeni nəslinin formalaşdırılması ilə məşğul olmuşdur.

Heyət bütün həyatını və fəaliyyətini əsasən cərrahlığa, həmin sahə üzrə araşdırmalara sərf edərək "İran"da nəzəri və eksperimental cərrahiyyənin əsasını qoymuş, elmi-nəzəri və əməli uğurlarına görə 1983-cü ildə Paris Beynəlxalq Cərrahlıq Akademiyasının üzvü seçilmişdir. Bundan sonra 8 ildən artıq Tehranda Azad İslam Universitetinin cərrahiyyə kafedrasına rəhbərlik edib. O, farsca cərrahlıqla bağlı üç cildlik dərslik kitabının müəllifidir. Eyni zamnada, o, 12 il "Tibbi bilik" jurnalını nəşr etdirmişdir. Jurnalda onun 70-ə yaxın elmi məqaləsi yayınlamışdır.[1186]

Heyətin ictimai-siyasi məzmunlu milli-maarifçi görüşləri daha çox 1979-cu il "İslam inqilabı"ndan sonra ortaya çıxmışdır. İnqilabdan sonra türk və fars dillərində "Varlıq" dərgisini nəşr etdirən Heyətin əsas məqsədi Azərbaycan türklərinin dilini, kimliyini, mədəniyyətini, tarixini təbliğ etmək olmuşdur.[1187] Bununla da Cavad Heyət dostu Prof. Dr. H. Nitqi ilə birlikdə İran adlanan ölkədə elmi türkologiyanın əsasını qoymuşdur.

Heyətin 1993-cü ildə Türkiyənin sabiq prezidenti Süleyman Dəmirələ yazdığı açıq məktubu da diqqətimizi cəlb edir. O, həmin məktubunda yazırdı: "Mən bu sətirləri göz yaşlarımın qarşısını ala bilmədən yazıram və bu anda Allah-taaladan xalqımıza qurtuluş, ya da özümə ölüm istəyirəm». P.Məmmədli yazır ki, Cavad Heyət həmin məktubda Azərbaycanı düşdüyü indiki fəlakətli vəziyyətdən çıxarmaq üçün səyləri gücləndirməyə, «böyük dövlətlərin silahları ilə təpədən-dırnağadək silahlanmış ermənilər qarşısında azərbaycanlıları müdafiə edib soyqırımına mane olmağa çağırır: "Doktor Cavad Heyətin və eləcə də digər müəlliflərin Şimalla bağlı yazılarında Qarabağ (onun tarixi və indiki fəlakətli vəziyyəti, o cümlədən qaçqınlar məsələsi) problemi və 20 Yanvar faciəsi dərginin aparıcı vəən yanğılı mövzularındandır. Yazının əvvəlində xatırlanan Süleyman Dəmirələ açıq məktubu xalqına qurtuluş yolları arayan vətəndaş yazıçının arxasında böyük dövlətlərin durduğu erməni işğalına qarşı dünya ictimaiyyətinə etiraz səsi vəədalətli tələblərinin ifadəsidir. Məktubda

---

[1186] Məmmədli Pərvanə. Cənubi Azərbaycan: ədəbi şəxsiyyətlər, portretlər (I Hissə). Bakı, Sabah, 2015, s.122

[1187] Yenə orada, s.125-126

azərbaycanlıların başına gətirilən bugünkü faciələr açıqlanır və göstərilir ki, «məmləkətimizin başına gətirilən bu faciə böyük bir millət və ya güclü bir dövlət tərəfindən deyil, bütün tarix boyu himayəmiz altında dolanan və ədalətimiz sayəsində bütün insani haqlardan faydalanan ermənilər tərəfindən» açılmışdır”.[1188]

O, 2014-cü ildə Bakıda dünyaya göz yummuşdur.

Heyətin milli-maarifçi yönlü əsas əsərləri aşağıdakılardır: “Azərbaycan ədəbiyyatına bir baxış”, “Türklərin tarix və mədəniyyətinə bir baxış”, “Türk dili və ləhcələrin tarixinə bir baxış”, “İki dilin mqayisəsi”, “Azərbaycan şifahi xalq ədəbiyyatı” və başqalarıdır.

**İctimai-siyasi görüşləri.** Heyətin ictimai-siyasi görüşlərində milli dil və milli kimlik məsələləri mühüm yer tutmuşdur. Ona görə dil mədəniyyətin aynası və onun təməli, cəmiyyəti millət halına gətirən ən güclüsüdür.[1189] Dilin inkişafına daxili və xarici amillərin təsir göstərdiyini deyən Heyətin fikrincə, bir xalqın yazı dili qadağan olarsa və uşaqları başqa bir dildə yazıb oxumağa məcbur qalarsa, o xalqın dili assimilyasiyaya uğrar, necə ki Pəhləvilər dövründə Azərbaycan türkcəsinin yazı dilinin yasaqlanması nəticəsində belə bir təhlükə yaranmışdır.[1190] O, yazırdı: “Pəhləvilərin hakimiyyəti dövründə fars dilindən başqa bir dildə, xüsusən də türk dilində danışmaq qadağan idi. Aryamehr (Məhəmmədrza Pəhləvi) hakimiyyətinin son illərində türk dilinə, yəni 35 milyonluq əhalinin ana dilinə qarşı nifrət o qədər gücləndi ki, əgər bir kitabda türkcə bir söz, ya bir cümlə görsəydilər, onu çıxarmadan kitabın çapına icazə verilməzdi”.[1191]

Heyətə görə, panfarsistlərin iddia etməsi ki, Türk dili Azərbaycan xalqının doğma dili deyil moğollar zamanı zorla qəbul etdirilib və guya, bu xalqın dili iran-arya dillərindən azəri dili olub, özü də azərbaycanlılar iranlıdır, bütün bunlar hamısı kökündən

---

[1188] Məmmədli Pərvanə. Cənubi Azərbaycan: ədəbi şəxsiyyətlər, portretlər (I Hissə). Bakı, Sabah, 2015, s.124

[1189] Heyət Cavad. Dilimiz, ədəbiyyatımız və kimliyimiz uğrunda (məqalələr toplusu 1). Bakı, Elm və təhsil, 2011, s.34

[1190] Yenə orada, s.35

[1191] Yenə orada, s.158

yanlışdır. O, yazırdı: "Hökumətin bu qeyri-insani və qeyri-islami, faşist siyasəti sayəsində milyonlarca xalqımız öz dilindən məhrum qaldı. Bu qeyri-elmi nəzəriyyəni müdafiə edənlərin başında Təbrizli Əhməd Kəsrəvi və onu izləyənlər gedirdi. Əlbəttə, hökumət, fars şovinizmi və onun təbliğatçıları da işlərinə yaradığı üçün bu fikri yaymağa çalışırdılar". [1192]

Onun fikrincə, birincisi, bu problemin kökündə "arya" və "türk" anlayışlarına doğru yanaşmama dayanmışdır. Belə ki, hər iki məfhum irqi deyil, mədəni-kültürəl mahiyyəti ifadə edən anlayışlardır və "İran" sözü də ölkə, vətən anlamında olub, burada yaşayan hər bir kəs, o cümlədən müsalmanlar da iranlıdır. [1193] İkincisi isə, "azəri dili" adlandırlan dil heç bir zaman dil səviyyəsində olmayıb arya qrupuna aid ləhcədir və ondan bu günə çox az şey qalıb. Üçüncüsü, hər hansı dil xalqın hamısı tərəfindən qəbul olunduğu zaman qəbul olunur. Bu anlamda qədim zamanlardan Azərbaycan xalqının dili türk dili, yerli əhalisi də türklər olmuşdur. [1194]

Heyət açıq şəkildə yazırdı ki, məşrutə inqilabından sonra və Pəhləvilərin hakimiyyətə gəlməsi ilə Azərbaycan xalqının qismətinə düşənlər ifrat millətçilik və şovinist hislərdən qaynaqlanan zülm, siyasi təzyiq və milli sitəm oldu: "Pəhləvilər sülaləsinin əsas fikri İran əhalisinin hamısını bütöv bir farsdilli xalqa çevirmək və onlardan hər kəsdən yüksəkdə olan bir arya milləti yaratmaq idi... Xalq öz mühüm insanlıq hüquqlarından, yəni öz ana dilində yazıb-oxuma, təhsil alma hüququndan məhrum qaldı. Qeyri-fars əhalinin dili və mədəniyyəti inkar olunurdu. İran əhalisinin 30-35 milyonluq hissəsinin ana dili olan türkcəyə sonradan "məcburi öyrədilmiş dil" damğası vurur, faşist diktatorluğu və monopoliyadan doğan bu batil, insaniyyətə zidd əqidələrini milli mədəniyyət (!) adı altında Azərbaycan övladlarına zorla qəbul etdiridilər. Yəni, qeyri-fars iranlılara mədəni müstəmləkəçilik və milli zülmün ən pis şəklini rəva görürdülər". [1195]

---

[1192] Yenə orada, s.172
[1193] Yenə orada, s.172
[1194] Yenə orada, s.173-174
[1195] Yenə orada, s.217`

Pəhləvilər dövründə "İran nasionalizmi" adı ilə "fars şovinizmi" siyasətinin həyata keçirildiyini yazan Heyətə görə, bu məsələdə Ə.Kəsrəvi, M.Əfşar kimi sapı özümüzdən olan "balta"ların da rolu az olmamışdır. Heyət, "Azəri, yaxud Azərbaycanın qədim dili" kitabında Kəsrəvinin Azərbaycan türklərini aryançılığa bağlamasını ciddi şəkildə tənqid etmişdir. Kəsrəviyə görə, Azərbaycan xalqı ilə farsların mənşəyi birdir, hər ikisi aryakökənli, irandilli qohum xalqlardır, türklər isə buraya çox sonra (Mahmud Qəznəlinin dönəmində) gəlmiş xalq olub azərbaycanlılar da moğolların dönəmində zorla türkləşdiriliblər. Kəsrəviyə görə, bütövlükdə Azərbaycan xalqı Türk dilindən imtina etməli, bunun əvəzində fars dilini öyrənməlidir. [1196] Heyət Kəsrəvinin bu uydurmalarına cavab olaraq yazırdı ki, bütün bunlar həm islami, həm də bəşəri dəyərlərə ziddir: "Təəccüb doğuran budur ki, tədqiqatçı və dilçi iddiasında olan müəllif (Əhməd Kəsrəvi-F.Ə,) ümumiyyətlə dilçilik prinsiplərindən uzaqdır, qrammatik qaydalara riayət etmir və yekunda peşəkar bir siyasətçi kimi çıxış edir, öz dillərini qatıb-qarışdırır və bu yolla fikrilərini qəbul etdirməyə çalışır. Məsələn, müxtəlif dialektləri azəri dili adlandırmaqla onları fars dili ilə eyniləşdirir. Belə bir qənaətə gəlir ki, milyonlarla azərbaycanlı və iranlının dili olan Türk dili məhv olub sıradan çıxmaqdadır. Kəsrəvinin fikrincə, bu dildən imtina edilməli, onu fars dili ilə əvəzləməli və deməli, milyonlarla insanın dili dəyişdirilməlidir. Amma necə?! Hansı prinsip və üsulla?! Necə etməli ki, bu xalqın azadlıq istəkləri, insan hüquqi və islami prinsipləri ziddinə olmasın və axı nə üçün?! Bu cür faşistcəsinə yanaşmaqdansa, başqa azad, mədəni ölkələrdə (İsveç, Belçika və sairə) olduğu kimi bəşəri və islami dəyərləri rəhbər tutub, həm ölkənin rəsmi dilini (fars dili) öyrətmək və həm də ana dilində təlimi azad buraxmaq daha yaxşı olmazmı?". [1197]

Eyni zamanda, Heyət "Fars dilini qoruyaq, lakin İranın Türk və Ərəblərinin də ana dilini əzməyək" məqaləsində kəsrəviçilərin

---

[1196] Heyət Cavad. Dilimiz, ədəbiyyatımız və kimliyimiz uğrunda (məqalələr toplusu 2). Bakı, Elm və təhsil, 2014, s.15-26`

[1197] Heyət Cavad. Dilimiz, ədəbiyyatımız və kimliyimiz uğrunda (məqalələr toplusu 2). Bakı, Elm və təhsil, 2014, s.26`

"fars şovinizmini" davam etdirən Ağayi Məhəmmədəli Füruği tənqid etmişdir. Füruği də kəsrəviçilər kimi iddia edirdi ki, iranlı ruhu bütün "İran xalqları"nı birləşdirməlidr, çünki onlar iranlı irqindən olub, tarixi hadisələrin təsiri nəticəsində türk və ərəb dilində danışrlar. Heyət yazırdı: "Ağayi Füruği, ən pis radikal düşüncələr elə sizin və sizin həmfikirlərinizin öz qeyri-fars həmvətənləriniz, ən əsas, türkdilli və ərəbdillilərin öz ana dili barədə olan düşüncələrinizdir. Dövlətə təklif etdiyiniz, öz həmvətənlərinizi "əzmək, yatırmaq" fikri də elə bu ifrat faşist düşüncələrinizin təsiriylə yaranmışdır. Mənim fikrimcə və haqq-ədalətin tələb etdiyi kimi, İslam dövlətinin siyasəti gərək bu məzlum iranlıları sizin kimi şovinist həmvətənlərinin cəngindən qurtarmaq olsun. Siz öz məqalənizdə Əhməd Kəsrəvinin kəskin və məntiqsiz fikirlərini tənqid edirsiniz. Sonra onun Pəhləvi rejimi və onun şovinist saray nəzəriyyəçiləri tərəfindən təsdiqlənən və bir "elmi" nəzəriyyə şəklində yarım əsr hakim mədəniyyət formasında insanlara təbliğ olunan və zorla qəbul etdirilən saxta nəzəriyyəsini təkrarlayırsınız və deyirsiniz: "Bizim bu həmvətənlərimiz də iranlı irqindəndirlər və tarixi hadisələrin təsiri nəticəsində məcburən türk və ya ərəb dilində danışrlar". Təəssüf edirəm ki, siz hələ də xəyali iranlı irqindən danışırsınız və bilmirsinzi ki, "irq" sözü zahiri xüsusiyyətlərin (dəri rəngi, saç şəkili, sifətin quruluşu, göz, burun və s.) məcmuəsini xatırladır və müəyyən edir, bir ölkənin və ya millətin insanlarının dilini göstərmir. İranlılar müxtəlif qövmlərdəndirlər (fars, türk, ərəb, lor, bəluç, türkmən), amma hamısı bir irqə (ağ irqə) mənsubdurlar. Dil irqin səciyyəvi əlaməti deyil, qövmiyyətin nişanəsidir və tarix boyu mümkündür ki, müxtəlif səbəblər üzündən dəyişsin". [1198]

Heyət yazırdı ki, Füruğunun nəzərdə tutduğu anlamda əgər dil və irq iranlı olmanın əlaməti olsaydı, farsdilli tacik və əfqanların da iranlı olması lazım olardı, üstəlik türkmənlər, Azərbaycan türkləri, ərəblər isə iranlı hesab olunmayaydı. O, yazırdı ki, o zaman bu, islam "İran"ının konstitusiyasının və "İran" xalqının ümumi fikri və əqidələrinin ziddinə olardı: "Bizim ölkədə hətta İslam İnqilabından əvvəlki dövrdə də iranlı milliyyətinin əsasını İslam təşkil edirdi. Bu

---

[1198] Heyət Cavad. Dilimiz, ədəbiyyatımız və kimliyimiz uğrunda (məqalələr toplusu 1). Bakı, Elm və təhsil, 2011, s.526-527`

səbəbdən, farsdilli zərdüştilər erməni və yəhudilər kimi azlıqların bir hissəsi hesab olunurdular. Baxmayaraq ki, İranın bütün müsəlman qövmləri, hətta türkmənlər dil və qövmiyyətə fikir verilmədən iranlı hesab olunurdular”.[1199]

Gördüyümüz kimi, Heyət burada bir tərəfdən Azərbaycan türklərinin iran-aryan mənşəli, irandilli olmamasını irəli sürdüyü halda, digər tərəfdən ortaq dövlət kimliyi, ərazi kimliyi də olaraq “iranlı” vurğusunu ortaya qoymağı da unutmur. Üstəlik, Füruği kimlərə xatırladır ki, vaxtilə Şah İsmayıl da türk olmasına baxmayaraq, “vahid İran” üçün Osmanlı türkləri, Şeybani-özbək türkləri ilə savaşmış və şiə məzhəbini dövlətin rəsmi dini elan etmişdir: “Siz ki müəllimsiniz və bilirsiniz ki, Ağqoyunlu Uzun Həsənin nəvəsi və şeyx Səfiyyədinin kötücəsi olan Şah İsmayıl İran ölkəsinin qorunması üçün öz həmdilliləri, yəni osmanlılar və özbəklərlə döyüşdü. Türk dilində lirik şeirlər yazmasına, saray və orduda bu dilə rəsmiyyət verməsinə rəğmən, parçalanmış İranın ittihadı, vahid İranın təşkili və onun hifzi, istiqlalı, yüksəlməsi və şiə məzhəbinə İranın rəsmi məzhəbi kimi rəsmiyyət verilməsi üçün heç bir səy və fədakarlığını əsirgəmədi”.[1200]

Bizə elə gəlir ki, doktor burada bir az ifrata varır, çünki Şah İsmayıl və Türk müdrikləri “vahid İran”, “parçalanmış İranın ittihadı” üçün deyil, türklük və qızılbaşlıq uğrunda mübarizə aparmışdır. O ki qaldı, Şah İsmayıl və digər Türk sultanlarının Türk dili və ədəbiyyatı ilə yanaşı, fars dilinə və ədəbiyyatına hörmətlə yanaşmaları insanlıq fəlsəfəsi ilə bağlı olmuşdur. Eyni fəlsəfəyə aşağı yuxarı bütün Türk dövlətləri və onların hökmdarları əməl ediblər. Onlar üçün heç bir zaman türk kimliyi üstünlüyü, türk dili üstünlüyü, türk mədəniyyəti üstünlüyü deyə bir problemləri olmamışdır və olmadığı üçün də Türk dövlətlərində türk ya da qeyri-türk hər bir kəs azad və ədalətli şəkildə yaşamışlar.

Ancaq Qacarlar dövləti Böyük Britaniyanın əliylə süquta uğradıldıqdan sonra hakimiyyətə qeyri-qanuni yiyələnmiş İran Pəhləvilər və İran İslam rejimləri insanlıq fəlsəfəsindən çox uzaq olduqlarını bir daha ortaya qoydular. Onların dövrlərində də Əhməd

[1199] Yenə orada, s.527
[1200] Yenə orada, s.528

Kəsrəvilər, Mahmud Əfşarlar, Ağayi Füriğilər kimi ortaya çıxıb Aryan üstünlüyündən bəhs edib zor-xoş bütün xalqları farslaşdırmağa cəhd göstərdilər. Hətta iş o yerə gəlib çatıb ki, "İran"dakı seyidlərin peyğəmbər nəslindən, yəni ərəb olduqları belə gün kimi ortada olduğu halda, Füruğilər onları da farsdilli müsəlman hesab etməkdən çəkinmir. Heyət yazırdı: "Məgər, onları Rəsul-Əkrəmin (s) nəslindən hesab etmirsiniz? Seyyidlərin ulu cəddinin ərəb olmasını inkar edirsiniz? Yaxud da, Allah eləməsin, seyyidləri ərəb olmaları və sizin sözünüzlə, ərəblər iranlı irqindən olmadıqları üçün onları iranlı bilmirsiniz? Siz gərək qəbul edəsiniz ki, sizin fikrinizin əksinə olaraq seyyidlərin əcdadı ərəbdilli olmuş və zaman keçdikcə, İranın farsdilliləri və türkdilliləri arasında yaşadıqları üçün türkdilli və farsdilli olmuşlar!".[1201]

Heyət çox doğru şəkildə ifadə edirdi ki, farslar "İslam iniqlabı"ndan sonra da qeyri-fars xalqlara, xüsusilə də Azərbaycan türklərinə qeyri-səmimi davranışlarını, fars şovinizmini davam etdirmişlər. Belə ki, inqilabdan sonrakı İran İslam hakimiyyəti İslam dininin şərtlərini sözün gerçək mənasında deyil, öz maraqlarına uyğun olaraq həyata keçririlər. Heyət yazırdı: "İslamda irqçilik məhkum olunur və pislənir. Dillər də ilahi ayələrdəndir (Qurani-Kərim). Bu dillər insanların öyrənmələri və bir-birlərini anlayıb tanımaqları üçün yaranmışdır. Yəni dillər öz-özlüyündə fəzilət və müqəddəsliyə sahib deyillər, bəlkə, fəzilət və müqəddəslik dillərin köməyi ilə deyilən və yayılan məzmun və məfhumlardır. İnsanların da qiyməti və əhəmiyyəti xüsusi bir dilin xətrinə deyil, bəlkə təqvanın dərəcəsi, yaxşı əməllərə Haqq və xalqının yolunda yerinə yetirlən xidmətlərə görədir".[1202]

Heyətə görə yekdilliliyi dildə deyil ittihad və qüvvətdə axtramaq lazımdır. Onun fikrncə, ittihad və qüvvət anlamında yekdillilik üçün də müxtəlif xalqlar bir-birlərinin hüquqlarına, haqlarına, xüsilə də ana dillərinə hörmət etməlidirlər. Bu baxımdan o, üzünü Füruği kimi fars şovinistlərinə tutaraq yazırdı: "Siz istəyirsiniz ki, öz xəyali imperiyalizm sarayını sizin ana dilinizdən fərqli bir dildə danışan qardaşlarnızın xarabalıqları üzərində tikəsiniz

[1201] Yenə orada, s.529
[1202] Yenə orada, s.530

və onları da özünüzlə yekdil edəsiniz. Siz bilməlisiniz ki, ana dili hər kəs üçün əziz və möhtərəmdir və ana dili min il əvvəlki dil demək deyil ana dili hər bir övladın körpəlikdən öz anasından öyrəndiyi dildir. İstər Hafiz və Sədinin olsun, istər Şah İsmayıl Xətainin,Füzulinin, ya Çingizin, Teymurun və yaxud da avara qaraçıların dili olsun”.[1203]

Cavad Heyət az da olsa ümid edirdi ki, hər bir kəs böyük Allahın xətrinə və incik həmvətənlərin birliyi naminə xəyalpərəst, mürtəce düşüncələrindən əl çəkə bilərlər: “Farspərəst, türkpərəst və ərəbpərəst düşüncələrin yerinə məhəbbət, qardaşlıq və bərabərliyi təbliğ edək ki, bundan artıq Allahın bizə bəxş etdiyi bu behşitə bənzər ölkəni təkəbbür və nifaq cəhənnəminə çevirməyək. Mən və türkdilli həmşəhərlililərimin çoxu fars dilini də ana dilimiz qədər sevirik və əgər mübaliğ olmasa, onun ədəbiyyatına – yüksək insani və irfani fikirləri şirin və gözəl dillə təbliğ edən ədəbiyyata aşiqik. Dr. Nitqinin sözü ilə desək, Türk dili biizm ana dilimizdirsə, fars dili də bizim sevgili dilimizdir. Lakin icazə verin sizdən soruşum, siz də belə radikal millətçi və irqçi (iranlı irqi) fikirlərnizlə özünüzü fars ədəbiyyatınlın yüksək irfanının varisi hesab edirsiniz?”. [1204]

Əslində Heyət çox incə bir məqama toxunurdu ki, özünü humanist, ədalətli, ari irq hesab edən fars şovinistləri nəyin müqabilində buna iddialıdırlar. Yəni onların tarixi ənənələri bugünkü iddiaları heç də üst-üstə düşmür. Halbuki Türk xalqları, o cümlədən Azərbaycan türkləri heç bir vaxt belə bir iddia da olmamışlar, üstəlik öz ədalətsevərlik, insanlıqsevərlik əməlləri ilə bütün zamanlarda dünyaya səs salmışlar. Heç bir zaman qurduqları dövlətlərdə başqa xalqların dillərini, milli adət-ənənələrini (insanlıqdan kənar olan adətlər istisna) qadağan etməmiş, haqq və ədalətdən kənara çıxmamışlar. Ancaq Pəhləvilər hakimiyyətə qeyri-qanuni olaraq gələr gəlməz türk kimliyini, türk dilini, türk törələrini qadağan etmiş, İran İslam rejimi isə əvvəlcə bu haqları tanıyacağını bildirib, hətta konstitusiyanın 15-ci maddəsində hər bir xalqın ana dilində tədrisinə icazə verilməsini qəbul etdiyi halda, bu günə qədər müxtəlif bəhanlərlə buna izin verməmişdir.

[1203] Yenə orada, s.530
[1204] Yenə orada, s.531

Aryan-fars şovnizminin radikal təbliğatçılarının "İslam inqilabı"ndan (1979) sonra isə molla qılığına girərək eyni siyasəti davam etdirmələrinə təəccüblənməyə dəyməz. Fars şovinstləri üçün dəyişən sadəcə "inqilab"ın rəngi idi, yəni dünənə qədər "demokratiya" adı altında "ağ" libasa bürünənlər, onun iflasından sonra İslam dini-şiəlik adı altında "qara" libasa büründülər. Ancaq mahiyyət etibarilə fars şovinistləri üçün önəmli olan hakimiyyəti əllərində saxlamaq və türklük üzərində assimilyasiya siyasətini davam etdirmək idi. Sadəcə, Pəhləvilər dönəmində fars şovinsitləri havadaraları ABŞ və Böyük Britaniyaya arxalanaraq türklüyün məhvini açıq şəkildə həyata keçirirdilər. Sovet Rusiyasında olduğu kimi, Pəhləvilərdə də "mən türkəm" demək belə, böyük ölçüdə yasaq olunmuşdur.

Bu baxımdan "islam inqilabı"ndan sonra fars şovinizminə xidmət edən mollaların dini "həssaslığı" yada düşməsi və qeyri-fars "müsəlman qardaşlarına" sözdə irqçi yanaşmadan əl çəkməsi qətiyyən inandırcı deyildi. Sadəcə, fars şovinistlərinin yenidən İslam dininə, ya da şiə məzhəbçiliyinə dönməsi Pəhləvilərin gözlənilən süqutu ilə bağlı praqtmatik bir addım olub "marginallıq"dan başqa adı yoxdur. Cavad Heyət kimi ziyalılarımız da İslam dininin qayda-qanunların, bəşəri haqq və hüquqların bütün xalqlar üçün bərabər şəkildə tətbiq olunmasını tələb etmələri təbii idi. Məsələn, "islam inqilabı"na qədər fars şovinistləri "iranlı" qövmündən yazanda, Azərbaycan türklərini də "azəri" adlandırıb onun tərkibinə qatanda, eyni zamanda fars dilini bütün "iranlılar" üçün doğma ana dili elan edəndə bütün bunlara etiraz etməyə heç kəsin ixtiyarı yox idi.

Fars şovinizmindən qaynaqlanan eyni müddəalar "İslam inqilabı"ndan sonra da davam edəndə Heyətlər, Zehtabilər, Nitqilər, Sahirlər və başqaları buna etiraz edirdilər. Məsələn, Heyət "Ayəndə" jurnalında getmiş "Fars dili – iranlı qövmiyyətinin böyük əlaməti" məqaləsini (müəllifi Cavad Şeyxülislami) ciddi şəkildə tənqid etmişdir. O, göstərirdi ki, birincisi, "iranlı" anlayışı qövmiyyət deyil, milləti ifadə edir. Çünki tacik, əfqan farsdilli olduqları halda "iranlı" deyillər, ikincisi türk, türkmən, ərəb farsdilli olmadıqları halda, farsdillilər qədər siyasi millət anlamında "iranlı"dırlar. Heyət yazırdı: "Məqalənin müəllifi Azərbaycan əhalisinin Türk dilini və Xuzistan

əhlinin ərəb dilini İran üçün təhlükəli bilir və Aryamehri rejiminin hakimləri kimi "50 illik planlar"la bu dilləri ləğv etmək və bu məntəqələrin camaatını da farsdilli etmək fikrindədir".[1205]

Heyət bir daha qeyd edirdi ki, "Ayəndə" müəllifinin (Cavad Şeyxülislaminin) irəli sürdüyü bu təkliflər Pəhləvilərin 50 illik dövründə bütün dövlət imkanları və görünməmiş şiddətlə Azərbaycan və digər türk bölgələrində təcrübədən keçirildi. O yazırdı: "Türk dilində nəinki yazmanın, hətta rəsmi idarələrdə bu dildə danışmağın qadağan olunduğu, türkdilli xalq şair və yazıçılarının müxtəlif siyasi bəhanələrlə aradan qaldırıldığı və ya işgəncələrə məruz qoyulduğu 50 illik Pəhləvilər dövründə türklərin məskunlaşdığı hansı şəhər, qəsbə, kənd və ya ailəni farsdilli etdilər? Təcrübə edilmişi yenidən təcrübə etmək yanlış addımdır. Pəhləvi rejiminin faşist və qeyri-insani üsulları təkrar təcrübəyə layiq deyil. Əgər İran və iranlılara rəğbətiniz varsa, o acı və qeyri-insani təcrübələri təkrarlamaq arzusu yerinə öz ölkənizdəki həqiqətlərə bir qədər diqqət yetirin və iranlı milliyyətinin təməlini bu ölkə əhalisinin mövcud xüsusiyyətlərində (İslam, vətən və digər ortaq xüsusiyyətlər) axtarın, onlara hörmət edin və o xüsusiyyətlərin toplamından iranlı olmanın böyük əlaməti və nişanəsini axtarın". [1206]

Ümumiyyətlə, Heyət fars dilinin "İran" xalarının ortaq dili olmasına etiraz etmədiyini, bununla yanaşı hər xalqın öz milli dillin də təhsil almasının, bilməsinin vacibliyini də vurğulayırdı: "Bizim fikrimizcə, çoxdilli əhalisi olan bir ölkədə bir ümumi ortaq dil olmalıdır, lakin bu məqsədə çatmaq üçün gərək insani və məqsədəuyğun yol seçilsin. Elə bir yol ki, başqları da o yolu getmiş və məqsədlərinə yetmiş olsunlar. Bugünkü dünyada çoxdilli əhalisi olan ölkələr çoxdur və İsveçrə, Belçika, Kanada, SSRİ və s. bu kimi ölkələrdəndir. Bütün bu ölkələrdə ümumi ortaq bir dil mövcuddur, lakin hər bölgə və qövmün dili həmin bölgədə rəsmidir və o məntəqənin insanları əvvəl öz dillərini, savadlandıqdan sonra isə ölkələrinin müştərək dillini öyrənirlər. Bizim fikrimizcə, İranda bu günədək bu məsələdə bir irəliləyişin olmamasının səbəbi mədəni geridə qalmadan başqa, "ifrat millətçi" dövlətlərin yanlış siyasət və

[1205] Yenə orada, s.532
[1206] Yenə orada, s.534

üsulları olmuşdur. İnsanlar öz ana dillərində təhsil aldıqda daha tez savadlanırlar və insan da ölkəsinin dilini daha tez öyrənər”. [1207]

Heyət fars şovinistləri tərəfindən Pəhləvilər dövründə olduğu kimi, “islam inqilabı”ndan sonra da **Türk kimliyinin** aşağılanmasına ciddi şəkildə etiraz etmişdir. O, yazırdı ki, Pəhlvilərin və onun başında duran Rza Pəhləvinin Azərbaycanda apardığı sitəmlər başqa vilayətlərdə olduğu kimi ayrı-ayrı adamlara qarşı aparılmırdı: “Burada milli sitəm siyasəti aparılırdı, edilən təhqir və söyüşlər hamıya qarşıə yönəldilmişdi. Bu təhqir Azərbaycan dilinə edilən təhqirlər idi, azərbaycan dili isə bütün azərbaycanlıların dilidir. Türkləri “xər” (eşşək) adlandırır, Təbrizdə aparılan əhalinin siyahıyaalınmasına isə “xərşomari”, yəni eşşəklərin siyahıya alınması deyirdilər. Bütün bu deyilənlər özü xalqın milli qürurunu yaralamaq, milli oyanışa səbəb olmaq və etnik meyillərin güclənməsi üçün kifayət idi”.[1208]

Azərbaycan mütəfəkkirinə görə, Türk kimliyini təhqir edənlər bilməlidirlər ki, bu məsələ əsrlərcə məğlub bir millətin hakim olduqdan sonra etdikləri böhtanlardan başqa bir şey deyil. O, yazırdı: ““Türk sözünün təhqiredici mənada işlədilməsinin tarixi mənşəyi” barədə müəllifin diqqətinə çatdırmaq istərdim ki, müasir dövrdə və tarixdə bu cür iftira və istinadların oxşarı çoxdur. Məğlub millətlərin çoxu qalib millətlər üçün belə ləqəblər, hətta daha pisini də uydurmuşlar”. [1209] Bununla da Heyət çox incəliklə fars millətçilərinə çatdırıdı ki, daim Türkün idarəçiliyi altında yaşadığınız üçün türklər haqqında bu iftiraları uydurmusunuz. Halbuki fars millətçilərinin “vəhşi”, “barbar” deyə təhqir etdiyi Türk xalqları, onların hökmdarları hakim olduqları zaman öz millətindən daha çox başqa millətlər, o cümlədən farslar üçün və bütövlükdə insanlıq naminə çalışıblar.

Heyət hesab edirdi ki, Azərbaycan türklərinin milli məsələylə bağlı haqlı tələblərini müdafiə edən ziyalıları “etnik ziyalılar” adlandırıb bunu başqa yerə yozan Əhməd Kəsərvilər, Füruğilər, Əli Mürşüdizadlar, Mahmud Əfşarlar, Cavad Şeyxül-

[1207] Yenə orada, s.536
[1208] Yenə orada, s.593
[1209] Yenə orada, s.536

islamilər və başqaları fars şovinizminim davamçılarıdırlar. O, Ə.Mürşüdizadın "Azərbaycanlı ziyalılar və onların milli-etnik mənsubiyyəti" adlı kitabına həsr etdiyi tənqidi məqaləsində yazırdı: "Bilmək lazımdır ki, etnik ziyalılar heç bir vəchlə yeni etnik dəyərlər yaratmırlar ki, onları təbliğ edib və həyata keçirməli olsunlar. Əəksinə, onlar öz milli mənsubiyyətlərini, yəni dil, mədəniyyət, soy kök, yurd və din kimi müştərək dəyərləri dərindən dərk edirlər. Hər hansı cəmiyyətin dəyərlər toplusunu, milli dayaqlarının bir hissəsi, bəzən də (monoetnik millətlərdə) onun özəyini təşkil edən dəyərləri mövcud müştərək dəyərlər kimi xalqa anladır, onları öz fərdi və kollektiv hüquqları ilə tanış etməyə çalışırlar".[1210]

Heyətə görə Mürşüdizadın Azərbaycan türklüyünü İran millətçiliyinə qarşı qoyması, İran millətçiliyini də farsçılıqla eyniləşdirməsi doğru yanaşma deyil. Çünki farsçılıq, fars etnikçiliyi də eynilə Azərbaycan (İran türkü) etnikçiliyi kimidir. Heyət yazırdı: "Bu etnikçiliyin hər ikisi İran millətpərvərliyinin bir hissəsi hesab edilməlidir və İran millətçiliyi kimi təqdim edilə bilməz. İranın digər etnik xalqlarında baş verən etnikçilik meyilləri də (bu məsələdə) istisna deyil. Müəllif və onun əqidə dostlarının əsas problemi ondan ibarətdir ki, onlar iranlı olmağı fars olmaqla eyniləşdirilər. Ağayi Mürşüdizadın təbrincə, kim fars deyilsə, öz soy-kökünə dayanıb öz adət-ənənələrinə bağlıdırsa, özünü iranlı bilib bütün həyatını İran xalqına xidmətdə keçirmiş olsa da, döyüş meydanlarında İranın azadlığı yolunda şəhid vermiş olsa belə, iranlı deyil və İran vətəndaşı hesab edilə bilməz. Elə bu səbəbdən də ifrat millətçilik və fars monopolizmini irançılıq, iranpərəstlik hesab edir, azərbaycanlıların öz ana dilinə, milli mədəniyyətinə isti münasibətini isə xarici amillərin təsiri altında yaranmış türk millətçiliyi, pantürkizm və yaxud marksizm kimi qiymətləndirir".[1211]

Heyətə görə, Mürşüdizad bilərəkdən "etnikçilik" (etnos) və "millətçilik" anlayışlarını qarışdırıb, "etnos" və "milliyyət anlayışlarına tərif vermədən Azərbaycan türklərini haqsız durma salmağa çalışmışdır. Azərbaycan Türk mütəfəkkiri yazırdı: "Halbuki, bildiyimiz kimi, etnikçilik müştərək dilə, mədəniyyətə, soy-kökə,

---

[1210] Yenə orada, s.575
[1211] Yenə orada, s.578

milliyyət isə torpağa (vətənə), dinə, hökumətə, tarixə və ölkədə yaşayan bütün etnosların mədəniyyətlərinin məcmusu olan milli mədəniyyətə söykənir. Milliyyət həm də birgəlik hissləri və müştərək gələcəklə şərtlənən anlayışdır”.[1212]

Bizcə, Heyət özü də etnos, miliyyət və millət anlayışlarında bir az qeyri-dəqiqliyə yol vermişdir. O, əvvəlcə etnikçiliklə millətçiliyin fərqindən yazdığı halda, daha sonra etnikçilik, ya da etnosla milliyyətin müqayisəsini verir. Bizcə, burada etnosla, ya da milliyyətlə millətin müqayisəsini vermək lazım idi. Çünki etnos və miliyyət bir-birinə daha yaxın anlayışlar olduğu halda, milliyyət millət məfhumlarında fərqli tərəflər çoxdur. Başqa sözlə, milliyyət daha çox özünəməxsusluğu-monoetnikliyi (dil, soykök, törələr-kültür və s.) ifadə etdiyi halda, millət isə (ortaq din, vətən, mədəniyyət, vətəndaşlıq və s.) çoxetnikliyi, çoxmədəniyyətliliyi, çoxdinliliyi özündə əks etdirə bilərr Bu baxımdam Heyətin etnosla milliyyət anlayışları arasında apardığı müqayisə doğru olmamışdır. Çox güman ki, o, burada milliyyətlə millət anlayışları arasında müqayisə aparmaq istəmişdir. Çünki yalnız belə olduğu təqdirdə, məlum olur ki, Türk milliyyəti ilə Fars milliyyəti birlikdə siyasi-ideoloji anlamda “İran milləti”, “iranlı”nı ifadə edə bilər.

Heyət onu da yazırdı ki, “İslam inqilabı”na qədər yalnız fars etnosundan olanlar iranlı sayıldığı üçün, ölkədə zorla farslaşdırma siyasəti aparılmışdır və artıq bunu həyata keçirmək mümkün deyil. Ona görə, ölkədə islam, vətən və vətəndaş birliyi (vətəndaşlıq) ortaq milli anlayışlar olduğu üçün burada yalnız fars etnosunun deyil, türk etnosunun və digər etnosların da dili, kültürü, soykökü və başqa amillər nəzərə alınmalıdır.[1213]

Heyətə görə, təxminən son bir əsrdə Azərbaycan türklərinin əleyhinə aparılan paniranist siyasət Türk ziyalıları arasında müəyyən qədər yeni düşüncələrin, ideyaların yaranmasına səbəb olmuşdur: “Pəhləvilərin hakimiyyətdə olduqları bütün illər boyu aryanpərəstlik və farsçılıq təbliğatı, türkə düşmənçilik, ərəbə düşmənçilik siyasəti, hətta İslam dini əvəzinə Zərdüştlüyün təbliğ edilməsi dövlətin mədəni siyasətinə çevrildi. İran türklərini (azərbaycanlıları) təhqirlə

[1212] Yenə orada, s.579
[1213] Yenə orada, s.579

paralel gedən bu mədəni siyasət azərbaycanlı ziyalıların bəzilərinin baxışında dəyişiklik yaradan və onların milli-etnik düşüncələrində oyanışa səbəb olan güclü bir amil oldu. Etnikçilik üzərində yaranmış milli şüur və ya millətçiliyə söykənən nasionalizm son yüz il ərzində Avropa (ələlxüsus, Fransa və Almaniya) nasionalizminin təsiri altında İrana gəlmiş, bizim ölkəmizdə aryanizm, əslində isə farsçılıq, panfarsizm və qədim İranı bütləşdirmək şəklində təzahür etmişdir. Bu ifrat millətçilik siyasəti Pələvilərin səltənəti illərində daha da gücləndirildi, türklərə düşmənçilik, ərəbə düşmənçilik və müəyyən dərəcədə İslama düşmənçiliklə faşizm xarakteri alaraq mədəniyyət şəklində zorla bütün İran xalqlarına qəbul etdirildi”. [1214]

Onun fikrincə, Azərbaycan Türk milliyyətçiliyinin meydana çıxmasında, türk ziyalılarında yeni fikirlərin yaranmasında fars millətçiliyi, fars şovinizmi mühüm rol oynamışdır. Yəni fars şovnizmi Azərbaycan türklərini farslaşdırmağa zorladıqca, onun ziyalıları buna qarşı mücadilə vermiş və bu mübarizə içində də yeni fikirlər ortaya çıxmışdır. Fars şovinizminin meydana gəlməsində də son iki əsrlik Avropa nasionalizminin mühüm rol oynadığnı qeyd edən Heyətə görə, “Avropa nasionalizmi, bir üzündə azadlıq, müstəqillik, o biri üzündə isə faşizm, özgələrə düşmənçilik və irtica həkk olunmuş bir sikkədir. Bir fransız məsəlində nasionalizm vətənpərvərliklə müqayisədə belə şərh edilir: “Vətənpərvərlik – özününkülərə sevgi, nasionalizm - özgələrə nifrətdir””. [1215]

Sözün açığı, fars şovinistlərinin bu məsələdə fransız millət-çilərini ötüb keçdiyini qeyd etmək olar. Çünki fars şovinistləri türklərə o qədər nifrət edir ki, hətta artıq farslaşmış türkləri belə yenə də təhqir etməkdən çəkinmirlər. Halbuki özünü “İran İslam” dövləti elan etmiş İran İslam rejiminin ideoloqları da yaxşı bilirlər ki, Quranda açıq şəkildə bu cür millətçilik pislənilir və İslam dininə etiqad gətirənlər milliyyətindən asılı olmayaraq “müsəlman” hesab olunurlar (müsəlmanlar qardaşdırlar). Heyət yazırdı: “Biz sizi bir-birinizi tanıyasınız deyə millətlər və qəbilələr şəklində yaratdıq və sizlərdən Allah-təala yanında ən əziz olanı sizin pəhrizkar olanlarınızdır”. Heyətə görə də, bu ayə də sübut edir ki, heç bir

[1214] Yenə orada, s.580
[1215] Yenə orada, s.582

millətin başqa millətə yuxarıdan aşağı baxmaq ixtiyarı yoxdur. Hətta, Qurani-Kərimin bir ayəsində buna işarə edilərək deyilir ki: "Başqa tayfalara həqarətlə baxmayın, ola bilsin ki, onlar sizdən üstün olsunlar, (onlar haqqında) pis fikirdən çəkinin, xəbərçilik və cacusluq etməyin". [1216]

Bu o deməkdir ki, İslam dini də irqçiliyin, radikal millətçiliyin əleyhinə olmuş, bu məsələdə bütün xalqları xəbərdar etmişdir. Ancaq İslam dininə, o cümlədən Qurani-Kərimə formal bağlı olan fars şovinistləri üçün bu ayələrin heç bir əhəmiyyəti yox idi. Ona görə də, fars şovinistləri hər zaman İslamdan, ancaq milli maraqları üçün lazım olan məsələlərdə istifadə etmişlər.

Son bir əsrdə, xüsusilə də Pəhləvilər dövründə Azrəbaycan Türk ziyalıları arasında **marksizm-leninizm təliminə** marağın olmasını Heyəti, türk milliyyətçiliyi ilə bağlamağı doğru hesab etmir. Onun fikrincə, Türk mütəfəkkirlərinin marksizm-leninizmə meyil göstərməsinin kökünü türk etnikçiliyində axtarmaq doğru deyildir. O, yazırdı: "Əslində isə bu məsələdə (türk etmikçiliyində) başlıca amili İranın milli siyasəti kimi təqdim və təhlil olunan Pəhləvi hakimiyyəti illərində azərbaycanlıları, Azərbaycan dilini (Türk dilini) təhqir edən və bu dilə düşmənçiliklə yanaşan panfarsist və fars şovinizmi siyasətində axtarmaq lazımdır. Belə münasibət və düşüncə tərzi Sovet dövləti dağıldıqdan və sonra marksizm-leninizm ideologiyası məğlub olduqdan sonra daha da gücləndi. Halbuki, əgər başlıca amil marksizm-leninizm ideologiyası olmuş olsaydı, onun məğlubiyyətindən sonra zəifləməli idi". [1217]

Beləliklə, milli məsələdə C.Heyətin əsas düşüncəsi ondan ibarət idi ki, farsdillilərin milliyyəti fars milləti "iranlı" olduğu kimi, "İran"ın Türk əhalisinin də milliyyəti Türk, milləti iranlıdır. Şübhəsiz, bu düşüncə yalnız Heyətin deyil, əsasən "Varlıq" dərgisi ətrafında cəmləşənlərin də fikrilərinin tərcümanı idi. Onların düşüncəsində "İran mərkəzli" bir dövlətdə Azərbaycan türklüyünün də mövcudluğu mümkün görünürdü. Daha doğrusu, Heyət Tehranda yaşadığı müddətcə Azərbaycanın "İran"dan ayrılmasının əleyhinə

[1216] Yenə orada, s.582
[1217] Yenə orada, s.587

olduğunu, özünü türk olmaqla yanaşı həm də iranlı hesab etdiyini və "İran" bütünün özününkü hesab etdiyini ifadə etmişdir.[1218]

Eldar Qaradağlıya görə, C.Heyət başda olmaqla "Varlıq" dərgisində çalışanlar bir tərəfdən "iranlıyam", "iranlıyıq", "iranlı olaraq qalacağıq" deyir, digər tərəfdən isə türkçülüyün dirçəlməsinə xidmət edirdilər. E.Qaradağlı yazır: "İstər maarif, istər yaşam, kültür, ekonomik, politik və başqa alanlarda öz toleranslı sürəcilə tanınan bu ulusal sürəcin ən apaıcı kimliyini "Varlıq" dərgisində bulmaq olar. Tanınmış cərrah, aparıcı el ağsaqqalı prof. C.Heyət cənablarınnı başçılığıyla 30 illik fəsilnamə kimi yayılan Varlığın ulusumuzun boşluq dövründən sonrakı intibahında dəriz izlər buraxmışdır. 1979-cu il devrimindən sonra Bakıdan Tehrana köçmüş olan prof. Bəydilli (Qulamhesüyn Beqdeli), Məhəmmədzadə (Məhəmmədtağı Zehtabi) kimi alimlərlə birlikdə, türkiyənin türkçülük məktəbindən etgilənmiş-təsirlənmiş dr. Nitqi (Həmid Nitqi) kimi bilgin kəsim və dr. M.Fərzanə kimi intibahçı araşdırıçılar və şairlərlə birlikdə zəngin ulusal varlığı ortaya qoydular. Yaş, sosial yerləşim, Azərbaycan dışında yaşam, siyasi inamsızlıq və çeşidli düşüncə alanı bu qurumun İranlılıq üzərində dayanmasında etgili olmuşdur".[1219]

Doğrudan da, C.Heyətin dünyagörüşündə türklük və iranlılıq bir-birinin ziddi kimi deyil, tam əksinə tamamlayıcısı olaraq öz əksini tapmışdır. Buradan belə nəticə çıxarmaq olar ki, Heyət daha çox Azərbaycan türklərinin milli-mədəni muxtariyyatı tərəfdarı olub, "İslam iniqlabı"nın vədlərinin tamamının həyata keçirilməsi uğrunda mübarizə aparmışdır.

**Dini-fəlsəfi görüşləri. B**irmənalı şəkildə İslam dininə bağlılığı mühüm hesab edən Heyətin fikrincə, vaxtilə farsların zərdüşti, türklərin Gök Tanrıçı olması bir fakt olsa da,[1220] artıq 1400 ildir ki onların hər ikisi İslam dininə tapınıblar. Ona görə də, artıq farsların zərdüştliyə, türklərin Gök Tanrı dininə qayıtması doğru olmazdı. Bu anlamda o, xüsusilə də Pəhləvilərin zərdüştizmi təbliğ

[1218] Qaradağlı Eldar. Azərbaycan mərkəzli türkçü düşüncə. İstanbul, ÇAV yayınları, 2012, s.337

[1219] Qaradağlı Eldar. Azərbaycan mərkəzli türkçü düşüncə. İstanbul, ÇAV yayınları, 2012, s.337

[1220] Heyət Cavad. Türklərin tarix və mədəniyyətinə bir baxış. Bakı, Azərnəşr, 1993, s.55-56

edən ideyalarını, Kəsrəvinin yeni din yaratmaq fikrini tənqid edirdi. O, yazırdı: “Kəsrəvinin uydurdğu dinə (pakdini) gəlincə, görəsən, hansı bir ağıllı insan yaşadığımız 20-21-ci əsrlərdə öz dədə-baba dinini buraxıb özünü yeni bir dinə, illah da Kəsrəvinin uydurduğu dinə giriftar edər? İran xalqı 1400 ilə yaxındır ki, İslam dinini qəbul edib, bu dinə söykənərək böyük, bənzəri az olan mədəniyyət və ədəbiyyat yaradıb (Və Kəsrəvi ədəbiyyat və mədəniyyətə aid kitabları yandırmaqla onu yox etmək istəyirdi). Beləliklə, yalnız dinimiz deyil, mədəniyyətimiz də İslamla bağlıdır. Bu din xalqımızın ən gözəl müştərək nailiyyəti olaraq üzun əsrlər boyu bizi vahid bir millət şəklində formalaşdırıb, milli birlik və istiqlalımıza səbəb olub”.[1221]

O, “Quran və İslam” məqaləsində İslamən və sünnənin mahiyyətini açmağa çalışmışdır. O, yazırdı: ““Quran” və İslam” başlığı ilə İslam dininin müqəddəs kitabı olan “Quran”ın necə və nə zaman nazil olması, kitab şəklində toplanması, surə və ayələrin tərtibi, yazısı və inun inkişaf mövzusu, elmlə, əql və məntiqlə münasibəti, Tanrı, məxluq, kainat, insan və cəmiyyət haqqındakı düşüncələri, tövsiyə etdiyi əxlaq qaydaları barədə qısa və yığcam izahat verdikdən sonra, Quran və İslam haqqında bəzi qərblilərin görüş və düşüncələrni nəql edəcəyik”.[1222] Heyət daha sonra yazır: “Quran, insanları tək bir Tanrını tanımağa, ancaq ona pərəstiş və ibadət etməyə, ona təslim olmağa (tövhid) və ondan başqa kimsəyə əyilməməyə çağırır. “Qurani-Kərim” sayəsində peyğəmbər Ərəbistanda hakim olan şirk, bütpərəstlik, zülm və cəhaləti aradan qaldırdı və onun yerinə tövhid, ədalət və qardaşlığı gətirdi. O, cəhalət dövründə bir-birləri ilə döyüşən cahil qəbilələrdən bir vahid islam ümməti və cəmiyyəti yaratdı və onları “Allahu Əkbər” şüarı altında birləşdirərək, böyük bir millət – ümmət və dövlət qurdu. Həzrəti Məhəmməd (s) tarixdə yeganə rəhbərdir ki, gətirdiyi ideologiyanı özü həyata keçirmişdir və onun gətirdiyi din 15 əsrdir yaşamaqda və bu gün bir milyard iki yüz milyon müsəlman ona inanmaqdadır. Əlbəttə, onun “Qurani-Kərim” vasitəsilə təbliğ etdiyi üsul və

[1221] Heyət Cavad. Dilimiz, ədəbiyyatımız və kimliyimiz uğrunda (məqalələr toplusu 1). Bakı, Elm və təhsil, 2011, s.584
[1222] Yenə orada, s.621

qaydalar zamanla dəyişikliklərə məruz qalmış və bəzən də əslindən çox-çox uzaqlaşmışdır. Lakin onun qoyuduğu əsaslar hələ də orijinalığını qorumaqdadır”. [1223]

Heyətə görə, Qurani-Kərim insanlara ədalət, azadlıq, bərabərlik, barış və qardaşlıq tövsiyə edir, insanlardan bir-birilərinə şəfqətli və mehriban olmalarını, aralarında rəng, irq, dil ayrılığına görə fərq qoymamalarını istəyir: “Fəzilətli və üstünlüyü müttəqlikdə (şərdən özünü qorumaqda) görür və müsəlmanları hər hansı bir millət və təbəqədən olursa-olsun, bir-birinə qardaş bilir. Quran ən mükəmməl bir insan yetişdirməyə qərar vermişdir. Ləzzətə və rifaha qarşı olmadığı halda, insanlıq zirvəsinə çatmağı kamali-məqsəd olaraq göstərmişdir”. [1224] O, daha sonra yazırdı ki, Qurani-Kərim başdan başa bir hikmət xəzinəsidir; onun qissələri də ibrətlə dolu olub insanları fəzilətə təşviq edir: “Haqqın batilə, ədalətin zülmə qələbə çalacağını müjdə verir. “Qurani-Kərim” iman və əməlisaleh, yəni inam və yaxşı işlər yolu ilə insanların xoşbəxt olacağını bildirir”. [1225]

Heyət vəhyin nə olmasını anlatmaq üçün yazırdı ki, vəhy – “İşarət etmək”, “xəbər”, “səs” mənasındadır. Həzrəti Məhəmməd (s) peyğəmbərliyə Allahın vəhyi ilə məbus olmaqdan qabaq, əmanət və sədaqəti ilə məşhur olduğu üçün “Məhəmməd Əmin” (əmin, etibarlı Məhəmməd) adlanırdı. Heyətə görə, surələr Məkkə və Mədinə olmaqla iki qrupa ayrılır ki, buna diqqət etmək vacibdir: “Məkkə ayələri dinin əsalarına və tövhidə dəvət edir. İnsanda gözəl əxlaq yaratmağa, qəlbindən şirk və şər köklərini çıxartmağa çalışır. Bunun üçün ona Tanrını xatırladır, ədalət, ehsan (bağışlamaq), vəfa kimi əxlaqi fəzilətləri tövsiyə edir, yalan, zina, adam öldürmək, qızlarını diri-diri torpağa basdırmaq, alış-verişdə hiylə işlətmək , küfr və şirkdən çəkinməyi əmr edir”. [1226] Eynmi zamanda, Məkkə surələr nəsihət və vəzlə doludur. Heyətə görə, fərzlərə, ehkama aid ayələrin çoxu isə Mədinə surələri ilə bağlıdır. Bu ayələrdə adam öldürmə, zina, iftira, böhtan və oğruluq cəzaları, evlənmə və boşanma üsul-

[1223] Yenə orada, s.622
[1224] Yenə orada, s.622
[1225] Yenə orada, s.623
[1226] Yenə orada, s.627

qaydaları bildirilmişdir. Bu surələrdə cihad ayələri və savaşlar var.[1227]

Heyətə görə, Quranın məqsədi xalqı Tanrıya dəvət edərək, camaat arasında ədaləti bərqərar edib, onu kamala çatdırmaqdır. O, yazırdı: "Quran insanı yer üzündə Tanrının canişini bilir. İnsanlara əql və seçmək qabiliyyəti, qüdrəti verilmişdir, ona görə də öz işlərindən məsuldurlar. İnsanlar arasındakı şərin əsasını onların özündə görür, cəmiyyətdə hər cür dəyişikliyi onun ruh-fikir və mədəniyyətindəki dəyişiklikdən asılı olduğunu bildirir. "Tanrı bir elin durumunu onların nəfs və ruhları dəyişməsə, dəyişdirməz". Quran insanı fikirləşməyə, mühakiməyə və ağlını işlətməyə dəvət edir". [1228]

Heyətə görə, Quran təqlidi haram, kor-koruna itaəti zəlalət bilir, elmə itaət etməyə çağırır. Eyni zamanda, həqiqətləri anlamaq, kəşf etməyin yolu və metodunu dəlildə, mühakimədə görür və kainat, yaradılış haqqında düşünüb tədbir eləməyən və həqiqətləri görməyənləri "kor" adlandırır. Heyət yazırdı ki, "Quran" və islam elm və təqvaya bu qədər dəyər verdiyi halda nəsəb, ata-baba, qövm-qəbilə üstünlüyünü qəbul etmir. Tanrı deyir ki, insanları millətlər və qəbilələr şəklində yaratdıq ki, bir-birini tanısınlar.[1229]

Heyət yazırdı ki, sünni qayanaqlarda İslam dini və şəri ehkamı dörd dəlilə: Quran, Sünnə, İcma və Qiyasi-füqəhaya dayanır. Şiələrdə isə Quran, Sünnə, İcma və əqldir. Eyni zamanda, Quran dini və dünyəvi yaşayışın əsaslarını etidal (orta yol) üzərinə qurmuşdur.

Fəlsəfədə **insan probleminə** gəlincə, Cavad Heyət əvvəlcə filosof, fizioloq Aleksis Karelin insanla bağlı fikirlərini təhlil edir. Bu təhlilə görə dünyada elm və texnologiya inkiaf etsə də, ancaq insan xoəbəxtliyi təmin edilə bilməmiş, keçmişə nəzərn insanın mənəvi-ruhi durumu daha da ağırlaşmışdır. O, yazırdı: "Bizə görə bu faciənin başlıca səbəbi insanın özünü yaxşı tanımamsı və onun hətərəfli tərif edlə bilməməsidir. Bu acı həqiqət bizi hər şeydən əvvəl

---

[1227] Yenə orada, s.628
[1228] Yenə orada, s.629
[1229] Yenə orada, s.631

özümüzü tanımağa və ondan sonra xoşbəxtlik yollarını axtarmağa məcbur edir”.[1230]

Heyət yazırdı ki, Karelin təsbitlərincə tarixdə müxtəlif din, məzhəb, təriqət və ideologiyalar insan haqqında müxtəlif fikirlər bəyan etmiş və ona cürbəcür təriflər vermişlər. Burada əsas məqsəd insanın qurtuluşu və kamala çatması, yəni humanizm olduğu halda, insan haqqındakı görüşlər və onun xoşbəxtliyi üçün təklif edilən yollar fərqli olmuşdur: “Humanist kimi düşünürkən insanda aşağıdakı xasiyyətləri təsbit və tərif edə bilərik: İnsan əsl və müstəqil bir vücuddur, müstəqil iradəyə sahibdir, yəni dünyanı idarə edən illət və məlul silsiləsində özünməxsus iradə və istiqlalı vardır, istədiyini (iradə etdiyini) illət və məlul, məlul qaydalarından asılı olmayaraq edə bilər  və nisbi də olsa, azadlıq və ixtiyarı vardır. Insanda olan azadlıq və seçmək qabiliyyəti (ixtiyar) onu digər yaradılanlardan ayıraraq ona ilahi bir xasiyyət vermişdir. Bu azadlıq və seçmək qabiliyyəti, yəni ixtiyardandır ki, insanda əxlaqi dediyimiz fəzilətlər və onun başında fədakarlıq və özgəni özünə tərcih vermək fəziləti doğmuşdur”.[1231]

Heyət də hesab edirdi ki, insan azad və muxtar olduğu üçün də məsuldur, yoxsa başqa təbiət hadisələri, illət məlullara, heyvanlar kimi təbii qərizəyə tabe olsaydə, sözləri, işləri və ya davranışından özü məsul olmazdi. O, yazırdı: “İnsan düşünən və müdrik bir vücuddur. İnsan düşünmək sayəsində hisləri ilə kəşf edə bilmədiklərini idrak edə bilir,  məluldan illətə yol tapır. Hadisələrin illətini kəşf edir və bu yoldan yalnız öz çağında olanları yox, keçmişi də tanıya bilir, hətta gələcəyə də işıq salır, onu aydınlaşdırır. Insan öz nəfsinə də müdrikdir, yəni onu əhatə edən aləmi dərk elədiyi kimi özünü də tədqiq edib tanıya bilir və hətta dəyişdirə bilir”.[1232] Bir sözlə insan, yaradıcı vücuddur, idealist bir məxluqdur, əxlaq sahibi bir varlıqdır.

Heyətə görə, İslamda isə insan məsələsinə baxış özünəməxsusluğu ilə seçilir. Belə ki, Tanrı insanı su və torpağın qarşığından yaradıb ona öz ruhundan qatıb və elmlər öyrədib.

[1230] Yenə orada, s.645
[1231] Yenə orada, s.645
[1232] Yenə orada, s.646

İslamda insan Tanrının yer üzündəki nümayındəsi və onun canişinidir. O, yazırdı: "Yer-göy onun iradə və biliyinə tabedir, Tanrıya bənzər bir vücuddur. Yəni, biliyi, iradəsi, yaradıcılığı və idealı vardır. Burada iradədən məqsəd azadlıq, ixtiyar və seçmək qüdrətidir. Bütün bu qabiliyyətlər Tanrıda mütləq şəkildə var, insanda nisbi və məhduddur". [1233]

Daha sonra M.Haydeger və J.P.Sartrın insan haqqındaki fikirlərini dəyərləndirən Heyət yazırdı ki, insanda iki vücudun, yəni maddi və məcazi (Haydeger) vücudun olması fikri, eyni zamanda insanda əvvəl vücudun doğulması, sonradan mahiyyətin ortaya çıxması (Sart) düşüncələri ibrətamizdir. O, yazırdı: "Ancaq etiraf etmək lazımdır ki, belə azad və müdrik insanTanrıya inanmadığı zaman cansız və maddi təbiətdə yalnız, qəribdir və istər-istəmız nihilizmə (puçluq) yanaşır. Elə buna görə, çağımızın bözi böyük alimləri, o cümlədən, Aleksis Karel və Maks Plank bu nəticəyə gəlmişlər ki, imansız elm insanın bütün ehtiyaclarını qarşılaya bilməz. Həmçinin, məşhur Eynşteyn, dinsiz elmi çolaq (topal) və elmsiz dini kor adlandırmışdır. Bu alimlərin fikrinə görə, elm ideal insanı yetişdirməmişdir. Bu gün elmin, texnologiyanın hakim olduğu cəmiyyətlərdə istər kapitalist, istrəsə kommunist olsun, insan xoşbəxt olmayıb, məsx edilmişdir (mənəvi-ruhi durumu ağırlaşmışdır). Elm qüdrət yerinə həqiqət ardında olmalı, insanları hidayət etmək üçün işlənməlidir. Insanın hıyatı üç təməl və əsas üzərində qurululmalıdır: reallıq ya gerçəklik (faktlar), xeyir və yaxşılıq, bir də gözəllik. Faktlar elm ilə tanınar, yaxşılqı və ya mənəvi-məzhəbi dəyərlər əxlaqın təməli, gözəllik də incəsənətdə təcəlli etməlidir". [1234]

Heyət, yekunda insan məsələsi ilə bağlı belə bir məticəyə gəlirdi: "Beləliklə, insanlıq elm qüdrəti ilə yerə-göyə hakim olub, başqa planetlərin də əsrarını ələ gətirəndən sonra, özünü tanımaq ümidsizliyindən qurtulub xoşbəxtliyə çatmaq üçün yenə də mənəviyyata və məzhəbə sarı yönəlmişdir. Amma bu alimlərin axtardığı mənəviyyat və məzhəb elmə qarşı olan xurafatla qarışmış sünnəti-məzhəb yox, bəlkə elmin fövqündə humanistik, dinamik və insanın həyatına məna, yön verən, insanı inkifa, kamla aparan

[1233] Yenə orada, s.647
[1234] Yenə orada, s.648

məzhəbdir”. [1235]Başqa sözlə, ona görə elm və imankamal zirvəsinə uçmaq istəyən insanın iki qnadı kimidir: “Necə ki, uçmaq üçün iki qanad lazımsa, insanın yüksəlməsinə və kamala çatmasına da həm bilik, həm də inam lazımdır”. [1236]

**Əxlaq məsələsi**nə gəlincə, Heyətə görə insanın ən bariz sifəti əxlaq olmaldır. Ona görə, insan əxlaqi dəyər və fəzilətləri ilə başqa məxluqlardan fərqlənir ki, bu yüksək dəyər və fəzilətlərin təməli də əxlaqdır. O, yazırdı: “Əxlaq yaxşılığı (xeyir) pislikdən (şər) ayıran elmdir. Yaxşı işləri pis işlərdən ayırmaq üçün bir çox qaydalarımız vardır ki, onların toplusuna əxlaq və ya əxlaq qaydaları deyirik. Əxlaq qaydalarının mənşəyi haqqında alimlərin fikirləri fərqlidir. Bəziləri onu cəmiyyətdə, örf və adətdə və ya dində, bəziləri əqldə bilirlər. İslamda Tanrını tanımaq cəmiyyətdə əqillə olduğu üçün əxlaq qaydaları həm din, həm də əqlə dayanır”. [1237]

O, yazırdı ki, bu günə qədər əxlaq məsələsi iki: dini və fəlsəfi cəhətdən tədqiq edilmişdir: “Dini görüşdən əxlaqi ayin və dəyərlərin təməli də Tanrı və dini inama dayanır. Yaxşılıq (xeyir) və pislik (şər) ehkamla bir-birindən ayrılmışdır. Yaxşı iş savab, pis iş günah sayılır. Fəlsəfi və ya dini olmayan əxlaqın təməli insani dəyərlərə dayanır və işlərimiz vicdan məhkəməsində mühakimə edilir”. [1238]

Daha sonra filosfların (Sokrat, Platon, Aristotel, Aristofan, Epikür, Kant və b.) əxlaqla bağlı fikirlərinə müraciət edən Heyət belə bir qənaətə gəlirdi ki, onların bu məsələylə bağlı düşüncələrində müəyyən həqiqətlər olsa da, İslamda əxlaq anlayışına daha bitkin yanaşma var. Çünki İslamda əxlaq həm şəriət, həm də mədəniyyət baxımından tədqiq olunmuşdur. Şəriət baxımından əxlaqa yanaşanda görürük ki, İslam dinində əxlaqın təməli Tanrıya inamdır, insan yaxşılıqla Tanrını məmnun etmiş olur. O, yazırdı: “Ancaq Quranda əxlaq məsələlərində Tanrı (Xaliq) və xəlq birləşir, elə ki, Tanrını məmnun edən işlər xalqı da razı edir. Yaxşı iş görərkən Tanrının

---

[1235] Yenə orada, s.648
[1236] Yenə orada, s.649
[1237] Yenə orada, s.649
[1238] Yenə orada, s.649

rizasından başqa bir şeyi düşünməyəcəksən. İşlərdə etidala riyaət etmək tövsiyə edilmişdir”.[1239]

Beləlklə, İslamda əxlaqi vəzifələr beş bölüm ayrılmışdır: 1) insanın Tanrı və peyğəmbərə qarşı vəzifələri; 2) İnsanın özünə qarşı vəzifələri; 3) insanın ailəsinə qarşı vəzifələri; 4) insanın vətənə qarşı vəzifələri; 5) insanın başqlarına qarşı vəzifələri.

İslam mədəniyyətində əxlaq məsələsinə gəlincə, Heyətə görə burada əxlaqı hiss və əqli nəzəriyylər, yaxud da hər ikisini birgə izah etmək istəmişlər. O, yazırdı: “Əqli məzhəb – Mötədillik nəzəriyyəsi İslam təfəkküründə əqli hərəkatın nümayəndəsidir. Mötədillik nəzəriyyəsi ardıcılları ağlı dini mərifətin mənşəyi qəbul etmişlər və mərifətə yetişməyin yolunu nəzər və dəlilə bağlı bilmişlər. Əməl və məsuliyyətin elm, ayıqlıq və iradədən yarandığını, elmin fikir və nəzərdən, fikir və nzəərin də ağıldan qaynaqlandığını düşünsək, demək ağıl əxlaq normalarına uyğun həyatın əsas göstəricisidir. Mötədillik nəzəriyyəsinə görə, əməllər öz zatına görə yaxşı və ya pis olurlar və ağıl əməllərin yaxşı və ya pis olmasını dərk etməyə qadirdir”.[1240]

Əxlaq məsələsini hissi idrak baxımından izah edən sufilərə görə, əxlaq zövq, müşahidə, tədqiq və intuisiya vasitəslə həqiqətə çatmaq üçün bir üsuldur. Heyət yazırdı: “Sufi xoşbəxtlik və kamalı fənafilahda görür və ona çatma yolunu nəfsin təmizlənməsində, həvəslərdən və cismani həvəslərdən və cismani ləzzətlərdən üz döndərməkdə, tərkidünyalıq və təriqət şeyxinin fərmanlarına itaətdə görür. Elmi-kəlamın böyüklərindən, ən məşhur təsəvvüf əhlindən olan və əxlaq elmi haqqında çox sayda əsərlər müəllifi Qəzalinin fikrincə, yaxşı əxlaq hər hansı bir işdə həddini aşmamaq və ya lazımi hədd və qızıl orta prinsipinə riayətdir və mötədillik ağıl və dinin harmoniyası, qarışığıdır. O, mötəzilə qrupunun yaxşı və pisin zati olması fikri ilə razılaşmır. Ona görə, xeyir Xudanın buyurduqları və şər də qadağan etdikləridir”.[1241]

İslam mədəniyyəti ilə Qərb mədəniyyəti arasındakı oxşarlıqları və fərqlilikləri təhlil edən Heyətə görə, əslində bu günkü

---

[1239] Yenə orada, s.652
[1240] Yenə orada, s.662
[1241] Yenə orada, s.663

Qərb mdəniyyətinin inkişafında İslam mədəniyyəti mühüm rol oynamışdır. Onun fikrincə, İslam dinində elmə böyük önəm verilmişdir ki, bunu Quranın ayələrində və peyğəmbərin həsidlərindən də görmək mümkündür. Ona görə, Qərb alimlərinin “ərəb mədəniyyəti” adlandırdığı bu mədəniyyət əslində İslam mədəniyyətidir. [1242]Əsas odur ki, Qərb alimləri “ərəb mədəniyyəti” adı altında da olsa, etiraf edirlər ki, ilk kağız istehsalı, kitabın və mətbuatın kökü, tibbin inkişafı, riyaziyyatın inkişafı, qanunların təkmilləşməsi, musiqinin inkişafı, hətta bugünkü sivilizasiyanın kökü Yunan və Roma mədəniyyətindən çox İslam mədəniyyətinə bağlıdır. [1243] O, yazırdı: “Bütün bunları nəzərə alaraq bu nəticəyə gəlirik ki, bugünkü Qərb mədəniyyəti əski Yunan və Roma mədəniyyətinin ihyası və ya tamamilə şəxsi təşəbbüsləri olmayıb, bəlkə daha çox İslam mədəniyyətinin davamı olmuşdur. Bizim ulu babalarımızın Quran və İslamdan ilham alaraq qurduğu mədəniyyət Avropaya getmiş, orada işləmiş, inkişaf etmiş, bugünkü mərtəbəyə yüksəlmişdir”. [1244]

İslam dinində Həzrət Əlinin (ə) mühüm rol oynamasını ayrıca bir məqalədə (“Həzrət Əli (ə) Əhli-sünnət qaynaqlarında”) qələmə alan Heyətə görə, o, yüksək əxlaqi və insani keyfiyyətlərə malik bir igid deyil, həm də dövrünün müdriklərindən olub. O, yazırdı: “Həzrət Əlinin islamın yayılmasında və müsəlmanlar arasında elm, təqva, ixlas, səmimiyyət, fədakarlıəq, şəfqət, qəhrəmanlıq və şücaət kimi yüksək əxlaqi və insani sifətlər baxımından müstəsna bir mövqeyi vardır. Qurani-Kərim və sünnəti ən yaxşı bilənlərdən biri olduğunu bütün qaynaqlar zikr edir”. [1245]

Heyətə görə, Həzrət Əli təsəvvüf dünyası üçün də mürşid mövqeyindədir. Onun fikrincə, “İran” təsəvvüf ədəbiyyatının zirvəsində duran, Türk dünyasında böyük şöhrəti olan və Türkiyədə mövləviyə təriqətinin piri sayılan Cəlaəddin Ruminin sünni olduğu halda Həzrət Əli haqında “Məsənəvi” də dəyərli fikirlər deməsi təsadüfi deyildi: “Mövləvi Həzrət Əlidən (ə) peyğəmbərlər və vəlilərin fəxri kimi bəhs edir və onu həva və həvəsdən uzaq, ancaq

[1242] Yenə orada, s.664-665
[1243] Yenə orada, s.664-670
[1244] Yenə orada, s.674
[1245] Yenə orada, s.614

Haqq yolunda vuruşan bir qəhrəman kimi təsvir edir". [1246] Heyət yazırdı: "Həzrət Əli peyğəmbər zamanında "Qurani-Kərimi" əzbərləmiş və onun misallarına dərindən bələd olmuşdur. Əlinin (ə) hüquq bilgisi və hökm verməkdəki bacarığı Ömər tərəfindən "ən isabətli qərar verənimiz Əlidir" şəklində qiymətləndirilmişdir. Bu səbəblə ilk üç xəlifə mühüm məsələlərdə onun fikrini alardılar". [1247]

Heyət "Molla Sədranın kainatın dəyişkən mahiyyəti və ya hərəkət cövhəri nəzəriyyəsi və müasir görüşlər" məqaləsində isə Molla Sədranın fəlsəfi baxışları əsasında kainatdakı hərəkət və dəyişkənlik məsələlərini izah etməyə çalışmışdır. Azərbaycan Türk mütəfəkkirinə görə, bir cisim (məsələn, hündürlükdən bir daşın düşməsi kimi) getdikcə və ardıcıl öz ilkin durumunu itirib yeni bir vəziyyətə düşərsə, onun hərəkət etdiyini demək olar. O, yazırdı: "Belə bir hərəkət birləşik ayrı-ayrı hissələrdən təşkil olunmuş deyil, əksinə tədrici və ardıcıl bir haldır. Başqa sözlə, hərəkətin mahiyyətini, təbiətini təşkil edən yalnız onun davamedici zəvalı və yenidən var oluşudur. Hündürlükdən düşən bir daş yerə nisbətən hündürlüyünü ardıcıl dəyişir; bir hündürlüyü itirir, başqa bir hündürlüyə yetişir. Belə ki, bir hərəkətin ən azı iki ayrıca və yanaşı hərəkətdən təşkil olunmasını fərz etsək, belə bir sual ortaya çıxacaq: hərkətin birinci hissəsindən digər hissəsinə keçməsi necə baş verir? Bəllidir ki, hərəkətsizlik keçməyə səbəb deyil və hərəkətsizliyi nəzərə almasaq, hərəkətdən avayı bir şey qalmayacaq. Deməli, iki hərəkə üçüncü bir hərəkətlə bir-birinə birləşir və cəm şəkildə bütöv bir hərəkət təşkil edir". [1248]

O, yazırdı ki, Molla Sədra hərəkəti, potensial durumdan tədricilə aktiv duruma keçmək kimi bəyan edir: "Potensial və ya qüvvə baş verə biləcək, lakin hələ mövcud olmayan zəmin, istedad və durum anlamındadır. Bu potensial (qüvvə) tədricilə və ardıcıl şəkildə aktivliyə (faəla) yetişir. Mümkünlükdən çıxıb gerçəkliyə qovuşur. Potensial tədricilə itir (zəval) və aktivlik (fəaliyyət) tədricən onun yerinə keçir. Deməli, hərəkət potensial (bilqüvvə) durumun tədricilə itməsi və aktivliyin (fəaliyyət) tədricən baş verməsidir.

[1246] Yenə orada, s.616
[1247] Yenə orada, s.617
[1248] Yenə orada, s.676

Məsələn, kal bir alma tədricən yetişə bilər. Kal durumunu tədricilə itirərsə və aktiv şəkildə (gerçəkdən və görünüşdən) yetişərsə, yetişkınliyə doğru bir hərəkət qət etmiş olur. Yuxarıda dediklərimizdən məlum olur ki, yalnız potensial keyfiyyətlərə malik varlıqlar hərəkətə qadirdirlər. Tamamilə aktivlik (fəaliyyət) durumunda olan varlığa hərəkət yoxdur. Elə buna görə Tanrı və uluhiyyət aləminə hərəkət və zaman şamil deyildir”. [1249]

Heyət bir şeyin (əşyanın) başqa bir şeyə (əşyaya) hərəkəti və dəyşməsini izah edərkən yazırdı: “Görəsən, ilk şey tam məhv olub onunla tamamilə fərqli olan başqa bir şeyə çevrilir, yoxsa belə bir çevrilmədə təməl bir özək qorunur və yalnız üz qalar və zahiri görünüşlər (ərəzlər; sifətlər) dəyişir, yoxsa əşyanın zati-cövhəri də dəyişə bilərmi? Klassiklərin, hətta materialistlərin düşündüklərinə görə, hərəkət və dəyişkənlikdə cismin zati-cövhəri qalır, yalnız dörd sifət, yaxud ərəzlər dəyişir və hərəkətdə mövzunun (subyekt) qalması vacibdir, yoxsa hərəkət edən cisim itə bilər və bəlli olmaz ki, nə, haradan haraya hərəkət edib. Məşhur Bəhmənyarın, müəllimi İbn Sina ilə danışıqlarının rəvayəti bu məsələyə aydınlıq gətirir. İbn Sinanın fərqlənən tələbəsi Bəhmənyar bir gün cismin zatında hərkətin baş verməsi üzərində onunla mübahisə edir və sübut etməyə çalışır. İbn Sina tələbələrinə üz tutub deyir: “Ondan soruşun, görün, məndən niyə cavab gözləyir? Mən onun sual etdiyi vaxtdakı İbn Sina deyiləm və o da məndən sual edən vaxtdakı Bəhmənyar deyil, belə ki, bizim ikimiz də cövhəri-hərəkət nəticəsində yeni iki şəxsiyyətə, mahiyyətə çevrilmişik”.[1250]

Heyətə görə, Molla Sədra müxaliflərinin öz dilləri ilə onlara qarşı çıxıb, hərəkətin yalnız cismin dörd ərəzində (sifətlərində) baş verməsini qəbul edib: “Cismin zatı dəyişmir və saxlanılır və hər bir tipik hərəkət də vacib məslə ilə hərəkət edən cismin öz keçmişi ilə əlaqəli telləri kəsilməsin deyə, cismin qalmalı olduğunu qəbul edir. Lakin soruşur ki, cövhərun sabitliyi üçün dediyimiz maddənin ərəzlərinə də dair edə bilərikmi? Cismin indiki ərəzləri (sifətləri) ilə qədim ərəzləri arasında əlaqə teli saxlanılsın deyə, hansısa bir sabiytliyi də cismin ərəzlərində fərz edə bilmərikmi? Belə edərsək,

---

[1249] Yenə orada, s.676-677
[1250] Yenə orada, s.677

onda hərəkət hansı məna daşıyacaqdır? Hansısa bir hərəkətdə cismin ərəzləri və zatı dadəyişməz qalarsa, onda nə hərəkət edib?". [1251] Halbuku bu şəraitdə almanın xamlığı sifətləri də yetişəndə qorunmalıdır ki, bu da bir paradoks və mümkün olmayan bir şeydir. Heyət yazırdı: "Sonra (Mola Sədra) deyir ki, cismin ərəzləri, cövhərin müxtəlif halət və cilvələrini qəbul edirik və ərəzlər cövhərdən aslıdırlar, nda nədən ərəzlərin hərəkəti cpvhərin hərəkətinin cilvəsi və nişanəsi olmasın? Bu şəkildə dünyagörüşü dəyişir, yeni cövhərin sabitliyi ərəzlərin hərəkətinə lazımlı olmaq yerinə, ərəzlərin hərəkəti cövhərin hərəkətinin nişanəsi və ondan asılı sayılmalıdır". [1252]

Heyət yazırdı ki, Molla Sədra realist bir filosof olub, onun fəlsəfi fikirləri bu gün mikro və makroaləmdə əldə edilən kəşflərin nəticələrinə uyğun gəlir: "Bu gün atomda hər şeyi təkmiləşdirənin hərəkət olduğu qəbul edilir. Atomda elementar zərrəciklər, yəni bütün mikro obyektlər həm cismik və hım də dalğa xasiyyətinə malikdir və hərəkətdədirlər. Orqanizmi təşkil edən hüceyrələrdə də daim hərəkət və dəyişmək vardır". [1253]

Heyət, "Vəhdəti-vücud, panteizm və fəlsəfəylə əlaqəsi" məqaləsində öncə fəlsəfənin mənasına açıqlayıb, daha sonra təsəvvüf və vəhdəti-vücud məsələsinə öz münasibətni bildirib. O, yazırdı: "Fəlsəfə ağlın və təfəkkürün məhsuludur və xaliq, məxluq, xilqət və kainat və idrakdan danışar. Metodu məntiq və istidlaldır, qayəsi həqiqəti aramaq və ona yetişməkdir. Filosof həqiqəti sevən deməkdir. Fəlsəfə də ədəbiyyat kimi ruhun və beynin qidasıdır və insan zehnini inkişaf etdirir və istidlal və mühakimə gücünü artırır. Fəlsəfə və fəlsəfi fikirlər elm ilə dinin arasında ola fikir və əqidələrdir. Təsəvvüf və vəhdəti-vücud da bir növ fəlsəfə sayıla bilər".[1254]

Heyətə görə, təcəvvüfün qayəsi Tanrını tanımaq (mərifət) və ona qovuşmaqdır (fəna fillah: Tanrıda fəna olmaq) və sufi Tanrıya eşq və riyazətlə qovuşur. Heyət yazırdı ki, iki cür vəhdəti-vücud əqidəsi vardır: 1) bütün kainat, o cümlədən insan Tanrının xarici

---

[1251] Yenə orada, s.677
[1252] Yenə orada, s.678
[1253] Yenə orada, s.680
[1254] Heyət Cavad. Dilimiz, ədəbiyyatımız və kimliyimiz uğrunda (məqalələr toplusu 2). Bakı, Elm və təhsil, 2014, s.141`

təcəllisi və məzhəridir, 2) yaınız insan Tanrının məhzəridir, çünki Tanrı insanı yaradandan sonra öz ruhundan ona üfürdü. O, yazırdı: "Təsəvvüfün müxtəlif təriqətləri vardır, lakin hamısı vəhdəti-vücud əqidəsində birləşirlər. Vəhdəti-vücud təsəvvüf və irfanın son mərhələsidir (mistisizm). Vəhdəti-vücud əqidəsinə görə, aləmdə bir vücud vardır, o da zati-mütləq, Yəni Tanrıdır. Bütün kainat və məxluqlar (yaradılmışlar) onun təcəllisi və görünüşüdür. İnsan da Haqqın məzhəri və sirridir. Bu əqidənin kökü olaraq Qurani-Kərimdə bu ayəyə arxalanırlar: biz Tanrıdanıq və yenidən Ona qayıdacağıq".[1255]

Heyətə görə, təsəvvüf və ya sufilik zülmə, fəsadlara, dünyaya bağlılığa qarşı yaranıb, ilahi həqiqətlərin tərcümanıdır. O, təsəvvüfün mərhələri ilə bağlı yazırdı: ""Mərifət" "tanımaq və bilmək deməkdir". Sufi mərifəti işraq və ilham (intuizm) və cəzbə-xəlsə ilə qazanır. Həqiqət mərhələsində Allaha qovuşmağa və onda fəna olmağa çalışar. Sufi cəzbə və xəlsə yolu ilə özündən keçər və Tanrıda fəna olandan sonra əbədiyyətə qovuşar. Sufi bu yolu Tanrı eşqi ilə qət edər və keçər. Eşq təsəvvüf məktəbinin əsas təmlidir. Arif fəna olub Tanrıyla mənən birləşdikdən sonra (ilk səfər), ikinci səfər "fəna" ilə başlar və "bəqa" ilə davam edər və arif eşqlə dolmuş, gözəl və pak əməlləri ilə məxluqata doğru qayıdar. Bu zaman çoxlu vəhdət (birlik) təcəlli edər və bu daxili həyatın zirvəsini təşkil edər. Təsəvvüf inanışına görə Tanrı aləmi eşq ilə yaratmışdır (gizli bir gənc – xəzinə idim,istədim (eşq) tanınam, xəlqi yaratdım)".[1256]

Heyətə görə, vəhdəti-vücud bir dünyagörüşüdür və onda idealizmlə materializm birləşir: "Vəhdəti-vücud məfkurəsi özlüyündə bir növ fəlsəfədir, çünki Tanrı, aləm və xilqətdən bəhs edir və varlığın əsasını məqul görür və kainatı o məqul mütləq varlığın (Tanrı) təcəllisi kimi qəbul edir. Təsəvvüf və vəhdəti-vücudun fəlsəfədən fərqi yol fərqidir. Fəlsəfə əql, təfəkkür və istidlal yolu ilə həqiqəti axtarır. Təsəvvüf və vəhdəti-vücudda eşq yolu ilə həqiqətə - Haqqa (Allaha) qovuşmaq istəyir".[1257]

---

[1255] Yenə orada, s.142
[1256] Yenə orada, s.143
[1257] Yenə orada, s.144

Heyət qeyd edirdi ki, varlığın idrakında din və fəlsəfənin sintezi kimi vəhdət-vücud təzahür edir və bu da təsəvvüf fəlsəfəsinin əsasını təşkil edir.

Ümumiyyətlə, Cavad Heyətin ictimai-siyasi və dini fəlsəfi görüşləri xeyli dərəcədə zəngindir. Onun ictimai-siyasi görüşlərinin əsasında Türk dünyagörüşü, türklük fəlsəfəsi əsas yer tutmuşdur. Heyətin əsas məqsədi Türk varlığının qorunub saxlanması və inkişaf etdirilməsi olmuşdur. Bu anlamda o, müəyyən qədər "iranlılıq" məsələsinə zidd getməsə də, ancaq mahiyyət etibarilə türklük və turançılığı qəbul etdiyi bəllidir. Hər halda onun Türk varlığının dirçəldilməsi üçün ortaya qoyduğu "Varlıq" dərgisi türklük davası anlamında çox mühüm əhəmiyyət kəsb etmişdir. Heyət bütün mümkün vasitələrdən istifadə edərək Türk mədəniyyətinin, xüsusilə də Türk dilinin qorunub və inkişaf etməsi üçün çox səy göstərmişdir.

Heyətin dini-fəlsəfi görüşlərində isə diqqəti cəlb edən maddi və mənəvi olanın bütünlüyündən çıxış etməklə yanaşı, ancaq hər şeyi Yaradanın varlığına aparıb çıxarmasıdır. Başqa sözlə, İslam dininə inanan bir müdrik kimi, o, bir tərəfdən Yaradanın mükəmməl bir varlıq olduğunu qəbul etmiş, digər tərəfdən isə həmin varlığın daxilində maddi və mənəvi olanın vəhdətindən bəhs etmişdir. Heyətin düşüncəsində Varlıq mənəvi və cimani anlamda bir vəhdət təşkil edir ki, onun mahiyyəti Yaradanla bağlıdır.

## QULAMRZA SƏBRİ TƏBRİZİ

**Həyat və yaradıcılığı**. Azərbaycan Türk filosofu, fəlsəfə elmləri doktoru, prof. Qulamrza Hacı Məhəmmədəli oğlu Səbri Təbrizi (1934-2020) 1934-cü ildə Təbriz şəhərinin Şəkili məhəlləsində anadan olmuşdur. Burada ibtidai dini məktəbi, sonra 1944-1953-cü illərdə Məhəmmədiyyə, Nizami və Firdovsi mədrəsələrini bitirmişdir. O, 1953-1958-ci illərdə Təbriz Universitetinin fars, ingilis dili və pedaqogika fakültəsində təhsilini davam etdirmişdir. Qulamrza Səbri Təbrizi tələbəlik illərində orta məktəblərdə müəllim kimi fəaliyyət göstərməklə yanaşı, 1956-1958-ci illərdə ABŞ-ın İran adlanan ölkədəki hərbi idarəsində tərcüməçi olaraq çalışmışdır. 1958-ci ildə İstanbul şəhərində Bəyazid Universitetinin ingilis dili və ədəbiyyatı fakültəsində magistr təhsili almışdır. 1959-1963-cü illərdə isə London Universitetinin Kinqs kollecində magistr təhsili almışdır.

Qulamrza Səbri Təbrizi 1960-1963-cü illərdə London BBC radiostansiyasında Şərq və Orta Asiya üzrə ədəbi və siyasi icmalçı, həm də "Nəzər saatı"nın aparıcısı kimi fəaliyyət göstərmişdir. Təbrizi 1963-1969-cı illərdə Edinburq Universitetinin İngilis dili və Ədəbiyyatı Departamentinə doktoranturaya daxil olmuş, “Vilyam Bleykin dialektik fikirləri” mövzusunda doktorluq dissertasiyası müdafiə edərək fəlsəfə elmləri doktoru elmi dərəcəsi almışdır. Bu müddətdə Edinburq Universitetinin Şərqşünaslıq İnstitutunda, eləcə də dünyanın bir sıra ali məktəblərində məruzələrlə çıxış etmişdir. O, İran adlanan ölkədə baş vermiş “İslam inqilabı” dövründə Təbrizdə elmi-pedaqoji və siyasi fəaliyyətini davam etdirmişdir.

Qulamrza Səbri Təbrizi burada din xadimlərinin təqibinə məruz qaldığı üçün Böyük Britaniyaya qayıtmış və 1978-1995-ci illərdə televiziya şirkətlərində icmalçı olmuşdur. Təbrizi 1989-1990-cı illərdə Məhəmmədəli Mahmudla birlikdə türk və fars dillərində "Odlar ölkəsi" adlı aylıq qəzet nəşr etdirmişdir. O, həmçinin 1995-ci ildə Edinburq Universitetində akademik məsləhətçi olmuşdur. 1997-2003-cü illərdə Azərbaycanın ali məktəblərində XIX-XX əsrlər ingilis ədəbiyyatı, Şekspir və Bleykin yaradıcılığı mövzusunda mühazirələr oxumuşdur.

Təbrizi 2001-ci ildə Dünya Azərbaycanlıları Konqresinin İsveçin Malmo şəhərində keçirilən V qurultayının iştirakçısıdır. Həmin il Dünya Azərbaycanlılarının Bakıda keçirilən qurultayında məruzə ilə çıxış etmiş, Dünya Azərbaycanlıları Əlaqələndirmə Şurasının sədr müavini seçilmişdir.

Əsərləri: "Vətən həsrəti" (1993), "Mənim iki dünyam" (1997), "Fikir dalğaları" (1997), "Həyat fəlsəfəsi" (1997), “Baxışlar, düşüncələr, arzular", "Sönməz ocaq" (2001), "Ümid çırağı" (2002), "Qürbət harayı" (2003), "Xudafərin" (2005), "Azərbaycanın Güneyi: tarixin canlı mənzərələri" (2006), "Zamanın nəbzi" (2006), "Müdriklik fəlsəfəsi" (2006), "Körpü" (2008), "Səssiz haray" (2009), "Sahilsiz dəniz" (2009), "Pozulmuş dünya" (2010) və b.

**Fəlsəfi görüşləri**. Onun fəlsəfi görüşlərinin əsasını vəhdəti-vücud təlimi təşkil edir. O hesab edirdi ki, panteizm – vəhdəti-vücud fəlsəfəsi psixoloji və ictimai baxımdan çox modern və sağlam fikir fəlsəfəsi kimi bəşəriyyətin ictimai inkişafına böyük təsir göstərə bilər; bu təlim yeni ümumbəşəri fəlsəfənin əsasını təşkil edə bilər. O, yazırdı:

*İllərdi axtarırdım bir ayna,*
*Görəm tamam dünaynı, o aynada*
*Soruşdum bir çoxlarından,*
*Özlərini itirmiş adamlardan.*
*Axırda tapdım o şeyi ki,*
*İnsan özgəsindən istəyirdi.*
*Allahın özündə olduğunu bilmirdi,*
*Orda-burda Allah axtarırdı.* [1258]

Vəhdəti-vücud fəlsəfəsini insanın fikri təkamülü hesab edən Təbriziyə görə, bu günə qədər bir çox filosofların ruhu maddəyə, maddəni ruha qarşı qoyması doğru olmamışdır. O, yazırdı: “Ruhu maddənin, maddəni ruhun qarşısında qoymaq – dünyanı pisə (maddiyyat) və yaxşıya (ruhi) bölmək insanda psixoloji çatışmazlıq və ya xəstəlik yarada bilər. Min illərlə ruhla maddənin qarşı-qarşıya qoyulmasından insanlar psixoloji əzab çəkiblər. Bu ikilik məsələsi fəlsəfədə Zərdüşt, Mani və bir çox Şərq filosofları tərəfindən araşdırlıb. Məsələn, Zərdüşt onu “Hörümüz və Əhrimən”, Mani

[1258] Təbrizi, Qulamrza Səbri. Yaranış. Bakı, Azərnəşr, 2012, s.23

"Nur və Zülmət" adlandırıb. Dünyanın bu iki haldan ibarət olduğunu qəbul ediblər. Bunlara aid çoxlu dastanlar, fərziyyələr yazılıbdır. Onların hamısı səy ediblər ki, vəhdəti-vücudun necə yaranmasına şərh yazsınlar və bu məsələni həll etsinlər". [1259]

Onun fikrincə, fəlsəfənin təkamül yolunun əsasında vəhdəti-vücud təlimi dayanır ki, bu fəlsəfəni qəbul edən filosoflar maddi və mənəvi olanın bütünlüyünə inanıblar. Bir sözlə, maddi aləm ruha bağlı olduğu kimi, ruhi aləm də maddi ilə əlaqəlidir; birinin varlığı digərinin olmasına bağlıdır, yəni bunlar ayrılmazdırlar. O, yazırdı: "İnsanın narahatlığı və boşluğu, dində və əsatirdə şeytan, cənnət-cəhənnəm məsələsi, bunların hamısı maddi dünyanın yoxluğundan vücuda gəlir. Məsələn, mən düşünmüşəm ki, tarixdə kişilər qadınları niyə fəsad mənbəyi, günah mənbəyi sayıblar? Belə nəzərə gəlir ki, qadının, ananın və s. fiziki anlamda yanında olmamasıdır ki, kişidə bu narahatlığı yaradıb. Özümdən deyə bilərəm ki, uşaqlıqda anamı evdə görməyəndə içimdə bir boşluq, narahatlıq yaranırdı, anam gəlincə ona hirslənirdim. Bu da onu göstərir ki, mənim narahatlığımın səbəbi anamda yox, mənim içimdə yaranan boşluqdadır. Yəni maddənin olmasının ruha o qədər əhəmiyyəti vardır ki, onun olmaması, insanda ruhiyyəni aradan aparır, ruhun boşluğuna səbəb olur və bu boşluqdur ki, bəşəriyyət üçün cürbəcür adlarla – şeytan, cin və s. rol oyanyıblar. Bu boşluqdur ki, vəhdəti-vücudu bir-birinə vurur". [1260]

Onun fikrincə, vəhdəti-vücudun insanların rabitəsində, dünya səthində böyük rolu vardır: "Bütün müharibələr bu balansın pozulmasından yaranır və qlobal mənada bu əsas məsələdir ki, sülh yaratmaqdan ötrü bu iki qütbi bir-birinə yaxınlaşdırır. Bu balansın pozulması cəmiyyətdə də özünü göstərir. Misal üçün toxu aca, dövlətlini kasıba, inkişaf etmiş dövləti geridə qalmış dövlətə, millətlərə bağlayır. Bəşəri uğurlar o zaman olar ki, bu boşluğu aradan götürüb, insanlar arasındakı bir-birilə münaqişələrə son qoyulsun. Bu, olmaz məgər ki, insaniyyət və iqtisadiyyat bir-birinə qovuşa, ya

---

[1259] Yenə orada, s.4

[1260] Yenə orada, s.4-5

maddə ruhla bir ola və yaxud vəhdəti-vücud cəmiyyətdən siyasətə, beynəlxalq münasibətə təbdil oluna?”.[1261]

Təbriziyə görə, vəhdəti-vücud fəlsəfəsi, sadə formada desək, maddənin varlığı və insanın ruhunda inkişafa kömək etməsidir; onun olmaması insanın ruhunda ikilik, xəstəlik yaradır. O, yazırdı: “Yəni insan həmişə bölünmüş şəxsiyyətdən psixoloji və ruhi xəstəliklərə düçar olur. Bu ziddiyyətin yaranması tarixdə böyük facilər törədibdir. Demək olar ki, maddi təminatın olmaması insanın daxilində çatışmazlıq, boşluq yaradır. Məsələn, dünya malına həris olan bir adamın cəmiyyətin sərmayəsini öz əlində saxlaması, başqalarının aclığına, ölümünə səbəbə olması varlığın və pulun günahı deyil. Bəlkə, həris insanın ruhundakı çatışmazlıqdır, dünyanı dar baxışdan görməsidir”.[1262]

O hesab edirdi ki, ruhla maddənin qovuşmaması, ya Şərqlə Qərbin birləşməməsi, qloballaşmanın imkansızlığı səhvidir və yalnış məqsəd daşıyan bir fəlsəfəni davam etdirməkdir. Bizcə, o zaman qan tökmələri dayandırmaq olar ki, dünyanı idarə edənlər pulu, sərvəti, maddi dünyanı sevdikləri kimi insanı və insaniyyəti sevsinlər. Maddi və şəxsi məqsədlərə, mənafelərə xidmət etməkdən əl çəksinlər. Demək olar ki, dünyaya həqiqi baxış vəhdəti-vücud fəlsəfəsidir və insanda bu fəlsəfəni vücuda gətirməkdir”.[1263]

Təbriziyə görə, vəhdəti-vücud fəlsəfəsi elmi bəhsdir və onun dinə aidiyyəti yoxdur: “Fəlsəfə, siyasət ola bilər, amma din və ideologiya siyasət olarsa, o zaman insanlar və dünyadakı münasibətlər dəyişilə bilər. Yalnız elm insanı qan tökməkdən qurtarır. İnsanların kütləvi şəkildə dinə getməsi fəlakətdir, biz bunun qonşu dövlətdə şahidi olmuşuq (“İran”ı nəzərdə tutur- F.Ə.).[1264]

O, “İnsan ruhu” adlı kiçik həcmli şeirində insanın maddi və ruhi bağlılığının vəhdətini əks etdirməyə çalımışdır:

*İnsan ruhu böyükdür*
*Sığışmaz bir məhəbbətə,*
*Bir ürəyə, bir üzük qaşına.*

[1261] Yenə orada, s.5
[1262] Yenə orada, s.6
[1263] Yenə orada, s.7
[1264] Yenə orada, s.7

*Xoşbəxt odur ki,*
*Yerləşdirə bütün dünyanı özündə*
*Varlısı da, yoxsulu da, çirkini də,*
*Xoşluğu da, çətinliyi də.*
*Çünki insandan başqa bir fikir,*
*Başqa ruh yarnmayıb özündə.*[1265]

O, yazırdı ki, ruh özü dinamik bir şeydir və ruhun azadlığına yetişmək üçün insan bir neçə mərhələdən keçməlidir: "İnsan birdən-birə insan doğulmur. Tarix kimi insan özü də təküml tapır. İnsan təbiətə bağlıdır, o, ruhani mərtəbəyə qalxmaq üçün təkamül etməlidir. Onun təkamülü çox zaman məzhəb fonunda şərh olunub. İnsanın təkamülü həyatın təcrübələrindən doğub, amma sonralar bu unudulduğu üçün dinlə, məzhəblə, Allahla bağlanıb".[1266]

Bizcə, Təbrizinin vəhdəti-vücud təlimi ilə bağlı fəlsəfi görüşlərinə ən çox təsir edən Cəlaləddin Rumi və Vilyam Bleyk olmuşdur. Təbrizi hesab etmişdir ki, onlar müxtəlif əsrlərdə, fərqli məkanlarda yaşasalar da, hər ikisi maddi və mənəvi dünyanı vəhdət şəklində görüb, birinin o birisinə təsirini qəbul ediblər: "Onlar fəlsəfi baxımdan bu dünyaların hansı birinisə inkar etmir, onları bir-birinə qarşı qoymurdular. Onların fikrincə, dünyada şeytanın, İblisin meydana gəlməsi insanın madiyyatın əsarətinə düşməsi ilə başlayır. Bu ikiliyi Milton, Dante və başqa sənətkarlarda da görmək mümkündür. Amma C.Rumi və V.Bleyk insanda məhəbbətin, eşqin əbədliyinə inanıblar".[1267]

Bizə elə gəlir ki, Təbrizi də Rumi və Bleyk kimi insanların üç qismə bölünməsi ilə mülahizəsi ilə razılaşmışdır. O, yazırdı: "Birincisi, təbiətə bağlı, ona əsir olan insanlar. Bu insanlar maddi dünyaya bağlı olduğu üçün fikrində, ruhunda inkişaf olmur. İkincisi, maddi və mənəvi dünya arasında vurnuxan insanlar. Onlar bu iki haləti öz həyatlarında yaşayırlar: yaxşı-pis, savab-günah; onların konflikti özlərində olur. Sonralar bu ikilik cəmiyyətə də sirayət edir. Bu insanların bəziləri Əflatun kimi maddi dünyanı mənəvi dünyanın kölgəsi hesab edir, ona əhəmiyyət vermir, bəziləri isə K.Marks kimi

[1265] Təbrizi, Qulamrza Səbri. Günəşə doğru. Bakı, Apostrof" çap evi, 2011, s.41
[1266] Təbrizi, Qulamrza Səbri. Zamanın nəbzi. Bakı, "Turan evi", 2006, s.47
[1267] Yenə orada, s.47

maddi dünyanı əsas götürür, mənəvi dünyanı az qala unudur. Üçüncü qism insanalr mənəvi dünya ilə maddi dünyanı paralel surətdə, vəhdətdə görürlər. bir tərəfdən, ruh maddi dünyanı özündə həzm edərək dialektik şəkildə yeni mərhələyə keçir”.[1268]

Təbrizi, o fikirlə də razılaşırdı ki, insan hərəkətdən düşəndə ölür. Belə ki, ruhun təkümldən, hərəkətdən qalması insanəın mənəvi iflasına, tənəzzülünə səbəb olur. Hətta, bu, insanın ruhi şikəstliyinə, ölümünə gətirib çıxarır. Təbriziyə görə, qədim yunan filosofları hərəkətin yolunu, zahiri əlamətlərini götürdüyü halda, Rumi və Bleyk isə hərəkətin təkanverici amilini insan ruhunda axtarır və bu ruhun mayası kimi eşqi əsas bilirdilər. Təbrizi yazırdı: “Təbiətdə mövcud olan təzadlar eçqin əsasında yanaşır, buna məhdud şəkildə baxılmamalıdır. Ruhun mərtəbəsindən baxılanda təbiətin, həyatın təzadları hiss olunmur, qəbul edilir. Məhdud, maddi şərçivədən baxılanda isəə bunlar bir-birini inkar edir, insanın süqutuna səbəb olur. C.Rumi və V.Bleykə görə Günəşin Günəşin doğuşunun əsasında eşq dayanır, bu eşq olmasa, o hər səhər eyni təravətlə doğulmaz. Onların hər ikisi insanda heyvani duyğunun və ilahi ruhun mövcudluğunu qəbul edir. Cəmiyyətin və fərdin təkamülünü rujun təkamülündə, inkişafında görürlər”.[1269]

Q.S.Təbrizi də C.Rumi və V.Bleyk kimi, insan məsələsinə xüsusi diqqət yetirir və insanlıq fəlsəfəsindən çıxış edirdi. O, “İnsan sevgisi” şeirində yazırdı:

*Sorurlar məndən –*
*Nə üçün qaldırırsan,*
*insanı göylərə?*
*Bu qədər qiymət*
*verirsən ona?*
*Məgər Qərbdə Buşlar,*
*Şərqdə qan tökən diktatorlar,*
*İnsan deyillərimi?*
*– Xeyir, xeyr insan deyil onlar.*
*Çünki qan tökən, insan olmaz...*
*Tanrı insandan qiymətli*

[1268] Yenə orada, s.47-48
[1269] Yenə orada, s.48

*Heç nə yaratmayıb yer üzündə.*
*Əgər varsa bu dünyada*
*ilahi sevgi,*
*O da yalnız insanlardadı.* [1270]

Bütün bunlarla yanaşı, o, bir həqiqəti etiraf edir ki, dünya günbəgün, ilbəil cılızlaşır. Təbrizi yazırdı:

*İnsanlıq yaddan çıxır,*
*Pul, sərvət tutur onun yerini,*
*Adamların gözləri ac olur.*
*Ürəkləri yığışır –*
*Bir ovuc ət olur.*
*Unudulur sahisliz dənizlər.*
*Uca dağlar, göydə uçan quşlar.* [1271]

**Milli-dini maarifçi görüşləri.** Təbrizi dini maarifçi görüşlərində əsasən, dini dəyərlərlə bağlı xurafatı, movhumatı, radikal mühafizəkarlığı tənqid atəşinə tutmuş, bəzi hallarda ümumiyyətlə dinləri, məzhəbləri qəbul etmədiyini ifadə etmişdir. O, yazırdı:

*Kaş ki, məni*
*Heç bir dinə, məzhəbə*
*bağlamayaydılar.*
*Din adına o qədər*
*cinayət törədiblər ki,*
*Nifrət edirəm din, məzhəb*
*libasını geyinənlərə.*
*Birini inandırmaqdan ötrü*
*Allaha, peyğəmbərə and içirlər.*
*Hətta yeri gələndə*
*Balalarının da canından keçirlər.*
*İstərdim çılpaq doğulduğum kimi,*
*Çılpaq da köçəm bu dünyadan.*
*Dinlər, məzhəblər –*
*Riyakarlıq torudur,*
*Çəkilib insanların üzərinə.* [1272]

---

[1270] Təbrizi, Qulamrza Səbri. Sahilsiz dəniz. Bakı, Turan evi, 2009, s.19
[1271] Təbrizi, Qulamrza Səbri. Sahilsiz dəniz. Bakı, Turan evi, 2009, s.21
[1272] Təbrizi, Qulamrza Səbri. Yaranış. Bakı, Azərnəşr, 2012, s.14

Dini məsələ ilə bağlı başqa bir şeirində isə, o yazırdı ki, özünə qalsa anca insanlıq dinini seçərdi:

*Yenidən dünyaya gəlsəm,*
*Tələb edərəm –*
*Bütün din başçılarından*
*Əl çəkin məndən.*
*Qoy özüm tapım dinimi.*
*İnsaniyyət dinini.*
*Sevin insanları –*
*Rənginə görə deyil,*
*Ləyaqətinə görə.*
*Hörməyin bu divarları*
*İnsanlar arasında.*
*Mankurt etməyin millətləri.*[1273]

O, yazırdı ki, əgər bir gün qiyamət günü olarsa, Allahın özündən Ona şikayət edəcək: "Niyə yaratmamısan məni əzəldən Özün kimi qüdrət sahibi? Ki, tovlanmayam sənin rəqibin şeytana. Çəkməyəsən məni sorğu-suala, səhv əməllərimə görə. Niyə yaratmamısan məni əzəldən Özün kimi qüdrət sahibi?".[1274]

Təbrizi hesab edirdi ki, hələ də İslam Şərqi ölkələrinin bir çoxu orta əsrlərdəki dini xurafatdan, dini mövhumatdan tamamilə xilas ola bilməyib. Məhz bunun nəticəsi olaraq fərqli düşüncələrə qarşı hələ də, radikal dini təbəqənin təzyiqi çoxdur. O, yazırdı:

*Bir zaman şair qardaşım-*
*Nəsimi küskün düşüb öz vətənindən.*
*Onun düşüncələrini, fikirlərini*
*qəbul etməyiblər.*
*Təəccüb edirəm hələ də*
*Şeyxlər dar ağacına çəkirlər,*
*Nəsimi fikirli insanları.*
*Amma öyrəndim bunu*
*Bir özmür yaşadıqdan sonra,*
*Qərbin inkişafına yol açıb*
*əsrlərlə qabaq*

[1273] Yenə orada, s.15
[1274] Yenə orada, s.16

*Nəsimilər fikri.*[1275]

O, ata-analara nəsihət edirdi ki, dini xurafat, dini movhumatla bağlı köhnə fikirlərin yeni nəslin beyninə yeridilməsinə yol verməsinlər. Təbriziyə görə, bir köhnə fikir, bir fanatizm uşaqda təkamül fikrini məhv edə bilər.[1276] O, "Riyakarlar" şeirində yazırdı:

*Allah sənə rəhmət eləsin*
*Ay Mirzə Cəlil!*
*Doğru anlamısan*
*Riyakar şeyxlərin fırıldaqlarını.*
*Hələ də davam edir İranda*
*Sənin dövründə görüb yazdıqların.*
*Şeyxlər zahirən bir xurma ilə*
*Bir tazə qızla davam etdirilər*
*Öz fırıldaqlarını.*[1277]

Təbriziyə görə, İran adlanan ölkədə aryançı-farsçı mollalar bütün cinayətləri, fırıldaqları İslam dininin adından edirlər.[1278]

**Milli marifçilik** məsələsinə gəlincə, Təbrizi "Ruhun tüğyanı" poemasında göstərməyə çalımışdır ki, əzldən bu torpağın sahibləri qədim türklər – şumerlər olmuş, ancaq tarixin saxtalaşdırılması nəticəsində bir çoxlarının bundan xəbəri yoxdur. Ona görə Türkün qədim mədəniyyəini farslar, ermənilər və digər xalqlar öz adlarına çıxmağa çalışırlar. Bir çox türk gənclərinin əsil tarixlərindən, xüsusilə Azərbaycan Türk tarixindən xəbərsiz olduğunu deyən Təbriziyə görə, artıq milli tariximizi yenidən öyrənməliyik.[1279]

O hesab edirdi ki, milli tariximizi doğru-dürüst bilməməyimizə əsas səbəb yad xalqların mütəfəkkirlərinin yazdıqları əsərlərində müəyyən gerçəklərlə yanaşı, uydurmalarına inanmağımız olmuşdur. O, buna nümunə kimi Firdovsinin "Şahnamə" əsərində Turanın-Türkün tarixini necə saxtalaşdırmasını və həmin saxtakarlığı da fars şovinizminin necə təbliğ etməsini göstəmişdir. O, yazır:

*Fars hökumətinin –*
*Yanlış siyasəti,*

[1275] Təbrizi, Qulamrza Səbri. Günəşə doğru. Bakı, Apostrof" çap evi, 2011, s.25
[1276] Yenə orada, s.26
[1277] Yenə orada, s.27
[1278] Yenə orada, s.43
[1279] Təbrizi, Qulamrza Səbri. Yaranış. Bakı, Azərnəşr, 2012, s.156

*Ana dilimizdə oxumağı*
*Yasaq edibdi məktəblərdə.*
*Kifayətlənməyib bu cinayətlə*
*Hətta yanlış öyrədiblər tarixi bizə.*
*Guya Turan –*
*Vəhşi insanlar məskəniymiş.*
*Şünki fars şairi Firdovsi*
*Yaratmışdı bu təsəvvürü bizlərdə.*
*Farslardan bir qəhrəman, şücaətli*
*İnsan obrazı yaratmışdı*
*Şeir adına qoşduğu yalanlarda.*
*Türklərin vəhşi obrazını*
*Yaratmışdı insanların zehnində.*
*İrandan çıxandan sonra –*
*Turan mədəniyyətini öyrənib*
*Türk tarixilə tanış olanda*
*Heyrət etdim fars şairinin*
*Neçə əsr bundan əvvəl*
*İnsanlığa yaraşmayan şovinizminə.*[1280]

Azərbaycan xalqının tarixində Səttarxan hərəkatının mühüm yer tutduğuna inanan Təbrizi hesab edirdi ki, bu hərəkatın tarixi və onun liderinin həyatı yeni nəsil gənclərə öyrədilməlidir. Azərbaycan xalqı bilməlidir ki, həmin hərəkatınn məqsədi nə olub və Səttarxanın idelların nədən ibarət idi. Təbriziyə görə Səttarxanın örnək həyatını dərk edən Azərbaycan Türk gəncliyi hər daim onun yolunu davam etdirəcəkdir ki, vaxtilə Firudin İbrahimilər, Seyid Cəfər Pişəvərilər və başqaları da məhz onun ideyasının davamçısı olublar. On yaşı olarkən F.İbrahiminin Pəhləvilər tərəfindən edamını öz gözləri ilə görmüş olan Təbrizi yazırdı ki, o, Səttarxanın layqili davamçısı kimi, sarsılmaz iradəsi ilə düşmənlərinə meydan oxumşdur. Təbrizi yazırdı:

*Gördüm bir gözəl cavan uca qamətilə,*
*Məğrur durub dar ağacı qarşısında.*
*Geyinibdi gözəl kostyum*
*Salıbdı qalstuku boyununa,*

---

[1280] Təbrizi, Qulamrza Səbri. Yaranış. Bakı, Azərnəşr, 2012, s.157

*Sanki dar ağacına yox,*
*Bir ziyafətə gəlibdi.*
*Bu halət daha çox*
*Qorxudurdu düşməni.*
*Göstərirdi bu şəxsin iradəsini, qüdrətini*
*Və sınmaz Vətən eşqini.*[1281]

**İctimai-siyasi görüşləri.** Onun ictimai-siyasi görüşlərinin əsasını Azərbaycan türklərinin milli hərəkatı və istiqlal fəlsəfəsi mübarizəsi təşkil etmişdir. O, milli hərəkata qoşulmasının səbəbini isə "Müqəddəs hərəkat" şeirində belə izah etmişdir:

*Doğulandan bəri –*
*Gündüzlər çıraqla*
*Özümü axtardım,*
*Sözümü axtardırm –*
*Tapa bilmədim.*
*Hara üz tutdumsa,*
*Saymadılar məni,*
*Bəzən də uzaqlaşdılar.*
*Zaman ötdü anladım ki,*
*Özümün də,*
*Yoldaşlarımın da*
*Taleyi öz əlimizdədir.*
*Buna görə üz tutdum*
*Müqəddəs milli hərəkata.*[1282]

Bununla da, Təbrizi hər daim Azərbaycan türklərini mübarizəyə, bir addım da olsun geri çəkilməməyə səsləmişdir. O, yazır:

*Qardaşlarım, qandaşlarım,*
*Uca tutun milli mübarizlərin başını.*
*Əyilməyin əskik düşmənin qabağında.*
*Mən bilirəm –*
*Nə qədər çətinlikdən keçmisiniz,*
*Nə işgəncələr görmüsünüz.*
*Amma Sizin şəhadətiniz,*
*Türk qürurunuz sındırır*

[1281] Təbrizi, Qulamrza Səbri. Yaranış. Bakı, Azərnəşr, 2012, s.160
[1282] Təbrizi, Qulamrza Səbri. Günəşə doğru. Bakı, Apostrof" çap evi, 2011, s.53

*Düşmən cəlladlarının iradəsini,*
*Batırır zülmün səsini.*[1283]

Təbrizi yazırdı ki, bir gün gələcək özü bu dünyada olmasa da, ancaq Türk milləti qalacaq, dili yaşayacaq, Vətəni əsarətdən xilas olacaq və İstiqlaliyyətinə qovuşacaq.[1284] O, yazırdı:

*İstərsəniz qulluqdan qurtarasınız*
*özünüzə dayanın,*
*Oyanın! Milli Hərəkat qidalanır*
*Yalnız öz qüdrətinizlə.*
*Özünü, öz vətənini düşünməyən cahildi.*
*Azərbaycanın bu günə düşməsinin*
*Günahı özündədi.*
*Oyanın! Özünüzə dayanın!*[1285]

Milli hərəkatın qüdrətli olması günündən ötrü darıxan Təbrizi hesab edirdi ki, artıq bu zalım İran İslam rejiminin boğazına onlar pəncələrini qoymalı, Türk kimi azad yaşamalı və Türk dilində danışmaqla qürur duymalıdırlar. O, yazırdı:

*Azadlıq istəyirəm – qar kimi təmiz,*
*Azadlıq istəyirəm –deyəm ürək sözümü.*
*Azadlıq istəyirəm – azad nəfəs çəkəm öz ölkəmdə*
*Azadlıq – nə qədər gözəlsən gözümdə,*
*Aramışam, arzu etmişəm illər uzunu*
*Görəm səni bir gün.*
*Gəzmişəm dünyanın azad ölkələrini*
*Yenə də tapa bilməmişəm azadlığı öz içimdə.*
*Ta Təbrizim azad olmasa,*
*Azad ola bimərəm özüm də.*[1286]

O, "Qalx, Təbrizim!" şeirində də artıq Güney Azərbaycanın azad olmasının vaxtının gəlib çatdığını, hətta keçdiyini ifadə edirdi. Təbriziyə görə tarix də Azərbaycanın azad olmasının və yenidən istiqlalına qovuşmasının intizarındadır. O, yazırdı:

*Qara daş, qayalar alıb dalğaların qabağını,*

[1283] Təbrizi, Qulamrza Səbri. Yaranış. Bakı, Azərnəşr, 2012, s.12
[1284] Yenə orada, s.17
[1285] Yenə orada, s.22
[1286] Yenə orada, s.26

*Aman vermir milli dalğalara Güneyimdə.*
*Gecəsi, gündüzü yoxdu bu dalğaların,*
*Çırpır özünü – Ölmüş, donmuş sahil qayalarına.*
*Bilir ki, sındıracaq gec-tüz*
*Bu donmuş, ölmüş qayaları.*
*Qalx Azərbaycanım,*
*Qalx Təbrizim, gözləyir tarix,*
*Gözləyir- Əsir düşmüş övladaların səni.*[1287]

Təbrizin molla qılığındakı aryançılar-farsçılar tərəfindən işğal altında qalmasına etiraz edən mütəfəkkirmiz inanırdı ki, artıq Güney Azərbaycan yeni bir iniqlaba "hamilə"dir. O, yazırdı:

*Görürəm hamiləsən inqilaba yenə də.*
*Qədəmin mübarək olsun.*
*Sənin inqilab övladın*
*Qoy doğulsun, ayağa qalxsın*
*Zalım işğalçıların əleyhinə.*
*Şovinistlər qənim olublar, Təbrizim!*
*Öldürürlər milli mübarizlərimizi*
*Hər gün bir bəhanə ilə.*
*Əmaniləri şəhid edirlər yol qəzasında,*
*Çingizləri öldürürlər öz idarəsində.*
*Qalx ayağa Təbrizim!*
*Son qoy, bu birəhm*
*Cəlladların həyatına.*[1288]

O, ictimai-siyasi görüşlərində **milli dil məsələsi**nə də mühüm yer vermişdi. Təbrizi haqlı olaraq hesab edirdi ki, ana dilinin insandan alınması böyük faciədir. Ona görə bunun ağrılı tərəfi həm də ondadır ki, adamı öz dilində yazmağa qoymurlar, başqa dildə isə səhv etməkdən, lağa qoyulmaqdan qorxursan və bunu dərk etmək çox çətin işdir, ruhi işgəncədir. O, yazır: "Ana dilinin maddi dünyaya bağlılığının çox rabitəsi var. Dil reallığı əks etdirir. Demək istəyirəm ki, insan haqları baxımından bir cinayət sayılır – varlığı, həyatı, yaradıcılığı özündə əks etdirən ana dilinə qadağa qoyulması. Demək olar ki, insanda Allahın mövcudluğu ana dilinin mövcudluğu ilə

---

[1287] Yenə orada, s.30
[1288] Təbrizi, Qulamrza Səbri. Günəşə doğru. Bakı, "Apostrof" çap evi, 2011, s.28

bağlıdır: "Cənnət anaların ayaqları altındadır" – deyib Peyğəmbərimiz (s.). Gör ana necə mühümdür, onun dilindən uzaq düşən insan üçün cəhənnəm yaranır. Bu bəşər hüququ baxımından mənəvi terror aksiyasıdır və mühakimə olunmalıdır".[1289]

Ona görə, 35 milyonluq Azərbaycan türkü üçün dilin azadlığı, türk dilində məktəbin olması tələbi böyük bir mənəvi qüdrət mahiyyətindədir. Təbrizi yazırdı: "Bu mənəvi qüdrət diktatorların saraylarını və cahil siyasətlərini puça çıxara bilər, diktatorluğa, zülmə son qoyar. İstəməzdim ki, dillə siyasəti qarışdıram, amam ürəyim o qədər yanır ki, siyasi təzyiqləri Ana dilimdən və onun mənəvi əhəmiyyətindən ayıra bilmirəm". [1290]

Onun fikrincə, ana dilindən ayrı düşməyənlər Azərbaycan türklərinin İran adlanan ölkədə nələr ayaşdıqlarını anlaya bilməzlər. O ümid edir ki, zaman gləl əcək Azərbaycan türklərinin həyatı bu cür mənəvi terror və məhrumiyyətlərdən uzaq olacaqdır. O, yazırdı:

*İstərsəniz birinin canını alasınız*
*Ən əvvəl dilini alın,*
*Danışan dilini -Ana dilini.*
*İstərsəniz bir milləti,*
*Məmləkəti qəhr edəsiniz*
*Yenə susdurun dilini – Ana dilini.*
*Özgə heç nəyə hacət yox,*
*Zülmə, işgəncəyə ehtiyac yox.*
*Fəqət, düşmən nə dilimi kəsdirə,*
*Nə susdura bildi.*
*Sadəcə yasaq olundu,*
*Diplomatik məclislərdən yığışdırıldı.*
*İndi nəyim yoxsa da, Ana dilim var.*[1291]

Təbrizi də hesab edirdi ki, ortaq ümumtürk dili yaranmalı və bu Azərbaycan Türk dili əsasında gerçəkləşməlidir: "Əgər istəyirksə Azərbaycan dili ortaq Türk dilinə çevrilsin, ona məktəblər, müəllimlər və böyük büdcə lazımdır. Və bu məsuliyyət sə Azərbaycan dövlətinin boynundadır, çünki Azərbaycanın hələlik bir

---

[1289] Təbrizi, Qulamrza Səbri. Zamanın nəbzi. Bakı, "Turan evi", 2006, s.7
[1290] Yenə orada, s.8
[1291] Yenə orada, s.8-9

müstəqil dövləti var. İran dövləti heç zaman türk dilinin inkişafın kömək göstərməyəcək. Çünki onlar məktəb və ana dilinin istqialal bərabər olduğunu düşünürlər. lakin Ana dili və istiqlal millətin haqqıdır və millət bunu alacaqdır”. [1292]

Onu düşündürən əsas məsələ ondan ibarət idi ki, 35 milyon Güney Azərbaycan türkünün ana dilində bir məktəbi yoxdur. Azərbaycan türkləri işğalçı farsların dilini öyrənməyə məcbur edilməklə yanaşı, üstəlik onun Türk dilinə və Türk varlığına hər gün təhqirlər, qəsdlər edilir. [1293] O, yazırdı:

*Mən istəməmişəm –*
*Dostlarımın çəkdikləri zindandan yazam.*
*İstəməmişəm ağrıdam*
*Anaların, bacıların ürəklərini,*
*Söndürəm gənclərin Vətən eşqini.*
*Amma deməliyəm ki,*
*İran fars rejiminin cəlladları*
*Heyrət edirlər –*
*İşgəncə qarşısında sarsılmayan*
*Milli gənclərimizin iradəsinə,*
*Cəsarətinə, qüvvəsinə.*
*Qorxuya düşüblər bu sistemin*
*Məhv olmasına, ölməsinə.* [1294]

Təbrizi inan bilmirdi ki, on il Dünya Azərbaycanlıların Əlaqələndirmə Şurasının tərkibində dünya azərbaycanlıları üçün çalışdığı halda, indi onları bu ofisdən çıxarmağa, az qala fəaliyyətlərini dayandırmağa çalışanlar var. [1295]

Beləliklə, Qulamrza Səbri Təbrizinin fəlsəfi görüşlərinin əsasını panteizm, ya da vəhdəti-vücud təlimi təşkil etmişdir. Maddi aləmlə ruhu aləmi, cisimlə ruhi olan eyniləşdirən Təbrizinin fəlsəfi dünyagörüşündə ikiliyə deyil, vəhdətə inam böyükdür. Bu anlamda onun xeyir-şər, nur-zülmət ikiliyinə yanaşması, vəhdəti-vücud təliminə əsaslanır. Bu o anlama gəlir ki, ancaq xeyir, nur kimi

[1292] Yenə orada, s.13
[1293] Təbrizi, Qulamrza Səbri. Günəşə doğru. Bakı, “Apostrof” çap evi, 2011, s.29
[1294] Yenə orada, s.51
[1295] Yenə orada, s.46

mənəvini görüb, maddi olanı şərə, zülmətə nisbər vermək çox da doğru deyildir. Əslində maddi olanın özündə ruhi, ruhi olanın özündə də maddi olduğu üçün, burada ikilik, ziddiyyət axtarmaqdan çox vəhdətə yönəlmək lazımdır. Bir sözlə, o, ikiliyin deyil vəhdətin tərəfdari idi və bu vəhdətdə əbədi eşqin, məhəbbətin olduğuna inanırdı.

Təbrizinin ictimai-siyasi görüşlərinə gəlincə, burada Azərbaycan türklərinin milli hərəkatı, milli hüquq və azadlıqları məsələsi, o cümlədən İran adlanan ölkənin əsil mahiyyətinin aşkara çıxarılması problemləri mühüm yer tutmuşdur. Təbrizi hesab edirdi ki, indi İran adlanan ölkə türklərin qədim məmləkətlərindən biri olub irandillilər, o cümlədən farslar buraya çox sonralar köçüblər. 1925-ci ildə Böyük Britaniyanın birabaşa dəstəyi ilə Türk hakimiyyətini zəbt etməyi bacaran aryançı farslar türklərinin dilini, mədəniyyətini, tarixini bir sözlə, Türk varlığını inkar etmək, ya da məhv etmək yolunu tutmuşlar. Aryançılar Pəhləvilər dönəmində türklərə, xüsusilə də Azərbaycan türklərinə qarşı həyata keçirdikləri assimilyasiya siysətini İran İslam rejimində də davam etdirməkdədir.

Təbrizi çox haqlı olaraq hesab edirdi ki, aryançı farsların zülmündən qurtulmaq üçün əsas çıxış yolu Azərbaycan türklərinin yenidən istiqlal bayrağını qaldırıb milli dövlətlərini bərpa etməsidir. Bunun üçün də, ilk növbədə, Azərbaycan milli hərəkatı istiqlal ideyasını əsas hədəf olaraq götürməli, milli dil, milli mədəniyyət davasını milli istiqlala qədər daşımalıdır.

Təbrizinin milli-dini maarifçilik görüşlərinin əsasında da məhz Azərbaycan milli hərəkatın öz hədəfinə çatması məsələsi təşkil etmişdir. Burada da bir tərəfdən dini mövhumat, dini fanatizmdən uzaq durub İslam dininin əsil mahiyyətini dərk etmək, digər tərəfdən isə milli mədəniyyətimizin, milli tariximizn saxtalaşdırılmasına son qoyub, onu yenidən və milli ruhda öyrənmək mühüm yer tutmuşdur.

## 2.3. İslam fəlsəfəsi və islamçılıq (ümumi baxış və əsas təmsilçiləri)

XX əsr boyu İslam dininə, islam fəlsəfəsinə münasibət də Güney Azərbaycan Türk mütəfəkkirlərinin əsas diqqət mərkəzində olmuşdur. Əslində bu məsələ bütün mütəfəkkirlər üçün önəmli olmuş, zaman-zaman öz münasibətlərini ifadə etmişlər. Ancaq Azərbaycan Türk mütəfəkkirləri arasında islamçılıq, islam fəlsəfəsi, o cümlədən islam şiəçiliyindən çıxış edənlər arasında Əllamə Məhəmmədhüseyn Təbatəbai, Əbülqasim əl-Xoyi, Əbdülhüseyn əl-Əmini, Əllamə Məhəmmədtağı Cəfəri, Seyid Kazım Şəriətmədari, Cəfər Sübhani və başqaları olmuşdur.

İslam dininə bağlı olan **Mirzə Yusif əl-Ərdəbili (1860-1918)** doğulduğu Ərdəbil, eləcə də Nəcəf və Kərbəla şəhərlərində təhsil almışdır. O, Şeyx Əli Bəfruyi Yəzdi, Molla Hüseyn Ərdəkani, Şeyx Zeynalabidin Əl-Mazandari və başqalarından dini və dünyəvi elmləri öyrənmişdir. Mirzə Yusif daha çox İslamlığa, İslam əxlaqına, şiə məzhəbinə aid əsərlər yazmış və hədisşünas kimi də tanınmışdır. Onun əsərləri aşağıdakılardır: "Təshihi vəasiliş-şiə", "Risalə dər məkarimul-əxlaq", "Təshihi məhcid-dəavat" və b.

İslam fəlsəfəsindən çıxış edən mütəfəkkirlərimizdən biri də **Mirzə Cavad Məliki ət-Təbrizi (1884-1968)** olmuşdur. Doğma şəhəri Təbrizdə, daha sonra Qum və Nəcəfdə təhsil alan Mirzə Cavad Ayətullah Hüccət, Ayətullah Burucerdin dərslərində iştirak etmişdir. Onun əsərləri aşağıdakılardır: "Təbəqatür-rical", "İrşadüt-talib", "Üsəsül-qəza vəş-şəhadət", "Təkmilə minhacüs-salehin", "Təvzihül-məsail", "Məsailül-müntəxibə", "Haşiyə-ürvətil-vüsqa" və b.

İslam fəlsəfəsinə aid əsərlər yazmış Azərbaycan Türk mütəfəkkirləri arasında **Əbdülhəsən bin Əbdülhüseyn əl-Meşkini (1888-1929)** də vardır. Ərdəbil yaxınlığındakı Meşkin (Mişkin) kəndində dünyaya göz açan Əbdülhəsən Ərdəbil, Qum və Nəcəf şəhərlərində dini və dünyəvi elmləri öyrənmişdir. Onun başlıca əsərləri aşağıdakılardır: "Risalə fit-tərtib", "Haşiyətu-ürvətil-vüsqa", "Haşiyətül-kifayə", "əl-Həvaşi əla rəsailil-əməliyyə", "Risalə fil-kürr", "Risalə fir-rza", "əl-Mənasik", "əl-Fəvaidür-ricaliyyə" və b.

O, “əl-Fəvaidür-ricaliyyə” əsərində Məhəmməd peyğəmbərlə bağlı hədisləri geniş şəkildə şərh etmiş, hansı hədislərin doğru, hansı hədislərin isə yanlış olduğunu sübut etməyə çalışmışdır: “Meşkini daha sonra hədisin dəlil və səhih olmasının yollarını araşdırımış, “xəbəri-vahid”in dəlil olmasının mümkünlüyünü izah etməyə çalışmışdır. O, hədis ədəbiyyatının özül mənbələri sayılan “Kütubu-ərbəə”nin hansı rəvayətlərinin məqbul, hansılarının isə qeyri-məqbul olduğunun yollarını bəyan etmişdir. O, bununla yanaşı, “Vəsailüşşiə” kitabında da rəvayətlərin kor-koranə şəkildə deyil, araşdırıldıqdan sonra onlara əməl edilməsinin mümkünlüyünü ortaya qoymuşdur”.[1296]

Azərbaycanda islamlıq fəlsəfəsini təmsil edənlər arasında **Əllamə Əbdülhüseyn əl-Əmini (1902-1972)** də vardır. İ.Quliyev yazır ki, o, iman, elm, əməl və əxlaq mərkəzi sayılan bir evdə tərbiyə almış, Təbrizin Talibiyyə mədrəsəsində oxumuşdur: “Əbdülhüseyn Təbrizlə kifayətlənməyib təhsilini davam etdirmək üçün o dövrün ən məşhur dini və elmi mərkəzlərindən olan İraqın Nəcəf şəhərinə yollanmış və oranın ən böyük alim və fəqihlərinin yanında dərs almışdı. Onun Nəcəfdəki ustadları içində Seyyid Məhəmməd Firuzabadi və Seyid İbn Turab Xansarinin adları xüsusilə çəkilir. Əbdülhüseyn Nəcəfdə dini təhsilinin birinci mərhələsini başa vurduqdan sonra doğulduğu şəhərə -Təbrizə qayıdır və dini elmlərin tədrisi, təbliği və tədqiqatı ilə məşğul olur. Onun bu dövrdə qələmə aldığı kitablarından Quran haqqında olan “Fatihətül-kitab” əsəridir. Əmini elmini daha da təkmilləşdirmək üçün yenidən Nəcəf elmi hövzəsinə qayıdır və öz təhsilini, tədqiqatını davam etdirir. Nəhayət, o, ictihad dərəcəsinə çatıb müctəhid olur. Uzun illər islami elmlərin tədrisi və tədqiqatı ilə məşğul olan Əbdülhüseyn Əmini “əllamə”, “hübrül-elm”, “mücahid” və “höccət” ləqəblərinə layiq görülür. Əllamə Əmini fiqh, üsul, hədis, kəlam, tarix və rical elmlərində öz dövrünün bilikli aliminə çevrilir. O, Nəcəfdə “Məktəbətu Əmirilmöminin” adlı bir mədrəsə təsis edir. Onun bu məktəbində elm və

[1296] Quliyev İbrahim. Azərbaycan hədisşünaslığının inkişaf tarixi. Bakı, TUNA, 2019, s.240-241`

irfan çox yüksək səviyyədə olduğundan tez bir zamanda şöhrət tapır və müxtəlif müsəlman ölkələrindən buraya axın başlayır”.[1297]

Onun əsas əsərləri aşağıdakılardır: “əl-Qədir”, “Fatihətül-kitab”, “Fəzilət şəhidləri”, “Tariximiz və ənənəmiz”, “Kamil-əz-ziyarat”, “Riyazül-üns”, “Səfərlərin səmərəsi”, “Ədəb əz-zair limən yəmummul-hair” və b.

İslam fəlsəfəsinə aid əsərlər yazan azərbaycanlı türk müəlliflərdən olan **Əli Əhməd əl-Miyanəçi (1926-2000)** də öz dövrünün tanınmış alimi olmuşdur. Miyanə şəhəri yaxınlığında ruhani bir ailədə dünyaya gələn əl-Miyanəçi uşaq yaşlarından dini elmlərə maraq göstərmiş, əvvəlcə atası Molla Hüseyndən, daha sonra da Miyanədə Şeyx Əbu Məhəmməd Höccət, Şeyx Lütf Əli əş-Şərifi əz-Zənuzi, Mirzə Mehdi Cədididən ilahiyyata dair dərslər almışdır. O, Təbrizdə, Qumda isə M.Təbatəbaidən, Musəvi Ərdəbildən, Mirzə Haşim əl-Aməlidən və başqalarından fiqh, üsul, təfsir və digər sahələrdə dərslər almış və “dərse-xaric” adlanan elmləri mənimsəmişdir.

Onun başlıca əsərləri aşağıdakılardır: “Məkatibür-Rəsul”, Məvaqifüş-şiə”, “əl-Mələkiyyətül-xassə fil-İslam”, “ət-Təbərrük”, “əl-Əsir fil-İslam”, Kitabu Əqil bin Əbi Talib”, Məkatibu İmam Rza (ə)”, “əs-Sücud ələl-Ərz” və b.

Azərbaycanın Təbriz yaxınlığındakı Homs bölgəsində dünyaya gələn **Məhəmməd Sadiq ən-Nəcmi (1936)** ilk təhsili Təbrizin Talibiyyə mədrəsəsində olmuşdur.1953-cü ildə Quma gedən ən-Nəcmi burada Əllamə Təbatəbaidən, Meşkinidən və başqa din alimlərindən dərs almışdır. Onun başlıca əsərləri “Hədis tarixi”, “Buxari və Müslümün “səhih”lərinə bir baxış”, “Vəhhabiliklə tanışlıq”, “Quranın tarixi” və başqalarıdır.

Azərbaycanın Təbriz şəhərində dünyaya gələn **Əli Hicrani ət-Təbrizi (1943)** ilk təhsilini burada aldıqdan sonra, 1962-ci ildə Qum şəhərinə köçmüşdür. Burda dini təhsilini mükəmmələşdirən Əli Hicrani daha sonra Məşhəd və Nəcəf şəhərlərində yaşasa da, yenidən Təbrizə dönmüşdür. Onun başlıca əsərləri “Orucun tarixi və mənəvi dəyərləri”, “Həccin tarixi və mənəvi dəyərləri”, “Namazın mənəvi həyatı”, “Əltafür-Rəhman” və başqalarıdır.

---

[1297] Quliyev İbrahim. Azərbaycan hədisşünaslığının inkişaf tarixi. Bakı, TUNA, 2019, s.267-268

Azərbaycanın Zəncan şəhərində dünyaya gələn **Məhəmməd Bağır əz-Zəncani (1961)** Qumda dini təhsil almışdır. Onun başlıca əsərləri "Əsrari-Qədir", "Şərhu hədisi-Kisa", "Tərcümə kitabül-əxlaq" Seyid Abdullah Şübbərin əsəri üzərinə), "Xitabe-Qədir" və başqalaırdır.

Azərbaycanlı türk əsilli hesab olunan **Məhəmməd Hadi əl-Milani (1891-1973)** Nəcəfdə dünyaya gəlmiş, ilk təhsilini burada Mirzə əl-Həmədani, Həsən ət-Təbrizi, İbrahim əs-Saliyani, Cəfər əl-Ərədbili, Əbülqasim əl-Mamaqani başqa alimlərdən almışdır. Onun əsas əsərləri "Qadətüna keyfə nərifuhum", "Təfsiru surətil Cumə vət-Təğabun", "Minhu və əşərə əsilə", "Müxtəsərül-əhkam", "Nüxbətül-məsail" və başqalarıdır.

Azərbaycanlı türk əsilli hesab olunan **Seyid Əli Hüseyni əl-Milani (1945)** Nəcəfdə dünyaya gəlmiş, ilk təhsilini atası Seyid Nurəddin əl-Milanidən və Kərbəladakı mədrəsədə almışdır. Quma gedərək burada dini təhsilini mükəmməlləşdirən Seyid Əli burada "Mərkəzül-həqaiqil-İslamiyyə" adlı elmi mərkəz təsis etmişdir. Onun başlıca əsərləri "Nəfəhatül-əzhar fi xülasəti əbəqatil-ənvar", "Təşyidül-müraciat və tənfiddül-mükabirat", "Şərhu minhacil-kəramə fi mərifətül-imamə", "Mən hum qətələtül-Hüseyn (ə), Şiətül-Kufə?", "ər-Rəsailül-üşr fil əhadisil-mövzuə fi kütubis-sünnə", "Kitabül-bey", "Təhqiqül-üsul" və başqalarıdır.

Azərbaycanın tanınmış alimlərindən olan **Qulamhüseyn Beqdeli/Bəydilli (1919-1998)** Tehranda doğulmuş, 1946-cı ilə qədər Güney Azərbaycanda yaşamış, daha sonra uzun müddət Quzey Azərbaycanda məskunlaşmışdır. 7 il Sibirdə sürgün həyatı da yaşayan Beqdeli Bakıda "Marağalı Əhvədinin həyat və yaradıcılığı" mövzusunda namizədlik, "Nizaminin "Xosrov və Şirin" poeması və bu mövzunun Yaxın və Orta Şərq ədəbiyyatında işlənməsi" mövzusunda doktorluq dissertayalarını müdafiə etmişdir. 1980-ci illərdə yenidən Tehrana dönərək "Varlıq" dərgisində "Təsəvvüf və ədəbiyyat" başlıqlı silsilə məqalələr yazan Beqdelinin burada "Yaxın və Orta Şərq haqqında təsəvvüf məfhumu", "Mani, məzdəkizm və təsəvvüf", "Vəhdəti-vücud fəlsəfəsi", "Hurufizm cərəyanı", "Nöqtəvilik", "Əvhəddin Əvhədi Marağayi" və başqa məqalələri nəşr olunmuşdur.

Beqdelinin tədqiqatlarında təsəvvüf, yəni sufizmin yaranması və inkişafı mərhələlərinin öyrənilməsi məsələsi xüsusi yer tutmuşdur. Ona görə, təsəvvüf və ürfan məsələlərini ən azı beş istiqamətdə tədqiq və təhlil etmək vacibdir:

1. Təsəvvüf və ürfan nədir? Bu təriqət ta qədim zamanlardan Şərqdə və Qərbdə necə törəyib, meydana çıxıb, yayılıb inkişaf etmişdir. Onun zaman və məkan hüdudu.

2. Təsəvvüfün müxtəlif qolları, islam təsəvvüfünün təşəkkülü, onun kök və budaqları.

3. Şərqdə təsəvvüf ədəbiyyatı əsasında yaranmış mütəsəvvüf ədəbiyyat. Onun mütərəqqi, müsbət xüsusiyyətləri və mənfi cəhətləri.

4. Hürufiyyə və nöqtəvilər, onların uğursuz taleləri.

5. Hipizm tərkidünyalıq və bir növ müasir sufizm kimi.

Q.Beqdeliyə görə, «Təsəvvüf məzhəb yox, təriqətdir. Özu də muxtəlif qollara ayrılır. Təsəvvüfün əsas qolları ilahi məhəbbət və dünyəvi məhəbbət qollarıdır. Bu qollara silsilə deyilir. Hər silsilənin də üzunun ocağı, xanəgahı, qütbü var. Bu təriqəti izləyənlərə salik, mürid, islamiyyətdə isə sufi deyirlər. Ümumiyyətlə, onları sufi adlandırırlar».[1298]

"Əvhəddin Əvhədi Marağayi" adlı məqaləsində də təsəvvüf problemlərinə toxunan Beqdeli Ə.Marağalını N.Gəncəli və Sənainin davamçısı kimi qələmə vermişdir. Əvhəddini təriqət ədəbiyyatının tanınmış nümayəndəsi hesab edən Beqdeli onun Sənai və Nizaminin guclu təsiri altında olmasını belə izah etmişdir: "Sənainin təsiri Əvhədi yaradıcılığına təriqət ənənələrini, mütərəqqi sufizm məfkurəsini, Nizaminin təsiri isə ictimai düşüncə, zülmə, ədalətsizliklərə qarşı etiraz, elmə, əməyə və əmək adamlarına məhəbbət və hörmət gətirmişdir. Odur ki, insan və insanpərvərlik Əvhədi yaradıcılığının aparıcı xətti və əsas axarı olmuşdur". [1299] 1970-ci ildə X.Yusifli birlikdə Əvhəddinin "Cami-cəm" əsərini

---

[1298] Məmmədli Pərvanə. Cənubi Azərbaycan: ədəbi şəxsiyyətlər, portretlər (I Hissə). Bakı, Sabah, 2015, s.70
[1299] Yenə orada, s.71

farscadan türk dilinə çevrib nəşr etdirən Beqdelinin bu kitabda verdiyi izahlar da diqqəti cəlb edir.[1300]

Bratislavada Azərbaycan alimi Hinduşah Naxçıvaninin fars-türk luğəti «Sihahul-əcəm» əsərini üzə çıxaran Beqdeli «Hinduşah Naxcıvani və onun «Sihahul-əcəm» luğəti» adlı məqaləsində yazırdı ki, bu əsər oz tarixi və elmi əhəmiyyəti etibarı ilə M.Kaşğarlının və İbn Muhənnanın məşhur əsərlərinə bərabər zəngin luğət və tədqiqat mənbəyidir. H.Naxçıvaninin dövrundə alimlərin tərtib etdiyi luğətlərin coxu fars və ərəb dillərində olduğu ucun görkəmli alim və dovlət xadimi Hinduşah Naxçıvani öz xalqının mənəvi ehtiyacını nəzərə alaraq turksoylu xalqlar, o cumlədən azərbaycanlılar ucun bu əsəri yazmışdır. O, fars və turk dillərində demək olar ki, bir növ izahlı luğət tərtib etmiş və əsərə bir sıra digər yazılar da artırmışdır. Dörd mindən cox sözu əhatə edən 145 səhifəlik izahlı luğət kitabı dilimizin tarixini öyrənmək ucun əvəzsiz bir abidədir.[1301]

Beqdeli Qətran Təbrizinin yaradıcılığındakı Türkcə söz və ifadələri də tədqiq etmişdir. Hətta onun Türk dilində əsərləri olduğunu da güman edən Beqdeliyə görə, Təbrizinin təfəkkur və ifadə tərzi, yazı və cümlə quruluşu, gətirdiyi misallar və atalar sözləri əsasən Azərbaycan xalqına mənsubdur.[1302]

Q.Beqdeli orta əsr Azərbaycan mütəfəkkirləri Şəms Təbrizi, Səfiəddin Urməvi, Bədrəddin Qədiri haqqında da "Varlıq" dərgisində ayrıca məqalələr dərc etdirmişdir.

Bəzi mülahizələrə görə, ana tərəfdən azərbaycanlı-türk kökənli sayılan **Seyyid Nəvvab Səfəvi** (1924-1955) Haniabad şəhərində Seyid Müctəba Tehraninin ailəsində dünyaya gəlib. İbtidai dini təhsilini Abadanda bitirən Seyid Nəvvab təhsilinin davamı üçün "İran-Alman" sənət məktəbinə yollanıb. O, peşə məktəbini bitirdikdən sonra İran adlanan ölkənin neft şirkətlərindən birində işə düzəlib. Xoşagəlməz bir hadisədən onra ölkədən mühacirət edən Seyid Nəvvab öncə Bəsrəyə, daha sonra isə dini elmə olan böyük

---

[1300] Marağalı Əvhədi. Cami-cəm. Bakı, Lider nəşriyyatı, 2004 (Farscdan çevrən və izahların müəllifləri Q.Beqdeli və X.Yusiflidir)

[1301] Məmmədli Pərvanə. Cənubi Azərbaycan: ədəbi şəxsiyyətlər, portretlər (I Hissə). Bakı, Sabah, 2015, s.72-73

[1302] Yenə orada, s.73

marağı səbəbi ilə Nəcəf elmi hövzəsinə yola düşüb. Yaşının azlığına baxmayaraq Seyid Nəvvab qısa zaman kəsiyində hövzədə tanınınb.

Səfəvi 1945-ci ildə İslam Fədailəri Təşkilatını quraraq əqidəcə ona yaxın olan şəxsləri ətrafında toplamağa başlayıb. Bir müddət sonra rəhbərlik etdiyi təşkilatın İran adlanan ölkənin baş nazirləri Əbdülhüseyin Hazir, Hüseyn Əla, Hacı Əli Rəzmara və tarixçi Əhməd Kəsrəvinin siyasi sui-qəsdinə görə məsuliyyət daşıdığı bəyan olunub. 8 iyun 1951-ci ildə həbs edilən Səfəvi 1953-cü ilin fevralında isə sərbəst buraxılıb. M.Müsəddiqi devirən çevrilişi dəstəkləyən Səfəvi bir müddət Fəzlulla Zahidinin hökumətinə müsbət yanaşsa da, lakin onun da şəriətin qanunlarına tam əməl etmədiyini bəyan edib. 1955-ci ilin noyabrında Nəvvab Səfəvi və bəzi yoldaşları Hüseyn Əlaya edilən uğursuz sui-qəsd cəhdindən sonra həbs olunub və məhkəmə prosesindən sonra edam ediliblər.

Seyid Əbülqasim əl-Xoyinin tələbəsi olan **Ayətullah Şeyx Mirzə Cavad Təbrizi (1926-2006)** ilk təhsilini Təbrizdə almış, 1948-ci ildə Quma gedərək buranın seminariyasında oxumağa davam etmişdir. O, 1953-cü ildə Nəcəfə gedərək burada Seyyid Muhsin əl-Hakim, Seyid Əbd əl-Hadi əş-Şirazi və Seyid Əbu Əl-Qasim əl-Xoyi kimi görkəmli alimlərin mühazirələrində iştirak etmişdir. Xüsusilə də, Əl-Xoyinin yaxşı tələbəsi olaraq ictihad səviyyəsinə çatan Təbrizi fəlsəfə, Quran təfsiri və ricalda ixtisaslaşmağa başlamışdı. 1976-cı ildə o, İraqda hakim olan BƏƏS rejimi tərəfindən Nəcəfdən çıxarılmış, və Quma dönməyə məcbur olmuşdur. Onun başlıca əsərləri "İrşad əl-Talib fi Şərh əl-Məkasib". "Tanqeeh Mabani al-Urva", "Kitab əl-Qisas", "Kitab əl-Diyaat", "Təbaqat əl-Rical", "əl-Durus fi İlm əl Usul", "Sirat ən-Nəcat", "Fədək əl-Şaer əl-Hüseyni", "Ziyarat Aşura fovq al-Shubahat" və başqalarıdır.

Azərbaycanın Meşkin bölgəsində anadan olan **Əli Əkbər Feyz Alin Meşkini (1921-2007)** Nəcəf və Ərədbil şəhərlərində dini təhsil alıb. Uzun müddət Qum şəhərində ilahiyyatla məşğul olub. O, "islam inqilabı"ndan sonra bir müddət İran adlanan ölkənin Ali rəhbərini seçən və onun fəaliyyətinə nəzarət edən İran Mütəxəssislər Məclisinin sədri olub. 1989-cu ildə İran adlanan ölkənin 1979-cu il konstitusiyasına düzəliş hazırlayan komissiyasına rəhbərlik edən Meşkini komissiya daxilində, məhkəmə sistemini gücləndirəcək

dəyişikliklər hazırlamaq vəzifəsi olan dörd komitədən də birinə başçılıq etmişdir. O, İslam fiqhinə və İslamın ümumi məsələlərinə dair bir çox kitabın müəllifidir.

**Əbdülrəhim Əqiqi Bəxşayeşi (1941-2012)** Təbrizin "Bəxşayeş" qəsəbəsində, əkinçi bir ailədə həyata göz açmışdır. Əvvəlcə Təbrizin “Talibiyyə” məktəbində ədəbi və ibtidai dərslər öyrənən Əqiqi daha sonra təhsilini davam etdirmək niyyəti ilə Qum seminariyasına getmişdi.

O, Qumun İslam Təbliğat Mərkəzində Şeyx Əhməd Payani, Hacı Mirzə Yadullah Duzduzani, Cəfər Subhani, Əllamə Təbatəbai, Murtəza Amutallahdan fəlsəfə, hikmət, etika və fiqh dərsləri öyrənmişdir. O, daha sonra Tehrana getmiş, Qumda seminariya təhsili ilə eyni vaxtda Tehran Universitetinin İlahiyyat və İslam Araşdırmaları Fakültəsində fiqh və İslam qanunlarının əsaslarına şöbəsinə daxil olmuşdur. Universiteti bitirdikdən sonra o, Qum seminariyasının ilk İslam dərgisi olan "İslam məktəbindən dərslər"də müxtəlif məqalələrlə çıxış etmiş, dərginin redaksiya heyətinin üzvü seçilmişdir. Əqiqi İslam İnqilabının qələbəsindən sonra 12 ilə yaxın ölkənin müxtəlif fakültələrində, xüsusən İslam Azad Universitetində dərs demiş, Tehran Universitetinin İslamşünaslıq müəllimi olmuşdur.

O, “Siddiqeyi-Tahirə” əsərində əsasən Məhəmməd Peyğəmbərin (s.) qızı Fatimənin həyatını, İslamda qadının yerini və digər məsələləri şərh etmişdir. Əqiqi ilk növbədə, səmavi dinlər tarixində qadının yeri və rolundan bəhs etmişdir. O yazırdı ki, səmavi dinlərin yayıcısı olan peyğəmbərlərin mübarizəsində qadınlar da hər daim onların yanlarında olublar. O, buna örnək kimi öz oğlunu Allaha qurban etmək istəyən Hz. İbrahimin xanımı Həcəri, Musa peyğəmbərin yanında olan Asiyəni, İsa peyğəmbəri dünyaya gətirən Məryəmi göstərir. Əqiqi yazırdı ki, islam dininin banisi Məhəmməd Peyğəmbərin yanında isə ilk növbədə, həyat yoldaşı Xədicəni görürük. O, yazır: “Bu qadın o həzrətlə (s) bərabər addım-addım, çiyin-çiyinə irəli gedir. O, Xədicədir – o Xədicə ki, əziz ərinin pak niyyətləri xatirinə hər şeyə göz yumur, bu yolda nəyi varsa, hamısından keçir. Bu qadın hətta müqəddəs Peyğəmbərin məqsədləri yolunda əziz canından keçməyə hazır olur... Özünün son dərəcə dəyərli

maddi köməkləri ilə sonuncu Peyğəmbərin (s) ilahi üsyanında, islam inqilabında böyük və mühüm rol oynayan Xədicəni görürük”. [1303]

Əqiqiyə görə, Xədicə İslam peyğəmbəri (s) üçün fədakar, canından keçən bir qadın nümunəsi idi: “Rahatlıq günlərindən Peyğəmbərin ən yaxın həmdəmi, çətinliklər, məhrumiyyətlər içində yaşadıqları günlərdə o həzrətin ən səbirli və dözümlü köməkçisi və böyük Rəsula üz vermiş bütün ağır, müsibətli hadisələrdə ən ardıcıl, ən güclü arxası, ən sədaqətli və möhkəm dayağı idi. Peyğəmbərlikdən sonra Peyğəmbər (s) və müsəlmanlar üçün meydana çıxmış bütün ağır sınaqlardan ən çətin anlarda Xədicə təkcə o həzrətin (s) ən yaxın dostu və təsəlliverəni yox, eyni zamanda bütün müsəlmanlar üçün bir mehriban ana, sönməyən ümid yeri hesab olunurdu”. [1304] Xədicədən sonra İslam dininin mübariz qadınları kimi Fatimə, Zeynəb, Səfiyyə, Nəsibənin də adlarını çəkən Əqiqiyə görə, İslamda Fatimənin yeri və rolu isə daha mühümdür. Əqiqi yazırdı: “Fatimə (ə) İslam cəmiyyətinə rəhbərlik vəzifəsini də daşıdığını başqa vəzifələrlə birlikdə öhdəsinə götürür və onu layiqincə yerinə yetirirdi. Bəli, o, ictimai-siyasi həyatında möhtərəm atasının – Allahın Elçisinin (s) həmkarı və köməkçisi idi. Fatimə bu məsəslələri o dərəcədə mənimsəmişdi ki, camaatın ictimai-siyasi məsələlərinin həllini öz öhdəsinə götürmüş və bu işin ağırlığını tam məsuliyyətilə dərk etmişdi”.[1305]

Əqiqiyə görə, İslamın ilk dövründə mübarizə etmiş müsəlman qadınların yolunu “İslam inqilabı” dövründə də davam etdirən qadınlar olmuşdur. o, yazırdı: “İranın müsəlman qadın və qızlarının İslam inqilabında oynadığı rol elə əzəmətli və böyükdür ki, dünya qadınlarının mübarizə tarixində dönüş nöqtəsi hesab oluna bilər. Eynilə müqəddəs Kərbəla döyüşündə də qadının kişi ilə bərabər bir səngərdə vuruşması vacib bir zərurət kimi özünü göstərmişdi. Çünki qadının təlaşı, mübarizə və cihadı ilk dəfə İslamın Kərbəla inqilabında kişi ilə bərabər addımlayan bir döyüşçü kimi özünün həqiqi sifətini aşkarca büruzə vermişdir”. [1306]

---

[1303] Bəxşayeşi Əqiqi. Siddiqeyi-Tahirə. Bakı, Zaman, 1996, s.19
[1304] Yenə orada, s.47
[1305] Yenə orada, s.116
[1306] Yenə orada, s.24

Əqiqi hesab edir ki, qadının cəmiyyətdə yerini və rolunu ən düzgün müəyyənləşdirən də İslam dinidir. Onun fikrincə, İslamda qadına maddi deyil, mənəvi və keyfiyyət anlamında yanaşma əsas yer tutur, burada kişinin müəyyən dərəcədə üstünlüyü isə əslində nisbi xarakter daşıyır. O, yazırdı: "İslamın qadına nisbətən kişiyə dərəcə verməsinə gəldikdə isə bu dərəcə kişinin qadına nisbətən üstünlüyünə görə deyil. Həmçinin ona görə deyil ki, kişi qadına nisbətən Allah dərgahında və İslam aləmində daha çox dəyər və etibara malikdir. Əksinə, yalnız ona görədir ki, kişi özünün oynadığı əsaslı rola görə (ailəyə başçılıq etmək, ailə üzvlərini yemək-içməklə təmin etmək) daha yüksək dərəcəli məsuliyyətləri öz çiyninə götürmüşdür. Bu məsuliyyət dərəcəsi də elə məsələdir ki, qadınların özü də onun kişilərə verilməsinə müxalif deyillər. Çünki qadın ümumiyyətlə götürdükdə daxili təbiətinə və əlaqəsinə görə maddi işlərə o qədər meyil göstərmir və bu işlərin məsuliyyətinin kişidə olmasına üstünlük verir, özü isə qadınlıq xüsusiyyətinə daha çox uyğun gələn məsuliyyətləri, yəni evdarlığı, ailə işlərini öhdəsinə götürür. Odur ki, kişi üçün dəyər və rütbə, mənəvi məqam baxımından heç bir üstünlük yoxdur. Hər iki məxluq üçün yeganə fəzilət və üstünlük meyarı sözsüz ki dindarlıq, mənəviyyat, iman, paklıq, tovhid, Allahı tanıma, Allahdan qorxma dərəcəsidir". [1307]

**Seyid Məhəmməd Badkubeyi (1876/78-1939)** Bakıda anadan olmuş, daha sonra Tehrana köşərək burada dini və dünyəvi elmləri mənimsəmiş, "Sədr" mədrəsəsində məskunlaşmışdır. Yeddi il Tehranda yaşayan alim tanınmış filosof Mirza Haşim Əşkvəri və Əllamə Əliağa Zənuzi kimi böyük alimlərdən bəhrələndi. Hüseyn Badkubeyi gənclik çağlarında İraqa yollanıb, Nəcəf şəhərində İslam elmlərini öyrənməyə başladı. O, öncə Məhəmməd Kazim Xorasaninin dərslərində iştirak etdi. Eyni zamanda Şeyx Məhəmməd Həsən Mamağanidən fiqh öyrənməyə başladı. Hüseyn Badkubeyi uzun illər elmi araşdırmalar apardıqdan sonra İslam dünyasında məşhur alimlərdən birinə çevrildi.

O təqribən dörd kurs fiqh, üsul, irfan, fəlsəfə və kəlam elmlərini tədris etdi. Fəlsəfə tədrisində çox istedadlı olan bu alim böyük şöhrət qazandı. O, fəlsəfədə Sədrəddin Şirazinin "Hikməti

[1307] Yenə orada, s.32-33

Mütəaliyə" cərəyanının görkəmli nümayəndəsi olmuşdur. Bu səbəbdən onu Hikməti-Mütəaliyə fəlsəfi cərəyanının azərbaycanlı nümayəndəsi də adlandırırlar. Hüseyn Badkubeyi uzun illər tədris nəticəsində çoxsaylı şagirdlər tərbiyə etdi. Onun şagirdləri Seyid Əbülqasim Xoyi, Seyid Məhəmmədhüseyn Təbatəbai, Məhəmmədhəsən İlahi Qazi, Mürtaza Mərəşi Nəcəfi, Məhəmməd Badkubeyi, Məhəmmədtəqi Amoli və başqaları İslam dünyasının ən dəyərli alimləri hesab olunur. Təvazö, zöhd, təqva , sadəlik və başqa əxlaqi səciyyələr onun ruhunda özünə əbədi yer salmışdı. Hüseyn Badkubeyi 1939-cu ildə Nəcəf şəhərində vəfat etmiş və Həzrət Əlinin məzarı yaxınlığında dəfn olunmuşdur.

Onun əsərləri "Şeyx Ənsarinin "Təharət" kitabına haşiyə", "Molla Sədranın "Əsfar" kitabına haşiyə", ""Əşşəvariqül-İlhami-Yahici" kitabına haşiyə" və başqalarıdır.

Bəzi mülahizələrə görə azərbaycanlı-türk kökənli hesab olunan **Ayətullah Əhməd Sabiri Həmədani (1924-2017)** Həmədan şəhərinin Böyükabad kəndində dindar ailədə dünyaya göz açmışdır. İbtidai təhsilini məktəbxanadan başlayan Həmədani 1940-cı ildə təhsilini davam etmək üçün Həmədandakı dini-elmi hövzəyə yola düşüb təhsilinə burada davam etmişdir. O, bir müddət Məşhəd, daha sonra da Qum dini-elmi hövzəsində olmuşdur. O, 1946-cı ildə Qum elmi hövzəsinə daxil olaraq fiqh, üsul, təfsir, fəlsəfə, ürfan dərslərini başa vurmuşdur. O, bir müddət iki dəfə olmaqla İstanbulda yaşamışdır. Həmədani ikinci dəfə İran adlanan ölkəyə qayıtdıqdan bir müddət sonra Avropa müsəlmanları ilə görüş keçirmək üçün Almaniya, İspaniya, İtaliya, Belçika, Hollandiyaya səfər etmiş və sonra Həmədan əhalisi tərəfindən Xübrəqan məclisinə üzv seçilmişdi.

Həmədani bir çox dini və fəlsəfi əsərlərin müəllifidir: "Kitabül-həcc", "Kitabus-salat" və "Risalətun fil-məfahim", "Əl-Məhdi, əla lisanil-Hüseyn", "Ədəbül-Hüseyn", "Mühəmməd və rəhbərlər", "İslamda rəhbər və rəhbərlik", "İslamda İmam Sadiq (ə) şəxsiyyəti", "İslamda Əhli-beyt yolu" və b.

"İmam Hüseynin (ə) əxlaqi görüşləri" kitabında Həmədani yazırdı ki, İmam Hüseyn (ə.) özünün bütün böyüklüyü, əzəməti və

qüdrəti ilə seçilmiş böyük bir şəxsiyyətdir.[1308] Ona görə İmam Hüseyn yalnız azadlıq və şücaət nümayişi, inqilab və ədalət rəhbəri deyil, çox şəfqətli, qayğıkeş bir lider olmuşdur: "O, eyni zamanda mehribanlığın, şəfqətin və qayğıkeşliyin isti ocağı hesab olunurdu ki, gecələr binəvalar üçün yemək-içmək aparırdı, onların yaralı ürəklərinə məlhəm qoyurdu və beləliklə, özünün inqilab məktəbinin tərəfdarlarına insanpərvərlik, mehribanlıq, qayğıkeşlik, ictimaiyyətçilik dərsi verirdi ki, insanlıq kəramətlərinin bütün sahələrində o Həzrəti İmam bilsinlər və özlərinin böyük rəhbəri kimi tanısınlar".[1309]

"Cəfəri məzhəbi və İmam Cəfər Sadiq buyruqları" kitabında isə Həmədani Cəfəriliyin mahiyyətini açmaqla yanaşı, İmam Cəfərin dünyagörüşünü də təhlil etmişdir. Həmədaniyə görə İmam Sadiq müsəlmanları qəflət yuxusundan oyatmağı, fikirlərini aydınlatmağı, İslama xidmətin ən yaxşısını saymışdır: "O, müsəlmanların elmi və fikri baxımdan irəliləmələri halında, zalımların pəncəsindən tez qurtulacaqlarını; tabe olduqları dinin və izlədikləri yolun üstünlüyünü qavrayamadıqları təqdirdə, köləlikdən və müstəmləkəçilikdən qurtulamayacaqlarını; həqiqətin camalını görmədikcə qapıldıqları mövhumatı buraxmayacaqlarını bilirdi. Bu məqsədlə elmlərinin nəşri üçün səy göstərir, müxtəlif ixtisaslarda seçkin tələbələr yetişdirirdi. Bir tərəfdən Əməvilərin zülmlərini, idarəetmədəki nöqsanlarını və cinayətlərini xalqa duyurur, digər bir tərəfdən də, siyasətin müsəlmanlar arasında doğurduğu ayrılıqları aradan qaldırmağa çalışır, sünni və şiələri bərabərliyə və qardaşlığa dəvət edirdi. Bu məqsədlə səhabəsindən və onu izləyən şiələrdən, din qardaşları olan sünnilərin ziyarətinə getmələrini, cənazə mərasimlərinə qatılmalarını; hər iki tərəfin bir-birlərinə səmimiyyət və dostluq göstərmələrini, düşmənin aralarına sızmalarını önləyəcək şəkildə sıralarını sıxlaşdırmalarını, müsəlmanlar arasında ixtilaf ikilik yaradacaq sözlərdən şiddətlə qaçmalarını və beləliklə, İslami birliyi və bütünlüyü qorumalarını istəyirdi".[1310] Həmədaniyə görə, İmam Sadiqin dünyagörüşündə Allah sevgisi hər şeydən üstündür və Ona tapınmaq yeganə xilas

---

[1308] https://azrefs.org/imam-huseyn-e-in-exlaqi-gorusleri-muellif-ehmed-sabiri-hemedan.html

[1309] Yenə orada.

[1310] Hamedani, Ahmed Sabri. Caferi Mezhebi ve İmam Cafer Sadık Buyrukları. İstanbul, Kevser, 2014, s.24-25

yoludur. Allaha sid ürəkdən tapınan müsəlman da müsəlman qardaşına qarşı hiylə yapmamalı, ona düşmənçilik etməməlidir.[1311]

Xorasanın Məşhəd şəhərində anadan olan **Ayətullah Seyid Əli Xameneinin (1939)** ata tərəfdən şəcərəsinin azərbaycanlı-türk olması ilə bağlı bir çox Avropa, Türkiyə müəllifləri həmfikirdir.[1312] Ancaq digər iddialara görə, onun nəsli-şəcərəsi ana tərəfdən fars olduğu halda, ata tərəfdən isə İraqdan-Kərbəladan Şərqi Azərbaycanın Şəbüstər şəhərinin yaxınlığında yerləşən Xamnəyə köçmüş ərəblərə gedib çıxır. Məşhəd, Nəcəf və Qumdakı dini məktəblərdə təhsil alan Xamenei 1960-cı illərdən etibarən Pəhləvilərə qarşı yönəlmiş "İslam hərəkatı"nın fəallarından olub. Pəhələvilər tərəfindən bir neçə dəfə həbs olunmuş və sürgünə göndərilmiş Xamenei "İslam iniqlabı"nda da fəal iştirak etmiş, "İslam İnqilabi Şurası"nın üzvü olmuşdur. 1981-1989-cu illərdə iki dəfə İran adlanan ölkənin prezidenti vəzifəsini də icra etmiş Xamenei 1989-cu ildən indiyə qədər "İslam İniqlabi Şurası"nın başçısı, ölkənin Ali Rəhbəridir.

Onun əsas əsərləri aşağıdakılardır: "İmam Həsən Müctəbanın (ə) sülhü", "İmam Səccadın (ə) həyatı barədə tədqiqat", "İmam Rzanın (ə) siyasi şəxsiyyəti", "İslamda hökumət", "Nəhcül-Bəlağədən dərslər", "Vilayət nurları", "Əxlaq dərsi", "İslamı düzgün anlamaq", "Şəhadət ətri", "Aşura fəlsəfəsi", "Məzlumiyyət fəryadı", "Peyğəmbəri əzəmdən dərslər", "İslami düşüncənin təməl prinsipləri", "İki yüz əlli yaşında insan" və başqalarıdır.

Azərbaycan Türk mənşəli filosof, professor **Kərim Müctəhedi (1930)** Təbrizdə anadan olmuş, ibtidai təhsilininin iki ilini Təbrizdə alsa da, sonradan təhsilini Tehranda davam etmişdir. Orta təhsilini başa vurduqdan sonra 18 yaşında Fransanın məşhur Sorbonna universitetinin fəlsəfə fakültəsinə qəbul olmuşdur. O, həmin dövrdə bu fakültədə təhsil alan ilk azərbaycanlı tələbə idi. Kərim Müctəhedi təhsilini müvəffiqiyyətlə başa vurduqdan sonra professor Con Uollun rəhbərliyi ilə "Kantın böyüklüyünün araşdırılması və təhlili"mövzusunda dissertasiya yazıb müdafiə etmiş və magistr dərəcəsi almışdır. Bundan sonra "İran"a qayıdıb bir müddət

[1311] Yenə orada, s.179

[1312] https://tr.wikipedia.org/wiki/Ali_Hamenei;https://web.archive.org/web/20100116225338/http://www.thedailybeast.com/blogs-and-stories/2009-02-19/change-comes-to-iran

Tehran universitetində fəlsəfə fənnindən mühazirələr oxuyub. O, təhsilini davam etdirmək üçün yenidən Parisə qayıdır və professor Qundyakın rəhbərliyi ilə 1964-cü ildə dissertasiya müdafiə edib, doktorluq dərəcəsi almışdır. Müdafiə etdiyi dissertasiyasının mövzusu şərq fəlsəfəsinə aid olduğu üçün və tətbiqi xarakter daşıdığına görə o, Şərq fəlsəfəsinin böyük tədqiqatçılarından sayılan Henri Korbinin məsləhətilə Əfzələddin Kaşaninin iki əsərini fransız dilinə tərcümə edir. Kərim Müctəhedi bu kitaba yazdığı şərhdə neoplotonizmlə islami ideyaların qarşılıqlı-müqayisəli təhlilini verir. Sonradan Kərim Müctəhedi yenidən "İran"a qayıdır və 35 ildən artıq bir müddətdə Tehran universitetində fəlsəfə fənnini tədris edir.

Onun fransız və fars dilində yazdığı elmi-fəlsəfi əsərləri "Kant fəlsəfəsinin tənqidi", "Orta əsrlər fəlsəfəsi", "Dekart və onun fəlsəfəsi", "Hegelə görə "ruhun aşkarlığı"", "Yeniləşmiş fəlsəfə", "Qərb və fəlsəfə", "Müasir Qərb fəlsəfəsi ilə iranlıların tanışlığı", "Haydeggerə görə Duns Skot və Kant", "Seyyid Cəmaləddin Əsədabadi və yeni təfəkkür", "Qərb dünyasının müasir fəlsəfəsinə baxış (silsilə məqalələr)", "Hegel və onun fəlsəfəsi haqqında", "Fəlsəfə və mədəniyyət", "Dostoyevskinin əsərlərindəki fikir", "Kantın fikri" və başqalarıdır.

## SEYİD ƏBÜLQASİM ƏL-XOYİ

**Həyat və yaradıcılığı.** Azərbaycan Türk ilahiyyatçı alimləri arasında Seyid Əbülqasim əl-Xoyi (1899-1992) Xoy şəhərində dünyaya gəlmiş, ibtidai təhsilini burada almışdır. Uşaq yaşlarından doğma türk dili ilə yanaşı fars və ərəb dillərini də öyrənin əl-Xoyi 1912-ci ildə elm öyrənmək üçün Nəcəf şəhərinə getmiş, buranın görkəmli alimlərindən İslam ilahiyyatının müxtəlif sahələrini, o cümlədən fəlsəfə, həndəsə, tarix, riyaziyyatı da mükəmməl mənimsəmişdir.

O, dövrünün Şeyx Fəthullah, Ayətullah Naini, Ayətullah Kompani, Seyid Hüseyn Badkubei və başqa məşhur alimlərinin dərslərində iştirak edərək ictihad dərəcəsinə yetişmişdir. Onun Üsul elmində özünəməxsus metodu olmuşdur. bu baxımdan əl-Xoyiyə bir ayətullah kimi mərcəi-təqlid deyil, həm də böyük tədqiqatçı, pedaqoq və müəllif kimi yanaşılır. Hazırda da ən böyük mərcəi-təqlidlər arasında onun mühüm yeri vardır.

Xoyi 1992-ci ildə İraqın Kufə şəhərində vəfat edib.

Onun əsas əsərləri aşağıdakılardır: "əl-Bəyan fi təfsiril-Quran", "Fiqhül-Quran əla məzahibil-xəmsə", "Məbani təkmilə minhacüs-salehin", "Risalə fi libasül-məşkuk", "Müntəxəb təvzihil-məsail", "Müntəxəbir-rəsail", Əcvədüt-təqirat" və b.

**İslam fəlsəfəsi.** O, "əl-Bəyan fi təfsiril-Quran" əsərində Quranın əhəmiyyətini belə izah etmişdir. Əl-Xoyi hesab edirdi ki, hər bir həqiqi müsəlman, hətta hər bir həqiqətsevər insan Quranı oxuyub dərk etməyə və onun dərin sirlərindən agah olmağa səy etməlidir. O, yazırdı: "Çünki Quran bəşəriyyəti haqqa hidayət edən və onların xoşbəxt həyatını təmin edən asimani kitabların ən sonuncusu və kamilidir. Quran hər şeyi açıq-aşkar bəyan edən, hamı üçün xeyirli olan İlahi nur mənbəyidir. Quran lüğət alimləri üçün ən böyük söz mənbəyi, qramatikka alimləri üçün aşkar izahlar toplusu, fiqh alimləri üçün ən canlı şahid, filosofların axtardığı maarif, xətiblər üçün fəsahətli bəyan tərzləri, əxlaq alimləri üçün ən gözəl

etik mənbə və dərslikdir. Bir sözlə, Quran alimlərin bütün sahələrdə apardıqları tədqiqatların tükənməz elm və bilik xəzinəsidir”.[1313]

Seyid Əbülqasimə görə, ictimai və siyasi elmlər, həyat və məişət qanunları, bəşəriyyətin ictimai idarəetmə üsulları Quranda hamının başa düşə biləcəyi bir tərzdə bəyan edilmişdir. Bu baxımdan Qurani-Kərimin mahiyyətini mürəkkəbləşdirib, xalqa anlaşılmaz şəkildə təqdim etmək doğru deyildir. Onun fikrincə, bir çox dini elmlər məhz bu asimani kitabdan bəhrələnmiş və zaman keçdikcə vahid məktəb kimi formalaşmağa başlamışdır. O, yazırdı: “Quran, dünyaya hakim olan bir çox qanunları kəşf etmiş və insanlar üçün sirr olaraq qalan bir çox məsələlərin üzərindən zülmət pərdəsini qaldırmışdır. Bu müqəddəs kitab, mövcud olan həqiqi din üçün əbədi möcüzə və mükəmməl qanunlar məcmusudur. Bütün bunlar, mənim uşaq ikən Qurana həvəs gəstərməyimdə və onun sirləri ilə tanış olmağımda çox təsiri olmuşdur. Mən, müntəzəm olaraq Quranın açılmayan sirlərinə yol tapmağa səy edir və buna nail olduqda özümdə Qurana qarşı oyanan yüksək rəğbətin daha da artdığını hiss edirdim”.[1314]

Xoyinin “əl-Bəyan fi təfsiril-Quran” əsərinin girişində Qurani-Kərim üzərinə yazılmış bir çox təfsirlərin nöqsanlı olduğunu vurğulaması, onun bu sahədə ensiklopedik biliyə malik olmasından xəbər verir. Ona görə, mövcud təfsirlərin çoxunda müəyyən nöqsan və çatışmazlıqlar vardır: “Buna görə də hər bir alim təfsirə başlamazdan qabaq, öz şəxsi rəy və nəzərlərini bir kənara qoymalı, Quranın həqiqi mənasına yol tapıb, ixtisar və yersiz əlavələrə yol vermədən təfsir etməlidir. Başqa sözlə desək, Quran müfəssirin şəxsi rəyi ilə deyil, Quranın öz zahiri ayələri ilə təfsir olunmalıdır. Sözün əsil mənasında həqiqi müfəssir o kəsdir ki, fəlsəfə bəhslərindən agah, əxlaqi dəyərlərə yiyələnmiş və fiqhin dərinliklərinə yol tapmış olsun. O, yaşadığı cəmiyyəti yaxşıca tanımalı və orada baş verən prosesləri bir sosioloq kimi araşdırmağa qadir olduqdan sonra təfsir etməlidir. Quranda işarə olunan digər elmlərə gəldikdə də, bu üsuldan istifadə etməli və Quran həmin elmin tələbatını ödəyəcəyi qaydada təfsir etməlidir. Bəli, hər müfəssir ilk növbədə, Quranın bütün elm və

[1313] Quliyev İ. Azərbaycan hədisşünaslığının inkişaf tarixi. Bakı, TUNA, 2019, s.246
[1314] Yenə orada, s.246-247

fəsillərindən agah olmalı, bu barədə lazım olan məlumatları əldə etdikdən sonra Quranı təfsir etməyə başlamalıdır”.[1315]

Əl-Xoyi Quranın təfsiri ilə bağlı yazdığı əsərində aşağıdakı mövzuları ələ almışdır: “a) İstinad etdiyimiz mövzular bunlardan ibarətdir: - Quranın zahiri ayələri; - Quranın hamıya bəlli olan açıq-aşkar, sənəd baxımından mötəbər olan mütəvatir hədis və rəvayətlər; - Əhli-beyt (ə) tərəfindən nəql olunmuş hədislər; - Sağlam fitri əql. Çünki əql xarici və batini dəlil hesab olunur. Belə ki, Peyğəmbər (s) və onun pak Əhli-beyti (ə) bizim üçün zahiri (xarici) dəlil hesab olunur. b) Adətən təfsir etmək istədiyimiz ayəni digər ayələrin məfhumu ilə izah etməyə çalışacağıq. Bir sözlə, Quranı dərk etmək üçün ilk növbədə, onun özündən istifadə etmişik. Eyni zamanda təfsir etdiyimiz ayələrə dəlalət edən hədis və rəvayətlərdən də sübut və dəlil kimi istifadə etmişik”.[1316]

Əl-Xoyi kitabın “Quranın əzəməti qarşısında” adlanan birinci fəslində yazırdı ki, insan insan müvəqqəti, əql və qüdrət baxımdan məhdud və naqis varlıq olduğu halda, özünün elm və qüdrəti ilə hər şeyi əhatə edən mütləqiyyəti, hər şeyi yoxdan yaradan kamil bir varlığı dərk etməsi mübahisəlidir. Onun fikrincə, bu baxımdan insanın Quranın əsil mahiyyətini aydınlaşdırmağı özünün əqli yetərli olmadığı kimi, bunu kənarda da axtarmaq doğru deyil. O, yazırdı: “Quranın əzəmətini layiqincə bəyan etməyə qadir olan yalnız onun öz ayələri və bəşəriyyətin (həzrət peyğəmbər (s.)) vasitəsilə haqqa hidayət, habelə xoşbəxt həyatlarının təmin olunmalarının möcüzəsi ola bilər. Bu asimani kitab əsrlər boyu bəşəriyyətin xoşbəxt həyat təminatçılığını və eyni zamanda onların üzərində olan rəhbərliyi öz öhdəsinə götürmüşdür”.[1317]

O, iddia edirdi ki, Quranın fəziləti haqqında nəyi isə söyləmək insanların bacarıq və qüdrətindən xaricdir. Onun fikrincə, bu işi yalnız Quranın özündə yaşayan, onunla hidayət olub başqalarını da hidayət edən Əhli-beytin və Quranın həqiqi mütəxəssislərin öhdəsinə buraxmaq lazımdır; Quranın əzəmət və fəzilətini dərk edən həqiqi şəxslər məhz onlardır. Əl-Xoyi yazırdı:

---

[1315] Əl-Xoyi, Seyid Əbülqasim. əl-Bəyan fi təfsiril-Quran. 1-ci cild, s.2
[1316] Yenə orada, s.3
[1317] Yenə orada, s.4

"Quranı bəşəriyyətə çatdıran və onları şəri hökmlərlə tanış edən şəxs, onların (Əhlibeytin) cəddi həzrət Məhəmməd (s) olmuşdur. Onun Quranın fəziləti haqqında buyurduğu hədislərdən birində deyilir: "Mən özümdən sonra sizin üçün iki ədəd çox qiymətli və ağır əmanət qoyub gedirəm. Quran və Əhli-beytimi. Bu iki əmanət qiyamət gününədək bir-birindən ayrılmayacaqdır və o gün Kövsər hovuzunun kənarıənda mənə qovuşacaqlar" Buradan belə məlum olur ki, Peyğəmbər (s.) və onun Əhli-beyti Quranı hamıdan çox dərk etmiş, özlərində yaşadaraq ona iman gətirmiş və bundan sonra xalqı haqqa doğru hidayət etmişlər. Belə isə, Quranı yaxından dərk etmək üçün onlar tərəfindən nəql olunmuş hədisləri nəzərdən keçirib, onların haqq yoluna qoşulmalıyıq". [1318]

Xoyiyə görə, müsəlmanlar Quranı özləri üçün haqq və ədalət şüarı bilsəydilər bu gün çıxlmaz vəziyyətə düşməz və gerilik içində olmaz, hər biri ali hədəflərinə çatar və bir daha haqq yoldan azmazdılar: "Amma təəssüflər olsun ki, müsəlmanlar Qurana arxa çevirib cahiliyyət dövrünün adət-ənənələrinə üz tutmuşlar. Onlar zəlalət bayrağı altına pınah aparmış və nəticədə din, əqidə, təriqər və s. bu kimi ixtilaflara düçar olmuşlar. Bu ixtilaflar günbəgün böyüyərək müxtəlif cərəyanların yaranmasına səbəb olmuşdur. Biri digərini küfr və itaətsizlikdə təqsirləndirir, nahaq qanını tökür və var-dövlətini haqsız olaraq qarət edir. Onlar müxalif təriqətləri təhqir və tənqid etməyi, hətta lənət oxumağı belə özləri üçün ibadət sanır və bununla Allaha yaxınlaşmaq istəyirlər. Bütün bunların səbəbi isə bizə məlumdur. Qurandan uzaq düşmək, onu şəxsi rəy, yaxud müəyyən nəzərə əsaslanaraq təfsir etmək bütün fəsadların mənşəyidir". [1319]

Quranı İslamın təməli və geniş həqiqət düzənliyi hesab edən Xoyiyə görə, müqəddəs kitab suyu tükənməyən dəniz, bulanmayan çeşmədir. Onun fikrincə, Quranın maarif və təlim prinsiplərinin əsasını bəşəri fitrət və təbii qanunlar təşkil edir ki, bu prinsiplər də sabit, dəyişilməz qanunlar üzərində qurulmuşdur.

O, kitabın "Quranın möcüzəsi" adlanan ikinci fəslində isə möcüzələrlə bağlı məsələlərə aydınlıq gətirməyə çalışmışdır. Onun fikrincə, möcüzəyə lazım olan şərtlər peyğəmbərlik iddiası edən

---

[1318] Yenə orada, s.4-5

[1319] Yenə orada, s.7

şəxsin bu əməlini yalnız öz risalətinin haqq olmasını sübuta yetirmək üçün həyata keçirməli, iddia etdiyi hər hansı bir şey əqli baxımından qəbul edilməli, şəriət baxımından məqbul olmalı, göstərilən möcüzənin iddia olunan məsələni təsdiq etməsi və bəşəriyyətə məlum olan elmi anlayışlar vasitəsilə həyata keçirilməmlidir. Ona görə, bu baxımdan sehirbaz və cadugərlərin müxtəlif elm və fənlərə yiyələnərək gördükləri işləri möcüzə adlandırmaq olmaz. [1320]

Xoyiyə görə, bütün hallarda Quran, Məhəmməd peyğəmbərin (s.) özünün və eləcə də digər peyğəmbərlərin möcüzələrindən daha üstün və daha fəzilətlidir. O, yazırdı: "Çünki Quran müəyyən dövr və şəxslər üçün deyil, əbədi olaraq bütün bəşəriyyət üçün nazil olmuşdur. Quran, mübarizə səhnəsində rəqibi olmayan, qiyamət gününədək bəşəriyyətə hakim olan əbədi ilahi qanundur... Quranın özünəməxsus xüsusiyyəti, onu digər peyğəmbərlərin möcüzələrindən fərqləndirir və ona xüsusi dəyər verir. O da, Quranın bəşəriyyəti xoşbəxt həyata, kamala, sədaətə, hidayət etməsi və onlara belə bir həyat tərzini təlim verməsidir. Bildiyimiz kimi, cahiliyyət dövründə yaşayan ərəblər əxlaq normalarına yiyələnməyən, bütpərəstliyə, günahsız qanlar tökməyə adət etmiş kəslər olmuşlar. Quran belə bir inadkar qövmü, daha dəqiq desək milləti cəhalət, rəzalət və zülmətdən çıxarıb yüksək mədəniyyətə, həqiqi əxlaq və insaniyyətə qovuşdurdu". [1321]

Tanınmış din alimi yazırdı ki, aləmi öz nuru ilə işıqlandıran İslam dini zühur etməzdən əvvəl bir çox millətlər, xüsusilə də ərəblər zülmət və cəhalət içində yaşayırmışlar. Belə ki, savadsızlıq, əxlaqsızlıq, ictimai pozğunluq hakim olan bir cəmiyyətdə elm öyrənmək ərəblər üçün böyük rüsvayçılıq, qan töküb ticarət karvanlarını qarət etmək isə mərdanəlik hesab olunurmuş. Üstəlik, bütpərəst ərəblər qumarbazlıq edər, atalarının zövcələri ilə evlənər, qız uşaqlarını diri-diri torpağa basdırarmışlar. Xoyi yazırdı: "Cəhalət və hərc-mərclik baş alıb getdiyi bir halda, orada parlaq islam günəşi doğdu. Cəhalətə qərq olmuş qaranlıq ürəklər, islam nuru ilə işıqlandı. Təkallahlıq, bütpərəstliyin cəhalət və fəsadını elm və

[1320] Yenə orada, s.15-16
[1321] Yenə orada, s.24

əxlaqla, illər boyu davam edən qəbiləvi düşmənçiliklərini isə dostluq və məhəbbətlə əvəz etdi”.[1322]

Xoyiyə görə, Quranın möcüzəvi xüsusiyyətlərindən biri də qanunvericilik və əxlaq prinsiplərində tutduğu orta mövqe və ədalətdir. Belə ki, bu müqəddəs kitabda qanunvericilikdə ifrat və təfritə varmadan orta mövqe tutulmuşdur. O, yazırdı: “Quran ədalət və bərabərliyə diqqət yetirir, bu iki xüsusiyyət üzərində qurulan bütün işləri insanlar üçün zəruri hesab edir. Eyni zamanda onların dilindən, Allah-təaladan bütün işlərin ifrat və təfritə yol vermədən keçirməsini diləmələrini bəyan edir”.[1323]

Xoyiyə görə, Quranın qanunvericilik prinsipləri ədalət üzərində qurulduğu üçün, onda dünya və axirət qanunları arasında müəyyən oxşarlıq vardır. O, yazırdı: “Quran, Tövratda olduğu kimi yalnız insanların maddi həyatlarına diqqət yetirərək axirət dünyasını onların zehnindən silməmişdir. Belə ki, xeyirxah işlər görən şəxslərin mükafatını, məhz dünəyvi var-dövlətdə və başqalarının üzərində hakimiyyətdə görür. Və eyni zamanda İncildə olduğu kimi, yalnız axirətə qapılaraq dünyəvi həyatdan əl çəkməyi kimsəyə tövsiyə etmir. Quran həm insanları axirət dünyasına sövq edir, həm də dünyəvi halal ləzzətlərdən zövq almağı tövsiyə edir”.[1324]

Xoyi “Quranın ecazı haqqında irəli sürülən mülahizələr və onun cavabı”adlanan üçüncü fəsildə isə Quranda heç bir səhvin olmadığını, Quranla mübarizə etməyin mümkünsüz olduğunu, Quranın əvvəlki səmavi kitablarla ziddiyyət təşkil etmədiyini, onun üsulu ilə yazıçı və şairlərin üsulu arasındakı fərqli nöqtələrini şəkildə izah etmişdir.

Xoyi “Qurani-Kərimin təhrif olunub olunmaması haqqında irəli sürülmüş nəzər və mülahizələr” fəslində isə, Quranın İlahi mühafizə altında olduğunu dəlil gətirərək orada heç bir təhrif və təbdilin olmadığını, Quranın Peyğəmbərimizə (s) necə gəlibsə, eləcə də dövrümüzə yetişdiyini əsaslı dəlillərlə isbat etmişdir. Xoyi yazırdı: “Əgər hər hansı bir ayə və ya surəni Qurana əlavə etsək, yaxud oradan çıxarsaq, məna baxımından heç bir dəyişiklik baş

[1322] Yenə orada, s.36
[1323] Yenə orada, s.37
[1324] Yenə orada, s.38

verməsə, həmçinin insanda həqiqi səmavi kitab olduğuna dair şəkk-şübhə yaratmasa belə, təhrifə yol vermiş olarıq. Biz bu kimi təhriflərin də Qurana yol tapdığının şahidi oluruq. Məsələn, “Bismillahir-rəhmanir-rəhim” ayəsi peyğəmbər və müsəlmanların əksəriyyəti tərəfindən Tövbə surəsi istisna olmaqla, bütün surələrin əvvəlində oxunmasına baxmayaraq, bu ayənin, Quranın bütün surələrinin bir hissəsini təşkil edib-etməməsinə dair ixtilaf meydana gəlmişdir. Belə ki, əhli-sünnə alimlərinin bir qismi “Bismillah” ayəsini Quran ayələrinin bir hissəsi hesab etmir. Hətta Maliki məzhəbinin davamçıları bir neçə yer istisna olmaqla, bu ayənin gündəlik vacib namazlarda “Həmd” surəsindən qabaq oxunmasını məkruh hesab edirlər. Başqaları isə bu ayəni həmin surənin tərkib hissəsi hesab edirlər. Diqqət yetirmək lazımdır ki, bu ixtilaf yalnız əhli-sünnə alimləri tərəfindən meydana gəlmişdir. Şiə alimləri isə hamılıqla, “Bismillah” ayəsini Tövbə surəsi istisna olmaqla, Quranın bütün surələrinin tərkib hissəsi hesab edirlər”. [1325]

Xoyi “əl-Bəyan fi təfsiril-Quran” kitabının 2-ci cildinin 12-ci fəslində öncə, Quranda nəsx məsələsinə, yəni nəsxin mənasına, şəri hökmlərdəki nəsx məsələsinə, eləcə də Tövrat və İncildə nəsxə münasibətə geniş şəkildə aydınlıq gətirməyə çalışmışdır. O, yazırdı ki, nəsxin lüğəvi məʼnası yazılı mətnin üzərindən köçürmək, olduğu kimi yazmaqdır: ““İntisax” və “istinsax” kəlmələri də məhz bu kökdən götürülmüşdür. Nəsx lüğətdə “dəyişmək”, “nəql etmək” mənalarında da işlənmişdir... Bütün bunlarla yanaşı biz nəsxin lüğətdə «məhv olub aradan getmək» məʼnasında işləndiyinin də şahidi oluruq... Nəsx, Peyğəmbərin (s) səhabələrin zamanında və sonrakı dövrlərdə də məhz bu məʼnada işlənmişdir. Onlar adətən külliyat və ümumi bir məfhumdan ayrılan və ya istisna olan hər bir şeyə «nasix» (aradan aparan) deyərdilər. Çünki, sonradan yaranmış əlavə və istisnalar əvvəlki hökmləri ya əvəz etmiş və ya aradan aparmışdır”. [1326]

Xoyiyə görə, şəriət və islam qanunları tərəfindən uydurulan hər bir hökm və hər hansı bir həqiqi qanunvericilik orqanı tərəfindən

---

[1325] Quliyev İbrahim. Azərbaycan hədisşünaslığının inkişaf tarixi. Bakı, TUNA, 2019, s.252-253

[1326] Əl-Xoyi, Seyid Əbülqasim. əl-Bəyan fi təfsiril-Quran. 2-ci cild, s.1-2

qüvvəyə minən hər bir qanun sübut və isbat baxımından iki mərhələdən ibarətdir: "1. Hökmün reallaşmasında olan sübut mərhələsi; Buradan həmən qanunvericilik mərhələsi nəzərdə tutulur. Bu mərhələdə hökm və qanun ümumi şəkildə hər hansı bir mətləb nəzərdə tutulmadan qüvvəyə minir. Məsələn, şərabın haram olduğuna dair hökm verilir. Belə bir qanunvericiliyin mə'nası bundan ibarətdir ki, hər zaman və hər yerdə şərab olsa ondan istifadə (alıb-satmaq, içmək, hədiyyə etmək və s.) haram və yol verilməzdir. Nəsx olunmadan belə bir hökmün aradan götürlməsi qeyri-mümkündür. Çünki, bu qanunvericilikdə nə zahiri, nə də batini mətləb nəzərdə tutulur. 2. Hökmün zahiri isbat mərhələsi: Bu mərhələdə ilk növbədə sadir olunmuş hökmün xaricdə qüvvəyə minməsi nəzərdə tutulur. Və hökm bu mərhələyə yalnız o zaman çata bilər ki, başqa sözlə desək, yalnız elə bir şəraitdə qüvvəyə minə bilər ki, nəzərdə tutulan mətləb xaricdə həyata keçmiş olsun. Məsələn, şərab meydana gəldiyi gündən onun haramlığına dair qəti hökm sadir olundu. Yə'ni nə qədər ki, şərab mövcuddur, onun haramlığına dair sadir olunmuş hökm də qüvvədə olacaqdır".[1327]

Xoyi "əl-Bəyan fi təfsiril-Quran" kitabının 2-ci cildinin 13-cü fəslində isə, yaradılışda bəda, yəni Allahın iradə və təqdiri arasında olan rabitə; Bədanın həqiqi mə'na və məfhumu; Bədanı sübuta yetirəcək dəlillər; Bədanın (istifadə olunmadığı) halları; . Bədaya olan əqidənin yaranması; şiə nöqteyi-nəzərindən bədaya baxış məsələsinə hərətərfli izahlar verməyə çalışmışdır. O, yazırdı ki, Quranda "nəsx"dən sonra "bəda" ilə davam etməyi təsadüfi deyil: "Çünki, nəsx və bəda eyni mə'na və məfhum kəsb edir. Fərq yalnız bundan ibarətdir ki, nəsx qanunvericilik, bəda isə yaradılış mövzusuna dəlalət edir. Yə'ni yaradılışda baş verən nəsxə bəda deyilir. Qanunvericilik də isə bu [dəyişiklik] nəsx adlanır. Bunların arasında olan sıx bağlılıq bizi yeni fəsil, yə'ni bəda haqda söhbət açmağa vadar edir. Bu haqda söhbət açmağa səbəb olan başqa bir dəlil müsəlmanların bir qisminin şiə məzhəbinin bədaya olan etiqadları haqda olan yalnış təsəvvürü olmuşdur. Düzgün

[1327] Əl-Xoyi, Seyid Əbülqasim. əl-Bəyan fi təfsiril-Quran. 2-ci cild, s.2

araşdırmalar aparmadıqları üçün nəticədə böyük səhvlərə yol verərək şiə məzhəbi haqda yalnış təsəvvürlər əldə etmişlər. Əgər onlar şiə məzhəbinin bədaya olan əqidə və e'tiqadlarını düzgün dərk etsəydilər, yol verdikləri səhvlərin şahidi olar və şiə məzhəbinə yaxdıqları yalan və iftiralara bir dəfəlik son qoyardılar. Kaş alimlər dəqiq tədqiqatlar apararaq həqiqətin nə olduğunu dərk edəydilər! Kaş başqaları haqda söylədiklərinin nə dərəcədə doğru və düzgün olduğunu dərk edib yersiz və heç bir əsası olmayan nəzəriyyələr irəli sürməkdən çəkinəydilər!".[1328]

Ümumiyyətlə, Xoyinin islamlıq fəlsəfəsi ilə bağlı baxışlarında əsas yeri inam və etiqad tutur. O, hesab edirdi ki, dünyada insana və bəşəriyyətə ən doğru yolu heç bir nöqsan və qüsur olmadan göstərən Qurandır. Bu baxımdan islamlığa baxışlarını əsasən Quran və müəyyən qədər də hədislər üzərindən bəyan edən Xoyinin dünyagörüşünün təməlində Quran fəlsəfəsi dayanmışdır. Doğrudur, o da, öz baxışlarında islam şiəliyini, Əhli-Beyt sevgisini də ifadə etmişdir. Xoyinin düşüncəsində də sonuncu Peyğəmbərin (s) layiqli və doğru davamçısı kimi Əhli beyt və Həzrət Əli (ə.) mühüm yer tutmuşdur. Xoyi də, ona qədərki bir çox şiə din alimlərinə əsaslanaraq İslam dininin Peyğəmbərdən sonrakı mərhələlərdə doğru yol tutan bir məzhəbi kimi məhz cəfəriliyi, ya da islam şiəliyini görmüşdür.

[1328] Əl-Xoyi, Seyid Əbülqasim. əl-Bəyan fi təfsiril-Quran. 2-ci cild, s.88

## MƏHƏMMƏDHÜSEYN TƏBATƏBAİ

**Həyat və yaradıcılığı.** Azərbaycanın tanınmış ilahiyyatçı filosofu Əllamə Seyyid Məhəmmədhüseyn Təbatəbai (1902-1981) Təbrizdə ruhani ailəsində anadan olmuş, ilk təhsilini burada almışdır. 1925-ci ildə Nəcəf şəhərinə gedən Təbatəbai burada Ağa Əli Müdərris, Seyid Hüseyn Badkubeyi, Seyyid Əbülqasın Hansari və başqa tanınmış alimlərdən fəlsəfə, şəriət, əxlaq, riyaziyyat elmlərinə yiyələnmişdir. O, 1935-ci ildə Təbrizə geri dönmüş yaradıcılığına burada da davam etmişdir.

Təbatəbai II Dünya müharibəsindən sonra Qum şəhərinə gedərək təfsir və fəlsəfədən dərslər verməyə başlamışdır. Tehrana da etdiyi səfərlər nəticəsində fəlsəfə və islami elmlərə maraq duyan kəsimlərlə münasibətlərdə olub. Din və fəlsəfə əleyhidarlarıyla çəkinmədən mübahisə edərək aydınlamalarına bais oldu. İ.Quliyev yazır: "Məhəmmədhüseyn Təbatəbai öz dərin bilikləri və elmi təcrübəsilə uzun ilə boyu yorulmaq bilmədən din və fəlsəfəyə qarşı yönəlmiş hücumlara sinə gərmiş, ideoloji oppenentləri ilə elmi mübahisələr təşkil etmiş, İslam fəlsəfi irsinə, mənəvi dəyərlərinə, zəngin mədəniyyətinə qarşı ideoloji mübarizə aparan emissarlarla elmi mübarizə apararaq dini dəyərlərin keşiyində dayanmışdır. İslam mədəni bölgəsi fəlsəfəsi ilə yanaşı, Qərb fəlsəfəsinə də dərindən bələd olması onun bu diskussiyalarda uğur qazanmasında xüsusi rol oynamışdır. əql və məntiq əsasında aparılan bu misilsiz fəaliyyətlər əcnəbi təsirinə qapılmış bir çox alim və ziyalıların doğru yola yönəlməsində müstəsna rol oynamış, həqiqət axtarışında olanları elmi və dini həqiqətlərlə yaxından tanış etmişdir".[1329]

Təbatəbai bir neçə illər boyu payız mövsümündə, prof. Henri Corbe və bir qrup alim və bilginlərlə toplantılar təşkil edilmişdi. Bu toplantılarda din və fəlsəfə haqqında bir çox önəmli mövzular işlədi, günümüz dünyasının mənəvi boyutlu gerçəklərinin arayışında olan şəxslərin qarşısına dikilən problemlər və bu problemlərin həll yolları gündəm edilmişdi. İ.Quliyev yazır: "Yüksək mənəviyyatlı bir

---

[1329] Quliyev İbrahim. Azərbaycan hədisşünaslığının inkişaf tarixi. Bakı, TUNA, 2019, s.263

şəxsiyyətlə həqiqət axtaran elm xadimi arasında təşkil olunan fəlsəfi-teoloji, eləcə də psixoloji, sosioloji və digər dünyəvi elmlərlə əlaqədar aparılan mübahisələr zamanı çox maraqlı məsələlər araşdırılır, bu görüşlər müntəzəm olaraq mühüm və müsbət nəticələrlə sona çatırdı. Bu elmi müzakirələr elə yüksək səviyyədə keçirilirdi ki, bəlkə də İslamla Xristianlıq arasında mənəvi-ideoloji əlaqələrin kəsildiyi orta əsrlərdən bu vaxta qədər Qərb mütəfəkkirləri ilə müsəlman alimləri arasında bu müstəvidə əlaqələr yaradılmamışdı”.[1330]

Təbatəbainin sayəsində əqli elmlər inkişaf etmiş və Quranın təfsiri yenidən ortaya qoyulmuşdu. Əllamə, fəlsəfənin təməli sayılan “Şəfa” və “Əsfar” kimi kitabları tədris etməklə tədricən bu elm sahəsini mədrəsələrdə genişləndirmişdi.[1331]

O, 1981-ci ildə vəfat etmiş və Qumda dəfn olunmuşdur.

Təbatəbainin əsas dini-fəlsəfi və əxlaqa dair əsərləri ərəb və fars dilində yazdığı “Əl-Mizan”, “Fəlsəfənin əsasları və realizm metodikası”, “Tövhid”, “İnsan”, “İslamda şiəlik”, “Vasitə”, “İslamda “Quran””, “İslam və müasir insan”, “İslamda hökumət”, “Müdrikliyin başlanğacı”, “Müdrikliyin sonu”, “Professor Henry Carbone ilə bir sıra danışıqlar” və başqalarıdır.

Onun digər mühüm əsəri “Fəlsəfənin Əsasları və Realizm Metodu”dur. Bu kitab 1320 və 1330-cu illərdə yazılmış və Mürtəza Mutəhhəri tərəfindən müqayisəli fəlsəfənin yanaşması ilə izah edilmiş, 14 fəlsəfi məqalədən ibarətdir. Bu kitab, fəlsəfi məsələləri araşdıran ən vacib kitablardan biridir. İslam fəlsəfi müdrikliyi, müasir Qərb fəlsəfəsinin yanaşmalarına diqqət yetirir.

Onun ən vacib müzakirələri arasında H.Carbone ilə Seyid Hüseyn Nəsr və başqalarının qatıldığı müzakirələr, Tehranda keçirilən və Dariuşh Şayqan kimi insanların iştirak etdiyi görüşlər var. Təbatəbai özü bu danışıqlar barədə deyir: "Karbona görə, bu günə qədər Şərqşünaslar İslam haqqında sünnilərdən məlumat alırdılar və nəticədə şiəliyin həqiqəti Qərb dünyasına olduğu kimi təqdim edilmədi." Keçmişdəki Şərqşünasların inanclarının əksinə olaraq,

[1330] Quliyev İ. Azərbaycan hədisşünaslığının inkişaf tarixi. Bakı, TUNA, 2019, s.265
[1331] Tabatabai, Allame Seyid Muhammed Hüseyin. El-Mizan Fi Tefsiril-Kuran. 1-ci cild. İstanbul, Kevser, 2017, s.7-8

Şiəliyin, Qərbə tanıtdıqları şeylərdən başqa, həqiqi bir dinin xüsusiyyətləri olan, həqiqi, etibarlı və davamlı bir din olduğuna inanıram. Elmi araşdırmalardan sonra gəldiyim budur ki, İslam dininin mənəviyyatındakı həqiqətlərə bu dinə realist olan şiələrin obyektivi ilə baxmalıyıq. Buna görə də bu dini Qərb dünyasına gerçəkliyinə uyğun və layiq olduğu bir şəkildə tanıtmağa çalışdım. Bu dinin alimləri və məşhurları ilə əlaqə qurmaq və onların düşüncə tərzi ilə tanış olmaq və şiəliyin əsaslarını və əsaslarını öyrənmək çox maraqlıdır ki, bu böyük insanlardan kömək alıram və məqsədim barədə daha aydın oluram.

**İslamlıq və islam fəlsəfəsi.** Təbatəbainin əsas əsərlərindən biri 20 il ərzində ərəb dilində yazılmış və 20 clddən ibarət olan “Təfsir əl-Mizan”dır. Bu təfsirdə "Quranın Quranla təfsiri" metodu istifadə edilmiş və ayələrin izahına və ayələrin mövzusuna görə ayrı-ayrı hissələrdə leksik müzakirələrə əlavə olaraq tarixi, teoloji, fəlsəfi və sosial mövzular öz əksini tapmışdır. Bununla bağlı Təbatəbai əsərin girişindəcə qeyd edirdi ki, Qurani-Kərimlə bağlı mübahisəli məsələlərin həllini ondan kənarda axtarmaq doğru deyildir. O, yazırdı: “Qurani-Kərim, aralarında fahiş ixtilaflar olan səhabə və təbəənin sözləri və görüşlərini əsil sübut olaraq öngörməz. Quranda sadəcə ayələr üzərində ətraflıca düşünmə, detallı artaştırma yapma təşviq edilir. Çünki hər hansı bir ixtilaf ancaq bu şəkildə ortadan qaldırla bilər. Allah Quranı bir yol göstərici, bir nur və hər şeyin açıqlayıcısı qılmışdır. O halda bu necə nurdur ki, özündən başqa bir nurla aydınlama gərəyi duyur? Başqasının yol göstəriciliyinə möhtac olan bir yol göstəriciyə nə deyilir? Hər şeyin açıqlayıcısı nöqtəsində olan bir şey, başqa bir şey tərəfindən açıqlana bilərmi?”. [1332]

Başqa bir sözlə, Təbatəbai demək istəyirdi ki, Quranı kəlamçıların, məşşailərin, filosofların, sufilərin, hədisçilərin və başqalarının metodları ilə deyil, Quranı yalnız Quranın özü ilə təfsir etmək lazımdır. Bu anlamda o, Quranın izahı məsələsində fəlsəfəçiləri də tənqid etmiş, onların da düzgün metod seçmədiyini bildirmişdir. O, yazır: “Fəlsəfəçilər də eynilə kəlamçı müfəssirlərin düşdükləri böyük xətaya düşdülər. Görüşlərinə tərs düşən ayələri ümumi anlamda fəlsəfə elminin müxtəlif sahələrinin mübahislərinə

[1332] Yenə orada, s.33

uyğunlaşdırma, onlara görə şərh etmə yanlışını təkrarladılar. Ümumi anlamda fəlsəfə elmi deyərkən, riyaziyyat, təbiyyat, teologiya və tətbiqi hikməti, özəlliklə də Məşşai məktəbini nəzərdə tuturam. Bunlar metafizik gerçəklərə işarət edən ayələri, göylərin və yerin yaradılışına aid ifadələr içərən ayələr, ölüm-qalım arası ara dönəmlə və qiyamət günüylə bağlı ayələri izah edib öz fəlsəfi mübahisələrinə uyğunlaşdırdılar. O qədər ki, külli və cüzi fələklərin quruluşu, elementlərin tərtib və yerləri, fələklər və elementlərlə bağlı hökümlər kimi təbiət elmlərinin dəqiq və təsdiqlənmiş olmadığını və sırf mövcud olanalara dayandığını bildikləri prinisipləriylə uyuşmayan ayələri belə izah etməyə, o prinsiplərə uyğunlaşdırmağa qalxdılar".[1333]

Təbatəbai hesab edirdi ki, fəlsəfəçilər Quran ayələrinin zahirinə daha çoz üstünlük verib, batininə az maraq göstərmələri doğru olmadığı kimi, mütəsəvvüflərin də həddən artıq batinliyə qapılmaları yanlış olmuşdur. O, yazırdı: "Mütəsəvvüflər isə, zahiri aləm və zahirə aləmə aid ayələrdən çox, yaradılışın batininə yönəldikləri və sırf iç aləmə aid ayələrə maraq duyduqları üçün araşdırmalarını salt izaha dayndırdılar və ayələrin sözlü ifadələrini bir kənara buraxdılar. Bunun sonucu hərkəs ayələri batini şəkildə izah etməyə, şeir cümlələri ilə hər ifadədən əlaqələ əlaqəsiz bir çox mövzuya işarətlər çıxarmağa qalxdı. Belə ki, ayələr cümlə hesabı ilə təfsir edildi, kəlimələrdəki hərflər nurani və zülmani deyə ikiyə bölündü və bu əsasa dayanılacaq izahlar yapıldı. Qurani-Kərimin özəl olaraq təsəvvüfçülərə yol göstərmək üzərinə enmədiyi son dərəcə açıqdır. Qurani-Kərimin mühatabları hərflərin gizli sirlərinə inanan, sayılardan anlamlar çıxaran, buradan hərəkətlə bəzi sayılarla tarixi bəzi olayları üst-üstə düşürən kimsələr deyildir. Qurani-Kərimin içərdiyi bilgilər, ulduzların sirlərinə aid bilgilərin Yunancadan və başqa dillərdən Ərəbcəyə çevrilməsindən sonra münəccimlərin ortaya qoyduğu cümlə hesabına dayanmamaqdadır".[1334]

Beləliklə, o, belə bir qənaətə gəlirdi ki, indiyə qədər Quranı təfsir edənlər iki məsələdə yanlış olublar. Həmin iki amili Təbatəbai belə izah etmişdir: "Birincisi, incələdiyimiz ayətlə bağlı olaraq

[1333] Yenə orada, s.34
[1334] Yenə orada, s.34

ortaya çıxaran bir problemlərin çöğümü məqsədinə yönəlik olaraq elmi, fəlsəfi və ya başqa növ bir araşdırma yapıb gerçəyi buluruq, sonra da ayəti bu araşdırmamızın məhsuldalığına görə izah edərik. Bu, nəzəriyə araşdırmanın onaylayacağı bir yöndəmidir. Fəqət bilindiyi üzərə Qurani-Kərim bu tərz bir araşdırmayı təsdiq etməz. İkincisi, Quranı Quranla təfsir edərik. Birbaşa Qurani-Kərimin təşviq etdiyi, ayələri detallı şəkildə yardımıyla açıqlamaya çalışırıq; ayələrin bildirdiyi özəlliklər işığında örnəklərini təşhis edər, tanırıq. Necə ki, "Biz sənə Kitabı hər şeyin açıqlayıcısı olaraq endirdik", [Nəhl, 89] buyurur. Hər şeyin açıqlayıcısı olan Qurani-Kərimin öz-özünü aşıqlamaması məntiqli deyildir. Bir digər ayədə uca Allah belə buyurur: "İnsanlara yol göstərən, doğrunun və haqqı batildən ayırmanın apaçıq dəlillərini əhatə edən..." [Bəqərə, 185]. Bir başqa ayədə də belə buyurur: "və sizə apaçıq bir nur endirdik" [Nisə, 174]. Quran insanlar üçün bir yol göstərici, bir açıqlayıcı, əyri ilə doğruyu bir-birindən ayırd edici, insanları maraqlandıran hər mövzuda apaçıq bir aydınlaşdırıcı bir olacaq, amma ən çox ehtiyac duyduqları bir xüsusda onlara yetərli gəlməyəcəkdir! Belə bir şey mümkün deyildir".[1335]

Təbatəbai belə bir nəticəyə gəlmişdir ki, Quranı Quranla təfsir etmək Məhəmməd peyğəmbərin hədislərində və Həzrət Əliyə aid "Nəhcül-bəlağə"də də öz əksini tapmışdır. O, yazırdı: "Peyğəmbər əfəndimiz (s.a.a.) belə buyurmuşdur: Fitnələr gecənin zil qaranlığı kimi üzərinizə çökdüyü zaman, Qurana sarılın. Çünki Quran şəfa verər və şəfası qəbul olur. Əleyhdə, şahidlikdə bulunur və şahidliyi qəbul olunur. Onu özünə imam edinən şəxsi cənnətə götürür. Onu arxasına atan şəxsi də cəhənnəmə sürüklər. O, ən yaxşı yola çatdıran bir yol göstərəndir, o məsələləri əsaslı olaraq həll edən bir hökm kitabıdır, bir açıqlamadır, dəqiq bilgilərin qaynağıdır. O, haqq içəriklidir, zarafat deyildir". "Onun zahiri və batini vardır. Zahiri hikmət, batini isə elmdir. Zahiri gözəl, batini isə dərindir. Onun ulduzları vardır, ulduzlarının üzərində də ulduzları vardır. Əcaibləri saymaqla bitməz, maraqlı şeyləri əskiməz. Onda hidayət lampaları və hikmət məşələləri vardır. İnsaf və ədaləti tanıyanlara yaxşılığı göstərir". "O halda insan gözünü dörd açsın, baxışını

[1335] Yenə orada, s.39

dəqiqləşdirsin; pozuğunluqdan, sataşmalardan qurtulsun. Çünki təfəkkür, qavrama istedadını itirməmiş qəlbin vardır. Bu sayədə, eynilə əlində məşələsi olan bir insanın qaranlıqların ortasında yol alması kimi, qurtuluş asnlıqla təmin olunur, qorxulu gözləmələr ən aza enər. Hz. Əli də (ə.s.) "Nəhcul-Bəlağə"də Quranı bu şəkildə tanımlar: "Quranın bir qismi bir qismini dəstəklər, bir qismi bir qisminə şahidlik edər. Bax, Quran müəllimlərinin və yol göstəricilərinin (Allahın səlat və salamı üzərlərinə olsun) izlədikləri dos-doğru yol və apaçıq metod budur".[1336]

Təbatəbai Quranı təfsir edərkən əsasən Quranın özünə, o cümlədən hədislərə müraciət etmiş, onun ayələrini öz mahiyyətinə uyğun izah etməyə çalışmışdır. O, ilk növbədə Fatihə surəsini şərhinə çalışmış, onun hər bir ayəsini ayrı ayrılıqda geniş şərh etmişdir. Burada Təbatəbanin Fatih surəsinin təfsiri üzərində geniş dayanmadan əsas məqamları ifadə etməyə çalışmışıq. Belə ki, o, həmin surədə Qurana və hədislərə dayanaraq Allahın böyüklüyünü, şəriksizliyini, adilliyini, hər şeyə qadir olmasını və s. ifadə etməyə çalışmışdır. O, yazırdı: "Əqli qənaətlər, malulün müstəqilliyini və özüylə bağlı hər xüsusun illətinə dayandığını göstərməkdədir. Malulda olan hər kamal gerçəkdə illətinin varlığının bir uzantısıdır. Dolayısıyla əgər varlıqda görsəlliyin bir gerçəkliyi varsa, onun kamalı və müstəqilliyi varlığı məcburi olan uca Allahdır. Çünki O, bütün illətlərin qaynağı olan tək illətdir. Həmd və öygü isə, hər hansı bir varlığın öz varlığıyla bir başqa varlığın kamalını göstərməsidir. O başqa varlıq da onun illətindən başqası deyildir. Bilindiyi kimi hər kamalın qaynağı uca Allahdır. O halda, hər öygünün və hər həmdin gerçəkliyi Ona dönükdür. Eyləysə, həmd, aləmlərin Rəbbi olan Allaha məxsusdur". [1337]

Ona görə, Allahla bəndə arasındakı münasibətlər ağa-qul münasibətləri ilə ölçülə bilməz, çünki Allahın qulları üzərindəki sahibliyi həmin münasibətdən fərqlidir və başqalarının sahiblyinə bənzəməz. O, yazırdı: "Onun qarşısında qulun yeri bölünmə qəbul etməz. Yəni Onun qulun bəzi qisimlərinə sahib olması, buna qarşı bəzi qisimlərinə sahib olmaması mümkün deyildir. Onun üçün, qul

[1336] Yenə orada, s.40-41
[1337] Yenə orada, s.59

üzərindəki bəzi təsərrüflərin caiz, bəzilərininsə caiz olmaması bəhs mövzusu deyildir. Necə ki, insanlar arasındakı kölələlik münasibətlərində kölələrin kimi keyfiyyətləri əfəndilərin mülkiyyəti altındadır, öz istəklərinə bağlı olan əməlləri kimi; bəzi keyfiyyətləri də bu mülkiyyətin içinə girməz, doğuşdan gələn məcburi keyfiyyətlər kimi. Eyni şəkildə kölələr üzərində bəzi təsərrüflərdə bulunmaq caizdir, işlərindən yararlanmaq kimi; onlarla bağlı bəzi təsərrüflər də caiz deyildir, onları suçsuz yerə öldürmək kimi”. [1338] O, bu məsələ ilə bağlı sonda belə bir qənaət gəlirdi ki, Allah qeyd-şərtsiz olaraq malikdir, mülkiyyəti hüdudsuzdur; onun xaricindəkilərsə, qeyd-şərtsiz olaraq mülkdürlər.

İslamda iman məsələsinə gəlincə, Təbatəbaiyə görə iman inancın qəlbə yerləşməsi deməkdir. O, yazırdı: “Bu kəlimə, güvən anlamına gələn “emn” kökündən törəmişdir. Sanki mömin inandığı şeyi şübhə və aldanmaya qarşı qorumaya almaqda, güvəndə qalmaqdadır. Bilindiyi kimi, şübhə və aldanma, inancın bəlasıdır. Daha öncə də dediyimiz kimi imanın dərəcələri vardır. Çünki iman, bəzən sadəcə bir şeyin özünə yönəlik olur, onun gərəklərinə nüfuz etməz. Bəzən bir az daha güclü olub onun kimi gərəklərini də içərisinə alır. Bəzən də elə güclü olur ki, onun bütün gərəklərinə təsir edir. Buradan da bu sonuc çıxar: İmanın sinifləri sırasında möminlərin də sinifləri vardır”. [1339]

Bu anlamda “qeyb”ə, axirətə inamın da mühüm olduğunu yazan Əllaməyə görə, vəhyə iman etmə və axirətə kəsin inanma qarşısında “qeybə iman etmə” ifadəsilə Allaha iman qəsd edilir. O, yazırdı: “Axirətə inanmaqdan söz edilərkən, iman yerinə, yaxın (kəsin inanma) feili istifadə edilir. Sanki təqva sifətinin, ancaq axirətə heç bir zaman unutulmayacaq şəkildə kəsin bilgiylə inanmaqla gerçəkləşə biləcəyinə işarət edilir. Çünki insan bəzən bir şeyə inandığı halda, onun bəzi gərəklərindən qəflət edərək inancına tərs davranışlar içinə girə bilər. Ancaq insan, önəmli-önəmsiz bütün əməllərindən dolayı bir gün hesaba çəkiləcəyini davamlı xatirində

---

[1338] Yenə orada, s.60
[1339] Yenə orada, s.90

tutarsa, yoldakı əngəllərə ilişib büdrəməyəcək və əlbəttə Allahın haramlarını işləməyə cəsarət etməz”. [1340]

Ona görə, iman məsələsində konkret qavrayışlarla yanaşı, mücərrrəd qavramlar da vardır. O, yazırdı: “Əski nəsilə mənsub Qərbli mütəfəkkirlər ilə İslam bilginləri, həm duyğu orqanlarının qavrayışlarına, həm də ağla dayanıla biləcəyi düşüncəsindədirlər. Bunu irəli sürərkən də səbəbləri budur: “Saf əqli qavramların yanılma, yanlışa düşmə ehtimali çox yüksəkdir. Çünki konkret qavramların doğruluq və yanlışılığını bəlirləyəcək bir ölçü yoxdur. Çünki ölçü, duyğu və sınaqdır və bunlar ancaq cüzi həqiqətlərə çata bilərlər. Sözgəlişi biz, duyğu orqanlarımızdan biri vasitəsiylə bir şey qavradığımız zaman, örnəklərini yeniləyərək təcrübə etməyə çalışarıq. Bu işi, əldə edilməsi arzulanan özəlliyi dəqiqələşdirənə qədər davam etdirərik. Bundan sonra onun gerçəkliyi haqqında hər hansı bir şübhə qalmaz”. Qərbli filosofların bu dəlilləri həm yanlış, həm də ziddiyyətlidir. Çünki: 1- Bu dəlildəki bütün təkliflər, hissi təcrübəyə əsaslanmayan əqli təkilflərdir. Bu halda bu dəlil, içərdiyi əqli təkliflərlə, əqli təkliflərə dayanmanın yanlışlığının sübutudur. Dolayısıyla bu sübutun doğruluğu, yanlışlığını gəraktirməkdədir”.[1341]

O daha sonra yazırdı ki, ikincisi, dədiq məlumatlardakı yanlışlar, riyazi olaraq əqli məlumatlardakı yanlışlardan daha az deyildir: “Belə ki, onların göz və ya digər duyğu orqanlarının yanılmaları ilə bağlı aradşırmaları bunu gücləndirmək dəyərindədir. Əgər hər hansı bir metodda yanılma bəhs mövzusu olduğunda bu, o metodu bir kərədə silməyi, bir daha ona əsaslanmamayı gərəkdirirsə, dəqiq məlumatlara dayanmama , inanmama, çox daha gərəkli və çox daha çətin olurdu”. [1342]

Təbatəbaiyə görə, üçüncüsü doğru ilə yanlışı bir-birindən ayırma əməliyyatı bütün qavramlar üçün qaçılmazdır: “Fəqət dəqiq məlumatın yenilənməsindən ibarət olan təcrübə, əyri ilə doğruyu ayırd etmıyı yarayan bir vasitə deyildir. Əksinə təcrübi təklif , sadəcə alınmaq istənən sonucu sübut edən müqayicənin iki təklifindən birini formalaşdırır. Misali biz, duyğu orqanlarımız vasitəsilə hər hansı bir

[1340] Yenə orada, s.91
[1341] Yenə orada, s.92-93
[1342] Yenə orada, s.93

həqiqətin bir özəlliyini qavradığımız və bunun örnəklərini yeniləyərək sınamdan keçirdiyimiz zaman gerçəkdə belə bir müqayisə əldə etmiş oluruq: "Bu özəllik, ələ almaqda olduğumuz həqiqət açısından varlığı davamlıdır, ya da daha çox bu əzəlliyin varlığı ön plandadır. Əgər bu özəllik, bu həqiqətdən başqasına spesfik özəllik olsaydı, bu şəkildə davamlı ya da ön planda olmazdı. Amma görürük ki, bu özəllik, bu həqiqət üçün davamlı ya da ön planda olma dəyərini qoruyur." Görülür ki, bu müqayisdə dəqiqi və təcrübi olmayan əqili öncüllər vardır".[1343]

Ona görə, dördüncüsü bütün dəqiq biliklər praktiki təcrübəyə əsaslansalar da, təcrübənin özünün bir başqa təcrübə ilə gücləndirilmədiyi, doğruluğu qəti şəkildə təsdiqlənmədiyi də ortadadır: "Yoxsa, hər eksperimentin bir başqa təcrübə ilə doğrulanması prosedurası sonsuza qədər sürüb gedərdi. Bu halda eksipermentin doğru olub olmadığı, konkret məlumatların xaricindəki bir metodla bilinir. Dolayısıyla konkret faktlara və təcrübəyə dayanmaq, məcburi olaraq əqli bilgiyə dayanmaq deməkdir".[1344]

Təbatəbaiyə görə, beşincisi duyğu orqanları ilə qavranılan biliklər, ancaq cüzi və dəyişkən şeyləri əhatə edərlər. O, yazırdı: "Elmlər isə, sadəcə külli təkliflərdən istifadə edərlər və ümumi təkliflər şəklindəki nəticələrə varırlar. Bunlarsa, konkret və təcrübi deyildirlər. Sözgəlişi: anatomiya, insanlardan az və ya çox sayılı insanlara çata bilər. Bu elm vasitəsilə konkret olaraq, məsələn bu və ya bu insanın bir qəlbi və bir ciyəri olduğu müşahidə olunur. Bunun təkrarıyla az ya da çox bir sıra müşahidələr əldə edilir. Fəqət bu bilgi, "hər insanın bir qəlbi ya da bir ciyəri vardır" şəklindəki bütöv mühakiməmizdən fərqlidir. Bu üzdən özümüzü sırf konkret və təcrübi biliklərlə məhdudlaşdırsaq, sadəcə bunlara dayanaraq hərəkət edərsək, sırf bunlardan yararlanırsaq və başdan etibarən əqli biliklərə dayanmaqdan qaçarsaq, ümumi bir qavrayış, nəzəri bir düşüncə və elmi araşdırma əldə etmiş ola bilmərik".[1345]

Onun fikrincə, bu halda bir maddəyə spesfik sahələrdə konkret biliklərə dayanıb inanmaq necə bir məcburiyyətdirsə, əqli

---

[1343] Yenə orada, s.93
[1344] Yenə orada, s.93-94
[1345] Yenə orada, s.94

bacarığa spesfik sahələrdə də əqli biliklərə dayanıb güvənmək bir zərurətdir. Ona görə, ağıl deyərkən ortada olan bütün təkliflər və ümumi mühakimələrin qaynağı, qavrayıcısı nəzərdə tutulmalıdır. Çünki insanın bu cür istedad sahibi olmasına şübhə yoxdur.[1346]

Təbatəbai iddia edirdi ki, həyata yenicə addım atan bəsit bir insan, faktları xarici görünüş etibarilə qavradığını zənn edərək faktlarla öz qavradığı arasında bilgi keyfiyyətinin vasitəçilik yapdığının fərqində olmaz: "Bəzi davranışlarında şübhə və ya zənnə qapılana qədər bu durum davam edər. Bu sırada belə bir gerçəyin fərqinə varır: İnsan canlı bir orqanizm olaraq hərəkətlərində və dünyadakı yaşamında zəruri olaraq bilgi dəyərini istifadə edir və bu meyar bəzən əyri ilə doğruyu bir-birindən ayırmada yanılır. Yoxsa, faktların xarici görünüşündə yanılma və yanlışa düşmə bəhs mövzusu ola bilməz. Bu nöqtədə insan "bilgi" meyarının varlığına qəti olaraq inanır".[1347]

Onun fikrincə, bütün hallarda, müsbət və mənfi meyarlar bir faktda eyni anda bulunamazlar və ikisi birlikdə də yoxa olmazlar: "Bu halda, prinsipial və nəzəri hər təklif, bütövlükdə təsdiqlənməsi üçün prinsipial təkliflərin başında gələn bu təklifə möhtacdır. Bu təklif, o qədər prinsipial və açıqdır ki, bununla bağlı varsayılan şübhə də, öz mənfisi ilə bir araya gələ bilməməkdədir. Bu təklif bütün açıqlığı ilə qətilik qazanınca, buna duyulan ehtiyac faizində elmi təsdiqlər sahələrində bol məlumatlar əldə edilmiş olur. Bax insan, baxış açısı və əməlləri baxımından, bu məlumatlara dayanır".[1348]

Təbətabaiyə görə, bütün canlılar arasında yalnız insan oğlu elm və düşüncəyə malikdir; bu özəlliyi sayəsində insan, başqa canlıları və nəsnələri öz müdafisəi uğrunda istifadə edə bilir. O, yazırdı: "Hər canlı növü kimi, insanın da dayandığı bir fitrəti vardır. Yenə hər canlı növündə olduğu kimi, onun fitrətinin də bir sıra öngörüləri və hökmləri bəhs mövzusudur. Fitrətin hökmlərindən biri, insana təsərrüf haqqı verməsidir. Buna bağlı olaraq fitri haqlarını müdafiə haqqını tanımasıdır. Bax, insanı toplumun önəmsədiyi

---

[1346] Yenə orada, s.94

[1347] Yenə orada, s.94-95

[1348] Yenə orada, s.95

mövzularda savaş verməyə yönəldən, mücadilə verməyə sövq edən, fitrəti və öz yaradılışından dolayı qavradığı bu (ikinci) haqdır. İnsanın həyat mənfəətləri doğrultusunda istifadə edə bildiyi hər şeyi istifadə edə bilir olmasıyla bağlı fitri olaraq qavradığı ilk hökm və haqq deyildir".[1349]

Onun fikrincə, hər insanın öz yaradılışı baxımından qavradığı haqq və hüquq toplumsal boyutda bəlli bir bərabərliyə qovuşur. Belə ki, insan öz növündən olanları da istifadə etmə ehtiyacını duyduğu zaman, onların da bu mövzuda özləriylə eyni vəziyyətdə olduqlarını anlar.

**Şiəçilik fəlsəfəsi.** Təbatəbai də bir çox din alimləri kimi yaradıcılığında şiəlik məsələsinə xüsusi yer vermiş, ona aid bir çox kitablar yazmışdır. Bunlardan biri "İslamda şiəlik"dir ki, Təbatəbai burada şiəliyin yaranması və inkişafı, şiəliyin düşüncə metodu və şiəlik açısından dini bilikləri qələmə almışdır.[1350]

O, əsərin girişində ilk növbədə, nədən insanların müəyyən bir inanca sahib olmasını göstərməyə çalımış və bunu doğuran zərurətdən bəhs etmişdir. Onun fikrincə, hər hansı dinə, ya da dini məzhəbə inanc insanın daxili təbiətindən qaynaqlanır və insanı bir təməl inanc üzərinə kökləyir. Təbatəbai yazırdı: "İnsan həyatına hakim olan qayda və qanunlar, insanın bağlı olduğu təməl bir inanc üzərində qurulub. Bu təməl inanc, insanın da bir parçası olduğu aləm haqqında ki, düşüncəsi və onun həqiqətiylə bağlı mühakiməsidir. İnsanların fərqli dünyagörüşləri incələnirsə bu mövzu açıqlığa qovuşar. Varlığı sadəcə gözlə görülür maddi dünya, insanı da - həyatın verilməsiylə var olan və ölümlə son bulan – maddi bir varlıq olaraq dəyərləndirilən yaşantılarında izlədikləri yol, maddi ehtiyacları qarşılamaq və beləcə dünyəvi keyflərini təmin etməkdir. Bu tip insanların səyləri, təbii amil və şərtləri öz çıxarlarına uyğun bir hala gətirməkdir. Təbiəti üstün bir güc sahibinin yaratdığına, Onun dünyanı bilxassə insanı yaradıb müxtəlif nemətləri ilə ruziləndirdiyinə inanan bütün bütə tapınan cəmiyyətlərin

---

[1349] Tabatabai, Allame Seyid Muhammed Hüseyin. El-Mizan Fi Tefsiril-Kuran. 2-ci cild. İstanbul, Kevser, 2017, s.104-105

[1350] Tabatabai, Allame Seyid Muhammed Hüseyin. Tüm boyutlarıyla İslamda Şia. İstanbul, Kevser, 2009, s.25

yaşantılarındakı izlədikləri proqram, Allahın xoşgörülüyünü qazanıb Onu qəzəbləndirəcək şeylərdən qaçmaqdır. Çünki Allahın xoşgörülüyünü qazandıqları təqdirdə, Allah nemətlərini çoxaldacaq və davamlı hədiyyələrdə bulunacaq; Allahı qəzəbləndirdikləri təqdirdə isə, verdiyi nemətləri ondan geri alacaqdır. Ancaq uca Allah inanmanın yanı sıra, insan üçün əbədi həyat bulunduğuna inanan, onun yapdığı bütün pis və yaxşı işlərinin cavabdehi bilən, sonuc olaraq da sorğu-sual və mükafat – yəni qiyamət – gününün var olduğunu təsdiq edən Məcusi (maraqlıdır ki, şiəliyə əsalanan Təbatəbai kimi əllamələr məcusiliyi təktanrıçılıq dini kimi qəbul edirlər – F.Ə.), Yəhudi, Xristian, və Müsəlman topluluqlar, yaşantılarında bu inanclarının qorunacağı, dünya və axirət xoşbəxtliklərini təmin edəcək bir yolu seçmək və izləmək istərlər. Varlıq dünyası və insanla bağlı yapılan bu dəyərləndirmə və inanc və bu doğruluqda həyatda əməl edilən qanunların bütününə "din" deyilir. Əgər bir dində bölünmələr və firqələr meydana gəlirsə, hər bir firqəyə "məzhəb" deyilir. Məsələn, İslamda Əhlisünnə və Şiə məzhəbləri, Xristianlıqda isə Malakan və Nəsturi məzhəbləri kimi".[1351]

Bizcə, Təbatəbai burada açıq şəkildə etiraf edir ki, səmavi dunlər öz bütünlüyünü qoruyub saxlaya bilməmiş, hər səmavi dinin özündə ayrı-ayrı məzhəblər meydana çıxmış və artıq xristianlar, müsəlmanlar konkret İslama, Xristianlığa deyil, müxtəlif məzhəblərə əsaslanaraq dini inanclarını sürdürürlər. Bu cür düşünənlərə görə, İslam dinində də əsas məzhəblərdən biri şiəlikdir və bunun belə olması da təbii qəbul edilməlidir. Çünki Təbatəbainin təbrincə desək, bir çox insanlar üçün əsas olan Allahın varlığından da çox hər hansı bir dinə, dini məzhəbə ideoloji təməllər üzərinə qurulmuş bir həyat proqramına möhtacdır. O, yazırdı: "İnsan (Allaha inancı olmasa belə) bir dinə, yəni ideoloji təməllər üzərinə qurulu həyat proqramına möhtacdır və heç bir zaman ondan ayrı deyildir. Belə olduğu təqdirdə din, heç bir zaman insandan ayrılmayan həyat qaydalarıdır".[1352]

---

[1351] Yenə orada, s.26-27
[1352] Yenə orada, s.27

Beləliklə, İslamda şiəlik məzhəbinin olmasına haqq qazandıran Təbatəbai, daha sonra onun yaranması və inkişafının səbəblərini şərh etmişdir. Ona görə, şiəliyin əsası Hz. Əli ilə bağlıdır ki, "Hz. Əli şiəsi" adlanan ilk dövr Məhəmməd peyğəmbərin (s.) yaşadığı dövrə təsadüf edir. Belə ki, İslam dinini ilk qəbul edənlərdən olan Hz. Əli peyğəmbər tərəfindən daim təriflənmiş hətta, "Əli şiəsi", "Əhlibeyt şiəsi" isimlərinə onun öz buyruqlarında rast gəlmək mümkndür. Eyni zamanda, o, bu dinin qalibiyyəti uğrunda həm əlində qələm, həm də qılıncla xidmətlər göstərmişdir; bunun nəticəsində də peyğəmbər son vəsiyyətində onu bütün xalqın vəlisi, özü kimi möminlərin əmiri və idarə edəni olduğunu açıqlayıb xalqa tanıtmışdır.[1353]

Təbatəbai bütün hallarda şiəliyin meydana çıxmasını həm təbii hesab etmiş, həm də bunun baş verməsinə haqq qazandırmışdır. Onun fikrincə, peyğəmbərin vəfatından sonra bir qrup çoxluğun, yəni Əhlisünnənin xilafəti ələ alması və bu zaman Əhli-beyti, o cümlədən Hz. Əlini xəbərdar etməməsi, bunun müqabilində azlıqda qalanların qarşı tərəfi tənid etmələri nəticəsində şiə və sünni ayrımçılığı açıq şəkildə ortaya çıxmışdır. Təbatəbai yazırdı: "Bəli, azlığı çoxluqdan ayrıb qoparan və onları "Əli şiəsi" deyə topluma tanıdan nədən, azlığın tənqidləri və qarşı qrupun da etiraflarıydı. Bu olayın ardından xilafət məqamı, zamanın siyasəti gərəkçəsi ilə adı keçən azlığın bu adla tanınıb, nəticədə toplumun azlıq və çoxluq deyə ikiyə bölünməməsi yolunda səy göstərir, bu məsələni yaxından təqib edirdi. Bunun üçün xilafətin ittifaqla gerçəkləşdiyi yolunda iddiada bulunur və etiraz edənlərə "müsəlman camaatdan və biətdən qaçanlar" adını verirdilər. Hətta, bəzən bunlar haqqında pis sözlər istifadə olunurdu.

Əlbəttə, şiələr ilk günlərdən bəri çağın siyasətinə məhkum qaldılar və etirazda bulunmaqla da heç bir yerə əlləri çatmadı. Hz. Əli də həm İslam və müsəlmanların gələcəyini nəzərə alaraq, həm də yetərli qədər gücü olmadığından qanlı qiyamlara əlini uzatmadı. Amam etirazda bulunan azlıq, görüş və inancında çoxluğa təslim olmayıb, elmi mərclik və Peyğəmbər əfəndimizin (s.a.a.) xəlifəliyini və Əlinin (ə.s.) özəl və mütləq (qeydsiz, şərtsiz) haqqı bildilər. bu

[1353] Yenə orada, s.25

üzdən elmi və mənəvi müraciətlərə ancaq o Həzrətə yaraşır bilir, ona dəvətdə bulunurlardı”.[1354]

Təbatəbaiyə görə, ilk gündən şiəliyin əsas fəlsəfəsində iki məqsəd: 1) İslam təlimatı və dini təhsilin verilməsi, 2) həmin islami təlim və təhsil üzərində hökumətin formalaşması, dayanmışdır. O, yazırdı: “Şiə, İslam ehkamçılığından çıxardığı sonuca görə, İslam təlimatı və dini təhsilin açıqlanması, daha sonra toplum içərisində tamamilə həyata keçirilməsinin, toplum üçün birinci dərəcədə önəm daşıdığına inanır. Başqa bir sözlə, toplumun fərdləri ilk öncə dünya və insana gerçək gözlə baxmalıdırlar, insani vəzifələrini tanıyıb istəkləriylə zidd ola belə yerinə yetirməlidirlər. İkinci dərəcədə, din üzərinə qurulu bir hökumət, toplumda gerçək islam quruluşu, xalqın Allahdan başqasına qul olmamasını, gerçək anlamıyla azadlığı, fərdi və kütləvi ədalətdən yararlanmalarını təmin edəcək bir şəkildə həyata keçirməli və onu qorumalıdır”.[1355]

Onun fikrincə, bu iki məqsədə ancaq ismət və ilahi məsumiyyətə sahib kimsələrin vasitəsiylə çatmaq mümkündür. Təbatəbaiyə görə, əks təqdirdə xilafətdə onlara buraxılan vəzifələrə uyğun olmayanlar, xəyanət etməyə hazır olan şəxslər, elmi məqamları da ələ keçirib ədalət prinispinə də zərbə vurular. Bununla da, İslamın ədalət üzərinə qurduğu, azadlıq qaynağı olan İlahi vəlayət Bizans və Sasanilərdə olduğu kimi, tədricən zədələnər və eqoizm, maddiyatçılıq ön plana çıxarılar. O, belə bir qənaətə gəlirdi ki, yuxarıdakı iki məqsədi heç bir problem olmadan həyata keçirə biləcək şəxs, Qurani-Kərimə və Peyğəmbərin hədislərinə görə də Hz. Əli olduğu halda, ancaq haqsızlıq baş vermişdir. Ancaq bütün bu haqsızlıqlara baxmayaraq başda Hz. Əli olmaqla şiə tərəfdarları öz haqq yollarını izləməklə, ya da müxalif qalmaqla yanaşı, bir çox hallarda xilafətə dəstək də vermişdir. Bunu, Təbatəbai belə izah etmişdir: “Bəli, şiəni seçimlə xilafəti qəbul etməkdən uzaq tutan, daha sonra meydana gələ biləcək acı olaylar, yəni islam hökumətinin izləyəcəyi yolun fəsad olması və ali dini təhsilin təməlinin yox olma əndişəsi idi. Necə ki, sonralar gerçəkləşən olaylar da bu inancın (və ya təxminin) doğru olduğunu gün keçdikcə aydınlaşdırmaqdaydı.

[1354] Yenə orada, s.36-37
[1355] Yenə orada, s.38

Beləcə şiələrin əqidələrinə olan inancları daha çox artırdı. Şiələr zahirdə çoxluq içərisində əritilməsinə, barmaqla sayıla biləcək qədər azlıq olmalarına, İslam ehkamlarını gizlicə Əhlibeytdən öyrənməyəvə öz yollarına davam etməyə israrlı olmalarına rəğmən, İslam gücünün qorunması və irəliləməsi üçün aşırı müxalifətdən qaçırdılar hətta, onlarla çiyin, çiyinə cihada gedirdilər, kütləvi işlərdə onlara qatılırlardı. Hz. Əlinin özü də İslamın gələcəyini göz önündə tutaraq gərəkən yerlərdə çoxluğa yol göstərirdi”. [1356]

Təbatəbaiyə görə, şiəlik, Allahın kitabı və Peyğəmbərin sünnətində bəlirlənən səmavi İslam şəriətinin heç bir zaman dəyişməyəcəyinə və qiyamətə qədər öz etibarını qoruyacağına inanır. O, yazırdı: “Şiəyə görə İslam hökuməti, heç bir bəhanə ilə, İslam dinini tamamilə həyata keçirməkdən qaça bilməz. İslam hökumətinin tək vəzifəsi, zamanın məsləhətini göz önündə bulunduraraq şəriət sərhədi çərçivəsində şura və məşvərətlə bəzi qərarlar almasıdır. Amma siyasi məqsədlər üzərə gerçəkləşən biət olayı və yenə Hz. Peyğəmbərin xəstəliyinin son günlərdə gerçəkləşən kağız və mürəkkəb hadisəsi, xilafətin seçimlə olmasına tərəfdar olanların bu mövzuda fərqli inanclar daşıdığını ortaya çıxarmışdır. Onlara görə, Allahın kitabı bir anayasa kimi qorunmalı, Peyğəmbərin (s.a.a.) açqılamaları və sünnətləriysə dəyər və etibarını qayıb etmişdir, o halda İslam hökuməti siyasət gərəyincə, onları həyata keçirməyə bilərdi”. [1357]

Ona görə, Əhlisünnət xəlifələrin hakimiyyəti dövründə xümusun Əhlibeytə verilməsinin qarşısının alınması, hədislərin yazılmasına qadağa qoyulması, bəzi şəriət qaydalarının yasaqlanması və bunun əvəzində şəriətdə olmayan qaydaların peyda olması, Bizans və Sasanilərə aid ənənələrin Xilafətə ayaq açması, Xəlifə Osmanın Əməvi əqrabalarına xüsusi qayğı göstərməsi və digər məsələlər İslam dininə zidd olmuşdur. O, yazırdı: “İlk üç xəlifənin iyirmi beş il sürən xilafətlərində, işləri idarə etmədə izlədikləri siyasət budur: İslam qanunları ictihad üzərinə və xilafət məqamı tərəfindən təşhis edilən məsləhətlərə görə həyata keçilir. İslam ehkamlarında isə izlədikləri yol, Quranın təfsir edilmədən və araşdırlmadan oxudulması və

[1356] Yenə orada, s.39
[1357] Yenə orada, s.40

Peyğəmbərin (s.a.a.) hədisləri yazılmadan rəvayət edilməsi, qulaq və ağız həddini aşmamasıydı. Yazmaq Qurani-Kərimlə məhdudlaşdırılmış, hədisləri yazmaq qadağan olunmuşdur”. [1358]

Təbatəbai iddia edir ki, ilk üç xəlifənin dövründə aparılan siyasət nəticəsində İslam dininin namaz kimi müzakirə edilməyən ap-açıq məsələlərində də bir-biriylə zidd hadisələr ortaya çıxdı: “Beləliklə, Qurani-Kərim və Hz. Peyğəmbərin açıqlamalarında elmlə bağlı mədh etmələr və elmləri irəlilədib yaymaya olan təşviq və təkidlər, sonuc verməyib təsirsiz qaldı. Xalqın çoxluğu, İslama bir-birinin ardından nəsib olan zəfərlərə və Ərəb yarımadasına dörd bir yandan axıb gələn hədsiz hesabsız qənimətlərin verdiyi sevinc və nəşəni yaşamaya məşğul idilər. Risalət xanədanının bunların ən irəli gələni və Hz. Peyğəmbərin (s.) buyurduğuna görə İslam ehkamları və Quranın anlamları mövzusunda xalqın ən bilgini olan Hz. Əlinin (ə.s.) elmləri diqqətə alınmadı. Hətta Qurani-Kərimin bir araya toplanılmasında (Peyğəmbərimizin vəfatından sonra Hz. Əlinin, evinə qapanıb Mushafı bir araya topladığını bildikləri halda) ondan yararlanmadıqları kimi adını belə çəkmədilər. Bu və oxşar bir sıra işlər, Hz. Əlinin (ə.s.) tərəfdarlarının öz inanclarına daha çox sarılmalarına, olayların gedişatını daha oyaq şəkildə izləmələrinə və gündən günə çalışmalarını artırmalarına səbəb oldu. Hz. Əli (s.ə.) isə xalqın ümumi tərbiyə edilməsindən məhrum edildiyi üçün fərdləri özəl olaraq tərbiyə etməyə başlamışdı”. [1359]

Təbatəbaiyə görə, Hz. Əli xəlifə olduğu təxminən 5 illik hakimiyyəti dövründə Peyğəmbərin zamanındakı ədaləti bərqərar etməyə çalışaraq ilk üç xəlifənin dönəmində alınmış bir çox qərarları ləğv etmişdir. Onun fikrincə, Hz. Əli xəlifəliyi dövründə İslam ölkəsinin qarışıq vəziyyətini tamamilə öncəki durumuna gətirə bilməsə də, amma üç təməl açıdan müvəffəq olmayı bacardı: 1) Öz ədalətli davranış və hərəkətləriylə Peyğəmbərin (s.) çəkici əxlaqi çöhrəsini xalqa, özəlliklə yeni yetişən nəsilə sərgilədi; 2) O qədər yorucu işlər və məşğuliyyətlərlə birlikdə xalqın içərisində özündən haqq İslami elmlər və İlahi qanunlarla bağlı dəyərli irsi xatirə qaldı;

[1358] Yenə orada, s.44-45
[1359] Yenə orada, s.45-46

3) İslami mütəfəkkirlərdən və möminlərdən bir çoxuna təhsil verdi.[1360]

Əməvilərin hakimiyyəti zamanı şiəliyin ən çətin dövrünü yaşadığını, bir çox haqsızlıq və ədalətsizliyin baş verdiyini yazan Təbatəbaiyə görə, Əhlisünnətin əksəriyyəti Müaviyə tərəfdarlarının hakimiyyəti ələ keçirərkən haqsız qan tökmələrinə, İslam qanunlarından kənara çıxmalarına onları peyğəmbərin əshabələrindən sayıb haqq qazandırmağa çalışsalar da, ancaq şiə bunu razı olmamışdır. O, yazırdı: "Çünki əvvəla ədaləti, haqqı və hürriyyəti bərqərar etmək məqsədilə qiyam edən, bir qrupu bu müqəddəs hədəfi gerçəkləşdirmə yolunda bütün varlıqlarından keçə biləcək dərəcədə öz inancına bağlı qalan Peyğəmbər kimi bir ictimai rəhbərin, həfədinə çatdıqdan sonra öz dostlarına, haqq və gətirmiş olduğu müqəddəs qanunlar haqqında mütləq sərbəstlik verməsi və onlara göstərmiş olduqları hər cür məsuliyyətsizlikləri, işlədikləri suçları və haqqı əzmələrini əfv edilmiş bilməsi, digər bir sözlə; öz əliylə yapmış olduğu binanı eyni vasitələr və öz əliylə yıxmaları, təsəvvür oluna bilməz. İkinci olaraq, bunu bilməliyiz ki, səhabələri təqdis edən, çirkin və qeyri-qanuni əməllərini təqdir edən və onların əvf edilmiş olduğunu ifadə edən hədislər, səhabələrini özləri vasitəsiylə bizə çatmışdır. Bu hədislərin rəvayətçiləri səhabələrin özləridir. Səhabə də, tarixin şahidliyinə görə, bir-birlərinə toxunulmaz və yapdıqları xətalarda məzur olduqlarını qəbul etmirlərdi".[1361]

**Fəlsəfi görüşləri**. Təbatəbainin fəlsəfi görüşləri bir tərəfdən marksist cərəyanın islami zehinlərə mənfi şəkildə təsir etməsi ilə yaranmış şübhələri aradan qaldırmaq, digər tərəfdən də həqiqəti qavramaq, həqiqəti aşkara çıxarmaqla bağlı olmuşdur. Onun fikrincə, fəlsəfə deyilən bir şey mövcudluğun mövcud olması etibarilə hallarını araşdıran bir elm sahəsidir ki, burada da əsas məqsəd mövcudları külli bir şəkildə bilib həqiqi olmayanlardan arındırmaqdır.[1362] Varlıq məsələsi ilə bağlı o, daha çox Molla Sədra və Səbzəvarinin dünyagörüşünə, onların varlıq fəlsəfəsinə müraciət

[1360] Yenə orada, s. 51-53
[1361] Yenə orada, s.57
[1362] Tabatabai, Allame Seyid M.Hüseyin. Bidayetül-Hikme, nşr., Kum, 1997, s.5

etmişdir. Yeri gəldikcə, onların Varlıq problemi ilə baxışlarını tənqid edən azərbaycanlı-türk mütəfəkkiri onlardan fərqli olaraq irfani məsələylə fəlsəfi məsələləri daha incəliklə bir-birindən ayırmışdır. Ancaq bütün hallarda Təbatəbai Molla Sədranı İslam fəlsəfəsini yenidən dirçəldən müdrik kimi ona böyük dəyər vermiş, onun İslam fəlsəfəsi ilə Yunan fəlsəfəsini bir-birindən ayırmasını yüksək dəyərləndirmişdir.

Son əsrlərdə müdrikliyə sevgi məktəbinin tanınmış nümayəndələrindən biri hesab olunan Təbatəbainin burada diqqət yetirdiyi özəllik,varlıq qavarmı ilə onun həqiqəti arasında yapılan təməl ayrımıdır. Varlığın təsdiqi elə Varlığın özüdür [1363] prizmasından çıxş edən Təbatəbai Varlıqla bağlı üç anlayışa: mahiyyətli, fəlsəfi və məntiqi qavramlara diqqət yetirmişdir. Varlıq problemini daha çox fəsləfi yöndən ələ almağa çalşan Təbətəbai hesab edirdi ki, burada xarici-zehni və mümkün-zəruri varlıq anlayışlarını bir-birindən fərqləndirmək lazımdır.

O, “Bidaye”və “Nihaye” əsərlərində varlığın zehni və xarici olaraq bölünməsini müstəqil bir məsələ olaraq ələ almaqla bərabər xarici bəhs etməmişdir. Eyni zamanda, o, zehni varlıqla bağlı problemlər, şübhələr, inkar edənlərin dəlilləri və cavabları üzərində uzun uzadı durmasına rəğmən xarici varlıq haqqında bu kimi mövzulara toxunmamışdır. Vaqiəyə inanan, ona istinad edən Təbətabai hesab edirdi ki, xarici varlığa şübhə duymağın mənası yoxdur, çünki o var, onu hamı qavrayır.[1364]

Beləliklə, Təbatəbanin dünyagörüşündə din və fəlsəfənin bir bütünlüyündən çıxış etmə metodu özünü ortaya qoymuşdur. O, uzun müddət dinin kölgəsində qalan fəlsəfəni, fəlsəfi məsələləri dirçəltməyə çalışmışdır. Ancaq o, bunu edərkən daha çox fəlsəfi məsələlərin əslində İslam dininə zidd olmamasını ifadə etmək istəmişdir. Başqa sözlə, fəlsəfənin yalnız materialiscəsinə anlaşmasının doğru olmadğını, onun idealist yönünün yenidən dirçəldilməsi üçün Təbatəbai xeyli əmək sərf etməli olmuşdur. Hətta, o məhz bu məqsəd naminə bəzi Qərb filosofları ilə birgə elm-fəlsəfi söhbətlər təşkil etmişdir. Bütün bunlar da, əsas amal  geniş yayılmış

[1363]Tabatabai, Allame Seyid M.Hüseyin. Nihayetül-Hikme, nşr., Beyrut, 2005, s.5-6
[1364] Yenə orada, s.38

materializm cərəyanlarını mümkün olduğu qədər zərərsizləşdirmək olmuşdur.

Eyni zamanda, o, bir çox əsərlərində varlıq və materiya problemini də şərh etmiş, xüsusilə varlıq məsələsini yenidən izah etməyə çalışmışdır. Varlıq probleminin izahında İbn Sina, İbn Rüşd və başqaları ilə yanaşı, Molla Sədra və Səbzəvariyə daha çox istinad edən Təbatəbai yaşadğı dövrdə bu qavramın yalnız dini anlamda izahlarının yetərli olmadığını çox yaxşı dərk etmişdir. Onun varlıq problemində Molla Sədra və Səbzəvariyə daha çox müraciət etməsinə səbəb isə, onların dünyagörüşlərini İslam fəlsəfəsinə yeni baxış kimi dəyərləndirməsi ilə bağlı olmuşdur. Başqa sözlə, Molla Sədradan başlayaraq İslam fəlsəfəsinin digər fəlsəfələrdən fərqləndirilməsinə inanan Təbatəbai xüsusilə də, bunun varlıq problemi sahəsində olduğunu irəli sürmüşdür. Bununla da, varlıq probıeminə yaradıcılığında geniş yer verən azərbaycanlı-türk mütəfəkkir, özü də bu fəlsəfi məsələ ilə bağlı maraqlı mülahizələr ortaya qoymuşdur.

Bütün bunlarla yanaşı, Təbatəbainin dünyagörüşündə də əsas yerlərdən birini islam şiəçiliyi, onun fəlsəfi və fəlsəfi-tarixi mahiyyəti tutmuşdur. O, islam şiəçiliyinə aid əsərlərində əsas diqqəti onun niyə meydana çıxmasının həm siyasi-ideoloji, həm də sosial-fəlsəfi tərəflərinə yönəltmişdir.

## MƏHƏMMƏDKAZIM ŞƏRİƏTMƏDARİ

**Həyat və yaradıcılığı.** Azərbaycan Türk mütəfəkkiri, ilahiyyatçı alim, Ayətullah Seyid Məhəmmədkazım Şəriətmədari (1906-1986) Təbrizdə anadan olmuş, iki il Ayətullah Ağa Mirzə Sadıq Təbrizi və Ayətullah Ağa Mirzə Əbülhəsən Əngəcinin dərslərində iştirak etmişdir. 1915-ci ildə təhsilini davam etdirmək məqsədilə Quma köçən Şəriətmədari orda Ayətullah Əbdülkərim Hayiri Yəzdinin dərslərini dinləmişdir. O, 1921-ci ildə İslam elminə daha dərindən yiyələnmək üçün Nəcəf hövzəsinə, daha sonra yenidən Quma getmiş və yeddi il dini və dünyəvi elmləri öyrənmişdir. 19 yaşında Ayətullah rütbəsi alan Şəriətmədari 1927-ci ildə Təbriz şəhərinə qayıtmışdır.

Şəriətmədari müəllimləri Ayətullah Əbdülkərim Hayiri Yəzdi və böyük Ayətullah hesab olunan Hüseyn Burucerdi kimi, dinin siyasətə qarışmasına qarşı idi. 1961-ci ildə Hüseyn Burucerdinin ölməsindən sonra Şəriətmədari şiə aləminin ən nüfuzlu dini xadimi kimi qəbul olunmağa başladı. O, çox keçmədən Qum dini seminariyasının rəhbəri seçildi.

1963-cü ildə İran adlanan ölkədə çıxan qarışıqlıqlarda qan tökülməməsi üçün böyük səy göstərən Şəriətmədari, Xomeyninin Məhəmmədrza Pəhləvi tərəfindən edam edilmək istəyinə əngəl olmuşdur. O, digər dini qurumların da təzyiqi ilə, şahın Xomeyniyi bağışlayaraq Türkiyəyə sürgün edilməsinə nail olub.

O, 1970-ci illərin sonunda, "İran"da Pəhləvilər əleyihinə başlayan hərəkatlarda da aktiv rol oynamışdır. O, dini azadlıq və azərbaycanlıların hüquqları məsələsində şah rejimi ilə ciddi fikir ayrılığına sahib idi. Şəriətmədari şahın aryançılıq siyasətinə qarşı çıxırdı. 1978-ci ildə şahın xüsusi xidmət orqanları Şəriətmədarinin ofisini dağıtmış və onun tələbələrini qətlə yetirmişdir. Bundan sonra Şəriətmədari şah rejiminin əleyhinə fətva vermişdir.

"Şah"ın devrilməsi ilə Xomeyninin ölkəyə qayıtmasına şərait yaradan Şəriətmədari ilə digər dini liderlər arasında anlaşılmazlıqlar baş qaldırdı. Sərt bir idarəçilik yerinə yumşaq bir idarəetmə qurulmasını istəyən, şiə din adamlarının mərkəzi hökumətdə bu

dərəcə aktiv rol almalarına qarşı çıxan tanınmış din alimi, bir ara Quma çəkildi, ancaq ona verilən zəmanətlər üzərinə yenidən Tehrana döndü.

Şəriətmədari 1979-cu ilin fevralında şah rejiminin devrilməsindən sonra Fransadan İran adlanan ölkəyə qayıdan Xomeyniyə mötədil siyasət yürütmək nəsihəti vermiş və qan tökməkdən vaz keçmək üçün səy göstərmişdir. O, Xomeyninin dini dövlət, yəni "vilayəti-fəqih" nəzəriyyəsini tənqid etmiş və dini dövlət yanaşmasının şiəlikdə heç bir elmi əsasının olmadığını bildirmişdir.

Xomeyninin fundamentalist yanaşmasından narahat olan Şəriətmədari tərəfdarları 1979-cu ilin fevralında Müsəlman Xalq Hərəkatını da yaradıblar. Tezliklə Şəriətmədari ilə Xomeyni arasında fikir ayrılığı açıq qarşıdurmaya çevrildi. Belə ki, Şəriətmədarinin istəyinin əksinə gedən Xomeyni referendum nəticəsində ölkənin "İran İslam Demokratik Respublikası" deyil, "İran İslam Respublikası" adlanmasına nail oldu.

Müsəlman Xalq Hərəkatı və onun lideri Şəriətmədari bu ilk məğlubiyyətə baxmayaraq bütün gücünü yeni qəbul ediləcək Anayasanın demokratik əsaslarda hazırlanmasına, təkbaşına hakimiyyət idarəçiliyinin olmamasına sərf etmişdir. Ancaq Xomeyni, 1979-cu ilin dekabr ayında Şəriətmədarini ev dustağına çevirdi və Müsəlman Xalq Partiyasını qadağan etdi. Xüsusi xidmət orqanlarının nəzarətinə götürülən Ayətullah Şəriətmədari ömrünün son günlərinə qədər həbsdə saxlandı.

1982-ci ildə "İran" televiziyası Sadıq Qütbzadənin "etirafları"nı yayımladı. Qütbzadə Şəriətmədarinin tapşırığı ilə Xomeyniyə sui-qəsd hazırladığını bildirirdi. Bu etirafdan az sonra onun edamı gündəmə gəlir. Xomeyni onun edam olunmasına razı olmur və müctəhidlərin edam edilməyəcəyini açıqlayır.[1365] O, 1986-cı ildə ev dustağı ikən müəammalı şəkildə ölmüşdü.

**İctimai-siyasi və dini görüşləri.** Ayətullah Şəriətmədari və Xomeyni fərqli baxışlara sahib olan iki rəqib idilər. Şəriətmədari daha çox islahatçı, Xomeyni isə "inqilabçı" idi. Bu baxımdan 1979-cu ilin fevralın əvvəlində Ruhullah Xomeyninin rəhbərliyi ilə İslam

---

[1365]https://az.wikipedia.org/wiki/M%C9%99h%C9%99mm%C9%99d_Kaz%C4%B1m_%C5%9E%C9%99ri%C9%99tm%C9%99dari#Həyatı

Cümhuriyyət Partiyası (İCP), həmin ayın sonunda isə Ayətullah Seyid Məhəmməd Kazım Şəriətmədarının lideri olduğu Müsəlman Xalq Partiyası (MXP) quruldu. MXP-nin əsas gücü Azərbaycan şəhərlərində, Tehranda və Qumda idi. Hər halda o dövrdə "İslam inqilabı"nın əsas mərkəzlərindən biri Təbriz olmuş, "Şah"a qarşı ən sərt şüarlar burada verilmişdir. Ancaq Tehranda hələ də güclü olan fars millətçiləri bununla barışa bilməyib, onlar da Azərbaycan-Təbriz mərkəzli inqilaba qarşı İslam dini adı altında fars şiəçiliyini təşkilatlandırmağa başlamışdılar. Bu hadisələrin canlı şahidi olmuş E.Qaradağlı yazır: "29 bəhmən üsyanı daha çox Şəriətmədari adıyla hallansa da, heç Şəriətmədari tipli dirəniş modeli deyildir. Doğrudur ki, Ayətullahın milləti Qumda ölənlərin yasına çağırması çox etgili olmuşdur. Ancaq bu üsyan geniş düşüncə kəsiminin birlikdə ortaya qoyduğu iradənin məhsulu idi. Kəsinliklə, orta kəsimi oluşduran aydın və öyrənci gücü olmasaydı, Təbriz üsyanı da Qum üsyanı kimi, qanda basdırılardı. Öyrənci və aydın düşünürlərin 29 bəhməndəki rolunu üsyandan sonrakı Təbriz ayaqlanmalarında da eynilə görmək mümkün idi. Halbuki, türklərin mərcə məqamı olan Ayətullah Şəriətmədarının belə dərin və radikal üsyanları liderlik edəcək ölçüsü yox idi. Əslində Şahla onun arasında olan açılım bir o qədər də dərin deyildir. 29 bəhmən rejim məmurlarının Türk millətindən olan yanlış düşüncəsini ortaya qoymaqla yanaşı başda Ayətullah Xomeyni olmaqla Farsçı mollaları da ayıltdı. Belə ki, bu üsyanda qan verən Azərbaycan Türk millətinin öz doğması olan Şəriətmədaridan səs çıxmayınca Xomeyni Nəcəfdən Təbrizə səsləndi. Şəriətmədari Təbriz üsyanını özündən uzaqlaşdırmağa çalışarkən Xomeyni həmin bildirişdə "Yaşasın qorxmaz Təbriz!", "Siz, Şaha ölüm istəməklə onun ağzına möhkəm bir yumruq endirdiniz!" və başqa sözləri ilə özünə böyük yer aça bildi. Halbuki, Azərbaycan Türk millətinin istəyi bu sözlərin öz din öndərinin ağzından eşitməsi idi". [1366]

Doğrudan da, o dövrdə inqilabın mərkəzi Təbriz olmuş, Məhəmmədrzaya qarşı ən sərt şüarlar burada verilmiş, hətta Müsəlman Xalq Hərəkatı Şəriətmədarinin də xeyir-duasıyla burada meydana çıxmışdır. Şübhəsiz, Tehranda hələ də güclü olan fars

[1366] Qaradağlı Eldar. Azərbaycan mərkəzli türkçü düşüncə. İstanbul, ÇAV yayınları, 2012, s.365-366

millətçiləri bununla barışa bilməyib, onlar da Azərbaycan-Təbriz mərkəzli inqilaba qarşı İslam dini adı altında fars şovinizmini təşkilatlandırmağa başladılar. E.Qaradağlı yazır: "Burda da Təbrizlə Tehran arasında olan fərqlilik gözə çarpırdı. İnqilabdan sonra bu çarpıcı çeşidlilik İslami Cümhuri Partiyası və Müsəlman Xalq Cümhuri Partiyası formalarında daha da özünü göstərməyə başladı. Əsas hədəf kütləsini Azərbaycanda, Tehranda və Qumda axtaran Xalq Müsəlman Partiyası çox keçmədən Azərbaycanın ən təyinedici gücünə çevrildi. Kəsinliklə tanınmış liderlərinin də istəyi olmadan bu partiya gün getdikcə dərin tələblərin mərkəzinə çevrilirdi. Azərbaycan haradsa iç savaşa çəkilmək ərəfəsində yaşayan bir bölgəyə çevrilmişdir. Şəriətmədarçılıqla Xomeyinçilik qarşı-qarşıya durmaqdaydı. Məhərrəm axşamlarındakı şaxsey-vaxsey dəstələri apaçıq ikiyə bölünmüş Hüseynçilər (Xomeynin dirənişçiləri – F.Ə.), Həsənçilər (Şəriətmədarinin barışçıları – F.Ə.) ünvanıyla tanınırdılar. Təbrizin bazarında yola düşən əza dəstələri də ikiyə bölünmüşdür. Təbrizin inqiab komitələrinin demək olar 4-5-ni çıxmaq şərtilə qalanı bütünlüklə "Xalq Müsəlman"nın əliylə idarə olunurdu. Ordunun durumu da beləydi".[1367]

Qeyd edək ki, Şəriətmədarinin başçılıq etdiyi Müsəlman Xalq Hərəkatı çox keçmədən artıq siyasi bir partiyaya çevrilmişdi. A.Kəskin yazır: "MXP milli və liberal bir ideologiyaya malik idi. Partiyanın liberal tələbləri İran inqilabının ümumi şüarları və yaranmış şəraitlə ziddiyyət təşkil edirdi. İnqilab gedişində bütövlükdə İranda antiimperialist antiqərb bir atmosfer formalaşmışdı. Bu şəraitdə kapitalizmi dəstəkləmək, liberal və qərbçi olmaq həm yeni rejimin, həm də xalqın nəzərində böyük bir günah sayılırdı. MXH məhz belə bir ictimai-siyasi şərtlər içərisində fəaliyyətə başladı. MXP öz tərkibinə görə çeşidli zümrələri əhatə edirdi. Başqa sözlə, bu partiyada böyük din xadimləri ilə yanaşı, dünyəvi düşüncəyə sahib ziyalılar da təmsil olunurdu". [1368]

Arif Kəskinə görə partiyaya rəhbərlik edən Şəriətmədari dinlə siyasətin əlaqəsi məsələsində Xomeynidən çox fərqli baxışlara malik

[1367] Yenə orada, s.368-369
[1368] Kəskin Arif. Güney Azərbaycanda Milli Hərəkatın tarixi təməlləri. // Bakı-Təbriz. Dünya Azərbaycanlılarının dərgisi. №3 (6). Bakı, "Qanun" nəşriyyatı, 2006, s.37

idi. A.Kəskin yazır: "O, "vilayəti-fəqih" prinsipini qəbul etmirdi. Şəriətmədari inqilabdan sonra Konstitusiyaya daxil edilməsi istənilən "vilayəti-fəqih"in hədsiz səlahiyyətlərinə qarşı çıxırdı. Onun fikrincə, din xadimləri dövlət adamları deyil, nəzarətçi olamlıdırlar. Başqa sözlə, din xadimləri siyasi hakimiyyətin fövqündə durmalı, siyasi məsələlər isə siyasətçilər tərəfindən həll edilməlidir. Şəriətmədari hesab edirdi ki, din xadimlərinin ən başlıca vəzifəsi ümməti və dini məməviyyatsız hökumətdən qorumaqdır. O, səltənətin devrilməsini istəmirdi, Məşrutə prinsiplərinin tətbiqinə və "həqiqi konstitusiyaslı monarxiyaya" tərəfdar idi. Şəriətmədari digər liberal üləmalr kimi Məşrutə dövrünün konstitusiyasında müəyyən edilmiş "yüksək komitə"nin yaradılmasını istəyirdi". [1369]

Başda Ayətullah Şəriətmədari olmaqla, Azərbaycan xalqının, o cümlədən Müsəlman Xalq Hərəkatının "İslam Cümhuriyyəti"ndən başlıca tələbləri yeni Anayasanın yazılması ilə yanaşı Əyalət-vilayət sisteminin rəsmiləşməsi, çoxpartiyalılıq sisteminə keçid, dünyəvi və hüquqi dövlətin olması, milli dillərin tədrisi, Qurucular Məclisinin millət tərəfindən seçilməsi idi. "Ayətullah Şəriətmədariyə görə, millətin dışında olan siyasi davranışlara son vermək gərəkir. Habelə "İslamda Vilayəte Fəqih adında bir qanun qoxdur və ola da bilməz", sözü A.Şəriətmədarının ağzından əksik olmayırdı. Millət tərəfindən böyük dəstək alan bu cəsarətli davranışın ən tədrigin və sinirli qaşıs çıxanı Xomeyni özü idi. Günbəgün daha da böyüməkdə olan iki liderin qarşıdurması sürəci Türk-Fars ayrıntılığına da yol açırdı. Hər gün dərinləşməkdə olan bu etnik qarşıdurmanın bir olumsuz tərəfi də var idi. Belə ki, Xalq Müsəlman və Ayətullah Şəriətmədarının Xomeynizmə qarşı çağdaş və demokratik tutumu – Əşrəf Dehqani dışında, bütün solçu və mücahidlər tərəfindən imperializm tuzağı adlandırılırdı. Tudə, Fədai və Mücahid örgütlərinin başçılarının Xalq Müsəlman qarşısında geriçi, siyasal əxlaq dışı və tam irticaçı tutumlarının ən böyük uduzanı Azərbaycan Türk milləti olsa da, ən rəzil və quyrubulayıcı yeniləni də bu qruplar oldu". [1370]

---

[1369] Yenə orada, s.38

[1370] Qaradağlı Eldar. Azərbaycan mərkəzli türkçü düşüncə. İstanbul, ÇAV yayınları, 2012, s.369-370

Şəriətmədari inqilabdan sonra hazırlanan konstitusiyanın “vilayəti-fəqih”, ya da teokratik islami hakimiyət ilə əlaqədar olan 110-cu maddəsi əleyhinə çıxaraq konstitusiyaya səs vermədi. Bu Şəriətmədari tərəfdarları, yəni MXP üçün başlanğıc nöqtəsi oldu. Həmin dövrdə Azərbaycan şəhərləri xüsusilə Təbrizdə səsləndirilən türkcə şüarlarda da Şəriətmədarinin düşüncələri öz əksini tapmışdır: “Əsl-i 110 ziddi-bəşərdi, İslah olmasa əgər, batildi, hədərdi”. İlk başlarda “vilayət-i fəqih”ə qarşı mübarizə hərəkatın əsas xəttini təşkil edirdi. Ancaq, hərəkat radikallaşdıqca milli məsələyə də üstünlük verildi. Hərəkatın milliləşməsi küçə etirazlarında da öz əksini tapmışdır: “Azərbaycan qəhrəmanları, çox verib belə imtihanları. Cumhurimiz olsun bərqərar, rəhbərimiz mərceyimiz Şəriətmədar””.[1371]

Həmin dövrün fəallarından olan Maşallah Rəzmi Ayətullah Şəriətmədarinin şəxsən muxtariyyət tələbləri və federalizm haqqında danışdığını iddia edir: “Ayətullah Şəriətmədari Fransanın Le Monde qəzetinin muxbiri Eric Rouleau ilə müsahibədə Əyalət və Vilayət Əncümənləri Qanununa işarə edərək Azərbaycan üçün muxtariyyətdən söz açıb. O, eyni müsahibədə federalizm sözündən istifadə edib”.[1372] Rəmzinin sözlərinə görə, 1979 ilində Azərbaycanda Xomeynini dəstəkləyən cərəyanlar say və nüfuz baxımından çox zəif olub və əksəriyyət Şəriətmədarini dəstəkləyib: “Təbrizdə təşkil olunan 36 komitə şəhərə nəzarət edirdi. Bunların 28-i Şəriətmədarini dəstəkləyirdi. Komitələrdən sadəcə biri tam olaraq Xomeyni tərəfdarı idi”.[1373]

Doğrudan da, Şəriətmədərai yeni konstitusiyada, bir sıra maddələrin, xüsusilə Azərbaycan türkcəsinin Azərbaycan daxilində rəsmi dil kimi tanınması, Azərbaycanda tədrisin ana dilində aparılması, milyonlarla Azərbaycan türkünün yaşadığı Tehranda ikidilli, Fars və Türk dilli, məktəblərin yaradılması, ilk mərhələ kimi Güney Azərbaycana əyalət və vilayət əncümənlərinin fəaliyyətinə, sonra isə İran İslam Respublikasının yetərincə bərkidikdən sonra mərkəzi hökumətlə razılaşdırılaraq Güney Azərbaycanın İranın

[1371] https://www.amerikaninsesi.org/a/mashallah-razmi/2568810.html
[1372] https://www.amerikaninsesi.org/a/mashallah-razmi/2568810.html
[1373] https://www.amerikaninsesi.org/a/mashallah-razmi/2568810.html

tərkibində Muxtar Respublika olması kimi məsələlərin Konstitusiyada öz əksini tapmasına çalışmışdı. Türklərin, o cümlədən Azərbaycan türklərinin problemləri ilə bağlı bəzən daha sərt və olduqca radikal bəyanatlar irəli sürən Şəriətmədari həmin dövrdə Ankaradakı "Azərbaycan" dərgisinə verdiyi müsahibəsində deyirdi: "15 milyon farsın əsarəti altında 60 il qalmaqmı yaxşıdır, yoxsa 17,5 milyon luq türkün ədaləti altında yaşamaq?! Məsələlərimizi bu şəkildə orataya qoymalıyıq!". [1374] Bütün bunlardan çıxış edərək, o, daha sonra deyirdi ki, yeni İslam Konstitusuyasında Azərbaycan türkləri ən azı haqq etdiyi muxtariyyətə sahib olmalıdır: "İslami Konstutusiyamız qəbul edildikdən sonra hər kəs öz yerini alacaqdır. Bizim yerimiz isə 17,5 milyon Azərbaycan türkünü doğub böyüdən Təbriz olacaqdır". [1375]

"İran"ın bütövlüyündən çıxış etməklə yanaşı Şəriətmədari dolayısıyla da olsa deyirdi ki, Pəhləvilərdən sonra Xomeyni monorxiyasının ortaya çıxması yolverilməzdir. O, şiəlik ənənələrinə dayanaraq ruhanilərin birbaşa şəkildə siyasətə qarışmamasını, dövlət idarəetməsində, xüsusilə də iqtidarda yer almamasını uyğun görmüşdü. Eyni zamanda, o, konstitusiyanın Mütəxəssislər Şurasında hazırlanmasının da əleyhinə çıxmış, Anayasanın birbaşa seçkilərlə seçiləcək Qurucular Məclisi tərəfindən hazırlanmasını doğru görmüş və seçkiləri boykot etməyə çağırmışdı.

Xomeyni ilə Şəriəmədarinin münasibətləri Mütəxəssislər Məclisinin təcili şəkildə hazırladığı yeni konstitusiya layihəsinin 2-3 dekabr 1979-cu uldə həyata keçiriləcək refendumda qəbul edilməsi ərəfəsində kəskinləşdi. Bu arada Şəriətmədari müəyyən narazlıqların baxmayaraq ümumilikdə konstitusiya layihəsininin İslan dininə uyğun olduğunu, onun qəbul edilməsinin mümkün olduğunu bildirdi. Eyni zamanda, o, layihədəki 56. (Allah tərəfindən xalqa verilən haqlae) və 110. (Vilayəti-fəqihin səlahiyyət və vəzifələri) maddələrinin bir-birilə ziddiyyət təşkil etdiyini və Vilayəti-fəqih (lider) qavramının layihəyə daxil edilməsinin qəbul edilməz olduğunu açıqladı. "İran"ın dövlət televiziyası Şəriətmədarinin konstitusiya layihəsi ilə bağlı görüşlərinin təqdir etdiyi birinci

[1374] Kazım Şəriətmədari ilə müsahibə. "Azərbaycan" dərgisi, 1979, №230, s.6
[1375] Yenə orada, s.6

hissəsini dəfələrlə yayınladığı halda, tənqid etdiyi ikinci bölümünü isə vermədi, bununla da Şəriətmədari tərəfdarlarınn etirazları başladı.

5 dekabr 1979-cu ildə referendumun nəticələrinin təhrif edilmiş şəkildə elan edilməsi və Şəriətmədariyə qarşı bəzi fiziki və mənəvi təzyiq göstərilməsi ilə bağlı Qumda şəriətmədariçilərlə xomeyniçilər üz-üzə gəldilər. Şəriətmədarinin mühafizəçilərindən biri bu münaqişədə öldürüldü. Bu hadisə, vəziyyəti daha da kritikləşdirdi ki, Xomeyni Şəriətmədariyi evində ziyarət edərək on baş sağlığı vermək məcbuiyyətində qaldı. Nəsibli yazır: "İmam Xomeyninin bu davranışı görülməmiş bir olay idi. Ancaq bu, Azərbaycan xalqını sakitləşdirmədi. Şəriətmədarinin qəzəbli tərəfdarları Təbrizdəki dövlət radio-televizya mərkəzini, əyalət valisinin evini və digər dövlət qurumlarını ələ keçirdilər. Təbrizdəki hərbi silah deposunun əsgər və zabitləri nümayişçilərə qatıldı. Azərbaycanın bir çox şəhərlərində də etiraz aksiyaları gerçəkləşdirildi. Radio-televiziya mərkəzini ələ keçirənlər Müstəqil Azərbaycan İslam Cümhuriyyəti haqqında danışmalara varacaq qədər irəli getdilər. bu, artıq bir baş. qaldırı idi, Təbriz bir kəs daha mərkəzi hökumətə qarşı üsyan başlatmışdı". [1376]

Gördüyümüz kimi, Müsəlman Xalq Partiyasının təşkilatçılığı ilə 6 dekabr 1979-cu ildə Təbrizdə yeni iqtidara qarşı ilk böyük üsyan baş vermişdi. Bu üsyanda MXP ilə yanaşı Azərbaycan Demokrat Partiyasının, Fədailərin və Mücahidlərin yerli təşkilatları da iştirak etmişdilər. Arif Kəskin yazır ki, Təbriz üsyanında əsas məqsəd Şəriətmədariyə və Azərbaycan Türklərinin haqlarına dəstək verməklə yanaşı, Xomeyniyə və onun ideyalarına etiraz etmək olmuşdur: "Şəriətmədari tərfədarları Xomeyniyə bağlı qüvvələrin toplaşdığı mərkəzləri dağıtdılar, Xomeyninin şəkillərini divarlardan qoparıb cırdılar. "İnqilab keşikçiləri" qanlı bir hücumla radio və televizya mərkəzini MXP tərəfdarlarından aldılar. Üsyanı yatırtmaq üçün Tehrandan əlavə qüvvələr gətirildi. MXP qərargahı qanlı toqquşmalardan sonra həmin qüvvələrin əlinə keçdi, amam münaqişə təqribən 20 gün davam etdi. Güney Azərbaycan yenidən ağır silahlarla susduruldu. MXP üsyanının yatırılmasında İranın bütün

---

[1376] Nesibli, Nesib. Azerbaycan tarihi: Millet-Devlet-Siyaset. Ankara, Altınordu yayınları, 2019, s.587

siyasi partiyaları iştirak etdi. Hətta azlıqların milli hüquqlarını müdafiə edən Xalq Fədailəri Partiyası da bu məsələdə islam hökuməti ilə həmrəy oldu. Azadlıq Hərəkatının (Azadlıq Cəbhəsinin-F.Ə.) başçısı Mehdi Bazərgan isə MXP-ni xarici qüvvələrin təxribatı kimi dəyərləndirdi”. [1377]

Təbriz üsyançıları demokratik tələblərlə yanaşı milli tələblər də irəli sürərək ölkədə yaşayan bütün xalqlara “Öz müqəddəratını təyin hüququ” verilməsi və İranın Federativ İslam Respublikasına çevrilməsi tələblərini də irəli sürmüş, Təbrizdəki dövlət idarələrini, radio və televiziya stansiyalarını, təyyarə meydanını ələ keçirərək müstəqil Azərbaycan İslam Cümhuriyyətini elan etmişdilər. Onlar partiyanın lideri Şəriətmədarini Təbrizə dəvət etmiş, lakin radikal mübarizəni qəbul etməyən, bütün çıxışlarında barışdırıcı mövqedən çıxış edən Şəriətmədari Təbrizə gəlməkdən imtina etmişdi.

Üsyanın ikinci günü Xomeyni iqtidarının muzdlu silahlı qüvvələri olan “pasdarlar” üsyanı yatırmağa çalışmışdır. Həmin gün Xomeyninin Şəriətmədari ilə görüşü olmuş və bu görüşdə Xomeyni Konstitusiyada dəyişiklik edilməsi və Azərbaycan məsələlərinin həllinə söz vermişdi. Nəsibli yazır: “Bu dönəmdə hər iki tərəfdən onlarla ölən və yaralananların olmasına, çatışan tərəflərə on minlərlə insanın qatılmasına, Təbrizdəki eyni dövlər dairəsinin bir neçə kəs əldən ələ keçməsinə, qısacası, Təbriz və Azərbaycanın mərkəzə qarşı yetərincə kəskin duruş göstərməsinə baxmayaraq, üsyan sırasında rəli sürülən tələblərin yetərsizliyi diqqət çəkir. Necə ki, dekabr ayının 13-də təbrizdə yarım milyon insann qatıldığı mitinqin ən “radikal” tələbi, iki Azərbaycan əyalətində idarə və dini atamaların Şəriətmədarinin təsdiqindən sonra yapılması idi. Anlaşılmazlıqlar mövzusunda dərin təcrübəyə sahib oilan Xomeyni, bu və bənzəri tələblərin qəbulu məsəlsəində vəd verməyi uyğun görmüş, hətta yeni Anayasada düzənləmlər mövzusudna Şəriətmədariyə danışacağını açıqlamışdı. Özünə sadiq güclərin ilə və qarşı tərəfdəki Xalqı Müsəlmanın yönətimindən Hüccətil-İslam Xosrovşahi kimilərini öz tərəfinə çəkmək üçün zaman qazanan Xomeyni, addım-addım Şəriətmədariyə bir güncə sıxışdıra bildi.

[1377] Kəskin Arif. Güney Azərbaycanda Milli Hərəkatın tarixi təməlləri. // Bakı-Təbriz. Dünya Azərbaycanlılarının dərgisi. №3 (6). Bakı, “Qanun” nəşriyyatı, 2006, s.39

Şəriətmədarinin hərəkəti, onun "pis taktikaçı" olduğunu göstərməkdəydi. Öz nüfuzunun və eyni zamanda da milli hərəkatın gücünün zirvədə olduğu dönəmdə belə Şəriətmədari, özünün və hərəkatı düşmən qəbul edənlərə qarşı yumşaq davranış sərgilədi".[1378]

N.Nəsibliyə görə, Şəriətmədarinin digər yanlışlığı, daha doğrusu hərəkətsizliyi onu Qumdan Təbrizə çağıran, "Can sənə fəda Şəriətmədar, Qum sənə zindan Şəriətmədar!" şüarı səsləndirən yüz minlərlə tərəfdarlarının bu çağırışına səs verməməsi oldu. Nəsibli yazır: "Şəriətmədari və Xalqı Müsəlmanı idarəedənlərin bir digər yanlışı isə fars olmayanların milli hərəkatı ilə Türk milli hərəkatı atasındakı iş birliyi məsələsinə yetərincə önəm verməməsi oldu. Təbriz üsyanında kürd hərəkatının lideri Şeyx İzzəddin Hüseyni Təbrizə təbriklə birlikdə silahlı qruplar göndərmiş, fəqət Şəriətmədari buna lazımi qarşılığı verməmişdir. Bu kəs də Azərbaycan öz milli məsələlərində deyil, daha çox İranın ümumi problemi – Vilayəti-fəqihin (liderin) səalhiyyətləri (110. maddə) – üzərinə israr etməkdəydi. Ümumiyyətlə, Şəriətmədarinin milli məsələnin ortaya çıxmasına və hərəkatın gedişatına biganə qalması, fikrimizcə, onun iranlı və müsəlman kimliyinə aşırı bağlılığı ilə izah edilə bilər. "İranın dağılacağı" qorxusu onu kürd gücləri ilə sıx birlik içərisində olmaqdan uzaq tutdu. Bu psixoloji durumun yaranmasında Sovetlər Birliyinin 1979-cu il dekabr ayında Əfqanıstanı işğalı və bir sonrakı hədəfin İran olacağına dair söz-söhbətin ciddi şəkildə ortaya atılması da təsirli oldu. Tehran mətbuatı fasiləsiz olaraq Təbrizdəki üsyanda xaricilərin barmağı olduğu məsəlsəində topluma psixoloji təzyiq etməkdəydi".[1379]

Beləliklə, Xomeyni və tərəfdarları Şəriətmədari tərəfdarları üzərində təzyiqini artıraraq Təbriz üsyanını məhv etmiş, Şəriətmədarinin özünü də xeyli dərəcədə zərərsizləşdirməyi bacarmışdı. Eyni zmanada, Xomeyni iqtidarı da Pəhləvilər kimi öz hakimiyyətini möhkəmləndirən kimi ilk zərbəni Azərbaycan Türklərinə, onların siyasi təşkilat, cəmiyyət və mətbuatına vurmuş, Ayətullah Şəriətmədarinin başçılıq etdiyi 3 milyon üzvü olan

[1378] Nesibli, Nesib. Azerbaycan tarihi: Millet-Devlet-Siyaset. Ankara, Altınordu yayınları, 2019, s.587-588
[1379] Yenə orada, s.588

"Müsəlman Xalq Partiyası"nın fəaliyyətini qadağan etmiş, üzvlərinin bir qismi məhv edilmiş, bir qismi həbs edilmiş, böyük əksəriyyəti isə xaricə mühacirət etmək məcburiyyətində qalmışlar.

Təbriz iniqlabından sonra Tudə, Fədai, Mücahid kimi təşkilatların Xalq Müsəlman Hərəkatının ətrafında birləşib, onin irəli sürdüyü tələblərə dəstək vermək əvəzinə xəyanət yolunu tutmaları Azərbaycan xalqı üçün çox böyük zərbə oldu. E.Qaradağlı da doğru yazır ki, bu qurumların ən son birləşmə imkanı yeni Təbriz inqilabı idi: "Onların özgür və içdən gələn inancları olsaydı, Xalq Müsəlman istəklərinə dəstək olaraq devrimin insiyativini ələ alacaq, başqa millətlərin də aparıcı lider quruluşlarını bu dirənişə çəkməklə rejim qarşısında böyük cəbhə açacaqdılar. Amma nə yazıq ki, bu işi görmək yerinə Xomeyni despotizmini kütlədən üstün tutaraq bugünkü fəlakətlərin oluşmasında birbaşa rol sahibi oldular. Bu qrupların Azərbaycan ulusal kimlik davasında da böyük xəyanətləri oldu. Xomeyni özgəliyinə qarşı millətin birgə olması gərəkən yerdə, bu qurumlara inanan aydın düşüncəli Azərbaycan Türk gəncləri öz millətindən qoparıldı. Aktivliyilə tanınan bir çox gənc Türk, bu qrupların zəhərlənməsinə tuş gəldilər". [1380]

Şübhəsiz, Tudə, Fədai, Mücahid kimi təşkilatların Şəriət-mədarçı-Xomeyniçi qarşıdurmasında Xomeynin yanında yer alması, eyni zamanda önəmli məqamlarda Şəriətmədarinin cəsarətli addımlar atmaması öz işini gördü. Xüsusilə də, 1979-cu ilin dekabrın 5-6 da Təbrizdə Xomeyninin dini hakimiyyətinə qarşı MXP-nin başlatdığı üsyan zamanı, Xomeyniçilərin Güney Azərbaycanın türk əskərlərinin silahlarını buraxması ilə bağlı tələbi qarşısında Şəritəmədarının geri addım atması, yəni onun fətvasıyla silahların yerə qoyulması və bundan dərhal sonra Hizbullah, Xalq Mücahidləri və Tudəçilərin eyni səngərdə birləşib Azərbaycan ulusunu nişan almaları hər şeyi həll etdi.

Çox keçmədən Xomeyinçilyə qarşı baş qaldırmış Təbriz və Qum üsyanları yatızdırıldıqdan sonra Xalq Müsəlman Partiyası İslam dininin düşməni kimi ləğv edilib, yüzlərlə türk gəncləri dar ağacına çəkildi. Beləliklə, qətiyyətsiz, cəsarətsiz addımlarıyla "islam inqilabı"nın liderliyini Xomeyninin əllərinə tərk edən Şəriətmadəri

[1380] Yenə orada, s.370

çox keçmədən də, onunla qarşıdurmadan məğlub çıxıb ev dustağına çevrildi. E.Qaradağlı yazır: "Ayətullah Şəriətmədari bütün olumlu yönlərinə rəğmən öz milləti üçün Xomeyni ola bilmədi. O məzlim Türkü, düşmənin televeziyonunda axıtdığı göz yaşları və dilədiyi bağış səslərilə nümayiş etdirdilər. Vaxtıyla Xomeyniyə Ayətullah üzma ünvanı verməklə Şahın ona qarşı edam istəyini təsirsiz edən Ayətullah Şəriətmədarının ünvanı Xomeyni tərəfindən alındı. Fars şovinizmi Səttarxanlarla, Bağırxanlarla, Xiyabanilərlə, İbrahimlərlə, Azadvətənlərlə etdiyini Ayətullah Şəriətmədarilə də etdi".[1381]

Beləliklə, Şəriətmədar bir mütəfəkkir kimi dini-fəlsəfi baxışlarına görə, islamlıq, islam fəlsəfəsinə əsaslanmışdır. O, bir çox islam mütəfəkkirləri kimi, islamlıq fəlsəfəsindən, onun nüvəsindən kənara çıxmamış, ancaq yeri gəldikcə fəlsəfi mühakimələr də irəli sürmüşdür. Onun fəlsəfi mühakimələri həm dini, həm də dünyəvi məsələlərlə bağlı olmuşdur.

Şəriətmədarinin ictimai-siyasi görüşlərində isə yeniləşməyə münasibətdə islahatçılıq ideyaları mühüm yer tutmuşdur. O, mümkün olduğu qədər dinin siyasətdən uzaq olmasının tərəfdarı olmuş, din və dövlətin bir yerdə olması məsələsində son dərəcə də həsas olmuşdur. Xüsusilə də, İran adlanan ölkədə baş verən "İslam inqilabı" dövründə daha təmkinli və islahatçı mövqe tutan Şəriətmədarinin, ancaq həddən artıq ehtiyatkarlığı, bəzən lazımi iradəni ortaya qoya bilməməsi Azərbaycan türklərinin həyatında problemlərə yol açmışdır.

[1381] Yenə orada, s.374

# MƏHƏMMƏDTAĞI CƏFƏRİ

**Həyat və yaradıcılığı.** Azərbaycan Türk kökənli filosof, islamşünas Əllamə Məhəmmədtağı Cəfəri (1925-1998) Təbrizdə anadan olmuş, uşaq yaşlarından Quran qiraətini öyrənmiş, doğma şəhəri ilə yanaşı Tehranla Nəcəfdə elmi-fəlsəfi və dini biliklərini zənginləşdirmişdir.

M.Cəfəri Təbrizin "Talibiyyə" məktəbində təhsilini bitirib molla Hadi Səbzivarinin "Mənzumə"sindən və molla Sədra-nın "Əsfar"ından dərs almışdı. Sonra ali təhsil almaq, böyük alimlərin və müctehidlərin dərslərində iştirak etmək üçün Nəcəf-Əşrəf şəhərinə getmişdi. Nəcəfdə qaldığı 17 il ərzində o, dərin mü-tailəyə girişmiş, ictimai və insani elmləri, Qərb fəlsəfəsini diqqətlə öyrənmişdi. Çagdaş müctehidlər onun məqamını təsdiq etdikdən sonra Cəfəri Quma getmişdir.

Cəfəri ilə bağlı fəlsəfi tədqiqat aparan Vəliyyullah Xoştinət hesab edir ki, onu İslam cəmiyyətinin tərəqqisi, islamın dirçəlişi məsələləri daima düşündürmüş, narahat etmişdir. Xoştinətə görə, Cəfəri İslama şüurlu, dərk edilmiş qayıdış tərəfdarı kimi tanınmış, onun müsəlman cəmiyyətinin ictimai inkişafı barədə irəli sürdüyü müddəalar son dərəcə qiymətlidir.[1382]

Cəfərinin çeşidli zəminlərdə yazdığı əsərlər təkcə İranda deyil, Avropada da şöhrət tapıb irfan, fəlsfə aləmində yayılmışdır. Qərbin adlı-sanlı alimləri ilə məktublaşması və yaxından onlarla apardığı müsahibələr, fikir mübadilələri onun dünyagörüşünü ortaya qoyur. O, həqiqətin qarşısında təslim olmağı və sıxıntılar bərabərində davam gətirməyi yaşayış fəlsəfəsi sanırdı.[1383]

Onun əsas əsərləri "İslam və Qərbə görə insan hüquqları", "Düşüncələrə dalmaq", "İslami irfan", "Vicdan", "Əxlaq və məz-həb", "Mövlanənin dünyagörüşü", "Fəlsəfə və hayatın mənası",

[1382] Vəliyyullah Xoştinət. Məhəmməd Təqi Cəfərinin həyatı və fəlsəfi görüşləri. Avtotrefarat. Bakı, 2007, s.3

[1383] https://az.wikipedia.org/wiki/M%C9%99h%C9%99mm%C9%99d_Ta%C4%9F%C4%B1_C%C9%99f%C9%99ri

"Fəlsəfə elminin həqiqətləri", "Rasional həyatda elm və din", "Din və elmin vəhdəti", "Dini fəlsəfə" və başqalarıdır.

**Sosial-fəlsəfi görüşləri.** Cəfərinin sosial-fəlsəfi görüşlərində fərqli mədəniyyətlərin, o cümlədən islam mədəniyyəti ilə Qərb mədəniyyətinin müqayisəsi və izahları mühüm yer tutur. O, "İslam və Qərbə görə insan hüquqları" əsərində son əsrlərdə insan haqları və insani dəyərlərlə bağlı Qərb mədəniyyətində özünə möhkəm yer tutmuş siyasi-fəlsəfi, siyasi-hüquqi nəzəriyyə və təcrübələri tənqid etmişdir. Başqa sözlə, Cəfəriyə görə son əsrdə Qərbdə meydana çıxan təlimlərin əksəriyyəti insanı ucaltmağa deyil dəyərsizləşdirməyə yönəlmiş, madiyyat ön plana çıxarlaraq mənəviyyatsızlıq ruhu hökm sürmüşdür. Xüsusilə də, T.Hobbs, N.Makiavelli, Şopenhauer, Nitsşe kimi Qərb mütəfəkkirlərinin düşüncələri bu məsələdə mühüm rol oynamışdır.

Cəfəriyə görə, **birincisi,** istər Şərq, istərsə də Qərb mütəfəkkirlərincə insanlar fiziki quruluş, dini inanc, düşüncə, təbiət, mədəniyyət baxımdan fərqli olsalar da, ancaq bərabərlik, qarşılıqlı hörmət və birlik şəklində yaşamaq fikri hər zaman axtarıb aramışlar. Hətta, bunun kökləri xalqların miflərinə qədər uzanıb gedir ki, burada "insanlığın ümumi vicdanı" bütün insanların bəşəri dəyərlərə, beynəlxalq haqlara əməl etməsi yolunda mühüm bir yolgöstəricisidir. Cəfəri yazırdı: "Başqa sözlə: Biz əgər insanları "vicdan", "praktik ağıl" və "fitrət" açısından anlayıb dərk edə bilərsək, şübhəsiz "incə fəlsəfi fikrilər və yüksək dini inanclar"ın daha ümumi bir ifadəylə; əski daş kömürləri yığınları arasındakı qalıcı almaz damarlarının və "incə insani düşncənin gizli və qalıcı mücəvhərlərinin", bugün belə eyni gerçəklik, yenilik və gərəkliliklə insanların uyum və birlikləri üçün ən uca təməllər olaraq araşdırılıb incələnən həqiqətlər olduğunu görəcəyik. Digər yandan, əgər insanları keçmişdə və hal-hazırda sahib olduqları və gələcəkdə də sahib olacaqları mənçilik (eqoistlik) və çıxarçı (mənfəətçilik) düşüncələriylə ələ alacaq olarsaq, nə dün, nə bugün, nə də yarın insanlar arasında heçbir uyum (harmoniya) və birliyin olmadığını görəcəyiz. Zira eqoist və çıxarçı düşüncələrin ilk yıxıcı işi, məhvedici bir prinsipi təlqin etməkdir: mən məqsədim, başqaları vasitədir!" Bu prinisp vicdan, praktik ağıl hamısından da önəmlisi "təmiz insan fitrəti"nin yox olmasına səbəb olmuş və bu

nəticə ortaya çıxmışdır: Azad şəkildə, içdən gələrək və "olduqları kimi" gerçəklikləri diqqətə alınaraq iki insanın belə harmoniya və bilrik içində olmaları mümkün deyildir".[1384]

Cəfəriyə görə, **ikincisi,** İslam və Qərb İnsan Haqları Dünyəvi Bəyannamələrinin iki hüququ sisteminin görüş sahibləri tərəfindən təsdiq olunmasından sonra artıq bu iki hüquq sistemi haqqındakı müzakirə, araşdırma və tənqidlərin sona çatdığı və bu mövzuda bir çalışma yapılmaması gərəktiyi düşüncəsinin əksinə, hal-hazırda hər iki hüquq sistemi ilə bağlı bir sıra önəmli işlərin həyata keçirilməsi lazınmdır. Onun iddiasına görə, bir məsələnin insan haqları baxımından müsbət anlamda davamlı olması üçün ilk şərt, həqiqət arayışı və insan toplumluları üçün haqlar, məsuliyyətlər və azadlqıların dəqiqləşməsinin önəmini anlamaqdır. Hər yerindən duranın bu işin öhdəsindən gələ bilməyəcəyinə inanan Cəfəriyə görə burada mütəxəssilər öz sözünü deməlidirlər. O, yazırdı: "Bu iş üçün insani elmlərdə görüş sahibi olan təcrübəli antropoloqlara, insanın bütün yönlərini və boyutlarını (ölüçlərini, tərəflərini) bilən, bütün köklərini, hissələrini, istəklərini və arzularını anlayan yetişkin insanlara, toplumun xoşbəxtliyi onlara bağlı olan, ancaq öz xoşbəxtlikləri toplumun onların anlamasına və qəbul etməsinə bağlı olmayan kimsələrə ehtiyacı vardır. Görüldüyü kimi, bu şərtlərdə, bir dönəmə və bir topluma xas olaraq da olsa, sıradan insanların "Biz həm "olduqları kimi", "həm də olmaları gərəkdiyi kimi" sahələrində insanı bütün yönləriylə tanıyabilir və onun üçün ən gerçəkçi haqları, azadlıqları, məsuliyyətləri bəlirliyə bilirik" iddiasında bulunmaları ehtiyatsız (patavatsız) bir cəsarət istər. Buna görə, bizim bütün səy və çalışmamız "bu cürdür və bundan başqa deyildir" iddiasında bulunmadan, hər iki sahədə, yəni "olduğu kimi insan" və "olması gərəkdiyi kimi insan" sahələrində ən çox bilgiyi əldə etməyə yönəlik olmalıdır ki, bu əlbəttə mümkündür. Ondan sonra insanların sahib olduğu və sahob olmaları gərəkən ortaq yənləri və fərqlilikləri üzərində gərəkli və yetərli araşdırmaya sıra gələ bilər. Bax, o zaman

[1384] Caferi, Allame Muhammed Taki. Evrensel İnsan Hakları. İslam ve Batı Düzenlerinin Mukayesesi. İstanbul, Kevser, 2016, s. 18-19

onların haqları, azadlıqları və məsuliyyətlərinə aid bir bəyannamə hazırlamaq üçün təşəbbüsdə buluna bilirik”.[1385]

Cəfəriyə görə, **üçüncüsü**, dünyanın ən möhtəşəm sarayının inşası ilə bağlı mütəxəssisləri bir araya gətirib onlardan bir layihə hazırlamasını istəmək və həmin layihə hazır olduqdan sonra onu gerçəkləşdirmək üçün inşa olunan yerə getmək lazımdır. Mütəxəsissələr sarayla bağlı ideal layihəni hazırlasalar da, ancaq sarayıın inşa edilməsi üçün getdikləri yeri (məsələn, yanardağlı, volkanik bir bölgəni) gördükdə həmin layihənin mənasızlığını dərk etmiş olacaqlar. Cəfəri bunu, belə izah edir: “İndi siz bu örnəyi, bugün dünyanın - nə yazıq ki, insan görünüşlü məxluqların çoxunu təşkil edən – nəfsani istəklərinə tapanlar, despotlar və güc düşkünü olanların içlərindəki yanardağların zirvələrinə inşa edilmiş görkəmli hüquq saraylarına bənzədə bilərsiniz. Bu üzdəm açıqca söyləyirik ki: Uca insani prinsiplər təməlinə dayalı doğru bir bilik və təhsil ilə eqoist, çıxarçı və hedonist insanların içindəki volkanlar söndürülmədiyi və insan yetişdirici hüquq prinsiplərinin əkilə biləcəyi məhsuldar torpaqlara dönüşdürülmədiyi zamana, bu kimi hüquq sistemlərinin və hətta onlardan daha üstünlərinin – özəlliklə də bu hüquq sistemlərinin həyata keçirilməsində görülən təəssüfləndirici ayırımçılıqlarla birlikdə - insan toplumlarını “rasional həyat” (“ağıla əsaslanan həyat”) sahəsinə çəkmənin öhdəsindən gəlmələri mümkün deyildir”. [1386]

Cəfəriyə görə, **dördüncüsü,** buna qədərki müqqədimələr ümumilikdə bəşəri insan haqlarının əsil köklərini araşdırmaya yönəlik olub, insan haqlarının üç əsasını-kökənini ortaya qoyur.

Onun fikrincə, insan haqlarının birinci əsası da, təbii haqların təməl prinsipidir, yəni insanın təbii haqlarıdır. O, yazırdı: “İnsanoğlu da insan fərdləri arasındakı yaşamın və ruhi özəlliklərin fərqinə varıb sosial həyatın gərəkliyinə dərindən bələd olduğu zamandan etibarən gerçək anlamda öz təbii haqlarını (anadangəlmə haqlarını) kəşf etdi. Təbii haqların təməl prinsiplərinin gərəkçəsi, ağaşıda göstərilən iki təməl istiqamətdə “insan həyatının qorunması və düzənlənməsi”ndən ibarətdir: Birinci istiqamət: tamamən təbii həyat.

[1385] Yenə orada, s. 19-20
[1386] Yenə orada, s. 21

İkinici istiqamət: İdeal həyat (rasional həyat). İnsanların təbii həyatlarının təbii haqq olaraq sahib olduğu və bütün ilahi dinlər və bəşəri hüququ sistemləri və qanunların rəsmən tanıdıqları ilk prinsip, "həyat haqqı"dır. Təbii haqlar silsiləsindən ideal həyatın isə dörd təməl prinsipi vardır: heysiyyət haqqı, bilik və təhsil haqqı, məsuliyyətli azadlıq haqqı, qanunlar qarşısında bərabərlik haqqı".[1387]

Onun fikrincə, insan haqlarının ikinci əsası isə, ilahi dinlərlə, yəni həniflik, iudaizm, xristianlıq, islamlıqla bağlı olub, insanın təbii haqlarının bütün prinsipləri də daha çox islamda özünü ifadə etmişdir. Cəfəri yazırdı: "Dinlər açısından insanı rüşd və kamala çatdıran şey, zorlama ilə deyil, azad və mükəmməliyyətçi vicdan güdüsüylə təbii haqların prinisiplərini və insani rasional həyat üçün uyğun olan qanunları qəbul edib onlara uymaqdır. Bu nədənlə görürük ki, təbii haqların prinsiplərinə və azad və mükəmməliyyətçi vicdana əsaslı digər uyğun qanunlara görə hərəkət etmək, heç bir zaman insanlığın ümumi bir çəkisi, tutumu olmamış, daima az, amma təmiz, müdrik və uca keyfiyyətlərə sahib bir azlıq bunu başara bilmişdir. Buna rəğmən xalqlar və millətlərin həyatında təbii haqlarının prinsiplərinin qaynağı heç bir zaman tamamən qurumamışdır".[1388]

Onun fikrincə, insan haqlarının üçüncü əsası isə, müdrik insanların xarizmatik xüsusiyyətləri və açıq ifadələri olmuşdur. Cəfəriyə görə, irqindən, dinindən, etnik mənşəyindən asılı olmayaraq bir çox müdriklər hər zaman insanlar, insan toplumları üçün harmoniya və birlik təşkil edə biləcək fikirlər irəli sürmüş, nəzəriyyələr ortaya qoymuş, "ədalət", "azadlıq", "barış", "hüquq" kimi qavramların üzərində dayanmışlar. Bu isə o deməkdir ki, yalnız şüurlu insanların deyil, bütün canlıların dəyəri var, üstəlik insanlar irqindən, dinindən, etnik mənşəyindən asılı olmayaraq eynidirlər, burada əlil, ahıl, qozbel, kasıb, varlı və başqası fərq etməz birdirlər.[1389]

Bununla da Cəfəri dünyəvi ideyalarla çıxış edən müdriklərə (Sofokl, Fenikeli Zenon, Mark Avrelis, Siseron, Seneka, Foma

---

[1387] Yenə orada, s. 21-22
[1388] Yenə orada, s. 23
[1389] Yenə orada, s. 24-25

Akvinalı, Con Lokk, Ş.L.Moteskye və b.), fəlsəfi məktəblərə (Essenizm, stoyaçılar və b.), dövlətlərin Ana Qanunlarına (Maqna Karta, Fransız qanunlarına, Catherine və b.) müraciət etmiş, onların şərhini verməyə çalışmışdır.

Bundan sonra da, Cəfəri Beynəlxalq İnsan haqları bəyannaməsiylə bağlı iki mövzunu: 1) Bu bəyannamənin insani dəyəri, tətbiqi və indiyə qədər insanlığın durumunu yaxşılaşdırma yolunda bir addım atıb atmadığını, 2) Bu bəyannamənin yazılıb qəbul edilməsinin əsil səbəbini şərh etməyə çalışmışdır. Ona görə, bəyannamənin insani dəyəri və tətbiqi ilə bağlı əsas görüşdə deyilir ki, sözügedən bəyannamə insan haqları və fərdi azadlıqlara aid indiyə qədər düzənlənmiş ən ətraflı və ən mükəmməl sənəddir; ancaq bu müddəayla tamamilə razılaşmaq mümkün deyildir. O, yazırdı: "İslamın ilk qaynaqlarına və tamamilə mötəbər naslara dayandıraraq ələ alacağımız İslam Dünyəvi İnsan Haqlarını diqqətə aldığımızda, Batılı düşünürlər tərəfindən hazırlanan İnsan Haqları Dünyəvi Bəyannaməssi, bütün əsrlər və bütün kültürlər və dinlərin mətnləri, dini və əxlaqi bilikləri, iancları və görüşlərinin xülasəsi və tamamlayıcısı ola bilməz... Bu bəyannamənin bütün uyğun maddələri ilk və mötəbər İslam qaynaqlarında açıq ifadələrlə mövcuddur. Bunun yanı sıra o maddələrə əlavə olaraq, İslam qaynaqlarında bəşəri boyutda insan haqqında bir sıra haqlar və hökmlər vardır ki, bunlar, İslam fiqhi və hüququ üçün bir imtiyaz sayılmaqla birlikdə, İnsan Haqları Dünyəvi Bəyannaməsində görülən bəzi ziddiyyətlər və əksiklikləri də içərməməkdədir. Biz öz adımıza, ümid edirik bir gün gəlir də bütün insan toplumlarının hüquq və qanun düşünürləri, adəı keçən bəyannamənin İslam bəşəri insan haqlarının məziyətlərinə sahib olması və onda mövcud olan əksikləri düzəltmək üçün onu İslam İnsan Haqları Dünyəvi Bəyannaməsiylə qarşılaşdırırlar".[1390]

Cəfəri hesab edir ki, İnsan Haqları Dünyəvi Bəyannaməsinin insani dəyəri və tətbiqi ilə bağlı ikinci görüşə, onun nəzəri kökləri Qərb qaynaqlarıdır. Burada isə əsas məsələ madiyyatçılığa köklənən rasiyonalizm, liberalizm və sosyalizm kimi cərəyanların əsas götürülməsidir. Bu isə o deməkdir ki, batılı olmayan xalqların dəyərləri İnsan Haqları Bəyannaməsi ilə uyuşmur və bunu uyuşdur-

[1390] Yenə orada, s. 54-55

maq lazım gəlir. Cəfəri yazır: "Əgər bu bəyannamənin Üçüncü Dünyada qəbul görməməsinin nədənlərini ciddi bir şəkildə araşdırmalı olursaq, bu qəbul görməmənin sadəcə bir mətinin Qərb qaynaqlı olmasından və Qərb kültürünün simvollarının Üçüncü Dünya toplumlarının kültürəl simvolarıyla fərqli olmasından deyil, bir bütün olaraq Üçüncü Dünyanın, özəlliklə də İslam ölkələrinin ideolojilərindən qaynaqlandığını görürük. Zira bu ideolojilər İslam dininə dayanırlar, İslamın isə BMT İnsan Haqları Bəyannaməsinin bəzi maddələrini qəbul etməsi mümkün deyildir".[1391]

Cəfəri hesab edir ki, İnsan Haqları Dünyəvi Bəyannaməsinin insani dəyəri və tətbiqi ilə bağlı üçüncü görüşə görə, mahiyyəti etibariylə dəyərli və diqqətə şayan bir sistemdir və ən azından bir idelaın təzahürü və caydırıcı bir faktordur ki, gerçək anlamda və nəsnəl olaraq, istər güclü, istər gücsüz bütün toplumları əhatə edəcək şəkildə bəzi düzəltmələr yapılıb insanlığın həyatına girincəyə qədər, orta və aşağı toplumların bir-birlərinə saldırmasını əngəlləmədə və güclü toplumlarda soyutlama kültürünün gəlişməsində olumlu rolu ola bilər".[1392]

O, İnsan Haqları Dünyəvi Bəyannaməsinin yazılıb qəbul edilməsinin əsil səbəbi ilə bağlı üç görüşün olduğunu iddia edərək, onları da ayrı ayrılıqda şərh etmişdir. Cəfərinin bununla bağlı gəldiyi əsas qənaət də odur ki, qərblilər bu bəyannaməni yazıb qəbul edərkən Qərbin və Qərbə bağlı olan toplumların maraqlarını güdmüşdür. Başqa sözlə, bəyannamənin dünyada var olan bütün toplumların güc və çatışmaya son verilməsi üçün yazıldığı ortaya qoyulur ki, burada insanlıq özü düzgün şəkildə ifadə olunmur və qərblilərin məntiqi ilə düşünülür.[1393]

Cəfəriyə görə, Qərb mütfəkkirlərinin, o cümldən Makiavelinin, Hobbsun düşüncələrində insanı insanın canavarı və dəyərsiz məxluq kimi qələmə verilməsi, üstəlik insanın ancaq özünə bağlı olan eqoist, fırıldaqçı olaraq tərif edilməsi, özünü dünyada yeganə məqsəd görüb digərlərini vasitə sayması qəbul edilməzdir. Onun fikrincə, bu kimi düşüncələrdən irəli gələrək yazılan Bəyannamənin

[1391] Yenə orada, s. 57
[1392] Yenə orada, s. 57
[1393] Yenə orada, s. 67-68

əsas çatışmayan cəhəti də insanın qürurnun, heysiyyətinin və dəyərinin düzgün izah olunmaması, hər şeyin madiyyata və gücə bağlanmasıdır. Başqa sözlə, Bəyannamə ilə bağlı əsas problemlərdən biri ilk insan haqqı kimi insanın zatında olan heysiyyət və sayğınlığın, üstəlik Yaradanın insana bəxş etdiyi keyfiyyətlərin nəzərə alınmamasıdır. Cəfəri yazırdı: "Dünya universitetləri, insanın qürur və sayğınlığını isbat üçün elmi və fəlsəfi anlamda heç bir doğru addım atmadıqları kimi, təəssüf bir yandan "gücün özgünlüyü" (Leviathanizm) teorisi, digər yandan da kültürəl dəyərsizləşmə və tarixin təməl prinsipləri ilə bağlı olaraq yapılan əsilsiz analizlər – radikal pozitivizmin üçlü mərhələsi kimi – səbəbiylə insanların qutsallığı və mənəvi qürurunun pisləşməsi gün geçdikcə daha da güclənir. Oysa İslam və digər ilahi haqq dinlər açısından insan "Gerçəkdən biz Adəm oğullarını qürurlu qıldıq..." ayəsi gərəyincə zati heysiyyətə və uca bir normativ təkamül qabiliyyətinə sahibdir. Bu görüşə görə, bütün insan toplumlarına insanın zati heysiyyət və sayğınlığına riayət edilməsi gərəkdiyini tövsiyə etmək tamamilə məntqlidir. Bu səbəblə Qərb, Beynəlxalq İnsan Haqlarının dünyəvi bir kültürə dönüşməsi üçün öncəlliklə insanın bu zati (anadangəlmə) heysiyyət və sayğınlığının isbat edilməsi və insanı, bütün insanları bir-birlərini yiyən canavarlar olaraq görən Makiavelizm və Leviathanizm və ya Yararcılıq (Mənfəətçilik) düşüncələrindən qurtarıb əsil mahiyyətinə qovuşdurmaq gərəkdir".[1394]

Cəfəriyə görə qərblilərə aid Qərb Dünyəvi İnsan Haqları dünya toplumlarının barış, azadlıq və ədalət təməli üzərində bir arada yaşaması düşüncəsinə dayandırır ki, heç bir kimsə bunların ideal şeylər olmasına şübhə etmir. Onun fikrincə, ancaq sırf insanların fitri duyğularından yararlanaraq bu təməllərin zəruri olduğunu iddia etmək, insanların, bütün fərdlərin özlərini bir ailənin üzvləri olaraq görəcəkləri bir dünyanı formalaşdırmaya olan ehtiyaclarını qarşılamır. O, yazırdı: "Zira belə bir iddia, çox daha ali bir təmələ dayanmalıdır ki, bu ali təməl, İslam açısından Tanrı inancıdır; ya da ən azından – gəlişmiş, geri qalmış, inkişafda olan, güclü və gücsüz – bütün ölkələri söz mövzusu bu dünyəvi haqları qəbul etməyə və

[1394]Yenə orada, s. 70

həyata keçirməyə məcbur etmək üçün, hər kəsin qəbul etdiyi elmi bir təmələ dayanmalıdır”.[1395]

Cəfərinin fikrincə, tarixi təcrübələr göstərir ki, ideal hüquq sistemini ortaya qoymaq, onun mütləq həyata keçəcəyi anlamına gələ bilməz. Ona görə ideal olaraq görülən hüquq sisteminin həyata keçirlməməsinin səbəbləri ayrımçılıq və toplumsal hazırlığın olmamasıdır. O, yazırdı: “Bu səbəblə fərdlərin öyrənmə və təhsil baxımından qəbul etmə hazırlığı olmayan bir toplum üçün ən ali hüquq sistemini ortaya qoymaq, məsələn bir yanardağın zirvəsində görkəmli bir saray inşa etmək kimdir. Bu üzdən bütün insan toplumlarını dünyəvi haqları gerçəkdən qəbul etməyə və tətbiqinə çalışmaq üçün hərkəsə ortaq bir sıra mənəvi və əxlaqi prinsiplərin öyrədilməsi gərəkir. İslamın hüququn qəbul və tətbiqini saxlamaq məqsədilə ümumilikdə insanların əxlaqi təhsilinə həyati bir önəm vermiş olması boşuna deyil”.[1396]

Beləliklə, o hesab edir ki, Qərb Dünyəvi İnsan Haqları, insanlar üçün heysiyyət və qürur mövzusunu görməzdən gəlmiş və bu haqların heç bir maddəsində qürurlu, heysiyyətli, ərdəmli insanlar üçün bir imtiyaz ön görülməmişdir. Cəfəri yazırdı: “Fəqət İslam açısından, insanları təkamülə və sosial həyatda uyğun mövqelərdə yer almaya təşviq etmək üçün bu imtiyazın ön görülməsi və elan edilməsi bir zorunluluqdur. Ərdəmli insanlara bir imtiyaz verilməsi, digər insanların haqlarının pozulması anlamına gələ bilməz. Necə ki, bütün toplunlarda daha səmimi, daha ağıllı və daha bilikli insanlar, daha yüksək və önəmli işlərə seçilmə ləyaqətinə sahibdirlər. İslam da bu imtiyazı açıq bir şəkildə bəyan etmişdir: Ey insanlar! Biz sizi bir erkək və bir dişidən yaratdıq və bir-birinizi tanımanız üçün sizi millətlərə və qəbilələrə ayırdıq. Şübhəsiz, Allah qatında sizin ən dəyərliniz, ən təqvalı olanınızıdır”.[1397]

Onun fikrincə, bütün insanların zati heysiyyətini tanımadan azadlıq və barışa nail olmanın mümkün olmadığı, çox doğru və sağlam bir təsbitdir, eyni zamanda bu ikisinin bir-birindən ayrılmaz olmasından azascıq da şübhə duyulmamalıdır. O, hesab edir ki,

[1395] Yenə orada, s. 71
[1396]Yenə orada, s. 71
[1397] Yenə orada, s.72

insanların anadagəlmə sayğınlığı anlamına gələn zati heysiyyəti isbat etmənin yolu, kültürəl bazarlıqları və üstünlükləri bir kənara qoyaraq bütün mütəxəsislərin birlikdə bunun həllinə çalışmasıdır. Cəfəri yazırdı: “Zira biz İnsan Haqları Haqqında Ümumi Bəyannamədə, hər birinin özünə özəl dəlilləri, ənənələri, dini inancları, dayanaqları, ümumi təklifləri və tanımları olan və bunlara dayanaraq özlərinə aid qanunları və haqları isbat edilmiş qanunlar və haqlar olaraq qavrayan millətlərdən hər birinə özəl qanunlar və haqlar ilə qarşı qarşıya deyilik. Biz bu bəyannamədə, müxtəlif xalqlar və millətlər, dəyişik kültürlər və dinlər, fərqli tarixi keçmişlər, dağınıq güclər, imtiyazlar və irqlərlə qarşı qarşıyayız və onların hamısına bunu söyləyirik: Sizin hamınızın bu hüquq maddələri qarşısında öznünzə özəl milliyyətlər, qövmiyyətlər, kültürlər və tarixi keçmişlərinizdən və hamısından da daha önəmlisi gücünüz, ayrıcalıqlarınız və etnik özəlliklərinizdən vaz keçməniz və əl çəkməniz gərəkir. Digər tərəfdən bunu söylərkən, dünya xalqları və millətlərinə, bizim əmrimizlə bu maddələrə baş əymək zorunda olduqlarını qəbul etdirə bilmərik. Dolayısıyla bu kimi ideal haqlar və azadlıqların məcburiliyi və dəyərini öncəliklə siyasətçilərin özlərinə anlatma yönündə davamlı və fasiləsiz bir səy göstərilməlidir. Çünki bu kimi haqları tanımanın gərəkliliyini hiss etmək, gerçəkdə insan toplumlarının bütün hüquq, iqtisadi və siyasət öncüllərinin, insanların təbii birlikdə yaşamasını saxlayacaq hqaların yanında, insanların ruhlarının da bir sıra haqları olduğunu və toplumları idarəedənlərin, bir ovuc iradəsiz və şüursuz məxluqa deyil də insanlara və insanların tarixinə hökm etmək istəyirlərsə, insanların ruhlarının da haqlarına riayət etmələri gərəkdiyini bilmələrini xatırladan bir xəbərdarlıqdır”. [1398]

Onun fikrincə, xalqlar və millətlər arasında “ortaq anlayış”ın meydan gəlməsinin önündəki ən böyük problemlərdən biri, insanların həyat işlərinin birliyinin parçalanmış və dağılmış olmasıdır. O, yazırdı: “Bu parçalanmışlıq və dağılmışlıq, sadəcə xalqlar və millətlər arasında “ortaq anlayış”ın ortadan qalxmasına səbəb olmaqla qalmamış, eyni zamanda bir toplumun insanlarının qutsal mənəviyyatını da yox etmiş və hər kəsi bir-birinə özgələş-dirmişdir. Başqa bir sözlə,əxlaqi boyutun hüquqi boyutdan, bu

[1398] Yenə orada, s.74

ikisinin sosial boyutdan, bu üçünün də siyasi boyutdan, bu dörd boyutun da elmi boyutdan, bu beş boyutun da fəlsəfi və ontoloji boyutdan, bütün bunların da dindən ayrılmış olması, insanı özünə və başqalarına özgələşdirmişdir. Bu parçalanmışlıq, dar elmi istiqamət açısından xoş qarşılanmış və hətta məcburi olaraq qavramaq olsa da, insanların içindəki "həyatda ortaqlıq" hissi ilə "rasional həyatda birlik" hissini qurutmuş və çeynətmişdir. Bu nədənlə deyirik ki: İnsanların həyatında analatik istiqamətin önəmi olduğu kimi, həyat haqqında sintetik istiqamətin də məcburiliyi vardır. Biz bu iki təməl istiqamətlə insanların ruhi birliyinin təməllərini isbat edib, onları dünyəvi haqları qəbul etdirməyə hazırlaya bilərik".[1399]

Cəfəri yazır ki, Qərbdə və bir çox Şərq ölkələrində insanlar dünyəvi qanunlara əməl etsələr də, əxlaqi baxımdan aşağı və səviyyəsiz durumdadırlar; çünki bu qanunların mənşəyi insanların mənfəətçiliyi və madiyyatçılığıdır. Ancaq İslam hüququnda qanunun mənşəyi, qaynağı Tanrının iradəsi olduğu üçün, burada islam cəmiyyətləri eyni qanun və ilahi iradəyə əsaslanır, bütün müsəlmanları tək toplum hesab edərək ədaləti də çatmaq istədikləri hədəf olaraq görürlər. Cəfəri iddia edir ki, dünyəvi insan haqları adı altında gücdən faydalanaraq, ya da üstünlük hesabına millətləri və xalqları imtiyaz və özünəməxsusluqlarından uzaqlaşdırmaq niyyəti olmadığı kimi, eyni zamanda bütün xalqları dünyəvi qanunlara məcburi əməl etməyə sürükləmək də doğru ola bilməz. O, yazırdı: "Dəyərlərdə, arzularda, hərəkətin başlanğıc nöqtəsi və güzərgahında və həyatın ali hədəfində birliyi qəbul etmə zəminini hazırlamadan bu dünyəvi haqları ortaya qoymaq, tamamilə əsirsiz olmasa da yarımçıq bir dəyəri olacaqdır. Cesare Borgia, Makiavelli və Tomas Hobbs kimi nəzəriyyəçilərin insan və insanlıq haqqındakı normativ nəzəriyyələrini ortadan qaldırmadan belə bir zəmini hazırlamaq mümkün olmayacaqdır. Qısacası, millətlərn gerçəkdən bu dünyəvi haqları qəbul etməyə hazır olması üçün, "anlamsız dünyada anlamsız insan" sonucunu verən "insan, insanın canavarıdır" formulunu yetərli dəlillərə dayanaraq bu formulu rədd edə bilməzlərsə, hər toplum və dönəmdə, hətta hər insan topluluğunda Borgia, Makiavelli və Hobbs kimilərin səmimi izləyiciləri, Beynəlxalq İnsan Haqlarının tədvin və

[1399] Yenə orada, s.75

tənziminin ən təməl nədəni olan azadlıq və barışı, istədikləri kimi şərh etməyə və insanlığın bütün dəyərləri və prinsiplərini öz məqsədləri üçün tək- tək vasitə olaraq görməyə davam edəcəkdir. Çünki onların beyinlərinin aktiv ünsürü budur: "Mən məqsədim, başqaları vasitə". Bütün dəyərləri yox edən bu cərəyan, tarix boyunca insanlardan milyonlarca qurban almış, bu dəfə də milyarlarca qurban almayı gözləməkdədir. Bu yıxıcı cərəyan, ən optimist düşünürləri belə iztiraba salan və yuxularını qaçıran bir cərəyandır".[1400]

Cəfəri yazır ki, "insanlıq ailəsinin üzvləri" ifadəsi, əxlaqi dəyər yüklü bir qavram və bütün insanların özlərini bir ailənin üzvləri olaraq hesab etmələri üçün an ali ideal, ən yararlı və yapıcı kütləvi əlaqə örnəyi olduğu halda, bu düşüncə sosial həyatın ortaya çıxdığı ilk gündən indiyə qədər - ilahi liderlərin insanların ruhi bölgəsini alğılayaraq onların həyat meydanına girib, onları təbiətlərində olan birlik ilə tanışdırdıqları və bir ailənin üzvü olma əhval-ruhiyyəsiylə idarə etdikləri bir neçə örənyin xaricində - yetkinləşmiş insanların beyinlərindən gerçəkləşmə sahəsi olan başqa dünyaya enməmişdir. Onun fikrincə, tarixdə ilahi liderlərin öndərliyində olmayan bəzi harmonuk, ahənkli yaşamalar olsa da, bu daha çox quldarlıq dönəminə aiddir, həmin dönəmdə kölələr zati heysiyyətlərindən və dəyərlərindən xəbəriz olduqları üçün hər şeylə razılaşmışlar. Ancaq həmin kölələr zamanla zati heysiyyətlərini və dəyərlərini anlayaraq birlik və bərabərlik üçün mücadiləyə qalxmışlar. Cəfəri yazırdı: "İnsan, özəlliklə toplu hərəkatları başlatmaq üçün özündən elə harmoniya, ahənk və bərabərlik göstərmişdir ki, o hərəkatların fəlsəfəsi və səbəbini bir kənar qoyarsaq, gerçəkdən də o toplu hərəkat dönəmində bütün = 1 formulunu sübut etmişdir. Fəqət o hərəkatların çoşan etkənləri söndükdən sonra tıkrar eyni əski halına dönmüşdür. Oysa peyğəmbərlərin öndərliyində, insanlar peyğəmbərlərin missiyasının əsil ünsürü olan "bütün insanlar Allahın ailəsinin fərdləri kimidirlər" gerçəyinin isbat edildiyini göz önündə bulunduraraq, "qardaşlıq

---

[1400] Yenə orada, s.78-79

ruhu" və "bir ailənin üzvlüyü" həqiqətini, hətta bu ikisindən daha ali bir birliyi (ilahi ruhun günəşindən bir zərrə) idrak edərlər".[1401]

Cəfəri hesab edir ki, ali bir birliyi idrak etmək əvəzinə insanoğlunu mənfəətçiliyə, yararcılığa, madiyyatçılığa, həziyyata yönəltmək bəşəriyyət üçün fəlakətdən başqa bir şey vəd etmir. Ona görə, İnsan Haqları Bəyannaməsində də məhz Qərbdən irəli gələn bu cür düşüncələr azadlıq və bərabərlik pərdəsi altında dünya cəmiyyətlərinə bu və ya digər formda yeridilməkdədir. Başqa sözlə, İnsan Haqları Bəyannaməsində insanların zati heysiyyətindən irəli gələrək bir-birlərinə sevgi, qarşılqılı hörmət bəsləmələri yerinə, ancaq zordan, gücdən qaçmalarının tövsiyə edilməsi heç nəyi dəyişmir. O, yazırdı: "Gərək ilahi dinlər, gərəksə gerçək filosoflar, hətta toplumların tək gücü olmaq istəyən eqoist diktatorlar tərəfindən insanlarıbir-birlərinə sevgi bəsləməyə təşviq üçün, "İnsanlıq sözlüyündə "sevgi" qavramı qədər sevimli başqa heç bir insani düşüncə olmamışdır" deyiləcək qədər saysız sözlər söylənmiş, saysız fəaliyyətlər yürütülmüş olmasına rəğmən, bu yolda əldə edilən başarı, "insan, öz növləri arasında sevgi icad etmək üçün bir addım atmışdır" deyiləməyəcək qədər azdır. İnsanı, xam və təməlsiz duyğuları doyurmaq ya da bəzirganlıq yapmaq üçün deyil, yetişkinliyə və insani sevginin kamalına çatdırmanın tək məcburi və yararlı yolu, ilahi peyğəmbərlərin açdıqları yoldur. Bu yol, hər kəsin gerçəkdən özünü sevə bilməsi üçün öncəlliklə bütün insanlara insanın zatının sayğınlığının sabit olmasıdır. Yəni öncəlliklə insanın zatını sayğınlığını qəbul edəck ki, insanı insan olduğu üçün sevəbilmə nöqtəsinə irəliliyə bilsin. Ardından bütün insanların ilahi mütləq kamala aslılığından dolayı sayğın olan insanı özdə ortaq və bərabər olduğunu anlayaraq, xam və keçici duyğularla ya da bəzirgan zehniyyətiylə deyil, özgün olaraq başqalarına sevgiyi qəbul edə bilsin".[1402]

Deməli, insanların özlərini bir ailənin üzvlərindən daha çox "bir-birlərinin canavarları" kimi görmələri insanlığın inkişafına deyil, tənəzzülünə doğru sürükləmişdir. Cəfərinin demək istədiyi də odur ki, "rasional həyat" dan, elmin vacibliyindən bəhs edən Qərb

[1401] Yenə orada, s.80
[1402] Yenə orada, s.82

mütəfəkkirləri insanları vahid bir sevgi içində deyil, əksinə parçalanmış, dağınıq və bir-birlərinin canavarı kimi görüb, ancaq bunun üzərindən ədalət, bərabərlik, azadlıq şüarları ortaya atmaları heç də səmimi, inandırıcı deyil. Eyni zamanda, "inanc azadlığından", "qorxu və yoxsuluğun ortadan qalxması" düşüncələrindən çıxış edən qərblilər bunu daha çox söz xatirinə, ya da öz maraqlarını həyata keçirmək fürsəti olaraq görürlər, nəinki həqiqətəndə buna ehtiyacı olan toplumların problemlərini qarşılmaq üçün. Bu baxımdan Qərb mütəfəkkirlərinin insan azadlığı, dini azadlıq, vicdan azadlığı, ümumiyyətlə azadlığın dəyəri anlamında ortaya qoyduqları, Qərb dünyasında bir cür, qeyri-Qərb dünyasında isə tamamilə fərqli şəkildə özünü büruzə verir. Cəfəri yazırdı: "Azadlığın dəyəri, insanın müxtəlif və fərqli mövzular və yollar arasından bir mövzu və yolu seçmə gücünün olmasını saxlayan əhval-ruhiyyəyə dayanmamaqdadır. Biləks, azadlığın dəyəri, semilən mövzu və yolu ilə bəlirlənir. İnsanların azadlığını əlindən alma və ya insanların azadlığını gücləndirmə azadlığına sahib olub da onların azadlığını əllərindən alan bir kimsənin azadlığının bir dəyəri ola bilərmi? İnsanlıq tarixlərinin pisləri, diktatorları və zorbaları, azad olduqlarını hiss etdikləri üçün işlədikləri pislikləri işləmişlərdir. Yoxsa, cəbr söz mövzusu olursa, heç bir iş pis olaraq qiymətləndirlə bilməz". [1403]

Tarixən İnsan haqları ilə bağlı əsasən Qərbdə, müəyyən qədər də Şərq ölələrində geniş yayılmış düşüncələr arasında "Özünə rəva bilmədiyini şeyi başqasına da rəva görmə", ya da "insanalara yaxşılıq et ki, onlar da sənə yaxşlıq etsin" kimi, deyimlər var ki, ilk baxışda ruhumuza oxşasa da, bunları da birmənalı dəyərləndirmək mümkün deyil. Xüsusilə də, yaxşılıq qarşısında yaxşılıq gözləmək bir növ ticarətə bənzər. Əslində insanoğlu insanlıq naminə etdiyi heç bir şeyə görə yaxşılıq gözləməməli, heç bir təmənna içində olmamalıdır. Necə ki, Azərbaycan türk ata sözlərində "yaxşılığa yaxşılıq hər kişinin işidir, yamanlığa yaxşılıq nər kişinin işidir" deyimi, təsadüfi deyildir. Cəfəri hesab edir ki, islam dinində eynilə yaxşılqı qarşısında yaxşılıq gözləmək məqbul hesab olunmur. O, yazırdı: "İnsanlara yaxşılıq etmənin gerçək dəyəri, qarşılıq və mükafat gözləmədən, yaxşılığın özünü təmin etməkdir; islam

---

[1403] Yenə orada, s.84

dəyərlərində söz mövzusu olduğu kimi: "Biz sizi, ancaq Allah rizası üçün doyuzdururuq; sizdən nə bir qarşılıq istəyirik, nə də bir təşəkkür". Bu ayə Peyğəmbəri-Əkrəmin Xanədanı Cəlilisi haqqında nazil olmuşsa da, yaxşılıqların əsil dəyərinin qarşılıq və təşəkkür gözləmədən yapılmasında olduğunu açıqladığı üçün, bütün insalara bir tövsiyə dəyərindədir". [1404]

Cəfəriyə görə, İnsan Haqları Bəyannaməsi hazırlanarkən ilahi dinlərdən, onlara aid kitablardan, xüsusilə də islamdan yararlanmalı idi. Onun fikrincə, müsəlman tədqiqatçılar da həmin Bəyannaməni şərh edərkən İnsan haqları ilə bağlı İslam dininin özəliklərini diqqətə almaları daha doğru olardı ki, bunu da görmək olmur. Halbuki İslam dinində İnsan Haqları Bəyannaməsinə aid bütün məsələlərə daha dəqiq və insani bir görüş vardır. Cəfəriyə görə bu, özü əksini yalnız Quranda deyil, eyni zamanda peyğəmbərə aid hədislərdə öz əksini tapmışdır: "Bütün insanlar Allahın ailəsidir və insanların Allah qatında ən sevimli olanı, insanların ən faydalı olanıdır", ya da "Kim "Ey müsəlmanlar mənə yardım edin!" deyə fəryad edın bir adamı duyar da ona cavab verməzsə (ona yardım etməzsə), müsəlman deyildir". Cəfəri hesab edir ki, İnsan Haqları Haqqında Ümumi Bəyannaməni incələyən bəzi müsəlman tədqiqatçıların bu təməlin islami mətinlərdəki varlığından söz etməmələrinə təəccüblənməmək əldə deyil: "Qərb İnsan Haqları Haqqında Ümumi Bəyannaməsinin ortaya çıxmasının səbəblərini və onun ilk maddəsini incələyərkən görəcəyimiz kimi, böyük peyğəmbərlərin (ə.s.) təməl məqsədi; insanların qardaşlıq ruhuyla bir-birləriylə münasibət halında olmaları gərəkdiyi və hər kəsin özünü sadəcə bir bədənin orqanları olaraq deyil, daha çox "ideal həyat" yolunda hərəkət etməyə müvəffəq olurlarsa, ruhlarının ilahi ruha olan aslılığının günəşin zərrələrinin günəşə olan aslılığından daha şiddətli olacağını bilmələri və qəbul etmələri gərəkdiyi şəklində ifadə edilə biləcək böyük həqiqətin fərqində olmalarını təmin etməkdir. Bundan daha yüksək bir birlik təsəvvür edilə bilərmi? İnsanlığın "bir-biriylə qardaşlıq" və "bir ailənin üzvlüyü" ali məqamına çatmaması durumunda belə, İslam, insanın bəşəri çörhərsindən faydalanaraq belə deyir: De ki: "Ey kitab əhli! Gəlin

[1404] Yenə orada, s.90

bizimlə sizin aranızda eyni olan bir sözdə birləşək: Allahdan başqasına ibadət etməyək, Ona şərik qoşmayaq və Allahı buraxıb kimimiz kimimizi rəb kimi qəbul etməsin". Əgər üz çevirilirsə, deyin ki: "Şahid olun ki, biz müsəlmanız"".[1405]

Qərb və İslam İnsan Haqlarını müqayisəsini edərkən, İnsan Haqlarının təməli, ilk mübahisəsi Həzrət İbrahim (ə.s.) olan İslam dinindən başlayır deyən Cəfəri bunu, yuxarıdakı hədislərə və ayələrə söykənərək əsaslandırmağa çalışmışdır. O, yazırdı: "Biz əgər bu iki maddəni biraz incələsək, bütün insanlar üçün gərəki olan bəşəri haqların bütün maddələrini orada buluruq. Yəni əgər insanoğlu Allaha ibadət edib Ona şərik qoşmaqdan qurtulmaya müvəffəq olur və özünü müxtəlif əsarət və köləliklərdən qurtararsa, öz zati heysiyyət və dəyərini isbat edəcəkdir. Zati insanın heysiyət və dəyəri anlaşılır və qəbul edilə bilir olduğu zaman azadlıq, barış və insanın fərdi və sosial haqlarına sayğının məcburiliyi də açıqca isbat olacaqdır. İnsan haqlarının məcburiliyi və gerçəkliyinin ortaya çıxmasıyla da bütün insanlar onlara çatmaq üçün səy göstərəcəklərdir". [1406]

İslami baxımdan insanlar şəxsiyyətləri əsas alınaraq başlıca altı qrupa: 1) kültür, bilgicə ibtidaidə qalan insanlar, 2) ibtidaidən bir qədər uzaqlaşıb nisbətən sosiallaşmış insanlar, 3) daha çox sosiallaşmaqla yanaşı, öz varlıqlarının mövcud varlığın xaricindəki aləmlə əlaqələndirməyə çalışan insanlar, 4) ilahi dinlərdən birinə tapınıb, onun qanunlarına əməl etməyə çalışan insanlar, 5) bütün ilahi dinlərə inanmaqla yanaşı, İslamı və onun peyğəmbərini qəbul edən insanlar, 6) İslamda təqva dərəcəsinə çatan və gəlişmiş insanlar, ayrılırlar ki, Cəfəri daha çox 5-6-cı qruplar üzərində dayanmışdır. O, yazırdı: "Yuxarıda qeyd edilən beş qrup insanda dəyər ölçüsü insani inkişaf və yetkinləşmə olduğu üçün, bu qrupların hər birində yer alan insanlarda inkişaf və yetkinləşmə özəllikləri nə qədər çox olarsa, o ölçüdə daha dəyərli olurlar. Bu nədənlə Quran ayələrində, kitab əhlindən, daha çox insani özəlliklərə sahib olan qruplar öyülmüşlərdir. Örnəyin belə buyurulmuşdur: "Kitab əhlindən eləsi var ki, əgər böyük bir sərvəti ona əmanət olaraq verəcək olsan, onu

---

[1405] Yenə orada, s.92-93
[1406] Yenə orada, s.93

sənə geri ödər. Onlardan eləsi də var ki, əgər bir dinar ona əmanət olaraq versən, başında durmadıqca (israrla istəmədikcə) onu sənə geri ödəməz". Eyni şəkildə, İslam fiqhi baxımından, əgər kitab əhlindən bəzi kimsələr məhkəməni maraqlandıran mövzularda kin-kidurəti ortadan qaldırmaq üçün İslami məhkəmə məqamlarına baş vururlar da kitab əhlinin özlərindən, biri dini hökmlərə bağlı və doğru danışan, digəri isə mütədəyyin və adil olmayan yalançı iki qrup şahidləri olursa, heç şübhəsiz, İslam məhkəməsi açısından birinci qrup öncəliklidir. Bu hökm, hökümündən sual olunmaz təəbüdi bir hökm deyildir; əksinə, ağlın gerçəkləri ortaya çıxarmaq üçün daima etibarlı insanların dinlənilməsi gərəkdiyi yönündəki məcburi hökümündən qaynaqlanmaqdadır. Eyni şəkildə, sosial yaşamların olduğu müxtəlif bölgələrdə, fitri olaraq və ağıl və vicdanın hökmüylə bir qrupu və ya bir ölkəyi idarə etmək üçün insani ideolojiyə inanan, daha doğru, daha dürüst və daha etibarlı insanlar seçilirlər. Dolaysıyla, layiq insanların seçilməsi və doğru danışan və adil insanların şahid olaraq dinlənməsiylə heç kimsə, belə bir seçim və şahidliyin, insanlar arasında ayrı-seçkinliyin yapıldığı və bəzilərinin digər bəzilərinə tərcih edildiyi gərəkçəsiylə İnsan Haqları Haqqında Bəyannaməsinə zidd olduğunu söyləyə bilməz".[1407]

Deməli, bəzi insanlar dini inanclı olmayıb, bu dəyərdən kənarda qalmış olsalar da, ancaq öz dünyəvi yaşamlarını təmin etmək üçün bir sıra insani prinsiplərə əməl edərlərsə, yenə də heç bir prinispə, qayda-qanunlara bağlı olmayanlardan daha yaxşıdırlar. Hətta, bizə görə dini inancları olamdıqları halda qayda-qanunlara daha ürəkdən və məsuliyyətlə yanaşan insanlar, hətta topluluqlar özlərini dini inanclı elan edib, ancaq ona əməl etməyən insanlardan və toluluqlardan qat-qat yüksək mərtəbədədirlər. Buna ən bariz örnək olaraq da, özünü islam dövləti elan etmiş, ancaq nəinki islam dininə, hətta dünəyvi insan haqlarına əməl etməyən İran İslam Pespublikasını göstərə bilərik. Əlbəttə, bizim burada araşdırıdığımız Cəfəri burada dedikləri bir çox həqiqətlərin sırasında, ancaq İran adlanan ölkənin rəhbərlyinin nədən islami qanunlara bu ölkədə əməl olunmamasını, xüsusilə də türklərin ən təbii insan haqlarından

[1407] Yenə orada, s.98

mərhum edilməsindən bəhs etməmişdir. Üstəlik, Cəfəri bu məsələlərlə bağlı şəxsiyyətlərdən örnək gətirərkən Əmir Teymur kimi bir müsəlman türkünü Yezid ibn Müaviyə, İbn-i Ziyadlarla bir sıraya qoyaraq aşağılamışdır.[1408]

Cəfəri yuxarıda bəhs edilən 6 qrup insanlarla bağlı ortaq xüsusiyyətlər olaraq yaşam, zati insan heysiyyəti, çalışma və fəaliyyət, öyrənmək və təhsil və azadlıq haqlarından bəhs edir. O, yazırdı: "Altı qrupda yer alan insanlardan hər biri, əgər inkişaf və təkamül yoluna girər, öz və toplumunun insanlarının yaşamı üçün yararlı olan prinsiplər və yasalara görə davranırsa, təqvanın bir mərtəbəsinə çatır və Hicirət surəsinin məşhur ayəsi uyarınca normativ sayğınlığa sahib olur. Ey insanlar! Biz sizi bir erkək və bir dişidən yaratdıq və bir-birinizi tanımanız üçün sizi millətlərə və qəbilələrə ayırdıq. Şübhəsiz, Allah qatında sizin ən dəyərliniz, ən təqvalı olanınızıdır". Bu ayəti-kərimənin səbəbkarı, yuxarıdakı beş haqqa sahib olan bütün insanlardır; zira "Bütün insanlar Allahın ailəsidir və insanların Allah qatında ən sevimli olanı, insanların ən faydalı olanıdır". Altı insan qrupundan hər birinin digərinə olan ayırcalığı isə, sadəcə zehni, ruhi və təqvalı inkişafçılıq və yetişkinlik ölçüsü uyarıncadır. Bu ayrıcalığa sahib olah hər bir fərd və ya qrup, insanlığın formalaşma yolundakı örnəyi olmalıdır. Sözü edilən bu ayrıcalıq, səbəb və hikmətindən sual olunmaz bir durum deyildir; zira yaşamın ən əski tarixindən indiyə qədər bütün insanlar, layiq olmayanlara tərcih etmə prinsipindən şərəf duymuşlardır və insanlığa sahib olan hər irəliləmə bu prinsipə əməl etmə sayəsində olmuşdur. Buradan hərəkətlə Birləmiş Millətlərin İnsan Haqları Haqqında Ümumi Bəyannaməsində bu prinsipin diqqətə alınmaması, bu prinsipin açıqca çeynəndiyi örnəklərdən biridir. Hüququ belə inkişaf etmiş bir prinsipdən ayırmaq, hüququn missiyasını kiçiltmək və işləvsəlliyini sadəcə canlıların sirk heyvanları kimi bir arada yaşamasını təmin etməklə qısıtlamaqdır".[1409]

İnsanın gerçək inkişafı və formalaşması üçün təbiətdən kənar qüvvənin məcburiliyi məsələsinə gəlincə, Cəfəri hesab edirdi ki, normal bir ağıl və ruha sahib olan heç bir insan, hər insanın öz içində

[1408]Yenə orada, s.96-97
[1409]Yenə orada, s.99-100

hiss etdiyi mükəmməliyətçilik duyğusunu inkar edəməz. Bəzi insanların içində bu duyğunun sönməsinə səbəb olan şey, böyük ehtimalla aşağıdakı üç amildən birindən qaynaqlanmışdır.

Cəfərinin əsərlərində imamilik ya da cəfərilik məzhəbinin mahiyyəti və məzmunu xüsusi yer tutmuşdur. O, "İmam Hüseynin Ərəfatdakı yalvarışı" əsərində həm İmam Hüseyinin (ə) əqidə yolunu, həm də cəfəriliyin əsil mahiyyətini izah etməyə çalışmışdır. Ona görə, İmam Hüseyinin üzünü Ərəfatda tutaraq etdiyi duaları ancaq Musa peyğəmbərin Tur dağında Allahla ünsiyyəti ilə müqayisə etmək olar. Çünki onun Allaha yalvarışında əsas iki tərəf: Yaradan və yaradılmış, var. Yaradılmış, o cümlədən də İmam Hüseyn onu Yaradana üz tutaraq zəngin ikən fəqir olduğunu, fəqir ikən də fəqir olduğunu, bu baxımdan İnsanın nə qədər azad, güclü, varlı ya da əksinə kölə, zəif və yoxsul olduğu halda, Allaha mphtac olduğunu iofadə etmək istəmişdir. Cəfəri İmam Hüseynin dilindən bunu belə izah edir: "Allahım, insanlığın şəxsiyyəti və bizim varlığımız, öz başına və müstəqil kimi görüksə də, nəticə etibarilə onun təməlini bu təbiət dünyası təşkil etməkdədir. Bütün varlığımız, bir çox təsirə bağlıdır ki, o təsirlərin bir çoxu bizim əlimizdə deyil. Ayrıca daha hesabalayamadığımız, bir çox təsirlər vardır ki, hər biri varlığımızın nöqsanlığını isbatlayan bir dəllildir. Rəbbimiz! O ruhi müstəqilliyi bizə bəxş et ki özündən xəbərsizlərin hiylələrinə qanmayaq. Bu xəbərsizlər, bizə bu dünyada dəstəkçi aramadan yaşamamız gərəkdiyi yönündə öyüd verməkdədirlər. Onlar bunu anlasa nə qədər gözəl olurdu: Dəstəkçiyə ehtiyacımız olmadığını özümüzə nə qədər təlqin edərsək edəlim, təbiətin qayda və qanunlarının əlimizi ayağımızı bağlayan zəncirlərini əsla bir tərəfə buraxa bilmərik".[1410]

Onun fikrincə, İmam Hüseynin də dediyi kimi bədəninə vurğun olmaq və yaşamaq uğrunda mübarizə aparmamaq əslində Allaha qarşı çıxmaqdır. Bu da ondan irəli gəlir ki, bilikli olduğu zaman cahil olduğunu anlamayan kimsə cahil olarəkən necə cahil olduğunu heç anlaya biulməz. Deməli, insanlar hər gördüyünə və eşitdiyinə görə dərhal qərar verməməlidir, əks təqdirdə qaranlıqla qarışıq aydınlığı nur hesab edəcəksiniz. Cəfəri yazırdı: "Dünyadakı

[1410] Caferi, Allame Muhammed Taki. İmam Hüseyinin Arafatdaki Yakarışı. İstanbul, Kevser, 2012, s.25

bütün gerçəkləri öyrəndiyimizi fərz etsək belə insanlığın və varlıq dünyasının keçmişinə və gələcəyinə aid sistemin bütün ayrıntılarını və özəlliklərini bilə bilirikmi? Bizlər, Allahın cari olan məşiyətinin həqiqətini bilə bilərikmi? Əlbəttə, xeyir, qətiyyən bilmərik. Biz, varlıq dünyasının bütün gerçəkliklərini bilmədiyimiz kimi, bir zərrənin qədərini belə qəti olaraq təyin edə bilmərik. Zira bu gücə çata bilsək, bütün dünyanı tanıyarıq. Bəli, bu acı bir etirafdır; amma nə çarə ki, gerçəkdir. Bilgisizliyimizi etiraf etdiyimizdə, bir damladan ibarət olan bilgimizi nəfsani kirlərdən uzaqlaşdırsaq, "Ey Allahım, elm ümmanına çatdığımızı anlaya bilirik"". [1411]

Cəfəriyə görə bir şey aydındır ki, insan ilə dünya və insan ilə insan münasibətlərinin müxtəlifliyi və sürətli dəyişimi, mövcud durumun gələcəyinə duyulacaq güvənlə üst-üstə düşməz. Hesablanmamış təsirlər, bizə doğru elə dolu daşaraq axmaqda ki, adətən hər an yeni bir şeylərin olacığını hiss edərik. Məhz belə olduğu təqdirdə də, insanın yenə Allahdan başqa üz tutacaq bir kimsəsi qalmır. Deməli, nə olursa olsun İnsan sonunda yenə də Allaha ehtiyac duyur və Onun ətəyindən yapışmaqdan başqa bir yol tapa bilmir. Cəfəri yazır: "Hər varlığın yapıb ortaya qoyduğu şey bütünlükdə onun varlığının keyfiyyətinə bağlıdır. İnsan özünü hər nə qədər kamil, müsətqil və ehtiyacsız göstərsə də eyni zamanda, bütün varlığını bürüyən əksikliyin və möhtaclığın əlamətləri özünü aldatmayacaq ölçüdə aşkardır". [1412]

Beləliklə, Cəfərinin dünyagörüşündə fəlsəfi, siyasi-hüquqi, dini-fəlsəfi və digər məsələlər ayrı-ayrılqıda mühüm yer tutmuşdur. O, fəlsəfi məsələlər, xüsusilə də varlıq, materiya problemlərinə daha çox dini nöqteyi-nəzərdən yanaşmaqla yanaşı, bəzi dünyəvi mühakimlər də irəlii sürməyə çalışmışdır. Cəfəri bir çox Azərbaycan Türk mütəfəkkirləri kimi, dini məsələlərə fəlsəfi yöndən yanaşmağın vacibliyini dərk etmiş filosoflarımızdan biridir. O, islam fəlsəfəsinə, islamlığa, islam şiəçiliyinə dərindən bağlı olmaqla yanaşı, ancaq fəlsəfi mühakimlərlə çıxış etməkdən heç bir zaman çəkinməmişdir. Bu məsələ də Təbatəbainin yolunu uğurla davam etdirən Cəfəri haqlı

---

[1411] Yenə orada, s.26-27
[1412] Yenə orada, s.28

olaraq insan və dünya ilə bağlı problemlərə, yalnız dini deyil, dünyəvi yönlərdən yanaşmışdır.

O, siyasi-hüquqi məsələlərlə də bağlı dərindən araşdırmalar aparmış, bu zaman dünyada mövcud olan Qərbə bağlı insan hüquqları ilə İslam hüququnu müqayisə etmişdir. Cəfəri o məsələ də haqlı idi ki, Qərbin ortaya qoyduğu İnsan hüquqlarının müsbət tərəfləri ilə yanaşı, kifayət qədər tənqid olunacaq yönləri də vardır. O, Qərb təfəkkürünə əsaslanan, artıq dünyada əsas kimi qəbul edilən İnsan hüquqlarında maddiçiliyin, mənfəətçiliyin ön planda olmasına, İslam hüququnda isə bunun tam əksinin olmasına diqqəti çəkmişdir. Əlbəttə, Qərbə əsaslanan İnsan hüquqları ideal olmadığı kimi, İslam hüququnu da bu anlamda tamamilə ideal kimi qəbul etmək doğru olmazdı. Buna səbəb də, İslam dinin əsil mahiyyətindəki insan və cəmiyyətlə bağlı hüququların, həm sonrakı dövrlərdə əlavələrin olması, həm də dövrün tələbləri ilə hansı dərəcədə ulzaşması ilə bağlıdır. Yəni islam hüququnda da diqqət edəcəyimiz əsas məsələ dövrün tələblərini nəzərə alarkən, bu zaman hansısa siyasi, məzhəbçi maraqlara görə yanlışıqlara yol verilməməsi, eyni zamanda ayrı-ayrıqlıda götürlümüş müsəlman cəmiyyətlərdə özünəməxsus milli dəyərlərin və son olaraq da dünyəvi məsələlərin də bu ya və digər formada yer almasıdır. Sözün açığı, Qərbə əsaslanan İnsan hüquqlarında da ən çox diqqəti çəkən bu problemlər olmuşdur. Deməli, islam hüuqunu tamamilə ideallaşdırmaq əvəzinə, problemləri görmək və uzlaşdıcı yollar tapmaq daha məntiqə və məqsədə uyğundur.

## CƏFƏR SÜBHANİ

**Həyat və yaradıcılığı.** Təbrizdə alim və ruhani bir ailədə dünyaya gələn Əllamə Cəfər Sübhani Təbrizi (1928) ilk ibtidai dini təhsilini Mirzə Mahmud Fazilin mədrəsəsində almış, türk, ərəb və fars dillərində bir çox ədəbiyyatla tanış olmuşdur. O, 17 yaşında təhsilini təkmilləşdirmək üçün Quma getmiş, orada üsul dərslərini Mirzə Məhəmməd Mücahidi Təbrizi, Mirzə Əhməd Kafi, Məhəmməd Rza Gülpəyaqanindən öyrənmişdir. Eyni zamanda, o, təfsir, fiqh, fəlsəfə və kəlam elmlərini öyrənməyə başlamışdır. Xüsusilə də, o, fəlsəfəni Seyid Məhəmməd Badkubeyidən, Məhəmmədhüseyn Təbatəbaidən əxz etmişdir.

İ.Quliyev yazır ki, yeniyetməlik yaşlarında Qum elmi hövzəsinin böyük ustadlarından İslam ilahiyyatının müxtəlif sahələrini öyrənən Cəfər Sübhani artıq gəncliyində ikən həmin bölgənin müctəhidlərindən ictihad təsdiqnaməsini əldə etmişdir: "Hazırda Qum elmi hövzəsinin böyük müctəhidlərindən olan Cəfər Sübhani yüzdən artıq elmi, dini və fəlsəfi əsərlərin müəllifidir. Onun ilahiyyatın müxtəlif sahələrinə aid olan ona yaxın əsəri doğma dilimizə tərcümə olunmuşdur". [1413]

Cəfərilik, bektaşilik, Məhəmməd Peyğəmbərin (s.) həyatı, İslam dini tarixi mövzularında əsərlər yazmış. Sübhaninin başlıca əsərləri aşağıdakılardır: "Əsas xətləriylə Cəfərilik", "Hz. Məhəmmədin həyatı", "Vəhhabilik", "Vilayet nuru - İmam Əli", "Ümmətin öndərliyi", "İki surə: Örnək Maarifçi Örnək İnsan", "Marks fəlsəfəsinin təhlili", "İslam tarixi", "Üsülul-fəlsəfə", "Fəlsəfeyi-İslami və üsuli dialektik", Fəlsəfətu əzabud-daim", "Əməli tövhid", "Allahın görülməsi. Quran, hədis və ağıl işığında" və b.

**Dini-fəlsəfi görüşləri.** Sübhani "İslam tarixi" əsərində əsas diqqəti İslam dininə və onun əsas mahiyyətinə yönəltmişdir. İslam dinin hansı şərtlər altında meydana çıxmasına geniş yer verən Cəfər Sübhani, cahiliyyət dövrü ərəblərin əxlaqi səciyyəsini şərh etmişdir. Onun fikrincə, cahiliyyət dövründə cəhalət, düzgün yaşayıştərzinin olmaması, yoxsulluq, vəhşilik, tənbəllik və digər mənfi əxlaqi

[1413] Quliyev İ. Azərbaycan hədisşünaslığının inkişaf tarixi. Bakı, TUNA, 2019, s.281

keyfiyyətlər kimi müxtəlif amillər Ərəbistan mühitini qaranlığa çulğalamışdır. O, yazırdı: “Qarətçilik, qumarbazlıq, sələmçilik və insanları əsarət altına almaq cahiliyyət dövrünün adət halını almış işlərindən idi. Onların digər pis ənənələrindən biri də sərxoşluq idi... Ərəblərin nəzərində “əxlaq” sözü tamamilə başqa cür izah olunurdu. Misal üçün, şücaət və qeyrəti alqışlayırdılar, lakin şücaətli şəxs onların nəzərində daha çox qan tökən, döyüşdə daha çox adam öldürən şəxsə deyilirdi. Yaxud qızını diri-diri qəbirə qoyan şəxs ən qeyrətli hesab olunurdu. Onların fikrincə hər bir şəxs öz qəbiləsindən olanı istənilən məsələdə himayə etməlidir – istər haqlı olsun, istərsə də haqsız. Azadlıqsevərlik və şücaətlilik intiqam almaqda və qarətçilikdə təzahür olunurdu. Onlar həyatda üş şeyə - qadına, şəraba və döyüşə könül vermişdilər”. [1414]

Daha sonra Məkkə ərəblərinin bütpərəstliyindən bəhs edən Sübhaniyə görə, onlar da çoxalahlıq mövcud olub, az qala hər qəbilənin, hər ailənin öz tanırısı var imiş. O, yazırdı: “Burada nəinki hər qəbilənin özünəməxsus bütü var idi, üstəlik hər bir ailə öz bütünə də pərəstiş edirdi. Ulduzlardan tutmuş Ay və Günəşədək, habelə daş, ağac və torpaqdan hazırlanan heykəllər müxtəlif qəbilələr tərəfindən pərəstiş olunurdu. Kəbədə və başqa məbədlərdə olan bütlər Qüreyş qəbiləsinin, habelə digər ərəblərin diqqətini özünə cəlb etmişdir. Onlar üçün hətta qurbanlar kəsilir və təvaf mərasimi (Kəbə ətrafında dolanma) yerinə yetirilirdi. Hər bir qəbilə idə bir şəxsi xüsusi təntənə ilə seçib tanrılar və bütlər qarşısında qurban kəsir və onu qurbangahın yaxınlığında dəfn edirdi. Bunlar göstərir ki, Ərəbistan yarımadasında hər yerin xalqın evindən Xaliqin evinə qədər bütlərlə dolu idi. Bu kimi yalançı bütlərə pərəstiş etmək isə ziddiyyətlərə, döyüşlərə, ixtilaflara, qırığınlara və nəhayət, mənəvi və maddi ziyanlara gətirib çıxarırdı”. [1415]

Sübhaniyə görə, cahiliyyət dövründə ərəblərin ayrı-ayrı qəbilələri nə bir mədəniyyətə, nə də qayda-qanuna malik idilər. O, yazır: “Onlar mədəniyyət və tərəqqiyə səbəb ola biləcək hər hansı ictimai imtiyazlardan da məhrum idilər. Buna əsasən, o xalqın belə sürətlə böyük zirvələrə yüksəlməsi və kiçik qəbilə həyatından geniş

[1414] Sübhani, Ayətullah Cəfər. İslam tarixi. Tbilisi, “Əlhuda” nəşr., 2018, s.9
[1415] Yenə orada, s.10

dünyaya daxil olması gözlənilməz idi. Bütün dünya xalqlarının hər biri bir binaya bənzəyir. Bu binanın yağış, külək və tufan qarşısında dayanıb tab gətirə bilməsi üçün düzgün üslub əsasında və möhkəm materiallarla tikilməsi tələb olunur. Millətin də inkişaf edib yaşaması üçün onun möhkəm təməllərə, yəni kamil adət-ənənə və yüksək insani əxlaqa ehtiyacı vardır".[1416]

Ona görə, Ərəb tayfaları arasında inkişaf etmiş və mədəniyyətə malik Yəmən, Suriya, Hiyrə, Qəssan ərəblərinin deyil, ən geridə qalmış Hicaz ərəblərinin birdən-birə yüksəlişi təsadüfi ola bilməzdi. Sübhani Hicaz ərəblərinin digər ərəb tayfalarını qabaqlayaraq önə keçməsini Məhəmməd peyğəmbər və onun təbliğ etdiyi İslam dini ilə izah etməyə çalışmışdır. O yazırdı ki, vaxtlə İbrahim, Musa, İsa və başqa peyğəmbərlərin dünyaya gəlişi ilə baş verən fövqəladə hadisələr, eynilə Məhəmməd Peyğəmbərin dünyaya gəlişi ilə yalnız Ərəbistan yarımadasında deyil, dünyada da çox dəyişməyə başlamış, yeni bir eranın başlanğıcı qoyulmuşdur. O, yazırdı: "Peyğəmbərlik əsrində və ondan sonra dünyaya gələn insanlar bütpərəstlik, zülm və ədalətsizliyə qarşı çıxan bir şəxsin çağırışını eşitdikdə onun keçmiş həyatını araşdıraraq görürlər ki, bu şəxsin anadan olduğu gecədə tamamilə eyni tipli hadisələr baş veribdir. Təbiidir ki, bu iki hadisənin (qoca qadının palçıqdan tikdiyi evə heç nə olmadığı halda Sasanilərin Kəsra sarayı alt-üst olmuş və fars atəşgahı sönmüş, Kəbədəki bütlər üzü üstə tökülmüşdür – F.Ə.) zaman baxımından eyniliyi həmin şəxsin sözlərinin həqiqət olduğunu sübut edir. İbrahim, Musa, İsa və Həzrət Məhəmməd (s) kimi peyğəmbərlərin anadan olduqları vaxtda baş verən həmin hadisələr onların peyğəmbərlik dövründəki möcüzələrindən heç də geri qalmır. Bu hadisələr ialhi mərhəmətdən qaynaqlanaraq xalqı istiqamətləndirmək üçün baş vermişdir". [1417]

Merac məsələsinə gəlincə, Sübhaniyə görə adi halda qeyri-mümkün olan, lakin mahiyyətcə mümkün olan bir şeydə məqsəd vardır: "Məsələn, böyük bir şeyi kiçik bir şeyin içində yerləşdirmək mahiyyət etibarilə qeyri mümküdür. (Dünyanın yumurtada yerləşdirilməsi kimi). Bu fikrin əməli olması bir şeyin eyni anda həm kiçik,

[1416] Yenə orada, s.12
[1417] Yenə orada, s.26

həm də böyük olmasını tələb edir. Bu zidd olan iki şeyi bir yerdə toplamaqdır və bu da qeyri-mümkündür. Amma elə şeylər var ki, mahiyyətcə mümkündür. Məsələn, yuxarı aləmləri seyr etmək. Bunun mümkün olmasının səbəbi hazırda kosmos əsrində olan işlərdir. Məsələ burasındadır ki, bu mümkün olan şeyin bir səbəbi olmalıdır. Bəzən bu səbəbə təbiidir kosmik gəmilər kimi, bəzən də Allahın qüdrəti kimi qeyri-təbiidir. Bunu bilməliyik ki, peyğəmbərlərin möcüzəsi təbii vasitələrlə deyil. Belə olsaydı onların işləri möcüzə deyil, texnikaya aid edilərdi. Yenə də xatırladırıq ki, Peyğəmbərin meracı barədə fikir söyləyən şərqşünaslar xurafat və batil fikirlərə yol verilməməsini arzulamışlar. Nümunə olaraq birini qeyd edirik: Son göydə Peyğəmbər Allaha o qədər yaxınlaşdı ki, Allahın qələminin səsini eşidirdi. Bu vaxt başa düşdü ki, Allah insanların hesablarını qeydə alır”. [1418]

Onun fikrincə, İslam xalqlarının tarixində İslam peyğəmbərindən üstün şəxsiyyət və hicrətdən üstün bir hadisə yoxdur. O, yazırdı: “Ona görə ki, onun hicrəti ilə tarixin səhifəsi dəyişildi. Müsəlmanlar müstəqillik əldə edə bildilər və çox çəkmədi ki, elə bu hicrtətin təsirindən siyasi təşkilatlar yartdılar. əvvəlcə Ərəbistan yarımadasında, sonralar isə bütün dünyada bir qüdrət kimi zühur edib bəşəriyyət tarixində misli görünməyən bir mədəniyyət yaratdılar. Əgər hicrət olmasaydı, İslam nuru elə Məkkənin zülmətlərində sönəcəkdi”. [1419]

Sübhani **“İslamda əqidə əsasları”** əsərində isə öncə idrak və varlıq problemlərindən bəhs etmişdir. Yeri gəlmişkən, əsərin orijinal adı “Mənşur-i Əgaid-İmamiyyə” olduğu halda, kitab Azərbaycan türkcəsidə “İslamda əqidə əsasları”, Türkiyə türkcəsində isə “Ana Hatlarıyla Caferilik” olaraq verilmişdir. [1420] Bu o deməkdir ki, Azərbaycandan olan tərcüməçi İmamiliyi İslam, Türkiyədən olan tərcüməçi isə Cəfərilik kimi görmüşdür. Biz burada əsasən kitabın Azərbaycan türkcəsində olan variantından faydalandıq, bəzi hallarda Türkiyə türkcəsində olan variantına da müraciət etdik.

---

[1418] Yenə orada, s.75

[1419] Yenə orada, s.93

[1420] Subhani, Üstad Cafer. Ana Hatlarıyla Caferilik. İstanbul, Kevser yayınları, 2009

O, **idrak problemi** ilə bağlı yazırdı ki, islamda dünya və dini həqiqətlər üç vasitə ilə dərk edilir və onlardan hər birinin özünəməxsus yeri vardır. Bu vasitələr aşağıdakılardan ibarətdir: 1) Hiss üzvləri (hissi və ya empirik idrak). Bunun əsasını görmək və eşitmək təşkil edir; 2) Əql və şüur (rasional idrak). Bu vasitə ilə insan məhdud bir çərçivədə xüsusi prinisiplər əsasında qəti və yəqin olaraq həqiqəti kəşf etməyə qadirdir; 3) Vəhy. Bu seçilmiş insanların qeyb aləmilə əlaqəyə girməsidir. Birinci iki vasitə ümumi xarakter daşıyır və bütün insanlar ondan bəhrələnirlər. Bu vasitələr şəriətin dərk edilməsində faydalı və önəmlidir. Lakin üçüncü vasitə yalnız Allahın xüsusi diqqətinə yetişmiş insanlara aiddir və onların bariz nümunəsi Allahın seçdiyi peyğəmbərlərdir. Hiss üzvləri vasitəsilə yalnız maddi aləmi dərk etmək olar. əql və şüur vasitəsilə də yalnız onların əhatə dairəsində olan məhdud anlayışları dərk edə bilərik. Halbuki vəhyin dərketmə vasitəsi daha genişdir. Əqidə və dini vəzifələr də daxil olmaqla bir çox sahələri əhatə edir”. [1421]

Sübhaniyə görə dindar insan təbiət və dini dərk etməkdə hissi idrak vasitələrindən istifadə edir. Ancaq əksər hallarda hissi idrak əql və şüurun mühakiməsi üçün zəmin yaradır. O, yazırdı: “Bu yolla da əql, idrak vasitəsilə insan Allahı, onun sifət və əməllərini dərk edir. Bu vasitələrin hər üçünün də həqiqətlərin kəşf edilib üzə çıxmasında öz yeri vardır”. [1422]

Onun fikrincə, vəhyə əsaslan idrakda əqidə və əməl mühüm yer tutur. O hesab edirdi ki, əqidənin əhatə dairəsi Allaha, Onun camal və calal sifətlərinə və işlərinə iman gətirməkdən ibarətdir; əməl isə insanın fərdi və ictimai həyatda buyruqlarından irəli gələn vəzifə və öhdəlikləri, dini öhdəlikləri yerinə yetirməsindən ibarətdir. Sübhani yazırdı: “İnsan öz əqidəsində elm və yəqinlik əldə etməlidir. Şübhəsiz ki, yalnız bu yolla hər hansı bir inanc insanın əqidəsinə çevrilə bilər. Məhz buna görə də hər bir müsəlmanın öz əqidəsində yəqinliyə yetişməsi vacibdir. Burada başqalarından təqlid edərək inanc qurmağa yol verilmir”. [1423]

---

[1421] Sübhani, Ustad Cəfər. İslamda əqidə əsasları. Bakı, “Qələm” nəşr., 2003, s.8
[1422] Yenə orada, s.9
[1423] Yenə orada, s.9

Sübhani yazırdı ki, dini əqidə və hökmlərin sübuta yetirilməsində əql ilə vəhy əsas vasitələr hesab olunur. O, yazırdı: "Əql ilə vəhy bir-birinin ilahi hökmlərin istinad mənbəyi olmasını təsdiqləyir. Əqlin qəti hökm ilə vəhyin istinad mənbəyi olduğunu isbat etdiyimiz kimi vəhy də öz növbəsində əqlin öz əhatə dairəsində bir istinad mənbəyi olduğunu sübuta yetirir. Qurani-Kərim bir çox hallarda əqlin mühakiməsini rəhbər tutaraq insanları yaradılış aləminin əsrarəngizliyi haqda düşünməyə çağırır və öz dəvətinin mahiyyətini sübuta yetirmək üçün əqlin yardımından istifadə edir. Hər bir səmavi kitab Quran qədər dəlillərə əsaslanan idrak və bilikləri, təfəkkür və düşüncəni qiymətləndirməmişdir. Quranda əqidə və idrakla bağlı gətirilən əqli dəlillərin sayı həddindən artıq çoxdur".[1424]

Onun fikrincə, vəhyin qəti bir dəlil, əqlin də Allahın hər birimizin daxilində yandırdığı bir işıq olduğundan bu ikisi arasında ziddiyyətin baş verməsi əsla mümkün deyildir. Sübhani yazırdı: "Əgər hər hansı bir məsələdə belə bir ziddiyyət nəzərə çarparsa, onda bilməliyik ki, ya dinin bu haqda irəli sürdüyü müddəanı olduğu kimi anlamamışıq, ya da əqli dəlillərimizin müqəddiməsində hansısa səhvə yol vermişik. Belə ki, hikmət sahibi olan Allah-təala heç zaman insanı bir-birinə zidd olan iki yola dəvət etməz. Əql ilə vəhy arasında həqiqi ziddiyyətin olması təsəvvür edilə bilmədiyi kimi, elm ilə vəhy arasında da əsla ziddiyyət yarana bilməz. Burada da belə bir ziddiyyət nəzərə çarparsa, yenə də bilməmiz gərəkdir ki, ya dinin bu haqda irəli sürdüyü müddəanı düzgün dərk etməmişik, ya da elm hələ qətilik mərhələsini çatmayıb. Əksər hallarda nəzərə çarpan ziddiyyətlər məhz ikinci səbəbdən irəli gəlir. Bəzən elmi fərziyyələri tələskənliyə yol verərək qəti elm kimi qələmə verirlər və bununla da sözü gedən ziddiyyətlər meydana gəlir".[1425]

Sübhaniyə görə, bizim şüur və təsəvvürmüzdən asılı olmayan obyektiv aləmə hakim olan qanunlar əbədi və dəyişməzdir. O, iddia edirdi ki, insan idrak vasitələrilə hər hansı bir gerçəkliyi həqiqət olaraq kəşf edərsə, onda o, həmişəlik olaraq haqq və sabit olacadır: "Lakin əgər insan gerçəkliyin bir tərəfini doğru, digər tərəfini isə yanlış anlamış olarsa, doğru anladığı tərəf daima həqiqət

[1424] Yenə orada, s.10
[1425] Yenə orada, s.11

olacaq və mühitin şəraitinin dəyişməsi ilə gerçəklik dəyişməyəcək. Başqa bir sözlə desək, dərk olunan bir şeyin müəyyən bir zamanda həqiqət və başqa bir zamanda yanlış olduğu mənasında həqiqətin nisbiliyi varlıq aləminin idrakında təsəvvür edilməzdir. Məsələn, əgər 2+2-nin cavabı dörddürsə, onda mütləq olaraq dörddür. Yox, əgər dörd deyilsə, onda mütləq olaraq dörd deyil. Yəni eyni idrak bir mərhələdə həqiqət və başqa mərhələdə yanlış ola bilməz”. [1426]

Ona görə, idrakda nisbiyyət yalnız insan şüuru ilə bağlı olan subyektiv gerçəkliklərdə təsəvvür edilə bilər. Sübhani iddia edirdi ki, ölkənin necə idarə olunmasında ilahi vəhydən ilham almayan, ilahi qanunlarla idarə olunmayan cəmiyyət hər hansı formada dövlət qurluşunu seçməkdə azad və ixtiyarlı hesab olunur: “Əgər bir gün hamı bu və ya başqa tipli quruluşa tərəfdar çıxarsa, onda bu məsələdə nə qədər ki, onlar arasında fikir birliyi mövcuddur, həmin quruluş həqiqət hesab ediləcək. Əgər bir gün başqa bir quruluşa tərəfdar çıxılarsa, onda artıq birinci quruluş deyil, ikinci quruluş həqiqət hesab ediləcəkdir. Eyni zamanda onların hər birinin dərki özünə görə həqiqət sayılacaqdır. Lakin insan şüurundan xaricdə olan obyektiv aləm müəyyən edilmiş hüdudlara malikdir və əgər onlar düzgün dərk edilərsə, əbədi olaraq doğru və sabit , onun əksi isə daima batil və əsassız olacaqdır”. [1427]

Sübhaninin idrak nəzəriyyəsi ilə bağlı diqqət yetirdiyi əsas məsələlərdən biri də insan gözündə Allahın təzahürü mübahisəsidir ki, o, “Allahın görülməsi” kitabında Quran, hədis və ağıl əsasında bu problemə aydınlıq gətirməyə çalışmışdır. İslam dini etiqadı çərçivəsində bu məsələ ilə bağlı öz baxışlarını əsaslandırmağa cəhd göstərən Sübhani, burada öncə etiqadın asanlığı,etiqadda qətiyyətli inam və hökmlərdə bəndəlik, İslam etiqadının əqli dəlillərə uyğunluğunu və digər məsələləri şərh etmişdir. [1428]

Daha sonra Allahın insan gözündə mənəvi, yoxsa fiziki anlamda görülməsi məsələsini fəlsəfə tarixi baxımından şərh edən Sübhani öncə Tövrat və İncildən bir sıra örnəklər vermişdi ki, həmin

[1426] Yenə orada, s.11-12
[1427] Yenə orada, s.12
[1428] Sübhani Cəfər. Allahın görülməsi (Quran, hədis və ağıl işığımda). Bakı, Ələm, 2015, s.5-15

örnəklərdə Allahı fiziki "gözlə görmə"nin mümkünlüyü ifadə olunur. Sübhani hesab edir ki, həmin dini kitablarda Allahı "gözlə görmə" fikri müsəlmanlara üzdə özlərini müsəlman göstərən xaxam və rahiblər tərəfindən sızdırılmışdır: "Sonralar bəzi müsəlman firqələri daha da irəli gedərək onu İslam inanclarının ayrılmaz tərkib hissəsinə çevirmiş, hətta bunu inkar edənləri kafir və ya fasiq hesab etmişlər. Bu inanc hicrətin ikinci və üçüncüəsrlərindəmüsəlmanlar arasında daha geniş vüsət alın genişləndiyi üçün bu mühitdə yetişmiş kəlam alimləri sözügedən inanca öncə qurandan, daha sonra isə sünnədən dəlil və sübutlar axtarmağa başladılar". [1429]

Sübhaniyə görə, beləliklə, etiqad və inanclar hədislər üzərində qurulduğu və hədislərdə Allahın qiyamət günü görülə biləcəyi fikri öz əksini tapdığı üçün bu konsepsiya İslam inanclarından hesab edilməyə başlamışdır. Hətta, İmam əl-Əşəri, İmam Əhməd Hənbəli, İmam Əbdül Həmid əl-Qəzali kimi məşhur mütəfəkkirlər də qiyamət günü, axirətdə Allahın adi gözlə görünməsinə inanmışlar. O, xüsusilə vurğulayır ki, burada əsas araşdırma mövzusu Allahı adi gözlə görmənin mümkün olub olmamasdır (yəni burada Allahın 6-cı hisslə və digər vasitələrlə insan gözündə görünməsinin mümkünlüyü araşdırılmır) və bununla da bağlı iki mövqe vardır: "Hənbəlilər və əşərilər görmənin mümkünlüyünə etiqad etdikləri halda, Əhli-beyt imamları (əleyhimussalam) və onlara tabe olan imamilər, mötəzililər və zeydilər bunun dünyada və axirətdə baş verə bilməsinin qeyri-mümkün olması inancındadırlar. Əməvi ailəsi və onlara rəğbəti olan həisçilər təcsim, təşbih, cəbr, Allah üçün cəhət təyin etmə və Allahın gprülməsi kimi inancları təbliğ edir, İmam Əli ibn Əbu Talib (əleyhissalam), onun pak övladları və şiləri isə tənzih və ixtiyarı təbliğ edərək yəhudilərdən gələn bu bidətləri çox kəskin şəkildə inkar edirlər. Ələvilər və əməvilər arasındakı bu fikri mübarizə nəticəsində iki istiqamət yaranmış və hər birinin də özünəməxsus şüarı olmuşdur. imam və Əhli-beyt şiələrinin əsas şüarı tənzih və ixtiyar, əməvi və ardıcıllarının əsas şüarı isə təşbih və cəbr olmuşdur". [1430] Sübhaniyə görə, yalnız ələvilər başda İmam Əli olmaqla, doğru olaraq Allahın

[1429] Yenə orada, s.30
[1430] Yenə orada, s.34-35

adi gözlə deyil də, ən yaxşı halda qəlbən mənəvi olaraq görülə bilməsini ortaya qoya bilmişlər.

O, yazırdı ki, Allahın cisim olmadığı halda adi gözlə görülməsini, yəni möminlərin Allahı cənnətdə qarşı-qarşıya durma, cəhət və məkan olmadan keyfiyyət hüdudlarından kənar görə bilməsini iddia etmək də yanlışdır. Sübhani yazır: "Qarşı-qarşıya durma, cəhət və məkan olmadan "görmək" arzusuna düşmək olmayan bir cisim üzərində başsız və quyruqsuz bir şir şəkli çəkmək həvəsinə düşməyə bənzəyir. əgər qarşı-qarşıya durma yoxdursa, görülən məkan və cəhət xaricindədirsə, o zaman gözlə görmək necə baş verə bilər? Əslində, əşərilərin hədisçilər tərəfindən ortaya atılmış "keyfiyyətdən kənar" görmə konsepsiyasına əsaslanması məzhəkədən başqa bir şey deyil. Belə ki, bəzən keyfiyət əşyanın ayrılmaz xüsusiyyətlərindən olur; əgər o olmasa, həmin əşya da mövcud olmur. Onlar "Allahın əli, ayağı, gözü, qulağı var" deyərkən bu sözlərin leksik məna ifadə etməklə yanaşı keyfiyyətsiz mövcud ola biləcəyinə də inanırlar. Əslində, "əl" sözünün leksik mənasının bədən üzvünü ifadə etməsi keyfiyyət prinsipinə əsaslanır. Deməli, Allahın leksik mənada başa düşülən "əl"ə sahib olduğunu deyib, eyni zamanda həmin əlin keyfiyyət çərçivəsindən kənar mövcud olduğunu iddia etmək bu sözün leksik mənasını inkar etmək deməkdir. Belə olan təqdirdə "əl" sözünün məcazi məna daşıdığını deməkdən başqa çıxış yolunuz qalmır".[1431] Ümumiyyətlə, Sübhani Qurandan gətirdiyi dəllilərlə də bu dünyada da, axirətdə də, Allahın adi gözlə görünə bilməsinin mümkünsüzlüyünü əsaslandırmağa çalışmışdır. O, buna örnək kimi "Gözlər onu dərk etməz (görməz)", "Onların elmi Onu əhatə edə bilməz", "Məni əsla görməyəcəksən" və digər ayələri göstərmişdir.

Sübhani daha sonra **varlıq problemini** İslam dini nəzər nöqtəsindən izah etməyə çalışmışdır. Onun fikrincə, Allahdan başqa mövcud olan bütün varlıq aləmi Allahın məxluqu olaraq bir an da olsun belə Ondan ehtiyacsız olmamışdır və olmayacaq da. O, iddia edirdi ki, kainat da Allahın iradəsi ilə yaradılmışdır, ancaq kainatla Allah arasında olan qarşılıqlı münasibəti ata və oğul arasında olan münasibət kimi deyildir. Sübhani yazırdı: "Kainatın mövcud

---

[1431] Yenə orada, s.49-50

quruluşu əbədi quruluş deyil. Yalnız Allaha məlum olan müəyyən bir müddətdən sonra kainatın mövcud quruluşu dağılacaq və başqa bir quruluş meydana gələcəkdir. O quruluş Allah-təalanın Quranda xəbər verdiyi Məad və ya Axirət dünyasıdır: "(Qiyamət günü) elə bir gündür ki, Yer (Yer kürəsi) başqa bir yerlə, göylər də başqa göylərlə əvəz olunacaq və bütün insanlar hər şeyə qalib olan tək Allahın hüzurunda duracaqlar!" (İbrahim-48). "Biz hamımız Allahınıq (Allahın bəndələriyik) və hamımız Ona tərəf qayıdacağıq" (Bəqərə-156) cümləsi də məhz bu həqiqətə işarədir".[1432]

Sübhaniyə görə, varlıq aləmi səbəb və nəticə qanununa əsaslanır: "Onun bütün predmet və hadisələri arasında determinizm əlaqəsi mövcuddur. Hər bir predmet və ya hadisənin digərinə təsiri Allahın iradə və iznilə şərtlənir, Onun müdrik iradəsi öz feyzinin, əksərən, səbəb və nəticə vasitəsilə gerçəkləşdirməsinə əsaslanır. Qurani-Kərim yuxarıdakı mətləblərin hər ikisni də qeyd etməkdədir: hadisələr arasında həm səbəb-nəticə əlaqəsi mövcuddur, həm də hər səbəbin bir təsiri Allah-təalanın izni və mütləq iradəsindən asılıdır". [1433] O, yazır ki, varlıq aləmi yalnız maddi təbiətdən ibarət deyil, yaradılışın bir hissəsini də qeyri-maddi (metafizik) aləm təşkil edir. Metafizik aləmin Quranda "qeyb aləmi" adlandırılmasına diqqət çəkən Sübhaniyə görə, maddi varlıqların Allahın iznilə bir-birinə təsir göstərdiyi kimi, qeyri-maddi varlıqlar da təbiət aləmində bir-birlərinə təsir göstərirlər. Deməli, maddi və qeyri-maddi varlıqlar Allahın iradəsi ilə səbəb-nəticə qanununa bağlıdırlar. O, yazır: "Yaradılış aləmi ümumilikdə Allah-təala tərəfindən doğru istiqamətə yönəlmişdir və onun hər bir zərrəsi özünəməxsus şəkildə Allahın hidayət nurundan faydalanmaqdadır. Bu ümumi hidayətin mərhələlərini təbii, meyli və (təkvini) hidayət təşkil edir".[1434]

Onun fikrincə, yaradılış aləmi ən kamil, ən gözəl quruluşa malik olub, ən yüksək tərzdə yaradılıb və bundan daha kamil bir quruluşu təsəvvür etmək mümkün deyildir. Sübhani yazır: "Allah-təala ən kamil və hər cür nöqsanlardan uzaq sifətlərə malik olduğundan, təbii ki, onun işi də ən kamil və ən gözəl iş olacaqdır.

---

[1432] Sübhani, Ustad Cəfər. İslamda əqidə əsasları. Bakı, "Qələm" nəşr., 2003, s.13
[1433] Yenə orada, s.13
[1434] Yenə orada, s.14

Bundan əlavə, Allah-təalanın hikmət sahibi olması belə bir zərurət doğurur ki, əgər daha gözəl bir aləm yaratma mümkün olsaydı, Allah ondan qeyrisini yaratmazdı”.[1435]

Beləliklə, Sübhaniyə görə varlıq aləmi mütləq həqiqət olan Allahın yaratdığı və işi olduğundan, haqq və hikmətlidir, əbəs və puçluq ona əsla yol tapa bilməz. Ona görə xaliqiyyətdə, yəni xəlq etməkdə tövhidlik də Allahın yeganə, həqiqi və müstəqil yaradan olması deməkdir.[1436]

Sübhani İslam fəlsəfəsi baxımından **insan problemi**ni də şərh etmiş, bununla bağlı müəyyən fikirlər irəli sürməyə çalışmışdır. Ona görə insan cism və ruhdan təşəkkül tapmış bir mövcudluqdur ki, ölümündən sonra cismi aradan gedir, ruhu isə öz həyatını davam etdirir. O, yazırdı: “İnsanın ölümü onun fəna və ya yox olması demək deyildir. insan öldükdən sonra ruh bədənindən ayırılır və Qiyamət gününədək bərzəx aləmində öz həyatını davam etdirir”.[1437] Bu fikrini Quran ayələri ilə əsaslandırmağa çalışan Sübhaniyə görə, Qiyamət gününə qədər bərzəx aləmində ruhi olaraq diri qalan insan, həmin gün gəldikdə də onu yaradan Allah qarşısında cavab verməli olacaqdır.

Sübhaniyə görə, ümumilikdə hər bir insan pak və təkallahlıq fitrətilə yaradılıb. Onun fikrincə, insan anadangəlmə fitrətilə öz həyatına davam etsə və xarici amillər də onu yolundan azdırmasa, mütləq haqq yoluna qovuşmuş olar. O, yazırdı: “Heç kim dünyaya günahkar gəlmir və  bütün çirkinliklər insanın özü tərəfindən xarici və ixtiyari amillərin nəticəsi olaraq qazanılır. İrsi olaraq insana keçən xoşagəlməz xüsusiyyətlər olsa belə o dərəcədə deyil ki, insanın iradə və istəyi sayəsində dəyişilməsin. Buna görə də müasir xristianlıqda mövcud olan Adəm övladlarının zatən günah sahibi olması (dünyaya günahkar kimi gəlməsi) fikrinin heç bir əsası yoxdur. Allah-təala Quranda bu haqda belə buyurur: “Batildən haqqa tapınaraq üzünü Alalhın fitri olaraq insanlara verdiyi dinə (İslama) tərəf tut” (Rum-

[1435] Yenə orada, s.15
[1436] Sübhani Cəfər. Əməli tövhid. Bakı, Bakı, Nurlar, 2010, s.15
[1437] Sübhani, Ustad Cəfər. İslamda əqidə əsasları. Bakı, “Qələm” nəşr., 2003, s.16

30). Sevimli Peyğəmbərimiz də bu xüsusda buyurmuşdur: "Dünyaya pak fitrətlə (tövhid və təkallahlıqla) gəlməyən insan yoxdur".[1438]

İnsanın iradi azadlığı məsələsinə gəlincə, Sübhaniyə görə insan ixtiyar və seçim sahibi olan bir varlıqdır. Onun fikrincə, insan öz əqli ilə bu və ya başqa əməlin müxtəlif tərəflərini tədqiq etdikdən sonra onu həyata keçirib-keçirməməyi şüurlu olaraq qərara alır. O, yazır: "İnsan pak və sağlam fitrətə və əql qüvvəsinə sahib olduğuna görə o, yaxşını pisdən ayırd etməyə, eləcə də bu və ya başqa şeyi seçməyə qadirdir. Bu üzdən o, tərbiyə almağa qadir olan elə bir məxluqdur ki, Allaha doğru inkişaf, yüksəliş və qayıdış yolu onun üzünə hər zaman açıqdır. Yalnız ölüm ayağında olduğu anda onun tövbəsi qəbul olmaz".[1439] Başqa sözlə, ona görə, insana Allah tərəfindən ixtiyar bəxş edildiyindən o, yalnız Allah deyil, peyğəmbərlər, insanlar və bəşəriyyət qarşısında məsuliyyət daşıyır.

Sübhaniyə görə bir insanın mənəvi kamilliyə sahib olmaqdan savayı, digər insanlar üzərində məziyyəti, üstünlüyü yoxdur. Onun fikrincə, mənəvi kamillik isə təqva və imanla bağlı olub İslam dinində irqi, coğrafi və digər xüsusiyyətlər üstünlük, iftixaq əlamətləri kimi qəbul olunmazdır. O, yazır: "İnsanlıq prinsipləri olan və fitri köklərə dayanan əxlaqi dəyərlər sabit və əbədi prinsiplərdir. Zamanın dəyişməsi və dünyada baş verən ictimai proseslər onun dəyişməsinə səbəb ola bilməz. Məsələn, əhdə vəfa etmək və ya yaxşılığa yaxşılıqla cavab verməyin gözəl bir iş olması əbədi xarakter daışyır və nə qədər ki, insanlıq mövcuddur bu əxlaqi qanunlar dəyişməyəcəkdir. Xəyanətin və vədə xilaf çıxmağın çirkin bir iş olması da eynilə belədir. Buna görə də əql nöqteyi-nəzərindən bəşəriyyətin ictimai həyatında insanın təbiətilə qaynayıb-qarışmış və daima sabit olan bir sıra prinsiplər mövcuddur. Bu əxlaqi prinsiplərlə yanaşı bir sıra adət-ənənələr də vardır ki, zaman və məkanın şəraitindən asılı olaraq təirlərə məruz qalıb bu və ya başqa səbəbdən dəyişir. Lakin bunların sabit və dəyişməz olan əxlaqi prinsiplərlə heç bir əlaqəsi yoxdur".[1440]

---

[1438] Yenə orada, s.16-17
[1439] Yenə orada, s.17
[1440] Yenə orada, s.19

Sübhaniyə görə, insan əməllərinə görə nəinki yalnız o dünyada mükafat və ya cəzasını alacaq, elə bu dünyanın özündə də yaxşı və pis işlərinin qarşılığını alacaqdır: "Həqiqətən də dünyada baş verən bir sıra hadisələr insan əməlinin əksül-əməlidir. Bu da bir həqiqətdir ki, vəhy onun üzərindən pərdəni götürmüş və bəşər elmi müəyyən qədər ondan xəbərdar olmuşdur". [1441]O, daha sonra yazırdı: "Ümmətlərin inkişaf və geriliyi, bəzi xarici amillər istisna olmaqla, əsasən onların əqidə, əxlaq və davranışlarından irəli gələn hallardır. Bu məsələnin Allahın qəza və qədərilə heç bir ziddiyyət yoxdur. Belə ki, elə bu qayda-qanunun özü Allah-təalanın külli təqdirinin təzahürlərindəndir. Yəni Allah-təalanın külli istəyi bundan ibarətdir ki, ümmətlər öz əqidə və davranışları vasitəsilə öz talelərini müəyyənləşdirsinlər. Məsələn, öz ictimai münasibətlərini ədalət və doğruluq əsasında quran cəmiyyət gözəl və asudə yaşayışa sahib olacaq və öz ictimai münasibətlərini buna əks tərzdə quran bir ümməti isə xoşagəlməz aqibət gözləyəcək". [1442]

Sübhani yazırdı ki, bəşər həyatı əksər hallarda bərabərsizlik və aramsızlıqla keçsə də, bu hal axıradək davam etməyəcək və aydın bir gələcək olacaqdır. Onun iddiasınca, bəşər tarixi elə bir aydın gələcəyə doğru hərəkətdədir ki, ona mütləq ədalət hakim olacaqdır; yer üzərində saleh şəxslər hökmranlıq edəcəkdir. Başqa sözlə, gələcəkdə, nə qədər gec də olsa, haqq ilə batil arasında davam edən mübarizə nəhayət, haqqın həlledici qələbəsilə sona çatacaqdır. [1443] O, diqqətə çatdırır ki, Quran baxımından insan xüsusi kəramətə sahib olduğu üçün mələklər belə ona səcdə etmişlər. Bu baxımdan insan həmin kəramətin, izzətin, o cümlədən də şüurlu varlıq olmanın dəyərini anlamalı, öz nəfsinə hakim olmalı, nə zülmkarlıq etməli, nə də zülmkarlara baş əyməlidir. O, yazırdı: "İnsanın şüurlu həyatı İslam nəzərindən xüsusi əhəmiyyətə malikdir. Belə ki, insanın heyvanlardan üstünlüyü və bu üstünlüyün meyarı onda olan şüur, təfəkkür qüvvəsi və ağıl gücüdür. Bu üzdən Qurani-Kərimin bir çox ayələri insanları fikirləşib düşünməyə dəvət etmişdir. Quran yaradılış aləmi haqda düşünüb daşınmağı ağıl sahiblərinin xüsusiyyətləri

[1441] Yenə orada, s.20
[1442] Yenə orada, s.20
[1443] Yenə orada, s.21

kimi vəsf etməkdədir. Rəbbimiz buyurur: "Həqiqətən, göylərin və yerin yaradılması, gecə ilə gündüzün bir-birini əvəz etməsi ağıl sahibləri üçün qəti dəlillərdir" (Ali-İmran-90)". [1444]

Sübhani İslam dini baxımdan şərh etməyə çalışdığı insan problemi ilə bağlı gəldiyi qənaətə görə, islamlıqda tələb olunan və nəzərdə tutulan dini şüur qəlbin iman gətirib inanmasıdır və burada məcburiyyət yoxdur. O, yazırdı: "Hər şeydən öncə insan üçün haqq ilə batil aydınlaşmalıdır. Əgər bu məsələ öz həllini taparsa, onda təbii ki, insan haqqı seçər. Doğrudur ki, "cihad" hökmü İslamın vacib buyurduğu əməllərdən biridir, lakin onun mənası başqlarına zorla dini qəbul etdirmək deyildir. bu işdən məqsəd doğruluğu üzə çıxarmaq üçün bəşəriyyətə ilahi xəbərin çatdırılması yolunda olan maneələrə aradan qaldırmaqdır. Belə ki, zər və zor işlədən qüvvələr öz maddi və şeytani meyilləri üzündən bəşəriyyətə azadlığı bəxş edən dinin dünyada yaşayan bütün insanlara çatdırtılmasına mane olur, onun qarşıını almağa çalışırlar. Bunun müqabilində peyğəmbərlik missiyasının hikməti bunu tələb edir ki, cihad edənlər qarşısında olan bütün maneələri aradan qaldırmaqla haqq xəbərinin insanlara çatdırılması üçün şərait yaratsınlar". [1445]

Sübhani həmmüəllifi olduğu "İki surə: Örnək Maarifçi, Örnək İnsan" kitabında da Qurana istinadən insan problemindən bəhs etmişdir. Quranda insan üçün üç sifətin: 1) namazlarını dosdoğru qılanlar, 2) Zəkat verənlər, 3) Axirətə qəti olaraq inananlar, mühümlüyindən bəhs edən Sübhaniyə görə, axirət gününə iman, dini tərbiyənin təməli və bütün səmavi qanunların icra zəmanətvericisidir: "İhsan sahiblərinin sifətləri bu üç sifətlə məhdudlaşmır. Bütün sifətlər arasından ən üstün sifətlər seçilərək bəhs edilmişdir. Yəni kimdə bu üç sifət varsa əslində ihsan sahiblərinin bütün sifətlərinə sahibdir".[1446]

Ona görə, son əsrlərdə insanı insanlıqdan çıxaran müxtəlif əyləncələr, o cümlədən filimlər, musiqilər olmuşdur. O, yazırdı: "Əyləncə və əyyaşlıq məclislərinə uyğun olan hər cür musiqi və

---

[1444] Yenə orada, s.22-23

[1445] Yenə orada, s.24

[1446] Subhani, Üstad Cafer. İki Sure: Örnek Egitmen, Örnek İnsan. İstanbul, el-Mustafa yayınları, 2014, s.20

nəğmə, insanı haqq və həqiqətdən uzaqlaşdıran bir lehv olması nədəniylə haramdır. Quran ayətinin, hədisin və ya maarifçi bir şeirin belə bir musiqi müşayiəti ilə oxunduğunu fərz etsək dəxi haramdır". [1447] Onun fikrincə, xüsusilə musiqi həm bədənə və sinir sisteminə, həm də əxlaqa böyük zərərlər verir: "Əxlaqi düşüşün nədənlərindən birinin də bu nəğmə və mahnıların olduğu mübahisəsiz bir mövzudur. Əcaba musiqinin aldadıcı və təhrikedici melodiləri və sözləri fəsadın və iffətə zidd işlərin yayğınlaşmasına dəstək deyilmidir? Əcaba qadın və qızların musiqinin şəhvət oyandırıcı melodiləriylə birlikdə söyləmiş olduqları nəğmələr gənclərin ruhunda şəhvət duyğularını yaratmırımı? Şəhvət oyandırıcı nəğmələr və eşq mahnılarıyla dolan bir qəlbdə Allahı anmaq üçün yer qalırmı? Eşq melodiləri və musiqi dalğalarının içində boğulmuş olan bir qəlb, düşkünləri və çarəsizləri düşünə bilərmi?". [1448]

Beləliklə, Sübhaninin dünyagörüşündə dini-fəlsəfi, ictimai-siyasi, o cümlədən Qərb mədəniyyəti, İslam mədəniyyəti, islam şiəçiliyi, islam tarixi və digər məsələlər mühüm yer tutmuşdur. Onun dini-fəlsəfi görüşlərində başlıca məsələlər islam dininin tarixi, onun fəlsəfi mahiyyəti və digər probelmlərdir. Sübhani ilk növbədə, İslam dinin yaranması və inkişafı tarixini şərh etməyə çalışmış, bu zaman onun daxilində yaranan və zaman-zaman daha qabarıq şəkildə ortaya çıxan sünni-şiə məsələsinə aydınlıq gətirməyə çalışmışdır. Biz burada görürük ki, o, daha çox islam şiəçiliyinin İslam tarixində və ümumilikdə islamlıqda doğru yol tutmasını ifadə etmişdir. Əlbəttə, Sübhani bu məsələlərdə müəyyən qədər haqlı olmaqla yanaşı, ancaq bütövlükdə islamlıqda sünni hüquqi məktəblərin və onun tanınmış nümayəndələrinin əməyini də kölgədə buraxmaq mümkün deyildir. Eyni zamanda, İslam dinin tarixini, onun əqidə əsaslarını yalnız islam şiəçiliyi kimi görmək də doğru bir şey olmazdı.

Ümumilikdə, Sübhaninin İslam dini baxımdan insan və dünya məsələlərinə yanaşmalarında əsasən, qeyri-adi bir şey yoxdur. Yəni o, mümkün olduğu qədər İslam dininin (Qurani-Kərimin və hədislərin) mahiyyətinə uyğun olaraq bu məsələləri şərh etmişdir.

---

[1447] Yenə orada, s.24
[1448] Yenə orada, s.27

Sadəcə, o da bir çox islam şiəçiliyinə bağlı mütəfəkkirlər kimi, bütün dəyərləndirmələrində cəfəriliyin nüvəsindən çıxış etmişdir.

Sübhaninin Qərb mədəniyyətini, Qərb həyat tərzini tənqidi və buna paralel olaraq islamlıq fəlsəfəsinə əsaslanan mülahizlər yürütməsi məsələsinə gəlincə, burada da o, əsasən yaşadığı dini və siyasi mühitdən qüvvət almışdır. Bu anlamda onun hətta, Azərbaycan Respublukasının dünyəvi həyatındakı məsələlərə baxışlarında bəzi ifrat təəssübkeşliyini başa düşmık çətin deyil. Bizcə də, Azərbaycan Respublikasının dünyəvi, tolerant siyasət yürütməsindən sui-istifadə edərək, bəzi hallarda Qərb mədəniyyətini, Qərb həyat tərzini ifrat şəkildə təqlid etmək doğru deyildir. Şübhəsiz, Azərbaycan xalqının həyat tərzində milli və dini adət-ənənələrin qorunub yaşadılması bizlər üçün vacib prinsiplərdən biridir. Ancaq Azərbaycan dünyəvi və sekulyar bir dövlət olduğu üçün insan hüquq və haqları məsələsində də öz həsaslığını ortaya qoyur. Ancaq bütün hallarda insan hüquq və haqları məsələsində həddən artıq ifrat mühafizəkarlıq kimi, ifrat yenlikçiliyin, radikal qərbçiliyin də doğru olmadığı hər kəsə aydın bir məsələdir.

# NƏTİCƏ

XX əsrdə yaşamış Güney Azərbaycan Türk mütəfəkkirlərinin fəlsəfi və ictimai fikir tarixində yeri çox əhəmiyyətlidir. Bizcə, üç istiqamətdə, yəni milli demokratik, milli maarifçilik və islamçılıq yönlərində özünü ortaya qoymuş fəlsəfi və ictimai fikir tariximizin universallığı, özünəməxsusluğu danılmazdır. Doğrudur, milli demokratik istiqamət ilk dövrlərdə daha çox sosial-demokratizmə, müəyyən qədər də Sovet Rusiyasından qaynaqlanan marksizm-leninizmlə bağlı olmuşdur. Ancaq zaman zaman rus bolşevizminin mahiyyətini daha dərindən anlayan azərbaycanlı-türk sosial-demokratlar mərkəzçiliyə və bir qədər də irəli gedərək sağ mərkəzçiliyə doğru yön almış və milli demokratiyanın təmsilçisi olmuşlar. Bu anlamda demokratların, ya da milli demokratların fəlsəfi, ictimai-siyasi düşüncələri yalnız sosial-demokratizm ilə məhdudlaşmamış və milli xüsusiyyətlər də ön plana çıxmışdır.

Hər halda başda Şeyx Məhəmməd Xiyabani, Mirzə Tağıxan Rüfət, Tağı Ərani, Seyid Cəfər Pişəvəri, Firudin İbrahimi, Əlirza Nabdil, Məhəmməd Biriya və başqaları olmaqla, bir çox mütəfəkkirlərimizin mədəni-fəlsəfi və ictimai-siyasi irsini dar, məhdud şəkildə dəyərləndirmək doğru deyildir. Əlbəttə, həmin dövrün şərtləri altında yazıb yaratmış mütəfəkkirlərimiz, dövlət xadimlərimiz arasında bəziləri marksizmin təsiri altında olmuş, Sovet Rusiyasının siyasi-ideoloji təzyiqlərinə məruz qalmış və bundan dolayı ziddiyyətli tərəfləri olmuşdur. Ancaq həmin dövrün mühitinə və mənzərəsinə ümumilikdə yanaşdıqda görürük ki, sosial-demokratizm əqidəsinə bağlı olan və olmayan milli-demokratların əsas qayəsi Azərbaycan xalqının milli-mədəni və siyasi-iqtisadi varlığını ortaya qoymaq olmuşdur.

Xüsusilə də, Xiyabani və Pişəvərinin başçılıq etdiyi Milli hərəkatların təməlində müstəqil Azərbaycanın varlığı ilə yanaşı, ümumiyyətlə bölgə xalqlarının ədalətli, demokratik və bərabər şəkildə yaşamasının idealları ifadə olunmuşdur. Məsələn, Pişəvərinin dünyagörüşünün əsasında, məhz milli xusiyyətlərə əsaslanan, ancaq məsuliyyətli azad bir cəmiyyətin təşəkkülü idi. Artıq bu cəmiyyət yalnız marksizm təliminin prinsiplərini deyil, digər demokratik

ideyaları da özündə əks etdirməli idi. Əslində Pişəvəri Xiyabaninin başlatdığı milli və azad Azərbaycan ideyasını bir qədər də irəli aparmaq istəmiş, bunu ayrı-ayrı fərdlərin mübarizəsindən bir toplumun mübarizəsi olaraq genişləndirməyə çalışmışdır. Ancaq bütün hallarda Xiyabaninin fəlsəfəçiliyi Pişəvəridən bir addım öndə olmuş, dərinliyi ilə seçilmişdi. Hər halda Xiyabani bir cəmiyyətin və onun fərdlərinin hansı səbəblərə görə azad yaşaması qədər, bu azadlığın sərhədlərini və məsuliyyətini də fəlsəfi cəhətdən daha dərindən əsaslandıra bilirdi. Bu məsələni, özü də etiraf edən Pişəvəri bildirmişdir ki, sadəcə Xiyabaninin dövründə onu anlayan kifayət qədər tərəfdarları olmamışdır.

Milli maarifçilikdən çıxış edən aydınlarımızın (Səhənd, H.Nitqi, Şəhriyar, S.Behrəngi, C.Heyət və b.) fəlsəfi və ictimai-mədəni irsinə gəlincə, bütün hallarda Azərbaycan Türk fəlsəfə və ictimai fikir tarixi baxımından əvəzsiz olması inkar olunmazdır. Milli maarifçilərin başlıca amalı və məqsədi Türk mədəniyyətini, Türk tarixini, Türk adət-ənənələrini, Türk dilini bir sözlə, Türk varlığını qorumaq, mühafizə etmək və inkişaf etdirmək olmuşdur. Bu baxımdan milli maarifçilərin dünyagörüşlərində Azərbaycan xalqının azad, hürr yaşaması ilə yanaşı, Türk varlığına sahib çıxmaq və onu hər daim müdafiə etmək əsas yeri tutmuşdur. Bizcə, milli maarifçiləri milli demokratlardan fərqləndirən əsas faktor da, onların Türk varlığını müdafiə etmələri və türklüyə, Türk dünyagörüşünə daha çox əsaslanmaları olmuşdur.

Hər halda bu bir sirr deyil ki, milli sosial-demokratlar, ya da milli demokratların bir qismi (Xiyabani, Pişəvəri, İbrahimi və b.) öz yaradıcılıqlarında və mücadilələrində Türk varlığına, Türk dünyagörüşündən çox, Azərbaycanlı kimliyinə, Azərbaycan varlığına əsaslanmışlar. Dəfələrlə qeyd etdiyimiz kimi, buna əsas səbəb milli demokratların sosial-demokrat, ya da marksizm təliminin çox təsiri altına düşmələri olmuşdur. Əlbəttə, bəzi hallarda da milli demokratlar Sovet Rusiyasının təzyiqi altında məcburən Türk varlığı, Türk dünyagörüşü ilə məsafəli olmağa çalışmışlar.

Bütün hallarda burada gördüyümüz əsas məsələ odur ki, uzun müddət Azərbaycan xalqının qabaqcıl mütəfəkkirlərinin bir çoxu Milli hərəkatın qalib gəlməsi üçün sosial-demokratizmə və demo-

kratizmə böyük ümidlər bəsləmişlər. Şübhəsiz, Güney Azərbaycan Türk mütəfəkkirlərinin xeyli bir qisminin sosial-demokratizm və demokratizm əqidələrinə meyil göstərmələrində, ya da inanmalarında Quzey Azərbaycanın Sovet Rusiyasının tərkibində olması da öz təsirini göstərmişdir. Hər halda Quzey Azərbaycanda mövcud olan sosializm sistemi, üsətlik güneyli ziyalılardan bir qisiminin ömürlərinin son dövrlərini məhz burada yaşaması da bu məsələlərdə xeyli dərəcədə önəmli əhəmiyyət daşımışdır.

Ancaq zamanla həm sosial-demokratizm və demokratizmlə hərtərfəli tanışlıq, həm də Sovet Rusiyasının, ya da rus bolşevizminin əsil mahiyyətinin aşkara çıxması ilə Azərbaycan Türk mütəfəkkirlərinin xeyli qismi xüsusilə də, marksizmdən uzaqlaşmış və 1960-cı illərdən etibarən başlayan "İslam hərəkatı"na və digər ideyalara ümidlər bəsləməyə başlamışdır.

Milli maarifçilərin əksəriyyəti isə (onlardan bəziləri demokratizm, sosial-demokratizm təlimlərinə meyil göstəriblər) türklük, Türk mədəniyyəti, Türk dili kimi önəmli məsələlərdə hər zaman öz mövqelərini ifadə ediblər. Bu baxımdan milli maarifçilərin yaradıcılıqlarında Türk nüvəli fəlsəfi və ictimai baxışlar daha çox özünü büruzə vermişdir. Başqa sözlə, milli maarifçilərimiz həmin dövrün dini, ictimai-siyasi məsələlərinə öz mövqelərini ifadə etməklə yanaşı, Azərbaycan xalqının, Azərbaycan türklərinin adət-ənənələrini, dəyərlərini də ifadə etməyə çalışmışlar.

Milli maarifçilərin yaradıclıqlarında İslama, islamlığa münasibət də mühüm yer tutmuş, onların əksəriyyəti türklüklə islamlıq arasında uzlaşdırıcı mövqe ortaya qoymağa çalışmışlar. Bizcə, bu məsələdə əsasən uğurlu bir yol izləyən milli maarifçilər islamlığın düzgün anlaşılması ilə yanaşı, İslam dinində millətlərə verilən haqq və azadlıqların təmin olunmasının vacibliyindən də bəhs etmişlər. Milli maarifçilər göstərməyə çalışırdılar ki, islamlığa görə bütün müsəlmanların qardaş olması prinsipi ilə yanaşı, hər bir müsəlman xalqının öz dilini, mədəniyyətini azad şəkildə ifadə etmək haqqı vardır. Bu baxımdan milli maarifçilər "İslam inqilabı"na böyük ümidlər bəsləmiş, İran Pəhləvilər rejimi ilə müqayisədə yeni quruluşun, özü də Qurani-Kərimə əsaslanan "İran İslam" rejiminin bu ölkədəki xalqlara münasibətdə haqq və ədalətdən çıxış

edəcəklərinə inanmışdılar. Ancaq sözdə İslam dininə əsaslanan İran İslam rejiminin aryançılıq-farsçılıq ideolojisindən əl çəkməyərək burada yaşayan xalqlara, xüsusilə də Azərbaycan türklərinə qarşı irqçi, şovinist siyasəti davam etdirməsi ortaya çıxdıqdan sonra milli maarifçilər İran Pəhləviləri dönəmində olduğu kimi, türklük və insanlıq ideyalarını müdafiə etməkdən başqa bir yol görmədilər.

Ümumiyyətlə, milli maarifçilərmizin Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixində mühüm yer tutmqla yanaşı, yeni nəslin milli ruhda formalaşamasıında əvəzsiz rol oynamışlar.

Milli demokratlar, milli maarifçilərlə yanaşı, 20-ci əsr Güney Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixində mühüm rol oynayanlar arasında azərbaycanlı-türk kökənli islamçı alimlər də olmuşlar. Burada öncədən qeyd etməyi vacib bilirik ki, sosial-demokratiya cərəyanına tapınan azərbaycanlı-türk demokratların əksəriyyəti kimi, İslam dininə tapınan azərbaycanlı-türk islamçıların da çoxu inandıqları əqidə əsasında özlərini daha çox ifadə etmişlər. Başqa sözlə, sosial-demokratiya, demokratiya ideyalarına tapınanlar inandıqları əqidəyə əsaslanaraq (sinfi bərabərlik, bütün məzlumlar qardaşdırlar, insan haqq və hüquqları və s.) Türk kimliyini, Türk varlığını ya tamamilə, ya da əsasən arxa plana keçirdikləri kimi, İslam dininə tapınan islamçılar inandıqları Qurani-Kərimin mahiyyətinə uyğun olaraq (bütün müsəlmanlar qardaşdırlar, ümmətçilik və s.) eyni qayda da, əsasən Türklük məsələsini önə çəkməmişlər. Bütün məsələlərə (ictimai-siyasi, fəlsəfi, iqtisadi vəs.) əsasən İslam dini, ya da islam şiəçiliyi prinsipləri çərçivəsində yanaşmış, hətta dövlətçiliyin mahiyyəti və idarə olunmasında da, məhz Qurani-Kərimin və hədislərin əsas götürülməsinin vacibliyindən bəhs etmişlər.

Azərbaycanlı-türk kökənli islamçılar hər nə qədər bütün həyati məsələlərdə Quran və hədislərin əsas götürülməsini müdafiə edib, irqçiliyə, şovinizmə qarşı olsalar da, ancaq istər İran Pəhləvilər, istərsə də İran İslam rejimi dövrlərində Aryançılığın təhdid və təqibləri ilə üz-üzə qalmışlar. Məsələn, Səfəvilər, Əfşarlar, Qacarların idarə etdiyi Türk hakimiyyətləri dövründə heç bir dil, irqi, milli və digər bir ayrı-seçkilik olmadığı halda, İran Pəhləvilər və İran İslam rejimlərində bunun tam əksi olmuşdur.

Ümumiyyətlə, XX əsrdə yaşamış tanınmış azərbaycanlı-türk kökənli islamçıların, din alimlərinin (M.Təbətabai, Əl-Xoyi, Əli Meşkini, Məhəmmədtağı Cəfəri, Cəfər Sübhani və b.) dünyagörüşlərində ilk yeri Qurani-Kərim və hədislərə əsaslanmaq (islam şiəçiliyi yönündə), ikinci yeri isə irançılıq ideolojisi tutmuşdur. Azərbaycanlı-türk kökənli islamçıların, din alimlərinin islamçılığa, ya da islam şiəçiliyinə bağlılığı başa düşülən olsa da, ancaq eyni şey irançılıqla bağlı demək mümkün deyildir. Çünki islamçılıq daha çox dini birliyi, haradasa ümmətçiliyi ifadə etdiyi halda, irançılıq isə açıq-aşkar şəkildə farsçılığa, fars millətçiliyinə əsaslanmaqdadır. Doğrudur, irançılıq ideolojisini müdafiə edənlər mümkün olduğu qədər buradakı farsçılığı, fars millətçiliyini, aryançılıq ideallarını ümumvətən, ümumdövlət, iranlı kimliyi ilə pərdələməyə çalışırlar. Ancaq bir şey həqiqətdir ki, farsların iranlılığa, vətənçiliyə, dövlətçiliyə baxışları ilə, türklərin, o cümlədən Azərbaycan türklərinin baxışları xeyli dərəcədə fərqlidir. Bizcə, bu gün İran adlanan ölkədə türklərlə farsları, ya da farsdillilləri bir arada tutan da artıq ümumvətən, ümumdövlət, iranlı kimliyi kimi anlayışlar deyil. Bu kimi anlayışlar öz əhəmiyyətini əsasən Pəhləvilər rejimi dövründə itirmişdir.

Bizcə, farslarla, farsdililərlə türkləri bir arada tutan, hələ də öz əhəmiyyətini qoruyub saxlayan İslam dini, xüsusilə də şiəlikdir (əslində aryançılıq məsələsi ortaya çıxana qədər də bu amil ön sırada olmuşdur). Halbuki xüsusilə, son əsrdə farslarla türklər arasında islamlığa və şiə məzhəbinə münasibətdə də müəyyən fərqlər meydana çıxmışdır. Buna səbəb də, İran adlanan ölkədə Türk hakimyyətinə son verilib, onun yerini əvvəlcə aryançı Pəhləvilərin, daha sonra da aryançı Mollaların tutmasıdır. Əgər Türk hakimiyyətlərində dini birlik (islam dini, ya da konkret islam şiəçiliyi olsun) məsələsində əsasən, kənara çıxmalara az-az hallarda yol verilirdisə, yaxud da dindən bir xalqın digər xalq üzərində istismarı yox dərəcəsində isə, aryançılığın ortaya çıxması ilə ciddi dəyişkliklər baş vermişdir.

Belə ki, şiəlik qılığına bürünmüş fars millətçiləri, aryançılar Türk hakimiyyəti üzərində güclərini ortaya qoyduqdan, hətta tamamilə həyata keçirdikdən sonra bir tərəfdən islam şiəçiliyini məcusiləşdirməyi sürətləndirmiş, digər tərəfdən isə onu türklərə qarşı istifadə etməyə çalışmışlar. Başqa sözlə, fars, farsdilli din alimləri

Qacarlar dövlətinin tənəzzülü və İran Pəhələvilər dönəmində bir tərəfdən islam şiəçiliyini məcusiləşdirmək, zərdüştiləşdirmək yolunu tutmaqla, onun mahiyyətini xeyli dərəcədə dəyişdirməyə cəhd göstərmiş, digər tərəfdən irançılıq adı altında da Türk dövlətçiliyini farslaşdırmağa çalışmışlar. Beləliklə, "İslam inqilabı"na qədər aryançılar din və dövlət məsələlərində paralel olaraq şiəçilik pərdəsində milli fars dinini, irançılıq adı altında milli fars dövlətini bərqərar etməyə çalışmışlar. Ancaq Pəhləvilərin tənəzzülünə qədər ön planda daha çox aryançılığa əsaslanan irançılıq olmuşdur. Qeyd etmək lazımdır ki, həmin müddətdə aryançıların və hamilərinin apardığı siyasətin tələsinə düşüb farslardan az olmayaraq, aryançılığı müdafiə edən azərbaycanlı-türk kökənli ziyalılar da olmuşdur.

Pəhləvilərin çöküşü ərəfəsində isə irançılığı ikinci plana salaraq, bu dəfə şiəçiliyiin müdafiəçisinə çevrilən aryançıların əsas məqsədi nə olursa-olsun, hakimiyyəti türk düşüncəli demokratlara, türk ziyalılarına vermədikləri kimi, türk ruhlu din alimlərinə də vermədilər. Bu baxımdan dünənki məcusi, zərdüşti, avropamərkəzçi ruhlu aryançılar birdən-birə islam şiəçiliyinin qatı tərəfdarına çevrildilər. Başqa sözlə, aryançılar Həzrət Əlinin, Həzrət Hüseynin və digər imamların hər daim səmimi tərəfdarı və təbliğatçısı olmuş azərbaycanlı-türk kökənli din alimlərini belə təəssübkeşlikdə çox-çox geridə buraxdılar. Halbuki aryançıların islam şiəçiliyi təəssübkeşliyinin arxasında hər zaman olduğundan da artıq, "İslam inqilabı" ərəfəsində və inqilabdan sonrakı dönəmdə də irqçilik, radikal millətçilik duyğuları dayanmışdı. Sadəcə olaraq İran Pəhləviləri dövrünə qədər əsas üstünlüyü aryançılığa verərək hətta, islamçılıqla mücadilə halında olan irançılar "İslam inqilabı"ndan sonra önə islam şiəçiliyini keçirməklə yanaşı irançılıqla islamçılıq arasında sintezə də baş vurdular.

Çox təəssüf ki, azərbaycanlı-türk kökənli ayətullahlar, əllamələrdən çoxu hələ də, bu həqiqətləri ya görmürlər, ya da görmək istəmirlər. Hər halda azərbaycanlı-türk kökənli din alimlərindən bəziləri aryançılığın, fars şovinizminin ortaya qoyduğu antitürk, antiazərbaycan əhval-ruhiyyəsinə qarşı çıxmaq, türklüyün burada aşağılanmasına yol verməmək əvəzinə, ya İran İslam rejiminin bu

cür qeyri-insani addımlarına haqq qazandırmaq yolunu tuturlar, ya da bütün bunlara göz yumurlar.

Beləliklə, onu deyə bilərik ki, milli demokratlar, milli maarifçilər və islamçılar XX əsrdə yalnız Güney Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixində deyil, bütövlükdə bölgənin mədəni-fəlsəfi və ictimai mühitində mühüm oynamışlar. Ümumiyyətlə, bu bölgənin istər fəlsəfi-mədəni, istərsə də ictimai-siyasi mühitinin şəkillənməsində əvvəllər olduğu kimi, son əsrdə də və hazırda da Azərbaycan Türk mütəfəkkirləri mühüm rol oynamaqdadırlar. Bu da ondan irəli gəlir ki, bu bölgədə Türk varlığının neçə minillikdən gələn tarixi bir damğası vardır. Ona görə də zaman zaman ictimai-siyasi, dini-fəlsəfi mühitdə hər hansı dəyişikliklərin, sıçrayışların olması Türk varlığını, Türk damğasını aradan qaldıra bilməmişdir və bilməyəcək də.

Biz, kitabımızın üçüncü bölümündə Güney Azərbaycan Türk mütəfəkkirlərinin yalnız yaradıcılıqlarını və dünyagörüşlərini deyil, eyni zamanda onların daima dəyişən rejionun və dünyanın elmi mühitində necə əhəmiyyətli yer tutduğunu da ifadə etmək istəmişik. Zərrə qədər də olsun şübhə etmirik ki, yeni nəsil Türk aydınları da sələfləri kimi, hər hansı cərəyanlara və ideyalara tapınmalarından asılı olmayaraq, əsas Türk çəyirdəyindən, Türk nüvəsindən, Türk dünyagörüşündən heç bir zaman uzaqlaşmayacaqlar. Bu baxımdan tədqiq etdiyimiz dövrdə yaşayıb yaratmış Azərbaycan Türk mütəfəkkirlərinin mədən-fəlsəfi irsi hər birimiz üçün çox önəmlidir.

**FAİQ ƏLƏKBƏRLİ**

# AZƏRBAYCAN TÜRK FƏLSƏFİ VƏ İCTİMAİ FİKİR TARİXİ (XIX-XX ƏSRLƏR)

## III HISSƏ

***«Elm və təhsil»* nəşriyyatının direktoru:**
***professor* Nadir MƏMMƏDLİ**

**Üz qabığının dizayneri: Zahid Məmmədov**
**Tekniki redaktor: Rövşanə Nizamiqızı**

Çapa imzalanmış **31.01.2021**
Şərti çap vərəqi **43.** Sifariş **№ 137**
Kağız formatı **60x84 1/16.** Tiraj **300**

*Kitab **«Elm və təhsil»** nəşriyyat-poliqrafiya müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.*
***E-mail: nurlan1959@gmail.com***
*Тел: 497-16-32; 050-311-41-89*
*Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.*